AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI
NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU
FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## III kitab

## (GÖYÇƏ FOLKLORU)

BAKI – 1999

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Az
A-39

Azərbaycan Respublikası EA
Nizami adına Ədəbiyyat İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur.

TOPLAyANI, TƏRTİB EDƏNİ
VƏ ÖN SÖZÜN MÜƏLLİFİ: HÜSEYN İSMAYILOV

REDAKTORU: F.e.d., prof. Yaşar QARAYEV

RƏ'yÇİLƏR: f.e.d., prof. Mürsəl HƏKİMOV;
f.e.d., prof. Qara NAMAZOV;
f.e.n. Oruc ƏLİYEV.

NƏŞRİNƏ MƏS'UL: f.e.n. Əziz ƏLƏKBƏRLİ

Azərbaycan folkloru antologiyası, III kitab, (Göyçə folkloru), Bakı, "Səda" nəşriyyatı, 1999.

Nizami adına Ədəbiyyat İnstitutunun nəşr etdirdiyi "Azərbaycan folkloru antologiyası" silsiləsindən bu dəfəki cilddə Azərbaycanın, eləcə də bütün Türk dünya- sının ən möhtəşəm söz-sənət mə'bədgahlarından olan qədim Göyçə mahalının zəngin və təkrarsız folklor inciləri toplanmışdır.

ISBN-586874-138-2

©"Səda" nəşriyyatı



## GÖYÇƏYƏ QAYIDAN YOL FOLKLORDAN KEÇİR...

***Türk folklor stixiyasından görünən qövmi kültür, etnik məkan və tarixi mənşə ponoramı rəsmi, elitar elmi çərçivədən xeyli geniş ərazi və təqvim hüdudlarını əhatə edir. O cümlədən, Azərbaycanın da folklor atlası onun inzibati-siyasi xəritəsindən xeyli böyükdür, poeziyası coğrafiyasından geniş və əhatəlidir. Təkcə ozan Qorqudun qopuz çaldığı və qoç Koroğlunun at oynatdığı mağar və meydan bütövlükdə türkün coğrafiyası boydadır. Lakin, hətta bu coğrafiyaya da qopuzun və sazın səsini, cənginin və rəcəzin sədasını yayan seysmik mərkəz, enerji nüvəsi dəqiq mənzildən, konkret ünvandan məhrum deyildir. "Azərbaycan folkloru" adlanan mə'nəvi kosmosu zirvədə saxlayan təməl sütun Qafqazda – Göyçədir.***

***Doğrudur, vaxtilə bir bütün olan milli-inzibati ərazimizdən tarixi folklor bölgələri əsrlər boyu tez-tez qopub-düşüb. Ən böyük itkilər son iki yüz ildə baş verib. Təkcə onu demək kifayətdir ki, ən səciyyəvi folklor bölgələri hamısı (əksəriyyəti) indi çağdaş milli-inzibati ərazidən çıxdaş olub, hüquqi-siyasi xəritədən kənarda qalıb: Göyçə mahalı və Çıldır-Ağbaba, Borçalı və Dərələyəz, Dərbənd və Kərkük-Tuz Xurmat... Urmiya, Təbriz Savə, Zəncan ilə ayrılığı mən hələ demirəm.***

***Xəritəmiz yalnız folklorumuzda dəyişməyib, bütün qalıb. Kərküklə və Təbrizlə, Göyçə ilə və Qarabağla, Dərbəndlə və Borçalı ilə indi də bir yerdə, bütövdə yaşadığımız mə'nəvi məkanın adı – folklordur... Sehirli və müqəddəs folklor ərazisindən bir sətri, bir qarışı da Qorqud və Koroğlu, Oğuz xan və Boz Qurd, Xıdır Nəbi... yada, qəsbkara güzəştə getməyib.***

***Bu bütöv mə'nəvi Vətəni "Azərbaycan folkloru" deyilən silsilənin cildləri və səhifələri miqyasında da bütöv məkana çevirmək, folklor atlası, dastan xəritəsi, nağıl, lətifə, bayatı toplusunun səhifələri ilə də ona cism və can vermək indi Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Folklor Elmi-Mədəni Mərkəzi qarşısında bir nömrəli elmi-ədəbi və milli vətəndaşlıq vəzifəsi kimi durur.***

***"Qərib folkloru"nu cildlərdə cəm edib doğma, ana xalqa çatdırmaq, Göyçəni, Qarabağı, Kərkükü heç olmasa, mə'nəvi, ruhani əsarətdən azad etmək sahəsində neçə ildir ki, bu Mərkəzdə miqyaslı və planlı elmi-təşkilati iş aparılır. Həmin silsilədən kitabların, demək olar ki, hamısı artıq çapa hazırdır və yalnız öz maliyyə tə'minatını gözləyir. Mənə elə***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*gəlir ki, belə bir müqəddəs mə'nəvi missiyanın sona qədər gerçəkləşməsi "didərgin və qərib folklor" probleminin həllinə ciddi elmi-siyasi və sosial-vətəndaşlıq xidməti demək olardı və heç bir imkanlı iş adamı onu şəxsi, milli vicdan borcu hesab etməyə bilməz.*

*Şübhəsiz, bütünlükdə ölkə, xalq miqyasında qaçqınlıq böyük dərddir. Köçkünlük, didərginlik milli müsibətdir. Amma daha böyük fəlakət onda baş verir ki, şəhidə və qurbana təbiət özü çevrilir, torpağın folklor qatı və örtüyü əsir düşür, talana və hərraca Qorqudun qopuzu, Ələsgərin qəbri, Vaqifin məqbərəsi mə'ruz qalır. Natəvanın qələmi Şuşadan, Şəmşirin sazı Kəlbəcərdən qaçaq düşür. Mərmi Füzulinin qəzəlinə, güllə Qarabağın şikəstəsinə dəyir.*

*Özü də "kültürdə genosid" hər şeyin birdəfəlik məhvi kimi baş verir: axı uçuq zavod klubunun binasında, nimdaş tələbə yataqxanasında, qızmar yayın və şaxtalı qışın səhra, çöl çadırında mə'nəvi Göyçəni təzədən yaratmaq mümkün deyil...*

*Taleyimə bir də ona görə borcluyam ki, mehriban dost, doğma qardaş də'vəti vaxtında karıma gəldi və bir vaxtlar Göyçəni ən yaxından görmək, tanımaq, sevmək mənə qismət oldu. Yadımda həmişəlik qalan əbədi detal – qopuzun, sazın obrazı oldu. Sözlə sazın, sazla məişətin bir-birilə bu qədər qaynayıb-qarışmasını mən ayrı heç yerdə görməmişdim.*

*Bəli, Göyçədə cocuq sazın səsini sözün sədasından daha əvvəl eşidir. Sözün laylası ilə körpə hər yerdə, sazın laylası ilə isə təkcə Göyçədə gözünü və dilini açır.*

*Bu layla – rübabın simində, qopuzun telində dilə gələndə isə, bayatı, oxşama Burlanın, Selcanın, Banunun dilində zilə gələndə isə beşikdə ərsəyə çatan da artıq ancaq Qazan xan, yalnız Bamsı Beyrək, ya da Dəli Domrul özü olur.*

*Burla Xatun, Selcan xanım, Banu çiçək bu laylanı min ildir ki, çalır, oxuyur və millətin körpəliyini hələ də beşikdə yırğalayır...*

*Deyirlər dünyada ən əvvəl "söz" olub: tanrının "Ol" xitabından kainat və varlıq əmələ gəlib. Müqəddəs göylərə inamın bu İncil və Tövrat hikməti də Göyçədə öz mütləqliyini itirir: yox, Göyçədə ən əvvəl "Saz" olub. Dünya da, söz də Göyçədə sazdan sonra əmələ gəlib.*

*Tarixdə hər şey bizim üçün folklordan, folklor isə... Göyçədən başlayır. Rübabın (Füzuli qəlbinin telinin) vətəni – Dəclə və Fərat arası, liranınkı – Egey dənizinin sahili, Qopuzun vətəni isə Göyçənin bətninin, bağrının başı olub. Hər halda Qobuzdan ilk ilahi, şifahi simfonik səda Qafqaza Göyçədən yayılıb.*

*Məhz o vaxtdan burada dünyaya gələn hər cocuğun, hər yeni göyçəlinin göbəyi sazla kəsilib, ilk oyuncağı qobuz, ilk zümzüməsi bayatı*



*olub. Körpəlikdən cocuğluğa sehirli xalçada, cocuqluqdan yeniyetməliyə Simurğun və Səməndərin kürəyində gəlib-çatıb. Beşiyinin də, qəbrinin də üstünə eyni emblem – saz şəkli çəkilib, "saz daşı" qoyulub. Ömür bu iki rəmz, iki obraz arasında keçib.*

*Odur ki, burada hər daş, hər abidə də Qopuzun telinin daşlaşan, qaya olan səsindən və sehrindən başqa bir şey deyil. Müqəddəs, ulu imamın səmavi atının qurşun nalından qopan iz Qara Quzeyin başında, qaya döşündə hələ də qalır. "Qüdrətdən səngərli" dağların başında, halallığın, inam və iman əhlinin qeyrəti keşiyində Qaraçuxa yenə də səfərbər və sərvaxt, ayıq və oyaq dayanır. Yaxınlaşan cəza və məşhər tərəzisi üçün, haqq-hesab və divan günü üçün əyrinin və haramın, günahın və qanın hesabını itkisiz və dəqiq aparır. İnsanlar torpağı tərk etsə də, sehirli göylər, bir də dağlar Göyçənin keşiyini çəkməkdə davam edir.*

*Bəlkə elə ona görə də bu sehirli, bu möcüzəli folklor yurdunda ən çox yayılan şifahi janr – sehirli nağıllardır, yarı insani, yarı ilahi əsatir və əfsanələrdir. Onlardan hər biri indi bizim üçün sözün hər iki (həm hərfi, lüğəvi. həm də məcazi) mə'nasında xəyali, əlçatmaz nağıla çevrilən Göyçənin vahid bir sərgüzəşt, tale süjetindən ayrı-ayrı fraqmentlərdir.*

*Mif, əsatir və nağıllarda eyni etnik məkan, vahid sosial kosmos öz sakinlərini (mifik qəhrəman tipajını və real-bəşəri obrazların tipologiyasını) ara-bir dəyişsə də onlara xas olan ortaq genetik ümumiliyin sərhədləri heç zaman pozulmur. Bu şifahi örnəklərin, istisnasız, hamısında tarixi-informativ kontekst məhz folklorda cisimləşən (sənədləşən) toponimlərdir, məişət və etnoqrafiyadır, qövmi-genetik bilgi kodları, universal etik-əxlaqi və sosial-fəlsəfi görüşlərdir. Davranış və rəftar kodeksi – yazılmamış qanunlar, dərgahdan gələn "kosmik konstitusiya"dır, dəyişməyən baş qəhrəman – əcdadın, kökənin, Göyçənin özüdür. Örnəkləri sapa düzən, sazda çalan, danışan müəllif isə – haqq aşığıdır.*

*Ümumiyyətlə, bu diyarda aşıqlar həmişə dərgahın, haqqın, rübabını çalırlar. Rəvayətə görə, bu qopuzu nəinki çalan, hətta kəşf edən də diriliyin sehirli suyunu Göyçənin, Ağbulağın gözündən içib. Əlbəttə, yalnız dərgahın sirrinə agah olub, bu sehrin qapısına yol tapandan sonra qopuzu kəşf etmək Qorquda nəsib olub. Və o, bütün ömrü boyu fasiləsiz bu qopuzu çalıb. Onu hər bəladan hifz edən də Qopuzdan yayılan səsin sehri olub. Yalnız bir dəfə, bircə dəfə Qorqud meşədə, əlində rübab mürgüləyib. Elə bu zaman da, qopuzun susduğu anda ölüm mələyi ozana yan alıb və Qorqudun canını ala bilib.*

*Belə bir ölümün özü də hikmət ifadə eləyir: nə qədər ki, Qopuz*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*susmayıb, Qorquda zaval yoxdur. Eləcə də nə qədər ki, şair, bəstəkar, alim susmur, ziyalı sözü və səsi ucadan səslənir, nə qədər ki, millətin dərdini çağdaş siyasi və milli öndər də sarı simdə kökləyir və Qorqudun sazının telində çalır, bu xalqa zaval yoxdur.*

*Vay o gündən ki, ziyalı sussun, millətin öz sinəsində qopuzun teli qırılsın, onda, yalnız onla durna qatarının səfi Şuşada, Füzuli qəzəlinin sətrinin sapı Kərkükdə qırılar, poeziyada da, folklorda da mə'nəvi ahəng, cəmiyyətdə səhman tar-mar olar. Necə ki, oldu da.*

*İlahi, axı, doğrudan da, necə oldu ki, Qorqudun bu hikmətinə Göyçə kar və lal qaldı: əvvəl qopuz Göyçəni tərk etdi, sonra ziyalılar, lap axırda xalq. Əvvəl sözlər azadlığını itirdi, sonra adamlar, lap axırda Torpaq. Qorqud nəvələri Qorqudun məkanını tərk etdilər, Ermənistanı yox.*

*Son illərin elmi incələmələri ilə Göyçəni ən qədim Qorqud məkanlarından biri kimi təsdiq və təsbit edən tarixi sənədlərin bütöv bir silsiləsi elmi dövriyyəyə daxil olur. Nəinki Səlcuqdan əvvəlki Oğuzun, hətta Orhundan əvvəlki Xaqanın, türkün (eradan əvvəlki əsrlər) Göyçədəki izləri aşkara çıxarılır. "Göytürk"dəki "göy" kökü ilə Türküstanda və Qafqazda geniş yayılan "Göyçə" adları arasında etnik əlaqə barədə düşündürən elmi hipotezlər irəli sürülür. Zod aşırımı, Göyərçinli örüşü, Qanqallı dağı, Soyuq bulaq... Bayındır xanın, Süngür bəyin, Şəktur xanın, Qıpçaq xanın "qurultay çağırdığı", toy-mağar qurduğu, ozan çağırıb qopuza qulaq asdığı "başlıca oylaq"lar kimi kəşf olunur, Əbu Bəkr əl-Tehrani əl-İsfəhaninin "Kitabi-Diyarbəkiriyyə" (1470, səh. 54) kitabından gətirilən belə bir bilgi bu baxımdan xüsusilə böyük əhəmiyyət kəsb edir. Belə ki, bu mənbədə Ağqoyunlu Qara Yuluk Osman bəyin nəsil şəcərəsi üzə çıxarılır, şəcərədə əlli ikinci qat Oğuz Xaqana gətirib-çıxarır və şəhadət edilir ki, Oğuz Xaqanın vəfat etdiyi yer də Göyçə gölünün sahilidir,*

*Bu detal da təsadüfi deyil, əksinə, burda ali–ilahi bir qanunauyğunluğun ifadəsi var: insana alilik rütbəsi və vəhyi, peyğəmbərlik vergisi həmişə ya dağın zirvəsində (Hürra dağı), ya da məhz dənizin sahilində verilir: Urmiya sahilində (Zərdüşt), İssık göl sahilində (Manas), Göyçə göl sahilində (Oğuz Xaqan)...*

*Bu yurdda təkcə göllər, sular müqəddəs deyil, sinəsində, zirvəsində ən qədim Oğuz qəbri (müqəddəslik.) daşımayan dağ da Göyçədə yoxdur. Torpaq olmuş bədənin (əcdadın) vücudu ilə yazılan və dağların lap başında, zirvədə qazılan bu qəbirlər tarixin ilahidən, "qüdrətdən yazılı" vərəqləridir, təbiətin öz kitabına vurulan genetik damğa və möhürlərdir, Göyçədə ən qədim imza-kurqanlar, ən fitri-təbii ünvan – sertifikatlar (qövmi mənsubluq və yaş sənədləri), ən müqəddəs, əbədi "etnik*



*kodlar"dır...*

*Bəlkə elə buna görə də türkün məqbərəsi (Ömür babanın Qara quzeydəki tənha sərdabəsi) həmişə hər yerdən ucada – zirvədə qazılır? Yalnız Tanrıya, bir də Dan ulduzuna açılan üfüqün bir parça səması, səhərin şəfəqdən nurlanan qübbəsi, şah tağı ona zirvədən keşik çəkir, ruhuna əbədi hami və həyan olur...*

*Və hərdən mənə elə gəlir ki, əslində bir süjetli, bir qəhrəmanlı, vahid Göyçə nağılını da bizə vahid bir monoloq kimi Oğuz özü, hər qəbrin üstündə hələ də dolaşan Ruh, əcdad özü danışır. Lap Orhun-Yenisey məzarlığında dolaşan Ruhun sinə daşlarına hopan, baş daşına yazılan monoloqu kimi. Bəli, bəli, səsi ilahidən və qiyabidən gələn Oğuz qəbrinin Orhundan hələ çox-çox əvvəlki örnəyi – Göyçədəki oğuz qəbirləridir. Fərq yalnız odur ki, qəbrlərin baş daşından eşidilən səsi, Ruhun (mərhum Bilgə Xaqanın) monoloqunu Orhunda və Yenisey hövzəsində daşlara Yoluq Tiqin həkk edib, Göyçəli oğuzun Göyçə monoloqunu isə Saza və Qopuza, dəftərə və kağıza göyçəli ozan, onun neçə-neçə nəsli həkk edib. Orhun kitabələrini Avropa və Dünya düz səkkiz əsrdir ki, oxuyur, nəşr edir, öyrənir. Göyçə kitabını isə oxucuya biz bu antologiya ilə, belə tam halda ilk dəfədir ki, təqdim edirik. Onun tərcüməsi, təbliği, beynəlmiləl miqyasda qəbulu ilə bağlı qarşıda duran vəzifələrin nəhəngliyini buradan təsəvvürə gətirmək olar.*

*Mən bu yaxında Bişkekdə, İssık Göldə, Balasaqunda, Əhməd Balasaqunlunun sərdabəsində oldum. Orhun-Yenisey kitabələrini lap yaxından ("beş addımlıqdan") qəlbən, ruhən duymaq, sövq-təbii hiss etmək imkanına malik oldum. Ruhumun və qəlbimin həmahəng, həmrə'y təlqini ilə Göyçə göldən sonra İssık göldə mən bir daha inandım: ən qədim türk anıt yerlərinin yalnız ikincisi Yenisey-Orhundur, onlardan daha əvvəlkisi – Göyçədir...*

*Bu yerlərin təbiəti, səhrası, səması bir-birinə nə qədər bənzəyir. Eyni bir mə'nəvi möhtəşəmliyin təbii-fitri təcəssümü, ifadəsi kimi sal qaya daşlar, sıldırım qayalar, zirvədə Alp çəmənliyi, ortaq fauna, flora qatı, bitki və... folklor örtüyü bir-biri ilə qəribə, həmahəng bir harmoniya təşkil edir. Və mən bu həmahənglikdə mə'nəvi, etnik yaddaşın, genetik kökənin ortaqlığını tanıdım. İssık göldən Göyçə gölə, Manasdan Qorquda uzantılar gördüm...*

*Əlbəttə, bəlkə də mən şərtiliyə, obrazlı düşüncəyə bir qədər çox yol verdim, eyni əcdadın Göyçədən (oğuz məzarından) eşitdiyim şifahi, ilahi, daxili nitqini oğuzun Orhunda, məzar daşında sözün hərfi mə'nasında yazılaşan nitqi ilə səsləşdirdim. Doğrudan da, bu yazılı nitqlər o vaxta qədər yalnız "şifahi" həyat yaşamış etnosun ilk yazılı*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*abidəsi kimi e'tiraf olunur. Lakin axı bu yazının özündə də hələ yalnız şifahidən, yalnız ilvhidən, qiyabidən gələn səs "yazılaşır". İzi daşa düşən "ilahi səs" özü, "şifahi səs" özü olur, daşda Ruh danışır. Axı hər iki anıt – "Gül Tiqin"də, "Bilgə xaqan" da – mərhum Xaqanın ölümündən sonra dediyi monoloqdur. Yoluq-Tiqin – hər iki nitqi yalnız yazıya almışdır, "ozanlıq işi" yox, me'marlıq (əlifba me'marlığı) işi görmüşdür. Elə isə kimdir əsil müəllif: Ruhun səsini məzarın daşına yazan o dahi türk, yoxsa... səsi qiyabidən gələn Ruhun özü? hər iki anıtı mən eyni müqəddəs yaddaşın – xandan və xaqandan gələn müjdənin (həm səsin, həm də əməlin) – qoşa təcəssümü hesab edirəm. Eyni oğuz, eyni xan və xaqan səsinin Orhundan daha əvvəlki təcəssümü, əlifbada, qaya, daş me'marlığında yox, musiqi, saz və söz "me'marlığında" abidəsi, heykəli isə, şübhəsiz, yalnız və yalnız Göyçə folklorudur...*

*Hələ Bilqamısdan gələn və əvvəlcə məhz Qorqudun süjetində, ruhunda və dilində "daşlaşan" eyni hikmət və mə'nalar sonralar Orhunun və Yeniseyin artıq lüğəvi, hərfi mə'nada da sal və lal qayasında daşlaşır, yaddaşlaşır, orhunlaşır...*

*Lakin o da həqiqətdir ki, daşlarda "tişə işinin" qopuzda "təzənə işi"ndən fərqi və üstünlüyü var. Daş kimi daimi olmaq, daşla bir yerdə əbədi qalmaq da burada hələ əsas məqsəd, əsas məsələ deyil. Hətta "daşdan da keçsin" – deyə, duyğusuz, daş qəlbə də tə'sir etsin – deyə bizə öz vəsiyyətini daşda yazıb Orhunlu babalar. Və, görünür, səhv eləməyiblər. "Daşdan tökülən" Orhun-Yenisey abidələrini neçə-neçə yüz illərdir Tarix və Bəşər tək daşda yox, həm də yaddaşda zədəsiz qoruyub-saxlayır. Bu sərbəst, azad təbiət və zirvə daşları indi dünyanın hər yerindən görünür, oxunur, əzizlənir. Daha qocaman, ixtiyar Oğuz babanın Qara Quzeydə uyuyan qəbri, onun bu vaxta qədər hələ ki, yalnız qopuzda, musiqidə, səsdə cisimləşən ruhu isə Göyçədə şəhid olub, Qarabağda əsir düşüb, Kərkükdə, Dərbənddə nəğməsinə, harayına zəncir və qandal vurulub...*

*Qoy Tanrı yardımçımız olsun, axı tale qismətinə, Qopuzdan gələn səsə belə sədaqət, belə qədir-qiymət nə Göyçəyə, nə də Qorquda yaraşan həssaslığın ifadəsi deyil...*

*Keçmişə çevrilən tarixini torpağa çevrilən əcdadının məzarı üstünə yazan xalq dünyada, bəlkə də, yalnız türklərdir. Ona görə ki, dünyada heç yerdə Tarix, Tale və torpaq bir-birinə burdakı qədər qaynayıb-qarışmır. Yalnız özü məzara çevriləndə əcdad türk torpağın üstünü tərk edir aə torpağa keşiyi məzarda çəkməyə davam edir, ən e'tibarlı yaddaş – məzardakı daş olur.*

*Ona görə də dünyada heç nə əcdadın uyuduğu məzar qədər, bir də*



*əcdad məzarını bətnində bəsləyən torpaq qədər müqəddəs olmur. Və yalnız bu hikmətə və həqiqətə sədaqəti saxlayan xalq sabahlı və gələcəkli olur...*

*Tarix bizə öyrədir, keçmişin ibrət və hikmət dərsləri qaibdən xəbərdarlıq edir ki, zaman mehvərdən çıxar, dünyanın bağları qırılar, əgər tək bircə nəsl bu yazılmamış qanunu unutsa. Odur ki, hər türk, heç olmasa, ömürdə bir dəfə, Orhun və Yenisey civarına səyahətə getsin gərək, ilahi-dini ibadət üçün – Məkkədə, "qara daş" önündə, milli ibadət üçün isə Baykal civarında (Bəy göldə) bəyaz daş qabağında torpağa çöksün gərək. Mübarək daş, mübarək yer öpsün gərək. Və belə ibadətin, belə ziyarətin həm də Göyçədə, Oğuz qəbrinin ayağı altında davam edəcəyi günü yaxınlaşdırmaq üçün əlindən gələn hər şeyi eləsin gərək...*

*"Göyə yaxın", "zirvə" mə'nasını verən "Göyçə" adlı ucalıqda, ən üst qatda (göyə yaxın mərtəbədə!) uyuyan məzarlıqlar və bir də hər qəbir daşının başının üstdə (göyə daha yaxın yerdə!) dolaşan o məzar sakinləri – qərib Ruhlar yolunu gözləyir o günün! Ozan və Aşıq sarvanlı karvanın, intizar və həsrət yüklü durna və dəvə qatarının yolunu gözləyir Göyçədə pirlər və pirəngahlar...*

*Ulu övliya, "baba yuva", "sehrli yurd" adına-abırına "pirlər səltənəti" sonralar da sadiq qalır, ilkin oğuzlardan sonrakı dövrdə – orta əsrlərdə də onu hifz edib, ta bizə qədər sağ-salamat, zədəsiz-itkisiz gətirib çıxarır. (Saf, büllur folklor havasında ciyər dolusu nəfəs dövriyyəsi, əbədi, qapalı, fasiləsiz bədii yaşantı Göyçədə ilk dəfə yalnız son deportasiyadan (1988) sonra qırılır. Türk şahlıq və mürşüdlük, pirlik salnaməsində növbəti oğuzun da xaqanlıq tərcümeyi-halı bu ocaqla bağlanır və Şah İsmayıla da şahlıq butası Göyçədə verilir. Hər halda, Miskin Abdalın dini, ruhani "mötəbərliyi" barədə fərmanı (Göyçə, 1500) o, şah yox (onda hələ şah deyildi), ulu Səfəvilərdən ona çatan "təriqət şahı" səlahiyyətilə imzalayır və göyçəlilər də onu elə bu statusda qarşılayıb yola salırlar. Məhz təriqət, təsəvvüf, sufilik məcrasında ən'ənəvi "sakral göy mühitləri"nə Göyçədə "sakral yer" mühitləri də əlavə olunur. Onların hər ikisi eyni bədii kontekstdə birləşir və klassik folklorda "mifoloji (mübhəm, sehrli) məkan" anlayışının bütün əsas tələblərinə cavab verir. Nəticədə epik, bədii zamanın konkret, real məzmununda da səma və torpaq bir-birinə doğru daha bir addım atmış olur. Tanrıya qovuşmanın poeziya, musiqi, aşiqlik xətti quru ehkamı, formal ibadət mövhumatını üstələyir. Ozan və qopuz sənəti təsəvvüf ovqatı ilə də məhrəmlikdən, mə'nəvi nigahdan sonra aşıq və saz sənətinə çevrilir. Sosial-mədəni və obyektiv-tarixi gedişatda dirçəliş bu prosesi sür'ətləndirir.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Belə ki, həmişə olduğu kimi, növbəti tarixi mərhələdə də türk-oğuz hakimiyyət ən'ənəsi (Turanda Sultan Süleymanla, İranda Səfəvilərlə başlayan qlobal sosial-mədəni intibah) ulduzlu adların yeni çələngini bədii sənət orbitinə çıxarır. Yazılı ən'ənədə Füzuli və Xətainin, folklorda, aşıq şe'rində isə Ozan Heydərin, Miskin Abdalın, Dərdli Nəsibin, Qul Mahmudun, Şampırlı Sevgilinin... sazı-sözü ilə başlayan yeni ədəbi təqvimin ilk səhifələri açılır. Bütün Qafqaz-türk məkanında ən münbit folklor mühitlərindən biri kimi, ozanlıqdan sonra aşıqlıq da Göyçədə klassik səviyyəyə yüksəlir...*

*Türk təsəvvüf ədəbiyyatı Göyçədə daha əvvəl "aşıq ədəbiyyatı" kimi formalaşır və "həm aşıqdır, həm dərvişdir, həm dəli" (Aşıq Ələsgər) sözlərini də göyçəlilər bu aşıqlar barədə elə o vaxtdan işlətməyə başlayırlar. "Haqq aşığı", "abdal aşıq", "qul aşıq", "xəstə aşıq", "miskin aşıq", "baba aşıq", "dədə aşıq", "lələ aşıq"... kimi adlar neçə-neçə statusdan keçib, neçə-neçə mərhələdə neçə-neçə təsnifə mə'ruz qalıb, nəhayət, pir olub, pirəngaha qovuşur Göyçədə. Haqqa yetmək üçün təriqət və mərifət mərtəbələrini bir də burada keçir milli aşıq məktəbimiz...*

*Çeşidli iqlimlər yox, çeşidli tarixlər, epoxalar arasında ortaq, müştərək əxlaqi və mə'nəvi dəyərlər bu bədii-fəlsəfi keçiddə (ozandan haqq aşığına gətirib-çıxaran dönüşdə) ahəngi və irsiliyi tə'min edir. Həmin dəyərləri içinə alan, tama, bütövə çevirən ortaq məxrəc birinci növbədə Göyçənin təbiət və torpaq əxlaqı ilə təsəvvüfün Tanrı, Dərgah və dərgaha can atan İnsan tə'limi arasında idi. Sufinin övliyalıq, paklık, kamillik ehtirası ilə oğuzun, Qorqudun halallıq, tamahsızlıq, cəngavərlik təşnəliyi arasında idi. Və onların hər ikisinin Allaha, göylərə, mə'nəvi mükəmməlliyə ehkam və ibadətlə yox, EŞQLƏ yetmək müdrikliyində idi.*

*Elə ona görə də vahid Göyçə epopeyasında Qorqud və Ələsgər eraları bir-birindən Çin səddi ilə ayrılmır. Elə ona görə də Zamanın bağları, telləri rübabın pərdəsində qırılmır və təsəvvüfün də sazının simində kökdən düşmür. Nə ozan-aşıq, nə də şaman-mürid dəyişməsi mahiyyətdə, qanda milli "MƏN" və etnik GEN dəyişməsinə gətirib-çıxarmır. Mavi dəniz köynəkli, bəyaz bulud örpəkli Göyçə hətta xalis təriqət qiyafəli və ovqatlı bədii nəqaratı, leytmotivi də Yunis İmrənin sazında kökləyir və ona əlavə türk biçimi, xəlqi üslub, vəzn və dil gözəlliyi, doğma heca, qoşma, divan, təcnis özəlliyi artırır. Həm kökü, həm də zirvəni birləşdirən xəttin – etnik qədimliyin də, əbədi milli müasirliyin də dəyişməyən ünvanı olaraq qalır Göyçə!..*

*Bu mühitdə folklorun, saz kultunun nə qədər miqyaslı, kütləvi tə'sir gücünə malik olduğunu təsəvvürə gətirmək üçün onu demək kifayətdir ki,*



*o zaman Göyçədə aşıqlar nəinki ədəbi-ruhani, bə'zən hətta siyasi missiyanı da öhdəyə götürüb, yerinə yetirirdilər. Mahalda övliyalıq, sufilik ən geniş məhəlli hüdudları aşıb Göyçədən çox uzaq çevrələri içinə almışdı. Vahid bir ilahi, sufi mə'navi məkanın sərhədləri – şəriət, təriqət, ziyarət və ticarət əlaqələri – Bağdada və Şama, İrəvana, Təbrizə və Gəncəyə qədər uzanırdı. Sufiliyin "abdallıq", "babalıq", "lələlik", "dədəlik" dərslərini almaq və pirlik-pirənəlik məqamına yetmək, bu məqamda, bu qatda saz sınayıb, sözdə sınanmaq üçün aşıqlar hər yerdən Göyçəyə axışdılar.*

*Hər iki sufi mərtəbəni – miskinliyi və abdallığı (ikisini birdən!) həm şəxsiyyətində, həm də təxəllüsündə hamıdan əvvəl Miskin Abdal birləşdirdi. Həm müridə, həm də pir – aşığa eyni vaxtda çevrildi.*

*Ulu, ustad sələfi Əhməd Yəsəvi kimi göyçəli Seyid Hüseyn Miskin Abdal da əyninə övliya və pür-kamal libası geydi, ayağına dərviş çarığı taxdı, bütün nəfsləri özünün qulu, özünü isə təkcə Tanrının qulu e'lan etdi. Tək olan dərgaha, bir olan Allaha tapınıb, ona aparan yolu – ürəkdə ilahini və ilahiliyi tərənnüm yolunu tutdu. Hətta təriqət şahına, "iqlimin həzrətinə"də dərgahada həmişə ayıq, keşikdə həmişə sayıq halalı və haqqı xatırlatmaq yolunu tutdu:*

*Şahım, nə yatmısan, dünya xarabdı,*
*Haqq özü yatmayıb, ayaq üstədi!..*

*Həmçinin, məşhur Çaldıran döyüşünün bütün türk miqyasında faciəsi barədə aşağıdakı beytləri də Miskin Abdal hamıdan qabaq Hüseyn Caviddən düz beş yüz il əvvəl söyləyib:*

*Türk əcəmə, əcəm türkə zülm eyləsə günahdı,*
*Hər ikisi bir kökdəndi, yaradan da Allahdı.*

*Əlbəttə ki, pir, övliya Miskin Abdal Göyçənin büllur, şəfaf poeziya səmasında yeganə ad, tənha ulduz kimi parlamır.*

*"Göy əcdad"ımızla Göyçə əcdadımız arasındakı sonsuzda, ilahi, səmavi pirəngahda sıralanan və Ruhumuzdan Dərgaha, Haqqa sarı qarış-qarış, qədəm-qədəm pillə salan hər qatda, hər mərtəbədə neçə-neçə Miskin Abdal yaşayır.*

*Miskin işığından bir nur Miskindən sonralar da neçə adda və imzada, neçə-neçə sazda və sözdə şö'lələnir. Xüsusən, XIX yüzildə bu nurdan od tutan ataş ta günəşə qədər gedib-çatan torpaq və yer işığına çevrilir. Ağ Aşıq, Məmməd Hüseyn, Aşıq Alı, Aşıq Musa, Alməmməd ocağı və bütün bunların yekunu, zirvəsi kimi Aşıq Ələsgər poeziyası yaranır.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*"Doğru derlər hər zaman bir aşiqin dövranıdır" – yazılı ədəbi ən'ənədə "Füzuli dövranı" (üç əsrlik "Füzuli tilsimi" dövrü) ta XVIII əsrə qədər davam etmişdi. Növbəti "dövranın" hesabı isə yeni yüzildə Ələsgər şe'ri ilə açılır. Öz "yeni Füzulisini" ədəbiyyat bu dəfə artıq şifahi bədii ən'ənədə, aşıq şe'rində yaradır. Folklorda "Ələsgər dövranı" (tilsimi və sehri!) artıq bu günü də içinə alan iki əsrə çatır və kim bilir, bəlkə bundan sonra da hələ neçə-neçə əsrə (lap sonsuza!) qədər çatacaq. Axı peyğəmbərlərin sonuncusu Məhəmməd peyğəmbər, Peyğəmbər aşıqların sonuncusu isə Aşıq Ələsgərdir. Özü demişkən, o, təriqətdən keçmiş, mə'rifətə yetmiş, həqiqət məqamına çatmış və bu zirvələrdən hər birində də kamilliklə qoşa – müdriklərə həqiqətdən "dərs verənlə" yanbayan (!) dayanmışdır:*

*Eşq ilə sevdanın kökü*
*Keçib cismi-canımdadı,*
*Şeyxlərə ol dərsi verən*
*İndi mənim yanımdadı!..*

*Əlbəttə, belə düşünməklə mən Göyçədə Ələsgərdən sonrakı ustad aşıqların – Şişqayalı şair Aydının, Mirzə Bəylərin, Zodlu Usta Abdullanın, Alçalı Məhərrəmin, Şair Hacı Əliş ağanın, Çoban Məhəmmədin, Növrəs İmanın, onlarla digər adların əhəmiyyəti üstünə kölgə salmaq istəmirəm. Əksinə, məncə, onlar hamısı özlərini bədii ən'ənədə intibah dövrünün – "Ələsgər dövranı"nın sakinləri hesab etməklə fəxr edə bilərlər.*

*"Ələsgər dövranı", bu dahi aşığın bədii və şəxsi tərcümeyi halı xalqın, millətin tarixində həm İntibah, həm də facia və böhran anlarını özündə ehtiva edir: 1905 və 1920-ci illərdə onun həyatı, güzəranı, doxsanıncı illərdə isə... məzarı, Ruhu daşnak soyqırımına hədəf olur. "DAĞLAR" rədifli şe'ri bu məqamlardan birinə həsr olunub, amma üçünə də aid edilə bilər:*

*Hanı mən gördüyüm qurğu, büsatlar,*
*Dərdməndlər görsə, tez bağrı çatlar.*
*Mələşmir sürülər, kişnəmir atlar,*
*Niyə pərişandır halların, dağlar?*

*Bu – "pərişan dağların" bədii obrazıdır, bu dağlar oğlunun pərişan halı və sualı barədə bədii nidanı, səsi isə mən daha uzaqdan – Seyid Miskin Abdalın hələ də yaddaşda qalan misrasından eşidirəm:*



*Mikin Abdal, hanı zərdən libasın?*
*Nakəs olan unudarmı obasın?*
*Yada salıb ulu-ulu babasın,*
*Axır günü Göyçəsinə dönərmi?*

*Bu ağsaçlı, bu yaralı sualın yeni, bugünkü cavabını da beş yüz yaşlı nurani-pirani şairin obrazı verir, özü də ilahi inamla, qətiyyətlə verir:*

*Elim qalıb neçə dağlar dalında,*
*Qismətim var, yazılıbsa alında.*
*Gedəcəyəm ayaq olsa yalın da,*
*Pir igidin çırağı da sönərmi?..*

*Belə bir qətiyyətə daha böyük xeyir-dua bir də bütünlükdə əcdad Oğuzun məhz bu antologiyada artıq ilk dəfədir ki, həm də kitablaşan, əlifbalaşan şifahi Səsi və Sözüdür.*

*Qeyrətli, qədirli iş görüb folklor Mərkəzi: Orhunda Bilgə Xaqanın səsini kitabəyə Yoluq Tiqin, Göyçədə Oğuz Xaqanın Qopuzdan yayılan səsini kitaba Hüseyn İsmayıl köçürüb. Qədimdəki bütün xeyirxah, mifik qüvvələrin hamilik gücünü indiki göyçəlilərin – köçkünlərin xeyrinə səfərbər edib...*

*Antologiyada toplanan miflərdə ibrətli əxlaqi süjetlər, heyvərə, bədheybət azmanla (Göyçəli Təpəgözlə) mübarizədə İnsana, Torpağa və Ağla kömək edən sehirli, mifik qüvvələr çoxdur. İndi, çağdaş mə'nəvi, dini, qövmi, siyasi azmanla mübarizədə əsir və şəhid Göyçəyə təkcə göylərin yardımı, çətin ki, yetərli olsun. Ümid – torpağın övladında, bahadır göyçəlinin damarında hələ də axan qan da, ən qədim, genetik iksirdədir, "aradığın qüvvət – damarından axan qanındadır. Damara söykənsən, keçmişi gələcəyə çevirmək bir xəyal olmaya da bilər" – deyən böyük türkün (Atatürkün!) sözündəki hik-mətdə və həqiqətdədir...*

*Damarında bahadırlıq çövhərini və iksirini, əcdad göyçəlinin qanını daşıyan igidlər bu kitabda çoxdur. Antologiyanın səhifələrinə səpələnən əfsanəvi qəhrəmanlardan biri – Ellaz Göyçəni xilas eləmək üçün Təpəgözü Bəzirgan mağarasına, yeraltı dünyanın qapısına qədər qovur və qayalarla mağaranın ağzını bağlayır. Təpəgözlər gün işığından o vaxtdan məhrum olurlar... Lakin zaman keçir və "cin butılkadan çıxır". Qayaları eşib-çıxan Təpəgözü yenidən yeraltı dünyaya qaytaracaq Zamanı və Qəhrəmanı çox gözləmək lazım gəlməyəcək – belə bir nikbinliyi*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*bizə aşılayan bir də oxuculara təqdim etdiyimiz bu kitabın səhifələridir və bu səhifələrdəki sözlər, doğrudan da əcdad göyçəlinin ürəyinin, damarının qanı ilə yazılmış sətrlərdir.*

*Yüz ildir, min ildir bu sözlər Göyçədə sazda da çalınıb, qopuzda da oxunub. Özü atdan düşəndə də oğuzun qopuzu köksündən düşməyib. İndi də bu günə və sabaha doğru yol gedir at üstdə Göyçəli ozan. Və hələ yenə də gedəcək, dünyanı dolanıb, illəri aşıb Göyəçəyə təzədən çatana qədər...*

*Və mən inanıram ki, bu gündən belə, bu atlı və qopuzlu səyyahın mənzil başına tez çatması üçün bələdçiliyi ona mütləq bu kitab edəcəkdir, buradakı ana folklorun səhifələri, sətirləri və bu sətrlərdən uzantılar – yollar ona yol göstərəcəkdir. Axı Göyçəyə qayıdan yol – folklordan keçir...*

*Oktyabr, 1999*



## UZAQ ETNİK MƏNŞƏYİN, YAXIN MİLLİ GƏLƏCƏYİN İNDİ QÜRBƏT VƏTƏNİ — GÖYÇƏ...

*Folklor mənim xalqımdır, tariximdir... Zaman dəyişir, dövran keçir, vaxt heç nəyi və heç kimi gözləmir. Nəsillər bir-birini əvəz edir. Və əvəz edə-edə "son ucu ölümlü dünya" da əzəli və əbədi məskənimiz, ölümüzün və dirimizin yiyəsi müqəddəs Vətən torpağına qovuşur. Beləcə, qovuşa-qovuşa, qaynayıb qarışa-qarışa tarixə çevrilir.*

*Folklor xalqımın tarixidir. Onun yaddaşında yaşayan və onu yaşadan həqiqət tarixidir. Hər qaya parçasında, hər dağında-daşında, çölündə, yamacında, gölündə, çayında, hər qarış torpağında, hər qəbir daşında, ayaq izində əfsanəyə dönmüş bir həqiqət yaşayır. Bə'zən son dərəcə adi görünən bir xalq deyimində böyük bir tarixi həqiqət qorunub saxlanılır.*

*Folklorun yaradıcısı xalqdır. Xalq öz söz incilərini yaradır, cilalaya-cilalaya, dəyişə-dəyişə, nəsildən-nəsilə ötürərək öz tarixini yaşadır. Əsrlərin dərinliyindən, keşməkeşlərindən keçib gələn hikmət dolu sənət nümunələrəni zaman özü saf-çürük edir, yaxşını-pisdən ayırır. Bu sınaqdan üzüağ çıxanlara yaşamaq hüququ verir. El ağsaqqalarının, ağbirçəklərinin yaddaşına hopub qalmış bu mə'nəvi sərvətlərdən xalqımızın qəhrəmanlıq tarixi, mübarizə əzmi, istək və arzuları, dərdi-səri, ağrısı-acısı yaşayır. Bəli, bu həqiqətdir ki, yaşayır. Lakin onu yenidən yaşatmaq, yenidən xalqın özünə qaytarmaq ən müqəddəs işdir.*

*Xalqın səsi-haqın səsidir. Bu səsə biganəlik, e'tinasızlıq, məs'uliyyətsizlik, ən azı günahdır, babalarımızın ölməz ruhuna hörmətsizlikdir. Bu haqqı unutmağı nə əcdadımızın uyuduğu, qoynunda boya-başa çatdığımız Vətən torpağı, nə də gələcək nə-sillər bizə bağışlamaz.*

*Torpaq müqəddəsdir. Orada ulularımızın, ölməz babalarımızın ruhu yaşayır. Bu torpaqda Vətən adlı bir ana yaşayır. Bu Vətən analarımızın anasıdır. Uzun saçlı, al yanaqlı, gül camallı, boylu-buxunlu, ər qeyrətli, namuslu Burla Xatunumuzun, Məshətimizin, Nigarımızın, Həcərimizin anasıdır. Analar həmişə torpaq amanatı deyiblər. Namusdu, qeyrətdi, bin-bərəkətdi torpaq. Xalqımızın torpağı bərəkətdən yoğrulmuş el-obalarından biri də qədim Göyçə mahalıdır.*

*Tarixin müxtəlif dövrlərində başı min bir bəlalar çəkmiş Göyçə mahalı Göyçə gölü ətrafında təqribən 100 kilometr uzunluğu, 40 kilometr eni olan bir ərazidə yerləşmişdir. Cənubdan Ağlağan, Təpəsidəlik, Çənlibel dağları və Səlim gədiyi ilə, Şimaldan isə Murğuz,*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Şahdağ silsiləsi ilə əhatə olunmuşdur. Şahdağdan baxanda bu mahal ortasına ayna salınmış güllü bir nəlbəkini xatırladır.*

*"Kitabi-Dədə Qorqud" eposunda rastlaşdığımız Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı toponimləri də bu ulu diyarın oğuzların ən qədim yaşayış məskənlərindən biri olduğunu təsdiq eliyən inkarolunmaz faktlardandır.*

*Göyçə mahalı ən ulu yurd yerlərimizdən, ən qədim yaşayış məskənlərimizdən biridir.*

*Tariximizin əski çağlarına baş vurduqca, ulularımızın sirli-soraqlı dünyasına yaxından bələd olduqca Göyçə mahalı haqqında çox maraqlı mə'lumatlarla qarşılaşırıq.*

*Mə'lum olduğu kimi, Göyçə toponimi, onun ifadə etdiyi mə'na və mətləblərlə bağlı el arasında müxtəlif əfsanə və rəvayətlər dolaşmaqdadır.*

*İndiyə qədər bədii yaddaşımızdan çıxış eləyib bu toponimə müxtəlif yozumlar verilmişdir.*

*Bə'zi mülahizələrə görə, bu qədim oğuz yurdu dağların sinəsində yerləşdiyi üçün bu toponim uca – "göyə yaxın" anlamını ifadə edən "Göycə" ifadəsindən yaranmışdır.*

*Bu ifadənin Göyçə gölünün göz yaşı kimi saf, dumduru mavi suları ilə bağlı yarandığını da güman edənlər az deyil.*

*Vaxtilə Göy türk imperiyasına daxil olan bir çox tarixi ərazilərdə Göyçə adı daşıyan çoxsaylı yer, məkan, el, oba, ulus, oymaq adlarına təsadüf edilməsi bu toponimin Göy Türklərlə bağlılığı ehtimalının da söylənməsinə şərait yaratmışdır.*

*Orta Asiya və Türkiyədə bu adı daşıyan xeyli yer, yurd adlarının mövcudluğu bu toponimin türk xalqlarının tarixində və taleyində xüsusi yerə və mövqeyə malik olduğunu təsdiq eləməkdədir.*

*"Göyçə" toponiminin yaranması ilə bağlı çoxsaylı əfsanə, rəvayət və yozumlar sırasında bir mülahizə daha həqiqətəuyğun görünməkdədir.*

*Tarixi qaynaqlar bizə "Göyçölü" adında qədim bir oğuz boyunun mövcudluğundan bilgilər verir.[1]*

*Türk toponimlərinin öz mənşəyini daha çox etnonimlərdən aldığını, yə'ni ayrı-ayrı qəbilə, tayfa, etnos adlarından götürdüyünü nəzərə alsaq, qədim "Göyçölü" oğuz boyunun yaşadığı ərazinin Göyçə adlandırılması daha real və həqiqətəuyğun görünür.*

*Zaman-zaman türk axınları başqa türk qövmləri kimi bu tayfanı da çox yerlərə, o cümlədən Anadoluya aparıb çıxarmışdır. Bunun nəticəsi*

----------------------

**1. F.Sumer. Oğuzlar. Bakı, Yazıçı 1992, səh. 332-336.**



*olaraq Göyçə toponimi Sır-Dərya sahillərindən başlamış Qafqaz və Anadoluya qədər geniş bir coğrafi məkanda uzun əsrlərdən bəri ulus, el, oba, mahal adı kimi öz yaşamaq haqqını qoruyub saxlamışdır.*

*Bir çox mö'təbər mə'xəzlər, tarixi mənbə və qaynaqlar Göyçə mahalı və onun daxil olduğu ərazidə – Azərbaycanın Qərb hissəsində hələ eramızdan çox-çox əvvəllər çoxsaylı türk tayfalarının mövcudluğunu təsdiq eləməkdədir.*

*İste'dadlı tarixçi-etnoqraf və toponimist Qiyasəddin Qeybullayev ciddi yazılı qaynaqlara, maraqlı toponimik faktlara istinad eləməklə sübuta yetirir ki, hələ eradan əvvəl VIII-VII əsrlərdə indiki Ermənistan ərazisində (Qərbi Azərbaycanda) türkdilli əhali yaşayırdı. Sonrakı əsrlərdə kimmer, saklar, quqarlar, şiraklar kimi qədim türk tayfaları da bu yerləri özləri üçün daimi yaşayış yeri kimi seçmişlər.[1]*

*Bu türk tayfaları ilə yanaşı, oğuzların da hələ səlcuq axınlarından çox-çox əvvəllər Azərbaycanda yaşadığı artıq heç kimdə şübhə doğurmur.*

*Görkəmli tarixçi, prof. Yaqub Mahmudlunun dediyi kimi "Azərbaycan hələ eramızdan çox-çox əvvəl aramsız olaraq ümumtürk məkanının mühüm tərkib hissəsi, daha doğrusu özəyi olub.[2]*

*O, dünya xalqlarının ən qədim mə'nəvi abidələrindən biri kimi dəyərləndirdiyi "Kitabi-Dədə Qorqud" da cərəyan edən real tarixi hadisələrin məhz Azərbaycanda – tarixi Azərbaycan torpağında baş verdiyini maraqlı elmi dəlillər və faktlarla sübuta yetirir.*

*Maraqlıdır ki, görkəmli tarixçinin "Kitabi-Dədə Qorqud"un məhz Azərbaycanda yarandığını sübut eləyən elmi faktlarının demək olar ki, hamısında Göyçə ən qədim oğuz eli, ən ulu türk torpaqlarından biri kimi xüsusi diqqət mərkəzindədir.*

*Mühüm elmi-tarixi əhəmiyyətini nəzərə alaraq diqqəti prof. Yaqub Mahmudlunun "Kitabi-Dədə Qorqud" tarixi mənbə kimi və ya türkün çağlayan tarix bulağı" məqaləsindəki həmin məqama yönəltmək istərdim.[3]*

*...Fikrimizi əsaslandırmaq üçün indiyədək mütəxəssislər tərəfindən hələ lazımınca araşdırılmamış oğuznamələrdən birindəki-Əbu Bəkir əl-İsfahaninin "Kitabi-Diyar Bəkiriyyə"sindəki /Ağqoyunlu tarixi/ bə'zi faktlara diqqəti cəlb etmək istərdik. Yeri gəlmişkən, bu əsər oğuz türklərindən olan Ağqoyunluların ən qüdrətli hökmdarı Uzun Həsənin*

-------------------------

**1. Q.Qeybullayev "Qədim türklər və Ermənstan" Bakı 1992.**
**2. Altay dünyası jurnalı, Bakı 1997, sayı 1-2, səh.54.**
**3. Yenə orada. Bakı 1997, sayı 1-2, səh. 54, 55, 56.**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*/1453-1478/ hökmü ilə 1470-ci ildə yazılmışdır. Əsərin müəllifi dövrün görkəmli alimlərindən /Uzun Həsənin kitabxanasında 60-a qədər alim çalışırdı/, həmçinin dövlət adamlarından biri idi. Bu baxımdan, qüdrətli hökmdarın göstərişi ilə yazılan həmin əsərin mö'təbərliyinə əlbəttə ilk mənbələrdən, o cümlədən bizə qədər gəlib çatmamış mənbələrdən istifadə olunması baxımından şübhəmiz qalmamaqdadır.*

*Birinci fakt: müəllif Uzun Həsənin böyük babası-Ağqoyunlu dövlətinin banisi olan Qara Yülük Osman bəyin nəsil şəcərəsini araşdıraraq 52-ci babada oğuz xaqana çatdırır. Oğuz xaqanın başçılıq eidiyi dövlətin əhatə etdiyi əraziləri sadalayıb və nəhayət, onun /Oğuz Xaqanın/ Göyçə dənizi ətrafında vəfat etdiyini yazır.*

*İkinci fakt: Əbu Bəkr əl-Tehrani Oğuzun nəvəsi Bayandır xaqan haqqında daha maraqlı mə'lumat verir. Müəllif göstərir ki, Bayandır Xaqan "Qarabağ qışlağı və Göyçə dəniz yaylaqlarına getdi və böyük bir qurultay çağırdı"... Toy məclisi qurdurdu. "Ban ev" adlanan çox böyük bir zərli alacıq qurdurdu. Bu toyda 12 min qoç, 9 min ayrıq, 18 min buğa kəsdirdi. Çoxlu qızıl, gümüş, qiymətli daş-qaşla bəzədilmiş 500 bel bağı bəxşiş verdi ki, bunların da üstündə qızıl və gümüş qılınclar vardı. Məmləkəti oğlanları arasında qabiliyyətlərinə görə bölüşdürdü və bir neçə gündən sonra Allahın də'vətini qəbul etdi.*

*Üçüncü fakt: Qara Yülük Osman bəyin 20-ci babası Sünkür bəy Məhəmməd peyğəmbərin müasiri idi. Daim kafirlərlə müharibə və mücadilə edərdi. Türküstan məmləkətində 70 il padşahlıq etdi. Oradan Dəşti-Qıpçağa gəldi və 20 il oranın yaylaq və qışlaqlarında dolandı. Bundan sonra isə Alagöz və Göyçə dənizi yaylağı /Oğuzlar Göyçə gölü ilə Arpa çayı arasındakı dağları "Alagöz dağları" və ya "Alagöz yaylaqları" adlandırırdılar. Hazırda Göyçə gölü – "Sevan", Alagöz dağları isə "Vardenis silsiləsi" adlanır/ tərəflərə gəldi və o sərhəddə kafirlərin qoşunu ilə müharibələr etdi. Vuruşmaların birində oxla yaralandı və Allahın də'vətini qəbul etdi.*

*Dördüncü fakt: Qara Yürük Osman bəyin 14-cü babası Şəktur xan isə xəlifə Mə'munun müasiri olmuş, Əlincə qalasını gürcülərin əlindən almışdı.*

*Beşinci fakt: Bu fakt çox maraqlıdır, özü də Qıpçaq xan haqqındadır. Oğuzun nəsil şəcərəsinə daxil olan və onun törəməsi olan Qıpçaq xan haqqında. Müəllifin yazdığına görə, Qıpçaq xan cah-cəlallı, şan-şöhrətli və böyük bir padşah idi. Ona böyük fəthlər qismət olmuşdu. Əbu Bəkr əl-Tehrani Qıpçaq xanın tutduğu ölkələri sadaladıqdan sonra, nəhayət gürcülərin ələ keçirmiş olduğu Əlincə qalasını da fəth etdiyini yazır və göstərir ki, bu türk sərkərdəsi xəlifə Harun ər-Rəşidin*



*müasiri idi. Həmin fakt xüsusilə ona görə maraqlıdır ki, "Kitabi-Dədə Qorqud" da cərəyan edən tarixi hadisələr oğuz-qıpçaq toqquşmaları /tanınmış türkoloq professor Nizami Cəfərov demişkən "oğuz-qıpçaq qarşıdurması"/ fonunda baş verir. Göründüyü kimi, yuxarıda gətirilən faktların hamısında oğuz müqəddəslərinin və qəhrəmanlarının Oğuz xaqanın, Bayandır xaqanın, Sünkür bəyin, Şəktur xanın, habelə Qıpçaq xanın və başqalarının fəaliyyət mərkəzi-onların əsas məkanları, başlıca oylaqları Göyçə dənizi ətrafı, Qarabağ qışlağı, Alagöz yaylaqları, Əlincə qalasının olduğu yerlərdir, qədim Azərbaycan torpaqlarıdır!"*

*Öz füsünkar hüsnü, öz təbii gözəlliyi ilə ürəkləri fəth edən, onda xoş duyğular oyadan əzəmətli Göyçə mahalı çox qədim zamanlardan bəri sazın, sözün beşiyi olmuş, qoynunda qüdrətli saz-söz ustadları yetişdirmiş, xalqın sənət mə'bədgahına çevrilmişdir. Bu torpaqda yetişən qüdrətli sənətkarlar öz ilhamı, öz səsi, öz nəfəsi ilə xalqımızın zəngin könül mülkünü isindirmiş, ona yenilməzlik, misilsiz ülviyyət bəxş etmişdir.*

*Dünyaya təzəcə göz açmış körpənin eşitdiyi ilk səs ana səsi, ana laylası olub. Həyata çağıran bu bənzərsiz səs üçün hamımız – bütün bəşər övladları öz anamıza minnətdarıq. Səsi əsrlərin dərin qatlarından gələn Göyçə mahalında dünyaya göz açan körpələr isə ana laylası, ana oxşaması ilə birlikdə daha bir sehrli layla səsinə də qulaq kəsilmişlər. Ana laylası qədər müqəddəs sayılan bu layla telli sazın laylasıdır.*

*Yaxşı fikir verəndə görərsən ki, hər bir azərbaycanlı ananın laylasında saz səsi, saz dünyası çağlayır. Bəlkə də ana özü bunları hiss etmir, ana öz laylalı dünyasındadır... Amma bu səsdə Burla Xatundan, Məhsətiyə, Məhsətidən Qoç Koroğlunun qeyrətli Nigarına, Nigardan isə bu ananın təmiz qanına keçə-keçə gəlmiş bir qopuz yanğısı közərir.*

*Göyçədə saz səsi ana səsinə bir az da dərindən qovuşub, göyçəli uşağın qanına, canına keçib, iliyinə işləyib. Uşaq bu laylalar altında böyüyüb, saz götürüb, bayatı deyib, dastanlar aləminə baş çəkib, nağıllar dünyasına at sürüb, ömrün dadını da burda tapıb, duzunu da...*

*Bu torpaqda hər bir adam şad günündə saza bağlandığı kimi, qəmli anında da sazla ortaq olmuş, sevincini də, dərdini də aləmə onunla yaymışdır.*

*Göyçədə dünyaya gələni də saz qarşılamış, dünyadan gedəni də saz yola salmışdır.*

*Nədənsə adamı istər-istəməz belə bir sual düşündürür:*

*– Görəsən, Göyçədə saza bu qədər bağlılıq haradn gəlir?*

*Saz burada nə vaxtdan çalınır. Bu mahalmı qədimdir, ya sazmı?*

*Tarixin hər dövründə nəvələr tərəfindən verilən bu suallara babalar*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*cavab verə-verə gəlmişlər. Çox vaxt söylədikləri nağıllar dünyasındakı əsatirlər, əfsanələr, nəvələri simurğun qanadına alıb xalqımızın ulu keçmişinə ziyarətə aparmışdır. Ulularımız isə həmişə deyiblər: bu mahal heç və’də sazsız olmayıb, saz da bu xalqsız.*

*Uşaq ikən Dədə Qorqud adlı dünyamızdan xəbərsiz olanda sinə-dəftərlərimizdən “Qurqut dədə“nin çoxlu söyləmələrini eşitmişdim. Sonralar bildim ki, ulu Göyçə öz ulu ozanını Qurqut dədə adı ilə yaşadırmış.*

*Gəlinə ayran deyəydim, mən Dədə Qurqut,*
*Ayrana döyran deyəydim, mən Dədə Qorqut.*
*İynəyə tikən deyəydim, mən Dədə Qorqut,*
*Tikənə sökən deyəydim mən Dədə Qorqut.*

*“Kitabi-Dədə Qorqud“u oxuduqca bu boylarda rastlaşmadığım, amma qocaların dilindən eşitdiyim nə qədər əhvalatlar, incə mətləblər yadıma düşdü. Onları bu müqəddəs eposumuzun səhifələrində çox aradım, ancaq çoxuna rast gəlmədim. Yalnız onda başa düşdüm ki, biz çox şeylər itirmişik. Ulu tarixmizin, hikmət dünyamızın nə qədər sirri, sorağı bizdən əbədilik iraq düşüb.*

*Görkəmli tənqidçi və ədəbiyyatşünas, prof. Yaşar Qarayevin dediyi kimi “Xalqımızın tarixi, hər şeydən əvvəl, onun daş və dəri abidələridir, dilinin, mifologiyasının, folklorunun xalq sənətinin və məişətinin ruhunda, məzmunundadır, həm qədim əsatirdə, həm də bu günün adət-ən’ənələrində yaşayan eyni bir genetik kodun, milli-tarixi yaddaşın məzmunundadır: saxsı qablardan, qızıl camlardan qaya yazılarına və qəbir daşlarına qədər, sehirli nağıllardan, əmək nəğmələrindən, məişət adətlərindən bu günkü bahar, toy və yas mərasimlərinə qədər“!*[1]

*Göyçədə elə bir dağ yoxdur ki, orada oğuz qəbirlərinə, oğuz izlərinə təsadüf olunmasın. Toxluca kəndindəki Qanqallı dağında, Göyərçinli kəndinin örüşündə, “Qara qüzey“ adlı dağın başında, Zod aşırımında, Soyuqbulaq ətrafındakı oğuz qəbirləri xalqımızın ulu keçmişinin bu günə qədər gəlib çatan ölməz abidələridir. Göyçənin el ağsaqqalları bu qəbirlərə öz əcdadları kimi zaman-zaman ehtiramla yanaşmış, onları müqəddəs hesab etmiş, bu hörmət və məhəbbəti nəsildən-nəsilə ötürərək bu günümüzə qədər çatdırmışdır.*

*Oğuzlar iribədənli olduqlarından qəbirləri də çox böyük olurmuş. El arasında belə bir rəvayət gəzir: Deyilənə görə “Qara qüzey“ adlı dağın başında dəfn olunmuş Ömür adlı oğuz bu obanın başçısı, adlı-sanlı*



*ağsaqqalı imiş. O, bütün oğuz tayfalarına başçılıq edər, hamını xeyirxah əməllərə çağırarmış. Pisliyə, xəbisliyə, düşmənçiliyə yol verməzmiş.*

*Getdikcə zəmanə dəyişir, insanlar kin-küdurətli olmağa*

------------------------

**1. Azərbaycan jurnalı. 1988, №1. səh.100.**

*başlayır. Bədxahlıq artdıqca Ömür dədənin də paxıllığını çəkənlərin sayı çoxalır. Ona dağ çəkmək üçün iki oğlunu namərdcəsinə öldürürlər. Hamıya xeyirxahlıq arzulayan Ömür dədə insanlardan incik düşür. Oğlanlarının və özünün qəbrini “Qara qüzey“ dağının başında qazdırır. Oğlanlarını dəfn etdikdən sonra bir ayağını qəbrin içinə, birisini isə çölünə qoruyub deyir:*

*– Ey uğuzlar, /Göyçədə oğuzlara uğuz demişlər/ siz çox pak və ləyaqətli adamlar idiniz, çalıb-oxuyar, deyib-gülər, hönkürüb ağlayardınız. Birinizə bəla gələndə hamınız yas tutar, birinizə düşmən daş atanda hamınız qabağa durardınız. İndi zəmanə pis gəldi, sizi dəyişdi. Daha mən sizə ağsaqqallıq edə bilməyəcəyəm. Mənim oğlanlarımı öldürməklə tayfalar arasında düşmənçilik yaratdınız. Mən sizə uzun illər ağsaqqallıq edəcəydim. Ancaq daha ofsandım. Hələ yaşayacaq və sizin də ömrünüzü uzatmağa çalışacaqdım. Ancaq görünür bunlar qismət deyilmiş. Nə etmək olar?! Taleyin əlində oyuncağa döndüyümüzü anladım. Yerimi bu uca dağın başında salıb dünya boyu sizə baxacağam. Ürəyim sizdən qırılsa da, gözüm üstünüzdə olacaq. Şər iş tutanları lə’nətləyəcək, yaxşı əməllərinizə xeyir-dua verəcəyəm.*

*Bu sözləri deyib qəbrinə uzandı və canını tapşırdı. Elə burdaca oğuzlar and içdilər ki, qəbrimiz yalnız Ömür babanın qəbri kimi ən uca yerlərdə qazılacaqdır.*

*Göyçənin bir çox yerlərində qədim qəbirstanlıqlar mövcuddur. Bu qəbristanlıqlarda nə xristianlıq, nə də müsəlmanlıq izləri vardır. Bunlardan biri də Ağbulaq kəndinin içində çox qədimdən qalma qəbiristanlıq idi. Bu qəbiristanlıq müəyyən səbəb ucundan dağılıb, yerlə yeksan edildi. Hər bir qəbrin üstünə iri daşlar qoyulmuşdu. Daşlardan birinin üstündə alov təsvir edilmişdi. Bu daş dəvəyə oxşadığına görə ona “dəvə daşı“ deyirdilər. Başqa bir daşın üstündə indiki cürə saza bənzər, çanağı bir qədər uzunsov bir şəkil diqqəti cəlb edirdi. Xalq arasında buna “saz“ daşı deyirdilər. Şorca kəndinin mərkəzindəki qəbiristanlıqda olan qədim məzarların başdaşındakı Qobustan qaya təsvirlərinə bənzər oğlan şəkli ulu keçmişimizdən xəbər verən böyük tarixin kiçik bir nişanəsi deyildimi? Amma heç kəs nə onun mahiyyətinə varır, nə də elmi-tarixi əhəmiyyətini düşünürdü.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Əsatirlər, əfsanələr, nağıl və dastanlar qış ayında göyçəlilərin ən munis həmdəmi olardı. Yaxın qonşular hər gün bir evdə toplaşar, gecənin yarısına qədər sazın-sözün isti, ılıq nəfəsi ilə isinər, ulu keçmişimizin müdriklik dünyasında bu günümüzə körpülər salardılar. Qadınlar biş-düşlə məşğul olar, kişilər bir yerə toplaşıb nağıl danışar, dastanlar söylər, gənclər isə yanıltmacalara başlar, oyunlar təşkil edər, uduzanı cəzalandırardılar. Uduzanlar həmin gecəni qaravəlilərlə başa vurmalı idilər. Bə'ziləri isə nağıl danışmağa məcbur edilərdi.*

*Nağıllar Göyçə folklorunun ən geniş yayılmış janrlarındandır. İlk nümunələri çox uzaq keçmişlərdə yaranan bu nağıllar ağızdan-ağıza keçərək bu günümüzə qədər gəlib çatmışdır. Bu xalq yaradıcılığın nümunələri, ilkin görüşlərimizi, e'tiqadlarımızı, adət-ən'ənələrimizi öyrənmək üçün çox dəyərli materiallar verir.*

*Folklorşünaslıqda nağıllar ən'ənəvi olaraq üç qrupa ayrılır: Sehirli nağıllar, heyvanlar aləmindən bəhs edən nağıllar və məişət nağılları. Nağıl janrının ümumi xüsusiyyətini bu və ya digər dərəcədə bu qruplara daxil olan nağılların hamısına aid etmək olar. Onu da göstərmək lazımdır ki, nağılların hərtərəfli öyrənilməsi onların müxtəlif süjet bölümlərinin hər birinin ayrı-ayrılıqda sistemli şəkildə araşdırılmasından sonra mümükündür. Ancaq bu yolla folklorun müxtəlif oxşar və fərqli xüsusiyyətlərini aşkara çıxarmaq, onların səviyyəsi xüsusiyyətlərini müəyyənləşdirmək olar.*

*Göyçə nağıl repertuarında sehirli nağıllar böyük yer tutur. Toplanmış nümunələr üzərində müşahidələr göstərir ki, bu bölgənin nağıl repertuarında sehrli nağıllar üstünlük təşkil edir.*

*"Balıqların gülməsi", "Torçu oğlu", "Bəxtiyar", "Gülxanım", "Ovçu oğlu", "Sehrli papaq", "Pəri qızların nağılı", "Sənubərin nağılı", "Tilsimə düşmüş qız", "Dəyirmançı oğlu", "Tacir Əhmədin nağılı" və s. sehrli nağıllar qeyri-adi hadisələrlə, qəhrəmanlarla mö'cüzəli əşyalarla zəngindir. Mürəkkəb quruluşa malik bu tip nağıllarda insanların qədim mifik baxışları əks olunmuşdur. Bu təsəvvürlər inkişaf prosesində aradan çıxmış, ancaq nağıl estetik mə'nasını itirmədən bədii əsər kimi xalqın yaddaşında bu gün də yaşayır.*

*Sehirli nağılların səciyyəvi xüsusiyyətlərindən biri odur ki, nağıllarda süjet əfsanəvi məkan və zaman hüdudunda inkişaf edir. Bədii nağıl məkanı real məkandan ayrılır, xəyali şahlıq və dövlətlərlə bağlanır. Sehirli nağıllarda həm də həqiqi dünya-kəndlər və şəhərlər, göllər, meşələr də əks olunur.*

*Nağılda böyük məkan kiçik vaxt içində qət edilir. Bu da həmişə sehirli köməkçilər-sehirli quşlar, sehirli vasitələr uçan xalça, sehirli*



*üzük və s. köməyi ilə yerinə yetirilir.*

*Xeyirlə şərin mübarizəsi sehirli nağılların əsas mövzusunu təşkil edir. Sehirli nağıllarda xeyirxahlığı və bədxahlığı təmsil edən qüvvələr ən'ənəvi obrazlarda əks olunurlar. Nağılın baş qəhrəmanı xalq idealının əsas daşıyıcısı hesab olunur. Nağıl qəhrəmanında xalqın çoxəsirlik arzuları ifadə olunur.*

*Göyçədən toplanmış nağıllar bir daha təsdiq edir ki, əfsanə və rəvayətlərdən fərqli olaraq nağıllar poetika baxımından daha çox ortaq xüsusiyyətlər kəsb etdiyindən onları müəyyən mə'nada beynəmiləl janr da adlandırmaq olar. Çünki ad göstəriciləri nəzərə alınmazsa, nəinki ayrı-ayrı regionlar arasında, hətta müxtəlif xalqların nağılları arasında çox böyük yaxınlıq müşahidə edilməkdədir.*

*Mif və folklor nəzəriyyələri göstərir ki, mif müəyən inkişaf mərhələsi keçdikdən sonra parçalanır və ondan folklorun epik növünün janrları-nağıl, əfsanə və rəvayətlər yaranır.*

*Nağılı mifdən fərqləndirən başlıca xüsusiyyət bundan ibarətdir ki, miflərdə qlobal dünyəvi səviyyədə, kosmik məkanda baş verən hadisələr, nağılda ailə çərçivəsinə aid edilir. Bu da nağılların öz mövzu, ideya və poetika xüsusiyyətlərini şərtləndirir. Nağılın bilavasitə mifdən təkan olması ideyasına üstünlük verən nağıl və qədim epos süjetlərindəki əksi izlərini miflərdə axtarmağı təklif edən E.M.Melentinskinin fikrincə "nağılla mifin genetik əlaqəsi şübhə doğurmur. Mifoloji düşüncənin spesifik özünəməxsusluqları, həmçinin ilkin fetişist, totemist, animist, magik təsəvvürlər, mifoloji medisiyalar nağılın janr formasını müəyyənləşdirir".[1]*

-------------------------

1. E.M. Meletinski. İstoriçeskaə poetika folğklora. Folğklor. Poetiçeskaə sistema. M., 1977 s. 28-29.

*Mövzu və ideyasına görə klassik sayıla biləcək "Torçu oğlu", "Bəxtiyar", "Ovçu oğlu", "Tilsimə düşmüş qız" və s. nümunələr Göyçə nağıllarının içərisində mifoloji nağıllar qrupunu ayrıca göstərməyi zəruriləşdirir. Bu nümunələr ən qədim nağıl ən'ənəsindən qidalanmaqla yanaşı, mif poetikasının da bir sıra xüsusiyyətlərini əhəmiyyətli dərəcədə özündə əks etdirmişdir. Miflərdə hər hansı müşkülatı həll etmək üçün qurbanlar verilir. Bu tipli nağıllarda da eyni hadisələrə sıx-sıx rast gəlinir. Əgər miflərdə hadisələr dünyəvi mahiyyət daşıyıb lokallıqdan uzaq idisə o, öz tarixi ictimai-mədəni funksiyanı yerinə yetirib öz nüvəsini nağıl və dastanlara təslim elədiyi vaxt yeni janrlar qlobal kosmik konflikti ailə səviyyəsinə endirir.*

*Arxaik miflərdə qəhrəmanlar azmanlarla mübarizə aparırdı. Bu*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*mübarizədə onların hamisi, köməyə gələni sehirli vasitələr, mifoloji varlıqlar olurdu. Adları çəkilən nağıllarda qəhrəmanın köməkçisi və hamisi rolunu müxtəlif sehirli vasitələr yerinə yetirməyə başlayır.*

*Diqqət yetirsək görərik ki, bu nağılların bir bölümündə qəhrəman miflərdə olduğu kimi öz məqsədinə yetişmək üçün məkanını dəyişməli olur. Bunun üçün nağılda "az gedir, üz gedir, dərə-təpə düz gedir" qeyri-müəyyən formulundan istifadə olunur. Başqa sözlə desək, məkan zaman içərisində əridilir. Dastanlarımızda da müşahidə olunan bu məkan dəyişikliyi və qəhrəmanın öz məqsədinə yetişməsində bu faktorun rolu miflərdən gəlmə xüsusiyyətdir. Təhlil göstərir ki, qarşıda duran problem cəmiyyət və ailə səviyyəsində həll olunsa da, haqqında danışdığımız nağıllar öz məzmunları, süjetləri, obrazları və poetikası e'tibarı ilə əski miflərdən qaynaqlanır.*

*Göyçə nağılları bir sıra qədim mifoloji elementlərlə süslənmişdir ki, bu ünsürlər onların sehirlə, ovsunla zənginləşməsinin əsas amilinə çevrilmişdir. Bu cəhətdən "Torçu oğlu" nağılı təhlil üçün dəyərli material verir. Nağılda belə bir motiv var: "Torçu oğlunun" gözəl arvadını ələ keçirmək üçün padşah vəzirinin məsləhəti ilə atasından xəbər gətirmək məqsədilə onu o dünyaya göndərmək tədbirinə baş vurur.Torçu oğlu miflərdə olduğu kimi o dünyadan xəbər gətirməlidir. Torçu oğlunu bu çıxılmaz vəziyyətdən Məleykə arvadı xilas edir. O, arvadının yaxından köməyi ilə zalım hökmdara və onun binamus vəzirinə qalib gəlir.*

*Mifoloji elementlər nağılları dastanlarımızla da yaxınlaşdırır ki, həmin cəhət bu uyğunluğun vahid qaynaqdan nəş'ət etməsini göstərir. Bu cəhətdən "Ovçu Nəbi" təhlil üçün dəyərli material verir. Çıxılmaz vəziyyətə düşən Məhəmməd bir qarının məsləhətilə qırx açarı əldə edib, onlarla bağlı qapıları bir-bir açır. Qırxıncı otaqda gedib bir gölə çıxır. Gölün kənarında gizlənib huri qızların gəlməsini gözləyir. Onun məqsədi məleykələrdən birinin qanadını oğurlamaqdır. Hurilər qanadlarını çıxarıb göldə çimərkən Məhəmməd onlardan birinin qanadını oğurlayır. Hurilər onun niyyətini öyrənmək istəyəndə Məhəmməd deyir ki, mən işıqlı dünyaya çıxmaq istəyirəm. Məhəmməd huri qızın köməyilə çətinlikdən qurtarır və işıqlı dünyaya gedib çıxır.*

*Bəlli olduğu kimi folklor və mifologiyamızında "qanad məsələsi" mifoloji görüşlərin elementi kimi öyrənilmişdir. Bəllidir ki, "Koroğlu" dastanında Qırat Rövşənin qırx gün səbr edə bilməməsi üzündən qanadlarını qeyb edir. Əslində istər dastanda, istərsə də nağılda qanadların yox olması mifdən folklora keçidin əlaməti kimi dəyərləndirilir. Qanad motivi ilə bağlı miflər müəyyən transformasiyaya*



*uğrayıb nağıl poetikasının bə'zi keyfiyyətləri ilə zənginləşir. Bir çox nağıllarımızdakı məleykələrin qanadı əhvalatı həmin nağılların mifoloji görüşlərlə bağlılığından xəbər verməkdədir.*

*"Sənubərin nağılın"da gözləri çıxarılmış və atılmış qızı iki göyrəçin görür. Bunlar qıza kömək etmək məqsədilə lələklərindən çıxarıb ona atırlar. Qızlar gözlərini yerinə qoyub lələyi onun üstündən çəkirlər. Beləliklə, gözləri sağalır.*

*Ümumi qayəsi didaktika üstündə qurulan bu nağılın süjetində məişət motivləri üstünlük təşkil etsə də, sehrin, makiyanın həlledici roluna görə onu "sehirli nağıllar" sırasına aid etmək daha doğru olardı. Bu hər şeydən əvvəl ona görə vacibdir ki, süjetin ən mürəkkəb məqamında başlıca qayə sehrin, ovsunun vasitəsilə çözülür.*

*Bəllidir ki, mövzu və problematikasından asılı olmayaraq əksər nağıllarda qarşıdurma aşağı ilə yuxarının, zəiflə güclünün mübarizəsi şəklində öz ifadəsini tapır. Bu Göyçədən toplanmış nağıllarda özünün daha qabarıq əksini tapmışdır. "Axvay" nağılında folklor poetikasının mühüm bir cəhəti-müəyyən işləri həyata keçirmək üçün geyim-paltar dəyişmək aktının vacibliyi bu baxımdan xüsusi maraq doğurur. Bu məsələyə folklorumuzun digər janrlarında da sıx-sıx rast gəlinməkdədir. Məsələn, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarında Beyrəyin Oğuz elinə qayıdarkən, Koroğlunun çətin səfərlərdə geyimlərini dəyişməsi qəhrəmanın vacib atributiv əlamətləri kimi diqqəti cəlb edir. Nağıllarımızda bu funksiyanı adətən gecələr yerinə yetirirlər. "Aşağı"nı təmsil edən keçəl öz məharəti sayəsində "yuxarı"ya keçir. Tarixi ən'ənəyə görə aşağını təmsil edən yuxarıda yer tuta bilməz. Ancaq nağılda müxtəlif vasitələrdən istifadə etməklə, keçəl bu işi reallaşdıra bilir. "Axvay" nağılının süjeti ilk öncə məişət məsələsindən təkan alırsa, sonradan süjet bir sıra sehirli-mifik ünsürlərlə zənginləşir.*

*Ümumiyyətlə, sehirli nağılların böyük bir bölümündə xalq arzusunun ifadəçisi olan qəhrəmanlar təbiətin qorxunc qüvvələri haqqında təsəvvürlərinin bədii əksi olan divlərlə, əjdahalarla, sehrkar qarılarla qarşı-qarşıya gətirilir.*

*Göyçədən toplanmış Azərbaycan sehirli nağıllarında qəhrəmanın köməkçiləri də mühüm yer tutur. Bu sırada birinci yeri qəhrəmanın sevgilisi-onun ən yaxın köməkçisi tutur. Ümumiyyətlə, sehirli nağıllar xarakterinə görə kişilərdən geri qalmayan qadın obrazları ilə zəngindir.*

*"Gülxanım", "Tilsimə düşmüş qız", "Odunçunun kiçik qızı" və s. nağıllarda qadınlar ya baş qəhrəman funksiyasında çıxış edir, ya da nağıl qəhrəmanları qadınların məsləhəti və köməyilə istəklərinə çatırlar. Bu nağıllarda qadınlar gözəlliyin, sağlamlığın simvolu kimi*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*təsvir və təsəvvür olunur. Ümumiyyətlə, sehirli nağıl süjetində qəhrəman və onun rəqibləri ilə yanaşı, qəhrəmanın köməkçiləri də mühüm yer tutur.*

*Göyçədən toplanmış sehirli nağılların bir qismində analıq və onun ögey övlada münasibəti qabarıq şəkildə əks olunur. Zillətə düçar olan yetim uşaq analığın müxtəlif hiylələri ilə qarşılaşmalı olur. "Fatma" nağılında zülümkar analıq necə olursa olsun, kimsəsiz qızlığı öldürməyə çalışır. Ona həyata keçməsi mümkün olmayan min cür tapşırıqlar verir. Ancaq bütün səylərinə baxmayaraq, Göyçək Fatma xeyirxah qüvvələrin köməyilə analığın şərindən qurtarır və xoşbəxtliyə çatır. Analıq və onun keçəl qızı isə bəd əməllərinin cəzasını çəkirlər.*

*Göyçədən toplanmış Azərbaycan xalq nağıllarının bir bölümünü heyvanlar aləmindən bəhs edən nağıllar təşkil edir.*

*"Eşşək, it, xoruz, pişik", "Salxım Suvar bəy" nağıllarında həlledici rol heyvanlara məxsusdur. Özü də bu heyvanlar heç də mifoloji aləmdən gəlib nağıla düşməyiblər. Onlar real dünyanın varlıqlarıdır ki, müşkülatın həll olunmasında insan övladının köməkçisi olurlar. O da diqqəti cəlb edən cəhətlərdəndir ki, folklorumuzun başqa janrlarında, eləcə də bə'zi nağıllarda hiyləgərlik rəmzi kimi qəhrəmana kələk gələn tülkü "Salxım Suvar bəy" nağılında qəhrəmanın sadiq dostuna, köməkçisinə çevrilir. Heyvanlar haqqında nağılları qədim əsatiri görüşlərlə əlaqələndirən, bu qəbildən olan nümunələrdə heyvanların insan sifətlərilə çıxış etməsinin səbəbini araşdıran N.Seyidov yazır: "Bizcə o, bir sıra başqa səbəblərlə yanaşı, həm də nağılın maraqlı olması ona müəyyən mə'na verilməsi və bədiiliyi artırmağa xidmət edir... Hər heyvan danışığı, hərəkəti və xarakteri nağılçı tərəfindən elə məharətlə təsvir edilir ki, bunlar əfsanəvilikdən çıxır. Nağılçı mə'nalı bədii təsvir vasitələrindən istifadə yolu ilə obrazların daxili aləmini açır."[1]*

*Göyçədən toplanmış heyvanlar aləmindən bəhs edən nağıllar istər mövzu, ideya və poetika, istərsə də ən qədim mifoloji görüşləri əks etdirməsi baxımından Azərbaycan nağılları arasında özünəməxsus yer tutur.*

*Göyçədən toplanmış məişət nağıllarının öz süjet dövrəsi, obrazlar sistemi özünəməxsus bədii üsulları var. Burada başqa bir cəhəti də qətiyyən yaddan çıxarmaq olmaz. Şübhəsiz məişət nağılları ilə digər nağıllar arasında fərqli cəhətlər olduğu kimi, oxşar cəhətlər də çoxdur. Tədqiqatçılar məişət nağılları ilə müqayisədə sehirli nağılların mürəkkəbliyini, bu tip nağıllarda mö'cüzəli əşya və hadisələrin əsas yer tutması ilə bağlayırlar. Ancaq məişət na-ğıllarında da bə'zən cəhətlərin aydınlaşdırılması o qə- dər də sadə deyil. "Aslan şah", "Kəndçi qız", "Əhmədin nağıl-*



*lı", "Qismət", "Ağıllı qardaşlar", "Şiraslan" və s. nağılların araşdırılması bunu sübut edir.*

*Folklorşünas H.Zeynallı yazır: "Öz təcrübəmdən göstərəcək olursam, eyni nağılın iki nağılçı tərəfindən müxtəlif şəkildə yazıla bildiyini qeyd etmək lazım gəlir. Səbəbi? Çünki bünların birində xatirə qüvvətli, digərində bir qədər zəif olduğu üçün təfsilatın buraxıldığını və bununla da, nağılın ən gözəl etnoqrafik və bəlkə də tarixi əhəmiyyəti qayıb edilmiş olurdu. Buna görədir ki, bir nağılın nə qədər müxtəlif adamlardan, müxtəlif şəkildə /variantda/ eşitməyə baxmayıb hamısını yazmaq vacibdir.[1]*

*Bu baxımdan Göyçədən toplanılan Azərbaycan nağıllarının elmi-filoloji əhəmiyyəti haqqında söhbət açmağa elə bir ehtiyac hiss eləmirəm. Bu nağıllar bədii xüsusiyyətlərinə görə diqqəti daha çox cəlb edir. Maraqlıdır ki, nağılların əvvəlində işlədilən xüsusi müqəddiməni-pişrovu Göyçə nağılçıları loppazdama adlandırırlar. Alınma söz olan pişrovdan fərqli olaraq loppazdamanın öz leksik mə'nasına görə mahiyyəti daha dolğun ifadə etməsi göz qabağındadır.*

*Ay bəylər, hallı bəylər,*
*Dilləri ballı bəylər.*
*Əyləşin sağ-solumda,*
*Dayanmayın yolumda.*
*Atım basar sizləri,*
*İtim tutar sizləri.*
*Pişiyimi nallaram,*
*Xoruzumu çullaram.*
*Əlimdə gümüş hasa,*
*Yanımda çolaq kosa,*
*Tapıb nallı dovşanı,*
*Tutub çullu dovşanı*
*Qabağıma qataram,*
*Bir tacirə sataram.*
*Tacir mənə saz verər,*
*Yatmağa palaz verər.*
*Yıxılaram yataram,*

-------------------------

1. Seyidov. N.Azərb. nağıllarının bədii xüsusiyyətlərinə dair bə'zi qeydlər.- Tədqiqlər, II Kitab, Bakı, 1966, s.31.

-------------------------



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

1. H.Zeynallı. Ağız ədəbiyyatı, "Maarif və mədəniyyət jurnalı, 1926, №8.

*Yuxumuca qataram,*
*Anlamazı-qanmazı*
*Nağılçılar oyadar.*
*Qananların ağzında*
*Nağılları bal dadar.*

*Loppazdama çox zaman bu kəlmələrlə tamamlanırdı.*

*Nağıl-nuğul bilmərəm,*
*Şəkər, noğul bilmərəm.*
*Bilsəm də söyləmərəm.*
*Şahdan gəlmiş nökərəm*
*Məndən nağıl istəsən,*
*Qavırğanı sökərəm.*

*Loppazdamadan sonra nağılın başlanğıcı gəlir. Bunlar nağılın giriş hissəsinin ən'ənəvi elementidir. Xarakterinə görə onlar hərəkətin zamanını və hadisələrin məkanını tə'yin edir.*

*"Ey yığılan camaat, ey eşidən adamlar, sizə söhbətim var. Bax söhbət eliyənnər deyillər ki, elə adam var ki, ruzusu əkinnən gəlir. Elə adam var ki, biçinnən gəlir. Amma bir kişi varıymış. Bunun da bir arvadı "bir oğlu varıymış. Bunların ruzusu dəryadan gəlirmiş". "Biri vardı, biri yoxdu, bir şəhərdə bir qoca qarı varıydı". "Biri varıydı biri yoxuydu, Allahın bəndəsi çoxuydu. Bir qoca kişiynən bir arvad, bir də onnarın keçəl bir oğlu varıydı".*

*Göyçədən toplanmış nağılların sonluğu ideya məzmunun ifadəsində əhəmiyyətli yer tutur., aydın şəkildə onu ümumiləşdirir. Bunlarda nağılın əsas ideyası, təsvir edilən hadisələrə, xeyir və şər qüvvələrə nağılçının münasibəti də əks olunur. Sonluqlar məzmununa görə başlanğıc kimi, demək olar ki, müxtəlif nağıllarda oxşar, ancaq ifadəsinə görə rəngarəngdir. Məsələn: "Onlar şad-xürrəm ömür sürüb yerə keçdilər. Siz də yeyin- için, mürada yetin. Göydən üç alma düşdü: biri mənim, biri özümün, biri də nağıl söyləyənin", "Onlar muradlarına çatdılar, siz də yeyin, için muradınıza çatın. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də yadında saxlayanın".*

*Məzmununa görə sonluq formulları toy mərasiminin, ümumiyyətlə qəhrəmanın xoşbəxt həyatını, təntənəsini əks etdirir. Sonluq formullarında qəhrəmanın xoşbəxt həyatı göstərilməklə yanaşı, dinləyicilərə də xoşbəxt həyat arzulanır.*



*Nağılların çoxundan xalqımızın öz tarixi dilə gələrdi.*

*– Biri var idi, biri yox idi, Allahın bəndəsi çoxuydu. Uzaq-uzaq ellərdə, şiş dağların arxasında bir təpəgöz varıydı. Oğuz ellərinə göz verib, işıq vermirdi. Qara pəhlivanın igid oğlu Ellaz təpəgözlə yeddi ay, yeddi gün, yeddi saat vuruşub axır ki, onu yaraladı. Təpəgöz Ellazdan canını qurtarıb yeraltı dünyanın qapısı olan Bəzirkan mağarasına girdi.*

*Ellaz iri-iri qayaları yığıb mağaranın ağzını örtdü. Təpəgözlər o vaxtdan işıqlı dünyadan məhrum oldular.*

*Sən demə bu lağımı yaradan, onu bədii təfəkkürümüzə qovuşduran əsatiri uzaqlarda axtarmağa ehtiyac yoxuymuş. Qədim tariximizin canlı şahidi əzəmətli Göyçə dağlarından, qayalarından hal-əhval tutsaydıq çox belə nağıllar öz sirrini bizə aşkarlayardı.*

*Şahdağ silsiləsində, Ardanış kəndinin ərazisində "Bəzirkan" adlı bir mağara var. Onun ağzına yığılmış daşları döyəclədikdə yerin altından uzun-uzadı uğultu eşidilir. Bu yuxarıdakı nağılın hardasa real bir məkana arxalandığına, bu həqiqətdən hopub gəldiyinə aydın bir işarə deyilmi?*

*Nağılçılardan biri deyirdi:*

*– Bax o şiş dağların arxasında iki dağ var. Birinə Ağ dağ deyərlər, birinə Qara dağ. Əyyami qədimdə Ağ dağda ağ sürülər. Qara dağda qara sürülər otlayırmış. Günlərin birində Ağ sürüdəki qoç xəbər tutur ki, qara sürüdəki qara qoç ona meydan oxuyur. Odur ki, ismarığ göndərir. Deyir ki, filan gün, filan vaxt Qara dağla Ağ dağın ətəyində Allah ya sənə verər, ya mənə.*

*Vaxt gəlib çatanda hər iki qoç dedikləri yerdə görüşməli olurlar. Hər ikisi bir günortalıq yolu geri çəkilib kəllə-kəlləyə gəldilər. Qoçlar bir-birini elə vurdular ki, dağlar-daşlar lərzəyə gəldi. Qartallar diksinib buludların qoynunda dövrə vurdu. Dərələr uğuldadı, qayalar əks-səda verdi. Öz qoçlarının vuruşuna tamaşa edən çobanlar qulaqlarını tutdular. Heyrətdən yerlərində donub qaldılar. Gözlərini açanda gördülər ki, qoçlar yoxdur. Harayladılar, ünlədilər, bir azdan sonra qara qoçdan xəbər gəldi ki, mən qaranlıq dünyaya düşmüşəm. Ağ qoçun sədası isə işıqlı dünyadan gəldi. Ağ qoç kömək eləyib Qara qoçu işıqlı dünyaya çıxardı.*

*Döl törədin Qara qoçdan törəyən qoçlar qaranlıq dünya ilə əlləşirdi. Xeyir qüvvələri vurub qaranlıq dünyaya salar. Ağ sürünün qoçları isə onları xilas edərdi.*

*Nağılçının şiş dağların arxasında iki dağ var, biri Ağ dağ, biri Qara dağ-dediyi dağlar sən demə Göyçə dağlarının arxasına söykənibmiş. Vedibasar, Zəngibasar, Cığın ellərinin yayda yayladığı Ağ dağ, Qara*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*dağ...*

*Göyçədən toplanılmış arxaik janrlar, xüsusilə miflər, əfsanələr, inanclar, halavarlar, sayacı sözləri, mövsüm və mərasim nəğmələri xalqımızın bədii-estetik düşüncəsinin və dünyagörüşünün bir çox qiymətli və indiyə qədər bizim üçün namə'lum olan sirli-soraqlı dünyasından maraqlı bilgilər, soraqlar verməkdədir. Əsrlərin, qərinələrin sınaqlarından çıxaraq bu günümüzə qədər gəlib çatan bu maraqlı folklor örnəkləri ümumtürk mifoloji təfəkkürünün bir sıra son dərəcə mühüm problemlərinin öyrənilməsi üçün zəngin materiallar verməkdədir. Bunların diqqətlə araşdırılması minilliklərin arxasından qopub gələn saysız-hesabsız hikmətləri, böyük həqiqətləri üzə çıxarır, xalqımızın mifik təfəkkürünün ümumtürk mifologiyasındakı tarixi-mədəni yerinin və mövqeyinin müəyyənləşməsinə qiymətli töhvələrini verir.*

*Göyçədən toplanılmış mifoloji mətnlərdə və rəvayətlərdə, inam və sınamalarda, e'tiqadlarda, alqış və qarğışlarda türk ponteonunun ayrı-ayrı əlamətləri görünməkdədir.*

*Bunlarda ilahi qüvvələrlə bağlı astral təsəvvürlərdən başlamış, dünyanın yaranması və ilk insan törənişi haqqındakı totemist təsəvvürlərə qədər əski düşüncə və inanclarımızın bir çox maraqlı detal və elementləri yaşamaqdadır.*

*Bu mifoloji mətnlərin üzərində müşahidələr ümumtürk mifoloji sisteminin kamil və bitkin şəkildə dərk edilməsinə gözəl şərait yaradır.*

*Xalqımızın ibtidai təfəkkür və təsəvvürlərindən doğulan bir çox inamlar əsrlər boyu nəsildən-nəsilə keçərək yaşamış, öz varlığını bu günə kimi qoruyub saxlamışdır. Oda, suya, ağaca, bitkiyə, qurda, quşa, ev heyvanlarına tapınan ulularımızın bə'zi inamları Göyçədə hələ yaşamaqdadır.*

*İlin-ayın axır gecəsində at kövşəyər deyirlər. Bu vaxt axar su bir anlığa dayanır.*

*– Boğazı ağrıyan adamın boğazına Kürdən keçən adam əlini çəkəndə xəstə şəfa tapır.*

*– Çənətə qaynar su töksən cinlər sədəmə toxuyar.*

*– Qapının başından qurd ağzı asmaq lazımdır ki, xata-bala bu evə yaxın gəlməsin.*

*Novruz bayramı Göyçədə ən dəbdəbəli bayram hesab olunur. Qırx gün qabaq bu bayrama hazırlıq görülür. Əvvəlcə ev-eşik silib-süpürülür, həyət-baca təmizlənir, uşaqlara başdan-ayağa təzə paltar alınır. Novruzdan əvvəlki dörd çərşənbənin hərəsi bir məqsədlə qeyd edilir. Səməni göyərdilir və bundan hazırlanan halva ilin nübar bişmişi hesab*



*olunur. Onun bahar təravətli ətri bütün məhləni başına götürür. Səməni yeməklə doymaq olmur.*

*Yeddi löyün gecəsi ən təmtəraqlı gecələrdən biridir. Gənclər, uşaqlar səhərə qədər sulaşır, qapı pusur, vəsf-hallar oxunur ərgənlər öz bəxtlərini sınayır.*

*Ağsaqqallar evdə hamıya möhkəm-möhkəm tapşırır ki, danışanda çalışın pis söz danışmayın, qapı pusanların qəlbi qırıla bilər.*

*Novruzdan bir ay əvvəl axşamlar tonqallar qalanır, lopa atılır. Son üç gün isə kəndlərin yaxınlığında, dağların başında olan kəvənliklərə od vurulur., hər yan çıraqban olurdu.*

*Öz qədimliyi ilə islamiyyətdən çox-çox əvvəllərlə səslənən Qurban bayramı da Göyçədə həmişə böyük təntənə ilə keçirilirdi.*

*Ən qədim mərasimlərdən olan Xıdır Nəbini göyçəlilər bu yaxınlara qədər qoruyub saxlamışdılar, yağışlı havalarda cavanlar qodu-qodu gəzdirirdilər.*

*Qodu-qodunu gördünmü?*
*Qoduya salam verdinmi?*
*Qodu burdan ötəli,*
*Heç gün üzü gördünmü?*
*Qara toyuq qanadı,*
*Kim vurdu, kim sanadı?*
*Getmişdim Göyçəyə*
*İt baldırım daladı,*
*Yağ verin yağlamağa,*
*İp verin bağlamağa...*

* * *

*Adlar heç vaxt təsadüfən yaranmır, müəyyən zərurət nəticəsində meydana gəlir. Onların hamısında nəyəsə söykənən gizli bir həqiqət yaşayır. Xüsusilə yer və yurd adlarından xalqın tarixi keçmişi ilə bağlı çox şeyləri öyrənmək olar. Gəlin birlikdə bu adlara ötəri bir nəzər salaq:*

*Yaylaqlar: Soyuqbulaq, Cantəpə, Bozalqanlı, Alagöllər, Qaraxac, Gödək silvi, Səfalı.*

*Dağlar: Böyükdağ, Murğuz, Qazanuçan, Sarınər, Şivri, Qısır dağ, Şahdağ, Keyti, Çənlibel.*

*Yurd yerləri: Qırlının yurdu, Qışdağın yurdu, Bəlli Əhmədin yurdu, Qarapapağın yurdu, Əmirəhmədin yurdu, Kazım düşən, Telli Əsədin yurdu və s.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Dərə adları: Həsənağanın dərəsi, Gözəldərə, Baldırğanlı, Çətindərə, Ayı dərəsi, Sulu dərə və s.*

*Bulaqlar: Ayğır, Sona bulağı, Pəri bulağı, Novlu bulaq, Şirin bulaq, Dərin bulaq, Dürlü bulaq, Hacı Hüseyn bulağı və s.*

*Adlar özü dil açır, özü danışır. Hərəsi bir tarix yaşadır, çatdırır yeni nəsillərə.*

*"Bozalqanlı" yaylağına həmişə Tovuzun Bozalğanlı kəndinin camaatı çıxıb. Saf, şəffaf suyu olan Dürlü bulağın adına qırxa qədər şe'r qoşulmuşdur. Xəyyat Mirzənin "Dağlar" rədifli şe'rində oxuyuruq:*

*Bizim Böyük dağ maral oyudu,*
*Kirkitlinin döşü rizvan boyudu.*
*Dürlü bulaq abi-kövsər suyudu,*
*İçəndə dad verir dəhana, dağlar!*

*"Qarapapaq" yaylağına Qazağın Qarapapaq eli düşüb. "Qazandüşən" yurduna isə... Bu mətləbin üstündə bəlkə bir az dayanmalı olaq...*

*Demişdik ki, Qorqud Dədəmiz türk ellərini gəzib, boy boylayıb söz söyləyib. Göyçə eli də onun qopuz tutub, boy boyladığı ən qədim yurdlarından biridir. Qazandüşən yurdu da ulularımızın əsrlərdən bəri əzizləyə-əzizləyə yaşatdığı yer adlarından biridir. "Qaraqoyunlu" dərəsində də ulu keçmişimizlə, daha doğrusu oğuz tayfaları ilə bağlı yerlər az deyil. Bu yerdə hansı sinədəftəri dindirsən sənə nişan verər:*

*– Bax, gördüyün bu yurdda Qazanxan dəyə qurubmuş, elə yurd da onun adı ilə adlanıb.*

*Professor Qara Namazov "Azərbaycan aşıq sənəti" kitabında yazır: "Oğuzların əsas yurdlarından olan Bozalqanlı, Ağstafa /Oğuz tayfa/ Borçalı, Qazangöl, Qazandüz, Murğuz ətəyində Çaykəndin yaxınlığında Qazandüşən yurdu və Qazandüşən dərəsi indi də bu adı daşıyır/, onun cənub qənşərində Soyuqbulaq yaylağı, Göyçə gölü ətrafı-Göyçə mahalı oğuzların əsas məskənlərindəndir".[1]*

*Göyçədə bir sıra yer-yurd adları "Şah" sözü ilə adlanır. Məs. Şahdağ, Şah ocağı, Şah meydanı.*

*Bu adların sirli-sehrli dünyasına da biz aqil babaların nəsildən-nəsilə keçən ulu yaddaşları ilə səfər eləyirik. O yaddaşlar ki, neçə-neçə azman sənətkarı, onların ölməz yadigarlarını geniş yüzilliklərdən halallıqla gətirib bizə çatdırmışdır. O yaddaşlar ki, Koroğlunun nə'rəsini, Keçəl*

------------------------------

**1. Q.Namazov. "Azərbaycan aşıq sənəti", 19984, səh 19.**



*Həmzənin hiyləsini olduğu kimi bu günün yaddaş kitabına yazmışdır.*

*"Şah meydanı" adlanan yer də göyçəlilərin yaddaşına beləcə həkk olmuşdur. Bu toponim Səfəvilərin qüdrətli sərkərdəsi Şah İsmayıl Xətainin adı ilə bağlıdır.*

*1501-ci ildə Şah İsmayıl Xətai Şirvana səfərini başa çatdırıb, Ərdəbilə dönərkən Gəncə-Göyçə-Naxçıvan istiqamətini seçir. Xınna dərəsində müqəddəs sayılan "haça qaya"nı ziyarət edib, Göyçəyə üz tutur. "Oyuqlu"dan aşıb bir düzəngaha çatanda görür ki, bura çox səfalı çəmənlikdir. Əmr verir ki, əsgərlər burada iki gün dincəlsinlər. Şah İsmayılın gəlişi ətraf kəndləri heyrətə salmışdır. Onunla görüşə gələn el ağsaqqalarını Şah İsmayıl böyük ehtiramla qarşılayır. İki gün dincələndən sonra qoşun Göyçənin kəndləri ilə "Başa" /Basarkeçər tərəfə, Göyçənin qərbinə "Baş" da deyiblər/ tərəf yollanmalı olur. Şah İsmayılın qoşunu ilə düşərgə saldığı meydan o vaxtdan "Şah meydanı" adlanır. Həmin meydan indi Krasnoselo rayon mərkəzindəki sovxozun ərazisindədi. Buranın yerli sakinləri olan ruslar da bu yerə "Şax meydan" deyirlər.*

*Şah qoşunu Göyçənin qüzeyindən güneyinə tərəf keçib gedərkən xəstə və yorğun atların əvəzinə kəndlərdə onlara seçmə atlar bağışlanırmış. Hətta o dövrdə bu münasibətlə belə bir bayatı da yaranmışdır:*

*A Yellicə, Yellicə,*
*Dağı-daşı güllücə.*
*Şaha köhlən versənə,*
*Hər ilxıdan əllicə.*

*Yellicə Ağbulağın qabaqkı adı olmuşdur.*

*Şah İsmayıl Göyçədə yalnız Göyçənin Qaraqoyunlu kəndində müqavimətə rast gəlir. Və həmin kənddə Miskin Abdalla tanış olur. Xüsusi fərmanla Sarıyaqub kəndini ona bağışlayır. Həmin yazılı fərman və Miskin Abdala məxsus bir sıra əşyalar onun Sarıyaqubdakı evində bu son hadisələrə qədər qorunub saxlanılırdı.*

*Hər birində böyük bir tarixi həqiqət yaşayan bu toponimlərlə bağlı el arasında maraqlı rəvayətlər dolaşmaqdadır. Bunların toplanılıb araşdırılması bizə mə'nəvi keçmişimiz haqqında çox şeylər deyər, çox həqiqətləri aşkara çıxarardı. Bu mə'nada Şah dağının ətəyində qərar tutan "Şah ocağı" və "Topaşan" toponimlərini yaradan tarixi hadisələrə müraciət edək.*

*Nadir Şah Əfşar /1738-ci il/ öz qoşunu ilə Ardanış kəndi yaxınlığındakı aşırımdan keçərkən öküzlər topu qaldıra bilmir.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Əsgərlər öküzləri açıb özləri yedəyə qoşularaq topu gədikdən aşırırlar. Elə həmin vaxt tufan qopur, güclü dolu düşür. Aran yerindən çıxmış əsgərlər tufana tab gətirə bilmir. Şah qırğın olacağını hiss etdiyi üçün əsgərlərə əmr edir ki, bir yerdə dayanmasınlar. Qoşun çox çətinliklə min bir əziyyətdən sonra bir daşlı yerə çatar-çatmaz tufan kəsir, gün çıxır. Şah əmr edir ki, ocaqlar qalansın, şadyanalıq edilsin! Qoşunun qırğın təhlükəsindən qurtarması şahı sevindirir.*

*"Topaşan" və "Şah ocağı" toponimləri bu hadisələrdən sonra dünyaya gəlir.*

*Tayı-bərabəri olmayan "Soyuqbulaq" yaylağı. Əsrlər boyu Qazağın Qıraq Kəsəmən camaatının ovlağı olan bu əsrarəngiz torpaqda neçə-neçə ünvanlar, adlar, yaşayır. Onlardan biri də öz igidliyi, cəsarət və qeyrəti ilə dillərdə dastana çevrilmiş Qaçaq Kərəmə öz qoynunda da vaxtilə yer vermiş bir qayadır. Bu qayanı xalq öz yenilməz oğlunun adı ilə əbədiləşdirib. "Kərəm qayası" deyib ona.*

*Göyçə gölünün köksündən Göyçəyə baş çəkən bir dağa babalarımız "Ada təpə" demiş onun zirvəsinə isə "Koroğlu" adı vermişlər. Bu adın özündə də böyük bir tarixi həqiqət yaşamırmı?!*

*"Koroğlu zirvəsində uçub-dağılmış tövlə xarabalıqları və bir daşa çalınmış tovlamıxı əfsanələşmiş tarixi gerçəkliyimizin yadigarı, sübutu deyilmi?!*

*"Ədəbiyyat və incəsənət" qəzetinin 7 sentyabr 1984-cü il tarixli nömrəsində R.Babaxanov dərc etdirdiyi "Koroğlu" dastanı və Koroğlunun məskəni" adlı məqaləsində yazır:*

*– "Azərbaycanda bir sıra qalalar vardır ki, onlara xalq Koroğlu qalası deyir. Belə qalalar indiki Tovuz, Şamxor, Gədəbəy, Qazax rayonlarının ərazisində və Ermənistanın bu yerlərə yaxın olan dağlarında vardır. Onların bə'ziləri XVIII-XIX əsrlərdə dağılmış və sonralar yerlə-yeksan olmuşdur".*

*Ağmanqan /Ağmağan/ dağı ilə qonşu olan "Çənlibel", ondan bir az aralı yerləşən Qoşabulaq xalq arasında Qıratın və Düratın Göyçə gölündən çıxması ilə bağlı söylənilən əfsanələr Koroğlunun bu yerlərlə bağlılığı ehtimalını bir daha artırır.*

*Göyçədə yaşayan əhali çox qədimlərdən bəri əkinçilik, heyvandarlıq və arıçılıqla məşğul olmuşdur. Əhalinin bir qismi isə Göyçə gölündə balıq ovlamaqla güzəran etmişdir. Amma sazlı-sözlü nağıllı-dastanlı gecələr onlar üçün hər şeydən əziz, hər şeydən doğma olmuşdur. Gündüzlər nə iş görsələr, axşamlar öz hikmət dünyalarına qovuşmağa tələsmişlər.*

*İlxı-ilxı at saxlamışlar. Naxır-naxır mal-qara, sürü-sürü qoyun-*



*quzu. Yayda yaylağa çıxmışlar, qışda qışlağa dönmüşlər. Hansı yaylaq daha yaxşıdır?-deyə bəhsləşmişlər. Qaraqoyunlu dərəsindəki "Cantəpə" yaylağının şöhrəti Ağzıbir, Ağqala, Hacımuxan camaatına çatıb, "Ağmanğan" yaylağının adı Şişqaya, Zod ellərinin dilindən düşməyib. Hansı yaylaqda tabağa sərilmiş südün qaymağı çəpişi saxlamasa, o öz şöhrətini itirərmiş.*

*Yaylaqlarda sayalar söylənər, sağım vaxtı çatanda eydirmələr dil açardı.*

*Nənəm, a dəli qoyun,*
*Əcəb gülməli qoyun,*
*Aman ver sağım səni,*
*Mərcan məməli qoyun,*
*Nənəm, a kürə qoyun,*
*Gözləyir bərə qoyun.*
*Nəsilin azalmasın,*
*Sən çoxal, törə, qoyun.*

*Torpaq öz nəğmələrini holavarları zaman-zaman yaradır, nəsildən-nəsilə ötürürdü.*

*Şumla Təpəl, ək Təpəl,*
*Torpağa tər tök, Təpəl.*
*Boynunu mən yağlaram*
*Qorxma cütü çək, Təpəl!*

*Gözümü yaş apardı,*
*Öküzüm baş apardı.*
*Belin sınsın əkinçi*
*Toxumu quş apardı.*

*Toy-düyünlər çox vaxt yaylaqlarda keçirilərmiş. Qonşu obanın igidləri bu şənliklərə də də'vət olunar, at oynadar, güləş tutardılar. Göyçəlilər təknədəki çörəyini dostla bölüşməyəndə boğazından getmədiyi kimi, yaylağa da tək çıxanda darıxardılar. Ağır ellər bu yaylaqlara yeriməsə yaylaq yaylaq hesab olunmazdı.*

*Göyçənin cənub yaylaqları Vedibasar, Cığın, Zəngibasar elləri ilə qonşu olardı. Cənub-şərqdən "Dərələyəz", Şərq tərəfdən isə "Qarabağ", "Cavanşir", elləri bu yaylaqlarda qovuşardı. Şimal hissəsinə isə Qazax, Tovuz, Şəmkir, Eldar mahalları çıxardı. Aşığın*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*sazı, qız-gəlinlərin qəhqəhəsi, tütək səsi, it hürüşməsi, mal-qara böyürtüsünə qoşulub bu çal-çağır, bin-bərəkət dünyasından xəbər verərdi. Xeyir də, şər də elliklə olardı. O üz Göyçədə bir hadisə olanda bu üz Göyçəyə ocaqla xəbər verərdilər. Həmişə qayıq saxlar, bu üzdən o üzə keçib gedər, qohum-qardaşdan xəbər tutardılar.*

*Bu yaylaqlarda ellərimizin-obalarımızın sanı-sözü bir-birinə qovuşar, ulu keçmişimizin mə'nəvi qüdrəti onları bir-birinə daha da yaxınlaşdırar, doğmalaşdırardı.*

* * *

*Folklor harada yaranmasından, yaşamasından asılı olmayaraq mənsub olduğu xalqın müştərək mə'nəvi sərvətidir. Amma bununla belə xalq sənətinin çox mürəkkəb və ziddiyyətli bir yol keçdiyini də yaddan çıxarmaq olmaz. Müxtəlif ərazilərdə bir-birindən fərqli ictimai-siyasi şəraitlərdə yaşayan insanların həyat tərzi onların dünyagörüşünə və bədii təfəkkürünə tə'sirsiz qala bilməz. Xalq yaradıcılığının dərin elmi təhlil və tədqiqi yalnız onun bu xüsusiyyətlərini nəzərə almaqla reallaşa bilər.*

*Bu kitabda biz xalq ruhuna, onun bədii-poetik təfəkkürünün xüsusiyyətlərinə, dilinə və təhkiyə tərzinə sadiq qalmağa çalışmışıq. Xalqın hafizəsində qoruyub yaşatdığı bədii nümunələrə yersiz müdaxilə etməyi, "səlisləşdirməyi", "dolğunlaşdırmağı özümüzə rəva görməmişik. Xalqın nəyi varsa, onu olduğu kimi özünə qaytarmağa çalışmışıq. Məhz bu səbəbdəndir ki, Göyçənin müxtəlif regionlarından toplanılan folklor nümunələri öz bədii-sənətkarlıq səviyyəsinə, dilinə və üslubi xüsusiyyətlərinə görə bir-birindən bu və ya digər dərəcədə fərqlənir.*

*Xalqımızın bədii yaradıcılıq qüdrətini real mənzərəsilə yaradılmasında, daha dəqiq demiş olsaq, türk tarix və mədəniyyətinin öyrənilməsində Göyçədən toplanılmış folklor materialının əhəmiyyəti çox böyükdür.*

*Çeşidli coğrafi bölgələrə səpələnmiş eyni köklü, qohum folklor görnəklərinin hamısına eyni vaxtda xas olan ortaq genetik kodun aşkarlanması üçün, onların poetikasının ümumtürk struktur və sisteminin bərpası üçün kitabda toplanılmış mifoloji rəvayətlər, inam və görüşlər böyük mə'na və əhəmiyyət kəsb edir. Bunların diqqətlə araşdırılması türk xalqlarının mifik təfəkkürü və onun qaynaqları haqqında mə'lumatlarımızı xeyli genişləndirər, onun ilkin dominant insürlərə görə müəyyənləşdirilməsi işinə konkret töhfələr verə bilər.*

*Hami ruhlar, mifoloji varlıqlar /"əyə, qaraçuxa"/ haqqında bə'zi inamlar öz kökləri ilə çox qədim dövrlərə ünvanlanır və şamançılıq, tanrıçılıq görüşləri ilə səsləşir. Bu əsatirlərdə "əyə"lər insanların sağlamlıq və səadətinin, evin bin-bərəkətinin qoruyucusu, ailənin mifik sahibi, başqa sözlə ev tanrısıdır. Ona iman gətirdikdə, hörmətlə yanaşdıqda ailənin səadəti tə'min olunur. Yox, əgər evdən kimsə ona itaət göstərməsə, inamını itirsə, bu hami ruh onlardan üz döndərər, beləliklə şər qüvvələr ailəyə bədbəxtlik gətirə bilər.*

*"Qaraçuxa" mifik inama görə hami ruhdur. İnsanların tale, bəxt tanrısıdır. İnsan öz "tale tanrısı"na iman gətirsə, şər qüvvələrdən uzaq olsa onda onun qaraçuxası daim oyaq qalır və onu hər bəladan hifz edir.*

*Belə faktların aşkarlanması, elmi şərhi mifologiyamızın öyrənilməsi, habelə ümumtürk mifoloji sisteminin bir sıra vacib problemlərinin həlli üçün geniş imkanlar açır.*

*Bildiyimiz kimi, milli mifologiyanın dərindən öyrənilməsi konkret etnik-mədəni varlığımızın bərpasından başlanır. Ayrı-ayrı mifik obraz və inamların təhlil və tədqiqi konkret ədəbi-mədəni varlığımızın bərpasına, bütövlükdə qədim mədəniyyətimizin, təfəkkür və təsəvvürlərimizin dərindən öyrənilməsinə şərait yaradır.*

*İndiyə qədər xalqımızın ən qədim yaşayış məskənlərindən biri olan Göyçənin şərəfli tarixi, zəngin folkloru ilə dəmək olar ki, məşğul olmamışıq. Unutmuşuq ki, bu torpağın hər qarışında, hər qaya və daşında, hər bir çəmənində, bulaq və çaylarında böyük bir tarix yaşayır. Əfsanələrə çevrilmiş nə qədər həqiqət öz sirrini keçmişimizdən bu günümüzə gətirir. Xalqın bədii yaddaşı dilə gəldikcə tariximiz, ulularımızın mə'nəvi dünyası bütün əzəmətilə gözlərimiz önündə canlanır, bizə çox şeylər deyir, bizi çox həqiqətlərdən hali eləyir.*

*Yaşlı nəsildən, klassik nağılçılarla təmasda olmuş ağsaqqal babalardan, ağbirçək nənələrdən toplanılmış nümunələrdə həm bədiilik, həm də xalq dilinə yaxınlıq daha güclüdür. Nisbətən gənc folklor həvəskarlarından toplanılan nümunələrdə isə xalq dilinin e'cazkar cazibəsi nisbətən solğun görünür.*

*Holavarlar, sayacı sözləri, eydirmələr xalqımızın ibtidai görüşlərindən, qədim inam və e'tiqadlarından çox şeyləri bu günümüzə gətirib çatdıra bilmişdir. Qədim əcdadlarımızın bədii poetik təfəkkürünün məhsulu olan bu nümunələr zamanın keşməkeşli, dolanbac yollarında nə qədər dəyişsə, nə qədər cilalansa da haradasa öz ilkinliyinə sadiq qalmış, bizi bu günümüzdən keçmişimizə aparan sirli-soraqlı yolların ən e'tibarlı bələdçisi olmuşdur.*

*Göyçədən toplanmış Holavar, sayacı sözləri və eydirmələrdə*




PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*xalqımızın ulu keçmişindən xəbər verən mə'na və mətləblər yaşayır.*

*Xalqımızın qiymətli mə'nəvi sərvəti olan bayatılar folklorun lirik janrları içərisində xüsusi yer tutur. O özünün fəlsəfi məzmunu, emosional tə'sir e'tibarı ilə xalq arasında daha geniş yayılmışdır.*

*Bayatılar Azərbaycan şifahi xalq ədəbiyyatının uzunömürlü janrlarındandır. Ulu fikirlər qaynağı olan inci, mirvari misralı bayatılarda xalq həyatının, məişətinin elə bir sahəsi qalmayıb ki, öz bədii əksini tapmasın. Bayatı şirin körpə laylası, dərdli ağı, acı qürbət, əsarət fəryadı, ictimai haqsızlıqlara qarşı e'tirazdır. Bayatı başdan-başa Vətən məhəbbəti, bəşəri eşq, aşiq eşqidir.*

*Xalqın dünyagörüşü, təfəkkürü, milli psixologiyası, bütövlükdə həyat tərzi bayatılarda ən yığcam və kövrək bir şəkildə tərənnüm olunur.*

*Xalqımızın nunis duyğuları, məhəbbət və nifrəti, həsrət və niskilləri, ağrı və acıları bu kitabdakı bayatıların əsas mövzularındandır. Onları oxuduqca biz böyük bir aləmlə qovuşur, həmsöhbət olur, gah dərdimizin üstünə dərd gətirir, gah da alovlanan qəlbimizə su çiləyir, yaramıza məlhəm qoyuruq.*

*Vətən məhəbbəti, el-oba həsrəti nalə və fəryad, alovlu e'tiraz və ümumbəşəri bir haray yaşayır bu bayatılarda. Bizə elə gəlir ki, bu bayatıların bə'zilərinin yaranma tarixini çox uzaqlarda axtarmağa dəyməz. Yalnız əsrimizin Göyçəyə çəkdiyi dağlar, gətirdiyi müsibətlər yarada bilərdi bu misraları. Yalnız qürbətdə qalan Vətənin övladı qopara bilərdi bu fəryadı.*

*Dağ başını qar aldı,*
*Gülüm, soldu, saraldı,*
*Köç etdi el karvanı,*
*Vətən qürbətdə qaldı.*

*Əsrlər boyu sazla-sözlə nəfəs alan bir diyarın şair ürəkli oğulları sonuncu yuzillikdə misli görünməmiş bir müsibətə sinə gərdilər. Qorqudlu, Qopuzlu, Qazanlı, Beyrəkli, Çənlibelli, Qoşabulaqlı Göyçəyə min bir illərdən bəri ayaq basmağa cür'ət etməyən yağılar tariximizin sonuncu yüzilliyində şər qüvvələrin himayəsinə sığınaraq düz dörd dəfə onları öz elindən-obasından didərgin saldılar. Ulu diyarın ən böyük faciəsinin şahidi isə biz olduq. İnsana azadlığı yerdə çox arayıb, artıq fəzalara üz tutan əsrimiz bir-neçə gün ərzində Göyçəni övladsız, övladlarını Göyçəsiz qoydu. Sirli-soraqlı müqəddəs məzarlar, dağlar, dərələr, qayalar, bulaqlar, Çənlibelin belindən əskilməyən çənlər-dumanlar yetimləşdi, dil*



*dedi, ağladı. Onların sədaları ağılara, bayatılara çevrildi. Göyçə adlı dəhşətli bir faciəni gələcək nəsillərə çatdırmaq vəzifələrini ilk dəfə bayatı götürdü öz öhdəsinə.*

*Ana laylası izah olunmayan, açılmayan e'cazkar bir aləm, dərk olunmayan bir qüdrətdir. Bu müqəddəsliyə nüfuz etmək ən azı günahdır. Bunlar haqında neçə-neçə kitablar yazmaqdansa, ana qəlbinin döyüntüləri olan, ana ürəyinin hərarəti ilə isinən və həyata qanad açan bu misraların özü ilə kifayətlənmək, onu dinləmək tə'siri ilə yaşamaq daha yaxşıdır.*

*Arzulamalar məzmununa, ruhuna öz bədii-estetik qayəsinə görə laylalarla çox oxşardır. Ancaq onlarda sonda təkrar olunan qoşa misra yoxdur. Arzulamalar daha çox iki misradan ibarət olur. Laylalardan fərqli olaraq musiqi də, onun ahəngi də dəyişir. Laylada həzin, kövrək bir qəlbin çırpıntıları eşidilərsə, arzulamalarda xoş əhval-ruhiyyə, nikbinlik istək, sevinc duyğuları ön plana keçir.Arzulamalar elə bil ki, laylaların davamı kimi meydana çıxır. Ana öz körpəsinə layla deyir, yatan körpəsinin keşiyini çəkir, ona göz-qulaq olur. Layla ilə yatırdığı balasını layla ilə oyadır. Onu bağrına basıb isindirir, yemləyir. Sonra isə atıb-tutaraq öz sevincini ifadə edir, arzulamalarını söyləyir. Ana öz balasını sevələyir, onun böyüməsini arzulayır.*

*Göyçədən toplanmış folklor örnəkləri içərisində tapmacalar da xüsusi yer tutur. Bu nümunələr əsrdən-əsrə keçdikcə dəyişikliklərə uğramış, bə'zən məzmun və formanı dəyişdirmişdir. Tapmaca əsasən metofora şəklində qurulmuş düşündürücü suallardan ibarət olur. Müəyyən əşya, hadisə və məfhumun hər hansı əlaməti məcazi yolla bildirilir, digər cəhətləri isə gizli saxlanılır. Məsələn:*

*Baz olu, batan olu,*
*Bayquda yatan olu.*
*80 aya, qırx buynuz*
*Ay bunu tapan olu.*
*(Kotan)*

*Qah-qah qalası var bunun,*
*Qan piyalası var bunun.*
*Yumurtlamır, çalxamır.*
*Uçan balası var bunun.*
*(Arı)*

*Göyçədən toplanmış tapmacaların içərisində metoforik mə'nalı*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*nümunələrlə tez-tez qarşılaşırıq.*

*Uzun-uzun ulamar,*
*Ucuna qıl dolama*
*Gedər Alvız dağına,*
*Gələr bizə salama.*
*(Duman-çən)*

*Nə söyən var, nə deyən,*
*Nə kəsən var, nə yeyən*
*Gecə-gündüz ağlayır,*
*Selə dönüb çağlayır.*
*(Bulud)*

*Lakin bu nümunələrin hamısının başdan-başa metoforalar əsasında yaradıldığını söyləmək olmaz. Bu tapmacaların böyük bir bölümü suallar şəklində yaradılmışdır:*

*O nədir ki, sayı bir,*
*Həftəsi bir, ayı bir.*
*Hamımızdan hündürdə,*
*İşığı bir, ayı bir.*
*(Günəş)*

*O nədir ki, həm soyuqda donur, həm istidə.*
*(Qan)*

*O nədir ki, yayda donar, qışda əriyər.*
*(Qurud)*

*Bəlli olduğu kimi, tapmacaların mənşəyi çox qədim zamanlara gedib çıxır. Tapmacalar ilkin dövrlərdə müəmmalı, metaforik danışıqlarla bağlı yaranmışdır. Odur ki, həmin tapmacalar əsasən mifik səciyyəli olmuşdur.*

*Əski çağlarda insanlar Ayı, Günəşi, ulduzları canlı, həm də sirli-mö'cüzəli təsəvvür etmişdir. Belə ilkin görüşlər Göyçədən toplanmış Azərbaycan tapmacalarında da əks olunmuşdur. Belə nümunələrin şəkildən-şəkilə düşməsinə, zaman keçdikcə məzmununun dəyişməsinə baxmayaraq, onlarda ilkin təfəkkürün izləri qalmışdır.*

*Bu kitabda uşaq folklorunun bir sıra başqa nümunələri ilə yanaşı, uşaq oyunlarına da geniş yer verilmişdir. İndiyə qədər*



*folklorşünaslığımızın diqqətindən yayınmış, çox nadir hallarda müraciət edilmiş bu janrda dünənimizin, mə'nəvi keçmişimizin çox böyük həqiqətləri yaşamaqdadır. Əsrlər boyu uzun qış gecələrində bu oyunlar uşaqların və yeniyetmələrin ən çox istifadə etdiyi əyləncələrdən biri olmuşdur. Özü də bunlar sadəcə olaraq "vaxt keçirmək", "baş qatmaq" vasitəsi olmamışdır. Xalq müdrikliyindən qidalanmış, onun bədii təfəkkürünün düşüncə və həyat tərzinin qüdrətini özündə ehtiva etmiş, bu günümüzə qədər gətirib çatdırmışdır.*

*Göyçə – bu qədim oğuz-türk torpağı Azərbaycan folklorunun ən qüdrətli bir qolunun aşıq yaradıcılığının vətəni, beşiyi, ana qucağıdır.*

*Mübaliğəsiz demək olar ki, Göyçə mahalı olmasaydı, bu gün biz aşıq sənətindən bu qədər ağızdolusu danışa, bu sənətin ölməz qüdrətilə bu qədər öyünə bilməzdik.*

*Azərbaycanda aşıq sənətinin yaranmasından, təkamül və inkişafından söhbət açanlar unutmamalı idilər ki, Göyçə olmasaydı, aşıq sənətindən nəninki məktəb, hətta mühit səviyyəsində belə danışmaq mümkün olmazdı. İndi Təbriz, Şirvan, Urmiya və başqa aşıq mühitlərindən söz açanlar, onların hər hansı birinin heç olmasa bir əsrlik yaşından, ən'ənə və varislik əlaqələrindən söhbət aça bilmirlər.*

*Amma, təməlində Azərbaycan aşıq poeziyasının ilk ünlü sənətçisi böyük sufi mürşidi, təriqət şahının-Şah İsmayıl Xətainin fərmanı ilə pir e'lan olunmuş Miskin Abdalın dayandığı 500 illik tarixə malik bir məktəbin — Göyçə aşıq məktəbinin folklorumuzun inkişafında yeri və rolu son dərəcə ehtişamlı və əvəzolunmazdır.*

*Qırılmaz və fasiləsiz ustad-şagird ən'ənəsi üzərində qurulan və Azərbaycan aşıq sənətinə XVI-XVII və XVIII yüzilliklərdə Dəliqardaşlı aşıq Rəhim, oğlu Heydər, Dərdli Nəsib, aşıq Qasım, Zərgər Əhməd, Qul Mahmud, Şımpırlı Sevgili kimi nəhəng sənət bahadırları bəxş etmiş poeziya və sənət mə'bədgahı XIX yüzillikdə aşıq sənətini və poeziyasını əlçatmaz bir zirvəyə qaldırdı.*

*Ağ Aşığın (Aşıq Allahverdinin), şair Məmmədhüseynin, Aşıq Musanın, Aşıq Alının, ölməz poetik dühası ilə təkcə Göyçənin deyil, bütöv türk bədii-estetik düşüncəsinin, poeziyasının, ulu qopuzunun və sazının yeni qüdrətli yüksəliş dövrü başladı.*

*Aşıq poeziyası dədə Ələsgərlə əlçatmaz, ünyetməz bir zirvəyə ucaldı. Bütün qüdrətli sufi sənətkarları şəriət, təriqət, mə'rifət mərhələlərini keçib, həqiqətə, haqqın ulu dərgahına qovuşmaq istəyi ilə çırpındığı halda, ona bu haqqı haqqın özü bəxş eləmişdi.*

*Haqqın ulu dərgahına ucalmaq lazım deyildi Göyçənin bu qüdrətli oğluna. O, haqqın ulu dərgahından qopub şəriəti, təriqət və mə'rifəti*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*insanlara anlatmaq, onları həqiqətə, haqqa qovuşdurmaq üçün gəlmişdi bu dünyaya.*

*Şəriətdən həqiqətə doğru şərəfli yolları keçib dərya olmaq istəyənlərin haqqın özündən qopub gələn bir ümman qarşısında baş əyəcəyini, öz mətləblərini yuxuda alan "Dədə Ələsgər çox gözəl anlayırdı:*

*Ölməyincə bu sevdadan,*
*Çətin dönəm, usanam,*
*Həqiqətdən dərk almışam*
*Təriqətdi söz qanam.*
*Şahi-mərdan sayəsində,*
*Elm içində ümmanam:*
*Dəryaların qaydasıdı,*
*Ümmana baş endirir.*

*Poeziya və sənətin əlçatmaz zirvəsində əbədi qərar tutmuş dədə Ələsgərin ölməz sənət estefeti Göyçədə heç bir zaman səngiməmdi. Bu torpaq Alçalı Məhərrəm, Çoban Məhəmməd, Zodlu Usta Abdulla, Mirzə Bəylər, Şair Hacı, Şişqayalı şair Aydın, Növrəs İman, Bəhmən, Xəstə Bayraməli və adını çəkmədiyim onlarla böyük saz-söz ustaları yetişdirdi. Ulu Göyçə Azərbaycanın, "bütün türk dünyasının" poeziya və sənət paytaxtı"na (prof. Y.Qarayev) çevrildi.*

*Bu zəngin və möhtəşəm sənət incilərini əks etdirəcək Göyçə aşıqları və el şairləri kitabı "Azərbaycan folkloru antologiyası"nın növbəti cildlərindən biri kimi nəzərdə tutulduğundan burada aşıq poeziyası ilə bağlı hər hansı bir poetik nümunənin verilməsini məqsədəuyğun hesab eləmədik.*

*"Azərbaycan folkloru antologiyasının" III cildi kimi nəşr olunan "Göyçə folkloru" bu qədim diyarın, ulu türk-oğuz yurdunun zəngin folklor irsinin yalnız bir qismini təşkil edir.*

*Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Folklor Elmi Mədəni Mərkəzinin yaxın vatlarda nəşrə təqdim edəcəyi bir neçə yeni kitabla ("Göyçə aşıqları və el şairləri", "Göyçə əfsanələri", "Göyçə nağılları", "Göyçə dastanları","Göyçə bayatıları") oxucularımız Göyçənin zəngin folklor dünyası ilə daha yaxından tanış olmaq imkanı qazanacaqlar.*

***HÜSEYN İSMAYILOV***



# M İ F L Ə R

## MİFOLOJİ NAĞILLAR

### MƏLEYKƏNİN NAĞILI

Bir ana ilə bir oğul varıymış. Oğlan olduqca xoşxasiyyət, anası isə çox kobud, deyingən və bədxasiyyət bir arvadıymış. Bir gün arvad azarrıyır. Oğlu görür kü, evlərində su yoxdur. Gedir su gətirməyə. Bulağa çatanda görür kü, bir gözəl qız su doldurur. Oğlan bir könüldən min könülə qıza vurulur. Evə gələn kimi anasına deyir:

– Ana, bulağın başında bir qız görmüşəm. Gərək o qızı mana alasan.

Anası çar-naçar razı olur. Oğlan hər gün qızı görmək üçün bulağın başına gəlir, saatdarnan oturuf onun yolunu gözdüyür. Bir gün nə təhər olursa, həmin qız yenə gəlif bulaxdan su içir. Oğlan qızı zornan evlərinə gətirir. Qıznan oğlan toy eləyillər. Onlar bir-birinnən ilə çox mehriban dolanıllar. Amma oğlanın anası gəlinə heş gün vermir. Hər şeyin üstündə danışır, döyür, incidir. Vaxt o vaxt olur ku, qaynana ölüm yatağına düşür. Azrayıl arvadın başının üstünü kəsir. Oğlu görür kü, anası ölür, tez götürüf onun yönünü qıvlıya çöyürür.

Oğlan arvadına deyir:

– Gəl, mana kömək elə!

Gəlin deyir:

Mən o yatağa yaxın gəlmərəm.

Özü də bunu deyif ürəkdən gülməyə başdıyır. Xülasə, arvad ölür. Oğlu anasının gözdərini sığıyıf örtəndə gəlin genə özünü saxlaya bilmiyif gülür. Ağzını bağlıyanda onun qəhqəhəsi evi lap başına götürür. Oğlan acıxlanır:

– Mənim anam ölüf. Sən isə ağlamaq əvəzinə, gülürsən?

Gəlin bir söz demiyif gedir. Camaaat yığılıf, ağlaşır. Axırda ölünü yuyuf cənaziyə qoyullar. Cənazəni aparanda gəlin bu dəfə daha bərkdən gülür. Oğlan cinnənif ürəyində gəlini asıf-kəsir.

Aparıf arvadı basdırıllar. Başsağlığı verənnən sonra camaat çəkilif gedir. Oğlan başdıyır gəlinnən haqq-hesaf çəkməyə.

Arvadına deyir:

– De görüm, yatağı qıvlıya çöyürəndə nəyə gülürdün?

Gəlin deyir:

– Gəl bunnarı mənnən soruşma. Desəm peşman olajaxsan. Bir də



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məni görmüyəjəksən.
Oğlan deyir:
– Heş nə bilmirəm. Gərək nəyə güldüyünü mana deyəsən.
Gəlin deyir:
– Qulaq as, indi ki, inad eliyirsən deyim. Anannan olmuşdun, mənnən də olajaxsan.
Gəlin başdıyır söyləməyə:
– Sən ananı qibləyə çevirəndə Əzrayıl onu tərsinə döndərdi. Gözünü sığıyanda ona görə güldüm kü, sən onun gözdərini sığadın, amma Əzrayıl onun gözdərini milnən oydu. Ağzını yumanda ona görə güldüm kü, Əzrayıl ananın ağzını ayırdı. Qəvrə də ağzı açıx getdi. Cənazə gedəndə ona görə güldüm kü, cənazənin qavağında bir cırıx çarıx, dalında şişin ucunda bir yanıq küt, əllərinin hər birində qırıx şəkər parçası varıydı.
Oğlan arvadınnan soruşdu:
– Bunnar nə deməkdi? Mən heç bir şey başa düşmürəm.
– Qulaq as, mən bunnarın hamısının səvəvini sənə izah eliyim. Anan hamıya qarşı zalımıydı, xəsisiydi, söyləyəniydi: Buna görə Əzrayıl onun gözdərini oyuf, ağzını açıx qoydu. Mən çay içəndə şəkəri əlimnən alır, qırıv yarısını verirdi. Ömründə iki dəfə səxa əlini açmışdı. Bir kasıva bir cırıx çarıx, bir itə da bir yanıx küt vermişdi. Bu dünyadan gora apardığı da elə bunnar oldu.
**Oğlan dedi:**
**– Nə oldu ku, bunları bircə sən gördün. Bəs, biz niyə görmədik?**
**Qız dedi:**
**– İndi gözdərinin qavağında uşduğumu görəndə, dediklərimə də inanarsan.**
**Qız bunu deyif qurtaran kimi göyərçin oluf uşdu. Oğlan onun dalıncax göz yaşı töküf, fəğan elədi.**
**O vaxtdan göyərçin xoşbaxt ailədə yaşıyır. Göyərçinin düşər-düşməzi var, inamı da bax bundan sonra yaranıf.**



## İLANIN NAĞI LI

Biri varıymış, biri yoxuymuş, iki qonşu varıymış. Bu qonşunun birinin bir qızı, birinin də bir oğlu varıymış. Qıznan oğlan bir-birini sevirmiş. Amma qızın atası buna razı döyülmüş. Nə qədər çalışıf, çavalasa da qızı bu yoldan döndərə bilmirmiş. Əlaşsız qalıf qızını götürüf əl çatmıyan bir yerə getməyi qərara alır. Atasının bu əməlinnən narazı qalan qız yolda xəlvətcə düşüf qaçır. Köç gedif məkana çatır. Görüllər ki, qız yoxdu. Ora qız, bura qız, tapılmır ki, tapılmır.
İndi eşit qızdan. Qız yolda düşənnən sonra gəzə-gəzə gəlif bir düzə çatır. Orda bir xeyli gəzənnən sonra yoruluf bir daşın üstündə oturur. Sevgilisinə qovuşmaq arzusunnan yuxuya gedir. Birdən eşidir ki, kimsə onu çağırır. Gözünü açıf baxanda görür kü, üstündə oturduğu daşdan səs gəlir:
– Sənubər, səni ilan elədim ki, istədiyin oğlanın belinə dolanıf onnan baravar gəzəsən.
Elə həmin dəqiqə qız dönüf ilan olur.
İlan sürünə-sürünə gedif sevgilisi keçdiyi yolun ağzında durur. Bir az keçənnən sonra görür kü, Mahmud yavaş-yavaş gəlir.
İlan onu görən kimi sürünüf yolun ortasına uzanır. Mahmud bura çatanda ilana yazığı gəlir. Onu yoldan çıxarıf bir qırağa qoyur. Belə-belə o, bir neçə dəfə həmin ilana rast gəlir. Oğlan öz-özünə təəccüf eləyir ki, görən bu ilan niyə onu görən kimi yolun ortasına çıxır. Bir neçə gün oğlan yolunu başqa səmtdən salır.
Bir gün Mahmud öz-özünə deyir ki, gedif görsün ilan yenə ordadı, yoxsa gedif? Mahmud qarannıxda yolnan gəlir ilan olan tərəfə. Bir də görür kü, ilan bir koldan sürüşüb çıxdı və onun belinə dolandı. Mahmud nə qədər eləyirsə, ilanı özünnən aça bilmir. İlan oğlanı sürüyə-sürüyə gətirif çıxarır həmən daşın üstünə. Beləliknən, Mahmudla ilan burda qalır. Daşın dörd tərəfindəki ilannar da heç kimi onnara yaxın qoymur. Bunnar burda qalsın, indi eşidin Mahmudun anasınnan.
Mahmudun anası qara geyinif, ağlıya-ağlıya oğlunu gəzir. Heş bir yerdə sorağını ala bilmir. Axır kı, xəstələnib yatağa düşür. İndi eşidin Mahmudun bajısı Qızyetərdən.
Qızyetər Mahmudun itdiyini eşidif düşür çöllərə. Gəzə-gəzə gəlif çıxır həmin düzəngaha. Görür kü, bir daşın yanında yekə bir ilan Mahmudun belinə dolanıf. Qız bunnarı görəndə məəttəl qalır. İlan qızı görəndə Mahmudu möhkəm-möhkəm sıxır. Mahmud qapqara qaralır. Qızyetər görür kü, Mahmudu ilannar tilsimliyif. Daha orda durmuyuf, düz gəlir anasının yanına. Gördüklərini bir-bir Sara arvada danışır. Sara qızını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

da yanına alıf gəlir həmin yerə. Gəlib görür nə, oğlu daşa söykənif, bir bədheybət ilan da onun belinə dolanıf. İlan qızı görəndə qoymur kü, Mahmud anasınnan görüşə. Arvad kor-peşman geri qayıdır.

Savah tezdən ana duruf yenə oğlunun yanına gəlir. Bu dəfə tək gəldiyinnən ilan açılır, o biri ilannar da yol verir, oğlan anasınan görüşür. Bir azdan sonra ilan yenə də gəlif oğlanın belinə dolanır.

Bunnan sonra Sara daha yolu örgənir. Hər gün gəlif oğlunan görüşür. İlan da gejələr qız donunda, gündüzdər ilan donunda Mahmuda keşik çəkir.

Buna baxmayarax, oğlan özünü çox xoşbaxt hesaf eliyir. İlan oğlana deyir ki, əgər anan hər gələndə sənin adına, qismətinə bir şey gətirsə, onda mən sizi görüşməyə qoyaram. Onda bilərəm ki, o doğrudan da səni çox istiyir.

Anası bunnarı bilmiyə-bilmiyə onsuz da hər gün öz bişirdiyinnən, yediyinnən oğlunun payını aparırdı. Bunu görən ilan onnarın görüşməsinə mane olmurdu.

Bir gün ilanın başı qarışanda oğlan xəlvətcə barmağı ilə iki işarəsi verir. Amma anası bundan bir şey annamır.

Sara gəlir mollanın yanına.

– Mən başa düşmürəm, oğlum qoşa barmağını göstərməknən nə demək istiyir?

Molla deyir:

– O ilan qızdı. Sən oğluna nə alsan, bir şey də qıza al. Həmişə onnarı bir-birindən seşmə.

Bundan sonra Sara nə alsa cüt alıf aparır. İlanın ona məhəbbətini hiss etdikcə daha da həvəsdənir. Yavaş-yavaş bir-birinə örgənillər. İndi tək oğlunu yox, ilanı da bircə gün görmüyəndə darıxır.

İlan bu istiqanlılığı görüf arvada yaxınnaşır. Arvad da istiyir ki, ilanı qucağına ala, sevələyə. Bu vaxt ilan tez geri qayıdır. Arvad oğlunnan danışannan sonra evinə gedir. Arvad evinə gedənnən sonra ilan deyir:

– Mahmud, əgər anan bir də gələndə mənim başımı əlinnən sığallasa, mən onnan getməyə e'tiraz eləmiyəjəm.

Sara var-yoxunu oğlunun yanına daşıdığından daha sitardan düşür. Düşüf qapılardan şey-şüy dilənif oğluna, ilana gətirir.

Bir gün arvad gələndə əvvəlcə ilanın başını sığallayır, sonra oğlunnan görüşür. İlan bundan çox şad olur. Gedif ilannardan çoxlu daş-qaş gətirif arvada verir və deyir:

– Ana, apar bunnarı bir yaxşı ev tikdir.

Arvad sevinə-sevinə evə gəlir. Usta gətirif, ev tikdirməyə başdıyır.

Bir gecə Mahmud ilannan birlikdə evlərinə gəlir. Sara onnarı görəndə



sevindiyinnən ayaxlarına döşənir.

İlan deyir:

– Ana, bu sirri aşsan səni də, oğlunu da öldürəjəm. Aşmasan, bax beləcə şad, xoşbaxt yaşıyajayıx.

Ana and içif, söz verir kü, bu sirri heş kimə açmaşmıyajax. İlan hər gejə gəlib sarayda qalır. Sübh tezdən duruf gedir. Beləliknən, ilan gejəni ananın, gündüzü ilannarın yanında qalır.

Vaxt o vaxt olur ku, ilan uşağa qalır. Yükünü yerə qoymağa az qalanda ilan qaynanasına deyir:

– Ana, necə istiyirsən? Nəvən ilan donunda olsa yaxşıdı, yoxsa insan.

Qaynanası deyir:

– Bala, əvvəla özün bilən yaxşıdı. Amma düzü, nəvəmi adam donunda görməyim daha yaxşı olardı.

Vaxt, və'də çatır. İlan bari-həmlini yerə qoyur. Bir oğlu olur. Uşağa yatan kimi ilan donundan çıxıf bir gözəl gəlin olur. Qavığını da gətirif xalçanın üstünnən asır. Donunnan çıxmasına baxmıyarax, onlara pis baxanı o saat başa düşür və yanına buraxmır. Şad, xoşbəxt dolanıllar. Yeyif-içif yerə keçillər. Siz də yeyin-için, dövrə keçin.

## İLAN OLAN

Biri varıydı, biri yoxuydu. Bir vilayətdə bir padşah varıydı. Bu padşahın övladı olmurdu. Bir gün padşah yolnan gedərkən bir ilana rast gəldi. İlanın arxasınca onun yeddi balası gəlirdi. Padşah ilanlara baxıf ürəyində dedi: "Ey xudavəndi aləm, sənin böyüklüyünə min şükür, nə ola mana də ilannan, çayannan bir övlad verəsən."

Günnər keçir, padşahın arvadı hamilə olur. Doqquz ay, doqquz gün, doqquz gecə, doqqu saat keçənnən sonra padşahın arvadı bir ilan doğur. Bu xəvəri padşaha çatdıranda padşahın arzusu yadına düşür. Əmr edir ki, ilana ayrıca bir otax ayırsınnar, ona yaxşı qulluq etsinnər. Necə ki, padşah demişdi elə də edillər. İlan gündə bir qız yeməkən dolanır. Get-gedə böyüyüf şişməyə başdıyır. Vilayətdə get-gedə qızdar azalmağa başdıyır.

Bu vilayətdə kasıf, yetim, gözəl bir qız da yaşıyırdı. Bir gün o yatıf yuxuda görür kü, ona zərif, gözəl, sarı rəngli bir paltar verdilər, dedilər bu paltarı geyinif gedərsən, səni bir ilana verəjəklər. Onda ona deyərsən ki, donunu çıxart sonra məni ud.

Qız yuxudan o vaxt ayıldı ki, artıq padşahın adamları onu ilana yedirtmək üçün aparmağa gəlmişdilər. Qız ağlıya-ağlıya sarı paltarı da götürüf onnarın yanına düşdü, gəlif mənzilə yetişdilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yetim qızı çimdirif, geyindirəndə onun gözəlliyi birə-min artdı. Onu ilan olan otağa apardılar. Qız ilanı görən kimi qorxudan titrəməyə başdadı. İlan qızın gözəlliyini görüf qıvrıldı, başını quyruğunun üstünə qoyuf qıza tamaşa etməyə başdadı. Birdən qızın yuxusu yadına düşdü. Tez-tez deməyə başdadı:

Donunu çıxart sonra məni ud!, Donunu çıxart sonra məni ud!.

İlan ayağa duranda onun əynindəki donu gurultu ilə yarıldı, içinnən gözəl bir oğlan çıxdı. Padşaha muştuluxçu getdi ki, bəs gözün aydın, nəzir-niyazın qəbul olundu, oğlun ilan donunu soyundu.

Padşah 40 gün, 40 gecə şadyanalıq keçirdi, nəzir-niyaz payladı, yetim qızı oğluna alıf toy vurdurdu.

## QİSMƏT

Bir kişi kasıf olur, gecə-gündüz çalışır, güzəranı düzəlmir ki, düzəlmir. Axırda deyir ki, mən daha işə-zada gedən deyiləm, əgər mənim qismətim olsa, yatdığım yerdə gəlif məni tapar.

Kişi bir gün yatıf yuxuda görür kü, bir ağacın altında bir küp qızıl var. Duruf yuxusunu arvadına danışır. Arvad nə qədər kişini dannıyırsa, a kişi dur get qızılları çıxart gəti, kişi heş yerinnən tərpənmir. Deyir:

– Əgər qızıllar mənim qismətim olsa, özü gəlif məni evdə tapar.

Arvad çox hirsdənir və bu məsələni qonşusuna danışır. Qonşunun arvadı tez ərinə xəvər verir ki, bəs filan yerdə qızılla dolu küp var, çıxart gəti.

Qonşu eləməyif tənbəllik yüyürür ora, ağzı bağlı küpü çıxarıf evinə gətirir. Evdə küpün ağzını açıf nə görsə yaxşıdı. İçi dolu ilan-çayan. Tez ağzını bağlıyır. Qonşu deyir:

– Yaxşı, indi ki, onnar məni ölümə göndərmək istəyillər, bu küpü mən onnarın təpəsinə tökərəm.

Qonşu küpü götürüf çıxır, həmin küpü nişan verən qonşunun damına. Görür kişi yatıf. Deyir ki, sən öl, düz bunun təpəsinə tökəjəm.

Küpü boşaldır, düşüf qaçır. Kişi görür, budu yuxuda gördüyü qızıllar təpəsinə tökülür, arvadı çağırıf deyir:

– Hə, arvad, gördün qismət belə şeydi, Allah bizimkini yetirdi.



## CİN DƏRƏSİ

Çox-çox qədim zamannarda bir çovan dağda qoyun otarırdı. Çovanın Pələş addı bir iti varıydı. Günnərin bir günü çovanın qoyunnarı hürüşür. Pələş hara isə tələsirdi. Çovan görür kü, Pələşin ağzında bir qız uşağı çovana tərəf gəlir. Çovan tez-tələsik Pələşin ağzınnan uşağı qapıf alır. Uşax bir göz qırpımında yox olur. Çovan qoyunnarı, itdəri öz ətrafına topluyuf tütək çalırdı kü, onu kimsə dümsüklüyür. Çovan çevrilif yana baxanda nə görsə yaxşıdı? İki nəfər tanımadığı adam başının üstünü kəsdirif. Onlar çovana deyillər:

Bizdən nə istiyirsən?

Çovan onnardan heç bir şey istəmədiyini bildirir. Adamlar çovannan əl çəkmiyif deyillər:

– "Sən cinnər padşahının qızını ölümnən qurtarmısan. İndi o bizi yolluyuf ku, çovana deyin ki, bir ev dolusu pul istəyir, bir ev dolusu kül?

Çovan öz-özlüyündə götür-qoy eliyir ki, pul deyim, kül deyim, Kül deyim, pul deyim. Çovan onnarı yoxlamax üçün deyir: Bu dəfə kül deyim, əgər düz olsa gələn dəfə pul deyərəm. Çovan onnara kül istədiyini bildirir.

Çovan axşam qoyunnarı Pələşə tapşırıf öz komasına çəkilif yuxuya gedir. O, səhər tezdən ayılanda nə görsə yaxşıdı? Ev başdan ayağa küllə dolmuşdu. Çovan gözünü yumuf "pul, pul, pul" deyir. Amma səsi heş yerə çatmır.

O vaxtdan o dərənin adı "Cin dərəsi" qalır.

## CİN GƏLİNİ

Biri varıymış, biri yoxuymuş, bir arvad, bunun da bir oğlu varıymış. Günnərin birində bunnarın qapısınnan bir gözəl qız keçir. Oğlan bunu görüb ixtiyarı əldən verir, dəli-divanə olur. Dava-dərmannan bir şey çıxmır. Elə hey deyir:

– Ana, o qız kimdirsə, get onu tap, mana nişan tax.

Qız bir neçə dəfə də bunnarın gözünə görünür. Bir gün arvad birinnən soruşur:

– Ay bajı, bu qız kimin qızıdı?

Soruşduğu adam deyir:

– O qız qəyifdən görünür.

Anası kor-peşman gəlif oğluna deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay oğul, sən o qıznan necə yaşıyarsan? O cindi, qəyifdən gözə görünür.

Oğlu əl çəkmir. Bir gün yenə görünəndə arvad qızın üstünə bir iynə sancır. Qızı evə gətirif oğlunnan evləndirir. Qız o qədər göyçək imiş ki, baxanın ağlını aparırmış. Amma bu arvad, yə'ni gəlinin qaynanası çox zalımıymış. Nə qonşuynan, nə də oğlunnan, gəlinnən yollaşmırmış.

Bir gün qaynənə xəstələnif ölür. Camaat yığışıf ağlıyır. Oğlu başına-gözünə döyüf şivən qoparır, neçə dəfə özünnən gedir. Amma gəlin heş vejinə də almır. Qaçıf dırmaşır tufara. Oğlan hirsdənif deyir:

– Bizi biavır eləmə. Camaat bizə baxır, düş aşağıya.

Gəlin divardan düşmür kü, düşmür. Arvadı yuyuf kəfənniyillər. Cənazəyə qoyuf aparanda gəlin başdıyır gülməyə. Oğlan lap özünnən çıxır. Gəlinə bir-iki yapışdırıf deyir:

– Gəl, qaynananı yola sal!

Gəlin yenə də gülməyə başdıyır. Oğlan anasını basdırıf hirsdi-hirsdi evə gəlir. Camaat çəkilənnən sonra arvadına deyir:

– Anam öləndə niyə divara dırmaşırdın?

Gəlin deyir:

– Mənnən heş nə soruşma. Bu sirri sana deyə bilmərəm.

Oğlan əl çəkmir:

– Bəs, anamı aparanda niyə dalıncax gülürdün? Bu sirri deməsən səni öldürəjəm.

Qız görür kü, oğlan əl çəkmir. Deyir:

– Əgər bu sirri sana desəm, onda bir də məni görmüyəjəksən.

Oğlan yenə də sözündən dönmür. Belə olanda gəlin başdıyır danışmağa:

– Sənin anan öləndə hamı qan içindəydi. Ona görə mən divara dırmaşmışdım kı, üstümə qan sıçramasın. Ananın dalıncax ona görə güldüm kü, onu aparanda bir xəkəndaz, bir dənə də süpürgə bir-birinə dınqıldıya-dınqıldıya cənazənin dalınca gedirdi.

Qız bunu deyif yoxa çıxır. Qəyifdən səs gəlir:

– Zivilimə bərəkət, yoxsa yağına?

Oğlan çaşıf deyir:

– Zivilimə bərəkət.

O günnən oğlanın qapı-bajasınnan zivil əskik olmur.



## ŞEYTANIN DOSTLUĞU

Bir kənddə nə qədər toy olurmuşsa, həmişə dava-dalaş düşürmüş.

Camaat yaxşı bilirmiş ki, bu qalmaqallarda şeytanın əli var.

Qərif adında bir kişinin oğlunun evlənmək vaxtı çatıbmış. Ancaq şeytanın qorxusunnan oğluna toy eliyə bilmirmiş.

Günnərin bir günü şeytan Qərif kişinin yanına gəlif onnan soruşur:

– Qardaş, oğlunun yaşı keçir. Niyə toy eləmirsən? Bir çətinniyin varsa, de kömək eliyim.

Qərif kişi deyir:

– Ay evi yıxılmış, bu camaat sənin əlinnən toy üzünə həsrət qalıf. Bütün mə'rəkələri qatıf, şirin ağzımızı ajı eliyirsən, toyumuzu yasa döndərirsən. Qorxumuzdan toyumuzu eliyə bilmirik.

Şeytan deyir:

– Qərif kişi, indi ki, belə oldu, gəl sənnən qardaş olaq. Mənnən sənə bu günnən sonra heş bir ziyan toxunmuyajax.

Qərif kişi bu günnən sonra şeytannan möhkəm dost olur. Aradan xeyli keçir. Qərif kişi toya hazırraşası olur. Şeytanın yanına gəlif bir az ordan-burdan danışannan sonra deyir:

– Qardaş, dostduğumuz öz yerində, amma sənnən bir xahişim var. Yalvarıram, üç gün mənə möhlət ver, buralara gəlmə. Qoy, toyumuzu yola salım. Sən gəlsən qorxuram, dinc dayana bilmiyif, yenə aləmi bir-birinə qatasan. Şeytan razılaşır.

Xülasə, toy başdıyır. Qərif kişi oğluna gözəl bir toy eliyir. Hamı yeyir, içir, şənnənir.

Şeytan nə qədər çalışırsa, ürəyi tav gətimir. Xəlvətcə gəlif toya baxır. Görür ki, çox sakitdikdir. Bunu görən şeytan duruf-dincələ bilmir. Bir dəstə gül alıf özünü yetirir su arxının başına. Cavannar arxın başına yığılanda gülləri suya axıdır.

Cavannar gülləri görən kimi bir-birini itəliyə-itəliyə suya atılıllar ki, gülü tutsunnar. Gülün üstündə dava-dalaş düşür. Mə'rəkə qarışır bir-birinə.

Şeytan qarışıxlıx düşdüyünü görən kimi qaçıf aradan çıxır.

Toydan sonra gəlif Qərif kişiyə deyir:

– A kişi, deyirdin sən olmasan, dava-dalaş olmaz. Bəs, bu nə həngamədi? Bunu da mən elədim?

Qərif kişi deyir:

– Şeytan qardaş, bunu sənin bircə dəstə gülün elədi. Əyər özün olsaydın, vallah camaat indi bir-birini tamam qırıf qurtarmışdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BAXTIN QAYITMASI

Yaşıl dağlarnan əhatə olunmuş cənnət misallı bir yerdə tənha bir ev varıydı.

Bu evin sahibi əlli-əlli beş yaşdarında bir kişiydi. Onun dörd oğlu, iki qızı varıydı. Qızdardan biri yeddi yaşında, o biri beş yaşındaydı. Oğlannarın dördü də evlənmişdi. Qardaşdar o qədər istəkliydilər ki, ata-analarınnan, bir-birinnən ayrıla bilmiyif bir evdə yaşıyırdılar.

Onnar qazanşdarını bir yerə gətirif, ayrıseşkilik nə olduğunu bilmirdilər.

Soyux qış gejələrinin birində elə bir qar yağır kı, onu yarıf keşmək qeyri-mümkün olur.

Ata həmişə tez durduğunnan bu savah da yuxudan duruf tövlüyə tərəf getmək istiyəndə evlərinnən bir adam izinin çıxıf getdiyini görür.

O tez qayıdıf evdəkiləri yoxluyur. Baxıf görür kü, hərə öz yerində, şirin yuxudadı. Gedən iz isə geri qayıtmıyıf.

Bu hadisə kişini çox narahat edir. O bu işin axırına çatmax üçün həmən izə düşüf getməyə başdıyır. Kişi təzə yağmış ajı qarnan o qədər gedir ki, qar onun əl, ayağını dondurur.

Çox gedir, az gedir. Bir gün, bir günorta yol getdikdən sonra görür kü, iz daha burda sona yetir.

Bir də baxıf görür kü, böyük bir ojağın divində ağsaqqal, nurani bir qoja oturuf qəlyan çəkir. Əvvəlcə o bir qədər çəkinir. Sonra özünü tofluyuf onun yanına gedir. Kamali ədəfnən salam verif, əleyk alannan sonra qojadan soruşur:

– Bava bir söylə görüm, kimsən, nəçisən, nə karəsən?. Hardan gəlif, haraya gedirsən? Bizim evdə nə axtarırdın?

Qoja ağır-ağır başını qaldırıf dedi:

– Bəyəm, sən məni tanımırsan? Mən sizin baxtınızam. Bu vaxta qədər siznən birrikdə yaşamışam, indi isə çıxıf gedirəm.

– Kişi dedi:

Çox yaxşı kı, bizim bəxtimiz sən imişsən. Axı, nə oluf ku, küsüf gedirsən? Bizi niyə bədbaxt eləmək istiyirsən. Səni and verirəm bizi yaradan ulu tanrıya bizə rəhmin gəlsin, bizi tərk eləmə. Gəl qayıdıf gedək evimizə.

Baxt dedi:

– Ay bəndə, mana dil tökmə, məni yolumnan eləmə. Axırıncı dəfə bir dənə nə istəyiniz varsa, onu diləyin, çıxım gedim.

Naəlac qalan kişi bilmədi ki, neynəsin. Axırda belə qərara gəldi ki,



yaxşısı budu ku, gedif ailəsinnən məsləhətdəşif, onnarın da fikrini ögrənsin. Sonra baxtınnan axırıncı diləyini diləsin. O, baxtınnan iltimas eliyif razılıx aldı kı, savah bu zamana qədər onu gözdəsin.

Qoja onnan razılaşdı. O, evinə qayıdıf əhvalatı olduğu kimi onnara nağıl elədi.

Kişinin arvadı dedi:

– A kişi, bolha-bol çörəyimiz olsa, bizə daha nə lazımdı kı?

Oğlannar dedi: bizə çoxlu var-dövlət versin.

Gəlinlər dedi: baxtımızdan çoxlu qaş-daş, pal-paltar istə.

Xülasə, hərə bir şey istədi, hərə bir şey arzuladı. Lakin, ortancıl gəlin bunnarnan razılaşmıyıf dedi:

– Biz onnan dinşdikdən başqa heş nə istəmiyək. Elə bax beləjə dolanax, bəsimizdi. Bu sözdər hamının ağlına batdı.

Onlar dedilər ki, dinşlik olan yerdən bin-bərəkət heş vaxt əysik olmaz.

Kişi qayıdıf baxtının yanına getdi. Baxtı mə'nalı-mə'nalı onun üzünə baxıf dedi:

– Hə, axırıncı diləyinizi diliyin. Mən getməliyəm, vaxtım yoxdu.

Kişi titriyə-titriyə dedi:

– Biz bu günə qədərki ömürdən, dolanışığımızdan başqa heş nə istəmirik.

Baxt bir qədər fikirrəşif dedi:

– Siz ki, belə düşüncəlisiniz. Onda mən sizi heş vaxt tərk etmiyəjəm. Hər zaman siznən birrikdə olajam.

Dur qayıdıf gedək öz evimizə.

Sözünü qurtaran kimi baxt bir göz qırpımında qeyvə çəkildi.

Kişi şad-şalayın evinə qayıdıf başına gələnnəri hamıya danışdı. O günnən sonra onnarın evinnən bin-bərəkət heş vaxt əysilmədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# MİFOLOJİ RƏVAYƏTLƏR

Bir qoja kişi varıymış. Bunun da bir qoja arvadı. Bir gün bu arvad ərinə deyir:

– A kişi, bizim evdəki çuvala bir oğru dadanıf. Elə hey baxıram çuval boşalır.

Kişi deyir:

– Arvad, mən bu işin əncamını çəkərəm. Heş fikir-zad eləmə. Görünür, çuvalımıza hal dadanıf.

Kişi bir gün dirəyin dalında gizdənif pusmağa başdıyır. Bir də görür kü, evin qarannıx küncünnən, divardan bir arvad xeylağı çıxdı. Arvad yaman bədheybətiydi. Saşdarı burux-burux olmuşdu. Ayağı yalın, başı açığıydı. Qavağında da bir cırıq-cındır önnüyü varıydı. Döşdəri də düz dizdərinə sallanırdı.

Haman hal arvadı əlini birinci çuvala uzadanda öz-özünə dedi:

– Yox, bunnan olmaz. Buna deyiflər.

Sonra o biri çuvaldan bir cəm un götürdü. Getmək istiyəndə kişi əlindəki xam iyniyi xəlvətcə arxadan onun saçına sanşdı. Sonra hal arvadının qolunnan tutuf dedi:

– Gərək adını deyəsən.

Hal arvadı ona dedi:

– Adım Mehribandı. Səni and verirəm bizi yaradana, məni burax gedim. Qızımın toyudu.

Hal arvadı nə qədər yalvarırsa, kişi bunu buraxmır. Bu minvalnan həmin gəlini düz bir ay evində saxlıyır. Qapıda-bajada işdədir. Deyəndə ki, get tez ol su gəti, gej gedir, heş nə gə- tirmirmiş. Amma, getmə, suyu tez gətimə - deyəndə əlüstü gedif gətirirmiş. Xülasə, nə desən tərsinə eliyirmiş.

Bir gün kişi baxır kı, hal arvadı yaman bikefliyif. Soruşur:

– Nə oluf? Niyə belə fikirrisən?

Hal arvadı deyir:

– Sənə dedim ki, qızıma toy olasıdı. İndi mənə görə toy eləmillər. Məni gözdüyüllər. Mən də gedə bilmirəm.

Kişi bu sözdən çox tə'sirrənif ona deyir:

– Mən səni buraxaram. Amma gərək and içəsən ki, bizim yeddi arxa dönənimiznən işiniz olmuyajax.

Hal arvadı and içir. Kişi iyniyi onun saçınnan çıxarır. Arvad qeybə çəkilir.

Doğrudan da, bir də ona, onun nəsil-nəcavətinə heş bir hal-cin dəyif-dolaşmır.



* * *

Göyçənin Ağbulaq kəndində Usuf adında bir kişi varıydı. O, bir gün furqonnan qonşu kəndə su aparırmış. Bir də baxıf görür kü, qəbristanlığa bir az qalmış uzun, ağ paltarrı bir adam atılıf faytona mindi. Fikir vermir, fikirrəşir ki, yaqın həmkənddilərindən biridi. Bir də baxıf görür kü, faytonun boynunda, lap yanında bir adam oturuf, arxasında bir kisə. Qarannıxda anşırda bilmir. Anasının dayısı Yolçu kişiyə oxşadır. Başdıyır bunu söhbətə tutmağa.

– A Yolçu dayı, hardan gəlirsən? Bəs kisəni niyə faytona qoymursan? Kisədəki nədi? Yoxsa yeməli şey var, qorxursan oğurruyam?

Usuf nə qədər danışırsa, Yolçu dayısı buna cavab-zad vermir. Qəbristannığa çatanda kişi kisəli-zaddı kirimişcə düşüf bir-iki addım gedir. Birdən-birə qeyvə çəkilir. Usuf yalnız indi başa düşür kü, nə Yolçu dayı?! Bu halıymış. Sondan-sonra bərk qorxur. Evə çatan kimi qorxusunnan yatağa düşür. Bir neçə gün yorğan-döşəkdə yatannan sonra sağalıf durur ayağa. Amma qorxusunnan bir də gejə o yolu tək getmir.

* * *

Göyçənin Ağbulaq kəndində bizə qəribə bir əhvalat danışdılar. Bu əhvalatı mən sonra başqa adamlardan da eşitdim.

İmran addı bir müəllim dedi ki, mənim Məcid adında bir müəllimim varıydı. İndi Gəncədə yaşıyır. O bir gün bizə qəribə bir söhbət elədi.

O dedi ki, bir müəllimimiz varıydı. Qulağının biri yoxuydu. Soruşdux ku, ay müəllim, qulağının biri niyə yoxdu?

Müəllim dedi:

– Əgər, bunu bilmək istəyirsinizsə, diqətnən qulağ asın, hamısını sizə ətraflı söhbət eliyim.

Günnərin birində sürgündə olarkən bir yelkənni gəmiyə minmişdik. Amma bunun hansı dərya olduğunu deyə bilmərəm. Bərk tufan qofdu. Yel bizim gəmimizi öz yolunnan çıxarıf, başdı-başına apardı. Nə isə gəmimiz allah umuduna bizi dəryanın üzünnən aparıf bir vilayətə çıxartdı. Gəmidən düşüf susuzduğumuzu, ajdığımızı rəf etmək üçün camaatın içinə yollandıx. Amma haraya getdik, kimə üz tutduxsa, nə bizə cavaf verən tapıldı, nə də bir dindirif-danışdıran oldu. Nə başınızı ağrıdım, axırı başa düşdük kü, buranın camaatı bizi görmür. Bunu bilənnən sonra dükannara girif ürəyimiz istiyəni götürürdük. Bir gün dükanda olanda lap su sonasına oxşuyan bir gəlin gördüm. Tamahım güj gəldi. Özümü saxlıya bilmiyif bunnan bir çimdik aldım. Gəlin bu ilmi ölüfsən, bildirmi, tirtaf yerə yıxıldı.

Nə isə, gedib bir molla tapıf gətirdilər. Molla qavağına bir cam qoydu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Su tökdü. Bir az oxuyuf, üfürdü. Sonra dedi:

– Buna bəni-adəm sataşıf.

Sonra suya baxıf, mana müraciətnən dedi:

– Ey, bəni-adəm, yaxın gəl, and iş ki, bir də bu gəlinə toxunmayajaxsan. Əgər gəlməsən, bu saat qulağını kəsəjəm. Sonra da başını verməli olajaxsan.

Mollanın sözünə inanmıyıf yerimnən tərpənmədim. Bir də gördüm kü, qulağım ayağımın altına düşdü. Əlimi atıf gördüm kü, qulax-zad nə gəzir. Heç elə bil anadangəlmə mənim qulağım olmuyuf. Tez qorxa-qorxa qaçıf mollanın yanına gəldim. And-aman elədim ki, bir də qələt eliyərəm, bir adama sataşmaram.

Burdan bir təhər çıxıf əhvalatı yoldaşdarıma nağl elədim. Onnar məni bir xeyli dannadılar. Hamımız daha burada qalmağın qorxulu olduğunu başa düşmüşdük. Ona görə də gəmiyə doluşuf, yelkənnəri aşdıx. Xeyli yol getdikdən sonra gəlif Hindistana çıxdıx. Oradan da bir təhər öz vilayətimizə qayıtdıx.

* * *

Göyçə kənddərinin birində varrı bir kişi yaşıyırmış. Bunun malı-dövləti başından aşıf-daşırmış. Hamı ona küsənif, onu bəxtəvər hesab edirmiş. Günnərin bir günündə arvadı həmin kişiyə deyir:

– Ay kişi, evimizdə bir ilan var. Gündüzdər çıxıf evin içində gəzişir. Uşaxlardan sarı yaman narahatam. Qorxuram kı, ilan uşaxları vuruf eliyər.

Kişi deyir:

– Arvad, ev ilanı adam vurmaz. Qorxuf eləmə.

Günnərin bir günü kişi qapıda işdiyərkən evdən bağırtı səsi eşidir. Tez içəri qaçır. Görür kü, kiçik oğlu bajıya baxıf qışqırır. Bənizi dümağ ağarıf. Kişi görür ki, bajadan bir yekə qara ilan asılıf. Uşağın çox qorxduğunu görən kişi bərk ajıxlanır və tüfəngi götürüf ilanı vuruf öldürür.

Deyillər, ilan ölənnən sonra bu evin bini-bərəkəti göyə çəkildi. Əvvəlcə arvadı, sonra isə uşaxları bir-birinin dalıncax ölüf getdilər. Tövlə uçuf mal-qarasını tələf elədi. Bayquş kimi evdə tək-tənha qaldı. Axırı kı, bu dərddərə dözə bilmiyif bağrı çatdadı. Evi xaravıya çöyrüldü.

* * *

Kərim addı bir çovan hər il payız düşənnən sonra qoyun-quzunu arana, Kür qırağına aparır, qışı yaza kimi orada qalırmış. Günnərin bir günü o görür kü, qışlaxdakı tövlədə qoyunnar yaman vurnuxur. Hiss eliyir ki, burada nəsə yad bir şey var. Çomağını götürüf irəli gedir. Görür



kü, dirəyə iri bir ilan sarılıf. Qoyunnar onu görüf qorxur. Kərim iri bir daş götürüf ilanı vurur, sonra da başını çomaxnan əzif öldürür. Yoldaşdarı gəlif ilanı görəndə deyillər:

– Kərim, səninki də elə buraya kimiymiş. Heş bilirsənmi sən nə iş tutufsan? Öldürdüyün bu ilana yeddi qardaş ilan deyillər. Bunnarın birini öldürdünmü, gərək hamısını tapıf öldürəsən. Yoxsa, onnar səni yerin deşiyində də gizlənsən tapıf öldürəjəklər.

Kərim bunnarın sözünü bu qulağınnan alıf, o biri qulağınnan verdi. Heç vejinə də almadı. Bir gejə yatanda üstündə ağır bir şeyin olduğunu hiss eləyif hövlang yerinnən durdu. Nə görsə yaxşıdı: – yekə bir qara ilan üstündə gəzinir. Çalmax üçün bədənində açıx yer axtarır. Kərim qorxulu-qorxulu yorğanı ilana doluyuf yerinnən qaçır. İlan ha eliyif çıxana qədər divardan bir yekə daş götürüf salır ilanın üstünə. Xülasə, bunu da öldürür.

Səs-küyə yoldaşdarı gəlif vəziyyəti görür. Ona deyillər:

– İndi inandınmı? Səni bu ilannar dinc buraxmıyajax. Gəl, daşı ətəyinnən tök, buralardan uzaxlaş. Bəlkə, səni tapa bilmiyələr. Canın qurtara. Yoxsa, hələ bunnarın beşi durur. Nə təhəri olsa, sənnən öz qanlarını alajaxlar.

Kərim onnara deyir:

– A evi yıxılmışdar, bəyəm mən özbaşınayam, çıxım gedim? Deyək, bu saat getdim, bəs qoyun-quzunu kimə tafşırım? Ağama nə cavaf verim? Deyək, siz baxdınız? Mənim ağamı tanımırsınız? Mənnən heç əl çəkərmi?

Xülasə, Kərim qorxulu-qorxulu bir ay da burada birtəhər girrəndi. Bir gün yaz açılan vaxtı bir itburnu kolunun yanınnan keçəndə elə bil onun qıçınnan tutuf dartdılar. Baxanda gördü kü, bir yekə ilan onun ayağına dolaşıf dişini də keçirif çəkməsinə. Kərimin gözü elə qorxmuşdu ku, bilmədi necə yapışdı bunun boğazınnan. Bir də yoldaşdarı çatanda gördülər ki, Kərim ayaqüstə quruyub heykələ dönüf, əlində də bir yekə ilan. Xülasə, sudan-zaddan töküf, Kərimi ayıltdılar. Amma Kərim hələ də qorxusunnan ilanın boğazınnan əlini aça bilmirdi.

Yoldaşdarı tez Kərimin çəkməsini çəkdilər. Gördülər ki, ilan onu çala bilmiyif. Çəkmə rezin olduğunnan onun dişdəri çəkmədə qalıf. Sevindilər. Kərimə gözaydınnığı verdilər.

Birtəhər bir az da buralarda gün keçirif yaylağa yola düşdülər. Gəlif evlərinə çatdılar. Başdarına gələni camaata danışdılar. Kərimin sağ qurtardığına hamı çox sevindi.

Bir azdan qoyun qırxını başdadı. Bir də hay düşdü kü, deməzsənmi Kərimi ilan vuruf öldürüf. Çovannardan biri Kərimi vuran ilanın qışlaxdakı ilannardan olduğunu görmüşdü. Çovan ilanı nə qədər qovdsa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

da tuta bilməmişdi.
Bu işin necə olduğunu Kərimin yas yerində ağsaqqallar belə yozdular. Yeddi qardaş ilannardan biri qoyun sürüsünün çəkilif getdiyini görəndə bir yunnu qoçun belində gizdənmiş, intiqamını almaq üçün yaylağa gəlif çıxmışdı. Fürsət düşən kimi öz qardaşdarının qanını alıf, qaçmışdı.
Hamı, bir daha gördü kü, yeddi qardaş ilanın intiqamınnan can qurtarmax mümkün olan iş deyilmiş.

*   *   *

Müseyib baba danışardı kı, cavan vaxtdarımıydı. Hələ evlənməmişdim. Bir varrı ağanın qapısında nökərçilik eliyirdim. Bir gün ağam bizi, yə'ni nökərrəri çağırıf belə bir tapşırıx verdi ki, nəvəmə qurvan demişəm. Əlinizə keçən bütün kasıf-kusuf, əlsiz-ayaxsız adamları yığıf evə gətirərsiniz.
Biz hamımız kəndə dağışıf ağanın evinə adamlar topluyurdux. Kəndin lap qırağında bir xarava ev varıydı. Bir vaxtdar burada dükan varıymış. Sahibi ölənnən sonra heş kimi olmadığınnan dağılıf kalafaya dönmüşdü.
Uzun sözün kəsəsi, buradan keçif gedəndə qulağıma içəridən bir zümzümə gəldi. Səs gələn tərəfə gedif içəri girdim. Gördüm kü, dağılmış piştaxta arxasında bir adam oturuf. Bunun üz-gözü tamam tüknən örtülüf. Fikirrəşdim ki, elə yaxşı oldu, bunnan yoxsul adamı haradan tapa bilərəm. Mən ona dedim ki, ağam qurvan kəsif, sizi çağırır, dur bizə gedək. Bunu deyif dükannan çıxdım. Geriyə baxmadan dalımca gəl, – deyərək yeyin-yeyin evə tərəf getməyə başdadım. Kəndin içinə doğru getdikcə arvad-uşağın mənə tərəf baxıf qışqırdığını hiss etdim. Geriyə dönəndə nə görsəm yaxşıdır. Mənim bu qonağım bədənini tük basmış nataraz, bədheybət bir məxluxdu. Boyu ən azı iki-üç adam yekəlikdə idi. Yalın ayağının davanı qavaxda, barmaxları daldaydı. Mən bunu görən kimi başımın tükləri biz-biz oldu. Yeyin-yeyin mana tərəf gəldiyini görəndə bağırıf evə tərəf götürüldüm. Onu da deyim ki, ağamın evinə lap yaxınnaşmışdım. Gəlinnər damın üstündə əriştə sərirdilər. Onlar bizi görüf hay-havar saldılar. Ağanın yaxşı oğlannarı varıydı. Tüfənglərini götürüf halı güllüyə tutdular. Dönüf bir də geriyə baxdım. Gördüm kü, "qonağım" elə gedir ki, dalınnan güllə də çatan deyil. Ağanın oğlannarı, qonşudakı bir-neçə cavan ata minif halın dalınca düşdülər. Nə qədər güllə atdılarsa, heş nə eliyə bilmədilər. Əlləri ətəklərinnən uzun geriyə qayıtdılar.
Yer palçıx olduğunnan qonağımın ayağ izdəri yerdə qalmışdı. Davanının qavaxda, barmaxlarının dalda olduğu aydınca bilinirdi. Kəndin qojaları da təsdiq etdilər ki, bu hal ayağının izidi.



*   *   *

Bir gün Pəmbəkdən Babacana qoyun aparırdım. Dan yeri yenicə sökülürdü. Aralıx meşəsinin qulağındakı zağanın yanına çatanda gördüm kü, toy səsi gəlir.
Dedim:
– Aya, bu kim ola, belə sübh tezdən toy çala? Bir az irəli gedəndə gördüm kü, burada bir məclis var. Ancaq sifətdəri bizim adamlara heç oxşamırdı. Bənizləri sarıya çalırdı. Tanıdığım bir neçə qarının paltarı bunnarın əynində idi. Mən bunnarı görəndə şübhələndim. İstədim geriyə qayıdam. Ancaq Qaratel addı qarının qiyafəsində olan bir arvad məni çağırdı:
Vaqif, hara qayıdırsan, irəli gəl. Mən qeyri-ixtiyarı bunnarın yanına getdim. Çatan kimi bir ucaboylu qadın mənə çörək uzatdı. Mən istədim alam. Bu zaman bir balaca uşax mənə dedi:
– Çörəyi alma.
Bu zaman elə bil yatmışdım, yuxudan ayıldım. Həmişə mənim yanımda danışırdılar ki, cin var, adama çörək verəndə dəli olur. Yadıma düşdü kü, onnara rast gəlif "bismillah" desən, hal-cin qaçıb dağılar, sənə heç bir xata toxuna bilməz. Dilim tutar-tutmaz "bismillah" dedim. Baxıf gördüm kü, burada elə bil nə məclis varıymış, nə də çalıf-oxuyan. Bir meşə, bir də mənəm. Heyvannarın da hərəsi bir yana dağılıf.
Xülasə, bir təhər heyvannarı topluyuf aparıf çovana qatdım. Bir-neçə gün özümə gələ bilmədim. Ondan sonra bir də qorxudan o tərəflərə üz çevirmədim.

*   *   *

Göyçənin Ağbulaq kəndində Xalış adında bir kişi varıymış. Bir gün qavağında iki inək arannan öz kənddərinə gəlirmiş. Gəlib "haravauçan" deyilən bir yerə çatanda inəklərdən biri sürüşür və gedif bir çalıya düşür. Xalış kişi tək olduğunnan nə qədər çalışırsa, öküzü yerdən qaldıra bilmir...
Bir də başını qaldırıf görür kü, qavaxdan bir göy atdı gəlir. O, inəyin yanına çatan kimi əlini atıf inəyi qaldırır, aparıf yola düzəldir. Xalış kişi başını qaldırıf buna alxış eləmək istiyir. Bir də baxıf görür kü, yanında nə at var, nə adam.

*   *   *

Bir gün evdə otururdum. Ərim yenicə rəhmətə getmişdi. Uşaxlar hələ lap balacaydılar. Şər vaxtıydı. Birdən qulağıma pəyədən səs gəldi. Hiss



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

elədim ki, kimsə inəyi sağır. Düzü lap qorxdum. Sonra bir az özümə ürək-dirək verif yavaş-yavaş pəyəyə tərəf getdim. Qapının deşiyindən baxıf nə görsəm yaxşıdı?

Mənim paltarım əynində olan eybəcər bir arvad süd vedrəmi qavağına qoyuf inəyi sağır.

Dilim tutar-tutmaz "bismillah" deyib qapıyı araladım. Baxıf gördüm kü, heş kim yoxdu.

Bihuş halda evə gəldim. Uşaxlar qorxmasın deyə onnara heş nə demədim.

* * *

Halın iki dişi olur. Saşdarı burux-burux, rəngi də sapsarı. Döşdəri düz dizdərinə qədər sallanır. Boynunda da sarı rəngli muncuğ olur.

Hal zahı arvadlarnan yaman öj olur. Arvad uşağa yatanda gəlif onun burun-qulağını, bir də ciyarını çıxardıf aparır. Özü də mütləq axar suya çəkif yeyir. Əgər hala imkan versələr, onda zaha arvadı sağaltmaq olmur. Ona görə də, qoçax kişilər arvadı uşağı yatan kimi yaxındakı çaya, ya da axar suya gedif qılınşnan suyu qılışdıyır. Bə’zən də güllə atıf, hay-küy salıllar kı, hal qorxuf qaşsın. Əgər vaxtında bunnarı eləsələr, zaha arvadın ciyarını də, burun-qulağını da hal gətirif yerinə qoyur. Zaha da sağalır.

Bir də deyillər ki, kim zaha arvad yatanda bajanın yanında duruf keşik çəksə, hal gözünə görünür. Əgər əlini uzadıf halın boynundakı muncuğu qıra bilsə, onda nə o adam, nə də onun qohum-əqrəbasına heç vaxt hal sataşa bilmir. Var-dövlət da başınnan aşır.

* * *

Zurnaçı Abdulla deyir ki, bir gün İrəvana satmağa mal-qoyun aparırdı o. Hacı Mehdi dərəsində yatax yerrəri varıydı. Orada mal-qarıyı kalafaya yığıf yatırdıx. Özümüz də bir tərəfdə yatırdıx kı, mal-qoyun çəkilif getməsin. Gejənin bir vaxtı bir də gördüm ki, məni yuxuda çığırırlar. Ayıldım məni aparıllar. Baxdım burda toydu. Qavağıma ət qoydular. Sonra dedilər ki, dilindəkini demə. Bu yerdə barmağımı dişdədim. Başa düşdüm kü, cin yığnağına düşmüşəm. Mən baxdım kı, bizim pişik də buradadı. Pişik dəf vurandı. Usta Muroy çal deyəndə pişik dəfə bir hal kəsirdi ki, dərə səsə gəlirdi. Əmə, mənim evdə bir baldonum varıydı. Baxdım bu pişiyin çiynindədi. Tənbəllik eləmədim, əlimi xörəyin yağına batırıf baldonun ətəyinə basdım. Aradan bir az keçmiş gördüm bir düzün ortasında tək mənəm. Qayıtdım gəldim öz yerimdə yatdım. Səhərə az qalmış mən özümü sancılanmağa vurdum: ay öldüm, ay çatdadım, sancı məni öldürdü. Xülasə, aləmi götürdüm başıma. Dedim ki, daha mənim



getməyə halım qalmıyıf, görüm bir təhər evə qayıda bilərəmmi? Aparın mənim malımı satın gətirin. Gəldim evə. Kəsə yolnan tez evə gəlif çıxdım. Arvad məni görüf təəccüfnən soruşdu:

– A kişi, yolun niyə belə yaxın oldu?

Mən başıma gələnnəri arvadıma nağıl elədim.

Arvad deyəndə ki, yalan deyirsən. Mən dedim:

– Yalan demirəm sübutum var. Dur mənim baldonumu gətir bura. Əlimi yağa batırıf baldonun ətəyinə çəkmişəm.

Arvad deyinə-deyinə gedif baldonu gətirdi. Baxıf gördüm kü, doğrudan da paltonun ətəyində dediyim kimi yağlı əl izi var.

Arvad, bax bu gördüyün pişik də oradaydı. Bu baldon da onun əynindəydi.

Elə ki, deyirdilər, usta Muroy çal. Dərəni başına götürürdü. Belə dediyimi gördüm. Pişik fısqırıf üstümə atıldı. Az qaldı üz-gözümü cırnaxlarınnan qoparsın. Arvad-uşax töküldü bunun üstünə. Bir təhər məni onun əlinnən aldılar.

Pişik qaçıf evdən getdi. Bir daha qayıtmadı.

* * *

Yaxşı yadımdadı. Atamın anası Dursun Abbas qızı – rəhmətdik nənəm tez-tez bizə nağıllar, cinnərdən, əcinnələrdən maraxlı söhbətdər eliyərdi. Bir gün o bizə belə bir əhvalat danışdı.

Əmimin arvadı həmlidi. Yaman qorxurdu ku, uşağa yatanda onu hal aparsın. Bunu görən nənəm gəlininə ürək-dirək verif dedi:

– A bala, qəlbinə heç nə gətimə, heç nədən qorxuf eləmə. Hallar, cinnər bizim nəslin yeddi arxa dönəninə dəyməməyə and içiflər. Bunu mana rəhmətdik qaynatam Hüseyn kişi danışıf. O deyirdi ki, atam Məşədi Hasanın mal-qarası, var-dövləti aşıf-daşdığı kimi, çoxlu atı varıydı. At murazdı - deyiflər. Həm də deyillər ki, rəhmətdik kişi yaman at xoşduyanıymış. Bir də ki, o vaxtdar, yaxşı kişiləri yaxşı atdarı ilə tanıyardılar. Yaxşı atın adı dillərdə, dodaxlarda gəzərdi. Kənddəki hər toyda nəmərə duran atdarın heş biri Məşədi Hasanın Qızıl ürgəsini keçə bilməzmiş. At köhlənnər içində bir dənəymiş.

Məşədi Hasan kişi payız günnərindən birində hiss edir ki, at nasazdıyıf, bir az da arıxlıyıf. Axşamnan tövlüyə bağlanan at səhərrər yorğun görünür. Özü də hər səhər qan tərin içində olur. Otdan, arpadan qalmasa da əvvəlki ata oxşamır. Əvvəlcə kişi elə bilir ki, yaqın ata ya göz dəyif, ya da soyuxluyuf, keçif gedər. Lakin keçif getmir. At olan yerdə üzərrik də yandırıllar, yalmanınnan dağdağan asıllar, nəzər duası yazdırıllar, soyuqluğu çıxsın deyə çilədağı içirdillər, köhlən irəliləmir ki, irəliləmir. Günnən-günə daha da geriliyir. Dərd Məşədi Hasanı götürür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Demədiyi adam, məsdahat eləmədiyi baytar qalmır. Rəhmətdik baxır kı, dərddən dərmannan keçif. Axırda naəlac qalıf gejə atın keşiyini çəkməli olur. Axşamnan bir az keçməmiş, Məşədi Hasan bir də görür kü, pəyədə eybəcər bir cin peyda oldu. Rəhmətdik tez barmağını dişdiyir, işin nə yerdə olduğunu başa düşür. Qarannıxda gizdəndiyi yerdən tərpənmir, çıqqırını belə çıxarmır. İşin sonunu gözdüyür. Görür kü, cin ata sıçradı, onu səhərə kimi pəyənin o başına, bu başına səyirtdi, sonra da düşüf dirəyin arasına girif yox oldu.

Məşədi Hasan savah başına gələni evdəkilərə danışdı və cini tutmax üçün işə başdadı. Əvvəlcə bir neçə metr bez, qalın ağ parça tafdı, sonra qır-saqqızı əridif həmin parçanın üstünə yaxdı, atın belinə qoydu və örkənnən bərk-bərk sarıdı. Özünnən də xam iynə götürdü.

Axşam oldu, Gejədən bir az keşmiş cin yenə peyda oldu. Həmin oyunnarı çıxartdı. Elə ki, savah açıldı getmək istədi, ha dartındı saqqızdan qopa bilmədi. Bunu görən Məşədi Hasan cəld, bir su içimində əlində hazır tutduğu xam iyniyi cinin paltarına sanşdı. Tilsimə düşmüş cin başdıyır yalvarmağa, and verməyə ki, burax məni, bir də sizə sataşmıyajam. İndi anam yolumu gözdüyür. Məşədi Hasan onun yalançı anddarına inanmır. Cini evə gətirir. Bunu eşidif qohum-qonşu, hamı toflaşır. Cin yalvarır. Ağsaqqallar axırda belə qərara gəlillər ki, qoy cin anasının südünə and işsin ki, bundan belə sizin yeddi arxa dönəninizə sataşmıyajax. Bunnan sonra onun üstünnən xam iyniyi çəkif tilsimnən azad etmək olar. Nə qədər edillər, cin hər şeyə dönə-dönə and içir, lakin anasının südünə and işmir. Cini bir neçə gün saxlıyıf işlədillər. Deyillər cin hər şeyi tərsinə edirmiş. Məsələn deyəndə ki, get tez gəl, gedif gej gələrmiş. Deyəndə ki, bu qavları gej yu qurtarma, dərhal yuyuf qurtararmış. Bir neçə gün keçir. Cini o qədər buyuruf çağırıllar kı, axırda o məcbur oluf anasının südünə and içir. Bunnan sonra rəhmətdik Məşədi Hasan onun üstündəki xam iyniyi çəkir. Cin birdən-birə qeyvə çəkilir. Ona görə bu söhbəti elədim ki, arxayın olasan, zahı vaxtı sana heç bir dəyif, toxunan cinni olmuyajax.

* * *

Nənəm deyərdi ki, buna oxşar başqa bir hadisənin də olduğunu danışırdılar. Deyirdilər cini tutan bir səhvlik edif ki, onu izdəmiyif, gözdən qoyuf. Cin anasının südünə and içməmiş onu bulağa su gətirməyə göndərir. Cin bulağa çatanda burada bir balaja qız uşağı varıymış. Onu qılıxlıyıf deyir ki, bu paltarımdakı təzə iyniyi sana verirəm. Çək sənin olsun. Uşax da həvəsdənif tez iyniyi cinin üstündən çəkir. Cin dərhal yoxa çıxır. İynə qalır qızın əlində.



* * *

Rəhmətdik nənəm danışardı kı, dörd qaynım varıydı. Böyyünün adı Abuzəriydi. Mərifətdə, qanacaxda, böyük-kiçik yolu gözdəməkdə tayı-baravarı olmadığınnan hamı onu ürəkdən sevərdi. Kasıflara əl tutar, kimsəsizlərə kömək edərdi. Böyüklərə hörmət, kiçiklərə mərhəmət göstərərdi. Birdən qəflətən bu adamda qeyri-adi hallar, qəribə hadisələr baş verməyə başdıyır. Bunun bir neçə şahidi olanlar da vardı. Abuzər kolxozda briqadir işləyirdi. Bacarıxlı, səriştəli əkinçi kimi ad qazanmışdı. Hər il torpaxdan bol məhsul götürərdi. O biri briqadir heş bunun yarısına da çatmazdı. Hamı deyirdi ki, Abuzərin qoçaxlığı bir yana, həm də ayağı urzuludu. Allah uruzusunu başınnan tökür. Onu həmişə iş üstündə görərdilər. Ancax bir dəfə onun iş üstündə olmamağı hamıyın heyrətə gətirmişdi. Bu 1939-cu ilin yayında olmuşdu.

Kolxozun sədri axşamüstü at belində yaylaxdan kəndə, Sarıyaquba doğru at çapırmış. Çalışırmış kı, qarannıx düşməmiş toya çatsın. Axı, kənddə onun yolunu gözdüyüdülər. O, Yuxarı Şorcadan, "Dərin dərə"dən, "Tərsə" düzünnən keçif "Uzun eniş"in başına çatır. Ordan baxır kı, "Qaş xarava"dakı taxıl sərnəsində qaraltı görünür. Yaqın edir ki, kimsə taxılın sünbülünü qırp edir.

Gedif görür kü, bu, kolxozun qavaqjıl briqadiri Abuzər Həsənovdu. Qan-tər içində çidararı, kəvərləri dəyişir, taxıla dən suyu verir. Su da bir gəlmək gəlir ki, gəl görəsən. Nə arxa sığışır, nə gəvərə.

Kiçik söhbətdən sonra sədr atının yüyənini kəndə tərəf döndərir. Çapa-çapa düz gəlir birbaşa toy evinə. Atdan düşəndə onu ilk dəfə Abuzər qarşılıyır. Sədr gözdərinə inanmır. Elə bilir ki, yuxu görür. Halı xeyli dəyişir. Soruşur:

– Abuzər, bir az bunnan əvvəl sən hardaydın?

Abuzər cavab verir:

– Mən günortadan burdayam, yoldaş sədr.

Sədrin bu təəccüvünü görən adamların hamısı Abuzərin dediyini təsdiq edillər. Hamı mat qalır. Axırda sədr deyir:

– Bəlkə, gözüm alacalanıf, bəlkə mən dəli olmuşam. Yox, ağlım üstündə, özü də ayığıydım. Qaşxaravadakı adam Abuzəriydi. Hələ xeyli söhbət də etdik. Dedi ki, sən get, mən də suyu taxılın üstündə qoyuf gəlirəm. Bunu bir də yoxlamax lazımdı.

Sədrin göstərişinnən bir-neçə nəfər atdanıf həmin yerə gedir. Görüllər ki, Abuzər Həsənov yenə də qan-tər içində taxıl suvarır. Atdılara deyir ki, siz gedin, mən də indi gəlirəm.

Təəccüfnən geri dönən atlıların matı-mutu quruyur. Tələsik kəndə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çatıf gördüklərini toydakılara danışıllar. Hamı heyrət içində dönüf Abuzərə baxır. Heş nədən xəvəri olmuyan briqadir isə adamların mə’nalı baxışlarından heç nə annıya bilmiyif onun-bunun üzünə baxırdı. Sonra çox düşünüf-daşınannan sonra belə qənaətə gəlillər ki, bir fikrə gəlillər ki, iki Abuzərdən biri həqiqi Abuzər Hüseyn oğlunun bəxti ola bilərmiş.

*  *  *

Cinnər, əcinnələr xaravalıxlarda, kalafa yerrərində, samannıxlarda, zağalarda, buna bənzər yerrərdə olar, adamları həmişə bu yerrərdə daha çox qorxudar, sataşallar. Sarıyaqub kəndinin örüşündə bir dikdə köhnə xaravalıx yeri var. Həmişə burada nəsə olduğunu deyirdilər. Bu yer camaat tərəfindən "Qaşxarava" addanıf. Nənəm deyərdi ki, rəhmətlik qayınım Abuzər Böyük Vətən müharibəsi başlamazdan bir-iki il əvvəl, "Qaş xaraba"da taxıl sərnələrini gəzərmiş. Bir də qulağınıa toy səsi gəlir. Dönüb baxır kı, xaravalıxda bir çal-çağırdı kı, gəl görəsən. Hamısı da Sarıyaqub kəndinin camaatı. Öz-özünə təəccüblənir.

Nə qədər fikirrəşir ki, kənddə kimin toyu varıydı. Heş kəsi anşırda bilmir. Çünki son günnər kənd arasında toydan heş bir söhbət getmirdi. Sonra düşündü kü, ola bilər ya Yuxarı Şorcadan, ya Aşağı Şorcadan gəlif gəlin aparıllar, kənd adamları da onları toyla-nağara ilə yola salır. Nə qədər diqqət yetirdisə heş nə annıya bilmir. Məcbur oluf addım-addım toya, yaxınnaşır. Tanıdığı adamlar hörmət-izzətnən Abuzəri toyun lap baş yerində otuzdurdular. Qavağına yeməli yüz cür ne’mət düzdülər. Çalan çalır, oynuyan oynuyur. Ancax Abuzər bu toyda tanıdığı adamların hərəkətində bir qəribəlik görür. Şübhələr oyanır. Öz arvadının paltarını isə bir gəlinin əynində görür. Baxır kı, kənddə onnan utanan qız-gəlinnər burda onu heş saya da salmıllar.

Nəhayət, Abuzər burada bir əlləm-qəlləmlik, bir mö’cüzə olduğunu, əcinələrə, cinnilərə rast gəldiyini başa düşür. Var gücünü toplayıb "bismillah" deyir. Bu söz ağzınnan çıxmamış hər şey birdən-birə yox olur. Dörd yanında adam əvəzinə xaravalığın daşdarı, bir az əvvəl qabağındakı yüz cür naz-ne’mətli xörəklərin əvəzinə mal təzəyi, qoyun-quzu qığısı görür.

Abuzərin başına gələn bu və ya buna bənzər digər qeyri adi hadisələr tezdiknən onu dilə-ağıza salır. Atalar nahax yerə demiyiflər ki, yüz yeyənin ollasın, bir deyənin olmasın. Deyəllər o qədər, deyir, o qədər danışırlar ki, axırda Abuzər bədnəzərə rast gəlir. Bu hadisədən bir az sonra onu vurğun vurur. Çeynənən saqqız beləcə çürüyür.



*  *  *

Rəhmətdik atam Məhəmməd deyir ki, Göyçədə bu dəfə bir hüzr yerində qorxmazdıqdan və qorxaxlıxdan söz düşür. Məclisin ağsaqqalı molla israr edir ki, dünyada elə bir adam olmaz ki, nə qədər qoçax, cəsur olsa da gejə vaxtı qəbristannıxdan qorxmasın. Bu sözü təsdiq edənlər çox oluf. Ancax bir cavan tə’kidnən bildirif ki, mən heş vaxt, heş nədən qorxmuram. Hətta gecə yarısı gedif qəbristannıxda istənilən qəvirin üstünə şiş də taxıf gələrəm.

Mübahisə uzanır. Ağsaqqallar nə qədər eliyillərsə də, cavan inadkarrıq göstərif dediyindən dönmür. Axırda şərtdəşif mərc gəlillər. Axşam qarannıx düşənnən sonra cavan əlində şiş kənddən bir az aralıdakı qəbristannığa isnad, nişan verilmiş qəvirin üstünə şiş sanşmağa yollanır. Lakin nə qədər gözdüyüllərsə zavallı cavan qayıtmır.

Savah mə’lum olur ki, həqiqətən də cəsur, qoçaq, heş nədən qorxmaz bu cavan əlindəki şişi mərc gəldiyi qəvirin üstünə sancır. Ancaq gejənin qarannığında arxalığın ucunun şişə keçdiyini görmür. Geri qayıtmax istiyirkən qəvirə sancılmış şişə ilişmiş arxalığı onu saxlıyır. Cavan ani olarax elə bilir ki, ölü dirilif onu arxadan tutur və qorxudan bağrı yarılıf ölür.

*  *  *

Yaxşı yadımdadı. Kəndə birdən-birə xəvər yayıldı kı, qonşumuzun Ceyran adlı qızı axşamüstü yerə qaynar su töküf dəli oluf. Hamı ora axışırdı. İstər-istəməz uşax marağınnan ilə mən də getdim. Adam əlindən baxmağa yer yoxuydu. Böyük olan yerdə uşaxların nə işi varıydı. Bu hadisə 1956-1957-ci illərdə baş vermişdi. Birtəhər bir yannan gördüm kü, qız özündə deyil, atıl-batıldadı. Qorxusunnan əl-ayağı əsir. Dəli kimi gözdərini döyür. Əllərini yanlara açıf kiməsə, nəyəsə ona dəyməmək üçün yalvarır. Nə qədər çağırıllar, heş kəsə cavab vermirdi. Hərəkətdərinnən görünürdü ki, gözə görünməyən nəsə ona işgəncə, əziyyət verirdi. Onun çəkdiyi əzablar görənnərin göz yaşına çevrilmişdi. Uzun-uzadı məsləhət-məşvərətdən sonra kənd ağsaqqalları razılaşıllar ki, qızı qonşu Toxluca kəndinə burada adı dillər əzbəri olan seyid Mirəlinin yanına aparsınnar. Bəlkə o kömək edə. Yoxsa doxdurdan, həkimnən, kənd mollasından haray yoxdur. Vaxt itirmədən kolxoz sədrindən maşın aldılar. Sürücü atam Məhəmməd idi. Onun idarə etdiyi "Qaz-51" markalı yük maşını ilə xəstə Ceyran və bir də xeyli kişi-arvad Toxluca kəndinə yola düşdülər.

Atam sonrakı hadisəni dəfələrnən, böyük maraxnan danışırdı. Özü də deyirdi ki, belə şeyə inamım həmin günnən başdadı. O deyirdi ki, maşını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

isnad ilə seyidin qapısına sürdük. Elə bil bizim gəlişimiz əvvəlcədən seyidə bəyanıymış. O bizi çox gülərüznən qarşıladı. Qızın atası-anası seyidin əlinə-ayağına düşdü. Seyid böyük təmkinnən dedi:

– Darıxmıyın, bir neçə saata hər şey qaydasına düşər. Ceyran qızımız bizə çay da verər. Savah tezdən evə şad-xürrəm qayıdarsınız. Heş vaxt bu qapıya gələn naümid qayıtmıyıf. Böyük yaradanın köməkliyinnən hər şey qaydasına düşəjək.

Atam söylüyürdü kü, seyid hamımızı geniş və işıxlı, xalı-xalça döşənmiş bir otağa apardı. Başqa adamlar da toflaşmışdılar. Qız özündə deyildi. Seyid tez-tez deyirdi, narahat olmuyun hər şey düzələjək.

O üstü ərəb əlifbası ilə yazılı bir cama su töküf qızın qavağında xalçanın üstünə qoydu və əvvəlcədən qızı dedi:

– Qızım, Ceyran, bavanı yaxşı eşit, dediklərimə əməl et, gəzdərinnən nə görsən, qulaxlarınnan nə eşitsən düzünü mana de. Heş nədən qorxma. Bavan hamıdan güjdüdü. İndi bax görüm, camda nə görürsən?

Seyib bunu deyif, əlindəki bıçağı və qarğıdan olan kiçik çuvuğu havada yellədə-yellədə, qəzəfnən, hündürdən qur’anın ayələrini oxuyur və üzünü qıza tərəf tutur.

– Hə, Ceyran, qızım, suda nə görürsən?

Ceyran deyir:

– Bava su böyüdü-böyüdü böyük bir dəniz oldu. Dənizin qırağında çoxlu adamlar var. O da oradadı.

Qızın nitqi birdən-birə kəsilir. Əsif-titrəməyə başdıyır. Seyid bayaqkı qəzəfli hərəkətini yenə təkrar edif deyir:

– Qorxma, qızım, qorxma, bu saat onnarın hamısını bu qarğının içinə doldurajam. Danış, qorxma. O dediyin kimdi?

Ceyran:

– Bava, qorxuram, yanımdadı, barmaxlarını gözümə uzadır. Əlində qızarmış şiş var. Qorxuram, bava!!!

Seyid Mirəli yenə də əsif-coşur, oxuyur, üfürür, hədə qorxu gəlir, ucadan deyir:

– Qızım, o səni incidən nejə oldu?

Ceyran:

– Bava mənnən xeyli uzaxlaşdı. Ancax gözünü mənnən çəkmir. İrəli gəlmək istiyir. Sənin qorxunnan gəlmir.

Seyid:

– Qızım, mənim nə dediyimi onnar eşidillər. Ancax onnarın dediklərini mən eşidə bilmirəm. Sən onnarı həm görürsən, həm də eşidirsən. Gördüyünü, eşitdiyini olduğu kimi mana de, qorxma. Əcinnələrə deyirəm, hamısı gəlif əl basıf and içif sənnən əl çəksinnər. Yoxsa, bu dəqiqə onnarın



hamısını od vuruf yandırajam.

Bunu deyif seyid əlindəki çuvuxnan möhkəm-möhkəm camın qırağına vuruf bağıra-bağıra nəsə oxuyur. Sonra yenə soruşur:

– Hə, qızım, onnar neyniyillər? And içmək istiyillərmi?

Ceyran:

– Bava, hamısı ona yalvarır kı, gəl and içək, o isə inadınnan əl çəkmir.

Seyid:

– Onların işi-güjü yoxdumu, hamının başını qatıflar. Niyə öz işdərinin dalınnan getmillər?

Ceyran:

– Bava, deyillər çıxıf gedərik, bircə o da and işsin.

Seyid:

– A bala, o kimdi?

Ceyran:

– Bir arvaddı.

Seyid:

– A bala, adı nədi?

Ceyran:

– Bava, adı Səmərqadır.

Seyid:

– Qızım, desin görüm o sənnən nə istiyir, nə verif ala bilmir?

– Bava, deyir ki, mən astanıya qaynar su töküf onun qızının bir ayağını azca yandırmışam.

Seyid yenə əsif-coşuf dedi:

– Bala, bax gör, onun qızının ayağı həqiqətən yanıf?

Ceyran:

– Baba, qızın bir ayağında azajıx qızartı var.

Seyid:

– Yaxşı, biz onnarı görmürük. Onnar bizi görüllər. Görürdü kü, sən astanaya, yerə qaynar su tökürsən, qaçaydı.

Ceyran:

– Bava, deyir ki, sizin dilinizdə bir kəlmə söz (Bismillah) sözü var, onu desəydin biz qaçardıx.

Seyid:

– Qızım, and işmək, sənnən əl çəkmək istiyillər, ancax arvad qoymur.

Ceyran:

– Bava, o biriləri and işmək istiyillər, ancax arvad qoymur.

Seyid:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu saat, bala and içəllər! – deyif əsdi-coşdu. – dedi, döydü, oxudu, üfürdü, axırda soruşdu:
– Qızım indi nə fikirdədilər?
Ceyran:
– Bava, qorxusunnan hamısı and işməyə gəlir.
Seyid:
– O da gəlirmi?
Ceyran:
– Bava, gəlir, laf axırda, ayağını sürüyə-sürüyə.
Seyid Mirəli:
– Qızım, yaxşı bax, gör hansı and içəndə əlinin arxasını vurur.
Ceyran:
– Bava, hamısı əlinin içini vuruf and işdi, bircə o əlinin arxasını vurdu.
Seyid yenidən qan-tər içində qeyznən camın qırağına döyəşdiyif dedi:
– Ya and işsin, ya da bu saat onun bütün nəslini, kökünü yer üzünnən kəsəjəm.
Ceyran:
– Bava, bava, sana yalvarır, deyir and içirəm.
Seyid:
– Qoy and işsin. Qızım, ancax and işdiyi əlinə bax. Gör əlinin arxasını vurmur ku...
Ceyran:
– Bava, gəldi, əlinin içini vuruf and işdi.
Bunu eşidən Seyid Mirəli dərinnən nəfəs aldı, alnındakı puçur-puçur təri sildi, bayaqkı qəzəfli görkəminnən əsər-əlamət qalmadı. Təbəssümlə dedi:
– Ceyran, balam, indi nə görürsən?
Ceyran:
– Bava, indi heş nə görünmür. Bayaqkı böyük dəniz də getdikcə kiçilir. Hər şey yox oldu. Bava qarşıda bir cam, içində də bir az su var.
Seyid Mirəli sevincək qızın üzünnən öpüf dedi:
– Qurtardıx, qızım. Ata-ananın, elinin-gününün gözü aydın olsun. Dur bizə bir yaxşı çay ver.
Bir neçə saat bundan əvvəl dəli kimi yüz dona düşən Ceyran duruf hamıya çay verdi. Hamı bir-birini qucaxlıyıf təbrik elədi. Bu sevinc payı çox gözdərdə yaşa çevrildi. Ata-ana seyidin ayaxlarına düşüdü.
Gejə Seyid Mirəlinin evində qalıf, sübh tezdən Sarıyaquba şad-xürrəm doğma kənddərinə qayıtdılar.
Ceyran böyüyüf gözəl-göyçək bir qız oldu. Qonşu Qayabaşı kəndinə



ərə getdi. Gözəl ailə qurdu.
İlər ötdü, oğullu-uşaxlı, nəvəli oldu. Bunnarın hamısı Seyid Mirəli kimi bir tanrı adamının xeyirxahlığı, dini qüdrətinin güjü sayəsində mümkün olmuşdu. O günü, o annarı ara-bir, yeri gəldikcə ananarın hamısı bir söz deyir: Allah qəni-qəni rəhmət eləsin, gorun nurnan dolsun, Seyid!
Yaxın qonşumuzdan birinin arvadı hər zahı yatanda onu hal aparırdı. Hamı da toplaşırdı onnara. Biri tüfəng atar, biri əlində bıçax nəsə deyif havada yellədir, biri xəncər, qılıncı divara vura-vura ucadan nəsə deyirdi. Başqaları zahı qadının burnunu, qulaxlarını möhkəm-möhkəm dartır, üzünə ağır şillələr çəkirdilər.
Bir adamı da tez-tələsik əlində qılınc, xəncər yaxınnıxdakı çaya göndərif tapşırardılar kı, çatan kimi axar suyu qılınşda. Qoy zahının ciyərini hal suya çəkə bilməsin, qaytarıf yerinə qoysun. Əgər suya çəksə, zahı qadın ölə bilər. Həmişə də nəticəsi pis olurdu. Çox vaxt uşax ölsə də, qadına heş nə olmurdu. Nəhayət, həmin qadını ən güjdü Seyidin yanına apardılar. O da bildiyi dualardan, pitilərdən yazdı. Bunnan sonra həmin qadını zahı vaxtı bir daha hal aparmadı. Uşaxları da salamat qaldılar.
Başqa bir qonşumuzun arvadı da zahı vaxtı buna bənzər halnan üzdəşirdi. Onların evi kəndin kənarında, bir qorxunc qayanın divində idi. Həmin qadın deyirdi ki, yanımda adam olanda gözümə heş nə görünmür. Elə ki, hamı yanımnan çəkilir, cinnərin yanımnan ötdüyünü, ara-bir mənə əl ilə vurduxlarını görürəm.
Ona görə də bu qadın zahı olduğu qırx gün müddətində yaxın qohumları növbəynən yanında qalırdılar. İndi həmin qadının nəvə-nəticəsinin sayı-hesabı bilinmir.

* * *

Mənim nənəm yaman varrıymış. Özü də bu dövlətə əri ölənnən sonra, bir bölük yetimi olanda çatıfmış.
Günnərin birində böyük oğlu həddi-buluğa çatanda anasınnan soruşur:
– Ay ana, mən məəttəl qalmışam kı, bu var-dövlət bizdə hardandı. Dədəm rəhmətdiyin sağlığında bir tikə yavan çörəyə tamarzıydıx. Cındırımızdan da cin hürkürdü. Nə oldu ku, biz birdən-birə varrandıx. Özü də, dədəm ölənnən sonra.
Arvad oğluna deyir:
– Ay bala, adamın urzusunu gərək allah özü yetirə. Cəhd çarıx yırtar. Qismətdən artıx yemək olmaz. Bizim qismətimizi də allah yetirif. Biz də bir tikə çörək sahibi olmuşux.
Oğlu deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, ay nənə, keçəl suya getməz. Gərək mana deyəsən ki, nəyə görə biz birdən-birə varranmışıx. Bəlkə, bu var-dövləti pis yolnan qazanıfsan? Dədəmin papağını yerə soxufsan?

Arvad deyir:

– Ay bala, gəl daşı ətəyinnən tök, bu sirdi. Bunu mənnən soruşma. Əgər bu sirr açılsa, nəyimiz var, əlimizdən gedəjək. Yenə ajından köpük qusajaxsınız.

Oğlu əl çəkmir ki, çəkmir. Axırda əlini xəncərə atıf deyir ki, deməsən səni də, özümü də öldürəjəm.

Arvad naəlac qalıf deyir:

– Yaxşı, ay bala, indi ki, tanrına təpik atırsan, onda qulax as. Bil ki, anan sizi namusnan-qeyrətnən saxlıyıf, boya-başa çatdırıf.

Dədən ölənnən sonra onsuz da qara olan günüm daha da pisdəşdi. Dilənçi kökünə düşdüm. Sizə bir tikə çörək tapmadım kı, verəm.

Bir gün siz oturuf ağlaşır, mənnən çörək istiyirdiniz. Mən də ələim nəydi, oturuf ağlıyır, allaha yalvarırdım kı, bizə bir qapı aşsın. Balalarıma rəhm eləsin.

Gejə düşdü. Sizi bir təhərnən alldadıf yatırdım. Özüm də başımı yerə qoyuf ağlıyırdım. Bir də gördüm kü, tufarın küncünnən bir qara çuxalı kişi çıxıf düz mana tərəf gəldi. Qorxudan nitqim tutuldu. Kişi gəlif başımın üstündə duruf dedi:

– Arvad, mənə qara çuxa deyəllər. Mən əlsizdərin-ayaxsızdarın, yetim-yesirrərin pənahıyam. Kimə ki, yazığım gəldi, onun əlini çörəyə çatdırıram. Onu var-dövlətdi eliyirəm.

İndi sana kömək eliyəjəm. Varın, mal-dövlətin başınnan aşıf-daşacaq. Amma, gərək bu sirri heş kimə demiyəsən. Desən, hər şey əlinnən gedəjək. Yenə bu günə düşəjəksən.

Qaraçuxa bu sözü deyif qeyvə çəkildi. Hannan-hana özümə gəldim. Duruf gördüm kü, qazannarım yağnan doluf, ambarım da ağzına kimi unnan siləlıənif. Pəyədən də mal böyürtüsü gəlir. Gedif gördüm kü, pəyəmiz mal-qoyunnan doluf. Sandığımız da ağzına kimi qızılnan.

*    *    *

Bu günnən daha kasıflığın daşını atdıx. Varımız-malımız dünyaya görk oldu.

– Ay bala, məni məcbur elədin, Qara çuxaya verdiyim sözü yerə saldım, sirri sana aşdım. Qara çuxa verdiyi qismətimizi zəhərə döndərdin.

Arvadın sözü ağzınnan qurtaran kimi, onnarın gözünün qavağında bir tufan qofdu ku, gəl görəsən. Tufan çəkilif gedənnən sonra gördülər ki, nə evdə, nə də pəyədə heş nə qalmayıf. Hamısı qeybə çəkilif.



Nə olajaxdı, oğlanın iki əli oldu, bir başı. Harayı hara çatajaxdı. Yenə qaldılar lüt-üryan.

*    *    *

Günnərin birində gejə yarısı kəndin qırağındakı bir uçux evin yanından keçif gedirdim. Evin lap yaxınlığınnan geçəndə qulağıma toy, çalıf-çağırmax səsi gəldi. Ayağımı saxlıyıf xeyli dinnədim. Gördüm, yox bu kalafada əməlli-başlı toy çalıllar. Ürəyimə gəldi ki, qaçım uzaxlaşım. Bilirdim ki, cinnər belə yerrərdə yığışıf məclis qurullar. Bir də fikirrəşdim ki, mən seyid adamam, mən də cinnən qorxsam, onda bəs bu camaat neyləsin?

Nə başınızı ağrıdım, canımı dişimə tutuf qorxa-qorxa kalafanın lap ağzına qədər getdim. İçəri baxanda gördüm kü, burda bir vur-çatdasın var kı, gəl görəsən. Çalan kim, oynuyan kim, yeyif-içən kim. Dünyanın bütün naz-ne'mətini töküflər ortuya.

Bir də baxıf gördüm kü, bizim arvad da burdadı. Əynində də bu yaxannarda tikdirdiyi donu. Mən içəri girəndə arvadı çəkdilər ortuya kı, gərək oynuyasan. Arvad qolunu qaldırıf oynuyanda cin başıma vurdu. İstədim duruf bunun qol-qavırğasını sındıram. Tez yadıma düşdü kü, ay evi yıxılmış, bura cin yığıncağıdı. Ağlını başına yığ, səbr elə, görək nə olur.

Arvad yanımnan gəlif keçəndə əlimi xörəyə batırıf xəlvətcə donun kürəyinə basdım. Bir azdan mana bir qav-xörək gətirif verdilər. Elə buna əlimi batırıf yemək istiyəndə yadıma düşdü kü, cin çörəyi yeyən dəli olur. Ona görə əlimi geri çəkif, "bismillah" dedim. Bu söz ağzımnan çıxan kimi bura yığılannar qeyvə çəkildi. Əlimdəki xörəyə baxanda gördüm kü, bu xörək deyilmiş. Təzəyin üstündəki mal püşü, ortasındakı da bir az kirli suyuymuş. Evə gələndə arvada dedim:

– Arvad dur o təzə donunu bura gətir. Arvad donu gətirib mənə verdi. Baxıf gördüm kü, donun kürəyində barmağımın izdəri aydın bilinir. Arvada heş nə demədim. Ona tafşırdım kı, bir də dona xam iynə sancmamış sandığa qoymasın.

*    *    *

Bizim evdə qara bir pişik varıydı. Elə hey kürsünün bir küncünə sərilif yatardı.

Bir gün arvadıma dedim:

– Arvad, bu qara pişik elə hey yatır. Elə bil savahdan axşama kimi daş daşıyıf.

Arvad mana dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A kişi, mən də bu pişiyə sirrillah qalmışam. Elə hey yatır. Yuxudan gözü açılmır. Bilmirəm, bu neyniyir ki, bu qədər yorulur.

Mən arvada dedim:

– Bu axşam pişik evdən çıxanda onu güdəjəm. Görüm, bu hara gedir ki, belə bərk yorulur.

Axşam pişik duruf gedəndə mən də xəlvətcə evdən çıxıf bunu güdməyə başdadım. Xeyli gedənnən sonra pişik sahibsiz bir evə girdi. Mən də bunnan davanbasma içəri girif qarannıx bir günşdə gizdəndim. Bir də baxdım kı, pişiyimizi oynamax üçün ortalığa çəkdilər. Adını da öyrəndim. Gördüm ki, pişiyimizə bunnar Məstənxanım deyillər.

Məstənxanım onnara qoşuluf bir oyun çıxartdı kı, gəl görəsən.

Gejənin bir vaxtı bunnar dağılıf getdilər. Mən də gəlif evə çıxdım. Gördüklərimi arvada nağıl elədim.

Savah kürsünün altına girif oturanda qara pişik gəlif yanımızda uzandı. Arvad özünü saxlaya bilmiyif qara pişiyə:

– Ay səni öləsən, özünə gör bir nə ad qoyub Məstənxanım.

Söz arvadın ağzınnan qurtarmamış qara pişik cumdu onun üstünə. Üz-gözünü cırmaxlıyıf qanına bələdi. Zor-bala arvadı pişiyin əlinnən aldım. Qara pişik qaçıf getdi. Bir də evə gəlif çıxmadı.

* * *

Göyçənin Toxluca kəndində qəriv bir gəlin öldükdən sonra qohum-qardaşı gəlif qəviri açır və onu aparıf öz yerrərində basdırdılar. Qəvir boş qaldı.

Bunnan sonra kənddə dalvadal cavan adamlar ölməyə başdadı. Adamlar bunun səvəvini örgənmək üçün bir addı-sanlı mollanın yanına gedir və başdarına gələn qəziyəni ona danışıllar.

Molla kitava baxannan sonra onnara deyir:

– Sizin kənddə bir boş qəvir var. Boş olduğu üçün ölü istiyir. Cavannarın ölməsinin səvəvi budu. Gedin, qəvirə bir qoyunnan-quzunan kəsif basdırın. Onda xata sizdən uzaxlaşajax.

Kəndin adamları belə də eliyir. Doğrudan da, onnan sonra bu xata-bala onnardan uzaxlaşır.

* * *

Günnərin birində sübh tezdən Gədəbəydən çıxıf Ardanına gedirdim. Yağış çisəliyirdi. Gəlif "bataxlıx" deyilən yerə çatanda gördüm kü, qayanın divində kəndimizdən bir-neçə qadın oturuf söhbət eliyir. Bunnarı görüf yaxına getdim. Məsmə addı bir gəlinə üzümü tutuf dedim:

– A Məsmə bajı, yağış daha kəsif, burda niyə oturursunuz? Durun



gedək. Gördüm bunnar mana heş cavaf-zad vermillər. Bir az da yaxına getdim. Birdən gördüm kü, arvaddarın hamısı yoxa çıxdı.

Başa düşdüm kü, qojaların dediyi düzüymüş. Mən cin yığnağına rast gəlmişəm.

* * *

Oruc Məşədi İsmayıl oğlu danışırdı kı, bir dəfə yolnan piyada Daşkəsənə tərəf gedirdim. Gedif qoyun yatağının yanına çatanda gördüm kü, bir səs gəlir. Başımı qaldırıf baxanda gördüm kü, yatağın ağzında bir bədheybət arvad duruf. Saşdarı pırtdaşıx, yekə dişdi, çəp gözdü bu arvad məni yanına çağırıf dedi:

– Bura gəl, çörəyin varmı? Gətir yeyək.

Mən bunu görən kimi əlimdəki çörəyi ona tərəf tulladım və qaşdım.

* * *

Bir gözü dəymərri kişi varıymış. Nəfsi nəyə keşsə, gərək axırına çıxaymış. Heş kim evdən çıxanda o olan tərəfə hərrənmirmiş. Çünki, o kimin qavağına çıxsa, onun başına mütləq bir iş gələrmiş.

Kəndin ortasında böyük bir daş varıymış. Camaat çoxdan bu daşı ordan uzaqlaşdırmax istiyirmiş. Amma daş o qədər yekəymiş ki, əlli adam da yerinnən tərpədə bilmirmiş.

Bir gün kəndin cavannarı sözdəşirlər ki, gəlin gözü dəymərri kişinin güjünü sınıyax. Görək bu daşı dağıda bilərmi?

Bunnarın bir-neçəsi yığışıf kişini dilə tutur ku, gəl bu daşa bir yaxşı-yaxşı bax. Gör, bunu nə təhər yoldan çıxara bilərik.

Kişi gəlif bu daşa bir az baxır. Sonra deyir:

– Bah-bah, nə yekə daşdı. Ə, bu da yerinnən tərpənərmi?

Deyillər, bu söz kişinin ağzınnan çıxan kimi həmin daş parça-parça oluf yola dağıldı. Cavanlar onun qırıxlarını götürüf yoldan qırağa atdılar.

* * *

Bir kişi səfərə gedifmiş. Elə oldu ku, onun öz evinə qayıtması ilin axır çərşənbəsinə düşür. Kişi gejə yarı gəlif evinə çatır. Gözdərinə inanmır. Qapıda nə qədər ağaş varsa hamısı yerə əyilif.

Kişinin yadına düşür kü, bu qojaların söylədiyi Qədir gejəsi olajax. Bu gejə nə niyyət eləsən, ona çatajaxsan, sözdərini xatırrıyıf bunu yoxlamax üçün ürəyinə gələn: nə olaydı, bir quş olub uçaydım – sözdərini qeyri-iradi pıçıllıyır. Bu sözdər ağzınnan çıxan kimi o sərçəyə çevrilif havaya qalxır. Amma öz evinnən, balalarınnan heş cürə ayrıla bilmir. Gejə-gündüz öz evinin həndəvərində fırranır. Başqa quşlar özdərinə isti yerrər axtarsa da, sərçə öz yurdunu qoyuf heş yerə getmir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# İ N A N C L A R

Evlərin hamısında hər şeyə qadir olan hami ruhlar yaşıyır. İnsan öz xoşbəxtliyini qorumax üçün mütləq onnara sığınmalı, onnara heş vaxt biganə olmamalıdı. Əgər bir evdə hami ruha – ev yiyəsinə hörmətsizdik olarsa, oraya mütləq bədbəxtlik gələjək, evin bin-bərəkəti bajadan göyə çəkiləjək....

Ev yiyəsini narazı salmamaq üçün astanadan evə girən adam mütləq salam verməli və deməlidi:

– Salam, ay ev yiyəsi. Allah mənim evimi sənsiz eləməsin.

İnama görə, əgər insan ev yiyəsini unutmasa, onun adını çəksə, ona öz hörmətini bildirsə, o evə nə qada-bala yaxın gələjək, nə də o evdən bin-bərəkət əksik olajax.

Göyçədə çox qədimlərdən bəri ez damlarının bajalarınnan qoyun ayağı asardılar. Qojaların dediyinə görə, mal-qaraya ziyan verən, qırğın törədən şər qüvvələr onnarı görən kimi həmin evdən uzaxlaşar, bunlar artıx öz qurvanlarını vermişdir. -qərarına gələrdilər.

Təndirdə çörək işəndə evdə bir adam aj olur.

Xəmir yayan zaman oxlov cırarsa, qonağın gələr.

Axşamlar ev süpürməzdər. Belə eləsən, evdə kiməsə xətər toxunar.

Evə yanmış odun gətirməzdər. Buna əməl eləməsən, arvadın çirkin, deyingən olajax.

Göz səyriyəndə, adam sevinər.

Göyçədə göy otu yandırannarı qojalar dannıyar, bunun nəticəsində fasiləsiz yağışlar yağacağını söylüyərdilər.

Durnalar köç edərkən yerdə daş çevirmək olmaz. Çünki bu zaman onnar yolu itirər, mənzil başına çata bilməzdər. Bu isə böyük günahdı.

Bərk yağannıx olanda ailənin ilk uşağı eşiyə çıxar, üzünü yağışa tutarax deyərdi:

– Mən anamın ilkiyəm,  
Ağzı qara tülküyəm  
Mən kəsmişəm, sən də kəs.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu zaman yağış kəsər, gün çıxardı.

İlan evlərdə yaşayan müqəddəs hami ruhlardan hesab olunur. Təsəvvürə görə, evin bütün xeyir-bərəkəti, ailə üzvlərinin xoşbəxtliyi həmin ilanın əlindədi.

Yağış yağanda əgər evin bajasının altında duruf ovujdarını aşsan, qojalar deyərdilər:
– Bala ovcunu yum, belə eləsən, yağış qırx gün davam eliyəjək.

Qayçı düşəndə arvad, bıçax düşəndə kişi qonağı gələcəyinə inanırdılar.

Qatıx çalmax üçün şər vaxtı qonşuya maya verənin heyvanı ölər.

Süd olan ojaxdan başqa bir adam od götürərsə ojax sahivinin heyvanı ölər.

Heyvan çöldə qalan zaman bıçağa "qurd ağzı" duası oxunuf bıçağın ağzını bağlayıllar kı, çöldə heyvan qurda rast gəlsə, qurd onu yeyə bilməsin.

Odun ocaxda səsdənirsə, deməli kimsə, sənin qeybətini qırır.

Qaynar suyu yerə atanda "bismillah" deyəllər ki, məleykələrin üstünə tökülməsin.

Duman, çiskin ara vermiyif, yağışdar kəsmirsə ip götürüf qırx keçəlin adını çəkməknən hər birinə düyün vurullar. Evin ilk oğlu həmin ipi ojaxda yandırır. Bunnan sonra havalar açılır, yağışdar kəsir.

Bədnəzər görəndə o yan, bu yanı qaşıyallar ki, həmin adama sədəmə toxunmasın.

Təzə təndirdə bişən ilk çörəyi yeyən adamın öləcəyi güman olunur.
Qoz ağacını əkən barını yeməz, deyiflər.

Sarımsax əkməyin düşər-düşməzi olur.

Uzun illər düşdüyü yurd yerinnən köçüf başqa yerdə yurd salan adam ziyannıx görməlidi, deyəllər.



Deyillər ki, ojaxda yaş yarpağın yandırılması fasiləsiz yağışlar yağacağına səbəb olur.

Dolu, güjdü yağış yağanda çöldə olannar bir ağızdan deyərdilər:

Yağma yağış, bitmə qamış,
Balaca bavam çöldədi.
Yapıncası evdədi.
***
Yağma yağış, bitmə qamış.
Zeynəb nənəm evdədi,
Danacığı çöldədi.

Axşamlar gün batanda üfüq qızararsa, savah isti olajax, - deyərdilər.

Xıdır Nəvinin gəlişini hamı səvirsizdiknən gözdüyərdi. Qavlara qovud qoyular və eşiyə düzərdilər. Bunnar Xıdırın payıdı, – deyərdilər. Xıdır Nəvi gejə gəlif qovud payını yesə, – bu il qada-baladan sovuşdux, bu il bollux olajax, - deyərdilər.

Gejə evi süpürməzdər. Bu adamlara bədbəxtlik gətirər. Əgər süpürsən, süpürgənin ujunu yandırmalısan.

Gejə dırnax tutmax olmaz. Kim gejə dırnax tutsa, onun ömrü qısalajax - deyərdilər.

Tək (Çərşənbə) günü çimmək olmaz. Həmin gün ojağı boşa keçirməzdər. Çünki o gün ruhlar evlərə qonax gəlir. Bütün ojaxlarda qazan asılmalıdı.

Dərman üçün qonşuya nə verilsə, əvəzində az, dəyərsiz də olsa nə isə bir şey almax lazımdı. Kim belə eləməsə, onun evinə nə isə bir bədbəxtlik gələjək.
Gejə vaxtı uşağı evdən çıxarmazdar. Əgər çıxarsan, onun bələyinə hökmən çörək parçası qoymax lazımdı. Şər ruhlar çörəkdən qorxuf, uşağa heş bir xata-bala toxuya bilməz.

Suların başında məlaikələr olur. Ona görə də suyu murdarramax olmaz. Əgər murdarrasan, onda məlaikələr səni vurajax.

Gejə vaxdı suya getmək olmaz. Çünki məlaikələr dincəlillər. Onları



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

narahat etsən, səni vura bilələr. Əgər suya getsən, onda salam verməli, "bismillah" deməlisən. Belə eləsən, onnar sana toxunmazdar.

İsti suyu yerə tökməzdər. Çünki gözə görünməyən cin balalarını yandıra bilərsən. Onnar da sana sədəmə toxuyar.

Süpürgə kimə dəysə, gərək ona üç dəfə tüpürə. Yoxsa, şərə düşər.

Süpürgəni başı yuxarı qoymax olmaz. Belə eləsən, evə ölü düşər.

Evdən çıxanda qavağına qara pişik çıxsa, gərək dayana, sonra üç dəfə yerində hərrənəsən. Pişik keçif gedənnən sonra yoluna davam eliyəsən. Əgər, belə eləməsən, onda sana bədbaxtlıx üz verəjək.

Çimən adam çimif qurtarannan sonra bir-iki dolça su töküf deyir:
– Ağırrığım, uğurruğum dağlara, daşdara, göydə uçan quşdara, naxırdakı buğalara, sürüdəki qoşdara, dul arvaddara.

Hansı uşax çox ağlasa, onun ağzına kül dolduruf, qaloşnan vurallar kı, baş yeməsin.

Oğurrux eliyif bir şey yeyənin dilinə dilbar çıxar.

Dilinə dilbar çıxan üç dəfə deyər: dilimə dilbar çıxıf. Sonra da üç dəfə də deyəllər ki, tüpür yerə düşsün. Bunnan da dildən dilbar yox olar.

Gözə bir şey düşərsə, kiprikdən tutuf gözü silə-silə deyərlər:
– Evinə qonax gəlif, süpür çıx.
Bir neçə dəfə təkrar olunannan sonra gözə düşən şey çıxar.

Göz qızararsa, birisi gözə baxıf, qəfildən ona tüpürər. Bunnan diksinif, hirsdənən adamın gözünün qızartısı çəkilər.

Sağsağan qapıya gəlif səsdənərsə, qonağın gələr.

Bir-neçə gejə itdər ulaşarsa, bədbaxtlıx baş verər.

Qoyunun keçinin üç-dörd balası olarsa, ikisini tələf eləyəllər ki, evdə ziyannıx olmasın.

Heyvan əcaib bala doğarsa, evə bəla gəlməsin deyə həmin təzə



doğulan oğlağı və ya quzunu kəsəllər.

İnək iki bala doğarsa, evə xata gələr.

Qorxulu yuxunu suya söyləmək lazımdı kı, bədbəxt hadisə yuxu görənnən uzaxlaşsın.

Yaxşı yuxunu danışmazdar kı, zühur olsun.

Kəfənnən qalan artıx parçanı işlədəndə evdən xəstə əksik olmaz.

Sübh tezdən duruf şırnağın altında dua-səna eyliyəndə diləyin hasil olar.

Ağaşdan yelləncək asan, birinci özü minməlidi ki, onu it tutmasın.

Təzə alınan paltarı, ayaqqabını sahibi ilk dəfə özü geyməlidi. İlk dəfə başqası geysə, paltar sahibi ölər.

Nənni boş yırğalananda uşax ölür.

Uşağa nəzər gəlməsin deyə, üstündə göz muncuğu, ya da dağlanmış dağdağan asallar.
Gejə tək yatanda üç dəfə həmdi-sura oxumalı, sonra sağa-sola üfürməlisən ki, sana sədəmə toxunmasın.

Təzə nişannanmış qız sağ əlini hansı qızın başına çəkərsə, o qızın baxtı açılar.

Nişannanmış qız öz nişan şirinisinnən birini götürüf hansı qıza versə, o qız tezdiknən nişannanajax.

Təzə nişannanmış qız barmağınnan nişan üzüyünü çıxardıf başqa birisinin barmağına taxarsa, onun baxtı bağlanır. Deyilənə gərə, bunnan o öz baxtını həmin qıza verir.

Tərəzinin üstünnən addamazdar kı, ziyannıx olmasın.

Qaynar süd altında kavaf bişirsən heyvanın ölər.

Tüfəngin üstünnən addasan, tüfəng sahibi ölər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gejə qara qazanı, tərəzini evdən versən, ziyana düşərsən.

Başqa yerə keçən adamın dalınnan daş atsan, o adam bir daha əvvəlki yerinə qayıtmaz.

Axşam qapını açıx qoysan, evə dərd gələr.

Savah tezdən qapıyı açıx qoyullar kı, evə ruzu gəlsin.

Toyux bannayanda kəsəllər ki, yiyəsinə xətər gəlməsin.

Adam bədnəzərə gəlməsin deyə duzu başına fırladıf ojağa atıf deməlidi:
– Bədnəzərin gözü ojaxda belə yansın.

Yatanda paltarı başının altına qoysan, qorxulu, pis yuxu görərsən.
Qorxan adamın yastığının altında çörək, iynə qoyallar.

Heyvanın üzünə qarğasan, heyvan ölər.

Gəlin evə gələndə barmağını bala, doşava batırıf onu evin uşaxlarınnan birinə yedizdirəllər ki, gəlin ailənin gözündə həmişə şirin olsun.

Novruz bayramı günü savaşan, yaxur evdə olmasan yeddi bayram savaşajax, evdə olmuyajaxsan.

İki qadın arasından keçmək olmaz. Belə eləsən, şərə düşəjəksən.

Yemək vaxtı stolun küncündə otursan, işin heç vaxt düz gətirmiyəjək.

Uzanan adamın üstünnən addasan, xəstəliyini ona vermiş olursan.

Xəstənin yanında asqıranda yorğanı əl ilə çırpallar kı, xəstə yüngülləşsin.

Çörəyi süfrədə tərsinə qoysan, evin bərəkəti göyə çıxar, - deyiflər.

Nişan məclisində süfrəyə ajı şey qoymax olmaz. Belə eləsən, arada narazılıx yaranar.



Qız uşağı paltarını başqasına versə, deyillər ki, paltarnan baravar baxtını da verir.

Hansı uşaxdan sonra doğulan uşaqlar ölürsə, həmin uşağın davanını qızmış şişnən dağlıyıllar. Bundan sonra doğulan uşaxlara heç bir xata toxunmaz.

Təzə gələn gəlin ər evinə qədəm basanda çalışır kı, ərinin ayağını basdalasın. Bunu edə bilsə, ər heş vaxt onun dediyinnən çıxa bilmiyəjək.

Gəlin ər evində xoşbaxt olmaq istiyirsə, ilk gördüyü iş suynən başdanmalıdı. Ər evində ilk dəfə süpürgəynən işə başdıyan gəlini bədbəxtlik gözdüyür.

Ər evinə qədəm qoyan gəlini oturtmax üçün ya qaynata, ya da böyük qayın gəlməli və ona nə isə qiymətli şey boyun olmalıdı.

Gəlin oturanda qaynana gəlif onun qucağına oğlan uşağı qoyur. Bu o deməkdi ki, gəlinin ilk övladı oğlan olsun.

Novruz bayramında evlərin tavanına un vurullar kı, ev həmişə urzalı olsun.

Təzə yorğanı sırıyıf qurtaran adam hər hansı bir hamilə qadının nəyi olacağını bilmək üçün bayıra çıxır. Qarşısına ilk dəfə oğlan çıxsa, həmin adamın oğlu, qız çıxsa, qızı olajax.

Yuxuda at minən adam öz murazına çatajax.

Qız uşağı yeddi ulduz sayıf lal-dinməz evə girsə, xam bir güzgüyü qavağına qoyuf diqqətnən ona baxsa, yatannan sonra kimə gedəjəksə, yuxusunda onu görəjək.

Yuxuda dənizdə çimmək günahların yuyulması deməkdi.

Kim yuxu görüf, yuxuda gördüyünü başqasına danışsa, onu nə isə yeni bir xoşbəxtlik gözdüyür.

Ölünün dalıynan ağlamazdar. Çünki göz yaşdarı axıf qəvirə tökülür. Ölünün yeri su olduğunnan narahat olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Üzə tüpürmək günahdı. Çünki allah-taala insanı öz sifətində yaradıf.

Beyin yeyən uşaq ağılsız olar.

Sarmısağı ələ verməzdər döyüş olar.

Şüşə qavın düşüf sınması, yaxşı əlamət sayılmır.

Şüşə qav xeyir işdə, şər işdən sınsa "yaxşı oldu" – deyəllər.

Yuxudan duran adam səhər tezdən əl-üzünü yuduxdan sonra güzgüdə öz-özünə baxıf salavat çevirməlidi. Çünki allah-taala insannarı öz camalında yaradıf. İnsan bununla allaha öz məhəbbətini izhar eləmiş olur.

Şər qarışanda ağlamax olmaz. Kim ağlasa, onun ailəsinə bədbaxtlıx üz verəjək.

Təndirdən çıxan ilk çörəyi kim yesə, həyat yoldaşı ölər. Ona görə də onu itə atmax lazımdı.

Yeriyən uşağı zivilli yerə qoyuf dalınca yeri süpürəndə, uşax ayax açıf yeriyir.

Gejə tək yatmax olmaz. Çünki tək adama şər qüvvələr sədəmə toxuya bilər. Gejə tək yatanda baş altına xam iynə, ya da iti bir polad parçası qoymax lazımdı.

Sağ çiynimizdə həyatda gördüyümüz yaxşı, sol çiynimizdə isə pis işdəri yazan iki məleykə oturmuşdur. İnsan ölənnən sonra axirət evində bu məleykələr gəlif əməllərini üzünə oxuyur. Hər kəs əməlinə layıx haqqını alır.

Əli sinədə çarpazdamax olmaz. Əgər belə eləsən, onda həyat yoldaşın öləjək.

Kimin ürəyində niyyət varsa, o uşağa yatan qadının yastığının altına xəlvətcə güzgü qoyur. Zahı qadının yuxusunda gördüyü düz olur.

Yeni doğulmuş uşağın əskisi yalnız gündüzlər sərilməlidi. Əski ulduz



çıxana qalsa və şər vaxtı evə gətirilsə, uşağa xata toxunar.

Üzərrik adamı bədnəzərdən qoruyur. Əgər bədnəzər toxunan adama vaxtında üzərrik tüstüsü versələr, o sağalar. Üzərriyi yandıran adam tüstünü verdikcə bu sözləri təkrar eliyir:

Üzərriyəm havayam,
Hər dərddərə davayam.
Sənə göz yetirənin
Gözdərini ovaram.
***
Üzərriklər üst-üstə,
Yaman gözlər köz üstə
Çıxdım qanqal başına,
Nə çarə
Biçarəyə de çarə.
Qanqalla qovuş,
Qadalar sovuş.

Göz deyən adamı sağaltmax üçün bir nəfər şübhələndiyi adamların adını çəkə-çəkə duzu naxoşun başına doluyuf ojağa atır. Duz ojağa töküldükcə deyir:
– Bədnəzər gözün kor olsun, bu duz kimi ojaxda yansın.

Evdən çıxıf səfərə gedəndə geri qayıtmax olmaz. Belə olsa, uğurundan xeyir tapmazsan.

Nişannı qız nişan paltarının parçasını gizli yerdə saxlamalıdı. Çünki qızı istəmiyənnər onun paltarının sapından götürüf baxtını bağlada biləllər.

Ojax başında qarğış eləmək olmaz. Çünki bu qarğış mütləq tutmalıdı.

Kim ayaxlarını suya salıf allah-taaladan dilək eləsə, istəyinə çatar.
Bədənində xalı çox olan adamın düşməni çox olar.

Keçmiş zamannarda karvannar göydə bir ulduzun vəziyyətinnən hərəkət edərmişdər. Qarannıx düşənnən sonra karvan dayanar, sübh tezdən doğan həmin ulduz görünən kimi yollarına davam edərmişdər. Həmin ulduza bənzəyən bir ulduz da var kı, o gejəyarısı doğur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Günnərin birində bir karvan həmin ulduzu dan ulduzunnan dəyişik salarax yola çıxır. Karvan çox gedir, amma savah açılmır kı, açılmır. Qarannıxda azıf hündür bir qayadan uçarax qırılıllar. Bu əhvalatdan xəvər tutan adamlar həmin ulduzu karvanqıran adlandırıllar.

Əli ağır olan qız dul kişiyə, əli ağır olan oğlan isə dul arvada qismət olar.

Süfrəni kağıznan silməzdər. Belə eləsələr, həmin evdə dava düşər.
Qız uşağı gejə güzgüyə baxsa, baxtı bağlanar.

Qız uşağı başını darıyannan sonra saçının qırıxlarını atmamalıdı. Onun saçını ələ keçirif baxtını bağlıya bilələr.

Gözünnən gülən adam hiyləgər olar.

Təzə mal alıf gətirəndə onun ayağının altına dəmir atallar kı, ayağı sayalı, binni-bərəkətdi olsun.

Nehrə çalxalayanda onun içində palıd qozası atallar kı, yağı bol olsun.

Gejələr evi süpürmək bədbəxtlik gətirər. Əgər süpürəsi olsan, gərək toy evi süpürürəm – deyəsən.

Kişi iki qadın arasından keşsə, şərə düşər.

Əynində olan paltarda tikiş tikən adam şərə düşər. Bunnan qorunmax üçün tikiş tikən ağzına çöp almalıdı.

Deyillər bir qəvirə yeddi meyid basdırılarsa, müharibə olar və çoxlu insan tələfatı ilə nəticələnər.
Sağ əl qaşınanda pul gələr, sol əl qaşınanda isə pul gedər.

Sağ qulağın cingildiyirsə xeyrinə, sol qulağın cingildiyirsə əleyhinə danışıllar.

Qulağın cingildiyərsə, uzaxdan olan qohum, dost və tanışdan kimsə sənin haqqında danışır. Onnarın bir-bir adı sadalanır. Kimin adı çəkiləndə cingilti kəssə, demək sənin haqqında danışan odu.

Dilə pay çıxanda bir nəfərə üzünü tutuf deməlisən:



– Dilimə pay çıxıf.
Həmin adam üç dəfə deməlidi:
– Tüpür, yerə düşsün.
Bunnan sonra dildə olan yara tamamilə sağalır.

Körpə uşax göz götürmür. Uşaq bədnəzərə rast gələn kimi, kimnən şübhələnirsə, onun ayaqqabısının davanınnan xəlvətcə bir az kəsif yandırmax və uşağı onun tüstüsünə vermək lazımdı.
Uşax anadan olannan sonra danışarsa, onu o qədər danışdırmax lazımdı ki, ölsün. Əgər sağ qalsa, çox başdar yeyəjək.

Qırxı çıxmamış uşağın üstünə çiy ət aparmax olmaz. Belə eliyəndə uşağın bədəni ət kimi olur.

Novruz bayramında kim gün çıxmamış hamıdan tez bulaxdan su gətirif onunla xımır yuğursa, o evdən bin-bərəkət heş vaxt əskik olmaz.

Yaz gələndə çöldə bitən bitkilərdən topluyuf yeyər və yedikcə deyərdilər:

Nuvar-nuvar təzə nuvar.
Düşmənnəri qırılsın,
Qohum-qardaş dirilsin.

Göy gurulluyanda yerdən daş götürüf çaydanın, qazanın içinə atıllar kı, qada-bala onnardan uzağ olsun. Evdən bollux, ağız şirinliyi əksik olmasın.

Bir şey itirəndə gözünü yumuf əlini yerə uzadırsan, Əlinə nə keşsə ovcunda sıxıf deyirsən:
– Kor şeytan, sənə lə'nət. İtiyimi tapmasan, səni buraxan deyiləm. Bundan sonra itik tapılır.

İlin axır çərşənbəsində bir suvay oğlana iki boşqav verif suya yolluyullar. Tapşırıllar kı, boşqavlardan birini su ilə doldursun.

Oğlan əgər sağ əlindəki qavı dolduruf gətirsə, niyyəti hasil olar.

Ölünü basdırannan sonra ölü yiyəsinin ürəyi sakitdəşsin, ölüdən soyusun deyə, yad bir adam qəvir torpağınnan götürüf xəlvətcə ölü sahivinin kürəyinə vurur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yuxuya ölü çox girərsə, gərək ona quran oxuda, sonra da ya ayaqqavı tayı, ya da sarımsax tulluyasan.

Təzə gəlin cavan qızın kürəyinin ortasına əlini vursa, deyillər ki, tezdiknən onun baxtı açılajax.

Deyillər ki, hamilə qadın əgər yeyin tərpənirsə oğlu, yavaş tərpənirsə, qızı olajax.

Hamilə qadının xəlvətcə başına duz töküf fikir verirsən. Əgər o, əlini saçına atsa qızı, ağzına atsa, oğlu olajax.

Qız uşağı şər qarışannan sonra güzgüyə baxıf başını darasa, onun baxtı bağlanar.

İlin axır çərşənbəsində gejə yarısı yuyunuf paklanannan sonra axar suyun qırağında oturuf niyyətini ona danışsan, o niyyətinə çatarsan. Dərdini, ağrını, azarını suya söyləsən, su gejə hamısını özü ilə aparar, – deyiflər.

Bişirəndə süd daşarsa, ojağa duz atallar kı, süd verən malın yelini kəlməsin.

Yaxşı yuxu görəndə suya, pis yuxu görəndə zivilliyə danışallar. Belə eləməsən, xeyir tapa bilməzsən.

Təzəcə doğulmuş ayın ujdarı iti deyilsə, rəngi sarımtıl, solğundusa həmin ayın yağmurru olajağı; ayın ujları iti, rəngi açıx və təmizdisə quraxlıx olajağı gözdənilir.

Günəş ay, ulduzlar müqəddəs sayılır. Onlara pis söz deməzdər. Kim onlara e'tiqad eləməsə, bəlaya düçar olar, – deyiflər.

Günəşin və ayın qismən, ya tamamilə tutulması ölkədə bədbaxt hadisələrin, hakimiyyət çevrilişlərinin, baş verəcəyinə, hətta padşahın öləcəyinə işarədi.

Havada qara buludun birdən-birə görünməsi fəlakət gətirə bilər, – deyiflər. Ona görə də bu bəladan sovuşmax üçün vaxtı itirmədən qada qurvanı kəsəllər.



Axşam üfüqün qızarması savah havanın günəşdi, qarışıx olması isə yağmurru olacağına işarədi.

Havada quşdar dəstə halında qışqıra-qışqıra o tərəf, bu tərəfə uçuşursa, tezdiknən yağış yağacağı güman edilir.

İsti çörəyin üstünə çıxanda "bərəkətdi olsun" – deyif bir tikə kəsməsən, evin bini-bərəkəti bajadan çıxar.

Ojaxda nəyin olsa, eşikdən gələn varsa, açıb ona göstərməlisən. Çünki gələn adamın nəfsi qalarsa, evin uruzusu kəsilər.

Yağış yağdırmax üçün bir qurvağa tutuf qırmızı əskiyə bükər, onu bir qız uşağının əliylə ağzı aşağı torpağa basdırardılar. Uzun sürən yağışdarın arasını kəsmək üçün həmin qaydada qurvağ ağzı yuxarı basdırılardı.

Quraxlıx keçəndə ananın ilk uşağı əlini yağışın altına açıf, mən anamın ilkiyəm, ağzı qara tülküyəm, mən yağıram, sən də yağ, deyərək yağışın yağacağına, əksinə, yağış həddindən çox yağanda, mən anamın ilkiyəm, ağzı qara tülküyəm, mən kəsmişəm, sən də kəs, deyə yağışın kəsəcəyinə inanardılar.

Havada qarğalar qarıldaşallarsa, tezdiknən qar, yağış olajağı güman edilərdi.

Göyərçini ovlamax günah hesab edilir. Əski inamlara görə göyərçinnər imamların dostu, sərçələr düşmənnəriydi.

Şər qarışanda (qürub çağı) evi süpürüf, zivili atmazdar. Belə eləsən, bin-bərəkətini atmış olarsan.

Xeyirdə, şərdə ojaxda daş partdıyarsa, bu bəd xəvər eşidiləcəyinə işarədi.

Evin xanımı sübh tezdən əllərini yumamış çay qoyursa və ya süfrəyə əl vurursa, o evdə heş vaxt bin-bərəkət olmaz, – deyiflər.

At suyu murdarrıyırsa, səfərə çıxma, xeyir tapmazsan.

Bıçax yerə düşəndə evə qonax gələr, – deyiflər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sərçələrin aramsız cingiltisi, qonax gələcəyinə işarədi.

Qulaxda cingilti olanda kiminsə həmin adam haqqında danışdığı güman edilir. Deyilənə görə, həmin adamın adını tapmayınca cingilti davam eliyir.
Göz qapaxlarının səyriməsi pis əlamət hesav olunar. Buna görə də səyriyən göz qapağına dərhal qırmızı rəngli sap yapışdırardılar. Bununla gözlənilən təhlükənin sovuşduğu güman olunardı.

Yazda ilk göy gurultusu vaxtı qaşığı dam üstə atallar. Qaşıx üzü qoylu düşüfsə, bolluq, əksinə düşüfsə, qıtdıx olajağına işarədi.

Süfrəyə duz töküləndə evdə qalmağal düşər, – deyiflər. Dərhal o duzun üstünə bir tikə qənd qoyallar kı, hər şey dava-şavasız qurtarsın.

Qürub çağı üfüqdə qızartının görünməsi savah yağış yağacağına işarədi.

Dibçəkdəki aşıf-daşan gülün düşər düşməzi olar, – deyiflər. Odurku onu kiməsə bağışdamax olmaz. O gülləri ya satmax, ya tullamax lazımdı.

Qoz əkən barını yeməz.

Üzdə xal xoşbaxtlığa işarədi.

Qapıyı dırmaxlıyanda ölü düşər. Bunnan qaçmax üçün üç dəfə çəpik çalmaq lazımdı.

Göz qapaxlarının səyriməsi qonax gələcəyinə işarədi.

Aramsız hıçqıran adamnan qəflətən filan şeyi sənmi oğurramısan, deyə soruşulanda hıçqırtı dərhal kəsilir.

Bədninin hansı bir yerində iri, diqqəti cəlb edən xalın olması xoşbaxtlıx əlaməti hesav olunur.

Dolu yağanda onun bir dənəsini nehrəyə atıllar ki, bərəkətdi olsun.

Bağların qapısına öküz kəlləsi vururlar kı, bəd-nəzərdən, pis gözdən uzax olsun.



Bir evdə ilan yaşıyır, o evdən bini-bərəkət heş zaman əskik olmuyajax.

Kəsilmiş saç və dırnaxların ayax altına, natəmiz yerrərə atılması insana bədbaxtlıx gətirər – deyiflər.

Göz dəyməsin, pis nəfəsdən uzağ olsun deyə darvazanın, evin üstünə açıx tərəfi yuxarı vəziyyətdə at nalı vururllar. Bunnan başqa evin görünən yerində dağdağan ağacı, bə’zən də tikan asılır.

Uşaxları bəd nəzərdən qorumax üçün paltarrarının görünən bir yerinnən göz muncuğu asıllar.

Ojağın üstündə duz yandırılması da bəd nəzərdən qorunmax üçün ən yaxşı vasitələrdən hesav olunur.

Yaz havaları buluddu, dumannı olanda uşaxlar günəşin çıxmasını səvirsizdiknən gözdüyüllər. İki-üç gün buludun, dumanın arxasında qalan günəşi görən kimi onnar səs-səsə verif oxuyurllar:

Gün düşdü, ha gün düşdü,
Göydən piyalə düşdü.
Bizim ağa qızının,
Teymura gözü düşdü.

Dumannı-çiskinni yaylaxlarda hava həftələrnən açılmaz, çən-duman adamları alaçıxlardan çölə çıxmasına majal verməzdi. Yağışdı havadan cana doymuş adamlar kəndin qırx keçəlinin adını çəkər, hər keçəlin adına bir düyün vurardılar. Düyünnərin sayı qırxa çatanda verərdilər evin ilk uşağına

Mən nənəmin ilkiyəm,
Ağzı qara tülküsüyəm, —

deyif, düyün vurulmuş ipi oda atıf yandırardı. Bunnan sonra hava açılmağa başdıyardı.

Yayda yaylaxlara çıxan uşaxlar arxada qalıf dağa sonuncu çıxan adamı görən kimi, qavağına qaçıf oxuyardılar:

Arandan adam gəlir,
Nehrəni çalxa-çalxa.
Yağı divək daşınca,
Ayranı göz yaşınca.

Bunnan sonra onnar sağılan malların bol məhsul verəcəyinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

inanardılar.

Körpə uşağın ağzının suyu axanda onun ağzını dayısının çirkli coravınnan silmək lazımdı.

Deyəllər iki-üç aylıx uşax dil açıf ana deyəndə, ana gərək can desin. Belə olanda dünyada baş verəjək çox mühüm bir hadisə haqqında mə'lumat verər. Yox, əgər ana qorxuf heş nə deməsə, uşax o saat ölər.

Yağış çox yağıf, kəsmiyəndə sacayağını üzü üstə çevirmək lazımdı. Belə eliyəndə, yağış tezdiknən dayanır.

Deyəllər ki, yuxuda at görsən, həmin gün kiminləsə sözün çəp gələjək.

Süfrəni silkələmək olmaz. Çünki belə olanda bin-bərəkət qaçar, - deyiflər.

Deyillər kimin qulağı qızırarsa, kimsə onun ziyanına danışır.

Yuxudan sübh tezdən durmax lazımdı. Çünki deyillər urzun-bərəkət o vaxtın paylanır. Gejikən urzusuz qalır.

Deyillər yazda göy ilk dəfə gurulduyanda yerdən bir ovuğ torpax götürüf evin küncdərinə töksən, həmin evdən bin-bərəkət heş zaman əysik olmaz.

Kiminsə stəkanda çayın çöpü üzdə durursa, həmin evə qonax gələjək, - deyiflər.

Nəzər dəymiş adamın altında üzərrik yandırallar.

Birinə nəzər dəyifsə, bədnəzərin paltarınnan xəlvətcə sap və ya telmik çəkif yandırmax lazımdı.

Gözə gəlmiş adamı bədnəzərdən uzax eləmək üçün bir qaşıx duzu onun başına doluyuf ojaxda yandırar və deyəllər:
– Bədnəzərin gözünü yandırdım.
Yaxşı nə varsa ona bədnəzərin gözü dəyə bilər, - deyiflər.

Qəflətən bədnəzərnən qarşılaşanda dərhal yanını qaşımalısan. Bunu



elə eləmək lazımdı kı, bədnəzər heş nə hiss eləməsin.

Günahlardan təmizdənmək üçün çimənnən sonra qırx xörək qaşığ suyu qüsul edib başdan tökər və deyəllər: günahdan təmizdəndim.

İsti çörəyin üstünə gedəndə "bərəkətdi olsun" – deyif tikə kəsməlisən. Yoxsa, o evdə heş zaman bin-bərəkət olmaz.

Gəlin gələndə başına pul töküf, qoluna lavaş sərəllər ki, gəlinin ayağı urzalı olsun.

Axşamlar, şər qarışan vaxtı ağaş altında nə oturmax, nə də yatmax olmaz. Çünki hər ağacın "yiyəsi" olur. O həmən adama toxuna bilər.

Qadının hamiləlik dövründə dili yenicə açılmış bir uşağa deyəllər: tez de görüm, filankəsin oğlu olajax, yoxsa qızı?
Həmin uşax bu iki sözdən hansını birinci desə onun olajağına inanallar.

Qadının hamiləlik vaxtında bişmiş qoyunun başını niyyət eliyif çəkəndə ayırallar. Əgər çənənin ujdarı saçaxlı olarsa qızı, saçaxsız olarsa, oğlu olajax, – deyəllər.

Qadının hamiləlik dövründə sifəti parıltılı olarsa oğlu, üzündə ləkələr, qırmızımtıl xallar əmələ gəlifsə, qızı olajaq.

Qadın hamiləlik dövründə cəld tərpənərsə oğlu, tənbəllik eliyərsə, qızı olajax.

Qadın uşağaı vaxtınnan bir neçə gün tez yatarsa oğlu, vaxtından bir neçə gün gej yatarsa qızı olajax, – deyiflər.

Qadının hamiləlik dövründə evin bir yerinə qayçı və bıçax qoyallar. Qadın bıçağı götürsə oğlu, qayçı götürsə qızı olajax.

Gejələr göydə ulduz axanda kiminsə öz dünyasını dəyişdiyi güman edilir.

Səvirri olmax, şeytan əməlinnən uzax olmaq deməkdi.

Təndirdə küt getmiş çörəyi yeyən adam pul tapar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kiminsə paltarınnan bir az kəsif götürsələr, onnan həmin adamın baxtını bağlamax da olar, aşmax da.

Toyda tüfəng atmax xoş əlamət hesav edilir.

Şəkilin üzündən öpməzdər. Çünki deyilənə görə bu ayrılıx əlamətidi.

Oda su, suya od salmax günah hesav edilir.

Oturan adamın arxasında ayax üstə durmax olmaz. Deyilənə görə, arxasında ayax üstə duran adamı həmin şəxs o dünyada həmişə dalında gəzdirməlidir.

Yalan danışmazdan əvvəl dilin altına çöp qoyularsa, danışılan söz günah hesav olunur.

Astanada duruf danışannan sonra mütləq üç dəfə əlini-əlinə vurmalısan. Yoxsa evdə dava-dalaş düşəjək.

And içilmiş çörək parçasını yeməz, onu təmiz bir yerə qoyallar. Həmin çörək qırığının yeyilməsi günah sayılır.

Gej yeriyən uşağı evi süpürdükdən sonra zivili atır və uşağın əlinnən tutuf onun dalınnan yeridə-yeridə deyillər: Zivil yeridi, sən də yeri.

Evdən çıxıf bir səfərə gedən adamın arxasınnan su atallar kı, həmin adamın işi uğurru olsun.

Su aydınnıxdı, – deyiflər. Ona görə də ilin axır çərşənbəsində hamı bir-birinin üstünə su çiliyir ki, təzə il onnar üçün uğurru olsun.

Səfərə çıxan adam asqırtı eşidərsə, mütləq ayax saxlamalıdı. Yoxsa işi düz gətirməz, – deyiflər.

Səvrin pisi yoxdu deyiflər. Gərək ona yerri-yerində əməl eliyəsən.

Əldən yerə düşən şüşə qav qırılmasa, onu daşa vuruf sındırallar kı, evə bir ziyannıx dəyməsin.

Döl vaxtı qırxlı qadının pəyəyə getməsi düzgün deyil. Çünki bu evin



bərəkətini qaçırar, – deyiflər.

Toyuğun günün istənilən vaxtında, xoruzun isə axşam bannaması narahatdıx yaradır. Dərhal həmin toyuğu və ya xoruzu kəsəllər ki, evdən qada-bala sovuşsun.

Toyuğun, qazın, ördəyin, hinduşqanın kürd yatan vaxtı altına yumurtanı tək qoyallar.

Qara toyuq bərəkətdi, uğurru hesav olunur.

Gəlinin qavağında şam yandırıf, güzgü tutullar ki, evi çıraxlı, nurlu, ömrü aydın olsun.

Gəlinin cehizi yüklənəndə aradan adam keşməməlidi. Deyilənə görə, bu ailənin gələcək uğursuzduğuna səbəb ola bilər.

Pulu axşam saymazdar kı, bərəkəti qaçar.

Axşam başqasına pul verilərsə o evdə bərəkət olmaz, – deyiflər.

Ölü yerinnən gələn yaş dəsmalı içəri gətirmirlər. Eşikdə yuyuf sərir, içəri girəndə "toydan gəlirəm", – deyəllər.

Rəngi sarı, gözdəri göy olannar bədnəzər adamlar hesav olunur.

Qurvannıx kəsilənnən sonra yeddi tikədən az olmuyarax yeddi imkansız ailəyə paylanmalıdı. Yoxsa qurvan oysanata keşməz, deyiflər.

Can verən adamın qıraxda qohumu olanda can verə bilmirsə, yaxınnarından biri onun şəklini sinəsinə qoyur, kimsə özünü o adam kimi təqdim edir. Bunnan sonra xəstə canını tafşırır.

Kiçik yaşdı uşaxların başına dovşan quyruğu tikilmiş papax qoyulursa, onun yuxusunun şirin olacağı güman olunur.

Oğlan uşağı qalsın deyə ya ona qız adı, ya da qeyri bir dinə mənsub olan millətə məxsus oğlan adı qoyallar. Bu məqsədnən uşaq yenijə anadan olanda, yaxın qohumlardan biri:

– Səni filan millətdən olan filankəsə satdım – deyər.

Qırx gündən sonra şəkər-noğul paylayallar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Uşax sağ-salamat böyüsün deyə, ona yeddi qapıdan dilənçi payı yığılacağını niyyət edərdilər. Bu arzu baş tutduxda, yə'ni uşax bir yaşı ötdükdə onu tanıdıxları yeddi qapıya aparır, "dilənçi" payı yığardılar.

Qorxmuş adamı yer qazar, ordan açılmış deşikdən üç dəfə keçirərdilər. Bu vaxt həmin adamı qırmızı rəgli parçaya bürüyərdilər.

Qorxmuş adamın qorxuluğunu yaşadığı evin künclərinə un vurmaxnan götürmək olar.

İki qardaşın arasınnan keçənin şərə düşəcəyini deyəllər.

Uşağın ilk dişinin alt çənədən çıxması uğurru hesav edilir.

Qadın hamiləlik dövründə arıxlıyarsa oğlu, kökələrsə qızı olacağı güman olunur.

Uşağı olmuş qadının burnunu dartar, evin künşdərinə xəncər vurallar.

Həmzat qadınların qırx gün üstünə getmək düzgün hesav edilmir. Bu halda uşağa xətər toxunulacağınnan ehtiyat edilir. Kiminsə həmin evə girməsi üçün ana və uşax başqa evə keşməli, sonra ikisi də birrikdə həmin adamın üstünə daxil olmalıdı. Bununan da xatanın sovuşduğu güman edilir.

Üstündə duası olan adamın zahı qadının və qırxı çıxmamış uşağın üstünə girməsi yolverilməz hesav olunur.

Zahı qadının gördüyü yuxular çin olar – deyillər.

Həmzatlı qadınnarın və həmzatdı uşaxların zahı qadınnarın üstünə bilə-bilə gəlməsi düşmənçilik hesav edilir. Çünki belə olanda həmzatın zahı qadına keşdiyi güman edilir.

Səfərə çıxan adamın dalınnan daş atılması onu bədbəxt eləmək, su atılması, güzgü tutulması isə xoşbəxtliyə qovuşdurmax istəyinnən bağlıdı.

Təndirə, ojağa, oda, alova söymək, tüpürmək böyük günah sayılır. Belə adamların bu qəbahətinə görə mütləq cəzalanacağı güman edilir.



Solaxay adam naqqas olar, – deyiflər.

Adı gej qoyulan uşaxlar böyüyəndə yalançı olullar.

Yanaxların birdən-birə qızarması və istilik gəlməsi hardasa həmin adam haqqında böhtan söylənildiyinə işarədi.

Döl vaxtı evdə saqqız çeynəmək olmaz. Çoxlu mal-qara itkisinə səbəb ola bilər.

Həmzatdı qadın təzə balalamış itin, pişiyin üstünə gedərsə, onun həmzatı həmin itə, pişiyə keçəjək.

Yerə düşmüş çörəyi götürüf üç dəfə öpüf alına vurmax lazımdı. Belə adamların urzusunu allah həmişə başınnan tökər.

Xörək yeyərkən qavını tər-təmiz sıyırannarın nişannısı göyçək olar, – deyiflər.

İlin axır çərşənbəsində küsülü qalannar yeddi il danışmayajax, – deyiflər.

Cinnər, əcinnələr ən çox arvaddara, qızdara sataşır. Gejə onnarın paltarrarını geyinəllər. Bunun qarşısını almax üçün yatmamışdan qavax paltarrara xam iynə taxmax lazımdı. Çünki cin, əcinə xam iynədən qorxduğu üçün paltara toxuna bilmir.

Cinnərin zahı qadınnarın yeni doğulmuş uşaxlarını öz uşaxları ilə dəyişdiyini də deyillər. Bu inamnandı kı, çox arıx uşaxları "cin dəyişdiyi" addandırıllar.

Qadın hamiləlik vaxtında qorğa çox yesə uşağı dəcəl, balıx yesə suya həvəskar, çox yatarsa tənbəl olar, – deyiflər.

Qadın hamiləlik dövründə daha çox saçını sığallasa qızı, üzünü sığallasa oğlu olajax.

Ata evinnən ər evinə köçən gəlinin qucağına oğlan uşağı qoyallar kı, ilk övladı oğlan olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hamilə qadının ağrısı kürəyinnən başdasa oğlu, böyrünnən başdasa qızı olar, – deyiflər.

Deyilənə görə hamilə qadın hamiləlik dövründə müqəddəs yerrərdə, müqəddəs günnərdə əli ilə bədəninin harasını qaşısa, uşağın da bədəninin həmin yerrərində barmaq izdəri qalır.

Deyilənnərə görə, uşax hamilə qadının bədənində sağ tərəfə meyl eləsə oğlu, sol tərəfə meyl eləsə qızı olajax.

Toy gejəsində gəlinin başındakı toy örpəyini oğlan uşağına qaçırtdırıllar kı, gəlinin oğlu olsun.

Ana öz övladına qarğış eləsə, bu qorxulu deyil, çünki ana südü qavağını alır.

Şər vaxtı həyat-baja süpürülsə, o evdə ölü düşər.

Şər vaxtı evdən zivil çıxarmazdar. Bunu eləsən, evin bin-bərəkəti göyə çıxar.

Xörəyi duzdu bişirən qız nişannısını, gəlin isə ərini çox istiyər, – deyiflər.

Qazanın divini qaşıyıf yeyən ərgənnərin toyunda yağış yağajax, – deyiflər.

Süpürülmüş zivili qapının arxasına yığmax olmaz. Kim buna əməl eləməsə, o evdə bədbəxtlik baş verər, – deyiflər.

Evdən hər qonşuya ajı xamra, çalası və sairə verməyin düşər-düşməzi olar. Ona görə də evdən bir şey verəndə "satıram" deməlisən.

İtin ulaması yaxşı əlamət hesav edilmir. Buna görə bir parça çörəyin və kütün içinə duz töküf ailə üzvlərinin başına üç dəfə doluyuf itə atmax lazımdı.

Şər vaxtı ajı xamra, duz verilən evdə bin-bərəkəit olmaz.

Bir-birinə dəsmal vermək ayrılıx əlaməti hesav edilir.



Sınanmamış adama çalası verəndə ziyannıx olur. Odu ku çalasını verəndə -"satıldı" deməlisən.
Astananı murdarramax olmaz. Çünki bizdən yeylər orda yaşayır.

Evə gələrkən ayağının altında şüşə, saxsı qav-qajax sındırallar kı, o ev xata-baladan uzax olsun.

Burnun qaşınarsa, evdə qalmağal, dava-dalaş olajax.

Səfərə çıxarkən qavağınnan qara pişik keçərsə, geri qayıtmalısan. Başqa bir rəngdə olan pişik keşsə, ehtiyaddı olmalısan.

Pişiyi haradan tullasan həmişə ayaxları üstə düşər. Arxası heş vaxt yerə dəyməz. Pişiyin kürəyinə peyğəmbər əl çəkif, – deyəllər.

Oğlan uşaxlarının başının neçə yerində burux varsa, o sayda arvad alajağını güman eliyəllər.

Astanada boş ayaqqavılar üst-üstə düşərsə, evə qonax gələjəyi güman edilər.

Pişiyin əl-üzünü yalaması, evə qonax gələjəyinə işarədi, – deyiflər.

Evdən hörümçəyin sallanması uzax yerdə olan bir doğma adamın tezdiknən gələcəyinə işarədi.

Adamın üstündə hörümçək gəzərsə, evə qonax gələjək, — deyiflər.

Uzun müddət quraxlıx keçəndə yağış yağdırmax üçün evin ilk uşağına eşşək başı yuduzdurallar.

Dirəyin divinə qaynar su tökməzdər. Çünki məleykələr orada yaşıyıllar.

Evdə qav qırılanda bədnəzərin qırıldığını güman eliyər və buna sevinəllər.

Körpə uşağın başının altına qayçı, bıçax qoyallar kı, yuxuda ona cin-şeytan toxunmasın.

Uzanmış adamın qarnının üstünnən addamağa həmin şəxsə ağırrığın-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

uğurruğun tökülməsi kimi baxallar. Bunu dəf eləmək üçün addıyan adam geri qayıtmalıdı. Onda ağırrığın-uğurruğun geri qayıtdığı güman edilir.

Şər vaxtı yatmax olmaz. Çünki evin qara çuxası o vaxtdar dincəlir.



# MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ

## QODU-QODU NƏĞMƏSİ

Qodu-Qodu gördünmü,
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı gün gördünmü?
Qara toyuq qanadı
Kim vurdu, Kim sanadı?
Göyçəyə getmişdim
İt baldırım daladı.
Yağ verin  yağlamağa,
İp verin bağlamağa.
Verənin oğlu olsun,
Verməyənin qızı olsun.
Təndirə düşsün, qırmızı bişsin,
Bir gözü də kor olsun.

Kətan köynək fil-fili,
Gəl öyrən bizim dili.
Bizim dil alabaxda,
Yuvası var qovaxda.
Getdilər uçurmağa,
Arazdan keçirməyə.
Arazdan keçən atlar
Ağzında yüyən çatlar.
Qodu-qodu nə peşə?
Gedər-gələr həmişə,
həmişə bədəl-bədəl.
Bədəlciyi üzdürdüm,
Qodu-qoduya geydirdim.
Qodu bizim olaydı,
Kətan köynək solaydı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HOLAVARLAR

Arabanın təkəri,
Qara gəlin çəkəri.
Özgə işdə ağayam,
Öz işimin nökəri.

Cüt işləyər, xop yarar,
Dağı, daşı qoparar.
Ağa, xanım təkdə bir,
Rəncbərə pay göndərər.

Qara gəl, ilim barı,
De dərdin, bilim barı,
Məni mağmın eyləmə,
Açılsın dilim barı.

Kotanı sazda oğlum,
Əkini tozda oğlum.
Gəlini yaxşı borda,
İşə qoş yazda, oğlum.

Dolaydan gedən ağ baldır,
Məjgəl yatıf gəl qaldır.
Hodax deyər: hay versin,
Məgəl deyər: qoy qalsın.

Məjgəl hodağın hanı?
Daşın, torpağın hanı?
İşdiyif yorulufsan,
Balın, qaymağın hanı?!

Əkinçi əkin eylər,
Şum eylər, səpin eylər.
Öküzü arığ olan
Hər işi çətin eylər.



Payızdan qışa baxdım,
Yazda səpinə çıxdım
Bir çanax toxum səpdim,
Bir anbar buğda yığdım.

Öküz qıyar canını,
Bilməz qamçı sanını.
Qayış çəkən qaşqa kal,
İş üstündə tanını.

Toxum üstdən pay olmaz,
Yaz səpini yay olmaz.
Toxum halallıx görsə,
Əməyimiz zay olmaz.

Kotan, kotan laxlasın,
Hodax baxsın ağlasın.
Ağa gəlif görəndə,
Onu Allah saxlasın!

Sərt qışın qarı gəlsin,
Bu elin varı gəlsin.
Torpağa dən atmışam,
Gözdərəm barı gəlsin.

Göydə gedən göy kotan,
Kotan, allahdan utan.
Qarğamışam sınasan,
Gəlsin evə məj tutan.

Öküzüm, ay öküzüm,
Qaşları yay öküzüm.
Sənə güldən-çiçəkdən
Saxlaram pay öküzüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaz geciksə nə sözüm,
Yolunu gözdər gözüm.
Əkinə çıxdığın gün
Qurvan kəsərəm özüm.

İş qalar cüt qırılsa,
Göy öküzdən yorulsa.
Hodax, səni qınaram,
Çəkən öküz vurulsa.

Dağdan qayıt arana,
Bir qayıl ol Qur'ana.
Əməyimi yeyənin
Yurdu qalsın virana!

Öküz, öküz, xan öküz,
Boynu qızıl qan öküz.
Çək çayırdan , çəmənnən,
Sənə qurvan can öküz.

Sünbülüm gülür bardan,
Zəmilər qorxur qordan,
Evini allah yıxsın,
Bədnəzər keçif burdan.

Arabanı yağla gəl,
Yol üstündə saxla gəl,
Taxılımız bol oluf,
Gövşəndə dərz bağla gəl.

Qoçax o başdan gələr,
Naçax talaşdan gələr.
Yatıf qalan hodağı,
Məjgəli oda bələr.

Qızıl öküzüm yeri,
Qoyma qalsın şum yeri,
İti tərpən, maralım,
Düşmənnər baxır bəri.



Qızıl öküz murazım,
Halallıxdır avazım.
Buğda zəmim yetişif,
İşə düşsün dəryazım.

Öküzüm baş apardı,
Gözümü yaş apardı,
Belin sınsın, əkinçi,
Toxumu quş apardı.

İrandakı boz öküz,
Qoparıfdı toz öküz.
Alıf yerin canını,
Çıxsın yaman göz öküz.

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Ölmə, ölmə, yazığam,
Kölgəndə mən dolanım.

Holay, holay, holaylar,
Qalayçı qav qalaylar.
Şir dişli öküz gəti,
Batıf qalar qolaylar.

Haqqa bağla arzunu,
Cüt sür şumun uzunu.
Könlüm, gözüm tox olsa,
Tanrı verər urzunu.

Yaz gəlif bulud dolsun,
Zəmilər sulu olsun.
Cüt düzəldən ustanın,
Təhnəsi dolu olsun.

Boynunu mən yağlaram,
Yaman gözü dağlaram,
Tez çək maral öküzü,
Geri qalsan, ağlaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təpəl öküz, mələmə,
Yeminə naz eləmə.
Tanrı murazın versin,
Məni mağmın eləmə.

Sınan cüt daşa getməz,
Bu yazdan qışa getməz.
Qara kəl iş başında,
Zəhmətim boşa getməz.

Zəhmət olsa, bal olar,
Haqq qapısı yol olar.
Cütcü allah adamı,
Hər nə əksə, bol olar.

Öküzün hodaxları,
Sallanıf dodaxları.
Tez çəkin yer qurtarsın,
Qayıtsın hodaxları.

Aç düyməsin yaxanın,
Bük ətəyin çuxanın.
Gözünə bıçax girsin
Əkinə gəc baxanın.

Öküzdərim naz eylər,
Quyrux bular, toz eylər.
Hər axşam gün batanda,
Gövşəndə pərvaz eylər.



Rəhmət atana, hodax,
Məci tutana, hodax.
Öküzün tənbəlini,
Qoşma kotana, hodax.

Telli mərcan, bizə gəl,
Dağdan enib düzə gəl.
Dırnağının izinnən,
Bu yerləri bəzə gəl.

Çəkən öküz mərd olur,
Çəkməyənə dərd olur.
Tənbəl öküz yiyəsi
Xəcil olur, pərt olur.

Öküzüm qoşa gəldi,
Yerişi xoşa gəldi.
Bir hay verdim dar gündə,
Qeyrətə, coşa gəldi.

Şumal Təpəl, ək, Təpəl,
Torpağa tər tök, Təpəl.
Boynunu mən yağlaram,
Qorxma, yükü çək, Təpəl.

Öküzüm bağda qaldı,
Bir əcəv çağda qaldı.
Özüm arana döndüm,
Məhsulum dağda qaldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SAYAÇI SÖZLƏRİ

Ağ qoyun ağdı, neynim,
Pendiri yağdı, neynim.
Mən sevdiyim xallı qız,
Qoyunu sağdı, neynim.

Qoyun, qoyun, ay qoyun,
Hanı sənə tay qoyun.
Bir az pendir, bir az yağ,
Göndər bizə pay, qoyun.

Bu sürünün qoçu var,
Belə qoçdan üçü var.
Sürü qoçsuz qalıfsa,
Xan çovanın suçu var.

Bulamanı bulama,
Sağ, südünü calama.
Qumral qoynu sağan qız,
Qismət olsun balama.

Qışda qışdağa enif,
Yaz dağa çıxan çovan.
Tütəyi kəmərinin,
Qaşına taxan çovan.

Var olsun barmaxların,
Qoyunu qırxan çovan.
Canım gözüm, can çovan,
Sultan çovan, xan çovan.

Ağ quzu kərə gərək,
Göy quzu kürə gərək.
Hər bir qoyun döl üstə,
Bir quzu verə gərək.



Nənəm, a qumral qoyun,
Qulağı xal-xal qoyun.
Yunu yoxsul köynəyi,
Bulaması bal qoyun.

Nənəm, ağ gəlin qoyun,
Ay xırda yelin qoyun.
Xamlıq edif tərpənmə,
Qoy sağsın gəlin, qoyun.

Nənəm, a göyçək qoyun,
Qulağı çiçək qoyun.
Bir badya süd istərəm,
Yığılıf içək, qoyun.

Nənəm, a çəpiş qoyun,
Ağıldan səfeh qoyun.
Çovan çomax vurmasa,
Gəl atma təpik, qoyun.

Sayı-saya sayanı,
Saya yeddi mayanı.
Quru qaldı nəhrəsi,
Fırranmadı cəhrəsi.

Çəkif qırdı girişi,
Qurda verdi çəpişi.
Başına qaxınc oldu,
Sayaçının bu işi.

Nənəm, a kürə qoyun,
Gözləyir bərə qoyun.
Nəsilin azalmasın,
Sən çoxal, törə qoyun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nənəm, a qara qoyun,
Yunu zər-xara qoyun.
Yavannıx çox qıtdaşıf,
Eylə bir çara qoyun.

Çovan gətir qoyunu,
Dağdan ötür qoyunu.
Nişannı qız tələsir,
Bərəyə sür qoyunu.

Nənəm, qara göz qoyun,
Ötdü dərə, düz qoyun.
Çovan gəlif çıxıncax,
Arxacında döz, qoyun.

Ağ qoyun alı göyçək,
Boynunda şalı göyçək.
Səni sağan gəlinin,
Üzündə xalı göyçək.

Sayacının sayası,
Xam şişəyin mayası.
Gəlin qoçun qaçışı
Ağ qoyunun hayası.

Çovana çomax, a lələ,
Qarıya quymax, a lələ.
Səni sağan gəlinə
Axşam qaymax, a lələ.

Ay ağıla, ağıla,
Qoyun gəlif yığıla.
Gərək mənim ağ sürüm,
Gün dönməmiş sağıla.

Nənəm yadalı qoyun,
Qannı-qadalı qoyun.
Yiyən sənin ujunnan,
Böyük ad alı, qoyun.

Nə deyim yazanına,
Yazını pozanına.
Min bərəkət, ay çovan,
Süd dolu qazanına.

Nənəm, a dəli qoyun,
Əcəf gülməli qoyun.
Aman ver sağım səni,
Mərcan məməli qoyun.

Keçi deyir:
Mənim yiyəm Kərimdi,
Qavala çəkilən mənim dərimdi.
Üç ay qış olanda dərdi-sərimdi,
Onnan sonra xəvər almıyın məni.

***

Göyə gələn buluddar,
Yorğanıdı çovanın.
Yumru-yumru qayalar,
Gülləsidi çovanın.
Çiynindəki xurcunu
Xaltasıdı çovanın.
Əlindəki ağaşdar,
Hasasıdı çovanın.
Yanındakı boz köpək,
Qardaşıdı çovanın.

* * *

Çovan sürü yığası,
Tuluğu götürəsi,
Bərəyə yetirəsi.
Bu qoyunu tutası,
O qoyunu sağası,
Tuluğu doldurası.
Evinə gətirəsi,
Boz köpək, qarıların,
Yanına sürünəsi,
Bu bavamın deyəsi,
Bu xalamın deyəsi,
Bu nəvəmin deyəsi,
Pay-pülüş eliyəsi.



## EYDİRMƏLƏR

İnəyim, ay inəyim,
Köməyim ol, köməyim.
Məmələrin beş olsun,
Beş olsun, on beş olsun.
Süd ver: üzün ağ olsun,
Nəhrəmizdə yağ olsun.
Yağı verin yağlıyax,
Yağı gözün dağlıyax.
Düşmənnərim yox olsun,
Naxırrarım çox olsun!
Sözüm, ay inəyim,
Gözüm, ay inəyim.

Canım, a sarğız inək,
Dolanma yalqız inək.
Balana bol süd gəti,
Bizə də ağız inək.
Gözüm, ay inəyim!
Sözüm, ay inəyim!

Enər, gələr inəyim,
Gələr, mələr inəyim.
Bəsdiyər balasını,
Öpər, yalar inəyim.
Telim, ay inəyim,
Gülüm, ay inəyim.

İnək otdar çəməndə,
Məliyər gələr kəndə.
Balası da sevinər
Köpüklü süd əməndə.
Sarım, ay inəyim!
Varım, ay inəyim!

Axşamdı özün yetir,
Südünü eydir-eydir.
Mən balamı saxlıyım,
Sən də mana süd gətir.
Elim, ay inəyim!
Gülüm, ay inəyim!

Maral, maral inəyim,
Qarnı xaral inəyim.
Göy otdan gözü doymaz,
Çəpər yarar inəyim.
Gözüm, ay inəyim!
Sözüm, ay inəyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## VƏSFİ-HALLAR

Qayna, qazanım, qayna,
Oyna, ozanım, oyna.
Toyum bu yaza qalsın,
Bəxti yazanım, oyna.

Qanlı hasar qan qala,
Nəfəs gedə, can qala.
Qopa Nuhun tufanı,
Nə ağa, nə xan qala.

Kələğayın butası,
Ahım kimi tutası.
Qızın könlü məndədi,
Razı deyil atası.

Dərələr ümman oldu,
Təpələr duman oluf,
Qəflətdə yatan oğlan,
Oyan gör nələr oluf?

Əzizinəm, güllü çay,
Müxəkli çay, güllü çay.
Ciyərimə od düşüf,
Versin mənə, Güllü çay.

Boz at gəldi bazara,
Boz tükləri bozara.
Satan satdı qurtardı,
Alan gözün bozara.

Əzizim, yarı yandı,
Dağların qarı yandı.
Hamı sevdi yar aldı,
Əslinin yarı yandı.

Əzizinəm, ay xala,
Kilimə qoy çalxala.
Çovanı huş apardı,
Qoyun doldu xal-xala.

Öküzüm beşdi mənim,
Karvanım keşdi mənim.
Əlini, ver əlimə,
Ürəyim keşdi mənim.

Telinə bağla məni,
Yar özün saxla məni.
Gümüş xəncərin olum,
Belinə bağla məni.

Sandıx içində gəlləm,
Karvan köçündə gəlləm.
Sənə və'də vermişəm,
Ayın üçündə gəlləm.

Yayını əyən gəldi,
Özünü əyən gəldi.
Aftafa-ləyən dedim,
Sarımsax döyən gəldi.

Taxılı verdim küləyə,
Saman doldu mərəyə.
Deyin, bir aman deyin,
Mən dediyim diləyə.

Yunum qaldı daraxda,
Gözüm qaldı çıraxda.
Sərçə də ciggildəmir,
Lə'nət gəlsin bu baxta.

Ay uzundraz oğlan,
Başı keçəl, daz oğlan.
Nə hay-haray salmısan,
Sənə gəlməz qız, oğlan.

Köynək qızıl düyməli,
Düymələri öyməli.
Səni mənə verəllər,
Eyliyəllər bəy məni.

Mən ojax, sən buz, ay qız,
Bu ərzimi yaz, ay qız.
Baş götürüf gedərəm,
Qalarsan yalqız, ay qız.



# X A L Q   M A H N I L A R I

## SALLANA-SALLANA

Göynən gedən göy göyərçin,
Vurar tərlan, alar laçın.
Dal gərdəndə siyah saçın
Hörər sallana-sallana.

Göynən gedən göy bülbüllər,
Sinəmə çəkifdi millər.
Dost bağınnan qızıl güllər,
Dərər sallana-sallana.

Göynən gedən telli qazdar,
Şahin gələr tükün tozdar.
Məhləmizdən keçən qızdar,
Ötər sallana-sallana.

## GƏLİR

Ay bu gələn bajılar,
Baxın nə nazınan gəlir.
Geyinif al qırmızı,
Söhbəti-sazınan gəlir.

Ay bu gələn bajılar,
Baharı, yazınan gəlir
Qaqqıldaşır kəklik kimi,
Nə xoş avazınan gəlir.

Ay bu gələn bajılar,
Gör nə murazınan gəlir,
Özdəri su sonası,
Ördəyi qazınan gəlir.

## SABAH OLDU

**Evlərinin dalı təpə,
Yağış gəlir səpə-səpə.
Özüm uşaq, məməm körpə,
Oğlan, əm get, savah oldu,
Yandı bağrım kavav oldu.**

**Evlərinin dalı qamış,
Qamış divi olar gümüş.
Muştuluğun al bir öpüş,
Oğlan, dur get, savah oldu,
Yandı bağrım, kavav oldu.**

**Yax əlimin xınasını,
Aç başmın cunasını.
Gör anamın xonçasını,
Oğlan, dur get, savah oldu,
Yandı bağrım kavav oldu.**

**Dəyirmana dənmi gələn?
Dağ başına çənmi gələn?
Sənmi yazıx, mənmi görən?
Oğlan, dur get, sabah oldu,
Yandı bağrım kabab oldu.**

## ALMARAM

Ördəkli, qazdı gəldi,
Söhbətdi, sazdı gəldi,
Sallandı, canım aldı
Yar yaman nazdı gəldi.
Gedərəm, burda qalmaram,
Vallah, o qızı almaram.

Danası mıxda qaldı,
Sənək bulaxda qaldı.
Bu gün başdanan dava,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gələn bu vaxta qaldı.
Gedərəm, burda qalmaram,
Vallah, o qızı almaram.

Nehrə kimi çalxandı,
Qılınc olsan, qalxandı.
Nə tanrıdan, taledən,
Nə ölümnən qorxandı.
Gedərəm, burda qalmaram,
Vallah, o qızı almaram.

## AY OĞLAN

Eşitmişəm təzə köynək alıfsan,
Geyinməmiş üstə ləkə salıfsan,
Məni qoyub yada meyil salıfsan
Mənnən qeyri yarın ölsün, ay oğlan.

Eşitmişəm təzə fayton alıfsan,
Təkərrləri qırılıf yolda qalıfsan.
Məni qoyub bir özgə qız alıfsan,
Mənnən qeyri yarın ölsün, ay oğlan.

Eşitmişəm təzə qələm alıfsan,
Qələmini ağ kağıza çalıfsan,
Zər yerinə bir misqal mis alıfsan,
Mənnən qeyri yarın ölsün, ay oğlan.

## HƏSƏN GƏL

Sandıx üstə gəzərəm,
Sandığa gül bəzərəm.
Ağır elin qızıyam,
Qərifliyə dözərəm.
Həsən gəl, ay Həsən gəl,
Ay səbrimi kəsən gəl.
Sandığa gül bağlaram,
Gülü əziz saxlaram,
Sən yadıma düşəndə,
Zülüm-zülüm ağlaram.
Həsən gəl, ay Həsən gəl,
Ay səbrimi kəsən gəl.

Dişlədim yar almasın,
Çal başının çalmasın.
Gedirsən apar məni,
Gözün dalda qalmasın.
Həsən gəl, ay Həsən gəl,
Ay səbrimi kəsən gəl.

## ALMANI DƏRƏN

Almanı qoydum qutuya,
Bu qutudan o qutuya
Könül vermə hər lotuya,
Qızdar, ay almanı dərən,
Nazdar, ay almanı dərən.

Almanı qoydum kərənə,
Qorxuram almam ilənə.
Rəhmin gəlsin dərd bilənə.
Nazdar, ay almanı dərən,
Qızdar, ay almanı dərən.

Almanı qoydum beşiyə,
Qorxuram almam üşüyə.
Bir öpüş ver mən kişiyə.
Qızdar, ay almanı dərən,
Nazdar, ay almanı dərən.



## AL MƏNİ

Qol sarı, qolçax sarı,
Eyvana sərdim narı.
On iki imam, bir tarı,
Bu axşam yetir yarı.
Atma məni, al məni,
Yar qoynuna sal məni.

Alma atana qurvan,
Atıf-tutana qurvan.
Məxmər döşək, gül yastıx,
Orda yatana qurvan.
Atma məni, al məni,
Yar qoynuna sal məni.

Evləri o taydadı,
Qoyunnarı çaydadı.
Yarın qardaşın gördüm,
O da cana faydadı.
Atma məni, al məni,
Yar qoynuna sal məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Meşə başı qarağat,
Elin köçdü, köçə çat.
Yardan mənə bir xəvər,
Mən də olum farağat.
Atma məni, al məni,
Yar qoynuna sal məni.

Arxalıq al kəndinə,
Düymə düzüm bəndinə.
On iki müxək, bir alma,
Göndəri m yar kəndinə.
Atma məni, al məni,
Yar qoynuna sal məni.

# ALQIŞLAR

A

Ağ baxtın, ağ yağvalın olsun.
Ağ əppək yeyəsən.
Ağ günündə qovuşasan.
Ağ günnər görəsən.
Ağzın qurumasın.
Ağzın dada gəlsin.
Ağzın xeyirriyə açılsın.
Ağzın şirin olsun.
Ağzına qurvan olum.
Ağlına gələn başına gəlsin.
Ağrıdan-ajıdan uzaq olasınız.
Ayağın yüngül olsun.
Ayağının altında ölüm.
Al geyinif, ə'lada durasan.
Allah adını tutsun.
Allah balalarını saxlasın.
Allah başını uja, sözünü ötkün eləsin.
Allah başınnan töksün.
Allah bərəkət versin.
Allah min-bərəkət versin.
Allah birini min eləsin.
Allah var eləsin.
Allah qoymasın.
Allah qismət eləsin.
Allah qüvvət versin.
Allah dalını aydınnığa döndərsin.
Allah dost deyən eləsin.
Allah əməyini itirməsin.
Allah əskik gününü verməsin.
Allah işini rast eləsin.
Allah gözdən saxlasın.
Allah yarıyannardan eləsin.
Allah yolunu açıx eləsin.
Allah gözün dolusu versin.



Allah köməyin olsun.
Allah min bərəkət versin.
Allah mübarək eləsin.
Allah oğul versin.
Allah ömrümnən kəssin ömrünə çalasın.
Allah peşmançılıx verməsin.
Allah pis gün qismət eləməsin.
Allah uruzunu versin.
Allah sənə "ah" çəkdirməsin.
Alah sənə qüvvət versin.
Allah sənə elə bir gün versin ki, düşmənnər baxıf kor olsun, dostdarın şaddanıf var olsun.
Allah sənə yar olsun.
Allah sənə qonax xəcaləti verməsin.
Allah sənə heş bir dağ göstərməsin.
Allah səni bizə çox görməsin.
Allah səni diləyinə yetirsin.
Allah səni yarıyannardan eləsin.
Allah səni göy kimi dirəksiz saxlasın.
Allah səni güldürsün.
Allah səni nalnan mıxın arasında saxlasın.
Allah səni şərdən uzağ eləsin.
Allah səni min putax eləsin.
Allah səni pis gözdən saxlasın; qanqal-tikan oluf onnarın gözünə batasan.
Allah səni pənahında saxlasın.
Allah səni çörək sınağına çəkməsin.
Allah sənnən razı olsun.
Allah süfrənizi bol eləsin.
Allah umudunda saxlasın.
Allah ürəyinə görə versin.
Allah üstündə qanad gərsin.
Allah üstünnən getsin.
Allah xeyir versin.
Allahın əli üstündə olsun.
Allahın gözündə şirin olasan.
Allahın mərhəməti üstünnən əskik olmasın.
Aradığını bulasan.
Arzuna çatasan.
Arxan-köməyin kəsilməsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Atalı-analı böyüyəsən.
Atan-anan toyunu görsün.
Ananın südü sənə halal olsun.
Atın büdrəməsin.
Axırın gəlsin.
Axırın xeyir olsun.
Axırınnan yarıyasan.
Axtardığını tez tapasan.
Ahuyu balasına yetirən allah, sizi də muradınıza yetirsin.
Axşamların xeyirriyə açılsın.

B

Bəladan uzağ olasan.
Balana qurvan olum.
Balana gözün dolusu baxasan.
Balanı allah saxlasın.
Balaların sağ olsun.
Balalarının dalınnan gözün dolusu baxasan.
Bajılı-qardaşdı olasan.
Baxtın açılsın.
Baxtın açılsın; bu isti təndir, soyuq surfa səni salamat eləsin.
Baxtın qılınc olsun.
Baxtın yeyin olsun.
Baxtına gün doğsun.
Baxtın-günün ağ olsun.
Baxtına gün doğsun.
Başın var olsun.
Başın, dişin ağrımasın.
Başın dövlətdi, daşın züryətdi olsun.
Başın dövlətdi, yanın övladdı olsun.
Başın yastığa gəlməsin.
Başın yığnaxlı olsun.
Başın uca olsun.
Başın uca, dilin uzun olsun.
Başına dönüm.
Başında ağ tük bitsin.
Başınnan bir tük əksik olmasın.
Belini cənabi Əmir qurşansın.
Bədnəzərdən uzağ olun.
Bir-birinizə can deyif, can eşidəsiniz.



Bir yastıxda qojalasınız.
Bir olsun, pir olsun.
Bir süfrəyə beş oğulnan əl uzadasan.
Birin yüz olsun.
Bircə balan sağ olsun.
Boyuna qurvan.
Böyrəkli böyüyəsən.
Bütün gedənnər gəlsin.

V

Varın var olsun, düşmənin kor.
Varın-dövlətin başınnan aşsın.
Varın tükənməsin.
Verən əlin var olsun.

Q

Qaba dirəyin kəsilməsin.
Qavağında ölüm.
Qada görmüyəsən.
Qadan canıma.
Qadan alım.
Qadan mana gəlsin.
Qazandığın balalarına qismət olsun.
Qazandığın həkimə, molluya qismət olmasın.
Qazandığını xeyir işə tökəsən.
Qazanma, qənşərinə çıxsın.
Qazancın artıx, payın çox olsun.
Qazancın qarşı gəlsin.
Qazancın o qədər olsun ku, yığıf yığışdıra bilmiyəsən.
Qapın qıfıl görməsin.
Qapına həmişə toya-düyünə gələk.
Qardaş dağı görmüyəsən.
Qardaş toyu görəsən.
Qardaşın sağ olsun.
Qardaşının qadasını alım.
Qədəminiz mübarək.
Qədəminiz xeyirri olsun.
Qədəmin qayım olsun.
Qəddin əyilməsin.
Qədəmin əlli olsun, adın bəlli.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qismətin özünnən qavax getsin.
Qız köçürüf, gəlin gətirəsən.
Qılıncın kəskin olsun.
Qonax-qara qapınnan əskik olmasın.
Qoşa qarıyasınız.
Qul sahibi olasan.
Qucağın dolu olsun.

D

Dadına İmam Hüseyn yetişsin.
Dalında qardaşdarın dursun.
Dar gün görmüyəsən.
Dərdin mana gəlsin.
Dərdin ürəyimə.
Dizinin giri kəsilməsin.
Diləyin dilək olsun.
Dilin uzun olsun, sözün ötgün.
Dinə-imana gələsən.
Dilinə quzu kəsim.
Dost-tanış, qohum-əqrəva yanında başın uca, üzün ağ olsun.
Dostun var olsun, düşmənin xar.
Dövlətin başınnan aşsın.
Dövlətin sana gəlməsin.
Döşündə ağ tüklər bitsin.
Duz dağı olasan.
Dur dağı kimi durasan.
Duruşuna qurvan olum.
Dünya duruncax durasan.
Düşmən şərinə, yağı qeyvətinə tuş olmuyasan.
Düşmənə möhtac olmuyasan.
Düşmənin qızıl güllüyə gəlsin.
Düşmənin zəlil olsun.

E

Evin şən olsun.
Evinə gözün dolu baxasan.
Evinizdə qulax dişdiyi olsun.
Eviniz abad olsun.
Evinizə elçi gəlsin.
Eviniz-eşiyiniz şən olsun.



Evinizə həmişə şaddığa gələk.
Evinizə şaddıx aparasınız.
Evinizdə ağız şirinniyi olsun.
Eldən əysik olma.
Elin el olsun, yağın şil.
Elinə qurvan olum.

Ə

Əziz olasan.
Əzizin yarısın.
Əzrayılın yadınnan çıxasan.
Əyri üzü görmüyəsən.
Əli belini qurşasın.
Əli qolunnan tutsun.
Əli köməyinə dursun.
Əlin, qolun ağrımasın.
Əlin, qolun var olsun.
Əlini atanda əllisi gəlsin, qolunu atanda qollusu.
Əlini boş atıf dolu görəsən.
Əlinin dalı da gəlsin, qavağı da.
Ələrin var olsun.
Əhdin pozulmasın.
Əhdin üzünə gülsün.
Əhdin tutulsun.

Z

Zəhmətin itməsin.
Ziyarətin qəbul olunsun.
Zülm üzü görmüyəsən.

İ

İzin itməsin.
İlan yerisin, dalınca da balası.
İlin ildən xoş gəlsin.
İmanın kamil olsun.
İstəklinə qovuşasan.
İtə-qurda möhtac olmuyasan.
İtdərin ulamasın.
İşin avand olsun.
İşin irəli.
İşin tərs gəlməsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İşığın sönməsin.

Y

Yavannığın yağ olsun.
Yağlı olsun.
Yaman yeyənin olsun, yalan deyənin olmasın.
Yaman gözdən uzağ olasan.
Yaman gün görmüyəsən.
Yarı yoldan qalmıyasan.
Yastığın yüngül olsun.
Yaxşı deyənin yaxşı, pis deyənin pis günü olsun.
Yaxşı gün görəsən.
Yaxşılığın qavağına çıxsın.
Yaşın yüzü haxlasın.
Yekə kişi olasan.
Yeyif-içdiyin halalın olsun.
Yetirif bitirdiyinin bəhərini yeyəsən.
Yığvalın yeyin olsun.
Yeddi oğul atası olasan.
Yeddi oğulnan bir süfrüyə əl uzat.
Yerin cənnət olsun.
Yolun açıx olsun.
Yolun uğurru olsun.
Yorulmuyasan.
Yüz yaşıyasan.

K

Kağızın qara yazılmasın.
Kefdə-damaxda olasan.
Kəmərini əl qurşasın.
Kimsəyə möhtac olmuyasan.
Körpən ağ günə çıxsın.

G

Gedənin gəlsin, üzün gülsün.
Getdiyin yerdən yarıyasan.
Gejən xeyrə qalsın.
Gəlin gətirə, qız köçürəsən.
Gözəgörünməz qanadının altında saxlasın.
Gözün aydın olsun.
Gözünə qurvan olum.
Gül kimi açılasan.
Gün kimi yanasan.



Günün ağ olsun.
Günün ağappağ qar kimi olsun.

M

Mənim zəhmətim sana halal olsun.
Min budax olasan.
Muradına çatasan.

N

Nazdı xanım olasan.
Namərd fitvası birriyinizə xələl gətiməsin.
Naçar olmuyasan.
Nəvə-nəticə sahibi olasan.
Nəvə-nəticələrinin toyunu görəsən.
Nəzirin qəbul olsun.

O

Ojağın şen olsun.
Ojağın ağı görməsin.
Oğul ayağı qutdu olsun.
Oğlun sağ olsun.
Oğluna toy eliyəsən.
Oğullu-qızdı olasan.
Oğullu-uşaxlı olasan.
Oxun boşa çıxmasın.

Ö

Övladının barını dərəsən.
Özünə qurvan olum.
Ölənnərinə rəhmət.
Ömrün Arazca olsun.
Ömrüm-günüm sana qurvan.
Ömrün uzun olsun.
Ömrünnən doyasan.

P

Payın artıx olsun.
Payın çox olsun.
Pir olasan.

S

Saqqalın ağarsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sağ get, salamat qayıt.
Sağ-salamat gedəsən.
Salamat qal.
Sana gələn mana gəlsin.
Sana gələn ağrı-ajı, qada-bala, bax bu canıma gəlsin.
Səni istəmiyənnərin gözü kor olsun.
Səni istəmiyənnərin gözü çıxsın.
Səni görüm boya-başa çatasan.
Səni görüm yüz yaşıyasan.
Səni görüm min putax olasan.
Səni görüm heç "ax" çəkmiyəsən.
Səni gözü götürməyənin gözü kor olsun.
Səsin uca olsun.
Sözün ötkəm olsun.
Suyun bulanmasın.
Süfrəniz açıx olsun.

T

Təbib-dava sənnən uzağ olsun.
Təbibin qənşər gəlsin.
Təzə-təzə bayramlara çıxasan.
Toy çörəyi bişirəsən.
Toyunda oynuyum.
Toyunu görüm.
Tövlən həmişə açıx olsun.

U

Uğurdan yarıyasan.
Uğurun açıx olsun.
Uğurun xeyir olsun.

Ü

Üzüm ayağınızın altına.
Üzün ağ olsun.
Üzün gülsün.
Üzünə gül doğsun.
Üzünə xeyirri savahlar açılsın.
Üzünnən gülüş əysik olmasın.
Ümidin-pənahın kəsilməsin.
Ürəyin yağda olsun, kürəyin dağda.
Ürəyinə görə allah payını versin.
Ürəyinin ağrısını alım.



Üstünə gün doğsun.
Üstünə nur düşsün.
Üstünnən ajı yellər əsməsin.

F

Falın fal olsun.
Fələk sənə ağrı-ajı göstərməsin.
Fələkdən gələk görmüyəsən.
Fəhmin itməsin.

X

Xata-baladan uzağ olasan.
Xeyirri olsun.
Xeyirə qənşər gedəsən.
Xəzinən dolu olsun.
Xurcunun boş qalmasın.

H

Haqqın qapısı üzünə açıx olsun.
Halal süd əmmişinə qismət olasan.
Halal xoşun olsun.
Hamının gözündə əziz olasan.

Ç

Çanağın dolu olsun.
Çəmənin solmasın.
Çırağın yansın.

C

Cavan toyunu görüm.
Canın azar görməsin.
Canım sana sadağa olsun.
Canın sağ olsun.
Civin dolu olsun.

Ş

Şeytan şərinnən uzağ olasınız.
Şirin ağzın ajı olmasın.
Şirinniyini içim.
Şöhrətin artıx olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# Q A R  I Ş L A R

A

Abad evin bərbad olsun.
Avrın tökülsün.
Ağ irin, göy irin olsun, burnunun iki qanadınnan gəlsin.
Ağ gün de, hax de.
Ağ gün görmüyəsən.
Ağ günün qara boyansın.
Ağzın buza dönsün.
Ağzın zəhər dadsın.
Ağzın çanax, qarnın çuval olsun.
Ağzın şirinnik tapmasın.
Ağzına üsküknən su damızdırsınnar.
Ağzında dilin yansın.
Ağzınnan çıxsın, qoynuna girsin.
Ağzını qara molla yumsun.
Ağlar qalasan.
Ağrım ürəyinə.
Adın addara qalsın.
Adın batsın.
Adın qalsın, ay bala.
Adını addara qoyum.
Adını özgələrə qoyum.
Azar xirtdəyini yumsun.
Ay sənin vurğunun güjdü gəlsin.
Ayağın yer tutuf, ömrün bina tutmasın.
Ayvını qara yer örtsün.
Aldığını sağ yemə, yastıx üstə ye.
Allah başına daş salsın, altınnan çıxa bilmiyəsən.
Allah başını qoyuf ayağına daş salmasın.
Allah başını uca eləməsin.
Allah belini qırsın.
Allah birini min eləməsin.
Allah verən əlini kəssin.
Allah qarğışını versin.
Allah qarğadığım qara bəndiyə sənin kimi züryət qismət eləməsin.
Allah qismət eləməsin.



Allahın qəzəvinə gələsən.
Allah damazdığını kəssin.
Allah evini yıxsın.
Allah yeddi arxa dönəninə lə’nət eləsin.
Allah yurdunu tar-mar eləsin.
Allah kəllənə ildırım salsın.
Allah kökünüzü kəssin.
Allah nəslini kəssin.
Aman görmüyəsən, yaman görəsən.
Allah ömrünü kəssin.
Allah sənə qotur versin, dırnax verməsin.
Allah sənə dərd versin, dərman verməsin.
Allah sənə lə’nət eləsin.
Allah səni yaman günə qoysun.
Allah səni yarıtmasın.
Allah səni mənim əlimnən alsın.
Allah sənin gözdərini tutsun.
Allah çörəyini kəssin.
Allah-tala səni əlimnən alsın, ölüf qurtarasan.
Ana laylasına həsrət qalasan.
Andıra qal.
Anan vayına gəlsin.
Anan vayına otusun.
Anan qazancını yeməsin.
Anan mələr qalsın.
Anan heş barını dərməsin.
Anan üstündə vay desin.
Anan üstündə mələsin.
Anan-bajın ətrafına dolansın.
Arzun boşa çıxsın.
Atan-anan ölsün, yaddarın umuduna qal.
Atan-anan toyunu görməsin.
Ata-anana min lə’nət.
Axırın qan suyuna dönsün.
Axırın xeyir olmasın.
Axşamın, savahın qara gəlsin.
Ajı gün yol yoldaşın olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

B
Bağrın qana dönsün.
Bayramın qara geyinsin.
Bayramın qara gəlsin.
Bala payı görmüyəsən.
Bala üzünə həsrət dönsün.
Balan üzünə ağ olsun.
Balan boya-başa çatmasın.
Balan mələr qalsın.
Balaların üzünə dursun.
Baxtın qara gəlsin.
Baxtın göy əysiyə qalsın.
Baxtın heç açılmasın.
Başın batsın.
Başın ələk olsun, qarnın xəlvir.
Başın lovlu qalsın.
Başına daş düşsün.
Başına kül olsun.
Başın hayına qalmasın.
Bir əlin olsun, bir dizin.
Boğazına qara yara çıxsın.
Boynuna boz ip ölçüm.
Boynuna ip tutum.
Boynunu yerə soxum.
Böyük böyrəyin yansın.
Böyüməyəsən.
Bu ləçək yaddarın olsun, sənə oğul desəm.
Burnun ovulsun.
Burnunnan gəlsin.

V
Vayına el yığılsın.
Vayına oturum.
Verdiyim gözünə dursun.
Vurğun səni vursun.
Vurğunun qoşa gəlsin.
Vurğunun güjdü gəlsin.
Vurulmuş.



Q
Qavağın qaya, kürəyin qızıl güllə olsun.
Qavağına ağ gün çıxmasın.
Qadam sana gəlsin.
Qadam-balam ağzına tökülsün.
Qadamı alasan.
Qazandığını qaz yağına verəsən.
Qazandığını yemiyəsən.
Qazandığın arvadının sonrakı ərinə qismət olsun.
Qazandığın dəva-dərmana qismət olsun.
Qazandığın qana dönsün.
Qazancını yellər aparsın.
Qan qusasan.
Qanın daşdara dağılsın.
Qanına bulanasan.
Qanını yalayasan.
Qapın bağlansın.
Qapın bağlı qalsın.
Qapına vay düşsün.
Qapını qonşu açmasın.
Qapılar açıf girməyəsən.
Qara duvaxda qalasan.
Qara ilan dodaxlarınnan vursun.
Qara yaylıxda qalasan.
Qara yer səni yesin.
Qara geyif, göy örtəsən.
Qara gösöy olasan.
Qara günnən qurtarmıyasan.
Qarabaxtdan payın olsun.
Qardaş qanına bulanasan.
Qardaş dağı görəsən.
Qarnın doysun, gözün doymasın.
Qarnın qara yansın.
Qarnına qara sancı dolsun.
Qarnına şiş batsın.
Qarnını heş fələk də doyurmasın.
Qarğamışam əlin ojaxda yansın.
Qələmin əlinnən düşsün.
Qızıl gülləyə tuş olasan.
Qızına cehiz tapılmasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızının ağzı əyilsin.
Qolun qurusun.
Qolun kəsilsin.
Qolların qələm olsun.
Quruduf iki çiyinnərini yeyəsən.
Qulaxlarına qurğuşun.
Qulağına yuyucu barmağı girsin.
Qulaxların kar olsun.
Qur'an gözünü tutsun.
Qulağın dolu olmasın.

D
Dava evinnən əysik olmasın.
Damın başına uçsun.
Dalınnan qara daş getsin.
Daşın atılsın.
Dədən ölsün, dədəsiz qalasız.
Dədəniz ölsün.
Dərdin mən olum.
Dərdinə dərman tapılmasın.
Dəli yuvan keşsin.
Divarın yarımçıx qalsın.
Dilin ağzında titrəsin.
Dilin ağzında kömür qarasına dönsün.
Dilin qapqara kösöy olsun.
Dilin qurusun.
Dilin yansın.
Dilin gödək olsun.
Dilinə düyün düşsün.
Diləyin başa çıxsın.
Dilənçi qalasan.
Dodağına yara çıxsın.
Düz yurdda qalasan.

E
Evin-eşiyin şen olmasın.
Evin başına uşsun.
Evin yıxılsın.
Evinə vay düşsün.
Eyvini qara torpax örtsün.
Elin ağlar qalsın.



Ə
Əjdaha qavağına düşəsən.
Əzizin yarımasın, yarısa da qarımasın.
Əzrayıl qonağın olsun.
Əzrayıl atdı olsun, sən piyada.
Əzrayıl qəzəvinə tuş olasan.
Əzrayılın qılıncına rast gələsən.
Əzrayıl canını alsın.
Əlin belini qurşamasın.
Əlin qurusun.
Əlin döşünə yapışsın.
Əlin əllərə dəyməsin.
Əlin xına tutmasın, çiynin qırmızı kərdəyə dəyməsin.
Əlin xınalı qalsın.
Əlinin barını yemiyəsən.
Əməyin puç, dizin sıyrığ olsun.
Əmək itirənin əməyi itsin.
Əndamın çürüsün.
Ətin tökülsün.
Əhdinə çatmıyasan.

Z
Zalıma tuş gələsən.
Zəlil qalasan.
Zəhmətim gözünnən gəlsin.

İ
İdmin batsın.
İzin itsin.
İki əlin olsun, bir başın.
İgid canınnan xeyir görmüyəsən.
İldırım səni vursun.
İmanına qorxax tula bağlıyım.
İtnən baş-başa yatasan.
İstəklin ölsün.
İçin yansın.
İçinizə qırğın düşsün.
İşin avand gətiməsin.
İşin həmişə tərs gəlsin.
İşığın heç yanmasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Y
Yazın qara yazıdan olsun.
Yalançının balası ölsün.
Yalançının vayına oturum.
Yaman güllüyə tuş olasan.
Yanın boş qalsın.
Yanın yerdə qalsın, gözün haxda.
Yanına yaman çıxsın.
Yanın yerdə qalsın.
Yapıncını allah boş qoysun.
Yarana duz bağlansın.
Yarın yaddara qalsın.
Yarana piltə qoyulsun.
Yarımayasan.
Yastığın ağır düşsün.
Yaxşı gün görmə.
Yaxşı günə həsrət qalasan.
Yediyin qarnında qalsın.
Yediyin gözünü tutsun.
Yediyin it qanı olsun.
Yediyini laxta-laxta qusasan.
Yeddi il bir üzünün üstə yat, yeddi il o birinin.
Yerdə döşənəkli qal.
Yerə yapışıxlı qal.
Yetim qalasız.
Yorğanının altı boş qalsın.
Yuvan dağılsın.
Yurdunda bayquş ulasın.
Yurdunda qurd ulasın.
Yurdda qalmıyasan.
Yurddan itəsən.
Yurdun qaralsın.
Yurdun yağıya qalsın.

K
Kağızın qara yazılsın.
Kələyin kəsilsin.
Kəllən boş qalsın.
Kəmərin kəndir olsun.
Kəmərin yarımçıx qalsın.



Kitavın bağlansın.
Kökünə balta vurulsun.
Körpün uşsun.
Köşdən geri qalasan.
Kül başına.
Kürəyinin arası abbası boyda yansın.
Kürəyinin arası şal kimi yansın.

G
Gedəsən gəlmiyəsən.
Get, gəlmə.
Gəlinin qara yaylıx çalsın.
Gərdəyin qara boyansın.
Göz yaşın yavannığın olsun.
Gözün bizdə olsun, özün quyunun divində.
Gözün qəmətə dikilsin.
Gözün yaşdı qalsın.
Gözün ovcuna tökülsün.
Gözün həmişə yaşdı qalsın.
Gözün doymasın.
Gözünə ağ gəlsin.
Gözünnən gövdəni ağla.
Gözünnən gor eşəsən.
Gözünə güllə dəysin.
Gözünə mil batsın.
Gözünə millər çəkilsin.
Gözdərin kor qalsın.
Güllə gözünnən dəysin.
Gülün yarpıza dönsün, itin çaqqala.
Günün qara gəlsin.
Günün qara olsun.
Günün-dirriyin kəsilsin.
Günün itin günü olsun.
Günün-güzəranın ah-vaynan keşsin.
Görüm belə cığırın göyərsin, üstündə göy ot bitsin.
Görüm yığvalın qara, qismətin gödək olsun.
Görüm küllüyün göyə sovrulsun.
Görüm ömrün gödək, kəndirin kəsik olsun.
Görüm savahın üzünə qara açılsın.
Görüm səni qara geyinif, göy bürünəsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görüm səni yarıma, yarısan da qarıma, qarısan da sarıma.
Görüm sənin nə qarnın doysun, nə əynin bitsin.

L

Leşin qarğa-quzğuna yem olsun.
Lə'nətə gələsən.

M

Mayan suya dönsün.
Mal-qaran qara qalsın.
Malazana şiş girsin.
Malın marala dönüf çöllərə düşsün.
Malınız, qoyununuz andıra qalsın.
Merət qal.
Mən götürəni çaydan götür.
Mərdimazar, evin yıxılsın.
Murazın burnunda getsin.
Murazın gözündə qalsın.
Mürdəşir üzünü yusun.
Mürdəşir su töksün, yusun.

N

Neynim dərdə düşəsən.
Nənən dalınca mələr qalsın.
Nənən paltarını yığsın.
Nənənin dizi qarnına keşsin.

O

Ojağın sönsün.
Ojağın qarala qalsın.
Ojağına bayquş qonsun.
O ku, elə danışırsan, görüm oğlunun-qızının qavağına çıxsın.
O ku, mənim əməyimi itirirsən, görüm həmişə əməyin itkin, dizin sıyrığ olsun.
Oxlanasan.

Ö

Öz başını yeyəsən.
Özün yolnan get, Əzrayılın kolnan.
Ömrün kəsilsin.



Ömrünnən xeyir görmüyəsən.
Ömrün-günün budansın.
Ömrünü, gününü allah gödəltsin.

P

Payın batdağa dönsün.
Payın nuş olsun.
Payın palçığa dönsün.
Palaz arasında gələsən.
Palazın cırılmasın.
Paltarın boxçada qalsın.
Papağın dirəkdə qalsın.
Papağın mərətə qalsın.
Papağını allah boş qoysun.
Partdamıya düşəsən.
Pərgarın pozulsun.

R

Rahat günün olmasın.
Rahatdığını allah kəssin.
Ruzun bajaları gəzsin.
Ruzun damdan çıxsın.
Ruzun kəsilsin.

S

Savaha sağ çıxmıyasan.
Savahın xeyir olmasın.
Sağ get, salamat gəlmə.
Sağ yekəlmə.
Sağ yemə, yastıx üstə ye.
Sağ gözün sarıxlı qalsın.
Sağ gözünnən olasan.
Sağ olan günü başın ağrısın.
Sayan pozulsun.
Sahibsiz öləsən.
Saçın meydan topu olsun.
Sel qavağına düşəsən.
Sən adda oğlum ölsün.
Sən öl, balaların yetim qalsın.
Səni allah qarğasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənə qəvir qazım.
Sənəyin sınsın.
Səni ağ çörəyə həsrət qal.
Səni qaynara düşəsən.
Səni görüm qanın daşdara dağılsın.
Səni qanına qəltan olasan.
Səni yeddi qıznan bir süfrüyə əl uzadasan.
Səni yetim qalasan.
Səni gorvagor olasan.
Səni görüm açılax-yumalax get.
Səni görüm bala barı yemiyəsən.
Səni görüm qan qusasan.
Səni görüm qanına qəltan olasan.
Səni görüm ər üzünə həsrət qalasan.
Səni görüm itnən əlamətə, qurdnan qiyamətə qalasan.
Səni görüm yarıma, yarısan da qarıma.
Səni görüm yeddi qapı döyəsən.
Səni görüm yetim-yesir dolandırasan.
Səni görüm küçələrdə qalasan.
Səni görüm gələnin əlinə, gedənin izinə baxa-baxa qalasan.
Səni görüm partdamıya düşəsən.
Səni görüm pisdənə-pisdənə pis günə qalasan.
Səni görüm, sel gəlsin sular aparsın.
Səni mənim umuduma qal.
Səni namərdə tuş olasan.
Səni hal aparsın.
Səni heş qoşa qarımıyasan.
Səni şərə düşəsən.
Səsin batsın.
Səsin sal altdan gəlsin.
Sinənə dağ üstünnən dağ çəkilsin.
Sinən dağlansın.
Sinənə Əli-Vəli dağı çəkilsin.
Son payın olsun.
Son gedişin olsun, son gəlişin olmasın.
Sonsuz qalasan.
Südünə lə’nət.
Sümüyün qırılsın.
Suyun qana dönsün.
Süfrəniz bağlı qalsın.



T

Tinkin kəsilsin.
Tirin sınsın.
Toyun qara çalınsın.
Toyun yasa dönsün.
Torpax səndən uca dursun.
Tufananan dağılsın.

U

Uğrun qara gəlsin.
Uğrun kor olsun.
Uğrun uğursuz olsun.
Uğrun xeyir olmasın.
Umudun kəsilsin.

Ü

Üzün ağ olmasın.
Üzün iki cahanda da qara olsun.
Üzün gülməsin.
Üzün üzdər görsün.
Üzünə qapı açılmasın.
Üzünə gün doğmasın.
Üzünə qızıl güllə dəysin.
Üzünü mürdəşir yusun.
Üzünün suyu tökülsün.
Ürəyinə qızıl güllə dəysin.
Ürəyinə Əli-Vəli dağı çəkilsin.
Ürəyinə oğul dağı çəkilsin.
Üstündə yaylıx gəzsin.
Üstündə su tapılmasın.

X

Xirtdəyin qovuşsun.
Xirtdəyinə yara çıxsın.
Xınan qara boyansın.
Xurcunun boş qalsın.

H

Havarına Əzrayıl yetişsin.
Heş ağ gün görmüyəsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Heş üzün gülməsin.
Həzrəti Abbasın ikiüzdü qılıncına rast gələsən.
Həmişə ağlar qal.
Hər tikən bir dərədən yığılsın.

Ç
Çəkdiyim əmək burnunun iki qanadınnan gəlsin.
Çıran keçsin.
Çörəyini od bişirməsin.
Çuvalın boş qalsın.

C
Canın ölsün.
Canınnan xeyir görmüyəsən.
Cəmdəyin qurda-quşa yem olsun.
Cəhənnəmdə yerin salınsın.
Civin dolu olmasın.
Civinin divi yırtıx olsun.
Cin səni boğsun.
Cığırın tozdansın.
Cücərtin kəsilsin.

Ş
Şamın yanmasın.
Şəkilin batsın.
Şər iş sənnən heç aralanmasın.
Şərə düşəsən.
Şil-küt olasan.
Şirin ağzın ajı olsun.
Şirin ağzını allah ajı eləsin.



# Ə F S A N Ə L Ə R

## GÖYÇƏ GÖLÜ

Uzaq-uzaq keçmişdərdə şiş dağlarnan əhatəyə alınmış böyük bir oba varıymış. Dərd-kədər, qəm-qüssə bu elin, obanın adamlarınnan çox-çox uzağıymış. Onnar ov ovluyar, odun qırıf ojax çatarmışdar. Yayda bircə xortum ot biçif qışa hazırrıx görməzmişdər. Ot qışda da qurşağa çıxarmış. Şaxta-çovğunda belə mal-qara çöldə, bajada doyunca otduyuf, tövlüyə qayıdarmış.

Palıf-ardıc meşələri arasında marallar, cüyürrər mal-qaraya qoşuluf otduyar, axşamlar tövlənin ağzınacan onnarnan baravar gələr, heç adamlardan da qorxuf, pəsinməzmişdər.

Obanın qayğıdan, qüssədən azad adamları axşamlar bir yerə toflaşar, gejənin yarısına qədər nağıllar, əfsanələr, bayatılar dünyasına qonaq olarmış. Günnəri çalıf-oxumaxnan keçərmiş.

Bu obanın diş göynədən, ürək sərinnədən, qollara qüvvət verən abi-zəmzəm bir bulağı varıymış. Suyunnan yeddi dəyirman işdiyə bilərmiş. Bulaxdan su götürən qızdar-gəlinnər öz səhəngini doldurannan sonra onun ağzını möhkəm-möhkəm bağlıyarmış. Ağsaqqallar hamıya dönə-dönə tafşırmışdılar kı, suyun ağzını bağlıyın. Yoxsa obanı su basa bilər.

Bu yerrərdə Çiçək addı gözəl-göyçək bir qız varıymış. Huri mələk misallı bu dağlar gözəlinin hüsnünün tə’rifi dildən-dilə düşüf, obadan-obaya yayılmış, çoxlarının ixtiyarını əlinnən almışdı. Yaxın-uzax obaların ərgən igiddəri buraya axışıf onu görməyə can atar, lakin Çiçək onnarın heç birinə gözucu da baxmaz, heç kimə könül verməzmiş. Ərgənlər ona uzaqdan baxıf köks ötürərmişlər.

Heç kim bilməsə də, Çiçək sevirmiş. O öz obalarının boylu-buxunnu, qəddi-qamətdi, ağıllı-kamallı, dəliqannısı, igiddər igidi Çingizə könül verifmiş.

Çingiz xeyli vaxtıymış kı, uzax səfərə çıxıbmış. O günnən səvri-qərarı ərşə çəkilmiş Çiçəyin gözdəri yollarda qalıfmış. Günnərin bir günü, axşam qarannığı obanın üstünə pərdə çəkən vaxt Çiçək bulaxdan su doldururmuş. Bu vaxt kiminsə səsi eşidilir:

– Çingiz səfərdən qayıdıb... Çingiz səfərdən qayıdıf.

Qəfil deyilən bu sözdər Çiçəyin qəlbində əks-səda verif dağlara-daşdara ün saldı. Ona elə gəldi ki, bu xəvərə qayalar da, daşdar da, dağlar da, dərələr də sevindi, meşələr şaddıxdan bir boy da artdı. Çiçək bilmədi neynəsin. İndi onun gözünə heş nə görünmürdü, qulağı heş nə eşitmirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Titrəyən dodaxları yalnız "Çingiz qayıdıf", "Çingiz gəlif" sözdərini pıçıllıyırdı.

Çiçək səhəngini çiyninə atıf evə yollandı. Bulağın ağzını bağlamax heş yadına da düşmədi. Gur sular baş götürüf getdi. Bir də camaat ayılıf gördü kü, hər yer suyun içindədi. Hamı bayıra axışdı. İstədilər bulağı tapıf ağzını bağlasınnar. Baxdılar kı, iş-işdən keçif. Başdadılar mal-qaranı, palaz-paltarı evdən çıxarıf dağlara tərəf çəkilməyə. Uca dağların qoynunda təhlükənin sovuşduğunu ya qın edənnən sonra obanın ağsaqqalı irəli yeriyif dedi:

– Bulağın suyunu kim açıf buraxıfsa, öz günahını boynuna alsın.

Heş kim dinmirdi. Hamı suçlu-suçlu bir-birinin üzünə baxırdı. Birdən Çingiz irəli yeriyif ağsaqqalın qavağında diz çöküf dedi:

Dolamaç-dolamaç yollardan gələyim,
Qarı düşmənnərə qılınc çalayım,
Darıxdım diləyimə çatayım, bavam.
Bu günah mənnən törədi, neynim.

Sular axıf dəngiz oldu bavam!
Axmaz sular çuxura doldu, bavam!
Qarğasan, qarğıma bavam mana
Çiçəyim günah elədi...
Qəzəbin gəlməsin bavam, ona
babam, mana.
Bu dəngizi görərsənmi?
Maralları sulamağa sürərsənmi?
Nişannımnan aydan arı olayım,
Qarğasan bu suları ahıma bulayım
Qarğama, əlimnən tut bavam!
Günahımı ört, unut bavam.

Heş kəs dinmədi. Ağsaqqal, Çingizin qolunnan tutuf ayağa qaldırdı.

Elə bu vaxtdan yeri söküldü. Onlar başdarını qaldırıf üzüaşağı baxanda gördülər ki, düz-dünyanı su alıf. Şiş dağların şəkli göm-göy sularda çimir. Ağsaqqal əlini döşünə qoyuf dedi:

– Oğlum Çingiz, sənin və nişannının günahını bağışdadım. Sizin saf sevginiz, bu günahınız bizə Göycə bir dərgiz verdi. Bu dənizi Göyçə dəngiz addandırdım. Qoy bu yurdumuz da Göyçə addansın. Gedin, xoşbəxt yaşıyın.

Hamı dağların döşündə özünə təzədən yurd-yuva, olajax seşdi. Oğuz elləri bu yerdərdə özlərinə əbədi məskən saldılar. Hamı bu yurda Göyçə,



bu dəngizə Göyçə gölü dedi.

## UUZ QƏBRİ

Göyçə gölünün sahilində "Qara quzey" addı dağın başında bir məzar var. Bu məzarın uzunnuğu dörd metrdən də artıxdı. Bu məzara "Uğuz qəbri" deyillər.

Rəvayətə görə, burada dəfn olunmuş Ömür addı bir oğuz bu obanın başçısı, ağsaqqalıymış. O bütün oğuz ellərinin qüdrətdi sərkərdəsi, yenilməz hökmdarıymış. Uğuz elləri onun arxasınca gedər həmişə qalib gələr, məğlubiyyət, qəm-kədər nə olduğunu bilməzmiş. Onun hökmü işdiyən yerrərdə xəbisdikdən yalan, riya və düşmənçilikdən əsər-əlamət yoxuymuş.

Getdikcə zamana dəyişir, xudbinnik, şöhrət və sərvət uğuzların da qəlbinə yol tapmağa başdıyır. Küdurət artdıxca Ömür babanın paxıllığını çəkənnərin sayı çoxalır. Onnar el ağsaqqalının qəlbinə dağ çəkmək üçün iki oğlunu namərdcəsinə öldürüllər. Öz xeyirxah əməlləri müqabilində bədxahlıxnan üzləşən Ömür baba artıq həyatı özü üçün ağır yük hesab edir. Oğlannarının dəfn edildiyi, "Qara quzey"də bir gün öz qəbrini də qazdırır. Ayağının birini qəbirə, o birin isə çölə qoyuf öz elinə-obasına üz tutarax deyir:

– Ey Uğuzlar, (Göyçədə oğuza uğuz demişlər) siz çox pak və ləyaqətdiydiniz. Çalıf-oxuyar, deyif-gülər, hönkürüf ağlıyardınız. Birinizə bəla gələndə hamınız kədərrənər, hamınız yas tutar, birinizin sevincinnən hamınıza pay düşərdi. Birinizə düşmən daşı atılanda hamınız qavağa durardınız. İndi zəmanə pis gəldi, sizi dəyişdi. Daha mən ağsaqqallıx edə bilmiyəjəm. Mənim oğlanlarımı öldürməknən nələr törətdiniz? Tayfalar arsında düşmənçilik yarandı. Birriyiniz pozuldu. Bir-birinizə qənim kəsildiniz. Qəlbinizdə baş qaldıran kin-küdurət, paxıllıx və həsəd hissləri sizdəki təmiz duyğuları məhv etdi. Uğuz ellərinə böyük bəlalar gətirdiniz. Mən sizə hələ çox illər ağsaqqallıx edəjiydim. Ancaq daha ofsandım. Uzun illər yaşıyajax, sizin ömrünüzü uzadajaxdım. Ancaq görünür bunnar bizə qismət deyilmiş. Nə etmək olar. Görünür taleyin hökmü beləymiş. Bizi istədiyi vaxt öz əlində oyuncağa çevirə bilərmiş.

Amma mən sizi əbədi tərk etmiyəjəm. Yerimi bu uca dağın başında salıf sizə göz qoyajam. Ürəyim sizdən qırılsa da, gözdərim üstünüzdə olajax. Şər iş tutannarınızı lə’nətdiyəjəm, yaxşı əməllərinizə xeyir-dua verəjəm. Övlvddarım, ən ağır gününüzdə qəvrimin üstünə gəlin. Məni haraylıyın. O gün mən yenə sizin sıranızda olajağam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ömür bava bu sözdəri deyif qəvrə uzandı və canını tafşırdı. Elə buradaca oğuz elləri and işdilər ki, qəvirləri yalnız Ömür bavanın qəvri kimi uca dağlar qoynunda qazılajaxdır.

## BƏZİRGAN QAYASI

Biri varıydı, biri yoxuydu, allahın bəndəsi çoxuydu. Çox qədim zamannarda göylərə baş çəkən şiş dağların arxasında bir təpəgöz varıydı. Adamlar onun əlinnən zara gəlmişdilər. Bu bədheybət məxlux oğuz ellərinə göz verif, işıx vermirdi. Əlinə keçəni parçalıyıf yeyirdi. Adamlar mal-qara, analar övlad üzünə həsrət qalmışdılar.

Oğuzlar arasında Qaraxan addı çox güjdü bir pəhlivan varıydı. O, bir neçə dəfə Təpəgözün üstünə getsə də, heş bir nəticə hasil olmamışdı. Axırda Təpəgöz Qaraxanı da məğlub eliyif öldürmüşdü. Bunnan sonra Oğuzdarın günü-güzəranı daha da ağırraşmışdı. Əvvəllər Qaraxannan çəkinən Təpəgöz indi istədiyi vaxt ovalara soxulur, adamları parçalıyır, əlinə keçəni yığıf aparırdı. Hamı qaçıf-dağılmış, hərə bir səmtə baş götürüf getmişdi.

Oğuz elləri evinnən-eşiyinnən didərgin düşmüşdü. Qaraxan öləndə onun altı yaşdı Ellaz adlı bir oğlu qalmışdı. Ellaz güjdə, qəhrəmannıxda dədəsinə beş təpik vurmuşdu. Hələ uşax olarkən güjdü pəhləvannar onun əlinnən qan ağlıyırdı. Əlini nəyə atsa, kökünnən qoparırdı. On yaşına çatanda oxsuz-kamansız şir, pələng ovluyur, qızmış nəri bir yumruğa yerə sərirdi.

Ellaz dəfələrnən Təpəgözün üstünə getmək istəsə də anası, ağsaqqallar onu zornan tutuf saxlamış, hər şeyin vaxtı var bala, – demişdilər.

Nəhayət, Ellaz on beş yaşına çatdı. Elə bir igid oldu ku, indi onun qavağında dağ da tav gətirə bilməzdi.

Bir gün Ellaz anasının yanına gəlif dedi:

– Ana, daha mən uşax deyiləm. Oğuz ellərinin intiqamını almax üçün mana xeyir-dua ver.

Ana əvvəlcə razılıx vermək istəməmişdi. Ancax elin ağsaqqalları demişdilər:

– Biz ona öz xeyir-duamızı vermişik, sən də Ellaza uğur dilə, xeyir-dua ver.

Ana öz oğlunu bağrına basıf dedi:

– Get oğlum, indi ki, oğuz elləri səndən nicat gözdüyür, mən səni necə saxlıya bilərəm. Qoy tanrı özü sənə yar olsun.



Ellaz Şah dağının uca zirvələrində özünə məskən salmış Təpəgözü çox axtarmadı. Elə dağın başına qalxmışdı kı, yeri-göyü lərzəyə gətirən bir nə’rə səsi eşitdi. Baxıf gördü kü, Təpəgöz əlində iri bir qaya parçası onun üstünə gəlir. Təpəgöz ona çatmağa bir az qalmış dedi:

– Axır kı, gəlif çıxdın, südəmər uşax. Mən sənin yolunu çoxdan gözdüyürdüm. Eşitmişəm mənnən intiqam almax istiyirsən.

Təpəgöz əlindəki qayanı ona tolazladı. Ellaz iri qayanın qavağınnan qaşmadı. Onu göydə tutuf yavaşca yerə qoydu.

Nataraz kor, qonağı sizdə beləmi qarşılayıllar? Sənin igiddiyin elə buymuşmu? – deyə Ellaz qəhqəhə çəkif güldü.

Təpəgöz "çağrılmamış qonağın dədəsini də yandırıllar" -deyif irəli gəldi və əlini atıf Ellazın kəmərinnən yapışıf yerə vurmax istədi. Təpəgöz baxıf gördü kü, yox qardaş, bu xına o xınadan deyil. Dağı yerinnən qoparan Təpəgöz bunu heş tərpədə bilmədi.

Xülasə, bunnar tutaşdılar, nə tutaşdılar. Onnarın nə’rəsi hay-harayı bütün Şah dağını lərzəyə gətirdi. Dağlar, daşdar yerində duruş gətirə bilmiyif dərələrə üz tutdu. Dizdərinnən dərin-dərin dərələr, əllərinnən böyük yarğanlar aşdılar Şah dağının qoynunda. Dincəlmədən düz bir həftə gejə-gündüz vuruşdular. Axırda Ellaz qəzəblənif elə bir nə’rə çəkdi ki, qocaman Şah dağının qorxudan bağrı yarıldı. Təpəgözün ürəyi titrədi, əlləri əsdi. Ellaz onu götürüf uca bir zirvədən sıldırımlı dərəyə tulladı. Təpəgözün qol-qavırğası şil-küt oldu. Zarıya-zarıya sürünüf öz əvvəlki məskəninə "Bəzirgan" addı qayanın altında yerləşən mağarasına girdi.

Ellaz onun qaçdığını görüf dalınca mağaraya girdi. Anjax nə qədər axtardısa, Təpəgözü tapa bilmədi. Geriyə qayıdıf bir də təpəgözlər oğuz ellərinə ziyan toxundurmasın deyə, iri qayaları götürüf, "Bəzirgan qayası" mağarasının ağzını hördü. Təpəgözdər o gündən işıxlı dünyadan məhrum oldular. Ellaz şad-xürrəm öz elinə qayıtdı.

"Bəzirgan qayası" indi də durur. Göyçədə, Ardanış kəndinin örüşündəki mağaranın ağzına yığılmış iri qayaları daşnan döyəşdədikdə yer altında uzun-uzadı uğultular eşidilər. Xalq arasında bu səsi yeraltı dünyada əbədi dustaq edilmiş Təpəgözün naləsi, fəryadı kimi izah edillər.

## XOR- XOR

Göyçə gölünün lap sahilində Xor-xor deyilən bir qaya var. Rəvayətə görə, Göyçə gölü hələ yaranmamışdan əvvəl burada bir tayfa yaşayırmış. Bunlara Uğuzdar deyirmişdər. Onnarın boyu çox ucaymış. Ayağının biri Qara güneydə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olanda, o biri Sudağılana çatarmış. Əllərini dağın ətəyindən uzadıf başında istədiyi heyvanı tuta bilirmiş. Bunnar özdərinə ev tikməz, böyük zağalarda yaşayarmışdar.

Uğuzların Ayxan addı bir ağsaqqalı varıymış. Bütün Uğuz əhlinin ixtiyarı onun əlindəymiş. Yerin altını da bilirmiş, üstünü də.

Günnərin birində o car çəkdirif bütün Uğuzları bir yerə tofluyur, üzünü onlara tutuf deyir:

– Balalarım, tanrının əmrinnən biz bu yerrərdən uzaxlaşmalıyıx. Çünkü bu yerrərdə bir dəngiz peyda olajax. Bizim bu yerrər o dəngizin altında qalajax. Gərək hamınız Şah dağının ətəklərində özünüzə yeni məskənlər arıyasınız. Tanrının hökmü belədi. Biz ona tabe olmalıyıx.

Ayxan sözünə davam eliyif deyir:

– Bircə mən zağamı tərk eləmiyəjəm. Üç min il. Siz məni görmüyəjəksiniz. Təkcə xorultumu eşidəjəksiniz. Neçə ki səsim gəlir, bil ki, mən sağam. Uğuz övladdarına heş bir zaval yoxdu. Nə vaxt ki o xorultumu eşitmədiniz bilin ki, ölmüşəm. Düşmənnər sizə güj eliyəjək. Yurdunuzdan dərbədər düşəjəksiniz.

Bilirəm, başınız çox müsibətdər çəkəjək. Çox ağrı-ajılar görəjəksiniz. Amma, bütün Uğuz balalarına çatdırın kı, tanrı mana bir ömür də və'd eliyif. Mənim xorultum kəsilənnən bir az sonra düşmənnər mənim yatdığım qayanı dağıdajaxlar. Bax, onda mən bir də ayağa qalxajam. O zaman Uğuz eli düşmən üçün məzara, balalarımız üçün yenidən cənnətə çevriləjək.

## A DA, QARA DA

Göyçə mahalında qarşı-qarşıya dayanmış iki dağ var. Vedibasar, Zəngibasar, Cığın ellərinin yayda yayladığı bu dağların birinə Ağ dağ deyillər, o birinə Qara dağ.

Əyyami qədimdə Ağ dağda ağ sürülər, Qara dağda qara sürülər otduyarmış. Günnərin birində Ağ sürüdəki qoç xəvər tutur ku, qara qoç ona meydan oxuyur. Odu ku, ismarış göndərir. Deyir ki, filan gün, filan vaxt Qara dağnan Ağ dağın arasındakı düzənnikdə vuruşajıyıx. İki qoçun başı bir qazanda qaynamaz. Allah ya sana verər, ya mana.

Vaxt gəlif çatanda hər iki qoç həmin yerdə görüşməli oldu. Hər ikisi bir günortalıx yolu çəkilif kəllə-kəlləyə gəldilər. Qoşdar bir-birini elə vurdular kı, dağlar-daşdar lərziyə gəldi. Qartallar diksinif buluddarın qoynunda dövrə vurdu. Dərələr uğuldadı, qayalar əks-səda verdi. Öz qoşdarının vuruşuna heyrət edən çovannar qulaxlarını tutdular, heyrətdən



donuf yerrərində qaldılar. Gözdərini açanda gördülər ki, qoşdar yoxdu harayladılar, ünnədilər. Bir xeyli sonra qara qoşdan xəvər gəldi ki, mən qarannıx dünyaya düşmüşəm. Ağ qoçun sədası isə işıxlı dünyadan gəldi. Günnər keşdi. Ağ qoç kömək eliyif Qara qoçu işıxlı dünyaya çıxartdı.

Döl törədi. Qara qoçdan törüyən qoşdar qarannıx dünyaynan əlləşir, xeyir qüvvələri vuruf qarannıx dünyaya salır, Ağ sürünün qoşdarı isə onnarı xilas edərdi...

## KƏMƏND QAYA

Qədim zamannarda Göyçə mahalında çox varrı, adlı-sannı bir kişi varıymış. Bunun mal-qarasının, naxır-ilxısının sayı-hesavı yoxuymuş. Amma övlad sarıdan kasıvıymış. Gözünün ağı-qarası bir qızınnan başqa heş bir züryəti yoxuymuş.

Gözəllikdə tayı-baravarı olmuyan bu qıza çox elçilər gəlsə də heş kimə getmirdi. Səvəvi buymuş ku, qonşu kənddən olan kasıf bir kişinin oğlunnan sevişirmiş.

Bir gün kəndə hay düşür ku, deməzsənmi Yasəmən İmrana qoşuluf qaçıf. Qızın dədəsi bunu eşidən kimi, nökərrərini başına yığıf bunnarın dalınnan düşür. Bir xeyli axtarannan sonra görüllər ki, dağın döşündə bir qaraltı var. Atları qova-qova bir xeyli gedənnən sonra görüllər ki, İmranla Yasəmən əl-ələ tutuf dağın başına tərəf qaçıllar. Bunnar sevgililərə çatmağa bir az qalmış onnar sıldırım bir dağın başına qalxıllar. Yasəmənin dədəsinin adamları nə qədər çalışırsa da, ora çıxa bilmillər. Bir az fikirləşənnən sonra qərara alıllar ki, onnarı kəmənd atıf yerə salsınnar. Bir xeyli kəmənd atannan sonra axır kı, İmran kəməndə düşür. Çəkif onu dağdan salmax istiyəndə Yasəmən bir ah çəkif deyir:

– Allah məni xar eliyincə, daş elə. Söz ağzınnan qurtarmamış burada nə varsa, hamısı daşa dönür. Adamlar da, İmranın boynuna keçmiş kəmənd də.

## QATAR QAYA

Deyillər, qədim zamannarda el yaylağa çıxan vaxt bir naxırçı azıf nabələd bir yerə çıxır.

Nə qədər axtarırsa mal-qaranı sulamax üçün bir yer tapa bilmir. Yoruluf əldən düşür. Susuzduxdan tövşüyən mal-qaraya baxıf allaha



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yalvarır:
– Ay allah, bu dilsiz-ağızsız heyvannara rəhmin gəlsin. Bunnara əlac eləsən, qara kalı sana qurvan kəsəjəm.

Naxırçı bir də baxır kı, iki-üç addım aralı kiçik bir çay şırıltıynan axıf gedir. Mal-qara tökülüf suya, doyunca içir. Naxırçı mal-qarıyı dağın döşünnən ilə haylayıf yoluna davam eliyir. Bir az keçənnən sonra verdiyi və'd yadına düşür. Amma, qara kəli kəsməyə əli gəlmir. Əşi, nə fərqi var, Arana qayıdıf qara çəpişi qurvan kəsərəm, – deyir.

Bu sözü deyən kimi dağa diklənən naxırçı öz naxırınnan birrikdə daşa dönür. Xalqın "Qatar qaya" adlandırdığı bu daşdar zəmanəmizə qədər gəlif çatmışdır.

## QIRXBULAQ

"Qırxbulaq" adında təbii gözəlliklərinnən dillər əzbəri olan Göyçə mahalında qədim bir yaşayış yeri var. Görəsən bu kəndi niyə belə addandırıflar. Doğrudanmı kənddə qırx dənə bulax coşuf çağlıyır. Yoxsa, bu adnan bağlı xalq arasında hansısa bir rəvayət yaşıyırmı?

Deyillər, bir zamannar bu kənddə varlı-hallı bir ağa yaşıyırmış. Səxavətdə, mərhəmətdə, insafda ad-san qazanıfmış. Allahın, haqqın-ədalətin yolunda canınnan belə keşməyə hazırıymış. Qapısına gələni əliboş qaytarmaz: heş zaman heş kəsi naümid qoymazmış. Dara düşənin dayağı, işıxsız evlərin çırağıymış.

Ulu tanrı bu kişidən heş nəyi əsirgəmiyifmiş. Təkcə bir dərdi varıymış. Heş bir züryəti yoxuymuş. Ancax uşağı olmadığına görə tanrıdan heş zaman gileylənməz, deyərmiş:

Tanrı bilən məsləhətdi. Versə, nə vaxt olsa verəjək, — deyərmiş.

Yaş qırxı haxlasa da ağa öz işində, güjündəymiş, fağıra-füqaraya, kasıf-kusufa, dilənçiyə, yesirə də ki, bir əli sədəqə paylıyarmış.

Ağa bir gün yatıf yuxuda görür kü, bir nurani qoja ona yaxınnaşıf dedi:
– Eşit oğul. Dediklərimə yaxşı qulax as. Sürüdən qırx öyəc ayır. Hərəsini bir gündə kəsif yetim-yesirə payla, ürəyini bişirif arvadınnan özün ye. Qırx günün tamamından sonra arvadının boynuna sənnən bir oğlan uşağı düşəjək. Oğlun çox alicənab, rəhmli, ədalətdi, baxtdı, qismətdi olajax. Nigaran olma, dediklərimi unutma. Tanrının buyruğuna əməl et, züryət payın var.

Bunu eşidən ağa hövlanak yuxudan ayıldı. Gördü kü, hələ gejə yarısıdı. Savaha çox var. O gördüyü yuxusunu arvadına danışdı. Buna arvadı da çox sevindi.

Savah açılan kimi ağa yuxusunda gördüyü nurani qojanın dediklərini



həyata keçirtdi. Sürüdən qırx bəyənmə öyəc ayırdı. Gündə birini kəsif ətini kasıf-kusuva, əlsiz-ayaqxızdara payladı. Ürəyini isə bişirif arvadınnan özü yedi. Elə ki, qırxıncı gün oldu, arvadın boynuna uşax düşdü. Ağa da, eşidənnər də buna çox sevindilər. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə keçənnən sonra arvad Novruz bayramının qırxıncı günündə bari-həmlini yerə qoydu. Uşax doğulan gün ağanın da qırx yaşı tamam olurdu. Uşax həm də təzə ildə obada doğulan qırxıncı uşağıydı.

Uşax böyüdü, boya-başa çatdı, "Qırx" sayı haqında eşitdikləri onu çox maraqlandırırdı. Uşax elə bil ki, "qırx" sözünə vurulmuşdu. Nə iş görürdüsə "qırx"nan başdıyırdı. Onun eldə-obada qırx sədaqətdi dostu varıydı. Qırx yaşında evləndi. Kənddəki qırx gözəl qızdan birini-qırxıncısını sevdi. Qırx gün toy çaldırdı. Toya qırx yerdən adam çağırtdırdı. Hər xörəkdən qırx qazan bişirtdirdi. Gəlinə qırx dəst paltar tikdirdi, qırx cür bəzək-zinnət şeyləri hədiyyə elədi.

Qərəz, nə başınızı ağrıdım, ağanın oğlu qırx rəqəminə o qədər aludə oldu ku, axırda yaşadığı kəndin adını dəyişif qoydu "Qırxlar".

"Qırxlar" kəndinin səsi-sorağı hər yerə yayıldı. Atası-anası ölənnən sonra qırx gün matəm saxladı. Qırx gün, qırx gejə onnara ehsan verdi. Qırx günnən sonra oldu kəndin ağası. Qırx yaşınnan sonra bir qızı oldu. Qızına qırx kəniz bağışdadı. Özünə qırx otaxlı ev tikdirdi. Qırx sürü qoyun-quzu saxladı. Qırx köhlən atın gündə birini mindi, hər qırx günnən bir təzə paltar geydi. Kəndə qırx yerdən yol aşdı. Qərəz, güjü nəyə çatdısa hamısını 40 rəqəminnən bağladı. Lakin bir şeydən savayı. O da kənddəki yeganə bulağıydı. Bulağın sayının qırxa çatdırmağa onun nə güjü vardı, nə də qüdrəti.

İllər beləcə ötüşürdü. Qırxlar kəndi böyüdü, adı dildən-dilə düşdü. Ağanın səxavəti, ədaləti dillər əzbəri oldu.

Söz düşəndə o, el içində deyərdi.
– Bizim bu Qırxlar kəndində qırxla bağlı edə bilmədiyim tək bir şey qaldı. Bu da kəndin yuxarı hissəsindəki bulağın tək olmasıdı. Əgər imkanım olsaydı, kənddən qırx bulax çıxarardım. Hayıf kı, buna gücüm çatmır. Bunu da edə biləni dünya malınnan qəni edərəm. Deyərəm ki, bu dünyada heş dərdim qalmadı. Neynəmək olar? Tanrı bilənnən yaxşısı yoxdu.

Camaat da bir ağızdan deyərmiş:
– Əlini haxdan üzmə. Bu arzun da düzələr.

Bu kənddə ağıllı-kamallı bir cavan varıymış. Ağanın bu sözünnən sonra o çox fikirrəşdi, çox götür-qoy etdi. Axırda istədiyinə nail oldu. Ağanın yanına gedif dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Möhtərəm ağa, icazə versən mən sənin qırx bulax arzunu çin edərəm.

Ağa eşitdiyinə inanmadı. Ancaq bu sözü ona deyən oğlanın çox ağıllı, kamallı olduğunu bilirdi.

Ağa dedi:

– Doğrudanmı?! Sən bunu nejə edərsən?

Oğlan dedi:

– Möhtərəm ağa, necə edərəm, o mənim işimdi. Ancax gərək mana qırx gün möhlət verəsən.

Ağa dedi:

– Möhlət verdim!

Oğlan dedi:

– Möhtərəm ağa, şərtim təkcə möhlət deyil.

Ağa dedi:

– Özgə şərtin nədi?

Oğlan dedi:

– Möhtərəm ağa, gərək mənə hər gün bir öyəc kəsif, ətini qovuruf göndərəsən. Ürəyini də bişirtdirərsən. Yarısını qızın yeyə, yarısını da bir xonçuya qoyuf mana göndərərsən.

Ağa dedi:

– Elə bu!

Oğlan dedi:

– Xeyr, səbr et. Möhtərəm ağa. Hər gün qovurmanı və xonçanı gərək qızının qırx kənizinnən biri gətirsin.

Ağa dedi:

– Sonra!

Oğlan dedi:

– Qırxıncı gün axşam, və'də tamam olanda, mən hər bulağın üstündə bir tonqal qalıyajam. Tonqalların qırxı da savaha kimi yanajax. Savah açılanda sən qırx atdıynan, qızın da kəndin otuz doqquz gözəli ilə bulağa gələrsiniz. Mən onuncu, qırxıncı bulağın üstündə olajam. Kəndin gözəllərinin hər biri bir bulaxdan su içər, sənin qızın isə qırxıncı bulağa qalxar. O, qırx naxışdı qızıl camını dolduruf yarıya qədərini özü içər, yarısını mana verər. Sonra siz və kənd adamları bulaxların suyunnan istədiyiniz qədər, doyunca içə bilərsiniz.

Ağa eşitdiklərini yuxu olduğunu hiss edif əllərini gözdərinə apardı, qulağını eşələdi. Dedi: bəlkə qulağım səs eşidir.

Bunnarı hiss edən oğlan dedi:

– Möhtərəm ağa, dediklərim olmasa, qanım halaldı.

Oğlan oradan birbaş evə gəldi. Onun ağa bağladığı şərt hər yerə



yayıldı. Oğlan bilirdi ki, kəndin üst yanınnan çıxan bulağın suyu qırx bulağın suyunnan çoxdu. İndi qalırdı bu suyu qırx yerə ayırmax. Bunu oğlan əvvəlcədən fikirrəşmişdi. O heş kəs bu sirri bilməsin deyə gejələr işə başdıyır, əvvəlcə həmin bulağın sağ tərəfinnən xeyli aralıynan, yerin altınnan bulağa sarı lağım atdı. Ancaq bulaxnan lağım arasını aşmadı. Sonra bu işini bulağın sol tərəfində apardı. Gündüzlər də çıxıf qızartmanın yolunu gözdədi. Hər gün bir gözəl ona ət qızartması, ləzzətli yeməklər gətirdi. Xonçadakı ürəyin də yarısını. Ancax heş kəs inanmırdı kı, bu həqiqət ola. Çünki oğlan bütün günü boş-bekar oturardı.

Oğlanın bu işinə ağa da məhəttəl qalmışdı. Ancax nə etmək olardı? Kişidə söz bir olar. Verilmiş vaxtı gözdəmək lazımıydı. Axı, haradan biləydi ki, bu ağıllı, kamallı, tədbirli oğlan verdiyi və'də xilaf çıxmıyajax, dediyi qırxıncı gün, qırx yerdən bulaxlar qaynıyıf daşajax.

O hər iki tərəfdən bulağa lağım atıf qurtardıxdan sonra, yə'ni qırxıncı gün işini yerin üstündə apardı. Əvvəlcə gur çeşməni qazıf gizdətdi. Üstdən yerin altına hər iki tərəfə olan lağımların arasını aşdı. Birdən-birə bulağın suyu tamam qurudu. Çünki bu su yerin altınnan iki tərəfə uzanan lağımlara axıf dolurdu. Lağımlar su ilə dolannan sonra bulax yenə əvvəlki kimi aşıf daşmağa başdadı. Oğlanın sevincinin həddi-hüdudu yoxuydu. O əsas işi görüf qurtarmışdı. Buna görə dayanmax olmazdı. Vaxt keçirdi. O linknən lağımın üstünnən arabir daha otuz doqquz deşik açdı. Deşiklərdən su eşiyə çıxmağa başdadı. Oğlan bu deşikləri bir az da gen işdəndirdi. Sonra açdığı yerə daş-qum doldurdu. Az keşmədi oğlanın ağlınnan yaranan bulaxların duruluğu, yaraşığı göz oxşadı. Elə bil ki, bu bulaxlar neçə min il əvvəl bunnan qavax buradan axırmış.

Axşam olan kimi ağa tez-tələsik eşiyə çıxıf kəndin yuxarı hissəsinə baxdı kı, görsün qırxıncı gündü, və'də tamamdı, tonqallar yanırmı? Gördü kü, oğlan bir-bir tonqalları yandırır. Axırda özü də qırxıncı tonqalın yanında dayandı. Bu tonqalı daha gur yandırdı.

Kəndə hay düşdü. Hamı damın üstünə çıxıf bu mənzərəyə baxırdı. Əvvəlki tək gur bulağın səsi kəsilmişdi. Onun əvəzinə qırx bulağın şırıltısı eşidilirdi.

Ağa da, camaat da savahın açılmasını səbirsizdiknən gözdüyürdü. O, başdan ağa şərtə görə öz qızınnan birrikdə kəndin qırx gözəl qızdarını götürüf, bulağa getməliydi. Xülasə, bunnar qırx nəfər atlı, kənd adamları da dəstələrə bölünüf bulaxlara doğru axışıllar. Çatanda həqiqətən burada qırx bulağın olduğunu gördülər. Kəndin gözəlləri bir əlindəki xonçanı da birinci bulağın üstünə qoyuf, piyaləsini dolduruf işdi. Belə-belə otuz doqquz gözəl bu işi görənnən sonra, növbə ağanın qızına gəldi. Onun çoxdankı arzusuydu ku, belə ağıllı, dərrakəli bir oğlanın arvadı olsun. O,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

atasının icazəsi ilə əlindəki xonçunu oğlana verdi. Oradakı piyaləni çıxarıf qırxıncı bulaxdan doldurdu. Yarısına qədər özü işdi, yerdə qalanını oğlana verdi.

Hamı bir ağızdan:

– Mübarəkdir! Xoşbəxt olsunnar, — dedilər.

Sonra ağa və kənd adamları bulağın suyunnan doyunca içif xonçadakı şirniyyatdardan, bayram payınnan doyunca yedilər. Yenidən hər bulağın üstündə bir qurvan kəsildi. Bu şadyanalıx həm də oğlannan-qızın birinci toy günü hesav edildi.

Ağa molla çağırdı. Qızın kəvinini oğlana kəsdirdi. Toy düz qırx gün davam etdi. Oğlan da, qız da, hər birinə qırx dəst toy paltarı tikdirdi. Qırx yerdən toya adam də'vət olundu. Hər yeməkdən qırx qazan asıldı. Toyun qırxıncı günü ağa dedi:

– Ay camaat, bilin və agah olun. İndiyə kimi bizim bu kəndə Qırxlar kəndi deyərdilər. Bundan sonra kəndin adı dönüf olur "Qırxbulaq" kəndi. Su təmizdikdi, su aydınnıxdı,su paklıxdı.

Balalarım, Sizi də xoşbəxt olun!

O vaxtdan həmin kəndin adı "Qırxbulaq" qaldı. Ancax heş kəs bilmədi ki, həmin ağıllı, kamallı oğlan buna necə nail oldu. O nə qədər yaşadısa da, bu sirri heş kəsə demədi.

## PİR DAI

Qədim Göyçə mahalında Çaxırrı kəndinin arxa tərəfində uca bir dağ var. Bu dağa xalq arasında "Pir dağı" deyillər. Bu dağla bağlı xalq arasında bir rəvayət dolaşmaxdadı.

Deyilənnərə görə, bu dağ başdan-binadan mö'cüzələrnən dolu olmuşdur. Ayrı-ayrı dövrlərdə, ayrı-ayrı zamannarda bu dağa gələnnər onun böyük mö'cüzələrinin, sirrlərinin şahidi olmuşdular. Əməli saleh adamlar, bu dağın zirvəsində qəyıfdan şam yandığının şahidi olmuşlar.

Ağsaqqalların məsləhəti, məşvərətinnən günnərin birində köməkləşif bu yerdə möhtəşəm bir məsçid tikiflər. Bunnan sonra "Pir dağı"na qurvan deyənnərin, ona inanannarın sayı durmadan artıf, çoxalıf. Nejə deyəllər bu müqəddəs yer dara düşənnərin namuraddarın bir imdad yerinə çevrilir. "Pir dağı"nın adı hər yerə yayılır. Yaxın-uzax yerrərdən ona ziyarətə gələnnərin, qurvan kəsənnərin ardı-arası kəsilmir.

Başı bəlalı Göyçənin dəfələrlə doluf-boşalması "Pir dağı"na tə'sirsiz qalmır. Burada tikilmiş məscid dəfələrnən dağılır, burada məskən salan kavurlar məscidi dağıtmax üçün əllərinnən gələni edirdilər. Lakin "Pir



dağı"na gedif-gələnnərin sayı azalmır ki, azalmır.

Yaxın keçmişimizdə "Pir dağı"nın ətəyində yaşıyan kənddərin adamları bir daha bu dağın mö'cüzəsinin şahidi oldular. Deyilənə görə, Qarabulax kəndində bir varrı adam özünə ev tikdirirmiş. O, evinə hər cür daşdardan bəzək vurdurarmış. Birdən haradasa ağlına gəlir ki, gedif "Pir dağı"ndakı dağılmış məscidin cilalanmış daşdarından daşıyıf gətirsin. Bunu eşidənnər kişiyə nə qədər öyüd-nəsihət verir, nə qədər dəlil-dəlayil gətirillərsə də dediyindən dönmür. O, bir boyun kal götürüf dağa çıxır. Öküzdəri daşdardan birinə qoşur.

Öküzdər nə qədər dartır, nə qədər çəkirsə, bu daş yerinnən tərpənmir ki, tərpənmir. Əlacı kəsilən varrı ertəsi gün iki boyun kəl gətirir. Onnar da daşı tərpədə bilmir. Ajığa düşən, dediyinnən dönmüyən bu kafir, bu nasranı üçüncü gün birdən-birə beş boyun kəl aparır. Camaat da bu tərsliyin nəynən nəticələnəcəyini gözdüyir. Halbuki üzü aşağı həmin daşı bir boyun öküznən çox asannıxnan gətirmək olardı.

Nəhayət, inadkar və imansız varrı üçüncü gün bu bir neçə metr uzunnuğunda olan daşa beş boyun kil qoşur. On kəl güj-bəlaynan daşı yerinnən tərpədir və üzü aşağı zornan sürüyə-syrüyə axşam günbatana yaxın kişinin qapısına gətirif çıxarır. Həmin daşı birtəhər divarın üstünə qaldırıllar.

Tanış-biliş, qohum-qonşu nə qədər yalvarırsa, kişi daşı divardan endirmir. Bu daşı gətirəndə çəkdiyi əziyyəti görsə də inadınnan dönmür. Hələ üstəlik bir neçə günnən sonra o biri daşdarı da gedif nəyin bahasına olursa-olsun sürüyüf gətirəcəyini deyir.

Gejə yatanda varlı yuxusunda görür kü, Ağ əmmaməli, ağ çuxalı bir kişi ona yaxınnaşdı. İki barmağını onun gözdərinə uzadıf dedi:

– Kafir, savah o daşı hardan gətirifsənsə, oraya da qaytar. Qaytarmasan gözdərini ovuf çıxarajam.

Varrı yuxusunda gördüyünü danışır. Onu yenə dannamağa başdıyıllar kı, daşı qaytarsın. Varrı gördüyü yuxudan qorxsa da dediyinnən dönmür.

Sonrakı iki gejə də də gənə həmin yuxunu görür. Bu dəfə yuxuda qayıfdan gələn qoja əsəbi halda deyir:

– Bu sənə sonuncu tafşırıxdı. Daşı savah qaytarmasan gözünün ikisini də ovuf çıxarajam.

Bu dəfə varrı bərk qorxur. O, daşı qaytarmağa hazırraşır. Öz-özünə düşünür kü, üzü aşağı beş boyun kəllə güjnən gələn bu daşı ağzı yuxarı dağın başına nejə qaldırajax?

Ağsaqqallar ona məsləhət edillər ki, bunnan qorxmasın. Daş öz əvvəlki yerinə lap asan qayıdajax. Buna cəmi iki at da bəs edər. Buna inanmıyan varrı sınamax üçün iki at gətirir. Atları qoşan kimi daş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yerinnən tərpənir. İki at həmin daşı ağzı yuxarı "Pir dağı"nın başına çox asannıxnan aparır. Bunu görən varrı tutduğu işdən peşiman olur.

Adamları bu dağda daha bir mö'cüzə də çox düşündürürdü. "Pir dağı" Qafqaz sıra dağlarının arasındadı. Bu dağa yaxın heş bir yerdə nə daşdıx, nə də sıldırım qayalıxlar var. "Pir dağı"nın başında istifadə olunmuş bu daşdara bənzər daşdar Göyçə ərazisindəki heş bir qayalarda təsadüf olunmur. Bu daşdarın haradan gəlməsi də hamı üçün bir müəmma olarax qalmaxdadır.

Göyçəlilər indi də "Pir dağı"nı müqəddəs bir ojax kimi xatırrayıllar.

## KEYTİ

Ağaların, bəylərin, kəndxudaların zülmünnən boğaza yığılan və nə edəjəyini bilmiyən xalqın böyük əksəriyyəti çarəsizdikdən düşdüyü ağır bəlalarə birtəhər tav gətirir, dözə bilmiyənlər baş götürüf özgə vilayətdərə gedirdilər. Keytinin ailəsi isə çox böyük müsibətlər görsələr də doğma vətənnən uzaxlaşa bilməmişdi.

Bir gün kəndxuda Keytinin atasını bəyin yanına aparır və onun çoxdan bəri vergi vermədiyini bildirir. Bəyin tafşırığı nnan kəndxuda onu möhkəm döydürür və ölümcül vəziyyətdə qapılarına atdırır. Aldığı zədələr nəticəsində qoja bir neçə saatdan sonra canını tafşırır. Qohum-qonşu yığışıf onu dəfn eliyir. Bunnan çox sarsılan Keyti atasının dəfnindən sonra gejələrin birində həmin kəndxudanı öldürür, gejə ikən anasını, kiçik qardaşı Mehdini və bajısını götürüf Kəlvəcərin yaxınnığında yaşıyan atasının köhnə bir dostunun evinə pənah aparır. O günnən də on doqquz yaşdı Keytinin qaçaxlıx həyatı başdıyır.

Kəndxudanın ölümü, Keytinin qaçax düşməsi xəvəri dərhal hər yerə yayıldı. Az vaxtda Keytinin başına Göyçədən, qonşu Zəngəzur, Qarabağ mahalınnan igid oğlanlar yığışmağa başdadı. Çox keçmədi Keytin başçılıx etdiyi dəstə xalqın düşmənnəri üçün təhlükəli bir qüvvüyə çevrildi.

Namərdin, naxələfin əlinnən bir şey gəlir: müxənnətdik, arxadan zərbə. Kişi kimi üz-üzə dayanmax, onnara yaddı. Onnarın tarixdə dəfələrnən uğurnan sınaxdan çıxartdıxları qəsd addı bir silahları var. Mərd meydanına onlar yalnız bu silahnan çıxa bilillər.

Keytinin dəstəsi Göyçənin cənub-qərbinə doğru uzanan kiçik Qafqaz sıra dağlarının zirvələrinin birini – "Uca dağ"ın ətəyini özünə məskən seşmişdi. Ətraf kənddərin adamları tez-tez buraya gəlir, onnara edilən zülmlərdən Keytiyə şikayət edirdilər. Keyti də onnarı naümid



qaytarmırdı. Dəstənin sayseçmə igiddəri tez bir vaxtda həmin qaniçənnəri öz cəzasına çatdırırdı.

Dəstə hərdən bir, boş vaxtdarında "Uca dağ"ın başına qalxırdı. Ətraf buradan daha aydın, daha gözəl görünürdü. Onnar hər tərəfdən dağlarnan əhatə olunmuş Göyçə gölünün durduğuna, təmizdiyinə baxmaxdan doymurdular. Yeyir, içir, şənnənir, hər dəfə də xalqı qara günnərdən qurtarmıyınca silahı yerə qoymayajaxlarına and içirdilər. Saza-sözə böyük həvəsi olan Keyti arabir ucadan, zil səsənən Miskin Abdaldan, Koroğludan oxuyardı. Onun səsi qartalların qıy vuran səsinə qarışardı.

Bir payız günü, belə asudə vaxtdarının birində Keyti üzünü yoldaşdarına tutuf dedi:

– Uşaqlar, bu dağlarda aramsız sürünən dumanı, çəni, o ağ qayanı görürsünüzmü?.. Məni qınamayın, Koroğlunun oylağı mənə elə gəlir ki, elə buralar oluf.

– Deməli biz Koroğlu nəslindənik – deyə Mehdi söhbətə qoşuldu.

Başqa biri zarafatnan:

– Bəs, onda, keçəl Həmzəmiz kimdi?

– Kim olacaq, Səfiqulu – deyə bir diliyüyrək dilləndi. Səfiqulu gözdəmədiyi bu zarafatdan bərk sarsıldı. Sonra özünü ələ alıf, hələ də gülməkdən uğunuf gedən yoldaşdarına üz tutuf dedi:

– Keyti qağama canım qurvan. Onun yolunda hər vaxt ölümə getməyə hazıram!

– Səfiqulu, adam dost, yoldaş zarafatınnan inciməz. Uşaqlar axırını xarafladınız. Hər kəs öz yerinə getsin. Mən bu gejə burada qalajam. Havalar soyuxdu. Səfiqulu mana soyuxdan qorunmağa bir şey gətisin. O, bunu Səfiqulunun qəlbini almax üçün dedi.

Səfiqulu qulaxlarına inanmadı, çoxdan bəri gözlədiyi məqam yetişmişdi. Onun daxilində həyəcan və qorxudolu bir duyğu gəzişirdi. Keytini öldürə bilsəydi, onu böyük mükafat gözdüyürdü... Qatilliyə görə, şərəfsizdiyə görə!!!

O, "Ucadağ"ın başına, Keytinin yanına vaxtınnan tez qayıtdı. Bu zaman günəş uca dağların arxasında gizdənməkdə idi. Gətirdiyi bürüncəklər arasında Maral dərisi də var idi. Keyti qalın geyinənnən sonra paltarrarının üstünnən həmin maral dərisinə bürünməliydi. Bu "xeyirxah"lığına görə o, Səfiquluya təşəkkür edif onu geriyə yola saldı. Bu şərəfsiz qatil cəld özünü dünən növbədə oluf, bu gün dincələn Mehdiyə çatdırdı. And-aman eliyif onu inandırdı ki, "Ucadağ"ın başında indicə bir maral dolaşdığını bu gözdəriynən görüf. Mehdinin ayaxlarınnan elə bil daş asılmışdı. O, güjnən ayağa qalxdı. Tüfəngini çiyninə aşırıf dağ yuxarı qalxmağa başdadı. Yolda yoldaşdarınnan biriy-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nən rastdaşdı. Məsələni bilif o da Mehdiyə qoşuldu. Səfiqulunun bunnan xəvəri yoxuydu. O, komada oturuf güllənin nə vaxt açılacağını böyük həyəcannan gözdüyürdü.

Ölüm Keytini haxlamışdı. Mehdi maral dərisinə bürünmüş qardaşı Keytini tanımadı. Onu maral bilif barmağı ilə tətiyi çəkdi.

Güllə səsiynən dağlara əks-səda verən bir inilti də qofdu. İkinci güllənin səsi yeri-göyü titrətdi. Özünün qardaş qatili olduğunu bilən Mehdi yanındakı yoldaşına "O satqını tutun!" - dedi və ikinci gülləynən öz-özünnən qardaşının qisasını aldı!!!

Qatil Keytinin "Qaşqa" addı atını minif aradan çıxmax, muştuluğa qaçmax istərkən tutuluf qıyma-qıyma doğrandı.

Bu qara xəvər bütün ətrafı yerinnən oynatdı. El "Ucadağ"ın başına axışdı. Yerin iniltisi, sızıltısı göylərə dirəndi... Neçə-neçə təzə ağılar yarandı.

Bacısı:

Ağlayan başdan ağlar
Kiprikdən, qaşdan ağlar.
Qardaşı ölən bajı
Durar, o başdan ağlar!

Anası:

Analar yanar ağlar,
Andıqca oynar ağlar.
Dönər ağ göyərçinə
Yollara qonar ağlar.

El:

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir cavan ölüf,
Göy kişnər, bulud ağlar!

– deyif fəryad qopardı. Bir alçağın fitnəsiylə bu dünyadan nakam köçən bu iki növcavanı "Ucadağ"ın başında dəfn etdilər. Bu iki qəhrəman bu zirvəyə əbədi bir şöhrət gətirdi.

O vaxtdan xalq bu dağa "Keyti" dağı dedi. O günnən Keyti dağı müqəddəsdəşif, elin ziyarətgahına çevrildi. O vaxtdan çətinə, dara düşənnər üçün, bütün Göyçə üçün "Keyti" ojağa, müqəddəs bir ziyarətgaha çevrildi.



## PƏRİ BULAI

Göyçədə bir-birinin qonşuluğunda örüş-örüşə söykənən üç kənd var. Ağbulaq, Ardanış, Cil. Bu kənddərin hər birində "Pəri bulağı" addı abigövsər suyu qədər saf, buzdan soyux bir bulax var.

Bu bulaxlar haqqında xalq arasında maraxlı bir rəvayət dolaşmaxdadı.

Deyilənə görə, qədim zamannarda Şəmşəddin elində İmran bəy addı varrı bir ağa yaşıyırmış. Onun var-dövləti başınnan aşıf-daşsa da Pəri addı bircə qızınnan başqa heş bir züryəti yoxuymuş. Pəri o qədər gözəliymiş ki, ay onun camalınnan xəcalət çəkir, gün üzünə çıxmağa utanırmış.

Elin-obanın, ətraf mahalların bütün mənəm deyən oğulları, qoluna, ağlına güvənən igiddəri bu qızın eşqindən dəli-divanəymişdər. Elçi-elçi dalınca axışsa da, Pəri heş kimə könül vermirmiş. İmran bəy bu gələn elçilərin içində özünə layiq adamlar tafsa da, Pərinin inadını qıra bilmirmiş. Yeri düşəndə Pərinin anasına gileylənif qızının nə vaxta qədər öz sözünü göyərdif məni dost-düşmən içində xəcil eliyəjək, bu qədər igiddərin içində o birini seşsəydi mənim də yaxam umu-küsülərdən qurtarardı, – deyərmiş.

Həftələr, aylar keçir. Bir gün İmran bəy eşidir ki, Pəri Qaraxan addı bir cavannan əhd-peyman bağlıyıf. İmran bəy bu xəvərdən çox pərt olur. Arvadına gileylənif deyir:

– Başına dönüm, belə iş olar?.. Mənim qapıma elə kişilər elçi gəlif ki, Qaraxan onun dırnağına da dəyməz. Bu qız nə iş tutduğunu, məni kimlərə tay elədiyini heş fikirrəşirmi?

Arvad bir az nala-mıxa vurduxdan sonra ərinə deyir:

– A kişi, vallah mən bunu çoxdan eşitmişdim. Amma sənin qorxunnan açıf-ağartmırdım. Birdə ki, deyilənnərə görə heş Qaraxan da pis oğlan deyil. Kasıf olsa da, hamı onun igiddiyinnən, qeyrətinnən, boy-buxununnan, mə'rifətinnən ağız dolusu danışır. Gəl, inad eləmə, qoy balamız öz sevdiyinə qovuşsun. Qəlbini qırma. Neylək, könül sevən göyçək olar, – deyir.

İmran bəy arvadının bu məsləhətini eşidən kimi qan beyninə vurur. Dünya-aləmi başına götürür kü, mənim yeddi it küçüyüm olsa da, birini Qaraxana verməyərəm. Birjə o qalmışdı ki, aman-zaman bir balamı çulu cırıx bir gədiyə verim!

İmran bəy əmr eliyir ki, bunnan sonra Pərini bir də evdən-eşiyə buraxmasınnar.

Pərinin qara günnəri başdıyır. Qaraxanın xəyalınnan gejə-gündüz göz yaşdarı axıdır. Sevgilisinnən ayrı düşənnən sonra gün-gündən gül kimi soluf-saralır. Nə qədər ovundurmax istiyillərsə, mümkün olmur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anası elə hey pərvanə kimi onun başına dolanır, birjə balasının göz yaşdarı onun qəlvinə çal-çarpaz dağlar çəkir. Əri İmran bəyə gejə-gündüz qarğış yağdıran ana öz qızına deyir:

– Qızım, gəl daşı ətəyinnən tök. Atanı lap yaxşı tanıyıram. Dünya dağılsa da dediyinnən dönən deyil. Səni Qaraxannan da yaxşı oğlannar istiyir. Gəl, birini seş, toyunu eliyək. Bizi də, özünü də üzdüyün bəsdi. Lakin Pəri öz inadınnan dönmədi. Gün-günnən onun halı da fənalaşdı. Qohum-əqrəba daşürəkli atanı yola gətirə bilmədi ki, bilmədi. Axırı gördülər ki, belə getsə qız əldən gedəjək.

Dedilər:

– Gəl, onu yaylağa göndərək. Bəlkə fikri-zikri bir az dağıla.

Həmin yay İmran bəy qohum-qonşuynan Pəriyi Göyçənin səfalı dağlarına yaylağa göndərir. Hamıya dönə-dönə tafşırır kı, qızın ürəyi nə istəsə, ona əməl eləsinnər. İmran bəy güman edir ki, dağların saf havası, buz bulaxları qızına hər şeyi unutdurajax.

El köçüf yaylağa çıxır. Ağbulax kəndinin yaxınnığında, Qatar qayadan bir az aralı səfalı bir yerdə, buz kimi soyux bir bulağın başında dəyələr qurulur. Bu dəyələrdən birində üç-dörd qıznan birrikdə Pəri məskən salır. Deyilənə görə, bu bulağın başında yarım ay qalannan sonra dəyələri köçürüllər qonşu Ardanış kəndinin örüşündə yerləşən bulaxların birinin başına. Burada da yarım ay qaldıxdan sonra Cil kəndindəki bir bulağın başına düşüllər. Pəri bu bulaxların başında ay yarım gün keçirir. Lakin nə bu gül-çiçəyə bürünmüş dağlar, nə buz bulaxlar, nə də mavi gözlü Göyçə gölü onu ovuda bilmir. Elə hey Qaraxanın xəyalıynnan, ona qovuşmax arzusunnan yaşıyır.

Vaxt gəlif yetişir. El yaylaxdan arana köçür. Pəri yenidən öz doğma yurduna qayıdır. İmran bəy öz qızını yenə də gün işığına həsrət qoyur. Elçilərin əl çəkməməsinə baxmıyarax, Pərini Qaraxana verməm, – deyə inad eliyir. Öz sevgilisinə qovuşmax ümidini itirən Pərinin halı günnən-günə xaraflaşır. Anası, qohum-qonşular, dost-aşna Pəriyə öz məhəbətini unutdura bilmir. İmran bəy də öz inadınnan dönmür kü, dönmür. Məhəbbətin fərağına dözmüyən Pəri Qaraxan deyə-deyə gözddərini əbədi olarax yumur.

İmran bəyi lə’nətdiyən Qaraxan Pəri deyə-deyə elə-obaya səs salır. Onun fəryadı dağları, daşdarı lərzəyə gətirir.

Aylar dolanır, il keçir, yaylax vaxtı çatır.

Qaraxan Pəri gəzən yerrəri görmək üçün Göyçə dağlarına üz tutur. Qavağına çıxannardan soruşur:

– Pəri bulağı hansıdı?

Nakam aşiq, hər üç bulağı tapır, dağlara, dərələrə ün salır. Pəri



gəzdiyi yerrəri, su işdiyi bulaxları ziyarət edir. Ürəkdağlıyan fəryadı həzin bayatılara çevrilərək dağlara, dərələrə səs salır. Bu bayatılardan biri bu gün də yaddaşdarda yaşıyır.

Dağları qoşa görüm,
Od düşüf daşa, görüm.
Kül başına Qaraxan,
Pərisiz yaşa görüm.

## DARCAN QARI

Çox qədimlərdə Göyçənin Ağbulaq kəndində Darcan adında qoja bir qarı varıymış. Günnərin bir günü bu qarı itini də yanına alıf dağın döşünnən çalğı qırmağa gedir. Bir şələ çalğı qırannan sonra dağın başınnan enif kəndə tərəf getməyə başdıyır. Bir az gedənnən sonra baxır kı, möhkəm yoruluf. Qarı şələ də dalında oturur ku, bir az dincini alsın. Qarı ajıdığınnan torvasını açıf evdən götürdüyü üç yumurtanın üçünü də qavağına qoyuf yeyir. Yedikcə yumurtaların qavığını itin qavağına atır. Çörəyin qalanını da təzədən torvuya qoyuf ağzını bərk-bərk bağlıyır. İt nə qədər yalmanırsa, Darcan qarı ona heş nə vermir. Qarı durmax istiyəndə it ağzını göyə tutuf uluyur. Onun ahı qarıyı tutur. Darcan qarı ayağa duran kimi şələsi də dalında daşa dönür.

## NƏHLƏTDƏMƏ

Keşmişdə Göyçədən arana gedən "Ağ yoxuş" yolunnan bir qadın öz körpə oğlunnan piyada gedirmiş. Yolun kənarında bir kişi at otarırmış. Kişi bu gözəl, cavan qadını görən kimi pis fikirrərə düşür. Körpə balasının yanında anasının ismətinə toxunmax istiyir. Qadın nə qədər yalvarırsa, bu kişini pis niyyətindən çəkindirə bilmir. Bu işdən qeyzə gələn qadın öz namusunu qorumax məqsədinnən bir daş götürüf binamus kişinin gicgahına endirir. Kişi bayax ha cəhənnəmə vasil olur. Qadın oğlunnan birrikdə ətrafdakı daş-kəsəyi topluyuf leşin üstünə yığır. Yolnan gedən yolçular, yaylaxdan gələn adamlar bu qadının daşı-daş üstünə yığdığını görüf, məsələdən hali olmax istiyillər. İşin nə yerdə olduğunu bilənnən sonra yol adamları da həmən yerə daş atmağa başdıyıllar. Bu iş elə-obaya yayılır. Hər burdan keçən bir daş atır. Gün gəlir bu yerdə bir daş təpəsi əmələ gəlir. Camaat bunun adını nəhlətdəmə təpəsi qoyur. Nəhlətdəmə təpəsi indi də durur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AY VƏ GÜN

Belə nağıl eləyillər ki, ulu Tanrının hökmünnən yer göydən aralanır. Yer göylərdən ilim-ilim itirilir, uzax bir yerə göndərilir. O vaxt nə kainatda ay, ulduz, gün, nə yer üzündə işıx, ins-cins yoxuymuş. Hər yer qatı, zil qarannıx, zingir içindəymiş Bu, Allahın yerə olan ilkin qəzəviymiş. Sonra Allahın böyük və mərhəmətdi rəhminnən qəlbində olan hiddət soyuyur. Yerə yazığı gəlir. Buraya özünnən, qanaddarınnan işıx qopan Dünya xatun addı göylərdən, göy işıx saçan bir mələk göndərir. Dünya xatun mələyin yerə gəlişinnən burada ilk dəfə olarax cannı nəfəsi duyulur. Mələyin gözəlliyi dağlara, daşdara, yamaşdara, düzdərə səpələnir. Dünya xatunun yeridiyi, ayax qoyduğu torpax xəzinəyə çevrilir. Gülüşünnən çiçəklər rəng, həyasınnan, ismətinnən ətir alır. Qəzəvlənəndə isə yer yerinnən titriyərmiş.

Dünya xatun tək-tənha çox gəzir dolanır. Bütün yer üzündə ayax basmadığı yer qalmır. Hara gedirsə oranı cənnətə döndərirdi. Yer üzündə nə vardısa, hamısı Dünya xatuna baş əyirdi, onun gəlişinnən sevinirdi.

Vaxtı nə qədər xoş keçsə də tənhalıx Dünya xatını get-gedə darıxdırır. Bir gün üzünü göylərə tutuf bu tənhalıxdan can qurtarmax üçün həmdəm dilədi. Çox çəkmədi yoxluxdan Dünya xanıma ay və gün addı iki övlad bəxşiş olundu. Ay oğlan, Gün isə qızıydı.

Ay və günün gəlişi Dünya xatunu yaman sevindirdi. İndi o vaxtının çoxunu bu uşaxlarnan keçirir, darıxmax nə olduğunu bilmirdi.

Vaxt gəldi Ay və Gün böyüyüf boya-başa çatdılar. Ay boylu-buxunnu, qamətdi, güjdü, qüvvətdi, təmiz ürəkli bir oğlan, gün isə gözəllkdə tayı-baravarı olmuyan, ağıllı-kamallı bir qız oldu.

Bir dəfə Dünya xatun gördü kü, cavannarın ikisi də yatdığı vaxt göylərdən bir göy işıx gəldi. Bu işıx uşaxlara çatanda iki yerə bölündü. Biri ayın, biri də göyün qoynuna girif yox oldu.

Dünya xatun bu hadisədən heş nə annamasa da, qəlvində bir qorxu hissi keçirtdi. Ay və gün ayılanda onnarın təbiətində, üzündə-gözündə gözəl görünən nəsə hiss etdi. Gördü kü, indi onnar bir-birrərinə başqa göznən baxıllar. Bu baxışdarda məhəbbət odu, atəşi varıydı. Bu atəş getdikcə böyüdü, böyüdü, axırda açıx bir sevgiyə çevrildi.

Sevif-sevilmək və nəhayət, evlənmək hissərinnən məhrum mələyin



bu sevgiyə bərk ajığı tutdu. O, əvvəlcə cavannarı cağırıf bu sevdadan əl çəkməyi məsləhət gördü. Sonra gördü kü, Ay və Gün heş onun dediyinə məhəl qoymur. Onnar ikisi də dəfələrnən Dünya xatunun ayaxlarına döşənmiş, yalvar-yaxar etmiş, ancax mələyin rədd cavafı onnarı həmişə mə'yus etmişdi. Ay və Gün Dünya xatunun qəzəvindən, qarğışınnan yaman qorxurdular.

Bir dəfə Dünya xatun gördü kü, Ay və Gün xəlvət yerdə xısın-xısın danışır, baş götürüf bu yerrərdən qaşmağa hazırraşıllar. Bunu eşidən Dünya xatun elə qəzəfləndi, elə nə'rə çəkdi, elə əsdi-coşdu ku, ayağının altınnan yer bu zərbə-zorba tav gətirə bilmiyif dəli kimi fırranmağa, fırrana-fırrana havadakı boşduğa dolanmağa başdadı. Aynan Gün bunu bilif qorxudan tir-tir əsməyə başdadılar. Çox yalvardılarkı, Dünya xatun onnarı bağışdasın. Ancax Dünya xatun elə hirsdənmişdi ki, onu sakit-dəşdirmək mümkün deyildi. O, ilk dəfə Günü hüzuruna çağırdı və qəzəfnən dedi:

– İndi sənin qolunnan tutuf elə atajam kı, ilim-ilim itəjəksən. Sənə nə əl çatajax, nə də ün yetəjək. Ayın həsrətinnən od tutuf, alışıf yanajaxsan. Elə yanajaxsan kı, sönmək bilmiyəjəksən, haradan baxsalar sənin nejə yandığını görəjəklər. Səni görüm heş vaxtı aynan görüşmüyəsən. Səni görüm yana-yana yaşıyasan. Səni görüm bu boya-başa çatdığın yerə, torpağa, ürəkdən sevdiyin Aya həmişə həsrətnən baxasan.

Bunu deyif Gün qızın qolunnan tutuf dediyi kimi var güjünnən əlçatmaz göylərin sonsuzduxlarına atdı. Dərhal uzaxlarda, lap uzaxlarda bir alov közərdi, getdikcə gurraşdı. Onun işıxları yerin üstünə çatdı. Yer üzü birdən işığa qərq oldu. Dünya xatun bu işə lap məəttəl qalmışdı. İndi yer üzündə hər şey aydın görünürdü. Bu aydınnıx Günün uzax-uzax ənginniklərdə qəlbinnən qopan məhəbbət, eşq qığılcımlarıydı.

Heş kəs bilmədi, bu ayrılıxdan için-için yanan, alovlanan, aləmi işığa, nura qərq edən Günün göz yaşdarı da kəsmədi. Gözdərinnən müdam ayrılıx, intizar, həsrət damcıları süzüldü. Bu damcılar göyün qoynuna səpələndi, ulduzdara çevrildi.

Dünya xatunun hələ qəzəvi soyumamışdı. O, Ayı qənşərinə çağırıf elə qışqırdı kı, Ayın rəngi qorxudan saf-sarı saraldı. Üzünü gah o yana, gah bu yana çevirdi ki, qəzəfli mələyin ajıxlı üzünü görməsin. Onun üzü gah az, gah çox, gah da tam görünürdü. Dünya xatun qorxudan rəngi saralmış, ağarmış Ayın üzü ona tərəf çevriləndə var güjünnən ona elə bir şapalax çəkdi ki, barmaxının izi dərhal Ayın üzündə dərin izdər buraxdı. Bunnan sonra Dünya xatun üzünü ona tutuf dedi:

– Sən həmişə yerin başına dolanıf, yerin qulu olmalısan. Günəşə həmişəlik həsrət qalmalısan. Axtara-axtara, dolana-dolana, doğrana-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

doğrana, yana-yana yaşıyajaxsan, lakin bir-birinizə qovuşmıyajaxsınız. Gedin, sizin qarğışınızı vermişəm – deyif, Ayı da tulladı yerdən xeyli uzaxlara. Ay başdadı yerin başına dolanmağa. Dünya xatunun qarğışdarı çin oldu. O vaxtdan Ay və Gün bir-birini axtarır, ancax tapa bilmillər.

Dünya xatun isə bir xeyli sonralar tutduğu işdən peşiman oldu, bu ayrılıxa dözə bilmədi. O qədər ağladı kı, göz yaşdarınnan, bulaxlar, çaylar, göllər, dənizdər, dəryalar, ümmannar yarandı. Axırda özü də bu göz yaşdarının içində əriyif yox oldu.

## ACA QALA

Ulularımızın, sinəsi, söz yatırı olan ağsaqqallarımızın rəvayətinə görə Şəmsəddin elində Sübhan adında əzazil bir xan hökmrannıx eliyirmş. Onun hökmü Gəncədən Borçalıya, Borçalıdan Göyçüyə kimi işdiyirmiş. Bu hökmdar olduxca haqsız, ədalətsiz, zülmkar olduğunnan el-ova onun əlinnən lap boğaza yığılıfmış.

Sübhan xanın ədalətsizliyinə dözə bilmiyən Ağca addı bir dəliqannı özü kimi igiddəri başına topluyuf dağlara çəkilir. Qəddar xanı öz əməlinnən çəkindirmək üçün onun yanına hörmətti bir ağsaqqal göndərir. Ağsaqqallar ədəf-ərkannan gəlif onun sifarişini Sübhan xana çatdırır:

– Hökmdar gəl daşı ətəyinnən tök, xalqa bu qədər zülm eləmə. Yoxsa xalq qəzəvinə düçar olajaxsan. Onu bil ki, xalq intiqamınnan hələ heş kim yaxasını qurtara bilmiyif.

Qəddar hökmdar əmr edir ki, ona meydan oxuyan bu qojuyu dar ağacınnan assınnar. Cəlladdara nə varıydı kı, elə bir kəmfürsəttik gəzmirdilərmi? Dərhal qojuyu çəkdilər dar ağacının altına. Carçılar tez camaatı meydana topladılar. Camaat meydana gələndə görüllər ki, cəlladdar bir nurani qojuyu dar ağacının altına gətiriflər. Camaat bu zülmə dözə bilmir. Bu müdrik ağsaqqalı hökmdarın əl-ayağına döşənif qojuyu xilas etmək üçün xana ilan dili çıxarıllar.

Hökmdar daha da qəzəflənir. Cəlladdara hökmü icra eləmək əmrini verir. Cəlladdar kəndiri qojanın boynuna keçir ha keçirdə bir dəstə attı özünü verir meydana. Camaat qarışır bir-birinə, ara qarışır məzhəb itir. Atdılar cəlladdarı qılınşdan keçirir, ağsaqqalı götürüf aradan çıxıllar.

Camaaat bu işə məəttəl qalır. Hamıs ürəkdən sevinir. Hərə bir yana yozur. Amma bilmillər ki, bu nə olan işdi.

Get-gedə Ağcanın adı el-ovaya yayılır. Öz başının dəstəsinnən hansı



haxsızın üstünə yeriyirsə, ona haqqını yaxşıca başa salır.

Hökmdarın qulluxçularına aman vermir ki, camaatı həmişəki kimi incitsinnər. Xalqa zülm edənnəri bir-bir qanına qəltan eləyir.

Ədalətsiz hökmdar Ağcanın əlinnən lap təngə gəlir. Neçə dəfə Ağcanın məskən saldığı qalanın üstünə qoşun göndərirsə, bir nəticə hasil olmur. Hər dəfə də qoşunu qırğına verif geri qayıdır.

Ağcanın dəstəsi günnən-günə böyüyüf, güjdənirdi. Özünə də ki, söz ola bilməzdi, onun zərbi dəstinə böyük bir qoşun tav gətirəsi deyildi. Ağcaynan on il vuruşduxdan sora hökmdar gördü kü, sıldırım gədiklərdə qoşunu qırdırmaxdan bir şey çıxmır. Axır kı, get-gedə urvatdan düşdüyünü görüf geri çəkildi. Fərman verdi ki, bunnan belə kim ədalətsizdik eləsə, onun boynu vurulajax.

Elə Ağcanın da, xalqın da istəyi bu deyilmi?! Hökmdar elçi göndərif Ağcanı sülhə çağırır. Ağca razılıx verif, onu qalıya də’vət elədi. Sübhan xan Ağcanın qurduğu qalıya baxıf mat-məəttəl qaldı.

Bir xeyli sükutdan sonra köksünü ötürüf dedi:

– Bala, olan oluf, keçən keçif. Düzünü de görüm, mənim kimi qüdrətdi bir hökmdarı acizdəşdirən, el içində xar eliyən bu yenilməz qüdrət-qüvvət səndə hardandı?

Ağca quş kimi yerinnən sıçrayıf ayağa qalxdı, üzünü Sübhan xana tutuf qürurnan dedi:

– Xan, onu yaxşı bilin ki, haqq-ədalət uğrunda vuruşurdum. Haqqın qalibiyyətinə inamıydı mənim ən güjdü silahım. Oydu səni məğlub, məni qalib eliyən qüdrət.

Xan, bu qala elimizin namus, qeyrət qalasıdı. Onu qurduran da, qoruyan da öz əlinin namusdu, qeyrətdi bir qız balasıdı.

Bunu deyif Ağca başınnan papağını götürdü, əyninnən döyüş livasını çıxardı. Hamı bu işə məəttəl qaldı. Onnar qarşılarında qürurnan dayanan gözəl bir qıza qibtə hissinnən baxırdılar.

"Ağca qala" tarixin sərt sınaxlarına mərddihnən sinə gərərək bu günümüzə qədər öz əzəmətini qoruyuf saxlamışdır.

## QIZ QALASI

Deyillər, qədim, lap qədim zamannarda indiki Xəzər dənizinin qərb sahilində böyük bir tayfa məskən salıfmış. Tayfanın başçısına Xaqan deyəllərmiş. Bu Xaqan çox ağıllı, tədbirri, el qədri bilən, ədalətdi bir hökmdarıymış. Xaqanın yaşı yetmişi keçifmiş. O bilirdi ki, ölüm gününə çox qalmıyıf. Ancax onu bi nigarançılıx rahat buraxmırdı. Çünki onun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təpəgöz bir oğlu varıydı. O da beyvec, şüursuz. Gününü qumarxanalarda, kefxanalarda keçirərdi. Başı eyş-işrətdən, sərxoşduxdan açılmazdı. Xaqan bilirdi ki, onnan sonra məmləkəti dağılajax, ölkə talan olajax, bu yerrər başqa hökmdarın əlinə keçəjək. Nə fayda Xaqanın bu səfeh oğlunnan başqa heş bir züryəti yoxuydu ku, taxt-tacını, mal-mülkünü, xəzinəsini ona e'tibar eləsin. Bunu camahat da bilirdi. Ancax nə etmək olardı? Taledən, qismətdən qaçmax mümkün deyil.

Elə ki, bir gün Xaqan ölümünü hiss etdi, o oğlunu yanına çağırtdırıf dedi:

– Oğul, gözümün nuru, vaxt çatıf. Atan dünyasını dəyişməlidi. Bu Allahın hökmüdü. Lakin sənə bir vəsiyyətim var. Atannan qalan hakimiyyəti, mal-mülkü, taxt-tacı qoruyuf saxla. Pis, bəd əməllərdən əl çək, yurdumda bir sönməz çırax ol. Atanın adını batırma. Ölkəni, xalqı ədalətnən idarə elə. Nahax yerə heş kəsi incitmə. Yoxsa haqq səni bağışdamaz. Bu gördüyün səltənətin hamısı əlinnən çıxar, rüsvay olarsan. Sonrakı peşmançılıx fayda verməz. Əgər bu dediklərimə əməl etsən, heş vaxt peşman olmazsan. Yox, əgər etməsən, onda vay sənin halına. Elə bir ata bu sözdərə bəndiymiş. O dediyini deyif canını tafşırdı. Oğlunun isə heş vejinə də deyildi. El yığılıf qoja Xaqanı hörmətnən-izzətnən dəfn-kəfn etdilər. Fərsiz oğul isə heş atasının yeddisini, qırxını da gözdəmədi. Həmin günün səhəri qırmızı geyinif atasının taxtında əyləşdi. Sağında-solunda da vəzir-vəkilləri, nökər-nayıfları. Mə'mur və ə'yannarı da öz yerində.

Əvvəllər oğul atasınnan çəkinərdi. İndi elə bil qol-qanadı açılmışdı. Gicbəsər oğul başdadı əyyaşdığa. İşi-peşəsi kef məclislərində məst olmax, qadınnardan həzz almağıydı.

Yavaş-yavaş başdadı əvvəlki təm-tərax pozulmağa. Ölkə yoxsulluğa üz qoydu. Şəhərdə əyri-oğru artdı. Haqq tapdalandı. Narazılıx günnən-günə çoxalmağa başdadı. Heş kəsin şikayətinə baxan, dərdinə qalan tapılmadı. Camaat başdadı yavaş-yavaş buradan köşməyə.

Xalq bu qədər ağırrığa dözərdi. Bir təhər yaşayardı. Lakin xalqın dözmədiyi bir şey varıydı. O da qoja Xaqanın yurdunda qalan bu gicbəsərin, qurumsağın, arvadbazdığıydı. Harada bir gözəl qız, gəlin görsəydi, zor, xoş saraya gətirərdi. Kefini sürənnən sonra buraxardı. Elə olmuşdu ku, arvadı, qızı, gəlini gözəl olannar bu vilayətdən baş götürüf qaçmışdılar.

Bunu görən səfeh Xaqan başdadı qonşu vilayətdərə üz tutmağa. Pul, mal, var-dövlət, bə'zən isə qılınc zoruna öz kefini davam etdirirdi.

Belə-belə onun yolu, səmti getdikcə daha uzaxlara gedif çıxırdı. Ölkə isə getdikcə dağılırdı. Bunun yaramazdığı haqqında hər yerdə söz-söhbət



gəzirdi.

Bir gün səfeh xaqana xəvər gətirdilər ki, bəs deməzsənmi, filan mahalda elə bir gözəl var, daha nə deyim. İki göz gərəkdi ki, tamaşa eləsin.

Bunu o qədər tə'riflədilər ki, səfeh xaqan görmədən, bilmədən bir könüldən min könülə qıza vuruldu. Az qaldı özünnən getsin. Əmr etdi. Qoşun hazır oldu. Xəzinədən qızıl-pul götürdülər. Siyirmə qılınc pəhlivannar əmrə müntəzir dayandılar. Başdadılar yola rəvan olmağa. Gecəli-gündüzdü at sürüf neçə çay, neçə dərə, neçə dağ keşdilər. Əlqərəz, bir həftədən sonra gəlif həmin mahala çatdılar. Onnar gələndə ilin elə çağıydı kı, hər yanda gül-çiçəyin əlinnən tərpənmək olmurdu. Bir yanda da quşdarın şən səsi, buz bulaxların şırıltısı. Bu yerrərin gözəlliyi, əsrarəngliyi az qaldı kı, onnarın ağlını başınnan alsın. Onnar çadırrarını açıf burada dincəldilər. Atdarı çəmənniyə buraxdılar. Bu ara bir dəstə atdı bunnarın başının üstünü aldı. Onnar soruşdular kı, siz kimsiniz? Nə haxnan, icazəsiz, filansız atdarınızı qoruğa buraxıfsınız.

Qoşun böyüyü irəli yeriyif dedi:

– Biz filankəsik, filan xalqın döyüşçüləriyik. Xaqanımız da çadırdadı. Gedin özünnən danışın.

Onlar birrikdə xaqan istirahət edən çadıra gəldilər. Ədəb-ərkannan salam-əleyk etdilər və bu yerrərin gözətçiləri olduxlarını bildirif, onnarın nə məqsədnən gəldiyini soruşdular.

Səfeh Xaqan dedi:

– Biz sizin Xaqanın qızınnan ötrü gəlmişik. Deyillər onun çox gözəl bir qızı var. Onu pul güjünə də, zor güjünə də olsa özümə arvad etməliyəm.

Atlılar əvvəlcə inanmadılar kı, bu xaqan ola bilər. Axı belə elçilik, belə arvad almax olmur. Adamda bir avır-haya da yaxşı şeydi. Bu bədbaxt oğlu elə ağzına nə gəlirsə, danışır. Heş ağına-bozuna baxmır.

Dedilər:

– Gəlifsiniz bu torpağa, xoş gəlifsinz. Bizim Xaqan ağıllı, tədbirli, qanacaxlı adamdı. Zəhmət çəkin gedin yanına sözünüzü deyin.

Bu söz gələnnərin beyninə batdı. Səfeh Xaqan başda olmaxnan bir neçə adam da onnara qoşuluf saraya gəldilər. Ağıllı Xaqana xəvər göndərdilər. O qonaxları hörmət-izzətnən qarşıladı. Onnara yer göstərdi. Bunnarın gəlişinin məqsədini soruşdu.

Səfeh Xaqan dedi:

– Bil və agah ol ku, mən filan vilayətin xaqanıyam. Eşitmişəm sənin bir gözəl qızın var. Onnan evlənmək istiyirəm. Nə üznən olsa qızı almalıyam. Yoxsa, davam-davadı. Qanı su yerinə axıtmalı olsax da, qızını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

almalıyam.

Ağıllı Xaqan gördü kü, bu elə lap ipli-saplı dəlidi. Ağıl paylananda buna heş bir pay çatmıyıf. Öz-özünə çox fikirrəşdi, götür-qoy etdi ki, buna nə cavaf versin.

Qızı vermək olmazdı. Çünki qız öz əmisi oğlu Bəkirə nişannıydı. Həm də qızın anası təzəcə ölmüşdü. Onun ili çıxmamış toy eləmək olmazdı. Neçə günüydü kü, mahal matəm içindəydi.

Ağıllı Xaqan dedi:

– Xaqan, mənim o gözəl-göyçək Aydan qızımın anası neçə gün bunnan əvvəl ölüf. Qız həm də öz əmisi oğluna nişannıdı. Yaxşı olar bu sevdadan əl çəkəsən. Torpağıma insan qanı tökülməsinə razı deyiləm. Nə çoxdu qız. Gəz, soraxlaş, bir başqasınnan evlən.

Ağıllı Xaqan nə qədər dil tökdüsə, bu zırramıya heş bir əsər eləmədi. Əsəbiləşdi, istədi əlini qılınca atıf bunu buradaca lim-şaqqa eləsin. Bu vaxt qızı özünü içəri atıf atasının əlini tutdu.

O dedi:

– Atayi-mehriban, əl saxla!

Xaqan əl saxladı. Qız oxumuş qızıydı. Adam tanımaxda çox mahiriydi. Bilirdi ki, bu səfeh Xaqanın ucbatınnan çox günahsız adamlar məhv ola bilər.

Öz-özdüyündə qəti qərara gəldi ki, işi yoluna qoysun. Nə o, səfeh Xaqana arvad olsun, nə də nahax qannar tökülsün.

Səfeh Xaqan da gördü kü, paho, bu elə bir gözəldi ki, dünyada misli-baravarı yoxdu. Bu gözəlliyə tav gətirmiyən xaqanın ürəyi getdi. Onun üz-gözünə su səpdilər, ayıltdılar, səfeh Xaqanın ağlı üstünə gələn kimi düşdü Xaqanın ayaxlarına. Bayaxdan dil-dil ötən, hədə-qorxu gələn bu səfeh hökmdar indi başdadı torpaxda sürünməyə, yalvarmağa.

Aydan xanım dedi:

– Atayi-mehriban, bu növcavana yazığın gəlsin. Razılıx ver. Ancax bir şərtnən.

Səfeh Xaqan tez dedi:

– O nə şərtdi, mələyim,tez de.

Aydan xanım dedi:

– Sana bir şərtnən ərə getməyə razı olaram kı, anamın ili tamam olmuyunca mana əlin dəyməsin. Toyumuzu bir ildən sonra edərik.

Səfeh Xaqan qızın bu sözdərinə inanıf dedi:

– Hansı şərt olursa olsun, de, ona əməl etməsəm namərdəm.

Aydan xanım bu arvad dəllalı haqqında çox eşitmişdi. Onu da bilirdi ki, o çox tezdiknən məğlub olmalıdı. Bilirdi ki, belə bir adam hakimiyyətdə çox qala bilməz. Ona görə o vaxt aldı. Bu müddətdə səfeh



Xaqanın sirrərini öyrənmək, lazım gələrsə onnan müharibə də etmək olardı. O, xəlvətcə bu fikrini atasına çatdırdı. Atası razılıx verdi.

Axırda Aydan xanım dedi:

– Sənnnən gedirəm, əgər şərtimi pozsan, özümnən dərman götürmüşəm. dərmanı içməyimnən ölməyim bir olajax. Onda sən də arzuna çatmıyajaxsan.

Səfeh Xaqan dedi:

– Xanım, bir il nədi, sana çatmaq üçün ömrüm boyu gözdüyərəm. Mən sənin kimi gözəli heç harda görməmişəm. Sən elə bil aydan qopuf düşmüsən. Təki, mənnən gedək, gözəl gözünə baxım. Səni bunnan sonra bir gün görməsəm çatdıyıf ölərəm.

Xülasə, çox söz-söhbətdən, götür-qoydan sonra gəcavə hazırrandı. Hamı bu işin necə tez, asan düzəldiyinə məhəttəl qaldı. Çoxları Aydanın ağıllı qız olduğunu, onun burada Xaqanın xeyrinə nəsə etdiyini bilirdi. Bə’ziləri də elə başa düşürdü kü, atası bu yaslı, matəmli gündə qorxudanmı, mala-pula görəmi öz nişann-ı qızını satdı.

Səfeh Xaqan əmr elədi gətirdikləri qızıl-gümüşün hamısını Aydanın atasının xəzinəsinə boşaltdılar. Gəcavə yola düzələndə Aydan özünnən ata evinnən bir cüt ağ göyərçin götürdü. Xəlvətcə nişannısı Bəkirə nəsə dedi. Onnan vidalaşıf ayrıldı. Gəcavə yola düşdü. Gəlhagəl, bir xeyli vaxtdan sonra onlar gəlif öz vilayətdərinə çatdılar.

Xalq gedəndə axmax Xaqanın dalınca daş atmışdılar kı, bəlkə oxu daşa dəyə, sağ-salamat geri qayıtmıya. Ancax gördülər kü, o bü dəfə daha uğurru ovnan qayıdıf. Gətirdiyi gözəlin misli-baravarı yoxdu. Sevindilər ki, bəlkə axmax Xaqan bunnan sonra arvadbazdıxdan əl çəkə, başı ölkənin abadlaşmasına qarışa.

Axmax Xaqan nə qədər söz verdisə də ürəyi durmadı. Aydan xanımın yanına gəldi ki, gərək arvadım olasan.

Aydan xanım da tez əlini qoynuna aparıf guya gizdətdiyi dərmanı işmək istədiyini bildirəndə axmax Xaqan fikrinnən vaz keşdi. Aydan xanım elə bir otaxda yaşıyırdı ki, oraya heş bir ins-cinsin ayağı dəyə bilməzdi. Gejələr qapıyı arxadan bağlıyır, savah açılanda istədiyi vaxt qapıyı açar, bağı-gülüstana seyrə çıxardı. Qul-qaravaşdar da ki, dörd bir yanında pərvanə kimi dolanırdılar. Bir cüt ağ göyərçin də həmişə Aydanın yanında olardı.

Aydan evləri, atası, nişannısı, eli-obası üçün darıxırdı. Vətənin, ana yurdun, qoxusunu bu bir cüt göyərçindən alırdı.

Aydan bu göyrçinnəri o məqsədnən gətirmişdi ki, axmax Xaqanın sirrərini öyrənif, vətəninə çatdırsın və onu məhv etdirsin. Xaqanın da



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

canı əzafdan qurtarsın.

Gəldiyi az müddətdə Aydan səfeh Xaqandan çox sirrər öyrənmişdi. Artıx bilirdi ki, o çox zəifliyif. Xalq onu istəmir. Şəhər köçhaköçdən boşalır. Xəzinədə bir şey qalmıyıf. Demək olar kı, axmax Xaqanın axırı yaxınnaşıf. Gejə-gündüz kefdən gözü açılmır, başa ayılmır. Əhli-kef neçə-neçə kefli-kefli gəlif Aydan xanımın qapısını döyüf. Aydan da ona dediyini deyif.

Aydan çox götür-qoy elədi, çox fikirrəşdi ki, neyləsin. Bildiklərini vətənə, nişannısı Bəkirə nejə çatdırsın. Buna münasif şərait yoxuydu. Çünki o, məktubu göyərçinnərin ayağına bağlıyıf öz vətənnərinə doğru uçurtsa və göyərçinnər oradan cavanan qayıtsa, bunu çoxları görər, sirrinin üstü açılardı hər şey məhv olardı. Ona görə də çox düşünüfdaşındı. Axır kı, çarə tapıldı.

Bir gün o evdə özünü elə göstərdi ki, guya çox darıxır, dərddən boğuluf məhv olur. Bunu görən səfeh Xaqan dedi:

– Gözəlim, mələyim, de görüm sana nə bəla üz verif. Könlünnən nə keçir yerinə yetirim.

Aydan özünəməxsus hiyləgərriknən dedi:

– Dərd çəkmiyim, neyniyim. Gəldiyim nə müddətdi bu dörd divarın içində saralıf soluram.

Axmax Xaqan dedi:

– Əzizim, mən nə etməliyəm?

Aydan:

– Dediyimi yerinə yetirərsənmi?

Axmax Xaqan:

– Nə desən həmin dəqiqə!...

Aydan xanım:

– Onda mana dənizin içində bir qəsr tikdir. Qəsrin qülləsi göylərə ucalsın. Qəsrin başınnan, dənizi, uzaxları seyr etməyə imkan olsun. Bəlkə dərdimi unudam. Qəsr həm -də çox gözəl və əzəmətdi olmalıdı.

Axmax Xaqan tez oradan çıxıf Aydan xanımın dediklərini saray ə’yannarına bildirdi. Əmr etdi xəzinənin son pullarına qala tikilsin.

Aydanın arzusunnan qalanın tikintisinə başdandı. Me’marlar, bənnalar öz məharətdərini göstərməyə başdadılar.

Aydanın adına başdanmış qala bir neçə ayın içində dənizin sahilinə yaxın suların içində tikilif başa çatdı. Dənizin ləpələri bu qızın aına tikilən qalanın ayaxlarını öpür, yalıyır, sürtünürdülər.

Hamı məsələdən halıydı kı, Aydan xanım gəldiyi kimi də, pakdı, bakirədi, qızıydı. Bu qala da elə həmin qızın şərəfinə tikilirdi.

Vaxt gəldi, Aydan xanım onun şərəfinə tikilmiş qəsrə köşdü. Buraya



iki yol varıydı. Biri yeraltı yoluydu, bunu ancax bir neçə adam və bir də axmaq Xaqan bilirdi. İkinci yol qayıxnan qəsrə üzmək yoluydu. Burada da gözətçilər dayanmışdılar.

Aydan xanım qalanı ziyarət etdi. Qala-qəsr onun çox xoşuna gəldi. Qalanın başına çıxdı. Oradan göylərin sonsuzduğuna, genişliyinə,dənizin təlatümünə, bir də vətənə doğru baxdı. Özündə bir yüngüllük hiss etdi.

Axmaq Xaqan dedi:

– Gözəlim, mələyim xoşuna gəlirmi?

Aydan dedi:

– Bəli, Xaqan xoşuma gəlir.

Axmax Xaqan:

– Mələyim, mən sənin bütün arzularını yerinə yetirirəm. Bəs sən mənim arzumu nə vaxt yerinə yetirəjəksən.

Aydan xanım:

– Darıxma, xaqan dözüfsən, bir az da döz. Qoy anamın ili düzəlsin. Sonra toyumuzu başdıyax. Olaram mən sənin arvadın. Arzuna qovuşarsan. Nə qalıf kı, iki aydan bir az artıx vaxt qalıf.

Ələjı kəsilən xaqan yenə də kor-peşman saraya qayıtdı. Dözməkdən başqa çarəsi yoxuydu.

Aydan xanıma da elə bu lazımıydı. O kağız-qələm götürüf bir məktuf atasına, bir məktuf da nişannısı Bəkirə yazıf hərəsini bir göyərçinin ayağına bağladı. Göyərçinnərin ikisini də qalanın başınnan vətənə doğru uçurtdu. Quşdar gözdən itənəcən onların arasınca baxdı.

Göyərçinnər uçuf vətənə gəldilər. Savah açılanda gördülər ki, Aydanın göyərçinnəri elçi daşının üstündə oturuflar. hər birinin də ayağında bir məktuf. Biri Xaqana, biri Bəkirə. Gördülər ki, məktubu Aydan xanım yazıf. Açıf oxuyanda məsələdən hali oldular. Aydan nejə getməyi, hansı yollardan keşməyi, axmax Xaqanı nejə məhv etməyi yazmışdı. O, həm də yazmışdı kı, axmax xaqanın elə bir tərəfdarı yoxdu. Hamı onun qurumsaxlığınnan, axmaxlığınnan cana doyuf. Mən də atamın Aydan qızı kimi mana tikilmiş qəsr-qalada yaşıyıram. Sizin yolunuzu gözdüyürəm.

Ağıllı Xaqan qızının ağlına səd-afərin dedi.

Əmr etdi mahalda mənəm-mənəm deyən cavannar toflaşdılar. Qoşun düzəltdilər. Xaqanın qardaşı oğlu, Aydan xanımın nişannısı əmisi oğlu Bəkir də qoşunun böyüyü seçildi. Məqsəd qızı qaladan xilas etmək idi.

Yol üçün bütün tədarük görüldü. Qoşun yola çıxdı. Əgər deyilən sonuncu gün çatmasalar axmax xaqan qızı zornan ələ keçirmək istəsəydi, Aydan özünü onun adına tikilmiş qalanın başınnan dənizə ata bilərdi.

Aydanın atası və nişannısı hər biri bir məktuf yazıf yenidən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

göyərçinnərin ayağına bənd eliyif onnarı gəldikləri istiqamətə buraxdılar.

Göyərçinnər havada pərvazdanıf gözdən itdilər. Qoşun hərəkətə gəldi.

Göyərçinnər qoşundan çox-çox qavax uça-uça gəlif qalaya çatdılar. Bu vaxt səhərin sübh vaxtı Aydan xanım vətənə sarı baxıf göyərçinnərin yolunu gözdüyürdü. Bir də gördü kü, göyərçinnər budu gəldilər. Sevincinnən onun gözdəri yaşardı. Göyərçinnəri bağrına basdı. Ayaxlarındakı məktufları açıf oxuyuf məsələdən halı oldu. Ürəyi bir az rahatdıx tapdı. İndi də hər gün gözdüyürdü kü, Bəkirin qoşunu ha indi, ha bir azdan şəhərə girər. Bunu burada bir ulu Tanrı bilirdi, bir də Aydan xanım.

Vaxtın tamamına bir-neçə gün qalmışdı. Hələ qoşun gəlif çıxmamışdı. Aydanın qəlvindən qara qannar axmağa başdadı. Ürəyinə çox fikirrər gəldi. Ancax əlini haxdan üzmədi.

Nəhayət, Aydanla Xaqanın dediyi vaxt tamam oldu. Axmax Xaqan gizdi yolla qalaya gəlif dedi:

– Əzizim, iki gözüm, savaha bir-birimizə qovuşajıyıx. Savah toya başdıyıram. Sana bir toy çaldırım kı, heş ruzigarın gözü belə toy görməsin. Axır kı, muradımıza çatajağıyıx.

Aydan isə içini didif yeyirdi. O istədi axmax xaqannan daha üç gün möhlət istəsin. Bu üç günə də Bəkirin qoşunu gəlməsə -özünü dənizin dalğaları qoynuna atsın. Sonra hələlik bu fikirdən vaz keçdi. Öz-özünə qərara gəldi ki, axmax Xaqan ona üç gün nədi, heç üç saat da möhlət verməz. Yaxşısı budu yat, savahı aç. Qalanın nərdivanını götü, giriş yolunu da bağla. Üç gün burada aj durmax olar. Üç günə kimi də ya Bəkir gəlif çıxar, ya da...

O gejəni ilan vuran yatdı, ancax Aydan yata bilmədi. Savahı diri göznən aşdı. Bildi ki, o başdan gəlif onu saraya aparajaxlar. Cəld nərdivanı yuxarı çəkdi. Giriş yolunun qapısını örtüf dalına çoxlu daş yığdı. Çox gözdədi. Ha indi gələllər, ha sonra gələllər, gördü yox gün xeyli qalxıf, ancax axmax Xaqannan səs-sorax gəlmir. Dərhal barmağını dişdədi. Bildi ki, bu axmağın başında nəsə var. Qalanın lap başına çıxdı. Saraya baxdı, gördü kü, sarayın ətrafı adamlarnan doludu. Elə zənn etdi ki, yaqın qonaxlardı, toya gəliflər. Sonra baxdı gördü kü, yox bunnar qonağa yox, döyüşçülərə oxşuyullar. Sən demə, Bəkirin qoşunuymuş. Bəkir sübh tezdən öz qoşunuynan şəhərin qala qapısına yaxınnaşır. Məqsəddərini keşikçilərə deyillər. Məsələni annıyan və axmax Xaqanın əlinnən zara gələn və onsuz da onun məğlub olduğunu bilən keşikçilər davasız-şavasız giriş qapılarını Bəkirin qoşununun üzünə aşdılar.



Qoşun beləcə içəri daxil olur. Sarayda da heş kəsin, heş nədən xəvəri olmur... Sən demə bu vaxt axmax Xaqan hamama gedifmiş ki, yuyunsun, təmizdənsin. Aydan xanımın yanına gedif, onu özüynən baravar saraya gətirif toy eləsin.

Bu vaxt hamamın qanılarını təpiknən vuruf taybatay aşdılar. Bəkir ujadan qışqırır:

– Bəyi çıxardın meydana!

Hamı mat-məəttəl qalır. Çaş-baş olan saray adamları elə bil ki, yuxu görüllər. Heş kəs gördüklərinə inanmır. Səs-küyə axmax Xaqan özü çıxır. O əyninə bir mələfə dolayıf dəli kimi hamamnan kənara çıxıf qışqırır:

– Siz kimsiniz, burada nə edirsiniz? Sizi bura kim buraxıf? Bu saat hamınızı qırdıraram. Cəllad!!!

Bəkir onun cavavında deyir:

– Məl'un, sənin axırın çatıf. Mən Aydan xanımın doğmaja əmisi oğlu, həm də nişannısıyam. Qurumsax, pəzəvəng, qeyrətsiz, bəs bilmirdin ki, bu namərddiyin cavavı bir gün veriləjək. Sənin canını almağa gəlmişəm. Bizə bura gəlməyə sənin öz adamların bələdçilik etdilər. Xalqın canını boğaza yığıfsan. Dəyif-dolaşmadığın, sataşmadığın adam qalmıyıf. Hamı sənin əlinnən başını götürüf bu vilayətdən çıxıf başqa yerrərə köçüflər. Xalqın əməyinnən dolmuş xəzinəni eyş-işrətə, qurumsaxlığa xərjdiyifsən.

Bunu deyif Bəkir qılınjını qınından sıyırdı. Bu yaramazı iki-şaqqa elədi. Onun əlinnən zara gəlmiş xalqın canı qurtardı. Hamı onu lə'nətdədi. Bəkiri alqışladı.

Bəkir Aydana xəvər göndərdi ki, gözün aydın olsun, əclafın axırına çıxmışam. Sonra da özü bu qəsrə gəldi. Aydan Bəkiri görəndə sevindiyinnən göz yaşdarını saxlaya bilmiyif hönkür-hönkür ağladı. İki aşiq-mə'şuq bir-birinə sarmaşıx kimi sarışdılar. Sonra onnar saraya gəldilər. Hamı toflaşmışdı. Bəkir başdarına gələnnəri, Aydan xanımın müdrikliyini hamıya danışdı. Hamı qızın ağlına heyran qaldı.

Bəkir camaatnan xudahafizdəşif geriyə dönmək istədi. Bu vilayətin adamları ona icazə vermədilər.

Dedilər, bu ola bilməz. Sən bizim xilaskarımızsan. Sən bizim xaqanımızsan. Qoy qoşunun qayıtsın. Sənnən Aydan xanım burada qalmalısınız. Sizin toyunuzu özümüz edəjiyik.

Bəkirnən Aydan çox dedi, camaat eşitmədi ki, eşitmədi. Axırda çar-naçar qalıf razı oldular. Toy başdandı. Bu xəvər qonşu ellərə, elatdara da yayıldı. Buradan baş götürüf qaçannar öz yerrərinə, yurddarına qayıtdılar. Elə bil bu toy Bəkirnən Aydanın yox, böyük bir xalqın toyudu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Toydan sonra qoşun geri qayıtdı. Bu xəvəri öz ellərinə çatdırdı.

Bəkir dağılmış, viran olmuş vilayəti şennəndirməyə başdadı.

Tez bir zamanda xəzinə doldu, gözəl binalar tikildi, xalqın güzəranı yaxşılaşdı.

Haxsızdıxdan əsər-əlamət qalmadı. Həmin qalıya paklığın rəmzi olarax "Qız qalası" dedilər.

Kim bilir, bəlkə də Bakı şəhərinin adı ədalətdi cəngavər Bakirin adınnan bir nişanədi.

Əlbətdə, bu xalqın yaratdığı əfsanələrdən biridi. Amma hər bir əfsanənin, rəvayətin arxasında bə'zən bilmədiyimiz böyük həqiqətlər yaşamırmı?

## QOŞABULAQ

"Göyçə gölü"nün gündoğan tərəfində bağlı-bağatdı, "Qoşabulaq" adında yaraşıxlı bir kənd var. Bu adın yaranması kəndin təbiətinnən bağlıdı. Çünki kəndin cənuf tərəfində qayalıxların altında çoxsaylı qoşa-qoşa bulaxlar çıxıf iki iri çay əmələ gətirir. Bu çaylar həmin kəndi gülüstana çevirir. Sonra isə axıf Göyçə gölünə qovuşur.

Göyçədə uzun sürən qış, sümüyə işdiyən soyux hamıya mə'lumdur... Hətta burada qış aylarında dəmir də soyuxdan donur. Ağaşdar, çaylar, arxlar donur, evlərin damlarınnan süzülən damcılar sırsıra bağlıyır. Kişilərin isti nəfəsinnən tərrəmiş bığları da buza dönür. Ancax nə Qoşabulax kəndindəki qoşa-qoşa bulaxlar, nə həmin bulaxlardan əmələ gəlmiş çaylar, arxlar donmax nə olduğunu bilmir. Qızın ən şaxtalı günnərində belə həmin bulaxların, suların üstünnən isti buğ qalxır. Amma bu adnan bağlı el arasında bir əfsanə də dolaşmaxdadı.

Deyilənnərə görə bu kənddə bir əzazil bəy yaşıyırmış. Əzazil də dedin, əldən qoydun. İnsafdan-mürvətdən xəvəri yoxuymuş, zülm etməkdə, qəddarrıxda ad çıxarıfmış. Nə aj qarın doyurar, nə yetim sevindirər, nə də birinə əl tutarmış. Varı-halıda kı dünyaynan biriymiş. El qazana, bu bəy də yeyif-içif, kef sürərmiş.

Bu bəyin gözəl-göyçək bir qızı da varıymış. O elə bil bu gözəlliyi ayın-günün camalınnan, suların durğunluğunnan, güllərin-çiçəklərin yaraşığınnan almışdı.

Qız həddi-buluğa çatmışdı. Ona hər yerdən elçilər gəlirdi. Ancax atası çox tamahkar olduğunnan elçilərə elə başdıx deyirmiş ki, onnarın buna imkanı olmadığınnan kor-peşman geri qayıdallarmış.

Elçilərin əliboş qayıtmasına qız çox sevinərmiş. Çünki o öz



kənddərinnən bir oğlannan hələ uşax yaşdarınnan sevişərmiş. Bu məhəbbətdən kənd adamlarının də xəvəri varıymış. Ancax nə fayda. Bəy hara, bir kasıf rəiyyət oğlu hara? Nə qədər minnətçi, filan düşmüşdü, bəy daş atıf başını tutmuşdu. Bir cavavı olmuşdu:

– Getsin anqırsın, tayını tafsın.

Oğlannan qız fürsət düşəndə bir yerdə görüşər, dərddəşərdilər. Ancax nə qədər düşünüf-daşınsalar da bir yol tapa bilmirdilər. Onnarın yeganə həmdəmləri göz yaşdarıydı.

Bir dəfə qız oğlana dedi:

– Gəl bir-birimizə qoşuluf buradan qaçax. Bir müddətə gəzif dolaşax. Sonra yaqın atam da yola gələr.

Qızın bu təklifinə oğlan razılaşmadı, o bilirdi ki, bəy öz qızını heş zaman bağışdamıyajax.

Bir ara bəyin qulağı çaldı kı, oğlan qızı qaçırtmax istiyir. Bəy bunu eşidənnən sonra qızı bayıra çıxmağa qoymadı. Qız içəridə, oğlan eşikdə dərd, xiffət içində qaldılar. Oğlan bu dəfə də dözmüyüf canını Allaha tapşırdı. O ölməmişdən əvvəl vəsiyyət etdi ki, qəvrini kəndin cənuf tərəfindəki qatar qayaların gündoğan tərəfində qazsınnar. Çünki qız evlərinnən heç olmasa, onun qəvrini görə bilərdi. Elə də etdilər. Bu xəvəri eşidən qız da gözyaşdarını axıda-axıda yorğan-döşəyə düşdü. Həkim-təbib qalmadı. Atası əlini hara atdısa, boşa çıxdı. Bir gün qız son nəfəsində atasınnan xahiş etdi ki, onun qəvrini həmin qatar qayanın gün batan tərəfində qazsınnar. Bunu deyif qız da canını Allaha tapşırdı. Bəy qızının vəsiyyətinə əməl etdi. Onu oğlanın qəvrinə qənşər yerdə dəfn etdi. Oğlanın məzarı qatar qayanın gündoğan, qızın məzarı isə günbatan tərəfində oldu. Onnarın arasında gələcəyin bir mö'cüzəsi dururdu.

Bir gejə göylərin kişnərtisinnən, şaqqıltısınnan ildırımların hay-küyünnən, şimşəklərin yerrərə ələnən od alovunnan hamı vahimə içindəydi. Elə bil yernən-göy bu kəndin üstündə birrəşmişdi. Əlləri göydə, üzdəri haxda olan bu insannar ulu Tanrıdan imdad diliyirdilər. Bilirdilər ki, bu bəla göydən-yerə iki nakam aşiqə edilmiş zülmə görə Allah tərəfinnən göndərilif.

Bilirdilər ki, əzəl-axır bu nalə yerdə qalmıyajax.

Bütün gejəni davam edən fırtınalar sübhə yaxın sakitdəşdi, hamı bu dəhşətdi bəladan xilas olduğu üçün Allaha dua eləyirdi.

Ancax böyük bir mö'cüzə baş vermişdi. Nakam aşixlərin aralarındakı qayaların altında qoşa-qoşa, göz yaşdarı kimi dumduru, lilpardı bulaxlar qaynıyırdı.

Sən demə həmin gejə ildırım bəyi cəhənnəmə vasil eləmişdi. Həmin bulaxlar bu gün də qalır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəvayətə görə, kəndin adı da nakam cavanların qoşa məzarrarı arasında mö'cüzədən qaynıyan həmin bulaxların adınnan yaranıf.

## ANADAN QUŞU

Bir quş var. Adına "Anadan" quşu deyillər. "Anadan" nə deməkdi? Ana nəyi danmalıdı? Bunnan bağlı xalq arasında belə bir rəvayət dolaşır. Deyillər, bir arvadın bir nankor oğlu varıymış. Ömrünü-gününü oğlunun yolunda oda-közə vuran, gejələr aynan, gündüzdər günəşnən əlləşən ana həmişə bu yaramaz züryət ucbatınnan peşman qalardı. Deyərdi, öyüd-nəsihət verərdi, kar etməzdi. Ağlıyardı-sızdıyardı, pis yoldan çəkindirə bilməzdi. Bu nankor övlad o həddə çatmışdı kı, anasını döyür, pis sözdər deyir. Olmazın əzavını verirdi. Yazıx ana yenə də dözürdü. Deyirdi: bəlkə tanrının yazığı gəldi. Düz yola qaytardı. Oğlan isə əksinə, getdikcə yolunnan azırdı. Daha tutmadığı pis iş, bir pis əməl qalmadı. Qonum-qonşu da, tanış-biliş də onun əlinnən zara gəldi.

Bir gün oğul evə gəldi nə gəldi. Şir gəldi, pələng gəldi. Saldı yazıx arvadı təpiyin, şillənin, yumruğun altına. Elədi qara tulux. Dişinin divinnən nə çıxdısa, hamısını anasına dedi. Ana bu qədər ağır döyüldüyünə dözdü. Ancax oğlunun onun ağzına, üzünə söyməsini bağışdıya bilmədi. Yenə dözümü var gəlif oğluna "Allah xeyrini kəssin" də demədi. Ancax hər şey ulu yaradana aydınıydı. O, ananın qəlbinnən keçənnəri bilirdi. Tanrıdan anaya xəvər gəldi ki, sana hörmətsizdik, mana hörmətsizdikdi. De görüm, bu nankor oğula hansı cəzanı verim ki, sənin ürəyincə olsun.

Ana üzünü haqqa çevirif dua etdi, şükür oxudu və dedi:

– Ulu tanrı sənin bildiklərinnən yaxşısı yoxdu. Ancax mən anayam. Rəhm et mana. Onu öldürmə. Onun günahlarını mənim bu ağ saçdarıma bağışda. Ulu Tanrı da ananın yalvarışdarını eşitdi. Nankorun canını almadı. Onu quşa döndərdi. Nankor oğul başdadı anasına yalvarıf həmişə bunnarı deməyə:

– Ana, dan. Ana, dan! Ana dan!

O, elə bilirdi ki, anası dansa Allah tala onu bağışdıyajax. Guya anası deməsə, Allah onun anasına verdiyi əzafları bilməz.

O vaxtdan həmin oğlan quşa dönüf evlərinin üstünə qonuf tez-tez "Ana dan! Ana dan! Ana dan!, – deyir. Elə o vaxtdan da həmin quşun adı olur: "Anadan".



## AZƏRBAYCAN

Rəvayətə görə, çox-çox qədimlərdə, ululardan ulu oğuz ellərində bir xaqan yaşıyırmış. Bu xaqanın adı, sorağı dünyanın hər yerinə yayılıfmış. Qılıncının çatdığı hər yer ona baş əyər, hökmünnən tir-tir əsərmiş. Bu qoja xaqanın tək bircə dərdi varıymış. Övladsızdıx dərdi gejə-gündüz onu yandırıf yaxarmış. Günəş kimi işıxlı, ulduz kimi parrax, ay kimi nurru, çiçək kimi tər-təmiz, gül kimi xoş ətirri, xətrini bütün arvaddarınnan çox sevdiyi xatunun uşağı olmurdu.

Xaqan da, Xatun da ümiddərini haxdan üzməmişdilər. Bir gün Xaqanın Xatunu gördü kü, göydən bir işıx aralandı, düz ona sarı gəldi və onun qoynuna girdi. Bunu görən Xatun əvvəlcə çox əndişələndi. Sonra bədənində nəsə hiss etdi. Onda annadı kı, tanrı ona övlad qismət eliyif. Gördüklərini qoja Xaqana danışdı. Hökmdar çox sevindi. Onnar diz çöküf ulu Tanrıya dönə-dönə şükürrər etdilər, kimsəsizdərə, qojalara, yazıxlara, çoxlu sədəqə verildi, mal-mülk paylandı. El qoja Xaqana, onun sevimli arvadına sidq ürəkdən dualar oxuyuf, alxışdar elədi.

Vaxt gəlif düzəldi. Qoja Xaqanın bu gözəl Xatununnan bir oğlu oldu. Qurvannar kəsildi, böyük şənniklər keçirildi. Hər yanda çal-çağır, demək-gülmək, yemək-işmək başdadı. Uşağa ad qoymax məqamı gəlif çatdı. Qoja Xaqan ayağa qalxıf dedi:

– Uşağın özünü də, adını da verən ulu pərvərdigara şükür. Bu gün yazın, təzə ilin ilk günüdü. Uşağın adını Novruz qoyuram.

Hamı bir ağızdan:

– Adınnan böyüsün! İlimizin yeni günü, Novruzumuzun gəlişi hamıya, içində də bizə xoşbəxtlik gətisin!

Bu vaxt oğuzdarın hörmətdi ağsaqqallarınnan biri ayağa qalxıf üzünü qoja Xaqana tutuf dedi:

– Ey böyük hökmdar, bu gün tayfamızda qonşu çadırda Novruznan ilə eyni vaxtda bir qız uşağı da dünyaya gəlif.

Xaqannan birlikdə hamı bu şad xəvərə də mübarəkdarrıx etdilər. Ağsaqqallar razılığını bildirif sözünə davam etdi:

– Ey bizim tacidarımız, görək o qıza da bir ad verəsən.

Qoja Xaqan dedi:

– Onun da adı Bahar olsun, baharın ilk günündə doğuluf. Qoy məni sevindirən Allah, onnarın ikisinin taleyini bir-birinə yazsın.

Hamı "Amin!" – dedi.

Novruz böyüdü, əvvəlcə elmlərə yiyələndi, sonra cəngavərriyin, igiddiyin sirrərini örgənməyə başdadı. At sürməkdə, qılınc vurmaxda, qalxan tutmaxda, kəmənd atmaxda tayı-baravarı olmadı. Döyüşdərə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

getdi, yalnız qələbələrnən qayıtdı. Atası alnınnan öpüf dedi:

– İndi sana bu məmləkəti e'tivar eləmək olar. Cəsursan, qoçaxsan, düşmənnən qisas alanan, düşmənə basılmazsan, ərsən, ərənsən.

Qoca Xaqan hər yerə car çəkdirdi. Toya başdadı. Novruznan Baharın toyu düz qırx gün çəkdi. Qırx birinci gün atası dedi:

– İndi sən özün bir kişi, bir igidsən. Bir elə, bir xalqa arxa, dayax olmalısan! Oğuz elinin, oğuz yurdunun çırağını daha uzaxlarda yandırmalısan. Get İtil çayı tökülən dənizin o tayına. O yanda hər yer, Qaf dağı da sənindi. Ədalətdi hökmdar ol. Məzlumun köməyinə çat, düşmənə aman vermə. Bavannan, atannan mana, mənnən sana qalan torpağı canın kimi qoru. Onun bir qarışını da heş kəsə vermə. Yer üzündə biz olanda, heş kəs yoxuydu. Nejə ki, mən, sən də hökmün işdiyən torpaxları öz övladdarına tafşır, amanat ver.

Atdar yola düzəldi. Uzaq Çin sərhəddərinnən İtil çayına doğru gejəni-gündüzə, gündüzü-gejiyə qatdılar, aylarnan yol gəldilər, çayı da, dənizi də keşdilər. Nəhayət, atasının dediyi yerə gəlif çatdılar.

Novruz gördü kü, oğuzdarın nə qədər böyük torpağı varıymış. Bu torpaxların uzunnuğu, evi hesava, kitava, ölçüyə gəlməziydi. Bunnar Novruza yeni qüvvə, yeni güj verdi.

Novruznan Bahar burada gözəl günnər keçirdilər. Bir oğlannarı oldu. Adını Azər qoydular. Azər od demək idi. Od bu oğuz tayfasının inam yeri, qivləgahı idi.

Vaxt ötdü, zaman keşdi. Azər böyüyüf boylu-buxunnu, qəddi-qamətdi, ağıllı, şücaətdi, cəngavər bir oğlan oldu. Ata-ana Azəri öz tayfalarınnan olan Günəş addı bir qıznan evləndirdilər.

Aylar, illər ötüşdü. Azərin atası da, anası da dünyalarını dəyişdilər. Azər oğuz ellərinin hökmdarı oldu. Hələ atasının sağlığında ikən hamı Azərə Azər bay (yə'ni bəy) deyərdi. Hökmdar olduxdan sonra da ona "Azər bəy" deyə müraciət etdilər.

Qəlbi o qədər incə, o qədər yumşaxıydı kı, hamı ona həsəd aparırdı. Danışığınnan gül ətri, tərpənişinnən bərəkət yağırdı. Axı o Baharnan Novruzun oğluydu.

Azər bay camaatnan elə gözəl rəftar edirdi ki.. Çalışardı kı, bir qəlbə dəyməsin, bir kəs onnan inciməsin. Var-dövlət başınnan sel kimi yağırdı. Kim ona "Azər bay" desəydi, o dərhal "can!" – deyə cavaf verərdi.

Əvvəllər adamlar bu cavafdan utanardılar. Deyərdilər: axı tarixdə heş bir hökmdar, rəiyyətə can deməyif. Camaat bunu mö'cüzə hesaf edirdi. Sonra xalq yavaş-yavaş bu sözə alışdı. İndi hamı bilirdi ki, kimliyinnən asılı olmayarax kim hökmdarına "Azər bay" desə, onnan "can!" kəlməsini eşidəjəkd. El, camaat torpax oluf onun ayağının altına



döşənmək istiyirdi.

Bir gün məmləkətə xəvər gəldi ki, Çin xaqanı böyük orduynan qədim oğuz ellərinə hüjum eliyif. Köməyə getmək lazımıydı. İgiddər yaraxlandılar, yasaxlandılar, at belinə qalxdılar. Qoşuna Azər bayın oğlu Xəzər başçılıx edirdi.

Köməyə çatmax üçün kəsə, dəniz yolunnan getmək lazımıydı. Girkan (Xəzər) dənizindəki gəmilərin yelkənnəri açıldı. Səmt küləyi tezdinknən qardaşdarının köməyinə tələsən oğuz döyüşçülərini o biri sahilə çatdırdı. Oğuzlar döyüşə atıldılar.

Azər bay az sonra eşitdi ki, oğlu Xəzərin qoşunu düşməni məhv edif, qədim oğuz torpaxları azad olunuf. Düşmənnərdən çox böyük qənimət ələ keçirilif. Xəzər öz döyüşçü yoldaşdarınan geri qayıdır.

Bir gün Girgan (Xəzər) dənizinin sahilində gəmi göründü. Onnar muştuluğa, xoş xəvərə gəlmişdilər. Bildirdilər ki, qoşun əhli, başda da yenilməz sərkərdə Xəzər olmaxnan savah sübh tezdən gəmilərnən sahilə yan alajaxlar.

Azər bay sübh tezdən böyük bir dəstəynən Girgan (Xəzər) dənizinin sahilinə, böyük qələbəynən yurda dönən döyüşçüləri qarşılamağa çıxmışdı. Gözdər lap uzaxlara, dənizin o biri sahilinə dikilmişdi. Vaxt ötürdü, heş nə görünmürdü. Gün axşam oldu, gəmi gəlmədi. Daha iki gün keşdi. Xəzərgildən bir xəvər bilinmədi. Azər bayın kövrək qəlbi bir az da kövrəlmişdi. Ürəyinə nəsə dammışdı. Üçüncü gün axşam üstü sahilə yan alan gəmidən öyrəndilər ki, üş gün bunnan əvvəl bir gəmi dalğaların qoynunda qərq oluf. Özü də döyüşdən qayıdıllarmış.

El yas tutdu. Hamı qara geyindi. Ağılar, sızılar ərşə dayandı. Əl-əldən üzülmüş, dərd sinələrə düzülmüşdü. Gedəni qaytarmax mümkün deyildi.

Azər bayın bir təsəllisi oydu ku, gedif dənizin sahilində dayanır, göz yaşı axıda-axıda ucadan yoxluğa "Xəzər, xəzər" – deyə səs salırdı. Onun bu fəryadı, bu günü dənizi təlatümə gətirirdi. Azərbaycan Girgan dənizinin sahilinə gələndə ilk sözü "Xəzər!" nidalı, gedəndə son "Xəzər!" fəryadlı olardı. Azər bayın "Xəzər" iniltiləri qalmışdı hər səhər şərqdən doğan günəşnən onun arasında qalan dənizin aramsız, lal-dinməz laylalarında. Azər bayın gözlərinnən sel kimi axan duzlu göz yaşdarı dənizin sularına qarışdı. Dünyanın anası Günəş hər səhər Xəzərin döyüşə getdiyi, lakin qayıtmadığı sudakı yollarını işıxlandırırdı.

Bu dərd Azər bayın qəddini iki əydi. Gözdəri Kirkan dənizinin qan eləmiş sularında, ürəyi ahda-amanda dünyasını dəyişdi. Bu xəvərə el yeridi, el ağladı. Hamı qara bağladı. Hamının dilini, ağzını, dodağını bir söz daha çox göynədir, yandırırdı. Elə bil Azər bay hamıya "can!" – deyə-deyə öz ömrünü onnara qurvan vermişdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hamı ona bir dil deyif ağlıyırdı:

– Azər bay, can! Azər bay, can! Azər bay, can!

O qədər ağladılar kı, ağlıya-ağlıya o qədər "Azərbaycan" dedilər ki, bu söz dillərdən düşmədi, hər yerdə əzbər oldu.

Sel kimi axan göz yaşdarı Araza, Kürə qarışıf Girkan dənizinə töküldü. Xalq Xəzərin gedif qayıtmadığı dənizi onun adınnan Xəzər dənizi addandırdı. Ərazisnin böyüklüyü üç milyon kvadrat kilometrdən çox olan bu məmləkətə isə yana-yana:

– Azərbaycan – dedilər.

## SUBATAN

Bir il İran ərazisində bərk quraxlıx düşür. Burada naxırrarnan malı, sürülərnən qoyunu olan erməni mülkədarı mal-qarasını tələf olmaxdan qorumax üçün ailəsinnən birrikdə Göyçənin kənddərinnən birinə pənah gətirir. O zaman da belə bir adət varıydı. Kəndin ağsaqqallarınnan icazə alınmasa, ora quş quşduğunnan səkə bilməzdi. Kəndin cavannarı ermənini qovmax istiyillər. Ancax ağsaqqallar qoymullar kı, qərif adamdı, bizə pənah gətirif, qoyun harada ürəyi istiyir, orada da dəyəsini qursun. Elə də olur. Erməni buranın gözəl təbiətini, təmiz havasını, diş göynədən buz bulaxlarını görüf xoşuna gəlir, ətrafındakı nökər-nayıvına deyir:

– Nə ölüf-qalınası yerdi. Elə bil cənnətdi. Amma hayıf kı, bu yerrərdə türklər yaşıyıllar.

Xayınnıx, paxıllıx, gözügötürməzdik canına, qanına hopmuş erməninin bu yerdə də dalağı sanjmağa başdıyır. Nə etsin ki, türklər bu yerrərdən çıxıf getsin. Nəhayət, bir gün bunun əlacını tapır. Naxırrarını, sürülərini ürəyi istədiyi örüşdə otaran kənd camaatınnan hörmətdən başqa özgə şey görmüyən erməni öz məkirri planını həyata keçirməyə başdıyır. Qoyun sürüsünü, dəvələrini qırxırarax bulağın gözünə tıxayır kı, qoy suyun ağzı başqa səmtə düşsün, əhali susuzduxdan əziyyət çəkərək, dağılıf getsin. Sonra isə gejəynən ailəsini, nökər-naibini götürərək aradan çıxır.

Kənd əhalisi yuxudan ayılıf suyun kəsildiyini görür. Kənddə böyükdən-kiçiyə qədər hamı bir-birinə dəyir. Kəndin cavannarı at belinə qalxarax suyun mənbəyinə tərəf gedillər. Ora çatanda suyun ağzının kəsildiyini görür, belə yaramaz hərəkəti erməninin etdiyini annıyıllar. Hərə bir tərəfdən onu axtarmağa başdıyır. Erməni nə gəzirdi? Şələsini-şüləsini götürüf çoxdan aradan çıxmışdı. Daha nə olajaydı? Suyun batdığı yeri Subatan, özünə yol taparax bir neçə günnən sonra çıxdığı yeri isə Suçıxan addandırdılar. Sonra kəndin əhalisi Suçıxan deyilən ərazidən bir



az yuxarıda özdərinə məskən saldılar. Yaşadıxları yerə yeni bulaxlar çəkif adını da Subatan qoydular. Bunnan sonra kənd bu adnan tanındı.

## DAŞ ÇOVAN

Deyillər ki, Oğuz ellərinin inancına asi olmuş bir çovanın sürüsü və yanındakı itiynən daşa dönüf. Bu doğurdan da belədi. Göyçə mahalının Qızılvəng və Çamırrı kənddəri arasında bir dağın ətəyində çoxlu daş heykəllər var. Belə rəvayət eliyillər ki, günnərin birində yaz təzəcə girmişdi. Dağlarda qar günəşin tə’sirinnən əriməyə başlıyırdı. Çovanın könlünnən sürüsünnən birrikdə, örüşü gəzmək keçirdi. Çovanın oğlu da onnan birrikdəydi. Birdən gözlənilməz yaz yağışı başdadı. Yumşalmış qarı da əridərək öz suyunda qərq etdi. Sel hər tərəfi bürüdü. Dağlardan iri qayaları qoynuna alıf özünnən aparmağa başdadı.

Axşam düşürdü. Yaza yenicə çıxmış qoyun sürüsü soyuxdan tələf ola bilərdi. Selin axdığı yerdən keçif, kəndə getmək lazımıydı. Başqa yerdən yol yoxuydu. Çovan üzünü göylərə tutarax, allahdan selin azalmasını, sürünün sağ-salamat çayın o biri üzünə keçirməsini təvəqqe etdi. Əgər sağ-salamat o biri üzə keçərsə, qarşıdakı dağda yerləşən ojaxda sürüdən bir qurvan kəsəjəyini bildirdi. Çovanın ağzınnan bu söz çıxannan sonra, çox keşmədi ki, sel yavaş-yavaş səngiməyə başdadı. Çovan itkisiz olarax sürüsünü dərənin o biri üzünə keçirdi.

Sürüynən ojağın yanınnan keçəndə, başındakı papağı çıxardıf əlinən saçına sığal çəkdi. Elə həmin vaxt çovanın oğlu, soruşdu ku, "dədə dediyimiz qurvanı kəsmirikmi?". Elə bu vaxt çovanın gözü papağında gəzən bitə sataşdı. İki barmağı arasında biti öldürərək "Al bu da sana qurvan" – dedi. Elə həmin vaxt yer, göy elə bil lərziyə gəldi. Çovan, sürü və it bir göz qırpımında oğlanın gözü qarşısında daşa çevrildi. O böyük yaradan, o Ulu Tanrı öz sözünə dönük çıxannarı beləcə daşa döndərdi. Oğlan bir şahid kimi bu xəvəri ağlıya-ağlıya kəndə çatdırdı. O yerdən kim keçirdisə, ayağını saxlıyıf daşlaşmış çovana baxır, onu ürəklərində qınıyıf, dağda yerrəşən ojağa nəzir qoyurdular.

## QİBLƏ BULAI

Göyçədə Qızılvəng deyilən bir kənd var. Bu kənd tarixə ustadlar ustası Aşıx Alının anadan olduğu yer kimi daxil oluf. Bu kəndin gözəl



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaylaxları, xəstiyə can verən saf bulaxları var. Belə bulaxların biri də Sarıyal yaylağında üzü qıvlıya tərəf axan Qıvla bulağıydı. Bu bulax özündə çox mö'cüzələr gizdədif. Deyilənə görə XIII əsrin sonu, XIY əsrin əvvəllərində dünya Fatehi Teymurləng öz ordusunnan Qafqaza hücum eliyəndə, gəlif Göyçə mahalına çatır. Erməni sərkərdəsi Yanıx Tatos qoşunuynan onun qarşısına çıxır. Teymurləngin qoşunu heş bir silah işdətmədən onnarı atdarının ayaxları altında ayaxlıyıf keçir. Bu hadisədən sonra həmin yer Basarkeçər addanır. Qoşun Basarkeçərdən bir az aralıda yerrəşən Qırxbulax kəndinin ərazisində düşərgə salır. Burada qoşunun içərisinə qarın yatalağı xəstəliyi düşür. Bu xəstəlikdən qoşunun xeyli hissəsi tələf olur. Teymurləng möhkəm bədbinniyə qapılır. Çünkü Naxçıvanda Əlincə qalasını mühasirəyə alan oğlu Miranşaha kömək lazımıydı. Ona görə orduya tezdiknən Naxçıvana tərəf hərəkət etməyi əmr edir. Gəlif Qıvla deyilən bulağın başına çatıllar. Qoşunun qırılıf əldən çıxdığını görən Teymurləng bu bulağın başında düşərgə salır. Bulağın suyunnan istifadə etdikcə əsgərrərin gözdərinə işıx, dizdərinə taqət gəlməyə başdıyır. Qıvla bulağı öz mö'cüzəsiynən böyük bir orduyu məhv olmax təhlükəsinnən xilas eliyir. Teymurləngin dünya fatehi olması üçün mühüm rol oynuyur. Fatehin sevincinin həddi-hüdudu olmur. Bulağın başında qurvannar kəsdirir. Kəndi isə vergi və töycü verməkdən azad edir.

Bu bulax təkcə qarın yatalağı xəstəliyini müalicə etməsinnən deyil, həm də başqa keyfiyyətdərinnən də şöhrət qazanmışdı.

Neçə ustad aşıxları deyişmə zamanı bağlıyarax, sazını əlinnən alan, gözəl səsi, avazı olan aşıx Alı onu bu bulağın suyunnan içmişdi. Hətta qürbətdə olduğu zaman da bu yaddan çıxarmamış "Düşdü" rədifli şe'rində bu bulağı belə xatırramışdı.

Gəlib xəyalımdan keçir o çağlar,
Yaz fəsli atlanıb gələn qonaqlar,
O güllər, çiçəklər açılan dağlar,
O, Qiblə bulağı yadıma düşdü.

Aşıx Alı sevgilisi Bəsti xanımnan ailə qurarkən yenə də bu bulağı yaddan çıxarmamış, onunnan birrikdə bulağın başına gələrək, onnan da xeyir-dua almışdı. Bunnan kəndin adamları arasına dəb düşmüş, ailə qurarkən bu bulağın başına gəlif, tay-tuşdarınnan yeyif-içif şənnənirmişlər. Novruz bayramında isə burada tamamilə ayrı aləm olarmış. Oğlannar, qızdar dəstə-dəstə gəlif, bulağın başında sulaşar, mahnı oxuyar, əylənərmişdər. Qızdar isə tas qurar, bir-birrərinin taleyinə



baxarmış.

Aşıx Ələsgərin şe'rinə tə'riflər dediyi Həcər xanım, da məhz bu bulağın suyunnan içif, yuyunduğuna görə qara qaşdı, qara gözlü dünya gözəlinə çevrilmişdi.

Bu bulağın belə mö'cüzələri haqqında xalq arasında da çox rəvayətdər dolaşmaxdadı.

## BASARKEÇƏR

Belə rəvayət edillər ki, Orta Asiya türkü, Mavəraünnəhr hakimi Teymur Ləng ləqəbi ilə tanınan Əmir Teymur on dördüncü əsrin sonnarında öz dövlətinin ərazisini genişləndirmək məqsədinnən Yaxın Şərqə tərəf yürüşə başdıyır. Teymur hər yeri dağıda-dağıda, işğal eliyə-eliyə şəhərrəri, kənddəri xaravazarrıxlara çevirə-çevirə irəliləyir. Əldə etdiyi saysız-hesafsız qənimət və əsirrəri öz məmləkətinə göndərir.

İrana doğru irəliləyən qoşun burada bir şəhəri də viran qoyur. Yerli əhalinin bütün var-yoxlarını ələ keçirillər. Şəhər əhalisinnən qırılan qırılır, qırılmayannar əsir düşüllər. Əsirrərin içərisində qənirsiz gözəlliyinnən diqqəti cəlb edən bir qız Teymurun oğlunun çox xoşuna gəlir. Teymur bir-neçə gün toy çaldırıf həmin qızı oğluna alır.

Toy gejəsinin səhəri görüllər ki, Teymurun oğlu və gəlini yataxda qətlə yetirilifdi. Mə'lum olur ku, həmin vəhşiliyi Teymurun qoşununnan olan bir erməni sərkərdəsi eləmişdi.

Qəzəvinnən Teymurun gözdərinə qan damır. Əmr eliyir ki, harada erməni varsa,qırın. Bunun üçün mükafat da tə'yin eliyir.

Ölkələr, dövlətdər işğal etmək həvəsində olan Teymurun siyasəti dəyişir. Yer üzündə erməninin kökünü kəsmək üçün hər yeri dolaşıllar. Qarşılarına çıxan kənddərdə, şəhərrərdə nə qədər erməni varsa, hamısını öldürüllər.

Bir gün qoşun gəlif Göyçə ellərinə çatır. Bu yerinə gözəlliyinə hayıl-mayıl qalan Topal Teymur əmr eliyir ki, əgər burda erməni varsa, qılışdan keçirin. Hökmdara xəvər çatır kı, burada türk-oğuz tayfaları yaşıyır. Bir dənə də olsun erməni yoxdu. Teymurləng bunnan çox xoşhal olur. Onu duz-çörəknən qarşılıyan el ağsaqqalarına yüksək hörmət göstərir, ən'amlar, bəxşişdər verir və qoşununa əmr edir ki, bu torpaxda qanaxıtmıyın, basın, keçin.

Tarixdə qaniçən, qəddar bir adam kimi ad çıxardan Teymurun bu ədalətdi hökmü Göyçədə böyük el bayramına çevrilir. Hamı bir ağızdan Teymur bu yerrərdən basar keçər — deyir. O günnən el ağsaqqallarının



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

duz-çörəknən Teymuru qarşıladıxları yaşayış yerinə Basarkeçər deyillər. Bir xoş təsadüfdən yaranmış həmin ad altı yüz ildi ki, dillər əzbəridi.

## GƏLİN QAYA

Özünün füsunkar təbii gözəlliyi ilə adı dillər əzbəri olan qədim Kəlbəcər diyarında əlçatmaz dumannı dağlarını, ucu-bujağı görünmüyən dərələrini-təpələrini, gül-çiçək ətrinnən məst olan çəmənnərini, yamajdarını, qalın, sıx meşələrini, quşqonmaz qayalarını göröndə istər-istəməz, biixtiyar bihuş olursan. Nə qədər baxırsan, bu gözəllikdən doya bilmirsən. Hələ onun buz kimi soyux, durna gözdü, gejəli-gündüzdü şır-şır axan loğman bulaxlarını, onnarın min bir mö'cüzələrini demirəm. Burada hər bir gözəlliyin öz adı, öz ünvanı, öz mə'nası var, hər bir bulağa, dağa, çəmənə, qayaya, çaya verilən addar ulu keçmişimizin əfsanələrə, rəvayətlərə çevrilmiş nə qədər tarixi həqiqətlərini yaşatmaxdadır.

Bu qayaya baxanda adamı heyrət bürüyür. Göylərə doğru uzanan sal daşdarın sərtdiyi, vahiməli əzəməti adamı dəhşətə gətirir. Görəsən, bavalarımın bu möhtəşəm tarixi-təbii abidəni nə səvəvə "Gəlin qaya" adlandırıf? Axı gəlin, qız, gözəlliyin, incəliyin, zərifliyin rəmzidi. Burada isə böyük və əzəmətdi bir qaya dayanmışdı. Gəlin incəliyi ilə qaya sərtdiyini bir-birinə bağlıyan nə olmuşdu? Bu suala yalnız xalq yaddaşında əsrlərdən bəri dolaşıf bu günümüzə qədər gəlif çatan "Gəlin qaya" əfsanəsində cavaf tapa bilərix.

Deyillər Kəlbəcər ellərində bir comərd, igid, heş nədən qorxmuyan bir oğlan varıymış. Tay-tuşdarı, el-oba arasında bu oğlanın nə dizini yerə gətirən, nə də qolunu qatldıyan bir adam yoxuymuş. Ancax nə olsun? Oğlan nə qədər qoçax, cəsur imişsə, bir o qədər də kasıvıymış. Qollarının güjünnən onun, bunun qapısında işdəməknən anasınnan özünün yavan çörək pulunu güjnən qazanırdı. Oğlan baxdı kı, qapı-qapı gəzif işdəməkdənsə, elə bir ağıya nökər olsa daha yaxşıdı. Allah da ağaların insafını kəssin. Oğlan bu fikirnən bir ağanın qapısına gəldi, sözünü utana-utana dedi.

Ağa ona rişxəndnən dedi:

– Pəhləvan, nə iş görə bilərsən?

Oğlan dedi:

– Ağa, nə işə buyursan gedərəm.

Ağa dedi:



– Çovannıx edə bilərsənmi?

Oğlan dedi:

– Niyə etmirəm, ağa? Bəs, nökər haqqım nə olajax?

Ağa dedi:

– Nökər haqqı dağ olmuyajax, dəvə olmuyajax. Nə olasıdı. Gündə bir qarın çörək, bir də ildə bir dənə toğlu.

Oğlan dedi:

– Ağa, bu lap azdı. Heç olmasa, anamın və mənim gündəlik yemək haqqımı ver.

Ağa istehzaynan dedi:

– Anan çox cavandı?

Oğlan dedi:

– Yox, ağam. İşdəməyə halı yoxdu.

Ağa dedi:

– Yox, oğlan, bizimki tutmaz. Anan cavan olsaydı, gəlif həyət-bajada işdiyərdi. Sən də mal-qaranı otarardın. Mən bir adam işdədif iki adamı saxlıya bilmərəm. Bəxtinnən küs. Hayıf kı, anan cavan döyül.

Oğlan ağanın sözünü, eyhamlarını yaxşı başa düşdü. Üzə vurmadı. Ürəyində dedi ki, yaxşı, qurumsax ağa, sağlıx olsun, bu sözünə görə sənin payını vaxt gələr verərəm. Onda görərsən ki, heş kəsin anası haqqında pis danışmax olmaz.

Oğlan bəyin yanınnan kor-peşman qayıdıf evə gəldi. Anası onu dilxor görüf soruşdu:

– Dərdin mana, ay oğul, nə oluf. Ağa səni işə götürdümü?

Oğlan dedi:

– Yox ana, haqq vermək istəmir. Özü də o kişi deyilmiş, qurumsağın biriymiş. İşdən bixəvər ana dedi:

– Başa düşmədim, ay oğul.

Oğlan:

– Deyirəm, belə o adam deyil. Mənim kimisini heç adam yerinə də qoymur.

Ana:

– A bala, var elə şeydi. Adamı yolunnan sapdırır, qeyrətsiz eliyir. Bə, eşitməmisən atalar deyif ki, qorx qorxmazdan, utan utanmazdan. Onnarda avır, həya, insaf, vijdan nə gəzir? Neynəmək olar. Əlimizdən nə gəlir. Dözməliyik.

Oğlan:

– Ana, düz deyirsən, dözməliyik. Ancax gərək bu hayıfı onda qoymuyam. Allah canıma dəyməsə, fürsət versə, ağanın payını özüm verəjəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ana:

– Əlini haqqın ətəyinnən üzmə, ay oğul. Pis günün ömrü az olar. Hər qarannıx gejənin bir nurru savahı var. Darıxma. Vaxt olar sənin də əlin çörəyə çatar. O cür namərddərə möhtaj qalmazsan.

Onnar ana-bala beləcə söhbət eliyə-eliyə ümiddərini haqqa bağlıya-bağlıya gejənin bir vaxtına qədər söhbət etdilər, nəhayət, yuxuya getdilər.

Savah açılanda oğlanın başına bir fikir gəldi. Oğul onsuz da belə yaramaz ağaların namərddiyi ujunnan buralardan sıtqı sıyrılmışdı. Müvəqqəti olarax anasını da götürüf bir müddət Göyçüyə getməyə, kiməsə muzdur oluf bir təhər dolanmax qərarına gəldi.

Bu fikir anasının da ürəyinnən oldu.

Onnar savah tezdən piyada, dağların arasınnan yollandılar Göyçə tərəfə. Gün günortadan bir az keçmiş gəlif Göyçə mahalına çatdılar. Soraxlaşıf addı-sannı bir ağanın qapısına getdilər.

Ağa onnarı çox mehribannıxnan qəbul elədi. Gəlişdərinin məqsəddərini öyrənif onnara ürək-dirək verdi. Tapşırdı kı, qonaxlar uzaxdan gəlif, ajdılar, yorğundular, tez çay-çörək verilsin. Ağa dedi ki, nə olar kasıf olanda, pəhlivan kimi oğlandı. Özü də avırrı, ismətdidi. Anası da halal süd əmmiş adama oxşuyur.

İlk günnən başdadılar ana-bala bu evdə cannan-başnan işdəməyə. Gördülər ki, bu evdə onların hörməti gündən-günə artır. Onnara nökər gözüynən yox, doğma bir adam gözüynən baxırdılar. Oğlan da, anası da ilk günnən zəhmət haqqı barəsində bir kəlmə də kəsmədilər.

Ağa da bu barədə heş bir söz demədi. Ancax günnər ötüşdükjə ana da, bala da gördülər ki, onnarı burda doğmalarınnan ayırmıllar. Allahdan bu ağaya uzun ömür dilədilər, ona duaçı oldular.

Get-gedə bu evə elə isinişdilər ki, özdərinin qəriv olduxlarını unutdular. Ağa onnarın əyin-başdarını da təzələdi. Xeyirdə, şərdə, toyda-nişanda onnarı seşmədi. Qərəz, nə başınızı ağrıdım, ağa əlinnən nə hörmət gəldisə, bu qəriv ana-balıya elədi.

Ağa qədir bilən adamıydı. Gördü kü, bu oğlan yeddi adamın işini görür. Hansı işə gedirsə yarıdır. Anası da səliqəli, təmizkar, dili-ağzı özündə, namusdu bir qadındı. Ayaxları da sayalı oldu. Həmin il ağanın naxırdakı inəklərinin, sürüdəki qoyunnarının yarısınnan çoxu ekiz doğdu. Atı-ilxısı, mal-qarası daha da artıf çoxaldı. Elə bu bir tikə çörək üçün vətəninnən didərginnər ağanın evinə yeni bin-bərəkət gətimişdilər.

Oğlan ağanın lap xoşuna gəlmişdi. Onun qəlvinnən keçirdi ki, yeganə, sular sonası kimi gözəl, madar balasını elə bu oğlana versin. Nə qız, nə də anası ağanın sözünnən çıxa bilmədilər. Bu təklifi eşidəndə nə oğlan,



nə də anası qulaxlarına inanmadılar. Sevindikdərinnən bilmirdilər, nə eləsinnər. Oğlanın anası ağanın ayaxlarına düşdü. Ağa onu qaldırıf dedi:

– Sənin oğlun bu günnən həm də mənim oğlumdu. Mən ona nökər gözüynən yox, bir oğul gözüynən baxmışam. İndi də yeznəm olsun. Yeznə, oğul nə fərqi var?

Beləliknən, toy başdandı. Ağa yeddi gün, yeddi gejə toy çaldırıf öz yeganə qızını bu oğlana verdi.

Günnər, aylar, illər ötüşdü. Bir gün oğlan qayınatasına dedi:

– Ateyi-mehriban, sənin mənim barəmdə haqqı-sayın çoxdu. Mən ömür boyu nə qədər çalışsam da, sənin bu yaxşılığının bir parçasının da əvəzini verə bilmərəm. Burda nə qədər xoş gün görsəm də, ana yurdum üçün qərifsəmişəm. Ata ojağını kor qoymax olmaz. İcazə versən gedif ana yurdumda uçuf-dağılmış komamızı isidərdim. Biz burada nə qədər qalsax, nə qədər xoş gün keçirsək də, adımız qərivdi. Əvvəl-axır öz vətənimizə dönməliyik. Kişi ata yurduna keşik çəkməlidi. Kəlbəcərnən Göyçənin arasında nə var kı, cəmisi bir yal, bir yamac. Nə vaxt istəsək, bir-birimizin yanındayıx, bir-birimizə hayanıx...

Oğlanın bu sözdəri ağanın çox xoşuna gəldi. O məsləhət gördü kü, əvvəlcə gedif köhnə evi təzələsin, əməlli-başdı qaydaya salsın. Sonra köşsünnər. Elə də etdilər. Qısa müddətə oğlan köhnə evlərinin yerində gözəl bir imarət ucaltdı. Sonra gəlif hörmət-izzətnən köç etdilər. Oğlanın köçü Göyçədən doğma yurduna, Kəlbəcərə yollandı. Bir vaxt Kəlbəcərdən bir tikə çörək ümidünnən anasının əlinnən tutuf bu qarrı dağları aşıf Göyçüyə üz tutan oğlan indi Göyçədən Kəlbəcərə böyük var-dövlət, hədsiz-hesabsız sərvətnən qayıdırdı.

Köhnə qohum-qonşu, tanış-biliş yığışıf onnarı qarşıladılar. Ağsaqqallar xeyir-dua verdilər. Ojağın xeyirri-bərəkətdi olsun,-dedilər. Ancax oğlanın arvadının gözəlliyi hamıyı hayıl-mayıl eləmişdi. Ona öz adınnan yox, "Göyçə gözəli" – deyə müraciət edirdilər. Oğlanın qorxusunnan heş kəs ona gözuju belə baxa bilməzdi. Çünkü oğlan indi əvvəlkinnən qat-qat güjdü-qüvvətdi olmuşdu. Mənəm-mənəm deyən cavannar onu görəndə tük salırdılar. Oğlan fürsət gəzirdi ki, vaxtıynan ona "anan cavandımı" – deyən qurumsax ağanın bir bəhanəynən dərsini versin.

Oğlan bu fikrində ikən hələ gör bü pəzəvəng ağa daha hansı fikirrərə düşür. O da eşidir ki, paho bir vaxt qapısınnan qovduğu oğlan, haşan-koşan yiyəsi oluf. Qayınatası da Göyçənin addı-sannı filan ağasıdı. Özü də arvadı elə gözəldi ki, hətta ona arvaddarın da tamahı düşür. Həmin günnən ağa başdadı düşünüf-daşınmağa ki, necə etsin ki, bir dəfə əli o gəlinin əlinə dəysin. Hətta bir dəfə gəlin bulağa gedərkən uzaxdan görüf,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

az qala bihuş olmuşdu. Bu açılıf-bükülәsi dәrd deyildi. Bu niyyәti qurd kimi içini yeyif-dağıdırdı. Oğlannan yaman qorxurdu. Ancax bir vaxt anasına dediyi eyhamlar yadınnan çıxmışdı. Bilmirdi ki, oğlan o sözün qisası üçün fürsәt axtarır. Әvvәl-axır ağanın payını verәjәk. Ağa isә bu yannan oğlanın halalca arvadına vurulmuşdu.

Ağa öz-özünә çox fikirrәşdi, çox götür-qoy elәdi. Axırda bu qәrara gәldi ki, gözdәsin, fürsәt axtarsın, örgәnsin ki, oğlan nә vaxt evdәn çıxıf başqa yerә gedәjәk. Onda gejә xәlvәtcә gedif gәlin olan otağa girsin, kefini sürüf, geri qayıtsın. Azğınnaşmış, harınnaşmış bu qurumsax nә bilirdi ki, namus, haya, avır nәdi!...

O, bir gün әlaltınnan örgәndi ki, oğlan Göyçüyә üç günnük sәfәrә gedir. Ağanın çiçәyi çırtdadı. Birinci gejә izdәdi, gördü kü, doğrudan da oğlan evdә yoxdu. Onun evdә olmadığını yaqın edәnnәn sonra ikinji gejә, gejә yarısı pusa-pusa gәlif gәlinin otağının pәncәrәsini tafdı. Gördü kü, gәlinin üzünün şәfәqi gün kimi әtrafa işıx saçır. Ağa özünü saxlıya bilmiyif pәncәrәnin şüşәlәrini sındırıf içәri atıldı. Sәsә gәlin diksindi. Evә girәn qoja qurumsağı gördü. Onu tәxminәn tanıdı. Çünkü әri bu qurumsax haqqında arvadına çox demişdi. Әrinin әvvәl-axır onnan qisas alacağını bilirdi. Sәsә bayaxdan qonşu otaxda yatmış qaynanası da qalxdı. O cәld gәlin olan otağın qapısını açıf qurumsax ağyıı tanıdı. Niyyәtini başa düşdü. Ağa ujadan qışqırdı. Gәlin özünü itirmәdi. Cәld ayağa qalxıf yanındakı çırağı götürüf ağanın başına çırpıf qapıdan bayıra atıldı. Qarannıxda özünü itirәn qurumsax da düşdü gәlinin dalınnan. Bu yerrәrә nabәlәd, gejәnin qaranınığında namusunu, ismәtini bir qurumsağın әlinnәn götürüf qaçan gәlin bilmirdi hara gedir. O bu әclafın әlinә keçif әrinin, atasının adını biavır etmәkdәnsә, ölmәyi özünә şәrәf bilirdi. Qaça-qaça Allahdan bu bәladan qurtarmax üçün nicat istiyirdi.

Gәlin qaçır, qurumsax qovurdu. Bir xeyli qaçannan sonra gәlin birdәn ayaxlarının altında bir boşlux hiss etdi. Sәn demә, bura divi görünmüyәn, bir qayanın başıymış. Gәlin qayadan düşdüyünü hiss edәndә bu bәladәn ölümnәn qurtarajağına ürәkdәn ulu Tanrıya çox-çox şükürrәr etdi. Qayadan düşәn kimi sәs dә çıxartmadı. Qurumsağın gözü qızmışdı. O da gәlinin arxasınca qayadan uşdu. Bu qayanın hansı qaya olduğunu bilәndә bağırtısı dağı-daşı, dәriyi lәrzәyә gәtirdi. Meşәdәki quşdar da, heyvannar da, onun bu bağırtısına diksinif vәlvәliyә düşdülәr. Gәlin hәlә havada ikәn gördü kü, o yerә doğru yavaş-yavaş enir. Qurumsax isә qayadan onnan sonra düşdüsә, yerә lap tez çatıf tikә-tikә oldu. Gәlin bu mö'cüzәdәn sehirrәnmişdi. Nәhayәt, o yavaş-yavaş gәlif qayanın divinnәn axan suya düşdü. O, iti vә gur axan bu çayda da batmadı. Huşunu itirmiş gәlin adamlar onu axtarıf tapana kimi, çayın sahilindә



üzüquylu qaldı.

Bәs, gәlinin bu sıldırım qayanın başınnan çaya sağ-salamat enmәsinә, oradan da sahilә sağ-salamat çıxmasına nә sәvәv olmuşdu? Sәn demә, gәlini bu uçurumnan xilas eliyәn onun geyimi oluf. Gәlin qayadan düşәrkәn onun bir-birinin üstünnәn geydiyi tumannarını külәk yuxarı qaldırıf vә o hәmin dәhşәtdi, vahimәli sıldırım qayadan aşağıya axan gur vә dәrin çaya sağ-salamat enif. Tumannar gәlini qayıx kimi suya batmaxdan da xilas eliyir.

Oğlanın anası gejә hay-haray salır. Gejәnin qarannığında nә etmәk olardı? Ala-toran olmamış adamlar dörd yana sәpәlәnillәr. Axtarıllar, axtarıllar. Nәhayәt, hәmin yerdә tikә-tikә olmuş qurumsax ağanın meyidini, bir az aşağıda çayın sahilindә huşunu itirmiş gәlini tapıllar. Handan-hana gәlin özünә gәlir. Sağ qaldığına inanmır. Başına gәlәnnәri olduğu kimi danışır. Hamı ulu Tanrının mö'cüzәsi önündә diz çöküf, baş әyir. Qurumsax yağıyı lә'nәtdiyillәr. Onun tikә-tikә olmuş meyidini dә yığmıllar ki, qoy qurda-quşa yem olsun.

Bu vaxt oğlan da gәlif çıxır. Arvadını sağ-salamat saxladığı Böyük Tanrıya şüküllәr oxuyur, üzünü torpağa sürtür. Hamı bu gәlinin qeyrәti önündә baş әyir. O günnәn bu qayaya "Gәlin qayası" deyillәr.

## QADINNAR HAQQINDA ӘFSANӘ

Qadın anadı, bajıdı, hәyatdı. Qadın göızәllikdi, nәğmәdi, toydu, büsatdı. Qadın çәmәndi, әtirdi, güldü, çiçәkdi. Qadın dünәndi, bu gündü, qadın gәlәcәkdi. Әsl qadın haqqındı hәmişә belә düşünüflәr. Amma qıdınnarın hamısı bu ada, ehtirama layiqdimi?

Tәәssüf ki, yox. Bu ada lәkә olan qadınnar da az deyil. Göyçәdә bax buna görә qadınnarı üç qismә ayırıllar. Birincisinә әr qadınnar deyillәr. Hәvva nәnәnin törәmәsi, halal süd әmmiş qadınnar. Belә qadınnar söz eşidәn, mәtlәf annıyan, avırrı, ismәtdi, qoçax, işgüzar, böyük-kiçik, ağsaqqal-qarasaqqal yeri bilәnnәrdi. Daha doğrusu, halal süd әmәnnәrdi.

İkincisi, әldәn-ayaxdan iti, qoçax, zirәk, ancax dildәn ajı, çox danışan, yerri-yersiz hәr şeyә deyinәn, çәnәdәn boş qadınnardı. Bunnara qomcan nәslinnәndi deyәllәr.

Üçüncülәr, dili-ağzı sakit, lakin çox tәnbәl, buyurmasan iş dalınca getmiyәnnәr, işi-peşәsi yeyif-yatmax olannar, tәpiklәmәsәn, dümsüklәmәsәn yerinnәn qımıldanmıyan qadınnardı. Belәlәrinә isә eşşәk cinsindәndi deyәllәr.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göyçədə bu adamlarnan bağlı bir əfsanə də hafizələrdə, dillərdə, ağızdarda bu gün də dolaşmaxdadı.

Belə rəvayət edillər ki, çox qədim zamannarda bir kişi və bir arvad yaşıyırmış. Onnar bir müddət bir yerdə yaşasalar, bir yastığa baş qoysalar da, uşaxları olmurdu. Övladsızdıxda, nə kişi, nə də arvad narahat olmurmuş. Ümiddərini haqqa bağlıyan ər-arvad Allahın hər cür qismətinə şükürrər oxuyallarmış. Övladdarı olsa da, olmasa da onnarın Ulu Yaradana olan məhəbbətdəri azalmazmış.

Ər və arvadın Böyük Yaradana bu sədaqət və hörməti gözə görünməzin xoşuna gəlir. Bir gün onnar evdə oturarkən görüllər ki, qafıları döyülür. Duruf qapıyı açanda görüllər ki, bir nurani kişi dayanıf qapının ağzında. Kişi də, arvad da ədəv-ərkannan qojayu evə də'vət eliyir, ona xoş üz göstərillər. Nurani qoja getmək məqamında üzünü onnarın hər ikisinə tutuf deyir:

– Ay Allahın sədaqətdi və istəkli bəndələri, eşidin və agah olun. Böyük Yaradan heş vaxt öz halal hümmətini peşman qoymuyuf, həmişə onnarın yanında oluf, onnara kömək eliyif. Sizin ürəyinizin təmizdiyinə, halallığınıza, bir də Ulu Tanrıya əbədi məhəbbətinizə görədir ki, mən sizə övlad bəxş etməyə gəlmişəm. Sizi bu intizardan qurtarajam.

Bunu deyən qoja civinnən bir üzü qırmızı, bir üzü sarı alma çıxardıf kişiyə uzatdı və sözünə davam etdi:

– Bu alma haxdan sizə göndərilən paydı. Onu tən yarı böl, yarısını özün ye, yarısını da, arvadına ver yesin. Doqquz ay, doqquz saat, doqquz dəqiqə, doqquz saniyədən sonra sizin gözəl-göyçək bir qızınız olajax. Bu qız dünyada əsl qadın adınnan qalajax.

Bunu deyən qoja birdən-birə qeyvə çəkildi. Kişi də, arvad da ora-bura nə qədər baxdılarsa, qojuyu görə bilmədilər. Bildilər ki, bu Ulu Tanrının əmrini yerinə yetirən elçilərdən biriymiş. Almayı nurani qojanın dediyi kimi tən yarı bölüf, yarısını arvadına verdi, yarısını da özü yedi. O gejədən düz doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə keçəndən sonra arvad bari-həlmini yerə qoydu. Qojanın dediyi kimi onun ayın, günün timsalında gözəl-göyçək bir qızı oldu.

Elə ki, qız böyüyüf həddi-buluğa çatdı, qızdar bulağınnan su işdi. Gözəlliyi birə-beş artdı. Bütün cavannarın könlünnən keşdi ki, bu qızlnan evlənsin. Ancax çoxlarının buna cəsarəti çatmırdı.

Hər şeyin vaxtı var deyiflər. Gün o gün oldu ki, bir axşam elçilər kişinin qapısını döydülər. Kişi onnara ürəkdən xoş gəldin elədi. Onnarın gəlməsinin məqsədini bilənnən sonra qızının, arvadının fikrini, rə'yini soruşmamış "hə" dedi. Elçilər çox razılıx eliyif getdilər. Kişinin bu məsləhətsiz "hə"sinə nə arvadı, nə də qızı narazılıx etmədi.



Arvadı dedi:

– Mənim nə haqqım var. Qız onundu, kimə verər, özü bilər. İstiyir lap çaya atsın. Evin kişisidi. Kişi isə evin qıvlasıdı. Hər halda Allah bilən yaxşıdı.

Qız öz-özünə dedi:

– Atam olan yerdə mən kiməm. Lap itə-qurda da versə dinməyə haqqım yoxdu. O mənim atamdı. Ataya hörmətsizdik, Allaha hörmətsizdikdi.

Kişi isə birinci elçiyə əvvəlcə gələn dəfə ona görə "hə" dedi ki, heş kimə indiyə kimi bu qapıdan yox kəlməsi deyilməmişdi. Onun buna dili gəlməzdi. Necə deyillər, vara yox deməyi o özünə Tanrı yanında günah iş hesab edirdi. Qapısınnan peşman adam qaytarmağı günah sayırdı.

Gün gəlif axşam oldu. Kişinin qapısı yenə döyüldü. Onnar elə bilirdilər ki, dünən yeganə gözəl-göyçək qızının "hə"sini alannardı. Yə'qin nişan payı gətirillər. Qapıyı açıf gördülər ki, yox, bunnar tamamilə başqa adamlardı. Ərnən-arvad bu gələnnəri də hörmətnən-izzətnən evə də'vət etdilər. Söhbət əsnasında mə'lum oldu ku, bunnar da qıza elçi gəliflər. Kişi dinməz-söyləməz bu gələnlər də "hə" dedi.

Üçüncü gejə yenə həmin hadisə təkrar olundu. Yenə də kişinin qapısını başqa elçilər döydü. Kişi bunnara da "hə" dedi. Elçilər gedənnən sonra arvadı dedi:

– Ay kişi, sən ağ eliyirsən axı, sənin cəmi-cümlətanı bir qızın var. Sən isə gələn elçilərdən üçünə də onun "hə"sini verdin.

Kişi dedi:

– Arvad, bəs neyliyəydim. Axı onnara nejə "yox" deyəydim. "Yox" desəm axı onnar bizdən peşiman gedərdilər.

Arvad dedi:

– Ay kişi, bəs elçilər qızımızı aparmağa gələndə biz neyliyəjəyik? Bir qızı bu üç elçidən hansına verəjiyik.

Aralıxda düşmançılıx yaranmıyajaxmı?!

Kişi dedi:

– Arvad, yat, savaha hələ çox var! Allah kərimdi! Nə olar, olar!

Hər üçü, ata da, ana da, qız da ümiddərini Allaha bağlıyıf yatdılar.

Savah açıldı. Üzünüzə xeyirriknən savahlar açılsın. Arvad həmişəki kimi hamıdan tez duruf tövlüyə getdi ki, eşşəyə ot versin, gözdərinə inanmadı. Eşşəyin yerində eyniynən ilə onun qızına oxşar gözəl-göyçək bir qız varıydı. Arvad tez geri qayıdıf gördü kü, qızı yorğan döşəyin içində yatır. Arvad tövlüyə gedəndə kişi həyətə çıxdı kı, qonşular oyanmamış iti bağlasın. Gördüyü onu da heyrətə gətirdi. Gördü kü, itin damının ağzında eyni ilə onun qızına oxşar bir qız var. Elə zənn elədi ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bu yaqın öz qızıdı. Özünə inanmıyıf tez evə qayıtdı. Gördü kü, qızı evdə yatır. Ər-arvad bu işə mat-məəttəl qaldılar. Bilmirdilər bu gördükləri yuxudu, yoxsa aşkar. Birdən həmin nurani qoja onnarın gözünə göründü. O dedi:

– Siz çox halal adamsınız. Ulu Yaradana bəslədiyiniz məhəbbətiniz sonsuzdu, nəhayətsizdi. Tanrı bunun əvəzində sizi elçilərin yanında peşiman qoymadı. Tövlədə eşşəyin və həyətdəki itinizi də qıza çevirdi. İndi arxayın öz işinizi görə bilərsiniz. Gedin itin və eşşəyin yerində olan qızdarı da gətirin.

Qoja bunnarı deyif yenə qeyvə çəkildi. Kişi və arvad fikir-xəyaldan ayrılannan sonra gedif pəyədən və itin damınan qızdarı gətirdilər.

Bu vaxta qədər evdəki qız da ayılmışdı. Qızdarın üçü də bir-birinə elə oxşuyurdular ki, onnarı tanımax mümkün deyildi. O günnən ər-arvad bilmədilər ki, bu üç qızdan hansı onnarın öz doğma qızdarıdı. Bu paya görə kişi də, arvad da Allaha şükürrər etdilər, dualar oxudular.

Bu hadisədən bir gün keçməmiş, elçilər toya başdadılar. Kişi ədəv-ərkannan, el adətiynən qızdarı ər evinə köçürtdü.

Aradan bir müddət ötdü. Bir gün kişiynən arvad evdə söhbət edirdilər. Arvad qayıtdı kı, ay kişi, qızdarı ərə verdik, getdilər. Ancax heş bilmədik bu qızdardan hansı bizimdi.

Kişi dedi:

– Arvad narahat olma, dur ikimiz də hazırraşıf qızdarımızın yanına qonax gedək. Hal-əhval tutax. Nejə dolandıxlarını, nejə yola getdiklərini soruşax. Onda bizə mə'lum olajax ki, doğma qızımız hansıdı.

Arvad duruf üç xonça düzəltdi. Xonçanın birini götürüf daha yaxınnıxdakı qızının evinə qonax getdilər. Yeznə də, qız da bunnarı çox hörmətnən qarşıladılar. Onnara yaxşı süfrə aşdılar. Yedilər, işdilər, ordan-burdan söhbət elədilər. Axırda qız bayıra çıxan kimi kişi fürsət tapıf yeznəsinnən soruşdu:

A bala, bir de görüm, mənim bu qızımnan razısanmı?

Yeznə dedi:

– Ateyi-mehriban, çox sağ ol, qızın namusdudu, qeyrətdidi, qoçaxdı, ev-ailə qədri biləndi. Odun, qurdun parasıdı. Ancax dili zəhrimardı. Gejə-gündüz it kimi hürür, beyin-başımızı aparır. Deyif-danışmaxdan nə bezir, nə də yorulur, elə bil qarğa beyni yeyif. Kişi yavaşca arvadının dizinnən basıf annatdı kı, arvad bu qancığımızdan olandı.

Onnar ikinci gün ikinci yeznələrinə qonax getdilər. Burada da onnarı çox gülərüznən, mehribannıxnan qarşıladılar. Yenə də onnarın süfrəsinə min-cür naz-ne'mət düzdülər. Yedilər-işdilər. Kişi qızı eşiyə çıxanda yenə yeznəsinnən soruşdu:



– Oğlum, qızım nejədi, xoşuna gəlirmi?! Dava-dalaşınız olmur ku, razısanmı onnan?

Yeznəsi dedi:

– Ateyi-mehriban, yaxşı övlad böyütdüyünə görə sağ ol, namusdu, qeyrətdi qadındı. Böyük-kiçik yolu gözdüyəndi, heş nəynən alı-qalı olmaz. Dili-ağzı da ki, özündə. Dindirməsən min il də qalsa dinməz, ancax çox tənbəldi. Bizdəməsən yerinnən tərpənməz. Elə bil eşşəkdi. Döyülməsə, söyülməsə iş görmür kü, görmür.

Kişi yenə xəlvətdən arvadının dizinnən basdı. Eyhamnan başa saldı kı, ay arvad, bu da eşşəyimizdən olan qızımızdı.

Onnar üçüncü gün, üçüncü xonçanı götürüf, üçüncü yeznəsigilə qonax getdilər. O ikisində olduğu kimi, burada da ata-ananı çox böyük xətir-hörmətnən, xoşüznən qarşıladılar. Yenə də ortalığa dünyanın yüz nazü-ne'məti düzüldü. Yedilər, işdilər. Qız arada eşiyə çıxan kimi, kişi fürsəti əldən vermiyif yeznəsinə dedi:

– Oğul, de görüm, qızımnan razısanmı?

Yeznəsi bu sözü eşidən kimi arvadını çağırıf dedi:

– Get üçüncü mərtəbədəki qarpızdardan bir yaxşısını seş gəti, kəsək dədən, anan yesinnər.

Qız hamiləydi. Kirimişcə üçüncü mərtəbiyə qalxdı, bir azdan əlində bir qarpız gətirif ərinə verdi.

Əri dedi:

– Bu qarpız yaxşı qarpız deyil, get o birisini gəti. Arvadı yenə də kirimişcə gətirdiyi qarpızı qucağına alıf üçüncü mərtəbiyə qalxdı.

Bir azdan qucağında bir qarpız gətirif ərinə verdi. Əri yenə də həmin sözdəri təkrar etdi. Kişinin qızı yenə də dinməz-söyləməz bu qarpızı aparıf başqa birini gətirdi. Beləliklə, oğlan öz arvadını üçüncü mərtəbəyə bir qarpızdan ötrü qırx dəfə qaytardı. Hamilə olan arvadı düz qırx dəfə kirimişcə, gülərüznən üçüncü mərtəbəyə qalxıf-endi.

Qırxıncı dəfə oğlan dedi:

– Bax, bu qarpızı deyirdim!

Sonra üzünü qaynatasına-qaynanasına tutuf dedi:

– Bizim evdə cəmisi bir dənə qarpız varıydı. Mən özüm qəsdən sizin qızınızı həmli-həmli qırx dəfə qarpız gətirməyə göndərdim. Gördünüzmü, o birjə dəfə narazılığını bildirif, yorulduğunu demədi. Nə də manaə demədi ki, axı məni nə üçün yalan yerə yorursan, bizdə qırx yox, birjə dənə qarpız var. İndi özünüz gördünüz kü, necə tərbiyəli, mədəni, qoçax, dili-ağzı özündə halal süd əmmiş bir qızınız var. Mən onunnan yaşamağıma görə gejə-gündüz ulu Yaradana şüküllər edirəm.

Kişi yenə yavaşca arvadının dizinnən basdı. Bildirdi ki, ay arvad, bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ulu Tanrının bizə bəxş elədiyi dost-doğma qızımızdı.

Əbəs deyil ki, nağıllarda te-tez eşidirik ki, var ipək qarı, qarı var köpək qarı, qarı var nəpək qarı.

## QIŞ-BAHAR

İki ovçu varıymış. Bu ovçular o qədər qəddarıymışdar,ta nə deyim... Əllərinə keçənin başını üzüllərmiş. Bir gün ovçunun birinin arvadı bərk xəstələnir. Ərinə deyir:

– Ay kişi, ürəyim sərçə əti istiyir.

Ovçu deyir:

– Bunnan asan nə var kı, bu saat gətirərəm.

Ovçu çölə çıxıf nə qədər axtarırsa, əlinə bir dənə sərçə keçmir. Haraya baxırsa, qarğa görür. Sərçələr yuvalarına çəkilif, heç biri görünmür. Ovçu öz-özünə deyir:

Bir soyuq düşəydi, bu sərçələr ajdarınnan yerə döşənəydilər. Hamısının başını üzəydimı.

Onun səsi hər yana yayılır. Bu qarğışdan sonra qar yağmağa başdıyır. Ovçu dönüf qışa çevrilir. Bərk soyux düşür. Quşdar isti ölkələrə gedir. Mal-qara içəri dolur. Sərçələr civildəşə-civildəşə yerə döşənir.

İkinci ovçu dostunun qışa döndüyünü görüf bərk qəzəflənir. Silahını götürüf çölə çıxır. Üç ay çölü-köfşəni gəzir, yorulur. Bir ağacın altında oturuf dincini alır. Dərddi-dərddi oxuyur:

Qarğışı qışa dönmüş, ley-ley balam, ley-ley.
Ojağı vaxtsız sönmüş, ley-ley, balam ley-ley.

Ovçunun səsi ətrafa yayılır. O qəflətən dönüf yaza çevrilir. Qış yox olur. Elə o vaxtdan da yaz qışı axtaranda qış yox olur. Onnlar bir-birinnən görüşə bilmillər.

2-ci variant. Deyilənə görə yaznan qış iki qardaşıymış. Biri dövlətdi, biri kasıf. Bir gün kasıf qardaşın uşaxları ajınnan sızıllaşanda o, ələşsiz qalıf dövlətdinin yanına gəlif deyir:

– Qardaş, ümidim göydə Allaha, yerdə sanadı. Uşaxlarım ajınnan qırılır. Heç olmasa, bir parça yavan çörək ver, aparım onnlara verim.

Dövlətdi deyir:

– Qardaş, iki göz səndədi, ikisi də məndə. İki əl sənindi, ikisi də mənim. Heş nə verən döyüləm, get özünə çörək qazan.

Kiçik qardaş kor-peşman çölə çıxır. Qardaşına qarğış eliyə-eliyə evinə gəlir. Uşaxların üzünə çıxa bilmir. Üzü qaralıxdan astanıya çöküf deyir:



– Allah, sən məni göydən-göyərtidən bir şeyə çevir. Uşaxlar aj qalmasın.

Söz ağzınnan çıxan kimi dönüf yaz olur. Hər tərəf göy otnan örtülür. Taxıl, pencər boy atır. Kasıvın uşaxları quşəppəyinnən, unnucadan yeyif bir təhər yola gedillər. Kasıf yaza dönəndə varrı qardaş da yoxa çıxır. Nə qədər axtarıllarsa, tapa bilmillər.

Bir vaxt keçənnən sonra bir soyux düşür, bir boran qopur, daha nə deyim. Boran əsdikcə bu sözdər eşidilir:

Mən qardaşam, qarğışam,
İçəri dolun ajımışam.
Qışın qəzəbli səsi getdikcə daha da güjdənir.
Mən qardaşam, bajaları basmışam,
Qapılara qarı yığıf qaşmışam.
Bu gün-savah gələr anam çillələr,
Gözdərindən kasıfların od ələr.

Beləliknən, varrı qardaş qış oluf, camaatı soyuxdan donduruf qırmax istiyir. Camaat tez təndiri, ojaxları qalıyır qırağında oturur. Hirs vurur qışın başına. Öz-özünə deyir:

– Yenə də kasıflar bir illac elədilər. Bir şey eliyim, qoy soyuxdan ölsünnər.

Bu fikirnən anası Böyük Çillyi çağırır:

– Anam Çillə, bir bu kasıflara zülm elə. Elə soyux sal kı, donuf buza dönsünnər.

Böyük Çillə eşiyə çıxıf gəzir, dolanır, axırda da kasıf oğluna, nəvələrinə yazığı gəlif heş nə eləmir. Hamıyı isti təndirin başına yığır. Qış görür kü, anası bir şey eləmədi. Hirsdənif anadığını köməyə çağırır:

– Kiçik Çillə, bu adamlara elə zülm elə ki, donuf buza dönsünlər. Bunnarın üzünnən mən bu günə düşmüşəm.

Kiçik Çillə eşiyə çıxıf hərrənir. Görür kü, camaat eşikdə-bajada hərrənir, axşamlar da ojağın başına yığışıf qızınıllar. Kiçik Çillə öz-özünə deyir:

– Yaxşı, indi görün sizin başınıza nə oyun açajam!

Kiçik Çillə elə soyux eliyir, elə tufan qoparır kı, hamı qaçıf təndirin başına yığışır. Yenə də cannarı qızmır kı, qızmır. Xəvər gedif yaza çatır. Yaz görür kü, balaları əziyyət çəkir, tez özünü yetirir onnara. Kiçik Çilləni qovuf ilim-ilim itirir. Onun nəfəsinnən hər şey dirçəlir, cana gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BÖYÜK ÇİLLƏ VƏ KİÇİK ÇİLLƏ

Bir kişinin bir gözəl qızı varıymış. Qız bir az böyüyəndə anası ölür. Qız qalır yetim. Kişi görür kü, yola gedə bilmir. Təzə bir arvad alır. Arvad bu ojağa gəlir-gəlmir, qızın günü göy əskiyə bükülür, ona göz verir, işıx vermir.

Bir gün qız bir bujağa qısılıf için-için ağlıyarax deyir:

– Allah, bu nə zülümdü mən çəkirəm. Elə bir şey olaydı analığımın üzünü görmüyəydim.

Qız bəxti qara olduğunnan qaranquşa çevrilir. Qanad çalıf bu diyardan uçuf gedir.

Analığının gözü qavağında qızın uçuf getməsi analığını daha da hiddətdəndirir. Hirsinnən, hikkəsinnən şaxtıya çevrilir. İkinci arvad olduğuna görə buna kiçik Çillə deyillər. Kiçik Çillə camaata elə zülm eliyir ki, soyuxdan hamı qaçıf içəri yığılır. Aradan bir il keçir. Bir gejə ölən arvad kişinin yuxusuna girir. Yuxuda onnan soruşur:

– Ay kişi, günün, güzəranın nə təhər keçir?

Kişi deyir:

– Arvad, üzüm yanında qaradı. Nə deyim, təzə arvad aldım. Gəldi-gəlmədi bizə gün vermədi. Qızım onun üzünnən baş alıf getdi. Özü də hikkəsinnən, sərtdiyinnən dönüf Çillə oldu. Bizi soyuqdan buruf-büküf yumağa döndərdi.

Bunnan sonra arvadın ruhu da dönüf Böyük Çillə olur.

Böyük Çillə gəzir, dolanır, gəlif yol qırağında Kiçik Çilləynnən rastdaşır.

Kiçik Çillə deyir:

– Böyük Çillə hara belə, xeyir ola?

Böyük Çillə deyir:

– Gedirəm elimi-ovamı görüm. Onnara baş çəkim gəlim.

Böyük Çillə Kiçik Çillədən ayrılıf gedir. Az gedir, çox gedir, gəlif ovasına çatır. Görür nə: camahat orda-burda soyuxdan sozalır. Elə eliyir ki, hamı yığılır təndirin başına. Hamıyı içəri, təndirin başına yığannan sonra çıxıf gedir. Böyük Çillə yenə Kiçik Çilliyə rast olur.

Kiçik Çillə soruşur:

– Ay bajı, ay günü, getdin neynədin?

Böyük Çillə deyir:

– Getdim, hamıyı təndirin başına yığdım. Soyuxdan üşüyürdülər.

Kiçik Çillə deyir:



– Sən getdin hamısını təndirin başına yığdın. Mən də gedif təndirdən soxuf külfədən çıxardajam.

Kiçik Çillə yola düşür. Gəlif məkana çatır. Elə soyux eliyir ki, doğrudan da, camaat qaçıf özünü verir təndirin qırağına. Amma yenə cannarı qızmır kı, qızmır. Elə bir şaxta olur ku, daha nə deyim. Qaranquş da bu soyuğa görə baş alıf bu yerrərdən gedir. Kiçik Çillə çıxannan sonra qaranquş gəlif evlərin divarında yuva qurur. Sonra yenə də soyuqlar düşəndə oradan uçuf isti yerrərə gedillər.

## QIZILGÜL VƏ BÜLBÜL

Gözəl bir qız varıymış. Onun hüsnü-camalı, boy-buxunu, qəddi-qaməti dünyaya səs salıfmış. Bir gün elin addı-sannı igiddərinnən biri ürəyini ona açır.

Qız onun məhəbbətinə biganə qalmır. Bir-birinin eşqinnən dəli-divanə olullar.

Bir gün oğlan başqa bir gözələ rast gəlir. Əvvəlki əhdi-peymanı unuduf indi də bu qıza aşiq olur.

Birinci sevdiyi qız günnərnən onun yolunu gözdüyür, ancax oğlan gəlif çıxmır. Axır kı, qız əhvalatdan xəvər tutur. Dərd-qəm içində alışıf-yanır. Gejə-gündüz göz yaşdarı axıdır.

Bir gün oğlan öz işdərinnən peşman olur. İstiyir ki, gedif sevgilisini görsün. Onun qəlbinə dəydiyi üçün üzr istəsin. Oğlanın gəldiyini görən qız dərinnən nalə çəkir. Üzünü göyə tutuf deyir:

– Ya rəbb, elə elə ki, bir də belə bir namərdin əli mana toxunmasın.

Qız dönüf ağ gülə çevrilir. Budağının hər yanınnan tikannar çıxır. Oğlan bunu gözdərinnən görür və dərddən yanıxlı-yanıxlı oxuyuf gülün başına fırranır. Gejə-gündüz gülün başına dolanan oğlan Allaha yalvarır kı, onu quşa döndərsin. Heç olmasa budağına qonuf iyini ala bilsin. Allah səsini eşidif onu quşa çevirir. O, sevilə-sevilə gülün üstünə qonur. Ağ gülün tikannarı onun köksünə sancılır. Bülbül al qana boyanır. Qanı gülün ağ ləçəklərinə tökülür. Ağ gül qırmızı rəngə boyanır. Qızılgülə çevrilir. Bülbülün vəfasızdığı hər yerə yayılır. Bülbül də öz günahını yumax üçün həmişə bu gülə qonuf, yanıxlı-yanıxlı oxuyur.

## LALƏ (LALAXAŞ)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əmi qızı, əmi oğlu bir-birini sevillər. Bir günnəri, bir dəqiqələri bir-birinnən ayrı keşmir. Hər dəfə görəndə əmisi qardaşı oğluna deyirmiş:

– Necə də olsa, qızımı sana verəjəm.

Qız yekəlif həddi-buluğa çatır. Əmisi yavaş-yavaş onun ayaxlarını qardaşıgildən kəsir. hər iki cavan dərd-qəm içində alışıf-yanır. Heş kəsdən onnara imdad olmur.

Bir gün qız məktuf yazıf çox çətinniknən əmisi oğluna çatdırır. Oğlan məktuvu oxuyuf, görür kü, əmisi qızı onu dağın ətəyindəki görüş yerrərinə çağırır.

Qız günün günorta çağı gəlif çıxır və'də yerinə. Oğlan orada onu gözdüyürdü. Onnar söhbət etdikləri yerdə qəfildən bir oğlan gəlir. Bu atasının onu nişannamax istədiyi oğlanıydı. Qız görür kü, arıya qan düşəjək. Ona görə əmisi oğluna deyir:

– Əmioğlu, sən məni bu dərədən aşağı at, qoy mən ölüm, bunnnan da hər şey bitsin. Oğlan razı olmur. Qız özünü atmax istiyəndə oğlan əlini atıf onun saşdarınnan tutur. Amma onnar özdərini saxlıya bilmillər. Hər ikisi uçurum dəriyə düşüf tələf olullar. Araya girən oğlan tutduğu işdən peşman oluf özünü onnarı dalınca atır. O da orada ölür. Ləçəklərin ortasında qara saçaxlı tellər və bir də düyməcik olur.

Rəvayətə görə, düyməcik və qara ləçəklər qıznan oğlanın, qara tellər isə onnarın bir-birinə qovuşmağa qoymuyan oğlanın qanınnan yaranır. Bu gülün adına lalaxaş deyillər. Bu gül ən çox uca dağ ətəklərində, uçurumlu yerrərdə bitir.

## YASƏMƏN

Görəsən niyə yasəmən dağlarda, düzdərdə, çəmənnərdə bitmiyif, ağaşdarın başına çıxıf?

Belə deyillər ki, iki qardaş olur. Onnar bir-birinnən xəvərsiz bir qızı istiyillər. Böyük qardaş ürəyini qıza açıf onnan evlənir. Bunnar mehriban yaşıyıllar. Qızın dərdinə dözmüyən kiçik qardaş bir gün böyük qardaşını vuruf öldürür. Qız ərini qapıdakı bağçada dəfn eliyir.

Qardaşının basdırıldığı gün, kiçik qardaş gəlinin yanına gəlif deyir:

– Sənin ərini, qardaşımı mən öldürmüşəm. Özü də bunu sana görə eləmişəm. Mən səni sevirəm. Gərək sən bu günnən mənim arvadım olasan.

Qız dərinnən bir ah çəkir və deyir:

– Sən mənim qaynımsan, gərək bu iş olmuyaydı. İndi ki belə oldu, savaha qədər mana möhlət ver.



Qaynı onnan razılaşır. Qız bütün gejiyi fikirrəşir, nə qədər dağı arana, aranı dağa çəkirsə, çıxış yolu tapa bilmir. Savah açılan kimi yerinnən duruf ərinin məzarı üstünə gəlir. Görür burada bir ağaş bitif. Xeyli ağladıxdan sonra əlini göyə açıf imdad diliyir:

Allahım, öz birriyin xatirinə, mana bir yol göstər. Ya məni öldür, ya da bir gül elə, bu ağaşda ərimin yasını saxlıyım.

Diləyi qəbul olan gəlin sübh donunda, sübh rəngində bir gül oluf həmin ağacın budağına qonur. Sevinə-sevinə deyir:

– Əmin oldum. Onun adı da burdan əmələ gəlif. Yas və əmin sözünnən.

## II VARİANT

Bir qıznan bir oğlan bir-birini istiyirmişdər. Bir gün razılaşıllar kı, bağçada görüşsünnər.

Gejə qarannıx düşəndə bunnar bağçaya gəlillər. Bağça açıxlıx olduğunnan bunnarı görən olmasın deyə, çəkilif bir künşdə dayanıllar. Elə buradaca bir-birinə sarmaşıf yuxuya gedillər.

Savah gəlif onnarı bir yerdə tutur, ikisini bir-birinə bağlıyıf aparmax istiyillər.

Dədəsinnən qorxan qız yalvarır:

– Ay Allah, bizi ya öldür, ya da ağaşdan, güldən bir şeyə çevir, dədəmin üzünə belə çıxmıyım.

Oğlan ağac olur, qız da onun üstündə sübhün mavi rəngində bir gül. Bir-birinnən ayrılmıllar. Ətirrəri bütün bajıya yayılır. Bağçanın yaraşığına çevrilillər.

## GÜLXƏTMİ

Xətmi adında bir qızın nişannısı bərk xəstələnir. Dərdinə dərman tapılmır. Xətmi hər gün dağdan, düzdən çiçəklər yığıf dərman düzəldir. Yenə də heş bir xeyri dəymir. Bir gün dağda çiçək yığanda Xətmi ağlıyır. Göz yaşdarı dilə gəlif soruşur:

– Xətmi, niyə ağlıyırsan?

Xətmi deyir:

– Bəs neyniyim? Elə gül olmadı kı, dərman eləmiyim. Nişannıma əlac tapa bilmədim.

Göz yaşı deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Elə bir gül bitər ki, o sənin nişannına dərman olar, ağlama.
Xətmi deyir:
– Kaş elə mən özüm gül olaydım. Təki nişannım sağalaydı.
Söz ağzınnan qurtarmamış Xətmi gülə çevrilir. Nişannısı o güldən dərman kimi istifadə eliyif tamamilə sağalır. Həmin gülə bir zamannar Xətmi gülü deyillər. Sonra da el arasında adı dəyişif Gülxətmi oluf.

## GİCİTKAN

Dünyada tayı-biravarı olmuyan bir gözəl olur. Onu hər tərəfdən istəyirlər. Amma qız heş kimə getmir. Axır kı, bir kasıf oğlanı sevdiyini anasına xəvər verir. Anası da daş atıf başını tutur ku, oğlan kasıfdı, biz dövlətdi, biznən onunku tutmaz.
Bunu eşidən oğlan başını götürüf pul qazanmaxdan ötrü uzax yerrərə gedir. Qız da başdıyır onun yolunu gözdəməyə.
Bir gün dədəsi onu dövlətdi bir oğlana nişannıyır. Vaxt o vaxt olur ku, gəlillər gəlini aparmağa. Elə ki, karvan gəlir, qız eşiyə çıxıf alağın dalında zivilliyin içində oturuf zülüm-zülüm ağlıyır. Üzünü göyə tutuf deyir:
İstəmədiyimə qismət olunca zir-zibil oluf ayax altında qalaydım, ot oluf heyvannara yem olaydım.
Elə bu vaxt qızdar onun başına yığılıllar ki, gedək başını bəziyək. Oğlan adamları səni gözlüyür. Qız elə bir ah çəkir ki, yer-göy lərziyə gəlir. Qızdar onun qolunnan tutuf çəkillər. Qızdarın əlini dalıyır. Qızdar əllərini ovuşdura-ovuşdura qaçıf onun anasına xəvər aparıllar ki, başımıza belə bir iş gəlif. Camaat tökülüf gəlir, hamı bu işə məhəttəl qalır.
Elə o vaxtdan da həmin tikannı bitki zir-zibilli yerrərdə bitir. Adınada gijirtkan deyillər.

## DANAQIRAN

Eh, fələk... fələk... Fələyin evi yıxılsın, bala! Deyillər ki, bir oğlan varıymış. On, on iki yaşında. Uşaxkən anasınnan, dədəsinnən yetim qalan bu oğlanı əmisi saxlıyırmış. Var-yoxu bircə bu əmisiymiş ki, bunun da var-dövləti başınnan aşırmış. Var-dövlətin çoxluğuna baxmıyarax,



qardaşı oğluna çox əziyyət verirmiş. Oğlan yaz-qış əmisinin danalarını otarırmış. Bu qədər əziyyətə bir qarın çörək yeyirmiş.
Bir gün oğlanın başına bədbaxtdıx gəlir. Naxırı çöldə otardığı yerdə iki qurd peyda olur. Danalardan ikisini-üçünü parçalıyır. Oğlan ağlıya-ağlıya naxırı evə gətirir.
Göz yaşdarına baxmıyarax, əmisi onu o qədər döyür, o qədər döyür, daha nə deyim? Bunnan da ürəyi soyumuyıf oğlana deyir:
– Hardadı danaları gətir yerinə qoy. Yoxsa günün qara olajax.
Oğlan tezdən duruf danaları örüşə aparır. Elə yerdə otarır kı, ordan ova görünür. Danalar otduyur, oğlan da ağzı üstə yıxılıf fikirrəşir. Əmisinnən o qədər çirgiyir ki, az qalır kı, gedif bütün mülkünə od vursun.
Birdən onun beyninə gəlir ki, nolaydı bir zəhərri bitki olaydı, bütün danalar otduyuf öləydilər. Onda əmim lap ərş öynünə kimi yanardı. Belə fikirrəşə-fikirrəşə yuxuya gedir. Bir daha ayılmır. Mavi gözəl gülə çevrilif çöl boyu yayılır. Danalar onu yeyən kimi ölüllər.
Gejə düşür. Əmisi görür kü, oğlan gəlmədi. Naxır da çöldədi. Öz-özünə dedi:
– Özü cəhənnəm, naxırı aparıf batırar. Var-yoxum əldən gedər. Gedim görüm hardadı?!
Beləjə öz-özünə deyinə-deyinə gəlir çölə. Çox axtarannan sonra bir təpəlikdə naxırı tapır. Ancaq danaların hamısı ölmüşdü. Nə qədər axtarırsa, oğlanı tapa bilmir. Başına-gözünə döyə-döyə gəlir kəndə. Bir çovan deyir ki, o görüfdü. Oğlan birdən-birə gözümün qavağında gülə çevrildi.
Bunnan sonra həmin gül xalq arasında danaqıran adınnan tanınır.

## GƏLİNBOAN

Lap qədim zamanlarda bir kişi öz cavan gəlinini yanına çağırıf deyir:
– A bala, apar bu malın qarın-qırtasını, iç-içalatını bulaxda tər-təmiz yu. Elə elə ki, qat-qatdarın arasında peyin qalmasın.
Gəlin qayınatasının tapşırdıxlarını iri bir ləyənə dolduruf bulağa yollanır.
Cavan gəlin başdıyır içalatı, qarın-qartıyı yumağa. Hamısını gül kimi yuyur, təmizdiyir ləyəninə də salavat çəkif doldurur onun içinə, alır qoltuğuna qayıdır qayınatasının yanına. Yazıx gəlin haradan biləydi ki bir-birinə yapışan qat-qatdardan tək bir dənəsinin arası açılmamış qalıf və peyini təmizdənməyif.
O ləyəni qoyur qayınatasının qavağına. Qayınata da başdıyır bir-bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yoxlamağa, görsün gəlin necə yuyuf? Görür gəlin çox səliqəli iş görüf, amma tərsdikdən bir qat-qatın arası açılmadığınnan peyini qalıf.

Bünü görən gəlini xəcalət təri basır. Utandığınnan özünə yer tapa bilmir. Öz-özzünə fikirrləşir: Bunnan sonra bir də qaynatamın üzünə baxa bilmərəm. Belə biyavırçılıxdansa, ölüm yaxşıdı.

Gəlin gözdən oğurranıf, xəlvət bir yerdə özünü asıf öldürür.

O günnən el arasında mal-qaranın qarnındakı həmin hissəyə gəlinboğan deyillər.

Arvadı görəndə ona tərəf yaxınnaşır.

Arvad qorxu içində bilmir neynəsin. Əlinə aldığı ağacı səmtdiyir ki, əgər onu vuruf eləsə, bu da həmin adamı bu ağaşnan vuruf, özünü qorusun.

Həmin adam gəlif onun bərabərriyində dayanır. Arvadın ürəyi lap ayağının altına düşür. Əsə-əsə bir addım geriyə çəkilir. həmin adam əlindəki yekə bir dəyənəyi qaldırır kı, onun başına endirsin. Bu da fürsəti əldən vermiyif, ağacını havada bir-neçə dəfə yelliyərək o adamın başına endirir. Vurduğu adamın başı iki yerə parçalanır. Arvad ağacı çəkif çıxaranda görür kü, bu ağaşın ucu par-par parıllıyır.

Bu gözünə döndüyüm arvad oğrunu lap rahatdamax üçün onu bu dəfə də düşmənin ürəyinə sancır. Sonra da gəlif hay-havar salır kı, oğruyu tutmuşam. Camaat tökülüf gəlir. Ölüyü töküf-töküşdürüllər. Mə'lum olur ku, bu oğru kişi paltarı geymiş arvadıymış. Tafdıxları qiymətdi şeyləri arvada verillər.

Savah açılan kimi bu arvadın ağacına baxıf hərə özünə birini düzəldir. Amma onnarın kı arvadın silahı kimi iti olmur. Arvad da başına gələni olduğu kimi nağıllıyır. Görüllər ki, bu ağacın ucu poladdandı. Başa düşüllər ki, Allah-tala bunnarı darda qoymuyuf, ağacı havada xəncər eliyif.

Elə o vaxtdan da o kəndi Xəncərri addandırıllar. Sonralar oralar dağılıf. İndi bircə oranın adı qalıf və bir də evlərin uçux-dağınıx xaravalıxları.



# R Ə V A Y Ə T L Ə R

## BALII AT DƏRYAYA, BALIX BİLMƏSƏ DƏ, XALIX BİLƏCƏK

Bir səhər, hələ dan yerinə səda düşməmiş bir balıxçı öz oğlunnan birrikdə dəryadan balıx tutmağa gedir. Toru iki dəfə atıf çəkillər, boş çıxır. Üçüncü dəfə torda bircə dənə balıx olur. O da qızıl balıx. Balığın gözəlliyi ata-oğulu heyran edir. Oğul cəld balığı tordan çıxardıf kənara atmax istiyir. Atası balığın gözəlliyinə heyfi gəlif deyir:

– A bala, belə gözəl balığı həyatdan ayırmax olmaz. Hələ günün nə halıdı kı. Səhərin gözü təzə açılıf. Axşama çox var. İnşallah, evə əliboş getmərik. Məni eşit, balığı at dəryaya, bir yaxşılıx elə.

Oğul gülüf deyir:

– Ay ata, balıx pisdiyi, yaxşılığı hardan bilir?

Atası təmkinnən deyir:

– Oğul, balığı at dəryaya, balıx bilməsə də, xalıq biləjək.

Oğlan atasının sözünnən çıxmayıf balığı dəryaya buraxır. Sonra balıx balıxçını tükənməz var-dövlət sahibi edir.

## BƏYNƏN BOSTAN ƏKƏNİN TAI ÇİYNİNDƏ BİTƏR

Bir kasıf kişi bir bəynən şərikli bostan əkir. Şərtə görə məhsulun beşdən biri kənddiyə çatasıymış. Yazıx kənddi buna da razı olur. Kasıf kişi bəyin torpağında o qədər çalışır kı, nəticədə də əməyi hədər getmir. Bol məhsul yetişir.

Bəy görür kü, heş vaxt bu ilki qədər məhsul yetişmiyif. O çox böyük zəhmətnən yetişdirilən məhsulun heş beşdən birini də kasıf kişiyə vermək istəmir. Ona görə də vijdanını murdar tamahına qurvan verif deyir:

– Kişi, bilirsənmi nə var? Qovun, qarpız, yemiş tağları torpağa dəyif, çürüyür. Sən növbəynən onnarı çiyninə alıf bir neçə saat müddətində günəşin qavağında saxlamalısan. Yoxsa, şərtimiz pozular.

Əlaşsız qalan kasıf bir gün, iki gün bostandakı tağları çiyninə alır. Axırda baxır kı, bu baş tutan iş döyül. Ona görə də, bostanı tərk etməli olur.

Başına gələnnəri qohuma, qonşuya, dosta, tanışa danışır və axırda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyir:

– Olmuya, bilmiyə bəynən bostan əkəsiniz. Unutmuyın ku, bəynən bostan əkənin tağı çiynində bitər.

## TƏLƏ YİYƏSİ GƏLİF TƏLƏSİNİ AÇAJAX

Bir tülkü özünə yem axtarmax üçün dolana-dolana gəlif bir dərəyə çıxır. Kor-peşman dincini alarkən birdən gözü bir az aralıdakı qoyun quyruğuna sataşır. Tülkü sevindiyinnən yağlı quyruğu qapmax istiyir. Sonra baxır kı, quyrux ovçunun tələsinin üstündədi. O, quyruğun yanınnan bir az kənarda çəkilif gözdəməyə başdıyır. Quyruğu yemək üçün öz-özünə fikirrəşir, götür-qoy edir. Tülkü bu fikir-xəyalda ikən buraya bir ac qurd da gəlif çıxır. Tülkü qurdun gəlişiynən işinin düzəldiyini bilif sevinir.

Canavar bir qoyun quyruğuna, bir də tülküyə baxıf soruşur:

– Tülkü, əcaba, quyruğu nə üçün yemiyifsən?

Tülkü hiyləgərriyə başdadı. Yazıx bir görkəm alıf dedi:

– Qurd lələ, sənin gələcəyini bilirdim. Ona görə də quyruğa əl vurmadım. Qoymadım başqa heyvannar da yesinnər. Hamısına da dedim ki, quyrux bu yerrərin sultanı olan canavarındı.

Bu sözdərdən xoşhal oğlan canavar "Mərhaba, kamalına sənin, tülkü!" – deyif quyruğun üstünə atıldı. Qurdun atılmasıynan tələnin açılmağı, qurdun tələyə düşməyi və quyruğun kənara sıçraması bir oldu.

Tülkü sevincək quyruğun hamısını yedi və başdadı yoluna davam eləməyə. Tülkünün kələyinə düşdüyünü bilən canavar yazıx-yazıx dedi:

– Tülkü qardaş, hara gedirsən? Bəs bu tələni kim açajax kı, mən xilas olum. Kömək elə.

Tülkü halını pozmadan dedi:

– Darıxma, ajgöz və ağılsız qurd. Tezdiknən tələ yiyəsi gəlif, tələsini açajax.



## İLANIN AINA DA LƏ’NƏT, QARASINA DA

Bir kişi meşəyə odun doğramağa gedirmiş. O, meşəyə çatar-çatmaz bərk xışıltı, fışıltı səsi eşidir. Dönüf səs gələn tərəfə baxanda görür kü, bir qara ilannan, bir ağ ilan vuruşullar. Qara ilan güjdü olduğunnan ağ ilanı al-qanına boyuyuf. Kişinin ağ ilana yazığı gəlir. Əlində baltaynan qara ilanı cəhənnəmə vasil eliyir. Kişi bir də görür kü, ağ ilan ona hücum eliyir. Kişi fürsəti fovtə vermiyif ağ ilanı da öldürür.

Qayıdıf kəndə gələndə başına gələnnəri camaata danışır və axırda da deyir:

– Sizə məsləhətim budu ku, ilana heş vaxt yaxşılıx etmiyin. İlanın ağına da lə’nət, qarasına da.

## EŞŞƏYİN AJIMIŞI ATDAN YEYİN GEDƏR

İki qonşu birgə səfərə çıxıllar, biri atnan, o biri eşşəknən. Yol bir az uzax və hava isti olduğunnan eşşək tənbəllik eliyir, lap yavaşca gedir, güjnən yeriyir. Atdı isə gözdəmiyif xeyli uzaxlaşır. Bunu görən kişi eşşəyi nə qədər döyürsə, mümkün olmur. Axırda kişi hirsdəndiyinnən özünnən götürdüyü sirkədən bir az eşşəyin dalına sürtür. Sirkə yandırdığınnan, eşşək götürülür, nə götürülür. Bir su içimində gedif atı da keçir.

Ona görə də deyiflər:

Eşşəyin ajımışı atdan yeyin gedər.

## DƏVƏÇİYNƏN DOST OLANIN DARVAZASI GEN GƏRƏK

Başqa-başqa şəhərrərdə yaşayan iki dost olur. Dostdar bir-birilərini evlərinə də’vət edillər. Sən demə, bu dostdardan biri dəvəçiymiş. Dəvəçi dostunun sədaqətini yoxlamax məqsədinnən ilə o biri dostu yaşadığı şəhərə satmağa bir dəvə yükü mal aparır.

Dostlar bazarda görüşüf, öpüşüllər. Dostu təkidnən bildirir ki, nə qədər ki, burdasan bizdə qalajaxsan. O axşam üstü gəlif dostunu dəvəsinnən birgə evlərinə aparır. Qapıya çatanda görür kü, dəvə onun kiçik darvazasınnan həyətə keçə bilmiyəjək. Onnar fikirrəşif bir çıxış



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yolu axtarmaxda ikən burada toplaşannardan kimsə zarafatyana deyir:
– Qonşu, bunnan sonra yadında saxla kı, dəvəçiynən dost olanın darvazası gen gərək.

## QIZIM, SANA DEYİRƏM, GƏLİNİM, SƏN EŞİT

Bir kişinin çox tənbəl bir gəlini varıymış. Kişi utandığınnan gəlininə heş nə deməzmiş. Ona deyəcəyi sözdərin hamısını üstüörtülü qızına deyərmiş. Bunnarı gəlin də hiss edərmiş.

Bir gün belə, beş gün belə. Olmur. Axırda gəlin bu deyingən qayınatanın əlinnən zara gəlif dillənir:

– Özünü çox yoruf, əldən salma, ay qayınata. Bilirsənmi, səninki nədi, qızım, sana deyirəm, gəlinim, sən eşit! Gəlin çoxdan eşidir. Yüz də desən, gəlinnən haray gözdəmə.

## DƏLİ BİR QUYUYA DAŞ ATDI, YÜZ AILLI YIILDI, ÇIXARDA BİLMƏDİ

Bir eldə, obada bir su quyusu varıymış. Camaat bu sudan içər, quyuya müqəddəs bir yer kimi baxallarmış. Çünki bu quyu adamların elə bil həyat çeşməsiymiş.

Bu kənddə bir dəli varıymış. O, bir gün ağlına nə yerrəşir, nə yerrəşmir, gəlif quyunun yaxınnığındakı qayanı güjnən itəliyif salır quyuya. Qaya gedif quyunun divində su çıxan yeri qapayır. Quyudan daha su çıxmadığınnan içindəki su da yavaş-yavaş çəkilir, quyuda bir damcı da olsun su qalmır.

Bunu bilən adamlar çox peşiman olullar. El yığılır quyunun başına. Çox dərs-gors eliyillər, düşünüllər ki, nejə eləsinnər bir dəlinin quyuya saldığı daşı çıxartsınnar, mümkün olmur ku, olmur. Uşaxdan böyüyə hamının dilinnən düşmüyən bir söz axırda dönüf belə bir zərb-məsəl olur: "Bir dəli bir quyuya daş atdı, yüz ağıllı yığışdı çıxarda bilmədi".

## KOSAYA HƏRƏ BİR TÜK VERSƏ, KOSA DA SAQQALLI OLAR

Bir dəfə boş vaxtı adamlar yığışıf, ordan-burdan söhbət edir, ara-bir zarafatdaşıf vaxtdarını keçirillərmiş. Birdən söz hərlənif-fırranıf gəlif



dayanır buradakı kosaya. Başdıyıllar kosaya sataşmağa. Hərə bir atmaca, hərə bir zarafat, hərə bir hədyan deyir və gülüşüllər.

Çox belə zarafatdara həmişə dözən və heş vaxt söz altında qalmıyan kosa halını pozmadan bütün bu zarafatdara cavaf verərək deyir:

– Kosaya hərə bir tük versə, kosa da saqqalı olar.

## BUA UÇAN, BUA BÖLÜNƏN

Adı aləmdə məşhur olan Miskin Abdalla bağlı əfsanələr arasında onun müqəddəs ojağına maralların sağına gəldiyini çox eşitmişdik. Maral, ceyran, cüyür, əlik Göyçə düzdərinin, dağlarının hər zaman yaraşığı olmuşdur. Lakin bu çöllər gözəli insannar tərəfinnən ovlandığınnan, get-gedə tükənmiş, son zamannar demək olar kı, tamamilə yoxa çıxmışdır. Deyilənə görə, vaxtilə Sarıyaqub kəndinin ərazisində belə bir əhvalat baş vermişdir.

Kəndin biçinçiləri "Darın boğazı" deyilən yerdə çay qırağındakı calanın otunu bişdikləri vaxt qənşərdəki qayalıxda bir ceyran buğası görüllər. Adamların Buğaya hayıfı gəldiyinnən onu "beşatılan", "onatılan" vurmax istəmillər. Çalışıllar ki, diri tutsunnar. Ona görə Buğanı tə’qib eləməyə başdıyıllar. Adamlardan qorxan Buğa qorxusunnan qarıxır, Aşağı Şorca kəndinin alt tərəfindəki qayalığın başına çıxır və oradan uçur.

O vaxtdan həmin yerin adı "Buğa uçan" qalır. Adamlar bu işə heyfisdənə-heyfisdənə tökülüşüf yarıcankeş olan buğanın başını kəsif, haravıya qoyuf, Sarıyaqub kəndinin girəcəyindəki bir yastanıya gətirir, orada pay-puş eliyif, buğanın ətini bölüllər.

Bu yerin də adı qalır "Buğa bölünnən"

## QURDA RƏHM ELƏMƏK, QOYUNA ZÜLM ELƏMƏK İMİŞ

Deyillər keşmiş əyyamlarda Əhməd addı bir çovan varıymış. Bu çovan da başqa çovannar kimi qoyun sürüsünü obaşdan ağıldan çıxarıf çölə haylıyır, axşam şər düşən kimi genə obaya qayıdır, sürüyü ağıla vurardı. Di gəl ki, bu çovanın özgə çovannardan yana bir dözülməz dərdi varıydı. Bu da bir yalquzağın ona rahatdıx verməməsiydi. Elə bil yalquzax biçarə Əhmədnən öjəşmişdi. Əlli sürünün arasınnan keçif onun sürüsünü tapardı. İtdər bilif hay-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

haray salan kimi yalquzax kök qoyunnardan birini göydəcə parçalıyırdı.

Zinhar olmuş Əhməd düşünüf-daşındı kı, daha çovannıxdan əl çəksin. Elə də elədi. Əkin-biçinnən məşğul olanda oldu, olmuyanda isə çəkilif oturdu evində.

Yalquzax hansı sürünün həndəvərində hərrəndisə bir arıx toğlu da çırpışdıra bilmədi. Neçə dəfə yallı çovan itdərinin dişinnən bir təhər sivişif çıxdı. Neçə dəfə dəli çovannarın çomağı onun gözünnən qor daradı. Çox gəzdi-dolandı, hər dərəyə, hər dağa baş vurdu. Əlinə heş nə keşmədi. Belə olduxda yalquzax düşündü kü, Əhməd çovanı axtarıf tapım. Ona çatdırdı ki, indiyəcən etdiklərimə peşman olmuşam.

Yalquzax bu fikirnən çovanı axtarmağa başdadı. Günnərin bir günü gəzə-gəzə gəlif bir biçənəkdə Əhmədi ot biçərkən tafdı.

Salam, Əhməd çovan!

Əhməd çovan salam – deyif, tərs-tərs ona baxdı. Sonra da qayıtdı kı, hə... indi niyə gəlifsən? Kərəntimi aparmağa?

Yalquzax başdadı gözdərinnən əliyif tökməyə. Hönkürtüsü dağa-daşa səs saldı. Yumşax ürəkli Əhməd çovan qayıtdı kı, ay yalquzax nə oluf niyə belə ağlıyırsan? De görüm dərdin nədi, bəlkə mən bir çarə edə bildim.

Yalquzağa elə bu lazımıydı. Gözdərinin yaşını silif şirin dilini işə saldı:

– Əhməd çovan, vallah-billah yanında üzüm qaradı. Mən sana xəyanət elədim, ona görə də işim gətidmədi. Günnən-günə tənəzzülə düşdüm. Belə olanda bildim ki, sənnən üzr istəməsəm ömrüm boyu xəcalət çəkməli olajam. İndi özün bil, ayağına gəlmişəm.

Əhməd çovan əlini ürəyinin üstünə qoyuf dedi:

– Nə deyirəm, uzanan əli kəsməzdər.

Yalquzax gördü kü, mətləb hasil olur. Odur ku, üzünü Əhmədə tutarax ərz elədi:

– Ay Əhməd çovan gəl siğə qardaş olax. And içək, aman eliyək ki, bir-birimizə sadiq olajıyıx. Sən də get öz çovanlığınnan məşğul ol. Ara bir yeri düşəndə mana də xəstə, arıx toğlulardan birini verərsən, mən də başımı dolandıraram.

Əhməd çovan razılaşdı. Səhəri gün çovannığa başdadı. Yalquzaxnan dostduğu da öz qaydasında gedirdi. Vaxt-bivaxt Əhməd çovan yalquzağın payını kəsmirdi. Onnar bir-birinə elə isnişdilər ki, daha deme. Hətta Əhməd çovan çox vaxt sürüyü yalquzağa tafşırıf başqa bir iş dalınca gedirdi. Amma yalquzax dostunnan ixtiyarsız bir çəpişin də burnunu qanatmazdı.

Gün keşdi, ay keşdi, dostduğa inanmış Əhməd çovan yenə sürüyü



qurd dostuna tapşırıf harasa getməli oldu. Yalquzağın birdən-birə gözdəri qızardı. Qanı coşa gəldi, özünü verdi sürüyə. Sürünün qoyunnarınnan qaşan qaşdı, qaşmıyannarın leşi yan-yana düzüldü. Bunnan sonra ağzını dağlara çöyürüf gözdən itdi.

Əhməd çovan gəlif qoyunnarının qırğının görən kimi işi başa düşdü. Bildi ki, aldanıf. Çomağını götürüf yalquzağın arxasınca getdi. Bir təpiyə çatanda gördü kü, yalquzax tənbəl-tənbəl yamaşnan gedir.

Əhməd çovan qışqırdı:

– Ey xəyanətkar qurd, sənin dostduxda ilqarın bu yurdumu?

Yalquzax qayıtdı kı, Əhməd çovan, ayax saxlıyım gəl, istəsən gözümü çıxart, çomağınnan başımı əz. Ancax xeyri yoxdu. İş işdən keçif. Mən də çalışırdım, dostduğa xəyanət eləmiyim. Mənim coşmuş qurd qanım buna imkan vermədi. Ürəyim də bildiyin kimi qurd ürəyidi. Bu ürək məni xəyanətə çəkirdi. Elə də çəkə bildi. Dostduğumuz naminə deyim ki, qurddan dost olmaz. Get dostunnan düşmənini tanı. Aldanmısan. Çalış bunnan sonra aldanma. Əhməd çovan üzünü dağlara tərəf çevirif, dərinnən bir köks ötürüf dedi:

– Doğurdan da qurda rəhm eləmək, qoyuna zülm etmək imiş.

## DİLƏNÇİLƏRİN ÇÖRƏYİNƏ BAİS OLMA

Zəngəzur, Dərələyəz, Dərəçiçək, Qazax, Qarabağ mahalları ilə həmsərhəd olan Ulu Göyçədə lap qədim zamannarda Zərgərri (indiki Sarıyaqub) kəndində qədim Zərgərri tayfasında Miskin Abdalın ulu bavası Yaqub kişinin İbrahim adında bir oğlu varıymış. Onun qızıl-gümüş, lə'l-cəvahiratı, mal-qarası, qoyun-quzusu, at ilxısı dünyaya cavaf verərdi. Lakin bir belə tükənməz var-dövlətin içində İbrahim ən çox öz sarı köhlənini sevərdi. Bu atın yaraşığı, gözəlliyi bir yana, qaçışında tayı-baravarı olmadığınnan ona "Yelat" deyərdilər. Hamının da gözü bu atda idi. Onun tə'rifi qonşu mahallara yayılmışdı.

Göyçədən xeyli uzaxlarda yaşıyan bir atbaz Sarı köhlən haqqında eşidif bu atı nejə olursa-olsun ələ keçirmək fikrinə düşür. Bu fikirnən çoxlu qızıl götürüf "Yelat"ın sorağınnan Göyçüyə yol başdıyır. Bir neçə günnən sonra Göyçüyə, oradan da soraxlaşa-soraxlaşa gəlif Zərgərriyə çatır. Kənddə bir nəfər adam onu İbrahimgilə gətirir.

Bir xeyli ordan-burdan söhbət etdikdən sonra qonax gəlir mətləv üstünə. Fikrini İbrahim kişiyə deyir. Qonağı dinnədikdən sonra İbrahim təmkinnən deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qonax qardaş, gəlməyinə xoş gəlmisən. Ancax bil ki, sən atbazsansa da, mən də sənnən betərəm. Pulumu, qızılımı qoymağa yer tapmıram. Nə qədər istəsən sana pul da verərəm. Mənim dünya malında gözüm yoxdu. Bu sevdadan əl çək.

Atbaz qonax kor-peşiman evdən çıxır. Gözü evin arxasında hörükdə olan "Yelat"a sataşır. Kişi atı görənnən sonra içinnən qovrula-qovrula qalır. Yol boyu fikirrəşə-fikirrəşə qərara gəlir ki, nejə olursa-olsun atı ələ keçirməliyəm. Bu məqsədnən Zərgərriyə yaxın obalarda-ellərdə bir xeyli gəzif dolanır, vaxt keçirir, saqqal buraxır kı, qavaxlaşsalar at sahivi onu tanımasın. Bunu yəqin etdikdən sonra qurduğu kələyi həyata keçirməyə başdıyır. Çox çətinniknən örgənir ki, yaxın günnərin birində İbrahim kişi bir neçə atlıynan qonşu ellərə səfərə çıxajax. Ona görə də kənddən xeyli aralıda həmin yolun kənarında dilənçi, əlil, şikəst şəklində uzanıf qalır. Gözünün altınnan baxır ki, atdılar kənddən çıxdılar. Qavaxda da Sarı köhlən. Köhlən, nə Köhlən!

Atdılar burya çatanda baxıllar ki, yolun kənarında bir kişi uzanıxlı qalıf. İbrahim kişi çağırır. O, güjnən hay verir, guya heyi yoxdu. İbrahim onu tanımayıf deyir:

– Ay kişi, kimsən, nəçisən, burada niyə qalıfsan?

Atbaz yazıx-yazıx, zarıyı-zarıya deyir:

– Ay qardaş, kimsəsiz şikəst dilənçinin biriyəm. Bu sözdəri eşidəndə İbrahimin kişiyə çox yazığı gəlif dedi:

– Qalx, tərkimə min, səni aparım evimə, özünə də o qədər pul verim ki, ömrünün axırına qədər ha xərşdə ki, qurtarajaxsan. Dilənçilikdən yaxan birdəfəlik qurtarsın.

Kişi baxır kı, iş yavaş-yavaş düzəlir. Odu ku, bir az da yazıx görkəm alıf hıqqana-hıqqana deyir:

– Ağam, Allah sana kömək olsun. Allah sənnən razı olsun. Allah balalarını saxlasın. Sana əziyyət olar. Səfər üstəsən. Yolunnan olma. Qoy mən harada qalıramsa, qalım.

İbrahimin qəlbi daha da kövrəlir:

– Kişi, dur gəl atın tərkinə min, səni evimə aparım. Mana bunnan yaxşı, bunnan savaf iş yoxdu.

Atbaz kişi özünü tülkü ölümcüllüyünə vuruf dedi:

– Ağam, taqətim qalmıyıf kı, yerimnən tərpənəm. Bunu eşidəndə İbrahim kişi lap pərişan oldu. Tez atdan düşdü. Üzünü yoldaşdarına tutuf, dedi:

– Gəlin, bunu qaldırıf qoyun mənim atımın üstünə. Mən də dilənçinin xurcununu, çəliyini götürüm. Yolumuza davam edək. Bu yazığın dadına çatax.



Yoldaşdarı atdan düşdülər. Kişini götürüf "Yelat"ın üstünə qoydular. İbrahim atbazın xurcunun, çəliyini götürmək istiyirdi ki, baxdı kı, bayax zarıyan, danışmağa heyi olmuyan dilənçi Sarı Köhlənin belində, atın yüyəni əlində, o biri əlində də qamçı şax dayanıf.

İbrahim kişi bu işə mat qaldı. Kələk olduğunu dərhal annadı. Zəndnən baxıf kişiyi tanıdı. Bildi ki, o at qaytaran deyil. Nə də "Yelat"a çatmax olmaz. Əlaci hər yerdən üzülən İbrahim atbaza üzünü tutuf deyir:

– Kişi, adam namərd olmaz. Sən bir namərddik elədin, şikəst dilənçi adıynan Sarı köhləni əlimnən çıxartdın. İkinci bir namərddik edif atı nejə ələ keçirdiyini heş yerdə danışma. Hər yerdə de ki, atı oğurruyuf gətirmişəm. Bu daha yaxşıdı. Əgər desən ki, "Yelat"ı şikəst dilənçi adıynan aradan çıxartmışam, onda bunnan sonra heş kəsin dilənçilərə yazığı gəlməz. Hamı elə bilər ki, dilənçilərin hamısı sənin kimi dələduz, hiyləgərdi. Namərddiyi buraya qədər etdin, bəsdi. Barı dilənçilərin çörəyinə bais olma.

## BƏYLİK KƏNDİ

Deyillər əyyani-qədimdə İrəvan mahalının kəndərinnən birində bir kasıf adamın Seyran adında gözəl-göyçək bir qızı olur. Seyran on dörd-on beş yaşında olanda aya deyirmiş sən çıxma, mən çıxım, günə deyərmiş sən çıxma mən çıxajam. Onu görən adamlar bir görüm deyərmiş. Cavan oğlannar Seyranı görməık üçün əldən-dildən gedər, saatnan onnarın məhəlləsində hərrənir, onu görməmiş getməzdərmiş.

Söz-söhbət hər yana yayılır. Seyranın gözəlliyi el-el, oba-oba yayıla-yayıla gedif çatır İrəvanda Sultan xanın oğlu Balı bəyin qulağına. Nə varıydı, kefi kök xan oğlu dost-tanışını yığıf onnara bu əhvalatı danışannan sonra dedi:

Mən gedirəm Seyranı görməyə. İstəsəniz mənnən gedə bilərsiniz.

Balı bəy ata süvar olmuş gəlif çıxdı Seyran yaşıyan kəndə. Soraxlaşıf evlərinin yerini öyrəndi.

Sizə onu da deyim ki, bu vaxtdar Seyranı ata-anası eşiyə buraxmırdı. Deyirdilər cavan qızdı, göyçək uşaxdı. Namərd əli toxuna bilər.

Balı bəy o axşama kimi evin dörd tərəfində, məhlədə nə qədər hərrəndisə Seyranı görə bilmədi ki, bilmədi. Özü ilə apardığı adama



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dedi:
Gəl gedək bulağın başında bir az oturuf dincələk. Həmi də su içərik. Onnar elədə elədilər. Gedif bulağın başında oturdular. Bulağa bir qoca arvad gəlif sənəyini dolduruf qayıtmax istəyəndə gördü kü, burada iki cavan oğlan oturuf. Özü də qəriv adama oxşuyullar. Həmi də gördü kü, bunnar yaxşı geyinif, gejiniflər. O zamannar hər adam yaxşı geyinif-gejinmirdi.
Qarı üzünü cavannara tutuf dedi:
—Dərdinizi alım, kimi gözdüyürsünüz? Görürəm qəriv adama oxşuyursunuz?
Balı bəy dedi:
—Nənə, biz İrəvannanıx. Mən Sultan xanın oğluyam. Eşitmişəm burda Seyran adında gözəl bir qız var. Onun sorağınnan gəlmişəm. İndi o qızı görə bilmirəm. Əgər o qız xoşuma gəlsə, onu alıf toy eliyəjəm.
Qarı Sultan xanın oğlu adını eşidəndə sənəyi yerə qoyuf Balı bəyi aşağıdan-yuxarı süzdü. Ürəyində düşündü kü, yaxşı oldu, Seyranı buna göstərsən yaxşıca nəmər alajam.
Qarı dedi:
—Dərdin alım, onu mən eliyərəm. O mənim əlimin içində. Heş fikir eləmə. Gedəyin mənim evimdə oturun. Seyranı mən gətirif gələjəm, orda baxarsan.
Bala bəy sevincək ayağa qalxıf civinnən bir ovuc qızıl çıxarıf qarının ətəyinə boşaltdı. Qarının gözü meşə pişiyinin gözü kimi bıldır-bıldır yandı.
—Bıy dərdin alım, bu nədi? Mən onsuz da eliyərəm. Gəlin evimizdə oturun, ayıf döyülmü burda oturursunuz?
Qonaxlar qarının daxmasına gedif taxtın üstündə əyləşdilər.
Qarı fıral geri qayıdıf Seyrana yolda demədi ki, qayıdıf qaçar.
Seyran içəri girəndə Balı bəyi və onun yoldaşını gördü. İstədi geri dönsün. Qarı aman vermədi. İçəri keç, içəri keç deyə onu evin ortasına apardı.
Balı bəy bir könüldən min könülə Seyrana vuruldu. Seyranın qəlbində də Balı bəyə sonsuz məhəbbət duyğuları baş qaldırdı.
Qarı hər şeyi yerinə qoyuf, nizamlıyınnan sonra dedi:
—Bir üzük ver, Seyran bilsin ki, sən onun nişannısısan.
Balı bəy öz üzüyünü çıxarıb Seyranın barmağına taxdı. Onlar halal-hümmət eləyif ayrılanda dedi ki, elçilərimi göndərəjəm.
Balı bəy İrəvana qayıdıf başına gələnnəri anasına danışdı. Anası dedi:
—Çox yaxşı, ay oğlum, bəs o qızın əsil-nəcabətini öyrəndinmi? Kimdilər, nəcidilər, bəlkə heç bizim tayımız döyüllər?



Balı bəy dedi:
—Ana, kəndçi adamdılar. Pak, təmiz insannardı. Əkif-bişməknən məşğuldular.
Yox oğlum, atan bunu qəbul eləməz. Sən bu sövdanın bir daş altına qoy, bir daş da üstünə.
—Ana, mən Seyranı almalıyam. Siz razı olmalısınız da mən onu gətirəjəm.
Çox çək-çevirdən sonra söhbət Sultan xana çatdı. Xan qəzəvinnən az qaldı kı, dəli olsun. Oğlunu yanına çağırtdırdı. Balı bəy kəmali-ədəfnən tə'zim eliyif onun hüzurunda dayandı.
—Oğul, mən eşitmişəm ki, sən bir əkinçinin qızını istəyirsən. Mən buna yol verməərəm. Sən bu yoldan dönməlisən. Sənə öz tayamız-baravarımız bir kişinin qızını alajam.
Balı bəy dillənmədi.
Sultan xan soruşdu:
—Nə deyirsən? Mənim sözüm sənin yanında qalanşdan iti olmalıdı. Balı bəy utana-utana dedi:
—Ata, mən o qızı sevmişəm.
Sultan xan qəzəblənif ayağa qalxdı.
Tez ol, qoavağınnan itil! Özü də get yaxşı-yaxşı fikirləş. Ya o qızı alıf harasa baş götürüf getməlisən, ya da mənim sözümə əməl eləməlisən.
Atasının hüzurundan çıxan kimi Balı bəy atını minif Seyranın yanına getdi. Onu tərkinə alıf üz tutdu dağlara tərəf. Bir səfalı yerə çatıf orda özləri üçün bir dəyə qurdu. Sevgilisi ilə şad-xürrəm yaşamağa başdadı. Çox keşmədi ki, burda bir ev tikdi. Sonralar çoxları gəlif burada məskən saldılar. Az vaxtda bura böyük bir kəndə çevrildi. Adını da Bəylik kəndi qoydular. Oğlunnan incimiş Sultan xan uzun illərdən sonra eşitdi ki, oğlu indi çox addı-sannı bir adama çevrilif. Vəzirini də götürüf getdi onun yanına. Xəvər verdilər ki, Sultan xan Bəylik kəndinə gəlir. Balı bəy hazırrıx görüf onun qavağına çıxdı. Qurvannar kəsildi. Sonra onnarı öz evinə apardı. Xan baxıf gördü kü, Balı bəy elə bir ev-eşik, cahi-cəlal yaradıf kı, daha nə deyim. Oğlunun bu fərasətinnən çox razı qalır. Tutduğu işdən peşiman olur. Başına gələni məclisdə olannara söylüyür. Sonra Seyranı çağırıf görşüf. Görür kü, bunun gəlini kimi gözəl bir gəlin hələ bu dünyaya gəlmiyif. Məclisdə oxuyan aşıqa üz tutuf deyir:
Aşıx ürəyimə bir-neçə xanə söz gəlif, onu deməsəm, ürəyim od tutuf yanar.

Başına mən dönüm, qurvanın olum,
Ümüdim, pənahım, bağışda məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Canımın atəşi, gözümün nuru,
Açılan savahım, bağışda məni.

Xudayi-Kərimnən verilif dərsim,
Rütbeyi kəramət tökülən hirsim.
Qəzəvim içində alışam səsim,
Ay səbrim, pənahım, bağışda məni.

Bəylik öz xannığım, bəy mənim xanım,
Sənə fəda olsun bu hədər canım.
Ay arxam, dayağım, qılınc qalxanım,
Topxanam, silahım, bağışda məni.
İstərəm talanım, yanım, bölünüm,
Bu fani dünyadan bir yol silinim,
Mənim əziz balam, Seyran gəlinim,
Az deyil günahım, bağışda məni.

Üstdən qara çəkdim olan adımın,
Keçin təqsirinnən Sultan zalımın.
Xətrini qırmışam öz övladımın,
Ey tanrım, ey şahım, bağışda məni.

Onlar yenidən öpüşüb-görüşüllər. Barışıf, xoşbəxt həyata qovuşullar.

## CIAL HASAN

Cığal Toxulcanın ən şəxsiyyətdi adamlarınnanıydı. Kənddə, bütün Göyçə basarağında onun qavağına heş kəs çıxammazmış. Koxadan, bəylərdən başqa, rus strajnikləri də onnan qorxarrarmış. Cığal heş kəsdən pəsinməzdi. Həmişə səllíminə əzərdi. Katdalara-varrılara qan uddurardı.

Günnərin bir günündə Cığal Hasan Çəmbərək bazarındaymış. Bu vaxt Şahniyar bəy rus strajniklərinnən burda yeyib-içirmiş. Bir çuğul onnara xəvər verir ki, deməzsənmi, Cığal Hasan bazardadı.

Pristav Şahniyar bəy bütün strajniklərə əmr eliyir ki, nə təhər eliyirsiniz eliyin, Cığalı tutun, yaxşı yerdə əlimizə keçif, allah rast salıf. Özü də ayağıynan gəlif tələyə düşüf.

Strajniklərin hərəsi bir tərəfdən Cığalın üstünə tökülüllər.

Cığal özünü itirmir, heş pəsinmir də. Xəncərini çəkif strajniklərin üstünə cumur. Əli tüfəngli strajniklər qorxularınnan Cığala yaxın gələ bilmillər.



Cığal işi fırıx görüf qaşmax istiyir. O, strajniklərin arasınnan sürüşüf çıxır.Amma qavağı daşqın çay kəsmişdi. Su yaman gur gəlirdi. Cığal özünü yığışdırıf çaydan hoppanır. Çayın o tayında hörüklənmiş atı minir, at qaça-qaça hörüyünü kəsir. Hələ strajniklərə gələn erkəklərdən birini də atın belində aparır. At qaça-qaça Cığal erkəyi kəsif atın belində soyur. Dərisini də strajniklərə tərəf tulluyur.

Strajniklər atdanıf Cığalın dalınca getmək istəyəndə Şahniyar bəy onnarı saxlıyır.

– Ə, hamınız mənim yanıma gəlin.

Strajniklər gəlir, dinməz-söyləməz Şahniyar bəyə baxıllar.

Şahniyar bəy onnara deyir:

– Tez olun çayı bir-bir hoppanın.

Strajniklər bayax hoppanıllar. Amma heş biri çayın o biri tərəfinə düşə bilmir. Hamısı suya düşür. Özdərini sudan zornan çıxarıllar.

Şahniyar bəy deyir:

– Ə, elə bu ağıllamı Cığalın dalınca gedirsiniz. Heç biriniz çaydan hoppana bilmədiniz. Bəs, hansı qoçaxlıxnan Cığalı tutajaxsınız. Heş kəs bir yana tərpənməsin. Bax kim getsə, onu da bayaqkı erkək kimi dəridən çıxardajax.

Cığal belə qoçaxlıqnan strajniklərin əlinnən qurtarıf gedir.

Cığal varrılara yaman divan tuturdu, amma kasıflara həmişə arxa dururdu, heş bir ağa onun qorxusunnan kasıvın xətrinə dəyə bilmirdi. Bütün varrılar onnan tir-tir əsərdi.

## DƏVƏLİ KÜRDÜ CIALIN ÜSTÜNƏ QOŞUN ÇƏKİR

Daşnaxlar harda addı-sannı adam varıydı, onu dübara tutur, ya da bir hiyləynən öldürürdülər. Onnar Cığalın da qoçaxlığını eşidiflərmiş. İstiyillər ki, Cığalı tutalar. Daşnaxlar bir xeyli qoşunnan Toğlucaya enillər. Cığalı çağırıllar. Amma Cığal bunnarın çağırışına getmir, bunnara tabe olmur. Neçə dəfə çığırıllarsa, Cığal getmir.

Daşnaklar bunu başçılarına xəvər verillər. O da ajıqlanıf Cığalın üstünə qoşun çəkir. Toğulcalılar görüllər ki, daşnax qoşunnarı toflu-tüfəngli budu gəlir. Camahat hər yannan qoşunun üstünə tökülür. Qoşun başdıyır qaşmağa. Onnar əvvəlcə Ağbulağa, sonra da Ardanışa enillər. Camaat bunnardan əl çəkmir. Daşnaxlar topu da burda qoyuf qaçıllar.

Toğulcalılar geri dönəndə ağbulaxlı Hacı Sadıx bunnarı görür. Hajı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sadıx yaman ağıllı adamıydı. Toğducalıların bu vurhavurunu görəndə deyir:

– Ə, ay eviniz yıxılsın, sizin nə elədiyinizdi? Görmədiniz Dərəçiçəkdə, Basarkeçərdə müsəlmannarın başına nə gətirdilər? Gələr bizi də onnarın gününə salallar. Toflarını verin, qoy cəhənnəm olsunnar.

Toxulcalılar Hajı Sadığın sözünə baxıf topu verillər. Axı onsuz da heş kəs tof atmağı bajarmırdı, nəylərinə lazımıydı. Nə olajıydı, ta daşnaxlar kəndə bata bilmir, əlaşsız qalıf geri qayıdıllar. Onnar Qatar qaya addı poşta çatıllar, Axtadan bəri.

Burda bir Dəvəli Kürdü varıymış. Dəvəli Kürd görür ku, bu yana xeyli qoşun gəlir. Amma bunnar yaman haldadılar. Elə bil üstdərinə su ələnif. Dəvəli Kürdü daşnaklarnan əlaqədəydi, onnara kömək eləyirdi. Bu örgənir ki, haman qoşun daşnax qoşunudu. Bunnarın yanına gedif əhvalatdan halı olur.

Onu da deyim ki, Kürd də yaman Kürdüymüş ha. Çox qoçax adamıymış.

Dəvəli Kürdü qoşun başçısına deyir:

– Ə, a yassarrar, bir adamın əlinnən qaçıf hara gedirsiniz? Siz nə kişisiniz ki, bir adama bata bilmirsiniz? İndi mən gedif onun başını gətirərəm. Onda görəllər ki, analar nejə oğullar doğuf.

Bəli, Dəvəli Kürdü qoşunun ağzını geri qaytarır.

Qoşuna indi Dəvəli Kürdü başçılıx eliyir. Gejəynən yol gedillər. Səhər təzəcə açılırmış. Bunnar gəlib Cığalın evini mühasirə eləyillər. Amma qorxularınnan heş kəs içəri girə bilmir. Çağırıllar, eşiyə bir arvad çıxır. Cığal işi başa düşür. Tələsik qadın paltarı geyinir, tüfəngi altdan belinə bağlıyır, malları da qavağına qatıf eşiyə çıxır.

Daşnaklar ondan soruşullar kı, bəs Cığal hardadı, niyə eşiyə çıxmır?

Cığal bunnara cavaf verir:

– Cığal evdədi, yatır.

Özü də malnan baravar çıxır. Özünü bir qaznağa salıf, ordan başlayır qoşunun üstünə güllə yağdırmağa. Heş kəs onun gülləsinnən macal tapıf ona bir güllə ata bilmir. Cığal yaman sərrast atanıydı, gülləsi heş boşa çıxmazdı. Qoşunnan xeyli adam qırır. Daşnax qoşunnarı dağılıf gedir.

Cığal onnara deyir:

– Bax indi bilin ki, Cığal mənəm. Gedin, daha sizə dəymirəm. Sizin də eviniz, uşağınız var. Amma olmuya-bilmiyə bir də bu səmtdərə ayax basasınız.

Daşnax qoşunnarı yenə də bir iş görə bilmir. Kor-peşman geri qayıdır. Amma Dəvəli Kürdü heş getmək istəmirdi.

Cığal aradan sağ-salamat çıxır, uşaxlarını da götürüf Də- rəyurda



gedir. Cığal bura mətərisdənir. O tərəfdən Dəvəli Kürdü yenə qoşunu geri qaytarmax istiyir, amma heş kəs qayıtmır. Dəvəli Kürdü deyir ki, heş gəlməyin, mən özüm təkcə gedif onun başını gətirəjəm. Dəvəli Kürdü qoşunnan ayrılıf Cığalın dalınca gedir. Gedif görür kü, Cığal uşaxlarınnan oturuf.

Kürd döşnən gedirdi, amma Cığalgil dərənin divindəydilər. Dəvəli Kürdü onnarı görəndə bərk sevinir. Cığala deyir ki, indi mən səni diri-diri tutajam.

Cığalın oğlu Əli deyir:

– Dədə, qoy onun qavırğasını odduyum. Cığal razılaşmır kı, a bala, bəs onun da uşaxları yoxdumu, yazıxdı hələ vurma, görək bəlkə rədd oluf getdi.

Amma Dəvəli Kürdü getmək fikrində deyildi. Düz bunnarın üstünə gəlirdi. Əli bu dəfə dedi:

– Dədə, onda qoy heç olmasa, ayağının altına bir güllə atım.

Cığal razılaşır. Gözünə döndüyüm. Əli də yaman atanıymış, bunun əlindən güllə açılan kimi bayax ha Dəvəli Kürdü atdan mayallax aşır, dığırrana-dığırrana dərənin divinə gəlir.

Sən demə, daşnax qoşunnarı namusdanıf Kürdün dalınca gəlillərmiş. Güllə açılanda görüllər ki, Kürdün leşi üz tutdu düz dərənin divinə.

Onlar işin yaş olduğunu görüf yenə geri çəkilillər.

Bəli, Cığal belə Cığalıymış. Cığalın Dəvəli Kürdünü öldürməsi Göyçə mahalına səs salır. Bunun hörməti yaman artır. Hamı Cığala "afərin" deyir. Bu əhvalatı eşidən ağbulaxlı şair Kazım Cığalın şəninə bir müxəmməs qoşur. Şair Kazım Cığalın igiddiyini aləmə yayır.

Əzəl ismin hökm olunuf
Məşədi Hasana Cığal.
Üzün sürtüf, qədəm basıf,
Şahi Xorasana Cığal.
Qadir mövlam kömək olsun,
Sən kimi asdana, Cığal.

Uzaq yeri neyliyirsən,
Kür üstündən bəri deyim.
Bayramlıyı, Qırıxlıyı,
O, Qoysar Sarıyı deyim.
Kəsəməni, Cırdaxanı,
Bilmirəm haranı deyim.
Hər kəsinən düşmən olur,
Eyliyir virana, Cığal.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər kəslə mərc eyliyif,
At sürüf, qoşa keçmiyif,
Beranqa mənzil ötürməz,
Aynalı daşa keçmiyif.
Əlində tof kimi süzən,
Atanda boşa keçmiyif.
Öldürüf düşməndərin,
Düzdürüf yan-yana Cığal.

Bu gün aşığın nəmərin,
İki nəfər şir verəjək,
Açılajax mərd dəftəri
On tüməni bir verəjək.
Bir belədə Oruc sultan,
Üstünə qoyuf verəjək.
Katiblər bu dastanı,
Yazıf Gülüstana, Cığal.

Yaran aldan hökm olundu,
Qazax atdandı yeridi.
Əllərində cidalı tüfəng,
Çahar ətrafı bürüdü.
Kimi gördü, eşqə doldu,
Kiminin bağrı əridi.
Təpindi dörd yüz saldata,
Xod verdi süzənə Cığal.

Şair Kazımın ağası,
Hər işə əncam elədi.
Cığal yığdı yoldaşların,
Öz başına cəm elədi.
Öldürdü dəvəli Kürdü.
Murazınnan kəm elədi.
On iki qazağın leşini
Sərdirdi yan-yana Cığal.
İki soldatın başını,
Göndərdi divana Cığal.

## EHTİYATDI OL

Deyilənnərə görə Göyçə mahalının Dəliqardaş ovasında Rəhim addı bir aşıx varıymış. Onu da deyək ki, Aşıq Rəhim hələm-hələm aşıxlardan deyilmiş. Çalıf-çağırmaxda nə qədər qabil sənətkar olsa da bir el ağsaqqalı kimi daha böyük hörmətə layiq adam oluf. Aşıq Rəhimin Heydər adlı oğlu



qonşu Alçalı ovasında Hürü addı bir qız sevir. Aşıq Rəhim dünyagörmüş adamıydı, sevgiyə nə deyəniydi... Ancax bu sevginin bir əmması varıydı: o da buydu ku, qız ata-anasının bir dənəsiydi. Qızı özgə ovaya köçürməyə razılıx verə bilmirdilər. Yeznə gərək Alçalıda yaşayaydı.

Yüz çal-çöyür sonra Aşıq Heydər oğlunun Alçalıya köçməsinə razılıx verdi. Neyləsin, qorxdu ku, uşağın başına hava-zad gələr. Gedif həmin kənddə Heydərə bir ev aldı, oğlunu ədəb-ərkannan evləndirif əlini başına yığdı.

Gün keşdi, həftə addadı Heydər dədəsigilə gəlməli oldu. Xoş-beşdən sonra ağsaqqal oğlunnan soruşdu:

– Oğul, maşallah olsun mülkə, yerə-yurda söz yoxdu. Bu, öz yerində. De görüm, qonşuların nə təhər adamlardı? Od-ojax qonşusu olmax olar, ya yox?

Oğlan cavaf verir ki, ay dədə, üç qonşum var, üçü də cannara dəyəsi adamlardı. Get-gəlləri də pis döyül. Birinə bir az əl borcu lazımıydı, mən də verdim, dua eliyə-eliyə getdi.

Qonşunun biri də xahiş elədi ki, atını ver qonşu ovaya dəyim, qayıdım. Onun da sözünü yerə salmadım.

Bir qonşum da gəlif ki, yerimizin arasındakı daş oyuğu bir azca sənin yerinə tərəf tərpədək. Mənim torpağım darısqallıx eliyir. Ona da dedim ki, indi vaxtı döyül. Torpağın işinə yaz baxarıx.

Dünyagörmüş ağsaqqal qayıdır kı, oğul, borca gələnə deməliydin: – həmişə gəl-get. Onun üçünkü əldən tutmax mərd işidi.

At istiyənə deməliydin ki, öz atın kimi apar-gəti. Bilirsən ki, at saxlamax da comərd işdi. O ku, qaldı daş oyuğun yerini dəyişdirmək istiyən qonşuna... Gərək ona deyəydin ki, səninki səndə, mənimki məndə. Belə adam mərdimazar, xayın adamdı. Yadında saxla ki, qonşu torpağına göz dikif, tamah salmax namərd adam, qarnı qurddu adam işidi. Xayından qonşu olmaz! Bu adamnan ehtiyatdı ol, ehtiyatdı!

# XALQ TƏBABƏTİ

## "GÖYÇƏ LOMANI" YADDAŞLARDA

Ötən yüzilliyin sonu, əsrimizin əvvəllərində Göyçə mahalında Hacı Nağı adlı Loğman şöhrətli, Loğman qüdrətli bir təbib yaşamışdır.

İranda mükəmməl təhsil alan, tibb elminin, xalq təbabətinin sirrərinə dərindən aşina olan Hacı Nağı ömrü boyu neçə-neçə insanı ölümün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

pəncəsindən xilas etmiş, nə qədər insana həyat, saysız-hesabsız ailələrə sevinc və səadət bəxş etmişdir.

Təəssüflər olsun ki, onun nə kitabları, nə də əlyazmaları bizə gəlib çatmamışdır. Otuzuncu illərin dəhşətli panislamizm, pantürkizm kabusu Göyçənin başı üzərində dolaşdığı zaman xalqın xilaskarı xalq düşməni damğasına tuş olmamaq naminə, sağdan sola yazılmış bütün kitab və yazılarını məhv etməyə məcbur olmuşdur.

Yaxşı ki, xalqın heç kimin, heç bir qüvvənin oxuya, oğurlaya bilmədiyi sehrli bir kitabı var. Ürəklərdə, beyinlərdə gizlənən, hafizələrdə yaşayan bu kitabı vərəqləyirik: Vərəqlədikcə o bizə böyük hikmətlər pıçıldayır. Bu bizi həm sevindirir, həm də mütəəssir edir. Sevinirik: çünki o bizə nə isə bəxş edir, nə isə deyir. Mütəəssir oluruq: çünki o həm də bizə nələri itirdiyimizi yada salır. "Göyçə loğmanı"nın nəvəsi İsrafil müəllimin hafizəsi bu kitabın bə'zi səhifələrini özündə qoruyub saxlamışdır. Biz ona, bizə bu imkanı qazandırdığına görə öz dərin minnətdarlığımızı bildiririk.

Xoşbəxtlikdən folklorumuzun başqa sahələrində olduğu kimi, xalq təbabətində də Göyçənin qiymətli ən'ənələri izsiz–soraqsız unudulub yaddaşlardan silinmədi. "Göyçə loğmanı"nın müqəddəs ən'ənələri ləyaqətlə davam etdirildi. Sayılan–seçilən yeni–yeni təbiblər, alimlər nəsli yetişdi.

Heç şübhəsiz, görkəmli onkoloq kimi dünya şöhrəti qazanmış Əhliman Əmiraslanovun, vətənimizin hüdudlarından çox-çox uzaqlarda iste'dadalı travmotoloq-alim kimi tanınan Məcid Məsimovun, gənc cərrah Vaqif Qələndərovun qazandığı bu günki uğurlarda Göyçənin zəngin xalq təbabəti ən'ənələrinin, o cümlədən, Hacı Nağı dühasının rolu və tə'siri az olmamışdır.

Hər bir həkim o zaman uğur qazanır ki, o müasir tibbi biliklərə dərindən yiyələnməklə yanaşı, xalqın əsrlər boyu yaradıb-yaşatdığı, sınaqlardan çıxardığı xalq təbabətinə, onun əsrarəngiz sirrərinə dərindən bələd olur. Onların hər ikisinin imkanlarından ustalıqla barınıb-bəhrələnir.

Xalqımıza Hacı Nağı kimi qüdrətli bir loğman bəxş eləmiş Göyçənin Qanlı kəndində doğulub boya–başa çatmış Mikayıl Səfərov bu böyük həqiqətə tapındığı üçün bu gün xalq arasında sayılıb seçilən həkimlərdən biri kimi tanınmaqdadır.

Hacı Nağı və onun qeyri adi təbiblik məharəti haqqında saysız-hesabsız rəvayətlər, söz-söhbətlər eşidən Mikayıl Səfərov elinin-obasının iftixarı olan bu böyük loğmanın yolunu davam etdirməyi hələ uşaqlıqdan öz məqsədinə çevirmişdi.



Mikayıl Səfərov tələbə olduğu illərdən başlayaraq müasir tibbi bilikləri öyrənməklə yanaşı, xalq təbabəti və türkəçarələri də diqqətlə, böyük məhəbbətlə arayıb-axtardı. Onlara dərindən yiyələnmək üçün ağır zəhmətlərə qatlaşdı. Sə'ylər axır ki, öz bəhrəsini verdi. Xalq təbabətinə aşinalıq onu xəstəliklərin qəniminə çevirdi.

Belə həkimlərə üz tutan xəstələr heç vaxt naümid qayıtmırlar.

Göyçə loğmanının və onun layiqli varisinin Sizlərə təqdim olunan aşağıdakı bə'zi müalicə vasitələri və dərman nüsxələrindən faydalanacağınıza ürəkdən inanıram.

* * *

Qidanı yaxşı həzm eləyə bilməyən mə'dəni əzvay və xüngün hərəsindən 30 q döyüb un kimi elədikdən sonra 1 q. ağırlığında həblər düzəldib axşam, yatana yaxın ikisini qatıqla udmaq lazımdır. Həbləri çeynəmək olmaz.

* * *

Vərəm xəstəliyi (ağciyər və bağırsaqda olan da) zamanı xəstə hər səhər bir xörək qaşığı təmiz dağ balı və 100 qrama qədər suda bişmiş erkək quyruğu yeməlidir. Sonra qara turpun içini oyub çıxarmaq, boş yerə erkək quyruğu doldurub, kəsilən yeri yenə əvvəlki yerinə qoymaq, onu xamıra bükmək və közün içində xamır yanana qədər bişirmək lazımdır.

Xəstə yanan xamırı qoparıb atdıqdan sonra qalan turpu içindəki quyruqlarla birlikdə həvəngdəstədə döyməli, yumurta böyüklükdə həblər düzəldib hər səhər birini yeməlidir.

* * *

Şirin yara üz nahiyəsində, görünən yerlərdə od yanığı kimi köpürlüb qalxır. Bə'zi xəstələrdə çox qaşınır.

Hacı Nağı həmin xəstələri aşağıdakı üsul və vasitələrlə müalicə edirmiş:

Kafuri duz saf ılıq həll edilir və məhlul halına salınır. Sonra bir təmiz quş lələyi ilə məhlul yaranın üstünə və ətrafına yağlanır. Göy rəngli kağız həmin dərmana batırılıb yaranın üstünə yapışdırılır. Kağız quruyan kimi yenisi ilə əvəz edilir.

Bir neçə gündən sonra yaranın şişi və qırmızı çəkilir, xəstə tamamilə sağalır.

Müalicə zamanı xəstə ət və yağlı xörəklərdən imtina etməlidir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Hacı Nağı bağırsaq, mə’də və qan təzyiqi xəstəliyində aşağıda qeyd etdiyimiz nüsxə ilə hazırladığı dərmandan geniş istifadə edirdi.

Həbbisalat, rübbüreyvənd, mülkəziraq və əzvayın hərəsindən 20 qram götürər, onları qatışdırıb əzər, həblər düzəldərdi. Xəstə hər səhər tezdən acqarına həmin həblərdən birini bir qaşıq qatıqla içərdi.

* * *

Dəridə (əldə, qolda, barmaqlarda) sulu səpgilər, qaşınma olanda qırmızı şəhtərənin (toxumlamamış) yarpağını çiçəkləri ilə birlikdə yığıb, kökünü kəsib atar, təmiz yuyardı. Sonra əzib suyunu çıxarar, saf su ilə bərabər miqdarda qarışdırar və bir litr hazır mayeyə bir çay qaşığı aptek kükürdü əlavə edər, bərk-bərk çalxalayar, ağzını bağlayaraq 3 gün qaranlıq, sərin yerdə saxlayardı.

Xəstə müalicə başlandığı ilk üç gündə hər səhər acqarına 50 qram, sonrakı günlərdə isə 100 qram həmin dərmanı qəbul etməli idi.

Xəstəlik qurtarana qədər hər gün şəhtərənin su ilə 1:2 nisbətində olan qatışığı ilə yaranı yumağı məsləhət görərdi.

* * *

Bə’zi dəri xəstəlikləri var ki, ayaq və baldırda çoxlu yaralar əmələ gətirir. Çox zaman hovçəkən bu yaralar hər müalicəyə asanlıqla tabe olmur.

Babam belə yaraları sağaltmaq üçün qaraot adlı hündür, tütünəoxşar bir bitkinin enli, yaşıl yarpaqlarını toplayıb qurudur, əzib toz halına salır, 1:2 nisbətində buğda unu ilə qarışdıraraq xəşil hazırlayırdı. Onu insan bədəninin hərarətinə qədər soyutduqdan sonra yaranın üstünə qoyurdu. Təxminən bir həftə müddətində yara tamamilə sağalırdı.

Qaraota biz yalnız Göyçənin Qızılvəng kəndinin biçənəyində, bir bulağın başında təsadüf etmişdik.

Onu da deyim ki, ajı–qıjı adlı bitki bu otu tamamilə əvəz edə bilər. Bu ota Göyçənin hər yerində rast gəlmək mümkündür.

* * *

Babam öskürəyi müalicə etmək üçün kəkotunu qantəpər çiçəyi ilə qarışdırıb çay kimi dəmləyər və xəstəyə içirərdi. Gündə üç dəfə suda bişmiş erkək quyruğu yeməyi məsləhət görərdi.

* * *



Uşaqlarda olan göyöskürəyi göy qarğanın əti ilə müalicə edirdi.

* * *

Qızılca xəstəliyində evi isti saxlamağı məsləhət görər, müalicə zamanı ulaq südü və kişmişdən istifadə eliyərdi.

* * *

Mə’dədən başlayan sancıları kəsmək üçün gülxətmi ləçəklərini bir stəkan qaynanmış suya qatır, bəlğəm şəklinə düşənə qədər qaşıqla çalır, xəstəyə içirərdi. Naxoş tezliklə şəfa tapardı.

* * *

Qabırğaların altından sancı verən xəstələrə bir həftə müddətində səhərlər acqarına bir stəkan adi bulaq suyu içməyi məsləhət görərdi.

* * *

Ayaq barmaqlarında bə’zən bərk qaşınma və sulanma ilə müşayiət olunan yaralar olur. Bu xəstəliyi müalicə edərkən kağızı yandırıb şüşəyə tutar və onda toplanan hisi gündə iki dəfə yaranın üstünə yaxardı. Yara tezliklə sağalardı.

* * *

İslah xəstəliyində bağ narını xəmirə bükər, közə basdırar, xamır yanıb qaralana qədər bişirərdi. Bişmiş narı qabığı ilə birlikdə xəstəyə yedirərdi. Sonra isə nar qabığını dəmləyib içməyi, süzülmüş camış qatığını balla qarışdırıb yeməyi məsləhət görərdi. Bunlara əməl edən xəstə bir-neçə günə tamamilə sağalardı.

* * *

Qaraciyər və öd yolu xəstəliklərində zəyrək yağı və balı qatışdırar, hər səhər acqarnına xəstəyə iki xörək qaşığı içirərdi. Bununla yanaşı, xəstə solmaz çiçəyinin dəmlənməsindən gündə 3-4 stəkan içməli, onun suyunda bir-neçə dəfə çimməli idi.

* * *

Qəbizlik zamanı süddüyan bitkisinin südünü 1:5 nisbətində su ilə qatışdırar və xəstəyə içirərdi.

* * *

Yanğıya düşmüş xəstələrə şüvəran bitkisinin (bunu şüvəran süpürgəsi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də deyilir) dənindən çay kimi dəmləyib içməyi tapşırardı. Bundan istifadə edənlər susuzluqdan bir daha şikayət etmirdilər.

* * *

Göy yara (buna qılbaş yara deyirlər) barmaqlarda olur. Adama əvvəlcə elə gəlir ki, tikan batıb. Ona görə iynə, ya da sancaqla qurdalayırlar. Belə eliyəndə yara daha də bədləşir. Hacı Nağı bu yaranı qurdalamağı məsləhər görməzdi. Yara yetişənə kimi onu kəsmək olmaz, – deyərdi. Yaranın üstünə göyərçin zılını tüpürcəklə isladıb bağlayar, gündə iki dəfə sarğını dəyişərdi. Yaranın yerində taxıl dənəsi boyda ağ irin görünəndə ya onu kəsib çıxarar, ya da dərmanlar vasitəsi ilə təmizləyərdi. Bunu yaranın özəyi düşənə qədər davam etdirərdi. Yara kal kəsiləndə həm ağrılar artır, həm də yara genişlənirdi. Yaranan özəyini və qurumuş ətləri təmizləmək üçün onu gündə iki dəfə qaynanmış ılıq su ilə yuyub qurulamaq lazımdır.

Müalicə zamanı istifadə edilən nüsxi belə hazırlanır:

Eyni miqdarda qoyun quyruğu və haram ilik (onurğa iliyi) götürülür, bir qədər çiyidsiz kişmiş və köhnə pambıq narın şəkildə döyülüb bir-birinə qatışdırılır. Hazırlanmış dərman şüşə qaba qoyulur və soyuq bir yerdə saxlanılır.

Özək düşənə qədər gündə iki dəfə yaranı həmin dərmanla sarıyırlar.

Özək düşəndən sonra Hacı Nağı başqa bir məlhəmlə müaliconi davam etdirirdi.

Hərəsindən 20 qram olmaqla mum, ağ saqqız (qaraçılar satan) və qara saqqız bir-birinə qatışdırılır, onlara 30 qram inək yağı əlavə olunur. Hamısı bir yerdə əridilir. Gündə 2 dəfə insan bədəninin hərarətinə qədər qızdırılaraq yaranın üstünə qoyulur. Yara qurtarana qədər müalicə bu şəkildə davam etdirilir.

Ət və sümükdə belə yaralardan sonra bə’zən ləkələr əmələ gəlir. Hətta sümüyə zədə düşür.

Quyruq, ilik, kişmiş və pambıqdan, yuxarıda qeyd etdiyimiz qaydada hazırlanmış həmin dərmandan istifadə edildikdə həmin qorxulu vəziyyət tamamilə aradan qaldırılır, xəstə tamamilə sağalır.

* * *

Babam Hacı Nağı xərçəng xəstəliyini necə müalicə etdiyini bu gün də yaxşı xatırlayıram.

Yay fəsli idi. Həyətimizdə oturmuşduq, Aranda yaşayan əhali yaylağa çıxmışdı. Bir də gördük ki, yaylaqda olan bir kişi dəvəyə mindirilmiş bir qadın gətirdi. Göyçədə dəvə olmadığından biz uşaqlar maraqlanıb dəvənin başına toplaşdıq.



Kişi dəvəni yatırtdı. Qadın düşüb babamın yanına gəldi və onun göstərdiyi yerdə əyləşdi. Kişi qadının döşündən xəstə olduğunu himcimlə babama anlatdı.

Babam bizə dedi:

– Gedin üç buğum quru qamış gətirin.

Biz özümüzü ora-bura vurub, onun tapşırığını yerinə yetirdik.

O, qamışları kəsib içindəki pərdəni təmizlədi, tütəyə oxşar bir alət hazırladı.

Sonra neştərlə döşün aşağı hissəsində deşdi. Çıxan qanı hazırladığı həmin qamışa tutub axıra qədər süzdü.

İkinci neştəri bir az yuxarıdan vurub tökülən qanı yenə həmin qayda ilə həmin qamışa süzdü.

Sonra üçüncü neştəri döşün lap yuxarı hissəsinə vurub, yenə də həmin qaydaynan qanı qamışa doldurdu. Bundan sonra üzünü arvada tutub dedi:

– İndi get, bir az evdə dincəl.

Qadın gedəndən sonra kişiyə dedi:

– Arvadınızın döşü yamanlayıb. Kəsmək lazımdır.

Kişi bir xeyli tərəddüddən sonra razılaşdı.

Babam bizə dedi:

– Gedin bir qab, bir dənə də maşa gətirin.

Biz onun dediklərini tapıb hazır elədik.

Sonra babam tapşırdı ki, bir az da ağ it peyini tapıb gətirin. Lap bu günkü kimi xatırlayıram. Babam arxamızca:

– Sizi ağ itin peyini demirəm, ağ peyin deyirəm, yadınızdan çıxarmayın, – dedi.

Bir az oranı, buranı axtarıb ağ peyini tapdıq və maşa ilə qaba qoyub onu babama çatdırdıq.

Baxıb dedi:

– Afərin, dediyimi düz tapıb gətiribsiniz.

Babam əvvəlcədən çiçəklərdən hazırladığı toz halında olan dərmannan bir xörək qaşığı götürüb yarım stəkan inək yağı və həmin ağ peyinə qatıb qabda odun üstünə qoydu. Onu bir neçə dəqiqə qaynatdıqdan sonra xeyli soyutdu. Sonra həmin dərmanı parçanın üstünə yaxıb yuxarıdan vurduğu neştəri yerindən başlayaraq döşü möhkəm-möhkəm sarıdı.

Xəstənin adamlarına tapşırdı ki, gedin, amma sarığı iki gün açmayın. Üçüncü gün gələrsiniz, özüm açacam.

Biz səbirsizliklə dəvənin yolunu gözləyirdik. İki gün keçdi. Üçüncü gün axşamüstü həmin qadını yenidən babamın yanına gətirdilər.

Babam sarığı açdı. Qadının döşü sarıqla bərabər qopub düşdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Babam gülə–gülə:
– Bala, daha kəfəni cırdın, xata-baladan qurtardın, – dedi. Sonra onlar bir neçə dəfə də babamın yanına gəldilər. O yaranın yerini müalicə edib tamamilə sağaltdı.
Bundan sonra hər il yaylağa çıxanda həmin adamlar bizə gəlir, babamı ziyarət edirdilər.

* * *

Göyçə mahalının Ardanış kəndində yaşayan Məcid kişi Hajı Nağı haqqında bizə belə bir maraqlı rəvayət söylədi:
Gözdəri tutulmuş bir kişiyi bir uşağa qoşuf Qannıya Hajı Nağının yanına yolluyullar.
Təsadüfən Hajı Nağı da Zoda, xəstə yanına gedirmiş. Bunnar yolda qarşılaşıllar. Hajı Nağı uşaxdan soruşur:
—Ay bala, bu kişiyi hara aparırsan?
—Bu kişi mənim əmimdi. Gözdəri tutuluf. Hajı Nağının yanına aparıram,—deyə uşax cavaf verir.
Hacı Nağı gülə–gülə uşağa deyir:
—Ay bala, əmini bir yaxına gətir, gözünə baxım. Bəlkə, Allah rast saldı, bir kömək eləyə bildim.
Kor ajıxlanıf deyir:
—Ay bala, qoy yolumuznan gedək. Hər yoldan ötənə göz açıf göstərsəm Qannıya heç bir həftəyə də gedif çıxa bilmərəm.
Hacı Nağı atdan düşüb korun yanına gəlir. Zornan onun gözünü açıf baxır. Uşağa üzünü tutuf deyir:
—Ay bala, istəyirsənsə əminin gözü açılsın, mən nə desəm ona əməl elə.
Uşax onnan razılaşır.
Hacı Nağı xurcunnan bir kəndir çıxarıf zornan korun gözünü bağlıyır. At təzəcə təsdəmişdi. Ondan götürüf suyunu korun gözünə sıxır. Korun harayına, çığır–bağırına fikir vermiyif bərk–bərk sarıyır.
İşini qurtarannan sonra uşağa deyir:
—Ay bala, indi qayıdax gedək Zoda. Allah qoysa, savah əminin gözü açılıjax.
Xülasə, bunnar bir yerdə qayıdıf Zoda gedəsi olullar. Kəndə çatan kim camaat Hacı Nağıyı tanıyır. Əhvalatı bilənnən sonra kora deyillər ki, a kişi, Allah üzünə gülüf, Hacı Nağıyı öz ayağınnan sənin yanına göndərif.
O gejə kişi birtəhər yatır. Elə ki savah açılır, Hajı Nağı gəlif sarığı açır. Baxıf görür kü, kor gözünü bərk–bərk yumuf, heç açmax istəmir. Kora deyir:



—Ay qardaş, qorxma bir gözünü aç görüm. Kor heç inanmırdı kı, onun gözdəri bir də açıla. Ona görə də qorxusunnan daha da bərk yumur.
Hacı Nağı zornan onun gözdərini açır. Kor “görürəm“, "görürəm",—deyə bağırmağa başdıyır.
Camaat Hajı Nağının əlinə–ayağına düşüf ona razılığını bildirir. Hamı kora gözaydınnığı verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Günnərin birində Hajı Nağının oğlu bərk naxoşduyur. O, nə qədər dəva–dərman eliyirsə, onu sağalda bilmir.

Oğlunun ölümü Hajı Nağıyı tamam sarsıdır. Öz–özünə deyir: Yox, mən bu dərdi gora apara bilmərəm. Sən Hajı Nağı olasan, minnərnən insana həyat verəsən, bir balanı ölümün əlinnən ala bilmiyəsən. Yox, mən bu ölümün səvəvini mütləq örgənməliyəm. Gərək biləm, oğlumun dərdi nəymiş?

Hacı Nağı oğlunu yarır. Baxıf görür kü, ürəyinə tük dolanıf. Ölümün səvəvi elə buymuş.

Hajı Nağı başına döyüf deyir:

—Öl Hajı, gör oğlun nəyə qurvan getdi. Bunu əgər bir atın belinə mindirif bir az gəzdirsəydim ürək genişdənər, tük qırılardı. Uşax da əlimdə qalardı.



# T Ü R K Ə Ç A R Ə L Ə R

Babasil düyünnərini müalicə etmək üçün düyünnərin üzərinə, dəsmala bükülmüş buz parçasını qoyub, bir neçə saniyə saxlamax lazımdı.

Babasili müalicə zamanı bir xörək qaşığı quruduluf, xırdalanmış andız üzərinə yarım litr su tökür, zəif odda 15 dəqiqə qaynadır, 3-4 saat dəmliyif süzürlər. Yarım stəkan gündə 3 dəfə yeməkdən əvvəl içillər. Bu dəmləmə qastrit, mə'də və 12 barmaq bağırsax xorası üçün də xeyirridi.

Babasil düyünləri bağırsaxdan çıxıf, boğulubsa, ağrı verirsə, onun üzərinə əzilmiş çuğunduru və ya əzilmiş kökü parçıya büküf qoymax lazımdı. Bu zaman ağrı sakitdəşir, düyün geriyə öz yerinə qayıdır.

Babasil xəstəliklərində hər gün 2-3 dəfə, hər dəfə də 25 damcı at şabalıdının çiçəklərinin şirəsinnən istifadə etmək lazımdı.

Babasilin müalicəsi üçün tə'sirli üsullardan biri də çobanyastığı dəmləməsidi. Gündə 3-4 dəfə, hər dəfə bir xörək qaşığı dəmləmədən içmək lazımdı. Bu dəmləmə mə'də–bağırsaq qanaxmaları, daxili orqanların zədələnməsində qan kəsici kimi də istifadə edilir.

Babasil xəstəliyindən əmələ gələn ağrıları sakitləşdirmək üçün işlətmə murdaçası və gicitkan yarpaqlarını 1 litr qaynar suya töküb, zəif odda 10 dəqiqə qaynatmaq, üstünü örtüb 30 dəqiqə dəmləmək və süzmək lazımdı. Dəmləmədən hər dəfə yarım stəkan olmaqla isti halda, gündə üç dəfə içilməsi çox gözəl səmərə verir.

Babasili müalicə etmək üçün kartofdan baş barmağına oxşar şam düzəldilir və düz bağırsağa yeridilir. Sonra düz bağırsağın qurtaracağı əridilmiş qaz yağı ilə yağlanır. Xəstəlik qurtarana qədər bu tə'yinat davam etdirilir.

Babasil və bağırsaq qanaxmalarından 10-15 qram gicitkan yarpaqlarını bir stəkan qaynar suya töküb, su hamamında 15 dəqiqə saxlayır, sonra 10 dəqiqə dəmləyib süzürlər. dəmlənməni soyudulmuş halda hər dəfə 1 xörək qaşığı olmaqla gündə 3-4 dəfə içmək lazımdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Babasil xəstəliyinə bütün canlılar yoluxur. Təkcə dəvə bu xəstəliyə yoluxmur. Çünki o dəvətikanı yeyir.

Dəvətikanından 10 qram götürüb, 1 stəkan qaynar suda 1 saat dəmləyib süzmək və yeməkdən yarım saat əvvəl gündə 3-4 dəfə, hər dəfə bir xörək qaşığı içmək lazımdı. Bu qanaxmanı kəsir, babasil tezliklə sağalır.

Bıçaq yarasını yaz təzəyinin gülünü, ya da təbii halda bitən qara yoncanı əzib, yaranın üstünə qoymaqla müalicə edirlər.

Böyrək xəstəliyi zamanı bal, əzilmiş limon və çuğunduru bir-birinə qatıb on gün qaranlıq yerdə saxlayır, sonra ondan səhərlər ac qarnına bir xörək qaşığı qəbul edirlər. Bu həm böyrək, həm də sidik yollarının iltihabı xəstəliyini müalicə edir. Həm də daşların xırdalanıb bədəndən xaric olmasına kömək edir.

Böyrək otunun dəmlənib çay kimi içilməsi həm böyrək, həm də sidik yollarının iltihabında, daşların tökülməsində müalicəvi tə'sir göstərir.

Bal, zeytun yağı və limon şirəsini eyni miqdarda qatıb, səhərlər ac qarına bir xörək qaşığı qəbul etdikdə böyrəklərdəki daşlar, bədəndən xaric olur.

Böyrək daşı xəstəliyində 2 litr mineral suya 100 qram zeytun yağı, 100 qram təmiz spirt və 4 limonun şirəsi qatışdırılmalı və hər 15 dəqiqədən bir stəkan içilməlidir. Bu daşın parçalanmasını tə'min edir və bədəndən xaric edilməsini sür'ətləndirir.

Qulqula adlı çibana bənzər şişin, yaranın üstünə bat–bat dənini əzib qoyanda, bunu bir neçə dəfə təkrar edəndə, yara sağalır.

Qaşınma xəstəliyi zamanı yovşan süpürgəsini avqust, sentyabr aylarında yığıb suda qaynadır, onun suyu ilə bədəni, yaxud ayaqları vanna edirlər. Təqribən bir həftə, gündə iki dəfə aparılan bu müalicə çox gözəl nəticə verir.

Qara otu döyüb, suyunu kəsilmiş hər hansı bir yaraya çəkdikdə yara tezliklə sağalır.

Qabarların, irinli yaraların müalicəsində soğanın suyundan quymaq



hazırlayıb yaranın üstünə qoyurlar.

Qarğıdalı saçağı, itburnu meyvəsi, arpa və cəfəri bitkisinin kökünü bir yerdə dəmləyib içdikdə böyrəkdə və sidik yollarında olan daşların bədəndən xaric olunması prosesi sür'ətlənir.

Qadın xəstəliklərində bəzir (zəyərək) yağından geniş istifadə olunur. İlıq halda bir qaşıq zəyərək yağı qəbul edən xəstələrin müalicəsi çox gözəl səmərə verir.

Dəmrov xəstəliyində sərçəni yandırıb, külünü kərməşov yağına qatıb məlhəm hazırlayır, yaranın üstünə yaxırlar.

Dəmrovun müalicəsində gərməşovu yandırır, onun külünü inək yağı ilə qatıb yaranın üstünə qoyurlar. Gündə bir dəfə həmin məlhəmi təzələyirlər.

Mis qazanın qarasını inək yağı ilə qatıb dəmrova çəkdikdə yara tezliklə sağalır.

Diz ağrıları zamanı ağrıyan yeri alma sirkəsi ilə ovuşdurub, sarımaq və yatmaq lazımdır.

Dəvədabanı bitkisinin zoğlarını 40 gün müddətinə hər səhər ac qarına yeməklə mə'də yarasını sağaltmaq olar.

Əziyin müalicəsində döyülmüş erkək quyruğu, təzə mal əti, ağ ciyər yaxşı tə'sir göstərir.

Dəri altında olan çirki təmizləmək üçün yaranın üstünə təzə heyvan dərisi qoyur, ya da keçi kəvəni bitkisinin kökünü çıxarıb narın doğrayır, yuduqdan sonra təmiz suda çoxlu qaynadır, uzanandan, yə'ni bal şəklinə düşəndən sonra buğda unu ilə qarışdırıb xəşil hazırlayırlar. Bir az soyuduqdan sonra onu yaranın üstünə yaxıb bağlayırlar. Bu məlhəm 2-3 günə dəri altında olan irini, çirki təmizləyir.

Əziklərin müalicəsinə duzlu suda qaynadılmış keçədən geniş istifadə olunur. Bunun üçün duzlu suya keçəni atıb qaynadırlar. Əzilmiş yeri bir müddət onun içində saxlamaq, sonra isə keçəni həmin yerə bağlayaraq yatmaq lazımdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzik çox olarsa, nallıca yarpağının üstünə bal çəkmək, əzilmiş yerə qoymaq lazımdı.

Əmənkömənci, qatırquyruğu, dəli quşəppəyini (qırxbğumu) bir-birinə qatıb dəmlədikdə və onu gündə 3 dəfə yeməkdən əvvəl 2-3 ay qəbul etdikdə böyrəkdəki daşlar xırdalanır, bədəndən xaric olur.

Zədə düşmüş dişləri müalicə etmək üçün bat-bat bitkisinin dənini mal təzəyinin üstünə töküb yandırır və tüstüsünü ağrıyan dişə verirlər. Bir-neçə dəqiqədən sonra dişlərdəki qurdlar tökülür, dişin ağrısı sakitləşir.

İrinləmiş yaraları müalicə etmək üçün əmənkömənci bitkisini döyüb unla qarışdırır, xaşıl bişirərək yaranın üstünə qoyullar.

Zəyərək yağı bədəndə əmələ gələn şişlərin müalicəsinə də əvəz olunmaz dərman hesab edilir. Unla qarışdırılıb, hazırlanan zəyərəkli xəmir ya şişləri dağıdır, ya da yetişdirib deşir. İrin çıxdıqdan sonra bir-iki dəfə həmin dərmanın yaraya qoyulması onu tamamilə sağaldır.

Yamanlaşmış yaraları müalicə etmək üçün dağlarda bitən keçi gəvənin kökünü döyüb suda qaynatmaq və ona un əlavə edib quymaq hazırlamaq, yaranın üstünə yaxmaq lazımdı.

Yel xəstəliyinin müalicəsində ayı yağından, eləcə də porsuq yağından geniş istifadə edilmişdir. Bu yağları həm ağrıyan yerlərə çəkir, həm də xörəyə qatarax yeyillər.

Yel və radikulit xəstəliyi zamanı bir ədəd qırmızı bibarı (acı) yarım stəkan əridilmiş quyruq yağında qaynadıb süzmək, ağrıyan yerə çəkib isti yun parça ilə sarımaq və yatağa uzanmaq lazımdı.

Yel və radikulit xəstəliyi zamanı ağrıyan yerə bal çəkmək, onun üstünə tütün yarpağı yapışdırmaq xeyirridi.

Yel xəstəliyində kirpi əti də tə'sirli dərmannardan hesab olunur.

Güllə yarasına qara otun dəmlənməsindən piltə hazırlayıf qoyanda yara az bir müddətə sağalır.



Göy öskürəkdə, zökəm və nəfəs yollarının soyuqlamasında göy qarğanın və sərçənin əti yaxşı tə'sir göstərir. Bu xəstəliklərdə çörxatayı bitkisinin kökünü və çiçəklərini çay kimi dəmləyib xəstəyə içirirlər.

Gülxətmi, kəklikotu və qantəpəri bir yerdə dəmləyərək içmək də göy öskürək və nəfəs yollarının iltihabı zamanı çox xeyirlidi.

Öküz bəzəyi adlanan bitkini qurudub, ovxalayır və buruna çəkirlər. Bu baş ağrısını sakitləşdirir.

Qan təzyiqini tənzimləmək üçün on ədəd üzərrik toxumunu ağızda çeynəmək lazımdı.

Qripplə əlaqəsi olmayan, təzə başlanan zökəm zamanı yarım stəkan suyu 5 damcı yod salıb içmək lazımdı. Təzə hazırlanmış 5 ml. kök şirəsinə eyni miqdarda bitki yağı qatıb, üzərinə bir neçə damcı sarımsaq şirəsi əlavə edib, zökəm zamanı gündə 3-5 dəfə, hər dəfə 5 damcı qarışıqdan buruna tökmək lazımdı.

Zökəmə yoluxmamaq üçün soyuq havalarda 3-4 ədəd sarımsaq və soğanı doğrayın, otaqda açıq qabda saxlayın. Onlardan uçan fitonsidlər antibiotik tə'sir göstərəcək, hər gün təzəsini qoymaq lazımdır. Burun deşiklərini sıra ilə örtməklə, uçan buxarla nəfəs alın. Nəfəs zamanı ağızı geniş açmaq lazımdı.

Zökəm zamanı gündə 4-5 dəfə, burunun hər deşiyinə 3-5 damcı əzvay şirəsi töküb, başı arxaya əyin və burun qanadlarının ovuşdurun. Bitki yağını su hamamında 30-40 dəqiqə saxlayıb, sonra oraya bir baş soğan və dörd diş sarımsaq doğrayıb tökün, üç saat saxladıqdan sonra süzüb burun deşiklərinə sürtün. Bunun üçün 50 qram bitki yağı kifayətdir. Bu zökəmdən sonra əmələ gələn rinitlər üçün də xeyirlidir.

Kəskin zökəm zamanı limon şirəsinin vaxtaşırı burun deşiklərinə çəkmək xeyirlidi. Üç xörək qaşığı doğranmış soğanı 50 qram qaynar suya töküb, bir çay qaşığı bal əlavə edin və qarışdırın, 40 dəqiqə dəmləyib süzün. Bu məhlulu gündə 4-5 dəfə, hər dəfə 5 damcı burun deşiklərinə tökməklə zökəmi sağaltmaq mümkündü.

Zökəmlə xəstələnən zaman burun deşiklərinə çuğundur şirəsi tökmək yaxud çuğundur şirəsi hopdurulmuş piltə qoymaq lazımdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Balı qaynadılmış isti suda (1:2) nisbətində həll edib gündə 3-4 dəfə kəskin və xroniki zökəmlərdə buruna damcı şəklində tökmək lazımdır. Ətirli tütünü əzib, burun deşiyinə elə çəkmək lazımdı ki, ağıza gəlib çıxsın. Bunu bir neçə dəfə eləməklə zökəmi sağaltmaq olar. Otaq temperaturunda olan suyu buruna çəkməklə zökəmi müalicə edirlər. Suyu çəkib, ağızdan bayıra tökmək lazımdı.

Xroniki zökəm zamanı bir çay qaşığı soda ilə beş damcı yodu, bir stəkan qaynadılmış suda həll edib tez-tez buruna çəkmək və ağızı yaxalamaq lazımdır.

Təzə sarımsaq şirəsindən burunun hər deşiyinə iki damcı salmaq və ya pambığa, bintə hopdurub burun deşiklərinə qoymaqla haymorit xəstəliyini müalicə etmək olar.

Xroniki haymorit zamanı gündə 5-6 dəfə, hər dəfə 15 dəqiqə müddətində içində bal olan şanı, çeynəyib tüpürmək lazımdı.

Sarımsağı çeynəyib ağızda saxlamaq difteriya törədicilərini məhv edir.

Bir diş sarımsağı dişləyib, ağızda çeynəmək angina və qırtlağın iltihabı xəstəliklərində çox gözəl müalicəvi tə'sirə malikdir. 100 qram təmizlənmiş və xırdalanmış sarımsağı 100 ml qaynar suda otaq temperaturunda ağzı bağlı qabda 6-24 saat dəmləyib süzmək, anginalar zamanı boğazı bir neçə dəfə onunla qar-qara etmək lazımdır.

İçərisində bal olan şanı, gündə 5-6 dəfə çeynəməklə, ya da balın su ilə 1:2 nisbətində qatışığı ilə gündə 3-4 dəfə boğazı qar-qara etməklə angina və xronik tonziliti müalicə etmək olar.

Limonun qabığını soyub, üç tikə limonu ağızda çeynəyib, suyunu sorun və udun. Bunu hər saatdan bir təkrar etməklə boğaz ağrılarından xilas olmaq olar. Yaxşı olar ki, limonu şəkərlə birlikdə sorasınız.

Anginanın başlanğıc formalarında 30%-li limon turşusu ilə hər saatdan bir boğazı yaxalamaq lazımdı.

Bir çay qaşığı alma sirkəsini bir stəkan suda həll edib, hər saatdan bir



boğazı qar-qara eliyib, məhlulu udurlar. Bu anginaların müalicəsində çox gözəl səmərə verir.

Barəmumu ağızda çeynəmək anginaların bütün növlərinin müalicəsi üçün xeyirlidi. Bunun çox beş qram barəmumu ağızda acı suyu çıxana qədər çeynəyib suyunu udmaq lazımdır.

Gecələr yatanda barəmumu səhərə qədər ağızda saxlayanda daha gözəl səmərə verir.

Kök şirəsi ilə boğazı qar-qara etdikdə anginalar sağalır.

Bir xörək qaşığı gülümbahar çiçəyinin ləçəyini iki stəkan qaynar suda 15 dəqiqə dəmləyib süzmək və onunla ılıq halda boğazı qar-qara etməklə boğaz ağrıları müalicə eləmək mümkündü.

Boğaz ağrısında bir qədər mumiyanı ağızda sorub, ondan sonra bir az bal yemək çox xeyirlidi. Bunu xəstə sağalana qədər, hər gün bir dəfə təkrar etmək lazımdı.

Dəvədabanı, gülxətmi çiçəkləri və sığırquyruğununun bir xörək qaşığı qatışığının üzərinə bir stəkan su töküb onu 20 dəqiqə dəmlədikdən sonra süzün. Boğaz ağrısı və ağız boşluğu xəstəliklərində bu məhlulla bir neçə dəfə qar-qara eləyin.

Yuxarı tənəffüs yolları, ağ çiyər soyuqdəymələri zamanı limonlu çay hazırlayıb, ora qara istiot, bal qatıb içmək xeyirlidi.

Bir litr qaynar suya 100 qram bal və bir ədəd limonun şirəsini qatıb gün ərzində içməklə soyuqdəymə və qripp xəstəliyindən asanlıqla xilas olmaq olar.

Çuğundur şirəsini eyni miqdarda bal ilə qatıb içmək soyqdəymənin dərmanıdı.

Xırda doğranmış sarımsağı iyləmək də soyuqdəymə zamanında yaxşı səmərə verir.

Soyuqdəymə zamanı bal ilə eyni nisbətlə qarışdırılmış kök şirəsinin qəbul edilməsi çox gözəl səmərə verir. Boğazı kök şirəsi ilə yaxalamaqla



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

boğaz ağrılarından xilas olmaq olar.

Soyuqdəymə zamanı iki xörək qaşığı cökə ağacının çiçəyini iki stəkan suda 15 dəqiqə qaynadıb süzmək, axşamlar bir–iki stəkan isti halda içmək lazımdı.

Soyuqdəymələrdə bir xörək qaşığı qara kəndalaşın qurumuş meyvələrini bir stəkan qaynar suda 20 dəqiqə dəmlədikdən sonra onu bir xörək qaşığı bala qarışdırmaq və axşamlar isti–isti içmək lazımdı.

Qurumuş alma yarpaqlarını 1:10 nisbətində qaynamış suda dəmləmək, zövqünüzə görə şəkər tozu əlavə edib, hər iki saatdan bir soyuqdəymə və xırıltı səslərdə yarım stəkan içmək lazımdı.

Bir–iki xörək qaşığı dəvədabanı yarpaqlarının bişirməsini hazırlayıb daxilə hər iki-üç saatdan bir, bir xörək qaşığı qəbul edin. Bu bişirmə nəfəs yolları xəstəliklərinin müaləcəsində çox xeyirlidi.

İki xörək qaşığı qovrulmuş, xırdalanmış biyan köklərini bir stəkan qaynar suya tökün, 20 dəqiqədən sonra alınmış dəmləməni için. Yarım saatdan sonra qalanını için. Axşam onu bir də təkrar edin. Bu soyuqdəymələr üçün çox xeyirlidi.

İki–üç qaşıq qırxbuğumu qaynar suya töküb dəmləyin. Yeməkdən əvvəl qızdırma zamanı nəfəs yollarının xəstəliklərində için. İki xörək qaşığı dəvədabanı, iki xörək qaşığı moruq meyvəsi, bir xörək qaşığı qaraqınığı, bir xörək qaşığı bal ilə qatıb, bir stəkan qaynar suda dəmləməklə soyuqdəymələrdə tərlədici vasitə kimi istifadə eləmək lazımdı.

Duza qoyulmuş kələm yarpaqlarını alın və gicgah nahiyəsinə qoymaqla yüksək hərarəti aşağı salmaqla, soyuqdəyməni sağaltmaq mümkündü.

Bir xörək qaşığı moruğu bir stəkan qaynar suda dəmləyib, boğazın iltihaba xəstəliklərində qar-qara etmək xeyirlidi.

Qoyulmuş kələm yarpaqlarını alın və gicgah nahiyəsinə qoymaqla yüksək hərarəti aşağı salmaqla, soyuqdəyməni sağaltmaq mümkündü.



Bir xörək qaşığı moruğu bir stəkan qaynar suda dəmləyib, boğazın iltihaba xəstəliklərində qar-qara etmək xeyirlidi.

Qara ciyər və öd yollarının xəstəliklərində səhərlər ac qarına 100-150 qram bişmiş qırmızı cuğundur yemək çox gözəl səmərə verir. Bişmiş qırmızı cuğundurla bitki yağından hazırlanmış salat da bu xəstəliyin müalicəsi üçün çox xeyirlidi.

Qara ciyər və böyrək ağrılarında gün ərzində 120-180 qram balı limon və ya itburnu şirəsi ilə birlikdə istifadə edirlər.

Bir xörək qaşığı dazıotunu bir stəkan qaynar suda zəif odda 15 dəq. qaynadıb süzün. Qara ciyər, öd yollarının iltihabı xəstəliklərində bu dəmləməni öd qovucu kimi gündə üç dəfə içmək lazımdı.

İki xörək qaşığı dazıotunu yarım litr qaynar suda 30–45 dəqiqə dəmləyib süzün. Qara ciyər və öd kisəsinin xəstəliklərində gündə üç dəfə yeməkdən yarım saat əvvəl içmək məsləhətdi.

Boranı meyvəsini şirəsi ilə birlikdə istifadə edəndə maddələr mübadiləsi yaxşılaşır, qara ciyər xəstəlikləri tezliklə sağalır. Bir gündə yarım kq boranı yemək, yaxud da yarım stəkan boranı şirəsi içmək lazımdı. 3-4 ay hər gün iki-üç stəkan boranı şirəsi içmək, ya da gün ərzində 1 kq boranı yemək də gözəl səmərə verir.

Bir stəkan turp şirəsini bir stəkan bal ilə qarışdırıb həzm orqanlarını, qara ciyəri, öd yollarının iltihabında bir xörək qaşığı gündə üç dəfə qəbul etmək lazımdı.

Qara ciyər xəstəliklərində ac qarına yarım stəkan təzə meşə çiyələyinin şirəsini içmək lazımdı.

Qara ciyər xəstəliklərində, sağ qabırğaaltı nahiyədə olan ağrılar zamanı quşüzümü şirəsini çay və yaxud su ilə içmək lazımdı.

Yarım litr alma sirkəsində 75 qram balı həll edib gündə üç-dörd dəfə, hər dəfə yarım stəkan qara ciyər, öd yollarının xəstəliklərində içmək lazımdı.

Alma sirkəsini bal ilə1:1 nisbətində qarışdırıb çay qaşığı ilə gündə 3-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4 dəfə içmək, qara ciyər, öd kisəsi, qara ciyər daxili öd yollarının iltihabı xəstəliklərində içmək lazımdı.

İki çay qaşığı balı bir stəkan qaynanmış isti suda həll edib, gündə 2-3 dəfə qara ciyər, öd yolların xəstəliklərində daxilə qəbul etmək lazımdı.

İki xörək qaşığı itburnu ləçəklərini yarım xörək qaşığı balla qarışdırıb qara ciyər ağrılarında isti çayla içmək lazımdı.

Bir xörək qaşığı xırdalanmış söyüd qabığını bir stəkan qaynar suda iki saat dəmləyin. Qara ciyər xəstəliklərində 1-2 xörək qaşığı, gündə 3-4 dəfə için.

Bir neçə həftə, hər gün olmaqla, gündə yarım litr aşağıdakı şirələrdən: köklə ispanağ /5:3/; kök, çuğundur, xiyar /10:3:3/; kök, çuğundur, xiyar /4:1:4/ nisbətində qarışdırıb təzə halda qəbul etmək lazımdı. Çuğundur sokunu yalnız yarım saat saxlamaq olar.

Xırdalanmış ardıc meyvələrini 1:20 nisbətində bişirib, yeməkdən 30 dəqiqə əvvəl gündə 3-4 dəfə, hər dəfə bir xörək qaşığı içmək qara ciyər xəstəliklərində xeyirlidi.

50 qram ardıcın quru meyvələrini bir stəkan qaynar suda zəif odun üstündə, 30 dəqiqə bişirib soyudun, onun üzərinə şirə halına düşənə qədər bal və ya şəkər tozu əlavə edin. Bu dəmləmədən bir çay qaşığı yeməkdən əvvəl qəbul etmək qara ciyər xəstəliklərini sağaldır.

Altı xörək qaşığı balı, dörd xörək qaşığı zeytun yağı və iki xörək qaşığı limon şirəsi ilə qatıb yeməkdən əvvəl bir xörək qaşığı qəbul etmək qara ciyər və öd yollarının müalicəsində gözəl səmərə verir.

Qara ciyər xəstəliklərində bal ilə boymadərən şirəsini eyni nisbətdə qarışdırıb qara cəyər xəstəliklərində gündə üç dəfə bir çay qaşığı içmək məsləhət görülür.

Qozun ləpəsini əzib, eyni çəkidə bal ilə qarışdırın. Qara ciyər xəstəliklərində 100 qrama qədər qarışığı 3-4 dəfəyə daxilə qəbul edin.

Qara ciyər nahiyəsində xoşagəlməz duyğuları aradan qaldırmaq üçün əvvəlcə iki ədəd təzə yumurta sarısı və beş dəqiqədən sonra isə bir stəkan isti mineral su için. Sonra iki saat müddətində sağ böyrü üstə isti



isidicinin üstündə uzanın.

Kartofu qabıqlı bişirib əzin, isti halda qara ciyər nahiyəsinə qoyun. Bu qara ciyər və öd xəstəliklərinin müalicəsində gözəl səmərə verir.

Üç qram mumiyanı üç litr qaynanmış suda həll edin. Qara ciyər xəstəliklərində, gündə üç dəfə yeməkdən yarım saat əvvəl bir stəkan için. Bunu on gün için, beş gün fasilə edin. Bir–neçə həftədən sonra təkrar qəbul edin.

Qara ciyər və öd xəstəliklərində kərəvəz kökündən alınmış yarım stəkan şirəni gündə 2–3 dəfə için. Bu çox xeyirlidi.

İki çay qaşığı xırdalanmış sürvə yarpaqlarını iki stəkan qaynar suda yarım saat dəmləyib süzün. Öd kisəsinin və qara ciyər daxili öd yollarının iltihabında hər iki saatdan bir, bir xörək qaşığı için.

Bir hissə acı yovşana beş hissə sürvə yarpağını qatıb, ondan bir qədər götürüb, bir stəkan qaynar suda dəmləyib, gündə 2–3 dəfə daxilə qəbul etmək qara ciyər xəstəliklərini müalicə edir.

Qara ciyər və öd kisəsinin xəstəliklərində gündə bir stəkan şirələrin qatışığından (kök, kərəvüz, zəncir otu) içmək lazımdı. Qara ciyərin serrozu xəstəliyində şirələrin qarışığı (kök, ispanaq 5:3), Kök, çuğundur, xiyar 10:3:3 nisbətində içilməlidir.

Üç xörək qaşığı gicitkan yarpağını iki stəkan qaynar suda iki saat müddətində dəmləyib qara ciyər və öd kisəsinin xəstəliklərində gündə 3-4 dəfə yeməkdən əvvəl yarım stəkan içmək lazımdır.

Bir xörək qaşığı əzilmiş şüyüd toxumlarını stəkan yarım suda dəmləyib gün ərzində içmək qara ciyər xəstəliklərini müalicə edir.

Qara ciyər xəstəliklərində qarağatla balı 1:2 nisbətində qatıb istifadə etmək də xeyirlidi.

Bir xörək qaşığı gülümbaharı bir stəkan qaynar suda, zəif odun üstündə 5-7 dəqiqə qaynadıb, 1-2 saat dəmləyib, süzmək və qara ciyər, eləcə də öd yollarının xəstəliklərində, gündə 3-4 dəfə 1/4 stəkan içmək lazımdı. Gülümbahar ödqovucu, iltihab əleyhinə və büzüşdürücü tə’sir göstərir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İki çay qaşığı gülümbaharı iki stəkan qaynar suda bir saat dəmləyib, süzün. Qara ciyər xəstəliklərində yarım stəkan gündə dörd dəfə için.

Bir xörək qaşığı sürvə yarpaqlarını yarım litr qaynar suda, zəif odun üstündə 15 dəqiqə bişirin. Sonra 30-45 dəqiqə dəmləyib, süzün. Qara ciyər və öd kisəsinin fəaliyyətini yaxşılaşdırmaq üçün yeməkdən 30 dəqiqə əvvəl 3 qaşıq, gündə 3-4 dəfə daxilə qəbul edin.

İki xörək qaşığı xırdalanmış çiyələk yarpaqlarını bir stəkan qaynar suda, isti yerdə 2-3 saat dəmləyib, bir xörək qaşığı gündə 3-4 dəfə qara ciyər xəstəliklərində istifadə edin.

Bir xörək qaşığı xırdalanmış andız kökünü yarım litr qaynar suda, zəif odun üstündə 15 dəqiqə qaynadıb, 3-4 saat dəmləyib süzün. Qara ciyər və öd kisəsinin iltihabı xəstəliklərində 30 dəqiqə əvvəl yarım stəkan gündə üç dəfə daxilə qəbul edin. Bu öd yaranmasını artırır. Ödqovucu, iltihab əleyhinə tə'sir edir.

Tam yetişmiş xiyarı, onun yarpaq və budaqları ilə birlikdə termosda dəmləyib, bal əlavə etməklə çay kimi içmək qara ciyər xəstəliklərində və sarılıqda çox yaxşı səmərə verir. Dəmləməni istənilən qədər içmək olar.

Gündə üç dəfə, hər dəfə 100 qram quşarmudu meyvəsini yeməkdən 30 dəqiqə əvvəl sarılıq xəstəliyində ödqovucu maddə kimi daxilə qəbul etmək lazımdır.

Quşarmudu şirəsini sarılıq xəstəliyində gündə iki–üç dəfə yeməkdən 30 dəqiqə əvvəl bir stəkan ödqovucu kimi içməkdə gözəl səmərə verir.

İki xörək qaşığı zirinc yarpaqlarını termosda yarım litr qaynar suda iki saat dəmləyib süzün. Gündə üç–dörd dəfə yeməkdən əvvəl bal ilə qarışdırıb qara ciyər xəstəliklərində, sarılıqda, öd kisəsinin xəstəliyində için.

Bir çay qaşığı qaraqınıq bitkisini bir stəkan qaynar suda iki saat dəmləyib, süzün. Gündə 3-4 dəfə bir stəkan dəmləməni sarılıq xəstəliyində için. Qaraqınıq ödqovucu, sidikqovucu tə'sir göstərir.



Bir limon şirəsini, bir çay qaşığı soda ilə qarışdırıb, səhər ac qarına içmək, sarılığı aradan qaldırır. Bu qarışığı 3 gün içmək lazımdı.

Bir qədər xırda doğranmış vələmir otunu bir litr suya töküb, zəif odun üstündə o qədər buxarlandırın ki, yarım litr qalsın. Onu süzüb bir stəkan olmaqla, gündə 3 dəfə sarılıq xəstəliyində içiin.

Sarılıq zamanı gün ərzində yarım litr şirə qarışığı içmək lazımdı. Kök və ispanaq /5:3/ kök, çuğundur, xiyar, /10:3:3/ şirələri daha yaxşı səmərə verir.

Təzə hazırlanmış kələm şirəsindən hər dəfə bir stəkan olmaqla gündə 2-3 dəfə yeməkdən əvvəl içmək sarılığı müalicə edir.

İki çay qaşığı gülümbahar çiçəklərini 2 stəkan qaynar suda bir saat dəmləyib, süzün. Bu dəmləmədən gündə 4 dəfə, yarım stəkan içmək sarılığı müalicə edir.

İki xörək qaşığı xırdalanmış gülümbahar yarpaqlarını yarım litr təzə suya töküb 10 dəqiqə bişirib bir saat dəmləyin. Gündə 3-4 dəfə, hər dəfə yarım stəkan yeməkdən əvvəl sarılıq xəstəliyində için.

Bir xörək qaşığı gülümbahar bitkisini stəkan yarım qaynar suda yarım saat dəmləyib süzün. Qara ciyərin iltihabı xəstəliklərində bir stəkan gündə 3 dəfə yeməkdən otuz dəqiqə əvvəl için.

Bir xörək qaşığı dağtərxunun çiçəklərini bir stəkan qaynar suda dəmləyib, süzün. Qara ciyərin, öd kisəsinin iltihabı xəstəliklərində gündə 3-4 dəfə, 3 xörək qaşığı qəbul edin.

Çiy, ya da bişmiş boranı sarılıq xəstəliyindən sonra qara ciyərin antitoksik tə'sirini bərpa edir. Onu ödqovucu kimi sarılıqda, qara ciyərin iltihabında daxilə qəbul etmək məsləhət görülür.

Bir yumurta ağını, bir çay qaşığı bal ilə qatıb, stəkan dolana qədər qatıqla doldurun. Yeməkdən saat yarım əvvəl öd kisəsində durğunluq zamanı qəbul edin. On gündən sonra onu təkrar etmək lazımdı.

Qara ciyər və öd kisəsinin təmizlənməsi üçün gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl yarım stəkan kök, xiyar şirələrini eyni nisbətdə qarışdırıb içmək lazımdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Turpun şirəsini eyni miqdarda bal ilə qatıb 4 xörək qaşığından başlayıb,bir stəkana qədər içmək böyrək və öd yollarında daş əmələ gəlməsinə maneçilik törədir.

Əzilmiş raziyana toxumlarını 1:20 nisbətində su ilə dəmləyib yarım stəkan olmaqla gündə 4-5 dəfə yeməkdən 20 dəqiqə əvvəl öd daşları xəstəliyində daxilə qəbul etmək lazımdır.

Öd kisəsində olan daşları əritmək və ya qovmaq üçün hər gün 3–5 stəkan çiyələk yemək lazımdı. Bunu üç həftə davam etdirmək lazımdı.

Öd daşı xəstəliyinin müalicəsi üçün yarım litr zeytun yağı və bir o qədər süzülmüş limon şirəsi lazımdı. Axırıncı yeməkdən 6 saat sonra müalicəni başlamaq lazımdı. Hər 15 dəqiqədən bir 4 xörək qaşığı zeytun yağı, dərhal sonra bir xörək qaşığı limon şirəsi içmək lazımdı. Zeytun yağı qurtarandan sonra yerdə qalan limon şirəsini içmək lazımdı. Bu daşların öd kisəsindən xaric olunmasını sür'ətləndirir.

Bədənin əzilmiş və yaxud zədələnmiş yerinə təzə kəsilmiş malın, qoyunun bir parça sinir ətini döyüb qoymaqla müalicə etmək olar. Döyülmüş sinir əti ağrını sakitləşdirir və müalicənin vaxtını qısaldır.

Barmaqdan çıxan dolamanı, yaranı müalicə etmək üçün ən çox bağayarpağı bitkisindən istifadə olunur. Bağayarpağı xəstə yerə qoyulur, üstü göy rəngli kağızla örtülür və parça ilə sarınır. Qısa müddətə xəstəlik müalicə olunur.
Bağayarpağının toxumlarını yemək mə'də ağrılırını sakitləşdirir.

Əmənöməcini ya çiy, ya da bişmiş halda yeməklə öskürək xəstəliyini müalicə etmək olur.

Öskürəyin qarşısını almaq üçün irəvanəppəyinin çiy və ya bişmiş şəkildə yeyilməsi də yaxşı səmərə verir.

Təzə yaraları zəhərli mikroblardan qorumaq üçün həmin yeri sidiklə yumaq kifayətdir.

Alma qan dövranını, qan təzyiqini tənzimləyir. Bədəni sağlamlaşdırır, zehnə aydınlıq gətirir. Mə'də-bağırsağın normal fəaliyyətinə kömək edir.



Dırnaqların yanındakı qaranquşun (qan sızmanın, çatların) əmələ gəlməsinin qarşısını almaq üçün həmin yeri ilanqabığına sürtmək məsləhətdi.

Biləklərə və boğaza asılmış kəhraba muncuqlar qan dövranına tə'sir edir, təzyiqin normalaşmasına şərait yaradır.

Qızılca tutan uşağa şirin şeylər vermək lazımdı. Bu halda qızılca tez və fəsadsız qurtarır.

Əvəlikdən hazırlanmış xörək soyuqdəymədə, öskürəkdə və digər xəstəliklərdə faydalıdı.

Tumoy (qrip) olmuş xəstənin burnuna yandırılmış yovşanın tüstüsünü vermək lazımdı.

Boğazı gələnin boğazına ağ, ya da qara qabıqlı turpu soyub, çiy–çiy dilimləyib yaylıqla sarımaq lazımdı. Bu xəstəliyin bir neçə günə sağalmasını tə'min edir.

Qulaq ağrıyanda ona yovşan tüstüsü vermək məsləhətdi.

Zəhərlənmə vaxtı qatıq atılaması, ayran, süd içmək məsləhətdi.
Əldəki zəhəri yumaq üçün qatıqdan istifadə etmək olar.

Soyuqdəymiş adamı gicitkan, yarpız, çəmçi, kəklikotu bitkilərini bir yerdə qaynatdıqdan sonra həmin suda çimizdirmək məsləhətdi. Sonra isə xəstəyə sarıçiçək, qəntəpər, itburnu qarışığından dəmlənmiş çay verilməlidi.

Dəmrov xəstəliyini müalicə etmək üçün donuzdan böcəyi (buna çox yerdə külfə böcəyi də deyirlər) ilə təndir damındakı kərənlərdən bir qədər zimir toplayıb bir yerdə əzir, qarışdırır, sonra yaranın üstünə çəkib sarıyırlar. Bir neçə dəfə təkrar olunduqdan sonra yara tamamilə sağalır.

Qadınların döşündə əmələ gəlmiş yaraları müalicə etmək üçün kəvən kökünün yağından, yovşandan istifadə olunur.

Arı və yaxud başqa bir zəhərli həşərat sancmış yeri dərhal sıxıb zəhəri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxartmaq, sonra tez üstündən duzlu qatıq çəkmək lazımdı.

Yarpızdan dəmlənmiş çay, nanəli yeməklər nəfəs almanı asanlaşdırır, ürəyin fəaliyyətini yaxşılaşdırır.

Qara ciyəri xəstə olan adamlara qənd, şəkər, şəkər tozu, bal şərbəti içmək, sarı kök, qırmızı çuğundur yemək məsləhətdi.

Ödü yaxşı işləməyən adam acı yeməklərdən, ətdən, yağlı xörəklərdən imtina etməli, şirin və buna bənzər yeməklərdən, o cümlədən yetişmiş meyvələrdən istifadə etməlidi.

Hər səhər bir qədər təbii bulaq suyu içmək bədənin sağlamlığını və möhkəmliyini artırır.

Gərmə və odun tüstüsünün bədənə müsbət tə'sir etdiyini deyirlər. Həmin tüstülər insan bədəni üçün zərərli olan mikrobları məhv edir.

Paxlalı bitkilərdən istifadə etdikcə saçlar möhkəm və uzun ömürlü olur.

Soyuqdəymədə bəhməzdən istifadə edilir. Belə ki, soyuq dəymiş adam hər səhər ac qarına bir fincan qaynadılmış suya bir–iki xörək qaşığı bəhməz töküb qarışdırıb bir–neçə gün dalbadal içərsə xəstəliyi qurtarar.

Xalq təbabətində sağlamlığın aşağıdakı dörd şərtinə əməl edilməsi məsləhət görülür.

Ayağını isti tut,
Başını sərin,
Yeməyə fikir ver,
Düşünmə dərin.

Soğan ağızda, qida borusunda və həzm yollarında zəhərli mikrobları məhv edir. Alt və üst damaqları möhkəmləndirir.

Bişmiş soğanın çibanın üstünə qoyulması xəstəliyin qısa müddətdə sağalmasına səbəb olur.

Bədəndə əmələ gələn qaşınmaların dərhal qarşısını almaq üçün soğan və sarımsağı kəsib həmin yerə sürtmək kifayətdi.



Bağırsaqlarda müxtəlif qurdlar olan adama bir neçə səhər ac qarına tünd sarımsaqlı ayran və yaxud qatıq içirdilərsə tezliklə şəfa tapar.

Çoxlu sarımsaq, soğan, bibər yeyən adamın mə'dəsində, bağırsaqlarında ağrı olmaz, babasil xəstəliyinə tutulmaz.

Yeni doğulmuş uşağın qulağı ağrıyırsa, bir neçə damcı ana südü tökmək kifayətdi.

Bal loğmandı deyiblər. Bal min bir dərdin dərmanıdı. Baldan mə'də, bağırsaq, ciyər, baş ağrılarında istifadə olunur. Bir qədər qaynadılmış suya bir-neçə qaşıq təbii bal töküb şərbət hazırlamaq və hər gün ac qarına içmək çox gözəl fayda verir.

Kiçik yaşlarında sarımsaqlı qatığı çox yeyənlər boylu-buxunlu olar, sağlam böyüyər, diş ağrısı, diş tökülməsi halları baş verməz.

Sarımsağı, sarımsaqlı xörəyi çox yeyən adama bir çox xəstəliklər, o cümlədən qan axma kimi təhlükəli xəstəlik yol tapa bilməz. Belə adamlar aydın düşüncəli və möhkəm yaddaşlı olurlar.

Bədəndə əmələ gəlmiş qızartının üstünə sarımsaq dişini kəsib suyunu sürtdükdə qızartı genişlənməz və tez çəkilib qurtarar.

Bədəndə əmələ gələn sızıqların üstünə, dörd yanına sarımsaq suyu çəkmək məsləhətdi.

Sarımsaq mə'də, bağırsaq ağrılarını sakitləşdirir.

Soğan xörəyi tama gətirir, iştahını artırır. Soğanın tərkibində olan maddələr mə'də-bağırsaqda da həzmə kömək edir.

Gözləri zəif görən adam təzə kəsilmiş sağlam heyvanın qara ciyərindən çiy-çiy yesə müsbət nəticə verər.

Arıq və çəlimsiz uşaqları kökəltmək üçün onu hər gün səhər-səhər ac qarına bir piyalə bal şərbəti içirtmək məsləhətdi.

Tərlədikdə ayaxdan pis iy gələrsə tez-tez yumaq lazımdı. Yaxşı olar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, belə ayaqlar yarpız, yovşan, sarıçiçək bitkiləri ilə qaynanmış su ilə yuyulsun.

Oynaqlarından əziyyət çəkənlər yarpız çayı dəmləyib içsələr yaxşı olarlar.

Boğaz gələrsə alçadan hazırlanmış lavaşı bayır tərəfdən boğazın üstünə qoyub yaylıqla sarıyır və bir-neçə gün saxlayırlar. Az vaxtda boğaz ağrıları çəkilir.

Əgər dişiniz sağ tərəfdən ağrıyırsa, solda nəbzin üstünə sarımsağı soyub, ikiyə kəsib bağlayın. Bir–neçə dəqiqədən sonra ağrı kəsəcək.

Başınız ağrıyanda gicgah nahiyəsinə limon qabığı qoyub bağlayın. Soyulmuş tərəfi gicgahın dərisinə toxunsun. Bir müddətdən sonra qabıq bağlayan yerin altında qırmızı qaşınan ləkə əmələ gələcək və baş ağrısı kəsəcək.

Dişinizin əti qanıyırsa onda palıd qabığını və cökə çiçəyinin bişirməsini hazırlayın. Bunun üçün iki hissə palıd qabığı və bir hissə cökə qatıb bir stəkan qaynar suda dəmləyin, ılıq halda ağzınızı qar-qara edin.

Uzun müddət davam edən, güclü öskürəyi kəsmək üçün bir–neçə ədəd turpu çox narın doğrayıb üzərinə şəkər tozu səpin. 10–12 saatdan sonra onun şirəsi çıxıcaq. Həmin şirəni hər saatdan bir xörək qaşığı ilə için. Tezliklə xeyrini görəcəksiniz.

– Kərənti, bıçaq yarasının üstünə zəncirotu, yaxud, qara yoncanı, döyüb qoyanda yara tezliklə sağalar.
– Gülxətmi ayağa bağlı olanlara verilsə, tezliklə qəbizlik aradan qalxar.
– Gülxətmini qaynar suda dəmləyib əlinizlə əzib xəşil halına salandan sonra, istiliyi olan bədənə çəksəniz istilik düşəcək.
– Gülxətminin kökünü bişirmə şəklində hazırlayıb ağızı qar–qara edəndə diş ağrısı sakitləşir.
– Sətəlcəmi müalicə etmək üçün köhnə mal sümüyünü suda qaynadıb onun buxarı ilə nəfəs alsanız xeyrini görərsiniz.
– Boğaz şişini çəkmək üçün kələmi qaynar suda bir az qaynadıb şişin üstünə qoysanız şiş çəkilər.
– Atın qulun pərdəsini qurudub saxlayın. Bədəndə istilik olanda,



həmin pərdəni isti suda isladıb bədənə çəkdikdə istilik düşəcək.
– Kəvən bitkisinin gülünü qaynadıb, öskürən adama içirtsəniz ösgürək kəsəcək.
– Bat-bat bitkisinin qurumuş toxumlarını yandırıb tüstüsünü qanaxması olan qadına versəniz qanaxması dayanar.
– İlan tağını (bu bitki kölgə yerlərdə bitir) qaynadıb, gec yetişən yaralara məlhəm halında qoyulsa yara tez yetişər və irin təmizlənər.
– Süddüyan bitkisinin südündən bir üskük götürüb, bir stəkan suya qatıb, qəbizliyi olan xəstəyə verdikdə tezliklə bağırsaqlar yumşalar qəbizlik aradan qalxar.
– Süddüyanın kökünü qaynadıb, yarım stəkan xəstəyə içirtsəniz bağırsaqlarda olan quru sancı dayanar.
– Üç yarpaq yoncanın gülünü qaynadıb, öskürən adama vermək xeyirdir.
– Heyva tumunu qaynadıb, öskürən xəstəyə içirtsəniz xeyrini görərsiniz.
– Qaraqınıq da öskürək üçün münasib dərman hesab olunur.
– Bir ədəd yumurta sarısını qaba töküb, üzərinə şəkər tozu əlavə edin. Köpüklənənə qədər möhkəm çalxalayın. Sonra onu öskürən adama içirdin. Tezliklə xəstənin sinəsi yumşalar, öskürək kəsər.
– Yaranı (çibanı) təmizləmək üçün onun üzərinə qatıq quymağı qoymaq lazımdı. Bunun üçün qatıqla unu qatıb qaynatmaq, sonra onu məlhəm kimi yaranın üstünə qoyub bağlamaq lazımdı.
– Qəbizliyi aradan qaldırmaq üçün əvəliyi, əməköməkçini bişirib sıxın, ya xalis halda, ya da qatıqla qatıb xəstəyə verin.
– İlıq su ilə qarışdırılmış qatıq ayran da qəbizliyi yox edir.
– Mə’dəyə düşmüş tükü təmizləmək üçün yemliyi çeynəyib, isti qoyun südü ilə birlikdə için.
– Nehrə yağı südlə birlikdə içilsə bağırsağı yumşaldar.
– İlan vuran, böv dişləyən, əqrəb sancan yerə qatıq çəksəniz ağrı azalar.
– Sətəlcəm olan adama dırnaq boyda çay buzu uddursanız istiliyi düşər, vəziyyəti yüngülləşər.
– Buzu bəkməzə qatıb, xəstəyə verməklə onu sətəlcəmdən xilas eləmək olar.
– Bədənə çıxan yara gec sağalsa zəyi yandırıb əzmək və yaranın üstünə tökmək lazımdı.
– Hacı Nağı xəncər yarasını qaynar yağla sağaldarmış.
– Yanığa qatıq çəksəniz onun ağrısı tezliklə azalar.
– Suluqlu yanıqdan sonra, qabarları kəsib götürmək, arpa ununu sacda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qovuraraq yaranın üstünə səpmək lazımdı. Sarğı qoymaq olmaz.

– Əzvayı çeynəyib, əmələ gələn suyunu ağızda saxlamaqla ağız yaralarını sağaltmaq olar.

– Mə'dəsi dolu olan adamı qusdurmaq üçün zəyi əzib tənzifdən keçirin, bala qatıb xəstəyə yedizdirin. Bununla xəstə qusacaq, mə'dəsi təmizlənəcək.

– Dolamanı müalicə etmək üçün toyuğun isti zılını dolama çıxan yerə qoyub bağlamaq lazımdı.

– Deşilməyən yaranı deşmək üçün köhnə pambığı qoyun quyruğu ilə birlikdə döyün, bir–birinə qarışdırmaq və onu yaranın üstünə qoymaq lazımdı.

– Qulağı ağrıyan adamın qulağına duz qızdırıb qoysanız ağrı kəsəcək.

– İt tutmuş adamın yarasını müalicə etmək üçün dağ olmuş nefti unla qarışdırıb xəşil hazırlamaq və onu yaranın üstünə qoymaq lazımdı.



# N A I L L A R

## TORÇU OLU

Ey yığılan camaat, ey eşidən adamlar, eşidin sizə söhbətim var. Bax söhbət eliyənlər deyillər var ki, elə adam var kı, ruzusu əkinnən gəlir, elə adam var ki, biçinnən gəlir. Amma bir kişi varıymış, bunun da bir arvadı, bir də bir oğlu varıymış. Bunnarın ruzusu dəryadan gəlirmiş. Deyillər ki, o vaxt toru cildən qayırarmışdar. Bu kişinin də cildən bir toru varıymış. Hər gün dəryaya tor atıf balıx tutur, bunnan dolanıllarmış. Amma kişi yaman qocalıfmış, daha gedif-gələ bilmirmiş. Torçu bir gün oğluna deyir:

– Oğul, daha mən gedib-gələ bilmirəm. Gəl sənə tor atmağı öyrədim, mənim bu peşəmi öyrən, bəlkə mən öldüm, heç olmasa əlin boş qalmasın.

Kişi oğlunu dəryanın qırağına apardı. Oğluna tor atmağı öyrətdi. Günnərin bir günündə torçu ömrünü bağışdadı oğluna. Kişinin oğlu daha oldu torçu. Hər gün torunu götürüf gedirdi dəryaya. Günnərin birində Torçu oğlu yenə torunu götürüf dəryaya yönəldi. Torunu atdı, çəkəndə gördü ki, torda bir kəllə, bir də üç balıx var.Torçu oğlu bu balıxları da, kəlləni də götürüf evə getdi. Gəldi gördü kü, anası evdə yoxdu. Balıxları dirəkdən asıf anasını axtarmağa getdi. Bir az ora-buranı axtarıf geri qayıtdı. Gəlif gördü kü, ay dili-qafil, balıxlar bişif, hələ birinin də yarısı yeyilifdi. Torçu oğlu buna məhəttəl qaldı, öz-özünə fikirrəşdi ki, ayə, bu nə sirri-xudadı. Bu sirri heç kəsə açmadı.

Savah açılan kimi toru da götürüf yenə dəryaya getdi. Toru dənizə tulladı. Toru çəkəndə yenə tora üç balıx gəldi. Bunnarı da götürüb evə yönəldi. Gəlif gördü kü, yenə anası evdə yoxdu. Balıxları yenə həmin dirəkdən asıb anasını gözdədi. Qayıtdı ki, balıxlar bişif də, yeyilif də. Buna lap məhəttəl qaldı. Öz-özünə fikirrəşdi ki, yox bunu pusmax lazımdı.

Savah Torçu oğlu yenə dənizə tərəf yollandı. Yenə üççə balıx tutdu. Gətirif dirəkdən asdı. Amma bu dəfə bir yana getmədi. Bir də baxıf gördü kü, kəllədən bir nazənin sənəm çıxdı, gəlif balıxların qarnını yardı, yudu bişirdi. Balıxları yerə qoyan kimi Torçu oğlu yetirif bunun qolunnıan bərk-bərk yapışdı. Qız dedi:

– Oğlan, məni burax, qoy kəllənin içinə girim, gejələr çıxaram. Oğlan razılaşmadı ki, razılaşmadı.

Dedi:

– Elə zarafat yoxdu, sən kəlləyə girsən, bir də çıxmıyıcaxsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Buna kimi oğlanın anası gəldi. Qızı buraxmadılar. Kəlləni də götürüf ojağa tulladılar. Ocaxda yandırıf, külünü eşiyə tökdülər.

Bunnar bir müddət dolandılar, beləjə məhəbbətnən yaşadılar.

Günnərin bir günündə padşah seyrə çıxmışdı. Bunun yolu Torçuoğlunun evinin qavağından düşdü. Padşah baxdı kı, ayə bunun evinnən bir elə nazənin sənəm çıxdı kı, gəl görəsən. Elə bil ki, gündü şö'ləsi padşahın üzünə düşəndə padşah özünnən getdi. Vəzir padşahı qaldırıf apardı. Padşah ayılanda vəzir soruşdu:

– Bə sən niyə özünnən getdin, bu nə işdi?

Padşah dedi:

– Ay vəzir, mən gördüyümü sən görsəydin, indi ölmüşdün, yaxşı kı, mən özümnən getdim. İndi çağır Torçuoğlunun boynunu vurdur, arvadını da al mana.

Vəzir dedi:

– Ay padşah, axı günahsız yerə onun boynunu nejə vurdurum. Gəl sən onu elə yerə göndər ki, heç qayıtmasın, daha özümüzü el içində niyə biyavır eliyirik.

Nə olajaxdı, vəzirin məsləhəti padşahın xoşuna gəldi. Adam yolluyuf Torçuoğlunu gətirdilər. Padşah Torçuoğluyu görüf dedi:

– A Torçuoğlu, yaman yuxu görmüşəm, vayğamı yaman tez-tez qarışdırıram. Həmişə vayğamda atamnan əlləşirəm. Gərək sən gedf o dünyada atamnan mənə bir xəvər gətirəsən. Get, gör atam cəhənnəmdədimi, yoxsa cənnətdədimi?

Torçuoğlu dedi:

– Padşah sağ olsun, bu çox zor işdi. Mən bunu fikirrəşməmiş sənə "bəli" deyə bilmərəm. Qoy gedim evdə fikirrəşim. Savah gəlif cavavını deyərəm.

Padşah razılaşdı. Torçuoğlu ağ bulud, göy çüyüd, qaşqavaxlı, başını yerə dikə-dikə gəlif çıxdı evə. Arvad soruşdu:

– A kişi, sana nə oluf, niyə bu günə düşüfsən, padşah sana nə dedi?

Torçuoğlu dedi:

– Heş falımı aşma, daha mənimki də bura kimi imiş. Axı padşah elə söz deyir ki, bişmiş balığın gülməyi gəlir. Deyir get gör mənim atam cəhənnəmdədimi, yoxsa cənnətdədimi? Əşi, mən nə bilim, onun atası hansı cəhənnəmdədi? Hayıf bizim gözəl dolanmağımıza kı, puç oldu.

Arvad dedi:

– Ay Torçuoğlu, bunnan ötrü heş fikirrəşmə. Çox belə şeylərin qəvrini qazmışam. Sən get padşahdan qırx gün möhlət al, sonrasınnan işin yoxdu.

Torçuoğlu gedif padşahdan qırx gün möhlət aldı. Arvad buna ismi-



əzəm duası öyrətdi. Dedi:

– Atam dəniz padşahıdı. Girərsən onun yanına, namazdan fərq olanda deyərsən ki, padşah, sağ olsun, məni qızın yolladı, dedi ki, ağac atı mana yollasın. Atı alannan sonra ata deynən ki, ay at, Süleyman peyğəmbərin eşqinə apar məni cəhənnəmi və cənnəti gəzdir. Görüm padşahın atası hansı səmtdədi.

Torçuoğlu halal-hümmət eliyif ayrıldı. Gedif gördü kü, padşah üzü qıvlıya namaz qılır. Namaz qılıf qurtarannan sonra o, Torçuoğlunnan soruşdu:

– Ay oğul, mana qulluğun nədi?

Torçu oğlu dedi:

– Qul sahibi olasız, qızın ağac atı istiyir.

Padşah dedi:

– Baho, üzün qara olsun, ay qızım. Deyəsən, bəni adəm əlinə keçif.

Torçuoğlu ağac atı alıf geri döndü. Ata dedi:

– Süleyman peyğəmbərin eşqinə, məni cənnətə, cəhənnəmə apar.

At yola düşdü. Bir xeyli getmişdi ki, yolda bir dərvişə rast oldu. Bunnar bir-birinnən xəvərrəşdilər, yoldaş oluf yola düzəldilər. Dərvişin belində bir qılış da varıydı. Bir az gedənnən sonra dərviş dedi:

– Gəl, mən silahımın, sən də atının xasiyyətini deyək.

Torçuoğlu dedi:

– Bax, mənim atımın xasiyyəti odu ki, minənnən sonra desən ki, ay at, Süleyman peyğəmbərin eşqinə, məni məğribdən məşriğə, cənnətdən cəhənnəmə apar, nə bilim, bütün dünyanı gəzdir, o da səni aparıf gəzdirəcək.

Dərviş dedi:

– Mənim də qılıncımın xasiyyəti budu ku, desən, qılıncım, qınından çıxıf gedərsən filankəsin boynunu vuruf gələr, girərsən qınına, o saat yerinə yetirəjək.

Bunnar razılaşdılar. Halal-hümmət eliyif qılıncnan atı dəyişdilər.

Torçuoğlu gördü kü, dərviş atı minif gedir. At əlinnən çıxası olur. Oydu ku, dedi:

– Ay qılınc, Süleyman peyğəmbərin eşqinə, tezcə qınınnan çıx, get dərvişin boynunu vur, gəl, yenə gir qınına.

Söz onun ağzınnan çıxan kimi qılınc gedif, dərvişin boynunu vuruf gəldi, yenə girdi qınına.

Torçuoğlu atı mindi, qılıncı da saldı boynuna düşdü yolun ağzına. Gedif bir dənizə çıxdı. Gəlif gördü kü, dənizin qırağında bir adam oturuf, qumnan oynuyur. Dörd tərəfi də gülnən-çiçəknən dofdoludu. Qəribə xasiyyətdi bir adamdı. Amma heş gülə-zada baxmırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Torçu oğlu buna yaxınlaşanda kamalı ehtiramnan salam verif dedi:
– Bə o yaxşı gülləri qoyuf gəlif niyə bu qumnan oynuyursan?
Qumnan oynuyan adam dedi:
– Get oğlum, yolun burdandı, gələndə deyərəm.
Torçuoğlu bunnan aralandı. Getdi gördü kü, bir qarı iki qapının arasında oturuf, qavağında bir cəm qan, əlində də bir parça arpa əppəyi. Arpa Əppəyini qana batırıf yeyir. Torçuoğlu bunnan soruşdu:
– Ay qarı, nənə ya dur qapıyı aç, ya da o biri qapıyı. Niyə burada dayanıfsan?
Qarı dedi:
– Get, oğlum, yolun burdandı, gələndə deyərəm. Torçuoğlu burdan da getdi.
Getdi gördü ki, bir dar küçədə bir adam oturuf əli qoynunda dizi qarnında fikir eliyir. Torçuoğlu buna da ədəbi-ərkannan salam verif soruşdu:
– Ey dili-qafil, ey allahın bəndəsi, sən niyə burda bu günnən oturuf fikir eliyirsən?
Həmin adam dedi:
– Get oğlum, sən qayıdanda deyərəm.
Torçuoğlu burdan da keçdi. Getdi gördü kü, iki qoçdu, bir dənə də ortada qara daş. Qoçdar hərəsi bir tərəfdən başdarınnan daşa bərk-bərk vurullar. Daşdan iki dənə od çıxır, biri düşür bunun belinə, biri də düşür o birinin belinə. Torçuoğlu bunnara da məhəttəl qaldı.
Torçuoğlu üz tutdu Xudavəndi aləmin dərgahına. İki rükət namaz qıldı. Qoçdar oldular dilbilən. Torçu oğlu soruşdu:
– Ey allahın heyvannarı, sizə nə oluf, bir-birinizi bu kökə salırsınız?
Qoçlar dedi:
– Get gələndə söylüyərik.
Torçuoğlu burdan da keşdi. Gedif gördü kü, padşahın atasını cəhənnəm oduna atıllar. Torçuoğlu üzünü tutdu qiblə tərəfə xudavəndi aləmnən möhlət alıf kişiynən bir az söhbət elədi. Kişiyə dedi:
– Ey allahın mö’mün bəndəsi, bəs sən niyə buradasan?
Padşahın atası barmağınnan qızıl üzüyü çıxarıf buna verdi və dedi:
– Get, oğluma de ki, alnımın təriynən, əlimin əməyinnən, qazandığım bir kalçanın dərisi dolu qızılım var. Həmin qızılı taxtın altında basdırmışam. Onu çıxarsın, fağır-füqarəyə paylasın, bəlkə mən burdan azad olam.
Torçuoğlu bunnan xudafizdəşif ayrıldı, üz tutdu gəlməyə. Geri qayıdanda ilkinə qoşdara rast oldu. Qoşdar dedilər:
– Ey oğlan, bizim birimiz ağaydıx, birimiz də qazı. Haxdan da aldıx



yedik, nahaxdan da. Nə haqqın işinə baxdıq, nə də nahaqqın. Bunu öz aramızda yedik. İndi neçə ki, dünyada varıx, biz başımızı bu daşdara döyəjiyik. Bu daşdan iki od çıxajax, yanajax, olajax kül, isdanajıyıx yenə olajıyıx qoç.
Torçu oğlu dedi:
– Sizi heç ömrünüz olalı bu azardan qurtarmıyın. Siz ki, haxnan nahaqqı ayırmayıf sınız, sizi ömürrük bu azardan qurtarmıyın.
Torçuoğlu burdan keşdi. Gəlif həmin əli qoynunda, dizi qarnındakı adamın yanına çıxdı. Bu adam dedi:
– Mən iki möhübbətdi oğlannarın arasını vururdum. Bunnan ona, onnan buna xəvər daşıyırdım. Bunnarın arasını elə vurdum ku, axırı bir-birilərini öldürəsi oldular. İndi fikirrəşirəm ki, görüm hansı kənddəri bir-birinnənvuruşdurum.
Torçuoğlu dedi:
– Ey allahın paxıl bəndəsi, sənki belə şər işlərnən məşğulsan, allah səni bunnan heş qurtarmasın.
Torçuoğlu burdan da keçdi. Gəldi çıxdı həmən qarının yanına. Qarı dedi:
– Oğul, mən deyərdim ki, ay xudavəndi aləm, adı qonşuma bir tikə də verme, nə var-dövlət var, qoy hamısı mənim olsun. İndi onun üçün bu qara əppəyi qana batırıf yeyirəm.
Torçuoğlu dedi:
– Ey qarı, sən ki, həmişə qonşularına qaragün istiyifsən, heş burdan qurtarma.
Torçuoğlu burdan da keşdi. Gəlif çıxdı qumun üstündə oynuyanın yanına. Soruşdu ku, söylə görüm, niyə bu günə düşüfsən?
Həmin adam dedi:
– İki çörəyim olurdu, bunun birini verirdim allah yoluna, birini də özüm yeyirdim. Elə oldurdu ku, bircə çörəyim olurdu, bunun da parasını yenə verirdim allah yolunda, parasını da özüm yeyirdim. İndi bax o gül-çiçək mənimdi. Gedirəm o gülnən çiçəknən oynuyuram, sonra da kef üçün gəlif bu qumnan da oynuyuram.
Torçuoğlu dedi:
– Bəh-bəh, keşkəm sənin yerinə mən olam, sən nə xoşbəxt adamsan.
Torçuoğlu burdan bir baş qayıtdı evlərinə. Üzüyü də aparıf padşaha verdi, atasının sözdərini də ona çatdırdı. Padşah lap məhəttəl qaldı. Vəziri çağırıf dedi:
– Evin yıxılsın, bu hələm bir xəzinəlik qızılın yerini də gətirif. Əşi, çağır boynunu vurdur.
Vəzir dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Padşah sağ olsun, bəs bunun boynunu necə vurdura billik, yenə fikirrəş elə yerə yolla kı, daha qayıtmasın.

Padşah yenə razılaşdı, dedi:

– Ey vəzir, bu dəfə fəndi sən elə.

Vəzir dedi:

– Padşah sağ olsun, ona deyim ki, ay Torçu oğlu padşahın cəmi qoşunu sənə qonnax gələjək, gərək onu yola salasan. Görək nejə yola salajax. Yola sala bilməsə, onda onunkunu ona verərik.

Padşah razılaşdı. Torçuoğlunu çağırıf padşahın əmrini ona söylədilər. Torçuoğlu yenə evə bikef gəldi. Arvadı gördü kü, Torçuoğlu yenə bikefdi, soruşdu:

– Ayə, yenə sana nə oluf?

Torçu oğlu əhvalatı olduğu kimi buna söylədi. Arvad dedi:

– Ayə, bunnan ötrü niyə fikirrəşirsən, sən ki, atamın yolunu bilirsən, gedif ona deyərsən ki, qızın süfrəni istiyir. Süfrəni alıf gətirərsən, sonrasınnan işin olmasın.

Torçuoğlu arvadınnan halal-hümmətləşib yola düşdü. Gedif padşahın süfrəsini alıf gətirdi. Süfrəni aşdılar, nə görsələr yaxşıdı, dünyanın nə ki, nazi-ne'məti var, süfrənin üstündədi. Hər şey var, qızıldan nimçələr, qavlar, piyalələr, qızıldan qaşıxlar, nə deyim bütün hər şey. Lap artıxlamasıynan. Yeməyə də nə desən var. Bir padşah yox, lap on padşahın qonağını yola salar.

Nə olajıydı, padşahın qoşunu deyilmiş və'dədə budu gəlif çıxdı. Gördülər ki, hər şey öz yerindədi. Məclis üçün lap qəşəng süfrə hazırranıf. Padşahın qoşunu yedi-işdi çıxıf getdi.

Qoşun dağılannan sonra qoşun başçısı padşahın hüzuruna gəlif dedi:

– Ey padşah, sən nə fikirrəşirsən, bizi Torçuoğlu yaman yola saldı. Hamımızın qavları qızıldanıydı. Belə həkəti mən hələm görməmişəm.

Padşah yenə məhəttəl qaldı kı, ayə bu nə işiydi mən düşdüm. Bu nə sirdi ki, mən bunu tora sala bilmirəm.

Padşah yenə vəziri çağıtdırıf dedi:

– Ay vəzir, mən sana neçə dəfə demişəm ki, bu Torçuoğlunun boynunu vurdur. Əşi, bilmirəm sən bunda nə görüfsən ki, bunu uzada-uzada durufsan.

Vəzir dedi:

– Padşah sağ olsun, mən sənin qulunam. Amma onu günahsız yerə öldürsəm, sana yaxşı deməzdər. Qoy bunu bir çətin işə göndərək. Bajarmasa, öldürməyə nə var. Gəl, bunu bu dəfə yolluyax getsin Çin padşahının qızını sana gətirsin. Daha bunu eliyə bilmiyəjək. Onda boynunu vurduraram.



Savah açıldı, savah hamınızın üzünüzə xeyirdiknən açılsın. Biçarə Torçuoğlunu yenə padşah hüzzuruna çağırdı, dedi:

– Ay Torçuoğlu, sən mənim bütün tafşırıqlarımı yerinə yetirdin. Sənnən çox razıyam. İndi görək gedif Çin padşahının qızını mənə alasan. Bu işi də görsən, sənə lap qoçax deyəjəm.

Torçuoğlu baş əyif çıxdı. Genəcə ağ bulud, göy çüyüd olarax evə yönəldi. Arvadı soruşdu:

– Ay Torçuoğlu yenə nə fikirrəşirsən, sana nə oluf?

Torçuoğlu dedi:

– Ay sağ olasan səni. Mən elə səni alannan ha fikirdəyəm ki, ha fikirdəyəm. Mən havaxt fikirdən qurtarmışam kı. Padşah indi də deyir, get Çin padşahının qızını mənə al gəti. Əşi, mən nə bilim, Çin padşahı kimdi, hardadı?

Arvad dedi:

– Ay Torçuoğlu, öz bəlandı çəkirsən, axı mənə nə minnət qoyursan. İndi ki, belə oldu, sən heş şeydən qorxma. Gedif atamı taparsan, deyərsən ki, ey padşah, qızın yel atını istiyir. Atı al min, at səni düz Çin padşahının vilayətinə aparajax. Sən də işini orda görərsən.

Bəli, biçarə Torçuoğlu yenə arvadınnan halallaşıf yola düşdü. Gedif dənizdə həmən padşahlar padşahını tafdı. Əhvalatı ona söylədi.

– Vallah, qızın yaman dardadı, yel atını istiyir.

Nə olajaxdı. Padşah yel atını verdi buna. Torçuoğlu mindi ata. Getdi gördü kü, bir çovan bir çöllü biyavanda düdük çalır. Dağ bir-bir gəlif bu çovanın qavağında oynuyır. Torçuoğlu yaxınnaşıf çovana dedi:

– Ay çovan qardaş, gəl mənnən gedək Çin padşahının qızını alax gətirək bizim padşaha.

Çovan razılaşdı. Yapıncısını çıxarıf bunnan bərabər yola düşdü. Getdilər gördülər ki, bir dəyirmançı duruf unnuğun qavağında. Unnux unnan dolanda unnuğa su buraxıf unu əlnəncə xamır yoğuruf udur.

Torçuoğlu buna dedi:

– Ay dəyirmançı, gəl bizə qoşul, gedək Çin padşahının qızını bizim padşaha alax.

Dəyirmançı da razılaşdı. Bunnar oldular üç, düşdülər yola.

Bunnar gəlif gördülər ki, bir pəhləvandı yıxılıf arxın ağzına gələn suyu içir, qoymur ku, su axa. Bunu da yoldan elədilər, indi oldular dörd, düşdülər yola.

Bunnar gedif bir adama rast oldular. Gördülər ki, bir tavıyı başına çəkif dünyanın harasında nə əhvalat var, hamısını eşidir. Bunnar bu adamı da yoldan elədilər. İndi oldular beş, düşdülər yola. Getdilər, çatdılar Çin padşahının vilayətinə. Burada gejələdilər. Savah açılan kimi Torçuoğlu getdi oturdu Çin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

padşahının elçi daşının üstündə. Çin padşahı adamlarını yolluyuf soruşdu:

– Dünya malınnan nə istiyirsiniz istəyin, amma elçi daşınnan düşün.

Bunnar nə qədər elədilərsə, Torçu oğlunun adamları elçi daşının üstünnən düşmədilər. Dedilər:

– Biz elçi gəlmişik.

Çin padşahının adamları gəlif padşaha əhvalatı söylədilər. Padşah bunnarı içəri gətirtdi, dedi:

– Çox yaxşı eləmisiz, gəlmisiniz. İndi hamınız gedin hamamda təmiz-təmiz çimin, sonra gələrsiniz, danışarıx.

Bunnar getdilər. Çin padşahı hamamçıyı çağırıf dedi:

– İndi beş adam yolladım hamama çimməyə, hamamı elə qalıyarsan kı, onun beşi də bişər. Bunnar belə söhbət eliyəndə tavanı başına tutan yoldaşdarına dedi ki, vay yandıx. Soruşdular kı, ə niyə yandıx, nə oluf.

Dedi hamamçı hamamı elə qalıyajax kı, hamımız bişəjiyik.

Arxı qarnına çəkən dedi:

– Ayə heş qorxma, o mənim boynuma, hamama gedəndə həmən bu arxı qarnıma çəkəcəm, hamamda da buraxajam. Beləcə də elədi. Hamamçı bunnarı içəri çağırdı. Bunnar hamama girməmiş soyux suyu buraxdı. Bunnar hamamdan üşüyə-üşüyə çıxdılar. Hamamçıya dedilər:

– Əşi hamamhamam, bu ku, buzxanadı, soyuxdan qırıldıx.

Çin padşahına xəvər apardılar kı, ay padşah, qonaxlar hamamdan titrəşə-titrəşə çıxdılar. Görəsən, bu nə işdi?

Padşah hamamçıyı çağırtdırıf dedi:

– Boynunu vurdurram, bəs sən nə iş gördün, bunlar niyə salamat qaldılar?

Hamamçı dedi:

– Padşah sağ olsun, mən hər şeyi elədim. Məni öldürsən də, öldürməsən də bunnar sənə kələk gəldilər. Özün bilərsən, nə edirsən et.

Padşah bunu buraxdı. Əmr elədi ki, qoşunun qazannarını gətirif beş qazan plov bişirərsiniz, əgər onnar həmən beş qazan plovu yesələr, qızı verəjəm, yeməsələr, boyunnarını vurdurajam.

Tavanı başına çəkən yenə dedi:

– Vay-vay, bu dəfə öldük.

Soruşdular:

– Ə, niyə, nə oluf?

Dedi:

– İndi də padşah beş qazan xörək hazırradı, deyir ki, yeməsələr, boyunnarını vurdurajam.

Xamır udan tələsik dedi:

– Ayə, bunnan qorxma, o mənim boynuma.



Bunnarı qonax otağına apardılar. Beş qazan xörəyi gətirdilər. Aşbaza dedilər:

– Əşi, bu nə duzsuz, tamsız xörəkdi.

Padşaha xəvər apardılar kı, ay evin yıxılsın qonaxların, xörəkdən doymadılar. Hələ bir xörəyi duzsuz, tamsız elədilər.

Padşah fikirrəşdi ki, yaxşı indi də başqa fənd eliyərik.

Dedi:

– Mən onnara qonaxlıq verəjəm. Xörəklərinə zəhər qatarsınız, yeyən kimi öləllər.

Tavanı başına çəkən dedi ki, vay-vay bu dəfə daha qırıldıx. Soruşdular ki, ə, nə oldu, niyə qırıldıx. Dedi ki, nə olajaxdı, padşah xörəklərimizə zəhər qatıf bizə verəjək, biz yiyən kimi öləjiyik.

Çovan dedi:

– Əşi, bunnan qorxma, bu mənim boynuma, siz qavlarınızı yaxşı tanıyın, mən düdüyümü çalanda qavlar oynaşmağa başdıyajax, onda da qavlar yerini dəyişəcək. Siz zəhərsiz qavlardan yeyəjəksiniz.

Nə olajaxdı, padşah, bunnarı çağırdı qonax, məclis quruldu. Qavlar dolu qavağa gəldi. Çovan dedi:

– Qoyun bir az düdük çalım, mən düdük çalmasam, iştahım açılmır.

Dedilər:

– Yaxşı, çal.

Çovan başladı düdük çalmağa. O, düdük çalan kimi, xörək qavları başdadı oynamağa. Xörək qavları oynaşdıxca yerrərini dəyişdi. Zəhərli qavlar gedif vəzir-vəkilin qavağına düşdü, zəhərsizdər isə bunnarın qavağına. Hamı başladı yeməyə. Yemək qurtarmamış vəzir-vəkil öldü, bunnar yenə salamat qaldılar.

Çin padşahı daha söz tapa bilmədi. Bunnarın əlinnən canını qurtarmax üçün qızı verdi. Toy quruldu, gəcavələr bəzəndi, qəflə-qatırrar yükləndi. Torçuoğlu üz tutdu geri qayıtmağa. Padşaha xəvər gəldi ki, bəs deməssənmi Torçuoğlu Çin padşahının qızını gətirir.

Padşah tezcənə əmr elədi ki, onların ayağının altına zili döşəsinnər. Nə olajıydı, yox olsun yoxsulluğu zilimi yoxuydu. Zililər döşəndi, hər tərəfdən camaat Torçuoğlunu dövrəyə aldı. Torçuoğlu gördü kü, padşah da gəlir. Tez əlini qılınca atıf dedi:

– Ay qılınc, Süleyman peyğəmbərin eşqinə, get padşahın boynunu vur, qayıt gir qınına.

Qılınc qınınnan bayax çıxdı, havada süzə-süzə gedif padşahın boynunu vurdu, yenə gəlif qınına girdi.

Camaat bunnan yaman razı qaldı. Torçuoğlunu özdərinə padşah seşdilər. Torçu oğlu camaatnan yaxşı dolanıf, padşahlıx elədi. Onnar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yedilər, işdilər, yerə keçdilər, biz də yeyək, içmək dövrə keçək, mətləf və murada çatax.

Göydən üç alma düşdü biri mənim, biri nağıla qulaq asannarın, biri də bajadan baxannarın.

## CAHAN KEŞDİ DƏRVİŞ

Biri varıydı, biri yoxuydu, dərviş Yusif addı varrı bir kişi varıydı. Dərviş Yusif o qədər yerrər gəzif dolanmışdı kı, buna el içində Cahan keşdi Dərviş deyərdilər. Bu dərvişin varı-halı çox olsa da, çırağını yandıran bir övladı yoxuydu. Odu ku, Cahan keşdi Dərviş çox fikirrəşdi, az fikirrəşdi öz-özünə belə qərara gəldi ki, bu qədər varım-dövlətim var, heç olmasa bir səfərə çıxım, haja ziyarət edim.

Bu fikirnən dərviş azuqə düzəldif yola çıxdı. Bir az getmişdi ki, bir adama rast gəldi. Həmin adam da ziyarətə gedirmiş. Onnar az getdilər, çox getdilər gəlif bir şəhərə çıxdılar. Bir qədər dinclərini alıf şəhərə girdilər. Gəlif bir qarıya qonax oldular. Dərviş Yusif qarıdan nejə dolanmasını və xalqın necə yaşamasını soruşanda qarı dedi:

– Necə olajaq, ay bala, bir təhər dolanardıx. Padşahımız da pis qadın deyil.

Bu sözü eşidən Yusif yoldaşına dedi:

– Mən gərək bu sirri öyrənəm, sonra gedəm. Axı bu şəhərdə bir kişi yoxdu ki, qadını padşah qoyuflar?

Yoldaşı nə qədər yalvardı:

– Əşi, bizim nəyimizə lazımdı ki, padşah kişidi, ya arvad?

Dərviş Yusif dediyinnən dönmədi. O, birbaş düz padşahın hüzuruna gəldi. Salam verif bir başa mətləbə keçdi. Padşah bir qədər Cahan keçdi Dərvişi başdan-ayağa süzüf, bu sirrin açılası olmadığını ona başa salmaq istədi. Ancaq Dərviş Yusif əl çəkmədi ki, çəkmədi. Şah işi belə görəndə dedi:

– Mən bu sirri sana danışıram, ancax bu şərtlə ki, görək sən gedib gündoğan tərəfdə Molla Əhməd addı bir adamın sirrini öyrənif mana deyəsən. Mən bilmək istiyirəm ki, Molla Əhməd nə üçün hər cümə günü çinarın başına gülə-gülə çıxır, ağlıya-ağlıya yerə enir.

Cahan keşdi Dərviş ələşsiz qalıf Molla Əhmədin sirrini örgənmək üçün yola rəvan oldu. Az getdi, çox getdi axır kı, Molla Əhməd yaşıyan şəhərə gəlif çatdı. Soraxlaşa-soraxlaşa Molla Əhmədi axtarıf tapdı. Onnan görüşüf tanış olannan sonra mətləb üstünə gəlif dedi:

– Molla Əhməd, buraya sənin sirrini öyrənmək üçün gəlmişəm. Bilmək istiyirəm ki, nə üçün hər cümə günü çinar ağacına gülə-gülə çıxıf, ağlaya-ağlıya enirsən.



Molla Əhməd bu sirri hələ heş kimə açmamışam. Odu ku, dərvişdən yaxa qurtarmax üçün onu elə bir yerə göndərmək istədi ki, bir də üzünü görüf, könlünü bulandırmasın. Ona görə də Dərviş Yusifə dedi:

– Bunu bilməkdən ötrü gərək sən mana Hasan padşahın nə üçün hər gün qonax otağında daş-qaşı əzif tökdüyünü və səhər yığıf çölə atdığını öyrənif deyəsən. Bu işi bajarsan mən öz sirrimi açıf sana danışaram.

Dərviş Yusif naəlac qalıf Hasan padşahı axtarmağa başdadı. Dərviş Yusifin yoldaşı ona yalvarıf dedi:

– Gəl biz yolumuzdan qalmıyax, bu heş baş tutan işə oxşamır.

Ancaq Dərviş Yusif əl çəkmədi ki, çəkmədi. Axır kı, axtara-axtara gəlif Hasan şahın ölkəsinə çatdılar. Dərviş gedif onun elçi daşının üstündə oturdu. Şahın gözətçiləri dərvişi şahın hüzuruna gətirdilər. Dərviş Yusif dedi:

– Mən bir sirr üçün gəlmişəm. Gərək öyrənəm, görəm siz nə üçün hər gejə bir dənə daş-qaşı əzif otağa tökür və səhər tezdən yığıf çölə atırsnız.

Şah dərvişi nə qədər başdan eləməyə çalışsa da, bir şey çıxmadı. Belə olduqda Hasan şah öz sirrini söyləmək üçün onu ən çətin bir yola göndərmək qərarına gəldi. Bu sirri öyrənməyə gedənnərin heş biri hələ sağ qayıtmamışdı.

Şah dedi:

– Dərviş Yusif əgər gedif Misir ölkəsində şah qızını nə üçün qollarınnan qayaya bağladığının səbəbini öyrənif çatdırsan, mən də öz sirrimi sana danışaram. Əgər gətirə bilməsən, onda bu söhbəti bir də dilinə alma.

Bunu eşidən dərviş Yusif yola düşdü. Yoldaşı gördü kü, bu hesafnnan ondan ziyarətə gedən çıxmayajax. Odu ku, dərviş Yusifdən ayrılıf yola düşdü. Dərviş Yusif dəryanın kənarında tək-tənha qaldı. O dincini almax üçün bir qədər uzandı. Elə burda da yuxuya getdi. Yuxusunda gördü kü, bir nurani qoja başının üstündə duruf ona deyir: "Cahan keşdi Dərviş, bilirəm bu getdiyin yol çox çətin yoldu. Amma sən hər şeynən maraxlandığın üçün mən sana kömək edəjəm. Sən dəryanı keçən kimi görəjəksən ki, dəryanın kənarında bir kirpi balalıyıf. Gərək kirpi yatanda onun balalarını altınnan elə götürəsən ki, kirpinin xəvəri olmasın. Tez həmin balaların başını kəsif qanını şüşələrə yığarsan. O qızın dərmanı kirpi balalarının qanıdı.

Bunu eşidən kimi dərviş Yusif yerinnən dik qalxdı və heş kimi görməyif öz-özünə fikirrəşməyə başdadı. Axır kı, yuxusunun düz olmasını sınamax üçün qayığa minif dəryanın o tayına keşdi. Gördü kü, doğrudan da burda bir kirpi balalıyıf. Dərviş Yusif yaxınnaşıf o qədər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gözdədi ki, kirpi yuxuya götdi. O tez sürünə-sürünə gəlif balaları ehtiyatnan kirpinin altınnan çıxartdı. Onnarın başını kəsif qanını şüşüyə yığdı. Sonra da bir dəst təbib paltarı geyinif şahın hüzuruna gəldi. Təbib olduğunu və şahın qızını sağaltmax üçün gəldiyini söylədi. Bunu dinniyif şah dedi:

– Əgər mənim qızımı sağaltsan, həm qız sənindir həm də, nə qədər istəsən sana qızıl verəjəm. Sağalda bilməsən, boynunu vurdurajam. Çünki qızımın bədənini görüf sağaltmıyan adamı buradan salamat buraxa bilmərəm.

Dərviş Yusif şahnan razılaşıf qız bağlanan qayaya tərəf gəldi. Gördü kü, qız əynində paltar qoymuyuf hamısını çırıf atıf. Dərviş Yusif qıza yaxınnaşan kimi qız bağırıf özünü didişdirməyə başdadı. Dərviş Yusif buna fikir vermədi. Qızın lap yanına gəlif şüşənin birindəki qanı qızın üstünə atdı. Qız bir qədər diksinən kimi oldu. Dərviş Yusif o biri şüşəni də açıf tökəndə qız utanıf yerə oturdu. Dərviş Yusif qızın qollarını aşdı və ona bir dəst paltar verif dedi:

– Al, geyin!

Qız yerinnən qalxıf utana-utana paltarı geyindi. Bu xəvər şaha çatan kimi özünü yetirif qızını qucaxlıyıf bağrına basdı. Dərviş Yusifi də götürüf öz sarayına gəldi. Dərviş Yusifə özü ağırrığında qızıl verdi və öz qızını da təklif etdi. Dərviş Yusif heş birinə razı olmuyuf, yalnız qızın bu hala düşməsinin səvəvini örgənmək istədiyini bildirdi.

Şah dedi:

– Bu sirri biz də hələ bilmirik. İndi qız sağalıf, çağır danışsın, qulağ asax.

Qız gəlif dərviş Yusifin qavağında diz çöküf başına gələnnəri danışmağa başdadı:

Mən bir huri oğlunu sevirdim. Hər gün gəlif xəlvət görüşürdük. Bir gün o mana dedi:

– Daha bəsdi, mən səni qaçırıf aparajam.

– Mən razı oldum. Biz qaçıf bir gölün qırağına gəldik. Qayığa minif oradan uzaxlaşmağa başdadıx. Bir qədər getmişdik ki, oğlan dəli kimi qışqırmağa başdadı:

– Budu, düşmənnərim məni tafdılar. İndi onnar məni öldürəjəklər. Mən ora-bura baxdım, amma heş nə görmədim. Bir də gördüm bir-neçə əl uzanıf oğlanı götürdü. Mən ağlayıf özümü yeyif tökməyə başdadım. Bir az keçmiş oğlanın qolları, qışdarı və ən axırda isə başı gəldi. Mən oğlanın başını görən kimi özümü itirif qayığın içinə yıxıldım. Qayıxçı məni geri qaytarıf, gölün sahilində saldı. Bunnan sonrasını daha özüm də bilmirəm



Dərviş Yusif bu sirri öyrənif şahnan xudafisdəşif yoluna düzəldi. Çox gəzdi, az gəzdi, axır gəlif Hasan şahın məmləkətinə çıxdı. Gedif elçi daşının üstündə oturdu. Şah çölə çıxanda gördü kü, Cahan keşdi dərviş gəlif çıxıf. Onu hörmət- izzətnən içəri çağırıf yer göstərdi.

– Hə, dərviş Yusif, indi söylə görüm, mən deyən sirri öyrənə bildin, ya yox.

Dərviş Yusif bütün başına gələnləri və qızın bu hala düşməsinin səvəvini söyləməyə başdadı. Hasan şah hər şeyə diqqətnən qulax asdıxdan sonra dedi:

– Sən ki, bu qədər yer dolanıf, bu sirri öyrənif mana çatdırırsan, insafsızdıx olar ki, mən də öz sirrimi sana danışmayam. Bunu deyif Hasan şah öz sirrini dərviş Yusifə söyləməyə başlddı.

– Baba dərviş, mən həmin bu ölkənin şahıydım. Vəzirim, vəkilim, cəlladdarım bir sözümü iki eləməzdilər. Məmləkəti elə idarə eliyirdim ki, hamı başıma and içirdi.

Bir gün gejə yatanda yuxumda bir kişi mana dedi ki, Hasan şah, sən taxtdan düşəcəksən, indimi düşmək istəyirsən, yoxsa qojalandamı? Mən buna heç bir söz demədim, oyandım kı, yuxudu. Səhəri yenə həmən kişi yuxumda məni hədələyif dedi:

– Hasan şah, mən ikinci dəfə sana söz deyirəm, nə fikirdəsən?

– Oyandım ki, yenə yerimin içindəyəm. Mən bu yuxunu arvadıma söylədim. Arvadım bir qədər fikirrəşif dedi:

– Ay kişi qojalanda çıxıf nə iş görəjəksən. De ki, indi çıxmax istəyirəm. İndi cavansan çalışıf özümüzü dolandırarıx. Gördüm arvadımın məsləhəti pis deyil, odu ku, yatağıma uzanıf yatdım. Gejənin bir vaxtı gördüm kü, həmin kişi yenə həmin sözü deyir. Mən də cavavında dedim ki, indi istəyərəm çıxam. Səhər açılanda nə görsəm yaxşıdı. Bütün taxt-tac əldən gedif, qalmışıx arvadnan bir komanın içində. Yerimizdən qalxıf o yana, bu yana boylandıx, amma heş kimi görmədik. Axırda məjbur oluf dedim:

– Arvad, bir az yemək hazırra, gedim vəziri, vəkili çağırım. Bir yerdə çox çörək yemişik, onnarnan bir tikə çörək kəsim, sonra da xudafisdəşim, çıxax gedək. Daha bizim bu ölkədə yaşamağımıza dəyməz.

Arvad qalxıf oranı-buranı çox axtardı, amma dişə dəyən bir şey tapmadı. Dedi:

– Ay kişi, filan vaxtı qolbağımı qoyun sağanda daşın altına qoymuşdum. Gedim görüm, ordadımı? Əgər ordadısa, aparım zərgərə verim, bir az pul alax, həm köhnə dostdarı çağırax, həm də yol üçün bir az azuqə düzəldək.

Arvadım gödif gördü kü, qolbağı həmin daşın altında durur. Qolbağını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

götürüf zərgərin yanına getdi. Qolbağını ona uzadıf dedi:

– Al bu qolbağını, əvəzində bir az pul ver. Zərgər qolbağına baxıf dedi:

– Bunun qiyməti beş şahıdı.

Arvadım yalvardı kı, ay kişi, nə danışırsan, bu qolbağı ölkənin yeddi-illik bac-xaracı ilə tökülmüşdü. Zərgər bunu eşidən kimi dedi:

– Yox, hələ mən baha demişəm. Bunun qiyməti cəmi-cümlətanı üç şahıdı. Biz məcbur oluf qolbağı üç şahıya verif, bazardan bir az çörək və qatıx alıf evə gəldik. Mən gedif vəziri, vəkili çağırıf, görüşüf ayrılmax istədim. Elə vəzir, vəkil içəri girəndə arvad dedim:

– Ay kişi qatığı pişik tökdü.

Mən məcbur oluf arvada dedi:

– Zərər yoxdu, duz-çörək gəti.

Arvad duzla çörəyi gətirif ortalığa qoyanda vəzir də vəkil də mana olmazın söyüşlər söyüf çıxıf getdilər. Bunnar gedənnən sonra dedim:

– Arvad, burada qalıf dolanmaxdansa, ölüm yaxşıdı.

Arvadımı da götürüf yola düşdüm. Az getdik çox getdik, gəlif bir səhrıya çıxdıx. Yeməyimiz qurtardı. Susuzduxdan dilimiz-ağzımız alışıf yandı. Gördüm arvad təmiz özünü itirif, elə su deyif, su eşidir. Bir qaf götürüf qum təpəsinin başına çıxdım kı, görüm yaxınnıxda kənd-kəsək varmı? Bir də gördüm kü, canavar ağzında bir səmək düz mana tərəf gəlir. Aşağı əyilif canavarın lap yaxınlaşmasını gözdədim. Elə ki, canavar gəlif mana çatdı, mən birdən yerimnən qalxıf çığır-bağır saldım. Mənim səsimi eşidən canavar qorxusunnan ağzındakı səməyi buraxıf qaşdı. Mən gedif səməyi götürəndə gördüm kü, içində bir oğlan uşağı var. Mən uşağı da gətirif arvadımın yanına qoyanda arvad zarıldıyıf dedi:

– Ay kişi, biz burdan sağ-salamat gedə biləjəyikmi, hələ üstəlik bir uşax da tapıf gətirifsən.

Mən oturuf fikirri-fikirri yeri qurdalamağa başdadım. Bir də gördüm kü, səməkdəki uşax yavaş-yavaş qımıldıyıf astadan nə isə deyir. Qulağımı uşağın ağzına aparanda bu sözdəri eşitdim:

Hasan padşah, sən məni belə ucuz tutma. Mən cinnər padşahının oğluyam. Bu dəqiqə qoşun yeriyəjək, məni onnara göstərmə, əgər göstərsən, səni öldürüf məni aparıf atama peşkəş çəkəjəklər. Gözdüyərsən qoşunun lap axırında bəzəkli haravada başında tac olan atam-anam gələjək. Elə onnar sana çatan kimi məni götürüf onlara peşkəş çəkərsən. Onlar sana nə versələr, razılaşma, yalnız anamın nişan üzüyünü istə.

Bu söz oğlanın ağzınnan qurtarmışdı kı, qoşun yeridi. Mən tez uşağı arvadın paltarının içində gizdətdim. Qoşun gəlif mana çatan kimi



canavarı soruşdular. Mən də uzaxdakı dağı göstərif dedim ki, canavar o dağa tərəf qaşdı. Qoşun dağa tərəf yeridi. Bir də gördüm lap arxadan bəzəkli bir harava gəlif düz yanımda dayandı. Mənnən canavarı soruşanda mən tez uşağı paltarın arasınnan çıxarıf həmin adama peşkəş çəkdim. Həmin adam uşağı bağrına basıf nə istədiyimi soruşdu. Mən cavavında dedim:

– Mənə heç bir şey lazım döyül, verirsən arvadının barmağındakı o nişan üzüyünü ver.

Şah məni nə qədər dilə tutdu ku, gəl özün ağırrığında qızıl verim, öz şahlığımı verim, bircə bu üzüyü alma. Mən dedim:

– Verirsən üzüyü ver, vermirsən mana başqa heş bir şey lazım döyül.

Belə olduxda arvadı barmağınnan üzüyü çıxarıf mana verdi və atdarını sürüf oradan uzaxaşdılar. Mən üzüyü əlimə alıf öz-özümə fikirrəşdim ki, nə ağılsız adamam, indi bunu neyniyəjəm. Hirsimnən üzüyü ovcumda sıxıf tullamax istiyirdim ki, bir də gördüm enni kürək pəhlivan geyimli-gejimli bir nəfər qavağımda dayandı. Mana baş əyif nə istədiyimi soruşdu. Mən dedim:

– Bir az yemək, bir az da sərin su gətir.

O dəqiqə sinidə toyuq qızartması və bir küpə sərin su hazır oldu. Mən arvadımnan çörəkdən yeyif, sudan işdim. Bir qədər özümüzə gələndən sonra üzüyün sirrini öyrəndim. O dəqiqə üzüyü sıxıf dedim:

– Məni öz ölkəmə aparıf yerimə şah qoy.

Bir də gözümü açanda gördüm kü, şah taxtında əyləşmişəm, vəzir-vəkilim də yanımda. Tez cəlladı çağırıf əmr etdim ki, vəzirin-vəkilin boynunu vur. Adam göndərif zərgəri çağırtdırdım. Dedim:

– Zərgər üç şahıya qolbağı harda var?

Zərgər ayağıma yıxılanda cəllada əmr etdim:

– Vur zərgərin boynunu.

– Hə, Yusif dərviş nə olajax? Təzədən özümə vəzir, vəkil seçif yaşamağa başdadı. İndi o vaxtdan cinnər padşahının adamları hər gejə gəlif üzüyü oğurramax istiyillər. Mən də üzüyü otağın ortasına qoyuf daş-qaşı əzib ətrafına tökürəm ki, gəlif oğurlaya bilməsinnər. Çünki, daş-qaş onların gözünə almaz kimi görünür və yaxın gələ bilmirlər."

Şah sözünü qurtarıf dərviş Yusifə dedi ki, indi mənnən nə istəyirsən, istə. Sən, doğurdan da, çox igid və ağıllı adamsan.

Dərviş Yusif şaha öz razılığını bildirib heş bir şey də götürmüyüf yola düzəldi. Çox gəzif dolandı, gəlif Molla Əhmədi tapdı. Hasan şahın sirrini başdan-ayağa Molla Əhmədə danışdı. Molla Əhməd məjbur oluf öz sirrini Dərviş Yusifə danışmağa başdadı:

– Ey Dərviş Yusif, mən ata-anam bir yerdə çox kasıf dolanırdıx. Uşax



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vaxtı atam öldü, anamnan birrikdə qaldım. Bir gün aj, bir gün tox bir təhər dolanırdıx. On üç, on dörd yaşıma çatanda anam məni molla məktəvinə qoydu. Elə bu vaxtı anam da öldü, tək qaldım. Hər gün ac-susuz gedif, oxuyuf gəlirdim. Çox vaxtı evdə yeməyə bir şey tapmırdım, elə ac-susuz da yıxılıf yatırdım. Bir-iki il beləjə dolandım. Hər gün uşaxlar sevinə-sevinə danışırdılar. Mən bu gün qovurma yedim, o biri deyirdi mən bu gün plov yedim, hərə bir yemək adı çəkirdi. Mən də heç bir söz demir, yavaşca onnardan aralanıf xəlvətə çəkilif için-için ağlıyırdım. Bir gün dərsdən çıxıf evə gedəndə gördüm kı, ojağım qalanıf, yeməyim hazır buğlanır, evim-eşiyim süpürülüf tər-təmizir. Dedim yaqın yoldaşlarımın birinin yazığı gəlif. Mən yeməyimi yeyif yatdım. Səhər yenə qalxıf məktəvə getdim. Dərsimi alıf geri qayıdanda yenə gördüm kı, yeməyim hazır, ojağım yanır, evim-eşiyim də süpürülüf. Bir gün belə, iki gün belə, dedim yox, bu qonşuların işi deyil, burada nə isə bir sirr var. Bir gün məktəbə getmiyif yükün dalında gizdəndim. Bir azdan gördüm kü, bir göyərçin gəlif bajanın ağzına qondu. Oradan pırıldayıf evin ortasına düşdü. Donunu dəyişif bir qəşəng qız oldu. Evi süpürdü, ojağı qaladı, ürəyim istəyən xörəyi də bişirif öz-özünə dedi:

– Molla Əhmədin vaxtıdı, daha mən çıxım gedim. Elə bunu eşidən kimi yerimnən sıçrayıf qızın qolunnan yapışdım. Qız nə qədər yalvardısa da buraxmadım. Axırda qız naəlac qalıf dedi:

– Molla Əhməd, mən hürülər şahının qızıyam. O ku, sənin əlin mana dəydi, mən səninəm. Amma bizi döymək, söymək olmaz. Mən nə iş görsəm, heş bir söz deməməlisən.

Mən razı oldum. Günüm çox yaxşı keçir, arvadımla çox mehriban dolanırdım. Vaxt o yerə gəlif çatdı kı, bizim bir oğlumuz oldu. Mən hər axşam oğlumu öpüf-oynadırdım. Uşax yavaş-yavaş böyüyüf dil açdı. Bir gün təndirin başında oturuf uşağı oynadırdım. Birdən arvad təndirin ağzını açıf uşağı təndirə atdı. Mən bir istədim, arvadı döyüf-söyəm, tez özümü saxladım. Mənim halımı görən arvad gülə-gülə dedi:

– Molla Əhməd, yoxsa incidin. Mən də dedim:

– Ay arvad ikimizin də uşağıydı, özün bilərsən.

Ay keşdi, il dolandı, yenə bir uşağımız oldu. Bunu da böyüdüf oynadırdıx kı, bir də gördüm eyvanın altında bir canavar durur. Arvad tez uşağı götürüf canavara atdı. Canavar uşağı götürüf özünü çölə verən kimi daha mən dözə bilmiyif arvada bir-iki vurdum. Elə bu vaxt arvadım qavağımda dayanıf dedi:

– Molla Əhməd, daha sən məni görə bilməzsən. Uşaxları isə mən bajılarıma atmışdım deyif göyərçin paltarını geyinif uçuf bajıya qondu və dedi:



– Məni hər cümə günü uşaxarımnan baravar qapıdakı çinar ağajının başında görərsən.

– İndi hər cümə günü arvadım yanında da iki uşağım uçuf çinarın başına qonullar. Mən onnarı görən kimi gülə-gülə çinara dırmaşıf görüşmək istiyirəm. Elə ki, mən onnara çatıram, üçü də uçuf gedillər. Cahan keşdi Dərviş, bax mənim də dərdim budur. Hər cümə günü gülə-gülə çinara çıxıram, ağlıya-ağlıya yerə enirəm.

Cahan keşdi Dərviş Molla Əhmədin dərdini öyrənif, arvad padşahın yanına üz qoydu. Dolana-dolana axır kı, gəlif arvad padşahı tafdı. Ədəb-ərkannan salam verif hüzurunda dayandı. Görüf eşitdiklərini ona danışmağa başdadı.

Bunnarı eşidən şah, Cahan keşdi Dərvişə üzünü tutuf dedi:

– Ey Cahan keçdi Dərviş, sənin gətirdiyin sirrərin yanında mənim sirrim heş bir şeydi. Odu ku, bu qədər əziyyətdən sonra mən danışmasam olmaz. Dərviş baba, biz bax bu dağın döşündəki kənddə yaşıyırdıx. Hər gejə bir xəvər çıxırdı kı, filan evin adamları qırılıf, mal-dövlətdəri də yoxa çıxıf. Mən də evdə qoja anamla yaşıyırdım. Bir gejə bizim də qapımızı döydülər. Anam dedi:

– Bala, geyin-geçin, silahını bağla, zirzəmidən evin dalına çıx.

Mən geyinif silahımı bağladım və anam dediyi kimi qarannıxda evin dalına endim. Bir də gördüm haramılar qapıyı sındırdılar, anamı öldürüf mal-qaramızı sürüf apardılar. Mən öz-özümə dedim: gərək bunnardan anamın qisasını alam.

Hər gün camaat şaha şikayətdənir, amma hər yeri axtarıf bir şey tapa bilmirdilər. Mən bir gün bunnarın arxasınnan getməyə başdadım. O qədər yol getdim ki, səhər açılana yaxın bir dar dərəyə çatdıx. Bunnardan aralanıf bir qayanın divində gizdəndim. Qalxanda gördüm kü, bir on nəfərə yaxın quldur toplanıf bir yerə yığılıf yeyif-içillər. Bütün oğurranan mal – dövlət hamısı burdadı. Mən qarannıx düşənə qədər buradan heş yerə çıxmadım. Elə ki, qarannıx düşdü gizdəndiyim yerdən çıxıf gəldiyim yolnan geri qayıtmağa başdadım. Gəlif kəndin, şəhərin adamları bir yerə toplanıf gejə səhərə kimi yol gəlif mən dediyim dərəni tafdıx. Səhər açılanda haramilərin hamısını tutuf, boyunnarını vurdular. Kimin nəyi oğurranmışdısa da, hamısını götürüf geri qayıtdıx. Şəhərə çatanda köhnə şahı taxtdan salıf məni onun yerinə şah qoydular. Dedilər ki, sən kişi ola-ola bizim düşmənimizi tapıf cəzasını verə bilmədin, bu qadın sənnən bajarıxlı və ağıllı çıxdı. O vaxtdan mən bu ölkənin şahıyam.

Cahan keşdi Dərviş bu sirri də öyrənif gördü kü, dünya da elə bir adam olmaz kı, onun sirri-dərdi olmasın. Odu ku, övladsızdığı özünə bir dərd etməyin mə’nasız olduğunu başa düşüf evinə qayıtdı. Öldüyü günə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kimi arvadınnan şad-xoşbaxt yaşıyıf, ömür sürdülər.

Onnar yeyif-içif yerə keşdilər. Siz də yeyin-için, dövrə keçin.



## SƏLİMİN NAILI

Biri varıymış, biri yoxuymuş. Hasan addı qoja bir kişi varıymış. Bu kişinin varı-yoxu bir arvadı və bir oğlu varıymış. Bu oğlanın adını atası Səlim qoymuşdu. Səlim on dörd yaşına çatanda atası vəfat elədi. Atasının vəfatınnan sonra bütün oluf qalannarı əllərinnən getdi. Ana-bala çox əzab-əziyyətnən ömür sürür, günnərini bir təhər yola verirdilər. Günnər gəlif keşdikcə oğlan böyüyüf həddi-buluğa çatdı. O, kənddərində onun-bunun qapısında nökərçiliknən bir tikə çörək qazanırdı. Səlimin əmisinin bir gözəl qızı varıydı. İndiyə qədər nə qədər elçilər gəlmişdi, heş birinə "hə" deməmişdi. Buna səbəb əmisi oğluydu. O, Səlimi, Səlim də onu oddu məhəbbətnən sevirdi. Ancax kasıf olduğu üçün əmisi qızını Səlimə verməyə razı olmurdu. Axırda bu dərd onu yorğan-döşəyə saldı. Uzun müddət xəstə qaldı, heş bir iş görə bilmədi.

Səlim burda yatmaxda olsun, sizə kimnən danışım, həmin ölkənin padşahınnan.

Yəmən padşahı bu ölkəyə düşmən kəsilmişdi. O, tez-tez bura hücum eliyir, şəhərrəri, kənddəri yernən yeksan edir, əhalini qırıf silahdan keçirirdi. Çox adam öz yurdunnan, yuvasınnan didərgin düşmüşdü. Yaqub şahın ölkəsi dağılmış, düşmən qavağına çıxa biləjək bir pəhləvanı da qalmamışdı. Şah ələşsiz qalıf öz oğlunu düşmənnərin qavağına göndərməyə məjbur oldu. Şahın oğlu pəhləvan livasını geyinif ata süvar oldu. Ata-anasınnan halallaşıf, görüşüf meydana girdi. Yaqub şahın oğlu Yəmən padşahının pəhləvanınnan üz-üzə gəldi. Bu döyüşə baxmağa şahın özü də gəlmişdi. Döyüş təbili vurulanda şah yerinnən qalxmax istədi, ancax dizdəri əsif yerinə oturdu. Döyüşdə gah Yəmən şahın pəhləvanı üstün gəlirdi, gah da şahın oğlu. Axırda Yəmən pəhləvanı şahın oğlunu möhkəm yordu. Bunu hiss eliyən pəhləvan var güjünnən qılıncı şahın oğlunun başına endirdi. Şah bunu görüf yerində qıvrıldı. Ancax şahın oğlu tez qalxanı başına qaldırdı. Qalxana dəyən qılınşdan od parıldadı. Güjdən düşmüş şah oğlu meydanı tərk etmək istiyirdi ki, ikinci dəfə Yəmən pəhləvanının qılıncı havada parıldadı.

İndi sizə xəvər verim Səlimdən. Səlim qızın dərdinnən yatağa düşüf gejə-gündüz xəstə yatırdı. Bir gün o, yatdığı yerdə bir nurani qoja onu oyadıf dedi:

– Dur, tez geyin! Yəmən şahının pəhləvanı xalqı qırıf qılınşdan keçirdi. Xalqın qanını yerdə qoyma.

Səlim gözünü açarax göy atın üstündəki nurani ağanı görüf yazıx-yazıx inildədi:

– Axı, mən xəstəyəm, qalxmağa güjüm yoxdu, mən nejə döyüşə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedim?
Nurani ağa əlini Səlimin kürəyinə vuran kimi bütün ağrıları yox oluf getdi. O, yataxdan qalxıf geyindi. Pəncərədən baxıf həyətdə atdan və silahdan başqa heş kimi görmədi. Səlim geyinif silahlandı, ata minif döyüş meydanına yollandı. O, dərələrdən, təpələrdən yel kimi süzüf, meşələri keçif özünü döyüş meydanına saldı. Onun əynindəki paltar bu neçə gündə parça-parça olmuşdu. Səlim özünü o zaman yetirdi ki, Yəmən pəhləvanı qılıncla şahın oğlunu iki yerə bölmüşdü. Səlim ölmüş şah oğlunun qılıncını götürüf çılpax halda Yəmən pəhləvanının üstünə şığıdı. Şah oğlunun ölümünə alışıf- yanırdı. Elə bu dəmdə oğlunun qanını alan çılpax pəhləvanı görəndə ürəyində sevindi. Səlim çatan kimi Yəmən pəhləvanını qanına qəltan elədi. Bunu görən ordu bir-birinə dəydi. Səlim sağdan vuruf, soldan çıxdı, soldan vuruf, sağdan çıxdı. Az müddət ərzində düşmən qoşununu qırıf darmadağın elədi. Ölən öldü, sağ qalannar da qaçıf cannarını zornan qurtardılar. Döyüşdən geri qayıdan Səlimi şah bağrına basıf öpdü. Yanında qalıf pəhlivannıx etməsini təklif etdi. Bütün var dövlətini ona və'd elədi. Ancax Səlim heş birinə razı olmadı. O dedi:

– Mən əmim qızını sevmişəm. Öz əhdimə çatmasam, dünyada yaşamax mana lazım deyil. Belə olanda şah ona bir otax ayırdı ki, heş olmasa, bir-neçə gün burada qal, yaxşı-yaxşı dincəl. Səlim bir-neçə gün burada yeyif-işdi, dincəldi. Və'də çatan kimi şahın yanına getdi. Ədəfnən salam verif şahdan getməyə rüsxət istədi. Səlim şahnan görüşüf yola düşdü. Səlim çox fikirri olduğunnan yolu azıf başqa səmtə düşdü. Nə qədər çölləri gəzdi, düzdəri, dağları dolandı, amma yolu tapa bilmədi. O, meşənin ətəyinnən keçəndə gördü kü, bir kəlləgöz div qavağında bir sürü qoyun-keçi aparır, içində də dörd-beş adam. O, böyük bir palıdı kökünnən çıxarıf çiyninə götürmüşdü. Div Səlimi görən kimi tutuf onu da qoyunnarın içinə qatdı, aparıf öz mağarasına saldı. Div hər gün Səlimi əlləşdirir hələ çox arıxsan, səni bir qədər kökəldif sonra yeyərəm, – deyirdi. Hər gün Səlimin yoldaşdarınnan birini şişə taxıf yeyirdi. Səlim mağaradan çıxmağa çox yollar axtardı. Bir nəticə hasil olmadı. Nəhayət, divin gözünü çıxartmağı qərara aldı. Səlim şişi ojağa qoyuf pul kimi qızartdı. Gejə div yatan zaman qızarmış şişi onun tək gözünə soxdu. Div bağırıf yerinnən qalxdı. Nə qədər axtardısa, Səlimi tapa bilmədi. Axırı yoruluf əldən düşdü. O, hər səhər tezdən sürünü çölə çıxardanda Heyiz addı davarı səsdiyif sürünün qavağına salırdı. Bunu bilən Səlim gejə Heyizi kəsif onun dərisinə girdi. Div səhər-səhər mağaranın ağzındakı daşı götürüf "Heyiz" deyə səsdədi. Səlim tez özünü mağaranın ağzına yetirdi. Div əlini keçinin ayaxlarına atanda Səlim sıçrıyıf mağaradan çölə



atıldı. Div Səlimi çöldə nə qədər axtardısa, tuta bilmədi. Səlim uca bir qayaya dırmaşıf oradan iri qaya parçalarını divin başına atmağa başdadı. Div qaya parçalarına tav gətirməyif kəllə-mayallaq dərəyə yuvarranarax cəhənnəmə vasil oldu. Səlim aşağı enif yoldaşdarını axtardı, ancax onnardan heş birini tapa bilmədi. Çünki onnar çölə çıxan kimi qorxularınnan qaçıf oradan uzaxlaşmışdılar. O, divin qoyunlarınnan birini kəsif qovurdu, yola azuqə hazırradı. Səlim nə qədər dolandı, vurnuxdu, nə qədər yol getdisə, heş bir şenniyə gəlif çıxa bilmədi. Götürdüyü azuqə tamam qurtardı. Ajınnan əldən laf düşmüşdü. Bir az da oranı-buranı dolanannan sonra meşənin kənarında bir qoja kişiyə rast gəldi. Səlim qojuya yaxınlaşıf salam verdi:

– Baba, qurvan olum, ajınnan ölürəm, mənə bir az çörək ver.

Qoja mülayim səsnən ona yanaşıf dedi:

– Bala, evim uzaxdadı, meşənin o biri başındadı. Mən bu yerişnən axşama qədər ora ancax gedif çıxaram. Yaxşısı budu gəl məni dalına al apar sana yemək verim.

Səlim qocanı dalına-almağa məjbur oldu. Qoja Səlimin dalına minən kimi ayaxlarını keçirdi onun ortasına, civindən bir biz çıxarıf qulağının divinə vurmağa başdadı. Səlim nə qədər əlləşdisə, bu qayışbaldır qojanı dalınnan sala bilmədi. Oğlan nə tafsa, qoja həmin əlindəki biznən oğlanın qulağının divinə vuruf əlinnən alırdı. Qayışbaldır gejə-gündüz oğlanın dalınnan düşmürdü. Hara lazım olsa, ora sürüf aparırdı. Bu minvalnan Səlim lap arıxlıyıf adam sifətinnən düşmüşdü. Beli yara bağlamışdı. Elə hey fikirrəşirdi ki, nejə eliyim ki, bu qayışbaldırın əlinnən çıxa bilim. Nəhayət, Səlim qayışbaldırın dalında yatdığını hiss edif, həyətə gəldi. Orada bir qavağın baş hissəsini kəsif içini çıxartdı. Onun içərisinə qarpız və üzümün suyunu töküf günün qavağına qoydu. Bir neçə günnən sonra Səlim gördü kü, həmin qoyduğu üzüm suyu təmiz qıjqırıf qalxıf. O, həyətə enib qavıxdakı üzüm şərabını başına çəkmək istədi. Elə bu zaman qayışbaldır əlindəki biznən Səlimin qulağının divinə vuruf onu əlinnən aldı və işməyə başdadı. Səlim nə qədər yalvardısa, qayışbaldır ona bir qurtum da saxlamadı. Bir azdan sonra qayışbaldır məst oluf başdadı bizi yazıq Səlimin harası gəldi sancmağa. Səlim ağrıdan qıvrılır, bilmirdi ki, nə etsin. Nəhayət, qayışbaldır yavaş-yavaş məst oluf yoruldu və ayaxları boşalmağa başdadı. Tamam sürüşüf məst halda Səlimin dalınnan yerə düşdü. Bunu görən Səlim qayışbaldıra aman verməyif, başını bədəninnən ayırdı. Duruf bütün qayışbaldırın məskənini gəzməyə başdadı. Buralarda üst-üstə çoxlu insan cəsəddəri yığılmışdı. Bunnarın hamısı qayışbaldırın öldürdükləri adamlarıydı. Səlim qayışbaldırın meyidini də sürüyüf onnarın yanına apardı. Başına gələnnər onu qorxuduf lap dəli eləmişdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi düşdüyü hadisədən qorxuf tez davanına tüpürüf bu yerrərdən uzaxlaşmağa başladı. Meşələr keşdi, dağları aşdı. Gejələr qurd-quş dəyməsin deyə ağajdarın başında yatırdı. Səlim xeyli yol getdikdən sonra qalın bir meşiyə rast gəldi. Bu meşədə çoxlu meymun yaşıyırdı. Səlim bura gəlif çatanda meymunnarın şahı təzəcə ölmüşdü. Meymunnar meşənin kənarınnan odun yığıf aparırdılar ki, şahlarına ehsan versinlər. Bu zaman Səlimə rast gəldilər. Meymunlar meşəyə səs salıf bütün meymunnarı çağırıf ora yığdılar. Meymunnar zornan Səlimi gətirif ölmüş şahlarının taxtında oturtdular. Səlim oldu meymunnar şahı. Ölmüş şahın arvadının kəvinini ona kəsdilər.

Səlimin vətən üçün, sevgilisi üçün burnunun ucu göynüyürdü.

O nə qədər qaşmağa yol axtarsa da, bir şey çıxmadı. Meymunnar onu hər yerdə güdür, heş yana çıxmağa aman vermirdilər. Səlimin buradan qopmağa heş bir ümidi qalmamışdı. O elə hey fikirrəşir, canını qurtarmağa çarə axtarırdı. Bunun halına yanan qoja bir meymun bir gün ona dedi:

– Bilirəm, öz vətənin üçün çox darıxırsan. Ancax burdan çıxmax çox çətindi. Mənim sana yazığım gəlir. İsdiyirəm sana kömək eliyim. Ancax mənim dediklərimi gərək heş kimə demiyəsən. Bütün bu meymunnar səhərə yaxın şirin yuxuya gedillər. Bu zaman saraydan elə çıxmalısan kı, səni heş kim görməsin. Xilas olmaq üçün o görünən çayı keşməlisən. Çayın o tərəfinə keçə bilsən, sana heş bir zaval yoxdu. Çünki çaydan o tərəfə keçməyə icazəmiz yoxdu. Oradan başqa hansı səmtə qaşsan meymunnar səni tutuf gətirəjəklər.

Səlim qoja meymuna öz razılığını bildirif yatmağa getdi. O, yerinin içində qıvrılır, meymunnarın yatmasını səvirsizdiknən gözdüyürdü. Yanındakı meymun yuxuya gedən kimi yavaşca sivişif yataxdan düşdü. Keşikçilərin arasınnan keçif qoja Meymunun dediyi çaya doğru üz tutdu. Səlim savah açılana qədər çayı keşməliydi. Odur ki, bir nəfəsə qaçarax gəlif çaya çatdı. Bu zaman savah açıldı, meymunnara xəvər düşdü. Səlim bir sürü meymunun ona tərəf gəldiyini görüf, özünü çaya atarax üzə-üzə o taya keşdi. Səlim o tayda oturuf dincini almağa başdamışdı kı, meymunnar çaya çatıf dayandılar. Səlimin arvadı olan meymun bir qədər suya girif səlimi geri çağırmağa başladı. Nə qədər bağırdısa, Səlim geri dönmədi. Gördü kü, Səlim geri dönmür ondan olan uşaxlarının ikisini də parçalıyıf çaya atdı. Səlim bu mənzərəni gördükdən sonra daha orada dayanmıyıf, asta qaçana göy imam qənim deyif, tüpürdü davanına. Ağzı hara düşdüsə fikir verməyif qaçmağa başdadı. Xeyli getdikdən sonra gedif bir meşəyə çıxdı. Bir az merdən-meyvədən yığıf toqqasının altını bərkitdi. Sonra bir uca ağaş tapıf onun başına çıxdı. Kəmərinnən özünü



budaxlara bağlıyıf bir xeyli yatıf dincəldi. Sübh tezdən yenidən yoluna davam elədi. Ancax nə qədər getdisə, meşədən bir yana çıxa bilmədi. Gejələmək üçün bir ağacın başına çıxdı. Elə yatmax isdiyirdi ki, bir də gördü kü, bədheybət bir div gəlif onun yatdığı ağacın divində oturdu. Balaja bir çırax böyüklükdə parıldayan bir daş-qaşı ağacın divinə qoydu. Onun işığı altında ağaşdardan meyvə dərif yeməyə başladı. Səlim qərara aldı ki, nejə olur-olsun gərək qiymətdi daşı əlimə keçirəm. Savah o ağaca çıxanda özünnən bir qədər də palçıx götürdü. Div gejə yenə gəlif əlindəki daş-qaşnan meşəni işıqlandırıf meyvələrdən yeməyə başdadı. Bu zaman Səlim ağacın başınnan palçığı daş-qaşın üstünə atdı. Hər tərəf qarannıxlaşdı. Div elə bir nə’rə qopartdı kı, bütün meşə səsdəndi. O qarannıxda özünü səs gələn tərəfə elə atdı kı, az qaldı Səlim çıxan ağaş yerinnən qopsun. Səhər açılanda Səlim ağaşdan düşüf divin ağaca dəyif öldüyünü gördü. O tez daş-qaşı da götürüf ordan uzaxlaşdı. Meşəni dolanıf gəzdi. Bu zaman meşənin kənarında bir adama rast gəldi. Səlim çox sevindi ona yaxınnaşıf salamlaşdı. Həmin adamnan gəlif çıxdığı yeri öyrəndi. Baxıf gördü kü, bu öz yaşadığı ölkəyə çox yaxındı.

Səlim şəhərə girmək istədi. Ancax üstündəki daş-qaş hər tərəfə işıx saçırdı. Bu vəziyyətdə o şəhərə girməkdən ehtiyat edif həmin daş-qaşı budunu yarıf gizdətdi. Evə əliboş getmək istəmədiyinnən özünə bir iş tapmax qərarına gəldi. O, bazara gəlif bir qədər fırrandı. Bir də gördü kü, bir tacir bazarda xar çəkif özünə nökər axtarır. Səlim tacirnən sevdalaşdı. Bir günə tacir ona yüz tümən verəcəyini bildirdi. Tacir onu gejə bir qayanın divinə gətirif çıxartdı. O, Səlimə dedi:

– Bala, sən bu gejə at leşinin içərisində yatajaxsan, nə yuxu görsən, sabah mana söylüyərsən. Tacir at leşinin ayaxlarını və başını kəsif bir qədər yüngülləşdirdi. Oğlanı atın qarnının içinə qoyuf qavırğaları ağız-ağıza bağladı. Səlim gejə burada bir az qalannan sonra onu yuxu apardı. Bu zaman quzğunnar at leşini qaldırıf uca bir qayanın başına çıxartdılar. Başladılar at leşini didif parçalamağa. Səlim leşin arasınnan çıxıf ətrafa baxdı. Gördü ki, burada o qədər parıldayan daşlar var ki, sayı-hesabı yoxdur, yavaş-yavaş savah açıldı. Tacir qəflə-qatırnan qayanın divinə yaxınlaşdı. O Səlimi görüf şirin dillə soruşdu:

– Oğul, orada olan daşlardan bura at, sonra da səni salım baravar gedək.

Səlim parıldayan daşdardan o ku var aşağı tulladı. Tacir qəflə-qatırraı yüklüyüf yola düşəndə Səlim tacirə yalvardı kı, onun da düşməsinə kömək eləsin. Tacir qayanın o biri tərəfini göstərif dedi:

– Orda yol var, ordan düşərsən.

Səlim gəzə-gəzə gedif bir mağaraya çıxdı. Nə görsə yaxşıdı. Mağara



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ağzına qədər insan cəsədiynən dolmuşdu. Səlim burda qalıf yazıx-yazıx ağladı. Sonra mağaranın içinə girif gəzməyə başdadı. Çox gəzə bilmədi. Ajınnan huşunu itirif meyiddərin yanına yıxıldı. Səlim burada çox qaldı, az qaldı bilmirəm, gejənin bir vaxtı gördü kü, bir goreşən gəlif can üstündə olan bir adamı sürüyə-sürüyə mağaranın içinə girdi. Həmin goreşən mağaranın dalınnan özü girəsi bir deşik açmışdı. O, meyidi sürüyüf buradan çölə çıxartdı. Səlim də həmin deşikdən çölə çıxıf ətrafa baxdı. Gördü kü, göydə ulduzdar parıldıyır. O bu bəladan da qurtardığına çox sevinirdi. Kaftarın getdiyi cığırnan enif şəhərə gəldi, paltarını dəyişif yenə bazarda gəzməyə başdadı. Bir də gördü kü, həmin tacir bazarda nökər axtarır. Səlim tacirə yaxınnaşıf ona nökər oldu. Tacir həmişəki kimi nökəri uca bir qayanın divinə gətirif və təzədən həmin işdəri onun başına açdı. Savah tezdən tacir qəflə-qatırnan gəlif qayanın divində dayanıf əvvəlki kimi nökəri səsdiyif dedi:

– Bala, orada olan parıltılı daşdardan at bura, sonra da səni düşürüm, birrikdə gedək.

Səlim daşdardan aşağı atdı və axırda yekə daş parçasını götürüf tacirə qışqırdı kı, bu çox parıltılıdı, yaxın dur, yerə düşəndə qoyma dağıla.

Tacir bir az irəli gələndə Səlim əlindəki daş parçasını tacirin başına saldı. Tacir yerdə bir az çavalıyıf xırıldaya-xırıldaya öldü. Səlim bir qədər də parıldayan daşdardan götürüf goreşənin həmin yolnan şəhərə gəldi. Həmin daşdarı bazarda satıf xeyli pul qazandı. Ev üçün bir qədər paltar-palaz alıf yola düzəldi.

Səlim evlərinə gəlif gördü kü, anasının ağlamaxdan gözdəri kor oluf. O, oğlunu səsinnən tanıyıf boynuna sarıldı. Uzun ayrılıxdan sonra ana-bala bir-birinə sarılıf ağlaşdılar. Bunnar burada qalsın, sizə bu ölkənin şahından xəvər verək. Bu şah çoxdan idi ki, xəstə yatırdı. Onun xəstəliyinə heş kim əlac eliyə bilmirdi. Münəccimlər fikirrəşif dedilər ki, bizim ölkəmizdə Səlimnən çox yer gəzif, bilən yoxdu. Onu çağırın bəlkə şahın dərdinə o bir əlac tapa. Şah əmr etdi ki, Səlimi tez tapıf onun yanına gətirsinnər. Səlimi tapıf şahın hüzuruna gətirdilər. Şah öz xəstəliyini söyləyif onnan kömək istədi. Səlim dedi:

– Şah sağ olsun. Mən sana kömək eliyirəm. Amma əvvəlcə gərək sən başına gələn işdəri mana olduğu kimi söylüyəsən. Şah canının qorxusunnan nə olmuşdusa, hamısını Səlimə danışmağa başdadı.

Mən sapsağlamıydım, heş bir xəstəliyim yoxuydu, hamı hörmətimi saxlıyır, mənnən qorxuf çəkinirdi. Bir gün qapıma dərviş livasında bir seyid gəlif ayaxlarıma yıxıldı və ağlıyıf, yalvarmağa başdadı.

O dedi:

– Şah sağ olsun, mən sizin ədalətdi və xeyirxah olduğunuzu eşidif



bura gəlmişəm. İcazə versəniz elə sizin ölkənizdə yaşayıf günümü keçirərəm. Mənim seyidə yazığım gəldi və onu öz sarayımda saxlıyıf xırda-para işdərimə baxdırırdım. Seyid o qədər xeyirxah və dindarıydı ki, baxan deyirdi elə bil peyğəmbər övladıdı. Buna ailəlikcə inandıx. Mən bir gün hazırlaşıb haca getmək istiyirdim. Arvadım əl çəkmədi ki, mən də gedəjəm. Dedi:

– Bəs qızımızı neyniyək, kimə tafşırax. Arvad dedi:

– Elə evimizdə yaşıyan seyiddən yaxşı adam yoxdu. Ona tapşırıf gedək. Biz razılaşıf evi-eşiyi və qızı seyidə tafşırıf haja getdik. Bir neçə vaxtdan sonra qayıdıf gələndə nə görsək yaxşıdı. Həmin seyid qızımızın namusuna toxunuf evdə olannarı da götürüf qaçıf. Mən bərk hirsdəndim. Əmr etdim ki, bütün seyid və mollaları çağırın hüzuruma gəlsin. Bunu eşidən seyid, molla ən’am almax üçün hüzuruma gəldilər. Əmr etdim ki, bunnarın hamısını qılınşdan keçirif, başdarını kəssinlər. Qan su yerinə axdı, günahlı-günahsız hamısını qırdırdım. İndi o vaxtdan nə gülə bilirəm, nə də yata.

Səlim gördü kü, şah çox ədalətsiz və insafsız iş görmüşdü. Odu ku, şaha yazığı gəlif öz başına gələnnəri şaha danışmağa başdadı. Səlim danışdıxca şah gah ağlayır, gah da gülürdü.

Səlim meşədə rast gəldiyi divdən və daş-qaşdan danışmağa başdadı. Daş-qaşın adını çəkən kimi acgöz şah dedi:

– Bu saat o daş-qaşı gərək mana verəsən. Səlim nə qədər o yan, bu yan elədi gördü şah əl çəkən döyül. Odu ku, bıçaxnan budunu yarıf daş-qaşı çıxarıf şaha verdi. Şah daş-qaşa baxan kimi gözdəri tutuluf, yerindəcə qapqara qaralıf kösövə döndü. El yığılıf şahı dəfn elədi. Sonra yığılıf Səlimi özlərinə şah seçdilər. Səlim yeddi gün yeddi gejə toy eləyif əmisi qızını da aldı. Anasının gözdərini müalicə etdirif açdırdı. Onnar şad xoşbəxt ömür sürüf, gün keçirdilər.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıla qulax asanın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SƏNUBƏRİN NAILI

Biri varıymış, biri yoxuymuş, bir kasıf kişi, onun da bir arvadı varıymış. Bunnarın var-yoxu, gözdərinin ağı-qarası bir gözəl qızdarı varıymış. Bu kişi bir gün evə gələndə yolda iki oğruya rast olur. Qorxusunnan başını qaldırıf baxmır. Kirimişcə evinə gəlir. Savahı günü onu şahın hüzuruna gətirirlər. Kişi ikiqat oluf baş əyir.

– Qibleyi-aləm nə buyurur? – deyif şahın ayaxlarına çökür.

Şah kişini itəliyif deyir:

– Özünə görə deyilsən? İndi də oğurrux qalmışdı, hə?

Kişi mat-məəttəl qalır.

– Nə oğurruq, şahım? Mənim heş nədən xəvərim yoxdu.

Şah deyir:

– Özünü bilməməzliyə vurma. Dünən gejə bəzirganın evini sən talıyıfsan.

Kişi deyir:

– Şahım, gedin baxın. Mənim evimdə bir dənə saman çöpü də yoxdu. Oğurramışam, bə hanı? And bu, qəsəm bu, şər eləyillər.

Şah lap qəzəflənir:

– Aparın, bunun boynunu vurun.

Vəzirin kişiyə yazığı gəlir. Şaha yalvarıf deyir:

– Şah sağ olsun, yaxşısı budu bunu məmləkətinnən çıxart. Boynunu vurdurma.

Şah vəzirin sözünnən sonra mərhəmətə gəlir. Kişini evli-eşikli məmləkətdən çıxarıllar.

Kişi, arvadı, bir də qızı Sənubər xeyli yol gedif bir bulağın başına çatırlar. Oturuf dincəlmək istiyəndə, üç atdı özdərini bunnara yetirir. Salamsız-kalamsız Sənubəri zornan ata mindirillər.

Kişiynən arvadı qorxudan tir-tir əsif ürək-kövəklərini yeyillər. Qarğış tökür, ağlıyıllar, amma haraylarına çatan olmur.

Bir göz qırpımında atlılar qızı götürüf aparıllar. Yolun yarısına çatanda qızın gözdərini möhkəm-möhkəm bağlayıllar. Gəlif bir mağaraya çıxıllar. Qızı mağaranın içinə salıf ona işgəncə verillər. Bir neçə gün əzab-əziyyət verdikdən sonra onun gözdərini çıxarıf yanına qoyuf gedillər. Qız burada zarıya-zarıya tək-tənha qalır. Bunun zarıltısına bir quş içəri girir. Qıza yazığı gəlir. Yerdən gözdərini qaldırıf dilinin altına qoyur. Sonra adam kimi dilə gəlif deyir:

– Ay qız, sana nə oluf, niyə belə zarıyırsan?

Sənubər deyir:

– Sən kimsən, mana bir kömək eliyə bilərsənmi? Əgər kömək eliyən



deyilsən, səni and verirəm o yaradana, yolunan çıx get, mana əziyyət vermə.

Quş deyir:

– İşdi, bəlkə köməyim dəydi, de görüm, səni kim bu hala salıf?

Qız başına gələnnəri, mən nejə sizə nağıl eləmişdim, quşa danışır. Quş deyir:

– Sənubər, indi sana nə kömək lazımdı.

Sənubər deyir:

– Dədəmnən anamın əllərini əllərimə çatdır. Çatdıra bilməsən, yenə sağ ol. Arabir gəl-get mənim qəlbim darıxmasın. Quş uçuf gedir. Hər yeri dolanır. Sənubərin dədəsiynən anasını tapa bilmir ki, bilmir. Geri dönəndə bir bulax başında ikisinin də ölüsünü görür. Quş kor-peşman geri gəlir. Sənubəri tapa bilmir.

İndi görək yazıx Sənubərin başına nə iş gəlir. Quş mağaradan gedənnən sonra qızın gözdəri ona çox əziyyət verir. Ağrıdan zarıltısı-iniltisi mağaranı başına götürür. Burdan keçən bir şir səsə mağaraya girir. İstiyir atılıf onu parça-parça eləsin. Gözdərini görəndə yazığı gəlir. Qıza yaxınnaşır, onu sürüyüf meşənin dərinniyindəki mağarasına aparır. Şir mehrini ona salır. Meşədən ov ovluyur, quş quşluyur, əlinə keçəni gətirif qıza yedirif-içirdir. Axşamlar da qucağına alıf yatır. Günnər, aylar keçir, qızı möhkəm bir ağrı tutur. Qız uşağa yatır. Şir uşağa qulluq eliyir. Bükür, anasına verif əmizdirir.

Uşax iki yaşına çatır. Meşədə yekəldiyinnən o, şir kimi yeriyir, şir kimi səsdər çıxarır. Haraya gedirsə, şir uşağı da özünnən aparır. Şir elə bilirmiş ki, uşax onundu. Ancax quldurrar qızı qaçıranda qız onnardan uşağa qalıfmış.

Bir gün şir meşiyə gedəndə uşağı aparmır. Uşax onun dalınca gedir. Gəlif bir uçuruma çıxır. Ayağı sürüşüf üzüqoylu yellənir. Gəlif suyun qırağında qalır.

Axşam bir çovanın yolu burdan düşür. Uşağı görüf sevinir. Onu götürüf evə gətirir. Çovanın övladı olmurdu. Arvad uşağı köynəyinin yaxasınnan keçirif özünə uşax eliyir. Uşağın adını Fatma qoyullar. Qız burda yekələnməkdə olsun, görək kor qızın axırı nə olur?

Qız nə qədər gözlüyürsə, uşax gəlif çıxmır. Zağadan çıxır, dəvdənə-dəvdənə uşağı gəzir. Gəzə-gəzə gəlif meşənin axırına çıxır.

Sən demə, şahın oğlu ova çıxıfmış. Qaraltıya girəndə yolunu burdan salır. Kor bir qızın ağlıya-ağlıya gəzdiyini görüf ona yazığı gəlir. Bir az da irəli gələndə görür kü, bu qız bir qənirsiz gözəldi ki, dünyada misli-baravarı yoxdu.

Şahın oğlu deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay qız, sən kimsən, nəçisən, burda nə axtarırsan?

Sənubər qorxa-qorxa deyir:

– Ay oğlan, kimsən, bilmirəm? Səni and verirəm Allaha bircə məni bu zülümnən qurtar.

Qız sızldıya-sızdıya başına gələni oğlana danışır. Oğlanın ürəyi şan-şan olur. Qıza deyir:

– Ayağa dur, min atın tərkinə!

Əlini atıf qızı atın tərkinə alıf aparır. Xəvər çatır kı, bə deməzsənmi oğlun bir kor qız gətirif. Şah qəzibinnən dodaxlarını gəmirir. Əmr eləyir ki, ikisini də məmləkətdən çıxarsınnar. Ağıllı adamlar yığılıf şaha minnətə gəlillər:

– Varın-yoxun bir züryətin var, onu da qovalayırsan, bu Allaha xoş getməz.

Şah deyir:

– Belə züryətdən olmasa yaxşıdı. Bu saat bunnarı çıxarın burdan.

Naçar qalıf şahzadəni kor qıznan baravar məmləkətdən çıxarıf qovullar. Hər ikisi baş alıf gedir bir çöllü-biyavana. Sənubər deyir:

– Şahzadə, gəl sən mənnən ötrü çöllərə düşmə.

Qayıt get evinizə. Qoy mən burada qalım qurda-quşa yem olum. Onsuz da mənim baxtım yoxdu.

Şahzadə deyir:

– Sənubər, baxtınnan gileylənmə. Çöllərdə ölək, bir yerdə ölək. Yaşasax da bir yerdə yaşıyax. Mən səni qoyuf heş yana getmərəm.

Bunnar burda düzün ortasında qaldılar. Şahzadə ağaşdan, çır-çırpıdan yığıf gətirif bir alaçıx düzəldir. Sənubərnən burada qalıf yaman-yaxşı gün keçirir. Bunnar burada qalmaxda olsun, görək şir neylədi?

Şir axşam evə bir az gej gəldi. Ayağınnan yaralanmış zağasına girir. İçəridə heş kimi görmür. Görür lələ köçüf yurdu qalıf. Nə qızı var, nə də arvadı. Bir neçə gün ağzıüstə yatır. Ayaxlarının yarası bir az yaxşılaşır. Bir gün tezdən duruf zağasınnan çıxır. Öz-özünə inaddaşır kı, harda olsa, gərək kor qızı tapa.

Şir bütün meşəni gəzir, heş yerdə kor qızı gördüm deyən olmur. Axır yoruluf bir ağaşın altında yatır. Bu ağaşda da bir quş oturuf dərddi-dərddi oxuyurmuş. Quşun səsinə şir yuxudan ayılır. Quşun oxuduğunu eşidif lap hirsdənir. Altdan-yuxarı nə’rilliyir.

Quş deyir:

– Ay meşənin ağası, niyə hirsdənirsən. Dərdim çoxdu, oxuyuram.

Şir deyir:

– Sənin nə dərdin var? Azad quşsan, hara istəsən, ora uçursan. Mənim başıma gələni bilsən, bilərsən ki, dərd belə olar, dərddi kimdi?.



Quş deyir:

– Azad olsam da, mənim də ürəyim var. Mən bir-neçə il bunnan əvvəl bir kor qız görmüşəm. İndi nə vaxtdı kı, onu axtarıram.

Şir deyir:

– Sən onu neyləyirsən?

Quş deyir:

– Quldurrar onun gözdərini çıxarıf yanına qoymuşdular. Mən onun gözdərini götürüf saxlamışam. İndi qojalmışam. Birdən ölüf eliyərəm, onun gözdəri mənnən gedər. Birjə tapıf qızın gözdərini versəydim, öləndə də rahat ölərdim.

Şir quşun danışdıxarını eşidif çox sevinir. Deyir:

– Ay quş, mən də sən dərddəyəm. Mən də kor qızı gəzirəm. Gəl baravar axtarax, bəlkə bir yerdən sorağı gəldi.

Quşnan şir yoldaş oluf yola düşüllər. Bu dağ mənim, o dağ sənin, gəlif bir çöllü biyavana çıxıllar. Bir bulax tapıf başında dincəldilər. Bu vaxt pəri qızdarı suya enillərmiş. Quşu görüf, oğurruyuf aparıllar. Şir yuxudan oyanır kı, quş yoxdu. Quşu axtara-axtara gəlif kor qızın komasına çıxır. Görür kü, bir gözəl oğlan atdan düşüf komaya girdi. Şir qarannıx düşənnən sonra komaya yaxınnaşır. Gözdərinə inanmır. Gəzdiyi kor qız burdaymış. Bir az keçir. Görür kü, bu gözəl oğlan kor qızı da qucağına alıf yatdı. Onnar yuxuya gedən kimi şir hücum eliyif oğlanı öldürmək istiyir. Pəncəsinnən vuruf qapıyı qırır. At kişniyif oğlanı yuxudan oyadır. Oğlannan şir əlbəyaxa olur. Oğlan şiri öldürmək istiyəndə qız oğlanın biləyinnən tutuf qoymur. Oğlana deyir:

– Şahzadə, bu şir mana çox kömək eliyif. Məni görəndə məni öz qoltuğu altında saxlıyıf. Sən də kişilik elə, onu burax.

Şahzadənin qolları boşalır. Şiri buraxır. Şir çəkilif öz yerinə gedir. Amma şir gejə-gündüz qıznan oğlanı öldürməkdən ötrü yollar axtarır.

Şahzadənin kor qızdan bir oğlu olur. Adını İbrahim qoyullar. Çox keçmir şir yenə hücum çəkir. Balaca İbrahim də nənnidə yatırmış. Bu dəfə də hər şey yaxşı qurtarır. İşi belə görən Şahzadə arvad-uşağını da götürüf burdan köçür.

Az gedillər, çox gedillər dərə-təpə düz gedillər, gəlif bir məmləkətə çıxıllar. Şahzadə gedif şahın elçi daşının üstündə oturur. Şaha xəvər çatır kı, deməzsənmi sənin elçi daşında bığıburma bir iyid oğlan oturuf. Gəlif-gedənə meydan oxuyur.

Şah əmr eləyir:

– Hər kimdisə, onu tez buraya gətirin.

Oğlanı padşahın yanına gətirillər. Oğlan içəri girif şaha baş əyir. Şah oğlanın salamını alıf oğlana deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– De görüm, kimsən, nəçisən, mənnən nə istiyirsən?
Oğlan deyir:
– Qibleyi-aləm sağ olsun, mən uzaxdan, qərif ölkədən gəlmişəm. Burda sığınacağım yoxdu. Uşağım da körpədi, arvadımın gözdəri kordu. Bu günnən savaha umudum yoxdu. Mərhəmətinizi bizim üstümüzdən əsirgəmiyin.
Şah oğlana deyir:
– İlxıya baxa bilərsənmi?
Oğlan deyir:
– Baxaram.
Şah onnara daldalanmağa bir koma verir. Özünə də böyük bir at ilxısı tapşırır. Bunnar burda qalmaxda olsun, eşit quşdan.
Pəri qızdarı quşu oğurluyuf aparıllar. Quş ayılanda görür kü, hər tərəfdə gül-gülü, bülbül-bülbülü çağırır. Elə bil cənnətdi. Başının üstündə pəri qızdarı oturuf nağıl danışıllar. Pəri qızdarı quşun ayıldığını görüf deyillər:
– Sən innən belə biznən qalajaxsan. Bizim çarhovuzun yanında qarovul çəkərsən ki, biz çimməyə gedəndə paltarrarımızı oğurrama-sınnar.
Quş deyir:
– Mən sizin qulunuz da olaram. Amma mana bir yaxşılıx eliyin.
Pəri qızdarı deyir:
– Nə yaxşılıx istiyirsən?
Quş deyir:
– Kor qızı gərək tapasınız.
Quş bildiklərini, başına gələnnəri pəri qızdara danışır.
Pəri qızdar söz verir ki, yerin deşiyində də olsa, kor qızı tapıf gətirəjəklər. Pəri qızdarı çox axtarır, axır kı, kor qızı tapıf bihuş eliyib gətirillər. Quşdan qızın gözlərini alıf yerinə qoyullar. Üstünnən tüpürüf dillərilə silillər. Qız asqırıf ayılır. Elə bil anadan təzə oluf. Sənubər bu işdərə mat qalır. Hər şey ona yuxu kimi gəlir. Qızdardan soruşur:
– Mən hardayam? Məni buraya kim gətirif. Gözdərimi kim sağaldıf?
Pəri qızdarı deyir:
– Sən bu quşu tanıyırsamı?
Qız deyir:
– Mən neçə ildi ki, koram. Heş kimi tanımıram.
Quş deyir:
– Sənubər, sən məni tanımırsan?
Sənubər quşun səsinnən onu tanıyıf deyir:
– Hə, indi tanıdım. Bə sən getmişdin mənim dədəmnən-anamnan



xəvər gətirəsən. Amma gəlif çıxmadın.
Quş deyir:
– Mən getdim gördüm bir bulağın başında dədənnən ananı öldürüf-lər! Qayıdanda səni tapa bilmədim. O vaxtdan da səni axtarıram.
Sənubər dədəsinin anasının öldüyünü eşidif ağlıyır. Sonra başına gələnnəri yerri-yataxlı ona danışır. Quşun buna yazığı gəlif deyir:
– Mən sənin gözdərini sağaltmaxdan ötrü buraya gətirtdim. İndi sən də bir az dözməlisən, bunnarın sirrərini öyrənək. Sonra səni azad eliyərəm.
Bunnarı burada qoyax, görək balaca İbrahimnən şahzadənin başına nə iş gəlir? Şahzadə axşam işdən evinə gəlir. Qapını açıf içəri girəndə onu dəhşət bürüyür. Tükləri başında biz-biz olur. Uşağın nənnisinin başında bir dənə nəhəng ilan, yerdə də bir şir ölüsü. Eşiyə, içəriyə ha vurnuxur. Sənubəri tapa bilmir. Gəlif şirə bir təpik vurur. Görür kü, şir ölüfdü. Özü də bunnara hücum eləyən həmən şirdi. Bə onda şiri kim öldürüf?
Birdən ilan adam kimi dil açıf deyir:
– Şahzadə, şiri mən öldürmüşəm. Uşağı öldürmək istiyirdi, mən qoymadım, öldürdüm onu.
Şahzadə ilana razılıx eliyif Sənubərin yerini soruşur.
İlan deyir:
– Sənubər pəri qızdarının yanındadı. Oraya getmək çox çətindi.
Şahzadə deyir:
– Bəs mən nejə gedim, nə edim?
İlan deyir:
– Mən uşağa baxaram. Sən gedərsən ağ divlərin məskəninə. Yol ayrıcında bir nurani qoja kişi var. O sənə hər şeyi deyəjək.
Şahzadə uşağını ilana, ilanı da allaha tapşırıf, halal-hümmət eliyif getməyin binasını qoyur. Az gedir, üz gedir, dərə-təpə, düz gedir, axır kı, ilan dediyi yerə gəlif çıxır. İlanın dediyi kimi yol ayrıcında bir nurani qojuya rast gəlir. Ədəb-ərkannan qojaynan görüşür, başına gələn əhvalatı ona nağıl eliyir. Qoja deyir:
– Səni pərilərin yanına ancax ağ div apara bilər. Ağ divin mağarasına isə bircə su altınnan keçmək mümkündü.
Mağaraya girəndə açıx qapıları örtər, örtülü qapıları açarsan. Sonra qatdanmış xalçaları açar, açılmış xalçaları yığarsan. Altı otax keçif, yeddinci otağa girərsən. Divin canı şüşədədi. Şüşəni xəlvətcə götürüf yerə vurmax istiyəndə div oyanıf sana yalvarajax. Sən ona yalnız anasının südünə and içənnən sonra inanasan. Hələ mağaraya təzə girəndə bir küpəgirən qarı çıxajax. O, sana deyəjək: "Gəl əlimdəki tikanı çıxart". Nəbadə, nəbadə, ona yaxın gedəsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahzadə qojaynan halallaşıf yola rəvan olur. Bu yolunda olsun, görək Sənubərin başına nə gəldi?

Quş pəri qızdarın bütün sirrərini öyrənir. Bir gün Sənubəri yanına çağırıf deyir:

– Sənubər, sən pusquda durarsan. Pəri qızdarı suya girif çiməndə gedif onnarın otağına girərsən. Otaxda bir sandıxça var. Onu açıf sehirli çırağı çıxararsan. Bütün dərdini ona deyərsən. Çırax sana desə ki, bəxtinnən razısanmı? Sən deyərsən, hə. Sonrasınnan işin yoxdu.

Sənubər quşun dediyi kimi eliyir. Aylarnan pəri qızdarını güdür. Bir gün onnarın çimdiyini görür. Tez gəlir onnarın otağına. Sandığı açır. Sandıxdan çırağı çıxarıf deyir:

– Ey şamlı çırax, məni bu dardan qurtar.

O başına gələnnəri də çırağa danışır.

Çırax soruşur:

– Bəxtinnən razısanmı?

Sənubər deyir:

– Hə, razıyam. Buna bəxt neyləsin? Qəzadı düşmüşəm.

Çırax deyir:

– Qırxıncı yükün altında bir xalça var, bir də livas. Xalçıyı sərərsən yerə, livası əyninə geyərsən. Xalçaya deyərsən: "Xalça, məni filan yerə apar!" O, səni istədiyin yerə aparajax. Livası geyinəndə heş kim səni görmür.

Qız quşnan razılaşır. Bir dəfə yenə qızlar çarhovuzda çiməndə Sənubərnən quş gəlir onnarın otağına. Yükün altınnan xalçanı, livası çıxarıllar. Sonra otururlar xalçanın üstündə. Qız livası geyinif xalçıya deyir:

– Xalça, Süleyman peyğəmbərin eşqinə bizi apar Firəng padşahının ölkəsinə.

Xalça göyə qalxıf gedəndə pəri qızdarı bunu görür. Çox hoppanıf-düşüllər, amma bir şey eliyə bilmillər.

Quşnan qız gəlif evlərinin yanında düşüllər. Sənubər xalını yığıf, içəri gətirir. İçəri girəndə mat-məəttəl qalır. İri bir ilan uşağınnan oynuyur. Sənubər ilannan, uşağınnan görüşür. Uşağını bağrına basıf duz kimi yalıyır.

Quş ağlıyıf deyir:

– Budu, mən aydın görürəm, şahzadə dardadı.

Qız qara kəlağayısının ujundan baxıf görür kü, doğrudan da şahzadə dardadı.

İlan deyir:

– Dayanmax olmaz. Gedif onu dardan qurtarmax lazımdı.



Qız İbrahimi ilana tapşırıf, ilanı da allaha tafşırıf yola çıxır. İlan haraya, nejə getməyi onnara söylüyür. Qız quşnan xalçanın üstündə oturuf deyir:

– Xalça, Süleyman peyğəmbərin eşqinə bizi ağ divin məmləkətinə gedən yolun ayrıcındakı nurani qocanın yanına apar.

Xalça göyə qalxıf onnarı aparmaxda olsun, görək şahzadənin başına nə işdər gəldi.

Şahzadə xeyli yol gedif nurani qojanın dediyi çaya çatır. Görür kü, bir adam balıx tutur. Gedif onun yanında dinməzcə duruf baxır. Birdən bir iri balıx onun toruna düşür. O adam sevinə-sevinə balığı çıxarıx torvasına salır. Şahzadənin balıxdan xoşu gəlir. Torvuyu əlinə alıf balığı çaya atır. Həmən adam geriyə çönür. Şahzadəynən dalaşır kı, balığı niyə çaya atdın. Şahzadə ordan uzaxlaşır yoluna davam edir. Çay boyu bir az aşağı enir. Birdən bir səs gəlir.

Şahzadə başını qaldıranda görür kü, xilas elədiyi balıx başını sudan çıxarıf adam kimi dil açıf danışır:

– Şahzadə, sən mana böyük yaxşılıx elədin. Onun əvəzində sana nə verim?

– Heş nə istəmirəm, bajarırsan məni suyun altınnan ağ divin mağarasına keçirt.

Balıx deyir:

– Gəl belimə min, mənnən bərk-bərk tut.

Balıx şahzadəni belinə alıf suyun altına cumur. Bir də onu mağaranın yanında sudan çıxardır.

Balıx oğlana deyir:

– Nə vaxt dara düşsən, məni səsdə. Mən balıxlar şahıyam.

Şahzadə balıxnan görüşüf üz tutur mağarıya tərəf. Nurani kişinin dediyi haman mağarayı tapır. İçəri girəndə qapının ağzında bir küpəgirən qarıynan rastdaşır. Qarı onu görən kimi açır söz dağarcığının ağzını, başdıyır cana sarı yağ kimi yayılan şirin-şirin sözdərdən üyüdüf tökməyə.

– Bıy, bala, xoş gəlif, səfa gətirifsən. Bura nə məqsədnən gəlifsənsə, sana mən kömək eliyəjəm. Gəl bu əlimdəki tikanı çıxart, nənə sənə qurvan.

Qarı elə dillər tökür, elə dillər tökür kü, şahzadənin saqqızını oğurruyur. Şahzadə əlini atıf tikanı çıxarmax istiyəndə tilsimə düşüf orada qalır. Arvad onu süpürgə eliyif qapının dalına qoyur.

İndi eşit Sənubərdən. Sənubər gəlif qojanın yanında yerə düşür. Salam verif əleyk alannan sonra əhvalatı danışır. Qoja deyir:

– Mağaraya çatanda geriyə baxma, tilsimə düşərsən. Şahzadə qapının dalında süpürgüyə dönüf. Onu ancax və ancax küpəgirən qarı tilsimnən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxara bilər. Küpəgirən qarı saçınnan çox qorxur. Onun saçından tutsan elə bil hər şey sənin əlindədi.

Qoja dediyini deyif yox olur. Sənubər çoxlu fikirdən, götür-qoydan sonra livasını geyinif quşnan baravvar xalçıya minif deyir:

– Xalça, bizi ağ divin mağarasının yanına apar.

Xalça uça-uça gəlif mağaranın yanına çatır. Qız quşa deyir:

– Ay, e'tivarrı quş, sən küpəgirən qarının başını qat, mən onun saçını əlimə alım.

Onnar ikisi də içəri girir. Küpəgirən qarı quşu görür, qızı görmür. Quş küpəgirənin gözü qavağında oyunnar açıf fırranır. Küpəgirən acıxlanır, quşu tutmax istiyir. Qız fürsəti fövtə vermiyif əlini atıf onun saçınnan yapışır. Küpəgirən qarı bar-bar bağırır:

– Saçımı burax, nə istiyirsən verim.

Qız deyir:

– Süpürgəni adam elə, səni buraxım. Yoxsa saçına od vurajam.

Küpəgirən qorxusunnan süpürgüyü ovsunnuyuf, oxuyuf, üfürür, onu adam şəklinə salır.

Qız deyir:

– Şahzadə, eşiyə çıx.

Şahzadəynən quş eşiyə çıxır. Qarı deyir:

– Qapılar örtülün, qoymuyun qız çıxsın. Qapılar örtülür. Sənubər içəridə qalır.

Xeyli keçir. Sənubər bir də görür nə, göy guruldadı, ildırım çaxdı. O, tez gəlif qapının ağzında durur. Küpəgirən qapıyı açanda qız onun saçınnan yapışıf deyir:

– Məni eşiyə çıxart. Yoxsa, səni öldürəjəm.Küpəgirən qarı ələşsiz qalıf qızı eşiyə çıxarır. Sənubər eşiyə çıxan kimi şahzadəyə deyir:

– Şahzadə, tez bir od qala!

Şahzadə od qalıyır. Qız odu götürüf küpəgirənin saçını odduyur. Saçı od tutan kimi küpəgirən yıxılıf ölür. Qız livası əyninnən çıxarıf şahzadəyə dedi:

– Məni tanıdın?

Şahzadə gözdərinə inanmır. Sənubər sağ-salamat qarşısında dayandı. Qucaxlaşıf öpüşüf, görüşüllər. Başdarına gələnnəri bir-birinə nağıl eliyif, xalçaya minillər. Xalça onnarı gətirif məmləkətdərinə çatdırır. Şahzadə ilanın üzünnən-gözünnən öpüf ona razılıx eləyir. İlan getmək istiyəndə şahzadə qoymur, onu yanında saxlayır. Xəvər gedif çatır şaha deməzsənmi, ilxıçının arvadı bir uçan xalça gətirif şahın tamahı güj gəlir. Şahzadəynən arvadını yanına çağağırtdırıf deyir:

– Eşitmişəm, sizdə uçan xalça var. Bu nejə olar kı, mən padşah ola-



ola bu xalça məndə olmasın, bir ilxıçıda olsun.

Ər-arvad qalır məəttəl. Sənubər deyir:

– Qibleyi-aləm sağ olsun, rüsxət ver, gedək xalçıyı gətirək.

Şah onnarı buraxır. Bir də xəvər gəlir ki, xalça göyə qalxıf. Şahzadəynən arvadı, İbrahim, quş və ilan da onun üstündə uçullar. Şan başına-gözünə döyə-döyə qalır.

Onnar gəlif çıxıllar şahzadənin dədəsinin yurduna. Şah xəvər tutuf oğlunun, gəlininin pişvazına çıxır, öpüşüf, görüşüllər. Şah tutduğu işdən peşman olur. Taxtınnan əl çəkif oğlunu yerində oturdur. Bunnar burda şad-xürrəm ömür sürüllər. İndi görək Sənubərin quldurrardan olan qızının axırı nə oldu.

Fatma çovanın evində böyüyüf həddi-buluğa çatır. Bir gün çöldə yemlik yığdığı yerdə əlini bıçax kəsir. Oturuf ağlıyır. Bu zaman daldan bir səs eşidir:

– Fatma, inyə ağlıyırsan?

Fatma qorxa-qorxa səs gələn tərəfə baxır. Otdarın arasınnan bir ağ ilan başını qaldırıf ona baxır. Fatma qorxuf qaçmax istiyir.

İlan deyir:

– Ay qız, mənnən qorxuf eləmə, sana dəymərəm. De görüm, niyə ağlıyırsan? Yoxsa anan yadına düşüf?

Qız deyir:

– Nə ana?

İlan deyir:

– Nejə yə'ni. Nə ana? Eşit, bil və agah ol ku, sənin anan Sənubər xanımdı.

İlan bildiklərini qıza danışır.

Qız deyir:

– Mən nə təhər anamın yanına gedə bilərəm?

İlan deyir:

– Get evdən razılıx alıf gəl, mən səni aparım.

Qız ağlıya-ağlıya evə gəlir. Anasının üstünü kəsif deyir:

– De görüm, sən məni hardan alıfsan?

Anası görür kü, qız hardansa işi bilir. Başdarına gələni qıza danışır.

Qız deyir:

– Mən gedirəm anamı axtarmağa.

Arvad deyir:

– İndi kı, gedirsən, get, allah amanatında. Bu qolvağını da özünnən apar. Dara düşsən, xərşdiyərsən.

Çovannan arvadı qıznan qujaxlaşıf halal-hümmət eliyif, ona xeyir-dua verillər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız heybəsini çiynine asıf ilanın yanına gəlir. Onnar yola düşüllər.

Az gedillər, çox gedillər, dərələr aşır, dağlar keçillər. Xülasə, gəlif anasıgilin məkanına çatıllar.

İlan qıza deyir:

– Elçi daşının üstündə oturax. Bizi içəri aparanda hər şeyi açıf söylüyərsən.

Onnar burada oturullar. Şaha xəbər çatır kı, elçi daşında bir qıznan bir ilan oturuf. Şah qıznan ilanı yanına çağırtdırır.

Qız gəlif şaha baş əyir.

Şah deyir:

– Ay qız, sən kimsən, elçi daşında otumaxda məqsədin nədi?

Qız bildiklərini danışır. Şah inanmır. Sənubəri yanına çağırır. Sənubər qızı görəndə elə bil ona quşu qonur. Ona qanı qaynıyır. Əhvalatdan hali olannan sonra qıza sarılıf ağlıyır. Ana-bala bir-birini duz kimi yalıyır. Qızı saxlayan çovannan arvadını da gətirillər. Şah onnara bəxşiş verif yola salır. Sonra ilana deyir:

– Yaxşılığına görə sana nə qullux?

İlan deyir:

– Maa heş nə lazım deyil. Rüsxət ver gedim balalarımın yanına.



## TİLSİMƏ DÜŞMÜŞ QIZ

Biri varıymış, biri yoxuymuş, keçmiş zamannarda bir kişi varıymış. Bu kişinin bir qızı, bir oğlu varıymış. Qızın adı Pəri, oğlanın adı Cümşüdüymüş. Kişi çovannıx eliyif külfətini dolandırırmış. Qızı Pəri də gününü qoyunnarın dalında keçirərmiş.

Günnərin bir günündə kişi xəstələnir. O, qızını yanına çağırıf deyir:

– Qızım, bu günnən mən çölə gedə bilmiyəjəm. Qoyunnarı aparıf bu yaxınnarda otararsan. Çox uzağa getməzsən.

Qız dedi:

– Baş üstə, ata!

Qərəz, qız qoyunnarı qavağına qatıf çölə apardı. Bir xeyli otaranndan sonra çayın qırağında suya endirdi. Qoyunnar kürnəşə yığılıf köyşək vuruf yatdılar. Pərini də burada yuxu apardı.

Bu vaxt Pəri qızdarı suyun kənarındakı ağaca qonuflarmış. Qızın yatdığını görüf onu qıllıca donuna saldılar, qoyunnarı da aparıf getdilər.

Bir xeyli keçənnən sonra qız ayılıdı. İstədi qalxıf yeriyə, gördü kü, adam kimi yeriyə bilmir, heyvan kimi yeriyir. Qız sehirrəndiyini başa düşdü. Sürünə-sürünə gəlif bir meşiyə çıxdı. Bu meşələr Pəri qızdarının məskəniymiş. Qız meşədə bir az gəzif-dolandı, bir ağacın oyuğuna girif yatmax istədi, amma dərddən yata bilmədi. O yana çöndü, bü yana çöndü, bu minvalnan gejiyi savah elədi. Onu burada qoyax, görək qardaşı Cümşüdün başına nə gəldi.

Axşam Cümşüd evə gəldi. Gördü nə Pəri var, nə sürü. Dədəsi də yorğan-döşəkdə yatır. Cümşüd Pərinin dalınca yola düzəldi. Az getdi, çox getdi, qavağına bir qurvağa çıxdı.

Cümşüd soruşdu:

– Ay dilsiz heyvan, de görüm Pəri hardadı?

Qurvağa dilə gəlif dedi:

– Mən bilmirəm. Qavağına bir çəyirtgə çıxacax. O, bajının yerini bilər.

Cümşüd yolu əlinə alıf az getdi, üz getdi, iynə yarım yol getdi. Qavağına bir çəyirtgə çıxdı. Çəyirtgə yolun ortasında özündən yekə bir çöpü sürüyürdü. Cümşüd ona yaxınnaşıf dedi:

– Ay dilsiz heyvan, de görüm, Pəri bajım hardadı? Bəlkə sən yerini bilirsən?

Çəyirtgə dedi:

– Mən hardan biləjəm. Bir az get qavağına bir qurd çıxajax. O, bilər. Onnan soruş.

Cümşüd çarığının davanını bərkidif yola başdadı.Bir xeyli getdi, bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qurda rast oldu. Qurd torpağı eşirdi. Cümşüd soruşdu:

– Ay allahın dilsiz heyvanı, bəlkə Pəridən xəvərin ola?

Qurd dilə gəlif dedi:

– Üç yol ayrıcında bir ilan var. Bəlkə, o bilə, mən hardan bilim?

Cümşüd yolu əlinə aldı. Dərələrdən yel kimi, təpələrdən sel kimi keçərək gəlif üç yol ayrıcına çatdı. İri bir ilan qıvrılıf otumuşdu. Cümşüd ilana yaxınnaşıf salam verdi. Sonra dedi:

– İlan qardaş, bəlkə bacım Pərinin yerini bilirsən?

İlan Cümşüdü təpədən-dırnağa süzdü, onnan xoşu gəlif dedi:

– Ay oğlan, sənin bajın dardadı. Onu qurtarmax çox çətindi.

Oğlan dedi:

– Çətin də olsa qurtarmalıyam. Sən yerini de.

İlan dedi:

– Gördüyün bu ikinci yolnan gedərsən. Qavağına bir mağara çıxajax. O mağaranın içini gəzərsən. Qırxıncı otaxda bu sirri biləjəksən.

Cümşüd sevinə-sevinə ilannan salamatdaşıf yoluna düzəldi. Az getdi, çox getdi, iynə yarım yol getdi, ikinci yolun qurtaracağında bir mağaraya rast gəldi. Mağaranın içinə girdi. Otuz doqquz qapı keşdi. Otaxlar bombalanboşuydu. Bismillah deyif qırxıncı otağın qapısını aşdı. Gördü kü, bura da boşdu. Heş bir səs-səmir yoxdu. Bir az da irəli getdi. Otağın bir küncündə bir qızıl sandıx gördü. Əvvəlcə qorxuf sandığı aşmax istəmədi. Sonra cür'ətə gəlif sandığa bir təpik vurdu. Sandıxdan bir səs gəldi:

– Cümşüd, niyə çirtmə ilə vuruf qırırsan. Qapağı açıxdı. Əlini at, açajaxsan.

Cümşüd qız səsi eşidif ürəkləndi. Sandığın qapağını açdı. Sandığın içinnən bir qız şəkli çıxdı. Cümşüd şəkli görən kimi qıza vuruldu. Qızın dərdinnən dəli-divanə oldu. Qız elə gözəliydi, elə gözəliydi ki, yemə, işmə, xətti-xalına, gül camalına tamaşa elə. Gözəllikdə tayı-baravarı yoxuydu. Cümşüd şəkli qoynuna qoyuf sandıxdakı qılıncnan kağızı da götürdü. Kağızı açıf oxudu. Orda yazılmışdı:"Cümşüd, sən mənim butamsan. Mənnən başqasına yar ola bilməzsən. Mən qara divin tilsiminə düşmüşəm. Üçüncü yolnan gəlif məni taparsan. Məni ancax sandıxdakı qılıncnan qurtara bilərsən. Hürü"

Cümşüdün dərdi birə-beş artdı. Pəri də yadınnan çıxdı, Hürünün sevdasına düşdü.

Cümşüd üçüncü yolnan getməyin binasını qoydu. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlif bir meşiyə çatdı. Cümşüdü burada qoyax, görək Pəri nejə oldu?

Pəri meşədə hərrənə-hərrənə qalmışdı. Bir gün padşahın oğlu başına



bir dəstə yığıf ova çıxmışdı. Onnar xeyli dolandılar, amma əllərinə bir şey keşmədi. Geri qayıdanda padşahın oğlu görür kü, qıllı bir heyvan ağacın oyuğuna girdi. Tez atdan düşüf özünü oyuğa yetirdi. Qılınc çəkif onu vurmaq istiyəndə qıllıca dilə gəlif dedi:

– Amandı, məni vurma, mən heyvan deyiləm.

Şahın oğlu dedi:

– Bə heyvan deyilsən, nəsən?

Qıllıca dedi:

– Məni evinə apar, həlvət sənə bir xeyrim dəyər.

Şahın oğlu çox fikirdən sonra qıllıcanı evə gətirdi. Şah bunnan hirsdənif dedi:

– Bu saat aparın bunun başını kəsin!

Qıllıca gördü kü, bunu öldürəcəklər. Dilə gəlif dedi:

– Mən heyvan deyiləm. Mən çovanın qızı Pəriyəm. Məni tilsimə salıflar.

Hamının ona çox yazığı gəldi. Dedilər: qoy burada qalsın. Şahzadə dedi:

– Ata, mən gedif bu tilsimi sındırajam.

Şah dedi:

– Bala, gedərsən birdən başına qəza-zad gələr, bu çox qorxuludu, gəl bu fikirdən çəkin.

Şah çox dedi, oğlu az eşitdi. Şahzadə yaraxlanıf, yasaxlanıf yola rəvan oldu. Az getdi, çox getdi, bilmirəm nə qədər yol getdi axır kı, üç yol ayrıcına gedif çıxdı. Gördü yolun qırağında bir yekə ilan qıvrılıf yatır. Oğlan qorxuf geri çəkildi. İlan dedi:

– Oğlan, qorxma, yaxın gəl.

Şahzadə dedi:

– İlan qardaş, sən mənə kömək eliyə bilərsənmi?

İlan dedi:

– Mənnən nə istiyirsən?

Şahzadə dedi:

– Mən Pəri xanımı tilsimnən qurtarmax istiyirəm.

İlan dedi:

– Onu Pəri qızdarı tilsimə salıf. Ora gedənnər geri dönməz.

Şahzadə dedi:

– Mən neyniyə bilərəm?

İlan dedi:

– Sən gedərsən Pərilər padşahının yanına. Onda hər şeyi bilərsən.

Şahzadə oradan üz qoydu Pərilər padşahının məskəninə. Baxıf gördü kü, burda hər şey tilsimdədi. Nəyə yaxın gedirsə, hər tərəfdən səsdər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlir: "Tutun, qoymuyun!" Oğlan bir ağacın altında oturuf fikrə getdi. Baxdı kı, burda gəzmək çox qorxuludu.

Ağacın altında oturduğu yerdəcə onu yuxu tutdu. Elə bu vaxt başının üstündə iki quş hazır oluf danışmağa başdadı. Quşlardan biri dedi:

– Bajılı-bajılı, bu oğlanı tanıyırsan?

O biri dedi:

– Yox bajılı, tanımıram.

Birinci quş dedi:

– Bajılı, bu oğlan Firəng şahının oğludu. Çovanın qızı Pərini tilsimnən qurtarmax üçün gəlif. Nə təhər padşahın yanına gedə ki, tilsimə düşmüyə?

İkinci quş dedi:

– Bajılı, mən bunu eliyərəm.

Quş şahzadənin burnuna nəyisə qoxulatdı. Şahzadə gözünü açanda özünü Pərilər şahının hüzurunda gördü.

Pərilər şahı dedi:

– De görüm, sən kimsən, nə cür’ətnən bura gəlmisən? Səni bu saat quş eliyif qəfəsə salajam.

Oğlan dedi:

– Padşah sağ olsun, sənin qavağında hər şeyə razıyam, bircə ricam var.

Padşah dedi:

– De görüm, nə deyirsən, sən bilmirsən ki, burdan salamat gedən olmuyuf.

Oğlan dedi:

– Mən Firəng şahının oğluyam. Sevgilim qıllıca tilsimdədi. İstiyirəm onu azad eliyəm. Burada bir ağacın kölgəsində yatmışdım. Gözümü aşdım kı, sizin hüzurunuzdayam.

Padşah dedi:

– Sənnən üç şey istiyəjəm. Əyər onnarı gətirsən, Pərini tilsimnnən çıxarajam, səni də salamat buraxajam. Yox, yerinə yetirməsən, səni də tilsimə salajam.

Oğlan dedi:

– Mən hazıram.

Padşah dedi:

– Gedərsən qara divin məkanına. Qara divdən sehirri çırağı, sehirli üzüyü, sehirri papağı gətirərsən. Gətirməsən, səni də qıllıca kimi tilsimə salajam.

Şahzadə pərilər şahınnan görüşüf ayrıldı. Yolu əlinə alıf dağlar keşdi, dərələr aşdı, gəlif bir şəhərə çıxdı. Gejə bir qarının evində gejələməli



oldu. Oğlan başına gələnnəri qarıya nağılladı. Qarı dedi:

– Bala, nahax bu yola gedirsən. Ora elə bir yerdi ki, heş kim ordan geri qayıtmayıf. Ora qara divlərin məskənidi. Qara div adamları daş eliyif hasar çəkir. Hasara baxanın gözü qaralır. Kim gedirsə, orda daş oluf qalır.

Şahzadə dedi:

– Yox, qarı nənə, getməliyəm. İyidin başı qalda gərək. Kişi tüpürdüyünü yalamaz.

Qarı dedi:

– Bala, o sehirli şeylər ki var, onnan ötrü bütün dünya ora axışıf gedir. Çox igiddər oradan qayıtmıyıf. Gəl, allaha bax, bu yoldan geri qayıt.

Qarı çox dedi, şahzadə az eşitdi. Tezdən duruf yoluna rəvan oldu. Günə bir mənzil, teyyi-mənail, axır kı, gəlif divlərin məskəninə çıxdı. Gördü bura doğrudan da çox qıymatdı bir yerdi. Hər tərəf uca bir hasardı. Şahzadə hasar uzunu hərrəndi ki, görsün yol hardandı. Bir də gördü göy guruldadı, şimşək çaxdı, bir nə’rilti, bir gurultu qofdu ku, allah göstərməsin. Bir yekə qara div nə’riltiynən gəlif mağarıya girdi. Div mağarıya girif hər tərəfi qoxuladı. Birdən dedi: "Adam-badam iysi gəlir, şaqqılı-badam iysi gəlir“. Hasardan, qapılardan səsdər gəldi.

-İndi də şahzadə gəlir, yol verəkmi içəri girsin?

Div dedi:

– Yol verin, gəlsin.

Div belə deyən kimi hasar aralandı, şahzadə hasardan içəri girdi. Daşdardan səs gəldi:

– Şahzadə, olmuya-olmuya sən qarının dediklərinə inanasan. Yoxsa bizim günümüzə düşərsən.

Şahzadə içəri girdi. Bura dərin bir mağaraydı. Yeddi yerdən qapısı varıydı. Gördü girəcəkdə bir qarı oturuf. Qarı nə qarı. Alt dodağı yer süpürür, üst dodağı göy süpürür. Ağzında da bir batman saqqız.

Qarı şahzadəni görən kimi şaqqıldıyıf güldü:

– Aha, şahzadə sən öz ayağınnan gəlifsən. Bu saat qardaşdarım gəlif səni birtəhər eliyər. Gəl burdan geri qayıt.

Şahzadə dedi:

– Gəlif çıxmışam, ta geri niyə qayıdıram? Mən sənin qardaşlarınnan döyüşəjəm.

Qarı dedi:

– Gəl mənim saçımdakı saqqızı çıxart, mən sənə burdan salamat çıxmağın sirrini deyim.

Daşdarın dediyi söz Şahzadənin yadınnan çıxdı. Gəlif əlini qarının saçına vuranda tilsimə düşdü. Qarı onu da hasarın bir küncünə atdı.

Qıllıca gördü kü, şahzadə gəlmədi. Ürəyinə damdı kı, onun başında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir iş var. Duruf yola düşdü. Az getdi, çox getdi, gəlif yolayrıcındakı ilanın yanına çıxdı. İlana salam verif yanında oturdu.

İlan dedi:

– Hara gedirsən?

Qıllıca əhvalatı olduğu kimi ona danışdı.

İlan dedi:

– Sən nə eləmək istiyirsən?

Qıllıca dedi:

– Gedirəm onnarı dardan qurtarmağa. Mənə kömək elə.

İlanın qıza yazığı gəldi. Dedi:

– Sözdərimə yaxşı-yaxşı qulaq as. Gedərsən Pərilər şahının məkanına. Göy bulağın başında xəlvət bir yerdə gizdənərsən. Elə yerdə durursan kı, səni görməsinnər. Pəri qızdarı suya girif çiməndə sən onnarın paltarrarını oğurruyarsan. Onnar sənə yalvarajaxlar kı, paltarrarını verəsən. Sən vermə, onnar deyəjəklər: "Bizdən nə istiyirsən verək, təkcə paltarrarımızı ver".

Onda sən deyərsən: "Məni tilsimnən çıxarın, həm də sehirli paltarı verin, yoxsa paltarrarınızı vermiyəcəm". Onlar pərilərin cəddinə and işməsələr, verməzsən.

Qıllıca ilannnan sağollaşıf yoluna davam elədi. Dağlar, dərələr keçif ilan dediyi yerə çatdı. Bir xəlvətə çəkilif pəri qızdarının gəlməyini gözdədi.

Onu burada qoyax, görək Cümşüdün axırı harda qaldı. Cümşüd gəlif meşəyə çıxdı, gejəni burda qaldı. Tezdən yenə öz yoluna davam elədi. Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlif divlər məkanına çıxdı. Gördü kü, hər tərəf hasardı, içəri görünmür. Cümşüd hasarı hərrənəndə səsdər gəldi: "Buraxaxmı?" Bir səs yenə eşidildi: "Buraxın, gəlsin". "Cümşüd, qarı nə desə fikir vermə. Kim danışdırsa, danışma".

Cümşüd mağaranın qapısını açıf içəri girdi. Gördü bura yekə bir mağaradı. İçində yeddi qapı var. Ortada bir qarı oturuf. Qarının alt dodağı yer süpürür, üst dodağı göy süpürür. Ağzında da bir put saqqız. Cümşüd içəri girən kimi qarı dedi:

– Xoş gördük, Cümşüd.

Cümşüd cavaf vermədi.

Qarı dedi:

– Gəl bu saçıma dolaşan saqqızı təmizdə, yoxsa səni buraxmıyajam.

Cümşüd heç nəyə fikir vermədi. Birinci qapını açdı. Gördü içəridə bir div yatıf kı, görəndə adamın bağrı yarılır. Başını da qoyuf bir qızın dizləri üstünə. Qız oğlanı görən kimi dedi:

– Ay oğlan, özünə yazığın gəlmirmi gəlif bura çıxıfsan.



Cümşüd dedi:

– Yox, mən bu divi öldürüf səni burdan qurtarajam.

Cümşüd belə deyif başdadı divin ayaxlarının altını ovmağa. Div qıza bir şillə vurdu:

– Qoyma, ayaxlarımın altını milçək yedi.

Cümşüd yenə də divin ayaxlarının altını ovmaxda davam etdi. Div yenə də qızı vurdu ku, korsan, görmürsən milçək ayağımı yedi. Üçüncü dəfə div yuxudan oyandı və dedi:

– Bu nədi, sənə demirəm, qoyma ayaxlarımı milçək yedi.

Cümşüd dedi:

– Mənəm səni yuxudan oyadan. Dur vuruşax.

Div nəriltiynən yuxudan oyanıf Cümşüdnən vuruşmağa başdadı. Cümşüd divə güc gələ bilmirdi. Qız bildi ki, div Cümşüdü lap haldan salıf. Tez taxçadakı şüşəni götürüf yerə vurdu. İçindəki göyrçinin başını üzdü. Div nəriltiynən yıxılıf öldü.

Qız dedi:

-Cümşüd, divin biri öldü, qaldı altısı. Bunnar da yuxudadı. Bir azdan oyanajaxlar. Yeddinci otaqdakı divin yanında bir ağaş var. O ağacı ordan çıxartsan, bütün camaatı tilsimnən qurtarmax olar. Amma indi gecikmək olmaz. Tez ol divlər ayılmamış onnarı öldür, çıxax gedək.

Cümşüd dedi:

– İyid arxadan vurmaz. Gərək hamısınnan vuruşam. Cümşüd divin altısını öldürdü. Sandıxdan çıxartdığı qılıncnan onnarın başını kəsdi. Axır kı, gəlif çıxdı yeddinci otağa. Qapını açanda mat qaldı. Burdakı div elə bədheybətiydi ki... Cümşüd onun bir barmağı boyda ancax olardı. Cümşüdü görən kimi div dedi:

– Sən mənim altı qardaşımı öldürdün, uf demədin. Mən gərək sənin qanını içəm.

Div qollarını açıf Cümşüdə tərəf atıldı. Nə qədər sehrli şeylər varıydı, hamısı bu divin otağındaydı.

Onnar üç gün, üç gecə vuruşdular. Dördüncü gün div fürsət eliyib, Cümşüdün qılıncını vuruf yerə saldı. Cümşüd haldan düşüf qaldı. Div qılıncı götürüf tulladı. Ağacı əlinə alıf Cümşüdə vuruf dedi: "Qurşağa kimi daş ol". Cümşüd qurşağa kimi daş oluf orada qaldı.

Div hər gün Cümşüdə əziyyət verməkdə olsun, görək Pərinin axırı nə oldu?

Qıllıca bir xeyli pusquda durdu. Bir də gördü kü, Pəri qızdarı suyun yanındakı ağacın başına qondu. Dörd yana baxannan sonra soyunuf suya girdilər. İşi belə görəndə qıllıca sevindi. Yavaş-yavaş gəlif onnarın paltarrarını oğurradı. Pəri qızdarı çimif gəldilər ki, geyinsinnər, gördülər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, paltarrarı yoxdu. Dörd yana baxıf qıllıcanı gördülər. Qıllıca irəli gəlif dedi:

– İndicə bunları aparıf odun içinə atajam.

Qızdar dedilər:

– Ver paltarlarımızı geyinək. Sənə nə yaxşılıx desən eliyərik.

Qıllıca dedi:

– Verməərəm. Siz mənə neçə illərdi ki, bu zülmü verirsiniz. Mənim niyə sizə yazığım gəlməlidi?

Pəri qızdarı dedi:

– Nə istəyirsən verək, bircə paltarrarımıza dəymə.

Qıllıca dedi:

– Məni tilsimnən çıxarın, bir də ki, sehrli paltarı verin.

Pəri qızdarı dedi:

– And olsun pərilərin cəddinə biz sənin dediklərini eliyəjəyik.

Qıllıca onnarın paltarlarını verdi. Qızdar paltarrarını geyinif quş cildinə düşüf getdilər. Qıllıca paltarları verdiyinə peşman oldu. Xeyli fikirləşif duruf getmək istiyirdi ki, bir də gördü ki, pəri qızları uça-uça gəldilər. Onlar Qıllıcaya çatıf yerə qondular. Qızın üzünə üfürdülər. Pəri tilsimnən qurtardı. O, pərilərin verdiyi livası da götürüf yola düşdü.

Az getdi, çox getdi, axır gəlif bir çaya çatdı. Çayda su içdi, əl-üzünü, ayaxlarını yudu. Bir də baxdı kı, yuxarıda ağacın budağında iki quş danışır.

Quşdardan biri dedi:

– Bajılı-bajılı bu qızı tanıyırsan?

O biri dedi:

– Hə, tanıyıram. Cümşüdün bajısıdı. Tilsimə düşmüşdü. Qardaşı onun dalınca gedif yeddi qardaş divlərin məskənində tilsimə düşüf qalıf. Şahzadə də orda tilsimdədi. O da bunun oduna yanıf. Onu da divlər daş eliyib hasara qoyuflar. Pəri quşların danışığını eşidif dedi:

– Quşlar, sizin danışığınızı mən eşitdim. Yalvarıram sizə, deyin mən ora nejə gedə bilərəm?

Quşlar dedi:

– Ora gedər-gəlməzdi. Gedif sən də orda qalarsan.

Pəri dedi:

– Siz yolunu göstərin, mən gedərəm. Mən qardaşımnan artıx deyiləm ki? Mən də onun yanında gedif qalaram.

Quşlar gördü kü, qız əl çəkmir. Dedilər:

– Bajı, biz göylə uçacıyıx, sən də bizim arxamızla gəl.

Quşlar göylə uçurdu, qız yernən gedirdi. Axırda gəlif divlərin məkanına çıxdılar.



Quşlar dedi:

– Biz geri qayıdırıx. Divlər gördüyün mağarada olur.

Qız quşlarla halallaşıf ayrıldı. Bir xeyli duruf mağaraya baxdı. Sonra pəri qızdarın verdiyi livasını geyindi. O, hamını görürdü, ancaq heş kim onu görmürdü. O, hasarın yanında xeyli gözdədi. Bir də gördü kü, yer-göy lərzəyə gəldi. Nəriltiynən, gurultuynan bir yekə div hasarın yanında peyda oldu. Div içəri girəndə qız da onun dalınca girdi. Div hara gedirsə, qız da onun dalınca gedirdi. Onlar yeddinci otağa girdilər. Div otaxdakı qızıl sandığı açdı, içindəki qıza bir xeyli əziyyət verif yıxılıf yatdı. Pəri bunların hamısını görürdü. Div yuxuya gedən kimi Pəri içərini ələk-vələk elədi. Birdən qardaşı Cümşüdü gördü. O, yarıya qədər daş olmuşdu, yarısı da adamdı.

Qız dedi:

– Cümşüd, divi öldürməyin yolunu mənə öyrət.

Cümşüd dedi:

– Onun canı taxçadakı göyərçindədi. Göyərçinin başını üzsən, divin canı o saat çıxajax.

Qız tez şüşəni yerə vuruf göyərçini tutdu. Div dəli bir nərə çəkərək hövlnak yuxudan dik atıldı. Baxdı ki, iş-işdən keçif, yalvarmağa başdadı:

– Kimsənsə, üzə çıx, göyərçinə dəymə. Nə deyirsən, onu eliyə-jəm.

Pəri dedi:

– Qardaşımı tilsimnən qurtar, göyərçinə dəymiyim.

Div divardan ağacı götürdü. Cümşüdə vuruf dedi:

Daşdan çıx.

Cümşüd daşdan çıxdı. Qız dedi:

– Nə qədər adam varsa, hamısını tilsimnən çıxart. Çıxartmasan göyərçinin başını üzəjəm.

Divin əlaci qalmadı. Daşa döndərdiyi bütün adamları tilsimnən qurtardı.

Qız dedi:

– İndi mən bu göyərçinin başını üzəjəm. Sən bu camahata çox əziyyət verifsən.

Div dedi:

– Ey gözə görünməz qız, sən məni öldürsən də, tilsim sınmayajcax. Mənim bajım tilsimnən buranı sehirriyif. Siz eşiyə çıxa bilməyəjəksiniz. Bajım sağdı, bu mağarada gözəgörünməz bir yerdə oturuf. Siz onun əlinnən qurtara bilməzsiniz. Sən göyərçini burax, mən sizi azad eliyim.

Qız dedi:

– Sonra bizi tilsimliyəsən, eləmi?

Div dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Anamın südünə and içirəm ki, sizi dalıma alıf buradan çıxarajam.
Qız göyərçini buraxdı:
Div dedi:
– Mənnən özgə nə istiyirsən?
Cümşüd dedi:
– Sehirri papağı, sehirri çırağı, sehrli çuvuğu və sehirri üzüyü.
Div Cümşüd istədiyi şeyləri verif onnarı da belinə alıf eşiyə çıxmaq istədi. Pərinin yadına düşdü kü, sandıxdakı qız qaldı. Tez dedi:
– Sandığı da gətir, onu niyə orada qoydun?
Div geri qayıdıf sandığı da götürdü. Bunnar mağaradan çıxanda yüz cür əcayif səslər gəldi: "Tutun, vurun, qoymayın gedə"
Div dedi:
– Toxunmuyun, qoyun getsinnər, mən icazə vermişəm.
Div bunnarı hasardan çıxarıf bir xeyli apardı. Bir çəmənniyə çatanda yerə qoyuf dedi:
– Bəsdimi, yoxsa yenə aparım?
Qız dedi:
– Bəsdi! Daha özümüz gedərik.
Div onnarı orada qoyuf özü geriyə qayıtdı. Qız tez livası əyninnən çıxartdı. Cümşüdnən görüşüf-öpüşdü. Başdarına gələnnəri bajı-qardaş bir-birinə danışdılar. Cümşüd civinnən qızın şəklini çıxarıf dedi:
– Bacı, mən bu qızı axtarırdım, tapa bilmədim.
Pəri şəkilə baxanda gördü ku, sandıxdakı qızın şəklidi. Pəriynən Cümşüd bir-birini görəndə elə sevinmişdilər ki, sandıxdakı qız yaddarına belə düşməmişdi. Tez sandığı aşdılar. Cümşüd gördü, doğrudan da, o qızdı. Qızı sandıxdan çıxartdı.
Qız dedi:
– Sağ ol, Cümşüd, bizi qurtardın.
Cümşüd edi:
– O sağ olunu bajıma de. Bizi o qurtardı.
Cümşüd gördü kü, Pərinin gözdəri dalda qalıf. Ayağını çəkə-çəkə gəlir, soruşdu:
– Bajı, niyə gəlmək istəmirsən? Nə var?
Pəri utana-utana dedi:
– Qardaş, məni tilsimnən qurtarmax istiyən sevgilim də burda daş olmuşdu. Gözüm onu gəzir.
Cümşüd dedi:
– Oturun, gözdüyək, indi gələllər.
Bir xeyli keşdi. Şahzadə də, başqa tilsimnən qurtaran adamlar da gəlif çıxdılar.



Cümşüd Səmərqəndə gəlif qızdarı atalarına verdi. Şah çox razı qaldı. Kiçik qızını Cümşüdə verif, yeddi gün, yeddi gejə toy elədi. Sonra da onu öz taxtında oturtdu. Cümşüd gedif dədəsigili də yanına gətirdi.
Pəriynən şahzadə də gəlif öz yerrərinə çatdılar, Firəng şahı işdən hali oluf Pərinin üz-gözünnən öpüf, onnara qırx gün, qırx gejə toy elədi.
Onlar öz muraddarına çatdılar. Siz də muradınıza çatasınız.
Göydən üç alma düşdü, biri mənim, biri nağıl danışanın, biri də nağıla qulax asanın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## NARIN XANIMIN NAILI

Biri varıydı, biri yoxuydu, uzax-uzax keşmişlərdə Əhməd addı çox zalım, qaniçən bir padşah varıydı. Əhməd şah zülmkarlığınnan dünyada ad çıxarmışdı. Kənd-kənd, şəhər-şəhər gəzər, kim onun haqqında bir kəlmə bəd danışsa, onu dar ağacına çəkdirərdi. Onun rəiyyətinə elədiyi zülm ərşə dayanmışdı. Əhməd padşah neçə arvad almışdısa da, onun gözünün ağı-qarası bir qızınnan başqa övladı olmamışdı. Bir gün padşah vəzirini yanına çağırıf dedi:

– Vəzir, deyirəm ay dadi-bidad bu qədər dövlətin olsun, böyük bir ölkənin padşahı ol, ancax bir oğul züryətin olmasın.

Vəzir dedi:

– Padşah sağ olsun, əvvəla sənin qızın Narın xanım yüz oğula dəyər. İkincisi də qəm-qüssə içərisində özünü üzməkdən bir kar aşmaz. Yenə də allah özü bilən yaxşıdı deyif, yaradanın ətəyindən tutmax lazımdı.

– Hə, əzizdərim! Bu minvalnan xeyli müddət keçdi. Lakin oğul dərdi padşahın bir an belə yadınnan çıxmırdı. Günnərin bir günü çox fikir-xəyaldan sonra axşam yatağa uzanan Əhməd padşahı bərk yuxu apardı. Yuxuda gördü kü, bir nəfər pirani adam bir əlində əsa, bir əlində isə çırax gəlif onun yanında oturdu. Əlindəki əsanı və çırağı yanına qoyuf, əlini saqqalına çəkif qəzəfnən dilləndi:

– Ey Əhməd padşah, bil və agah ol ki, sən camaata etdiyin zülümlərə görə qarğışa düşüfsən. Böyük tanrının sənə qəzəvi keçif. Əgər zülmkarrığını davam etdirsən taxt-tacın viran olajax, səni rəiyyət tikə-tikə eləyif darvazalardan asajax. Son pənahın olan aman-zaman bircə balan gözünün qavağında öldürüləjək. İndi sənin bircə çıxış yolun var. Əlimdə gətirdiyim çırağı sənə verif gedəjəm. Sən bu çırağı əlinə alıf gündoğan tərəfə gedəjəksən. Axır kı, gedif dağların arasında yerləşən Qannı göl, deyilən yerə çatajaxsan. Həmin göldə çimif təmizdənərsən. Allaha dua eləyif günahınnan keşməsini diliyərsən. Əgər bu gölü tapıf çimə bilsən, bütün günahların əfv olajax. Onu da sənə deyim ki, Qannı göldə çimmək hər kəsə qismət olan şey döyül. Ora gedif çıxana kimi başın çox balalar çəkəjək. Ancax bu sehirri çırax sənin köməyinə çatajax. Dara düşəndə çırağı səsdərsən. O saat Zəmzəm pəhləvan dadına yetəjək.

Bu sözləri deyəndən sonra qoca qeyb oldu. Yuxudan hövlənak qalxan Əhməd padşah qorxusunnan tir-tir əsirdi. Tər onu basmışdı. İki əlli boğazınnan yapışıf güjnən heyvətdi bir səs çıxardı:

– Vəzir!

Padşahın səsini eşidən vəzir yuxudan qalxıf tez özünü verdi onun otağına. Gördü kü, padşahın halı hal döyül. Az qalır ki, çatlasın. Ancax



padşahın taxtının yanında gözəl bir çırax var kı, iki göz istiyir ona tamaşa eləsin.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, mana görə qullux.

Padşah udquna-udquna başına gələnin hamısını ona nağıl elədi. Vəzir dedi:

– Padşah sağ olsun, bu yuxu d döyül. Sənə böyük tanrının görüm-baxımı keçif. Sana çırağı verən adam da, övliyalardan biriymiş. Daha yatmağa dəyməz. Qalx dua elə. Səhər tezdən də səfərinin dalına düş.

Padşah dedi:

– Vəzir, mana bir yaxşı yüyrək at hazırrat. Bu işi də heş kəs bilməsin. Bir sən bil, bir də mən. İşdi, sağ qayıtsam səni dünya malınnan qani eliyəjəm. Qayıtmasam da, padşahlıx sana çatajax.

Bəli, belə nağıl eliyillər ki, savahın gözü açılmamış padşah at üstündə şəhərdən çıxdı. Neçə gün, neçə gejə at sürdü. Yolun damarını qırdı. At keşməz gədiklərdən aşdı, dağlar, dərələr keşdi. Axır kı, gəlif Qannı gölə çatdı. İstədi ki, soyunuf göldə çimsin, bu vaxt göy gurulladı, yer tərpəndi, dünyavi-aləm lərzəyə gəldi. Əhməd padşahın başının üstünü bir qara bulud aldı. Buludun arasınnan gözəl bir oğlan çıxdı. Yemə-içmə onun xətti-xalına, gül camalına tamaşa elə. Oğlan ətrafa çırax kimi işıx salırdı.

Oğlan dedi:

– Ey bəni insan, sən nə cürətnən bu göldə çimməyə gəlifsən?! Bil və agah ol ku, qara dev bura gələn insannarın başınnan minarələr ucaltdırıf. Nejə ki, o gəlmiyif qaç canını qurtar.

Padşah dedi:

– Ey gözəl oğlan, sən məni devin əlinnən qurtara bilərsənmi?

Oğlan dedi:

– Mənim adım Tafdıxdı. Qara dev məni də tilsimə salıf. İndi mən tilsimdəyəm. Əgər tilsim sınsa, mən sənə kömək göstərərəm.

Padşah dedi:

– Bə tilsimi nə cür sındırmax olar?

Oğlan dedi:

– Bu devi ancaq Zəmzəm pəhləvan öldürə bilər. Bunnan sonra sən də, mən də xilas olarıx.

Birdən göy gurulladı, şimşək çaxdı, qara bulud göyün üzünü aldı.

Oğlan dedi:

– Qara dev gəldi. Səni öldürəjək. Mənə də zülm eliyəjək ki, bu bəni – adəmnən nə danışırdın.

Padşah tez çırağı əlinə alıf sildi. O saat çırağın sahibi Zəmzəm



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

pəhlivan nazil oldu. Padşahın qarşısında diz çöküf tə’zim elədi və dedi:

– Mana görə nə qullux?

Padşah dedi:

– Bizi qara devdən xilas elə.

Zəmzəm pəhləvan baş üstə, – deyif ayağa duran kimi qara dev Tafdığa qəzəfnən bir qapaz vuruf dedi:

– Mənim düşmənimi sənmi gətirdin. İndi get qarannıx dünyaya.

Həmən saat Tafdıx yox oldu. Tez Zəmzəm sıçrıyıf qara devə hücum çəkdi. O qədər qılınc vurdu ku, heş biri o birinə güj gələ bilmədi. Bunu görən Zəmzəm pəhlivan qara divin yaxasına əl atdı. Dəli bir nə’rə çəkif qara divi göyə qaldırıf yerə vurdu. Qılınşnan onun başını kəsdi. Bu vaxt qarannıx dünyadan Tapdığın səsi eşidildi:

– Qanlı gölün yaxınlığındakı qayalardan birinin altında gizdənən ilanı tapıf öldürməsəniz qara dev yenə diriləjək. Qara devin canı o ilandadı.

Zəmzəm pəhləvan ilanı tapıf öldürən kimi Qara devin başı dığırranıf Zəmzəmin ayağı altına düşdü. Gözdərinnən yaş sel kimi axdı.

Zəmzəm pəhləvan padşaha dedi:

– Nə vaxt lazım olsam, çağırarsan.

Sonra da qeyvə çəkildi.

Padşah soyunuf çimdi və allaha dua elədi. Pis əməllərdən dönmək üçün tövbə elədi. Bunnan sonra elə bil ki, padşahın ürəyinə mərhəmət endi. Tafdığın qarannıx dünyaya düşməsi ona böyük bir dərd oldu.

Xülasə, Əhməd padşah qırx gün, qırx gejədən sonra gəlif öz yerinə çatdı. Vəzir onunnan öpüşüf-görüşdükdən sonra soruşdu:

– Padşah sağ olsun, deyəsən uğurun yaxşı oluf?

Padşah dedi:

– Çox əzav-əziyyət çəksəm də, istəyimə çatmışam. Ancax günü savahdan camaata nə ağır vergilər qoymuşam onnarı azalt.

Padşah başına gələnnəri arvadına və qızı Narın xanıma danışdı. Narın xanım bir könüldən min könülə Tafdığa vuruldu. Narın xanım atasına dedi:

– Atayi-mehriban, elə bir oğlanı qarannıx dünyada qoymax olmaz. Sana də yol göstərif, yaxşılıq eliyif. İcazə ver onun arxasınca gedim.

Əhməd padşah dedi:

– Qızım, sən nə danışırsan?! Uzax yoldu. Qavaxda ölüm-dirim var. Tilsimdə olan adamı sən bir qız xaylağı qurtaramı bilərsən?

Narın dedi:

– Bava, sən çırağı da mana ver. Bir də üç nəfər qoçax igid qat yanıma. Bunnan sonra sənin işin yoxdu.

Əhməd padşah qızının qeyrətinə, qoçaqlığına bələd idi. Bilirdi ki, o



qılınc oynatmax, da ox atmaxda heş də pəhlivanlardan geri qalmır. Odu ku, razı oluf dedi:

– Qızım, onda sənə qırx gün də vaxt verirəm. Yaxşı-yaxşı hazırraş. Ox atıf, qılınc vurmaxnan məşğul ol.

Bəli, qırx günnən sonra Narın xanım altdan geyinif, üstdən qıfıllandı, üstdən geyinif altdan qıfıllandı. Döyüşə hazır igid paltarında qabağa çıxdı. Üç nəfər də igid pəhlivan ona qoşuldu. Amma yoldaşdarı da bilmədi ki, bu igid qızdı. Narın xanım özünü onnarın yanında Xəlil pəhlivan kimi qələmə verdi.

Başağrısı olmasın, dan ağaranda Xəlil pəhlivan yoldaşda- rınnan yola düşdü. Atdarı ota buraxıf dincələsi oldular. Xəlil pəhləvanın indi yadına düşdü kü, nə çırağı götürüf, nə də qarannıx dünya deyilən yerin səmtini öyrənif. Bir təhər eliyif qaranlıx dünyanın yolunu öyrənməli idilər. Bir az çörək yeyənnən sonra qalxıf yola düşmək istiyirdilər ki, pəhlivannardan biri uzaxda oturuf maddım-maddım baxan iki ceyran göstərif dedi:

– Qalxın görək bunnardan birini kim vurajax. Bu söz pəhlivanın ağzınnan çıxan kimi ceyrannar götürüldü. Pəhlivannar da atdarını minif düşdülər ceyrannarın dalınca. Xeyli gedənnən sonra ceyrannar gözdən itdilər. Atdılar başdadılar ceyrannarı axtarmağa. Bir də gördülər kü, ceyrannar iki ovçunun qavağında duruf göz yaşı axıdıllar. Xəlil pəhlivan irəli yeriyif dedi:

– Əl saxlıyın, görək bu nə olan sirridi?

Yaxınnaşanda gördülər kü, ceyrannarın balaları ajdı. Əmizdirməyə gələnnən gələnə ovçular buranı kəsif onnarı tutmağa çalışır. Ceyrannar da balalarınnan əl çəkə bilmir. Tez-tez hərrənillər ki, ovçular buranı kəsif duruf.

Xəlil pəhlivan deyir:

– Ay ovçular, bu heyvanlardan nə istiyirsiniz? Niyə qoymursunuz balalarını əmizdirsinnər?

Ovçular dedi:

– Sizdən nə danax, onları öldürmək istəmirik. İstiyirik diri tutax, balalarınnan birrikdə evdə saxlıyax.

Birdən ceyrannardan biri dilə gəlif dedi:

– Ey qəriv adamlar, siz yaxşı adama oxşuyırsınız. Bizi bu ovçuların əlindən qurtarın. Özünüzlə götürün sizə göməyimiz dəyə bilər.

Onlar ceyrannarı da götürüf yola düşdülər. Bir gün, bir günorta yol gedənnən sonra oturuf dincəlməli oldular. Ceyrannardan biri dedi:

– Siz heş demədiniz haraya gedirsiniz? Bəlkə sizə bir köməyimiz dəydi.

Xəlil pəhlivan dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Sənnən bizə nə xeyir dəyə bilər.
Ceyran dedi:
– Ey igiddər, biz Əhməd padşahın çırağının pəhlivanı Zəmzəm pəhlivanın tafşırığına əməl edif sizin qarşınıza çıxdıx. Fikrimiz sizə kömək etməkdi. İki gün də yol gedənnən sonra biz bir dərənin başına çatajıyıx. Qarannıx dünyanın yolu həmən ordan başdıyajax.
Pəhlivannar bu sözdən çox şad oldular. Bir qədər dincəldikdən sonra yola düşdülər. İki gün yol gedənnən sonra gəlif ceyrannar deyən dərənin başına çatdılar. Göy otdarın üstündə dinşdərini alannan sonra Ceyran dedi:
– İndi siz hamınız qalajaxsınız burda. Xəlil pəhlivanı mən qarannıx dünyaya aparajam. Ceyran yoldaşım sizi köməyinizə çatdırajax. Sonra üzünü Xəlil pəhlivana tutuf dedi:
– Sən otur mənim belimə, gözdərini yum. Bir su içimində gedif qarannıx dünyada olajağıq. Bizi orada çətinliklər gözdüyür. Sən vuruşmalı olajaxsan. Qapıda duran bir qarı istiyəjək səni allatsın. Səni görən kimi irəli yeriyif deyəjək:
– Oğül, aman günüdü bu qoca anana yazığın gəlsin. Məni tilsimnən qurtar.
Sən ona inanma. O sənə yaxınnaşanda mən ilan donuna girif, onun boğazına dolanıf öldürəjəm. Sən qılınc əlində ehtiyatdı ol. Yuxarıdan, aşağıdan, böyürrərdən üstünə atılmax istiyən bir qanaddı ilan görəjəksən. Aman vermə, qılınşnan doğra. Yoxsa qollarına dolanıf səni tərpənməyə qoymuyajax və zəhərriyif öldürəjək.
İkinci qapı çıxajax. Bu qapının ağzında şir bağlanıf. Bu şir donunda olan, Qara divin yaxın dostu Təpəgözdü. Ona çatana kimi sənə toxunmuyajax. Elə ki, səni arxayın saldı, Təpəgöz donunda üstünə cumajax. Bacar gözünü qılınşnan çıxart. Üçüncü qapıdan sonra isə bir qoja kişi çıxacax. Bu qoja kişi Qara devin qəzəvinə düşənlərdəndi. O bizə hər şeyi deyəjək. Biz onun köməyinnən Qara devin tilsimini sındırajax, Qaranlıx dünyadakıları işıxlı dünyaya çıxarajıyıx.
Bəli, elə ki, Ceyran sözünü tamamladı, Xəlil pəhləvan ceyranın üstündə oturuf gözdərini yumdu. Açanda gördü kü, ceyranın dediyi kimi qarannıx dünyaya çatıflar. Onnar birinci qapıya toxunuf içəri girəndə bir qarı onnara tərəf gəldi, qollarını açarax dedi:
– Çürüyüf, ölürəm, bu qarannıx dünyada. Mən illərdən bəridi ki, sənin kimi bir igidi gözdüyürdüm. Gəl səni öpüm. Gəl qolumu boynuna salım. Oğül, aman günüdür. Bu qoja anana yazığın gəlsin. Məni bircə bu tilsimnən qurtar.
Bu vaxt ceyran ilan donuna girif onun boğazına dolandı. Qarı boğuluf



öldü. Onnar irəliləməyə başdadılar. Dörd tərəfdən cürbəcür səsdər, xışıltılar onnarın canına üşütmə salırdı. Birdən qanaddı bir ilanın Xəlil pəhlivanın üstünə atıldığı ilə doğranmağı bir oldu.
Ceyran dedi:
– Halal olsun sənə. Bax belə. Heş nədən qorxma.
İlanı doğruyannan sonra ikinci qapıya tərəf getdilər. Ceyran dediyi kimi burada bir şir yatırdı. Şir, onnara heş fikir vermirdi. Onnar yaxınnaşanda şir dönüf Təpəgöz oldu. Birdən o, Xəlilin üstünə atıldı. Vuruşma başdandı.Qılınşdardan qopan çınqı qarannığı işıxlandırdı. Göydə şimşək kimi parıldıyan qığılcımların səsinnən qulax tutulurdu. Quş kimi sıçrıyan Xəlil pəhlivan qılıncını birdən Təpəgözün gözünə yeritdi. Təpəgöz qışqırıf yıxıldı.
Ceyran dedi:
– Xəlil pəhlivan, daha çətinniyin çoxu gedif. İnnən belə köməyimiz çoxalajax.
Onlar üçüncü qapıyı açanda ah-zar edən qoja bir kişi gördülər. Qoja kişi Xəlilin gəldiyinnən sevinif dedi:
– Oğul, tanrı səni bizə çox görməsin. Sən buruya nejə gəlifsən? Qara divdən qorxmadınmı? Qapılardan nejə keçdin?
Xəlil pəhlivan dedi:
– Qoja, qorxma. Qara div çoxdan öldürülüf. Qapıda duran tilsimləri sındırdıx. İndi gəlif yanına çıxmışıx.
Sevincinnən şaddanan qoja dedi:
– Oğul, igid bir oğlanıydım. Güllü addı bir qızın dərdinnən dəli olmuşdum. Güllü məni sevirdi. Ancax imansız bir atası varıydı. O, Güllünü mənə vermək istəmirdi. Hə oğul, elə ki, mən elçi göndərdim Güllünün atası dedi:
– Görək bu oğlan Qannı göldən su gətirə, mən də həmin suda çimif şəfa tapam. Yoxsa Güllüyü ona vermiyəjəm". Mən özümü sındıra bilməzdim. Odur ki, gejiyi-gündüzə qatıf gəlif Qannı gölə çatdım. Haradan biləydim ki, Qara dev buraya gələni tilsimə salır. Təzəcə gölə yaxınnaşmışdım kı, gördüm yer-göy oynadı. Bulud gəldi. Buludun arasınnan Qara dev çıxdı. Mənim onnan vuruşmağa heç imkanım da olmadı. Boğanax qalxıf məni bir göz qırpımında qarannıx dünyaya tulladı. Ömrüm-günüm keçif getdi. Saqqalım ağardı. Cavannığım əlimnən çıxdı. Oğul, məni bu qarannıxdan çıxarsaydın, heş olmasa, işıxlı dünyaya baxıf sonra ölərdim.
Xəlil pəhlivan dedi:
– Qoja, de görüm, biz indi bu tilsimə düşmüş adamları xilas edə biləjəyikmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoja dedi:
– Bala, indi ki, dedin Qara dev öldürülüf, daha qorxum yoxdu. Hər şeyi sənə danışajam. Bu qarannıx dünyaynan bir qədər gedənnən sonra qavağımıza bir qapı çıxajax. Qapıya nəbadə əl toxundurasan, o saat daşa dönərsən. Bu qapıyı gərək saznan açasan.
Xəlil pəhlivan dedi:
– Ey ağıllı qoja, mən yaxşı saz çalmaq bajarıram, ancax burada sazı haradan ala bilərik.
Qoca dedi:
– Oğul, mən Qannı gölə gələndə əlimdə balaca saz gətimişdim. Telləri keçi bağırsağınnan olduğuna görə xaraf olmuyuf.
Qoja sazı gətirif oğlana verdi. Xəlil pəhlivan qapıya yaxınnaşdı. Barmaxlarını tellərə toxunduran kimi qapılar taybatay açıldı. Göz önündə gözəl çarhovuzu, gülü, bülbülü olan bir otax cannandı. Xəlil pəhlivan, qoja və ceyran içəri daxil oldular. Buradakı gözəllik onnarı valeh elədi. Ancax yaxınnan tanış olanda gördülər ki, burada hər şey tərsinədi. Bülbülü gülə yaxın qoymullar. Ağaşdar sudan yanır, çarhovuza baxıf göz yaşı axıdıllar.
Bülbül dilə gəlif dedi:
– Ey gözəl insannar, özünüzə yazığınız gəlsin. Qara dev gəlsə, sizi də bizim günümüzə salajax.
Xəlil pəhlivan dedi:
– Qorxmuyun, Qara dev öldürülmüşdür.
Onlar bərk sevindilər. O saat çarhovuz suyunu ağaşdara tərəf axıtdı. Bülbül qəfəsdən atılıf gülə qondu. Qoja Xəlil pəhlivana dedi:
– Bu ağacdarın arasınnan gedək. Qavağımıza çoxlu maral çıxajax. Onnar maral deyil. Hamısı gözəl-göyçək qızdardı. Qara div onnarı tilsimə salıf. Onnar özdərində deyillər. Hamısı üstümüzə gələcək ki, ələmizi yalasın. Yaxın buraxmax lazım deyil. Onlar bizə toxunan kimi biz də tilsimə düşəjiyik. Maralların içində bir təkə var. O da tilsimə düşmüş oğlandır. Səni görən kimi üstünə atılajax kı, səni vursun. Sən qılınşnan onun buynuzuna vura bilsən o dönüf oğlan olajax və başdıyajax sənnən güləşməyə. Yıxa bilsən, biz həm oğlanı, həm də maralları xilas edəcəyik. Yox, yıxa bilməsən, marallar bizi buynuzları ilə məhv edəjək.
Ceyran dedi:
– Burada mən sizə kömək eliyəjəm. Maral donuna girif onnarın hamısını suyun üstünə çəkəjəm. Orada başdarını qatajam. Ta kı, sən tilsimi sındırasan. Təkə maralın buynuzuna vuruf oğlan eliyənnən sonra yıxasan.
Bəli, danışdıxları kimi də elədilər. Ceyran maral donuna girif özünü



maralların arasına verdi. Onnarı şirin söhbətə tutuf çəkdi suyun başına. Erkək maral gördü ki, iki bəni-adəm gəlir. Höyür çəkif saldı özünü onnarın üstünə. Xəlil pəhlivan tez qılıncını sürüyüf başdadı maralnan vuruşmağa. Çox çevik olan maral Xəlil pəhlivanı lap əldən-dildən salmışdı. Xəlil pəvlivan hücum etdi. Bir gün bir günorta qan-tər içində bir-birini kələ kimi eşdilər. Axırda Xəlil pəhlivan oğlağın kürəyini yerə vuruf qılıncını boğazına dirədi. Bu vaxt gördü kü, oğlan gözdərinin yaşını abi-leysan kimi tökür. Xəlil pəhlivanın ürəyi tav gətirmiyif tez ayağa qalxdı. Elə bildi ki, nə isə böyük bir günah işlədif. Oğlan ayağa qalxıf dedi:
– Ey igid, mən də gəlmişdim tilsimə düşənnəri xilas edim. Lakin özüm də tilsimə düşüf belə oldum. İndi Qara divin tafşırığınnan sənnən vuruşdum. Ancax sən mənə üstün gəldin. Demək tilsimi sındırdın. İndi tez aradan çıx kı, Qara div gəlif görməsin.
Xəlil pəhlivan dedi:
– İgid, bil ki, Qara div çoxdan ölüf.
Bunu eşidən kimi bütün marallar dönüf qız oldular. Hamısı Xəlil pəhlivanın, qojanın və ceyranın ayağına düşdülər.
Xəlil pəhlivan dedi:
– İgid, bilirsənmi Tafdıx addı gözəl bir igid hansı otaxdadı?
Oğlan dedi:
– Mən də siznən gedirəm. Gedif tapmalıyıx.
Onnar bir neçə otax keçif bir qarannıx zirzəmiyə çatdılar. Gördülər ki, buradan müxtəlif heybətdi səsdər gəlir. Bir qədər də irəlilədikdən sonra örkənnən bağlanmış bir it hökm edirdi ki, bağını qırıf bunnarın üstünə atılsın.
Oğlan dedi:
– İgid, sən bil ki, burada yüzdərnən belə heyvan bağlanıfdı. Bunnarın hamısı tilsimə düşmüş insandı. Sən onnara bildir ki, mən sizi qurtarmağa gəlmişəm. Qara div daha yoxdu.
Xəlil pəhlivan dedi:
– Ey tilsimlənmiş məxluqat, bilin və agah olun ku, sizin düşməniniz Qara div çoxdan ölmüşdü. Biz sizi azad eləməyə gəlmişik.
Qarannıxlar içində it başdadı hürməyə, qurd ulamağa, ayı manqırmağa, şir nə’rə çəkməyə. Birdən qeybdən yoğun bir səs eşidildi:
– Ey bəni-insan, sənin hünərin allah vergisidi, heş nədən qorxma. Bütün tilsimləri sındırıf, qarannıx dünyanı yox eliyifsən. Bu əziyyət çəkən adamları heyvan cildinnən çıxarmax üçün axırıncı tilsimi sındırmalısan. Bunun üçün qarannıx qurtarana kimi getməlisiniz. Qurtarajaxda qayadan əridilif tökülmüş bir qapıyı rast gələjəksiniz. Onu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söküf dağıtmaq çox çətindi. Ancax sənin qılıncın bəlkə köməyə çatdı. İşdi-şayəddi qapıyı açа bilsən içəri daxil olan kimi gözəl bir oğlan görəcəksiniz. Oğlanın adı Tafdıxdı. Axırıncı tilsimin sirrini sizə yalnız Tafdıx deyə bilər.

Qərəz, Tapdığın yerini örgəndiyinə ürəkdən sevinən Xəlil pəhlivan qaranniğa tərəf cumdu. Yoldaşdarı da arxasınca. Bir xeyli yol getmişdilər ki, daş qapıya çatdılar. Yetişən kimi Xəlil pəhlivan var güjünnən qılıncını daş qapıya çırpdı. Qılınc göyə darandı. Xəlil pəhlivan bir-iki zərbə də endirdi. Gördü kü, yox, bu xına, o xınadan deyil. Qılıncdan kar aşmıyajax. Ceyran irəli yeriyif dedi:

– Xəlil pəhlivan, mən bilirdim ki, biz qarannıx dünyada belə çətinliklərnən qarşılaşajıyıx. Həttа belə daş qapılar olduğunu da bilirdim. Ona görə də heybəmizdə əmud götürmüşəm.

O, əmudu çıxarıf Xəlil pəhlivana verif dedi:

– Qorxma, vur. Bu elə əmuddu ki, Zəmzəm pəhlivan onunan ən böyük tilsimləri dağıdıf. Xəlil pəhlivan əmudu əlinə alıf qapıya tərəf yeridi. Dalbadal bir neçə əmud endirənnən sonra gördülər ki, qapı çatdadı. Bir azdan sonra çat böyüyüf yenə yarığa çevrildi. Xəlil pəhlivan Tapdığı yadına salıf elə bir əmud endirdi ki, daş qapı kül-ojax oluf yerə dağıldı. Nə görsələr yaxşıdı. İçəridə bir oğlan əllərinnən dara çəkilif. Ay kimi otağa işıx salır. Yemə-içmə onun gül camalına tamaşa elə. Xəlil pəhlivan elə bil ki, təzəcə dünyaya düşmüşdü. Ancax içəri girəndə gördülər ki, bu oğlan yuxu içindədi. Onu çəkif ayıltdılar. Qollarını açdılar.

Xəlil pəhlivan soruşdu:

– Ey igid, adın nədir?

İgid dedi:

– Adım Tafdıxdı.

Xəlil pəhlivan dedi:

– Biz gəlmişik səni xilas eləməyə.

Tafdıx dedi:

– Mən indijə, yuxuda bunnarı gördüm. Gördüm kü, Əhməd padşahın qızı Narın xanımı mana buta göndərif.

Xəlil pəhlivan dedi:

– Tafdıx, de görüm biz nə etməliyik?

Tafdıx dedi:

– Ey pəhlivan, sən bil ki, ən çətin tilsim axırıncı tilsimdi. Çünki bu dəfə tilsim sındırmax üçün qoçaxlıxdan çox ağılla hərəkət etmək lazımdı. Sonuncu otaxda Qara Divin yatarı saxlanır. Bu yatarı əldə edib çıxarmax üçün gərək yatarın üstündə yuxuda olan siçovulu öldürə biləsən.



Siçovulu öldürə bilməsən, nə gördüyün o adamları işıxlı dünyaya çıxara biləcəksən, nə də it, canavar, ayı donunda olanlar dönüf adam olajaxlar. Siçovulu tutuf öldürmək üçün gərək qapıyı elə açasan kı, siçovul oyanmasın. Oyandı, daha tuta bilməzsən. Qapıyı açmax üçün saz lazımdı. Sazı çalanda qapı səssiz-küysüz açılajax, həm də sazın sehrinnən siçovul oyana bilmiyəjək. İndi sazınız olmasa iş çətin olajax. Onda gərək aylarnan, illirnən siçovulu güdəsən.

Tafdıx sözünü tamamlıyan kimi Qoja balaca sazını heyvədən çıxarıf Xəlil pəhlivana verdi. Xəlil pəhlivan sazı əlinə alıf, sonuncu otağın qapısına tərəf yönəldi. Qapıya çatıf xeyli ayaq saxladı. Sonra sazı başdadı astadan dınqıldatmağa. Ancax qapı açılmadı kı, açılmadı. O biri otaxdan qulax asan qoja dedi:

– Oğul, sazı ürəyinin üstünə sıx, bir az da ürəkdən çal. Ürəyinə sıxmasan qapıyı aça bilməzsən.

Xəlil pəhlivan qoja dediyi kimi sazı ürəyinin üstünə basıf yanğılı bir hava çaldı. Elə bir az keçməmiş qapı yerinnən qopuf aralandı. Xəlil pəhlivan tez özünü içəri saldı. Gördü kü, böyük bir sandıxdı, sandığın üstündə də iri bir siçovul yatır. Fürsəti əldən vermiyən Xəlil pəhlivan qılıncı sürüyüf siçovulu iki yerə böldü. Qılıncın ucu ilə götürüf bir küncə atdı. Bunu gözdüyən yoldaşları Tafdıxnan birrikdə otağa girdilər.

Tafdıx dedi:

– Sandığın ağzını aç.

Xəlil pəhlivan qılıncı salıf sandığın qıfılını qırdı. Qıfıl qırılan kimi qarannıx otaxlara elə bil gün düşdü, hər tərəf işıxlandı. Tafdıx silkinif tilsimnən çıxdı. Heyvan donunda olannarın hamısı dönüf insan oldular. Elə bil hamının canınnan asılan ağırrıx yox oldu. Xəlil pəhlivan Tafdıxnan birrikdə sandığın qapağını qaldırdı. Sandığa baxmax mümkün döyüldü. Adamın gözdəri qamaşırdı. Elə bil ki, Qara div dünyanın bütün yatarını buraya toflamışdı. Daş-qaş divarrara işıx salırdı.

Xəlil pəhlivan yatarı qojaynan maral donunda olan oğlana tapşırıf dedi:

– Mən Tafdıx və Ceyrannan birrikdə Ağ dağın üstündə sizi gözldüyəjəm. Qaş-daşı da gətirif oraya gələrsiniz. Kimə nə çatsa, öz əllərimnən böləjəm.

Xəlil pəhlivan Tapdıqla ceyrana dedi:

– Gəlin gedək.

Onnar qarannıx dünyanın ağzına çatınca neçə-neçə adam Xəlil pəhlivanın əlinnən-ayağınnan öfdü. Hamı ona dua eliyirdi. Qapıya çatanda gördülər ki, qaranlıx dünya dedikləri bir mağaraymış. Mağara özü də tilsimdən silkinif işıxlı dünyaya çıxıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xəlil pəhlivan, Tapdıq və ceyran bir gün bir günortadan sonra gəlib yoldaşlarının yanına çatdılar. Ceyran dedi:

– Xəlil pəhlivan, icazə versəniz, mən yoldaşlarımnan birlikdə sizlə halal-hümmət eləyib balalarımızın yanına qayıdardıx.

Xəlil pəhlivan dedi:

– A dostdar, bax bu ceyran olmasaydı, qarannıx dünyadan nə Tafdığı qurtara biləjəkdik, nə də orada tilsimə düşənnəri. Əziz Ceyran, bizdən nə istiyirsən istə. Əlimizdən gələni edərik.

Ceyran dedi:

– Xəlil pəhlivan, mən bilirəm ki, siz Əhməd padşahın yaxın adamları, qoçax pəhlivannarısınız. Bizə dünya malı, var-dövlət heş nə lazım döyül. Sizdən təmənnamız odu ku, Əhməd padşaha deyin ovçulara tafşırsın kı, ceyranlara dəyməsinnər.

Xəlil pəhlivan dedi:

– Sənin xətrinə mən deyərəm bütün ceyranları ovçulardan azad eliyər. Buna arxayın ol.

Ceyrannar onnarnan halal-hümmət eləyif aralandı. Bir xeyli keçənnən sonra Qoja bir neçə adamnan xəziniyi gətirif gəldi. Xəlil pəhlivan sandığın ağzını açıf orada olanlara payladı.

Qoja dedi:

– Oğul, Əhməd padşaha deyin ki, Qannı gölün adını dəyişsin. Daha Qara div yoxdu ku, o gölün üstünə qan tökülsün.

Xəlil pəhlivan dedi:

– Qoja, deməyinə deyəjəm. Ancax bilmirəm əməl edərmi? Axı orada Qara div nə qədər günahsız qannar axıdıf.

Bəli, artıx ayrılmax dəmi gəlif yetişdi. Tilsimnən azad olannar Xəlil pəhlivana, Tafdığa və onun yoldaşdarına çoxlu-çoxlu dua elədilər. Sonra da hərə öz vilayətinə getmək üçün icazə istədi. Xəlil pəhlivan onnara icazə verif uğur dilədi.

Tafdıx dedi:

– Xəlil pəhlivan, siz mana çox böyük hörmət elədiniz. Mən ömrüm boyu bü yaxşılığı unuda bilmərəm. Mən güjdü pəhlivanam. Üstümə şir gəlsə parçalayar, qavağıma köklü ağaj çıxsa kökünnən qopararam. İstəsəniz, öz dəstənizə götürün.

Xəlil pəhlivan dedi:

– Ey igid, sənin arxanca bizi Əhməd padşah göndərif. Sən onun xoşuna gəlifsən. Biz gərək səni onun yanına aparax. Sonra gedif ata-anannan görüşərsən.

Tafdıx dedi:

– Nə desəniz, əməl etməyə razıyam.



Onlar qalxıf atdarına minif yola düşdülər. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, axır kı, gəlif Əhməd padşahın şəhərinin qulağında düşdülər. Bunnar burada dincəlməkdə olsunnar, sizə kimnən deyim, kimnən demiyim Əhməd padşahdan deyim. Əhməd padşah Narın xanımı yola salannan sonra çox xiffət keçirirdi. Gözünün ağı-qarası bircə balasını öz əllərinnən gedər-gəlməzə yola salması böyük bir dərd oluf onun boğazınnan ağır qurğuşun kimi asılmışdı. Düşünürdü kü, gərək bu işə qol qoymuyaydım. Öz əlimnən öz evimi yıxdım.

Bir tərəfdən də Əhməd padşah çox böyük şaddıx keçirirdi. Ona görə ki, Qannı gölün suyunda çimib gələnnən sonra tutduğu işlərə tövbə eləmişdi. Camaat hər yerdə Əhməd padşahın səxavətindən, xalqa elədiyi yaxşılıxdan danışırdı.

Günnərin bir günü yenə Əhməd padşah taxtda əyləşif qızının səfərdən belə gej qayıtması haqqında fikir çəkirdi. Birdən vəzir həsəhliyə-həsəhliyə özünü padşahın hüzuruna yetirif dedi:

– Padşah sağ olsun, muştuluğumu ver. Gözün aydın olsun, Narın xanım gəlif şəhərin kənarında öz yoldaşlarınnan dincəlillər.

Padşah dedi:

– Vəzir, muştuluğun məndə. Tez uşaxların qavağına qoşun göndər, təmtəraxnan qarşıla.

Vəzir – baş üstə, – deyib mürəxxəs oldu. Əmr verildi, şəhərin qırağına qoşun çıxarıldı. Pəhlivannar hörmət-izzətnən qarşılandı. Onnar şəhərə kimi döşənmiş gəvə üstündə gəldilər.

Padşah Tafdığı yanına çağırtdırdı. O daha da gözəlləşmişdi, boy-buxun atmışdı. Tapdıx Xəlil pəhlivanın qoçaxlığınnan Əhməd padşaha ürəkdolusu danışdı. Padşah bildi ki, Xəlil pəhlivan qızı Narınıymış. Bir azdan padşah Narın xanımı çağırtdı. Narın xanım içəri girəndə Tapdıq diksinən kimi oldu. İstədi ki, desin mən bu qızı hardasa görmüşəm. Bu vaxt padşah dilləndi:

– Tapdıx, de görüm bu qızı görüfsənmi?

Tapdıq dedi:

– Padşah sağ olsun, yuxuda görmüşəm.

Padşah hündürdən qəh – qəh çəkif güldü və dedi:

– Tafdıx, yaxşı bax. Bu qız səni tilsimnən qurtaran Xəlil pəhlivandı.

Tapdıq bu işə mat-məəttəl qaldı. Bir könüldən min könülə Narın xanıma vuruldu. Ancaq padşah qızı hara, o hara? Padşah Narın xanımı yanına çağırıf alnınnan öfdü və dedi:

– Halal olsun qızım sənə. Sən ki, tilsimləri sındırıf, pəhlivanlarnan vuruşuf, əjdahalar öldürüf belə bir igid oğlanı qurtardın, bu taxtı-tajı sənə verirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Narın xanım dedi:
– Yox, elə deyil, bava. Bu taxtı-tacı Tafdığa ver. O, bu səltənətə layixdi. Mən onnan neçə vaxtdı yol yoldaşı oldum. Gördüm kü, çox qoçax, igid, namuslu, hər şeyi bilən, padşahlığa layiq ağıllı bir oğlandı.
Padşah dedi:
– Əgər razı olsanız, sizin toyunuzu eləyif sonra Tafdığı taxta çıxararam.
Onnar hər ikisi başdarını aşağı saldılar. Padşah gördü kü, razıdılar. Odu ku, bir də soruşdu niyə dillənmirsiniz? Ürəyimnən keçəni sizə dedim.
Tafdıx dedi:
– Padşah sağ olsun, əgər belə olsa məni bir səfərə göndər. Mən igiddik göstərmək istiyirəm. Axı Narın xanım məni igiddiknən qurtarıf. Qoy Narın xanım görsün kü, mən də ona baravar pəhlivanam.
Padşah dedi:
– Biz səni tanıyırıx. Səni indi padşahlıxda sınıyajıyıx. Rəiyyət səni sınıyajax. Padşah o saat hökm elədi ki, toya başdansın. Qırx gün qırx gejə toy eliyif Narın xanımı Tapdığa verdilər. Əhməd padşah öz tacını qaldırıf Tapdığın başına qoydu. O günnən Tafdıx padşahın adı dillərə düşdü. Onnar xoşbaxt yaşadılar. Ölkə bu taxt-tajdan həmişə razılıx elədi. Tafdıx padşahnan Narın xanım yedilər, işdilər yerə keşdilər. Siz də yeyin, için, yuxuya keçin.

## MƏHƏMMƏDİN NAILI

Hamam hamam içində, xəlvir saman içində, başını açasan süddü aşın tasına, əriştiyi qarışdırıf gedəsən yasına, yağı məlhəm eliyif tökəsən arasına. O yerdə qurvan eliyəsən ortasına.
Zaman o zamanıydı, pişiklər pəhlivan idi. Qarışqaynan dəvənin zarafatı gəldi. Qarışqa şıllağ atdı, dəvənin bir budu getdi.
Varıydı, yoxuydu, allahın bəndəsi çoxuydu. Bir padşah varıydı. Bu padşahın üç oğlu varıydı. Böyük oğlunun adı Əhməd, ortancılınınkı Hümmət, kiçiyinin adı Məhəmmədiydi. Günnərin birində padşah bərk xəstələnif yorğan-döşəyə düşdü. Ölümün çatdığını hiss eliyif oğlannarını yanına çağırdı. Üzünü onnara tutuf dedi:
– Mənim əziz balalarım, artıq əjəl gəlif yetişif. Əzrayıl başımın üstünü kəsdirif. Mənim sözdərimə qulaq asın.Vəsiyyətimi yaxşı-yaxşı



dinniyin. Mənim padşahlığım böyük oğlum Əhmədə çatajax. Var-dövlətimin hamısını ortancıl oğlum Hümmətə vəsiyyət edirəm. Otağımdakı sandığı da kiçik oğluma verərsiniz.
Padşah vəsiyyətini elədikdən sonra canını oğlannarına tapşırdı. Kişinin oğlannarı onu böyük cəh-cəlalnan kəfi-dəfn eləyif, üçünü, yeddisini, qırxını verdilər. Taxta sahiv olmax vaxtı gəlif çatdı. Atasının vəsiyyət elədiyi kimi böyük qardaş keçif padşahlıx taxtına əyləşdi. Ortancıl qardaş da var-dövlətə yiyələndi.
Bunnar burda qalsın, görək kiçik qardaşın başına nə iş gəldi. Kiçik oğul da açarı götürüf getdi sandığın yanına kı, görsün atası ona nə qoyuf gedif. Sandığın qapağını qaldıranda gözdərinə inanmadı. Sandıqda bir tütək, bir araxçın və bir kisədən başqa heç bir şey yoxuydu. Kiçik qardaş çox bikeflədi. Ürəyində bir az atasının qarasınca söyləndikdən sonra ajıx eləyif evdən baş götürüf getdi. Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi az getdi, üz getdi, iynə yarım yol getdi, gəlif bir məkana çatdı. Pay-piyada, aj-susuz yol getməyi Məhəmmədi əldən salmışdı. Evdən getməyinə lap peşman olmuşdu. Oturuf öz-özünə fikirrəşməyə başdadı. Xeyli çək-çevirdən sonra öz-özünə dedi:
– Ay dadi-bidad atam məni qardaşdarımdan az istəmirdi. Ola bilməz ki, məni onnardan seşsin. Mən tez səflik eliyif çöllü-biyavana düşdüm. Keçənə güzəşt deyəllər.
Ajdıx Məhəmmədin taqətini tamam əlinnən almışdı. Buna baxmıyarax yoluna davam eliyirdi. Bir xeyli getmişdi, gördü kü, uzaxdan evlər görünür. Birdən qara bulud göyün üzünü alıf xarıltıynan-gurultuynan bir yağış tökdü kü, gəl görəsən. Məhəmməd çantasınnan papağını çıxardıf başına qoydu. Axırda gəlif bir şəhərə çıxdı. Bir az gedənnən sonra bir dükanın qavağına çıxdı. Baxıf gördü kı, dünyanın bütün naz-ne’mətləri buraya düzülüf. Baxdıqca ağzının suyu axıb döşünü isdatdı. Neynəsin, civində beş qəpik pulu da yoxuydu ku, bir şey alıf yeyəydi. Çox çalışdı kı, tamahını saxlasın. Amma ajdığın üzü qara olsun. Nəfsini boğa bilmədi. Əlini uzadıf piştaxtanın üstünnən bir qoğal götürüf tələsik ağzına qoydu. Baxıf gördü kü, heş dillənif-eliyən olmadı. Əlini qorxa-qorxa bir də uzatdı. Gördü kü, yox əşşi, buradakılar heş bunnux deyil. Bir az da cür’ətə gəldi. Yeməklərdən götürüf tıx yeyənə kimi döşədi. Gözü işığa gələnnən sonra öz-özünə fikirrəşdi. Deyəsən, burdakılar məni görmür. Çox götür-qoydan sonra öz-özünə dedi:
– Nə sirr varsa, bu papaxdadı. Bir bunu başımnan götürüm, görüm nə olur?
Məhəmməd papağı başınnan çıxarıf irəli yeridi ki, bir qoğal götürsün. Dükançı o saat ərşini bunun əlinin üstünə vurdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd dedi:

– Aha, indi hər şey mənə aydın oldu. Nə iş varsa, bu papaxdadı.

Təzədən papağı başına qoyuf piştaxtanın dalına keçdi. Torvasını ağzına kimi pul-paraynan dolduruf çıxdı. Özünü verdi şəhərin ortasına. Car çəkdi ki, kim güləşsə ona ə'nam verəjəm. Hamı dəydi bir-birinə. Camahat düşdü bir-birinin canına. Yıxılan beş tümən, yıxan on tümən. Kim belə qazanşdan qaçardı. Xülasə, bütün şəhər axışdı meydana. Bir vur-çatdasın başdadıkı, gəl görəsən.

Elə bu handa padşahın qızının qaravaşı da gəlif buraya çıxdı. Başı qarışdı burdakı həngaməyə. Bir də başını qaldıranda gördü kü, şər qarışıf. Tələsik evə qaşdı. Onu görən kimi şahzadə ajıqlanıf dedi:

– Ay çəpəl, bu vaxta kimi harda veyillənirsən? Harda itif-batıfsan, ay qız? Mən səni sübh tezdən şəhərə yollamışam. Sən indi gəlif çıxırsan?

Qaravaş dedi:

– Xanım, evin yıxılmasın şəhərdə bir oğlan var. O, şəhərə bir çaxnaşma salıf, bir vur-çatdasın qoparıf kı, gəl görəsən. Yıxılana beş tümən, yıxana on tümən verir. Bir görənək şeydi.

Qaravaş Məhəmmədi o qədər tə'riflədi xanımın ağzının suyu axdı. Qaravaşı davanının üstə bir də meydana yolladı kı, get o oğlanı tap gəti bura. Denən, xanım səni görmək istiyir.

Qaravaş bayax davanına tüpürüf meydana sarı qaşdı. Fürsətdiyif oğlanı bir tərəfə çəkdi. Xanımın ismarıcını ona çatdırdı.

Məhəmməd dedi:

– Mən razı, xanıma de ki, axşam onun qonağıyam.

Qaravaş gəlif xanımın dediklərini ona çatdırdı. Xülasə, qarannıx qovuşannan sonra Məhəmməd soraxlaşa-soraxlaşa gəlif xanımın evini tapdı.

İndi sizə xanımnan deyim. Xanım tülküdən bir az qavax yaranmışdı. Hiyləgərrikdə şeytana papış tikirdi. Oğlan evin darvazasınnan içəri kirən kimi özü duruf qaşdı bunun qavağına. Bir dil tökdü, bir xoş gəldin elədi ki, Məhəmmədin matı-mutu qurudu.

Süfrələr açıldı, min naz-ne'mət töküldü ortalığa. Xülasə, doyunca yeyif-içənnən sonra xanım yağlı dilini işə salıf soruşdu:

– Məhəmməd, mən bildiyin kimi şah qızıyam. Amma indiyə qədər heş bir adamda nə bu qədər pul, nə də belə səxavət görməmişəm. Soruşmax ayıf olmasın, bu var-dövlət səndə hardandı.

Məhəmməd bir az ağıldan yüngülüydü. Çək-çevirə salmadan birbaşa mətləvə keçif dedi:

– Xanım, burda elə bir sirr yoxdu. Mənim nəyim varsa, bu papaxdadı. Başına qoyan kimi gözəgörünməz olursan. Gözə görünməyənnən sonra



şəhərdə nə qədər pul, var-dövlət var hamısı sənindi.

Xanım dedi:

– Məhəmməd, olarmı o papağa bir baxım?

Məhəmməd dinməz-söyləməz papağı torvasınnan çıxarıf xanıma verdi.

Xanım papağı başına qoyuf dedi:

– A qızdar, məni görürsünüzmü?

Qızdar bir ağızdan qışqırdılar:

– Ay allah, xanım niyə birdən-birə qeyvə çəkildi.

Bunu eşidən kimi xanım papağı çıxarıf yanına qoydu. Qızdara əmr elədi:

– Atın oğlanı eşiyə.

Qızdar bayax ha hop eliyif oğlanı gejənin gejə gözü atdılar eşiyə. Məhəmməd bütün gejəni orda-burda veyilləndi. Bir əli oldu, bir də başı. Fikir onu götürdü. İndi bu qürbət eldə mən neyliyəjəm. Kim mənə bir tikə çörək verəjəh.

Qəmini dağıtmax üçün bir daşın üstündə oturuf tütəyini torvadan çıxartdı kı, çalsın. Tütəyi çalan kimi dönüf oldu padşah. Nökər-nayıf, qul-qaravaş ləbbeyk deyif hüzurunda əl-əl üstündə münəzzir dayandılar. Məhəmməd əmr elədi ki, xəzinədən bir kisə qızıl gətirin. Qızılı götürənnən sonra tütəyin o biri tərəfini üflədi. Hər şey bir anda qeyvə çəkildi. Məhəmməd qızılı götürüf özünü meydana verdi. Yenə dünənki mərəkə başdadı, nə başdadı. Yıxılan on manat, yıxan iyirmi manat. Kim belə qazanjdan qalardı. Hamı dəydi bir-birinə. Şəhərdə uşaxdan böyüyə hamı döndü pəhlivana.

Xanım baxıf gördü kı, şəhərdə dünənkindən də böyük qalmaqal qopuf. Bildi ki, bu həngaməni də həmin oğlan qoparmış olajax. Qaravaşı yanına çağırıf dedi:

– Get gör, bir təhər Məhəmmədi gejə buraya gətirə bilərsənmi?

Qaravaş dedi:

– Xanım sağ olsun, mənim gözdərim üstə. Sənin ismarıcını bu saat yerinə yetirərəm.

Qaravaş meydana yollandı. Məhəmmədi tapıf yüz fitnə-fe'lnən onu yenidən xanımın yanına getməyə razı saldı. Qaravaş qayıdıf xanıma dedi:

– Xanım, Məhəmmədi bir təhər yola gətirmişəm. Axşam yenə hüzurunda müntəzirdi.

Xülasə, şər qarışdı. Bir də gördülər ki, budu Məhəmməd yellənə-yellənə gəlir. Xanım fürsəti fövtə verməyif cumdu onun qavağına. Bir haray-həşir qopardı kı, elə bil doğma qardaşı əzrayılın cəngindən qopuf gəlif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əmim oğlu gəlif, dayım oğlu gəlif. Əlinə su gətirin. Altına döşək salın, çay verin, çörək gətirin – deyə xanım bir haray-həşir saldı kı, Məhəmmədin yadınnan dünənki əhvalatdar büsbütün çıxdı. Yaxşı yeyif-içənnən sonra xanım ordan-burdan söhbət salıf axırda keçdi mətləbə.

– Ay Məhəmməd, niyə özün-özünə qəsd eliyirsən. Oluf-qalanını niyə töküf dağıdırsan. Bu qədər xərcə heç padşah da tav gətiməz. Mən razı olmaram kı, sən var-yoxunu dağıdasan.

Nə başınızı ağrıdım, xanım Məhəmmədi o qədər dannadı, özünü ona o qədər yaxın göstərdi ki, Məhəmməd bu sirri də açası oldu.

Xanım, heş fikir-zad eləmə. Mənim bir tütəyim var. Onu çalanda mən padşah oluram. Var-dövlətim aşıf-daşır. Dədənə baxma, mənim xəzinəm bitif-tükənən deyil.

Xanım dedi:

– Bu ağ yalan oldu. Elə şey ola bilməz.

Məhəmməd əsəbiləşif dedi:

– İndi ki, inanmırsan, onda gözünnən gör-deyif tütəyi çıxarıf çaldı. Tütək çalan kimi Məhəmməd dönüf oldu şah. Məhəmməd oturduğu taxt lə’l-cavahirdən düzəldilmişdi. Qavağında da əmrə müntəzir nökər-naivlər. Məhəmməd tütəyi tərsinə çalan kimi yenə hər şey qeyvə çəkildi

Məhəmməd gülə-gülə dedi:

– İndi mənim kəramətimə inandınmı, xanım?

Xanım dedi:

– İnandım da sözdü. İndi sən oldun mənim lap gözümün işığı. Tütəyin nə gözəldi, ver bir yaxınnan ona tamaşa eliyim.

Məhəmməd tütəyi əlinnən verən kimi xanım qışqırdı.

– Atın bu gədiyi eşiyə.

Qulluxçular Məhəmmədi qol-bud eliyif atdılar çölə.

Məhəmməd baş-gözünə döyə-döyə qaldı küçələrdə. Savah açıldı. Məhəmməd genə küçələrdə aj-yalavaj veyil-veyil dolanmağa başdadı. Birdən küçədən bir qara qəpik tafdı. Civi cırıx olduğunnan bunu qoymağa yer tapmadı. Çantasını açanda dədəsindən qalan kisiyi gördü. Kisiyi torvadan çıxarıf qəpiyi onun içinə atdı. Bir xeyli veyillənənnən sonra bir dükana getdi. Həmin qara qəpiyi çıxarıf dükançıya uzadıv dedi:

– Buna çatası mana çörək ver.

Dükançı dedi:

– Ay evi yıxılmış bu qədər çörəyi neyliyəjəksən? Məni dolama. De görüm, nə qədər çörək istiyirsən...

Məhəmməd məəttəl qaldı. Dili dolaşa-dolaşa dedi:

– Zəhmət olmasa iki kilo çörək ver, qalanını qaytar.

Dükançı Məhəmmədə iki kilo çörək verdi, bir xeyli də pul qaytardı.



Məhəmməd işi başa düşmüşdü. Kisəni ağzına qədər qara pulnan doldurdu. Çıxarıf baxanda gördü kü, hamısı dönüf oluf qızıl.

Özünü yenə verdi meydana. Yıxana otuz tümən, yıxılana iyirmi tümən deyən kimi camaat axışdı meydana. Burada bir həngamə qofdu ki, ruzigarın gözü belə şey görməmişdi. Şəhərin məmə deyəninnən, pəpə deyəninə kimi hamısı meydana gəlmişdi.

Xanım bir də baxıf gördü kü, əvvəlki günnər yalan oluf. Meydan dağılır. Bütün şəhər əhli bir-birini didir. Elə bil ərəsət-məhşər ayağıdı.

Tez qaravaşı çağırıf dedi:

– Məhəmməd genə dünyanı dağıdır.Gör bir neyliyirsən.

Aldadıf buraya gətirə bilərsənmi?

Qaravaş tüpürüf davanına üz qoydu meydana. Çatıf bir təhər Məhəmmədi tafdı. Yüz dil töküf, onun saqqızını oğurradı. Genə də onu xanımın imarətinə getməyə razı saldı.

Xülasə, Məhəmməd şər qarışında xanımın imarətinə getdi. Xanım onu görən kimi qavağına qaşdı. Qolunu boynuna salıf min naz-qəmzəynən otağına gətirdi. Məhəmmədi düz süfrənin başına keçirtdi. Özü də qulluğunda durdu. Məhəmmədi öz işvə-qəmzələrynən elə məst elədi ki, o hər şeyi unutdu. Gözü qaldı xanımın al yanağında, büllur buxağında. Yeyif-içənnən sonra xanım ordan-burdan söhbət salıf axırda gəldi mətləv üstünə.

– Məhəmməd, bəs niyə demirsən bu günkü pullar səndə hardandı, yoxsa qorxursan əlinnən alam? Axı papaxnan tütəyi səni sınamax üçün əlinnən almışam. Bu günkü sirri desən, onnar da sənindi, üstəlik mən də səninəm.

Məhəmmədin gözünə indi xanımnan başqa heş nə görünmürdü. Lap hayıl-mayıl olmuşdu. Odu ku, dedi:

– Xanım, qorxmax nədi? Sən olan yerdə dünya malı nədi ki, mən onnan ötrü qorxam. Sənə mənim bu canım da qurvandı. Mənim bir kisəm var. İçinə nə salsan, dönüf olur qızıl. Bu günkü mə’rəkə onun bərəkətinnəndi.

Xanım kisiyi alıf içinə bir qara qəpik atdı. Çıxaranda gördü kü, doğrudan da, dönüf oldu qızıl. Tez qaravaşdara əmr elədi:

– Atın bu gədiyi eşiyə.

Qızdar bəyax Məhəmmədi sürüyüf saldılar bayıra.

Məhəmməd gejiyi səhərə qədər küçədə var-gəl elədi. Çox görür-qoydan sonra dedi:

– Ey dili-qafil, dədəmnən qalan nə vardısa hamısını ağlımın ujunnan itirdim. Bunnan sonra mənim yaşamağımın nə mə’nası var?!

Daha nə olajaxdı. Məhəmməd başını götürüf şəhərdən çıxdı. Bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qədər gedənnən sonra bir meşəliyə çıxdı. Oranı-buranı bir az gəzənnən sonra baxdı kı, möhkəm ajıf. Meyvədən-zaddan axtardı kı, bir az yeyif toqqanın altını bərkitsin. Bu fikirnən meşəni dolaşanda gözü bir talada bitən bir-neçə ağaca sataşdı. Baxıf gördü kü, bunnarın başı yetişmiş meyvələrnən doludu. Əlini uzadıf ağaşdarın birinnən bir-neçə meyvə qoparıf acgözdüknən yeməyə başdadı. Elə bir meyvəni yenicə udmuşdu ku, gördü başında qollu-budaxlı buynuzdar yarandı. Buynuz nə buynuz. Hərəsi qollu-budaxlı bir ağac. Yerinnən tərpənmək istədisə də mümkün olmadı. Buynuzdar ağaşdara ilişif onu tərpənməyə qoymurdu. Bir təhər bir az ora-bura sürünənnən sonra bir də gördü kü, burda başında iri qara meyvəsi olan bir ağaş da var. Əvvəlcə onnan yeməyə ürəy eləmədi. Bu da başıma bir iş gətirər, evim lap yıxılar – deyə fikirrəşdi. İstədi ki, bu ağacdan uzaxlaşıf getsin, amma ayaxları yerimirdi. Bir az da götür-qoydan sonra öz-özünə dedi:

– İsdanmışın yağışdan nə qorxusu. Onsuz da mənə olan oluf. Belə yaşamaxdansa, ölmək min kərə yaxşıdı. Yeyim, bəlkə bu canımı ala, bir dəfəlik dünya əzavlarından qurtulam. Bu fikirnən də meyvələrdən qoparıf yeməyə başdadı. Elə təzəcə çeyniyirdi, baxdı kı, buynuzdar qopuf töküldü. Oldu anadangəlmə sapsağ. Bu işdən Məhəmməd çox sevindi və öz-özünə dedi:

– Aha, allah mənimkini yetirdi. İndi mən xanımın dədəsinə elə bil od vurum ku, əri evinə kimi sızıltısınnan gözünə yuxu getməsin.

Tez hər iki meyvədən bir xeyli yığıf sıxdı və onu su işmək üçün götürdüyü qavlara dolduruf çantasına qoydu. Meşədən çıxıf üz tutdu şəhərə tərəf. Gəlif bir qoja qarının evində gejəliyəsi oldu. Bir az rahatdanıf, çaydan-çörəkdən yeyənnən sonra Məhəmməd qarıya dedi:

– Qarı nənə, əgər bu meyvələri aparıf bir fəndnən padşaha və onun qızına yedirə bilsən, səni dünya malınnan qəni eliyəjəm.

Qarı əvvəlcə bir az çəm-xəm elədi. Məhəmməd axır kı, bir təhərnən qarıyı dilə tutuf razı saldı.

Qarı tumanının balağını əlinə dəstəliyif səhərin gözü açılan kimi özünü verdi şahın qızı yaşayan imarətin qavağına. Bir az ordan-burdan söhbət salannan sonra özünün təbibliyinnən, hər dərdə əlac eliyə bilməyinnən söhbət aşdı.

Noolajaxdı, dünyada dərdsiz insanmı olar? Qız başdadı kı, nə bilim, başım belə ağrıyır, gözüm belə qaralır. Daha, nə bilim nələr, nələr...

Qarı dedi:

– Xanım, sənin dərdinin çarəsi məndə. Gəlmişkən bəlkə evinizdə genə ağrıyıf eliyən olar. De, onnara da bir çarə eləyim.

Qız dedi:



– Qarı nənə, dədəmin neçə illərdi ki, yuxusu ərşə çəkilif. Canını heş sağ görmür. Təbib-davanın da bir köməyi olmur. Bəlkə ona da bir əlac eliyəsən.

Qarı boxçasının ağzını açıf dedi:

– Bala, bu meyvələrdən nahar vaxtı bir az göndər atan yesin, qalanını da özün yeyərsən. Bu meyvənin sağaltmadığı dərd-bəla yoxdu.

Qız çox sevinif qarıya ən'amdan-zaddan verif onu hörmətnən yola saldı.

Meyvələrdən bir neçəsini atasına göndərif dedi ki, nahar vaxtı yesin. Qalanını da özü üçün saxladı. Xülasə, nahar vaxtını səvirsizdiknən gözdüyən padşah düşdü meyvələrin canına. Qız da bu tərəfdə başdadı meyvələrdən yeməyə.

Padşah meyvəni yeyən kimi baxdı kı, başında qollu-budaxlı böyük bir buynuz peyda oldu. Qız da o tərəfdə meyvəni yeyən kimi baxıf gördü kü, başında böyük bir buynuz əmələ gəldi. Dədə qıza, qız dədəyə tələsik xəvər yolladı kı, mən yedim başıma da bu iş gəldi, barı sən yemə. Amma iş işdən keçmişdi. Qız da, padşah da elə bir dərdə düçar olmuşdu, daha nə deyim? Bütün bilicilər, aqillər, təbiblər yığılsa da bir nəticə hasil olmadı. Axırda usta çağırıf buynuzdarı kəsdirdilər. Bu daha pis nəticə verdi. Buynuzlar kəsilən kimi yerinnən daha böyükləri pöhrələnif qalxdı.

Xülasə, padşah da, qızı da qaldılar dizdərinə döyə-döyə. İndi sizə xəvəri Məhəmməddən verim. Qarı qayıdıf əhvalatı Məhəmmədə söyləyən kimi o buynuzdarı tökən meyvənin suyunnan şüşəyə dolduruf yollandı şahın sarayına. Yolnan getdikcə öz-özünə oxuyurdu:

– Mən təbibəm, mən loğmanam, təbibəm mən, loğmanam mən.

Şahın adamları bunu eşidən kimi dedilər:

– Əyə, bu yaman loğmannan danışır. Durmayın gedin onu da çağırın, bəlkə bu şahın dərdinə bir əlac eliyə. Bunnan da bir şey çıxmasa, şah dədəmizə od vurajax.

Xülasə, Məhəmmədi apardılar şahın hüzuruna. Məhəmməd kəmali-ədəbnən salam verif baş əyənnən sonra dedi:

– Qibleyi-aləm sağ olsun, mən sənin də, qızının da dərdinə əlac eliyə bilərəm. Amma bir şərtim var.

Şah dedi:

– Oğul, bizi bu bəladan qurtarsan, nə desən onu yerinə yetirəjəm.

Məhəmməd dedi:

– Sənin qızın zornan mənim sehirli papağımı, tütək və kisəmi əlimnən alıf. Əmr elə, onnarı qaytarsın, sizi sağaldım.

Şah tez adam göndərif qızını çağırtdırdı. Qız bir az çəm-xəm elədi. İstədi ki, tamam boynunnan atsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd şaha dedi:

– Özünüz bilin, dünyada sizin dərdinizin əlacını təkcə mən bilirəm. Əgər dediyimi eləməsəniz, heş kim sizi bu dərddən qurtara bilməyijək.

Şah əlacsız qalıf qızına əmr elədi ki, Məhəmmədin istədiklərini gətirif versin.

Qız adam göndərif papağı, tütəyi və kisəni gətirif Məhəmmədə verdi.

Məhəmməd də şüşədəki meyvə suyunnan hərəsinə bir istəkan verdi. İçən kimi ikisinin də buynuzu qopuf düşdü.

Məhəmməd papağı, tütəyi, kisini götürüf çantasına qoydu və atasının məmləkətinə yola düşdü. Günə bir mənzil, teyyim ənazil, dağlar-təpələr aşıf, dərələr keçif, gejəni gündüzə qatıf, gündüzü gecəyə qatıf axır kı, gəlif öz evlərinə çatdı. Anasınnan, qardaşdarıynan görüşüf-öpüşüf başına gələnnəri onnara danışdı. Qardaşdarı Məhəmmədin sağ-salamat qayıtması münasibətinən böyük bir şadyanalıx düzəltdilər. Əzrayıl gələnə qədər şad-xürrəm ömür sürüf, gün keçirtdilər.

Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl danışanın. Siz sağ, mən salamat. Siz yüz yaşayın, mən iki əlli. Hansı çoxdu sizin olsun, mən aza da qayılam.



# ƏLİNİN NAILI

Günnərin bir günündə, Məmmədhəsən tinində, keçmiş əyyamda biri varıymış, biri yoxuymuş, allahdan başqa heş kəs yoxuymuş. Bir padşah varıymış. Bir gün bu padşah naxoşduyuf yorğan-döşəyə düşür. Loğman gəlir, təbib gedir. Ancax bunun dərdinə çarə qılan tapılmır kı, tapılmır.

Padşah axır günnərini sayır. Öləcəyini bilif oğlanlarını yanına çağırır. Onnara vəsiyyətini edənnən sonra deyir:

– Balalarım, məni torpağa tafşırannan sonra hər gejə biriniz qəvrimin üstündə gərək qarovul çəkəsiniz.

Xülasə, padşah ölür. Onu dəfn-kəfn edif, aparıf torpağa tapşırıllar. Evə qayıdannan sonra böyük oğlu Qulu deyir:

– Dədəmin vəsiyyətinə əməl eləmək lazımdı. Bu gejə qəvrin qarovulunu mən çəkəjəm.

Bəli, şər qarışır, qarannıx düşür. Böyük qardaş altdan geyinir, üstdən qıfıllanır, üstdən geyinir altdan qıfıllanır. Qılınc-qalxanını, yay-oxunu, bir də bir çırax götürüf qəvirin üstünə gedir. Başdıyır qarovul çəkməyə. Gejədən bir xeyli keçmiş, bir də görür kü, bədəni qılnan örtülü eybəcər bir məxlux gəlif qəvirin baş tərəfini başdadı sökməyə. Böyük qardaş fikirrəşdi ki, görəsən bu nə olan işdi? Bu əcayif heyvan qəvirdə nə axtarır? Bir az götür-qoydan sonra əlini oxa atdı kı, bunu vursun. Tez həmin heyvan gözdən itdi.

Savah açıldı. Qulu nəyi vardısa yığışdırıf evə qayıtdı. Amma, qardaşdarına heş nə demədi.

Qarannıx basa-basda ortancıl qardaş Vəli silahlanıf dədəsinin qəvirinin üstünə getdi. Ojaq qalıyıf qəvirin yanında oturdu. Başdadı gözdəməyə. Gejənin bir vaxtı bir də gördü kü, qıllı bədheybət bir məxlux gəlif qəvirin yanına yetişdi. Başdadı qəvirin baş tərəfini sökməyə. Vəli onu nişana alıf vurmax istiyəndə, heyvan ildırım kimi şığıyıf aradan çıxdı. Vəli savah tezdən yığışıf evlərinə qayıtdı. Bu da bu haxda heş kimə bir söz demədi.

İndi növbə Əliyə, kiçik qardaşa çatdı. Şər qarışanda Əli geyinif, silahlanıf getdi qəvirin yanında qarovul çəkməyə başdadı.

Gejənin bir yarısı Əli baxıf gördü kü, bir heyvərə qıllı məxlux gəlif qəbirin yanında bir az döyükənnən sonra başdadı onu eşməyə. Əli silahazada əl atmıyıf dedi:

– Əyə, sən kimsən gəlif qəviri eşirsən. Görmürsən bu qəvirin qarovulunu çəkən var.

Qıllıca dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ayə, bəs sən qorxmursan mənim qabağımda belə yekə-yekə danışırsan?

Əli dedi:

– Mən qorxsaydım, gejənin bir vaxtı qəbiristanlıxda nə ölümüm varıydı.

Qıllıca dedi:

– İndi ki, sən belə igid oğlansan, onda gəl sənnən bir şərt kəsək.

Əli dedi:

– Nə şərt?

Qıllıca dedi:

– Sənnən güləşməliyik. Əgər, mən səni yıxdım, onda qəviri öz əlinnən deşif, dədənin başını kəsif mənə verərsən. Yox, əgər sən yendin, mənim qanım sana halaldı. Sən mənim başımı kəs.

Əli dedi:

– Yaxşı, mən razı.

Onnar başdadılar tutuşmağa. Bir xeyli süpürrəşənnən sonra Əli qıllıcanı qaldırıf yerə çırpdı. İstədi ki, başını kəssin, bir də gördü kü, qıllıca onun əlinin altında bir quşa çevrildi. Çırpınıf əlinnən çıxıf göyə qalxdı. Göyün üzündə dövrə vuruf təzədən şığıyıf qanaddarıynan vuruf ojağı keçirtdi. Sonra uçuf gözdən itdi. Əli baxıf gördü kü, yerdə bir şey par-par parıllıyır. Götürüf baxanda gördü kü, bu lə'l-gəvahirata tutulmuş bir qızıl bilərzikdi.

Qəvirin üstündəki ojağın sönməsi Əliyə yaman böyük dərd oldu. Çünki dədəsi vəsiyyət eləmişdi ki, gərək savaha qədər mənim qəvrimin üstündə ojax yana. Əli öz-özünə fikirrəşdi ki, qardaşdarım öz borcunu yerinə yetirdi. Bircə mən dədəmin yanında üzü qara oldum. Bir ojağı savaha qədər qoruya bilmədim. İndi nə olur-olsun, gərək öz səhvimi düzəldəm, haradan olsa od tapıf ojağı yandıram.

Əli başını qaldırıf gördü kü, uzaxdan bir işıx gəlir. Qərara aldı kı, gedif oradan od gətirif ojağı yandırsın.

Əli yolu əlinə alıf başdadı işığa tərəf getməyə. Bir xeyli at sürənnən sonra gedif iki yolun ayrıcına çıxdı. Baxıf gördü kü, yolun ortasında bir ağsaqqal kişi oturuf əlində yumax yumaxlıyır.

Salam verif, əleyk alannan sonra Əli qoja kişidən soruşdu:

– Bava, o əlindəki yumax nədir?

Qoja dedi:

– Oğul, bu ağ yumax gündüzdü, qara yumax gejə. Əvvəlcə bu qara yumağı ağ yumağın üstünə yumalayıram. Ağ yumaq qurtaranda savah açılır. Sonra da ağ yumağı qara yumağın üstünə yumalayıram. O da qurtaranda qarannıx düşür.



Əli başına gələnnəri qoja kişiyə nağıl edənnən sonra dedi:

Bava, bir az əlini saxla mən gedim od gətirim dədəmin qəvrinin üstündəki ojağı qalayım.

Qoja gülüf dedi:

– Ay bala burdan oraya iki günnük yoldur. Mən belə şey eliyə bilmərəm. Bütün dünya bu yumağın üstündə gejəni-gündüz eliyir. Bir sənnən ötrü bu qədər məxluqun işini poza bilmərəm.

Əli nə qədər yalvarıf yaxardısa, qoja kişi öz sözünnən dönmədi. Belə olanda o əlaşsız qalıf qojanın əl-ayağını möhkəm-möhkəm bağlıyıf bir tərəfə yıxdı. Yumaxları götürüf bir qırağa qoydu. Sonra atına süvar oluf işıx gələn tərəfə üz tutdu.

Az getdi, üz getdi, gəlif bir imarətin yanına çıxdı. Baxanda gördü kü, imarətin qavağında böyük bir ojax yanır. Əli o tərəfə, bu tərəfə nə qədər döyükdüsə də heş kimi görmədi. İrəli yeriyif bir az köz götürənnən sonra istədi ki, geri dönsün, bu zaman yer-göy lərziyə gəldi, elə bir hay-haray qofdu ku, gəl görəsən. Başını qaldırıf, baxanda gördü kü, həndəvərini bədheybət divlər kəsif. Divlərin hərəsi bir dağ boyda, başdarında isə bir köklü palıd ağacı timsallı buynuz.

Divlərdən ən qorxuncu dedi:

– Ey bəni adəm, sən hara, bura hara? Buralara quş gəlsə qanad salır, qatır gəlsə dırnax. Sən nə cür'ətnən bizim ojağımızdan odumuzu götürürsən.

Əli baxdı gördü kü, daha iş işdən keçif. Yalvarmaxnan bunnardan can qurtarılası döyül. Özünü ələ alıf dedi:

– Özümə güvənməsəydim mənim buralarda nə işim varıydı. Köz lazımıydı. Gəlmişəm aparmağa. Hərbə-zorbadan qorxan deyiləm. Bu meydan, bu da şeytan. Bir özünüzdən deyəndə, beş də mənnən deyin. Allah ya sizə verər, ya da ki, mana.

Div dedi:

– Görürük, qoçax oğlana oxşayursan. Səni buradan bir şərtnən elə davasız da buraxarıx. Amma bir şərtlə:

– Bizim böyük qardaşımız Əhməd şahın qızına aşiqdi. Yeddi ildi ki, vuruşurux. Bir şey çıxmır kı, çıxmır. Əgər onu ələ keçirməkdə bizə kömək eləsən, səni sağ-salamat buraxarıx çıxıf gedərsən.

Əli bunnarnan razılaşdı. Onlar yaraxlanıf-yasaxlanıf Əhməd şahın vilayətinə keşdilər. İmarətə çatan kimi Əli kəmənd atıf hasardan aşdı. Yerini rahatdıyıf qılıncını çıxartdı. Divlər dedi:

– İndi bir-bir aşın hasardan bəri.

Divlər hasardan aşdıxca Əli bir-bir onnarın boynunu vurub bir tərəfə yığdı. Sonra qulaxlarını kəsif bir torvuya yığdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əli başını qaldıranda gördü kü, böyük bir əjdaha imarətin qapısınnan içəri girdi. O bildi ki, əjdaha orada kimisə öz kamına çəkəjək. Tələsik onun dalınnan özünü içəri verdi. Baxıf gördü kü, əjdaha bir kişini yatdığı yerdə kamına çəkmək istiyir. Qılıncı çəkif əjdahaya hücum eliyəndə əjdaha onu quyruğuynan vuruf bir tərəfə tulluyur. Əli heş bilmədi ki, qılıncı haraya gedif düşdü. Əjdaha onun üstünə qayıdanda gördü kü, başının üstünnən bir qılınc asılıf. Əlini atıf qılıncı qınınnan çıxartdı. Əjdahıya elə bir zərbə vurdu ku, əjdaha qılınşnan barabar evin milinə pərçim oldu.

Əli öz qılıncını tapıf divardan asılmış bir qına qoyduxdan sonra səssiz-səmirsiz otaxdan çıxıf getdi. Hasardan aşdıxdan sonra atına süvar oluf dərələrdən sel kimi, təpələrdən yel kimi ayaq üzəngidə, diz qavırğada üz tutudu iki yolun ayrıcına.

Əlqərəz, gəlif yol ayrıcına çatdı. Gördü kü, qojanın əli ayağı bağlı nejə qoyuf getmişdisə, eləcə də durur. Kələflər də əvvəlki kimi öz yerində durur. Atdan düşüf qojanın əl-ayağını aşdı. Ona üzürxahlıx eliyənnən sonra tələsik dədəsinin qəvrinin yanına gəlif ojağı qaladı.

Bir azdan savah açıldı. Əli yığışdırılıf evlərinə qayıtdı. Amma gejə başına gələnnəri heş kimə danışmadı.

Bunlar qalsın burada sizə xəvəri Əhməd şahdan verim. Padşah savah yuxudan qalxanda görür kü, otağın milinə elə bir əjdaha pərçim oluf ku, adam baxanda ağlı başınnan az qalır çıxsın. Tez xoflu-xoflu eşiyə çıxdı. Baxıf gördü kü, hasarın divi uzunu yan-yana divləri düzüflər. Yaxına gedəndə gördü kü, ayə bunnar ona neçə illərdi ki, ona göz verif, işıx vermiyən həmin divlərin cəmdəyidi.

Bir də geri dönəndə baxdı kı, çarhovuzun içində elə bil meşə peyda oluf. İrəli gəlif oraya baxdıxda o, divlərin başdarını gördü. Əhməd şah ordan birbaşa öz divanxanasına gəldi. Gejə baş verən hadisələri nağıl edənnən sonra dedi:

– Divləri və əjdahanı kim öldürüfsə, qızımı ona verəjəm.

Ölkənin hər yanına hay düşdü. Bu pəhlivan dedi:

-Bunnarı mən etmişəm. O, biri dedi: Yox, bu mənim işimdi. Xülasə kim bir az qoldan qüvvətdiydi, özünə güvənirdi bu əhvalatı özünə yozdu.

Əhməd şah dedi:

– Özünüzü dağa-daşa salmayın. Kim əjdahanı milə pərçimliyən o qılıncı çəkif çıxartsa, bu qəhrəmannıx da onundu, qız da.

Bu pəhlivannrın hamısı bir-bir gəlif nə illah elədilərsə, o qılıncı çəkif çıxarda bilmədilər. Hamısı kor-peşman çıxıf getdilər.

Əhməd şah car çəkdirdi. Hər yana soraxçı göndərdi, amma əjdahaynan divləri öldürəni tapa bilmədi ki, bilmədi.



İndi sizə kimnən deyim, xəvəri kimnən verim Əhməd şahın vəzirinnən. Bu vəzir dünyagörmüş, həmişə müşkül işdərin açılmasında yol göstərən ağıllı bir qojaydı. Əhməd şahın neyliyim, nejə eliyim etdiyini görüf vəzir dedi:

– Qibleyi aləm sağ olsun, gəl yeddi yolun ayrıcında bir karvansara tikdir. Oradan keçif gedənnəri pulsuz-parasız qonax elə. Amma şərt qoy ku, burada olan adam gərək öz sirrini yoldaşdarına açıf söyləsin. Sən də hər otağın qapısına bir gözətçi qoy. Qoy onnar yolçulara qulax assınnar. Bəlkə, bu yolnan biz öz məqsədimizə çatdıx.

Qoca vəzirin bu məsləhəti şahın ağlına batdı.

O, yeddi yolun ayrıcında gözəl bir karvansara tikdirdi. Yoldan gəlif keçənnərin hamısını burada qonax eləməyə başdadılar. Bu minvalnan bir xeyli keşdi.

Günnərin bir günü Əli qardaşdarına dedi:

– Qulu, Vəli deyirəm gəlin bir səfərə çıxax. Atamız ölənnən bəri evdən-eşiyə çıxmamışıx. Qardaşdar bir az dərs-kors eliyənnən sonra Əliynən razılaşdılar. Bir az yola tədarük görüf atdarının başını buraxdılar. Orda-burda dolandıxdan sonra günnərin bir günü onnarın güzarı gəlif yeddi yolun ayrıcına düşdü. Bura çatan kimi atdarının qavağına keçif hörmət izzətnən karvansarıya də’vət elədilər. Qardaşdar yeyif-içənnən sonra dincəlmək üçün otaxların birinə keşdilər.

Qulluxçu gəlif onnara dedi: – Bizdə bir adət var. Gərək qonaxlar bir-birinə həyatda başdarına gələnnəri, maraxlı əhvalatı nağıl eləsinnər.

Qulluqçu gedənnən sonra qardaşlar qərara gəldilər ki, dədələrinin qəvrinin üstündə başdarına nə gəlifsə bir-birilərinə danışsınnar. Əvvəlcə Qulu başına gələnnəri danışdı. Sonra Vəli gejə baş verən əhvalatı qardaşdarına nağılladı. Vəli danışıf qurtarannan sonra növbə Əliyə çatdı. Əli əhvalatı danışıf divlərin imarətindən danışanda qapının dalından qulaq asan qulluxçu yanındakı yoldaşına dedi:

– Qaç padşaha xəvər ver ki, deyəsən axtardığınızı tafmışıx.

Söhbət gəlib divlərin öldürülüf qulaxlarının kəsilməsinə çatanda qapının dalından qulax asan qulluqçu tam əmin oldu ku, divləri öldürəni tapmışıx.

Əli əjdahanı nejə öldürdüyünü danışanda artıx padşah gəlif qapının ağzına çatmışdı. O oğlanın əjdahanı öldürməsini öz qulaxlarınnan eşitdi.

Əli söhbətini qurtarannan sora qulluxçu qapıyı döyüf içəri girdi, üzünü qardaşdara tutuf dedi:

– Əhməd şah sizi öz hüzuruna çağırır.

Qardaşlar duruf gəldilər şahın hüzuruna. Baş endirif, ədəb-ərkannan salam verdikdən sonra dedilər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şahım, bizə görə nə qullux.

Şah dedi:

– Balalarım, neçə vaxtdır kı, məni divlərin əlinnən, əjdahanın ağzınnan qurtaran bir igidi axtarıram. Əhd etmişəm, o igid hər kim olsa mənim damadım olajax. Allaha şükür kü,öz məqsədimə çatdım. İndi deyin görüm o igid sizin hansınızsınız?

Qulu kiçik qardaşı göstərif dedi:

– Şah sağ olsun sizin axtardığınız igidin adı Əlidir. Özü də, bax, budu dayanıf qarşınızda.

Əhməd şah qardaşdarı bağrına basıf duz kimi yaladı. Sonra onnarı da götürüf öz sarayına qayıtdı.

İmarətin qavağına çatanda Əli dedi:

– Qibleyi-aləm sağ olsun, divləri bax, burada öldürmüşəm. Qulaxlarını da o vaxt kəsif götürmüşdüm. Hələ də torvamdadı, deyif kəsilmiş qulaxları şahın ayaxlarının altına tökdü.

Onnar evə keçəndə gördülər ki, əjdaha hələ də milə pərçimlənmiş halda yerində durur. Əli əl atıf qılıncın dəstəyinnən nejə çəkdisə bilmirəm, əjdaha gurultuynan yerə düşdü. Burda nə qədər adam vardısa yığışıb əjdahanın leşini çölə ata bilmədi. Əli irəli yeriyif əjdahanın quyruğunnan yapışıf bayax sürüyüf eşiyə tulladı. Qayıdıf gələndə şaha dedi:

– Padşah sağ olsun, yaxşı bax gör milə sancılmış qılıncı tanıya bilərsənmi?

Şah baxıf gördü kü, bu onun qılıncıdı. Əli şahın təəccüfləndiyini görüf dedi:

– O yuxarıda asılmış qılınc mənimdi. Əmr elə özümə qaytarsınnar.

Şahın əmri ilə qılıncı qınından çıxartdılar. Şah gördü kü, bu doğrudan, onun qılıncı deyil. Bu işə tamam mat qalan Əhməd şah dedi:

– Bala, bu nə işdi, bizi bu sirdən agah elə. Mən heş nə başa düşə bilmirəm.

Əli təzədən başına gələnnəri mən sizə nağıl elədiyim kimi şaha danışdı.

Şah onu bir də bağrına basıf dedi:

– Bu günnən sonra sən mənim damadımsan.

Əhməd şah qırx gün, qırx gejə toy eliyif qızını verdi Əliyə.

Bir müddət burda qalannan sonra qardaşdar evlərinə getmək üçün Əhməd şahdan icazə istədilər.

Əhməd şah qızına yaxşı cehiz verif, kəcavə düzəltdi, sonra onnarı böyük hörmət-izzətnən öz vilayətnərinə yola saldı.

Qardaşdar xeyli yol gedənnən sonra bir çəmənnikdə dincəlməyi



qərara aldılar. Qulluqçular, nökər-nayıf əl-ayağa düşdü. Çadırrar quruldu. Süfrələr açıldı. Yeyif-içənnən sonra gejələmək üçün öz çadırına getdilər.

Sübh tezdən Əli yuxudan oyanan kimi əl-üzünü yuyuf arvadına baş çəkmək üçün kəcavənin yanına getdi. Ora çathaçatda bir də gördü kü, nəhəng bir ilan duruf düz kəcavənin ağzında. Əli qılınca əl atmax istiyəndə ilan dilə gəlif dedi:

– İgid, qılıncını qınına qoy. Sevgilini sağ-salamat görmək istiyirsənsə gərək mənim tafşırığıma əməl eliyəsən.

Əli dedi:

– De görüm, məndən nə istəyirsən?

İlan dedi:

– İndi məni diqqətnən dinnə. Zülmət dünyasının Qara Div adında bir hökmdarı var. Onun bağında bitən alma ağaşdarının meyvələrinnən birini mana gətiməlisən. Əgər gətirdin, sevgilinə qovuşajaxsan. Yox gətirə bilməsən, özünnən küs. Bir də nişannının üzünü görmüyəjəksən.

Əli baxıb gördü kü, bu xına o xınadan döyül. Bu bədheybət ilanın əlinnən heş fil də canını qurtara bilməz. O qardaşdarının çadırına gedif əhvalatı onlara danışdı. Sonra da onnarnan halal-hümmət eliyif yola düzəldi.

Əli atın başını buraxmışdı. Amma hara getdiyini özü də bilmirdi. Bu minvalnan az getdi, çox getdi, iynə yarım yol getdi. Gördü ki, bir tərəfdən ajdıx, bir tərəfdən də yorğunnux onun tamam taqətini kəsif. Atının cilovunu dartıf bir bulağın başında yerə endi. Atın qantarğasını ağzınnan çıxarıf otduğa buraxdı. Özü isə bir az yeyib-içif uzandı kı, gözdərinin çimirini alsın. Elə təzəcə yuxuya getmişdi ki, gördü bir ağsaqqal nurani kişi onun başının üstündə duruf deyir:

– Ey igid, oyaxsansa eşit, yatırsansa oyan, o ilan səni gedər-gəlməzə yolluyuf. Qarannıx dünyaya indiyə qədər bəni-insan ayağı dəymiyif. Oranın yolunu təkcə Zümrüd quşu bilir. Səni ora ancax o aparajax. O quşu tapmax üçün gərək üç gün yol gedəsən. Dəryanın qırağında bir xurma ağacı var. Zümrud quşu onun başında yaşayır.

Əli bunnarı eşidif gözdərini aşdı. Heş kimi görmüyüf qəmgin oldu. Fikirrəşdi ki, əgər bu yuxudusa, onda nə bilirdi ki, məni ilan haraya göndərir.

Əli xeyli götür-qoy eliyənnən sonra, allaha təvəkkül deyif atlanıf yoluna davam elədi. Dərələrdən sel kimi, pəpələrdən yel kimi, badeyi-sərsər kimi, ayax üzəngidə, diz qavırğada, üç gün gejəni gündüzə qatıf yol getdi. Axır kı, gəlif bir dəryanın qırağına çıxdı. Baxanda gördü kü, ağaca bir elə əjdaha sarmaşıf ki, ta nə deyim. Zümrüd quşunun balaları isə onun qorxusunnan tir-tir əsillər. Əli başa düşdü kü, əjdaha zümrüd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

quşunun balalarını yemək istiyir.

Əli fürsəti əldən vermiyif qılıncını çəkif cumdu əjdahanın üstünə. Ona elə bir zərbə vurdu kü, əjdaha iki parça oluf ağajdan düşdü. Sonra Əli atdan düşüf ağajın divində uzandı kı, öz dincini alsın. Bir az keçənnən sonra yuxu onu nejə aparırsa, heş özünün də xəvəri olmur.

Əli yatmaxda olsun, sizə xəvəri Zümrüd quşunnan verim. Zümrüd quşu balalarına yem gətirif gördü kü, ağacın divində bir qaraltı görünür. Fikirrəşdi ki, indiyə kimi məni bala üzunə həsrət qoyan yaqın buymuş Qəzəfli-qəzəfli şığıdı kü, bunu parçalasın. Bu vaxt onun balaları qışqırıf dedilər:

– Ana, əjdahanı öldürüf bizi xilas edən budu. Zümrüd quşu ətrafa baxanda iki parça olmuş əjdahanın leşini görəndə hər şeyi başa düşdü.

Əli gözdərini açıf dağ boyda bir quşun başının üstünü aldığını görüf bərk qorxdu. Ayağa duruf əlini qılıncına atmax istiyəndə Zümrüd quşu dedi:

– Oğlan, əl saxla, dosta qılınc göstərməzdər. Sən mənim balalarımın xilaskarısan. Bu günnən mən sənin qulluğundayam. Nə istəyin varsa de: cannan-başnan yerinə yetirim.

Əli başına gələnlərin hamısını ona nağıl eləyənnən sonra dedi:

– Məni qarannıx dünyaya yetirə bilsən, böyük yaxşılıx eləmiş olarsan.

Zümrüd quşu dedi:

– Min belimə, gözdərini bərk-bərk yum. Nə vaxt aj desəm, açarsan.

Əli zümrüd quşunun belinə minif gözdərini bərk-bərk yumdu. Bir xeyli keçənnən sonra Zümrüd quşunun səsi gəldi:

– Gözdərini aş.

Əli gözlərini açanda gördü ki, hər tərəf qarannıxdı. Göz-gözü görmür.

Zümrüd quşu onu belinnən endirənnən sonra dedi:

– Əli, bura qarannıx dünyadı. Buraya hələ insan ayağı dəymiyif. Sənin axtardığın bağda divlərdən, huri-mələklərdən başqa heş kim olmuyuf. Bu bağın keşiyini qırx div çəkir. Onnarın gözünnən hələ heş nə yayınmayıf. Səni oraya bircə pərilər apara bilər. Bunun üçün yalnız bircə yol var. Yaxınnıxda bir hovuz görəjəksən. Hər cümə günü pərilər gəlif burada çimillər. Əgər sən onnarın gözünnən oğurranıf birinin cildini oğurruaya bilsən onda muradına çatajaxsan. İndi salamat qal, mən gedirəm. Ancaq dediklərimi yadınnan çıxarma. Bunu deyif zümrüd quşu oğlannan görüşüf, halal-hümmət eliyif havıya qalxdı.

Əli bir az burda dolaşannan sonra axır kı, bir hovuza rast gəldi. Bunun ətrafında özünə bir yer düzəldif pəri qızdarını gözləməyə başladı. Az gözlədi, çox gözlədi bilmirəm, bir də baxıf gördü ki, göydən yeddi quş



enif hovuzun qırağına töküldü. Onlar ora-bura bir az boylanandan sonra çırpınıf qıza çevrildilər. Əli bunları görəndə az qaldı ki, huşu başınnan çıxsın. Onnarın camalının işığınnan qaranlıx dünya dönüf çil-çıraqban olmuşdu. Əli öz-özünə dedi:

– Mən də deyirəm niyə bura qarannıx dünyaymış. İndi bildim ki, günəş buralara gəlməyə, bu gözəlliyi görməyə xəcalət çəkirmiş.

Əli handan-şana özünə gəlif yavaş-yavaş irəli süründü. Xəlvətcə pəri qızdarından ən kiçiyinin cildini oğurruyuf geriyə qayıtdı. Yenə də qaçıf gizdəndi.

Bir az keçənnən sonra pərilər oynaşa-oynaşa hovuzdan çıxıf cildlərini geyməyə başladılar. Amma kiçik bajı nə qədər axtardısa, öz cildini tapa bilmədi. Başladı ağlayıb baş-gözünə döyməyə.

Bir az sakitdəşənnən sonra üzünü qırağa tutuf dedi:

– Kimsən, nəkarəsən, inssən, cinssən bilmirəm. Cildimi qaytar. Nə desən eliyəjəm.

Əli onun sözünə inanmayıf daha da gizdəndi. Pəri bir də başdadı yalvarmağa:

– Ey cildimə sahib olan, and olsun Süleyman peyğəmbərin cıqqasına, cildimi qaytarsan, mən ölüncə sənin ixtiyarındayam.

Əli pərinin andını eşidən kimi gizdəndiyi yerdən çıxıf cildi ona uzatdı.

Pəri Əlinin boy-buxununa, şəsti-məstinə baxanda ürəyində dedi:

Nə olar bəni-insan olanda. Bu gözəllikdə, bu boy-buxunda məxluqu xaliq hələ yaratmıyıf. Alsa, elə buna da gedəjəm.

Cildini əyninə geyinənnən sonra Əliyə dedi:

– Oğlan, daha mən öz məskənimizə qayıda bilmərəm. Bizim cildimizə kimin əli dəysə, biz onunux. Görünür, tanrı mənim qismətimi bəni-insana yazıfmış.

Əli bu kəlmələri eşidəndə az qaldı sevindiyinnən ürəyi partdasın. Dili tutar-tutmaz dedi:

– Xanım, görünür xoşbəxt ulduz altında doğulmuşam. Səni mənə yetirən allaha canım fəda olsun.

Pəri dedi:

– İgid, sana rast gəldiyimə də peşman deyiləm. İndi danış görüm, sən buralara necə gəlif çıxıfsan, məramın, məqsədin nədi?

Əli başına gələnnəri əvvəldən axıra kimi mən sizə danışdığım kimi pəri qızına nağıl elədi.

O söhbətini qurtarannan sonra pəri qızı dedi:

– O dediyin alma Ağ divin qəsrinin qavağında bitif. Ağ div nejə ki sağdı o almadı heş kim qopara bilmiyəjək. Çünki o ağac tilsimlidi. Həmin tilsimi Ağ divdən başqa heş kim bilmir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əli dedi:

– Mən buraya gələndə kəfənimi boğazıma doluyuf gəlmişəm. Ölsəm də, almasız geri qayıdan döyüləm.

Pəri qızı dedi:

– Ağ divi öldürməyin bircə yolu var. Buradan üç günnük yolda bir dağ var. O dağın başında bir zağa yerrəşir. Zağada yeddibaşdı bir əjdaha yaşıyır. Əgər əjdahıyı öldürüf zağıya girə bilsən, orada bir sandıx görəjəksən. O sandığın içində bir üzük var. Onu ələ keçirif üç dəfə silə bilsən, Ağ devin bütün tilsimləri sınajax. Bax o zaman tilsimnən məhrum olmuş Ağ devi öldürmək mümkündü.

Əli sevincinnən halal-hümət eləyif yola düşdü. Üç gün, üç gejə yol gedənnən sonra böyük bir dağın ətəyinə gəlif çıxdı. Xeyli axtarannan sonra bir cığır tapıf ordan birtəhər dağın başına qalxdı. Bir xeyli gedənnən sonra bir də gördü kü, qavağında elə bir əjdaha duruf ku, ta nə deyim. Əvvəlcə qorxuf geriyə qaşmax istədi. Amma gördü kü, qaçmaxnan bunun əlinnən yaxa qurtarmax mümkün deyil, Allahı cağırıf qılıncını çəkdi. əjdaha hücum eləyif onu kamına çəkmək istiyəndə bir "Ya mədəd" – deyif qılıncı endirdi. Əjdahanın kəsilmiş boğazından elə bil sel açıldı. Az qaldı onu süpürüf aparsın. Bir koldan yapışıf birtəhərnən özünü saxladı. Özünü təzə düzəltmişdi ki, yaralı əjdaha ona bir də hücum elədi. Əli fürsəti bada vermiyif bir də qılıncı endirdi. Bu dəfə əjdahanın iki başı da qopuf düşdü. Əli baxıf gördü kü, əjdaha lap haldan düşüf. Hücum çəkif elə bir zərbə endirdi ki, əjdahanın qalan başdarı da bədənin-nən ayrıldı. Əjdaha bir az çırpınıf canını Ağ divə tapşırdı.

Əli zağıya girif sandığı tafdı. Qapağını qaldırıf üzüyü götürdü. Üzüyü silən kimi gördü kü, yer-göy lərziyə gəldi. Tələsik üzüyü bir dəfə də sildi. Üçüncü dəfə silməyə başdıyanda gözdərinnən qan daman Ağ div zağıya girdi. Əli tez üzüyü civinə qoydu. Ağ div nə’rə çəkə-çəkə onun üstünə atıldı. Əlini atıf Əlinin kəmərinnən yapışdı kü, onu qaldırıf yerə çırpsın. Amma nə qədər çalışdısa, Əlini yerinnən qopara bilmədi. Əli əl atıf tutdu Ağ divin boğazınnan, başdadı onu boğmağa. Div nə qədər çavaladısa, onun əllərindən qurtara bilmədi. Axır kı, Əli Ağ divi boğuf öldürdü.

Əli yenidən əvvəlki cığırnan dağdan enif yoluna düzəldi. Üç gün, üç gejədən sonra gəlif hovuzun yanına çatdı. Yenicə yanını yerə qoymuşdu ku, dincəlsin, bir də gördü kü, pəri qızı onun başının üstündə hazır oldu.

Pəri qızı onun boynunu qucaxlıyıf dedi:

– Afərin, sən bəni-insan olsan da, ağlagəlməz bir qəhrəmannıx göstərdin. Bütün məxluqatı Ağ divin zülmünnən qurtardın.

Onnar Ağ divin qəsrinə yollandılar. Üzüyün köməynnən qəsrdə



tilsimə düşən bütün məxluqatı azad etdilər. Almaları dərənnən sonra Əli Pəri qızına dedi:

– Mənim gözümün işığı, indi işıxlı dünyaya qayıtmağın vaxtı çatıf. Səni də özümnən aparmax istiyirəm.

Pəri qızı dedi:

– İcazə ver, gedim qohum-əqrabamnan görüşüm, sonra hara istəsən gedək.

Əli izn verdi. Pəri qızı gedif qohum-əqrabalarınnan görüşüf, halal-hümmət eliyif sevimlisinin yanına qayıtdı.

Onnar yola düşmək istiyəndə Pəri qızı dedi:

– Buradan işıxlı dünyaya getmək mənim üçün çətin döyül. Amma sənin buradan çıxmağın çox müşkül məsələdi.

Əli dedi:

– Bu haqda fikirrəşməyə dəyməz. Məni bura gətirəndə Zümrüd quşu bir qanad verif demişdi:

– Nə vaxt lazım olsam, yandırarsan.

Əli bunu deyif qanadı yandırdı. Bir də gördülər ki, Zümrüd quşu düz onnarın yanında yerə qondu. Üzünü Əliyə tutuf dedi:

– Mənə görə qulluğun?

Əli dedi:

– Məni işıxlı dünyaya çıxart.

Zümrüd quşu onu belinə mindirif dedi:

– Gözdərini yum.

Bir azdan Əli Zümrüd quşunun səsini eşitdi.

– Aç gözdərini.

Əli gözdərini açanda özünü nişannısını qoyuf getdiyi çadırın yanında gördü.

Zümrüd quşu onunnan halallaşıf geri qayıtdı.

Əli çadıra doğru getmək istiyəndə bir də gördü kü, Pəri qızı onun yanında duruf.

Əli almıyı onnan alıf ilanın yanına getdi.

İlan onu görən kimi dedi:

– Əli, almanı gətirdinmi?

Əli dinməz-söyləməz almayı ona uzatdı. İlan almayı dişdiyən kimi dönüf elə bir gözəl qıza çevrildi ki, baxanda adamın ağlı başınnan gedirdi.

Əli qızdan soruşdu:

– Bu nə sirdi? Məni bu işdən agah elə.

Qız dedi:

– Mənim adım Sənubərdi. Özüm də Yəmən padşahının gözünün ağı-qarası olan bircə balasıyam. Mənə bir cadugər aşiq olmuşdu. Nə qədər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çalışdısa, mən ona ərə getmədim. Axırda o məni tilsimə salıf ilana çevirdi. Özü də mana dedi:

– Sənin tilsiminin açarı Qarannıx dünyada Qara Divin bağında bitən almadadı. İndi get, o almayı axtar görüm, tapa bilərsənmi?

Mən düz üç il sərasər dünyanı dolandım. Axırda ilanlar padşahı əhvalatdan hali oluf məni yanına çağıtdırıf dedi:

– Bu bilərziknən sən insannan başqa istədiyin məxluqata çevrilə bilərsən. Özü də necə ki, bu bilərzik səndədi sana heş kimin güjü çatmıyajax. Sənin dərdinə çarə eliyə bilsə bircə Rum vilayətinin hökmdarı ölənnən sonra onun qəbri üstündə keşik çəkən qardaşdardan biri sənə yıxajax. Yalnız o sənin dərdinə çarə eliyə bilər. Buna görə qıllıca qiyafəsində gəlif gejələr qəvri eşirdim ki, məni yıxan adamı tapım. O adam da sən oldun. Mən axır kı, bu əzaf-əziyyətdən qurtardım. Əhdim var. Kim məni xilas eləsə, onun olajam. Bu günnən sonra sənin ixtiyarındayam.

Nə olajaydı, kim belə gözəldən keçərdi?

Əli çadıra girif nişannısıynan görüşdü. Bütün başına gələnnəri ona nağıl elədi. Qızların əhvalatını eşidəndə bir az narahat olsa da üzə vurmadı.

Əli hər üç qızı bir-birinnən tanış eləyif dedi:

– Əgər məni istəyirsinizsə gərək ömrümüz boyu hər nə inciklik olsa, onu yerindəcə yaddan çıxarıf, unudasınız.

Qızdar buna can-başnan razı oldular.

Karvan tərpəndi. Onlar sağ-salamat öz vilayətdərinə çatdılar. Əli təzədən qırx gün, qırx gejə toy çaldırıf onnarnan evləndi. Onlar şad-xürrəm ömür sürüf yerə keşdilər. Siz də xoş günlər keçirif dövrə keçin.

Göydən üç alma düşdü. Biri nağıl danışanın, biri mənim, biri də özümün.

Siz sağ, mən salamat.

## DƏRZİ ŞAGİRDİ ƏHMƏD

Nağıl-nuğul bilmirəm, bilsəm də söyləmirəm. Şahdan gəlmiş nökərəm, dinmə qavırğalarını sökərəm.

Biri varıydı, biri yoxuydu, Allahın bəndəsi çoxuydu. Sizə kimnən xəvər verim, kimnən deyim, şah oğlu Şah Abbbasdan. Şah Abbas vəzir Allahverdi xannan hər bazar günü dərvişlivas oluf şəhəri gəzirdi.

Günnərin bir günündə, allah-talanın xoş bir saatında onnar gəzə-gəzə gəlif şəhərin qırağında bir küçəyə çıxdılar. Bütün şəhər əhlinin şirin yuxuda olmasına baxmıyarax, evlərin birinnən işıx gəlirdi.

Şah Abbas üzünü vəzir Allahverdi xana tutuf dedi:



– Vəzir Allahverdi xan, gedək görək gejənin bu vaxtında o evin işığı niyə yanır? Burada yaqın bir sirr var.

Şah Abbasnan vəzir gəlif işıx gələn evin qapısına çatdılar.

Vəzir Allahverdi xana dedi:

– Qibleyi-aləm, sən bir ayax saxla, mən bu saat öyrənim görüm bu nə olan işdi.

Vəzir singə-singə gəlif pəncərənin altında xeyli dayandı və qayıdıf şaha dedi:

– Qibleyi-aləm sağ olsun, bura bir dərzi tükanıdı. Bir nəfər şəxs də paltar tikməknən məşğuldu.

Şah Abbas dedi:

– Vəzir, bu işi axıra çatdırmax lazımdı. Gəl gözdüyək görək bu nə sirrdi?.

Şahnan vəzir qapının ağzında duruf gözdəməkdə olsunnar, sizə xəvəri dərzidən verim.

Xeyli işdiyənnən sonra dərzi duruf yorğun-yorğun arxa tərəf keşdi. Bir nəfəri silkələyif durğuzmağa başdadı. Yatan adam elə bil on ilin yorğunuydu. Durmax istəmirdi ki, istəmirdi. Axır kı, qalxıf gözdərini ova-ova dərziyə dedi:

– Ustad, səni görüm beyməkan olasan. Sən niyə qoymadın mən vayğanı axıra kimi görəm.

Bunu eşidən dərzi şagirdinin üstünə düşdü kü, tez ol vayğanı danış.

Şagird cavaf verdi:

– Ustad, mən vayğanı axıra kimi görməmişəm, ona görə də danışa bilmərəm.

Dərzi nə qədər tə’kid elədisə də, şagirddən bir söz qopara bilmədi. Axırda ajıxlanıf əlindəki metrə ilə şagirdi döyməyə başdadı. Yenə də bir murad hasil olmadı. Bu zaman şagird dərziyə cavavında dedi:

– Usta, məni öldürsən də, tikə-tikə doğrasan da, vayğanı danışmaram.

Dərzi ilə şagird didişməkdə olsunnar, sizə xəvəri Şah Abbasnan vəzirdən verək.

Şah Abbasla vəzir Allahverdi xan qapının arxasında o qədər durdular ki, bir də gördülər ki, dan yeri sökülür. Şah Abbas dedi:

– Vəzir, daha gözdəmək olmaz. Gəl içəri girif halı olax görək bu nə işdi?

Vəzir dedi:

– Şah sağ olsun, içəri girməyin heş bir xeyri yoxdu. Onnar bilillər ki, sən şahsan, mən də vəzir. Yaxşısı budu ku, gedək, bunnarı da savah hüzuruna çağırtdırıf hər şeyi örgənərsən.

Şah Abbas civindən möhürü çıxarıf həmin qapıya vurdu və oradan da



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

birbaş saraya qayıtdılar.
Bəli, savah açıldı, üzünüzə belə xoş savahlar açılsın.
Şah Abbas qırmızı geyinif taxta çıxdı. Əmr eləyib iki nəfər fərraş çağırtdırdı. Fərraşlar Şah Abbasın qarşısında ikiqat tə'zim eləyif dedilər:
– Qibleyi-aləm sağ olsun, bizə görə nə qullux?
Şah Abbas dedi:
– Gedin, şəhərin filan küçəsində hansı evin qapısında mənim möhürüm varsa, o evi axtarıf tapın. Orda yaşayan dərzi ilə şagirdi tez mənim hüzuruma gətirin.
Fərraşlar baş üstə deyif götürüldülər. Axtara-axtara gəlif şahın möhürü vurulan qapını tapdılar. Qapını döyməyə başdadılar. Usta şagirdinə dedi:
– Eşidirsənmi, qapıyı döyüllər. Get, gör kimdi? Nə istiyir?
Şagird gəlif qapını aşdı. İki nəfər dövlət mə'muru görüf qorxdu və tez özünü ələ alıf dedi:
– Bizə görə nə qullux?
Fərraşlardan biri dilləndi:
– Kimdir bu evin sahibi?
Şagird dedi:
– Bura bizim dükandı. Bu dükanın sahibi isə mənim ustamdı. Mən də onun şagirdiyəm.
Fərraş dedi:
– Get, o ustanı bura çağır.
Şagird tez qaçıf ustuyu çağırdı. Usta gəlif fərraşdara baş əyif dedi:
– Bizim üçün nə qullux?
Fərraş dedi:
Tez olun, düşün qavağımıza, sizi Şah Abbas istiyir.
Bəli, usta ilə şagirdi dükanı bağlıyıf fərraşdarın qavağına düşdülər. Fərraşlar birbaş onnarı Şah Abbasın hüzuruna gətirdilər. Dərziynən şagirdi şahın qarşısında ikiqat tə'zim eliyif diz çökdülər. Ədəb-ərkannan salam verif, qullux göstərdilər.
Şah Abbas başını qaldırıf, heş nədən xəvəri yox kimi soruşdu:
– Deyin görüm, sizin sənətiniz nədi?
Dərzi dedi:
– Şah sağ olsun, bizim sənətimiz dərzilikdi. Paltar tikməknən məşğul olurux.
Şah Abbas dedi:
– Bilirsinizmi sizi çağırtdırmaqda məqsədim nədi?
Usta dedi:
– Qibleyi-aləm sağ olsun, bilmirik. Biz hardan bilək. İndi buyurun



bizim üçün nə qullux?
Şah Abbas dedi:
– Sizi bir məqsədə görə çağırtdırmışam. Ancax, onu bilin, düzgün cavaf verməsəniz, and olsun bavamın taxtına-tajına, sizin boynunuzu elə vurdurajam kı, bir damcı qanınız yerə düşməsin.
Qorxudan canına üşütmə düşən dərzi şahın qavağında ikiqat tə'zim eliyif dedi:
– Qibleyi-aləm sağ olsun, biz nə günahın sahibiyik? Buyurun, mətləbinizi qanax.
Şah Abbas ağır-ağır başını qaldırıf dedi:
– Birinci deyin görüm, keçən gejə bütün şəhər əhli yatdığı halda, siz nəyə görə yatmamışdınız?
Usta özünü düzəldif dedi:
– Padşah sağ olsun, bir nəfər toy eliyirdi. O, gətirif gəlin üçün paltar tikdirirdi. Özü də bizə iki gün vaxt vermişdi. Biz onun qarşısında yalançı ola bidməzdik. Xalxın xeyir işini ləngitmək olmazdı. Ona görə də gejə-gündüz işdiyif paltarı tikməliydik. Odur ki, bütün gejəni də biz yatmıyıf işləmişik.
Şah Abbas bir az da ciddi görkəm alıf dedi:
– Hə, indi asta-asta gəlif mətləbə çıxdıx. İndi deyim görüm axşamnan yatan kimiydik?
Dərzi dedi:
– Şah sağ olsun, axşamnan yatan mənim şagirdimiydi.
Şah Abbas gülə-gülə dedi:
– Yaxşı, onda elə isə de görüm, sən şagirdini gejə qaldıranda nə hadisə oldu.
Dərzi baxıf gördü kü, şah hər şeyi dəqiq blir. Ona görə də heç nəyi gizdətmədən dedi:
– Padşah sağ olsun, mən gejənin yarısına qədər işdədim. Gördüm yuxum gəlir, həm də yorulmuşam. Dedim: bir az gözümün çimirini alım, yenə də durar işdərəm. Getdim şagirdi qaldırım bir az da o işdəsin. Mən şagirdi nə qədər səsdədimsə, mənə cavaf vermədi ki, vermədi. O yatırdı. Mən axırda məjbur oluf onu əlimnən qaldırmağa başdadım. Qalxan kimi mana ajıxlanıf dedi:
– Səni görüm beyməkan olasan, ay usta. Nə oluf? Dünyanın axırı-zadı döyül kü? Qoymadın kı, vəyğamı axıra kimi görəm.
Mən onun cavavında dedim:
– Oğul, vəyğan xeyrə dönsün. Söylə görüm, yuxuda nə görürdün?
Şagird cavavında mana dedi:
– Usta , istiyirsən dara çək, istiyirsən də tikə-tikə doğra mən o



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yuxuyu açа bilmiyəjəm.

Padşah sağ olsun, mənim bildiyim, gördüyüm bu qədər. Artıx heş nə bilmirəm.

Dərziyə diqqətnən qulax asan Şah Abbas dilləndi:

– Sən çox düz dedin. Sənin heş bir günahın yoxdu. Gedə bilərsən.

Padşahın ağzından bu sözdəri eşidən dərzi sevincək ayağa qalxıf, ikiqat tə’zim eliyif onun qulluğunnan mürəxxəs oluf öz işinin dalınca getdi.

Dərzi çıxan kimi Şah Abbas üzünü şagirdə tutuf dedi:

– Oğul, əvvəla, de görüm, sənin adın nədi?

Şagird dedi:

– Padşah sağ olsun, mənim adım Əhməddi.

Şah Abbas dedi:

– Əhməd, ustadın dediklərinə qulax asdın? O, düz dedi, yoxsa yalan?

Əhməd dedi:

– Padşah sağ olsun, ustamın dediklərində heş bir yalan yoxuydu. Nejə olmuşdusa da, eləjə də söylədi.

Şah Abbas dedi:

– Yaxşı, çox gözəl. Elə isə söylə görək gejə gördüyün vəyğa nəydi? Nəyə görə ustana da söyləmədin?

Əhməd dedi:

– Qibleyi-aləm sağ olsun, mən əhd eləmişəm ki, vəyğamı heş kimə danışmıyım. Ona görə də məni öldürsən də, boğdursan da, iki şaqqa eliyif ala qapıya vurdursan da, o yuxunu açа bilmiyəjəm.

Şah Abbas bildi ki, Əhmədi qorxuzmaxnan iş aşmıyajax. Ona görə də, bir az mülayimcəsinə dedi:

– Oğul, gəl uşaqlıx eləmə. İş, vəzifə, pul, nə istəsən verim, ancax bu inadkarrığınnan əl çək.

Əhməd dedi:

– Şah sağ olsun, mana heş nə lazım döyül. Mən ərz elədim ki, o yuxunu açа bilmiyəjəm.

Şah Abbas hirsini bir az da boğuf dedi:

– Əhməd, sən heş bilirsənmi hardasan? Kimin qavağında duruf, kimlə söz güləşdirirsən! Özünü nə hiss edirsən? Gözdərini aç, yaxşı bax. Sən Şah Abbasın hüzurundasan. Onu bil ki, bir də yox desən qətlinə fərman verəjəm.

Əhməd dedi:

– Qibleyi-aləm sağ olsun, öldürsən də, boğdursan da demiyəjəm.

Bunu eşidən Şah Abbas hirsindən tir-tir əsdi. Cəllad, cəllad deyə qışqırdı.



Cəllad o saat hazır oluf dedi:

– Padşah sağ olsun, nə buyurursan? Sənin sayəndə yaxşı yemişəm, qolum qüvvətdidi. Kimi deyirsən boynunu elə vurum ku, bir damcı qanı yerə dammasın.

Şah Abbas Əhmədi göstərif dedi:

– Apar bunun boynunu vur ku, bir də onu mənim gözüm görməsin.

Cəllad o saat siyirməqılınc cumdu Əhmədin üstünə. Yapışıf yaxasınnan istədi aparsın, vəzir, vəkil irəli yeriyif arıya girdilər. Vəzir Allahverdi xan şaha baş endirif dedi:

– Padşah sağ olsun, bu cavan oğlana yenə bir möhlət ver, qoy fikirrəşsin. Bəlkə dinə, imana gəlif padşahın əmrinnən çıxmağın nə olduğunu başa düşdü. Başa düşmədi, ağıllanmadı onda siz burda, cəllad burda. Nə əmriniz var, buyurarsınız yerinə yetirər.

Sonra vəzir Allahverdi xan əyilif Şah Abbasın qulağına dedi:

– İndi Əhmədi öldürmüyün heş bir xeyri yoxdu. Onu öldürtməknən əlinə heş nə düşmüyəjək. Yuxunu da öyrənə bilmiyəjəyik. Gəl bunu azaddıxdan məhrum elə, göndər zindana.

Vəzirin bu ağıllı məsləhəti padşahın beyninə batdı. Cəlladı hüzurunnan azad eliyif, Əhmədə dedi:

– Ay oğul, hələlik mən sənin qanınnan keçirəm. Gəl, bu daşı ətəyinnən tök, o yuxuyu aç.

Əhməd dedi:

– Padşah sağ olsun, üz vurmağın xeyri yoxdu. Sözüm sözdü.

Bəli, Şah Abbasın əmrinnən Əhmədi iqamətgahın qarşısında olan qırx metirik köhnə bir quyuya atdılar. Gündə rbir dəfə Əhmədi şahın hüzuruna gətirif sorğu-suala tutuf, yenidən aparıf quyuya salırdılar. Bu minvalnan Əhməd on gün quyuda qaldı.

Əhmədi quyuda qoyax, sizə kimdən xəvər verək, kimnən deyək, Şah Abbasın qızı Pəri xanımnan. Pəri xanım Şah Abbasın gözünün ağı-qarası bircə balasıydı. Qız nə qız... Gözəllikdə tayı-barabarı yoxuydu. Aya deyrdi: sən çıxma,mən çıxım, günə deyərdi: sən çıxma, mən çıxım. Sinə meydan, bel nazik, dodax nazik, qaşdar kaman kimi çatılıf, canını allam deyirdi. Mirvari kimi düzülən inci dişdərini, xumarranan ala gözdərini görən aşiqin ürəyi çətin ki, tab gətirə.

Hər səhər olduğu kimi yenə də Pəri xanım küləfirəngidə gəzirdi. Bir də gördü kü, budu bir nəfər cavan oğlanı fərraş qavağına qatıf aparır. Pəri xanımın ona yazığı gəldi. Tez qaravaşı yanına çağırıf dedi:

– Ay qız, fərraş qavağına qatıf bir nəfər cavan oğlanı apardı. Tez ol, bir öyrən görüm o kimdi, nə günahın sahividi?

Qaravaş dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xanım o bir dərzi şagirdidi. Adı Əhmədi. Atan onu sarayın qavağındakı qırx metirrik quyuya saldırıf. Hər gün bir dəfə gətirtdirif sorğu-suala tutur. Heş bir cavaf almıyıf yenidən onu quyuya atdırır.

Pəri xanım dedi:

– Ay qız, aydın de görüm, axı nə günahın sahividi? Atam onnan nə soruşur ku, o da cavaf vermir?

Qaravaş dedi:

– Xanım sağ olsun, Əhməd gejə yatanda bir vayğa görüf, İndi zalım oğlu tərsdiyif ki, vəyğıyı heş kimə söyləmərəm. Atan da onun üstünə düşüf kü, kimə danışmasan da mana danışmalısan. Xanım, başına dönüm, deməyə də utanıram. Amma oğlan, nə oğlan. Boylu-buxunnu, bığ yeri yenicə tərrəmiş növrəstə bir cavandı. Deyirsən, Yusifdi qəvirdən qalxıf. Adam istiyir ki, ürəyini yarıf içinə qoysun.

Pəri xanım dedi:

– Ay qız, dilotu ha yeməmisən. Bəsdi, daha. Get atamın hüzuruna. Ona çatdır kı, Pəri xanım sizi görmək istiyir.

Bəli, atasınnan icazə gələn kimi Pəri xanım fürsəti föftə vermiyif onun hüzuruna varid oldu. Atasının əllərinnən öpərək, ədəb-ərkannan onu salamladı. Şah Abbas qızının üz-gözünnən öpüf yanında oturtdu və dedi:

– Qızım, xeyir ola, mənim üçün nə qullux?

Pəri xanım dedi:

– Ateyi-mehriban, sənnən bir xahişim var.

Qızın tərəddüd elədiyini görən Şah Abbas dedi:

– Qızım, dünyada sənin bir sözünü iki eləməmişəm. İndi istədiyin nədi? Buyur görüm, eşidirəm səni.

Pəri xanım dedi:

– Atacan, eşitmişəm ki, bir nəfər dərzi şagirdini vəyğa danışmamax üstündən dustax eləmisən. İndi səndən xahişim budu ku, mənim xatirimə onu azad elə.

Şah Abbas dedi:

– Qızım, məndən nə xahiş eliyirsən elə, amma bu işdən ötrü ağız aşma.

Pəri xanım dedi:

– Atacan, sənin sağlığına mənim heş bir şeydən, heş nədən ehtiyacım yoxdu. Bir ehtiyacım varsa, o da bu sözdü.

Şah Abbas dedi:

– Qızım, gəl daşı ətəyinnən tök. Bu işdən əl çək. Bu sana aid olan iş deyil.

Pəri xanım kor-peşiman atasının hüzurunnan çıxıf bir başa öz



mənzilinə getdi. Otaxda bir xeyli var-gəl eliyif dözə bilmiyib küləfirəngiyə çıxdı. Pəri xanım küləfirəngidə öz-özünə dərs-kors eləməkdə olsun, görək Əhmədin başına nə iş gəldi?

Şah Abbas fərraşdara əmr elədi ki, Əhmədi hüzuruma gətirsinnər. Əmrə müntəzir olan fərraşdar bir göz qırpımında Əhmədin başının üstünü aldılar. Onu qavaxlarına qatıf şahın hüzuruna aparanda Pəri xanım Əhmədi gördü. Doğru deyiflər ki, məhəbbət insanın gözündə olar. Pəri xanım baxıf gördü kü, Əhməd qaravaş deyənnən də on qat artıx gözəldi. Boylu-buxunnu, şax qamətni, yerişi -duruşu canlar alır. Pəri xanım bir könüldən min könülə Əhmədə vuruldu. Öz-özünə söz verdi ki, nə yolla olursa-olsun Əhmədə kömək eliyif, ona ərə getməlidi.

Bəli, aradan bir-neşə gün də keşdi. Pəri xanım baxdı kı, duruş tuta bilmir. Axırda dözmiyif, həmişə ürək sirrini aşdığı Aybəniz addı kənizini yanına çağırtdırıf dedi:

– Aybəniz, özün yaxşı bilirsən ki, sənin xətrini dünyalar qədər istiyirəm. İndiyə kimi sənnən gizdi heş nəyim olmuyuf.

Aybəniz baxdı kı, Pəri xanım sözlü adama oxşayır. Odu ku, dedi:

– Xanım sağ olsun, bir neçə ildi ki, mən sizə xidmət eliyirəm. Bu vaxt ərzində məndə pis, yarıtmaz bir hərəkət görmüyüfsünüz. Mən sizin xətrinizi bircə balamdan əziz tuturam. Yenə də nə sirriniz olsa, mana açıx ürəknən deyə bilərsiniz. Bir allah bilir ki, sizin yolunuzda ölümə getməyə hazıram.

Pəri xanım dedi:

– Aybəniz, elə isə qulax as. Atam bir nəfər dərzi şagirdini bizim imarətin qarşısındakı quyuya saldırıf. İndi ona kömək eləmək lazımdı. Mən aşpaza tapşırmışam. Onnan yemək-işmək götürüf aparıf verərsən Əhmədə. Nə desə, gəlif mana deyərsən.

Bəli, Aybəniz arıyı xəlvət eliyif şər qarışanda yaxşı xörəklərdən götürüf özünü verdi quyunun başına. Başladı Əhmədi səsdəməyə... Əhməd eşidirsənmi?

Əhməd dedi:

– Axı siz kimsiniz? Nə istiyirsiniz?

Aybəniz dedi:

– Əhməd, sirr saxlamaxnan nejəsən?

Əhməd dedi:

– Sirr saxlamağı bajarmasaydım, bu qarannıx quyunun divində nə işim qalmışdı.

Aybəniz dedi:

– Elə isə qulax as. Məni şahın qızı Pəri xanım göndərif. Sana yemək gətirmişəm. Nə lazım olsa, mana de xanıma yetirim, sənə kömək eləsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əhməd razılığını bildirif dedi:
– Siz mana yemək gətirirsiniz. Mən isə qırx metirrik quyunun divindəyəm. İndi sən o xörəkləri mana nejə verə bilərsən?
Aybəniz məəttəl qalıf, bilmədi ki, neyləsin. Bir onu deyə bildi ki, gedim xanımın yanına görüm nə deyir.
Əhməd quyunun divində qalmaxda olsun, sizə xəvəri kənizdən verim. Aybəniz birbaşa özünü verdi Pəri xanımın yanına. Bütün əhvalatı danışıf dedi:
– Xanım, indi məsləhət sizindi.
Pəri xanım dedi:
– Di, tez ol, durma get mənim ikinci otağımı aç. Orada mənim qırx metr uzunnuğunda kəməndim var. Kəməndi götür, apardığın yeməkləri də bir yaylığa düyünnə, kəməndə bağlıyıf quyuya salla. Sonra yaylığı da kəməndə bağlıyıf quyuya salla.
Bəli, Aybəniz Pəri xanım deyənnəri hazırrıyıf özünü verdi quyunun başına. Aranı xəlvət eliyif Əhmədi səsdədi. Pəri xanımın salamını yetirif, kəməndi quyuya salladı. Əhməd yaylığı boşaldıf, Aybənizə və xanıma minnətdarrığını bildirdi.
Aybəniz dedi:
– Əhməd, nə təmənnan var de, xanıma yetirim.
Əhməd dedi:
– Allah xanımın canını sağ eləsin, mənim heç bir təmənnam yoxdu.
Aybəniz Əhmədnən vidalaşıf özünü Pəri xanımın yanına yetirdi. Gördü kü, Pəri xanım həsrət dolu gözdərini yola dikif. Aybəniz dedi:
– Xanım sağ olsun, dediklərini, göndərdiklərini cannan-başnan sahivinə çatdırdım. Əhməd sizə salam göndərdi və çox minnətdarrıx elədi.
Bu minvalnan xeyli müddət keşdi. Şah Abbas arabir Əhmədi gətirtdirif bir cavab almıyanda yenə də əmr eliyif qırx metirrik quyunun divinə atdırırdı. Amma Əhmədi bu əziyyətdən qurtarmax, ona qovuşmax istəyi Pəri xanımı bir dəqiqə rahat buraxmırdı. Çox fikirdən, götür-qoydan sonra Aybənizi yanına çağırtdırıf dedi:
– Aybəniz, gedif şəhərin ən yaxşı kənkannarının on nəfərini mənim hüzuruma gətirərsən.
Baş üstə, deyif Aybəniz götürüldü. Yerini-yatağını öyrənif şər qarışana on nəfər kənkanı Pəri xanımın hüzuruna gətirdi. Kənkannar xanıma tə'zim edif, qullux göstərdilər.
Pəri xanım dedi:
– Əvvəla, deyin görüm sirr saxlamaxnan aranız nejədi?
Kənkanbaşı irəli yeriyif, baş əyif dedi:



– Xanım sağ olsun, bizim neçə başımız var kı, sənin qarşında sirr açax. Pəri xanım dedi:
– Elə isə mana diqqətnən qulağ asın. Mənim bu oturduğum yerdən bizim həyətdəki quyuya qədər lağım atmax lazımdı. Nə qədər tez eləsəniz, haqqınız bir o qədər tez olar. Kənkanbaşı dedi:
Xanım sağ olsun, bizim nə hünərimiz var, sənnən haqq-hesaf eliyək.
Pəri xanım dedi:
– Kənkanbaşı elə isə günü savahdan işə başdıya bilərsiniz.
Bəli, beş gün tamam olur, altıncı günü lağım hazır olur. Pəri xanım kənkanbaşıyı çağırıf ağır ən'amnan onnarı yola salır.
Elə ki, axşam oldu. Pəri xanım Aybənizi yanına çağırıf dedi:
– Aybəniz, artıq lağım hazırdır. Fürsəti fota vermək olmaz. Tez get, axşama hazırrıx gör.
Heş bir saat keşmir ki, Aybəniz hazırradığı xörəkləri və ədviyyatdarı gözəl bir məcməyiyə qoyuf xanımın yanına gətirir Pəri xanım da ayna qavağına keçif özünə yaxşıca əl gəzdirir. On dörd rəng qələmnən özünə lazım olan bəzək-düzəyi verif kənizə işarə elədi ki, arxamca gəl.
Xanımnan kəniz getməkdə olsun, sizə xəvəri Əhməddən verim. Əhməd on yeddinci günüydü kü, quyuya salınmışdı, Şah Abbas gündə bir dəfə onu çağırtdırıf sorğu-suala tutur, yenə də quyuya saldırırdı. Axırıncı dəfə Şah Abbas fərraşdara falaqqa, çuvux gətirtdirif Əhməd bihuş olana qədər döydürdü. Yenidən aparıf quyunun divinə tulladılar. Əhməd qırx çuvuğun ağrısınnan zarım-zarım zarıldıyırdı. Ufultusu, iniltisi yeri-göyü başına götürmüşdü. Bu zaman Pəri xanımnan kəniz özünü quyuya yetirdi. Baxıf gördülər ki, heş Əhmədin halı-hal döyül. Pəri xanım kənizə işarə elədi ki, Əhmədi qurdala. Aybəniz yaxınlaşıf Əhmədi sirkələdi. Əhməd asta-asta, birtəhər başını qaldırıf Pəri xanımnan kənizi görüf özünü itirdi. Handan-hana özünə gəldi. Əl atıf gözünü silif öz-özünə dedi:
– Yə'qin məni qara basır, ya da yuxu görürəm. Bu quyuda insan nə gəzir.
Pəri xanım baxıf gördü kü, Əhməd sayıxlıyır. Aybənizi yolluyuf gülaf suyu və dəva-dərman gətirtdi. Gülaf suyunu Əhmədin üzünə səpdilər, ağrıyan, göynüyən yerrərinə məlhəm qoydular. Handan-hana Əhməd özünə gəldi. Gözdərini dikif diqqətnən xanımlara baxırdı. Qızdar ona yaxınnaşıf salam verdilər. Əhməd salama ədəbnən cavaf verdi. Pəri xanım dedi:
– Oğlan, bil və agah ol ki, mən şahın qızıyam. Adım da Pəri xanımdı. Bu da mənim sevimli kənizim Aybənizdi. İndi de görüm, atam səni niyə bu quyunun dibində çürüdür. Səvəvi nədi?
Əhməd indi bildi ki, buna yemək-işmək göndərən və onu gətirən indi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onun qarşısında oturan bu bir cüt nazənindi. Əhməd birtəhər özünü topluyuf dedi:

– Xanım, mənim adım Əhməddi. Mana elə dərzi şagirdi Əhməd deyəllər. Sənin atan məni bir yuxu üçün bu cəzaya məhkum eliyif.

Pəri xanım dedi:

– Əhməd, sən bir dərzi şagirdi, fağır adamın birisən. Atam da böyük bir ölkənin padşahıdı. Onun sənnən nə qəsd-qərəzdiyi ola bilər ki, sənə düşmən kəsilsin. Dediyin o yuxu nədi ki, onu söyləmək istəmirsən. Bunnan ötrü də bu qədər əzaf-əziyyətə düçar olufsan. Döyülüf, təhqir olunuf, qırx metirrik quyunun divində çürüyürsən.

Əhməd dedi:

– Xanım sağ olsun, yuxunu mən tam görməmişəm. Ta kı, məqsədimə yetişməmiş mən o yuxuyu heş kimə söyləmiyəjəm. Pəri xanım nə qədər üz vurdusa da, Əhməd öz dediyindən dönmədi ki, dönmədi. Pəri xanım dedi:

– Əhməd, adam bu qədər höjət olmaz. Vəyğanı söylə, qoy atam sənnən əl çəksin.

Əhməd dedi:

– Xanım sağ olsun, mən sənin yolunda ölümə gedərəm, ancax vəyğanı söylüyə bilmərəm.

Pəri xanım baxıf gördü kü, Əhməd dediyinnən dönən deyil. Onnan xüdafizdəşif öz otağına getdi.

Şah Abbas hər gün yenidən Əhmədi hüzuruna çağırtdırır, heş bir cavaf almıyanda yaxşıca döydürüf quyuya saldırırdı. O biri tərəfdən də Pəri xanım hər gün bir xonça düzəltdirif Əhmədə yolluyurdu. Bu münvanlla Əhməd xeyli müddət quyuda qalır.

Günnərin bir günü Əhməd lağımnan xanımın qəsrinə tərəf gedir. Gəlif gözəl bəzənmiş bir evə çıxır. Əhməd dayanıf o tərəfə, bu tərəfə döyükür. Bir də baxır kı, sağ tərəfdə bir qapı var. Yavaşca qapıya tərəf gedir, qapını açarax içəri daxil olur. Əhməd nə görsə yaxşıdı. Görür kü, taxtın üstündə gözəl bir qız yatır. Qızı görəndə az qalır Əhmədin ağlı başınnan çıxa. Bir az diqqət eliyəndə görür kü, bu Pəri xanımdı. Onun baş tərəfində qızıl şam, ayax tərəfində isə gümüş şam yanır. Yasəmən zülflər mərmər sinənin üstünə tökülüf. Şamın işığında kı, düşüf, elə bil ki, on dörd gejəlik aydı. Oğul istiyirəm ki, bu gözəllik qarşısında tav gətirsin. Əhməd birtəhər özünü topluyuf yatağa tərəf yeridi. Şamların yerini dəyişdirif, əyilif Pəri xanımın sol yanağınnan bir busə aldı. Sonra yavaşca sarayı tərk eliyif qaşdı. Əhməd quyuda qalmaxda olsun, sizə xəvəri Pəri xanımnan verim. Pəri xanım səhər tezdən yuxudan oyanır. Həmişə oldduğu kimi mina gərdənə, şimşad boyuna, gül camalına baxmax üçün



ayna qavağına keçir. Görür kü, sol yanağına ləkə düşüf. Bu nə olan işdi. Qalır mat-məəttəl. Yatağına sarı qayıdanda görür kü, şamların yeri də dəyişdirilif. Pəri xanım pis vəziyyətə düşür. Ajıxlanarax kənizdəri səsdiyir. Kənizdər xanımın hirsdəndiyini görüf tez özdərini yetirillər. Onnardan biri irəli çıxıf dedi:

– Xanım, bizim üçün nə qullu?

Pəri xanım dedi:

– Deyin görüm, mənim otağıma kim gəlmişdi? Kim bu şamların yerini dəyişdirif?

Kəniz dedi:

– Xanım sağ olsun, biz uzun müddətdir ki, sənə qullux eliyirik. Bizim yaxşılığımızı, pisdiyimizi sən bizdən yaxşı bilirsən. Bizdən sənə xəyanət yoxdu.

Pəri xanım baxıf gördü kü, kənizdərin suçu yoxdu. Odu ku, onnarı öz hüzurunnan azad eliyif başdadı fikirrəşməyə. Çox götür-qoy elədi, ora-bura yozdu, birdən Əhməd yadına düşdü. Barmağını dişdiyif öz-özünə dedi:

– Bu Əhmədin işi olmalıdı. Onnan başqa heç kim cür'ət eliyif gələ bilməz. İndi yaxşısı budur güdüm, görüm bu işin axırı nə olur.

Bəli, axşam olur. Pəri xanım şamları düzəldir. Yatmax vaxtı gələndə yatağına uzanır. Özünə söz verir ki, yatmıyıf Əhmədi güdsün.

Bunnar burada qalsın, sizə xəvəri Əhməddən verim. Əhməd gejə yarıya kimi gözdədi. Arxayın olannan sonra kı, artıx əl-ayax kəsilif, duruf özünü verdi Pəri xanımın barigahına. Mənzilə daxil oluf sağ tərəfin qapısını açıf yavaşca içəri daxil olur. Ayaxlarının ujunda xanımın çarpayısına yaxınnaşır. Əhməd xeyli dinniyənnən sonra yaqın elədi ki, Pəri xanım yatıf. Amma Pəri xanım yatan nə gəzirdi. Yuxusuna haram qatıf Əhmədi güdürdü. Hə, Əhməd arxayın oldu ku, Pəri xanım yatır, əyildi onun üzünnən öfsün. Bu zaman Pəri xanım əlini atıf Əhmədin qolunnan yapışıf dedi:

– Ədə, əbləh sən nağayrırsan? Sən keçən gejə də bura gəlmişdinmi?

Əhməd dedi:

– Bəli, xanım, gəlmişdim.

Pəri xanım dedi:

– De görüm, gəlməkdə məqsədin nəydi? Gəlmişdin, bə nə elədin?

Əhməd dedi:

– Xanım sağ olsun, mənim heş bir pis niyyətim yoxuydu. Heş nə də eləməmişəm.

Pəri xanım dedi:

– Ədə, necə yanı heş nə eləməmişəm. Mənim üzümnən öpən sən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyildin? Şamların yerini dəyişən sən deyildin?
Əhməd baxdı kı, daha danışmağın yeri deyil. Pəri xanım hər şeyi bilir. Odu ku, nə iş tutmuşdu hamısını açıf danışdı. Pəri xanım baxıf gördü kü, daha iş-işdən keçif. Əhməd o günnən Pəri xanımın yanına gəlif-getməyə başdadı. Gündüzdər olanda quyuda, gejələr isə Pəri xanımın yanında yaşıyırdı. Bu minvalnan xeyli vaxt keşdi.
İndi sizə xəvəri Firəng padşahınnan verim. Pəri xanım öz ağlı-kamalı, gözəlliyi ilə bütün dünyaya səs salmışdı. Ona görə də, dünyanın hər yerinnən elçilər axışıf gəlirdi. Firəng padşahı da elçi göndərif Pəri xanımı öz oğluna istədi. Şah Abbas elçilərə rədd cavabı verdi. Aradan xeyli keçmişdi ki, səhər duruf gördülər ki, İsfahan şəhərini dörd tərəfdən Firəng padşahının vəziri öz qoşununnan mühasirəyə alıf. Vəzir səhər tezdən Şah Abbasın yanına öz adamını göndərif dedi:
– Şah Abbas, bil və agah ol ku, mən Firəng padşahının vəziriyəm. Gəl yaxşılıxnan qızını Firəng padşahının oğluna ver. Əgər verməsən, bizim üç şərtimizi yerinə yetirməlisən. Əgər o şərtdəri yerinə yetirə bilməsən, sənin torpağını at torvasında daşıdaram.
Şah Abbas vəziri, vəkili yığıf məşvərət keçirdi. Vəzir Allahverdi xan dedi:
– Padşah sağ olsun, əvvəla çalışmalıyıx kı, Firəng padşahının qoyduğu şərtdəri açа bilən bir adam tapax. Əgər bu şərtdəri yerinə yetirə bilməsək, gərək ölənəcən vuruşax. Başqa yollumuz yoxdu. Çünki onların dediyi kimi Pəri xanımı öz əlimiznən gəcavəyə qoyuf yola salsax, bu bizim üçün ölümnən betər olar. Belə namussuzluxdansa, ölmək daha məsləhətdi.
Hamı vəzir Allahverdi xanın təklifini bəyəndi. Şah Abbas car çəkdirdi, nə qədər İsfahanda adam var idi divanxananın qavağına yığdılar. Şah Abbas dedi:
– Ey İsfahan əhli, hamınız mana diqqətnən qulağ asın. Firəng padşahının qoşunu şəhərimizi üzük qaşı kimi mühasirəyə alıf. Gördüyünüz bu sandığı da onnar gətirif. Sandığın üz hissəsində yazılıf: "Sandığın ağzını aşmadan içindəkini tafmalısan". Əgər tapa bildin, tapdın. İşdi, tapa bilməsən qızın Pəri xanımı sandıxnan baravar gəcavəyə qoyuf yeddi ilin bacı-xəracınnan yollamalısan. Şah Abbas sandığın üstündə yazılanı oxuyannan sonra dedi:
– İndi kim bu işin öhdəsinnən gələ bilsə, bu sirri aşsa, onu dünya malınnan qəni eliyəjəm.
Camaat nə qədər elədisə, bir şey hasil olmadı. Şah Abbas axırda böyük münəccimlərini çağırtdırıf bu işə bir rəml atmasını tafşırdı. Bütün bu cəhddər boşa çıxdı. Şah Abbas axırda qızı Pəri xanımı yanına



çağırtdırıf dedi:
– Qızım, işimiz lap müşkülə düşüf. Bilmirəm, neyliyim, Firəng padşahına nə cavaf verim. Camaatı qırğına verif, ölkəni viran elətmək istəmirəm.
Pəri xanım dedi:
– Ata , səbr eləmək lazımdı. Darıxma, axırı yaxşı olar.
Pəri xanım atasınnan vidalaşıf öz otağına qayıtdı. Səbirsizdiknən axşamı gözlədi. İndi isə sizə xəvəri Əhməddən verim. Əhmədin başı Pəri xanıma elə qarışmışdı kı, daha quyuda olduğu yadınnan çıxmışdı. Gündüzdər Pəri xanımın xəyalınnan yaşıyır, gejələr özünü onun hüzuruna çatdırırdı. Şah Abbasın arabir gətirtdirif döydürməsi daha onun heş vejinə deyildi. Əhməd yenə də gejə düşəndə arıyı xəlvət eliyif özünü Pəri xanımın yanına verdi. Gördü kü, yox, bu xına, o xınadan deyil. Pəri xanımın irzi-ruhu qaçıf, halı da özündə döyül. Əhməd dedi:
– Pəri xanım, olmasın azar. Bu nə vəziyyətdi? Halın heç özündə deyil.
Pəri xanım dedi:
– Əhməd, məni gücnən Firəng padşahının oğluna aparıllar. Sənnən ayrılmax mana ölümnən betər olar.
Əhməd dedi:
– Pəri xanım, bir əməlli-başdı məni başa sal görüm, nə deyirsən.
Pəri xanım dedi:
– Atama Firəng padşahınnan bir sandıx gəlif. Sandığın üstündə yazılara heş kim cavaf tapa bilmir. Atamın torpağında olan bütün bilicilər, üləmalar nə qədər baş sındırdılarsa, bir şey hasil olmadı.
Əhməd dedi:
– Xanım, bə heş demədiniz ki, sandığın üstünə nə yazılıf.
Pəri xanım dedi:
– Yazılıf kı, sandıxda olan şeylərin adını ağzını aşmadan deməlisən. Ya da qızın Pəri xanımı sandıxnan bərabər gəcavəyə qoyuf yeddi illik bacı-xəracnan bura göndərməlisən.
Bayaxdan diqqətnən Pəri xanımı qulağ asan, ona ürək-dirək verən Əhmədin əhvalı birdən-birə yaman dəyişdi. Öz-özünə fikirrəşdi ki, birdən Pəri xanımı zornan götürüf Firəng padşahının oğluna aparallar.
Pəri xanım baxıf gördü kü, Əhmədi fikir yaman götürüf. Əli qoynunda qalıf. Odu ku, dedi:
– Əhməd, qulaxlarını aç məni yaxşı-yaxşı dinlə. Mən sana nə desəm, onu yaxşı-yaxşı yadında saxla. Atamın hər şeydən əlacı kəsilif, nə desən onu edəjək. Səhər mən atamın hüzuruna gedəjəm. Bilirəm ki, sandıq barəsində mütləq söz açılajax. Onda mən onun yadına salajam kı, quyuda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

saxladığın dərzidən bir soruşmusanmı? Bu işə yalnız o əncam çəkə bilər.
Əhməd dedi:
– Xanım sağ olsun, mən nə bilirəm ki, nə də əncam çəkəm.
Pəri xanım dedi:
– Əhməd, anan səni təsadüfən yeddi aylığında dünyaya gətirməyif ki?.. Qulağ as, deyirəm də. Atam səni çağırtdıranda gedif ədəv-ərkannan salam verif, qullux göstərərsən. Sən özünü elə aparарsan kı, guya heş nədən xəvərin yoxdu. Onda o təzədən hər şeyi sana danışajax. Onnan sonra sən cavavını verif deyərsən. Padşah sağ olsun, o başı lil, bu başı lil, ortasında qızıl gül. Sandıxın içindəki qızılgüldü.
Bəli, Əhməd o gejəni də Pəri xanımın yanında qaldı.
Savah açılmamış çıxıf quyuya getdi. Pəri xanım da səhərin gözü açılan kimi atasının hüzuruna getdi. Şah Abbas qızını çox mehribannıxnan qarşıladı və yanında yer göstərdi. Pəri xanım dedi:
– Ateyi-mehriban, gözümə bir az birtəhər dəyirsən?
Şah Abbas dedi:
– Qızım, Firəng padşahının yolladığı sandıxın sirrini heş kim aça bilmədi. Özüm də lap məəttəl qalmışam. Bilmirəm neyliyim.
Pəri xanım dedi:
– Ata, olarmı bir söz deyim?
Şah Abbas dedi:
– Gözümün işığı, o nə sözdü danışırsan... Birini də de, ikisini də.
Pəri xanım dedi:
– Ata, yadına gəlirmi ki, sən vəyğanı söyləməmək üstündə bir dərzi şagirdini quyuya saldırmışdın. Ola bilər ki, o, bu sirri aşsın.
Şah Abbas dedi:
– Qızım, mənim bu qədər üləmalarım, başbilənnərim, dünyagörmüş qojalar yoza bilmir, ağzınnan süd qoxusu gələn gəda onu hardan yozar?
Pəri xanım dedi:
– Ata, onu düz deyillər ki, yüz bilən olsa da, yenə bir bilməzə genəş.
Şah Abbas dedi:
– Qızım, nə deyirəm, qoy sən deyən olsun.
Şah Abbas taxta çıxıf Əhmədi hüzuruna gətirtdi. Əhməd şahın hüzurunda ikiqat baş əyif, ədəv-ərkannan salam verdi. Şah Abbas salamı alıf, ona oturmax üçün yer göstərdi. Şah Abbas dedi:
– Əhməd, bilirsənmi səni nə üçün çağırtdırmışam?!
Əhməd dedi:
– Padşah sağ olsun. hardan bilim? Yaqın yenə də huşum itənə kimi döydürəjəksən.
Şah Abbas dedi:



– Əhməd, indi səni tamam başqa bir iş üçün çağırtdırmışam.
Şah Abbas Firəng padşahının göndərdiyi sandıxnan bağlı əhvalatı mən sizə danışdığım kimi Əhmədə nağılladı. Şah danışdıxca Əhməd də özünü heş nədən xəvəri olmuyan kimi göstərif, tez-tez heyfisdənirdi ki, bu nə işdi başımıza gəlif. Əhməd bir xeyli fikirləşənnən sonra dedi:
– Şah sağ olsun, buyur, Firəng padşahının adamları sandığı gətirsinnər. Görək, nə eliyirik.
Bəli, şah əmr verdi. Firəng padşahının adamları sandığı gətirif ortalığa qoydular. Əhməd çox bilmiş kimi, sandığın o tərəfinə keçir, bu tərəfinə keçir, əyilif qulağını tutuf dindiyir və nəhayət ki, dillənir:
– Padşah sağ olsun, sandığın bu başında lildi, o başında lildi, ortasındakı qızılgüldür.
Firəng padşahının nümayəndələri irəli yeriyif təsdiqliyillər ki, bəli, düzdü. Onnar kor-peşman sandığı da götürüf yola düşüllər.
Firəng padşahının adamları yol getməkdə olsunnar, sizə xəvəri Şah Abbasdan verim. Şah Abas yenə də Əhmədi hüzuruna çağırtdırıf dedi:
– Əhməd, bala sandığın içindəkini tafmaxnan böyük bir bəlanı İsfahan şəhərinin üstünnən rədd elədin. Bunun üçün çox sağ ol. Ancax indi, de görüm, gördüyün yuxu nəydi?
Əhməd cavaf verdi:
– Şah sağ olsun, bir dəfə demişəm, yenə də deyirəm. məni öldürsən də, tikə-tikə doğratdırıf hər şaqqamı bir alaqapıdan asdırsan da, vəyğamı danışmıyajam.
Şah Abbas Əhmədi bir yaxşı döydürüf, yenidən quyuya saldırdı. Bunnarı qoyax İsfahanda, sizə xəvəri Firəng padşahınnan verək. Firəng padşahı artıx günnəri sayırdı. Bilirdi ki, bu günə, savaha adamları gəlməlidir. Özü də arxayınıydı kı, gəlini də gətirəjəklər.
Bəli, Firəng padşahının adamları günə bir mənzil, teyi-mənazil, nağıllarda mənzil olmaz, axır kı, gəlif Firəngistana çıxdı. Padşaha xəvər çatdı kı, bə deməzssənmi adamların gəlir. Padşahın oğlu başda olmaxnan çaparrar onnarı qarşıladı. Gördülər ki, gəlin nədi, zad nədi. Əlləri ətəklərinnən uzun Firəng padşahının hüzuruna gəldilər. Oğlunun halının dəyişdiyini görən padşah dedi:
– Heç fikir eləyif, eyninə də alma. Bu dəfə onnara elə bir qurğu quraram kı, özdəri də afərin desin. Şah Abbas da ələci kəsilif, yeddi ilin bacı-xəracınnan qızı Pəri xanımı bizim hüzurumuza göndərər. Sən heş darıxma...
Firəng padşahı,vəzir, vəkil və ə'yannarı tofluyuf yenidən İsfahana yola salmax istədiyini bildirdi. Onnar padşaha məsləhət gördülər ki, bu dəfə qırx at göndərək. Atların hamısı bir ölçüdə, bir boyda və bir rəngdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olsun. Qoy tafsınnar görək atdarın neçəsi birillik, neçəsi ikiillik və neçəsi də üçillikdir.

Firəng padşaşının adamları bir neçə gün dincələnnən sonra yenidən İsfahana tərəf üz tutdular. Bunnar gündüzü gejəyi qat, gejiyi gündüzə qatıf, gündə bir məazil, teyyi-mənazil, axır kı, gəlif İsfahanın qırağına çatdılar. Adam yolluyuf Firəng padşahının naməsini Şah Abbasa yetirdilər. Şah Abbas naməynən tanış oluf gördü kü, yox işdər yenidən müşkülə döndü.

İndi sizə xəvəri Şah Abbasdan verim. Şah Abbas baxdı kı, yenə də Firəng padşahının göndərdiyi sorğuya cavaf verə bilmir. Birdən qızı Pəri xanım yadına düşdü. Cariyyəni yolluyuf qızını hüzuruna çağırtdırdı. Pəri xanım atasının qarşısında tə'zim eliyif, əlinnən öfdü. Atasının halını pərişan görüf soruşdu:

– Ateyi-mehriban, qanın niyə belə qaralıf?

Şah Abbas dedi:

– Qızım, elə bir şey yoxdu. Firəng padşahı bizim üstümüzə qırx at yolluyuf.

Pəri xanım soruşdu:

– Ata, nə at?..

Şah dedi:

– Qızım, Firəng padşahı təklif edir kı, bu atdarın birilliyini, ikiilliyini, üçilliyini müəyyən eliyək. Göndərdiyi namədə yazır kı, əgər tapmasan qızın Pəri xanımı da atdarnan göndər gəlsin.

Pəri xanım dedi:

– Ata, kefini pozma, dərziyi çağır, çox güman ki, bu işin də öhdəsinnən gələr.

Şah Abbas əmr eliyif Əhmədi quyudan gətirtdi. Əhməd padşahın qarşısında ikiqat tə'zim eliyif dedi:

– Padşah sağ olsun, bizə görə nə qullux?

Şah Abbas dedi:

– Əhməd, bilirsənmi səni niyə çağırtdırmışam.?

Əhməd dedi:

– Qibleyi-aləm sağ olsun, bilmirəm, söylə bilək.

Şah dedi:

– Oğul, keçən dəfə bizi xatadan yaxşı sovuşdurdun. Yenə də, Firəng padşahı öz adamlarını üstümüzə göndərif. İndi qoyduğu şərt daha ağırdı. Qırx dənə bir boyda, bir buxunda, bir rəngdə, eyni ölçüdə at göndərif. Onnarın neçəsinin biryaşar, neçəsinin ikiyaşar, neçəsinin də üçyaşar olduğunu müəyyənnəşdirmək lazımdı.

Əhməd dedi:



– Padşah sağ olsun, elə bumu? Elə isə qoy mən deyənləri tez yerinə yetirsinnər. Bir açıx yerdə bir neçə yerə vedrədə süd qoymax, ikinci bir yerdə qalot qayırıf içinə ot qoymax, üçüncü bir yerdə qalot qayırıf içinə arpa tökmək lazımdı.

Padşah eşik ağasını çağırıf Əhməd deyənnəri ona tafşırdı. Eşik ağası gef görüləsi işdərin hamısını görüf padşahın hüzuruna gəldi. İkiqat əyilif tə'zim eliyif dedi:

– Qibleyi-aləm sağ olsun, dediklərinizin hamısı hazırdı.

Padşah, vəzir, vəkil Əhmədnən baravar həmin yerə gəldilər. Padşah göstəriş verdi Firəng padşahının nümayəndələri də gəldilər. Əhməd irəli yeriyif Firəng padşahının nümayəndələrinə müraciətnən dedi:

– İndi mən sizin tafşırığı yerinə yetirməyə hazıram. Buyurun, atdarınızı bura gətirin və açıf buraxın.

Firəng padşahının nümayəndələri atları gətirif açıf buraxdılar. Atlardan on üçü bir yaşar, on üçü iki yaşar, on dörd başı isə üç yaşar idi. Əhməd atdarı seçif müəyyənləşdirənnən sonra üzünü Firəng padşahının nümayəndələrinə tərəf tutuf soruşdu:

– Atdarı düzmü müəyyənnəşdirdik?

Nümayəndələr hamısının doğru olduğunu təsdiq etdilər. Bu mə'rəkədən sonra Firəng padşahının adamları atdarını da götürüf yola düşdülər.

Bunnar yol getməkdə olsun, sizə xəvəri Şah Abbasnan Əhməddən verim. Şah Abbas Firəng padşahının nümayəndələrini yola salannan sonra yenidən Əhmədə vəyğıyı danışmağı təklif elədi. Əhməd tə'zim eliyif dedi:

– Padşah sağ olsun, mən artıq sözümü demişəm. Buna təkrar-təkrar qayıtmağın heç bir lüzumu yoxdu.

Padşah hirsdənif Əhmədi həmən quyunun divinə tullatdı. Şah Abbası taxtında, Əhməd də quyunun divində qoyax. Sizə xəvəri Firəng padşahınnan verək. Bəli, Firəng padşahının adamları gejəni gündüzə, gündüzü gejəyə qatıf yolun damarını qırıf axır kı, gəlif öz ölkələrinə çatdılar. Adamlarının əliboş qayıtması Firəng padşahının əhvalını tamam korramışdı. Çox fikirdən, götür-qoydan sonra saray ə'yannarını başına yığıf məsləhətdəşməyə başdadı. Belə qərara gəldilər ki, bu dəfə də üç alma göndəsinnər. Almaların üstündəki kağıza yazılmışdı. "Şah oğlu Şah Abbas taf görək bu almaların birilliyi, ikiilliyi və üçilliyi hansılardı. Tapdın almadı, tafmadın qızın Pəri xanımı da almalarnan buraya göndər. Firəng padşahı öz adamlarına tafşırdı kı, örgənin görün bizim bu sirrəri açan adam kimdi, nəçidi.

Bəli, Firəng padşahının adamları tədarük görüf İsfahana tərəf yol



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

başdadılar. Günə bir mənzil, teyyi-mənazil, nağıllarda mənzil olmaz, gejiyi gündüzə, gündüzü gejəyə qatıf, yolun damarını qırıf axır kı, gəlif İsfahana çatdılar. Şah oğlu Şah Abbasa xəvər çatdırdılar kı, evin yıxılsın, niyə durufsan?... Bə deməssənmi Firəng padşahının adamları yenə gəlif başımızın üstünü alıf.

Şah Abbas saray əhlini başına yığıf tədbir görməkdə olsun, sizə xəvəri Pəri xanımnan verim. Pəri xanım arıyı xəlvət eliyif başı alovlu özünü Əhmədin yanına yetirdi. Əhməd baxdı kı, Pəri xanım onun gözünə birtəhər dəyir. Odu ku, soruşdu:

– Xanım, noluf, sözdü adama oxşuyursan?

Pəri xanım dedi:

– Nə olajax, Firəng padşahı da atamın başını xaraf eliyif. İndi də üç dənə alma göndərif. Tələb edir ki, almaların birilliyini, ikiilliyini, üçilliyini tap. Əgər tafmasan, qızın Pəri xanımı da almalarnan yolla gəlsin. Əhməd, bilirəm ki, yenə də əvvəl-axır atam səni çağırtdırajax. Ona görə də əvvəljədən deyirəm neyləməlisən... Mizin üstündə üç kasada su dolduruf qoyarsan. Almaları bir-bir suya buraxarsan. Onda görərsən ki, bir illik alma ağırdı, suyun divinə getdi. Suyun ortasında qalan alma iki illik almadı. Üçüncü alma isə suyun üzündə qalajax. Onda bilərsən ki, almaların hansı birillik, hansı ikiillik, hansı üçillikdi.

Pəri xanım hər şeyi tamam-kamal Əhmədə başa salannan sonra qalxıb öz otağına getdi. Əhməd quyuda, Pəri xanım da öz iqamətgahında qalmaxda olsun, sizə xəvəri Şah Abbasdan verim.

Şah Abbas yenə də bütün İsfahan əhlinə müraciət elədi. Lakin heş kim almaları müəyyənləşdirə bilmədi. Vəzir Allahverdi xan şaha baş əyif dedi:

– Qibleyi-aləm sağ olsun, mən elə bilirəm ki, bu işin öhdəsinnən gəlsə, yenə də Əhməd gələjək.

Şah Abbas adam göndərif Əhmədi quyudan gətirtdi. Əhməd gəlif padşahının qarşısında baş əyif, ədəv-ərkannan salam verdi. Şah Abbas Əhmədin salamını alıf dedi:

– Oğul, Firəng padşahı bizi yenə də imtahana çəkir. Üç alma göndərif ki, onun birilliyini, ikiilliyini və üçilliyini müəyyənnəşdirək. Müəyyənləşdirə bilməsək, ya gərək Pəri xanımı almalarnan baravar Firəng padşahının hüzuruna göndərək, ya da kı, dava eləyif, qan tökək.

Əhməd dedi:

– Qibleyi-aləm sağ olsun, indi göstəriş verin ki, mən dediklərimi yerinə yetirsinnər. Qalan məsələlərdə sizin işiniz yoxdu.

Bəli, Əhmədin göstərişinnən üç kasa və ətrafında su gətirif taxtın üstünə qoydular. Hər şey hazır olannan sonra Əhməd dedi:



– Firəng padşahının nümayəndələrinə deyin ki, almaları gətirsinnər.

Firəng padşahının nümayəndələri almaları üstü qırmızı örtüknən örtülmüş bir məcmayıda gətirdilər. Əhməd qalxıf kasaları taxtın üstünə düzüf içərilərini suynan doldurdu. Almanın birini götürüf kasanın içinə saldı. Alma batıf tez də suyun üzünə çıxdı. Əhməd müəyyənləşdirdi ki, bu alma üçillikdi. Sonra ikinci almıyı götürüf ikinci kasıya saldı. Alma batarax suyun divinə endi. Əhməd bunu birillik alma hesaf elədi. Üçüncü almyı isə üçüncü kasıya tulladı. Bu alma suyun yarısına qədər enif batmadı. Əhməd bunun da ikiillik alma olduğunu müəyyən elədi. Beləliknən, Əhməd almaların birilliyini, ikiilliyini və üçilliyini müəyyən elədi.

Üzünü padşahıa tutuf dedi:

– Padşah sağ olsun, bax, kasanın divinə düşən bu ilkidi, çünki onun suyu hələ çəkilmiyif. Kasanın ortasında qalan ikillikdi. Çünki onun suyu hələ tam çəkilmiyif. Suyun üzündə qalan isə üçillikdi. Çünki o quruyuf. Ona görə də suya batmır.

Firəng padşahının adamları kor-peşman öz ölkələrinə getməyin binasını qoydular. Bunnar getməkdə olsun, sizə xəvəri Şah Abbasnan Əhməddən verim. Şah Abbas kor tutduğunnan buraxmıyan kimi Əhmədi hüzuruna çağırtdırıf dedi:

– Əyə, Əhməd gəl lə'nət şeytana de. Vəyğanı söylə, mən də səni quyudan çıxardım. And içmişəm vəyğanı söyləməsən quyudan çıxarmıyajam.

Əhməd dedi:

– Şah sağ olsun, ömrüm boyu quyuda qalsam da, vəyğanı söyləmiyəjəm.

Şah hirsdənif yenidən Əhmədi quyuya saldırdı.

Bunnarın İsfahanda qoyuf, sizə xəvəri Firəng padşahınnan verim. Firəng padşahı gördü kü, göndərdiyi adamları almaları qaytarıf, əlləri ətklərinnən uzun qayıdıflar. Firəng padşahı vəzirdən soruşdu:

– Vəzir, öyrənə bilmədinmi bizim bu sirrəri açan adam kimdi?

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, bu bir nəfər dərzi şagirdidi. Bir vəyğanın üstündə şah Abbas onu quyuya saldırıf.

Firəng padşahı dedi:

– Necə yə'ni bir vəyğanın? O nə vəyğadı kı, danışmax istəmir.

Vəzir dedi:

– Padşah sağ olsun, məsələ elə ondadı kı, o adam danışmır. Şahın hədə-qorxusu, sıxma-boğmuya salması, döyülməsi onu inadınnan döndərə bilmir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu məsələ Firəng padşahının marağını daha da artırdı. Götürüf Şah oğlu Şah Abbasa belə bir məzmunda məktuf yazdı:

– Hörmətli Şah oğlu Şah Abbas, əvvəla salamlar sizin üçündü. İkinci, bizim sirrərimizə dəqiq cavaf verdiyiniz üçün çox minnətdaram. Sağ olun. İndi isə Sizdən bir iltimasım var. Xahiş eliyirəm ki, sirrərimizi açan dərzinizi bizə yolluyasan. Bir dəs paltarım var, onu tikdirmək istiyirəm. Naməni hazır eliyif üstünə də möhürünü vurdu. Onu qasidə verif yola saldı.

Nağılçıların dili yüyrək olar, deyiflər. Firəng padşahının qasidi bir neçə gejə-gündüz at sürüf, axır kı, İsfahana çatdı. Özünü birbaşa Şah Abbasın sarayına yetirdi. Qapıçı işdən halı oluf özünü şahın yanına yetirif dedi:

– Şah sağ olsun, Firəng padşahının qasidi bir namə gətirif. Sizin hüzurunuza gəlmək istiyir.

Padşah dedi:

– Burax gəlsin, görək indi nə lazımdı.

Qapıçı qasidi içəri buraxdı.

Qasid baş əyif şaha salam verdi. Namiyi şaha təqdim elədi. Şah Abbas açıf namiyi oxudu:

– Əvvəla, salamlarımı sizə yetirirəm. İkincisi, bizim sirrimizi açıf dediyiniz üçün minnətdarlığımı bildirirəm. Üçüncüsü, sizdən bir iltimasım var. Eşitdiyimə görə yaxşı sənətkar olan bir dərziyi həbs etdirmisən. Xahiş eliyirəm, həmən dərziyi beş günnüyə qasidnən göndərəsən. Mənim bir dəst livasım var, onu tikdirmək istiyirəm.

Şah Abbas məktubun məzmununnan tanış olannan sonra üzünü vəzir Allahverdi xana tutuf dedi:

– Bu işə siz nə deyirsiniz?

Vəzir Allahverdi xan dedi:

– Qibleyi-aləm sağ olsun, Əhmədi göndər getsin. Görək, onnarın sonrakı bəhanəsi nə olajax?

Şah Abbas içəri ağasını çağırıf, Əhmədin hamamlanmasını, təzə livas, bir yaxşı köhlən at verilməsini tafşırdı. Nə başınızı ağrıdım, hər şeyi hazır eliyif Əhmədi qasidnən baravar yola saldılar. Bunnar günə bir mənzil, teyyi-mənazil, nağıllarda mənzil olmaz, gejiyi gündüzə qatıf bir neçə günnən sonra gəlif Firəng padşahının ölkəsinə çatdılar. Padşaha xəvər gəldi ki, bəs deməssənmi yolunu gözdədiyiniz dərzi gəlif çıxıf. Padşah əmr eliyif Əhmədi hüzuruna gətirtdi. Əhməd şahın qarşısında ikiqat baş əyif, ədəfnən salam verdi. Padşah Əhmədi mehribannıxla qarşılıyıf salamını aldı və dedi:

– Əhməd, bilirsənmi səni nədən ötrü bura gətirtmişəm?



Əhməd dedi:

– Qibleyi-aləm sağ olsun, bilmirəm.

Padşah dedi:

– Əhməd, səni bura gətirtməkdə məqsədim budu ku, mənim şahyanə bir livasım var. Gərək onu tikəsən.

Əhməd dedi:

– Padşah sağ olsun, mənim gözüm üstə, nə vaxt deyirsiniz onda da başdıyım.

Padşah içəri ağasını çağırıf Əhmədin yeməyini və rahatdığını ona tafşırdı. Sonra üzünü Əhmədə tutuf dedi:

– Get yat dincəl, yol gəlifsən, yorulufsan.

İçəri ağası Əhmədi aparıf şahın dediyi kimi rahatdadı. Bunnar burda qalsın, sizə xəvəri Firəng padşahının qızınnan verim.

Firəng padşahının Pərzad adında gözəl-göyçək bir qızı varıydı. Qız nə qız... Aya deyirdi: sən çıxma mən çıxım, günə deyirdi: sən çıxma, mən çıxım. Şirin dilli, incə belli bu qızın ağılı-kamalı da gözəlliyi kimi qənirsiziydi. Pərzad xanım eşitmişdi ki, atası İsfahannan öldürmək üçün gözəl bir dərzi gətirtirdiv. Pərzad xanım özünə söz vermişdi ki, nejə və nə yolla olursa-olsun, dərziyə kömək eləməlidi. Ancax heş cürə fürsət tapa bilmirdi. Gejə yarıya çatanda hərə çəkilif öz mənzilində rahatdandı. Pərzad xanım rahatdıx tapa bilmirdi ki, bilmirdi. Çünki cavan bir oğlana heş bir günahı olmadan qəsd edilirdi. Əlqərəz, savah açıldı. Pərzad xanım da yerinnən qalxıf yuyundu, darandı, özünə bir yaxşı əl gəzdirif yaşadığı evin küləfirəngisinə qalxdı. Pərzad xanım küləfirəngidə Əhmədin yolunu gözdəməkdə olsun, sizə xəvəri Əhməddən verim.

Əhməd gejiyi yaxşıca rahatdanıf savahın gözü açılan kimi yerinnən qalxıf, paltarını geyinif sarayın qavağında hərrənməyə başdadı. Pərzad xanım küləfirəngidən tamaşa eliyirdi. Gördü kü, sarayın qavağında nabələd qəşəng bir oğlan var-gəl eliyir. Bildi ki, atası öldürməyə gətirdiyi oğlan olajax. Tez fırsatı fövtə verməyif özünü içəri verdi. Dəftər qələm götürüf bu məzmunda, qısa bir kağız yazdı:

– Ey əcəm oğlu, bil və agah ol ku, padşah səni öldürtmək üçün gətirdif. Yox ku, sana paltar tikdirmək üçün qavağına yenən bir qara daş qoyajax və sana deyəjək. Bunnan mana bir dəs yaxşı livas ölç, tik. O zaman sən ona tərəddüd etmədən cavaf ver. Şah sağ olsun, biçif tikməyimə söz yox, onu sənə xatırradım kı, bu saflar onu saxlamaz. Onda o sənə deyəjəh ki, sənə nə saf lazımdı? Sən onun cavabında deyərsən, şah sağ olsun, qumnan xətəyi çəkdir, mən sənin paltarını biçim, tikim. O zaman atam sənə deyəjək qumdan xəyəti çəkmək olarmı? Onda da sən də ona deyərsən, padşah sağ olsun, bə daşdan da paltar tikmək olarmı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ondan sonra o sənə cavab verə bilmiyif məğlub olajax, səni öldürməyəjəh.

Pərzad xanım kağızı yazıf hazırladı, bayıra çıxdı. Küləfirəngidən bir qoz götürüf kağızı ona bükdü. Əhməd isə sarayın qabağında fikirli-fikirli hərəlnirdi. Pərzad xanım qoza bükülü kağızı ölçüf-biçif elə tulladı kı, kağız qoz qarışıx Əhmədin başına dəyif qavağına düşdü. Əhməd əyilif götürdü. Baxıb gördü kü, qoza bükülmüş bir kağızdı. Kağıza isə yazılıf kı, onu oxuyannan sonra tulla.

Xülasə, Əhməd kağızın məzmunu ilə tanış oldu. İndi isə onu fikir götürdü kü, bunu görəsən kim yazmış olar. Yan-yörəsinə ha boylandı da, bir şey çıxmadı. Birdən çönüf yuxarı baxanda gördü nə görsə yaxşıdı. Baxıf gördü kü, bir gözəl nazənin küləfirəngidə hərlənir. O saat başa düşdü kü, bu məktubu həmən qız yazmış olar.

Nə başınızı ağrıdım, vaxt tamam olanda Əhmədi padşahın hüzuruna çağırdılar. Əhməd padşahın hüzuruna gəlif ədəbnən salam verdi, qulluq göstərdi. Padşah hal-əhval tutuf dedi:

– Əhməd, bala indi deyirəm keçək əsil mətləbə. Sonra üzünü vəzirə tutuf dedi:

– Vəzir, qoy mənim parçamı gətirsinnər.

Vəzir qalxıf yerindən gedif yekə qara bir daş gətirdi. Daşı düz Əhmədin qabağına qoydu. Əhməd heş nədən xəvəri yox kimi, halını azacıx da olsun pozmadan dedi:

– Padşah sağ olsun, sənin bu parçan çox yaxşı parçadı. Amma bu saplar bu parçanı saxlamaz.

Padşah dedi:

– Əhməd, bəs onu nə eliyək?

Əhməd dedi:

– Qibleyi-aləm sağ olsun, burda nə var kı, bilmirsən. Sən qumnan xətyəti çəkdirməlisən. Onnan sonra mən sənin paltarını üç-dörd günə hazır eləyirəm.

Padşah dedi:

– Ədə, sən nə danışırsan? Harda görüfsənki qumnan xətyəti çəkərlər.

Əhməd dedi:

– Padşah sağ olsun, bə harda görünüf kü, daşdan paltar tikilər.

Firəng padşahı baxıf gördü kı, Əhməd onun düşündüyünnən də ağıllıdı. Padşah onu öldürmək fikrindən vaz keçif, hər şeyi açıf ona danışdı və axırda dedi:

– Oğlum, bu ağıl, bu kamal kı var, dünyada hər şey sənə halaldır. Mən gözümün ağı-qarası bircə qızımı da, sənə verəjəm. Toyunuzu da özüm eliyəjəm.



Bəli, padşah qızını yanına çağırıf onun razılığını alannan sonra əmr elədi, toy tədarükünü görsün. Carçılar hər yerdə car çəkdilər. Firəng şahı düz qırx gün, qırx gejə-gündüz qızı Pərzad xanımla Əhmədə toy çaldırdı. Onları bir-birinə qovuşdular. Toydan sonra da bir həftə öz yanında saxlayıf hörmət elədi. Vaxt tamam olanda şah əmr elədi ki, yol tədarükü görsünnər. Gəcavələr bəzəndi, yüklər tutuldu. Bütün şəhər əhlini yığıf Əhmədlə Pərzad xanım gəcavədə əyləşdirif bir dəstə qoşunla yola saldılar. Bunlar getməkdə olsunnar, sizə xəvəri Şah oğlu Şah Abbasdan verim.

Muştuluğu şaha xəvər çatdırdı kı, bəs deməzsənmi Əhməd Firəng padhaşının qızı Pərzad xanımı da alıf gətirir. Şah Abbas əmr verdi. Gəcavələr bəzəndi, qoşun atdandı, çalğıçılar qabağa düşdü, saznan-söznən, şirin dilnən Əhmədnən Pərzad xanımı qarşılayıf gətirdilər. Şah Abbas onlara öz iqamətgahının gözəl bir guşəsində yer ayırdı. Əhmədlə Pərzad xanım öz keflərində olsunnar, sizə xəvəri Pəri xanımdan verim. Pəri xanım baxıf gördü kı, daha iş-işdən keçif. Özü də hamilə olmuşdu. Başqa bir çıxış yolu tapmayıf başına gələnnərin hamısını anasına danışdı. Anası vaxt itirmədən şahın hüzuruna getdi. Pəri xanım söylüyənnərin hamısını ona nağıl elədi. Şah Abbas Əhmədi hüzuruna çağırtdırıf hər şeyi dəqiqləşdirənnən sonra dedi:

– Əhməd, oğlum bu günnən sən mənim övladımsan. Qızım Pəri xanımı da sənə verəjəm. Toyunuzu da özüm eliyəjəm.

Şah Abbas saray əhlini, yaxın adamlarını yığıf öz fikrini onlara dedi. Hamı bu işə mübarək deyif, razılıx elədilər.

Bəli, Şah Abbas düz qırx gün gejə-gündüz toy çaldırıf Pəri xanımın əlini Əhmədin əlinə verdi. Nağıl dili yüyrək olar. Aradan bir il keşdi. Vaxt və’də tamam olanda Əhmədin bir oğlu Pəri xanımnan, biri də Pərzaddan oldu. Uşaxlar olannan sonra ailənin mehribanlığı daha da artdı.

İndi sizə kimdən deyim, kimdən danışım Firəng padşahınnan. Firəng padşahı bir gün xanımını yanına çağırıf dedi:

– Bir ildir kı, qız vermişik. Gedək görək vəziyyəti necə keçir, nə var, nə yox. Hal-əhval tutmax lazımdı.

Gəcavə bəzəndi. Şah bir dəstə də qoşun götürüf İsfahana gəldilər. Şah Abbas Firəng padşahının gəldiyini eşidif pişvazına çıxdı. Onları hörmət-izzətnən qarşılayıf öz bərgahına apardı. Bir müddət qonax saxladı. Firəng padşahı nəvəsini götürüf sevinci birə-beş artdı.

Xanımların hərəsinin öz yataq otaxları varıydı. Pəri xanım öz otağına gedəndə Əhmədə dedi ki, bu axşam mənim qonağımsan. Pəri xanım gedənnən sonra Pərzad xanım dedi, Əhməd həmən saatda mənim qonağımsan.Pərzad xanım da ayrılıf öz otağına getdi. Yatmax vaxtı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaxınlaşanda Əhməd fikirləşdi ki, saat ikidə Pəri xanıma qonax getsə, Pərzad onnan küsməlidi. Həmin saatda Pərzad xanıma qonaq olsa, Pəri xanım onnan küsməlidir. Çox götür-qoydan sonra Əhməd yanılıf öz otağında yatdı. Pəri xanım xeyli gözlədi. Baxıf gördü ki, Əhməd gəlmədi. Öz uşağını da götürüf Əhməd yatan otağa gəldi. Gördü ki, Əhməd şirin yuxda yatır. Onu oyatmağa qıymadı. Keçif baş tərəfdə oturdu.

Pərzad xanım da çox gölədi. Ancaq Əhməd gəlif çıxmadı. O da uşağını götürüf Əhmədin otağına getdi. Pərzad xanım qapını açanda gördü ki, Əhməd şirin yuxuda yatır. Pəri xanım isə baş tərəfində əyləşif. O da keçif Əhmədin ayax tərəfində oturdu. Bu zaman Əhməd vayğanı görməyə başladı. Gördü ki, günəş baş tərəfdən doğuf. Ay isə ayax tərəfdən çıxıb. Ulduzlar isə qarnının üstündə oynaşır. Əhməd yuxudan ayılanda gördü ki, Pəri xanım baş tərəfində, Pərzad xanım ayax tərəfində oturuf, uşaxlar isə qarnının üstündə oynaşırllar.

Ertəsi gün Şah Abbas Firəng padşahı Əhmədə qonax gəldilər. Yeyib-içənnən sonra Şah Abbas üzünü Əhmədə tutuf dedi:

– Əhməd, oğlum, bəlkə indi gördüyün vəyğanı söylüyəsən.

Əhməd dedi:

– Ateyi-mehriban, ürəyin şad olsun, çünki o yuxu ku, mən görmüşəm zahir oldu. İndən belə açıf deyə bilərəm. İndiyə kimi ona görə açmırdım kı, bu günü gözdüyirdüm.

Şah Abbas, Firəng padşahı, bir də xanımlar mat-mat Əhmədə baxdılar. Hərəsi bir tərəfdən gözünü Əhmədin ağzına dikif gözdədilər.

Əhməd dedi:

– Padşah sağ olsun, bil və agah ol ki, sizin qızınız Pəri xanım keçən gejə saat ikidə məni öz otağına də'vət eləmişdi. Firəng padşahının qızı Pərzad xanım da həmin vaxt öz otağına də'vət eləmişdi. Mən həmən vaxt onnarın heş birinin yanına getməyif öz otağımda yatdım. Əgər mən getsəydim, həmən vaxt onnar mənnən küsməli idilər. Mənim getmədiyimi görən Pəri xanım gəlif, uşağı ilə mənim baş tərəfimdə, Pərzad xanım isə ayax tərəfimdə oturuf. Bu zaman mən vəyğanı görməyə başladım. Gördüm ki, baş tərəfimdə gün doğuf, ayax tərəfimdə isə ay çıxıf. Ulduzlar isə qarnımın üstündə oynayır. Aynan gün sizin qızdarınız, ulduzlar isə nəvələrinizdi.

Şah Abbasnan Firəng padşahı Əhmədin ağlına əhsən dedi. Təzədən süfrə salındı. Yeyif-içif kef elədilər. Sizi də həmişə kefdə, damaxda olasınız. Göydən üç alma düşdü, biri mənim, biri nağıl danışanın, biri də gül üzlü balaların.





PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ƏHMƏD ŞAHIN NAILI

Biri varıydı, biri yoxuydu, keçmiş zamannarda Əhmədnən Hümmət adında iki yoldaş varıydı. Onlar bir oturar, bir durar, birgə gün keçirərdilər. Aralarından su da keçməzmiş. Yedikləri də, içdikləri də biriymiş. Allah verənnən, azdan az, çoxdan da çox yeyif, bir qarnı aj, bir qarnı tox gün keçirərdilər.

Bir gün Əhməd dedi:

– Aya Hümmət, bu kasıfçılıq bizi tamam üzdü. Deyirəm gəlsən, gedək yaxınlıqdakı şəhərə. Bəlkə özümüzə bir gün ağladıx.

Əhməd deyir:

– Qardaş, getməyinə gedək, ancaq qorxuram kı, kasıfçılığın daşını atannan sonra bir-birimizi tanımayax. Pul dediyin şey ki, var ha, dostu-dostdan eliyir bu pul. Adam da var ki, əlinə pul kür kimi gəlir. Amma yazığın boğazından getmir ki, getmir. Yığır, gizlədir, o da qalır arvadın təzə ərinə.

Hümmət deyir:

– Əhməd, düz deyirsən, bir iş var ki, adam varlananda gözü ayağının altını seşmir. Dostu düşməndən ayıra bilmir.

Hə, əzizlərim. Əhmədnən Hümmət dərs-kors eliyə-eliyə bu minvalla xeyli yol getdilər. Gethaget axırda gəlif bir şəhərin qırağına çatdılar. Gördülər ki, o qədər adam toplaşıf ki, iynə atsan, yerə düşməz. Onlar özdərini verdilər camaatın arasına. Hümmət bir nəfərə yaxınlaşıf soruşdu:

– Qardaş, xeyir ola. Bu qədər camaat niyə yığışıf?

Oğlan dedi:

– Ölkənin şahı ölüf. Təzə şah seçmək üçün şahlıq quşu uçururlar. Quş kimin çiyninə qonsa, o adam da, şah olajax.

Əhməd dedi:

– Hümmət, yaxşısı budu ki, gəl yolumuza rəvan olax.

Hümmət dedi:

– Əhməd, qardaş, bir az dayan görək bu şah nejə olur?

Bir az keçməmişdi ki, quşu uçurmağa başladılar. Quş havaya qalxıf hərlənə-hərlənə gəlif Əhmədin çiyninə qondu. Camaat baxanda gördü ki, quş bir yolçunun çiyninə qonuf. Hamı gülməkdən özünü saxlaya bilməyif, qarnını tutdu.

Quş uçuranlar quşu Əhmədin çiyninnən götürüf yenidən uçurtmax üçün meydanın ortasındakı taxtın üstünə qalxdılar.

Əhməd dedi:

– Hümmət, tez ol qaçıf aradan çıxax. Quş bir də çiynimizə düşsə,



camaat bizi öldürəjək.

Əhmədlə Hümmət qaçmaqda olsun, quş uçmaxda. Quş meydanda dövrə vuruf Əhmədnən Hümmətin dalısınca uçuf çatan kimi yenə Əhmədin çiyninə qondu. Əhmədnən Hümməti tutub meydana gətirdilər. Ağsaqqallardan biri irəli yeriyif dedi:

– Bu yolçuları buraxın. Atalar üçəcən deyib. Bir də uçurax. Quş bu dəfə də həmin adamın çiyninə qonsa, demək şah olur.

Nə başınızı ağrıdım. Üçüncü dəfə də quş meydanda dövrə vuruf Əhmədin çiyninə düşdü. Əhmədi tez gəcavəyə qoyuf iqamətgaha tərəf yollandılar. Hamamdan sonra, onun başına şahlıx tajı qoyuf taxta çıxartdılar.

İndi sizə kimdən danışax, kimdən deyək, Hümmətdən. Hümmət Əhmədin şah seçilməyinnən çox sevindi. Əli-ayağı yerə dəymirdi. Eləcə qulağı səsdəydi ki, indicə Əhməd onu yanına çağırajax. Bu minvalnan xeyli gözdədi. Gördü kü, yox, heş bu, Əhmədin yadına düşmür də. Düz altı ay bu xəyalnan gəzən Hümmət bir gün şah sarayının qapısına gəlif gözətçilərə dedi:

– Mən şahı görmək istiyirəm.

Əli qılınc-qalxannı keşikçilərdən biri Hümmətin döşünnən geri itələyif dedi:

– Sən hara, şah hara? Hər yoldan ötən şahın yanına gedə bilməz.

Bu minvalnan Hümmət qırx gün şahın iqamətgahı ətrafında hərrəndi ki, bəlkə özü gedif-gələndə məni gördü. Hümmətin bu qədər şah sarayının həndəvərində hərrəndiyini görən keşikçilərdən biri şahın hüzuruna gedif, tə'zim elədi və dedi:

– Şah sağ olsun, düz qırx gündü ki, bir adam səni görmək istiyir.

Şah onun adını-zadını öyrənənnən sonra dedi:

– Buraxın gəlsin.

Hümməti şahın hüzuruna apardılar. Hümmət salam verif küsülü-küsülü dedi:

– Aya Əhməd, a sənin o başına qoyduxları taj boş qalsın, bəs sən deyirdin bir-birimizi unutmayax. İndi yeddi-səkkiz aydı kı, mən tək-tənha yoxsullux içində qalmışam. Sən də bu mərətə qalmışı başına qoyuf kef çəkirsən. Bəs demirsən yazıx Hümmət harada qaldı?

Əhməd şah gülə-gülə dedi:

– Qardaş düz deyirsən. Bu zəhrimar vəzifə çox axmax şey imiş. Səni tamam unutmuşdum.

Hümmət dedi:

– Qardaş, nə oluf sənə? Sən verdiyin sözü heş yadına salmırdın?

Əhməd şah:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay axmaq, hardan yadıma salaydım. Elə bilirsən sən olsan məni indi axtarıf tafmışdın?! Onu bil ki, şahlıx yaman şeydi. Bizim kimi görməmiş adam da lap özünü itirir. Az qalır kı, vəzir-vəkilə də salam verməsin.

Hümmət dedi:

– İndi, de görüm, mən neyləməliyəm?

Əhməd şah vəziri çağırır və tapşırır ki, Hümməti filan mahala xan tə'yin eləyirəm. Savahdan göndərin getsin.

Bəli, Hümmət böyük bir mahalın xanı olur. Hamı başına and içir. Heç kəsi incitmir. Kim üstünə nə işə gəlsə, yerindəjə düzəldir. Tafşırır kı, qulluxçular bir nəfəri incitsə əlimnən qurtarmıyajax. Ancax əmr verir ki, ölü düşəndə mənsiz dəfn etməsinnər. Qulağına deməli sözüm var.

Camaatın da xannan narazılığı elə təkcə ölünün dəfn işi imiş. Söz düşəndə deyərmişdər:

– Əşi, kişinin səxavətinə, adamlığına söz yoxdu. Rəiyyətin qədrini bilir. Bircə bu ölünün qulağına nə dediyini annıya bilmirik. Elə olur ku, xan gəlif çatmır. Üç günlə ölünü dəfn edə bilmirik.

Hümmət xannığını eləməkdə olsun, indi sizə xəvər verim, Əhməd şahdan. Əhməd şah vəzirini yanına çağırıf dedi:

– Vəzir, deyirəm bir çıxım ölkəni dolanım. Görüm xalqın vəziyyəti, dolanışığı nejədi?

Nə başınızı ağrıdım, Əhməd şah ölkəni xeyli dolaşannan sonra axır kı, gəlif Hümmətin xan olduğu mahala çıxır. Baxır kı, hər yerdə razılıx edillər. Amma ölünün qulağına söz demək işində bir balaca gileylənirlər. Əhməd şah Hümmətin yanına çatıf, onunnan görüşüf-öpüşənnən sonra deyir:

– Halaldı qardaş, camaat səndən çox razıdı. Ancaq dedilər ki, ölünün qulağına nə isə deyirsən. Mən də çox fikirrəşdim, bir şey qana bilmədim. O nə adətdi ki, elə dəb qoyufsan?

Hümmət dedi:

– Vallah, hər nə soruşursan, soruş. Bircə o məsələni soruşma, demiyəjəm.

Əhməd şah daha da maraqlanır kı, yə'qin bir şey bilir, özü demir. Əl çəkmir ki, de görüm, ölünün qulağına nə deyirsən?

Hümmət isə matahı baha söz kimi iki ayağını bir başmağa diriyir ki, demərəm.

Axırda Əhməd şah deyir:

– Əşşi, bizim sirrimiz ayrı ha deyil, demirsən. Mən ölüm de görüm, ölünün qulağına nə deyirsən?

Hümmət ciddi görkəm alaraxı deyir:



– Ölülərə deyirəm ki, a yazıxlar, görün nə günə qalıfsınız ki, şahınız Əhməddi, xanınız Hümmət. Gedin, canınızı bizdən bir yollux qurtarırsınız.

Əhməd şah gülə-gülə deyir:

– Halaldı sənə Hümmət, amma sözün düzünü deyifsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## KEÇƏLİN NAILI

Biri varıymış, bir yoxuymuş, bir qarı, bir də bunun gözünün ağı-qarası keçəl bir oğlu varıymış. Bunnar kasıflıxnan ömür-gün keçirir, yarıtox, yarıac bir təhər dolanıllarmış.

Vaxt o vaxt olur ku, qurvannıx bayramı gəlir yetişir. Qarı baxır kı, qonum-qonşunun hamısı qurvana qoyun bəsdiyif, qoç saxlayıf. Amma bunnarın kəsiləsi heş nəyi yoxdu. Qarı çox fikirrəşir, götür-qoy eləyir, bir yana çıxarə bilmir. Axırda əlaşsiz qalıf keçələ deyir:

– Ay bala, qurvannıx gəlif yetişif. Qoyunnan, quzudan kəsilmişik, ikijə öküzümüz qalıf. Nə təhər eliyək, heş özüm də bilmirəm. Gəl öküzün bir tayını kəsif qurvannığı yola salax.

Keçəl deyir:

– Ay ana, yaxşı öküzü kəsdik. Qurvannığı yola saldıx. Bə yazda cütə nə qoşajıyıx. Bizə əkin əkməyə, toxum səpməyə, yeri dırmıxlamağa öküzü kim verəjəh.

Qarı dedi:

– Ay bala, allah kərim allahdı. O vaxta kimi yetirər.

Keçəl deyir:

– Bə, bəlkə yetirmədi?

Qarı:

– Yetirməsə neyniyək, öküzün yerinə məni qoşarsan.

Keçəl deyir:

– Bax, özün bil, öküzü kəs deyirsən, kəsəjəm. Amma yaza qədər allah yetirməsə, cütə səni qoşajam.

Qarı deyir:

– Get, gəti öküzü kəs. Olmasa, sözümüz sözdü.

Keçəl öküzü yıxıf kəsir. Bunnar qurvannığı yola salıllar. Ay keçir, gün dolanır, əkin vaxtı gəlif çatır. Evdə oturmaxnan allah adama öküzmü yetirəjəh. Hamı cütü sazdıyıf başdıyır əkinə.

Keçəl qarıya deyir:

– Arvad, özün görürsən ki, hamı əkinə başdıyıf. İndi şərtimiz şərtdi. Hazırraş indi savah səni aparıf cütə qoşajam.

Qarının əlaci nəydi. Savah duruf keçəlnən gəldi örüşə. Keçəl boyunduruğun bir tayına öküzü, o biri tayına da qarıyı qoşdu. Sonra qamçıyı əlinə alıf düşdü qarının canına. Bir-iki qamçı vurannan sonra qarının dizi yerə gəldi. Nolajaxdı qarı cütmü çəkəjəydi. Bunnar qalsın burda, sizə xəvəri padşahnan vəzirinnən verim.

Elə bu halda padşah öz vəziriynən ovdan qayıdırmış. Uzaxdan baxıf görür kü, bir nəfər boyunduruğun bir tərəfinə öküz, o biri tərəfinə isə



qoca bir qarıyı qoşuf yer əkir.

Padşah dedi:

– Vəzir, bu nə olan işdi. Adam qoşuflar cütə.

Vəzir deyir:

– Padşah sağ olsun, mən də görürəm. Amma baş aça bilmirəm, bu nə olan işdi. Yaxşısı budu, gedəh görəh bunu kim eliyif, niyə eliyif.

Padşahnan vəzir atı sürüf çatıllar bunnarın yanına.

Padşah deyir:

– Aya keçəl, bu nə işdi. Bu qoja qarıyı niyə cütə qoşufsan.

Keçəl deyir:

– Şah sağ olsun, mənim varım-yoxum bir cüt öküzüm varıydı. Bu gördüyün qarı üstümü kəsif qurvannıxda öküzün birini kəsdirdi ki, yaza kimi allah bizə öküz çatdırmasa, boyunduruğa məni qoşarsan. İndi mən də ələşsiz qalıf qarıyı qoşmuşam kı, yerimi bir təhər əkim.

Padşah dedi:

– Keçəl, qarıyı aç burax. Savah tapşıraram sənə bir öküz verəllər.

Keçəl qarıyı açıf buraxdı. Samı yazıx arvadın boynunu yara eləmişdi. Keçəl savahın gözü açılmamaş padşahın barigahının ağzını kəsdirdi.

Padşahın bir cüt vurağan kələsi varıydı. Adam-zad yaxın düşəsi döyüldü. Heş kim qorxusunnan ona yaxın gedə bilmirdi. Qavağına keçəni vuruf öldürürdü. Padşah qulluxçularına tafşırdı kı, o vurağan kəliyi keçələ göstərin. Onsuz da keçəli vuruf öldürəjəh. Keçəl onu aparamı bilər?

Qulluxçular keçəli tövləyə aparıf kələni ona göstərif dedilər:

– Bax, o gördüyün kələ sənindi. Apar get. Padşah sənə verifdi.

Keçəl işi başa düşmüşdü. Ona görə kələni üç-dörd gün aj qoyuf, onun yanına üzükmədi. Dörd günnən sonra keçəl gəlif kələnin qulağınnan tutuf aparıf cütə qoşdu. Başdadı buna az-az ot verməyə. Bu minvalnan keçəl bir həftəyə bunun namını alıf cütə elə örgətdi ki, gəl ki, görəsən. Kələ öküzdən də yaxşı-yaxşı işdəməyə başdadı.

Aradan bir müddət keçənnən sonra padşah vəzirə deyir:

– Vəzir, o kəliyi bağladın keçəlin boğazına. Bir gedəh görəh yazıx keçəlin başına nə gəldi. Öldümü, qaldımı?

Padşahnan vəzir gəlif görür kü, keçəl düzü-dünyanı şumluyufdu.

Padşah dedi:

– A keçəl, hələ sağsan?

Keçəl dedi:

– Padşah sağ olsun, bilirəm nəyə işarə vurursan. Ancaq keçələ tov gəlmək o qədər də asan deyil.

Padşah dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A keçəl, bu kəli nə təhər örgətdin?
Keçəl dedi:
– Bu mənim əlimdə nə çətin işdi. Yüz belə kəl ola bir aya hamısının xamını alaram.
Padşah keçəlin yanınnan qayıdannan sonra öz-özünə fikirrəşdi: mənim qızım yerinnən duruf çörəyini yeməyə də tənbəllik eliyir. Dəli şeytan deyir bunu ver keçələ. Bəlkə bunu o adam eliyə.
Padşah arvadınnan məsləhətləşənnən sonra qızı bir gəcavəyə qoyuf göndərdi keçəlin evinə. Özü də keçələ ismarış göndərdi ki, əgər bu qızı öyrədə bilsə, onu dünya malınnan qəni eliyəjəm.
İndi sizə xəvəri keçəldən verim. Keçəl qızı kəcavədən düşürüb evə gətirənnən sonra anasına möhkəm-möhkəm tafşırdı:
– Arvad, olmuya-bilmiyə buna mənnən ayrı bir tikə çörək verəsən. Bu nə iş görsə, ona binən də çörək yeməlidi.
Keçəl savah tezdən yerindən qalxıf işə gedir. Axşam qayıdan kimi anasınnan soruşur:
– Ana, bu böyün bir iş görüfmü?
Qarı dedi:
– Duruf altındakı palazı çırpıf.
Keçəl dedi:
– Onda gəl buna bir tikə çörək ver.
Gecəni yatıllar. Savah olanda keçəl anasına deyir:
– Ana, indi mən işə gedirəm. İş gördü, görmədi mənsiz muna çörək vermə.
Axşamüstü keçəl işdən qayıdanda anasınnan soruşdu:
– Ana, bu böyün nə iş görüf?
Qarı dedi:
– Bala, böyün qız ayağa qalxıf yatdığı taxtın bir tərəfini süpürüf genə yerinə girdi.
Keçəl dedi:
– Gəti, buna iki tikə çörək ver.
Savah padşahın qızı evi yarıya qədər süpürür. Keçəl axşam evə gələndə ona çörəknən baravar bir az pendir də verir.
O biri gün qız duruf otağı tamam süpürür. Keçəl axşam onun çörəyini artırır. Bir az da xörək verir.
Qız işdədikcə keçəl onun çörəyini artırır. Axırda elə olur ki, qız savahdan axşama kimi qapı-bajaynan əlləşir. Belə olanda keçəl anasına deyir:
– Ana, innən sonra qız biznən baravar nə qədər istəsə, çörək yeyə bilər.



Bir gün belə, beş gün belə. Aradan bir neçə ay keçənnən sonra padşah qızının dalınca gəlir ki, gedim görüm bizim qızın başına nə iş gəldi.
Padşah gəlif içəri girən kimi qız duruf qaçır atasının qavağına. Bir az hal-vəziyyətdən xəvər tutannan sonra qız duruf bir qav, bir diş sarımsax, bir dənə də sarımsaxdöyəni gətirif dədəsinin qavağına qoyuf deyir:
– Dədə, bir bu sarımsağı döy.
Padşah işi başa düşür. Bilir kı, keçəl qızı bu yolnan öyrədif, adam eliyif.
Keçəl axşam evə gələndə görür kü, padşah bunun evində oturuf, qavağında bir qaf, əlində bir dənə sarımsaxdöyən var. Yavaş-yavaş taqqıldadır.
Keçəl padşaha salam verif evə keçir. Bir az ordan-burdan danışannan sonra keçəl soruşur:
– Padşah sağ olsun, heş qızını yoxluyuf eliyə bildinmi. Heş dəyişifmi?
Padşah dedi:
– Keçəl, dəyişilif də sözdü? Denən ki, o qızdan bir əsər-əlamət qalıfmı?
Sonra padşah keçələ dedi:
– Bala, indi ki, mənim qızımı sən adam elədin, onu sənə verəjəm.
Keçəl dedi:
– Daha o sənin öz işindi.
Padşah qırx gün, qırx gejə toy eliyif qızını keçələ verdi. Onnar şad-xürrəm ömür-gün sürüf yerə keçdilər. Siz də yeyin, için, dövrə keçin.
Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl söyliyənin. Siz sağ, mən də salamat.

## KEÇƏL BƏDƏLİN NAILI

Nağıl-nuğul bilmərəm, bilsəm də söyləmərəm. Şahdan gəlmiş nökərəm, dinmə, qavırğalarını sökərəm. Sizə kimnən danışım, kimnən deyim, keçmişdərdə bir qoja qarı varıymış. Bu qarının gözünün ağı-qarası, aman-zaman keçəl bir oğlu varıymış. Keçəl dana otararmış. Danadan aldığı haxnan bir təhər dolanarmışdar. Günnərin birində keçəl anasını yanına çağırıf deyir:
– Ana, get padşahın yanına, qızını mana al.
Qulaxlarına inanmayan arvad heş nə demədən matdım-matdım keçəlin üzünə baxır.
Keçəl deyir:
– Üzümə niyə baxırsan? Sənə dedim ki, get padşahın qızını mana al.
Arvad dillənir:
– Ay keçəl, dəli-zad olmuyufsan kı? Nə danışdığını heç özün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bilirsənmi? Padşahın qızını padşaha tay adam istiyər. Sən bir keçəl olduğun yerdə padşah sənə qız verərmi? Get ağlını başına tofla, ayağını yorğanına görə uzat.

Keçəl hirsdəndi:

– Ana, sana nə deyirəm, ona da bax. Yoxsa başımı götürüf bu dağılmışdan ayağım tutana kimi gedəjəm. Səhər tezdən mən danaları çölə aparajam,sən də elçiliyə gedərsən.

Ələci kəsilən arvad dedi:

– Yaxşı bala , sən deyən olsun.

Bəli, o gejəni ilan vuran yatdı, keçəl yatmadı. Savahı dirigözdü aşdı. Savah tezdən keçəl danaları qavağına qatıf örüşə apardı.

Keçəl anasını səvirsizliknən gözdəməkdə olsun, sizə keçəlin anasınnan xəvər verim. Keçəlin anası nə qədər götür-qoy elədi, gördü kü, utanır. Padşahın hüzuruna getməkdən çəkindi. İçini yeyə-yeyə qalıf evdən eşiyə çıxa bilmədi. Keçəl gələn kimi soruşdu:

– Ana, nə oldu? Padşahı görə bildinmi?

Arvad dedi:

– A keçəl, vallah utandığımnan gedə bilmədim. Çox fikirrəşdim, götür-qoy elədim, bir şey çıxarda bilmədim.

Hirslənmiş keçəl dedi:

– Bilirəm, onsuz da sən məni oğul gözündə görmürsən. Sənin yanında daha dura bilmərəm. İnnən sonra üzümüz açılar, yola getmərik. Yaxşısı odu ku, savahdan başımı götürüm gedim.

Elə bil arvadın başına bir qazan qaynar su tökdülər. Keçəlin tərsin biri olduğunu anası yaxşı bilirdi. Ələşsiz qalan yazıx arvad keçələ dedi:

– Oğul, sən getsən məni kim dolandırar? Savahı da gözlə, gedim görüm padşah nə deyir. Verməsə, daha neyniyə bilərəm.

– Ay arvad, sən get, verməsə dalısında sənin işin yoxdu.

Qərəz, başağrısı olmasın onnar gejəni səhər elədilər. Savahın gözü açılan kimi keçəl örüşə getdi, anası isə şəhərə padşahın yanına yola düşdü. Arvad gəlif padşahın elçi daşında əyləşdi. Padşah pəncərədən baxanda gördü kü, cır-cındır geyimli bir qadın elçi daşının üstündə oturuf. Adam göndərdi ki, get gör o dilənçi nə istiyir? Onu yola sal. Adam tez özünü yetirif qadına dedi:

– Ay aravd, elçi daşında oturmaxda məqsədin nədi? De görüm, nə istiyirsən?

Arvad dedi:

– Padşahın özünü görməliyəm. Görməsəm, gedən deyiləm.

Həmin adam kor-peşman geri qayıdıf padşaha dedi:

– Qibleyi-aləm sağ olsun, o qadın səni görmək istiyir. Deyir ki,



padşahı görməsəm, heş yana gedən döyüləm.

Padşah dedi:

– Get, onu çağır gəlsin.

Qadını padşahın hüzuruna gətirdilər.

Padşah dedi:

– Nədən ötrü gəlifsən?

Arvad bir təhər özünü ələ alıf dedi:

– Padşah sağ olsun, utanıram, elə sözdü kü, heş deməyə üzüm gəlmir.

Padşah dedi:

– Bura padşah hüzurudu. Nə dərdin olsa, utanma de.

Arvad dedi:

– Padşah sağ olsun, gözümün ağı-qarası birjə oğlum var. Adına da Keçəl Bədəl deyillər. Məni dəng eləyif ki, padşahın qızını mana istə.

Padşah bərk hirsdənif yerindən dik durdu. Ancaq tez özünü ələ alıf dedi:

– Ay arvad, get oğlunu yanıma göndər.

Arvad padşahın hüzurunnan mürəxxəs oluf bir başa özünü verdi kəndə tərəf. Evinə çatanda artıx qaş qaralmışdı. Gördü kü, keçəl gəlif onu gözdüyür.

Keçəl tələsik dilləndi:

– Xeyir xəvərnən gələsən, ay ana!

Arvad dedi:

– Xeyirdi, ay bala!

Keçəl qollarını açıf anasının üz-gözünü quzu kimi yaladı.

Sevinjək soruşdu:

– Bə nə dedi, ana?

Arvad dedi:

– Dedi ki, keçəl Bədəli göndər hüzuruma, görüm nejə oğlandı? Qızımı verməyə dəyərmi?

Keçəl başdadı özünü yığıf-yığışdırmağa. Üzünü təraş etdi, paltarlarının söküklərini tikdi, anasına yamax saldırdı. Bir söznən başdan ayağa özünə əl gəzdirif şumal bir oğlan oldu. Savah açılan kimi eləmiyif tənbəllik özünü verdi padşahın elçi daşının üstünə. Keçəl oturuf gözdəməkdə olsun, sizə padşahdan deyim. Padşah pəncərədən baxanda gördü kü, elçi daşının üstündə bir oğlan oturur. Yadına düşdü kü, bu dünən gələn arvadın oğlu keçəl olajax. Qulluqçu çağırıf dedi:

– Get, elçi daşının üstündəki oğlanı hüzuruma gətir.

Bir az keçməmiş keçəl padşahın taxtı önündə diz qatdıyıf tə’zim etdi.

Padşah dedi:

– Keçəl Bədəl, de görüm sən nə cür’ətnən ananı mənim yanıma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

elçiliyə göndərifsən? Sən bilmirsən kı, mən padşah, sən isə bir yoxsul keçəlsən. Heş keçəldən də padşaha yeznə olarmı? Mən anan zənən xeylağı olduğuna görə ona deyif dolaşmadım. İndi səni bir günə salım kı, yarandığın günə peşman olasan.

Keçəd dedi:

– Padşah sağ olsun, mən nə pis iş tutmuşam kı, bu qədər hirsdənirsən? Vermirsən vermə. Qızı yüzü istiyər, biri də alar. Bir də ki, sən məni pisdiknən yola salanda bunu bütün ölkə eşidəjək və sənin adına yaxşı olmuyajax. Mən sənin rəiyyətinəm, kasıvlığım da sənin adınadı, varrılığım da.

Padşah gördü kü, keçəl ağıllı adama oxşuyur. Odu ku, onu başdan eləmək üçün dedi:

– Mənim bir öküzüm var. Apar onu bazarda sat, görüm nejə satırsan? Alış-verişi bajarırsan, ya yox? Sonra da gəl yanıma, sana yaxşı toy eləyif qızı verəjəm sana.

Padşah bilirdi ki, lotular bazarda keçələ aman verməz ki, öküz satsın. Xülasə, keçəl razı oldu. Öküzü verdilər keçəlin yedəyinə. Keçəl bazara tərəf üz tutdu. Çatanda gördü kü, mal-qara satan çox deyil. Sevindi ki, öküzü yaxşı qiymətə satajam, padşahın da yanında üzüm ağ olajax.

Keçəl öküzü çəkif bazarın içndə bir yerdə dayanıf müştəri gözdədi. Baxdı kı, heç öküzün kefini soruşan yoxdu. Keçəl öküzün böyründə boynunu büküf xeyli durmuşdu ku, bir nəfər yaxınnaşıf dedi:

– Aya, de görüm bu qazına nə qədər verim?

Bu söz elə bil keçələ şillə kimi açıldı. Keçəl hirsdi-hirsdi dedi:

– Nə deyirsən? Hələ bir de görüm?

Müştəri dilləndi:

– Deyirəm qazına nə qədər verim?

Keçəl dedi:

– Aya, korsan? Bu boyda qaz olarmı? Yoxsa, öküznən qazı seşmirsən?

Müştəri özün bilərsən, deyif uzaxlaşdı.

Ovqatı təlx olmuş keçəl müştəri gözdəməyə başdadı. Bir xeyli keçənnən sonra bir nəfər adam öküzün o tərəf, bu tərəfinə keçif dedi:

– Aya, bu toyuğuna nə verim?

Keçəl od götürdü:

– Əşi, bu nə lotuluxdu eliyirsiniz mənim başımda? Biriniz gəlirsiniz qazına nə verim? Biriniz gəlirsiniz, toyuğuna nə verim?

Müştəri dedi:

– Qardaş, ajığın tutmasın, bura bazardı. Özün bilərsən, satmırsan, satma.



Keçəl gördü kü, müştəri də çıxıf getdi. Keçəlin gözü bazarda qaldı. Artıx gün batmax üzrə idi. Bir nəfər yaxınnaşıf dedi:

– Qardaş, bu cücənə nə verim?

Keçəl gördü kü, yox, daha hirsdənməyin yeri deyil. Doğrudan da, bazardı. Hərə bir şey deyəjək. Ancax yenə gedim öküzümə qaz deyənə satım. O bunnardan insaflıymış.

Əlajsız qalan keçəl öküzü çəkə-çəkə birinji müştərinin yanına aparıf dedi:

– Qardaş, öküzümə nə verirsən?

Müştəri dedi:

– Öküzünə yox ey... mən dedim kı, qazına nə verim?

Keçəl dedi:

– Yaxşı, elə sən deyən olsun. Qazıma nə verirsən?

Xülasə, başınızı nə ağrıdım. Onlar razılaşdıxdan sonra öküzü lotu aparıf getdi. Keçəl çox götür-qoy elədi. Nağayırsın, neyləsin? Hansı üznən padşahın yanına getsin? Odu ku, bir müddət gününü arada-bərədə keçirdi. Bir gün bazarda hərrəndiyi yerdə gördü kü, bir arvad təzə qadın paltarı satır. Keçəl ona yaxınnaşıf dedi:

– Xala, bu nə paltardı satırsan?

Arvad dedi:

– Oğul, nişannı qızım varıydı. Rəhmətə getdi. Bu da onun paltarıdı. Dolana bilmirəm. Dedim satım beş-üç qəpik alıf bir təhər başımı hərriyim.

Arvad baxdı kı, oğlan paltarının orasına-burasına yaman baxır.

Arvad dedi:

– Ay oğul, and olsun bizi yaradana, paltarrar bir dəfə də olsun geyinilmiyif. Alajaxsan, al.

Keçəl dedi:

– Xala, gedək evinizə orada pulunu verim.

Razılaşıf arvadın evinə yollandılar. Keçəl arvad deyən pulu çıxarıf verdi və dedi:

– Ay xala, bu pulları al xərşdə. Mən bu paltarrarı geyəjəm. Sən bunnan sonra məni bazara apar. Satdığa qoy. Bazarda o qədər qarabaş alan var. Neçəyə istəsələr verərsən. Sonrasında sənin işin yoxdu.

Bəli, arvad keçəli geyindirdi, üz-gözünə ənlik-kirşan vuruf yaxşıca bəzəndirdi. Sonra da yanına salıf bazara gətirdi. Haray-həşir salıf qışqırdı:

– Ay gözəl-göyçək qız alan. Uşağın ağılda, kamalda, gözəllikdə tayı-baravarı yoxdu. Dolanmax çətin olduğuna görə, qaravaş kimi satıram.

Lotulara elə bu lazımıydı. Keçəl gördü kü, öküzü alan yaxınnaşır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvada dedi:
– Bax, bu gələn nə versə yox demə.
Lotu yaxınlaşıf dedi:
– Ay arvad, bu qazına nə verim?
Arvad dedi:
– Nə danışırsan, ay dərdin alım, bu qaz deyil, qızdır.
Lotu dedi:
– Sənə deyirəm qazına nə verim?
Arvad dedi:
– Mən qiymət bilmirəm, nə verirsən ver.
Lotuya elə bu lazımıydı. Arvadın ovcuna qəpikdən-quruşdan qoyuf qızı aldı. Yolda qızın çadrasını aralayıf baxanda gördü kü, qız nə qız, qaş-göz can alır. Öz-özünə dedi ki, qarabaş nədi, zad nədi. Elə yaxşı oldu özümə arvad elərəm.
Xülasə, lotu keçəli gətirif evə çıxartdı. Lotu dedi:
– A gözəl, adın nədi?
Keçəl dedi:
– Qəndaf.
Lotu dedi:
– Mənim də adım Mahmuddu. Qəndaf, mən səni qaravaş almamışam. Sən mənim arvadım, bu evin yiyəsi olajaxsan.
Keçəl gördü kü, ev nə ev. Otaxlar bir-birinnən gözəl. İstədiyin cah-cəlal burdadı.
Mahmud qalxıf Qəndabın əlindən tutuf bir-bir otaxları gəzdirif açarrarı ona verdi. Otuz doqquz otağın açarını verənnən sonra qırxıncıda dedi:
– Mənim Qəndafım, bu otuz doqquz otaq sənindi. Ancax qırxıncıda işin yoxdu. O sənə lazım döyül. Onun açarı özümdə olajax. Bax, bu evim, bu eşiyim. İndən belə bu evlərin, bu cahi-cəlalın sahibi sənsən.
Qəndaf dedi:
– Ay Mahmud, mən nə olsun ku, bir arvadın təkcə qızı olmuşam. Sən bil ki, mənim atam görüf-götürmüş kişi oluf. Hər şeyimiz də oluf. Yaxşı güzəran keçirmişik. Atam beş ildi ki, rəhmətə gedif, əlimiz son bir ildə əskikliyə düşüf. Sən məni sevirsənsə, məni özünə arvad bilmək istəyirsənsə, evimizdə bir-birimizdən gizli heç nəyimiz olmamalıdı. Əgər indidən sirrimiz gizli olsa, sonra biz bir yerdə yaşıya bilmərik. Otuz doqquz otağın açarını verifsən, birini də verməsən, mən heç nəyə razılaşa bilmərəm. Əlacı kəsilən Mahmud otağın qapısını aşdı. İçəri girəndə keçəl gördü kü, burada altı adam meyidi uzadılıf. Yanında isə məngənə var. Otaq isə daş-qaşnan doludu.



Keçəl dedi:
– Boy, a Mahmud, bunnar nədi belə?
Mahmud dedi:
– Daha bunnarı heş kəs bilməsin. Gördüyün bu meyiddər xəzinə sahibləridi. Onnarı bir-bir oğurruyuf gətirmişəm. Başını qoymuşam məngənənin arasına. Xəzinənin yerini deyənnən sonra məngənədə sıxıf öldürmüşəm. Bunnan sonra xəzinəni yığıf bura gətirmişəm.
Keçəl dedi:
– Ay Mahmud,baş da orda durarmı?
Mahmud dedi:
– Niyə durmur. Bax, başımı qoyuram.
O, başını məngənənin arasına qoyuf əli ilə sıxan ağacı göstərdi. Onunnan da sıxıram. Hələ yoxla. Ancax bərk sıxma.
Keçələ də elə bu lazım idi.
– Qorxma, deyif məngənədə Mahmudun başını sıxmağa başdadı.
Mahmud dedi:
– Ağrıdır, sıxma.
Keçəl daha da sıxmağa başladı.
Mahmud dedi:
– Neyniyirsən? Öldüm!
Keçəl:
– Ölməzsən! Düzünü de görüm qaz adına aldığın öküzü neylədin?
Mahmud başa düşdü ki, uduzuf.
Odu ku, dedi:
– Əti yeyildi, quyruğu taxtın altındadı.
Keçəl baxanda gördü kü, quyrux taxtın altındadı. Quyruxu əlinə alıf düşdü Mahmudun canına. Vur ku, vurasan. Vurduxca da dedi:
– Qaz quyruğudu, öküz? Qaz quyruğudu, öküz?
Mahmud dedi:
– Öküz quyruğudu.
Keçəl yenə quyruxnan vuruf soruşdu:
– Qaz quyruğudu, öküz?
Mahmud dedi:
– Öküz quyruğudu!
Keçəl dedi:
– Aya, köpək oğlu, bə deyirdin öküz döyül, qazdı.
Xülasə, nə başınızı ağrıdım, keçəl Mahmudu ölümcül eliyif, xəzinədə olan daş-qaşnan da yükünü tutuf quyruğu da belinə bağlayır və çıxıf gedir. Birbaşa gəlif arvadın evində paltarını dəyişir və xeyli də pul verif gedir. Şəhərin küçəsi ilə keçəndə görür kü, bir arabada xəstə aparırlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaxınnaşıf öyrənir ki, Mahmuddu. Həkimin yanına gətirillər.
Keçəl deyir:
– Xəstənizi uzağa aparmayın. Mən özüm həkiməm. Evim də filan küçədə, filan evdi. Siz asta-asta gəlin. Mənim işim var. Bu saat evə dönəjəm. Keçəl aralanıf özünü verir dərzixanaya. Oradan bir ağ xalat götürüf evə tərpənir. Çatanda görür kü, hələ gəlmiyiflər. Keçəl arvada deyir:
– Ay xala, sən çıx qonşuya get, mənim qonağım var. Gəlsinnir bir az dinjəlif gedəjəklər.
Arvad qonşuya gedənnən sonra xəstəni gətirirlər. Keçəl ağ xalatda onnarı qarşılıyır. Xəstəyi içəri götürənnən sonra deyir:
– Sizə olmaz, çıxın.
Xəstənin adamları çıxıf küçədə gözdüyüllər. Keçəl xəstəni uzadıf deyir:
– Soyun görüm.
Mahmud zarıldaya-zarıldaya soyunur. Keçəl soruşur ku, nə oluf?
Mahmud dedyir:
– Bir inək oğlu məni bu hala salıf.
Keçəl belinnən quyruğu açıf düşür Mahmudun canına. Nə yeyifsən turşulu aş. Vurduxca da deyir:
– Qaz quyruğudu? Öküz?
O qədər vurur ku, baxır daha nəfəsi güjnən gəlir. Buraxıf çıxır bayıra. Xəstənin adamlarını çağırıf deyir:
– Hər şey yaxşı olajax. Narahat eləməyin, dincəltmişəm, yuxuya gedif. Bir qədərdən sonra gedin aparın, yaxşılaşanda yenə yanıma gətirərsiniz. Mən də indijə gəlirəm, – deyif ağzını şəhərə çevirir.
Aradan bir ay keçir, iki ay keçir, bilmirəm, xəstəni gətirənnər içəri girir. Görüllər ki, Mahmudun halı hal döyül. Soruşullar nə oldu? Mahmud əhvalatı danışır. Başa düşüllər ki, yenə də keçələ rast gəliflər.
İndi sizə keçəldən deyim. Keçəl gəlif üst-başını yaxşıca təmizdədi. Qərara aldı kı, səhər tezdən qızıldan-puldan götürüf padşahın hüzuruna gedə bilər. Odu ku, səhər tezdən qızıldan-puldan götürüb padşahın sarayına daxil olur. Həyətdə hərdənirmiş. Görür kü, iki nəfər başqa adam Mahmudu buraya gətirdi. Fürsətdiyif adamların birindən soruşur ku, nə oluf?
Həmin adam deyir:
– Qardaş bir keçəl var, başımıza yaman oyunnar açıf. Bizim adamı döyüf. İndi padşaha şikayətə gətirmişik.
Keçəl deyir:
– Mən xəstənin yanında durum. Siz gedin icazə istəyin, görün xəstiyə



baxıllar, ya yox. Bəlkə sizə inanıf heş xəstiyə baxmıyajaxlar?..
Onlar keçəlin fırıldağına inanıf icazə almağa getməkdə olsunnar. Sizə deyim keçəldən. Keçəl xəstəyə yaxınnaşan kimi əlini atıb belindən quyruğu açdı. Başdadı döyməyə:
– Qaz quyruğudu? Öküz?
Halı qalmıyan Mahmud deyir:
– Ay keçəl öküzdü, məni öldürmə.
Keçəl əl çəkmir ki, çəkmir. Bu vaxt səs-küyə toplaşıf keçəli tutullar. Padşaha xəvər verillər ki, həmin adamı tutuflar. Padşah əmr edir ki, onu yanıma gətirin. Keçəli padşahın hüzuruna aparıllar. İçəri girəndə padşah görür kü, bu qızını istiyən keçəldi.
Padşah soruşur:
– Bu nə haqq-hesafdı?
Keçəl deyir:
– Padşah sağ olsun, mən döydüyüm adamı da gətirin bura.
Padşah əmr edir ki, həmin adamı gətirin. Onu gətirillər.
Padşah deyir:
– Deyin görüm nejə oluf?
– Belə oluf, – deyə keçəl belinnən öküz quyruxunu açıf Mahmuda tərəf yeriyəndə Mahmud qışqırır.
– A kişi, məni öldürmə, öküz quyruğudu!
Padşah təəccüfnən soruşur:
—Bu nə olan işdi?
Keçəl bütün əhvalatı padşaha danışır. Padşah adam göndərif lotunun evini yoxlatdırır, görür kü, keçəlin dedikləri düzdü. Oradaca əmr etdirif lotunu asdırır. Keçəlin qoçaxlığına heyran qalan padşah yeddi gün, yeddi gejə toy eləyif qızını keçəl Bədələ verir. Keçəlin anası sevindiyinnən yeddi gejə-gündüz qolunu qaldırıf oynuyur.
Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də kənarda duruf istəmirəm deyənin.

# D A S T A N L A R

## MİSKİN ABDAL VƏ SƏNUBƏR

### USTADNAMƏ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq olub diyar-diyar gəzənin,
Əzəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mə'rifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən lə'lü-gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana.
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə.
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

Ustadlar ustadnaməni bir deməz, iki deyər. Biz də deyək iki olsun, dostların qəlbi şad olsun.

Varlıynan dost olub, yoxsula gülmə,
Çox da havalanıb coşma, dünyada.
El səni istəyib, qabağa çəksə,
Ağır ol, alçağa düşmə dünyada!
Dərdini bölüşdür qədir bilənnən,
Vəfalı dost olmaz üzə gülənnən.
Bir adam ki, "sən öl" desə yalannan
Onun körpüsünnən keçmə dünyada.

Bu sözü bəyənər bir arif, əyyar,
Bədəsil kimsəyə yapış, nə yalvar,
Qonşuya söyləyib, aləmə yayar,



Sirrin seryaquba açma dünyada.

Yaxşı oğul əgər bir yaxın ata,
Ölüncə heç kəsə yetirməz xata.
Yeri gəlsə, xeyir verər elata,
Onun arxasınnan qaçma dünyada.

Ələsgər, söylənir sözün adınan,
Arif məclisində hər isbatınan.
Bir dost sənlə olsa, sirri yadınan,
Onu düşmənindən seçmə dünyada.

Ustadlar ustadnaməni iki deməz, üç deyər. Biz də deyək, üç olsun, mərdlərin könlü açılsın.

"Can" deməklə, candan can əysik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deməyin nə'fi nədi dünyada
Abad könülləri pərişan eylər.

Nakəs adam danışıqda saz olar,
Kərəmdən kəm, səxavətdən az olar.
Nüftədən qarışan şeyitbaz olar,
Mərd də sığışdırmaz, nahaq qan eylər.

Bir gün Mansır qalxar, gəli toxmaq-yay,
Dağlara atmağa eylər haqq-say,
Seçilməz məhşərdə nə şah, nə gəday,
Xaliqi-ləmyazəl haqq divan eylər.

Məzəmmət eyləmə mən binəvanı,
Sahibi-səltənət, ey gövhər kanı,
Mənim sözüm yoldan azan mollanı,
İnşallah, qaytarar, müsəlman eylər.

Mən istərəm alim, mö'min yüz ola,
Meyli haqqa doğru, yolu düz ola.
Diliynən zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban eylər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sizə hardan deyim, kimnən xəvər verim Göyçə mahalının Zərgərri kəndində olan Məhəmməd kişidən. Deyilənnərə görə, bu kənd öz adını Zərgərri tayfasının adınnan götürüf. Bu tayfanın addı-sannı, adamlarının sorağı hər yana yayılıfmış. Hər yerdə onnarın varınnan, dövlətinnən, cah-cəlalınnan, bir-birinnən gözəl zərgərrik işdərindən ağız dolusu danışılardı. Qızılın bolluğunnan hamı zərgərriknən məşğul olardı.

Məhəmməd kişi kəndin hörmətdi adamlarınnan sayılırdı. Sürüsü su bulandırar, ilxısına yer tapılmazdı. Qızılının, gümüşünün, pulunun sayı-hesavı yoxuydu. Nə qədər var-dövlət, cahi-calal sahibi idisə, bir o qədər də səxavətdiydi. Atası pullu Cəfər oğlu Məhəmmədi molla yanında oxutdurmuş, ustad sənətkarrlar yanında Göyçədə hər şeydən çox sevilən saz-söz sənətindən hali eləmişdi. Kənddə-kəsəkdə elə bir toy-nişan olmazdı Məhəmməd Cəfər oğlu orada başda olmasın. Kasıfların, yetim-yesirrərin dayağı, mərdiməzarların, nanəciflərin qənimiydi.

Çoxları bilmirdi ki, adı, şöhrəti hər tərəfə yayılan Məhəmməd Cəfəroğlunun böyük bir dərdi var. Onun övladı yoxuydu. Nə vaxtıydı kı, əmisi qızı Növrəstəynən evlənmiş, lakin züryətləri olmamışdı. Vaxt ötsə, zaman keşsə də Məhəmmədnən Növrəstə Allahın ətəyinnən əllərini çəkməmişdilər.

Bir gün savah-savah o başdan qapı döyüldü. Məhəmməd qapıyı açdı. Qapıda üzünnən, gözünnən nur tökülən bir dərviş dayanmışdı. Salam-əleykdən sonra Məhəmməd dərvişə xoş gəldin deyif, onu evə də'vət elədi. Dərviş dedi:

– Oğul, bil və agah ol. Savah-savah sana qismət gətirmişəm. Al, bu almanı, yarıya böl, arvadınnan ye. Doqquz aydan sonra bir oğlunuz olajax. Adını Hüseyn qoyarsınız. O biri adını özü qazanajax.

Məhəmməd qojadan almanı alıf dedi:

– Bava dərviş, dayan nəzirini gətirim.

Dərvişin bu gəlişinnən çox sevinən Məhəmmədin evə girməsinnən çıxmağı bir oldu. Onun bir əlində qojanın verdiyi alma, o biri əlində xeyli qızıl varıydı. Dərviş qapıda yoxuydu. Elə bil dərviş bir tikə əppək oluf göyə çəkilmişdi. Məhəmməd nə qədər axtardı, nə qədər soraxladısa, dərvişdən xəvər verən olmadı. Məhəmməd kor-peşiman evə qayıtdı. Başına gələnnəri arvadına danışdı. Sonra də dərvişin dediyi kimi almanı ortadan ikiyə böldü. Yarısını arvadına verdi, yarısını da özü yedi.

Vaxt gəlif, zaman yetişdi. Növrəstə doqquz ay, doqqu gün, doqquz saat, doqquz dəqiqədən sonra bari-həmləni yerə qoydu. Məhəmmədin bir oğlu oldu.

Nəzirrər paylandı, qurvannar kəsildi, toy-düyün başdandı. Hamı gözaydınnığına gəldi. Yedilər, işdilər, Allaha şükürrər oxudular. Uşağın adını dərviş dediyi kimi Hüseyn qoydular. Hamı bir ağızdan: – Adınnan böyüsün, addı-sannı bir oğul olsun, ata-anasının, tayfasının, elinin-gününün adını ucaltsın!!! – dedi.



El ağzı fal olar, deyiflər. Hüseyn gündə bir buğda boyu yekəlif yeddi yaşına çatdı. Üzünnən-gözünnən ağıl-kamal yağırdı. Hüseyni atası molla yanına qoydu. O tez bir zamanda bütün elmləri sinədəftər eliyif, açarını civinə qoydu.

Bunnan sonra atası oğluna qılış vurmağı, qalxan tutmağı, at çapmağı, kəmənd atmağı, xülasə, cəngdə lazım olan fənd-fe'lləri öyrətdirməyə başdadı.

Vaxt ötdü, illər keşdi. Hüseyn gəlif həddi-buluğa çatdı. Bu yaşında o, çox şeyləri bilirdi. Mərfətinə, ağlına, kamalına, qanacağına görə hamı onun başına and içirdi. O, boylu-buxunnu, cüssəli bir iyid olmuşdu. Atası tez-tez onu özünnən səfərrərə aparır, onun daha çox görüf-götürməsinə çalışırdı.

Bir axşam Məhəmməd kişi yenə də yol tədarükü gördü. Arvadı Növrəstə yola hazırrıx gördü. Bu dəfə onnar İsfahana səfər eləməliydilər. Yeyif-içənnən sonra tez yatdılar kı, savah ala-qarannıxda oyansınnar, karvana gejikməsinnər. Atalar yaxşı deyif: sən saydığını say, gör fələk nə sayır.

Savah o başdan, hamı qalxdı. Amma Hüseyn hələ şirin yuxudaydı. Dedilər:

– Ya'qın yuxusuzdu. Bir azdan qalxar. Bir az da gözdədilər, qalxmadı. Silkələdilər, çağırdılar, qışqırdılar, qalxmadı kı, qalxmadı. Karvanbaşı ismarış göndərdi ki, gejikirik, gəlsinnər.

Nə başınızı ağrıdım. Karvan öz yolunnan gedəsi oldu. Məhəmmədin səfər də, ticarət də, yadınnan çıxdı. Başdarı qarışdı Hüseynə. Heş kim bir şey annıya bilmirdi. Hamı mat-məəttəl qalmışdı. Hüseyn illər yorğunu kimi şirin-şirin yatırdı.

Bütün günü gözdədilər, gejə də gəlif keçdi. İkinci gün də axşama çatdı, ancax Hüseyn qalxmadı kı, qalxmadı. Bu xəvəri eşidif bilən qohum-əqrava bir ujdan axışıf gəlirdi. Axırda bunnarın arasınnan dünyagörmüş bir qoja irəli yeriyif dedi:

– Ay camaat, narahat olmuyun! Ona yuxusunda haxdan buta verilir. O, haqq aşığı olajax. Üç günün tamamında ayılajax...

Qərəz, hamı üş günün tamamını gözdəməyə başdasın, görək Hüseynin başına nələr gəldi. Hüseyn baş yastığa atan kimi aləmi rö'yada gördü kü, onun otağında qəflətən bir nurani dərviş peyda oldu. Onu İsfahana aparmax istiyən atası Məhəmməd kişiyə üz tutuf dedi:

– Sən hələlik heş yerə getmə. Hüseyni mən özüm Təbrizə aparajam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təbrizdən qayıdana qədər gözdə.
Bunu deyif qoca Hüseyni yanına alıf onnan neçə-neçə dərələr keşdi, dağlar aşdı, ormannar dolaşdı. Kənddərdə, şəhərrərdə oldu. Onnar yollarda qara-borana düşdülər, quldur-qaçaxlardan sağ-salamat qurtarıf çox çətinniknən gəlif uca bir dağın başına çıxdılar. Olannan, qalannan yeyif, dağların dup-duru sularınnan içif dincəldilər. Buradan baxanda hər tərəf aydın görünürdü. Buradakı gözəllikləri seyr etdikcə az qalırdı Hüseynin ürəyi qopuf düşsün.
Bir az dincələnnən sonra bava dərviş dedi:
– Eşit oğul. Diqqətnən qulax as. Bizə lazım olan yerə gəlif çıxmışıx. Bir azdan Təbrizi də görəjəksən. Sənin gələcək taleyin bu torpaxnan bağlıdı.
O qəflətən əlindəki badəni Hüseynə uzdıf dedi:
– İç, oğlum, iç bu badəni!
Hüseyn bir addım geri çəkilif dili dolaşa-dolaşa dedi:
– Bava dərviş, mən müsəlmanam, şərab bizə haramdı!
Dərviş dedi:
– İç, oğlum! Bu, şərab deyil, eşq badəsidi. Sən çox-çox çətinniklərdən keçəjəksən, çox əzaflarnan qarşılaşajaxsan. Eşqin yolunda sana miskin də deyəjəklər, abdal da. Sən hər bir çətinnikdən keçif ucalara qalxajaxsan. Mənim kimi bir kəramət sahibi, övliya olajaxsan. Bu günnən Miskin Abdal adınnan tanınıf, bu adnan dolaşajaxsan bütün dünyanı. Bu haqqın əmri, tanrının istəyidi.
Hüseyn nurani qojanın əlindəki badəni istər-istəməz alıf başına çəkdi. Dünya gözündə nura boyandı. Halı dəyişdi. Ürəyi həsrətnən döyünməyə başdadı. İndi elə bil başqa bir aləmdəydi.
Bava dərviş sağ əlini irəli uzadıf şəhadət və orta barmağını haçalıyıf dedi:
– Bala, bax gör, barmaxlarımın arxasından nə görünür?
– Bava dərviş, gözəl bir şəhər. Şəhərdə gözəl bir saray, onun içində gözəl bir qız.
Bu sözdəri deyif qurtaran kimi o, bihuş oluf yerə yıxıldı. Dərviş onun üzünə su töküf ayıltdı. Əlini başına çəkif dedi:
– Eşit, oğul. Həmin gördüyün şəhər Təbrizdi. O saray sevdakar Mahmudun evidi. Ona qəddarlığına görə ilan Mahmud da deyillər. Orada gördüyün o gözəl, ilan Mahmudun qızı Sənubər xanımdı. Səni ona, onu da sənə buta verdim. Gözdərini yum, aç.
Hüseyn gözdərini bava dərvişin dediyi kimi yumdu. Açanda evlərini, bir də yuxuda olduğu bu üş günü onun ayılmasını həsrətnən gözdüyən ata-anasını, qohum-qonşularını, dost-tanışdarını gördü.



Savahlar üzünüzə xeyirriknən açılsın. Hüseynin ayılmağına hamı şad oldu. O saat qurvannar kəsildi. Kasıflara, yetimlərə, dullara, kimsəsizdərə, nəzir-niyaz paylandı. Xülasə, bir şadyanalıx oldu ku, gəl görəsən. Anası Növrəstənin şaddığınnan göz yaşı selə dönmüşdü. Ancax Hüseyn dinif-danışmırdı. Qara bulud kimi tutulmuşdu. Əvvəlcə elə bildilər ki, nitqi tutuluf. Nə qədər dilə tutdularsa, bircə kəlmə də ala bilmədilər. Anası fəryad qopartdı. Atası Məhəmmədin gözdəri yaşnan doldu. Hamı donuf qalmışdı.
Hüseyn hannan-hana özünə gəldi. Əlini divara uzadıf sazını istədi. Divarda üç saz varıydı. Biri bavasının, biri atasının, biri də özünün. Adamlar karıxdıxlarınnan o biri sazdarı vermək istədilər. Hüsenyn əlinnən işarə edif öz sazını istədi. O, sazını alan kimi köynəyinnən çıxarıf sinəsinə basdı. Aldı görək nə dedi:

Eşidin -həzarət, ərzi-halımı
Salıf kəməndinə bir dilbər məni.
Divanə eliyif, alıf canımı,
Oxluyuf sinəmnən bixəvər məni.

İsmi Sənubərdi, xəvərdar olun,
Qızıdı Təbrizdi ilan Mahmudun
Allaha şükr edin, bu dərdi udun,
Bəlkə eyləməyə bir təhər məni.

Dərviş bavam verdi eşqin camını.
İçif, ateşdərə saldı canımı
Uçurdum könlümün xanimanını,
Gördünüz eşqi-hal bu səhər məni.

Gedirəm, bu yoldan dönən deyiləm,
Od tutuf yananam, sönən deyiləm,
Bir comərd iyidəm, zənən deyiləm,
Doğufdu anadan anam ər məni.

Hamıya könüldən yetirrəm salam,
Unudun o adı, Miskin Abdalam
Bir eşqin yolunda zəlili-xaram,
Eyliyir vətənnən dərbədər məni.

Hamının yavaş-yavaş qırışığı açılmağa başdadı. Onnar indi annadılar kı, Hüseynə, doğrudan da, hax vergisi verilif. Hüseyn yuxuda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gördüklərini saznan olduğu kimi, söznən də başına toplaşannara annatdı. Sözünü bitirənnən sonra bildirdi ki, Sənubərə qovuşmax üçün tezdiknən yola çıxmalıdı. Bunu eşidən anası Növrəstə xanım qulac hörüklərini sinəsinə sıxıf ağlıya-ağlıya aldı görək nə dedi:

Başına döndüyüm gül üzdü oğul,
Getmə, oğul, getmə, aman günüdü.
Getsən, mən olaram zəlili naçar,
Getmə, oğul, getmə, aman günüdü.

Aldı Miskin Abdal:

Başına döndüyüm gül üzlü ana,
Butamın dalınca gedəsiyəm mən.
Ağlıyıf qəlbimi döndərmə qana,
Butamın dalınca gedəsiyəm mən.

Aldı Növrəstə:

Yazığam, anana yazığın gəlsin,
Qoyma ahu-ünü göyə yüksəlsin.
Dərddiyəm, dərdimi el-aləm bilsin,
Getmə, oğul, getmə, aman günüdü.

Aldı Miskin Abdal:

Dua et, tanrıya ağlama daha,
Getməsəm bataram böyük günaha
Bağla umudunu, bağla Allaha,
Butamın dalınca gedəsiyəm mən.

Aldı Növrəstə:

Ağlayıb, dad çəkif, deyər Növrəstə
Düzülüb sinəmə qəm dəstə-dəstə.
Sən getsən illərnən olaram xəstə,
Getmə, oğul, getmə, aman günüdü.

Aldı Miskin Abdal:

Yanmış ürəyimin qalmıyıf halı,
Zarıncı eyləmə Miskin Abdalı.
Eşitsin qoy bütün Göyçə mahalı,
Butamın dalınca gedəsiyəm mən.



Söz tamama yetdi. Ana-bala bir-birinə sarmaşıx kimi saralıf ağladılar. Anası nə qədər yalvardı, nə qədər dil tökdüsə, oğlunu dediyinnən döndərə bilmədi. Axırda ələşsiz qalıf qəmgin halda bir tərəfə çəkildi. Dedi: bəlkə bir neçə gün keçər, anasının göz yaşdarına rəhm eliyif bu yoldan qayıdar.

Adamlar arasında xısın-xısın söz-söhbət gəzdi, pıçhapıç düşdü. Biri dedi: gəlin murdarrıyax, biri dedi: zornan başqa bir qıznan evləndirsinnər. Biri belə dedi, biri elə dedi. Əlqərəz, ağlabatan bir fikrə gələ bilmədilər. Axırda atası irəli yeriyif dedi:

– Onu murdarramax çox böyük günah olardı. hüseynə hax vergisi verilif. Bu tanrının qismətidi. O ku qaldı başqa qız təklif olunmasına, onu eliyək. Razı qalar, lap yaxşı. Razı olmaz, allah yaxşı yol versin. Özgə neyliyə bilərik?!

Xülasə, Miskin Abdalı nə qədə dilə tutudular, nə qədər bəy, xan, paşa qızının adını dedilər, bir nəticə hasil olmadı.

Adamların onnan əl çəkmədiyini görən Miskin Abdal sazını sinəsinə basıf aldı görək nə dedi:

Fələk yazıfdı yazımı,
Mən butamnan ayrılmaram.
Əcəl mana yar olmasa,
Mən butamnan ayrılmaram!

Göy gurlasa, şimşək çaxsa,
Başımıza oddar yağsa.
Mən də yoxam, o qız yoxsa,
Mən butamnan ayrılmaram.

Miskin Abdal divanədi,
Dedikləri görün nədi?
Ayrı qızdar əfsanədi
Mən butamnan ayrılmaram.

Hamı gördü kü, Hüseyni bu yoldan döndərmək mümkün deyil. Ona görə æləjsiz qalıf razılıx verdilər. Dedilər ki, get, tanrı köməyində olsun. Doğma ojağımıza, sağ-salamat qayıdasan. Sevdiyinə qovuşasan. Miskin Abdalın qəlbi coşa gəldi. Sazı sinəsinə basıf aldı görək nə dedi:

Ay ata, ay ana halallıx verin,
Uzax bir səfərdə, yol üstəyəm mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sirri bəlli deyil sonsuz gəydərin,
Tükənməz eşqdə, həvəsdəyəm mən.

Hayana baxıram, hər yan gülüstan,
Şamama tağ atıf, dəymiyif bostan.
Hələ yazılmamış bir böyük dastan,
Hələ oxunmamış şikəstəyəm mən.

Bu yolda tufan da, çən də olajax,
Çiçək açılıfsa, bir gün solajax.
Miskin Abdal gej-tez yarı bulajax,
Nə çolax, nə şikəst, nə xəstəyəm mən.

Növrəstə xanım oğlunun tel-tel olan qəlbinin sızıltılarını eşidif biruzə verməsə də, için-için ağladı, əllərini qoşa hörüklərinə apardı, onnarı sinəsinə sıxıf, aldı görək nə dedi:

Sənə xeyir-dua verirəm, oğul,
Get, oğul, üstündə Allah yar olsun.
Gül aşsın umudun, arzun, diləyin,
Yolların tər çiçək, laləzar olsun.

Gör nələr eylədi, gərdişi-dövran,
Nə zaman istəsən ol yola rəvan.
Tanrıdan balama dilərəm aman,
Görüm butasıynan bəxtiyar olsun.

Yazıq Növrəstənin mə’lul çağıdı,
Qəlbini yandıran hicran dağıdı.
Sənnən dünya mana cənnət bağıdı,
Sənsiz hər nəyim var tarimar olsun.

Bayaxdan ana-balaya diqqətnən qulax asan Məhəmməd kişinin də sinəsi yaman dolmuşdu. Üzünü arvada tutuf dedi:

– Ay arvad, sinəmə bir-neçə xanə söz gəlif. Qoy mən də deyim, bəlkə sinəm boşala.

Arvad dedi:

– Buyur, ay kişi:

Məhəmməd sədəfli sazını sinəsinə basıf dedi:



Haqqın dərgahına tapşırdım səni,
Sağ get, yara yetiş, salamat qayıt.
Elinnən, obannan ayırdı səni,
Sağ get, yara yetiş, salamat qayıt.

Nə dövlətin olsun, nə malın olsun,
Gözəl baxtın olsun, yığvalın olsun,
Çəkdiyim zəhmətdər halalın olsun,
Sağ get, yara yetiş, salamat qayıt.

Dünyada heş bir şey deyil əbədi,
Üzündə, gözündə bu məlal nədi?
Gözü yaşdı qoyma qul Məhəmmədi,
Sağ get, yara yetiş, salamat qayıt.

Elə ki, söz tamama yetişdi hamı bir ağızdan "amin" dedi.

Ər-arvad Miskin Abdala yol tədarükü görməyə başdadı. Hər şey hazır olannan sonra Uzun Qasımı da Miskin Abdalın yanına qatdılar. Dedilər: uzax yoldu, Miskin Abdal da çox cavandı, yola-izə nabələddi. Demək olmaz, cannıdan qada əskik deyil. Bir şey-zad olsa, xəvər çatdırar. Bir də uzun Qasım bərkə-boşa düşmüş adamıydı. Həm də yazıf oxumağı da bajarırdı. Elmlərdən halıydı. Yol xurcununa dəftər-qələm də qoydular kı, Miskin Abdal harada nə desə, başına nə gəlsə, yazarsan. Ayrılıx məqamı gələndə Miskin Abdal gördü kü, anası bahar buludu kimi doluf. Atasını dindirən olsa zulum-zulum ağlıyar. Qohum-qonşular da mə’lul-mə’lul ona baxıllar. Miskin Abdal buna dözmüyüf aldı görək nə dedi:

Bir sevdaya düşmüşəm mən,
Allah, məni özün saxla.
Dərd içində bişmişəm mən,
Allah, məni özün saxla.

Anam qalır gözü yaşdı,
Atam dərddi, başı daşdı.
Qohum-qonşu qəm ataşdı,
Allah, məni özün saxla.

Miskin Abdal gedər, gələr,
Atam-anam qalmaz mələr.
Qəmli könlüm bir gün gülər,
Allah, məni özün saxla.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetdi. Miskin Abdalnan Uzun Qasım hamıynan halallaşıf yola düşməyin binasını qoydular. Onnarın arxasınca güzgü tutdular, su atdılar.

Bir az keçənnən sonra kəndin kənarındakı uca yerə gəlif çıxdılar. Doğma yurdunnan, yuvasınnan, elinnən, ovasınnan ayrı düşən Hüseynin ürəyi quvar elədi, sıra dağlara, şırıl-şırıl axan bulaxlara, əli ilə saldığı bağ-bağçaya nəzər saldıxca, ötən günnərini xatırradı: Dözmədi. Sazını köynəyinnən çıxardıf üzünü kəndə tərəf tutdu. Qəmli-qəmli oxumağa başdadı:

Mən gedirəm, sən qalırsan,
Ulu dağlar, salmat qal!
Yadıma nələr salırsan,
Gur bulaxlar, salamat qal!
İnlə, yazıx qəlbim, inlə,
Ay çöl, çəmən məni dinlə.
Günüm keşdi toy-düyünlə
Ötən çağlar, salamat qal!

Bağça saldım, gül dərmədim,
Bağ becərdim bar görmədim
Miskin Abdal, budu dərdim,
Barrı dağlar salamat qal!

İlin o vaxtıydı kı, gül-gülü, bülbül-bülbülü çağırırdı. Hər tərəf ala, yaşıla bürünmüşdü. Dan yeri təzəcə açıldığınnan hər yannan qoyun-quzu mələşməsi, at kişnərtisi, çovan tütəyinin yanıxlı səsi eşidilirdi. Bir yannan eldən, ovadan ayrılmax, bir yannan da bu gözəl mənzərələr Miskin Abdalın ürəyini parça-parça elədi, qəlbini coşa gətirdi. Sazını sinəsinə sıxıf aldı görək nə dedi:

Bahar vaxtı yol başdadım Təbrizə,
Çəmən qaldı, çiçək qaldı, gül qaldı.
Öz elimdə mələk misal gözəllər
Yanax qaldı, dodax qaldı, tel qaldı.

Savah-savah yarpaxlara şeh düşür,
Gül bülbülnən, bülbül gülnən öpüşür.
Asimanda ulduzdarı sayrışır,



Tufan qaldı, şimşək qaldı, sel qaldı.

Bu güllərdən dəstələ al, əlinə,
Miskin Abdal, apar canan elinə.
İzin versə, düz yarının telinə,
Çəmən qaldı, çiçək qaldı, gül qaldı.

Bunu deyif başdadılar yerin damarını qıra-qıra yol getməyə. Gün çeşdə qalxanda gəlif Alçalıya çatdılar. Hələ axşama xeyli varıydı. Dost-tanışdar çox yalvar-yaxar elədilər ki, bu gejə qalıf onnarın qonağı olsunnar. Miskin Abdal razı olmadı.

Alçalı camahatınnan xudafisdəşif yollarına davam elədilər. Qavaxda yol haçalanırdı. Yolun biri quru yoluydu. Bu yolnan getmək əlverişdi deyildi. Çünki neçə gün dağlardan-daşdardan keçif, uzun bir yol keşməliydilər. Ona görə gəmiynən getmək istiyirdilər. Amma inanmırdılar kı, bu vaxta gəmi qalsın. Ona görə çarığın bağını bərkidif piyada getmək istiyəndə Miskin Abdal gölün sahilində bir gəminin dayandığını görüf Qasıma dedi:

– Qasım, tələs. Baxtımızdan bərədə gəmi qalıf.

Onnar gəmiyə yaxınnaşdılar. Bu vaxt külək başdadı. Gəminin böyüyü də, gəmidəkilər də sevindilər. Gəminin böyüyü üzünü Miskin Abdalgilə tutuf dedi:

– Səmt küləyi olmadığınnan dünən axşamdan burada qalmışıx. Elə bil bu küləyi siz gətirdiniz. Tez olun gəmiyə minin!

Gəminin böyüyü biləndə ki, bu haqq aşığıdı, Miskin Abdalın üzünə salavat çöyürdü, onnara təzədən xoş gəldin elədi. Gəminin böyüyü qonaxlara olmazın hörmət elədi. Miskin Abdal da sazı köynəyinnən çıxarıf çalıf-oxumağa başdadı.

Gəmidəkilərin başı aşığa elə qarışmışdı kı, vaxtın nejə keşdiyini, hara getdiklərini yaddan çıxartmışdılar. Bir də o vaxt ayıldılar kı, gəmi sahilə xeyli qalmış bir adaya zərbnən dəydi. Hamı təlaş içində adaya atıldı. Tez lövbər saldılar. Tufanın yatmağını gözdədilər. Tufanda kı kəsmək bilmirdi. Tufan düz üç gün gəmiyi yerinnən tərpənməyə qoymadı. Buradakıların hamısı tezdiknən suya qərq oluf, məhv olajaxlarınnan qorxurdu. Vətəndən ayrı düşmək, bir yannan da yar həsrəti Miskin Abdalın bir dərdini min elədi. Dağ-daş başına fırrandı, için-için alovlanıf yandı. Heş nəyə güjü çatmıyıf sazını əlinə aldı. Zilini-zil, bəmini-bəm eliyif, aldı görək nə dedi:

Gejə yuxum yoxdu, gündüz qərarım,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fələk niyə qoydu adada məni.
Bilməm, neynəmişəm, nəydi günahım?
Niyə saldı aha, fəryada məni?

Mən bir hal əhliyəm, mətləf qanıram,
Nələr düşünürəm, nələr anıram.
Elə alışmışam, elə yanıram,
Söndürə bilməzdər suda da məni.

Mən Miskin Abdalam, haqqı seçmişəm,
Ərənnər əlinnən badə içmişəm,
Bir canannan ötrü cannan keçmişəm,
Qorxutmaz bala da, qada da məni.

Miskin Abdal sözünü qurtarar-qurtarmaz tufan dayandı. Bayaxdan at kimi şahə qalxıf, əjdaha kimi nə'rə çəkən dalğalar sahil boyu sürünüf, gölə tərəf çəkildilər. Dağılan qara buluddarın arasınnan günəş göründü. Gəmidəkilər Miskin Abdalın ayaxlarına döşəndi. İndi hamı onun haqq aşığı olduğunun cannı şahidi olmuşdu.

Gəmi genə yoluna davam elədi. Tezdiknən sahilə çatdılar. Hamı sağ-salamat mənzil başına yetdiyinə, o bəladan xilas olduğuna görə allaha şükr eliyir, Miskin Abdalın ömrünə dualar oxuyurdular.

Axşama hələ xeyli varıydı. Gəmidəkilər nə qədər minnət eləyif yalvardılarsa, Miskin Abdalnan Uzun Qasım qalmadı. Yollarına davam elədilər. Axşamüstü gedif bir şenniyə çıxdılar. Camahat bunnarı çox mehribannıxnan qarşıladı, Meydanəli adlı bir kişi onnarı evlərinə də'vət elədi. Çaydan, çörəkdən yeyib-içif bir az rahatdandılar. Eşidif bilən qohum-qonşular buraya toflaşdı. Mətləvi qanan Miskin Abdal sazını köynəyinnən çıxarıf çalıv-oxudu. Axırda da kim olduğunu, haradan gəliv, haraya getdiyini, yolda başına gələnnəri bunnara danışdı. Məclisə toplanannar bildilər ki, bu haqq aşığıdı. Vergi verilib, butasının dalınnan gedir. Hamı onnara xeyir-dua verif, evlərinə dağılışdı.

Savah açıldı. Savahlar üzünüzə xeyirriknən açılsın. Qonaxlar yuxudan durana kimi süfrə açılmışdı. Miskin Abdalnan Qasım yeyif-içənnən sonra ev sahibinə öz razılıxlarını bildirif, yola düşməyə icazə istədilər.

Meydanəli kişi yola da bir xeyli tədarük görüf, bunnarı böyük hörmət, izzətnən yola saldı.

Miskin Abddalgil kəndə axşamüstü çatdıxlarınnan çox şeyi görə bilməmişdilər. Yol boyu hər tərəfin gül-çiçək içində olduğunu görüf, ürəyində dedi ki, əbəs yerə buraya Dərəçiçək demiyiflər. Dərə də, dağ da, çəmən də, çöl də, bostan da, bağ da, yamac da gülə-çiçəyə bürünmüşdü.Miskin Abdalın könlü bu yerrərin misilsiz gözəlliyinnən



coşa gəldi, sazını sinəsinə basıf aldı görək nə dedi:

Əcəb səfası var sizin ellərin,
Dərəsi çiçəkdi, dağı çiçəkdi.
Ətri bihuş edir qönçə güllərin
Bağçası çiçəkdi, bağı çiçəkdi.
Bura dərə deyil, cənnət məkandı,
Mat-mətəl qalmışam xeyli zamandı.
Pis gözdən qoruyun allah, amandı
Sol yanı gül açıf, sağı çiçəkdi.

Yaxşı kı güzarım düşdü bu yerdən,
Baxanın ağlını aparıf sərdən.
Hər yan xəvər verir bardan-bəhərdən
Körpə şamamanın tağı çiçəkdi.

Miskin Abdal özü haxdan pay alır,
Ürəyi yüz dəfə boşalıf, doluf,
Mələklər, hurilər burda cəm oluf,
Lalə yanaxların ağı çiçəkdi.

Qonaxları yola salmağa yığışannar dönə-dönə rica etdilər ki, qayıdanbaş genə bu elin qonağı olmamış Göyçüyə getməsinnər. Miskin Abdal söz verdi ki, muradına çatıf qayıdanda mütləq onnara baş çəkəjək.

Miskin Abdalnan Qasım yol başdadılar Təbrizə tərəf. Az getdilər, çox dayandılar. Çox getdilər, az dayandılar. Neçə oba, orman keşdilər, dağ, dərə aşdılar. Qavaxlarına çıxan hər kənddə, hər şennikdə onnarı böyük hörmətnən-izzətnən qarşıladılar, xeyir-dualarnan yola saldılar. Dərələyəz ellərinnən keçəndə, bir də gördülər ki, qarşıdakı çəmənnikdə bir dəstə qız çiçək dərir. Al-yaşıl geyinən, bir-birinnən gözəl qızdar Miskin Abdalgili görüf diksinən kimi oldular. Qızdarın içində Cəvahir addı dilli-dilavər bir qız varıydı. O dedi:

– Qorxmuyun qızdar. Bunnar quldur-qaçax, yol kəsən deyillər. El aşığı, yol adamıdılar. Özü də lap cavandılar.

O biri də zarafatyana qayıtdı kı:

– Özdəri də subaydılar.

Bu sözə qızdarın hamısı gülüşdü. Uzun Qasım bu gülüşdən pərt oldu. Miskin Abdal ona göz vurdu ku, sakit olsun. Burada başqa şey var.

Cəvahir bunnarın baravarına gəlif salam verif, əleyk aldıxdan sonra dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bizim ellərə xoş gəlifsiniz. Sizi bizə Allah yetirif. İndi bu güllü-çiçəkli çəməndə aşıxlar çalar, oxuyar, biz nərmənazik, nazdı-qəmzəli qızdar da qulax asıf feyziyab olarıx.

Uzun Qasım özünü saxlıya bilmiyif dedi:

– Xanım, mən aşıx deyiləm.

Cəvahir dedi:

– Yoxsa balabançısan?

Uzun Qasım dedi:

– Yox, xanım. Nə aşığam, nə də balabançı. O, başdadı oluf-olanın hamısını qızdara danışdı. Qızdar bir ağızdan onnara Allahdan kömək dilədilər, alxış elədilər. Qonaxlara gül dəstələri bağışdadılar.

Cəvahirin dili yenə dinc durmadı, dedi:

– Miskin Abdal, gedirsən. Allah işinə rəvac versin. Ancax bir də səni görək, görmüyək. Sənin kimi haqq aşığına rast gələk, gəlmiyək. Əyər, doğrudan da haqq aşığısansa, biz qızdara da bir tə'rif de. Bir az da bizim üçün çal, oxu.

Miskin Abdal bir-birinnən gözəl olan bu qızdarı gözaltı süzdü. Qəlbi riqqətə gəldi, dedi:

– Gözüm üstə, qızdar. Sizin tə'rifinizi yaradan özü verif. Mən də Allahın sizə verdiyi o gözəlliyi vəsv eliyərəm. Uzax yol gəlmişik. Susamışıx. Mana bir içim su verin, sonra başdıyım tə'rifinizi deməyə.

Qızdardan biri cəld qaçıf yaxınlıxdakı durna gözlü bulaxdan dolçasını dolduruf aşığa verdi. Buz kimi suyu içənnən sonra görək Miskin Abdal qızdara nə dedi:

Biri o birindən gözəl,
Qarşımıza çıxan qızdar
De biznən var nə qəsdiniz?
Qəlb uçuruf, yıxan qızdar.

Şərbət bildim suyunuzu,
Mən öyərəm boyunuzu,
Kaş görəydim toyunuzu,
Oğrun-oğrun baxan qızdar.

Körpəsiniz, qönçasınız,
Yol üstündə xonçasınız.
Pərvazlanıf uçansınız,
Sultan qızdar, ay xan qızdar.



Nə şirindi kələkləri,
Xoş arzusu, diləkləri,
Neçə-neçə ürəkləri,
Atəşdərə yaxan, qızdar.

Mən Abdalı etdi xəstə,
Bir qara göz, boyu bəstə
Bənövşəni dəstə-dəstə
Yaxasına taxan, qızdar.

Qızdar bir ağızdan Miskin Abdala "sağ ol", "əhsən" dedilər.

Cəvahir bildirdi ki, aşıx "boyu bəstə" deyəndə dərdindən divanə olduğu Sənubəri nəzərdə tutu. Ancaq özünü o yerə qoymuyuf dedi:

– Aşıx, bizim aramızda o "qara göz, boyu bəstə" kimdi?

Miskin Abdal dedi:

– Xanım, mən öz sevgilimi nəzərdə tuturam. Axı, o da sizin kimi nocavan qızdı.

Cəvahir dedi:

– Yaxşı, onda sənin sözünnən belə çıxır kı, dünyada sənin Sənubərinnən başqa gözəl yoxdu. Nə oluf. Allahın adına şükür. Tə'rifimizi özün dedin. Nejə oldu ku, bizdərdən birimiz sənin Sənubərinə tay olmadıx.

Bu sözdərnən Cəvahir aşığı özü qəsdən bərkə-boşa çəkirdi.

Miskin Abdal dedi:

– Xanım, indi ki, belədi, onda qulağ as:

Sizə çirkin deməmişəm,
Dərələyəz gözəlləri.
Haxdan yanan bir atəşəm,
Dərələyəz gözəlləri.

Bir ocax var, hər binədə,
Bir sevgi var, hər sinədə.
Eyviniz yox bir dənə də,
Dərələyəz gözəlləri.

Sənubərdi mənim tacım,
Ona qalıf bir əlacım,
Siz hamınız mənim bacım,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərələyəz gözəlləri.
Yarpax düşər, xəzəl olar,
Könül sevən gözəl olar.
Sevgi haxdan nazil olar,
Dərələyəz gözəlləri.

Miskin Abdal, budu sözüm,
Sizdə işvə, məndə dözüm.
Yolunuza güllər düzüm,
Dərələyəz gözəlləri.

Qızdar yenidən şaddandılar. Aşığa təzə-tər gül, çiçək dəstələri bağışdadılar. Cəvahir üzünü Miskin Abdala tutuf dedi:

– Qalmağ istəsən, buyur qal. Biz də elik, ovayıx. Qonax Allah qonağıdı. Neçə vaxtdır yollardasan, yoruluf əldən düşərsən. Bir neçə gün qonax qal, çal-çağır. Sonra genə Təbrizə, sevgilinin dalınnan gedərsən.

Miskin Abdal:

– Sağ ol, xanım. Yolçu yolda gərək. Sənubər xanımın gözü yoldadı. Biz mütləq getməliyik.

Cəvahir dedi:

– Madam ki, belə oldu, onda qulaq as.

O, siyah zülfünnən üç tel ayırıf mərmər sinəsinin üstünə basıf, aldı görək nə dedi:

Sözüm budu, sana, aşıx,
Səni yara yetişəsən.
Biz daha bajı-qardaşıx,
Səni yara yetişəsən.

Aldı Miskin Abdal:

Gedərgiyik, rüsxət verin,
Qalın Allah amanatı.
Ömrünüzdən xeyir görün,
Qalın Allah amanatı.

Aldı Cəvahir:

Bas sinənə, çal sazını,
Haqq özü yazıf yazını
Allah versin murazını,
Səni yara yetişəsən.



Aldı Miskin Abdal:

Sazım kökdə, sinəm dolu,
Mənəm ərənnərin qulu.
Göstərin Təbrizə yolu,
Qalın Allah amanatı.

Aldı Cəvahir:

Cəvahiri sanma naşı,
Bilir nədi eşq ataşı,
Unutmaz bajı qardaşı,
Səni yara yetişəsən.

Aldı Miskin Abdal:

Bu yerrərdə gözüm qalar,
Söz-söhbətim, sözüm qalar.
Mən gedərəm izim qalar,
Qalın Allah amanatı.

Hər ikisi sözünü tamam eləyif əhdi-peyman bağladılar, qardaş-bajı oldular. Cəvahir dedi:

– Qardaş, mən özüm səni bərkə-boşa çəkirdim. Halal olsun sana. Sən, doğrudan da, haqq aşığısan. Yarına da yetişəjəksən. Mən də bu görünən kənddə Məlik ağanın qızıyam. Nişannım da öz əmim oğludu. Bu payız toyumuzdu. Sağ-salamat qayıdanda bir bajına da baş çək. Tez qayıtsan toyumuzu özün eliyərsən. Sonra birrikdə gedərik sizin ellərə. Göyçənin tə'rifini çox eşitmişəm, amma indiyə kimi görməmişəm.

Miskin Abdal dedi:

– İnşallah, hər şey qaydasına düşər, bu murazına da çatarsan. O, saznan olduğu kimi, söznən də buradan Təbrizə sarı getməyin səmtini soruşuf, örgəndi. Qızdar görüşüf, hallalaşıf onnara yol göstərdilər. Yolçular yola düzəldi. Az getdilər, çox getdilər gəlif İrəvan səmtinə çıxdılar. Miskin Abdal məsləhət gördü kü, şəhərə girməsinnər. Çünki böyük şəhərdi. Aşığı tutdular, həftələrnən, aylarnan buraxmıyajaxlar. Özüdə ki, bilələr Göyçədən gəlmişik.

Qərəz, xeyli dərs-gors, məşvərətdən sonra Naxçıvana tərəf yollarını davam etdirdilər. Bir xeyli yol getdikdən sonra bir bulağın başında oturuf dincəldilər. Birdən Uzun Qasımın gözdəri göylərə baş alıf ucalan "Ağrı dağı"na sataşdı. Dedi:

– Bilmirsən, bu hansı dağdı? Ətəyində istidən ilan mələşir, başında nə boyda qar var!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu yerrərə Miskin Abdal da birinci dəfəydi ki, gəlirdi. Ancax, dağın duruşunnan, əzəmətinnən bildi ki, bu "Ağrı dağı"dı. O bu dağın İrəvan şəhərinin yaxınnığında yerrəşdiyini eşitmişdi. Kənd yığnaxlarında, məclislərdə aşıxlar, el ağsaqqalları Miskin Abdalın yanında dəfələrnən "Ağrı dağı"nnan çox söhbətdər eləmişdilər.

Miskin Abdal bunnarı unutmamışdı. O öz-özünə dedi: "Bu heç insafdan deyil ki, bu qədər yol gələsən, xata-balalardan qurtarasan. hər yerdə qatar-qatar söz deyəsən, amma adı dillər əzbəri olan, Nuh Peyğəmbərin nişanəsi "Ağrı dağı"na bir qatar söz qoşuf, oxumuyasan. O, sazını köynəyinnən çıxarıf üzünü "Ağrı dağı"na tutuf oxumağa başdadı:

Qüdrətdən yaradıf yaradan səni,
Məğrur dayanıfsan sən, Ağrı dağı.
Şöhrətin tutufdu cümlə cahanı
Məftunam hüsnünə mən, Ağrı dağı.

Başında qış olar, ətəyində yay
Təksən bu dünyada, yoxdu sana tay.
Qartallı qoynundan kəsməz, hay-haray
Çəkilməz başınnan çən, Ağrı dağı.

Nuhun gəmisinnən bir xəvər söylə,
Karvana yetmirəm, sarvanı əylə.
Bu Miskin Abdala inayət eylə,
Danış bircə kəlmə, din, Ağrı dağı.

Söz qurtarannan sonra sazı köynəyinə qoyuf yol başdadılar Naxçıvan şəhərinə tərəf. Neçə gün yol getdilər. Axır bir gün gəlif Naxçıvan şəhərinə varid oldular.

Qara zurnanın səsi şəhəri başına götürmüşdü. Sən demə, Naxçıvanın addı-sannı kişilərinnən biri, səxavəti dillərdə dastan olan İsgəndər bəy oğluna toy eliyirmiş. Qırx günnük toya bir neçə aşıx da də’vət olunmuşdu. Bunnar bu yerrərin addı-sannı aşıxları sayılırdı. Ancax İsgəndər bəyin ürəyində bir tıqqıltı qalmışdı. Axı, o Göyçədən aşıx gətirə bilməmişdi. Hər yerdə olduğu kimi buralarda da Göyçə aşıxları adnan söylənirdi.

Birdən İsgəndər bəyə xəvər gətirdilər ki, deməzsənmi şəhərə Göyçədən bir aşıx gəlif. Özü də çox cavandı. İsgəndər bəy əmr elədi ki, onnarı tez onun yanına gətirsinnər. Bir göz qırpımında Miskin Abdalnan, Uzun Qasımı tapıf İsgəndər bəyin yanına gətirdilər. Xoş-beş, on-beşdən



sonra İsgəndər bəy başdadı bunnarnan əhval-pürsannığa. Miskin Abdal başına gələnnəri ona nağıl elədi. İsgəndər bəy xeyli fikrə gedənnən sonra dedi:

– Oğlum, atanı tanıdım. Şeyx Heydərin dostudu. Mən də Şeyx Heydərnən çox yaxın dostam. Deməli, sən həm haqq aşığı, həm də mana dünyada hamıdan yaxın olan dostumun dostunun oğlusan. O ku, qaldı Təbrizdi İlan Mahmuda onu da tanıyıram. Çox nanəcif adamdı. İş işdən keçif. Bura qədər gəlifsən. Allahın ətəyinnən tut. İnşallah axırda hər şey yaxşı olar. Amma getməyə çox tələsmə. Bir neçə gün qal, oğlumun toyunda iştirak elə. Burda hamı Göyçə sazının-sözünün ölüsüdü.

Miskin Abdal onun sözünü yerə salmadı. Üç gün toyda-mağarada çalıf, çağırdı. Onun səsinə, avazına hamı heyran qalmışdı.

Üçüncü gecə paxıllıxdan özünü saxlaya bilmiyən bir qoja aşıx irəli yeriyif icazəsiz, filansız Miskin Abdala dedi:

– Görürəm özünə çox güvənirsən. De görüm, aşıx nejə olmalıdı?

İsgəndər bəy aşığa gözünü ağartdı. O, dərhal yerində oturdu. İsgəndər bəy üzünü Miskin Abdala tutuf dedi:

– Aşıx, öz işində ol. Onun dediyini saya salma!

Hamının qoja aşıxdan zəhləsi getdi. Elə bildilər ki, onun dediyinə cavaf qaytara bilmiyif, pisikəjək.

Miskin Abdal halını pozmadan dedi:

– Bəy, lütfkarlığına görə sağ ol. Aşığın sözünə cavav verməк mənim borcumdu:

Aşıx, gəl kəşt elə ağır elləri,
El içində namus, arı unutma.
Həyalı gəz, təmiz saxla adını,
Dost yanında e’tibarı unutma.

Halal mala haram qatmax nə lazım?
Hədər yerə kəmənd atmaq nə lazım?
Hər yetənə yalan satmax nə lazım?
Əhdi-peyman, düz ilqarı unutma.
Miskin Abdal bir qonaxsan dünyada
Könlün bir dəryadı, ürəyin ada.
İstəsən ki, yetişəsən murada,
Yaş torpağı, dar məzarı unutma.

Hər yerdən alqış sədaları göyə ucaldı. Ariflər dedilər: "Di al payını". Baxdılar kı, elədiyi qələtə görə qoca aşıx əkilmək istiyir. Miskin Abdal



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üzünü aşığa tutuf dedi: Qulaq as, hələ sözümü qurtarmamışam.

İnsan oğlu, kələk qurma,
Kələyə, fəndə düşərsən.
Nahax yerə üzə durma,
Zülümnən anda düşərsən.

Hər adamnan olma tanış,
Yaz gününü eliyər qış.
Fikir elə, sonra danış
Qəfil kəməndə düşərsən.

Miskin Abdal xəvərdar ol,
Yoldaşınnan düz ilqar ol.
Yaman günə şükürdar ol,
Dönüf hasanda düşərsən.

Alqış alqışın, əhsən əhsənin dalınnan sel kimi yağdı. İsgəndər bəy özünü saxlaya bilməyif düz meydana gəldi. Miskin Abdalı bərk-bərk qucaxlıyıf alnınnan öpdü, əlini kürəyinə vuruf dedi:

– Halal olsun, sana Göyçənin suyu, çörəyi. Halal olsun sənə süd verən anaya, ərsəyə çatdıran ataya! Hanı qoca aşıx? Cavanı bir də sınamax istəmirmi?!

Baxdılar qoja aşıx nə gəzir? Bayaxdan əkilif. İsgəndər bəy keçif bayaqkı yerində əyləşdi. Miskin Abdal üzünü İsgəndər bəyə tutuf dedi:

– Bəy, bəlkə o biri aşıxlardan da mənnən deyişmək istiyənnər var. Buyursunnar. Kim istiyir, çıxsın meydana.

Daşdan, qayadan səs çıxdı, aşıxlardan səs çıxmadı. Miskin Abdal öz-özünə düşündü kü, bu da kişilikdən deyil, neçə gündü əziyyətini çəksinnər, başına fırransınnar, sən İsgəndər bəyə, onun oğlunun bu xeyir işinə bir neçə kəlmə söz demiyəsən. Miskin Abdal üzünü İsgəndər bəyə tutuf dedi:

– Bəy, ojağın həmişə toylu-düyünnü, sözdü-söhbətdi, qonaxlı-qaralı olsun. Bilirsən ki, biz savah yola düşürük. Neçə gündü, yeyif, içif, çalıf oynuyurux. İzin versəydin, bu toya mən də öz sözümü deyərdim.

İsgəndər bəyə də elə bu lazımıydı. Dedi:

– Buyur, Göyçəli balası! Buyur, görək, qulağımız səndədi.

Aldı Miskin Abdal:

Bu cəlalı, bu novrağı,



Sən qurufsan, İsgəndər bəy!
Xəmirini halallıxnan,
Yoğurufsan, İsgəndər bəy!

Sən hatəmsən, öyün, öyün,
Yaddan çıxmaz bu toy, düyün.
Öz yurdunda dünən, bu gün
Mərd durufsan, İsgəndər bəy.

Abdal aldı sorağını,
Yazdı könül varağını,
Namərddərin tifağını,
Uçurufsan, İsgəndər bəy.

Hər yandan “afərin“ sədaları ərşə bülənd oldu. İsgəndər bəy meydana gəldi. Ortaya iri bir dəsmal sərdi. Əvvəlcə özü dəsmala bir xışma onnux qızıl qoyuf dedi:

– Məni istiyən aşığa nəmər!

Tezdiknən dəsmala bir kəndin bir illik xərci yığıldı. Miskin Abdal dəsmalı İsgəndər bəyin qavağına qoyuf dedi:

– Bağışda, İsgəndər bəy. Mən o aşıxlardan döyüləm. Nə eləmişəm, sənin xətrin üçün eləmişəm. Mana pul, mal, var-dövlət lazım döyül. Atamın varı-dövləti bir mahala sığışmır. Özün bilirsən ki, mən öz murazımın dalınnan gedirəm. Ən böyük nəmərim sizin xeyir-duanızdı.

Hamı Miskin Abdalın ağlına, mə’rifətinə heyran qaldı. Ona murazına çatmax üçün uğurrar deyilif, el xeyir-duası verdilər.

Gejə keçmişdi. Hamı evə dağılışdı. İsgəndər bəy də qonaxları rahatdadı.

Savahlar üzünüzə xeyirriyə açılsın. Elə ki, savah açıldı, yığışdıları, Miskin Abdalgili yola salsınnar. Yəhərri-yüyənni iki at, bir də atın tərkində yol azuqəsi hazır oldu.

Miskin Abdal yol azuqəsinnən bir az götürüf, atdardan imtina elədi. Dedi:

– Xətrin xoş olsun İsgəndər bəy. Niyyətim var, butamın dalınnan piyada getməliyəm.

Bu sözdən sonra İsgəndər bəy heş nə demədi. Yola düşmə məqamında o Miskin Abdalı bağrına basıf dedi:

– Get, yaxşı yol. Nə çətinniyin olsa mən hazıram. Ancax bir şeyi yadında saxla. Butana nə zaman qovuşuf geriyə dönsən, mütləq bizə gəl. Sənin toyunu burada özüm eliyəjəm. Göyçüyə sizi mən özüm aparajam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onnar bu əhd-peymannan ayrıldılar. Üzü Təbrizə doğru yol başdadılar. Bir neçə gün yol gedənnən sonra bir düzə çatdılar. Hava bərk istiydi. Ətrafda bulaxdan, çaydan əsər-əlamət yoxuydu. Dağlar da uzaxdaydı. Peşiman oldular kı, nahax yola su götürmüyüflər. Daha iş-işdən keşmişdi. Dözməkdən başqa çarə yoxuydu. Miskin Abdal uzun Qasımın halını görüf dedi:

– Darıxma, Allah bizi darda qoymaz, köməyimizə çatar. Bunu deyər deməz, birdən-birə göyün üzünü qara buluddar aldı, göy guruldadı, şimşək çaxdı. Qar, dolu, çovğun başdadı. Göz-gözü görmürdü. Bir neyzənbillah başdadı kı, elə bil dünyanın axırıydı. Elə bil yer-göy bir-birinə qarışmışdı. Sel, su dünyanı başına aldı. Dağlardan qopan selin nə'rəsi yeri-göyü silkəliyirdi. Miskin Abdalgil yekə bir daşın başına çıxdılar. Az qaldı sel daşı da, onnarı da süpürüf aparsın. Uzun Qasım fikirrəşdi ki, daha bizim ki də buraya qədəriymiş. Miskin Abdal umudunu haxdan üzməmişdi. Baxdı kı, xına o xınadan döyül. Sazını sinəsinə basdı, üzünü göylərə tutuf, aldı görək nə dedi:

Bu nə dərddi, nə bəladı,
İmdada çat, qadir Allah!
Yollarımı sellər aldı,
İmdada çat, qadir Allah!

Gözü yolda qalanım var,
Dərdə, qəmə dolanım var.
Çiçək kimi solanım var,
İmdada çat, qadir Allah!
Atam-anam yoxdu burda,
Gejə-gündüz ahu-zarda.
Abdal qaldı yaman darda,
İmdada çat, qadir Allah!

Söz tamama yetməmiş, buluddar yarıldı. Güjdü küləklər buluddarı qovuf uzaxlara apardı. Göyün üzü açıldı. Sellər-sular get-gedə azaldı. Bir azdan onnardan heş bir əsər-əlamət qalmadı. Miskin Abdalnan Uzun Qasım qayanın üstünnən düşüf paltarrarını sıxıf, sərdilər, qurutdular, yenə də yola rəvan oldular. Axşamüstü bir şenniyə gəlif çatdılar. Obanın adamları qonaxları hörmətnən qarşıladı. Yeyiv-içənnən sonra bir az da çalıv-oxudular. Gejəni orda yatıf dincəldilər. Savah yenə "ya mədəd" deyif yola düşdülər. Yolda bir çovana rast gəldilər. Onnan Təbrizin yolunu soruşdular. Çovan da zırramanın, qanmazın biriydi. İki ayağını bir



başmağa diriyif dedi:

– Aşıx bir-iki ağız çalıf oxumasa, yolu göstərən döyüləm.

Miskin Abdal bir özünə baxdı, bir çovana baxdı. Kimə möhtac olduğunu görüf dərin fikrə getdi, ürəyi quvar elədi. Sözdər sinəsinə düzüldü. Sazını zilə köklüyüf aldı görək nə dedi:

Təbriz yolu bir nadana tuş oldum,
Nə annadı, nə qandırdı, nə qandı.
Bir söz sordum, çənə vurdum, yoruldum,
Gördüm vallah qəflətdərdə yatandı.

Çovan dedi:

– Sağ ol aşıx, yaman oxuyursan, lap ürəyimnən xəvər verirsən. Ay belə oxusan, nə demişəm? Əgər axıra kimi belə oxusan, işin düzəldi, getdin Təbrizə. O birini de gəlsin:

Od üstündə korğun yanan bir sacam,
Gör nə gündə, gör kimlərə möhtacam.
Adı bəlli, istəmirəm sirr açam,
Bərələrdə keçi başı tutandı.

Bayaxdan bir az aralıda çomağına söykəniv aşığa qulaq asan çovan bu bəndi eşidənnən sonra bir az da irəli gəlif dedi:

– Dədəm sənə qurvan olsun, aşıx. Məni yaman kövrəltdin. İndiyə qədər nə qədər aşıx eşitmişəm, sənin sözdərin kimisi yoxdu. Hamısı elə bil ustadnamədi. Sana mən də, o dediyin keçilər də qurvan olsun. De görüm, o birini nejə deyirsən?

Aldı Miskin Abdal tafşırmada nə dedi:

Miskin Abdal hər gədaya kiçilməz,
Şah oğluna bezdən xələt biçilməz.
Qanacağı davarrardan seçilməz,
Heş nə üstə aralığı qatandı.

Elə ki, söz tamama yetdi, Miskin Abdal sazını köynəyinə qoydu, yolu tutuf getməyə başdadı. Çovan ha çağırdı, ha bağırdı, xeyri olmadı. Dallarınnan qaçıf yalvardı, yaxardı... Gördü yox, bunnar heş dala dönüf baxmıllar.

Çovan kor-peşman öz sürüsünün yanına qayıtdı. Öz-özünə dedi:

– Yazıx aşığı bir elə oxutdum, məni, keçimi, qoyunumu bir elə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tə'riflədi, heç olmasa ona bir loxma çörək, bir badya süd də vermədim.
Çovanı burada deyinə-deyinə qoyax, görək yolçular neylədilər? Miskin Abdalgil, özdəri də bilmədən yolu düz gedirdilər. Belə-belə neçə gün yol getdilər. Soruşa-soruşa Təbrizə yaxınnaşdılar.
Bir xeyli gedənnən sonra örgəndilər ki, Təbrizə az qalıf. Yorulduxlarınnan bir çəmənnikdə dincəlməyi qərara aldılar. Bir az oturmuşdular kı, gördülər başdarının üstündə bir dəstə atdı dayanıf. Ancax atdılardan biri lap pəhlivana oxşuyur. Miskin Abdalnan Qasım ayağa qalxdılar. Qasım ürəyində dedi: bizimki bura qədəriymiş. Bunnar yaqın yol kəsənnərdi. Bir də öz-özünə təskinnik verdi ki, axı biz yol adamıyıx, talanası nəyimiz var?
Atdılardan böyüyünün adı Qaçax Mehdiydi. O dedi:
– Aşıx, de görüm kimsiniz, hardan gəlif, harya gedirsiniz?
Miskin Abdal dedi:
– Göyçədənik. Təbrizə gedirik. Adım da Miskin Abdaldı.
Qaçax Mehdi dedi:
– Təbrizdə nə işiniz var?
Miskin Abdal bir istədi Təbrizə nə məqsədnən getdiklərini deməsin. Sonra düşündü ki, ey dili-qafil, birdən yalan danışdığımızı öyrənər, pis olar. Yaxşısı budu, gəl elə düzünü de. Axırı da nə olajax, olsun.
Dedi:
– Sevdagar Mahmudun qızı Sənubərin dalınnan gedirəm. Ağam onu mana buta verif.
Qaçax Mehdi:
– Deməli, sana vergi verilif, haqq aşığısan?
Miskin Abdal dedi:
– Bəli.
Qaçax Mehdi Miskin Abdalı çox bərkə-boşa çəkdi. Gördü yox, aşıx qorxu nə olduğunu bilmir. Özü də çox ağıllı oğlandı. Haqq aşığı olduğuna söz ola bilməz. Axırda tanışdıx verif Miskin Abdalnan dostdaşdı.
Qaçaq Mehdi mehriban-mehriban dedi:
– Miskin Abdal, olmazmı gəlişinin məqsədini sazla-sözlə djeyəsən?
Miskin Abdal dedi:
–Niyə olmur, Mehdi qağa. İndi mən çalım-çağırım, sən də o biri uşaqlar da qulaq asın. Görün ki, mən kiməm, nəçiyəm, məramım, məqsədim nədir:

Yatmış idim, bir sevdaya tuş oldum,
Oyanannan düşüd dilə qismətim.
Asimana pərvazlanan quş oldum,



Şüdd olubdu eldən-elə qismətim.

Yol ərkanım, təriqətim bəllidir,
Dar günümdə ol pənahım, Əlidir,
Deməyin ki, yoldan ötən dəlidir,
Səpələnib çəmən-çölə qismətim.

Harayımı yaradanım eşitsin,
Xata varsa, məndən uzaq ötüşsün,
Məqamında muradına yetişsin,
Heç görməsin nə ah, nalə qismətim.

Urcah olsun alma kimi yanağa,
Canlar alan al qırmızı buxağa,
Xoş zəbana, baldan şirin dodağa,
Şux yerişə, qara telə qismətim.

Dəhanımda əzbər olub Əlif-lam,
Mənnən olsun Xudamıza min salam,
Mən Abdalam, doğulannan halalam,
Yaradannan gəlib belə qismətim.

– Aşıx, mənim adım Mehdidi. Bu tərəflərdə mana Qaçax Mehdi deyillər. Özüm də sənin kimi adamların, kasıfların, yetim-yesirin dostuyam. Pis adamlara qan uddururam. Sevgilinin atası çox qəddar adamdı. Ona ilan Mahmud deyillər. Xoşduxnan qızı sana verməsə, yanıma gələrsən, zornan da olsa butanı sana yetirəjəm.
Sonra Uzun Qasımı göstərif zarafatnan soruşdu:
– Bu kimdi bə? Yoxsa buna da buta veriflər?
Miskin Abdaldan qavax Qasım dilləndi:
– Yox, Mehdi qağa, hayançıyam. Özü də kişi yox, cavan oğlanam.
Qaçax Mehdi baxdı kı, uşaxlar yol gəlif yoruluflar. Ona görə də zarafatını davam etdirdi:
– Deyirsən ki, cavan oğlansan, yə'ni suvaysan, eləmi?
– Bəli.
– Söz altında qalana oxşamırsan. De görüm, indiyədək nə əcəf evlənmiyifsən?
– Vaxtım olmuyuf.
Hamı gülüşdü. Qaçax Mehdi zarafatını davam etdirdi:
– Ə, evlənməyə nə vaxt. Noluf vaxtına?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nə bilim. Gejələr göydə ulduzdarı sayıram, gündüzdər çəməndə otdarı.

– Deyə bilərsənmi, nə qədər ot, nə qədər ulduz var?

– Hələ sayıf qurtarmamışam. Özü də say tez-tez yadımnan çıxır. Hər gün təzədən başdıyıram.

– Yaxşı, sənin adın nədi?

– Qasım. Özü də Uzun Qasım deyillər.

Yenə də hamı ucadan güldü. Qaçax Mehdi dedi:

– Yaxşı, evlənməyin barədə dədənə niyə bir söz demirsən?

– Dədəmnən utanıram.

– Anana de.

– Demişəm. Anam deyir, hələ bir az da uzanmalısan.

– Axı, niyə?

– Nə bilim, deyir ki, başqalarının oğlu çoxdu, mənimki bircədi. Qoy lap uzun olsun.

– Onda sənə bir adam qız verməz.

– Bir adam qız verməz, bir neçəsinin qızını birdən alaram.

Bu söhbəti eşidənnər uğunuf getdilər. Xülasə, çox sözdən, zarafatdan sonra Qaçax Mehdi uşaxlara Təbrizin yolunu göstərdi. Özü də tafşırdı kı, harda dara düşsəniz, mana xəvər çatdırarsınız. Sağlıq olsun, Allahın köməkliyinnən iki aşiq-mə'şuq bir-birinə qovuşajax. Aşığı burda oxutmuram. Əhd eliyirəm ki, yarına yetişənnən sonra ona doyunca qulağ asajam.

Hamı bir ağızdan dedi:

– O günnən Allah pay versin.

Sonra Qaçax Mehdi üzünü genə Qasıma tutuf dedi:

– Ə, gödək Qasım, çalış Təbrizdən bir qız da sən tap. Çox əziyyətdər çəkifsən. Göyçüyə əliboş qayıtma. İkinizin də toyunuzu bir eliyərik. Bu uzunda adama Göyçədə heş kəs qız verməz...

Genə də hamı gülüşdü.

Qasım dedi:

– Sözünnən çıxmaram, Mehdi qağa!

Ayrılanda Qaçaq Mehdi gördü ki, Miskin Abdalın deyəsən yenə də deməyə sözü var. Dedi:

– Miskin Abdal, olmaya bizə demədiyin bir söz yadınnan çıxıf qalıf?

Miskin Abdal dedi:

–Mehdi qağa, sinəmə bir qatar da söz gəlif, izin versən...

Qaçax Mehdi tez dedi:

– Buyur, bizdən ötrü çox xoşdur, eşidirik, de gəlsin.

Bunu eşidəndə Aldı Miskin Abdal görək nə dedi:



Nə müddətdir eldən iraq düşmüşəm,
Bu dağlarda, bu düzlərdə izim var.
Sinəm dolu, kürələrdə bişmişəm,
Məclis quruf söyləməyə sözüm var.

Buta aldım bir qaragöz dilbəri,
Öz yolumnan dönəmmərəm mən geri,
Addım-addım, qarış-qarış hər yeri,
Axtarmağa ürəyimdə dözüm var.

Bu sevdada ömrüm viran, talandı,
Məhəbbətsiz ötən ömür yalandı,
Atasının ayaması ilandı,
Mahmud qızı Sənubərdə gözüm var.

Şimşəy olub, alosmanda çaxaram,
Bir sel olub kükrəyərəm, axaram,
Başdan-başa geyinməyə zər-xaram,
Ayağıma dolamağa bezim var.

Sanmayın ki, Miskin Abdal fağırdı,
Yarın dərdi hər cəfadan ağırdı,
Ağam məni bu sevdaya çağırdı,
Dastan açıb oxumağa sazım var.

Qaçax Mehdinin yoldaşdarınnan Miskin Abdalgil görüşüf, öpüşüf mehribannıxnan ayrıldılar.

Təbrizə cəmi üç günnük yol qalmışdı. Miskin Abdalgil Təbrizə üz tutmaxda olsun, görək Sənubər xanım neylədi?

Bava dərviş eşqin camını Hüseynə içirdəndə həmin badədən birini də Sənubər xanıma vermişdi. O günnən Sənubər xanım da eşqə düşüf Miskin Abdala qovuşmax həsrətinnən alışıf-yanırdı. Sənubər xanımın Gülçöhrə adında bir xidmətçisi varıydı. Gülçöhrə sözə, sirrə çox möhkəm qızıydı. Sənubərin nə sirri varıydısa, bircə onnan bölüşürdü. Bir gün o sübh tezdən gördü kü, Sənubər xanımın halı hal döyül. Yanaxları lalə kimi qızarıb, rəngi al-lanıf. Bir haldadı kı, gəl görəsən. Özündə-sözündə döyül. Nə qədər elədi Sənubərdən bir cavaf ala bilmədi. Qorxdu, dedi, yaqin qız naxoşduyuf, eləyif. İstədi qaçıf atasına, anasına xəvər elәsin. Bunu hiss eliyən Sənubər xanım əlinin işarəsinnən onu saxladı. Hörüklərinin birini qar kimi ağ sinəsinin üstünə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

endirdi. Aldı görək nə dedi:

Ağam mana buta verif,
Sular kimi durulmuşam.
Uzağ elli bir iyidə,
Bir oğlana vurulmuşam.
Ərənnərnən qoşa gəzən,
Eşqin dəryasında üzən,
Bağrımın başını əzən
Bir oğlana vurulmuşam.

Sənubərə oldu olan,
Könül şəhri viran, talan.
Çox gözəli dərdə salan
Bir oğlana vurulmuşam.

Sözünü tamama yetirənnən sonra Sənubər nurani bir dərvişin yuxuda ona eşq piyaləsi içirtdiyini, Göyçə mahalının, Zərgərri kəndinnən olan Məhəmməd oğlu Hüseyni ona buta verdiyini söylədi. Sənubər bir az sözdən-söhbətdən sonra Gülçöhrəyə dedi:

– Gülçöhrə, bu söhbəti ikimizdən başqa kimsə bilməməlidi. Bu sirri anama da deməmişəm. Bircə sana deyirəm. Əgər mana kömək eləmək istəyirsənsə, bu günnən gözdə, qulaxda ol, öyrən, gör Təbrizə qəriv adam, aşıx gəlirmi? Şəhərimizə Göyçə ellərindən Hüseyn adında cavan aşığın gəldiyini öyrənən kimi mana xəvər elə. Ürəyimə damıf: bu günnərdə o, Təbrizə gəlməlidi.

Gülçöhrə dedi:

– O, nə sözdü xanım. Sənin yolunda ölümə də getməyə hazıram.

O günnən Gülçöhrə Hüseynin sorağında oldu. Günnər ötdü, həftələr keşdi. hüseyn gəlmədi ki, gəlmədi, Sənubərin gözü yollarda qalmışdı. Ürəyinə min fikir gəlirdi. Sənubər qorxdu ku, Hüseyn çox gejikə. Dədəsi onu başqasına vermək istiyirdi. Bir də Sənubər bilirdi, atası heş vaxt onun tanımadığı bir adama ərə getməsinə razı olmuyajax.

Elçilər ilan Mahmudun qapısını yağır eləmişdilər. Hamıya da yox deyirdi. Qızını Bəzirgan Qeysərin oğluna vermək istiyirdi. Çünki onun varı-halı dünyadan aşmışdı. Amma oğlu Cümşüd bir qara qəpiyə dəyəsi oğul döyüldü. Beyvejin, fərasətsizin biriydi. Bunu Sənubər xanım da eşitmişdi. Anası Səlbinaz da bilirdi. Amma hər ikisi ilan Mahmudun qorxusunnan cınqırrarını belə çıxara bilməzdilər. Ona əbəs yerə ilan Mahmud demirdilər. Qəddarlıxda, mərdimazarrıxda, tamahkarrıxda tayı-baravarı yoxuydu. Evdə də, eşikdə də, hamının onnan zəhləsi gedirdi.



İlan Mahmud bəzirgan Qeysərə söz vermişdi ki, İsfahana sövdəgarrığa gedirəm, bir aya qayıdajam. Qayıdannan sonra hər şeyi qurtararıx. Bəzirgan Qeysər də buna çox sevinmişdi. Sövdakar Mahmud İsfahana təzəcə yola düşmüşdü. Gülcöhrə yenə mə’lul-mə’lul Sənubər xanımın yanına gəlirdi. Birdən qulağına yanıxlı bir səs gəldi. Qulağını qapıya verif dinniyəndə baxdı kı, Sənubərin səsidi. O butasının ayrılığına dözə bilməyif oxuyurdu:

Ay hazarat, yandı canım,
Hanı düz ilqarım mənim?
Gözüm yolda, könlüm səsdə,
Harda qaldı yarım mənim?

Həsrətinnən qan ağlaram,
Sinəmi çarpaz dağlaram.
Ölüncə qara bağlaram
Harda qaldı yarım mənim?

Sənubərəm, gözüm yaşdı,
Neyniyim mən başı daşdı?
Qəlb yanğılı, can ataşdı,
Harda qaldı yarım mənim?

Gülçöhrə dözə bilmiyif içəri girdi. Sənubərin boynunnan qucaxlıyıf, üzünnən-gözünnən öfdü, gözdərinin yaşını silif dedi:

– Sənubər xanım, sən lap mənim ürəyimi dağladın. Çox qəm eləmə, sizi bir-birinizə yazan, heş vaxt sizi darda qoymuyajax. Bu yaxınnarda sizi bir-birinizə qovuşdurajax. Sənubər dedi:

– Allah ağzından eşitsin, dediyin fal olsun. Məni qınama, ürəyimə damıf kı, Hüseyn hardadısa bu gün burada olajax. Bu düz olsa, peşkəşin məndə.

Gülçöhrə Sənubərin qəlbini xoşhal etmək üçün dedi:

– Peşkəşin nə olaxax, xanım?

Sənubər:

– Səni də özümnən Göyçə ellərinə aparajam.

Hər ikisi güldü. Sənubər dedi:

– Gülçöhrə, bu günnən mana xanım demə. Səni özümə bajı seşmişəm. Allah bilir ki, sirrimi sənnən başqa heş kəsə deməmişəm. İstiyirəm ki, axıracan belə olsun. Bu gün get şəhərin gündoğan səmtində dayan. Bəlkə Hüseyn gəldi.

Gülçöhrəgilin evi şəhərin kənarında, özü də həmin yolun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaxınnığındaydı. O, Allah, Məhəmməd, ya Əli eləyif yola düzəldi. Deyilən yerə təzəcə çatmışdı kı, uzaxdan iki qaraltı göründü. O, Allahı çağırıf gözdəməyə başdadı. Qaraltılar yaxınnaşanda Gülçöhrə gördü kü, iki kişi xeylağıdı. Lap yaxınnaşanda gördü kü, iki cavan oğlandı. Birinin də çiynində saz var. Gülçöhrə onnarın qavağını kəsif dedi:

– Deyin görüm, kimsiniz, nəkarəsiniz, haradan gəlif, haraya gedirsiniz?

Qızın belə, yekə-yekə danışması Qasımın heç xoşuna gəlmədi. İsdədi desin: axı sən kimsən ki, bizi sorğu-suala tutursan, buralarda kişi yoxdumu? Miskin Abdal tez onun ayağınnan basdı. Bildi ki, qız sözdü adamdı. Qız xeylağına yalan danışmağı da kişiliyinə sığışdırmadı. Fikirrəşdi ki, isdanmışın yağışdan nə qorxusu? Olajağa onsuz da çara yoxdu. Düzünü deyəjəm.

– Xanım, niyə ajığın tutur. Biz uzaq-uzaq ellərdən gəlmişik.

– Uzax, yə'ni haradan?

– Göyçədən, səfərimiz Təbriz şəhərinədi. Mənim adım Miskin Abdal, yoldaşımın adı Qasımdı. İkimiz də subayıx. Xanım, özgə nə soruşmax istiyirsən?

Aşığın adı Gülçöhrəni çaşdırmışdı. Axı, Sənubərin dediyi oğlanın adı Hüseyniydi. Qalan nə deyirdisə, hamısı düz gəlirdi. Gülçöhrə soruşdu:

– Aşıx, sənin başqa adın yoxdu?

Miskin Abdala dərhal hər şey aydın oldu.

Dedi:

– Xanım, əvvəlki adım Hüseyniydi. Sonralar Miskin Abdal oldu. Bunun da sirri var.

Gülçöhrə artıx bildi ki, bu həmin adamdı. O, sevincək axırıncı sualını verdi:

– Aşıx, Təbrizə nə məqsədnən gəlifsən?

– Butamın dalınca.

– Sənin yarın kimdi?

– Xanım, bunu dilnən desəm dilim yanar. İcazə ver, saznan deyim.

– Buyur, de.

Miskin Abdal sazı köynəyinnən çıxarıf zilini-zil, bəmini-bəm, sinəsinə müstəkəm eliyif, görək Təbrizə nə məqsədnən gəldiyini nejə bəyan elədi:

Göyçəliyəm Təbrizdədi,
Namus, qeyrət, arım mənim.
Bir sənəmə bənd olmuşam



Sənubərdi yarım mənim.

Qurban ərənnər pirinə,
Kim yetər onun sirrinə?
Gəlmişəm yarım şəhrinə,
Sənubərdi yarım mənim.

Odu eşqimin əzəli,
Dərdinnən olmuşam dəli.
Təbrizin türfə gözəli,
Sənubərdi yarım mənim.

Bunu eşidən Gülçöhrə çox sevindi. Buraya nə məqsədnən gəldiyini açıf danışdı. Miskin Abdalnan Qasım çox şad oldular. Uzun Qasım biləndə ki, Gülçöhrə suvay qızdı, bir gözuju ona baxdı. Onun alovlu-oddu baxışdarı Gülçöhrənin gözünnən yayınmadı. Gülçöhrənin yanaxları Təbrizin tər lalələri kimi allandı. Miskin Abdal bunu o saat duydu. O, üzünü Qasıma tutuf zarafatyana dedi:

– Qasım, deyəsən sənin də işin düzələjək. Allah deyəsən sana da bir qapı açajax.

Bayaqdan dil-dil ötən Gülçöhrə utana-utana dedi:

– Yol gəlifsiniz, yorğunsunuz. Gedəyin bizdə dincəlin. Mən Sənubər xanıma xəvərə qaçım. O, qonaxları evə gətirdi. Atası İsmayıl kişi, anası Gülnisə, qardaşı Məmməd qonaxlara xoş gəldin elədilər. Süfrə aşdılar, çay-çörək qoydular. Qonaxlar yeyif-içif rahatdanannan sonra söhbətə başdadılar. Hamı mətləfdən halı oldu.

Gülçöhrənin atası İsmayıl kişi dedi:

– Bala, vallah, indiyə kimi Gülçöhrə bu barədə bizə heş nə demiyif. Xoş gəlif, səfa gətirifsiniz. Allah qoysa, muradınıza da çatarsınız.

Bunnar burda söz-söhbətdə olsun. Görək Gülçöhrə neynədi? O vaxt itirmədən, davanına tüpürüf, üz tutdu Sənubərgilə tərəf. Sənubər külafirəngidə duruf həsrət-həsrət yollara baxırdı. Bir də gördü kü, budu Gülçöhrə qan-tər içində onnara tərəf gəlir. Bildi ki, bir şad xəvər var. İstədi qavağına çıxsın. Bu dəmdə Gülçöhrə qapıyı açıf içəri girdi. Tövşüyə-tövşüyə dedi:

– Dinnə, Sənubər! İndi də mən deyim, sən eşit!

Bunu deyif gərdəninnən üç tel ayırıf sinəsinə basdı, aldı görək nə dedi:

Eşit, deyim, ay Sənubər,
Bağçalardan barın gəldi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gül, ay bajım, baxtın gülüf,
Muştulux ver, yarın gəldi.

Aldı Sənubər:

O dillərə canım qurvan,
Aaz, yerin var üzüm üstə
Xəvərinə canım qurvan,
Muştuluğun gözüm üstə.

Aldı Gülçöhrə:

Ona nüsrət verən haxdı,
Bu dünyada tayı yoxdu.
Qaşdar kaman, kiprik oxdu,
Muştulux ver, yarın gəldi.

Aldı Sənubər:

Elə demə, nəzər dəyər,
Qürrələnər, özün öyər,
Dediklərin düzsə, əyər,
Muştuluğun gözüm üstə.

Aldı Gülçöhrə:

Gülçöhrənin halına bax,
Dur boynuma hamayıl tax.
Daha dərdi, qəmi burax,
Muştulux ver, yarın gəldi.

Aldı Sənubər:

Hax yoludu mənim yolum,
Bir qönçəyəm, necə solum.
Dillərinə qurvan olum,
Muştuluğun gözüm üstə.



Söz tamama yetər-yetməz, sevindiklərinnən hər ikisi bir-birinə sarmaşıx kimi sarılıf göz yaşı axıtdılar. Gülçöhrə gördüklərinin, eşitdiklərinin hamısını bircə-bircə Sənubərə danışdı. Sənubərin rəngi gül kimi açıldı.Gülçöhrəni bir də bağrına basıf üzünnən-gözünnən öpdü. Sonra da aparıf onun boğazınnan bir həmayıl asdı. Gülçöhrə əvvəlcə götürmək istəmədi. Gördü kü, yox, Sənubərin xətrinə dəyir, həmayılı açmayıf dedi:

– Xanım, Allah qoysa sən tezdiknən Göyçə ellərinə gəlin gedəjəksən. Bu həmayıl da sənnən mana əziz bir xatirə qalar. Qoxunu onnan alaram.

Sənubər zarafatyana dedi:

– Elə şey yoxdu, ay qız. Demişəm, genə də deyirəm, səni də özümnən aparajam. Özün demirsənmi Miskin Abdalnan gələn oğlan da yaxşı oğlandı. Ay qız, bəlkə elə o da sənin qismətindi.

Gülçöhrə gülümsüyüf çiynini çəkdi.

Sənubər bir az fikirrəşif dedi:

– Gülçöhrə, bilirəm, Miskin Abdal indi görüşmək üçün bərk darıxır. Denən çox tələsməsin. Ehtiyat igidin yaraşığıdı. Bizi istəmiyən çoxdu. Atamın da nejə adam olduğunu yaxşı bilirsən. Əvvəlcə Miskin Abdalgilə öz həndəvərinizdə bir ev kirələ. Bilirəm, qavaxda bizi hələ çətin günnər gözdüyür. Bu işi düzəltsə, Allah düzəldəjək. İstəmirəm ki, atam siznən düşman ola. Atam İsfahana bu gün yola düşüf. Bir aya ancax qayıdar. O gələnə kimi bildiyimizi eliyərik. Gələnnən sonra allaha pənah, görək nə məsdahat görür.

Gülçöhrə dedi:

– Baş üstə, xanım! Düz buyurursan. Ağıllı sözə nə deyə bilərəm. Elə bilirəm ki, bu tədbir Miskin Abdalın da xoşuna gələjək.

Sənubər dedi:

– Təki sən deyən olsun!

Gülçöhrə gəlif gördü kü, evlərində bir çal-çağır var kı, gəl görəsən. Eşidən qohum-qonşular aşığın başına toplaşıflar. Miskin Abdal da kı, Sənubərin eşqinnən yorğunnuğunu yadınnan çıxarıf, elə həvəsnən çalıv-oxuyur ku, daha nə deyim. Gülçöhrə də çəkilif bir tərəfdə dayanıf aşığa qulax asmağa başdadı. Amma arabir gözü Qasımın gözünə sataşanda hiss eliyirdi ki, Miskin Abdalın dostu da, deyəsən Təbrizdən əliboş qayıtmax istəmir.

Məclisə yığışannarın çoxusu cavanıydı. Söhbətin şirin yerində bir ağsaqqal üzünü Miskin Abdala tutuf dedi:

– Aşıx, cavan olsan da, görürəm ağıllı, kamallı oğlansan. Sözdərinin hamısı nəsihətdi. Sazının, sözünün işığına yığılannarın da çoxusu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görürsən ki, cavannardı. Onnara deyiləsi bir sözün varmı?
Miskin Abdal dedi:
– Bajardığımnan bir-iki kəlmə deyərəm.
Aldı Miskin Abdal görək nə dedi:

Namərd ilə yoldaş olma,
Çox bəlalar çəkər başın.
Halal ilə ərsəyə çat,
Daş qalalar sökər başın.

Xain baxma yaradana,
Qibləgahdı ata-ana.
Arxalanmə bəyə,xana,
Qoy sağ olsun nökər başın.

Haxdan istə bəxti-iqbal,
Yaradanı yadına sal.
Söz gövhərdi, Miskin Abdal,
Saxla dürdü, tikər başın.

Söz Miskin Abdalın ağzınnan qurtarmamış hər yandan "sağ ol, aşıx" sədaları göyə ucaldı. Savah tezdənnən çalmağa-çağırmağa başdıyan aşıx, bir də baxdı kı, axşam düşüf, şər qarışıf.
İsmayıl kişi üzünü gələnnərə tutuf dedi:
– Aşıx çox uzaxdan yol gəlif. Savahdan da oxuyur. Yorğundu. İmkan verək dincəlsin. Oxuduğu daha bəsdi.
Hamı razılaşdı, hərə öz evinə dağılışdı. Evdə bir özdəri qalanda, Gülçöhrə bu xoş xəvəri Sənubərə nejə çatdırdığını, onun Miskin Abdala ismarıcını söylədi. Bu tədbir hamının xoşuna gəldi. Savahdan Miskin Abdalgilin qalması üçün ev behlədilər. Həmin ev Gülçöhrəgilin evinin yaxınnığında yaşayan bir qarının eviydi.
Savahdan Miskin Abdalnan Qasım qarının evində yaşamağa başdadı. Artıx bilirdilər ki, hələ nə az, nə çox, düz bir ay buralıdılar. Sonrasını da Allah bilir. İndi qalırdı bir-birinnən gizdi oddara yanan iki aşiq-məşuqun görüşməsi. Bu görüşdən heş kim xəvər tutmamalıydı. Çünki sövdagar Mahmud bunu bilsəydi, qan dizə çıxardı.
Miskin Abdal Sənubər xanımın həsrətinnən alışıf yanırdı. Çox götür-qoydan sonra bir namə yazıf Gülçöhrəynən göndərdi Sənubər xanıma.
Miskin Abdal namədə yazırdı:



Bir gözəlin sorağıynan,
Dağlar keşdim, düzə gəldim,
Neçə-neçə bələn aşdım,
Yar elinə, sizə gəldim.

Dərdim artıf,qəm azalıf,
Gözüm yollarında qalıf.
Yarmı nəzərinnən salıf,
Yoxsa ay qız, gözə gəldim?

Dərd ağlatdı, qəmə güldüm,
Çeşmimin yaşını sildim.
Mən səni vəfadar bildim
Gəldim yar, Təbrizə gəldim.

Sənubər naməni oxuyuf çox quvarrandı. Dərdi artıf bir ümmana döndü. Həsrətnən yolunu gözdədiyi yarının görüşünə gedə bilməməsi qəlbinə dağ üstünnən dağlar çəkdi. Yar dərdinə çarə, məlhəm olmaq istiyərkən yar tə’nəsinə tuş olmaq qəlbini göynətdi, ruhunu sızım-sızım sızıldatdı. Öz-özünə dedi: Axı, mən yarımın həsrətinə onnan az yanmamışam. Niyə o mənim çəkdiklərimi duya bilmir? Gəl kim olduğunu ona bir nişan ver. Qələmi əlinə alıf yara yazdığı namədə görək öz dərdi, dilini nejə izhar elədi. Biz deyək, siz də şad olasınız:

Qəm üstündə köklənmişəm,
Çalınmamış bir sazam mən.
Yar həsrəti qəddim əyif,
Nalə dolu avazam mən.

Dərd sinəmdə düzüm-düzüm,
Bu sitəmə nejə dözüm?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yar yolunda qalıf gözüm,
Gözü yaşdı bir qızam mən.

Son qoyuldu fərağıma,
Özünü çatdır bağıma.
Gəl, qədəm bas otağıma,
Təkəm, oğlan yalqızam mən.

Mikin Abdal bu naməni oxuyuf çox şad oldu. Gülçöhrə də Sənubər xanım dediyinin hamısını bircə-bircə Miskin Abdala danışdı.

Miskin Abdal səhəri diri gözdü aşdı. Duruf yollara baxanda gördü kü, Sənubər bir bölük qıznan sallana-sallana onnara tərəf gəlir. Onu görəndə elə bil Miskin Abdalın ürəyi qopuf ayağının altına düşdü. Onun sevgilisi bu qızdarın arasında on dörd günnük bir ay parçasına oxşuyurdu. Yarəb, belə gözəllikmi olar, sən buna verifsən? Huri də, pəri də, mələk də bunun yanında olsaydı utandığınnan qaçıf gizdənməzdimi?

Miskin Abdalın eşqi coşa gəldi. Sazı sinəsinə basıf görək öz sevgilisinin boyunu nejə öydü?

Asta yeri a gözəllər sultanı,
həsrətinnən cavan canım çürüdü.
Ana gözdər saldı məni bəndinə,
Siyah zülfün zəncirində sürüdü.

O qamətə, o camala vuruldum,
Bir bulağam bulanmışdım, duruldum,
Ah çəkməkdən axır bezdim, yoruldum.
Qəm dalğası dörd yanımı bürüdü.

Utanmazmı görən mənə gülənnər?
Bu eşqimi, bu dərdimi bilənnər
Belə deyər: bir vaxt məni görənnər,
Miskin Abdal bir zamannar pirriydi.

Sənubər onun yanıxlı-yanıxlı oxumağına dözəmməyif uzaxdan-uzağa ona bir qıyğacı nəzər salıf gülümsədi. Sonra Gülçöhrənin boynunu qucaxlıyıf qulağına dedi:

– Bu gün axşamnan bir az keçmiş gələrsiniz. Yolunuzu səvirsizdiknən gözdüyürəm.

Gülçöhrə dedi:



– Xanım, Miskin Abdalın yanındakı oğlan da gəlsinmi?

Sənubər zarafatnan dedi:

– Ay qız, o oğlan gündə sənin yanında döyülmü, bu qaça-qaçda onu neyniyirsən? Siz də bizim kimi bir-birinizə tamarzı ha döyülsünüz?

Gülçöhrə nəsə demək istədi. Sənubər onun sözünü ağzında qoydu:

– Zarafat öz yerində. Qasım mütləq gəlməlidi. Çünki onu Miskin Abdalın yanına elə-belə qatmıyıflar. Onnar hər yerdə bir olmalıdı. Demək olmaz gejə itə, qurda rast gələrsiniz. Kömək yaxşı şeydi.

Axırda da, – Ay qız deyəsən ikimizin də toyumuz bir olajax, – deyib Gülçöhrədən yüngül bir burma götürdü.

Və'də vaxtında görüşə gələndə Miskin Abdal gördü: ay Allah elə bil otaxda gün doğuf. Baxıf gördü kü, doğrudan da, Miskin Abdal cannara dəyən oğlandı. Boy onda, buxun onda. Üzünnən-gözünnən ağıl, kamal yağır. Hörüklərini saz eliyif görək yarına nejə xoş gəldin elədi:

Qədəm qoyub yar yanına,
Oğlan, xoş gəldin, xoş gəldin,
Eşq oduna yana-yana
Oğlan, xoş gəldin, xoş gəldin.

Aldı Miskin Abdal:

Tək Allahdan arzum buydu,
Ay qız, xoş gördük, xoş gördük.
Yad həsrəti qəlbim oydu,
Ay qız, xoş gördük, xoş gördük.

Aldı Sənubər:

Sənsiz qara keşdi günüm,
Ərşə qalxdı ahım, ünüm.
Duruban başına dönüm.
Oğlan, xoş gəldin, xoş gəldin.

Aldı Miskin Abdal:

Yollar yoruf, üzgünəm mən,
Əhd-peymana düzgünəm mən.
İndi Miskin Abdalam mən,
Ay qız, xoş gördük, xoş gördük.

Aldı Sənubər:

Gül-çiçəkli yar bağına,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bər-bəzəkli otağına,
Sənubərin bu çağına
Oğlan xoş gəldin, xoş gəldin.

Aldı Miskin Abdal:

O ləblərdən süzüldü bal,
Dur qolunu boynuma sal.
Qıyma ölsün Miskin Abdal
Ay qız, xoş gəldin, xoş gəldin.

Bu çal-çağıra yuxudan ayılan Səlbinaz xanım bayaxdan qızınnan oğlanın deyişməsinə qulağ asırdı. Elə ki, söz tamama yetdi Sənubər qolunu Miskin Abdalın boynuna salmax istiyəndə otağın qapısı açıldı, anası içəri girdi. Hamı donuf yerində qaldı. Ancax Səlbinaz xanım qızının taleyini pozmax fikrində döyüldü. Baxdı kı, doğrudan da, qızının butası cannara dəyən oğlandı. Ağzınnan da dürr tökülür. Lakin özünü o yerə qoymadı. Oğlanı bərkə-boşa çəkib, sınamax üçün əlini sinəsinə qoyuf görək nə dedi:

Ağır daşdan yapışıfsan,
Bu sevdadan əl çək, oğlan
Yaman həddini aşıfsan
Bu sevdadan əl çək, oğlan.

Aldı Miskin Abdal:

Tanrı verən bu qismətdən,
Bu sevdadan, usanmaram,
Onsuz mana həyat yoxdu,
Bu sevdadan usanmaram.

Aldı Səlbinaz xanım:

Mahmud bilsə dara çəkər,
Anan-bajın qan-yaş tökər,
Yurdunuzda bil turp əkər,
Bu sevdadan usan oğlan.

Aldı Miskin Abdal:

Qorxutmayır məni inan,
Nə ölümlər, nə də zindan.
Butamı verif yaradan,
Bu sevdadan usanmaram.



Aldı Səlbinaz xanım:

Səlbinazı salma cəngə,
Əlinnən gələrsən təngə.
Neyniyərsən aj pələngə?
Bu sevdadan əl çək oğlan.

Aldı Miskin Abdal

Abdal deyər, bir ac şirəm,
Alov saçan bir şəmşirəm.
Dünyamızı dəyişərəm,
Bu sevdadan əl çək çəkmərəm.

Səlbinaz xanım gördü kü, yox, sözünə bütöv oğlandı. Üzünü haqqa tutuf onnara xeyir-dua verdi.

– Ümidinizi haqqa bağlıyın, haqqın ətəyinnən tutun. Mahmud çətin adamdı. İnanmıram kı, bu işə razı olsun. Amma tanrı nə yazıfsa, o da qismət olajax.

Allaha pənah – deyif öz otağına keşdi. Aşiq-məşuqlar da gejənin yarısınacan öz çalıf-çağırmaxlarında, kef-damaxlarında oldular.

Xülasə, Miskin Abdal, Qasım və Gülçöhrə hər gejə bura gəlir yeyir, içir, deyif, gülür, çalıf-oynuyur, səhərə yaxın evlərinə qayıdırdılar. Miskin Abdal bir az çimir alannan sonra uzun Qasımı da yanına alıf şəhərə gəzməyə çıxırdı. Hər yerdə onu hörmətnən qarşılıyırdılar. Miskin Abdal da güjü çatan qədər saz çalar, söz çağırar, adamların könlünü şaddandırardı. Hər nə qədər çalıv, oxusa da heş kəsdən pul götürməzdi. Bir aya yaxınıydı kı, Miskin Abdal Təbrizdəydi. Bu müddətdə o özünə o qədr dost, tanış tapmışdı kı, gəl görəsən. Adamlar onu bir saat görmüyəndə darıxırdılar. Miskin Abdalın Sənubərə olan məhəbbəti də dildə, ağızda gəzirdi. Hamı bu haqq aşığınnan danışırdı. Hamının əlləri göydəydi, Allah bu iki aşiq-məşuqun bir-birinə qovuşması üçün ilan Mahmudun ürəyinə rəhm salsın.

Varına, dövlətinə görə İlan Mahmudnan qohum olmağa can atannar, bir də Sənubərin gözəlliyinə vurulannar Miskin Abdala paxıllıx eliyirdi. Onnar çalışırdılar kı, Miskin Abdalı aradan götürsünnər. Ancax mümkün olmurdu. Çünki Miskin Abdalın dostu, yarı, yoldaşı çoxuydu. İstəməyəni də cəmisi bir-neçə nəfəriydi.

Bəzirgan Qeysərin oğlu Cümşüd bu xəvərdən sonra vurnuxmağa başdadı. Dedi: ayə elə şey olar, yerri olam, dədəmin adını bir qatar dəvə çəkmiyə, varımız-halımız dünyadan aşa, bir Göyçəli gədəsi gəlif sənin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istədiyin qızı əlinnən ala. Bir gün o yaxşı bir xonça hazırradı. Yox olsun yoxsulluğu. Xonçada nə yoxuydu. Xonça qızıldan, gümüşdən od tutuf yanırdı. Cümşüd qarannıx qarışanda xonçasını da götürüf Sənubərgilə adaxlıbazdığa getdi.

Baxdı həyət-bajada heş kəs yoxuydu. Amma Sənubər xanımın otağının pəncərələrinnən işıx gəlirdi. Bir az da irəli gedəndə oxumax səsi eşitdi. Öz-özünə sevindi: Dedi ki, yaqın Sənubər xanım mənim dərdimnən belə yanıxlı-yanıxlı oxuyur. Tez ora-bura vurnuxuf bir nərdivan tapdı. Gejənin qarannığında nərdivanın sınıx olduğunu görmədi. Nərdivanın başını divara diriyif xonça əlində pəncərəyə qalxdı. Nə görsə, yaxşıdı. Gözdəri bərələ qaldı. Əlləri əsməyə, dizdəri titrəməyə başdadı. Şəhərdəki aşıxnan Sənubər xanım bir kefdəydi, bir kefdəydi ki, gəl görəsən. Miskin Abdal başını qoyuf Sənubərin dizinin üstünə. Sənubər də onun saçını sığallıyır. Həm də deyişillər. Qeyri ixtiyari "Öl, ay Cümşüd, öl, gözdərin nələr görür!" – demişdi ki, nərdivan Cümşüdün ayağının altınnan çıxdı. Cümşüd tappa-tapnan, səs-küynən yerə yıxıldı. Xonça da yerə düşüf dağıldı. Səsə Sənubərgil eşiyə çıxdılar. Bir kişi xeylağının barıyı aşdığını gördülər. Gülcöhrə onu Cümşüdə oxşatdı.

Aşiqlərin kefinə soğan doğrandı. Əhvalları bir anda pozuldu. Hamı bu işdən çox pərişan oldu. Sənubər xanım dedi:

– Tez gedin, hələlik bu yerrərdə görünmüyün. Görək başımıza nələr gələjək.

Qonaxlar dərhal çıxıf getdilər. Sənubər də yatağına uzandı. İlan vuran yatdı, ancax o yatmadı. Səhər tezdən duruf pəncərənin altına dağılmış xonçanı də tər-təmiz yığışdırdı kı, qonşulardan görüf-eliyən olmasın. Miskin Abdalnan Qasım da bu hadisədən çox narahat oldular. Səvirsizdiknən bu işin sonunu gözdəməyə başdadılar.

Bunnarı burda qəm dəryasında qoyax, görək Cümşüd neynədi. O, gejə yıxılanda ayağının birini əzmişdi. Bir təhər sürünə-sürünə gejəyarı gəlif evlərinə çıxdı. Canının ağrısınnan çox, gördükləri onu savaha qədər yatmağa qoymadı. Savah tezdən bəzirgan Qeysər oğlunun ayağını çəkdiyini görüf nə olduğunu soruşdu. Cümşüd də heş nəyi danmadı. Gördüklərinin də üstünə bir az artırıf hamısını atasına danışdı. Atası bu işdən kədərrənsə də, özünü o yerə qoymuyuf dedi:

– Bala, eybi yoxdu. Cavannıxda hər şey olar. Sənubər də cavandı. Bu işi heç harda açıf-ağartmaq lazım döyül. Sənubər sövdagarın yeganə züryətidi. Elə eliyək ki, onun bir elə varı, döyləti başqasına qismət olmasın. Qəlbini qaralama. Qız ağacı, qoz ağacı, yüzü atar, biri vurar,- deyiflər. Bu işi mən özüm yoluna qoyajam.

Cümşüd də ki, biqeyrətin biriydi. Atasının dediklərinə cannan, başnan



razı oldu.

Miskin Abdal gözdədi. Bir gün keşdi, iki gün keşdi, üç gün keşdi. Ancax o gejəki əhvalatdan bir səs-sorax çıxmadı. Bir az rahatdandı. Sənubər də buna çox sevindi. Bilmədilər ki, onnarın dadına yetən hiyləgər Qeysərin tamahkarrığıdı.

Bəzirgan Qeysər öz-özünə çox götür-qoy elədi, çox düşündü. Axırda belə qərara gəldi ki, Sevdəkar Mahmud gələn kimi bu işi qurtarsın. Elə bu arada xəvər gəldi ki, sevdagar Mahmud gəlir. Qeysər oğlunu da götürüf onun pişvazına çıxdı. Mahmud bunnan çox xoşhal oldu. Evdə gejə yarıyacan ordan-burdan söhbət elədilər. İlan Mahmud uzax yoldan gəlif yorulmuşdu. Hamı dağılışdı. O da uzanıf yatdı.

O biri axşam bəzirgan yenə gəldi. Bir xeyli söhbətdən sonra mətləvi aşdı. Dedi:

– Mahmud, Allahın adına şükür kü, səfərdən sağ-salamat qayıdıf gəldin. Əhdimiz-əhd, sözümüz sözdü. Qız Cümşüdündü.

Mahmud dedi:

– O nə sözdü, deyirsən. Kişidə söz bir olar. Toya hazırraş.

Qeysər dedi:

– Dost, bir iş var, iki əməl. Sən gedənnən sonra Göyçə tərəflərdən buraya bir cavan aşıx gəlif çıxıf. Şəhərə yayılıf kı, onu buraya Sənubərin eşqi gətirif, haqq aşığıdı. Deyilənə görə, guya qoja bir dərviş yuxularında onnara eşq badəsi içirdif, onnarı bir-birinə buta verif.

Bunu eşidən Mahmudu od götürdü. Cin atına mindi. Ağzı köpüklənə-köpüklənə dedi:

– Mən gəda deyiləm ki, hər yoldan ötənə qız verəm. Onun başına bir oyun açaram kı, yarandığına peşman olar.

Qeysər dedi:

– Mahmud, hirsini boğ, səvirri ol. Bu hərəkət bizi el içində hörmətdən salar. Ehtiyatdı olmax lazımdı. Birdən, doğrudan da, haqq aşığı olar. Bir şey eliyif, allahın qəzəvinə gələrik. Əlimizdə də xeyir işimiz var. Demək olmaz, işin içinnən iş çıxar.

Mahmud ajıxlı-ajıxlı:

– Nə deyirsən? Demək istiyirsən ki, çağırım bu yoldan ötəni, gədənin birini, deyim ki, ay haqq aşığı, gəl sövdagar Mahmudun qızı, dünya gözəli Sənubəri al apar, get Göyçüyə. Yox, Qeysər, mən haqq aşığı - zad tanımıram. Onu yox eliyəjəm.

Qeysər əlini onun çiyninə qoyuf dedi:

– Mahmud, bir tədbir fikirrəşmişəm. Gəl elə eliyək ki, nə şiş yansın, nə kavav.

Mahmud dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– De görüm, nə deyirsən?
Qeysər:
– Aşığı çağırtdır yanına. De ki, mənim sana veriləsi qızım yoxdu. Eşitməsə de ki, şəhərdən çıxıf getsin. Buna da razı olmasa, saldır zindana. Toydan sonra, iş-işdən keçənnən sonra buraxarsan, çıxıf gedər öz dağılmışına.
Mahmud bığının altınnan qımışıf dedi:
– Bu lap ağıllı məsdahat oldu.
Sevdagar Mahmud tez qoldan zor, ağıldan kəm iki pəzəvəng tapıf Miskin Abdalın dalınnan göndərdi. Yolda gördülər ki, aşıx da, yolddaşı da sövdagar Mahmudgilə tərəf gedillər. Mahmudun adamları bu işə mat-məəttəl qaldılar. Aşığı da, onun yoldaşını da götürüf sövdagar Mahmudun yanına gətirdilər. Miskin Abdal salam verdi. Mahmud onun salamını almıyıf ajıxlı-ajıxlı dedi:
– Gədanın biri, gəda. Bilirsənmi kimə sataşırsan? Səni qurda-quşa yem eliyərəm, ananı mələr qoyaram. Başın bədəninnən üzülməməiş, rədd ol şəhərdən.
Miskin Abdal təmkinini pozmadan dedi:
– Sevdagar Mahmud, mən ölümnən qorxsaydım, bu neçə ayda yollar yorğunu oluf, anamı gözü yaşdı qoymazdım. Mən Sənubərin yolunda ölməyə gəlmişəm. İxtiyar sahibisən, sən bilərsən. İstiyirsən məni lap tikə-tikə doğra. Mən haqq aşığıyam.
İlan Mahmudun gözdəri çıxdı kəlləsinə. Əlini atdı qılınca kı, durub onun boynunu vursun. Qeysər onun ayağınnan basdı. Tez Qeysərin dediyi onun yadına düşdü. Qışqırdı:
– Aparın, bu yetim-yesirrəri atın zindana!
Miskin Abdal baxıf gördü kü, doğurdan da İlan Mahmuddur ku, oturuf yerində. Sənubəri də ona heş vaxt vermiyəjək. Öz-özünə fikirrəşdi ki, ölməy-ölməydir, xürüldamax nə kişilikdir. Allah kərimdi gəl ürəyini dillə dediyin kimi saznan-söznən də boşalt, axırı da nə olar-olar. Ona görə də dedi:
– Sövdagar Mahmud, ixtiyar sahibisən, özün bilən yaxşıdı. ancax ürəyimə bir qatar söz gəlif, onu deyim, sonra da nə bilirsən onu da eliyərsən.
Miskin Abdal bunu deyif icazəsiz-filansız sazı köynəyinnən çıxardıf basdı sinəsinə. Qeysər də bir yannan Mahmudun bir yanını yağır etmişdi ki, səbrli ol. Mahmud da onu eşidif Miskin Abdalı rüsvay etmək istəmədi, işinhələ axırını gözlədi.
Aldı Miskin Abdal görək İlan Mahmuda nə dedi:



Eşq badəsin ol ağamdan alınca,
Leysan oluf yağa-yağa gəlmişəm.
Gejə-gündüz öz butamın dalınca,
Gəzə-gəzə bu torpağa gəlmişəm.

İlan Mahmud gördü kü, yox, yaman paza ilişif. Bu elə dediyinnən dönmür kü, dönmür. Ajıxlı-ajıxlı dedi:
–Ayə, tez ol, sözünü qurtar, rədd ol gözümün qavağınnan. Hələ bunun özünü bax, sözünə bax! Gör bir adı hər yerdə bəlli olan Mahmuda bu göyçəli gədəsi qəzəl oxuyur.
Miskin Abdal dedi:
– Sövdagər Mahmud, eşit sözümün o biri xanəsini:

Çox insafın qırılıbdır qaytanı,
Yerə-göyə sığışmayır böhtanı,
Mərdi-məzar, aravuran şeytanı,
Günah yoldan qaytarmağa gəlmişəm.

Mahmud ucadan istehza ilə gülüb dedi:
–Paho, bilməmişdik, bir göyçəli gədəsi gəlibmiş ki, şeytanı yolunnan qaytarsın. Amma heş özünü düşdüyü pis yoldan qaytarmax istəmir. Dünyanın işinə bir bax, ha!
Miskin Abdal aldı sözün o biri xanəsini:

Dərd içimi oyur-oyur oyurdu,
Bu mətləbin haqqı özü duyurdu,
Xoşluq ilə verməsələr bu yurdu,
Məhvərinnən qoparmağa gəlmişəm.

Bunu eşidəndə İlan Mahmud cin atına minmədimi. Dedi:
– Adə, gədanın biri gəda, özün qərif ola-ola buralarda nə örüş-örkən açıfsan. Sənin başına bir oyun açaram ki, gəldiyin yolu tərsinə gedərsən, sədanı heş quşdar da bilməz. Qanmaz-qanmaz az danış. Tez ol, sözünü qurtar. Rədd ol buralardan, bir gözün səni görməsin.
İlan Mahmudun “qanmaz“ sözü Miskin Abdala yaman toxundu. Aldu görək sövdagara cavabında nə dedi:

Bu dünyada yaradanı anmazı,
Od içində buza dönüb yanmazı,
Nanəcibi, yaramazı, qanmazı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Davar bilib otarmağa gəlmişəm.

Bunu eşidəndə İlan Mahmudu od götürdü nə götürdü. Hirsinnən dodağını çeynədi. İstədi durub Miskin Abdalın dərsini versin, Qeysər yenə də qoymadı. Əlaşsız qalan Mahmud, Miskin Abdalın üstünə bağırıf dedi:

Göyçəli gələdsi, sözünə sərhəd qoy və müxtəsər eylə, indi səni yaxşı qandırajam. Onda bilərsən ki, qanan kimdi, qanmaz kimdi.

Miskin Abdal aldı görək sözünün tafşırmasını nejə dedi, biz də eşidək şad olax:

Miskin Abdal olsun yara sadağa,
Məhəbbətə haqdan yoxdu qadağa,
Göyçəmizdən Təbriz adlı torpağa,
Sənubəri aparmağa gəlmişəm.

Söz Miskin Abdalın ağzınnan çıxanda İlan Mahmud düz ərş-öyünə kimi cızım-cızım yanıf, cızırığı çıxdı. Bağıra-bağıra dedi:

– Aparın, bunların salın zindana!

Şəhərə xəvər yayıldı kı, bə deməzsənmi İlan Mahmud haqq aşığını da, onun yoldaşını da zindana saldırıf. Eşidənnərin hamısı mə'yus oldu. Nə eləmək olardı? Umud haqqa qalmışdı.

Bunu bilən Səlvinaz xanım getdi ki, görsün qızının halı nejədi. Baxdı kı, qızı gözünün yeddi yerinnən yaş tökür. Elə belə leysan yağış axırdı. Anasını görəndə Sənubər daha da köyrəldi. Səlvinaz xanımın boynuna sarılıf hönkür-hönkür ağladı. Anası buna dözə bilmiyif hörüklərini sinəsinə basıf görək qızına nejə təsəlli verdi. Qızı öz dərdini anasına nejə izhar elədi:

Bu nə haldı, bu nə ündü,
Ağlama, qızım, ağlama!
De çəkdiyin bu nə gündü?
Ağlama, qızım, ağlama!

Aldı Sənubər:

Abdalım dustaq olufdu,
Ağlaram, ana, ağlaram!
Gülüm çiçəyim solufdu
Ağlaram, ana, ağlaram!



Aldı Səlbinaz:

Tanrı qoymaz səni naçar,
Bir bağlıyan, bir də açar.
Günəş doğar, zülmət qaçar,
Ağlama, qızım, ağlama!

Aldı Sənubər:

Bu dərdimin yox çarası,
Getməz könlümün qarası
Sızıldar eşqin yarası
Ağlaram, ana, ağlaram!

Aldı Səlbinaz:

Səlbinaz da deyər belə,
Ərənnərdən imdad dilə,
Göz yaşın döndərmə selə,
Ağlama, qızım, ağlama!

Aldı Sənubər:

Səlbinazın yox imdadı,
Dillərdə dolaşır adı
Oda saldım dostu, yadı,
Ağlaram, ana, ağlaram!

Ana-bala ağlamaxda, İlan Mahmudnan bəzirgan Qeysər də toya tədarükdə olsunnar, görək zindanda Miskin Abdalnan Qasımın başına nələr gəldi?!

Onnarın hər ikisini gətirif atdılar qarannıx, kif basmış zirzəmiyə. Qərif yer, qarannıx zindan. Bir yandan da yarınnan ayrılması, bir yandan da bu zülümlər, bu sitəmlər qəlbini şan-şan elədi. Qəlbi kövrələn Miskin Abdal aldı görək ürəyinnən keçənnəri nejə dilə gətirdi:

Neçə gündü dustağam mən,
Gedənim yox, gələnim yox.
Vətənsiz, elsiz qərivəm
Göz yaşımı silənim yox.

Mərd ölsə, namərd gülərmiş,
Göz yaşın kimlər silərmiş,
Dərdi dərd çəkən bilərmiş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə çəkirəm, bilənim yox.

Abdal eldən düşdü irax,
Ömür oldu varax-varax.
Yardan mənə gəlməz sorax
Ağlıyanım, gülənim yox.

Miskin Abdal çox düşündü, daşındı. Ağlına çox şeylər gəldi. Birdən yadına düşdü kü, payız girif, qavaxdan qış gəlir. Hələ əli nə yara yetişif, nə də bir yana çatıf. Bu sevdaya düşdüyünnən az qala bir il keçir. Hələ bu zindanda nə qədər qalacağı da mə'lum deyil. Kim bilir, hələ hansı müsibətdərnən qarşılaşajax. Bu fikirrər, bu çək-çövürrər içində dərdi tüğyan elədi. Telli sazı sinəsinə sıxıf aldı görək nə dedi:

Tərs düşüb fələyin işi,
Lil basan arxdımı, nədi?
Bu nə dünya, bu nə gərdiş,
Dolanan çarxdımı, nədi?

Qalanıb küfrün kürəsi,
Yanırsan gözüm görəsi.
Tutuluf yanı-yörəsi
Bir bilən yoxdumu, nədi?

Miskin Abdal, işin xata
Ünün gedif ərşə çata.
Səvəv nəydi baxtım yata?
Bu görən baxtdımı, nədi?

Miskin Abdal burda qəmli-qəmli çalıf oxumaxda, Sənubər də orda dərddən saralıf-solmaxda olsun, görək bəzirgan Qeysər neynədi? O, kələyinin baş tutduğunu görüf, tez-tələsik toya hazırraşdı. Elçi getdi. Qızın atasınnan "hə"sini aldı. Nişan göndərdi. Sənubər atasının qorxusunnan dinə bilmədi. Üzüyü götürdüsə barmağına taxmadı. Umudu haxda, Miskin Abdalın yolunu gözdədi.

Elə ki, toy tədarükü görüldü, toyun vaxtı müəyyənnəşdirildi, Sənubərin dərdi birə-beş artdı. İstədi özünü öldürsün, səvir gəldi. Anası bilif o ku, var dannadı. Hər saatın bir hökmü var, dedi. Anası onu öz südünə and işdirdi ki, bu fikrinnən əl çəksin. Sənubər anasına dedi:

– Ana, sana qurvan olum. Eybi yoxdu, səbr eliyərəm. Görək hələ nolur. Gərdəyin dalına qədər gözdüyəjəm. Cümşüd kimi biqeyrətə



qismət ola bilmərəm. Mənim öz istəklim var, Ağam özü məni ona buta verif. Onnan qeyrisinin əli mənim əlimə dəyə bilməz.

Anası çar-naçar razı oldu.

Toya başdamağa hələ bir-neçə gün varıydı. Bir gejə İlan Mahmud yuxuda gördü kü, bir qoca dərviş ona yaxınnaşıf dedi:

– Miskin Abdalı da, yoldaşını da dustaxlıxdan azad elə. Yoxsa gözdərini oyaram.

O, əlini Mahmudun gözdərinə uzadanda, Mahmud qorxusunnan yuxudan dik atıldı. Sübhə kimi ilan vuran yatdı, ancax ilan Mahmud yatmadı. Qorxusunnan arvadı da ona nə olduğunu soruşmadı. O gün axşama kimi Mahmud qaş-qavaxlı gəzdi. Ancax qojanın dediyinə əməl eləmədi. İkinci gejə yenə həmin yuxu təkrar olundu. Mahmud yenə deyiləni eləmədi. Üçüncü gejə Mahmudun gözünə təzəjə yuxu getmişdi ki, birdən hövlang qışqırıf yuxudan ayıldı. Elə bil boğulurdu. Gözdərinin altında və boğazında barmaq izdəri varıydı. Bunnarı Səlvinaz xanım da gördü. Ərinə su verdi. İlan Mahmud bir az toxdadı. Hannan-hana özünə gəldi. Güjnən ayağa qalxıf eşiyə çıxdı. Adam göndərif iri heyvərə pəhlivannarı çağırtdırıf dedi:

– Gedərsiniz, o zindandakı Göyçə yetim-yesirlərini çıxarıf şəhərin kənarındakı meşəliyə apararsınız. İkisini də öldürüf, qannı köynəklərini mana gətirərsiniz. Sizi dünya malınnan qəni eliyəjəm.

Cəlladların ikisi də bir ağızdan dedilər:

– Baş üstə, ağa. Onnarı elə bu gün cəhənnəmə vasil eliyərik.

Cəlladlar zindana yaxınnaşanda gördülər ki, ağlamax səsi gəlir. Qulax asıf gördülər ki, aşıx oxuyur:

Guşə-guşə yanıf nara yaxıldım,
Cismim od-atəşə qalanıf gedər.
İmtahan eyləyir könlüm şəhrini
Ömrüm haqq əlinnən talanıf gedər.

İnsan olan getməz fitnə fe'liynən
Yandırar şamını bir öz əliynən
Yalan peymanıynan, haça diliynən
Könül yar yolunda aldanıf gedər.

Qeylü-qaldı səhər-axşam əhvalım,
Tor görər gözdərin, qarışar halın.
Qanlı çeşmi yazıx Miskin Abdalın
Coşqun çaya nisbət sellənif gedər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşığın belə oxuması cəlladdarın qəlbini bir azca yumşaltdı. Ancaq deyiləni eləməliydilər. Qapıyı açanda gördülər ki, doğrudan da, ikisi də cannara dəyən oğlannardı. Ancax nə fayda? Gejəynən hər ikisini götürüf şəhərin qırağındakı meşiyə apardılar. Miskin Abdala hər şey aydın oldu. Üzünü cəlladdara tutuf dedi:

– İcazə verin, bizi öldürməmişdən qavax bir-neçə kəlmə deyim.

Onnarın qəlbi bir az da yumşaldı. Dedilər:

– Buyur, de.

Aldı Miskin Abdal:

Aman cəllad, zalım cəllad,
Mənə qıyın, Qasıma yox.
Qalmıyıfdı halım cəllad,
Mənə qıyın, Qasıma yox.

Qəriv ölsəm, qəvrim itər,
Üstümdə ot, qanqal bitər!
Zülüm olmaz bunnar betər,
Mana qıyın, Qasıma yox!

Sızıldayır qannı yaram,
Yar yanında günahkaram.
Onsuz mana ömür haram,
Mana qıyın, Qasıma yox!

Su içəni ilan çalmaz,
Belə zülüm, zillət olmaz.
Bu nahax qan yerdə qalmaz,
Mana qıyın, Qasıma yox!

Abdal deyər, yana-yana,
Haqq özü çəkər divana.
Nahaxdan düşmüyün qana,
Mana qıyın, Qasıma yox!

Söz tamama yetdi. Cəlladdarın bunnarı öldürməyə əlləri gəlmədi. Gördülər ki, bu yazıxların günahı yoxdu. Özü də bu, doğrudan da, haqq aşığıdı. Tanrıdan onnarın qəlbinə rəhm gəldi. Cəlladdarın biri o birinə dedi:

– Gəl, bunnarı buraxax. Köynəklərini alıf meşədə dovşannan-zaddan vuruf qanına buluyax, aparıf verək İlan Mahmuda. Belə oğulu da öldürmək olarmı?! Bu qanı Allah heç kəsə bağışdamaz. İlan Mahmudun zatı-pakına, yeddi arxa dönəninə Allah nəhlət eləsin.



Dedilər:

– Soyunuf alt köynəklərinizi bizə verin. Sonra da kir-kirimişcə çıxıf buralardan gedin. İlan Mahmudun bir də əlinə keşsəniz, tək sizin yox, bizim də dərimizə saman təpəjək.

Miskin Abdalnan Qasım can köynəklərini çıxarıf cəlladlara verdilər. Bir də gördülər ki, Miskin Abdalın yanında bir cüt dovşan dayanıb. Adamnan da pəsiniv eləmir. Cəlladdar bu işə mat-məəttəl qaldılar. Bunnarı öldürmədiklərinə görə çox sevindilər. Annadılar kı, bu aşıx Allah-taalanın pənahındadı.

Cəlladlar dovşanı öldürüf qanını köynəklərə buluyuf şəhərə yola düşməkdə olsunnar. Görək, Miskin Abdalnan Qasımın başına nələr gəldi.

Miskin Abdal belə məsdahat gördü kü, bu gejə gedif başdarına gələnnəri Gülçöhrəyə danışsın. Onu da desin ki, biz qaçax Mehdinin yanına gedirik. Allah qoysa, yaxın vaxtdarda hər şey yaxşı olajax.

Belə də elədilər. Gejəynən ikisi də yola düşdülər. Bir-neçə günnən sonra onnar gəlif Qaçax Mehdiynən görüşdükləri yerə çatdılar. Xoşbəxtlikdən Qaçax Mehdi də, yoldaşdarından bir neçəsi də buradaydı. Xoş-beş, on-beşdən sonra Miskin Abdal başdarına gələnnəri birər-birər uşaxlara danışdı. Gördülər ki, heş bunnarda hal qalmıyıf.

Qaçax Mehdi dedi:

– Eybi yoxdu, Allaha şükür kü, sağ-salamatsınız. Bunnan sonra mən bilərəm, İlan Mahmud bilər. Ona bir toy tutajam kı, dadı ömrü boyu damağınnan getmiyəjək. Sonra uşaxlara tapşırdı kı, Miskin Abdalnan Qasımı aparıf rahatdasınnar.

Qaçax Mehdi adam göndərif örgəndi ki, İlan Mahmud qızının toyuna başdıyıf. Toy qırx gün çəkəjək. Toyun qurtaracağı günü də örgəndilər.

İlan Mahmudun da, bəzirgan Qeysərin də əli vuruf, ayağı oynuyurdu. Elə bilirdilər ki, göyçəli aşıxdan cannarını qurtarıflar. Sənubərə də xəvər çatmışdı kı, darıxıf-eləməsin. Toyun qırxıncı günü yanında hazırıx.

Sənubərin kefinin ala buludda olması atasını yamanca sevindirirdi. O elə bilirdi ki, qızı Miskin Abdalı daha yadınnan çıxardıf. Axı, hardan biləydi ki, o Allahın qəzəvinə tuş gəlif. Qaçax Mehdiyi onun hüzuruna göndərir.

Əlqərəz toy başdadı, nə başdadı. Otuz doqquz gün yeyif içif, çalıf-oynadılar. Qırxıncı gün gəcavə bəzəndi, atdar nəmərə durdu. Sənubər xanımı mindirdilər gəcavəyə. Bir azdan istədilər ki, gəcavəni bəy evinə tərəf sürsünnər. Sənubər xanımın gözdəri yolda, qulağı səsdəydi. Gəcavə təzəcə yerinnən tərpənmək istiyirdi ki, bir hay-küy qopdu ku, gəl görəsən. Əli siyirmə qılışdı oğlannar toyu dövrüyə aldılar. Camaat çaş-baş qalmışdı. Toy



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adamları karıxmışdı. Sənubər gəcavənin bir tərəfindən baxıb gələnlərin arasında Miskin Abdalı da, Qasımı da gördü. Ürəyi yerinə gəldi.

Sarı köhlənin belində boylu-buxunnu bir pəhlivan gəcavənin qavağını kəsif dedi:

– Hardadı bəy? Çıxsın ortalığa. Bəynən güləşmək istiyən var. El var, adət var.

İlan Mahmud da, bəzirgan Qeysər də çaş-baş qalmışdılar. Bu nəydi başdarına gəldi? Bəy kimnən güləşməlidi?

Qaçax Mehdi dedi:

– Bəy güləşə çıxmalıdı. Sənubərə çatmaq üçün qabiliyyətini göstərməlidi. Kim qaliv gəlsə, Sənubər xanım onun olmalıdı.

Hövsələdən çıxmış İlan Mahmud üzünü pəhlivana tutuf dedi:

– Sən kimsən, nəkarəsən? Haranın dələduzusan? Rədd ol, buradan...

Qaçax Mehdi təmkinini pozmadan dedi:

– İlan Mahmud, məni sonra tanıyarsan. Çox qalmıyıf. Bəy meydana çıxsın.

Ələşsiz qalan Cümşüd ortalığa çıxdı. Onsuz da onun güləşməyə halımı varıydı? Cümşüdnən güləşə Miskin Abdal çıxdı. Qırx günüydü kü, Miskin Abdal yeyif-içif dağlarda gəzirdi. Kökəlif, qüvvətdənmişdi. Ona görə də əlini atan kimi Cümşüdü başının üstünə qaldırıf arxası üstə yerə vurdu. Yerdən toz qalxdı. Cümşüd qalxıf üstü toz-torpax aradan çıxdı. Rüsvay olan Mahmud ajığınnan Qaçax Mehdinin üstünə cumdu. İlan Mahmud hara, Qaçax Mehdi hara. Atalar yaxşı deyif ki, ilan ulduz görməsə ölməz! İndi tanı mən kiməm. Qaçax Mehdiyi tanımırsansa, indi tanıyarsan! – deyif bir əlinnən onun boğazınnan tutuf havıya qaldırdı, o biri əlindəki qılıncı endirmək istiyəndə Sənubər xanım gəcavədən çıxıf bərkdən qışqırdı və yalvardı kı, atasını öldürməsin.

Qızını görən İlan Mahmudun "Ləçər" sözünü deməyinnən qılıncın enməyi bir oldu. Qılınc onu ikiyə böldü.

Qaçax Mehdi üzünü camaata tutuf dedi:

– Toy davam eləyir. Miskin Abdalnan Sənubər xanımın, Qasımnan Gülçöhrənin toylarını burada eliyəjiyik. Kəvinnəri Göyçədə kəsilər. Allah mübarək eləsin.

Təzədən burada yeddi gün, yeddi gejə toy oldu. Səkkizinci gejə gəcavə üz tutdu Qaçax Mehdi bulağına tərəf. Sənubərin anası Səlbinaz da, Gülçöhrənin qardaşı Məmmədi də götürdülər. Səlbinaz xanım öz ev-eşiyini Gülçöhrənin ata-anasına tafşırdı.

Qaçax Mehdi gəcavəni öz ovasına gətirdi. Burda da yeddi gün, yeddi gejə çal-çağır oldu. Səkkizinci gün ilk dəfə görüşdükləri bulağın başına gəldilər. Ayrılıq vaxtıydı. Qaçax Mehdinin ürəyinnən keşdi ki, Miskin



Abdalı bu qədər xata-baladan qurtardım, butasına qovuşdurdum, neçə yerdə toy çaldırdım hələ mənim haqqımda bir kəlmə də söz deməyif. Elə bil Miskin Abdal Qaçax Mehdinin ürəyinnən keçənnəri eşitdi. Sazını köynəyinnən çıxarda-çıxarda dedi:

– Mehdi qağa, sən mənə atadan, anadan, doğma qardaşdan artıx hörmət elədin. Sənin qoçaxlığınnan, mərddiyinnən, kişiliyinnən söz açmasam, dilim alışar, ürəyim od tutuf yanar.

Aldı Miskin Abdal:

Düşmənnərə gözdağıdı,
Bir bəladı, Qaçax Mehdi.
Əl çatmayan bir zirvədi,
Bir qaladı, Qoçax Mehdi.

Haqsızdığa qılınc çalıf,
Çörək verif, süfrə salıf.
Dərsini pünhannan alıf,
Haqqilədi Qaçax Mehdi.

Uca olsun daim baxtı,
Yana çevrilməsin taxtı.
Coşuf-daşan bir bulaxdı,
Dağ selidi Qaçax Mehdi.

Əğyar qıranda belimi,
Naşı dərəndə gülümü,
Daşdı, kəsəkli yolumu
Gül elədi, Qaçax Mehdi.

Söz tamama yetişdi, qucaxlaşıf öpüşdülər. Bir-birinnən əhd-peyman bağladılar, bir-birrərinə baval yüklədilər.

Qaçax Mehdi uşaxlardan bir neçəsini onnara qoşuf tafşırdı ki, gəcavəni Naxçıvan torpaxlarına qədər ötürüf sonra qayıtsınnar.

Gəcavə dağlar aşıf, dərələrdən keçif yarım aya Naxçıvana çatdı. İsgəndər bəy də burada bir toy başdadı, gəl görəsən. Bir neçə günnən sonra Gülçöhrənin qardaşı Mədədnən İsgəndər bəyin qızı Yasəmənin bir-birinə aşiq olması xəvəri hər yerə yayıldı. İsgəndər bəy Miskin Abdalın elçiliyinə yox demədi. Toy-toya qarışdı. Yeddi gün, yeddi gejə toy çalındı. Bir neçə gün də burada qalannan sonra gəcavələr yola düzəldi. İsgəndər bəyin oğlu Qəhrəman, gəlini Məsmə Göyçə həsrətində olan neçə-neçə qohum-əqrava gedənnərə qoşuldu. Gethaget, gethaget gəlif Dərələyəz ellərinə yetişdilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Soraxlaşıf Cəvahiri tapdılar. Ötən payız Cəvahirnən Lətifin də toyu olmuşdu. Öpüşüf, görüşdülər. Bir-birrərinnən hal-əhval tutdular. Başdarına gələnnəri danışdılar. Bir neçə gün də çal-çağır, şadyanalıx keçirildi. Sonra gəcavə genə yola düzəldi. Cəvahirnən Lətif də toy adamlarına qoşuldular. Yazın axırına gəlif Dərəçiçəyə çatdılar. Miskin Abdal əhdinə xilaf çıxmadı. Gəcaviyi sürdürdü Meydanəli kişinin qapısına. Meydanəli kişi tez gəmiynən Göyçənin Zərgərri kəndinə Miskin Abdalın atasına xəvər göndərdi ki, oğlun sağ-salamat, qayıdıf gəlir.

Şənniyin beşinci günü Məhəmməd kişi, başında da xeyli adam gəlif çıxdılar. İki gün də çal-çağır davam elədi. Sonra gəcavə Zərgərriyə yola düşdü. Dərəçiçəkdən də xeyli adam toy gəcavəsinə qoşuldu.

Dərəçiçəkdən Zərgərriyə bir həftiyə getmək olardı. Ancax Göyçə gölünün sol sahilinnən uzanan yolun üstündə elə bir kənd, elə bir ova olmadı kı, gəcavəni heç olmasa bir gün saxlıyıf, şaddıx keçirif, toy çaldırmasınnar. Qərəz Dərəçiçəkdən çıxan gəcavə qırxbeş günnən sonra Zərgərriyə gəlif çatdı. Növrəstə il yarım ayrılıxdan sonra oğlunun və gəlininin ayaxlarına süründü, torpax yaladı. Allaha dualar elədi. Gəcavənin qavağında öyəşdər, burmancdar, cöngələr kəsildi. Bir toy, bir şaddıx, bir şadyanalıx başdadı ki, gəl görəsən. Düz qırx gün, qırx gejə qara zurnanın səsi dağı-daşı lərziyə gətirdi. Aşıxların sinələrindəki sədəfli sazdar dil-dil ötdü. Miskin Abdalnan Sənubər xanımın, Qasımnan Gülçöhrənin kəvini kəsildi. Mədədnən Yasəmənin kəvini Təbrizə niyyət olundu.

Toyun axırıncı günü aşıx sədəfli sazını sinəsinə basıf bu duvaqqapmaynan toya öz xeyir-duasını verdi:

Bir belə gözəl sənəmin,
Özünə qurvan olasan.
Dindirif, danışdırıf
Sözünə qurvan olasan.
Camalı mahi-təban,
Üzünə qurban olasan.
Süzülüf nə xoş baxır,
Gözünə qurban olasan.
Nə əcəb, goftarı xoş,
Avazına qurvan olasan!

Qız, sənin qoynun içi
Mixək, darçın, hil kimidi,
Tökülüf dal gərdənə,
Saçları sünbül kimidi.



Dəhanı şəhdi-şəkər,
Dodaxların bal kimidi.
Sinən qar, buxaq bəyaz,
Yanaxların gül kimidi.
Bülbülü şeyda oluban,
Yazına qurvan olasan!

Bircə baxın bu gözələ,
Nə əcəb tüfrə çağıdı
Məclisi məst eliyən,
Əlində gövsər sağıdı,
Sinəsi mərmər kimi,
Savalanın yaylığıdı.
Sonası pərvaz olub,
Şux tərlanın növrağıdı.
Göllərində ördəyinə,
Qazına qurvan olasan!

Məhəmməd kəşt eliyif,
Bu cümlə cahanı gəzif.
Gəncəni, Qarabağı,
Şəkini, Şirvanı gəzif
Xoy nədi, Salmas, Marağa,
Təbrizi, Tehranı gəzif.
Arıyıf, axtarıban,
Mülki-Süleymanı gəzif.
Bir belə şux gözəlin,
Nazına qurvan olasan!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AŞIQ ƏLƏSGƏRNƏN MİR MƏCİD AANIN GÖRÜŞÜ
(Rəvayət)

Göyçədə payızın yır-yığış zamanıydı, ot biçilif tayalanıf, taxıl xırmannarda döyülüf başa çatırdı. Göyçədə ilin yarıdan çoxu qışın payına düşürdü. El-ova qışa ehtiyat görürdü kü, təzə urzu çıxana qədər ehtiyatdı olsun. Yoxsa qonum-qonşu yanında başın aşağı, üzün qara olardı...

Ələsgər elə-ovaya arxalansa da, heş vaxt ehtiyatını əlinnən verməzdi. Təsərrüfatda, ev-eşikdə çox səliqəli-səhmannıydı. Toya, xeyir işə getmiyəndə həyət-bajasını səhmana salar, dirrik işdərinnən məşğul olardı.

Aşıx bu gün də axşamüstü həyətdə məşğuluydu. Gördü bir atdı onnara doğru gəlir. Gejə yuxusunu da yaxşı görmüşdü. Atdı düz Ələsgərə yaxın gəlif atdan düşdü. Yaxınlaşıf ədəf-ərkannan salam verdi:

– Salam Ələsgər əmi! Xoş gördük!

– Əleykümə salam, oğul! Xoş günün olsun!

– Ələsgər əmi, Kəvərdən sizə salam-duva gətirmişəm.

– Çox sağ ol oğul, salam göndərən sağ olsun.

Yaqın seyid uşaxlarınnan olar. Oğul, atı uşaxlar rahatdıyar, gedək evə uzaq yoldan gəlifsən, həm də bir əməlli-başdı danış görüm Seyid uşaxları nejədi?

– Ələsgər əmi, Seyid uşaxlarının xeyir işi var, tədarük görülüf, səni gözdüyüllər, savah gərək yola düşəsən. Gəldim bu ismarışı sana çatdırım. Burada da qohumlarım var, istiyirəm onnara da bir baş çəkim. Gərək mana icazə verəsən.

Ələsgərin qapısınnan qonax qayıtmazdı. Oğlan üzür diliyif, Ələsgərnən əl tutuf getdi. Ələsgər axşamnan yol tədarükü gördü. Ələsgərin yola hazırrandığını görən oğlu Bəşir dedi:

Ay dədə, hara hazırraşırsan?

– Oğul, gəvərdən ismarış gətiriflər. Seyid uşaqlarının xeyir işi var, gərək gedəm.

Bəşir soruşdu:

Dədə, bə Seyid uşaxları İrəvanda yaşamıllar?

– Oğul, dayıları İrəvanda yaşıyıllar, orada da mülkləri var, Kəvərdə də. Amma Mir Hüseyn ağa Kəvərdə olur. Beş oğlu var. Mir Mahmud, Mir Əli, Mir Abbas, Mir Həmid, Mir Məcid. Oxumuş uşaxlardı. Ataları onnara hər elmi örgədif. Qur'anı kamil bilirlər.

Mən də çoxdan Kəvərə yolum düşmür. Kəvər camapatı da onların xətrini çox istiyir.



Ələsgər səhər tezdən tavar sazı götürüf ata süvar oluf, Kəvərə yola düşdü.

Ələsgərin xasiyyətiydi, çağırıldığı toyda, xeyir işdə nə oxuyajaxdısa, məclisi nejə yola verəjəkdisə əvvəlcədən bunnarı sahmannıyardı. Bir də getdiyi ovada, eldə bütün dost-tanışdarına mütləq baş çəkərdi.

Ələsgər yol boyu seyid uşaxları haqqında düşünə-düşünə gedirdi. Bir vaxt ayılanda gördü kü, Kəvərə çatıf. Atını Seyid uşaxlarının həyətinə sürdü. Mir Mahmud ağa, Mirəli ağa, Mir Abbas ağa, Mir Həmid ağa, Mir Məcid ağa Ələsgəri hörmətnən, izzətnən qəbul elədilər. Köhnə dost kimi Ələsgərnən qucaxlaşıf köyrəldilər də. Uzax yoldan gələn Ələsgər yaxşıca dincəldi. Samavar dəmləndi, süfrə açıldı, köhnə, şirin söhbətdər başdadı.

Ələsgəri Seyid uşaxlarının bajıları oğlu Nəcəfin toyuna çağırmışdılar.

Ələsgərin keçirdiyi toy həmişə toydan çox bayrama çevrilif. El-ova eşidəndə ki, toyu aşıx Ələsgər aparır, çağrılan da, çağırılmıyan da tökülüf gəlirdi. Aşıx Ələsgər bir həftə Kəvərdə qaldı, toyu başa vurdu. Mir Məcid ağa onu buraxmıyıf dedi:

– Yorulufsan, iki-üç gün dincəl. Neçə vaxtdı Kəvər tərəfə gəlmirsən. Bir az söhbət eliyək. Bu dünyanın işi məni aşmır, Ələsgər. Ermənilər köşkün adıynan dədə-bava yerrərimizdə özdərinə yurd-yuva tikillər, bunun axırı hara gedir?..

Ələsgər iki gün də qalıf çoxdan tanıdığı, söz-söhbətinə, biliyinə, mə'rifətinə, kamalına, şairlik qabiliyyətinə hörmət elədiyi, ehtiram bəslədiyi Mir Məcid ağaynan çox söhbətdər elədi. Gah dərddəşdilər, gah da saza dil verdilər. Mir Məcid ağa saz çalmırdı. Amma yaxşı tə'bi varıydı. Saz dinəndə özünü saxlaya bilmiyif bədahətən gözəl şe'rrər söylüyürdü.

– Ay Mir Məcid ağa, yaş səksəni haxlıyır. Yaddaş əvvəlki tək iti döyül. Bu dediklərimizi uşaxlara de, yazsınnar.

Ələsgərin adətiydi, həmişə qarşıdakını qavağa verərdi, sınaxdan keçirərdi.

İndi də adətinə xilaf çıxmıyıf dedi:

– Mir Məcid ağa qavağa düş, başda görək.

Mir Məcid ağa Ələsgərin sözünü yerə salmıyıf başdadı:

Mir Məcid Ağa:

Xidafət mülkünün şahənşahının
Üç yüz altmş altı qulamı vardı.
On iki köşküyü, qırx səkkiz hücrə,
Üç əzim şəhrində nizamı vardı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağa, yaxşı başdadın. İcazə ver, sorğunun cavavını deməyə çalışım. Görüm razı qalajaxsanmı? Aldı Ələsgər:

Rişeyi-nöbubət, nəsli ə'laya
Əysik qulun ərzi-salamı vardı.
Yç yüz altmış altı gündü, qırx səkkiz həftə,
On iki ayın üç əziz bayramı vardı.

Mir Məcid Ağa:
Bir gülşəndə gördüm beş qönçə xəndan,
On iki dəstə gül, on dördü reyhan.
Bir çeşməsin gördüm, nurdan da əl'an,
Yüz iyirmi dörd min sucamı vardı.

Aşıq Ələsgər:
Beş-pənci-ali-əbadı əzimi əziz,
On iki imam çardə məhsim düpbədüz,
Yüz iyirmi dörd min peyğəmbərimiz,
hər birinin ayrı məqamı vardı.

Mir Məcid ağa:
Bir Məcidəm gördüm əcəb mö'təbər,
Altı min altı yüz altmış altı dər,
Altmış pəncərədi, yüz on dörd minbər,
Otuz sütun üstə davamı vardı.

Aşıq Ələsgər:
Altı min altı yüz altmış altı gül,
Yüz on dörd surədi qur'an, yə'qin bil,
Altmış nisbi, otuz cüz'i müttəsil,
Doxsan min kəlmədə tamamı vardı.

Mir Məcid ağa:
Bir mehrabda gördüm əcayib qur'an
On yeddi səhifə, on səkkiz xoş han,
İyirmi sətirdi, əlli bir bəyan
Beş cildin içində tamamı gördüm.



Aşıq Ələsgər:
Elmi ibadətdi əcayib Qur'an
On yeddi rükətdi, on səkkiz xoş han,
Əlli bir sünnətdi, yerbəyer qılan,
Məxrəci, səqqəsi, iqdamı vardı.

Mir Məcid ağa:
Əgər əsli-nəslim bilmək etsə çak,
Gördüm ki, dür etsin dövrünü əflak!
İrəvan, Mir Məcid-seyyidi-qəmnak,
Bisəmər-bisəmər kəlamı vardı.

Aşıq Ələsgər
Ələsgərəm, qəmdən olmaram azad,
Haqqı mizan, sirat, puli-qiyamat,
Usyan, tuğyan, çaşqın, düşkün, bisavad,
Ah çəkmək dilimdə müdamı vardı.

Mir Məcid ağanın "İrəvan-Mir Məcid-Seyyidi qəmnak" sözünə rəğmən-İrəvana yolunuz düşürmü? – deyə Ələsgər xəvər aldı.

– Dayımız Fazil ağanın uşaxları sağ-salamatdılar. Rəhmətdik özü Nəcəfə getdi qayıtmadı. Orda haqqa qovuşdu. Gediş-gəlişimiz var. İrəvandakı mülkümüzə görə bizi İrəvannı kimi tanıyıllar el-ova arasında.

Ələsgər Kəvərdə iki gün də dincəlif, dost-tanışnan görüşüf Ağkilsiyə döndü. Məcid ağaynan qardaşdarı onu böyük hörmətnən, izzətnən yola saldılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AŞIQ ALININ TÜRKİYƏ SƏFƏRİ

Bəli, hörmətdi məclisimiz, hörmətdi camahatımız. Ustaddarın bir neçə qiymatdı sözünü qulluğunuzda ərz eliyəjəm. Ustaddarın öləninə allah rəhmət eləsin, qalanına can sağlığı versin, Siznən baravar. Ustaddar deyir ki:

Dilim sana bu nəsiyəti deyirəm,
Bu dünya malına sarışma, dilim!
Yaqin bil ki, ölüm haxdı qavaxda,
Qıyamat oduna alışma, dilim!

* * *

Bir məclisə vardın dilin olsun lal,
Görənnər qoy sənnən sərf etsin kamal,
Sağına, soluna yağdırma sual,
Hərcayı danışıf, gülüşmə, dilim.

** *

Saxla bu sözdərim, eylə amanat.
Haqqınan düz olan tez tapar nicat
İstiyirsən başın ola salamat,
Ağzına gələni danışma, dilim!

* * *

Musa oda alışmıyıf, nə lazım?
Beybafaynan qonuşmuyuf, nə lazım?
Haqqın özü sirr aşmıyıf, nə lazım?
Gördüyün sirrəri sən aşma, dilim!

Musuya rəhmət, sizə can sağlığı. Bu şe’r köhnə aşıx Musanın oluf. Ağkilsəli. Onun sözüdü. İndi də Ələsgərdən birini deyim.

Qafıl könlüm bu nə yoldu tutufsan,
Sərf edirsən nə kamaldı dünyada,
Dövlətə güvənif, gül tək açılma,
Çox sən təki güllər soldu dünyada.

* * *



Fələh bərbad etdi hər nizamları,
Zulumnan söndürdü yanan şamları.
Hayıf cavannarın gül əndamları,
Mara-mura qismət oldu dünyada.

* * *

Küfrdən bərkitmə könlündə barı.
Tof dəysə dağıdar, bürcü, hasarı,
Sənin kimi gəzən qara şahmarı,
Fələh kəməndinə saldı dünyada.

* * *

Guşimdə sırğadı, sinəmdə dağdı,
Ağlı olan unutmaz, neçə ki, sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

* * *

Yığılar məxluqat, qurular məhşər,
Boyunnarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıx Ələsgər,
Özün getdin, sözün qaldı dünyada.

Allah rəhmət eləsin qul Allahquluya. Bir ustadnamə də onnan deyək:

Könül qulluq elə kamil ustada,
Ustad görmüyənin işi xam qaldı.
Neçə danəndələr getdi dünyadan,
Yerini bir neçə ağlı kəm aldı.

* * *

Bivəfaya dedim: "Dur mənnən üzül"
Naməhrəmə baxma, gözdərim süzül,
Nuh əmr eylədi min doqquz yüz il,
Sandı kı, bir axşam, bir səhər qaldı.

* * *

Qul Allahquluyam, ay nasib elə,
Səcərdən baş verdi ay nasib elə,
İsgəndər atdandı, ay nasib elə,
Nə Cəmşid padşah, nə də cəm qaldı.

Bəli, mənim əzizdərim, sizə haradan xəvər verim, Göyçə mahalının



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızılvəng kəndinnən. Kimnən, Aşıx Alıdan. Aşıx Alı deyir: cavan vaxtımda orda-burda söhbət eliyirdilər ki, Aşıx Alı gələcəkdə gözəl sənətkar olajax. Allah heş kimi kasıv eləməsin. O zamannan elə kasıvıydıx kı, oğru içəri girsəydi, bircə süpürgədən başqa əlinə bir şey keçməzdi. O vaxtın pulu bir abbasım varıydı. Kəndin içinə çıxdım kı, mal öldürüf alışma eliyiflər. İki girvəngə ət aldım. Gətirdim evə, dədəm doğradı, anam tökdü qazana, qoydu ojağın üstünə. Kasıvın evində yemək olanda ev gülür, eşik gülür. Öydə bir ala pişiyimiz varıydı. O da sevindiyinnən tufara hoppanıf, yerə düşürdü. Dədəmnən-anamın söhbəti də bir-birinə yaman xoş gəlirdi. Söhbətin şirin yerində anam dədəmə dedi:

– A kişi, gəlsən oğlumuzu evləndirək?

– Arvad, düz deyirsən, gədiyi evləndirmək lazımdı.

Qızdarın xasiyyətini sən bilirsən.

Anam oturduğu yerdə başdadı kəndin başınnan.

– A kişi, filankəsin qızı nətəridi?

Atam dedi:

– Ay arvad, onun dədəsi axmaq adamdı. Bildir yazda mənnən dalaşdı.

Anam yenə dilləndi:

– Bə, filankəsin qızı nətəridi?

– Onun da anası dillidi, balası onnan betər olajax.

Gördüm kü, anam öz tayımız, öz baravarımız bir zülümlü kasıf tafdı. Atam dedi:

– Bax, bunun qızını alax.

Aşıx Alı deyir:

Dədəmnən utandım, anamı bir qırağa çəkif dedim:

– Mən onu almıyajam.

Anam dedi:

– Anan ölsün, bəs kimin qızını alajaxsan?

– Mən Çamırrılı Niftalının qızını alajam.

O vaxtdar dövlətdi kasıva qız vermirdi. Ona görə bilirdim ki, o bizə qız vermiyəjək.

Anam gedif dədəmə dedi:

Dədəm bilmirəm nəyə umud eliyif dedi:

– Bu saat gedif alajam.

Dədəmin bir köhnə kürkü varıydı. Çiyninə atıf evdən çıxdı.

Çamırrıynan Qızılvəngin arası yaxınıydı. Dədəm Niftalıgilə çatıf qapıyı döyür. İçəridən səs gəlir:

– Kimdi ayə, qapıyı döyən?

Atam deyir:



– Niftalı, mənəm.

Niftalı qapıyı aşdı kı, İmirzə kişidi.

Dedi:

– Buna yaqın xərc-zad qoyuflar, düzəldə bilmiyif, ona görə gəlif.

Dedi:

– Gəl, ay İmirzə, gəl içəri.

Niftalı İmirziyi çox mə’rifətnən qarşıladı.

Dedi:

– Ay arvad, çaydan-çörəkdən qoyun.

İmirzə, gejənin bu vaxtı bizə nə yaxşı gəlirsən?

İmirzə dedi:

– Yaxşı günün olsun, a Niftalı, bilirsənmi niyə gəlmişəm?

Niftalı dedi:

– Gəlifsən, belə xoş gəlifsən, belə gözüm üstə gəlifsən. Nə mətləvə gəlifsən düzələr.

İmirzə dedi:

– Yaxşı günün olsun, a Niftalı. Xudavəndi-aləm hamıya oğul-qız toyu qismət eləsin. Mən də istiyirəm oğlum Alıya toy eliyəm.

Arvad da deyir, Niftalı da deyir:

– Allah mübarək eləsin!

İmirzə kişi axır kı gəlir mətləf üstünə.

– A Niftalı, gəlmişəm ki, qızın Bəsdi xanımı bizim Alıya verəsən.

– Ayə, Niftalı, dəli olmadımı! Əlini belə hərrədi ki, İmirzənin noxtalığına birini qoya. Arvad qulağına pıçıldadı:

– A, Niftalı, onun xətrinə dəymə, başdığını çox istə, qoy getsin öyündə ölsün.

Odu ku, Niftalı dedi:

– Ay Mirzə, arvad razıdı. Qızı sənin oğluna verəjəm, amma istədiyimi gərək gətirəsən.

– İsdə qadan alım, görüm nə istiyirsən?

– Sənnən üç yüz manat qızıl pul alajam. On yeddi erkək gətirərsən. Çaxırrıdan dəli Ağayarın atının balasını da gətirərsən. O at Qazaxdan gəlif, Dilboz atdarın cinsinnəndi. El xərci o tərəf, bu tərəf də sənin boynuna.

İmirzə əl verir "Allah mübarək eləsin, a Niftalı" - deyif çıxıf üz tutur Qızılvəngə.

Anam bir də xəvər gətirdi ki, dədən yaman fit çala-çala gəlir. Yağın qızın "hə"sini alıf.

Öz-özümə dedim, axşamnan kişi toxdu, ətin fışqırığıdı, ajıxsın havax çalsa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dədəm gəldi. Kürkü atdı evin ortasına. Arxası üstə uzandı. Əllərini başının altına çatdı. Anam gəlif dədəmin yanında oturdu. Dedi:

– A kişi, nə xəvər gətirdin?

– Öyü xaravın qızı, sən bilmirsənmi mən getdiyim yerdən boş gəlmərəm.

– Nə dedi ay İmirzə, başdıx-işdik, bizdən nə istədi?

– Ə, nə var, nə istiyə. On yeddi erkək isdiyir, o tərəf bu tərəf el xərci mənim boynuma. "Hə" deməsinə bir at balası, üççə yüz manat qızıl pul isdiyir.

Anam o yannan qayıtdı kı, onun yüz manatı bu anasının boynuna. Sonra dedi:

– A kişi, yüz manat da sənin boynuna. On harava ot bişmə, iyirmi harava biç.

Dədəm öysürdü:

– Arvad mənimkini əlli elə, mən düzəldə bilmiyəjəm.

– Düzəldəjən, canın çıxsın.

– Alı, a bala, yüz manat da sənin boynuna.

Aşıx Alı deyir: baxdım gördüm, bunnar elə danışıllar, elə bil gəlin gəlif, lap qapının ağzındadı. Amma ortada nə bir manat var, nə də bir keçiləri. Yerimnən qalxıf dedim:

– Ana, mənim coravımı, ayağımın məsini gəti. Sazımı götürüm gedim. Mən də öz payımı düzəldim gətirim.

Aşıx Alı sazını götürüf evdən çıxır. Yay vaxtıydı. Qalxır Selim yaylağına, At damına, Dəmir təpiyə. Avdiləsərə, Qızıl Xərəvəyə. Bu yaylaxların hamısını gəzif gəlif Əyricədə böyük bir tuxuraya rast gəlir. Görür kü, böyük yığıncaxdı. Bəylər, bəyzadələr əyləşif kef eliyillər. Bir nökər Aşıx Alıyı görüf qavağa gəlir. Aşıx Alı onnan soruşur:

– A bala, bu tuxuru kimindi?

– Dayı, bu Naxçıvannı Kalvalı xanın şaddıx məclisidi. Buyur, gedək.

Aşıx Alı gəldi. Məclisdəkilərə ədəfnən salam verif, əleyk alannan sonra Kalvalı xan soruşdu:

– A quzum, kimin rahatısan?

– Səmənd ağanın rahatıyam.

– Oğlum, sazını çıxart söhbət elə.

Aşıx Alı sazını çıxardıf söhbətə başdadı. Onun çalıf-oxumağı Kalvalı xanın çox xoşuna gəldi. Nökəri səsdədi:

– Get bir at yəhərrə, gəti bura.

Nökər gedif yaxşı bir at yəhərrəyif gətirif Aşıx Alıya verif dedi:

– Bu atı xan sənə bağışdıyır.

Kalvalı xan nökərrərə dedi:



– Xurcunu da gətirif qoyun aşığın tərkinə. Yol adamıdı.

Aşıx Alı atı minif Kalvalı xana çox minnətdarrıx elədi. Hamıynan təmənnəşif yol başdadı Şərur mahalına tərəf. Bir kəndə yaxınnaşanda beş-altı uşağa rast gəldi.

Onnar soruşdular:

– Aşıxsanmı?

– Bəli, aşığam. Qadanız alım. Yaxşı məclis olanda çalıf-oxuyuram.

– Aşıx, görürük cavansan. Buralara da nabələdsən. Biz məsləhət görərdik ki, bu cığırnan getmiyəsən.

– Niyə, a bala.

Qavaqda Arakolanı adında bir kənd var. Aşıx Duraxan orda olur. Səni görsə sazını alajax. Düzü qorxuf çəkinsəm də yolumnan dönmədim. Bir azdan at məni endirdi həmin kəndə. Başımı qaldırıf gördüm kü, bir kişi həyəti süpürür. Salam-əleykdən sonra soruşdum:

– Əmi, bura aşıx Duraxanın kəndidi?

Dedi:

– Bəli.

Aşıx Alı deyir bir fikirrəşdim ki, gəl Duraxanın evini xəvər al. Düz get Duraxanın evinə. Bir də fikirrəşdim ki:

– Allah çuğula nəhlət eləsin. Çuğul nə ölmüyüf, nə də ölmüyəjək. Gedər Duraxana xəvər verər. Duraxan gəlif atımı da alar, sazımı da. Amma o vaxtın pulu otuz manatım varıydı. O otuz manatı arxalığımın elə yerinə gizdətdim ki, qanıma bulamıyınca ələ keçəsi döyüldü. Çox çək-çevirdən sonra “allah sənnən mədəd“ - deyif atın boynunu vurdum. Gəldim düz Duraxanın qapısına. Atı eyvanın sütununa bağlıyıf girdim içəri. Gördüm kü, bir kişi bığlarını eşif qulağına doluyuf. Hər dizinin üstündə bir ipək dəsmal var, düyünün xırdasını duru-hal qaynatdırıf yeyir. Qaşıx mənzilinə çatannan sonra dəsmalın birini götürüf bığının bir tərəfini silir. Sonra o biri dəsmalı götürüf o biri bığını silməyə başdıyır. Çəkinə-çəkinə ona salam verdim, amma heş mana tərəf baxıf eləmədi. Çörəyini yeyif qurtarannan sonra dedi:

– Bala, nə istəyirsən, nəyə gəlifsən? Eşidirəm səni.

– Ay usta,gəlmişəm ki, boynumda bir təklif var, onu götürməkdə mana kömək eliyəsən. Həm də sənnən bir kəlmə mə’rifətdi söz öyrənəm.

Duraxan dedi:

– O boynundakı təklif burda götürülməz. Oğul, get bir həftə buralarda hərrən gəl, mən də bir beş-altı adam düzəldim, addıyax Türkiyəyə. O mətləvin düzəlsə, orda düzələjək.

Aşıx Alı deyir, getdim bir həftə hərrəndim. Gəlif gördüm kü, on



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

səkkiz adam topluyuf. Bir dəst xanəndə, bir dəst kəndirbaz, bir də Sarvannan kəndinnən Əsəd adlı bir qalyan-torçu götürüf. Ayda otuz manata behləşmişdilər. Aşıx Alı deyir: fikirrəşdim ki, nə qədər pul qazanajıyıx kı, otuz manat da qalyan-qorxuya verəjiyik.

Duraxan dedi:

– Yaxşı olajax. Addıyajıyıx Türkiyəyə. Gələndə də gəlif toyunu eliyərsən.

Aşıx Alı deyir eşiyə çıxdım kı, atın hörüyünü dəyişəm. Gördüm kü, kəndçimiz Ramazan kişi Şərurdan Göyçüyə düyü gətirir.

– Salam-əleyküm, Aşıx Alı. Oğul, gedirsənsə, baravar gedək.

– Yox, ay Ramazan əmi. Mən Türkiyəyə gedirəm. Bəlkə getdim ölüv, itdim, heş qayıda bilmədim.

– Ayə, niyə durduğun yerdə ölürsən? Çətinnik varsa, qayıdax kəndimizə. Daha niyə ölümnən-itimnən danışırsan?

– Ay Ramazan əmi, toy xərcini toplamasam, ölsəm də qayıdan döyüləm. Bir namə yazım, apar Bəsdi xanıma ver. Aldı görək Alı nə dedi. Biz də deyək, siz də həmişə şad olun.

Aman qasid, sən allahı sevirsən,
Mənim ərzim o canana deginən.
Qohum, qardaş, dost müsahib olanlar,
Göz dikməsin daha yola deginən.

Yeriyib vətənə virannan sonra,
Sən bizim elləri görənnən sonra
Aparıf naməni verənnən sonra,
Dilcavavı yana-yana deginən.

Vəsmim dastan oldu, düşdü dillərə,
Heyif oldu, yetişən yox hallara,
Aşıx Alı düşdü tozdu yollara,
Yolum düşdü el Osmana deginən.

Ramazan kişi irəli yeriyif Aşıx Alının boynunu qucaxlıyıf üzünnən öpüf ağladı.

– Ayə, mən atanın çörəyini kəsmişəm. Məni yaman köyrəltdin. Haraya gedirsən, yoxsa səni məcburu aparıllar?

– Yox, ay Ramazan əmi. Özüm gedirəm pul düzəldəm gətirəm. Özümə toy eliyəm.

– Allah üstünnən ketsin, a bala. Cənabi Əmir ağam səni öz pənahında



saxlasın.

Aşıx Alı kağızı Ramazan kişiyə verif dedi:

– Bu atı da apar dədəmə ver.

Halal-hümmət eliyif ayrıldılar. Duraxan yoldaşdarını da çağırdı. İyirmi bir nəfər dəstə bağlıyıf Türküyəyə addadılar. Bir göylükdə əyləndilər. Aşıx Duraxan dedi:

– O şəhəri görürsünüzmü? O şəhər Mum şəhəridi. Hər kəs də öz dəstəsini götürüf şəhərin bir küçəsinnən gedəjək. Kim boş gəldi, kim dolu fərqi yoxdu. Pulu bu göylükdə mən özüm böləjəm.

Aşıx Duraxan, Aşıx Alı, qalyan-qoru Əsəd bir küçəynən gedirdilər. Gəlif gördülər ki, bir çardağın altında üç paşa əyləşif.

– Mərhaba, paşam.

– Mərhaba, quzum. Quzum, yanşaxsınız?

– Bəli, paşa sağ olsun, yanşağıx.

Yanşıyın dinniyək. Xoşumuza gəlsə, sizə eylik eliyəjeyik. Xoşa gəlməsə, şəhər böyükdü genə gedərsiniz öz yolunuznan.

Sazdarı çıxartdıq. Köklüyüf bir-birinin üstə düzəltdik. Yayın isti günündə elə bir şövqnən oxumağa başdadıx ki, gəl görəsən. Aşıx Durxannan çıxan səs göydə, ala buludda əyləşirdi. Camaaat səsimizə axışıf gəldi. Pul başdadı yağış kimi yağmağa.

Aşıx Alı deyir, gözümün qırağınnan pula baxdım. Ürəyimdə Allaha yalvardım kı, nolaydı, payıma iki yüz yetmiş manat düşəydi.

Bir də gördüm kü, uca boylu bir adam gəldi. Boyda-buxunda Koroğluya on təpik vurmuşdu. Əynində bir şalvarı varıydı, hər civinə üç yaşında bir uşax salsaydın bilməzdin hayana getdi. Başındakı fəsinin ortasında da yarım girvəngədən artıx qotazı varıydı Ədəfnən salam verif dizini yerə qoydu. Civinnən bir ipək dəsmal çıxartdı. Pulu dəstələyif sandı, sonra dəsmalın arasında qoydu. Ayağa qalxıf pulları şalvarının civinə salıf dedi:

– Yanşaxlar üç yüz iyirmi manat quruşunuz oldu.

Bunu deyif heş nə olmamış kimi kir-kirimiş çıxıf getdi. Mən dözə bilmiyif Aşıx Duraxana dedim:

– Ay usta, qoyma pulu apardı.

Aşıx Duraxan dedi:

– A bala, bunu sən tanımırsan, uzun pazdı, başımıza oyun açar, qoy aparsın. Gedif o biri küçədən yığarıx.

Dedim:

– Əmi, o pulu yığana kimi yayın istisində gözümə qan damıf. Sazın köynəyinin harada qalmasına baxmıyıf, düşdüm bunun dalıncax. Gördüm bu yoxdu, amma ağac çarpayının üstündə bir paşa əyləşif. Bunnarın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

salamını öyrənmişdim. Əl köksümə qoyuf baş əydim. Dedim:
– Mərhaba, paşa!
– Mərhaba, quzum. Buyurun mətləbinizi deyin. Sizi dinniyirəm.
– Paşam sağ olsun, bu nişan bir oğlan bizim quruşdarımızı qaçırıf, bu doqqaza girdi.
– Oğul, o qaçırtmaz. O mənim aşığım Yığvaldı. O yaqın sizə bir qafiyə deyif. Siz də cavab verə bilmiyifsiniz.

Dedim:
– Paşam sağ olsun, gəlsin o qafiyiyi burda desin. Əgər cavaf verə bilməsək, onda bizim döyranımız ona halaldı.

Paşa Yığvalı çağırtdırdı. Yığval gəldi. Diz üstə çökdü, əl köksünə qoyuf paşıya baş əydi. Paşa soruşdu:
– Oğul, bunnar müsafirdilər. Niyə bunnarın quruşunu qaçırdıfsan?

Yığval dedi:
– Paşa, sağ olsun. Mən para qaçırtmamışam. Bunnara bir qafiyə demişəm, cavab verə bilmiyiflər.

Bu arada Duraxan da gəlif burya çıxmışdı.

Aşıx Alı dedi:
– Paşam, budu ustadımda gəlif çıxdı. Sənin aşığın bizə heş bir bağlama zad-demiyf.

Usta deyəndə qayıtdım Duraxanın üzünə baxdı. Onun qulağına dolanan bığları qorxusunnan aşağı tüşüf, xırman çalğısı kimi boğazının altınnan düyünnənəsi olmuşdu.

Paşa dedi:
– Oğul, fərqi yox, indi ya sən, ya da sənin ustadın düşün qavağa. mənim aşığıma bir qafiyə deyin.

Aşıx Alı dedi:
– Paşa sağ olsun, ustadımın mana çox əziyyəti oluf. Mən razı olmaram kı, ona genə zəhmət verim. Mən sənin aşığınnan bajarmasam, onda ustadım meydana girəjək.

Aldı Aşıx Alı görək nə dedi:

Gəndinə aşığam deyən, aşıxsan meydana gəl,
Namərd girməz bu meydana, mərd isən meydana gəl.
Gəndi olan gəndisini, öyməyi layıx döyül,
Şimdi sazın aləminə, bu cəngi-dövrana gəl.

Yığval:

Sən ki, varsan bir adasan axırsan ümmana gəl,
Mən danışım, sən qulax as, mərfətə, ərkana gəl.



Sən satansan, mən də alan, açkının mətahını,
Malın satma hər nadana, xırdarın alana gəl.

Duraxan baxıf gördü, bu cavan aşıx özünə görə döyül. Yığvalı lap təntidif. Bir də ürəyinə gəldi ki, birdən ustadı meydana çağırallar. Biavırçılıx olar. Ona görə qəlyan-qorçuya dedi:
– Əgər desələr, usta da oxusun, sən tez dillənif denən ki, usta yornuxdu. Aldı Alı görək nə dedi:

Ey arifə, bir salam ver, soruşum halın görüm,
Həqiqət haqq aşığısan, söylə, kamalın görüm.
"İncil", "Zənbur", "Tövrat", "Qur’an" göstər kitabın görüm.
Dostum, əgər bütpərəstsən, bu narı-neyrana gəl.

Paşa dilləndi:
– Sağ ol, Aşıx Alı. İndiyə qədər mən bilmirdim ki, bu nə məssəvə qullux eliyir, Elə yaxşı eliyif soruşursan.

Yığval dedi:
– Paşa sağ olsun, indi söznən kim olduğunu bəyan eliyəjəm.

Yığval:

İsayiyəm, Musayiyam, hər nəyəm öz yolumda.
Haqqınan söz söylərəm, mə’rifət kamalımda.
Şimdi paşam qulluğunda, sədirəzəm yanında.
Haqqında divan kəssələr, ədalət divana gəl.

Paşa dedi:
– Kəs, nadürüst oğlu, nadürüst. Bu cavan aşıx sənnən dörd kitavı xəvər aldı. Bu nə cavabdı verirsən. Dörd kitabın birinə də yiyə durmadın.

Aşıx Alı dedi:
– Paşa sağ olsun, görünür, o öz millətini, hələ tapa bilmiyif. Yazıxdı, deyim, qoy örkənsin.

Aldı Alı:

Aşıx Alıyam tamam leyli-nahar söylərəm mədhi,
Mə’rifəti, şəriəti, innəqan haxdı, təriqəti,
İsayisan "İncil"i sev, musayisan "Tövrat"ı.
Gər Məhəmməd Hümbətisən, boyun əy, "Quran"a gəl.

Yığval dedi:
– Padşah sağ olsun, mən də Məhəmməd hümbətiyəm. İndiyə qədər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

soruşmuyufsan, mən də deməmişəm. İndi icazə versən söznən deyərdim:

Aşıx Yığvalam, bilin, fərzi-sünnət qanıram.
Əlif Allahın adıdı, bey peyğəmbər tanıram.
Tay Tabərrah, qəni Allah, ona səjdə qılıram.
Xilqətimdi Adəm ata, sey xaki yeksanə, gəl.

Paşa dedi:
– Oğlum, indi də mənim aşığım qavağa düşəjək. Siz cavaf verəjəksiniz.
Aldı görək Yığval Aşıq Alıyı nejə imtahana çəkdi.

O nədi ki, otuzuna cavandı?
On beşində qojalanar, uludu.
O nədi ki, dili ayrı, sözü bir,
Hansı dərya, hər dəryadan doludu?

Duraxan baxıf gördü kü, Yığval yaman qəliz məsələlərdən yapışıf. Öz-özünə fikirrəşdi ki, bu çox çətin açılajax. Qalyan qorçu Duraxanın üzünə baxanda gördü ku, ustad yaman qorxuya düşüf. Ona ürək-dirək vermək üçün dedi:
– Qorxuf eləmə, aşıx Alı cavavını verəjək.
Aldı görək Aşıx Alı nə cavaf verdi:

O aydı kı, otuzunda cavandı,
On beşində qojalanar, uludu.
O qələmdi dili ayrı, sözü bir,
Elm dəryası hər dəryadan doludu.

Duraxan qaylan-qorçu Əsədə dedi:
– Əsəd, mən elə bilirdim ki, bu kişinin başı dəryadı. İndi gördüm kü, kişinin oğlunun başı dərya döyülmüş ümmanıymış.
Aldı Yığval görək sözün o biri xanəsində nə dedi:

O nədi ki, zimistanda dağlar bürüyər,
O nədi ki, əl dəyməmiş hörülər,
O nədi ki, insana amanət verilər?
O nədi ki, o da onun gülüdü?

Aşıx Alı görək nejə cavab verdi:



O qardı Zimistanda dağlar bürüyər,
O könüldü məhəbbətnən hörülər.
O urufdu bil amanat verilər,
İlqar, iman o da onun gülüdü.

Aldı Yığval:

O nədi ki, hax yanında nahaxdı?
O nədi ki, yerə-göyə dayaxdı?
O kimdi ki, yatmıyıfdı, oyaxdı?
Aşıx Yığval hər elmdən halıdı.

Aldı Aşıx Alı:

Böhtan sözdü hax yanında nahaxdı,
Hax nəzəri yerə-göyə dayaxdı.
Haqqın özü yatmıyıfdı, oyaxdı,
Bu sözdəri açan Aşıx Alıdı.

Söz tamama yetişənnən sonra Paşa dedi:
– Alı, oğul, indi növat gəlif sana yetişdi. Yoxla bu Yığvalın qavını, görək bir şeyi varmı?
Aldı görək Aşıx Alı nə dedi:

Mə'rifətdən kamal alan, ay aşıx,
Şəriəti neynən elərsən aşkar.
Bey altınnan o noğdanı bəyan et,
O noğdadan elə məni xəvərdar.

Paşanın aşığının gözü buz üstə çıxmış dana gözünə döndü. Dili tutula-tutula dedi:
– Paşa sağ olsun, havanın istisi, sazın səsi beynimə düşüf. Mən hamısını birədi açajam.
Duraxan söyündüyünnən qəlyan qorçusuna elə bir dürtmə ilişdirdi ki, yazıx az qaldı gedif düşə Əzrayılın siyahısına. Qalyan qorçu baxdı kı, Aşıx Duraxanın bığları söyündüyünnən yaman qalxıf, zalım oğlu elə şöyqə gəlif ki, bir də bayaxkı kimi ona bir dürtmə də ilişdirsə, onda qəvrinə arvad-uşax ömürrük həsrət qalajax. Ona görə qaçıf özzünü soxdu camaatın arasına. Aşıx Alı Yığvalın ilişdiyini duyuf dedi:
– Paşa sağ olsun, neyniyək, qoy mən deyim o hamısını birdən açar.
Səkkiz cənnət, yeddi dami yaqın var,
Yerdədi, göydədi, hardadı ənnar?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ərşdə iki quş var, göydə dən dənnər,
Gah pünhan olullar, gah olur aşkar.

Yığval tez əlini qaldırıf dedi:
– Paşa sağ olsun, tafdım.
Paşa dedi:
– Nədi?
Dedi:
– Aynan, gündü. Əgər desə ki, aynan, gün döyül, deməк bunun dediklərinin öyü yoxdu, yalan danışır.
Aşıx Alı dedi:
– Paşa sağ olsun, indi ki, Yığval deyir yalandı, onda bu bağlamanı özüm açajam, gör yalandı, yoxsa doğru.
Aldı görək Aşıx Alı öz bağlamasın nejə aşdı:

Deməginən bu sözdərim yalandı,
Ay, gün, Zümrüd zhu quşa büləndi
Zatı Zülcəlaldı, özü kəlamdı,
Peyğəmbərdən qaldı hədsi mö'təbər.

Aşıx Alı dedi:
– Paşa sağ olsun, mən sənin aşığınnan o sözü xəvər aldım ki, Məhəmməd peyğəmbər salavatüllahi mehraca gedəndə yeddinci göydə qavaxlarına iki qatar dəvə çıxdı. Dedi:
– Ay Cəbrayıl, əylənək bu dəvə qatarının dalı üzülsün.
Dedi:
– Ya peyğəmbər, bu dəvə karvanının dalı üzülmüyəjək.
Dedi:
– Bə, bu dəvələrin yükü nədi?
Dedi:
– Ya Rəsul Allah, bir qatarın yükü sənin mö'cüzatındı. O biri qatarın yükü də Əlinin səxavətidi.
– Paşa sağ olsun, mən sənin aşığından iki qatar dəvəni iki quş mislində soruşdum. O dedi: aydı, gündü. Ay, gün olmasa, yalandı.
Aldı Aşıx Alı görək o biri xanədə nə dedi:

Mə'rifətdən şəriətə gəlmişəm,
Təriqətdə yol ərkanı bilmişəm.
Aşıx Alı deyər mətəl qalmışam,
Çarxı-dəvvarədə neçə elm var?



Paşa öz aşığına dedi:
– Aça bilmədin, nataraz oğlu, nataraz. Get mehmannarın paralarını gəti. Sən soruya cavaf verə bilmədin, bağlandın. Onnardan aldığın paranın üstünə də bir o qədər qoyuf bunnara qaytarmasan, dərinə saman təpərəm.
Yığval gəlif paraları gətirif artıxlamasınnan aşığa verdi. Paşa öz aşığına təpindi ki, get bir də gözümə görünmə.
Paşa üzünü Alıya tutuf dedi:
– Oğul, qal mənim yanımda, aşığım ol. Sizə çox eyliy eliyərəm.
Alı dedi:
– Sağ ol paşam, bizim ayrı mətləbimiz var.
Aşıx Alı paşaynan halal-hümbət eliyif ayrıldı.
Aşıx Duraxan yoldaşdarına tafşırmışdı kı, kim nə qazanır qazansın, yığılan pulları bu çəmənnikdə mən özüm böləjəm. Gəldilər şəhərin kənarına çıxanda gördülər ki, yoldaşdarının hamısı oraya yığılıf. Aşıx Duraxan bığlarını eşif qulağına dolayannan sonra pulları tökdü ortalığa. Aşıx Duraxan pulları qardaş malı kimi böldü, hər kəsin payını verənnən sonra dedi:
– Aşıx Alı, Allah sana min bərəkət versin. Həmişə gəlif hamımız burdan iki yüz manat yığardıx, qalmışını o nətərəst oğlu əlimizdən alıf qaçırardı. Bu xeyri sənnən gördük. Əgər iki ay bizdən sonra qayıdıf gəlsən toy xərcini çıxararsan.
Aşıx Alı baxıf gördü ki, onlar geri qayıtmax, vətənə getmək istiyillər.
Qalyan-qorçu Əsəd dedi:
– Aşıx Alı, aylığımı artırsan, mən sənin yanında qalajam.
Qalyan-qorçuyu ayı otuz manata tutuf gətimişdilər.
Aşıx Alı dedi:
– Mən sana ayda əlli manat verəjəm.
Bunnar bir-birrərinnən görüşüf halal-hümmət eliyif ayrıldılar. Duraxanın dəstəsi Şərur mahalına qayıtdı. Aşıx Alı qaylan-qorçu Əsədi yanına alıf üz tutdu Qars dağlarına tərəf. Sarıqamış dağlarını, yaylaxlarını görənnən sonra dedi:
– Əsəd, bura bizim yaylaxlara nə qədər bənziyir.
Bu yerdə Aşıx Alı köyrəlif, sazını köynəyinnən çıxartdı. Aldı görək nə dedi:

Süsənni-sünbüllü tər bənövşəli,
Yaylax, bizim yaylaxlara bənzərsən.
İçən ölməz abı-kövsər suyunnan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bulax, bizim bulaxlara bənzərsən.

Qalyan-qorçu Əsədin bu sözdərdən ruhu təlatümə gəldi. Vətən onun da yadına düşdü. Özü də yaman düşdü. Doluxsunuf dedi:

– Aşıx Alı, doğrudan buralar Qızıl xərəvəyə, At daşına, Əyriciyə, Verst dağına, Səlim yaylağına, Gəzəldəriyə nejə də oxşuyur.

Aşıx Alı baxdı kı, qalyan-qorçu Əsəd də yaman kövrəlif. Aldı sözün o biri xanəsini:

Zərzivil, xan Keyti, Daşkət baxarı,
Ağ sürülər Sarı yaldan yuxarı.
Gözəllər seyr edər o yaylaxları,
Yaylax, bizim yaylaxlara bənzərsən.

Deyər: Aşıx Alı daş Gözəldərə,
Şəqayiq-çiçəkli xoş Gözəldərə.
Əyricə, Vers dağı, baş Gözəldərə,
Oylax, bizim oylaxlara bənzərsən.

Söz tamama yetir. Bunnar yol başdıyıf getməkdə olsunnar. Birdən göyün üzünü dumannan, çisəkdən elə tutuldu ku, göz-gözü görmədi. Aşıx Alıynan qalyan qorçu Əsəd bir-birinnən aralı düşdü. Bir xeyli ora-bura döyükənnən sonra gördülər ki, xoruz səsi gəlir. Elə bu arada Əsədin qavağına üç-dörd uşax çıxdı.

– Salam.

– Əleykümə salam.

– Əmi, aşıxsınızmı?

Qəlyan-qorçu Əsəd dedi:

– Hə, aşığıx.

– Əyər aşıxsınızsa, yazıxsız, bu kəndə getmiyin. Bura Qullarbaydar kəndidi. Əsmər xanım gəlif orda söhbət eliyir. Sizi görən kimi sazınızı əlinizdən alajax.

Əsəd dedi:

– Ayə, mən aşıx ha döyüləm. Özüm zarafat eliyirəm. Aşıx o daldan gələndi.

Aşıx Alı gəlif onnara çatdı. Soruşdu:

– Əsəd, bunnar nə deyillər?

Dedi:

– Aşıx Alı, deyillər kənddə sünnət toyu var. Dəllək gəlif, aşığın dalınca adam göndəriflər. Özünüzü tez çatdırsanız, elə məclisi sizə



tafşırardılar.

– Ayə, Əsəd, soruşdunmu bu hansı kənddi?

Dedi:

– Soruşmuşam. Bura Qullarbaydar kəndidi.

Gəlhagəl, gəlhagəl axır kı, gəlif kəndə çatdılar. Baxdılar camaat dəstə-dəstə bir tərəfə axışır.

Soruşdular:

– Bu nə yığıncaxdı?

Dedilər ki, Əsmər xanım Dağıstannan gəlif. Camaat onun gözəlliyinə tamaşa eləməyə, məlahətdi səsinə qulağ asmağa gedir. Aşıx Alı dedi:

– Əsəd, biz də gedək.

Gəlif gördülər ki, o qədər camaat yığılıf kı, bir çuval darı töksən biri də yerə düşməz. Balaja, gödək adamlar uzunnara beş manat verif çıxıf onnarın çiyninnən baxır.

Yığışannar Aşıx Alıyı görüf dedilər:

– Ayə, bir aşıx da gəldi, yol verin görək.

Camaat aşıx Alıya yol verdi. Aşıx Alıynan qəlyan-qorçu Əsəd məclisin ortasına girdilər.

Aşıx Alı dedi:

– Əsəd, aşıx aşığın məclisinə sazdı girməməlidi. Səhvə yol vermişik. Allah axırını xeyir eləsin.

Aşıx Alı:

Əlini köksünə qoyuf baş əydi.

– Xanım, bizi bağışda. Saznan məclisinizə gəldiyimizə görə günahkarıx.

Xanım dedi:

– Anama qurvan olasan, elə zarafatdar geşməz.

Aşıx Alı baxıf gördü kü, özü də xanımın başındakı qırx qızın içində bir qarı da var. Kankannıx elminin dədəsini yandırıf, yerin yeddi qatınnan xəvər verir.

Xanım dedi:

– Adam isdiyirəm ki, bu aşığı mənnən zamına götürsün. Axşamın qara sərinində bunnan danışajam.

Mehdixan addı bir adam irəli çıxdı.

– Xanım, mən götürrəm zamına.

Dedi:

– Ünvanını de.

Mehdixan ünvanını yazıf ona verdi.

Xanım dedi:

– Əgər aşıx qaçarsa, öyün dağılajax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mehdixan aşıx Alıynan Əsədi götürüf öyünə getmək istiyəndə xanım dedi:

– İki qız əlinizdə simli qamçı bunnarı aparın Mehdixanın öyünə qoyun. Axşamüstü gedif gətirərsiniz.

Əsəd qızdarın cavannığını, gözəlliyini görüf papağın dalını günortaladı. Aşıx Alıya dedi:

– Aşıx, xudavəndi aləm elə eləsin ki, bağlanmıyasan. Bir il beləjə gedək-gələk.

Qızdar bunnarı gətirif Mehdixanın öyünə qoydular.

Mehdixan dedi:

– Aşıx Alı, sən məni tanımırsan. Mən Qazax mahalınnanam. Adım Mehdixandı. Düşmannı olduğumnan buraya addamışam. Bu çəpəl çox qabil sənətkardı, on səkkiz şəyirdi var. Çox aşıxları bağlıyıf sazını alıf. Sizin də sazınızı alajax.

Qalyan-qorçu Əsəd dedi:

– Qardaş, qurddan qorxan, qoyun saxlamaz. Bə bu bədbəxt oğlu kişinin əlinnən qaşsın, arvadın əlinnən qaşsın, bə bu harda aşıxlığ eliyəjək.

Mehdixan dedi:

– Siz qaçın, qoy mənim öyümü dorq eləsin. Mən təzə öy alaram. Amma sizin kimi eloğlularım bu qəriflikdə pisikməsin.

Elə təzəcə yeyif-içif kəmərin altını bərkitmişdilər ki, qızdar qapının ağzını kəsdilər.

Xanım sizi çağırır.

Mehdixan, Aşıx Alı, qalyan-qorçu Əsəd qızdarın yanına tünüf məclisə gəldilər.

Gəlif gördülər ki, xanım şəhərin küçələrinə yazıf yapışdırıf kı, ay camahat, sizi Göyçə mahalının Qızılvəng kəndinnən gələn bir aşığın vay gününə baxmağa çağırıram. Hamı gəlif baxsın.

Xanım Aşıx Alıyı yanına çağırıf dedi ki, gəl belə bir şərt kəsək. Əyər mən səni bağlasam, boynunu vurdurajam, zindana saldırajam, dar ağacınnan asdırajam, o mənim işimdi. Və sən məni bağlasan, şərtin nə olajax?

– Xanım, birinci mənim sənin şərtinnən qorxum yoxdu. İkinci camahatdan da, sənnən də xahiş eliyirəm ki, bizi bağışdıyasınız. Biz günahkarıx. Çünki aşıx aşığın üstünə sazdı getməz.

Əsmər xanım dedi:

– Anama qurvan olasan, aşıx. Heş bir bağışdamax olmuyajax. Qavağa mən düşəjəm. Cavaf verə bilməsən, Göyçüyə nə ismarışın varsa, indidən bu yanındakına söylə.



Aldı görək Əsmər xanım nə dedi:

Bir qəriv aşıxsan düşüf güzarın,
Nahax yerə bu sınağa gəlifsən.
Neçə aşıxları salmışam bəndə,
Hamısına sən sadağa, gəlifsən.

Aşıx Alı dedi:

– Xanım gəlmişəm bir, qayıdım gedim iki. Mənim sənnən bir qəsdi-qərəzdiyim yoxdu. Boynumu vurduruf, nə qazanajaxsan? Kasıv oğlanam, qoy gedim bir təhəri başımı saxlıyım.

Xanım dedi:

– Sözə cavaf verirsən, ver. Verə bilmirsən, əmr eliyim boynunu vuruf canını, bu dünyanın əzavınnan birdəfəlik qurtarsınnar.

Aşıx Alı dedi:

– Xanım, deyəsən sənin qavağınnan qaşdıxca ayağın yaman yer alır. Sən mənim yox, heç Göyçəli bir çovanın da əlinnən saz ala bilməzsən. Arvadsan deyə səni biyavır eləmək istəmədim. İndi özünnən küs,

Aldı Aşıx Alı:

Bəyənmirsən mənim kimi aşığı,
Sənin başın dağlamağa gəlmişəm.
Sazını,sözünü, bir də özünü,
Dustax edif saxlamağa gəlmişəm.

Xanım baxdı kı, yox, deyəsən bu özünə görə döyül.

– Aşıx, indiyə qədər bəlkə də sana rəhm eliyərdim. Belə yekə-yekə danışdığına görə başınnan qavax dilini kəsdirəjəm, dilini.

Qalyan-qorçu Əsəd baxdı gördü kü, xanımın başındakı qızdar təpədən-dırnağa sarı kətan geyif. Aşıx Alı qalyan-qorçunun üzünə baxanda gördü kü, Əsəd qızdara baxıf qısır inək danası kimi yalam-yalam yalanır. Aşıx Alının ölüv-öldürməyinin ona heş bir istisi, soyuğu yoxdu.

Alı gülə-gülə Əsmər xanıma dedi:

– Xanım, vejinə alma, işində ol.

Aldı Əsmər xanım:

Sinəmdə qövr edir eşqin sovdası,
Silinsin könlünün qalmasın pası.
Yoxdu səndə aşıxdığın siması,
Nahax yerə bu meydana gəlifsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Alı dedi:
– Düz deyirsən, arvaddar kişilərə nə desə haxlıdı. Amma bu meydan arvad meydanı döyül. Qulağın aç, məni yaxşı-yaxşı dinnə:

Dağılıfdı huşun, həmi idrakın,
Əlac etsin sana loğmani-həkim.
Laf eyləyənən aç mətahın, tök yükün,
Sərraf mənəm, yoxlamağa gəlmişəm.

Qəlyan-qorçu Əsəd gördü ki, xanım livasını dəyişif elə geyinif ki, baxanda adamın huşu başınnan çıxır. Amma hiss elədi ki, xanımın qavirqotu, hindiqotu Alıya tə'sir eləmir. Zalım oğlu xanımın lap əhdini kəsif.
Əsmər xanım dedi:
– Əyə aşıx, hərzə-hərzə danışma, qulağını aç, sözümün o biri xanəsini eşit:

Əsmərəm, qəddini döndərrəm yaya,
Əlimnən gedərsən ölkənə haya.
Aşıx deyif özün çəkmə ucaya,
Nahax yerə bu meydana gəlifsən!

Alı:

Çağırram Allahı, ol Mustafanı,
Gərdişi dövranı, qadir sübhanı.
Bu Alıyı yaxşı öyrən, bil tanı,
Qollarını bağlamağa gəlmişəm.

Söz tamama yetdi. Xanım bu dəfə laf ajıxlanıf özünnən çıxdı. Gedif livasını dəyişdi, özünə yeddi rəng ziynət vuruf, başdan ayağa qənöyüz geyif geri qayıtdı.
Qalyan-qorçu Əsəd ona baxanda huşu başınnan çıxdı.
Öz-özünə dedi:
– Zalımın balası insan ha döyül, elə bil göydən enmiş huri-qılmandı. Allah Alıya insaf versin. Heş belə xanımın xətrinə dəyəllər.
Əsmər xanım Alıya bir tərs nəzər salıf aldı görək nə dedi:

Gəndi laf eliyif, aşığam deyən,
Çox sənin kimisin qal eylərəm mən.
Min zülümnən səni çəkdirrəm dara,



O əlif qəddini dal eylərəm mən.

Aşıx Alı dedi:
– Xanım, vallah sana yazığım gəlir. Gəl daşı ətəyinnən tök. Nə özünə, nə bizə gəl nahax yerə əziyyət vermə. Qoy çıxax öz yolumuznan gedək.
Xanım sevindi. Fikirrəşdi ki, yaqın sözü qurtarıf, ona görə aradan çıxmaq istiyir. Yerini bir az da bərkidif dedi:
– Hələ Əsmər xanımın əlinnən sağ-salamat qurtaran olmuyuf. İnşallah sənin də canını alajam.
Alı dedi:
– Vallaha aaz, murazını gözündə qoyajam.

Bəyənmirsən mənim kim aşığı,
Aparıf özümə mal eylərəm mən.
Vallah sallam bir tükənməz yanara,
Yandırıf-yandırıf kül eylərəm mən.

Xanım baxıf gördü ki, yox, deyəsən bu ipə-sapa yatana oxşamır. Gəlsənə, bir az da qorxudam. Bəlkə təntiyif, ağlını başınnan çıxarda bildim.
Anasının oğlu, mənim on səkkiz şəyirdim var. Neçə-neçə aşıxları saldırmışam zindana. Səni də indi onnara qatıf boynunuzu vurdurajam:

Çağır dədən, nənən yetişsin dada,
O cavan ömrünü verəjən bada.
On səkkin şəyirdim var bəylərzada,
Səni də onnara qul eylərəm mən.

Qəlyan-qorçu Əsəd baxda kı, Əsmər xanım Aşıx Alıyı şəyirddərinə qul eləmək istiyir. Ürəyində dedi:
– Aya, bu zalımın qızı noleydi məni elə özünüjə qul eliyeydi.
Qalyan-qorçu Əsmər xanım hayana gedirdisə, onun dalınnan baxırdı. Xanım o qədər xoşuna gəlmişdi ki, o yeridikcə köksünü ötürüf deyirdi:
– Allah, nur yağır, Allah!
Aldı görək Alı nə dedi:

Yaxşı-yaman hər nə desən qanıram,
Eşqin ataşına mən də yanıram.
Mən bir məhək daşam qəlbi tanıram,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səni üç qəpiklik pul eylərəm mən.

Əsmər ürəyində dedi: mən nə desəm, deyəsən bu cavavını tapajax. Gəl buna elə bir biavırçı söz de ki, camahatın qavağında utansın. Deməyə söz tafmasın.
Aldı Əsmər xanım:

Mən Əsmərəm, nahax gəlməz dilimə,
Çara olmaz haxdan gələn ölümə.
Səni minnəm üz tutaram elimə,
Arpa, samanını bol eylərəm mən.

Qalyan-qorçu Əsəd qayıtdı o tərəfdən ki...
– Xanım, minə bilsən məni də tərkinə al.
Camahat gülüşdü:
Əsmər xanım qarının üzünə baxıf dedi:
– Ay nənə, bu nətəri aşıxdı. Ağlın nə kəsir?
Qarı dedi:
– Ay qızım, imanım kirpi dərisində olsun, əyər belə aşıx görmüşəmsə?! Bu aşıx deyil. Ənzəli qamışıdı.
Aşıx Alı baxdı kı, yox, deyəsən Əsmər xanımın cilovunu çəkməyin vaxtı çatıf. Aldı Aşıx Alı:

Aşıx Alı təvəkküldü pirinə,
Sığınmışam o kərrari kərimə,
Küçükləmiş qancıx kimi hürümə,
Axşam-savah yalın bol eylərəm mən.

Mehdixan irəli yeriyif dedi:
– Xanım, camaat səndən narazıdı. Novat indi Aşıx Alınındı. İndi o qavağa düşəcək, sən cavaf verəjəksən.
Alı sazın zilini zil, bəmini bəm eliyif başdadı, nə başdadı.
Aldı görək nə dedi:

Əcəf yerdə keşdin mənim cəngimə,
Cəngimnən çıxmağa pür hünər gərək.
Maya dura bilməz nər qavağında,
Meydana girməyə nərə-nər gərək.

Saxla dilini özün üçün qadağa,



Əlimnən gedərsən arana-dağa.
Səməndər tək göydə qanad çalmağa,
Havada süzməyə balü-pər gərək.

Camalın şövqünnən dilim oldu təng,
Çayda balığ olar, dəryada ləhəng.
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıx Alı birdi, birə-bir gərək.

Aşıx Alı sözdəri deyənnən sonra camahat dedi:
– Aşıx Alı, sən də qıfılbənd də, qoy görək özünnən deyən xanım nə cavaf verir.
Alı gülə-gülə dedi:
– Arvada bağlama deyif, cavaf istəmək ölüdən kəlmeyi-şəhadət soruşmax kimi bir şeydi. İndi deyirəm. Mən deyəjəm, amma o gözünü döyəjək.
Aldı Alı görək Əsmər xanımnan nə soruşdu:

İnsi-cinni o yer, o göy yox ikən,
Hax nə əmr eylədi, yer, nədən oldu?
Pərdeyi hicavətdən bir nəzər qıldı,
O dürrün içində nur nədən oldu?

Mehdixan dedi:
– Xanım, dillən, niyə dilin kəlmə tutmur.
Əsmər xanım dili dolaşa-dolaşa dedi:
– Mehdixan sağ olsun, havanın istisi, sazın səsi mənim başıma düşüf. Qoy desin, hamısını birdən açajam.
Aşıx Alı qalyan-qorçu Əsədin üzünə baxıf gördü ki, dostu papağın dalını yaman günortalayıf. Əsədin kefi Alvızın başında cöylan vurur.
Aldı sözün o biri xanələrini:

Bir nəzər qıldı gövhər tərlədi,
Bir qətrəsi düşdü, ümman eylədi.
Xışma gəlif Cəbrayıla söylədi,
Yandırdı şahpərin, nar nədən oldu?

Aşıx Alı duva istər pirinnən,
İltifat nəzərinnən, öz qüdrətinnən.
Bir dürr xəlq eylədi qüdrət sərinnən,
O dürrün içində nur nədən oldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetdi.

Əsmər xanım cavaf verə bilmədi. Mehtixan Əsmər xanımın boyunbağısından tutuf sürüdü meydanın ortasına. Dedi:

– Aşıx Alı, bunun canı da, pulu da sana halaldı. Nə desən, o da olajax.

Aşıx Alı dedi:

– Mehdixan, qardaşım, çox sağ ol.

Mən bu xanımı bağladığıma görə aparsam, Göyçə mahalında mana nə deyəllər. Deməzdərmi, bu öz deyiklisinə qovuşmax üçün pul qazanmağa getmişdi, yoxsa deyişif arvad almağa. Yaxşısı budu, toy xərcimi versin, gedim öz istədiyimi alım, toyumu eliyim.

Əsməri buraxdılar kı, gedif pul gətisin. Bir azdan Əsmər xanım əlində iki kisə qızıl pulnan qayıdıf gəldi. Pulları Alıya verif dedi:

– Aşıx Alı, sənin kim oğula tək pulum yox, canım da qurvandı. Ürəyimi istəsən, onu da sana əsirgəmərəm. Qalyan-qorçu da qoy getsin mənim qızdarımnan pulunu alsın. Onnara tafşırmışam. Əsəd ayağınnan yeri qurdalıya-qurdalıya dedi:

– Onun özü mənim olmuyannan sonra, pulunu zəhrimara döndərrəm.

Camaat dağıldı. Mehdixan aşıxları evinə apardı. Eloğlannarının şərəfinə gözəl bir məclis düzəltdi. Yaxşıca yeyif-içif, dincəldilər. Savah tezdən xanımın qaravaşdarınnan biri gəlif dedi:

Aşıx Alı, xanım sizi çağırır.

Aşıx Alı duruf sazını da götürüf Mehdixannan halal- hümmət eliyənnən sonra Əsmər xanımın yanına gəldi. Bunnar baxıf gördülər ki, sufra, yemək-işmək öz yerində. Amma xanım bu dəfə başqa livasdaydı. Hürü də, pəri də, mələk də onu görsə utandığınnan qaçıf gizdənər, üzə çıxmazdı. Təpədən tökülən saç alaçıx çuvuğu kimi yernən gedirdi. Xanımın zülfünün yarısı sinəsinin üstünə tökülüf səhərin mehinnən dərddəşirdi. Bir az söhbətdən sonra Əsmər xanım üzünü qızdara tutuf dedi:

– Qızdar, belə qara söhbətdərdən bir şey çıxmaz, sazımı mana gətirin.

Onun sazını gətidilər. Əsmər xanım sazını sinəsinə basıf şümşad barmaxları pərdələr üstündə gəzdirməyə başdıyanda qalyan-qorçu Əsəd Aşıx Alının qulağına pıçıldadı:

– Aşıx Alı, burda alver məsələsi olsa, sənin nişannın var, bunu öz adına al, mana ver. Aylığımnan tutarsan. Gözdəri bahar buludu kimi dolmuş Əsmər xanım mə'lul-mə'lul Alının üzünə baxıf görək nə dedi:

Arifi xoş kəlam, tutiyi-imran,
Gəl al məni, mən də sənnən varalım.
Kimdi bu dünyanın axırın görən?



Gəl al məni, mən də sənnən varalım.

Aşıx Alı baxıf gördü kü, Əsmər xanımın fikri ayrıdı. Öz-özünə fikirrəşdi ki, bu nə qədər gözəl olsa da, mənim öz istəklim, öz elim, öz ovam var. Camahat mana nə deyər. Hamı dədəmin goruna söyməzmi?!

Alı öz-özünə fikirrəşdi, amma gərək elə eliyim ki, Əsmər xanımın da qəlbi mənnən qalmasın. Bu xəyalnan Aşıx Alı aldı görək nə dedi:

Sənəmlər sənəmi, gözəllər xası,
Necə deyim sən də, mənnən var alı.
Ayıfdı aləmə düşməsin səsi,
Necə deyim sən də, mənnən var alı.

Aldı görək Əsmər xanım öz dərdi-dilini nejə izhar elədi:

Aşiq oldum sənin şirin dilinə,
Dərya kamalına, gövhər, lə'linə,
Qəbul eylə məni, apar elinə,
Gəl al məni mən də sənnən varalım.

Göhər gəlif dürr mədanın tutufdu,
Yaxşıyı qaldırıf, yamanı atıfdı,
Baxtı yazan məni sana yazıfdı,
Gəl al məni, mən də sənnən varalım.

Qəlyan-qorçu Əsəd dedi:

– Aşıx Alı, daha burda nə Mehdixan var, nə də camahat. Onun sözünü yerə salma. Denən alajam. Sonra mən deyən kimi eliyərik.

Aşıx Alı dedi:

– Aya, elə danışırsan. Elə bil dünya görmüyüfsən. Özünü niyə biyavır eliyirsən? Onnan sana arvad olar. Xanzadələr, bəyzadələr ona söz deməyə cəsarət eləmir. Yuyulmamış qaşıx kimi ortuya nə düşüfsən?

Aldı görək Alı Əsmər xanıma nə dedi:

Bir xalım bəzirgan, bir xalın hajı,
Bir xalın qiymatı Urum xəracı.
O dünya, bu dünya sən mana bajı,
Necə deyim sən də mənnən var alı?

Əsmər xanım baxıf gördü kü, aşıx buna bajı deyir. Əli yerdən, göydən üzüldü. Dərinnən bir ah çəkif aldı sözün o biri xanəsini:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əsmərəm səninlə olaydım sirdaş,
Ağlaram, eynimnən gedər qannı yaş.
Sən ki, bajı dedin, sən mana qardaş,
Qardaşımsan, bu ilqarda duralım.

Aşıx Alı işin belə qurtarmasına çox sevinif, aldı görək sözünün sonuncu xanəsində nə dedi:

Aşıx Alı nə xəyala dalıfsan?
Hayva kimi, saralıfsan-solufsan.
İlqar verif bajı-qardaş olufsan,
Sona qədər bu ilqarda duralım.

Söz tamama yetdi. Əsmər xanım aşıx Alıya bir dəst bəy paltarı, dəvə yununnan başdıx, məngülə arxalıx, gümüş vəznəli çuxa, bir də bir buxara papax bağışdadı, Aşıx Alı, bu da mənnən sana bajı payı-dedi. Sonra Alıya toy nəməri bir kisə də qızıl verdi.

Görüşüf-öpüşüf, halal-hümmət eliyənnən sonra bunnar vətənə yola düşdülər. Qaylan-qorçu yaman tələsiyirdi. Tez-tez Alıya deyirdi:

– Bə sən deyirdin adna axşamı gedəjiyik, cümə günü yola düşməliyik. Yolumuzu gözdəməkdən evdəkilərin gözünün kökü saraldı.

Ərzurum dağlarının ətəyində qalyan qorçu bir də onu tələsdirəndə Alı sazı sinəsinə basıf qəmli-qəmli oxumağa başdadı.

Budu gəldi aylar sultanı Novruz,
Dolandı ruzigar, havalar keşdi.
Dəli könül gündə yüz xəyal eylər,
Balalı sərimnən sevdalar keşdi.

Başına mən dönüm, ey şahı doxtər,
Apardı ağlımı gözdəri xumar.
Tapmadım ömrümə bir münasib yar,
Neçə məleykələr, sonalar keşdi.

Alı deyər: bir qəm məni bürüdü,
Eynim yaşı sel-sel oldu, yeridi.
Cavan canım qürvət eldə çürüdü,
Neçə çərşənbələr, cumalar keşdi.



Bu sözü qurtarannan sonra onnar başdadılar getməyə. Bir az gedənnən sonra gəlif İydir şəhərinə çatdılar. Bir az da gedif çatdılar Axuranın yanına. Artıq Ağrı dağı görünürdü.

Aşıx Alıya demişdilər ki, Ağrı dağının yanınnan getmiyin. Orda yeddi zilan qaçağı var, sizi saxlayıf soyajaxlar.

Aşıx Alının sazının simi qırılmışdı. Sazını düzəltdirmək istiyirdi. Bir də baxdı kı, əli silahlı, yeddi nəfər Ağrı dağınnan enif onnara tərəf gəlir.

Aşıx Alı böyük bir daşın dalına girif sazı daşın üstünə qoyuf dedi:

– Ayə, tərpənməyin silahları qoyun yerə. Yoxsa hamınızı dənniyəjəm.

Zilan qaçaxları baxıf gördülər ki, qavaxda qəribə bir silah görünür. Doqquz nişanə götürən qaraulu var. Bunnar yalvarmağa başdadılar.

– A qardaş, vallah, biz düzgün adamlarıx, düşmannıyıx, ona görə dağlara çəkilmişik. Bizim siznən nə işimiz var?

– Ayə, sizə demirəm tökülün atdan, silahları yəhərin qaşına keçirdin!

Onnar atdan düşüf, silahları, qatarrarı yəhərin qaşına keçirtdilər.

Aşıx Alı dedi:

– Əllərinizi yuxarı qaldırın, and için!

Dedilər:

– Nəyə and içək?

– And için Ağrı dağına, peyğəmbərin bulağına, Nuhun gəmisinə. And için ki, bizim siznən heş bir işimiz olmuyajax.

Birinin civində bıçağı varıydı. Əlini salıf onu da civinnən çıxardıf yerə atdı.

Öz-özünə dedi:

– Qansız adama oxşuyur. Birdən üstümü yoxluyuf tapar. Məni vuruf öldürər.

Aşıx Alı dedi:

– Di gəlin addayın.

Bunnar əlləri yuxarıda gəlif addıyırdılar. Biri gözünün qulağınnan baxanda gördü kü, aya, silah-zad nədi. Bunun əlindəki sazıymış. Bir göz qırpımında aldılar aşıx Alının başının üstünü.

– Aşıx, and içmişik ki, səni öldürməyəjəyik. Ağrı dağında nə nişangah varsa, hamısını deyəjəksən. Yoxsa, sənin qaşoyluğunu bu qamçıya verəjəm.

Aşıx Alı dedi:

– İcazə verin deyim.

Aldı görək aşıx Alı nə dedi:

Alçaxdan ucuya çəkilif başın,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağların sərdarı nər, Ağrı dağı.
Payızın, baharın olar zimistan,
Sənnən əysik olmaz qar, Ağrı dağı.

Dedi:

– Aşıx, Ağrı dağının nə nişanəsi var biz bilirik. Düz deməsən, səninkini sana verəjəyik.

Xan atdanar, xan yerinə xan düşər,
Leşgər vurar, mahallara qan düşər.
Hər dağdan irəli sana gün düşər,
Hər zaman açılsa dan, Ağrı dağı.

Qaçaxlar bir ağızdan dilləndilər:

– Aşıx Alı, sağ ol. O biri nişannarı da düz desən, nəmərin bizdə.

Alı alıf sözün o biri xanələrində görək nə dedi:

Səkkiz rizvandı, cənnəti bağı,
Neçə qapısı var, neçə otağı.
Nuh gəmisi, peyğəmbərin bulağı,
Çox nişana səndə var, Ağrı dağı.

Aşıq Alı insanata sirridi,
Tozun qalxıf İrəvanı bürüdü,
Axşam üstü bir tərəfin yeridi,
Batırdın Axuranı pir Ağrı dağı.

Söz qaçaxların çox xoşuna gəldi. Yeddi nəfəriydilər. hərəsi bir onnux qızıl da bunnar verdi.

Aşıx Alıynan qalyan-qoçu Əsəd xeyli gedənnən sonra sağ-salamat gəlif Şərur torpaxlarına çatdılar. Alıynan qalyan-qorçu Əsədin ayrılmax məqamı yetişdi. Görüşüf, öpüşüf, halallaşannan sonra Aşıx Alı çıxardıf Əsədin pullarını verdi. Hələ otuz manat da üstünə qoydu. Baxdı Əsəd ayağınnan yer qurdalıyır. Alı dedi:

– Əsəd, noluf, niyə yer eşəliyirsən?

– Aşıx Alı, mana az verdin.

– Niyə danışdığımız yadınnan çıxıfmı?

– Yox, yadımdadı. Amma, mən çox çətinniklər çəkdim sənin yolunda. Sən də ki, yüz aşığın pulunu qazandın.



Aşıx Alı çıxarıf ona otuz manat gənə verdi. Sonra halal-hümət eliyif ayrıldılar. Aşıx Alı gejəni gündüzə qatıf özünü kənddərinə çatdırdı. Gejə yarısı qapılarını döydü. Tez dədəsi qapının dalına gəlif soruşdu:

– Səsinə qurvan olum, Alı, sənsənmi?

– Ay dədə, mənəm.

Allah heç kəsi kasıf eləməsin. Bir ağac qırığı yoxuyudu ku, qapının dalına söykүyüf yatalar. Mirzə kişi qapının dalına daş yığmışdı. Daşdarı bir-bir götürüf qırağa qoyur. Qoyduxca danışırdı:

– Alı, mən bir şey düzəldəmmədim. Ölmüş anan da bir şey düzəldəmmədi.

Aşıx Alı dedi:

– Ay dədə, qorxma, yaxşı gəlmişəm.

Mirzə kişi qapıyı açdı. Aşıx Alıyı bağrına basdı. Mirzə kişi dedi:

– Öyü xaravın qızı, Alı gəldi.

Anası yetirif oğlunu ayaxdan başa duz kimi yaladı.

– Anan ölsün. Anan öləydi, səni görmüyəydi. Bəsdi xanımı ayrı adama veriflər. Bu saat toy çalınır.

Mirzə kişi hirsdi adamıydı, amma adam döyməknən işi yoxuydu. Arvadın üstünə qışğırılıf dedi:

– A gijvəsər qızı, gijvəsər. Cahaldı, ona niyə elə xəvər verdin?!

Savah açılhaaçılıydı. Anası tez çay qaynadıf onun qavağına qoyuf, dedi:

– Anan ölsün, bir istəkan çay iç.

Aşıx Alı bir istəkan çay içənnən sonra baxıf gördü kü, dədəsi böyründə hərrənir. Alı dədəsinin üzünə baxanda İmirzə kişi soruşdu:

– Alı, a bala, nətəri gəldin?

– Ay dədə, yaxşı gəlmişəm. Üç kisə qızıl gətirişəm.

Dan yeri ağardı.

Cammat mal qoyunu naxıra qatan vaxtı İmirzə kişiyə dedi:

– Ay dədə, mən Çamırrıya Bəsti xanımın toyuna getmək istiyirəm, nə deyirsən?

– A bala, o toyda on yeddi cahal əli tüfəngli dayanıf, deyillər toya kim duz qatsa, onu vurajaxlar.

– Yox, dədə, ölsəm də gedəjəm.

Aşıx Alı sazını götürüf Çamırrıya, toy evinə yollandı. Camaata şüd düşdü kü, aşıx Alı gəldi. Hamı elə bilirdi ki, aşıx Alı ölüf. Ona görə də Bəsti xanımı başqasına verillər. Aşıx Alı məclisə girəndə hamı məəttəl qaldı.

– Aşıx Alı, sazını çıxart, bir oxu.

Aşıx Alı sazı çıxartmaxda olsun, sizə kimnən xəvər verim, İmirzə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kişidən.

İmirzə kişi arvadına dedi:

– Arvad, o farmaşın qoynundakı xənçəli çıxart mana gəti.

– A kişi, neynirsən onu?

– Gədənin dalıncax gedirəm, tez ol!

– Ayə, sən bu xənçəlnən nağayrajaxsan?

– Əşşi, sənin işin döyül. Yüz gün yarax, bir gün gərək.

İmirzə kişi harda ətmi doğramışdı, köşəmi çəkmişdi, ya gönmü sıyırmışdı, bilmirəm elə qannı-qannı xəncəli qınına qoymuşdu. Xəncəlin yarıya qədər qındaydı, yarıya qədəri də çöldə. Nə qınına otururdu, nə də çıxırdı. Mirzə kişi bunu kürkün altınnan belinə bağlayıb getdi həmin toy məclisinə. Gördü kü, on yeddi cahal əlində tüfəng dayanıf. Mirzə də bir tərəfdə dayandı. Əli də kürkün altındakı xançalın dəstində. Camahat dedi:

– Aşıx Alı, oxu.

Aldı görək aşıx Alı nə dedi:

Günahkaram, yar yanında,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu.

Bəsti xanım aşıx Alının səsini eşitdi. Üzünnən ürbəndini azajıx araladı. Gördü kü, aşıx Alı qəmli-qəmli oxuyur. Aşıx Alı da baxdı kı, Bəsti xanım ağlıyır. Öz-özünə dedi:

Ayə, bu bizim kənddi filankəs kimi gözündən mayıf olajax.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə.
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Bəsti xanım baxıf gördü kü, söznən onu başa salır kı, gedifsən get, günahkar mənəm.

Bəsti bu töhmətə dözmədi, oğlanın bajısını yanına çağırıf dedi:

– Ala, qardaşının üzüyünü.

– Aaz, toya qan salarsan, aaz nə danışırsan?

– Cəhənnəmə qan düşsün. Mən elə bilirdim ki, aşıx Alı ölüf. İndi ki, aşıx Alı sağdı, getmiyəjəm.

Bir azdan xəvər yayıldı kı, deməzsənmi Bəsti xanım aşıx Alı gəlif



deyən üzüyü geri qaytarıf, toyu pozmax istiyir.

Aşıx Alı isə oxuyurdu:

Aşıx Alı, sana qurvan,
Gəl eyləmə bağrımı qan.
İtkin düşdü tülək-tərlan,
Sar da, kəklik alan oldu.

İmirzə kişi baxıf gördü kü, oğlanın atası adamlarına deyir ki, aşıx Alıyı da vurun, dədəsini də. Yazıx Mirzə kişi aşıx Alının arxasınnan hərrənirdi ki, qoy atılan güllə qavaxca mana dəysin. Kürk qalındı bəlkə saxlıya. Bala dediyin bağır ətidi. Allah heş kimi tək eləməsin. Bir azdan ara qarışdı, məssəf itdi. Camahat iki tiriyə bölündü: kimi aşıx Alıya hax qazandırdı, kimi də toy yiyəsinə.

Aşıx Alı baxıf gördü kü, bunnarın sözünü az adam deyir. Amma camahatın bə’zisi annadı ki, İmirzə kişidə silah var. Nədisə kürkün altındadı. Əlini atıf çıxartmax istiyir. Dodaxaltı da, deyir ki, çoxdan çox öləjək, azdan az. Bu yerdə görək aldı Aşıx Alı nə dedi:

Beyvəfa dost məni cannan elədi,
Tutufdu dəstində ayaq almasın.
Girdim dostun baxçasını seyr etdim,
Görmədim bağında ayaq almasın.

Camahatın hamısı aşıx Alıya baxıf hayfısdandı. Ayə, Allah eliyəydi toya qan düşmüyəydi.

Katıvısan oxu dərsin hər aya,
Bayram ayı demək olmaz hər aya.
Şahlar şahı özün yetiş haraya,
Düşman bu günümdə ayaq almasın.

İmirzə kişi elə fikirrəşdi ki, aşıx Alı təkdi deyən özünə kömək istiyir. Əli xancalın dəstəsində köyrəldi. Dedi:

– Ayə, a bala, sənin üstünə əyax alan kimdi?

Aldı görək aşıx Alı nə dedi:

Deyər aşıx Alı yara bağlıya,
Kamil təbib gərək yara bağlıya.
Yar ixlasın özgə yara bağlıya,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həftə tamam oluf, aya qalmasın.

Niftalı irəli yeriyif dedi:
– A camahat, mənnən küsmüyün. Mən qızımı Xudaverdinin oğluna vermirəm.
Camahat dedi:
– Niyə, a Niftalı?
– Ona görə ki, Aşıx Alı haqq aşığıdı. Mənim qızıma qarğadı. Gözümün ağı-qarası bir uşağım var. Niyə getsin bədbaxt olsun.
Camahatın yarısı ayağa qalxdı.
– A Niftalı, onda qızı Aşıx Alıya verək.
Bir neçə ağsaqqal yerinnən qalxıf dedi:
– Düz deyir, qavaxdan Niftalı qızın "hə"sini Aşıx Alıya verif, qız ona deyiklidi.
Aldı görək aşıx Alı indi nə oxudu:

Uçufdu könlümün qəlbi hasarı,
Bir sütun vurdunuz damı dayansın.
Hər kim dostdan dosta yaman qandırsa,
Qıyamat oduna damı da yansın.

Camahat baxıf gördü, kim ki, aşıx Alının sözünü demir, haqq aşığı onu qarğıyır. Dedilər:
– Xudaverdidən ötrü damımızı niyə başımıza uçurdurux? Niyə qarğış yiyəsi olurux?
Alı isə oxuyurdu:

Dedim: əğyar özü nədi, sözü nə?
Baxgınan qaşına, ala gözünə,
Axirətdə bir öy tiksə özünə,
Uçmasın başına, damı dayansın.

Camaat baxıf gördü kü, Aşıx Alı açıx-aşkar deyir:
– Kim ki, mərdimazardı, qoy onun evi başına uşsun.

Deyər aşıx Alı acar ovluya,
Zambur şirə çəkə acar ovluya.
Hər kim dostun qoyuf acar ovluya,
Od vur qapısına damı da yansın.



Söz tamama yetən kimi Çamırrının ağsaqqalı ayağa qalxıf dedi:
– Ay camahat, heş kim səs-küy salmasın. Ay İmirzə, irəli gəl Xudaverdi nə verifsə, o başdığı sən ver Niftalıya.
Aşıx Alı sazını götürüf evlərinə qayıtdı.
İmirzə irəli yeriyif dedi:
– A Xudaverdi, nə verifsən?
Dedi:
– Yüz manat qızıl pul. Bir həftə də bu camahatın yeyif-içdiyinin hamısını.
İmirzə onun nə təmənnası vardı, hamısını ödədi. İrəli yeriyif Niftalının əlinnən tutdu.
– A Niftalı, "hə" alanda pulum olmadı. Bu iki onnux sənin "hə" demən. Üç yüz manat qızıl pul başdıx istəmişdin. Ala bu da sənin başdığın.
Xudaverdiyə dedi:
– Di zurnaçılarını götür get.
Camahat dedi:
– Ayə, zurnaçı neyliyir sana. Qoy çalsınnar.
İmirzə dedi:
– Yox, mana ürəkdən çalan zurnaçı lazımdı. Çaxırrıdan Balay Söyünü gətirəjəm. Camaat razılaşıf Bəsti xanımı Alıya verdi.
O vaxtdar gəlin atnan gəlirdi. İmirzə kişinin bir atı varıydı. Bir-neçə atı da Mustafa göndərdi ki, gəlinin qavağında at oynatsınnar. Gəlini ata mindirdilər. İmirzə kişi bir əlinnən atın yüyəninnən, o biri əlinnən də üzəngisinnən tutuf, başınnan arvadı yanına çağırdı:
– A ölü qızı, ölü, gəlif gəlinin qavağında oynasana!
Gəlin qapıya çatdı. Camahat axışıf gəldi. Elə gözəl bir toy keçirdilər ki, daa nə deyim? Xudavəndi aləm hamıya oğul toyu, qız toyu qismət eləsin.
Aşıxlar toyun sonunda bəy tə’rifi söylüyər, sonra da bir duvaqqapmaynan məclisi başa çatdırallar. Biz də bu söhbətimizi beləcə başa çatdırax:

Təzə bir gözəl çıxıfdı,
Dağlar maralı, Gülpəri.
Hər kəsə qarşı gəlsə,
Yandırar narı, Gülpəri.
Camalınnan haya edir,
Dağların qarı, Gülpəri,
And verirəm öz baxtına,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pozma ilqarı Gülpəri.

Gülpəri, nə Gülpəri,
Bənzər cənnət almasına.
Ay, gün görsə haya edir,
Keçər bulud daldasına.
Eşidənnər heyran qalır,
Bu gözəlin sədasına.
Nə ola qədəm basasan,
Bir bizə sarı, Gülpəri.

Hər kim belə gözəl alsa,
Baxtafar onun başına.
Yüz yaşında qoja olsa,
Enər on səkkiz yaşına.
Görənnər heyran qalıfdı,
Onun süzgün baxışına.
Cəllad kimi aman vermir,
Qurudur darı, Gülpəri.

Aşıx Hajı, qurvan eylə,
Canını belə ceyrana.
Çoxlarını dəli edif,
Salıf çöllü-biyavana.
Hər kim belə gözəl alsa,
Zəhmət versin şirin cana,
Səyyat tor qursa tərlana,
Ovlar şikarı, Gülpəri.



## AŞIQ ƏLƏSGƏRİN QARAQOYUNLU SƏFƏRİ

Qaraqoyunnu Mikayıl Alı oğlu yayın oğlan çağında tezdən Göyçə gölünün qırağında olan Toxulca kəndinnən atdanan Qaraqoyunnuya qayıdırmış. Toxlucanın yalındakı Meydan düzünə çatanda görür kü, yoldan xeyli aralı çəmənnikdə daşın üstündə bir nəfər əyləşif dincəlir. Yaxınnaşıf atdan düşür, salam verif, əleyk alır. Görür kü, bu, qəddi-qamətdi, göydəli, amma yaşı ötmüş kişinin yanında saz da var. Aşıx ixtiyarraşsa da, Mikayıla tanış gəlir. Hərənin könnündən bir tarix keçir. Keçən günnəri varaxlıyıf bu günə qayıdıllar.

Aşıx, Mikayıldan soruşur:

– Oğul, Göyçədənsənmi? Hara belə, uğur ola?

– Əmi, Qaraqoyunnudanam. Toxulucadan gəlirəm.

Aşıx ürəyində: "Yaxşı oldu, təklik də bir şey döy, hayan oluf gedərik..."

– Oğul, mən də elə Toxlucadan gəlirəm, yoruldum, qojalıx da bir zad döy. Əyləş dincəl. Mənim də səfərim Qaraqoyunnuyadı. Ama çoxdan yolum bu Meydan düzünə düşmür. Bu yeri könlüm çox istiyir. Murazım vardı. Bura manşır yerdi. Yaxşı oldu, gəldin. Sən də bilsən yaxşıdı... Bax o geniş düzəngahı görürsən. Gör, nejə çəmənzardı. Odu, Şah dağınnan gələn bulax suyu iki yerə bölünür. Yarısı Göyçüyə doğru axıf gedir, yarısı da sola buruluf Qaraqoyunnu dərəsinə tərəf axır. Elə Şah dağı da bax burda qurtarır. Odu, Çəmbərəyin qavağınnan qısır Murğuz başdıyır. Bə burya niyə Şah dağı deyillər, bilirsənmi?... Oğul, Şeyx oğlu Şah İsmayıl buraları tutanda bax burda ordugah qurub, məskən salıv. O zaman Göyçə mahalında Sarıyaquf kəndində çox sayılmış Miskin Abdal addı bir aşıx oluf. Miskin Abdalın nəsli ojax oluv. Qapısına ziyarətə gəlirmişlər, ora mənim də yolum düşüv. Ojağa, Miskin Abdalın ağlına, kamalına hamı hörmət edif. Şah İsmayıl Abdalı yanına çağırıf sözünü dinniyif, ona hörmət eliyif. Miskin Abdalın aşıxlığına fərman verif. Həm də Göyçə camaatına üz tutuf deyif ki, ey Göyçə camaatı, Miskin ojağına hörmət edin, Miskin Abdala inanın.

Fərman Miskin Abdalın adını-sanını daha da artırır. Göyçədə ona çox hörmət eliyillər. Miskin ojağına gedif- gələnlərin sayı daha da artır. İndi də bu ojağı ziyarətgah kimi qoruyuf saxlıyıllar... Bax, burda Miskin Abdal Şahın adına Şah Xətayı havası bağlıyır, bir də üzünü dağlara tutur.

Qoja aşıx əhvalatı danışa-danışa sazı köynəkdən çıxarır, sahmannıyıf çalmağa başdıyır.

– Bax, bu "Dağlar"ı Miskin Abdal Şaha qonağ olanda üzünü Şah



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dağına tutuf deyir:

Məğribdən Məşriqə səf çəkib duruf,
Qüdrətdən çəkifdi baş-başa dağlar.
Qoynunda mehmandı şahi-mərdanım,
Yanaşı qarıyın siz qoşa, dağlar.

O zaman Şah İsmayılın Zülfüqarı Məğribdən Məşriqə işdiyirdi.

Ağ çeşmən sərindən car eylər seli,
Yaşıl tirmə geyər, qurşanar beli.
Dağıstan kölgəsi, zabitə yeli,
Sərin səfalıdı həmişə dağlar.

O zaman Şah Miskin Abdalı Dağıstana buyruğa göndərmişdi. Orda Miskin Abdalın başına çox işlər gəlif. Bu ayrı bir söhbətdi. Ona görə Dağıstanı yada salır.

Nəs illərdən satın aldın nəs günü,
Çağırdın dumanı, tökdün çiskini,
Gözü yaşdı qoydun cüda Miskini
Elə gülə-gülə tamaşa, dağlar.

Aşıx Miskin Abdalın sözünü qurtarıf çox kədərrənir. Baharın bu gözəl çağında Aşığın üzünə duman çökür. Aşığın əhvalının çox pozulduğunu görən Mikayıl ürəklənif deyir:

– Ay usta, nooldu sana, niyə belə hala düşdün?

Bulud kimi dolan aşıx haçandan-haçana dillənir:

– Oğul, kaş Şah İsmayıl indi sağ oleydi. Yəəsizdik, başsızdıx belədi. Gavır İrannan, Turannan gəldi doldu torpağımıza, Ərəseydən də duxavor, malağan gəldi. Odu, bax bir yanı Gədəbəy, bir yanı Çəmbərək-gavır doluf. Qaraqoyunnu dərəsinnən Göyçənin arasına. O tərəfdən də Dilican dərəsinə. Bu yannan Şəmşəddin mahalı gavır tafdağına çevrilif. Erməni arannan bizim aramıza girdi. İngilisdən silah aldı. Göyçüyü də, Qaraqoyunnuyu da topa tutdu, qırdı, qanı axı bax bu Göyçə dənizinə töküldü. Əl-ayağı tutan, başaran Osmannıya addadı, başarmayan da Kəlbəcərə, Gədəbəyə pənah apardı. Başsızdıx belədi, ay oğul. Hökumətimiz olsaydı ordu düzəldər, silah alar, milləti qoruyardı. Mən onunçun bax burda ordugah quran o cavan şahı arzuladım. Tarixdə az-az adam elə qoçax oluv.

Aşıq sazı kökləyə-kökləyə üzünü "Şah dağı"na tutdu:



Aləmdə dastan olub
Səddin, sorağın, Şah dağı!
Açılıb nərgiz, bənövşən,
Əcəbdi çağın, Şah dağı!
Abi-kövsər kimi axır
Çeşmən, bulağın, Şah dağı!
Hayıf olan, bu çeşmədə
Yoxdu sorağın, Şah dağı!
Müxənnət yaylar köysündə,
Pozar damağın, Şah dağı!

Haqq səni cənnət yaradıf,
Qanan yoxdu, qədrin bilə;
Sədrin badi-səfasından
Xəstə könlüm gəldi dilə;
Mürğtək balü-pər açdım,
Oxudum döndüm bülbülə;
Bir gözəl keçdi qarşıdan
Gözlərindən gülə-gülə;
Dağıtdı ömrüm qəfləsin,
Nə çoxdu yağın, Şah dağı.

Bir tərəfin Çənbərəkdi.
Görənin həvəsi gəlir;
Topaşanda qəflə işlər,
Gəncənin meyvəsi gəlir;
İstanbulun al qumaşı,
Bağdadın xurması gəlir;
Oxuyur türfə gözəllər,
Kəkliktək sədası gəlir;
Aşıq üçün cənnət qoxur,
Daşın, torpağın, Şah dağı!

Xudam səni xoş yaradıb,
Hər kim görsə, xoşlayacaq;
Yay gözəl sehrangahısan,
Qışda maral qışlayacaq;
Yazıq Ələsgər yolunda
Başu can bağışlayacaq;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq səndən incik gedir,
Ərzi-giley başlayacaq;
Özünə də mə’lum olsun,
Küsüb qonağın, Şah dağı!

Aşıq Şah dağına dediyi sözü qurtardı. Sazı kənara qoydu. Tənbəki kisəsini çıxartdı. Qəlyanı kisənin içərisində gəzdirdi, baş barmağınnan tənbəkini bastaladı. Çuvuğu damağına sıxdı. Sonra kisədən qovu daşdarını çıxarıf üst-üstə tutdu, çaxmağı çaldı, qov tüstüləndi, götürüb qəlyanını ağzına qoydu, çuvuğu sordu. Gözünnən bir də dağları dönə-dönə süzdü, köksünü ötürdü. Meydan düzünnən Çənbərək yaylaxları da, Murğuz dağı da, ətrafda neçə dağ, neçə gədik cərgə-cərgə dururdu. Aşıx qaşını çatıf qəlyanı yana qoydu, təzədən sazı sinəsinə basdı:

Bir ay yarım nobahardan keçəndə,
Car olur köysündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəmzəm zümzüməli göllərin, dağlar!

Hanı mən gördüyüm qurğu büsatlar?!
Dərdi-məndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?!

Nejə oldu köysündə yaylayan ellər,
Görəndə gözümdə car oldu illər,
Yığılmır üstünə türfə gözəllər,
Sancılmır buxağa güllərin, dağlar.

Hanı mərd iyidlər, boş qalıb yurdu?!
Səxavətdə Eldar nurə’lanurdu;
Erkək kəsib, ağır məclis qururdu,
Şülən çəkilirdi malların, dağlar!
Gözəllər çeşməndən götürmür abı,
Dad vermir dəhanda kövsər şərabı.
Düşdü xaçpərəstlə pund inqilabı,
Onunçün bağlandı yolların, dağlar.

Sarınərdən top-tüfəngin atıldı,
Muroy, Murğuz Şah dağına çatıldı.



Bir əmliyin bir tümənə satıldı,
Xəzəl oldu yenə pulların, dağlar!

Kəpəz, Murov, Qonur bir neçə dağ var,
Üstünə nur yağsın ay dəli Qoşqar!
Yayın ortasında yağdırırsan qar,
Səf çəkmir üstündə sərdarın, dağlar!

Elə ki, şər gəldi, qaraltdı qaşı,
Dumana qərq oldu dağların başı.
Düşəndə qüurd ilə ilə kəlbin savaşı,
Uzun çəkir qilu qalların, dağlar!

Halıyam ellərin mən naləsindən,
Yatmırdılar bir-birinin bəhsindən,
İyid nə’rəsindən, güllə səsindən
Dəyməmiş tökülür kalların, dağlar!

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgər tək qulların, dağlar!

Aşıq sözünü qurtardı. Elə bil dolan bulud boşaldı. Mikayıl bir səmtə çəkilif aşığın haldan-hala düşdüyünə altdan-altdan tamaşa eliyirdi. Cıqqırını da çıxartmırdı. Təzədən qəlyanı damağına aparan aşıx dedi:

– Oğul, bavat sözü aşıq xəlvətə çəkilif deyir. Mərəkə arasında fikir dolaşır. Mən də elə oxuduxlarımı ovadan-ovaya gedəndə, dincələndə fikrimi cəmləşdirif demişəm...

Oğul, Miskin Abdalın əhvalatı uzundu. Dağıstanda da, Göyçədə də, İranda da çox bəlalar çəkif, çox dəyanətti, ağıllı, kamallı adam oluf. Hə... bir az yüngülləşdim. İndi gedə bilərik.

Aşıq "Ya Allah"- deyif ayağa qalxdı. Balaca həyvəsini çiyninə atdı. Sazı ələ aldı. Burdan enif dağın ətəyinə düşdülər... Bura Dəmirri damı deyəllər.

Mikayıl dedi:

– Ay ustad, indi atı min, bəəxki söhbətinin dalını yavaş-yavaş danış. Gedək.

Aşıx "sağ ol, oğul" – deyif atı mindi, yola düşdülər. Aşıx ürəyində də oğlana minnətdarrıx elədi. Nə fikirrəşdisə, dönüf oğlannan soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, heş soruşmadım, Qaraqoyunnu gərək ki, on-on iki kənddi.
– Usta, düz deyirsən, elə irili-xırdalı on iki kənddi.
– Sən hansı kənddənsən, oğul?
– Bizim kənd Əmirxeyirdi. Burdan birinci ovadı. Bir az da aralı Bəryavaddı. İkisi bir kənd sayılır. Hamısı bir-birinə yaxındı. Bax, o görünən dağ Cantəpədi. Onun ətəyində Əmirxeyirdi.
– Ay oğul, orda Mələk adında bir gəlin var. Hajı Alı qızı deyəllər. O nejədi? Mikayıl söhbəti zarafata döndərif dedi:
– Aşıx, kənddə bir kişi tapmadınmı soruşasan?
Söz aşığı bərk tutdu. Atı saxlıyıf düşdü.
– Bala, mərdimazarı axtarmaxnan ha döy. Özü ayağınnan gəlif səni tapır. Mən daha gedəsi olmadım. Ama, ürəyimə bir qatar söz gəldi, onu deyim, sonra ayrılax.
Aşıx sazı çıxardıf köksünə sıxdı:

Könlümün şişəsi saqın ki, sınar,
Toxunarsa ayna daşa, dayanmaz.
Əl dəyməmiş yaralarım sızıldar,
Vursan sinə üstə maşa, dayanmaz.

Xəstə könül istər narı görəndə,
Ya dost dostu, ya yar yarı görəndə.
Bülbül gül üstündə xarı görəndə,
Qan ağlar, ruxsarı yaşa, dayanmaz.

Ələsgər də nazlı yara qul ola,
Yanıb cismi ataşına gül ola,
Canı çıxar dərd ürəkdə bol ola
Qəm qalxıb başından aşa, dayanmaz.

Mikayıl yenə zarafatınnan qalmır. Aşığa deyir:
– Ay bava, indiyə kimi sən danışdın, mən də qulağ asdım. Bu azca vaxt sənnən çox şey öyrəndim. Çox sağ ol, Ələsgər bava, nəmərini kənddə verəjəm. Qaldı Mələyə, Mələk mənim doğma mamamdı (Qaraqoyunnuda atanın bajısına mama deyillər). Mən, soruşduğun Hajı Alının oğluyam, adım da Mikayıldı. Mamam Mələk həmişə toylarda sənin oxumağınnan danışır. Mamam qojalıf, dərd qəddini əyif. Səni Mələyin yanına aparajam.
Mikayıl "atı min" deyif üzəngiyi basdı.
– Ay qırışmal, bə bəəxdən niyə demirsən? Böyük oğlan olufsan. Mən sizdə olanda sən uşağıydın.



– Ələsgər bava, sən soruşmadın, mən də demədim.
Ələsgər dinməz-söyləməz atın belinə qalxdı. Yola düşdülər.
Ələsgər niyə Mələyi soruşurdu?
Mələk Qaraqoyunnudan Göyçüyə gəlin getmişdi. Ələsgərin dostunun oğluna. Toylarını da Ələsgər eləmişdi. Addı-sannı bir ailənin gəliniydi. Mələk, doğrudan da, göydən enmiş mələyə bənziyirdi. Göyçədə ərə getdiyi ovada qəddi-qaməti, şux geyimi, ağlı-kamalıynan seçilirdi... Qızıl üstə ilin qıvrılıf yatan kimi Mələyin də xoşbəxt yuvasının damında elə bil, zəhərri ilan qəsdə durufmuş... Mələyin bir övladı olmadı. Bunu ərə getdiyi ev özünə dərd eləmədi. Pund davası düşdü. Göyçədə dağılan tifaqın biri də Mələyin isti yuvası oldu. Kafirrər Mələyin ərini öldürdülər, qaynatası Hajı Məhəmməd birtəhər Mələyi aradan çıxartdı. Qaraqoyunnuya, atası evinə göndərdi. Özü də bu dərdə dözmədi, ürəyi partdadı.
Ələsgər Hajı Məhəmmədnən yaxın dostuydu. Öyündə neçə yol çörək kəsmişdi. Mələyə də öz gəlini kimi çox hörmətnən yanaşırdı. Qoşduğu tə’rifnamədə də onun bir el gözəli kimi mə’rifətini vəsf eləmişdi. Ələsgər bu dağılan xanimanın uçuf gedən Mələyini beş-altı ildi görmürdü... İstiyirdi dönüf kefini-halını soruşsun...
Mikayıl dedi:
– Ay bava, daa sən mənim qonağımsan. İstiyirəm əvvəlcə yolüstü Pirqulunun yaylağına dönək, burda yaxındadı.
– Yaxşı olar, a bala, maa Pirqulunun qardaşı Ocaxqulu ismarış yolluyuf. Onun xeyir işi var. Dönək deyirsən, dönək.
Mikayıl Aşıx Ələsgəri Cantəpənin ətəyinə, Pirqulunun yatağına gətirdi. Pirqulu Ələsgəri görəndə əvvəl gözünə inanmadı, dinməz-söyləməz yaxınnaşıf qucaxladı. "Xoş gəldin" – dedi. Sonra dönüb Mikayıla:
– Ə... Mikayıl, sən nə yaxşı iş gördün... Bax, nəmərin məndə, gedəndə atın tərkinə bir erkək bağlıyarsan. İndi durma, əl-əyax elə, vaxtında gəlifsiniz. Sürü elə təzə gəlif günorta sağınına. Pirqulu Ələsgərin ayağının altında erkək kəsdi. Çovannar əl-ayağa düşdülər. Ocax çatıldı. Qazan asıldı. Çovan bozartması, kavaf... Ələsgər dedi:
– Ay Pirqulu, kavaf yeyən vaxtım getdi. Doxsanı ötmüşəm. Bozartmayı həll bişir, dişdərim laxlayıf.
– Ay Pirqulu, bax, o zirvənin adı nədir?
– Ələsgər əmi, ora Sarıbulax dağının tacıdı. Adına Çalmalı deyillər.
– Əyə, ona bax, yaratdığına şükür, İlahi! Elə bil, başı duvaxlı gəlindi. Ətəyində qatır-qatır qayalar belinin kəməri, meşələr də ətəyinin qırçınnarıdı. Ay bala, sizin dağların bəzəyi ayrı cürdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ələsgər əmi, qaçaxları bax o meşələr saxlıyır. Bax o Sarıbulağın ətəyindəki sal qayalığa Kərəm qayası deyillər. Rus qazaxları imkan vermədi. Yığışıf İrana getdi. Qara Tanrıverdi, Qandal Nağı, qardaşı Nəvi hələ də bu dağlardadı. Arada dəli Alı da görünür... Ay Mikayıl, oğul, sazın gəti, uşaxlara bir ağız oxuyax, ertəykən yola düşək.

Ələsgər dönüf uşaxlara dedi:

– Ay balalar, büyün mənimki dağlarnandı. Heç fikrimnən ayrılmır.

Ələsgər sazı köksünə basdı:

Bahar fəsli, yaz ayları gələndə,
Süsənni, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birinnən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, aləzar olur,
Çeşməsinnən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Ələsgər dağların tə’rifini deyif qurtardı. Ama, Cantəpənin ətəyi, Pirqulunun yaylağı Ələsgəri ovsunnamışdı. Yaylağın hansı tərəfinə baxırdı: dağ, meşə, bulaxlar, çəmənnik. Dönüf Pirquluya dedi:

– Oğul, buralar məni laf heyran eliyif, öz yaylaxlarımız yadıma düşdü. İndi qulaq as. (Paşa köşdü havasında)

Gözəllər seyrangahısan,
Görüm səni var ol, yaylaq.
Açılsın gülün, nərgizin,
Təzə, murğuzar ol, yaylaq.

Gözüm qaldı siyah teldə
Bülbül öldü, meyli güldə,
Kimsəm yoxdu qürbət eldə
Sən mənə qəmxar ol, yaylaq.

Mən səni görənnən bəri,
Sinəm oldu qəm dəftəri,
Yazıq Aşıq Ələsgəri
Öldür, günahkar ol, yaylaq.



Çovanlar Ələsgərə dönə-dönə "sağ ol" – dedilər. Ələsgər sazı köynəkliyif Pirquluynan, uşaxlarnan görüşüf, sağollaşdı. Pirqulu Ələsgəri yola salıf dedi:

– Ələsgər əmi, siz gedin kəndə. Mən də əttik gətirim gəlim. Mikayıl Ələsgəri gətirdi kəndə, Mələyin yanına. Mələk Ələsgəri görəndə əvvəl-əvvəl özünü itirdi. Belə bir görüş gözdəmirdi. Özünü ələ alıf kövrələ-kövrələ dedi:

– Xoş gəlifsən, ay mənim Ələsgər əmim, bə əmi də gəlinini beləmi axtarar? – deyif, Ələsgərə sığındı. Ələsgər Mələyi balası kimi bağrına basdı, saşdarını sığallıyıf öfdü. Beləcə kirpiklərini bir-neçə dəfə sıxdılar, dəsmal çıxardıf sildilər. Mələk dedi:

– Di, keş, rahatdan. Mən də çay-çörək hazırrıyım.

– Qızım, Pirqulunun yatağında doyunca çörək yemişik. Eləjə çay içəjəm.

Mikayıl zarafata saldı:

– Ələsgər əmi, bu da Mələk mamam.

– Ay Mələk, sənin bu qardaşın oğlu yolda mana yaman sataşdı. Ama mərd oğlandı, günahınnan keşdim.

Mikayıl:

– Ələsgər bava, Meydan dağında mən sənə nəmər söz vermişdim. Bax, indi də sən mana nəmər borşdusan. Mamamnan səni görüşdürdüm.

– Oğul, deyəsən borc-borcu ödədi...

Ələsgər çay içif dincəldi. Axşam Asdanalıoğlu Ocaxqulu gəldi, Ələsgərnən görüşdü. "Xoş gəldin" elədi, dedi:

– Ələsgər əmi, ismarışım sana çatdımı?

– Çatdı, oğul, yol uzaxdı. Mən də ki, görürsən, zamana bir yannan, yaş bir yannan qəddimi əyif. Punt davasınnan bəri Qaraqoyunnuya gələ bilmirdim. Ama, büyün hamısının əvəzini çıxdım. Gedək, xeyir işimizə başddıyax.

– Gedək, Ələsgər əmi, qonşu kənddərə adam göndərmişdim. Demişdim ki, xeyir işə Ələsgər də gələjək. Sənin adını eşidən kimi tökülüşüf gəliflər. Gözdüyüllər.

Ocaxqulu Ələsgəri böyük oğlu Alının kiçik toyuna ismarramışdı. Ələsgər elə bil həsrətində olduğu Qaraqoyunnu camahatınnan görüşə gəlmişdi. Axşamnan başdıyan, Ələsgər gejə yarıdan keçənə qədər oxudu. Söhbət elədi. El-ovaynan dərddəşdi. Mikayıl Ələsgərə dedi:

– Ələsgər bava, indi də gərək Mələk mamama dediyin tə’rifnaməyi oxuyasan, özü də burada. Elə bil hamı bunu gözdüyürdü:

– Oğul, bunnan mənnən əl çəkəjəksənsə oxuyum. Nə deyirəm.

Ələsgər Şah meydanında olan əhvalatı Şah İsmayılnan Miskin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abdalın görüşünü, axırda da Mikayılnan olan zarafatını söylədi. Sonra keşdi Mələyin tə'rifinə. Biz deyək, siz var olun:

Mən səni bənzətmişəm
Huriyə, qılmana, Mələk!
Gözdərin cannar alır,
Qəmzən səkir qana, Mələk!
Qaşın qüdrətdən çəkilif,
Oxşuyur kamana, Mələk!
Xalının bir dənəsin
Vermərəm cahana, Mələk!
Üzün görüf ayrı düşən
Qalar yana-yana, Mələk!

Əslin düz, nəsilin yaxşı,
Olmuşam elinə mayıl.
Oxuyan şeyda bülbüllər
Bağında güllər a mayıl.
Tutiyi-şirin zəban
Olubdu dilinə mayıl.
Həftərəng-mürği-tovuz
Pərişan telinə mayıl.
Zülfünən tor qurufsan
Alıcı tərlana, Mələk!

Gözəllər dəstə-dəstə
Qulluğuna sana gəlir.
Ağa, rəiyyət, bəy, gəda
Əmrinə fərmana gəlir.
Aşıx, alim, molla, seyid
Dad çəkir, amana gəlir.
Dəlilər dəxil düşür,
Mərizlər loğmana gəlir.
Xəstədi, Ələsgəri
Sən yetir dərmana, Mələk!

Ələsgər oxuduxca Mələk kirpiklərini sıxır, yaş yanaxlarına süzülürdü.

Qaraqoyunnuda pul az işdiyərdi. Xeyir-şərə iri mal, qoyun xərşdiyərdilər. Astanalı uşaxları kimsi cöngə, kimi dana, 7-8 iri heyvan cəmliyif Aşıx Ələsgəri elə Mikayılın özünnən Göyçüyə yola saldılar. Mikayıl



Ələsgəri düz Ağkilsiyə qədər ötürüf geri qayıtdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

A

Avırrı avırınnan çəkinər, avırsız nədən çəkinər.

Avırı verib dirilik suyu almazdar.

Avırsız avırrı çağırır.

Avdalınkı huydan keçifdi.

Ağaş yıxılmasın; baltalı da yüyürür, baltasız da.

Ağ atın pambıx satana ziyanı var.

Ağ ərik, sarı ərik,
Dərərik görərik.

Ağ üzü var öpbəli, dərisinə saman təpbəli.

Ağaşdan budax düşər.

Ağ qız toyda dingildər,
Nənəsi yerdə ingildər.

Ağzı əyrini boynunun ardınnan tanıyallar.

Ağzım yediyi aşı gözüm tanıyır.

Ağzım nə yeyifkin, üzüm nə utana?

Ağzıma dad, qarnıma vay.

Ağzın qan olsa da, pis yoldaşın yanında tüpürmə.

Ağzına plov dəyənin dili şirin olar.

Ağzında bir tay çarıx beləsinə getdi.

Ağzında yaşmax, ayağında başmax yoxdu.

Ağzını süd yandıran ayranı üfürüf içər.



Ağlağan uşaxdan öppək istəməzdər.
Ağladanın yanınca get,
Vacivin dalınca.

Ağıl ağıldan üstündü.

Ağıl ağıldan ötkün olar.

Ağıl da camaldan azar.

Ağıla gələn başa gələr.

Ağıllı gödək, axmax uzunnan yaxşıdı.

Ağıllı oluf xalxın dərdini çəkincə, dəli ol, qoy xalx sənin dərdini çəksin.

Ağıllıdı, dəlidi,
Yenə bizim ellidi.

Ağıl ağıldan süyüşüklü olar.

Ağır ayax başa dəyər, yüngül ayax daşa.

Ağrılardan göz ağrısı.

Adam başdan tanınar.

Adam var dağı gürznən dağıdar, adam var söznən.

Adam qıvlasını Arazın ortasında çaşır.

Adam dilinnən, heyvan başınnan.

Adamın gözəlgə yeri çox olar, əmə yatalqa yeri bir.

Adamın üz qaralığını üzə vurmazdar.

Adını qoyuf, kövəyini kəsif.

Adını demə eldən ayıfdı.

Aj dəvə qanqala cumar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ajın qursağında darı durmaz.

Ajın sudan zəhləsi gedər.

Ajdığınnan dərmanda durur.

Az ver, yalvar, çox ver, söy.

Az işdən çox iş çıxar.

Aza qane olmuyan çoxu tapammaz.

Ay-vay, verəninə şükür allah,
Ölmədik bu günü də gördük.

Ay gedən it, gəl məni tut.

Ay ulduz göy yaraşığıdı.

Ayağıma yer eliyim, gör sənə neyniyim?

Ayıya dayı deyərəm, darım yetişincə.

Al qapıda, sat qapıda.

Ala qarğa bildiyinnən duzdağa düşər.

Ala itdən manşırdı.

Ala qarğıya qurut gözlədir.

Alan aldığını bilmirsə, qoyan qoyduğunu bilir.

Allah deyər; sənnən hərəkət, mənnən bərəkət.

Alma budağınnan gen düşməz.

Almaq eyifdi, vermək hünər.

Almağa alıcı quşdu, verməyə kor yapalax.

Almayı soy ye.



Alısı dəli, Vəlisi dəli,
Bu qırılmışın hamısı dəli.

Alma arvadın dulunu, dalınnan gələr qulunu.

Allah beləsinnən saxlasın; utanmağa üzü yox, süfrəsində duzu.

Allah qotur versin, dırnax verməsin.

Allah dağına baxar, qar verər.

Allah ömrümnən kəssin, baxdıma calasın.

Aləmə dəv, bizə biədəf döyül kü.

Alimsiz ölkə başsızdı.

Altdan-altdan vuruşdurursan.

Analı qızın işi görünər, anasızın dili.

Altmışdan saqqal qırxıllar.

Ana dağlarda uca, dəryalardan dərindi.

Anasız dana özünə qurd gətirər.

And işmə, inanıram.

Anılan qurd yoldan olar.

Arvad var, bir evin gülüdü,

Arvad var, bir öküzün leşidi.

Arvad evinə girənin qapısı alçax olar.

Arvad olan yerdə dava olar.

Arvatnan tamah yıxmıyan öy illərəcən tikili qalar.

Arvatsız kişi, urvatsız kişi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arada ala çatı olmasa, qurd qoyunnan otduyar.

Aranda tutdan oldum, dağda qurutdan.

Arığ atın hünəri çoxdu, amma yeriməyi yoxdu.

Arığa dərisi də yükdü.

Arının şam çəkməsi me'marı utandırar.

Armud kaldı, yemək olmur, hər sözü açıf demək olmur.

Arpa qızılın yanna gəlməz, əmə qızıl arpanın yanına gələr.

Arpıyı, buğduyu pişdi, indi də kərdiyara düşdü.

Artıx köyşənin buğdası döysən.

Artıx tikə göz çıxarmaz.

Arxalıya arxa olma, yamax sayallar,
Arxasıza arxa ol, dayax sayallar.

At almamış axur düzəldir.

At anadan olan günü atdı.

At atasına, oğul dayısına.

At özgənin, can özgənin.

At qaşdı, örkən apardı.

At qaçır üstündəki öyünür.

At ətnən, igid donnan.

At yeriməknən yol açar, insan biliknən.

Ata baxallar, başına noxta taxallar.

Ata əlin çatanatan, eşşək minmək ayıf döyül.



Atan ilə atamı deyincə, özünnən özümü de.

Atdanan qofdu, daylaxlı tərpəndi.

Atdı atını sazdıyır, atsız qıçını.

Atdı qonax sığışar, itdi qonax sığışmaz.

Atdığı daş yerə düşməz.

Atı atın yanında bağlasan, ya xoyunnandı, ya xəsiyyətinnən.

Atdar bazara gedif, eşşəklər bayram edir.

Atılar-düşər,
Gözü qavağına eşər.

Atın dalında daylax da varıymış.

Atın ölümü itin bayramıdı.

Atın təpiyinə at dözər.

Atına baxar arpa verəllər.

Atını min-çap, öküzünü tap.

Atıcı atar, tayını tapar.

Atıcı atıcıynan qalmaz, bir-birinnən haqq almaz.

Atıcı atıcıdan qalmır.

Atıcı vurur, kürd oynuyur.

Axar suya iki dəfə düşmək olmaz.

Axar su murdarrıx götürməz.

Axund özü elər, özgüyə öyüd verər.

Axşamnan kotan qoşur, savaha cüt də çıxmır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ahılın sözü, cahılın gözü.

Ac adam yol kəsər.

Ac qılıca çapar.

Ac qurd qılınca çapar.

Aj eşiyə qaçar, çılpax içəri.

Aca ürək vermə, çörək ver.

Ajam, quyrux ajıyam. Bağır-öfkə ajı ha döyüləm.

Ajlığında eldən yeyər, toxluğunda eldən deyər.

Ajıxlı başda ağıl olmaz.

Ajlığını elə yerdə bildir ki, qarnın doysun.

Ajgözün xəzinəsi var, evində çay pulu yox.

Aşıx uğur deməkdi.

Aşıx üz gördüyü yerdə əyləşər.

Aşığı toyda, molluyu vayda.

Aşığın nisyəsi, kürdün ilqarı.

Aşınnan kı yemiyəjəksən, tüstüsünnən niyə kor olasan?

B

Bağı susuzduğu, bağbanı əməyi yandırar.

Bığına, papağına baxdım kişi dedim,
Özünə baxdım, əşi dedim.

Badaxsız işini badağa salma.

Bazara girdin gözü qıpıx, sən də ol gözü qıpıx.

Bal da yesən dirilməz.



Bala çillənin soyuğu.

Balalı qarğıya pay çatmaz.

Balan olmasa, bava qədrini bilməzsən.

Balıx dəryada böyüyər.

Balığı başınnan tutallar.

Balığın başı daşa dəyməsə, geri qayıtmaz.

Balta yaxşı baltadı, hayıf kı sapı söyüddəndi.

Baltanın sapında varsa, ağzında da var.

Barmağın hamısı bir döy.

Basarkeçərri it azıdan kimi.

Baxdın yatdı, sən də yat.

Baxtını götür, bazara çıx.

Bahalıxda o qədər yemişəm ki,
Ucuzduxda vejimə döyül.

Başarana can qurvan,
Başarmıyana daş qurvan.

Başqa dəriyə girən ulağın quyrux, qulağını kəsəllər.

Başdakı su sular,
Arxadakı and içər.

Başı dil qoruyar.

Başını itirən tük üçün ağlamaz.

Başımda qoz qırma.

Belə deyirəm dədəm ölür,
Elə deyirəm anam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Beş barmağın beşi də bir döyül.

Beş almasa, bir verməz.

Bəziyər vəzir edər, soyundurar rəzil edər.

Bəy elədim səni, bəyənmədin məni.

Bəy nədi, bəyənmədiyin nədi.

Bəy mənim arxam, mən kimnən qorxam.

Bənna naşı, mən naşı,
Göstər qoyum bu daşı.

Bəxt, ağıl bir adamda olsa, o adam tacir olar.

Bəxt kəsəni qılınc kəsməz.

Bəxşeyiş var tümən-tümən,
Hesaf var mısqal-mısqal.

Biz yağış istiyirdik, dolu yağdı.

Bildiyin hər sözü danışma.

Biləkli birini yıxar, bilikli minini.

Bilən söyləməz, bilməyən bilməz.

Bilici olma, əkinçi ol.

Bilmədiklərini soruşan alim olar.

Bilməzin dəyirmanını allah işdədər.

Bilmir harda nə bişif, deyir:
Bir çömçə də burya qoy.

Bir ağacın gölgəsində min qoyun yatar.

Bir aj gülən olar, bir çılpax.



Bir adamın payı iki adamı aj qoyar.

Bir almanın əvəzi bir at olar.

Bir quş bir qutuya sığınar.

Bir deyənin oluncax, min yeyənin olsun.

Bir dərədə iki axsax ceyran olmaz.

Bir əlin od olsa da, biri su olsun.

Bir əlnən torpax cannanmaz.

Bir ziyan, min öyüddən artıxdı.

Bir iynə deşiyinnən bir dəvə boyda soyux gələr.

Bir inad, bir murad.

Bir iş var, iki xata.

Bir yerə girməzdən əvvəl oradan nejə çıxacağını düşün.

Bir gəlifsən, bir də gələrsən.

Bir gördün yoldaş, iki gördün qardaş.

Bir görmək, iki eşitməkdən yaxşıdı.

Bir kötük üstə çox çırpılar doğranar.

Bir gün bir il doyuzdurar.

Bir loxma bir dağ aşırar.

Bir oynuyan bir də oynuyur.

Bir tikiyi bilmiyən, heş mini də bilməz.

Birdi, beşdi, on beşdi,
Varım sənə peşkəşdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Birə də "ho", minə də"ho".

Birə nədi büzüyü nə ola.

Biri palçığa batdı, qalannarı yanında yatdı.

Birənin qannı aldın, cannı aldın.

Biri bilmiyən, mini də bilməz.

Bir-birinnən haqq almır.

Biri kərə kəsir, biri kürə kəsir.

Birrik harda, dirrik orda.

Bıçağı olmuyanın, qılıncı kəsər olar.

Bıçaxçıda bıçax tapılmaz.

Biçənin üzünü tikən ağardar.

Bığdan götürüf saqqala qoyur.

Başqası başqasının itiyini fışqırıxnan gəzər.

Başını öz tamahı yiyəjək.

Boğaz boydan aşağıdı.

Boğaz dediyin boydan aşağıdı.

Boğazı böyük olanın dostu olmaz.

Boğulan it dişini göstərməz.

Boş çanax dolu çanağı tökər.

Böyük danışar, kiçik götürər.

Böyük sözünə baxmıyan böyürə-böyürə gedər.

Böyüyünü ayaxlıyan allahını ayaxlıyar.



Böyüksüz sallaqxana itidi.

Böhtançının qəvrində yovşan bitər.

Buğdanın qarnı yarıxdı.

Bu dünyanın uju qalıf,
İnsannarın biji.

Bu gözün işığı, o birinə düşməz.

Bu Göyçə balığıdı, seç apar.

Bu günki bağır-əfkə, savaxkı quyruxdan şirindi.

Bu öyün işığı o biri öyə tüşməz.

Buyurannan doyuran yorulmaz.

Buyrux sənnən, qullux mənnən.

Bulax gözünü kor istəməz.

Burda dəli azıydı, biri də o taydan keşdi.

Bütün elmlərin açarı dildi.

V

Vacivin dalınnan get,
Ağladanın, yanınnan.

Var göz işığıdı.

Vara-yoxa baxmaz.

Varranmağa tələsən, yoxsulluğa tez düşər.

Var göz açar.

Varrının qapısınnan var əksilməz,
Yoxsulun qapısınnan qar.

Vaxtsız bannıyan xoruz bədbəxtlik gətirər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ver inəyə, bağla dirəyə.

Ver getsin, it aparan olsun.

Və’də və’diyə baxmaz, və’də heş şeyə baxmaz.

Vəzifə bir qızıl üzükdü, o da hamının barmağına keşməz.

Vətənnən uzax düşən vətəndaş olmaz,
Vətənsiz yaşıyan imansız ölər.

Vəfalı at, vəfasız dostdan yaxşıdı.

Vur ku, mənzilə çatasan.

Vuran oğul atıya baxmaz.

Vurduğun meydanda yatır.

Vurram, öldürrəm, amma dirildəmmərəm.

## Q

Qav düşməsə, səs çıxmaz.

Qavır boy üstdə piçilər.

Qazan qazannan döyüşər, ortada güvəc sınar.

Qazan deyir: divim qızıldı,
Çömçə deyir: mən hardaydım?

Qazan dığırranıf qapağını tapıf.

Qazancı çıxdısa, mayasına bənd olma.

Qazancın azı-çoxu olmaz.

Qazaş qudurar, mayyı yeyər.

Qazanıflar yemişəm, qazanıram yeyəjəklər.

Qazı taxtına, köpək vaxtına.



Qazanmax hasandı, yemək çətin.

Qazanına görə qığılda.

Qazı tükünə görə yolallar.

Qayğanc borc ödəməz.

Qayçı gəzdirdi, iyniyi də itirdi.

Qalxan öküz, yatan öküzü qavaxlar.

Qanana da qurvan, qanmıyana da, dad alayarımçıx əlinnən.

Qanana hin, qanmiyana din.

Qanqal arada itər.

Qantəpərdən zurna al,
Özgə evində çal.

Qancıxdan küçük törüyər.

Qapıya gələn qonax içəriyə də keçəjək.

Qapım xan qapısıdı, güzarın düşər bir gün.

Qaraqoyunnu sonnu öldü maa nə var, sonsuz öldü maa nə var?

Qara kişmişi civə tökəllər, ağ ayranı itə.

Qaradan artıx rəng olmaz.

Qarayı qaryya tutmazdar.

Qaranquş gəldi-gedərdi, sana qalan boz sərçə olajax.

Qarğa yanında göz ovur.

Qarğa özünü quş, xaşıl özünü aş bilir.

Qarğışın iki başı var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaratikən nədi ki, kölgəsi nə ola.

Qaraçıdan qohum olmaz,
Donuzçudan qəyyum.

Qardaş yaxşı olsaydı, allahın da bir qardaşı olardı.

Qardaş oğlu qardaş olmaz, yola çıxsan yoldaş olmaz.

Qardaşının xasiyyətini bilirsənim? – Yoldaş olmamışam.

Qarın başdan aşağıdı.

Qarı yatdı,qapı bağlandı.

Qarıya savın, dəliyə öyüd neyniyər.

Qarına gedən qazancdı.

Qarnı doyar, gözü doymaz.

Qarpızı görür, qarpızı öyür.

Qartalı uçurdar, yumurtanı oğurrar.

Qatığı tökülən qarı kimi donquldama.

Qatır atasını görməsəydi, özünü xanzada bilərdi.

Qaçan da allahı çağırır, qovan da.

Qaçanı qovmazdar.

Qatıra qulun yoxdu.

Qaçağan qoyun süddü olar.

Qaşıx çömçədən böyük oluf.

Qəbristana gedən ölü qayıtmaz.

Qələm kimi iki dilli olma.



Qənşərdə duran aydın görər.

Qəriv itin quyruğu qısıx olar.

Qəhədə də bir fətir, Qəfərə də.

Qiyamat o gün qopar kı, biri yeyər, biri baxar.

Qız ağacı, qoz ağacı,
Hər yetən bir daş atar.

Qız qapısı, şah qapısı.

Qız gedər igid gətirər,
Oğlan gedər it gətirər.

Qız gərək, tez gərək.

Qızıl palçıxda da parıldar.

Qızıldan taxtım olunca, bir quruja baxtım olsun.

Qızılı məhək daşı tanıyar, xəsisi dilənçi.

Qızın var, qızılın var.

Qızını beşiyə qoy, cehizin eşiyə qoy.

Qılıxlı dünya yeyər, qılıxsız heş nə.

Qır qırılar, qıyamat qopar.

Qırağın ağasına gedincək qapının nökərinə get.

Qıraxdan baxana döyüş asan gələr.

Qırmızı ilan dəri buraxmaz.

Qısqıranı olsa, tazı da tutar.

Qıç öpməknən ağız murdar olmaz.

Qodux oynayan günü qar yağar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoja atnan hündür hasardan aşammazsan.

Qoy qazan örtülü oynasın.

Qoyma xaldan xal olmaz, xal özü əsil gərək.

Qoyuna qurd təpildi, vay sürünün gününə.

Qoyunu olmayan qoçu neyniyir?

Qonax özünə qav tapar.

Qonağın üzünə baxma, izinə bax.

Quru süfrəyə duza olmaz.

Qonşu qonşudan namus çəkməsə, ajınnan ölər.

Qonşu-qonşuya baxar,
Canını oda yaxar.

Qonşu payı dolu gərək.

Qonşu paxıl olmasa, kor qız ərə gedər.

Qonşuya ağaş dəydi, elə bildik saman çuvalına dəydi.

Qonşudan gələn qatıxcıx,
Qurtarar barmax batırcax.

Qonşuya gülə-gülə gedən, ağlıya-ağlıya gələr.

Qonşunun gəlini qız,
Donqarı düz görünür.

Qonşunun qıyvatını qırma, ya qapıdadı, ya bajada.

Qonşunun toyuğu qaz,
Özününkü az görünər.

Qorxax qaçar, hay gəlməmiş,
Qıç çirməyər çay gəlməmiş.



Qorxan it uzaxdan hürər, yaxınnan quyrux buluyar.

Qorxulu baş salamat olar.

Qohuma qoltax, yada yaltax.

Qohumu kəssən kəsilməz, üzsən üzülməz.

Qoç arıx, qoyun boğaz.

Qoça buynuzu ağırrıx eləməz.

Qoç burnunu qoç qanadar.

Qojanın dizi ağrıyar, ağlıyanın gözü.

Quzu qatmıyan quzuçudan küsməz.

Quzudan əlhəddə qoyun da qırıldı.

Quyunun divinnən baxanda göy balaja görünər.

Qulağımnan qut oldum.

Qum göyərəndə, dəvə buynuz çıxaranda.

Quraxlıxdan ajdığ olmaz, amma yağarrıxdan olar.

Qurd əlinə quyrux salma.

Qurd balası böyüyündə nə görüfsə, onu eliyir.

Qurd nə bilir, qatır bahadı.

Qurdun ağzınnan quyrux çıxanda uluyar.

Qurdun yediyini keçiyə çıxmazdar.

Qurda quyrux, qoyuna yumrux.

Qurddan qorxan qoyun saxlamaz.

Qurdalayıf qurdunu çıxarajax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurdalama şorunu çıxardajaxsan.

Qurd əzirəm qoluma minnət.

Qüsul suyunu üstümə tökmə.

Quş qanadnan uçar,
İnsan kamalnan.

Quşu yuvadan, gülü güllükdən götü.

Quşu cələ ilə tutallar.

D

Dabbqxanada gönnü tanıyıram.

Davalı yerdə ot bitməz.

Dağ arannan küsüfdü.

Dağ var təpəyə dirək.

Dağ əppəyi, bağ əppəyi.

Dağ iti gəlif bağ itinə hürüyür.

Dağ selinnən çay olmaz.

Dağda qurutdan, aranda tutdan olar.

Dağarcıxda unnarı,
Kim tanımır bunnarı?

Dağdan ağır kişidi.

Dağın dərdi dağ boyda olar.

Daz qızın dazı,
Bizi qırıfdı nazı.
Daz-daznan yatdı, daz da naz atdı.

Dayın var, daha nə var?



Dam dirək üstə durar.

Dama-dama göl olar,
Dama-dama heç olar.

Dambatdığınnan şahad almır.

Dana tövla mıxını qopartsa, bir yerə vurar, bir özünə.

Danalı dalda qalmaz.

Dannamaxdan dan eşşəyinə döndərdi.

Danaçı qızınnan gəlin olmaz,
Gej olar, güj olar.

Dartıf yığmağa nə var, qaldırıf tikmək çətindi.

Daş atdı alma sala, daşı başına düşdü.

Daş atıf başını tutar.

Daş qayaya rast gəlif.

Daş qoymuyıf daş üstə,
Vuruşur bozbaş üstə.

Daş yerində ağırdı.

Dedi-qodu ev yıxar, qoyma-qoyma çanax tökər.

Deyir: a yoldan keçən it,
Gəl şalvarımı dağıt.

Dəvə inildəməkdən, yükü inildiyir.

Dəvə ha döyüləm ki, yeddi yerimnən boğazdanam.

Dəvə şordan qayıdıf.
Dəvədən böyük fil var.

Dəvəyə bax, su qavı gəti.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dədəm döymüyəjək, qardaşım söymüyəjək.

Dədəm ölüf: ya vəlvələdən, ya zələzələdən.

Dədəmi öldürdümgü goruna and içəm.

Dəyirmannan gəlirdim, unumu su apardı.

Dəyirmanım hər cür dən üyüdür.

Dəli qorxax olar.

Dəli dəliyə rast gəlməsə, çomağını çəkməz.

Dəli adam paxıl adamnan yaxşıdı.

Dəli dəliyə qoşular, dəyənək göydən yağar.

Dəli dəlini görməsə, özünə yığışmaz.

Dəli dəliyə xoş gələr.

Dəli dostdan ağıllı düşman yaxşıdı.

Dəli dövran sürər, ağıllı fürsət gözlər.

Dəliyə qorux-qaytak yoxdu.

Dəliyə toy da birdi, vay da.

Dəlinin başında palıd olmazkın.

Dəlinin sözü, sərxoşun gözü.

Dəm dəmi gətirər, qəm qəmi.

Dəmir özünü öydü, eşşək nalı düzəltdilər.

Dəmir şişnən dağlıyır,
Sarı yağnan yağlıyır.

Dəmirdi misdi, həmısı bir cinsdi.



Dəmiri döydükcə uzanar.

Dəmiri isti-isti döyəllər.

Dəmiri pas yeyər, insanı kin.

Dəmirçi özünü öydü, dəmiri soyux döydü.

Dənini özün üyüt.

Döldə çıxan, ildə çıxmaz.

Dərin quyunun suyunu bulandırmax olmaz.

Dəstədən ayrı düşən quşun səsi havadan yox, tavadan gələr.

Divana çəkən qarışqa fildən güjdüdü.

Divar qulaxlı olar, divarın altı qulağı var.

Dikbaşdıxnan yıxılanın əli ələ çatmaz.

Dil bir, qulax iki.

Dil padşahın, söz arvadın.

Dil ustası, iş xəstəsi.

Dilbilməzin qoynuna girmək çətindi.

Dilənməyə nə var, çətini bir dəfə əl aşmaxdı.

Dilənçi bir olsa dolanmağa nə var?

Dilənçidən pay umur.

Dilənçinin üzü qara olar, torvası dolu.

Dilənçilikdən səylik yaxşıdı, səylikdən də ölüm.
Dilənçinin yığdığını it aparar.

Dili Dilicannan tof aşırır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dilin sümüyü yoxdu.

Dilin zəkatı xeyir söyləməkdi.

Dirimiz Məmməd Bağır,
O da kı, bizdən fağır.

Dişin varkən, malını ye.

Dişsiz ağızın damağı yara bağlar.

Dovşan nə qədər yatsa, o qədər çox qaçar.

Dovşanı qova-qova ayının üstünə çıxartma.

Doqquzun yeri göynüyür.

Doğmaz arvaddan, yumurtduyan toyux yaxşıdı.

Doğru yoldan yıxılan tez qaldırar.

Dozanqurdu gözümə girdi.

Dolu çanağı tökmə.

Dolu civdənsə, dolu baş yaxşıdı.

Donuz donuzdu, ağı nədi, qarası nədi?

Dost başa baxar, düşmən ayağa.

Dost deyən olsun.

Dost evin sil-süpür, amma düşmən evinə getmə.

Dostnan ye, iç, amma alver eləmə.

Dostunun kefini soruş, xasiyyəti həmin xasiyyətdi.

Dövlət başçısı sayıx olmalıdı.

Dövlət əl kiridi, yusan gedər, yumasan getməz.



Dövlət malnan döy, kamalnandı.

Döyər, söyər, ərim yox.

Döylətdi dağda da qərif döy.

Döyər-söyər, yetimi ağlamağa da qoymaz.

Döymə qapımı, döyəllər qapını.

Döyülməmiş çəltikdən düyü çıxmaz.

Duvaynan Fatıya tuman olmaz.

Duvuyu oxu, payını al.

Duz-çörək, düz-çörək.

Duz-çörəyi unutmazdar.

Dul qadınsan, qıvrıl yat.

Durdux-durdux, durna vurdux.

Düzəldi əysik gərəyimiz, qaldı saqqal darağımız.

Düzgün iş daşı dələr.

Düyə göz eləməsə, buğa sıçramaz.

Dünya yiyənə quyruxdu.

Dünya tükənər, düşmən tükənməz.

Dünyada hər işə qarşı sayıx olanın başı uca olar.

Dünyanı nə üzdü tutsan, o üzdü də gedəjək.

Dünən dünya mənimdi, deyənin bu gün vayına gəldi.
Dünənki sərçə bildirki qaranquşa cik-cik örgədir.

Dünənki səs, bu günki dərs.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düşmən qarışqa da olsa, onu fil say.

Düşmən düşmənin halına yanmaz.

Düşmən ətək altınnan çıxar.

Düşməni yumşaxlıxnan dost edəllər.

Düşmanım də çətinniyə düşməsin.

Düşmanı kənarda gəzmə, düşman evin içindədi.

E

El yağı, aləm yağı, sən də mana bir yağı.

Ev evə sığmaz, el elə sığar.

Evində yox bir gejəlik,
Könlünnən keçir xojalıx.

Evində yox urvalıx, könlünnən keçir darğalıx.

Evli evində gərək.

Eyliyi başa qaxmazdar.

El atan daş uzax düşər.

El atanı hax da atar.

El əməyini yeyən sinirə bilməz.

El insanın şöhrətidi.

El içində,
Öl içində.

El gözü uzağı görər.

El malına küsənmə.

El sevəni, allah sevər.



El üçün ağlıyan iki gözünnən olar.

Elə ağız əyənin ağzı əyilər.

Elə bil üstünnən qış ötmüyüf.

Eldən aralı canım, qəlbi yaralı canım.

Eldən üzülən, əldən üzülər.

Elin mərdi olsa, dərdi olmaz.

Elin üzü dönənə kimi yəhərin dönsün.

Elini ürkük ağsağınnan yapış.

Elnən gələn qara gün toy-bayramdı.

Elmin kökləri ajı, meyvəsi şirindi.

Elti əyrisi, balta əyrisi.

E'tivarrı it, sürü saxlar,
E'tivarsız çovan dəri.

Eşşək ağnıyar küllükdə, nəinki tünnükdə.

Eşşək anqırar, tayını tapar.

Eşşək palçığa batanda, yiyəsi onnan güjdü olar.

Eşşək eşşəkdi batdığı yerə bir də girmir.

Eşşəyə dedilər: mə'rifətini göstər,
Yıxılıf küllükdə ağnadı.

Eşşəyə küllük,
Bülbülə güllük.

Eşşəyə minmək bir ayıf, düşmək iki.

Eşşəyə min, ata çatınca.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eşşəyi yoldan çıxaran bir dəstə otdu.

Eşşəyi minir, palanı tə'rifliyir.

Eşşəyin dilinnən atı söyür.

Eşşəkli qurdu qarşılıyar.

Eşidif bay olmadı.

Eşik qar, içəri dar.

Ə

Əvvəl zəhmət çəkən sonra rahat olar.

Əvvəlin gəlincək, axırın gəlsin.

Əvvəlcə arxı tullan, sonra bərəkallah de.

Əzəl-əzəl günnərim,
Bağda xəzəl günnərim
Cavanıydım bilmədim,
Getdi gözəl günnərim.

Əzəlki baxdım, qızıldan taxtım,
Sonrakı baxdım, sulardan axdım.

Əzrailə nə deyim, onu da buyuran var.

Əzrayılnən çiling-ağaş oynuyur.

Əzrayılnan çiling-ağaş oynama.

Əyninə şalvar tapmır, arvad gəzir.

Əyri Səmənd; düz Səmənd,
Samannıxda süz, Səmənd.

Əriklikdə oturax, almalıxda danışax.
Əkinçi ol, kəsici olma.

Əkməsən, biçməzsən.



Əl ver, əppək yeyək.

Əl pəhləvanı olma, dil pəhlivanı ol.

Ələ batan tikandı, dərilən çiçək utandı.

Ələkçinin qıl verəni, zurnaçının züy tutanısanmı?

Əli yara, başı göra.

Ələməyə unu yoxdu, pişirməyə xamırı.

Ələnməyən buğdadan əppək çıxmaz.

Əliyəndə duyarsan.

Əlin əldə, qəlbin eldə.

Əlin nə dalı, nə qavağı.

Əlin uzanıxlı, gözün haxda.

Əlinə bel ver, altınnan yel ver.

Əlində qılış tutuf, kölgəsinnən qorxur.

Əlindəki düyünü dişinə salma.

Əlinnən tut, oturt taxta.

Əlini başına yığ.

Əlinin üstə əl yoxdu.

Əlinnən iş tutur, dişinnən quş.

Əlimin quşudu, mən tanıyıram.

Əllidə əli var, altmışda başı.
Əllisini xırmanda, qırxını ormanda qoyuf.

Əməl pəhlivanı yıxar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əmiyə qaldı, dəmiyə qaldı.

Əməyimi yedilər, özümə "bə" dedilər.

Əməkçi ol, dilənçi olma.

Ər bir, allah bir.

Ər qurumsax, arvad axmax, olarmı qonşuya çıxmax?

Ər tutanı el tutar, ər atanı el atar.

Ərnən arvadın torpağı bir yerdən götürülər.

Ərriyi əri döyər,
Ərsizi tanrı döyər.

Əsər Gəncə, bitər yonca,
Əsər Tiflis, edər müflis.

Əsil dostu qılış da ayırammaz.

Ət yedin, su işdin, gətirdin,
Bal yedin, su işdin, itirdin.

Ət yeyən quşun dimdiyi əyri olar.

Ətəyini kal buynuzuna keçirmə.

Ətin çiyi ət gətirər,
Xamırın çiyi dərd gətirər.

Əjəl, verme məjəl.

Z

Zamanan zınqıldasın.

Zarafat yorğan altda olar.

Zarafat məhəbbətin qayçıçısıdı, kəsif aradan çıxarar.
Zarafata zarafatnan cavaf verəllər.

Zəngibasar şüləni ha döy.



Zəhərdən şəfa gözdənilməz, qəhbədən vəfa.

Zəhməti mən çəkim, qaymağı Qaspar yesin.

Zəhmətnən yaşa, zillət görmə.

Zoğal dərənimiz də var, sərvət hərənimiz də.

Zor qapıdan girəndə şəriət bajadan qaçar.

Zor doğana düşər.

Zor zəyrəkdən yağ çıxarar.

Zornan əziz olmax olmaz.

Zor yarım şəriətdi.

Zurnaçı zurnaçı olsa, gəlini oynadar.

Zurnaçı kimi əzəlcən haqqını danışma.

İ

İydə varsa, tağalax da var.

İyidin sağı-solu olmaz.

İynə olsa, sap olsa dərziliyə nə varmış?

İynə hara, sanşdı ora.

İki arvaddı kişinin xörəyi duzdu olar.

İki arvaddının qulağı dincəlməz, eşşək minənin qılçası.

İki qancıx bir qavda yal yeməz.

İki eysannan olannansan.

İki yana baxan çaş olar.
İki su bir xörəyin yerindədi.

İki padşah bir taxtda oturmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İgid, igidə xor baxmaz.

İgid soy ilə,
Gözəl xoy ilə.

İgidin qılıncı, müəllimin qələmi.

İkicə dişin dörd olsun,
Təknəmizə qurd olsun.

İlana yaxşı deyən, cəllada fağır deyər.

İlan ilannığınnan torpağı yalar.

İlanın ölümü gələndə çıxar yol üstündə yatar.

İman əziz, pul imannan da əziz.

İsmarışnan haj qavıl olmaz.

İnək sağan inək sağanı alladammaz.

İndiki dövrdə çörək atdı oluf, biz piyada.

İnəyin südünü əmir, buzoya arıx deyir.

İnsan güjnən əyilməz, polad güjnən əyilər.

İnsanın qudurmuşu, itin qudurmuşunnan betərdi.

İmam üçün də ağla, yezid üçün də.

İrəli gedəndə burnuma, geri qayıdanda davanıma.

İrzinnən, irənginnən zəhrimar yağır.

İp uzun, dil gödək.

İsti qəvir soyux yastıxdan yaxşıdı.
İstiyənin bir üzü qara, vermiyənin iki üzü.

İt azıydı, biri də gəmiynən keşdi.



İt arıxlığını qurda bildirməz.

İt bağırsağı təkin nə qədər uzundu.

İt boş yerə hürməz.

İt harava gölgəsində yatır, elə bilir öz kölgəsidi.

İt quduranda sahibini tutar.

İt dərisi kimi iylənmə.

İt evinnən qurut umur.

İt yediyini qusar.

İt əl çəkdi, motal əl çəkmədi.

İt əppəyə, uşax öppəyə.

İt yiyəni it tükünnən sağaldallar.

İt gəti, it apar.

İt kimi iy bilir.

İt olsan yiyəni tanımazsan.

İt otun üstə yatır; nə özü yeyir, nə də yeyənə verir.

İtdən olan küçük olar.

İt köçə qoşulan kimi köçə qoşulma.

İti görəndə bəy kimi keç,
Bəyi görəndə it kimi.

İti öldürənə sürüdəllər.

İti hürsün, tüstüsü çıxsın.

İtik itiyi tapar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İtin ajı zivil yeyər.

İtin qulağını küçük ikən kəsəllər.

İtin dişinə it dayanar.

İtin payını ata verməzdər.

İtin payını yel gətirər.

İtin suya düşəni üzən kimi.

İtnən zülmətə, qurdnan qıyamata.

İt otu, bağa yarpağı.

İtsiz kənddə ağaşsız gəzəllər.

İş işdən ötənnən sonra tumanının bağını ha bərk bağla.

İş insanı təmizdiyə çıxardar.

İş ki, qaldı səvirə,
Tut yönünü qəvirə.

İş ki, qaldı arvada,
Ölən günü sal yada.

İş onu görənnən qorxar.

İşdəməsən, yeməzsən.

İşi düşəndə anır, aşı bişəndə danır.

İşi hajatnan görəllər, höjətnən yox.

İşimiz düşdü qaza, qaz da özünü qoydu naza.

İşin düşdü xalıya, deynən düşdü balıya.
İşdə mənim üçün, öyrən özün üçün.

Y

Yava at saxlayanın bir təknə əppəyi gərək.



Yavaş eşşəyi cüt-cüt minəllər.

Yavaş gedən yorulmaz.

Yağ yağa qarışar, yarma yavan qalar.

Yağ mənimdi, əritmərəm kərə yeyirəm.

Yağlı çörəyin yoxdu, yağlı dilinə nə oluf?

Yağış damcı-damcı buluddan törüyər.

Yağış yağar, gül bitər.

Yadı yağı doğrasın.

Yaddan qardaş olmaz.

Yaz var, qış var, nə tələsik iş var?

Yaz inəksizin, qış inəklinin halına.

Yazda əkinçi, qışda dilənçi canım.

Yazı yatdı, qış çatdı.

Yazıx aşıx neyləsin; toy toy deyil.

Yalvarana yalvar.

Yayda başı qaynamıyanın, qışda aşı qaynamaz.

Yayda yatan qışda dilənçilik eliyər.

Yalamaxnan doymax olmaz.

Yalan dildən lal dil yaxşıdı.

Yalançı dəyirmannan başı unnu də gəlsə, heş kəs ona inanmaz.

Yalançı itdən murdardı.

Yanlış da bir naxışdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yan mənim üçün,
yanım sənin üçün.

Yanan da mən, yaman da mən.

Yaman dirilikdən ölüm yaxşıdı.

Yaman yeyənin olsun, yaman deyənin olmasın.

Yar yarnan qaşqalaşdı, onun ləzzəti qaşdı.

Yara qurtarajax olsa təviv qənşər gələr.

Yaralı barmağa yağ sürt.

Yarasa kimi işıxdan qaşma.

Yat yatdığın yerdə, karvan vurmağın özünə qalsın.

Yatağan gəlinin adı yeddi kəndə səs salar.

Yatan daşın altına su gəlməz.

Yatan pişiyin üstünnən siçan keçər.

Yatan üyüdər, yetən üyütməz.

Yatanda özgəynən yatır,
Çiməndə mənnən çimir.

Yatanın payını yeyəllər.

Yax əlimə, çək üzünə.

Yaxamnan asılma, üzümnən yapışma.

Yaxın yerə bir kəlmə söz, uzax yerə bir barmax kağız.
Yaxına ərinər, uzağa yüyürər.

Yaxşı at qavağı gözdüyər, yaxşı it dalı.

Yaxşı at igidin yoldaşıdı.



Yaxşı qardaşın axırı ayrılıxdı.

Yaxşı qonşudan adama ziyan gəlməz.

Yaxşı qonşuya yüyürüncək, yaman bujağına yüyür.

Yaxşı keçi otaransansa, biri də özünün olsun.

Yaxşı otağım oluncax,
yaxşı yarım olsun.

Yaxşılığa yamannıx, kor eşşəyə samannıx.

Yaxşını qıraxda gəz, pis böyründədi.

Yaxşılıx da, yamannıx da yaddan çıxmaz.

Yaxşının istər özünü gör, istər işini.

Yaşına yox, başına bax.

Yeyər doymaz, yatar durmaz.

Yeyin at özünə qamçı vurdurmaz.

Yeyən də özü, deyən də özü.

Yeyin yeriyirəm "dəli" deyillər,
Asda yeriyirəm "ölü" deyilər.

Yel mərəyə deyir: ağzını aç, sənə saman gətimişəm.

Yeməyə kömək etmək istiyən, işdəməyə də kömək etməlidi.

Yemək adamı iki eləməz, yekə eliyər.

Yeməkdə qoçax, köməkdə naçax.
Yeməkdənsə, umuddu olmax yaxşıdı.

Yeməknən dost olan illərnən düşman olar.

Yeməmiş gəyirmə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yeriyif oturmax, qaçıf yıxılmaxdan yaxşıdı.

Yerimiyən ayağa daş dəyməz.

Yerini bilmiyən yersiz qalar.

Yerişinə haram qat.

Yersiz mülayimlik dəhşət yaradar.

Yetim böyüyər, Əzrailin pisdiyi özünə qalar.

Yetim öz çörəyini öz əlinnən kəsər.

Yetimə ay da qarannıx, gün də.

Yetimə umud verən çox olar, çörək verən az.

Yetişmiş alma budaxda durmaz.

Yetkin armuda daş atallar.

Yiyəsiz öyə it girər.

Yığıf yemiyənnən, bilif demiyən havayı zəhmət çəkər.

Yıxılana baltalı da vurar, baltasız da.

Yıxılana gülməzdər.

Yıxmasan, nallıya bilməzsən.

Yovşan bəsdəməknən çəmənzar olmaz.

Yoldaşıma bir ağaş dəydi, elə bildim saman çuvalına dəydi.

Yoldan qal, yoldaşdan qalma.
Yolnan gedən yorulmaz.

Yolun altına, üstünə keşmə.

Yorğanınnan ayağın da çıxar, başın da.



Yoxsullux adamı dostun da, düşmanın da qapısına aparar.

Yoxun üzü qaradı.

Yumaxnan su qurtarmaz, qara da ağ olmaz.

Yumrux çəkənə çomax çəkəllər.

Yuxu yalan olmaz, yanlış olar.

Yüz qızılın oluncax, yüz dostun olsun.

Yüz işçidən bir başçı.

Yüz gün qırda, bir gün qurda.

Yüz günnən sonra hay verən qonşunun, başına dönüm.

Yüz öylü Qaraqoyunnuya da bir ay oruş, otuz öylü Ayrıma da.

Yüz peyğəmbərə yalvaranatan, bir allaha yalvar.

Yüz fikir bir borcu ödəməz.

Yüzə dözən, yüz birə də dözər.

Yüyrən at özünə qamçı vurdurmaz.

Yük daşıyan eşşək adam öldürən şirdən yaxşıdı.

Yükün altda girmə, girəndə ağırdı demə.

Yükünü ulağa tafşırır, ulağı mənə.

Yüngül saqqal olma.

K

Karvannan azanı koramal vurar.

Kasıf varrıya çatammaz, əmə varrı kasıva çatar.

Kasıf deyər: mübarək, döylətdi deyər: hardan almısan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kasıf itini yallı saxlar.

Kasıf köçəndə varranar.

Kasıf çıxacağını bilsə, geydiyi atlas olar.

Kasıf comərd olar.

Kasıvın bir atı var, o da ayğır.

Kasıvın malını aldın, canını aldın, birdi.

Kasıvın cadını almış, canını almış.

Kasıfladın yerə yapış.

Katda olma, başın ağrımasın.

Keçi düşüf qovuna,
Cərmə oluf qoyuna.

Keçi öldü, qoturu kəsildi.

Keçi axurda yatar.

Keçi keçidikin, yatdığı yeri dırnaxlar.

Keçi mana, bez sana.

Keçəl baxar güzgüyə, adın qoyar özgüyə.

Keçəl başda dəlləklik eləmə.

Keçəl yağ tafsa, başına yaxar.

Keçəl suya getməz.

Keçəlin dərdi, başı, bir qazan ayran aşı.
Keçinin dərisi xəstənin,
Qəzili Güldəstənin.

Keçinin ölümü gələndə çovanın çomağına sürtünər.



Keçinin ölümü palıddan olsun.

Keçisini itirif, dana gəzir.

Keşiş həmişə kətə yeməz.

Kimisi ahıllıxda, kimisi cahıllıxda.

Kəndə çaqqal dadanıf, toyuğa xəvər verin.

Kəndçiynən qohum olanın darvazası gen gərək.

Kəsik baş söyləməz.

Kəsməsən, qanamaz.

Kim ayranına turş deyər?

Kimnən yeyər, onnan deyər.

Kirəsiz kilim ağzı da tutmur.

Kimi yaxa cırır, kimi yuxa.

Kişiliyini sına, sonra arvad al.

Koyxanı gör, kəndi yıx.

Kol divində evim olsun,
İçində ərim olsun.

Kor atı minif köndələn çapar.

Kor atın da kor nalvəndi olar.

Kor kimdi? – Nəvələt.

Kor kora lağ eləməsə, bağrı yarılar.
Kor nadürüst olar, keçəl əməlvaz.

Kora hər yer qarannıxdı.

Koru kora hayan qoymazdar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kosa dəlləyin düşmanıdı.

Kosuyu gün çıxmamış allatmasan, sonra aldadammazsan.

Kotan nə bilir, qayış nə çəkir?

Köynəyin darrığı bezin qıtdığınnandı.

Könlü balıx əti istiyən suda gərək.

Könül tutan keçəldə ayıv olmaz.

Kösöy yana-yana gödələr.

Kötük üstə puçur doğranı.

Köhləni mərdə tafşır.

Köhnə dost yəhərri ata bənzər.

Köhnə kilim istilik verməz.

Köç kömək istiyir.

Köçdən azan qarıya bu da azdı.

Köyşəndə elə danış kı, xırmanda toz qofmasın.

Köçürəm demə yurdun, eşidər.

Gün qarası gedər, söz yarası getməz.

Küldən təpə olmaz.

Küləyi tutmax olmaz.

Külək qayadan nə aparar.
Külü yeyif, küllüyü tafdalar.

Külü külfədən götü, bir ovuc da artıx götü.

Kürd qızınnan belə oğul.



G

Gedirdim moruğa, düşdüm qoruğa.

Gejənin işi ələ tüşməz.

Geyinərsən adın olar,
Yeyərsən dadın olar,
Yeməzsən yadın olar.

Geniş ev könülaçan olar.

Gejə bir, oğru bir.

Gədə qızınnan gəlin olmaz,
Danalı inəkdən sağın.

Gədədən bəy olmaz.

Gəzdi İranı, Turanı, cənnət tafdı buranı.

Gəzən ayağa çirk dəyər.

Gəzərsən xırda-xırda, bir gün uğrarsan qurda.

Gəldi hayım, getdi payım.

Gəlin ayağa durdu, başdı başını saxlasın.

Gəlin atdandı, görək kimin qapısına tüşəjək.

Gəlin deyər, qaynana söyər.

Gəlin getdik, ün gətirdik,
Umu-küsülü gün gətirdik.

Gəlin sındıran qavın səsi çıxmaz.

Gəlinə çömçüyü yalama deyir,
Özü qaymağı yeyir.

Gəncədən kişmiş gəlir, əppəyi pişmiş gəlir.

Gənə udan sınaxlı olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Goru gözümnən gördüm.

Gejə otağa, gündüz yatağa.

Göz kü var, görmək üçündü.

Gödək adamın könlünnən gündə xojalıx keçər.

Göz nə istər iki göz, biri əyri, biri düz.

Göz ürəyin elçisidi.

Gözəlin dərdinə az inanan olar.

Gözəl gözəl döyül, göz tutan gözəldi.

Gözəlin üzündə buğda pitmir.

Gözü əldən yığılmır.

Gözü gördüyünnən göz kirəsi istiyir.

Gözün görür, ağlın kəsmir.

Gözümü sənə verdim ki, dünyaya baxasan, vermədim ki, yaşını sıxasan.

Göydən yağanı yer götürər.

Gördüyünü qoyuf, görmədiyinə getmə.

Gör-götür dünyasıdı.

Görən deyir: oruc tutursan?

Görən gözə kül tökmə.
Gül ağacınnan odun olmaz.

Güldən motal təpilməz.

Gülüncə gülələr.

Gündüzlər qarğa qovluyur, gejələr çarıx yamıyır.



Güjsüzü allah vuruf sən nəyini vurursan?

Genəşikli don gen olar.

L

Ləzgi nədi, güzgü nədi?

Ləzgi fağır döyül, yeri darısqaldı.

Ləzgiyə dedilər qulağını göstər, dedi: utanıram.

Lovğa nə qədər bağırdı, səsi elə çatmadı.

Lotu arvadın bij balası,
Dəli arvadın gij balası.

M

Mazzaratı gəzməknən ha döy, ırasd olmaxnandı.

Maya buddu arvad al, nər buddu oğul doğsun.

Mayan çıxdısa, qazancına bənd olma.

Mayasında saman olmuyan palçıx tufarda duruş gətirəmməz.

Mal qalıfdı dəliyə, dəli bilmir neyliyə?

Mal ticarətsiz, elm mübahisəsiz, hökmdar siyasətsiz əbədi yaşamaz.

Malı başınnan, insanı dilinnən bağlıyallar.

Malın da var, dilin də var.

Malı ya bavası ölmüşdən, ya da kefi gəlmişdən al.
Malını dişin varkən ye.

Mallıya bəli, malsıza dəli.

Malın maral olsun, çöllərə düşsün.

Malağana məssəf qoruma.

Mana Böyük yaldan ilxı ha tökmürsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Manqal maşasız olmaz.

Marala buynuzu qənim.

Maralın əti də, dərisi də,
Balığın başı da, gerisi də.

Mart havası, ərnən-arvad davası.

Martda mərək,
Yarı görək...

Maşa varkən əlini yandırma.

Meşəni azan daşıyan qurtarar.

Meşiyə baltasız girən, gora imansız gedər.

Meşədə qavaxda, çayda dalda get.

Mə quşudu doydum deməz.

Mə'dən daşsız olmaz.

Məliyən qoyunnan vurağan qoç yaxşıdı.

Məmə məmədi bir-birinə toxunur.

Məmmədəli hoppansın, mən də hoppanım.

Mən deyirəm: – evlənməmişəm,
Sən deyirsən: neçə oğlun var?

Mən elə ha döyləm şəklimi çəkən pis çəkif.

Mən yatım, yaman keşsin, yaman yatsın, mən keçim.

Mən yığıram qurşağıma,
Sən tökürsən aşağına.

Mən oğru oldum, ay dana qaldı.
Mən ona yoldaş demişəm, hələ dost deməmişəm.



Mə bax nə gündəyəm, yara bax nə sallanır.

Mə dəymiyən qurd min il yaşasın.

Məni aparan çaya Kür də deyərəm, Araz da.

Məni eşşəyinin tərkinə almıyanı, mən niyə atımın tərkinə alım?

Mənimki mana çatsın.

Mənnən sənə öyüt,
Dənini özün üyüt.

Mərd dayanar, namərd qaçar.

Mərd kişi çörəyini daşdan çıxardar.

Mərd meydanda mə'lum olar.

Mərd odu ku, işin tuta mərd ilə.

Mərdi qova-qova namərd edəllər.

Mərdimazarı axtarmaxnan döyül, özü axtarıf tapır.

Mərdin mərddən bir səxası artıxdı.

Mərdin sözü kəsər, namərdin gözü.

Mərddik üzdən, məhəbbət gözdən oxunar.

Mərək deyir: içimdəkini aparma, gətirmişkən varsan.

Məsləhətnən gedilən cığır, məsləhətsiz gedilən yoldan genişdi.

Məsləhətnən görülən işi, güjnən görmək olmaz.

Məhəbbət ölən deyil, yüz il belə ötüşsə.

Molla bəyə qoşuldu, xalxın öyü yıxıldı.

Molla yazdığını danıf, daz qız dazdığını.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Molla sazı istəməz, ağaş pazı.

Molluya çatan çatsın.

Molladan soruşdular: – Axund çox yeyər, seyid?
Molla dedi: – Axund doyunca, seyid ölüncə.

Mollanın sayı artdıxca ölən də çoxalır.

Murdarı murdar aparar.

Müxənnətnən ehsan yeməyə də getmə.

Müxənnətin ətəyinə darı sərmək olmaz.

N

Nadan özünü öyər, kor gözünü.

Nağaraçıya söz yoxdu: vur deyirsən vurur, dur deyirsən durur.

Nağı ağıl deyir, Tağı nağıl.

Nala, mıxa vurur.

Nalını gəzdirə bilmir, yük gözdüyür.

Namərdin gözü yox olar, mərdinki tox.

Namərdnən aş yemişəm, aşa tova demişəm.

Namusu it də yemir.

Namusunu atıf, qonşusunu da özünə qatıf.

Namussuz qohum qoltux yarasıdı, nə açıf göstərmək olur, nə qoparıf atmax.

Namussuz yaşamaxdansa, namusnan ölmək yaxşıdı.

Naxıra qatdım, danaynan gəldi.

Naxartana bilən olsan, bir bilənə genəş.



Nacins ağaş düyünnü olar.

Nə ağına baxır, nə bozuna.

Nə araxda şəfa, nə də namərddə vəfa.

Nə dostduğu bilinir, nə düşmannığı.

Nə ərəbin üzün gör,
Nə şamın şəkərin.

Nə iyi tapılsın, nə piyi.

Nə işim işdi, nə əlim boş.

Nə işindən qalaram, nə işini yarıdaram.

Nə yatıf, nə yuxu görsün?

Nə yatdım, nə vəyğa görəm.

Nə yuğurdum, nə yafdın, hazırca kökə tapdım.

Nə otu var, nə suyu.

Nə oturana yer verir, nə danışana dil.

Nə üzdürə bilir, nə öldürə bilir.

Nəslində olan, əslində olar.
Nəhəng dəryada olar.

Nəsihət ajıdı, meyvəsi şirin.

Nəhlət pozana,
Rəhmət düzənə.

Neçə ki, qazı qapıdadı, dovşan samannıxda balalıyajax.

Nisyə yeyən iki dəfə keflənər.

Nicat verən, nicat görər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nökər kimi qazan, ağa kimi ye.

Nuhu taxtda görüf.

O

O dağa qar yağdı, bu dağa xavardı.

O iti vurdum cinsidi, bu iti vurdum cinsidi, o it də bu itin cinsidi.

Ova qurudu üstdə iki qarğa dalaşar.

Ova malına tamah salmazdar.

Od düşdüyü yeri yandırar.

Oğlum öylük, qızım köylük.

Oğlunu öyən dizinə döyər.

Oğru elə bilər hamı oğrudu,
Doğru elə bilər hamı doğrudu.

Oğru papağınnan da qorxar.

Oğru həmişə doğruluxdan danışar.

Oğrudan oğruya halaldı.

Oğruya dağlar baş əyər.

Oğurruğa gedəndə dayın öyünə get ki, dəyməsinnər.

Oğul böyütdüm, nər böyütdüm, yad qızına ər böyütdüm.

Oğul el yaraşığı,
Qız dil yaraşığı.

Oğul işıxdı, qız yaraşıx.
Oğul odu ku, atasının başına and içə.

Oğruya dağlar da borşdudu.



Oğlun əfəli qohumnan qız alar.

Odu qoyuf, külü ayaxlıyır.

Odu söndürüf qorunu saxlamazdar.

Odun odunu yarar, axmax özünü.

Ozannarda at otarır,
Göyçədə balıx tutur.

Oyçuyam oylamaram,
Oy göysər qoylamaram.

Oyçunun naşılığı qurtarmaz.

Olan yerdən umallar.

On döyrüş bir kilimə sığışar,
Ancaq iki padşah bir ölküyə sığışmaz.

On kişiyə bir yava,
Bir qadına on tava.

Ona kişi deyərəm ki, öləndə yaxınınnan çox borşdusu ağlamasın.

Ortax malın olunca ortax arvadın olsun.

Ot kökü üstə bitər.
Ot saxlama, ət saxla.

Otax tikdim qonağa,
Qonaxsanmı, keş qağa!

Ojax deyər: – Qarın üstə yanaram,
Əmə külün üstə yanmaram.

Otağa qoyuf yandıram,
Qırağa qoyuf söndürrəm.

Ojaxdan kül əysik olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ojağını göz elə, ürəyini düz elə.

Ö

Öz daşımı öz divarıma qoyuram.

Öz əlimnən öz çıramı keçirdim.

Öz iti olmuyan özgə iti boğuşdurmaz.

Öz gözündə tiri görmür,
Özgə gözündə qılı seçir.

Öz güjünü andırır, kim toxunsa yandırır.

Özgə atına minən tez düşər.

Özgə ağzına baxan aj qalar.

Özgə özgə ölüsünü holavarnan ağlar.

Özgəyə dərs verir, özü tərs gedir.

Özü əyirif, özü də toxuyur.

Özü-özünə eliyənə el də yığılsa eləməz.

Özünə dost qazan, düşman ojax başındadı.

Özümüzə yağı, düşmən ayağı.

Özünə rəva bilməyəni,
Yoldaşına da bilmə.

Özünə umac ovammır, başqasına əriştə kəsir.

Özünü alim görən cahildən uzağ ol.

Özünü bir inəkli bil, qonşunu iki.
Özünü yorulmuş biləndə, yoldaşını ölmüş bil.

Özünü öyən dizinə döyər.

Özününkünü çuvala soxur, mənimkini başıma qaxır.



Öy qalıf əyriyə, həm yeyə, həm səyriyə.

Öy gördüm, öyümnən irgəndim, öy gördüm, öyümə imrəndim.

Öy tikilər daşıynan, iş görülər başıynan.

Öyüd yerinə söyüd.

Öyündə yoxu gejəlik, könlünnən keçir xojalıx.

Öküzü qaldırıf altınnan buzoy istiyir.

Öküzü öldürüf pıçağı umuzunda sındırmazdar.

Öküzü pıçağın yanına yox, pıçağı öküzün yanına aparallar.

Öküzdən pendir tutur, inək nəyinə lazımdı.

Öküzünün yükünü yüngül elə, adını qoçax qoy.

Ölən inək süddü olar.

Ölənnən ölməzdər.

Ölənnən ol, öldürənnən olma.

Ölməsin o yaman, yerinə yaxşı gələ.

Ölü dərdi dərd olmaz, haray dirinin dərdi.

Ölüyü ölüyə hayan qoyullar.

Ölüm var ölüm kimi,
Ölüm var zülüm kimi.

Ölülər elə bilir, dirilər halva yeyir.

Ölüm mə’lumdu, mə’lum olmuyan vaxtıdı.

Ölümə çarə yoxdu.

Ölünün böyüyü-kiçiyi olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ölünün əli daş altdadı.

Ölüsünnən ölüyəm, dirisinnən diri.

Ölüsünü ağlamır, öz gününü ağlıyır.

Ördək basdırdıx qaz çıxıf,
Gülpəri qarı qız çıxıf.

Örkəninin üsdə darı sərmək olmaz.

Örtülü bazar, dostduğu pozar.

Öskürənin yanında asqırmasan, deyər ağzı yoxdu.

P

Padşaha arvadı qənim.

Padşah boşdux eləsə, bazarda ojax yanar.

Padşahın beli sınsın,
Xəzinəyə siçan düşüf.

Padşahın dəmiri yox, əmiri gərək.

Pay apararsan, pay gətirərsən.

Pay aparmazsan, xurcunun boş qayıdar.

Paya dedilər: hara gedirsən? Dedi: pay gətiməyə.

Palıddan badam, molladan adam olmaz.

Palıddan dirək, zoğaldan kötək.

Para əppək pütoy əppəyin söykəyidi.

Papax altda oğlan yatır.

Pasdı tüfəng, inad arvad, tənbəl at.

Paxıl ayağına baxar.



Paxıl adamnan vəfalı it yaxşıdı.

Pəyəsində malı çox, çənəsində halı yox.

Piyadanın peşəsi atdıya gülməkdi.

Pirinə təpik atma.

Pis al, çirkin al, bədəsil gözəl alma.

Pis bildiyini özgüyə rəva bilmə.

Pis aravd adamı kişilikdən salar.

Pis qonşu adamı hajdan elər.

Pis qohumnan yaxşı qonşu yaxşıdı.

Pis qohum baş qaxıncı; atdın nədi, tutdun nədi?.

Pis it tayını boğar.

Pis yuxuyu yaxşı adama yozdur.

Pisi çıxartma ayıfdı.

Pişiyi elə qurdala qayıdıf üzünü cırmasın.

Pişiyin əli ətə yetişmiyəndə adını iylənmiş qoyar.

Pişiyin bığı sağ olsun, o da məstan kişidi.

Pişiyin xeyri olmasa, siçanın dalınca getməz.

Pişin quyruğunnan oynuyan kimi nəynən oynuyursan?

Pişik kökələndə siçannar qavağında yallı gedər.
Pıçax lap sümüyə dayanıf.

Pıçaxçıda pıçax tapılmaz.

Poşadan paşa olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pul çox, ağıl yox.

Pulu arvadın sonku ərinə yığır.

Pulunu ver, ulağını yüklə.

Puluna qazan al, artığına da çırax yağı.

R

Rəhmət düzənə, nəhlət pozana.

Ruzi qismətnən gələr.

S

Savadsız adam, qanatsız quşdu.

Savır gennikdə, qavır sərinnikdə.

Saqqal uzanıf, mollalıx etmək olar.

Saqqalım yoxdu, sözüm keşmir.

Saqqalı hələ ələ verməmişəm.

Saqqalına baxıf ayağa durdum, ağlına baxıf dizimə vurdum.

Saqqalıma soğan doğrama.

Saqqalının ağlığına hörmət elədim,ağlını nə bilim?

Saqqız satıf qazanc götürürük.

Saqqızı zivilə düşüf.

Saqqızı qurtarıf qır çeyniyir.

Saqqızını oğurruyuf.

Sağ gözü tut, sol gözdən ona işıx yoxdu.

Sağsağana qurut gözdədir.

Sayğısız iyidi düşmən alladar.



Sağsağanın dərdi qurut dərdidi.

Salaxanta qancığın balası qurd basa bilməz.

Salavat qüvvətə bağlıdı.

Saman sənin deyil, samannıx kı, sənindi.

Samana qatsan at yeməz,
Köpəyə qatsan it.

Sana tanrı törpüsü dəymiyif.

Sancılı qarnı olmasa,
Uzanan burnu olmaz.

Sarsax qarpızın ciyidi çox olar.

Sat dedim satmadı, al dedim almadı.

Səbr uğurun açarıdı.

Səkkizi sıfır oxuyur.

Sən Allahnan ol ku, Allah da sənnən olsun.

Sən atını yəhərrə, gələn-gələjək.

Sən inandın dayına, dayın da qaldı öz hayına.

Sən yaxşılıx edə biləni seç, bilməzin başınnan keç.

Sən gələnətən, keşkə bir qara gün gələydi.

Sən gördüyün bavan ölüf.

Sən nə qaz boğazdıyırsan?
Sən sərdiyini gözdə, sərçə əl çəkən döyül.

Sən tülküsənsə, mən də quyruğuyam.

Sənə elə söz deyərəm ki, dəymişin duran yerdə kalın tökülər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sana yaxşı, mana da yaxşı.

Səni göydə gəzirdim, yerdə əlimə düşdün.

Sənin atın hürkəjək deyni, mən zurnamı çalmıyım?

Sənnən karvan vuran olmaz.

Sərvətin anası torpaxdı, atası zəhmət.

Sərçə ətinnən qonax yola düşməz.

Sərçənin adı nədi ki, budu da nə ola?

Səsi savax çıxajax.

Sizə ədatdı, bizə bedat.

Sirrini sirdaşa de,arvadsız qardaşa de.

Siçanın zılı da dəngizə xeyirdi.

Siçannan törüyən kəsəyən olar.

Siçanınkı da mərəyəcəndi.

Sırtıx özgə qapısında kökələr.

Sona qalan dona qalar.

Sonradan çıxan buynuz qulağı deşər.

Soruşan zaval görməz, çalışan zərər.

Söz var el içində, söz var ev içində.

Söz var gələr keçər, söz var dələr keçər.
Sözün qədəmi yeyin olar.

Sözün zahiri zərif, batini lətif olmalıdı.

Söy məni, döy məni, adam yerinə qoy məni.



Söylüyənə baxma, söylədiyinə bax.

Söyüdün gözü, kasıvın sözü.

Söyündüyünnən suya düşmə.

Söz vermə, verdin əməl elə.

Söz kimindi, götürənin,
Sufra kimindi, oturanın.

Söz sözün söykəyidi.

Söz üçün usta, iş üçün xəstə.

Sözün əzəli, qızın gözəli.

Söz-sözə arxadı.

Söhbətin şirin yerində vartazar gəldi: allah saxlasın.

Su axarına, ağaş baxarına.

Su gəlmiş arxdı, bir də gələjək.

Su səmtinə axar.

Susuz yerin allahı birdi, sulu yerin allahı iki.

Süddü qoyun süddən çıxmaz.

Südü inəkdən, suyu bulaxdan istə.

Südünə görə mələ.

Südsüz inək mələyən olu, hünərsiz arvat güləyən.

Sümsük it utansa da, sümsük adam utanmaz.

Sümüyü yox, südü lazımdı.

Sürüsü yaxşı sürüdü, qavaxda tökəsi yox.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Süfrənin böyüyü oluncax, donuzun kicciyi ol.

T

Tamarzı kimdi? – Dadamal.

Tamah yıxmıyan evi, tanrı da yıxammaz.

Tamahına güj gələn, ağrısına güj gələr.

Tamahkar itdən murdardı.

Tamahkar xain olar.

Tata nə, gürdə.

Taxılı əkən yeyər.

Tez öl, düz öl.

Tez tünddəşən, tez yumşalar.

Tək başım, dinc başım.

Təki bağım olsun, bar özü gələr.

Təklikdən allah da bezardı.

Tələsiyən iki-iki ötürər.

Tənbəllik yoxsulluğun açarıdı.

Təndirə təpər toyuğu.
Təpə dağdan ucaymış, bığ saqqaldan qojaymış.

Təpədə oturuf dəngizdən balıx istiyir.

Tərəkəmə qazanar, tat yeyər.

Tə’rifli motaldan qurd çıxar.

Tikdiyi öydən utanmır, üşkürək də çalır.



Tikə bilmədiyini yıxma.

Tikə dağ aşırar.

Tikə verməz, loxma qalar.

Tikan əkən, tikan görər.

Toy günü duruf, yas günü bəzənir.

Toyux bannadı, başını kəs.

Toyux su içif yuxarı baxar, xayın aşağı.

Torpax basdı ha döy.

Torpax öz varını çölə verər.

Tox deyər: ajmaram, aj deyər: doymaram.

Toxa toxluxdan olar, üz-göz yoxluxdan olar.

Toxun ajdan xəvəri olmaz.

Toxun imanı olmaz,
Ajın gümanı.

Tökmə sudan bulağ olmaz,
Qoyma ağıldan ağıl.

Tula küsər, payını kəsər.

Tulanın sarsaxlığınnan dovşan mərəkdə balalıyar.

Tuturam durmur, buraxıram vurmur.

Tülkü quyruğunu gəzdirə bilmir, dalına da bir şax bağlıyır.
Tülkü tülküyü buyurdu, tülkü də quyruğunu.

Tülkünün beli sınsın, toyux ağaşda yatır.

Tüpürərdim bu işə, qorxdum öz üzümə düşə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

U

Uzax yerin qazancı hololoynan yeyilər.

Uzun adam axmax, gödək adam toxmax olur.

Uzun sözün kəsəsi, mal ətinin küftəsi.

Uzun saşdının ahı yerdə qalmaz.

Uluyan it özünə qurd gətirər.

Ustad görən şəyird hər məqamda yorğalar,
Ustad görmüyən şəyird ordan-burdan qamarlar.

Ustad cəfası ata mehrinnən artıxdı.

Usuvalının savahına döndərmə.

Utan utanmazdan, qorx qorxmazdan.

Utananın oğlu olmaz.

Uşax atadan yetim olmaz, ancax anadan olar.

Uşax evin güzgüsü, qoja evin dirəyidi.

Uşax məhəbbətə, it təknəyə.

Uşağı uşaxlıxda,
Küçüyü küçüklükdə.

Ü

Üz üzdən utanar.

Üzü üzümə, gözü gözümə.

Üzünü görmüyənin xeyri olsun.
Üyüdəndə darı, yeyəndə buğda.

Ük əyməsə, daş qərifliyə düşməz.

Ürəyin istiyəni eləmə, ağlın kəsəni elə.



Ürəkdən gələn söz ürəyə yol tapar.

Üstü bəzək, altı təzək.

Üç iyiddik, bir iyiddə olmaz.

Üç onşu varrı olsa, biri ortada dolanar.

F

Fağıra zalımın rəhmi gəlməz.

Fəlakətə düşmüyən sakitdiyin qədrini bilməz.

Fələyə fələk.

Fənd fəndi kəsər.

Fərsiz oğuldansa, oğulsuzdux yaxşıdı.

Fərhad ölüf külünkünün səsə gəlir.

Fikir bir yerə gedər, güman yüz yerə.

X

Xainə sürü göndər, yenə civin güdər.

Xain canavar cinsidi: çapmasa dincəlməz.

Xalq oyandı sən yat, xalq yatdı sən oyan.

Xatıya düşən, balıya tüşər.

Xalxınkı quş gətirir, bizimki bayquş.

Xam atı minməkdən, çullamağı çətindi.

Xamır yeyənin fağırı olmaz.
Xamıram, suyam durmuşam buyam.

Xan məni aldı, öpbəyi qaldı.

Xeyir söylə qonşuya, xeyir çıxsın qarşına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xeyirin gələn yerə papağını tıxama.

Xeyrini görmədiyim dostun vayına oturum.

Xeyirri xuda döysün.

Xəngəl qaşıxda, xaşıl barmaxda.

Xəncəli qınınnan apartdırır, çolpanı hinnən.

Xəsisin aj gözünü qəvir doyuzdurar.

Xəsisin gözünü qəvir doyuzdurar.

Xəsisin malı özü qəvirə gedəndə çıxar.

Xəstə istəməknən döyül, armudun yetişən vaxtı var.

Xəstə yatan ölməz, əjəli yetən ölər.

Xortdanı cırtdannan qorxudur.

Xoruz bannamaz əbəs.

Xoca bizdə, xurcun sizdə.

Xoşbaxt odu ku, əkər yer,
Bədbəxt odu ku, qoyuf gedər.

Xırman döyən öküzün ağzını bağlamazdar.

H

Haqq verən paydan qudurana haqq qənim olar.

Haqq-hesavı düz olan hesaf verməkdən qorxmaz.

Haqqa söykənif, dağarcıx yırtır.
Hajdan gələn mən, xəvər verən sən.

Hajının şülənəi, nədi?

Haynan gələn, vaynan gedər.



Halal mal yiyəsinindi.

Hamısı bir zivildi, torvası ayrıdı.

Harda zəhmət, orda ne'mət.

Haxsız divan olmaz.

Heyvan başınnan, insan dilinnən.

Hesavı çürütməyə, səni kiritməyə gəlmişəm.

Həddini bilmiyənə bildirəllər.

Hədsiz sərtdik dəhşət yaradar.

Hər iti üstünə hürütmə.

Hər kəs özünü, kor gözünü bəyənər.

Hər kəsin bir dərdi var, dəyirmançının da su dərdi.

Hər kimdi, başı papaxlıdı.

Hər kişinin meşədə bir ağacı olar.

Hər sözün öz yeri var.

Hər hürən itə daş atmazdar.

Hərcayı sözün hərcayı da cavavı olar.

Həfdəsinnən motal olmaz.

Hər şey nəzikliyinnən sınar, insan yoğunnuğunnan.

Hər şeyin öz qıymatı var, hər yerin öz adamı.

Hərə öz güjünə görə şələ götürər.

Hərə gözü öz qavağına çəkər.
Hərrə tatı, vur tatı.

Hətəm xalxı Kürə tökən kimi, bizi Kürə tökmə.

Höyüş odun kimi nə tısıllıyırsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Höcətdikdə yeddi kotanı işdiyir.

Hürmüyən iti aş burax,
Yalını kəs, aj burax.

Hürüsü yox, Pərisi yox, keçəl qızın tayı kim?

Hər işin öz yeri, hər meyvənin öz dadı var.

Həyasızdan həyanı saxla.

Həya ilə niyənin üstündə yekə dava düşər.

Hələ burnu daşa dəymiyif.

Həm məni döyürsən, həmi də qoymursan ağlamağa?

Hənək, hənək dalı dəyənək.

Hər ağaş masan olmaz,
Hər kişi hasan olmaz.

Hər ağızdan bir avaz gəlir.

Hər aşığın bir sevəni,
Hər zamanın bir hökmü var.

Hər binanın bir ustası, hər məxluqun bir xaliqi var.

Hər bığı olana kişi desəydilər, pişiyə Rüstəmi Zal deyərdilər.

Hər quş gəldi-gedərdi, sana qalan boz sərçədi.
Hər dərədə bir at öldürməsən, adın baytar olmaz.

Hüsüdü, Həsidi, uşaxların dədəsidi.

Ç

Çavalıyan balıx tora düşər.

Çaqqal var, gödən yırtır, qurdun adı bədnamdı.

Çaqqal tülküdən betərdi.



Çağırılan yerə ərinmə,
Çağırılmayan yerə görünmə.

Çay həmişə qızıl alma gətirməz.

Çaya çatmamış çirmənir.

Çayda su çoxdu, amma öydə miqdarı gərək.

Çayçıda oxuyana aşıx deməzdər.

Çalışqan deyər: – Bu gün işdiyək, savax yatax,
Tənbəl deyər: – Bu gün yatax, savax işdiyək.

Çəkən öküzün burnuna vurallar.

Çəkənə bu da dərddi.

Çəkic ol, üstə ol, zindan oluf altda qalma.

Çənədən saz, ağıldan az.

Çəpərsiz bəriyə qurd düşər.

Çəpiyi iki əllə çalallar.

Çəhlimini sudan çıxartmax olmur.

Çirkin burda dur, gedim gözəl axtarım.

Çivan yetişməsə, deşilməz.

Çıxan can geri qayıtmaz.

Çovanın könlü olsa, təkədən pendir tutar.

Çox yemək adamı az yeməkdən qoyar.

Çoxları çox şey bilir, hər şeyi heş kəs bilmir.

Çöp üstə dəyirman tikmə.

Çörəyi çörəkçiyə ver, birini də üstəlik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çuvalın ağzını aşsan, divi görsənər.

Çuluna bürün, elnən sürün.

C

Cavan yumrux yedizdirər, qoja quyrux.

Cavannıx bir quşdu tuta bilmirəm, qojalıx bir yükdü sata bilmirəm.

Cavannıxda çək cəfa, qojalıxda sür səfa.

Comışdan qoruxçu olsa, qurddan çovan olar.

Can döykün çıxa, puldu çıxmır.

Canavar sürünün çoxluğunnan qorxmaz.

Canavardan soruşdular: – Köşmürsən?
Cavaf verdikin: – Mənimki də elnəndi.

Canavarı da öldürüf, ayını da, meşə özünə qalıf.

Canavarın qulağını kəsməknən it olmaz.

Canınnan bezən, ağzına gələni deməkdən çəkinməz.

Cahil özünün düşmanıdı, başqalarına nejə dost olar.

Camaldan düzgün olan
Kamaldan da düzgün olar.
Cənnəti tapmıram, cəhənnəmə də şükür.

Civində ki yüzdük var,
Kovxa yanında düzdük var.
Cinayətdən sonra tovanın xeyri yoxdu.

Cındırınnan cin hürkür.

Cır atdar getdiyi yolu görər, tuş atdar bərənin o üzünü görər.

Comuşdan ehsan, keçidən qurvan olmaz.



Comuşun qanadı olsaydı, uçurmamış yer qoymazdı.

Cütə getməyə öküzüm ola,
Buyruğa getməyə oğlum.

Ş

Şalvar başdan geyilməz.

Şamlığa donuzun girməsi tazının ağzının boşduğunnandı.

Şapalaxnan üz qızardır.

Şah başsız olanda, keçəl başda olar.

Şah şahlığın yerə qoyar, əmə qız qızdığın qoymaz.

Şəkər əkirəm duz çıxır, hamama gedirəm buz çıxır.

Şələn arxana düzdü.

Şər atdanar yeriməz.

Şər söyləməsən, xeyir gəlməz.

Şərti şumda kəsək ki, xırmanda toz olmasın.

Şəhrin böyüyü, kəndin kiçiyi.

Şillər öz məhləsini çapar.

Şir itin artığını yeməz.

Şırmanan adamnan şırmanan tula yaxşıdı.

Şüurru uşax qırx günnükdən manşırdı.

Şüş qızıl ola, tamahım yoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# L Ə T İ F Ə L Ə R

## BİR OD YOX, İKİSİNİ GƏTİRDİM

Beş-altı nəfərnən Qafar addı bir kişi meşəyə ağaj qırmağa gedir. Danışıllar kı, elə eləyək ki, meşəbəyi xəvər tutmasın. Bilsə, ağaj qırmağa qoymuyajax.

Axşama kimi işdiyir, qarannıx düşəndə ojax çatıf dincəlmək istiyillər. Ancax ojax qalamağa od olmur. Görüllər ki, xeyli aralıda ağajdarın arasınnan işıx gəlir. Qafara deyillər ki, get bir od gətir gəl. Qafar gedir. Çatanda görür kü, ojax başında oturan meşəbəyidi. Meşəbəyidən od istiyir. Meşəbəyi dərhal başa düşür kü, meşəyə ağac aparmağa gələnnərdən olajax.

– Burda neyniyirsiniz? – deyə meşəbəyi soruşur.

Əlacı kəsilən Qafar düzünü boynuna alır.

Meşəbəyi Qafara od verir, özü də onnan gedəjəyini bildirir. Qafar yoldaşdarına yaxınnaşmağa bir qədər qalmış kimsə səsdənir:

– Ay Qafar, bir od gətirməyin nə oldu? Gətirə bildinmi?

– Bir od yox, ikisini gətirdim, – deyə Qafar cavab verir.

## YEMİŞƏM, ÖZ ORUCUMU YEMİŞƏM

Dəli Məmməd Döyrüş qavrında yaz əkini eliyirmiş. Özü də oruşluğuymuş. Kişi xeyli işdiyir, yaman yorulur, bir yannan da ajdıx bunu lap əldən salır, təntidir. O yana, bu yana boylanıf görür kü, heş kim yoxdu. Kişi bir daldaya çəkilif çörək yeməyə başdıyır.

Kənd mollası Hajalı Əfəndi həmişə orujduxda adamları güdürmüş. Sən demə Dəli Məmməddən də üşürgələnifmiş. Gəlif görür kü, cüt yiyəsizcənədi. Bir xeyli gözdüyür. Amma Dəli Məmməd gəlif çıxır. İrəli yeriyif görür kü, Dəli Məmməd rahatcana yeyif-içir.

– Ə, a başı batmış, nə qələt eliyirsən, adam da orucunu yeyərmi?

Dəli Məmməd lap məəttəl qalır, utandığınnan qıpqırmızı qızarır. Hannan-hana özünə gəlif yalvarmağa başdıyır:

– A Hajalı Əfəndi, aman günüdü bunu heş kəsə demə, məni oruj namazınnan qoyma. Sarı yoxuşun bəlimini pulsuz-parasız sana verəjəm. Hajalı Əfəndi çıxıf gedir. Orujdux namazı gəlif çatır. Hamı sübh tezdən oruc-namazı qılmaq üçün Hajalı Əfəndinin qapısına gəlir. Dəli Məmməd də bunnara qoşulur.



Hajalı Əfəndi hamının qavağında dayanıf tez-tez:

– A Məmməd hım, a Məmməd hım deyir.

Məmməd görür kü, hamı buna baxır. Hajalı Əfəndi də elə hey dediyini təkrarrıyır. Dəli Məmməd boğaza yıxılıf deyir:

– A başına dönüm, nə çox hım-hım eləyirsən, yemişəm öz orujumu yemişəm, mənnən nə istiyirsən?!

## RƏHMƏTLİK TANIŞ ÇIXDI

Əvvəllər Göyçəlilər aran yerrərinə taxıl biçməyə gedərmişdər. Buna el arasında peşxurt deyərmişdər. Teymur bir gün qonşudan on iki-on üç yaşdı Qasım addı bir uşağı da götürüf peşxurda getməli olur. Xeyli yol getdikdən sonra axşamüstü bir qəbiristannığın yanında ulağı hörüklüyüf, dincəlməli olullar. Teymur görür kü, Qasım yaman nadincdi. Onun sözünə o qədər də əhəmiyyət vermir. Teymur başdıyır kı, oğul, biz bu gejəni elə burdaja keçirək. Bir də gedif harda qalajıyıx. Ancax gərək yatmıyax, yatsax da birimiz yatax, birimiz oyaq qalax. Bura qəbiristannıxdı. Bir də görərsən ki, ölülər səni çəkif yanına apardı. Yə'qin ölülərin diri adamı, yanına çəkdiyini çox eşitmiş olarsan. Hələ axşamnandı, mən bir az gözümün ajısını alım, sən oyaq qal ulaxımızı gözdə. Sonra mən qalxaram, sən yuxuluyarsan.

Bunnan sonra Teymur xurcunu başının altına qoyuf gözdərini yumur. Az keçir, çox keçir, gejənin bir vaxtı Teymur gözünü açır kı, Qasım yatıf. Ulağın kəndirini açıf bağlıyır onun ayağına. Özü də gedif girir uçux qəvirrərdən birinə, başdıyır Qasımı qəvirə tərəf çəkməyə. Qasım gözünü açır kı, ay dadi-bidad onu qəvirə tərəf çəkif aparıllar. Əlini haraya atır mümükün olmur. Görür əl-əldən üzülən yerdi. Başdıyır qışqırmağa:

– Ay Teymur əmi, qoyma məni aprdılar! Ay qoymayın, məni ölü yanına çəkdi!

Bu vaxt Teymur başını uçux qəvirdən çıxardıf deyir:

– Ay axmaq, sənə deməmişdim yatma, yatıf məni də azara saldın. Budu, ölü məni də yanına çəkif. Teymur görür kü, qorxusunnan uşağın bağrı yarılajax. Odu ku, qəvirdən çıxıf uşaxın yanına gəlif deyir:

– Qorxma, məni də buraxdılar.

Qasım hönkürə-hönkürə soruşur:

– Teymur əmi, səni nə yaxşı buraxdılar?

– Rəhmətlik tanış çıxdı, a bala, – deyə o cavaf verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## FƏNDİNİ DƏ GƏTİRİN

Şınıx kənddərinin birində Paşa addı çox güjdü, amma ağıldan qıvrax bir adam varıymış. O, həmişə ağac kömürü, kürək hazırrar, gətirif qonşu kənddərdə satarmış. Bir gün eşidir ki, Kəblə Həsən İrəvana getməyə hazırraşır. Gəlir Kəblə Həsənin yanına kı xahiş eliyirəm məni də İrəvana apar. Otuz kürəyim var, aparım onu satım.

Kəblə Həsən deyir:

– Nə danışırsan, otuz kürəyi aparmaxmı olar?

Paşa yalvarıf deyir:

– Ay Kəbləyi, mən İrəvanı görməmişəm, həm də kürəkləri satmax lazımdı, dolanmax çox çətindi. Sənin kürəknən işin yoxdu. Mən aparajam.

– Nəynən aparajaxsan? – deyə Kəblə Həsən soruşdu.

– Nejə nəynən! Arxamda!

– Burdan İrəvana arxanda otuz kürək gedərmi?

– Mən dedim ki, sənin işin yoxdu, mən aparajam.

Axırda Kəblə Həsən razı olur. Savah tezdən yola düşüllər. Kəblə Həsəngil qoyun satmağa aparırmış. Paşa kürəklər arxasında həm qoyunu haylıyır, həm də yoldaşdarınnan qavaxda gedirmiş.

İrəvana çatıf qoyunu, kürəyi satannan sonra onnar gəlif bir meydana çıxıllar. Örgənillər kı, meydanda Hüseynalı xanın pəhləvanı öz güjünü göstərəjək. Kəblə Həsən kişinin belə işdərnən arası sazıymış. Odu ku, oturuf pəhlivanı gözdüyüyüllər. Bir qədərdən sonra meydan sulanır, pəhlivan gəlir. Xeyli daş oynadannan sonra deyillər ki, Hüseynalı xan nəmər qoyuf, kim Qara pəhlivanın dizini yerə gətirsə, nəmər ona çatajax.

Paşa bunu eşidən kimi deyir:

– Kəbləyi, gəlsən mən o pəhlivannan güləşif nəməri alım.

Özünü gülməkdən güjnən saxlıyan Kəbləyi deyir:

– Ay Paşa, o, pəhlivandı, sən onnan başarmazsan. Onun fəndi də var.

– Hər nəyi olur-olsun. Mən onnan güləşəjəm – deyə Paşa əl çəkmir.

Kəblə Həsən naəlac qalıf yığılannara bildirir ki, bir nəfər Qara pəhlivannan güləşmək istiyir.

Əyni-başı cır-cındır olan Paşa özünü meydana verəndə hamını gülmək tutur.

Qara pəhlivan onu görəndə əsəbləşif deyir:

– Mən pəhlivan dedim. Bu nədi mənim meydanıma çıxarırsınız.

– Nə olar, mənnən güləş, sonra da pəhlivanı çağırarsan, – deyə Paşa dillənir.

Qara pəhlivan əlini atıf Paşanın çiynindən tutur, özünə tərəf çəkir.



Görür bu, heş yerinnən tərpənənə oxşamır, başdadıyır fənd işdətməyə. Bu vaxt Paşa pəhlivanı aldı qujağına, çavalada-çavalada vurdu yerə. Camaat yerdən qışqırmağa başdadı:

– Qara pəhlivan, fənd elə, fəndsiz güləşmə.

Qəzəflənmiş pəhlivan yerdən qalxıf quş kimi cumdu Paşanın üstünə. Paşa pəhlivanı bürüf-bükdü, aldı dizinin altına. Artıq pəhlivan da, camaat da gördü kü, Paşaynan bajarmax mümkün deyil. Hüseynalı xan e'lan elədi ki, pul çatır Paşa pəhlivana. Üstəlik ona təzə paltar verilsin. Pul və paltar verilənnən sonra Paşa meydanın ortasınnan çıxmır. Çağırıllar kı, ay Paşa daha meydanı tərk elə. İndi özgə işdər olajax. Paşa əlini belinə qoyuf hündürdən deyir:

– Ay camaat, dediyiniz pəhlivanın fəndi də var. Gətirin onun da kürəyini yerə vurum.

## GÖRÜM YENƏ PƏHLİVAN VARMI?

Bir gün Kəbləyi Həsən Çənmərək bazarına çıxıbmış. Bir az bazarrıx edif evə dönmək istiyəndə, Paşaynan rastdaşır. Görüşüllər. Bir az o yan, bü yandan söhbət eliyənnən sonra Kəbləyi soruşur ku, nə yaxşı gəlmişdin?

Paşa deyir:

– İrəvana getmək istiyirəm. Dedim görüm yoldaş olarmı? Tək gedə bilmirəm.

– Nədi, yoxsa kürəyin var, – deyə Kəbləyi soruşur.

– Hə, kürəyim də var. Bir də ki, görüm yenə pəhlivan varmı? Paltarım tökülüf, – deyə Paşa cavab verir.

## PAŞA AYI OVLUYUR

Bir gün meşədən qayıdanda Paşa əlində bir ayı başı gətirir. Bunu görən camaat toplaşır Paşanın başına. Soruşullar kı, ay Paşa, bu nə olan işdi? Deyir ki, nə olajax, ayının başını qopardıf gətirmişəm ki, görəsiniz.

Arxadan durannardan biri söz atır:

– Nə bilək hardan tapıf, qoltuxuna vuruf gətirif!

Hirsdənmiş Paşa deyir:

– Axmağın biri axmaq, odu ey meşədə ayı salamatca durur. İnanmırsan, get bax.

Deyillər ki, ay Paşa, ayının başı burdadı deyirsən salamatca durur?

Əlbəttə, – deyə Paşa cavab verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən onun başını əliimnən üzüf gətirdim. O hələ orda mayallax aşırdı.

## ADIMI DƏYİŞİK YAZDIRIM?

Paşa qojalıf əldən düşüfmüş. Bir gün ölüm ayağında yatağa düşür. Qohum-qonşu Paşanın yanına gəlif-gedirmiş. Görüllər kı, kişinin vəziyyəti yaxşı döyül. Düşünüllər ki, mollasız ölə bilər. Mollaya demək lazımdı kı, qoy Paşanın yastığının divində otursun.

Mollanı çağırıllar, molla gəlir. O, bir az hədis danışannan sonra deyir:

– Ay Paşa, cavan vaxtında sən də xeyli beyəməl işdərnən məşğul oldun. Allah bağışdıyandı. Tövbə eləmək heş vaxt gej döyül. Eləməsən, işin o dünyada çətin olajax. Bir qədər fikirrəşənnən sonra Paşa deyir:

– Molla, tövbə eləməyinə eliyə bilmiyəjəm. Bəlkə yataxdan qalxdım, əlim-ayağım genə sərpə bilər. Ola bilərmi o dünyaya gedəndə adımı dəyişik yazdırım?



## İTİMİZİN YAL QAVINI NİYƏ QIRDINIZ?

Abdulla kişi öz dəstəsinnən uzax bir mahala gedif çıxır. Bir kənddə toy edənnən sonra qonşu kəndə gəlillər. Hələ yolda ikən bunnara deyillər ki, o kənddə sizi qonax eləmiyəjəklər. Oranın camaatı qonax sevmir.

Kənddə bir xeyli dolanannan sonra onnar bərk ajıllar. Amma onnara məhəl qoyuf, bir tikə çörək verən tapılmır. Abdulla kişi görür kü, axşam düşür. Belə getsə gejələməyə də yer tapmax çox müşkül olajax. Deyir gedək qapı-qapı soruşax, bəlkə bizi bir qonax eliyən tapıldı? Neçə evin həyətinə dönüllərsə, heş biri onnarı yaxın qoymur. Biri deyir: yerimiz yoxdu, o biri deyir: evin kişisi evdə döyül. Başqası deyir: qonağımız var. Axır kı, bir həyətdə on üç, on dörd yaşdı bir qız uşağı onnarın qavaxına çıxır.

– Ay bala, bir gejəlik qonax qalmağa yeriniz olarmı? Qız qayıdıf deyir ki, anam qonşu kəndə dayımgilə gedif, biz onsuz qonax gətirsək, ajığı tutar. Abdulla kişi deyir:

– Qızım, ajmışıx, bəlkə yeməyə bir şeyiniz ola, onnan sonra yenə çıxıf gedərik.

Qız deyir:

– Əmi, vallah çörəyimiz yoxdu. Amma südümüz var. Çörəksiz içərsinizmi?

Abdulla deyir:

– Gəti, qızım, gəti, ajıx.

Qız gedif bir çanax süd gətirir. Onnar südü başdarına çəkillər. Bu vaxt Abdulla kişinin ağlına düşür kü, bu kənddə qonax sevmillər. Nə yaxşı bu südü qız bizə gətirdi. Qızdan soruşur:

– Qızım, anan demiyəjəkmi südü neynədin? Nə yaxşı sən bizi südə qona elədin?

– Əmi, – deyə qız cavab verdi – o süd nəyimizə lazımdı. İçinə siçan düşmüşdü.

Söz qızın ağzınnan qurtaran kimi Abdulla kişi süd çanağını yerə vurur, çanax qırılır.

Qız başdıyır qışqırıf, ağlamağa:

– İtimizin yal qavını niyə qırdınız? Anam məni öldürəjək, tez olun çanağımızı verin.

## BİR ADAMA İKİ DƏFƏ TOY OLMAZ!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abdulla kişigil qonaq ola bilmədikləri kənddən çıxıf başqa kəndə gedillər. Ancax qarannıx düşdüyünnən heş bir yerə getmək imkannarı olmur. Kəndin kənarında böyük bir samannıx varıymış, girillər oraya. Küncün birindəki otun üstündə döşənillər. Axşamdan bir xeyli keçmiş bir də görüllər ki, əlində qazan tutan bir qız içəri girdi. Bir qədər keçənnən sonra da bir oğlan gəldi. Bunnar başdadılar qazanı qavaxlarına qoyuf şirin-şirin yeməyə. Bir azdan qız soruşur:

– De görüm, toyumuza neçə gün qalıf?

– On günnən sonra toyumuzdu.

Sonra oğlan onun əlindən tutuf ayağa qaldırdı, bax, toyumuzda belə süzəjəklər, – deyif oynamağa başdadı. Qız da ona qoşulan kimi Abdulla kişinin dəstəsi zurna-nağaranı işə saldılar. Qıznan oğlan qazanı da qoyuf tüpürdülər davannarına. Zurnaçılar qazanı çəkif qavaxlarına kəmərin altını möhkəm bərkitdilər. Savah kəndə xəvər yayılır kı, filankəsin qızı filan samannığın yanınnan keçəndə cinnər yığnağına rast gəlif. İndi qorxusunnan xəstələnif yatır.

Onlar kənddə iki toy elədikdən sonra çıxıf getmək istiyillər. Bu zaman bir nəfər onlara yaxınnaşıf deyir:

– Filankəsin qızı ilə filankəsin oğlunun toyudu. Beş-altı gün gözdüyün. Gəlinə samannığın qavağında cinnər sataşdığınnan hələ özündə-sözündə deyil. Bir az yaxşılaşsın toyunu çalın.

Abdulla kişi deyir:

– Gözdə deyirsən gözdüyərik. Amma mən bir adama iki dəfə toy eliyə bilmərəm. Birinci toyun nəmərini versinnər, sonra.

Toya də’vət eliyən təəccüflənif deyir:

– A kişi, ikinci toy nədi? Kəndimizdə iki toy eləyif, ikisinin də haqqını alıfsınız.

Abdulla kişi asta-asta deyir:

– Onu bilirəm, qardaş. Sən dediyin toyu mən bir-neçə gün əvvəl samannıxda eliyif qurtarmışam. İndi cinin boynuna atıf haqqımızı vermillər. Mən ömrümdə bir adama iki dəfə toy eləməmişəm.



## AL, ZURNANI SƏN ÇAL!

Abdulla kişi böyük bir toy məclisi keçirirmiş. Deyən, gülən, oynuyan, hamısı qarışıfmış bir-birinə. Abdulla kişi də orada bala-bala qaravəllilərinnən məclisi da şənnəndirirmiş. Məclisin bir tərəfində oturan qadınnardan birinin qucağındakı uşax onnara aman vermir, elə hey ağlıyırmış.

Abdulla kişi axırda dözə bilmiyif deyir:

– O uşağı ağlamağa qoymuyun.

Uşağın anası tələsik dillənir:

– Əgər bacarırsan elə söz de ki, o uşax ağlamasın.

Uşağı mənə gətirin, – deyə Abdulla ayağa qalxır. Mən saxlıyım, görün saxlamax nejə olur.

Uşağı gətirif Abdulla kişiyə verillər. O, uşağı atıf tuta-tuta deyir:

Ağlama bala, ağlama,
Anan bişirər buğlama.
Belə hay-haray salıf,
Ürəyimi dağlama.

Anan nejə bəndədi,
Səni mənə bənddədi.
Günah səni bu axşam,
Toya gətirəndədi.

Zurna hanı yağlıyım,
Qoy yerinə ağlıyım.
Anan zurnamı çalsın,
Mən də səni saxlıyım.

Məclisdə bərk gülüşmə düşür. Uşağı tez alıllar. Daha ağlamax səsi gəlmir. Bir də deyillər ki, anası uşağı da aparıf məclisdən gedif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ORALAR KİŞİ YERİDİ

Abdulla bir dəfə də toy keçirirmiş. Qara zurnanın səsi kəndi başına götürüfmüş. Oynuyan kim, deyən kim, gülən kim. Məclis çox şirin keçirmiş. Bir yaşdı qadın ortalığa çıxır kı, mən "uzundərə" havasına oynuyajam, çal görüm. Adətən "uzundərə" havasına kişilər çox oynuyur. Ona görə də Abdulla başdıyır özgə hava çalmağa. Arvad razı olmur ku, gərək mənə "uzundərə" çalınsın.

– Ay canım, mən "uzundərə" havasını bilmirəm, – deyə Abdulla cavaf verir.

Dodaxlarını sallayan arvad keçif yerində oturur. Yerdən başdıyıllar kı, bu necə çalğıçıdı, oyunçu nə deyir onu çalmır. Bunu eşidən Abdulla deyir:

– A başınıza dönüm, uzun dərədə, gödək dərədə arvaddarın nə işi var, oralar kişi yeridi.

## SƏNİN ƏVƏZİNƏ MƏNİ APARAJAYDI

Deyillər, Qədir adında bir kişinin gözəl-göyçək bir arvadı varıymış. Qədir az fağırtəhər olduğunnan arvad onu bəyənmirmiş. Altdan-altdan özünə gün ağlayıb, bir bazburutdu kişi tapıf, onnan xəlvətcə-xəlvətcə görüşürmüş.

Günnərin birində arvadnan oynaş danışıllar kı, kişinin başını qatıf aradan çıxsınnar.

Qədir qapı-bajada savahdan axşama əlləşdiyinnən arvad aradan çıxmağa fırsat tapa bilmirmiş. Axır bir təhər oynaşına qandırır kı, kişi bütün günü evdə olduğunnan heş yana gedə bilmir. Məni aparmax istiyirsə, gejə gəlsin, qapını açıx qoyajam. Qoluma da məni tanımaq üçün badımcan bağlıyajam.

Arvad dediyi kimi də eliyir. Qoluna badımcan bağlayıf yatır. Amma oynaş bir neçə gün ürək eliyif evə girə bilmir.

Qədir yatannan qavax arvadın qoluna badımcan bağladığını görmüşdü. Ona görə də arvadınnan soruşdu:

– Arvad, o nədi qoluna bağlayıfsan?

Arvad kişisinin bir az ağıldan qıvraq olduğunu bildiyinnən rahat-rahat dedi:

– Ay kişi, istiyirdim sana da , deyim. Doğru deyiflər, qarın qardaşdan irəlidi. Bunun nə olduğunu mən də lap təzəjə öyrənmişəm. İndi ki,



maraxlanırsan, ələş nədi, gərək səni də bu işdən halı eliyəm. Bu badımcanda elə hökm var kı, onu qoluna bağlıyıf yatanda gecə Xıdır İlyas gəlif girir yuxuna. Onnan baravar ta savaha qədər cənnətdə gəzif kef eliyirsən.

Qədir dedi:

– Arvad, gəl bu gejə badımcanı bağla mənim qoluma. Gedim Xıdır İlyasnan cənnəti mən də gəzim, qayıdım.

Arvad dedi:

– A kişi, cənnət dedim, deyəsən yadına hürü-pəri düşdü. Ayıfdı, Xıdır İlyas elə fikirrəşər ki, Qədir kişi yaqın Hürülərin eşqinə düşüf kü, cənnətə getmək istiyir.

– Arvad, boş şey danışma, nə hürü, nə pəri? Elə kişini yuxuda görməyim özü də böyük savafdı. Burya ver, badımcanı.

Arvad nə qədər çəm-xəm elədisə, mümkün olmadı. Qədir badımcanı zornan alıf qoluna bağladı. Xıdır İlyası görmək eşqiynən yerinə uzandı.

Gejənin bir vaxtı Qədir bir də ayılıf gördü kü, iki nəfər onu yorğana büküf aparır. Qədir elə bildi ki, Xıdır İlyas onu cənnətə aparır. Ona görə də rahatca uzanıf cənnət havasınnan lap məsti xumar oldu.

Birdən gördü kü, onu dümsüklüyüf deyillər:

– Amma Tükəzban, canını bu Qədir qurumsaxdan nə qurtardım?

Elə bil Qədiri ildırım vurdu. İndi o hər şeyi annadı. Tələsih qorxu canını aldı kı, əgər bunnar onu evdən çox uzaxda tanısalar öldürəjəhlər.

Odu ku, var gücünnən "Ya Həzrət Abbas" deyif qışqırdı.

Oynaşnan yoldaşı işi başa düşüf onu yerə atarax qaşdılar. Qədir yorğan qoltuğunda hirsdi-hirsdi evə gəlif arvadını saldı təpiyin altına.

Vurduxca deyirdi:

– Sənin Xıdır İlyası yuxuda görən atana lə’nət. Əyər Həzrət Abbası çağırmasaydım, Xıdır İlyas sənin əvəzinə məni aparajaydı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DADANIF QAZ ƏTİNƏ...

Deyilənnərə görə, bizim bu qonşu kənddə yaman şorgöz bir molla varıymış. Arvad görəndə din-imanı gedərmiş. Günnərin birində bunun gözü düşür qonşularında yaşayan gözəl bir gəlinə. Tərsdikdən gəlinin də yolu mollanın qapısınnan keçirmiş.

Gəlin gəlif keşdikcə hiss eliyir ki, molla onu görəndə yumurtası tərs gəlmiş toyux kimi yaman vurnuxur. Əvvəlcə bunu heç açıf-ağartmaq istəmir. Fikirrəşir ki, bəlkə molla insafa gəlif bu əməlinnən əl götürə.

Amma mollada utanıb-qızarası üz hardaydı? Gəlinin ona fikir verməməsi molanı daha da həyasızlaşdırırdı.

Axırı bir gün gəlin gördü kü, molla onu görəndə ayğır at kimi kişniyif öz-özünə oxuyur:

Yeməyə qaz əti,
Yaman olur ləzzəti.
Bir yana qov külfəti,
Ojağı çat xəlvəti,
Gəl ağzınnan çıxartma,
Belə daddı qisməti.

Bir gün, iki gün. Gəlin baxır kı, yox, molla getdikcə daha da hayasızdaşır. Axırda dözə bilmiyif ərinə danışır.

Kişi deyir:

– Arvad, gəl belə eliyək. Sən mollanı çağır evə. Qoy qazını da gətirif gəlsin. Mən samannıxda gizdənəjəm. Elə ki, qazın əti bişdi, mana bir yolnan qandır. Mən gələnə kimi molluyu aparıf inəyin altına salıf deyərsən:

– Molla, sən uzan inəyin yanında. Mən də belinə bir vedrə qatıx töküm. Ərim buraları axtarsa, ona deyərsən ki, inəyimizin bir ala buzoyu oluf. Taa sorasınnan sənin işin yoxdu. Mən özüm bilirəm mollaynan neyniyərəm.

Savah arvad bulağa gedən vaxt molla genə qapıda duruf kişniyə-kişniyə öz mahnısını oxumağa başdıyır.

Arvad da molluya bir qıyqacı nəzər salıb pəsdən-pəsdən oxuyur:

Evi etdim xəlvəti,
Azdırmışam külfəti

Mən razıyam, a molla,



Sənnən yeyəm qaz əti.

Bu sözdəri eşidən mollanın gözü dönür damda saxlanan dana gözünə. Şər qarışan kimi bir yaxşı qazı kəsif vurur qoltuğuna. Sinə-sinə özünü verir qonşunun evinə. Gəlin mollanı evə ötürdükdən sonra qazı yoluf doldurur qazana. Elə bişə-bişə də bərkdən öysürür. Kişi qazın bişdiyini başa düşüf samannıxdan çıxır. Gəlif başdıyır qapını döyməyə. Molla qorxusunnan gedir o dünyaya.

Gəlinə deyir:

– A evi yıxılmışın qızı, bə deyirdin ərin evdə yoxdu, səfərə göndərmişəm. Bu nə işdi mənim başıma gətirdin. İndi mən neyniyim?

Gəlin dedi:

– Molla, allah sənin evini küllü-küfan eləsin. Mənim də evimi yıxdın, özünün də. Keş görüm tövlüyə. Nə təhər eliyirik.

Molla əbasını qoltuğuna vuruf qaşdı tövlüyə. Gəlin əlinə də bir sərnic qatıx özünü yetirdi mollanın yanına. Ona dedi:

– Molla, uzan inəyin yanında. İnəyimiz bu gün-savah doğasıydı. Kişi tövləyə girəsi olsa, ona deyərəm inək bir ala buzoy doğuf.

Mollada halmı qalmışdı gəlinnən söz güləşirməyə? Tez uzandı inəyin yanında. Gəlin eləmə tənbəllik əndərdi qatığı mollanın başınnan. Gəlin gedif qapıyı açdı. Kişi içəri girif dedi:

– Arvad, yoldaşdarım gedəsi olmadı. Mən də o qədər yolu tək gedə bilməzdim. Səfərimiz qaldı sonruya. Yeməyə nəyin var? Tez gəti, lap ajımnan ölləm.

Gəlin tələsik qazanı gətirif qoydu ortalığa. Qavaq-qavağa oturuf qaz ətini şirin-şirin yeyif üstünnən də bir dolça su işdilər.

Kişi yeyif-doyannan sonra dedi:

– Arvad, çırıyı gəti, gedim inəyə baxım. Yetirif. Bu gün-savah doğasıdı. Doğar, balasını öldürər.

Arvad dedi:

– A kişi, inəyimizin bir yaxşı ala buzoyu oluf.

Kişi üz-gözünü turşuduf dedi:

– Ala buzoydan bizə damazdıx olmaz, arvad. Dədəm mana vəsiyyət eliyif ki, işdi inəyin ala buzoy doğsa, onu itimizə verərsən.

Kişi bunu deyif iti açmax üçün eşiyə çıxdı. Arvat tez mollanın yanına gəlif dedi:

– Ay evi yıxılmış, nə gözünü döyürsən? Tez ol dal qapı açıxdı, aradan çıx.

Molla sürünə-sürünə dal qapıdan çıxan kimi arvad qışqırdı:

– A kişi ,buzoy eşiyə qaşdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunu eşidən kimi kişi iti buraxıf girdi evə. İt ala buzoyu bayax ha aldı altına. Arvad lap axır nəfəsində mollanın harayına çatıf onu itin əlinnən aldı.

Molla düz altı ay sərasər qaldı yorğan-döşəkdə.

Bir gün molla təzə-təzə həyət-bajıya çıxan vaxt arvadnan rastdaşdı. Arvad onu görən kimi at kimi kişniyif pəsdən köhnə mahnını oxumağa başdadı.

Molla ajığınnan dilini-dodağını çeynəyə-çeynəyə dedi:

—Kişniyərsən da, niyə də kişnəmiyəsən?
Özün dadanıfsan qaz ətinə,
Ərin yedirdir ala buzoyu itinə.

## BAXAR ÖLÜSÜNƏ

Əsgər bir gün Göyçənin uzax kənddərinnən birinə gedif çıxır. Bu kənddə onun bir tanışı varıymış. Həmin adam əvvəllər bir dəfə onun qonağı olufmuş.

Əsgər soraxlaşıf tanışının evini tapır və gejəni orda qalmağı qərara alır. Ortuya çay gələndə görür kü, tanışı bir parça qəndi dörd yerə bölənnən sonra, bir də qırıf. Hiss eliyir ki, tanışı çox xəsis adamıymış. Odu ku, əlini atıf bir dəfəyə dörd qənd götürür. Bir-iki dəfə belə eliyənnən sonra dözə bilmiyən ev saavı ona deyir:

– Ay Əsgər, sizdə ölüyü neçə-neçə basdırıllar?

Əsgər tövrünü pozmadan:

– Baxır ölüsünə. Sizin kimi ölüləri bizdə dörd-dörd basdırıllar – deyə cavaf verir.



## OLSA YAXŞIDIMI?

Muradın arvadı rəhmətə gedənnən sonra dolanması çətinnəşir.Arvadsız ev suyu qurumuş dəyirman kimidi deyillər. Murad bir gün qohumlarınnan bir nəfəri də yanına alıf qonşu kənddə bir dul gəlinə elçi gedir. Burada Muraddan soruşullar kı, danış görək,bizim uşax sizdə dolana biləjəkmi? Varın, dövlətin, nəyin var?

Murad deyir:

– Bir sürü qoyunum olsa, yaxşıdımı?

Ev sahibi deyir:

– Yaxşıdı.

– Bir ilxı atım olsa, yaxşıdımı?

– Yaxşıdı.

– İyirmi-otuz baş inəyim olsa, yaxşıdımı?

– Yaxşıdı.

– Gözəl bir imarətim olsa, yaxşıdımı?

Kişi deyir:

– Əlbəttə yaxşıdı. Allah sizi xoşbəxt eləsin. Gedin dolanın.

Muradgil gəlini də gətirif gəlillər. Gəlin bir-iki günnən sonra görür kü, Muradın dediklərinnən əsər-əlamət yoxdu. Nə sürüynən qoyun var, nə də imarət. Bir-neçə gün hər şeyi intizarnan gözdüyən arvad deyir:

– Ay Murad, bəs sənin imarətin, sürüynən qoyunun, neçə baş inəyin hanı?

Murad tez cavaf verir:

– Ay rəhmətdiyin qızı, mən demədim ki, var. Dedim ki, olsa, yaxşıdımı?

## MƏNƏ SATDII ODUNUMU DEYİRSƏN?

Murad bir dəfə Qaraqoyunnu meşəsinnən ağac gətirməyə gedir. İstədiyi ağaşdarı yan-yana düzür. Sonra baltasını çəkif onnarı doğruyuf haravıya yığmağa başdıyır. Baltanın səsinə meşəbəyi gəlif çıxır:

– A kişi, meşə yiyəsizdi, nədi? Nə doğruyuf tökürsən? İndi cavab verməli olajaxsan. – deyə Muradın üstünə hirsdənir.

Təmkinini pozmayan Murad gülə-gülə deyir:

– Vallah, heç uğruma bu gün yaxşı adam çıxmır. Nə oluf, a başına dönüm. Meşəbəyisən, xoş gəlib, səfa gətirifsən, ixtiyarın var. Meşəbəyi olanda nolar? Adam əvvəlcə salam verər, sonra bu ağac doğruyanın kim



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olduğunu soruşar. Bəlkə qavağındakı elə kişidi ki, adı yeddi hökumətin torpağına yayılıf. Bəlkə sənin özünən tanış çıxajaq. Bəlkə bir göndərən var, tanıyannan sonra utanajaxsan?!

Meşəbəyi baxır kı, bu adam çox hündürdən danışır. Düşünür kü, yaqin bu elə-belə adam döyül, kiminsə qohumudu. Düz eləmədim, gərək soruşaydım ki, kimsən, nəçisən?

Meşəbəyi sifətinə xoş təbəssüm verərək deyir:

– Düzü, bu meşə zəhrimar elə yerdi ki, ha-küy eləməsən, qırıf qurtarallar. O qədər hirsdənirsən ki, dostu-yadı da seçə bilmirsən. Bağışda, sən düz deyirsən, deyəsən mana tanış gəlirsən?

– Əlbəttə, tanış gələrəm, – deyə Murad sözünü davam etdirdi. Əvvəla, dost, sən məni tanımazdığa vurdun. Zərəl yoxdu. Yaxşı, sən Qlava Bayramın evindəki qonaxlığı unutmuyufsan kı?..

– Allah eləməsin, mən duz-çörəyi unudan adamam? Qlava Bayram mənim yaxın dostumdu. Sən onun nəyisən?

– Necə yə’ni nəyiyəm? A kişi, o əmlikləri yan-yana düzən kimiydi? O məclisə ağsaqqallıx eliyən kimiydi? İndi də məni göndərif ki, get odun gəti, yenə qonax-qaram olajax.

Meşəbəyi Muradın əlinnən baltıyı alıf başdıyır odunu doğruyuf haravıya yığmağa.

Murad deyir:

– Hə... dost, demədimmi indicə tanış çıxacıyıx?!

Meşəbəyi odunu dolduruf, onu yola salanda dedi:

– Sənə yaxşı yol. Amma burada elədiyim səhvi demə. Bayram kişiyə də mənnən salam söylə. De ki, odun lazım olanda adam göndərsin.

Murad tez cavaf verir:

– Baş üstə, gəlif apararam.

Bir neçə vaxtdan sonra Qlava Bayramnan meşəbəyi görüşür. Meşəbəyi odun məsələsini ona danışır.

Qlava Bayram deyir:

– Murad gətirif mana satdığı odunumu deyirsən?

## KƏSMƏ, İRİLSİN CÜCƏN

Murad Basarkeçərə gedəndə Məhərrəm addı bir adamın qonağı olarmış. Həmişə də çay-çörək süfrüyə gələndə Məhərrəm deyərdi ki, ay dost, mən arabir gəlirəm, görüşürük, bir tikə çörək kəsirik. Olmazmı bir dəfə də sən yolunu bizdən salasan, mənim də nejə adam olduğumu



görərsən. Düzü, mən inciyirəm. Axı, mən də adamam, özümə görə adım-sanım var.

Bir gün yenə Məhərrəmin qonağı olarkən dostu ona söz verir ki, vaxt tapan kimi gəlif iki-üç gün qalajax. Murad evə qayıdıv taxtın üstündə uzanır, arvadı çağırıf deyir:

– Arvad, get samovarı qala, çay hazırra. Bir daddı plov bişir, plovun da başına cücə qızartması qoy, qonax gələjək.

Təccübnən Muradı süzən arvad toxammalı-toxammalı deyir:

– Qalx, kömək elə. Sən samavarı gəti mən od salım. Sən düyünü gəti, mən artdıyım, sən cücəni kəs, mən təmizdiyim.

Murad taxtın üstündə o tərəf bu tərəfə çevrilif yönünü divara tutaraq dinmir. Aradan bir neçə vaxt keçənnən sonra Məhərrəm Muradın evinə qonax gəlir. Onnar görüşənnən sonra Murad qalxır kı, bizim arvad az qanandı, hər şeyi başa salıf qayıdıram.

Murad o biri otağa keçif arvadnan danışdıxdan sonra qayıdır dostunnan qavırğa söhbətinə başdıyır. Xeyli keçir, süfrəyə çay gəlmir. Murad yenə qalxır arvadnan danışıf geri qayıdır. Lakin xeyli keçir, yenə yemək gətirilmir. "Qəzəflənmiş" Murad arvadı çağırır. Arvad gələn kimi:

– Get samavara od sal, çay qoy, daddı ploy bişir, başında da cücə qızartması olsun, – deyə hay-haray qopartdı.

Arvad utana-utana dilləndi:

– Təkəm, sən qalx samavarı gəti. mən od salım, düyünü gəti ploy hazırrıyım, cücəni kəs, qızardım.

Murad tez onun sözünü kəsdi:

– Səni iti qovan kimi qovajam. Kişinin yanında demək istiyirsən kı, samavarı o gün qonşuya sən verifsən, get gəti. Onda düyüyə də gəlmişdilər mən vermirdim, sən verdin. İndi zəhmət çək, get, al gəti. Ölsən ha, mən arvad sözünnən qonşuya gedən deyiləm. O ku qaldı cücə, artıq keçifdi gejə, sabah elərik tezcə.

Məhərrəm gördü kü, Murad yalan danışırmış. Evində ələk hərrəməyə bir urvalıx unu yoxdu. Odu ku, yerinnən qalxıf deyir:

– Ay Murad, xeyrə qalsın gecən,
Kəsmə, irilsin cücən.

## LOTUDAN BİR, QATIDAN İKİ ÇIXAR

Lotunun evinə qonax gəlmişdi. Qonağı yola salmağa evdə quzu olmadığınnan ordan-burdan soraxlaşdı. Axırda biri dedi:

– Ay lotu, ora-bura düşmə. Mollada bir yaxşı quzu var. Get, gör ala bilirsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lotu mollanın xasiyyətini yaxşı bilirdi. Bilirdi ki, xəsisin biridi, onnan sevdalaşmax çox çətin məsələdi. Amma ələcı nəydi? Qonax qapıyı kəsmişdi.

Lotu cumdu mollanın yanına. Salam-əleykdən sonra keşdi mətləbə.

– A molla qardaş, eşitmişəm səndə satdıx quzu var. Qonax gəlif qapıyı kəsif. İndə gərək məni naümid qaytarmıyasan. Neçiyə olursa-olsun, onu mana sat.

Molla quzuyu ikiqat qiymətə lotuya sırıdı.

Quzu satılanda mollanın arvadı qonşudaydı. Lotu quzunu aparannan bir xeyli sonra gəlif evə çıxdı.

Molla arvadına dedi:

– Arvad, bu gün xeyli irəli düşmüşük. Quzuyu lotuya əlli manata satmışam.

Arvadın tamahı Murtuzəlinin qılıncınnan itiydi. Kişinin abrını ətəyinə bükdü kü, yox, mən quzuyu o qiymətə lotuya vermirəm. Ya get üstündə iyirmi manat yenə al, ya da quzuyu qaytar gəti.

Molla arvadınnan yaman qorxurdu.Ələcı nəydi. Əbasını yellədə-yellədə özünü yetirdi lotunun evinə. Gördü lotu quzunu yıxıf, elə kəsə-kəsdi.

Molla qışqırdı:

– Aya lotu, əlini saxla. Canın üçün arvad evdə bir mə’rəkə çıxardıf kı, gəl görəsən. Deyir quzuyu ujuz satıfsan. Ya get iyirmi manat da al gəti, ya da quzuyu qaytar.

Lotunun ələcı nəydi. İçinnən qırıla-qırıla civinnən iyirmi manat çıxarıf molluya verdi.

Molla qayıdıf evə gəldi. Qapıdan içəri girməmiş arvad soruşdu:

– A kişi, pulu aldınmı?

Molla dedi:

– Aldım nədi, lap dədəsini də yandırdım.

Arvad mollanın başına cüt əlli bir qapaz salıf dedi:

– Sənin kimi kişinin papağı orta dirəkdən asılı qalsın. Bilmirsənmi, quzuyu ujuz vermişik. Niyə demədin kı, quzunun baş-ayaxı da mənimdi. Tez cum, baş-ayağı al gəti.

Molla suyu süzülə-süzülə geri qayıtdı. Gedif lotuya dedi:

– Allah mənim arvad alan evimi küllü-küfan eləsin. Məni evə qoymur ku, gərək quzunun baş-ayağını da gətirəm. İndi başına dönüm, ölmüşəm, yerdən götü. O baş-ayağı ver, aparım. Bəlkə qancıx səsini kəsə.

Lotu dedi:

– A molla, o nə sözdü, bir baş-ayaxdan ötrü səni itin əlindəmi qoyajam. Gəl, götür apar.



Molla baş-ayağı götürüf evə gətirdi. İçəri girən kimi arvad dedi:

– A səni zəlil qal. Bilmirsən, o quzuya mən nə qədər əziyyət çəkmişəm? Onun ətinnən yeməsəm ərş öyünə kimi yanaram. Dur get, lotuya de ki, bizi aldadıfsan, quzunun ətinə biz də qonağıx.

Molla duruf çəkinə-çəkinə lotugilə getdi. Lotuyu xəlvətə çağırıf dedi:

– Vallah yanında üzüqarayam. Arvad yenə mənnən əl çəkmir. Deyir: "get lotuya de, quzuyu ucuz alıf, ətinə biz də qonağıq.“

Lotu gülə-gülə molluya dedi:

– A molla, o nə sözdü danışırsan. Gözüm üstə. Get arvadı gəti gəl. Sizi gözdüyürük. Gözümüz üstə yeriniz var.

Molla evə qayıdıf arvada dedi:

– Lotu bizi gözdüyür. Hazırraş gedək. Arvad geyinif-kejinənə qədər Molla fikirrəşdi ki, bu lap ağ oldu. Arvadı belə aparsam, lap biavır olaram.

Molla çəkinə-çəkinə fikrini arvada bildirdi. Arvad dedi:

– A kişi neyniyək, o quzunun ətinnən yeməsəm dədəmi qəvirdən çıxardıf, səni onun yerinə qoydurajam. Bir tədbirin varsa, de, bəlkə ağlıma batdı.

Molla dedi:

– Arvad, gəl sənə seyid paltarı geyindirim. Deyim ki, evimə bir sınaxlı seyid gəlif. Onu tək qoyuf gələ bilmədim. Odu ku, götürüf gəldim.

Mollanın bu tədbiri arvadın ağlına batdı. Seyid paltarı geyinif mollanın yanına düşdü.

Xülasə, mollaynan seyid gəlif keşdilər məclisin başına.

Lotu öz-özünə dedi ki, bu seyidin sur-sufatı mənə yaman tanış gəlir. Bir az zəndinən baxanda arvadı tanıdı. Ürəyində dedi ki, ay sənin cəddinə qurvan olum. Səni mənə yetirən molluya allah özü kömək olsun.

Nə başınızı ağrıdım, qonaxlar gejənin bir və’dəsinə qədər yeyif-işdilər. Bir də başdarını qaldırıf gördülər ki, yatmax vaxtı çoxdan keçif.

Molla ev yiyəsinə, qonaxlara dil-ağız eliyənnən sonra üzünü "seyidə" tutuf dedi:

– Cəddinə qurvan olum, dur gedək.

Lotu yerinnən qalxıf seyidin qolundan bərk-bərk yapışıf dedi:

– Molla qardaş, seyidə zəhmət vermə. Qoy seyid qalsın burda. Onsuz da nəzirim varıydı. Savah tezdən nəzirini də verif özüm yola salaram.

Nə isə molla çox dedi, lotu az eşitdi. Bu yandan da qonaxlar işə qarışdılar. Mollanı çar-naçar razı saldılar. Seyid lotunun evində gejələməli oldu.

Molla tək-tənha qaranlıxda dövdənə-dövdənə gedif evinə çıxdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Amma ilin vuran yatdı, molla yata bilmədi. Bu evdə də sübhə qədər nə lotunun gözünə yuxu getdi, nə də "seyid"in.

Elə o vaxtdan el arasında məsəl qalıf kı, lotudan bir, qatıdan iki çıxar.

## GƏLƏN İL BU VAXT, O BİRİ AYAINI DA UZADARSAN

Bir kişinin çox tənbəl bir arvadı varıydı. Arvad o qədər tənbəliydi ki, burdan duruf orda oturmağı özünə ölüm bilirdi. Gözü yuxudan açılmazdı. Axşama kimi yatardı. Bir gün kişi boğaza yığılıf dedi:

– Arvad, ağrın alım, bu qədər tənbəllik eləmə. Bir hərəkət elə, qonudan-qonşudan geri qalmıyax. Hamıdan çox qazanıram, hamıdan pis dolanırıx.

Arvad dedi:

– A kişi, neyniyim, nə iş görüm?

Kişi dedi:

– Belə canına azar qayır. Ayağım yalındı. Heç olmasa, bir cüt corabsa da hör.

Arvad namusa boğuluf duruf bir az ifdən-zaddan tapıf coraf hörməyə başdadı. Amma nə qədər çalışdısa, bir şey çıxmadı. Əsniyə-əsniyə bir çin zor-bala hərriyif qırağa tulladı. Xülasə, güj-balaynan bir ilə coravın bir tayını qurtardı.

Kişi gördü kü, bu hörməknən coravın o biri tayını da bir il gözdəməli olajax.

Taykeş tayı tələsik götürüf ayağına geydi ki, bəlkə arvadı namusa gətirə. Görə ki, kişi coravı taykeş geyinif. O biri tayını bir az tezdəşdirə.

Xülasə, arvad coravın o biri tayını da başdadı.

Gün o gün oldu ku, kişini qonşuya toya çağırdılar. Elə gətirdi ki, onu xalı-xalçalı bir otağa keçirəsi oldular. Baxdı kı, hamı ayağını soyunuf. Ələci nyədi. Bu da çar-naçar ayağını soyunmağa məjbur oldu. Bir təhər ayağını gizdədə-gizdədə xəlvət bir yer tapıf yalın ayağını altına qoyuf üstündə oturdu ku, görünməsin. Coraflı ayağını isə irəli uzatdı.

Arvadı fikir götürdü kü, kişini yə’qin qonax otağına apardılar. Ayağını soyunsa, lap biavır olajam. Gedim görüm, kişinin corafsız ayağını görən oldumu?

Arvad pəncərədən baxıf gördü kü, kişi yalın ayağını altına qoyuf, coraflı ayağını irəli uzadıf.

Arvad pəncərədən ərinə başınnan razılığını bildirif dedi:



– Otu ay kişi, bax eləjə otu. Allah canıma dəyməsə, gələn il bu vaxt o biri ayağını da irəli uzadarsan.

## DƏDƏNƏ QALMIŞ İNDİ SƏN DƏ YOXUYDUN

Bir gün çox gözəl-göyçək, amma ağıldan bir az qıvrax bir gəlin gedif özünə bir qanavuz nimtənə alır. Evə gətirif geyinir. Güzgünün qavağında sağa-sola fırranıf təzə paltarına baxır

Bu vaxt oğlu qapıdan içəri girif anasının sevincək paltarına baxdığını görüf deyir:

– Ay ana, özün də dədəmi bəyənmirsən. Gör sənə nə nimtənə alıf?

Anası oğluna bir tərs nəzər salıf deyir:

– Yalansa dədənin papağı boş qalsın. Ona qalsaydı, indi sən də yoxuydun!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AT DA MƏNİMDİ, ARVAD DA

Bir kişi arvadınnan birrikdə uzax bir səfərə çıxmışdı. Bir-neçə gün at sürdükdən sonra gedif bir çöllü-bərri biyavana çıxdılar.

Bir kolun yanınnan keçəndə qulaxlarına bir inilti gəldi. Maraxlanıf atın başını çevirdilər həmin kola tərəf. Baxıf gördülər ki, burada bir kor kişi oturuf zar-zar zarıldıyır.

Kişi atdan düşf bu korun yanına gəldi. Nə üçün burada oturduğunu soruşdu.

Kor inildəyə-inildəyə dedi:

– A qardaş, mən burda öz kefimnən otumamışam. Məni bura atıf gediflər. Məni çevir balalarının başına burda qoyma, yazığam, zəliləm.

Kişi bunun üzünə baxanda bu kordan heç almadı. Ona görə təzədən ata minif yoluna davam eləmək istədi.

Arvad kişinin fikrini başa düşüf dedi:

– A kişi, sən ki həmişə əlsiz-ayaxsızların köməyi, yazıxların, zəlillərin pənahı olufsan. İndi nə oldu ku, bir kor kişini çölün düzündə qoyuf getmək istiyirsən? Bunu allah heş qəbul eliyərmi?

Kişi arvadına dedi:

– Arvad, düz deyirsən, indiyə kimi heş kimnən kömək əlimi əsirgəməmişəm. Hamıya bajardığım qədər əl tutmuşam, yaxşılıx eləmişəm. Amma nədənsə, bu kordan heş gözüm su işmir. Üzündən dələduzdux yağır. Ürəyimə damıf kı, bunnan bizə xata gələjək.

Arvad əl çəkmədi ki, çəkmədi:

– A kişi, bu ku allahın bir yazığıdı. Bunnan nə ziyan gələjək. Gəl, bunu aparıf bir şenniyə çıxarax. Orada bəlkə buna bir kömək duran tapıldı.

Kişi çox dedi, arvad az eşitdi. Axır kı, öz sözünü göyərtdi. Kişi çar-naçar koru öz tərkinə alıf yola düşdü.

Nə başınızı ağrıdım. Bunnar axır kı, gəlif bir kəndə çatdılar.

Kişi kəndin ortasında koru attan endirif yoluna davam eləmək istiyəndə kor yapışdı bunun atının cilovunnan.

—A kişi, mənim atımı haraya aparırsan. Tez ol, atın cilovunu burax.

Kişi koru itəliyif cilovu onun əlinnən qoparmax istiyəndə kor bir haray-həşir qopardı kı, gəl görəsən.

Ay camaat köməyə gəlin, bu kişi mənim atımı əlimnən alır.

Səs-küyə camaat toplaşdı bunnarın başına. Kişinin dediyinə inanmayıf kora qəhmər çıxdılar. Çox çək-çevirdən sonra qərara aldılar kı, bunnarı qazının yanına aparsınnar.

Yolda kişi arvadına dedi:



– Arvad, yaxşı yıxdın evimizi. Gəl indi yaxamızı bu korun əlindən qurtar görüm, nejə qurtarajaxsan.

Arvadın sözü varıydımı kişiyə cavaf verə. Başını aşağı salıf lal-dinməz dayandı.

Xülasə, bunnarı aparıf çıxartdılar qazının yanına. Kişiynən arvad başına gələnnəri qazıya danışdılar.

Bunnar sözünü deyif qurtarannan sonra qazı üzünü kora tutuf dedi:

– A kişi, bunnar düzmü deyir?

Kor dedi:

– Qazı sağ olsun, bunlar gözünün içinə kimi yalan danışır. Bu kişi dələduzun, oğrunun biridi. Bunun nə atı var, nə də arvadı. At da mənimdi, arvad da.

Qazı əmr elədi bunnarı aparıf atsınnar zindana. Amma, adamlarına tafşırdı kı, kişiynən arvadı bir gözə, koru da ayrı bir gözə salsınnar.

Sonra gözətçilərə tfpşırdı kı, qapıdan qulax asın, görün bunnar nə danışıllar.

Kişiynən arvadın qapısına qulax asan gözətçi gördü kü, kişi arvadını dannıyarax deyir:

– Arvad, sənə demədimii bu kordan bizə xeyir gəlməyəjək. İndi gördün başımıza nə oyun açdı.

Kor isə içəridə öz-özünə deyirdi:

– Di get. Şəhərə bir qovğa salmışam kı... Ya at mənimdi, ya arvad.

Gözətçilər gedif burada eşitdiklərini olduğu kimi qazıya çatdırdılar.

Qazı kişiynən arvadı zindannan buraxdırıf dedi:

– Sizə yaxşı yol. Gedin, bir də hər tanımadığınıza rəhm eləmiyin.

Qazı koru zindannan çıxarıf əmr elədi kı, bunu aparıf atarsınız kişi dediyi həmin bərri-biyabana.

Sonra qazı üzünü yanındakılara tutuf dedi:

– Doğrudan da, allah hər kəsə əməlinə görə urzu verir.

## AILLILAR SANA QULAQ ASSINNAR, DƏLİLƏR MANA

Bir molla dəstəmaz alıf qəviristannığa yaxın bir yerdə namaz qılırdı. Yaxınnığında bir dəli oturuf huş-guşnan ona baxırdı. Dəli görür kü, molla gah əyilir, gah dikəlir, gah da öz-özünə nəsə danışır. Bu da, eləmə tənbəllik, başdıyır fışqırıx çalmağa. Molla bundan bərk hirsdənir, cin vurur təpəsinə. Ancax namazı yarımçıx qoymur. Namazını qılıf qurtarannan sonra dəlinin başının üstünü alıf deyir:

– Bala, axı yaxşı deyil, dədən yaşda kişiyəm, mənim ağzımı əyirsən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qoymursan namazımı halallıxnan qılam.

Dəli soruşur:

– Molla əmi, bu namazı sən kimnən ötrü qılırsan?

Molla cavaf verir ki, bu qəviristanlıxda yatan rəhmətdiklərdən ötrü.

Dəli bir də soruşur:

– Bu qəviristanlıqda yatanların hamısı ağıllı adamlar deyil. Bunnarın içində ağıllılar da var, mənim kimi dəlilər də. Doğru deyirəmmi?

Molla onun sözdərindən xoşallanıf deyir:

– Düzdü, bala, düz deyirsən.

Dəli deyir:

– Eləsə, sən niyə cırnıyırsan? Qoy buradakı rəhmətdiklərin ağılları sənin namazına qulax assınnar, mənim kimi dəlilər də mənim fışqırığıma.

## GƏLƏNDƏ DONQUZ DONUNDA GƏLİR

Donqar Həmid iki nəfərnən bir gün başqa bir kəndə gedirmiş. Gəlif bir qəvirstana çatıllar. Görüllər ki, xeyli adam bir qəvrin üstünü düzəldir. Donqarın yoldaşdarından biri qəviristana tərəf gedif öyrənir ki, əziz adamları ölüf, indi də onun qəvirini düzəldillər. Qayıdıf gələndə Donqar tez soruşur:

—Örgəndinmi? Nə oluf? Adamlar nəyə toplaşıf?

Həmin adam təmkinini pozmadan deyir:

– O qəvir Mustafa kovxa addı bir adamın məzarıdı. Ona ziyarətə gəliflər. Nə vaxt Mustafa kovxanı dada çağırsan, darda qalmazsan.

Donqar rəhmət oxuya-oxuya yoluna davam edir. Bunnan sonra Mustafa kovxa Donqar Həmidin inamına çevrilir. Hər oturuf durduxca deyərmiş:

– Ya Mustafa kovxa, kömək ol.

Bir gün Donqar Həmid haravasını qoşuf meşədən odun gətiməyə gedir. Odunu doğruyuf aravaya yığannan sonra kəlləri haylıyır. Gəlif bir bataxlıxda aravasını batırır. Donqar kəlləri nə qədər döyürsə, bir şey alınmır; arava çıxmır kı, çıxmır.

Donqar Həmid deyir:

– Ya Mustafa kovxa, özün dada yetiş!

Söz ağzınnan çıxan kimi ağaşdarın arasınnan xorulluya-xorulluya bir qavan çıxır. Qavanı görən kəllər huyuxub haravanı dartıf çıxarıllar.

Harabanın çıxdığını görən Donqar Həmid sevinə-sevinə:

– Qurvan olduğum, gəlmir, gələndə də donquz donunda gəlir, – deyə



əlini-əlinə sürtür.

## NİYƏ ELƏ İTDƏN BORC ALIR KI ...

Abbasın bir erməni kirvəsi varıydı. Həmişə görüşəndə müsəlman-xristiyan söhbəti salıf zarafat eliyərmiş. Bir dəfə onnar görüşəndə möhkəm yağış yağır, şimşək çaxır, göy gurulduyurmuş. Kirvəsi üzünü Abbasa tutarax deyir:

– Abbas, bilirsənmi o göyün guruldaması, şimşəyin çaxması nədi?

Abbas:

– Nə deyim, vallah bilmirəm.

– Sizin molla bizim keşişdən borc alıf. İndi o borcunu vermir. Ona görə də keşiş qamçını çəkif molluyu döyür. Şimşək həmin qamçıdı, gurultu da mollanın bağırtısı.

– Çox düz eləyif sizin keşiş bizim mollanı döyür. Axı, molla elə ittdən niyə borc alırdı kı, o da onu beşcə gün gözdəmir, – deyə Abbas cavaf verir.

## SƏN DƏ KEÇİNİ VERMƏ

Bir gün mərkəzdən bir mütəxəssis kəndə gəlir. Qoyun sürülərinə baxanda görür kü, sürünün birində keçilərin baş sayı olduxca çoxdu. Çovana deyir ki, keçi yun vermir. Əvəzinə qoyun saxla. Çoban cavaf verir ki, sürü belə düşüf, qoyunu hardan alım?!

Mütəxəssis ciddi görkəm alıf deyir:

– Keçiyi ver, qoyun al!

– Qoyunu keçiyə heş kəs verməz!

– O, qoyun vermirsə, sən də keçini vermə! – deyə mütəxəssis təşəxxüslə dillənir.

Çovan görür kü, mütəxəssis heyvandarrıx üzrə oxusa da, bu sahədən heş nə qanmır. Odu ku, deyir:

– Qardaş, elə də var, qoyunu vermillər deyə mən də keçimi vermirəm.

## SİZƏ GÜLMƏYƏ-GÜLMƏYƏ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nazdı adında dilli-dilavər, amma çox tündxasiyyət bir arvadın Sona addı gözəl-göyçək, ağıllı, kamallı bir qızı varıymış. Sonanı istiyənlər Nazdıya görə irəli düşüf elçi göndərə bilmillərmiş. Anası çətin adamdı, onnan qudalıx işdətmək müşkül məsələdi, – deyərmişdər.

İbrahim addı hörmətdi bir adamın Bayram addı bir oğlu Sonuya aşiq olmuşdu. Bunu eşidən Bayramın anası Leyli arvad özünü qaldırıf yerə vururdu ku, mən Nazdının qızını qoymaram kı, bu qapıdan içəri girə. Mən o həyasızın doğduğunnan yola gedə bilmərəm.

Bu sözdəri eşidən Nazdı da demişdi ki, o Leyli olsun, mən də Nazdı, Sonanı Bayramdan başqa bir kəsə versəm, onun muzdu-bavalı mənim boynuma.

Analar bir-birinə başdadılar ismarış göndərməyə. Bayram baxır kı, Sonanı götürüf qaşmasa dedi-qodu kəsən deyil. Bir gün Sonanı götürüf qaşdı. Hamı şad olsa da, Leylinin üzü gülmürdü. Ürəyində Bayramdan küsürdü kü, anasını qaynanasının ayağına verdi.

İbrahim Leyliyi hey dannıyırdı kı, qız yaxşı uşaxdı. Bu haxda bir də danışma. Toya başdıyası oldular. Camahat yeyif-içif, çalıf-oynuyurdu. Toybaşı səsdədi ki, qız anası, oğul anası gəlsin.

Sözə bəndiymiş kimi Nazdı özünü atdı ortuya. Başdadı oynuya-oynuya oxumağa:

Qızım gəlir bu bol evə,
Ərin öyməyə-öyməyə.
Xanım kimi sallanmağa,
Atlas geyməyə-geyməyə.

Hirsindən yerində var-gəl edən Leyli ortuya çıxdı. Bu da oynuya-oynuya oxudu:

Gəlin gəlir bu bol evə,
Özün öyməyə-öyməyə.
Xanım kimi hikkələnif,
Bizi döyməyə-döyməyə.

Məclisə toplaşannar gördü kü, qudalar indidən bir-birinə meydan oxuyur. İbrahim gülə-gülə onnarın arasına keşdi:

Bir söz deyim qaynanalar.
Sizə dəyməyə, dəyməyə.
Evimizin gül balası,



Gəlir geyməyə, geyməyə.

***

Nə xanımdı, nə qaravaş,
Gəlmir döydürüb-döyməyə.
Gəlir dost-düşmən içində
Bizi öyməyə-öyməyə.

***

Gəlir geyməyə-geyməyə.
Bizi öyməyə-öyməyə.
Ay qudalar, belə çıxın,
El sizə gülməyə, gülməyə.

Bu sözdən sonra qudalar qucaxlaşıf öpüşür. Bütün camahat məclisə təzədən başdıyır.

## YÜKÜNÜ AIR ELƏ

Zaman bir gün Qurbana deyir ki, daha arvada heş nə deyə bilmirəm. Qorxuram qalmağal olsun. Camaat desin ki, gündə bir arvad gətirməyə örgənif.

Qurban soruşur ku, nə oluf yenə?

Zaman deyir:

– İş görə bilmir. Suya gedir, gəlif çıxa bilmir. O dəfə evin geri yanından taxılın gövşənini şələdə xırmana daşıyırdıx. Görürəm yox bunnan görən olmaz. Xırmanı döydük: taxılı çuvalnan evə daşımax lazımdı. Çuvalı arxasına qaldırram dizi əsir.

– Hə,... demək belə, qardaş. Əgər sən deyən kimidisə, yükünü ağır elə, – deyə Qurban ona məsləhət verir.

## ALI GÖRÜNÜR

Bir dəfə Ağəlini çağırıllar kı, qonşunun qızına elçi gəlif. Gəlsin o da otusun. Ağəli qalxıf gedir. Bir az keçənnən sonra söhbət açılır. Başdıyıllar danışmağa. Ata-ana, qohum-qonşu razılıx verənnən sonra deyillər ki, qız pis uşax deyil, qoçaxdı, mərfətdidi. Ağəli gözünü hərriyəndə görür kü, ayax ujda iki arvadın arasında durmuş qız dodağını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qaldırıf bir-iki gün əvvəl düzəltdirdiyi qızıl dişdərini göstərməyə çalışır. Ağəli yenə də fikir verəndə görür kü, "ağıllıdı", "qoçaxdı" sözünü eşidən kimi qız, qızıl dişdərini göstərir. Özünü saxlaya bilməyən Ağəli qızın atasına deyir:

– A kişi, qıza de ki, dodağını qaldırmasın, ağlı görünür.

## ATASININ EHSANINDA OLSUN

Özü içmədiyinə görə Qurban həmişə məclisə gedəndə içməyənnərnən oturarmış. Bir dəfə nə isə iki nəfər içənnən yanaşı düşür. Onlar stəkan-stəkana vuruf içillər. Hər dəfə də stəkana mineral su süzərək Qurbana təklif eliyillər. O da onnarın xidmətinə görə minnətdarrıx eliyir. Lakin Qurban bir də hiss eliyir kı, yoldaşdar bir-birnə göz vuruf onun stəkanına araq süzdülər. Özünü bilməzdiyə vuran Qurban heş nə demir. Yenidən onlar stəkan-stəkana vuruf başdarına qaldırır, sonra da stəkannara su töküf içillər. Biri Qurbana baxıf deyir:

– Qurban, yemirsən, içmirsən, bu olmadı. Su sada iç.

– Sağ olun. İşdim. Meylim yoxdu, – deyə Qurban çavaf verir.

Lakin yoldaşdardan biri əl çəkmir ki, – əşi, bu suyu sa da iç....

Canı boğazına yığılan Qurban deyir:

– Atanın ehsanında olsun, – meylim yoxdu.

## QURUT YETİŞƏNDƏ GƏL

Qurbanın aranda bir kürəkəni yaşıyırmış. Həmişə gələndə Qurban ona yağdan, qurutdan, pendirdən pay qoyarmış. Lazım olanda qoyun-quzu da verərmiş. Payız vaxtı bir gün Qurban arana, kürəkənigilə gedəsi olur. Bir-iki gün qalannan sonra evə qayıtmax istiyir. Deyir ki, bir az almadan, armuddan yığın uşaxlara aparım. Kürəkəni qayıdır kı, düzü mən də o haxda düşünürdüm. Heç yaxşı deyil ki, arandan gedəsən, uşaxa meyvə aparmıyasan. İndi də elə pis vaxt gəlifsən ki, mən neyniyim, hələ bağın dərilmək vaxtı döyül. Bir də gələndə alma yetişəndə gəl.

Qurban kürəkəngildən qayıdanda bazara dönüf meyvədən, çərəzdən alıf evinə dönür. Gün keçir, həftə addıyır, kürəkən Qurbangilə gəlif çıxır. Gedən baş deyir ki, bir az qurut qoyun, uşaqlar xəngəl istiyir.

Qurban yalannan köksünü ötürüf deyir:

– Hə, elə mən də onu düşünürdüm. Günah sənin özündədi. Bir də



gələndə qurut yetişəndə gəl.

## YANINDAKI DA MIDISIDIMI?

İki molla günnərin birində piyada qonşu kəndə gedirmiş. Görüllər kı, xeyli irəlidən bir adam gəlir. Bir az yaxınnaşannan sonra Abbası tanıyıllar. Mollalar danışıllar ki, Abbası yaman hazırcavaf söylüyüllər. Gəl ona bir az söz atax, görən bir nə cavaf verir.

Abbas gəlif bunnara çatanda mollalardan biri deyir:

– Allah saxlasın kirvə, hardan gəlirsən belə?

Abbas tövrünü pozmadan :

– Saxlasın, saxlasın keşiş qardaş, yanındakı da mığdısıdımı? – deyif yoluna davam eliyir.

## PRİSTAV OLAN YERDƏ İT LAZIM DÖYÜL

Kəndin arasında toplanmış bir xeyli adam başdıyır pristav Sadıq ağadan danışmağa. Hərə bir söz deyir. Kimi Sadıq ağıyı tə'rifləyir, kimi pisdiyir. Nə demək olar, el ağzıdı. Bu vaxt Abbas dillənir:

– Əşi neçə ki, Sadıq ağa pristavdı, qapılarda it lazım deyil.

Adamlar gülüşüllər.

Bir-neçə günnən sonra yasavullar gəlif Abbası pristavın divanxanasına aparıllar.

Abbas qorxa-qorxa içəri girif pristava salam verif, tə'zim eliyir. Pristav kinni-kinni Abbası təpədən dırnağa kimi süzənnən sonra deyir:

– De görüm, mənim haqqımda nə danışıfsan?

– Harda ağa? – deyə Abbas özünü bilməməzdiyə vurur.

Pristav hirsdənir ki, ölümün gəlməyifsə düzünü danış.

– Ağa, mən axı nə bilim sizə nə xəvər veriflər? Sən pristavsan. Camaat da bilirsən ki, pristav haqqında min söz danışır.

– Deyibsən ki, Sadıq ağa neçə ki var, qapılara it lazım deyil, bu olufmu?

– Oluf, ağa oluf! Əlbəttə, sizin mərhəmətinizdən bizim ovalarda qurd qoyunnan otduyur. Elə bir əmin-amannıx yaradıfsınız kı, kənddərdə bir adam da it saxlamır. Ağa, sənin qorxunnan bir adamın toyuğu da oğurranmır, bir adamın xətrinə dəyən də yoxdu. Daha xalq dəli olmuyuf ku, əziyyət çəkif it saxlasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hə.... demək belə. Abbas, məni başqa cür başa salmışdılar.
– Başqa cür ola bilməz ağa, bəlkə sizi istəmiyən çox söz deyə bilər. Ancax allaha and olsun ki, mən camahat arasında belə demişəm.
– Deyirəm axı, Abbas kişi yaxşı adamdı. Mənim pisimə danışmaz. O xəvər gətirən köpək oğluna da mən bilirəm neyliyəjəm! – deyə pristav Abbası hörmətnən yola salır.

## KƏSƏ BİLMƏZDƏR

Bir kişiyə qonşusu xəvər gətirir ki, bəs nə durmusan, filan yerdə eşşəyinin quyruğunu kəsillər. Tez özünü yetir.
Kişi xəvər gətirənnən soruşur:
– Eşşəyin quyruğunu kəsən nejə adamıydı?
Qonşusu deyir ki, beş-altı nəfər olardılar.
Kişi bunu eşidif arxayınnıxnan deyir:
– Bir nəfər olsaydı kəsərdi. İndi ki, beş-altı nəfərdilər, heş nə eləyə bilməzdər. Biri deyəjək divdən kəsək, biri deyəjək, xeyir, ortadan kəsək, bir başqası deyəjək ki, bircə qarış kəsək. Xülasə, bir-birilərinnən razılaşa bilmiyəjəklər. Odu ku, qonşu, onlar eşşəyin quyruğunu kəsə bilməzdər.

## DİŞİNİ QIRARAM

MeHralı adında bir nəfər dişini tuta-tuta Ağəliyə və onun yanında durannara salam verir.
Adamlardan biri soruşur ku, ay Mehralı, nə oluf belə?
– Dişim yaman ağrıyır, lap öldürür məni! – deyə Mehralı cavaf verir.
Həmin adamlardan biri deyir:
– Hələ ağzını aç görüm, hansı dişin ağrıyır.
Mehralı başdıyır oradakı adamların hamısının qavağında bir-bir dişini göstərməyə.
Ağəli görür kü, Mehralı lap ağ eliyif, hamının qavağında dişini ağardır.
Növbə Ağəliyə çatır. Mehralı gəlif Ağəlinin qavağında durur və dodağını qaldırıf ağrıyan dişini göstərmək istiyəndə Ağali deyir:
– Ay it, dişini ağartma, dişini qıraram!
Mehralı tez dodağını yumuf gülümsüyür.



## KAR, KOR VƏ TOPAL

Üç yoldaş çayın qırağına gəlillər. Onnarın biri kar, biri kor, biri də topal olur. Karın qulaxları, korun gözdəri, topalın da ayaxları qaşınırmış. Onnar bir az çayın kənarında oturannan sonra qaşınmaları tutur. Ancax bir-birlərinə söz verillər ki, qaşınmasınnar. Axır kı, kar dözə bilmir. Yoldaşdarına üzünü tutuf qulağını ovuşdura-ovuşdura deyir:
– Deyəsən, səs gəlir.
Kor gözlərini ovxalayıf onun sözünə qüvvət verir:
– Kimdisə, bizə tərəf gəlir.
Topal ayağını qaşıyıf deyir:
– Durun, qaçax.

## HEÇ OLMASA, BU DƏFƏ BİLƏYDİ!

Yusif kirvəliyə gedəndə öz adamlarınnan baravar bir aşıx da götürür. Məjlis başdıyanda aşıx sazını köynəkdən çıxarıf başdıyır oxumağa. Bir az bildiklərinnən oxuyannan sonra məclisdəkilər başdıyıllar aşığı sınağa çəkməyə:
– Aşıx, bir "Bəhməni" oxu.
Aşıx çiynini çəkir ki, mən elə hava eşitməmişəm.
Bir başqası:
– Yaxşı, onda Aşıq Ələsgərin Şenniknən deyişməsini söylə.
Aşıx yenə gəzünü döyür.
Bir başqası dillənir:
– Aşıx, Miskin Abdalı Türkiyədə cəlladlar dar ağacına çəkəndə dediyi sözü oxusan yaxşı olar.
Aşıx sazını dınqıldada-dınqıldada deyir:
– A qardaş, siz qəsdən elə havalar deyirsiniz ki, mən bilmiyim.
Bu dəfə yerdən bir ağsaqqal qalxır kı, aşıx, mən elə sifariş verəjəm ki, həm sən biləjəksən, həm də hamının xoşuna gələjək.
Bu vaxt yerinnən qalxan Yusif deyir:
– Ya Həzrət Abbas, aşıx heç olmasa bu dəfə biləydi!

## ŞİPOY GƏNCƏDƏN KÜSƏN KİMİ

Gəncədə Usuf adında bir adam varıyış. Buna Şipoy Usuf da deyərmişdər. Şipoy Usuf bir gün iki qarın yağ götürüf aparır Gənciyə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bazarda yağı satannan sonra bazarrıx eləməli olur. Arvad-uşağın nə əysik-gərəyi var alır yığır xurcuna. Gedir ki, bazarın yaxınnığındakı çayxanada çay işsin. Çay gətirdir, xurcunu da qoyur böyrünə. Qalxanda görür kü, xurcunu aparıflar. Heş kəsə heş nə demədən qayıdıf gəlir.

Sonralar Şipoy Usuf ömrü boyu Gəncəyə getmir ki, ora yer deyil, xurcunumu orada apardılar.

El arasında belə bir misal yaşayır:

"Şipoy Gəncədən küsən kimi" sən də filankəsdən küsüfsən?!

## DƏDƏNİN RUHUNA TAPŞIR

Əsgər axşamlar gedif qonşuda oturuf söhbət eliyər, başını qatarmış. Qonşular da Əsgərə söz atmaxdan ləzzət alar, onun daddı-duzdu söhbətdərinnən doymazmışdar. Bir axşam yenə Əsgər qonşulardan birinə gedir. Oturuf xeyli söhbət eliyillər. Bir xeyli söhbətdən sonra ev sahibi qalxıf bir kitaf gətirir, başdıyır oxumağa. Ev sahibinin də savadı az olduğunnan kəkələyə-kəkələyə oxuyurmuş. Əsgər baxır kı, qonşunun azarı kitaf oxumaq deyil, nə isə deyəjək. Odu ku, Əsgər soruşur:

– Ay qonşu, söhbət elədiyimiz yerdə bu kitaf nəydi gətirdin? Nə özün başa düşürsən, nə də bizi başa salırsan.

– Ay Əsgər, bunnan sənin başın nə çıxardır? Bu qurandı. Zəhmət çəkif oxuyuram, de görüm kimə tafşırım? – deyə Əsgərə sataşır.

– Kimə tafşırajaxsan? Əli daş altında olan dədənin ruhuna tapşır! – deyə Əsgər cavaf verir.

## KAZIM, AY KAZIM

Kazım adında bir oğlan Maral adında bir qıza aşiq olufmuş. Həftələrnən divar divinnən Maralın yerişinə, boy-buxununa tamaşa eləməkdən doymazmış. Bir gün ürəyinnən keçənnəri Marala çatdırmax üçün yanına adam göndərir. Maral iki ayağını bir başmağa diriyir ki, iti görüm, qurdu görüm, Kazımı görmüyüm. Mənim onnan zəhləm gedir.

Maraldan əl çəkmək istəmiyən Kazım bir neçə dəfə yenə ona ismarış göndərir. Yenə bir şey alınmır. Axır kı, Kazım el içində tanınmış atasını Maralın atasına elçi göndərir. Maralın atası razılıx verif deyir ki, mən olan yerdə qız kimdi, verdim qurtardı. Bundan sevincək olan Kazım Marala bir məktuf göndərir. Məktubda yazır:



Maral, ay Maral,
Salma qalmaqal.
Kazımın işinə
İndi mətəl qal.

Böyük həvəsnən toya hazırraşan Kazım toy günü bir məktub alır. Maral ona göndərdiyi məktufda yazırdı:

Kazım, ay Kazım,
Qəvrini qazım.
Daha mən getdim,
Küsmək nə lazım?

Bir də xəvər düşür kü, bəs deməzsənmi, Maral qoşuluf qaçıf.

## MƏNDƏKİNİ MƏN BİLİRƏM, DAARCIXDAKINI ALA QANCIX

Mollanın əli yaman aşağı düşüfmüş. Heç yeməyə çörəyi də yoxuymuş. O çox fikirrəşir, çox götür-qoy eliyir. Axırda belə qərara gəlir ki, baş götürüf qonşu vilayətdərin birinə getsin. Görsün bir tikə çörək pulu qazana bilərmi? Bu məqsədnən boş dağarcığını da çiyninə alıf, başdıyır yol gtməyə. Az gedif, çox dayanır, çox gedif az dayanır, axır kı, gəlif bir kəndin qulağına çıxır. Görür kü, bu kənddə yaman çox it hürüşür. O, ehtiyatı əldən vermiyif yumrux böyüklükdə bir daşı götürüf salır dağarcığının içinə və yoluna davam eliyir.

Kəndə çata-çatda bir ala qancıx cumur mollanın üstünə. Molla görür ki, qancıq çox zalım qancığa oxşuyur. Özü də, dalınnan da bir neçə köpək gəlir. Əyər qancığa bir şey eliyə bilməsə, adamlar yetişənə kimi itdər onunkunu ona verəjək. Molla qorxusunnan lap sarısını udur.

Tüklərini qavardıv, dişdərini qıjıyan qancıx mollaya çatar-çatmaz molla var gücünü toplayıf, dağarcığın daş olan küncünnən itin başına güjdü bir zərbə endirir. Bir də görüllər ki, qancıx bərkdən uluyuf gəvərdi. Onun səsi o biri itdəri qorxuya salır. Köpəklər bir göz qırpımında qaçışıf dağılıllar.

Hadisə yerinə özünü yetirənnər təəccüfnən bir ölən qancığa, bir də mollanın əlindəki dağarcığa baxıllar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunu hiss edən molla deyir:

– Təəccüflənif, eləmiyin! Burada maraxlı nə var? Məndəkini mən bilirəm, dağarcıxdakını ala qancıx.

## GÖRƏN DƏ PEŞİMANDI, GÖRMÜYƏN DƏ

Kasıf olduğu vaxt molla görür kü, borc boğaza dirənif. Borc saaflarına da kı, allah insaf versin. Onun qapısını bir axşam kəsdirif borcu istəyillər, bir də savah. Borc sahibləri gəlif-getməkdən yollar yağır olur. Mollanın da pulu olmur ku, borcunu verif canını qurtarsın.

Çox fikirrəşir, az fikirrəşir, axırda başına bir ağıl gəlir. O bir sərçəni tutuf, tərtəmiz yolannan sonra bir kisəyə salıf, bazarın adamlarnan dolu olan bir yerinə aparır. Ucadan qışqırır:

—Torvamda bir şey var. Görən də peşmandı, görmüyən də.

Adamlar mollanın bu hay-harayını eşidif onun başına toplaşıllar. Bir azdan adam əlinnən tərpənmək mümkün olmur. Hamı torvanın içində nə olduğunu bilmək istiyir.

Mollanın başına toplaşannardan biri deyir:

– Ay molla, torvanı aç görək içində nə var? Axı biz lap ürək-göveəymizi yedik.

Molla deyir:

– Elə şey yoxdu, dost. Kim ki, bilmək istəyir torvanın içində nə var, keşsin beş manatınnan. Pulu versin mana. Mən də torvanın ağzını açım, o da başını içəri salıf nə olduğunu görsün.

Bu minvalnan adamlar başdıyıllar beş manat verif, bir-bir başını torvanın içinə salıf baxmağa. Elə ki, torvada bir tükü yonulmuş ətbala bir sərçəni görüllər, başdıyıllar ucadan şaqqanaq çəkif gülməyə. Ancax o biri adamlara bu barədə heş nə demillər. Bu gülüşdər adamları daha da maraxlandırır. Torvanın içinə baxmax üçün bir basa-bas düşür ki, gəl görəsən. Handan-hana torvuya baxıf aldanannardan biri gülə-gülə deyir:

– Düz deyirsən ay molla, atan behişdik olsun. Doğrudan da, görən də peşimandı, görmüyən də.

Molla bunnan nəinki borşlarını ödüyür, hətta kasıflığın daşını da atır.

## MOLLA VƏ SƏRXOŞ

Mollanın araxdan da, arax içənnən də bərk zəhləsi gedərdi. Heş vaxt,



heç harda arax məclisində, arax içənnərin yanında oturmazdı. Onun ən çox zəhləsi getdiyi adamlar sərxoşlarıydı. Belələrini görməyə gözü yoxuydu.

Bir gün nejə olursa mollanın ayağı büdrüyüf yıxılır, qılçı bərk əzilir. Onu evə gətirillər. Molla ayağındakı əziklərin ağrısınnan duruf dincələ bilmir. Bunu eşidən sərxoşdardan biri arax şüşəsini də götürüf qaçır mollagilə. Baxır kı, doğrudan da, mollanın halı hal döyül. Ahı-ufu yernən-göynən bir oluf.

Sərxoş tez arağın ağzını açıf mollanın qılçındakı əzilmiş yerə bir xeyli arax sürtür. Sonra da bir parçaya bir xeyli arax töküf mollanın qıçını sarıyır.

Az keşmir, ağrılar sakitdəşir. Molla gözünü açıf öz loğmanına baxmaq istiyəndə sərxoşu görüf soruşur:

– A bala, sənnən xeyirri şey çıxmazdı. O nəydi ki, qılçama sürtdün, məni dincəltdi.

Sərxoş dedi:

– Molla əmi, mən xeyirxah adamam. Qılçana sürtdüyüm də araxdı. Sənin lə’nətlədiyin, sənin qılçana dərman olan arax. Deyirdim, inanmırdın, həmişə məni qınayırdın, el içində rüsvay eliyirdin. İndi arağın hökmünü gördünmü? Molla əmi, gör arax adamın eşiyini belə dincəldəndə, içini necə dincəldir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MOLLA OLUNU EVLƏNDİRİR

Mollanın bir çirkin arvadı varıymış. Çirkin nə çirkin. Üzünə bir dəfə baxanın əli yerdən-göydən üzülərmiş. Qohum-qonşu, tanış-biliş, dost-aşna nə qədər deyərmiş ki, ay molla bu nə arvaddı alıfsan. Boşa bir qəşəngini al. Bunun üzünə baxılası döyül. Özünə yazığın gəlmirmi?

Elə hey bu sözdəri eşidən molla axırda təngə gəlif deyərmiş:

– Bunu mən özüm bilə-bilə eləmişəm. Çirkin arvad almışam kı, heş bir kişi onun üzünü baxmax istəməsin.

Ancax mollanın bir qəşəng, boylu-buxunnu, yarrı-yaraşıxlı oğlu varıydı. Oğlanın yaşı keşsə də, evlənmirmiş. Ha deyəllərmiş, bu qulağınnan alıf, o biri qulağınnan ötürərmiş. Bezar olan anası bir gün ərinin üstünü kəsif deyir:

– A kişi, daş deyilsən ki, bir sən də dillənsənə?

Molla:

– Ay arvad, dillənim, nə deyim?

Arvadı:

– Nə deyəjəksən de ki, ay bala vaxtın çoxdan keçif, razılıx ver, səni evləndirək.....

Molla:

– Baş üstə, – deyif, bir gün oğlunu yanına çağırıf uzun-uzadı dəlil-dəlayıldan sonra deyir:

– A bala, nə tərsdik eliyirsən? Niyə böyüyü eşitmirsən? Nə qədər demək olar. Niyə evlənmirsən? Dərdin-azarın nədi? Yoxsa arvaddan qorxursan. İnsaf elə, yola gəl. Razılıx ver, sənə gözəl-göyçək, qəşəng bir qız alım.

Sonuncu sözdəri eşidəndə cin vurdu oğlanın başına. Bilmədi ürəyinin ajısını atasının üstünə nejə töksün? Qəzəfnən dedi:

– A kişi, bilirsən nə var? Sən ki, elə gözəl-göyçək, qəşəng arvad alanıydın, niyə özünə almırdın? Mənə də özünə aldığınnan birini alajaxsansa, heç almasan yaxşıdı.

Oğlunun haxlı sözünə molla cavaf tapa bilmir.



## MOLLA AYI OYNADIR

Bir gün şəhər qazısı lotubaşını yanına çağırıf deyir:

– Amanın bir günüdü. Bu molla məni lap zara gətirif. Hər yerdə məni ələ salır. Daha camaatın içində biavır olmuşam, el içinə çıxa bilmirəm. Əgər bir dəfə mollanı biavır eləsəniz, sizi dünya malınnan qəni eliyəjəm.

Lotubaşı razılıx verir. Bir gün lotuları da yığıf kəsir yolun ayrıcını. Elə ki, molla gəlif burdan keçir, hamısı başdıyır onun qavağında ayı kimi atılıf-düşməyə, əl-qol atmağa.

İşin nə yerdə olduğunu annıyan molla halını pozmadan əlini bir az aralıda dayanıf hırıldayan qazıya uzadıf deyir:

– Balam, mən təkcə bu qazıya ayı kimi oynamağı örgətmişdim. Birdən-birə bir belə ayı hardan çıxdı?

## BADALAX ƏHVALATI

Deyillər bir kişinin özü halal, qazanccıl olduğu halda, arvadı yalançı, kələkbaz, həm də ayağı sürüşgəniymiş. Kişinin ayağı evdən kənara dəydimi, çağırarmış oynaşı, yeyif-içif, yazıx kişi gələnə kimi kef çəkərmiş. Kişinin də ki, heş nədən xavarı yoxuymuş.

Bir gün kişi genə hazırraşır kı, qonşu ölkəyə kasıfçılığının dalıncax getsin. Arvad bir əl-ayax da satın alır kı, kişini tez yola salsın, oynaşı çağırsın.

Bir az tədarükdən sonra kişi tələm-tələsik yola düşür. Gethaget, günortaya qədər payi-piyada xeyli yol gedənnən sonra, birdən yadına düşür kü, pul kisəsi yadınnan çıxıf evdə qalıf. Çar-naçar evə qayıtmalı olur. Qarannıx düşüf, şər qarışan vaxdı gəlif kəndə çatır.

Qapılarına çatanda qulaxlarına səs gəlir. Bir az dinləyif görür kü, evdən kişi səsi gəlir. Bajaya çıxıf görür kü, qonşuları Həmzə, arvadınnan toyux qızartmasından yeyif-içif mazaxlaşıllar. Dünya heç vejdərinə də döyül. Elə ki, bunnar bir-birilərinə sarmaşıllar, kişinin qeyrəti qavıl eləmir. Namusa boğuluf, qapıyı qırıf içəri girir, başdıyır oynaşnan güşdü tutmağa.

Gah bu güj gəlir, gah da o biri. Kişi küj gələndə arvad başdıyır hündürdən tez-tez deməyə:

– Kişi, badalax ver! Kişi badalax ver! Kişi badalax ver!

Arvadın bu sözü kişinin ağlına batır. O, kişiyə badalax verib, arxasını qoyur yerə. Üzünü tez arvadına tutuf deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A köpək oğlunun qızı, niyə mənim badalaxsız işimi badalağa salırsan!

## KEÇİ ƏHVALATI

Deyillər, sovet hökuməti təzə qurulan illərdə qolçamax adlandırılan varrıların nəyi varıydısa əlinnən alınıf verilirdi dövlətə. Bir kişinin də nə qədər mal-qarası, var-dövləti varıymış, hamısını əlinnən alıf, özünə vurtut bir keçi verillər.

Kolxoz sədri, kənd sovet sədri, rayon rəhbərrəri tez-tez gəlif kişidən keçinin vəziyyətini soruşurlar. Kişi görür kü, keçisi yaman urvata minif, hökumətin bütün kitaflarına keçisinin adı düşüf, yetən onnan keçini soruşur.

Aradan bir xeyli keçir. Bir gün hökumət adamlarınnan biri həmin kişidən Niqalay hökumətinnən sovet hökumətinin fərqini soruşur. Kişi təmkinnən deyir:

– A dərdin alım, Niqolayın vaxtında saysız-hesafsız var-dövlətim, mal-qaram, qoyun-quzum, ilxım varıydı. Amma birinin də adı bir it dəftərində yoxuydu. Allah Sovet hökumətinə baxt versin. Cəmicümlətanı bir keçim var. Hamı onnan hal-əhval tutur. Bütün kitafların başında mənim keçimin adı yazılıf. Belə hökumətdən kim narazı olar?!

## DAHA GÜLÜŞÜLLƏR

Deyillər, əsrimizin 30-cu illərində haxlı-haxsız yığılan vergilər camaatı boğaza yığıfmış. İldə bir neçə dəfə yığılan vergidən xalq dilənçi kökünə düşüfmüş. Vergi yığannarın insafını allah əllərinnən alıfmış. Hər an əmrə müntəzir dayanan bu insafsızdar çox vaxt zorakılıxnan evlərə soxuluf camaatın oluf-qalanını vergi adınnan silif-süpürüf aparıllarmış. Nə ah-nalə, nə göz yaşdarı bu qəddarrarın ürəyini zərrəcə yumşaltmazmış.

Bir gün kəndin rəhbəri vergi yığannarı genə yanına çağırıf deyir:

– Gedin, vergi yığın.

Vergi yığannar qayıdıf sədrə deyillər:

– Yoldaş sədr, heş nələri yoxdu, hamısı ağlaşır.

Sədr acıxlanıf deyir:

– Gedin yığın, ağlıyıllarsa, demək nələrisə var.



Onnar da gedif bu dəfə də əllərinə keçən nə varsa yığıf gətirillər.

Bir dəfə gedənnər qayıdıf deyillər:

– Yoldaş sədr, bu dəfə hamı gülüşürdü.

Sədr sakit-sakit deyir:

– Daha getməyin, deməli, hər şeyləri qurtarıf, heç şeyləri qalmıyıf.

## YETİM SEVİNDİRƏN

Bir dəfə bir adam çətin bir işə düşür. Əlaci hər yerdən üzülən kişi gejə-gündüz əllərini göylərə qaldırıf deyir:

– Ya rəbbim, məni bu bəladan qurtar, söz verirəm ki, bir yetim sevindirəjəm.

Günnər ötür. Ulu tanrı kişinin na'lə və yalvarışdarını eşidif onu düçar olduğu bəladan qurtarır. Qalır kişinin öz əhdini yerinə yetirməsi. O, axtarıf bir yetim uşax tapır. Sorğusuz-sualsız onu salır təpiyinin altına. Vur ku, vurasan. Uşaq ölümcül halda bir təhər kişinin əlinnən pırtıf qaçır. Bir az aralanannan sonra diz çöküf başdıyır allaha şüküllər oxumağa.

Bunu görən bir nəfər uşağa yaxınlaşıf soruşur:

– A bala , nəyə şükür oxuyursan, döyüldüyünəmi?

Ağrılarını unuduf allaha şükür oxuyan bu kimsəsiz yetim doluxsuna-doluxsuna deyir:

– Ona görə şükür oxuyuram kı, o kavırın əlindən salamat qurtardım. Axı, o məni öldürə də bilərdi. Ölmüyüf salamat qalan yetim sevinməsin, bə neynəsin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ÇOX ƏRƏ GEDƏN ARVAD

Bir arvad tez-tez ərə gedər, bir-neçə gün oturmamış onnan boşanıf, bir başqasına gedirdi. Beləliknən, az vaxtda o neçə kişiyə ərə gedir. Hamısınnan da boşanır.

Bunu görən arvaddar öz aralarında söz qoyuf yığışıf gedillər həmin arvadın yanına. Maraxnan soruşullar:

– Ay bajı, səni and veririk bizi yaradanın birdi birriyinə, de görək bu nədi, sən belə tez-tez ərə gedir, bir-iki ay oturmuyuf boşanırsan. Bu biz arvaddarı yaman düşündürür. Gərək bu sirri bizə açasan. Biz də halı olax. Deməsən, bu sirr bizi lap çərrədəjək.

Arvad elə bil himə bəndiymiş. Yana-yana deyir:

– Aa...a. Ərə getdiyim kişilərin hamısının dədəsinin goruna çaxır töküm. Hansına ərə getdimsə, qoymurdu ku, heç içəri keçim, gərdəyin dalına çatım, bir özümü arxayınnıyım, nəfəsimi dərim. Elə qapıdaca məni minməyə çalışırdı. Belələrinin nəyində oturasan?!

## BİZİM İT HÜRÜŞÜNÜ QANMIR

Bir dəfə yenə kənd adamları, el ağsaqqalları bir yerə toplaşıf olannan, olmuşdan, gəlif-gedənnən söhbət edərdilər. Söhbət gəlif Bağır kişiyə çatanda o özünəməxsus tərzdə deyir:

– Ay camaat, sizə bir söz deyəjəm, məni qınamayın. özü də zarafata yazmıyın. Doğru sözümdü. Bizim it hürüşünü qanmır, onu bir gün canavar aparajax.

Bu söhbəti eşidənnərin hamısı gülüşür. Ancax, doğrudan da bir neçə günnən sonra mə'lum olur ku, Bağır kişinin hürüşünü qanmıyan itini canavar aparıf.

O vaxtdan həmin deyim bir atalar sözü kimi xalq arasında işlənməkdədi.

## AYIRRARIN HÖRÜKLƏRİNİ DƏYİŞİR

Sovet dövründə hər ilin fevral-mart aylarında kolxozlarda hesabat-seşki yığıncaxları keçirilər, sədrlərin bir illik fəaliyyətinə qiymət verilərdi. Belə ki, kolxoz sədrləri ilin nəticəsinə görə ya təkrar qalıf işdiyir, ya tafşırıx, töhmət alıf yerində qalar, ya da tutduğu vəzifədən



azad edilərdi. Çox vaxtdar azad olunma sədrrərin yerdəyişməsinə səvəv olardı. Bunun bir oyun olduğunu hamı yaxşı annıyırdı.

Bir gün Sarıyaqub kolxozunun sürücüsü, kəndin adamlar gur toflanan bir yerində başdıyır hütə-hütnən üyüdüf tökməyə:

– Raykom filan kolxozun sədrini çıxartdı, filan kolxoza sədr tə'yin elədi. Filanov filankəsi də filan kənddən, filan kəndə göndərdi.

Kəndin adamları diqqətnən ona qulaq asır, bu mə'lumatdarı yayan sürücüdən yeni-yeni xəvərlər eşitmək istiyirdilər.

Bayaxdan bəri hər şeyə diqqət yetirən Talıf müəllimin axır kı, səvri tükənir, üzünü sürücüyə tutuf deyir:

—Ə, bala, savahdan nə hüdüllüyif tökürsən. Kişisən, kişi oğlusan. Mıs-mıs deyənə kimi, biryollux de ki, Mustafa. Gah deyirsən bunu çıxarıf ora göndərdilər. Gah deyirsən onu çıxarıf bura göndərdilər. Nə bilim, nələr elədilər. Ədə, zalım oğlu zalım, biryollux de ki, raykom ayğırrarının hörüyünü dəyişir.

## GET, LAP QOHUM-ƏQRƏVANI DA ÇAIR

Bir dəfə molla axşamın ala-qarannığında kiral deyilən yerdə nəsə axtarırmış. Gözdəri ayaxlarının altını seşmədiyinnən, ayağınnan xəlvirin çəlvərinin bir tərəfindən basır, xəlvirin o biri tərəfi qalxıf mollanın dizinə dəyir. Mollanın dizi bərk ağrıdığınnan hirsinnən xəlvirə bir təpik vurur. Molla görür ku, xəlvir divara dəyən kimi yenidən onun üstünə qayıdır. O vaxt itirmədən cəld qollarını çırmıyıf deyir:

– Gəl, göpəy oğlunun xəlviri, gəl! Bu da bayaqkı döyül. İstəyirsən get, lap qohum-əqrəvanı da çağır.

## AŞIXNAN MOLLANIN SÖHBƏTİ

Bir gün addı-sannı aşıxlardan biri qonşu kənddəki bir toya çağrılır. Hazırraşıf axşamüstü yola çıxır. Kənddərinnən çıxa-çıxda həmin kəndə gedən yolun qırağında bir adamın dayandığını görür. Öz-özünə deyir:

– Yaxşı oldu, baravar gedərik. Aşıx yaxınnaşanda görür kü, həmən adam molladı. Salam-əleykdən sonra molla aman vermiyif aşıxdan soruşur:

– Aşıx, xeyir ola, haraya gedirsən?

Aşıq mollanın qəlb qaralığını başa düşüf, təmkinini pozmadan deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Molla, xeyirdi ki, mən gedirəm, şər olsaydı, sən gedərdin!

## CAN OULUN ÇOMAI

Kalvayı İrvaham adında olduxca qoçax, mərd və pəhlivan cüssəli bir kişi varıymış. Dava vaxtı otuz adamın içinə düşər şil-küt eliyif çıxarmış. Bir gün Kalvayı İrvahama xəvər verillər ki, bəs deməzsənmi qonşu kəndin camahatı bizimkiləri döyüf-qırdılar. Kalvayı İrvaham tələsik dava yerinə qaçır. Görür kü, qonşu kəndin camahatı çox, bunlar da cəmi üç-dörd nəfər. Uzaxdan qışqırır kı, qorxmuyun gəldim. Çatan kimi Həmid addı fağırhal bir kişinin əlinnən çomağı alıf düşür qonşu kəndin cavannarının canına. Kalvayı İrvahamın çomağı dəyən bir də ayağa durmur. Uzaxdan baxıf əlini-əlinə sürtən Həmid Kalva İrvahamın əlindəki çomax qalxıf-endikcə deyir:

– Can oğulun çomağı, gör bir neyniyir!

İndi el arasında bu ifadə misal kimi işlədilir.

## DEMİRSƏN KİŞİ BOULUF ÖLƏ BİLƏR

Kalva İrvahamın Qulu adında yoxsul, bir az da ağıldan qıvrax bir qonşusu varıymış. Qulunun aman-zaman bircə qızı bir gün qəfildən xəstələnif ölür. Yasa gələnnərin hamısı dil deyif ağlıyır. Amma Qulu nə qədər sıxırdısa, gözdərinnən yaş gəlmirdi, Kalva İrvahim baxır kı, Qulu bir tərəfdə duruf ağlıyannara tamaşa eliyir. Özünü saxlaya bilmiyif deyir:

– Qulu, sənin kimi atadan olmasa yaxşıdı! Bütün kənd züy-züyə gedir, amma sən öz doğma balanı ağlamırsan!

Qulu deyir:

– Günah məndə deyil, bu kor olmuş gözümnən yaş çıxmır. Belə göz mana lazım döyül. İkisini də bu saat ovajam.

Camaat hərə bir tərəfdən:

– A kişi, dəli döyülsən, gözdərini niyə çıxardırsan. Dünyanın işidi, bir yannan yaranan bir yannan öləjək. Fikir eləmə, deyif ona təskinnik verməyə başdıyıllar.

Kalva İrvaham onu bir tərəfə çəkif deyir:

– Onnar sənin ağlını kəsdirir. Heç olmasa gözdərinə soğan sıx, qoy bir az yaş gəlsin. Camaat görsün kü, ağlıyırsan, yoxsa sonra zurna edif çalajaxlar.



Bir az keçənnən sonra Qulunun harayı dünyanı başına götürür:

– Qoymuyun boğuldum, ay camaat özümü boğdum.

Ölü yerinə toplaşannar pəyəyə doluşuf görüllər ki, Qulu kəndirin bir ucunu ipə, o biri ucunu da ilmək eləyif salıf boğazına. Ayağının altına bir səvət qoyuf. Kəndir boğazında ayax üstə bağırır kı, özümü boğuram.

Kalva İbrahim tez irəli yeriyif səvətə bir təpik ilişdirir. Səvət Qulunun ayağının altınnan çıxan kimi o, boğazınnan asılı qalıf havada yellənməyə başdıyır. Kalva İrvaham tez əlini atıf Qulunu yuxarı qaldırıf boğazını kəndirdən çıxardır. Huşunu itirmiş Qulu bir xeyli keçənnən sonra özünə gəlir. Ayağa duran kimi gözünü yumuf ağzını açır, nə açır. Bir xeyli söyüf-söylənənnən sonra Kalva İrvahama deyir:

– Axmağın biri axmax, ağla deyirsən, ağlıyıram. Belə də zarafat olar. Demirsən, kişi boğuluf ölər.

## ATASI RƏHMƏTDİK ÖRGƏDİF, OXUMARAM

Qulu bərk ayaxda yatırmış. Qohum-qonşu yığılıf onun çarpayısının yanını kəsif ürək-dirək verirmiş. Bu arada Kalva İrvaham Qulunun yanına gəlir. Bir az ordan-burdan danışannan sonra əyilif xəlvətcə onun qulağına deyir:

– Ay Qulu, bir söz deyəjəm, heç kəsə demə, yaxşımı?

Qulu deyir:

– Yaxşı.

Kalva İrvaham deyir:

– Qulu, molla yanına gəlif desə ki, kəlmeyi-şəhadətini oxu, onun sözünə-zada inanma ha. Onun dediyini eliyən kimi öləjəksən.

Qulunun vəziyyəti bir-iki günnən sonra daha da ağırraşır. Molla çağırıllar kı, ölüf-eliyər, quransız ölməsin. Molla gəlif içəri girəndə Qulu yönünü divara tərəf çöyürür.

Molla soruşur:

– Ay Qulu, məni görən kimi niyə yönünü divara çöyürdün? Bəri dön, görüm nejəsən, nə var, nə yox?

– Qulu, dönmürəm, lap yaxşıyam, – deyif köntöy-köntöy dillənir.

Molla fikirrəşir ki, yaqın gej gəldiyimə görə Qulu mənnən inciyif. Molla bir az onun könlünü alannan sonra deyir:

– Ay Qulu, yönünü bəri çöyür. Bir kəlmeyi-şəhadətini oxu görüm.

– Oxumuram, – deyə Qulu cavaf verir.

– Niyə oxumursan?

– Oxumuram, vəssalam, atası rəhmətdik örgədif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Molla deyir, Qulu deyir, bir şey çıxmır.
Axırda Qulu deyir:
– Ay canım, ölmək istəmirəm, sizə nə!

## YADINA BALIX DÜŞÜF...

Qulu bir gejə əlində balıx evinə gedirmiş. Bunu görən qonşu paltarını dəyişif onun qavağını kəsir və balığı əlinnən alır. Qulu sonradan-sonruya başa düşür kü, balığı aparan qonşudu.
Bunnan bir-neçə gün sonra həmin adam Quluynan yenə rastdaşır. Salam verif kefini soruşur.
Qulu deyir:
– Kefimi soruşmaxda səndə bir şey var.
– Nə olajax, ay Qulu, qonşuyux, deyirəm görüm yaxşısanmı? – deyə həmin adam cavaf verir.
Qulu özünü saxlıya bilməyif deyir:
– Qonşu olmağına qonşuyux, amma deyəsən, yadına balıx düşüf.

## YUMRUX DURUR!

Kalva İrvaham qojalıfmış. Günnərin bir günü qonşu kəndə toya gedir. Tanış-biliş onun başına yığılıf ötüf- keçənnərdən danışırmış. Yaşdı qojalardan biri deyir:
– Uşaxlar, siz Kalvayının nəyinə gördünüz? Cavannıxda şir kimiydi. Nə dizini qatdıyan oldu, nə qolunu bükən. Çomağının da kı, qavağına çıxan olmazdı.
Bir zaman Kalva İrvahamın çomağını dadmış Veysəl addı bir nəfər kişi dişini ağarda-ağarda deyir:
– Ay Kalva İrvaham, qojalıx yaman üstünü alıf deyəsən, çomağı neynədin?
Kalva İrvaham onun istehzasını duyuf cavaf verir:
– Çomax nəyimə gərəkdi, ay Veysəl, yumruğu saxlıyıram.

## ÇƏK, KÖPƏK OLU, ÇƏK

Bir gün varrılardan biri deyir ki, ay Kalva İrvaham, savah bizə kömək



elə. Yaz ötüf gedir, əkinimiz tökülüf qalıf. Nökərrərin fərsizdiyi ujunnan hələ mənim başıma çox iş gələjək.
Kalva İrvaham razılıx verir. Savah bir kotanın majgallığını eliyir. Görür kü, dörd kotanın dördü də öküzdərin arıxlığınnan tərpənə bilmir. Nökərrər neynəsin, öküzün yerinə kotana ha qoşulası döyüldülər?
Nökərrərdən biri deyir:
– Ay Kalvayı görürsən də, ağanın saxladığı öküzdəri. Özdərini sürüyüf apara bilmillər. Bunnan da gəl sən əkin ək. İndijə də gələjəklər ki, əkə bilmirsiniz. Ağzına gələni söyüf tökəjək.
– Siz neyniyirsiniz, belə arıx öküzdərnən yermi əkəllər, – deyə Kalvalı İrvaham dillənir. Günorta üstü torpaq sahivi əkinçilərin yanına gəlir. Atdan düşüf birinci Kalva İrvahamın yanına gəlir:
– Allah qüvvət versin, ay Kalvayı, sənin kimi işçilərim olsaydı, indi əkinim qurtarmışdı, – deyərək əlini belinə qoyuf lovğa-lovğa şuma düzülmüş kotannara baxır.
Kalva İrvaham cavavında deyir:
– Mənnən işçi olmaz, mən özgə qapısında işdiyən döyüləm. Bu gün bir qonşu kimi köməyə gəlmişəm. O ku, qaldı işçilərinə, söz yoxdu. Ancax öküzdərin çox arıxdı, yaxşı baxsaydın, bu gün işin yaxşı olardı.
Bu söz elə bil ki, onun yarasına toxundu. Əlin nökərrərə uzadıf ucadan qışqırmağa başdadı:
– Öküzü də arıx salannar bu köpəy uşaxlarıdı. Di əkin, canınız çıxsın, əkin. Majgallardan biri:
– A kişi, bizi niyə söyürsən... Öküzə nə verifsən, biz də onu yedirtmişik. O vaxt yem vermirsən, indi də bizi günahkar sayırsan.
Hirsdənmiş ağa macgalın üstünə cumuf onu yumruxnan vuruf torpağa sərdi. Tez hodaxlar ağıyı tutdular kı, daha vurmasın. Kalva İrvaham kotanın dəstəyini buraxıf tez ağanın yanına gəldi ki, neylədiyindi, ayıf döyülmü?! Özün adam döyülsən, bizi də adam saymırsan? Sonra da qolunnan tutuf bu tərəfə gətirdi və yenə kotançının yanına qayıtdı. Hirsdənmiş ağa çəkilif qıraxda oturmuş nökərin üstünə bir də cumdu. Tutdu onun boğazınnan və başdadı:
– A gədə, sana deyirəm ək. Bilmirəm, nə yolla olursa olsun, əkəgjəksən. Yoxsa, canını alajam. Sana deyirəm ək, köpəy oğlu, ək!
Bu dəfə özünü saxlaya bilmiyən Kalva İrvaham qızıl quş kimi ağanın üstünü aldı.
– Qurumsax, sana demədim ki, öküzdərin çəkmir...
Əlini atıf yapışdı ağanın kürəyinnən, bir torva kimi sallıya-sallıya gətirdi, hambal öküzün böyrünə. Öküzü samıdan çıxarıf, boyunduruğu keçirdi ağanın boynuna. Sonra da şallağı götürüf doladı onun gövəyinə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:
– Çək, köpəy oğlu, çək!

## BELƏ DƏ YOLDAŞDIX OLARMI?

Camaatı bir yerə topluyuf deyir:

– Ay, yoldaşlar, vergini gejikdirmək olmaz, tezdəşdirmək lazımdı. Elə adamlar var kı, kənd içində ağzı açıxlıx eliyillər. Pristavın dalınnan danışıllar. Yoldaşdar elə eləmək lazımdı kı, bizim camahat başqalarınnan fərqlənsin.

Kovxa bir də "yoldaşdar", – deyə camaata müraciət edəndə Kalvayı İrvaham qayıdır kı, yaman yoldaş, yoldaş deyə şartdadırsan. Sənnən bizim nə yoldaşdığımız?

Kalva İrvahamdan çəkinən kovxa deyir:

– A, Kalvayı, o nə sözdü? Camahat da bizimki döyülmü?

– Faytonnan düşüf kəhər ata minirsən, kəhər atdan da düşüf boz ata. Biz bir eşşək də tapmırıx minək. Belə də yoldaşdıx olarmı? – deyə cavab verir.

## MÖVLAVERDİ NİYƏ MELƏVERDİ OLDU?

Belə rəvayət edillər ki, son iki əsrdə ömür-gün sürmüş Mövlaverdi kişi Gəncə səfərinnən evə sağ-salamat, özü də əli dolu qayıdır. Axşam külfət yığışır başına. Evin ağsaqqalı hərəyə bir pay verif onnarı sevindirir. Qohum-qonşuların payını da bir tərəfə qoyur. Axırda üzünü arvadına tutuf deyir:

– Demişdin qənd al, almışam. Xurcundadı. Bir yerə boşalt.

Arvad sevincək xurcunu boşaltmağa başdıyır. Birdən gözdərinə inanmır. Həyacannan üzünü ərinə tutuf deyir:

– Ay kişi, bu nədi almısan?!

Sən demə, bazarın lotu-potuları kişiyi alladıf xurcunun altına təbaşir dolduruf, üstünnən də bir az qənd qoyuflarmış.

Savah açılır. Qonşular göz aydınnığı verir və Mövlaverdinin nə aldığını soruşullar. Arvadı qayıdır ki:

– Nə alajax. Apardı nəyimiz vardısa hamısını Gəncədə melə verdi, gətirdi.

Sonra hadisəni olduğu kimi danışır. Bu xəvər tez bir vaxtda bütün kəndə yayılır. O günnən hamı Mövlaverdini zarafatnan Meləverdi deyə



çağırır.

## MELƏVERDİNİN İRƏVAN SƏFƏRİ

Bir dəfə Meləverdi kişi Azərbaycanlıların gur yaşadıxları İrəvan şəhərinə güzar edir. Kür-külfəti üçün bazarrıx eliyif geri qayıdarkən şəhərin mərkəzi meydanına camaatın yığışdığını görür. Yaxınnaşır kı, meydanda bir pəhlivan var. Onun qavağına çıxannarın da hamısının arxasını vurur yerə.

Bu qədər adamın birinin əlində aciz qaldığını görən Meləverdi kişi dözə bilmiyif yanındakı tanımadığı bir cavannan soruşur:

– Ay oğul, nejə olur ku, o hamıyı yıxır?

Oğlan da qayıdır:

– Bilirsənmi, onun fəndi-feli var.

Bu sözü annamıyan Meləverdi özünnən asılı olmuyarax camaatı yara-yara meydanın ortasına doğru irəliləyir.

Lovğa, özünnən razı pəhlivanın bu cüssəli və yekəpər kişidən dalağı sancır.

Nəhayət... Güləş başdanır.

Meləverdi pəhlivana heç fənd-fe'l işlətməyə imkan vermir. Onu iki əliynən yuxarı qaldırıf arxası üstə yerə çırpır və çökür sinəsinə. Heş kim gözünə inanmax istəmir.

Meləverdi kişi gözdərini dolandırıf adamların içində həmin oğlanı tapır. Üzünü ona tutuf ucadan deyir:

– Ay oğul, bayax mana dediyin fənd-fe'l budumu?

## ÇARIX ƏHVALATI

Meləverdinin İrəvandakı qoçaxlığı tez bir zamanda hər yerə yayılır. Məğlub olan pəhlivanın böyük qardaşı bu rüsvayçılığa dözə bilmir. Adı hər yerə səs salan bu pəhlivan arıyıf-axtarıf, soraxlaşıf qardaşının arxasını yerə vuran adamın Göyçə mahalının Sarıyaqub kəndinnən olduğunu örgənir. Ancax adını öyrənə bilmir.

İntiqam hissiynən alışıf-yanan pəhlivan yola çıxır. Bir axşamüstü kəndə çatır. Tərsdikdən kəndin girəcəyində Meləverdiynən rastdaşır. Məqsədini danışır. Meləverdi məsələnin nə yerdə olduğunu bilir, özünü o yerə qoymuyuf deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bala, gəlifsən, xoş gəlifsən. İndi gejdi, şər qarışır. Dediyin adamın evi kəndin o biri başındadı. Bu gördüyün ev bizimdi. Gedək qonağım ol. Yol gəlif, yorulufsan. Dincəl. Savah tezdən baravər çıxarıx kəndin içinə. Məsələnin nə yerdə olduğunu kənd adamlarına deyərik. Həmən adamı da çağırtdırarıx gələr. Ya sənnən güləşər, ya da məğlub olduğunu boynuna alar.

Pəhlivan razılaşır. Atdan düşüf evə gedillər, bir az yeyif-içənnən, ordan-burdan söhbət eliyənnən sonra yatıllar.

Savah tezdən qonax qalxıf paltarını, coraflarını geyinir. Ancax nə qədər axtarırsa, çarığının bir tayını tapa bilmir. Birdən gözdəri ev damının bütün ağırrığını saxlıyan kərənnən dirəyin arasına qoyulmuş çarığına sataşır. Matı-qutu quruyur. Bir neçə dəfə udqunur. Taqəti olmur ku, yerinnən tərpənsin. Başa düşür kü, bu elə həmin adamdı. Oturduğu yerdə də donuf qalır.

Meləverdi isə saymazyana dirəyə yaxınnaşır. Kürəklərini verir kərənə. Onu dirəkdən aralıyıf çarığı çıxardır, verir qonağa. Qonax əlləri əsə-əsə bir təhər çarığı geyinif bayıra tələsir. Onun qulaxları heş Meləverdinin "Dayan, bir çay-çörək ye!" sözdərini də eşitmir. Tələsik ayağını üzəngiyə qoyuf atını minmək istiyəndə Meləverdi onu hop götürüf bir göz qırpımında atın yəhərinə qoyur.

Deyillər, qisas almağa gəlmiş pəhlivan gördüklərinin tə’sirinnən Meləverdinin evinnən nejə çıxdığını, evlərinə nejə çatdığını ömrü boyu xatırrıya bilmir.

## SAVAHI PİŞİK HA YEMİYİF...

Çox-çox əvvəllər Göyçədə Kərim addı bir qazı varıymış. Kim onun üstünə bir işə getsə elə hey deyərmiş "gözdə". İşə gələn adam gözdəməkdən yoruluf dilə gələrmiş:

– Qazı sağ olsun, mən nə vaxta kimi gözdüyüm?

– A kişi, gözdə da. Nə qədər gözdüyürsən, gözdə. Savahı pişik ha yemiyif...

Günnərin bir günü Xoy şəhərində oxuyan bir tələbə girir qazının yanına. Oğlan deyir:

– Salamün əleyküm!...

Qazı salamı almadan deyir:

– Gözdə da, nə olar, gözdə!

Tələbə deyir ki, ay qazı, mən sənə hələ salam verirəm, bir salamımı



al, sonra yenə gözdüyərəm.

Qazı qayıdır ki, a kişi, sənə dedim ki, gözdə da... Savahı pişik ha yemiyif?

Tələbə geri çəkilif deyir:

– Ay başına dönüm, bu qazı dəli oluf, nədi? Savaha pişik ha yeməyif, nə sözdü?

Qapı arxasında boyun bükən adamlardan biri deyir:

– Ay dərdin alım, yə’ni deyir ki, savahı pişik ha yemiyif, savah bir də gəl...

Bir-neçə il ötür. Həmin tələbə Xoyda təhsilini başa vuruf Göyçüyə qayıdır. Keçmiş qazını çıxarıf həmin oğlanı qazı tə’yin eliyillər.

Bir gün köhnə qazı təzə qazının yanına gəlir. Təzə qazı "gözdə" deyif bütün günü onu gözdədir.

Köhnə qazı deyinə-deyinə evinə qayıdır. Soruşular kı, ay Kərim qazı, hardan gəlirsən?

Kərim qazı deyir:

– Ay rəhmətdiyin uşağı, belə də iş olar? Qazı bu gün axşama kimi məni qapı dalında gözdədif!

Adamlardan biri deyir:

– Ay Kərim qazı, olan işdi.

Kərim qazı başqa bir adama rast gəlir. Yenə təzə qazıdan gileylənir.

Həmin adam deyir:

– Ay Kərim qazı, olan işdi!

Kərim qazı hirsdənif çəliyini yerə vurarax donqulddana-donquldana gedir.

– Balam, bu camaat lap quduruf. Mənim kimi kişiyə də heç deyəllər: olan işdi?

Arxadan ona çatan bir nəfər Kərim qazının danışığını eşidir.

– Nə oluf ay qazı? – deyə soruşur.

– Nə olajax, təzə qazı bu gün məni qapı dalında gözdədif. Heş belə şey olar?

– Mən elə indicə təzə qazını gördüm. Dedi ki, Kərim qazıynan məşğul ola bilmədim. Ona de ki, zərər yoxdu. Savahı pişik ha yemiyif!

Qazı işi başa düşür. Özünü o yerə qoymuyuf deyir:

– Neyniyək, nə deyir desin! Doğrudan da, savahı pişik yemiyif ha...

## SİRKƏYNƏN HEYVANXANIYI QARIŞDIRILLAR



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Höjət Cəfəri qonşu kənddərdə tanımayan yoxuymuş. Bildiyinə də qarışarmış, bilmədiyinə də. Harda bir söhbət getsə, atılarmış ortuya kı, yox sən düz demirsən, elə deyiml, belədi.

Bir gün üç-dörd nəfər söhbət eliyirmiş. Görüllər ki, Höjət gəlir. Aralarında danışıllar kı, odu gəlir, höjətə başdıyajax. Söhbəti nədən salax? Bu vaxt Höjət gəlif çıxır. Yoldaşdardan biri deyir:

– Hə... əşi, şəhər başqa şeydi. Odu, deyirsən gedif sirkə baxıfsan. Mən bilirəm ki, ləzzət alıfsan. Bir gün təşkil edək, baravar gedif baxağın. Sirkə mənim də böyük marağım var. Dərindən qəhqəhə çəkif gülən Höjət dedi:

– Hələ sən sirkə görmüyüfsən? Ay yazıx sənin gününə.

– Sən harda görüfsən?

– Sirkəni xörəkdə yüz dəfə yemişəm.

– Ay Cəfər, sən səhv salırsan. Sirk deyirik. Heyvan oynadıllar, adamlar yüz oyun çıxarıllar.

Yazıx sizin gününüzə. Sirkəynən heyvanxanıyı qarışdırırsınız, – deyə Höjət əlini-əlinə vuruf ürəkdən gülür.

## KİŞİNİN SÖZÜ BİR OLAR

Bir dəstə adam kənddə oluf-keçənnərdən söhbət eliyirmiş. Əhməd addı birisi deyir ki, yaxşı yadımda deyil neçənci iliydi. Ancax onda da bu ilki kimi qış çox sərt keşdi.

– Mənim yaxşı yadımdadı, – deyə Hüseynalı sözə başdadı. – 1958-ci il idi – atam rəhmətə gedən il.

Bunu eşidən Höjət döşünü irəli verdi.

– Hüseynalı ilə söz danışır, bişmiş toyuğun gülməyi gəlir. Dədən rəhmətə 1955-ci ildə getmiyifmi?

Hüseynalı dedi:

– Yenə Höjət höjətdiyə başdadı. Deməк mən dədəmin öldüyünü bilmirəm, sən bilirsən?

Höcət coşdu:

– Dədə qədri bilənsənmi, öldüyünü də biləsən!

Mübahisə qızışdı. Hüseynalı gedif evdən dədəsinin ölüm kağızını gətirdi. Oxudular kı, 1958-ci ildə ölmüşdür.

Adamlar başdadılar kı, ay Höjət, niyə boş yerə mübahisə eliyirsən? Hər şeyə qarışırsan?! Al, ölüm kağızına bax!



– Mən baxmaram. Özümnən başqa heş kəsə inanan deyiləm.

Əhməd qayıdır kı, Höjət, bax bu olmadı. Sən biz söhbət elədiyimiz yerdə aradan çıxıf gözgörəti yalan danışır, əsəblərimizi korruyursan. Bu xasiyyətin xoşuma gəlmir. Bilmirik, nə düşünürsən?

– Nə düşünməliyəm ki... Kişinin sözü bir olar, – deyə Höjət cavaf verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## O NƏ DEYİR Kİ, ONA GÜLÜŞÜLLƏR

Bir axşam kənd camaatı toya yığışıfmış. Ustad aşıxlardan biri məjlisdə oxuyurmuş. Məjlisin şirin yerində Höjət yerindən qalxıf deyir:

– Aşıx, bir "Köhnə Naxçıvanı" oxu.

Aşıx baş üstə deyif başdıyır oxumağa. Höjət ədalı-ədalı o tərəf, bu tərəfə dönüf, qaşını darta-darta gülümsüyür. Onun bu hərəkəti həm camaatın, həm də aşığın diqqətinnən yayınmır.

Aşıx oxuyuf qurtarannan sonra deyir:

– Qardaş, olmuya oxuduğum ürəyincə olmadı?

Höjət:

– Oxudunuz da... Elə, belə...

Hirsdənmiş cavannar Höjətə dur, çıx! – deyə təpinillər.

– Niyə belə danışırsınız? Mən də toya gəlmişəm. Aşığa dedim xoşuma gələn bir hava oxu. O da oxudu. Siz xoşdadınız, mən də xoşdamadım. – deyə onnara cavaf verdi.

Aşıx gördü kü, qalmaqal düşəjək. Dedi:

– Səs eləmiyin. İndi elə hava oxuyaram qardaşın xoşuna gələr.

Yerində qurcunuf aşığa tərs-tərs baxan höjət dedi:

– Mənim xoşuma gəlmiyəjək, mənim üçün oxuma.

Aşıx gördü kü, tərs əlində qalıf. Sazı basıf döşünə belə bir bayatı oxudu:

Eləmi əkən dədə,
Züryət ək, əkəndə də.
Gorunda tərs yatasan,
A bunu əkən dədə.

Camaat gülüşdü. Höjət ağzını buruf dedi:

– Deyirəm nə qədər qanmaz adamlar var. O nə deyir ki, ona gülüşüllər?!

## AZ QALMIŞDI YIXILAM...

Cavannar yaxşı süzən atdarnan kəndin qulağına çıxıf at sürürmüşdər. Höjət də tamaşa edənnər sırasındaymış. Onun dili yenə dinc durmur, qavaxda gedənə təsadüfi oldu, geridə qalana isə bəxti gətimədi – deyif dururmuş.

Höjətin atmacaları gənclərin qulağına çatır. Onnardan biri "cilov gəmirən" atınnan sıçrıyıf düşür və Höjətə – al sür deyir. Höjət irəli-geri



baxır, cilovu alır və atın üstünə qalxır. At yerinnən götürüldüyünnən Höjəti yerə çırpdığı bir olur. Onu tozun-torpağın içinnən qaldırıf gördülər ki,, belini çəkə bilmir.

– Ay Cəfər, özünü gözdəsən, uşax ha döyülsən, -deyə ona rişxənd edənnər də oldu.

Höjət tövrünü pozmadan dedi:

– Allah saxladı, yoxsa az qalmışdı kı, yıxılıf qolumu-qıçımı sındıram.

## YALAN DANIŞMA!

Höjət Cəfərgilə qonax gəlifmiş. Atası qonaxnan söhbət eliyərkən deyir:

– Eh, getsin o günnər gəlməsin. Gözümüz nələr görmədi? Müharibə ömrümüzə balta vurdu. Yüz evlik kəndimizdən yüz altmış nəfər geri qayıtmadı. Nə qədər adam əlil oldu. Yazıx Məhərrəm qolunu, qıçını itirdi.

Höjət yerində qurcalanarax:

– Məhərrəm yox, Məhəmmədəli! – deyə onun sözünü kəsdi.

– Mən bildiyimi danışıram! – deyə atası hirsdəndi.

Bir az sükutdan sonra ev sahibi qonağa dedi:

– Bu il bizdə ələf çox qıtdı. Gedif Göyəllidən ot alıf gətirdim.

Özünü saxlaya bilmiyən Höjət:

– Göyəllidən yox ey, Haravaçıdan!

Möhkəm hirsdənən atası:

– Adamın sözünü niyə kəsirsən? Nə fərqi var, hansı kənddən aldım.

Niyə hirsdənirsən? Nə deyirəm ki... Deyirəm yə’ni düz danış, – deyə Höjət cavaf verdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## KƏRKİN BAŞINI KƏSSİN

Usta dəzgah üstündə yenə nə isə yonuf düzəldirdi. Bu vaxt burdan keçən Höjət Cəfər dayanıf salam verənnən sonra dedi:

– Yenə nə yonursan, ay usta? Axşama kimi əlinə döyürsən, içində bir şey yox.

Usta dedi:

– Ay Cəfər, sən ömründə bir dəfə də olsa sataşmamış keçəjəksənmi?

– Narazısan, demiyim.

– Tikannı söz deyəjəksənsə, danışma.

– İndi bax, nejə deməyim? Yonduğun bu ağajnan özünə nə deyirsən? Orda nə çətin iş var?!

Usta kərkini ona tərəf uzadıf:

– Al, yon bir az dincəlim, – dedi.

İstədi ki, desin mən usta ha döyüləm. Lakin özünü sındırmamax üçün yekəxanalıxnan kərkini götürdü. Başdadı ağaca toxundurmağa. İki dəfədən sonra üçüncü zərbəynən birrikdə qan töküldü. Bunu görən usta tez əski çıxarıf başdadı onun barmağını sarımağa.

– Burda nə çətin iş var kı, barmağını bu hala saldın? – deyə söz atdı.

Höjət:

– Əşi, bu kərkinin səmti yoxdu, bunnan nejə işdiyirsən, – deyə vəziyyətdən çıxmağa çalışdı.

Təmkinini pozmuyan usta dedi:

– Mənim kərkimin səmti var. Sənin başının səmti yoxdu. Məətdələm ki, onnan nejə işdiyirsən?!

– Kərkin başını kəssin! – deyif Höjət oradan uzaxlaşdı.

## KOROLUDAN OXU!

Kənddə kiçik məclis varıydı. Höjət də həmin məclisdə iştirak eliyirdi. Dedilər ki, ev sahibinin divarını hörən bir usta var, yaxşı saz çalıf oxuyur. Onu gətirin bir-iki ağız məclisimizdə oxusun. Ustanı çağırdılar. Xahiş elədilər ki, bir-iki ağız oxusun. Usta gedif sazını gətirdi. Köynəkdən çıxara-çıxara dedi:

– Vallah, bu saznan günümü keçirirəm. Mən divar ustasıyam. Aşıxzad deyiləm. Nə də siz deyən səsim yoxdu. Qavaxcadan deyirəm kı, sonra mana ləğmata eləmiyəsiniz.

Məjlisdəkilər bir ağızdan dedilər:



– Niyə elə söz danışırsan? Biz bilmirikmi sən aşıx döyülsən?

Usta sazı basdı döşünə, örgənif bildiklərinnən başdadı oxumağa. Saz məclisə bir gözəllik gətirdi. "Sağ ol" səsi otağı başına götürdü. Sağa-sola qurcuxan Höjət:

– Aşıx, bir Koroğludan oxusana! – deyif əlini ustaya tərəf yellətdi.

Elə bil ustanın qollarına vurdular. Təzənə tutan əlini yanına salarax dedi:

– Mən Koroğlu aşığıyam? A keçəl Həmzə?

Höjət hirsdəndi:

– Sən niyə mənə keçəl Həmzə deyirsən?

Usta:

– Bə sən mana niyə Koroğlu deyirsən? Koroğlu olan yerdə keçəl Həmzə də olar.

Məclisdən kimsə:

– Ay usta, sən ona fikir vermə. O harda olsa şeytannıx eliyif, bir qanı qaralıx yaratmalıdı.

Usta:

– "Onda gərək mənim əlimdə saz yox, misri qılınc olaydı kı, canınızı birdəfəlik bunnan qurtaraydım", – deyif məclisə bir şulux gətirir.

## HÖJƏT CƏFƏR CIDIRA ÇIXIR

Höjət Cəfər bir gün atnan gəlif keçirdi. Bir yerdə toplaşıf söhbət eliyən cavannar soruşullar:

– Ay Cəfər, hardan gəlirsən?

– Yarışdan gəlirəm. Cıdıra çıxmışdım.

– Yarışannar kimiydi?

– Qonşu kənddərdən gəlmişdilər.

– Necənci yeri tutdun?

– Üçüncü.

– Neçə nəfəriydiniz?

– Üç, – deyif Höjət atına bir qamçı vuruf uzaxlaşdı.

## GÜLALI EVLƏNMƏK İSTİYİR

Gülalı cavan oğlanıymış. Tay-tuşdarı artıq evlənirmiş. Gülalı ha gözdüyürmüş kü, ata-anası nə vaxt insafa gəlif onu da evləndirəjək. Ay keçir, gün keçir bir axşam Gülalı yorğanın altınnan eşidir ki, atası bunun adını çəkir. Yorğanın ujunu qaldırıf qulağını şəkliyir ki, görsün nə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyəjəklər. Baxır ki, atası deyir:

– Arvad, artıq Gülalının evlənmək vaxtıdı. Kənddə gör elə qız varmı gəlin gətirək.

Qıza nə oluf ay rəhmətdiyin oğlu, – deyə arvad dillənir. Evində nəyin var? Gəlin gətirənin heç olmasa, bir dəst paltar almax imkanı olar.

– Arvad, düzdü, malımız-qoyunumuz yoxdur, ancax eşşəyimiz var. Neyniyək həmin eşşəyi satıf gədiyi evləndirək, – deyə kişi cavaf verir.

Onnarın bu tədbiri Gülalını sevindirir. Günnər,həftələr, aylar keçir. Ancaq Gülalının evlənmək məsələsi elə bil ki, yada düşmür. Gözləməkdən səbri tükənmiş Gülalı bir gün anasına deyir:

– Ana, o eşşək, eşşək dediyiniz nə oldu?

Anası dərhal başa düşür kü, Gülalı daha dilə gəlif. Odu ku, cavafında:

– Oğul, atan gəlsin yadına salaram, – deyir.

## ADIMI DƏYİŞİK YAZDIRIM

Paşa qojalıf əldən düşüfmüş. Bir gün ölüm ayağında yatağa düşür. Qohum-qonşu Paşanın yanına gəlif-gedirmiş. Görüllər ki, mollasız ölə bilmir. Molluya demək lazımdı kı, qoy Paşanın yastığının divində otusun.

Mollanı çağırıllar. Molla gəlir. O, bir az hədis danışandan sonra deyir:

– Ay Paşa, cavan vaxtında sən də xeyli beyəməl işdərnən məşğul oldun. Allah bağışdıyandı. Tövbə eləmək heş vaxt gej döyül. Eləməsən, işin o dünyada çətin olacax.

Bir qədər fikirrəşəndən sonra Paşa deyir:

– Molla, tövbə eləməyinə tövbə eliyə bilməyəjəm. Bəlkə yataxdan qalxdım. Əlim-ayağım yenə sərpə bilər. Ola bilərmi o dünyaya gedəndə adımı dəyişik yazdırım?

## NƏMƏRİ MANA VER, AD SƏNİN OLSUN

Göyçədə əvvəllər toyda at sürüf nəmər almax çox dəvdə oluf. Elə bir toy olmazmış kı, orada hərə öz atını sürməsin. Bir gün yenə kənddə toyuymuş. Cavannar nəmər almax üçün ötüşə çıxıflarmış. Gülalı da öz yavısını minif toy evinin yaxınnığında gizdi bir yerdə atdarı gözdüyür. Bir azdan görür kü, o tərəfdən atdılar çıxdı. Elə eliyir ki, Gülalının yavısı ötüşə durannardan bir az qavaxda çapır. Bunu görən camaat ürəkdən gülüşür. Ona kimi cıdırçılar da çatıllar. Gülalı tez qavaxda gələnə deyir:



– Sənnən qavax bircə mən gəlmişəm!

– Gəlifsən, gəlifsən, canın sağ olsun! – deyə həmin adam cavaf verir. Sonra o üzünü toy sahiblərinə tutur ku, nəməri Gülalıya verin!

Əlini-əlinə sürtən Gülalı deyir:

– Hə, dərdin alım, nəməri mənə ver, ad sənin olsun!

## BELƏ UŞAA GÖZ AYDINNII DÜŞMƏZ

Gülalının qonşusunda oğlan uşağı dünyaya gəlifmiş. Bir gün Gülalı görür kü, qonşu qadın uşax qucağında həyətdə durur. Yaxınnaşıf deyir:

– Gözün aydın olsun, a Səriyyə bajı!

Gözdüyürdü kü, qadın "sağ ol" deyəjək. Nə qədər gözdədisə, qadınnan səs çıxmadı. Gülalı aralanıf getdi.

Uşax iki yaşına çıxmışdı. Amma olduxca zəifiydi. Bir gün Gülalı gördü kü, qonşu qadın uşağın əlinnən tutuf həyətdə asta-asta gəzdirir. Ancax uşaxda ət-qan yoxdu.

Gülalı qadına:

– Hə, indi bildim: mən göz aydınnığı verəndə sən niyə dinmiyifsən.

– Nə vaxt göz aydınnığı verdin? Yadımda döyül.

– Səni qınamıram. Doğrudan da, belə uşağa göz aydınnığı düşməz, – deyə Gülalı dillədi.

## BAŞIM ƏVƏZİNƏ QOY AYAIM DİNCƏLSİN

Gülalı Ponçağı çağırır yanına kı, evdə boş yatmaxnan bir şey əldə edə bilmərik. Beləliknən uşax saxlamax olmaz. Günü savahdan gedim aranda iki-üç ay işdiyim, özümüzə bir az daramat eliyim.

– Nə olar, a kişi, gedirsən get, – deyə arvad dillənir.

Gülalı xurcunu çiyninə alıf yola düşür. Ay keçir, il dolanır. Gülalı evə dönür. Boş xurcunu evin bir küncünə atıf çıxır taxtın üstünə. Ayaxlarını qaldırıf qoyur mütəkkənin üstünə, başının altına isə heş nə qoymur. Arvad soruşur:

– A kişi, bu necə yatmaxdı? Deyəsən, ağlını da itirif gəlifsən?

– Belə yaxşıdı arvad! Bu axmax baş yazıx ayaxlarıma o qədər əziyyət verif ki, onun əvəzinə qoy indi ayağım dincəlsin, – deyə Gülalı cavaf verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ÜÇÜNCÜ İMAMIMIZIN ADINI MƏN DEYƏJƏM

O vaxt Göyçədən İrəvana gedən üç-dörd günə ancax çatırmış. Gülal günnərin birində İrəvana gedəsi olur. Gümüş kəndinə çatanda şər qarışır. O Gümüşdə gejələməli olur. Bir kişinin qapısını döyür kü, qonax eliyərsənmi? Kişi deyir ki, qonax allah qonağıdı. Buyur.

Gülalı əyləşənnən sonra xeyli söhbət eliyillər. Ev sahibi Gülalının haralı olduğunu, işini-güjünü öyrənənnən sonra arvadı çağırıf deyir:

– Çörək gəti görək.

Arvad gedif bir az şor, üç dənə də kökə gətirif qoyur süfrəyə.

Ev sahibi böyük oğlunu səsdiyir:

– Oğul, Məhəmməd, gəl görüm.

Məhəmməd gəlir.

– Oğul, birinci imamımızın adını de görüm.

– Cənabi Əli.

– Ay sağ ol. Al apar. Bu kökənin biri sana çatır.

Sonra ortancıl oğlunu səsdiyir:

– Oğul, Sahib, gəl görüm.

Sahib gəlir.

– Oğul, ikinci imamımızın adını de görüm.

– İmam Həsən.

– Çox sağ ol, oğul. Kökənin biri də sana çatır.

Üçüncü oğlunu səsdiyəndə Gülalı üçüncü kökəni tez əlinə götürüf deyir:

– Qardaş, bu da mənim. Üçüncü imamımızın adını mən deyəjəm.

## ÇÖLDƏ CANAVAR NEYNİYİR...

Gülalı qoyun otarmağa gedifmiş. Axşam sürünün qavağına çıxannar soruşullar kı, ay Gülalı, çöldə canavar görünmür kü?

Gülalı cavavında:

– Ay rəhmətdiyin uşağı, çöldə canavar neyniyir? Nə qədər canavar var hamısı pristavın idarəsinə toplaşıf, – deyir.

## MƏNİM DƏ FİKRİM ELƏDİ

Gülalı bir dəfə arana gedəndə görür kü, bir kişi yanına üç səvət üzüm



qoyuf satır. Düşünür kü, gəlmişkən bir doyunca üzüm yeyim. Yaxınnaşır üzüm satana kı, qardaş səvətdərin üstünnən bir doyumlux üzüm yesəm, nə alarsan?

Üzümsatan düşünür kü, çox yesə iki, ya üç kilo üzüm yeyə bilər. Odu ku, deyir:

– Beş manat ver, nə qədər yeyirsən ye.

Gülalı çıxardıf, bir beşdik verir. Başdıyır yeməyə. Hər salxımı bircə dəfə dişinə çəkif sapağını atır qırağa. Üzümsatan görür kü, səvət qurtarır.

– Bilirsən, nə var? – deyə üzümsatan dillənir. Bura bazardı. Hamının hərəkətinə kənardan fikir verillər. Ayıfdı, üzümü salxımnan yox, dənə-dənə yemək lazımdı.

– Mənim də fikrim elədi. Tələsmə, o biri səvətdərin üzümünü dənələyif yeyəjəm, – deyə Gülalı cavaf verir.

## CAMAAT İÇİNDƏ HA ALAMIRAM

Bir gejə Gülalının arvadı ağlaşma səsi eşidir. Tələsik yerinnən sıçrayıf qalxır. Görür kü, Gülalı ağ tuman-köynəkdə oturuf örtüyünün içində yanıxlı-yanıxlı ağlıyıf öz-özünə deyir:

– Ay dədə, üzünü görmədim. Yetimliknən böyüdüm, əzab-əziyyət çəkdim. Oğlumun adına Nəsif dedim. Sənin təsəllini Nəsif balamda tapdım. İndi də allah bunu mana çox gördü. Allah versə,hazır səni verərdi, ay dədə!

Arvad düşünür kü, Gülalı yaqın dəli oldu. Başdıyır dilə tutmağa kı, a kişi, nə oluf sana, gejənin bu vaxtı dədəmi ağlanar? Uşaxlar yuxudadı, qalxıf qorxallar.

– Arvad, sən bilmirsən, yoxsa sən də ağlıyarsan. Nəsif balam ölüb. Dədəmin adı batdı, – deyif yenə hönkürür.

Arvad yönəlif Nəsivi örtükdən qaldırıf Gülalının yanına gətirir ki, a kişi, sən dəli olmuyıfsan ha, özünü niyə öldürürsən. Gülalı görür kü, Nəsib doğrudan da, ölmüyüf. Yuxusu bunu alladıf.

Arvad da başa düşür kü, Gülalı yuxu görürmüş.

– A kül ağlına, sən yuxu görüfsən, – deyə arvad Gülalıya hirsdənir.

– Arvad, niyə hirsdənirsən? Əgər gördüyüm yuxuymuşsa yuxuda da ağlamışam. Camahat içində ha ağlamamışam, – deyə Gülalı cavaf verir.

## GÜLALI İRƏVANA GEDİR



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad savaha hazırrıx gör, İrəvana gedəjəm. Bəlkə bir on gün orada qaldım, – deyə Gülalı lovğalanır.

Arvad soruşur ku, a kişi, İrəvana niyə gedirsən? Gülalı deyir:

– Hajı əmim heyvan aparır satmağa ona kömək eliyəjəm.

Arvad savah tezdən qonşulara yayır kı, bəs deməzsənmi, Gülalı İrəvana gedir. Kimi Gülalıya üç kilo düyü tafşırır, kimi beş metr çit tapşırır, kimi iynə-sap al gəti, – deyir. Ona xeyli tafşırıxlar verillər. Hamısı da pulunu verir. Gülalı yoldaşdarınnan birrikdə İrəvanda nə lazımdı satır, alır. Sonra da qonşuların tapşırıxlarını alıf xurcuna yığır. Gəzə-gəzə gəlif çıxıllar "bitdili" məhəlləsinə. Görüllər ki, qonax qaldıxları evin qapısı bağlıdı. Yoldaşdarı Gülalıya deyillər ki, sən daha bir şey alası deyilsən. Xurcunu da altına qoy otu. Qapı açılanda keç evə. Açılmasa da bizi burada gözdə, bir az alver eliyif qayıdajıyıx. Yoldaşdarı gedənnən sonra Gülalı xurcunun üstündə oturuf beş-on metr aralıda oynuyan cavannara tamaşa eliyir. Bir azdan onnar Gülalıya yaxınnaşıf onu söhbətə tutullar. Cavannar aralananda Gülalı görür kü, onnan qavaxda üç manat düşüf. Fikirrəşir ki, yaqın cavannar salıf, məni yoxluyur. Sonra da o tərəf, bu tərəfə baxıf pulu götürür. Geri-geri qayıdıf yerində oturmax istiyəndə görür kü, xurcunu yoxdu. Nə qədər o tərəfə, bu tərəfə baxır bir adam da görə bilmir. Qalır naçar.

Yoldaşdarı gələndə hər şeyi onnara danışır. Deyillər ki, qəti üstünü vurma. Cavannar üç manatnan səni alladıf xurcunu aparıflar. Qayıdıf gəlillər kəndə. Qonşular yığılır kı, görək Gülalı nə gətirif.

Gülalı deyir:

– Bax, qavaxca getdim sənin düyünü aldım, onnan sonra xeyli gəzif sənə iynə-sap tapdım. Çit üçün xeyli yer gəzməli oldum. Vurdum xurcuna. Yüküm yaman ağır oldu. Gördüm gətirif çıxara bilmiyəjəm. Xurcunnan birrikdə üç manata satdım. Malınız bunu çıxardıf. Alın, aparın bölün, – deyə üçlüyü onnarın üstünə tulluyur.

## PULUN QALANI

Gülalı bir gün Əkbər addı qonşusunu çağırır kı, gedək mənə bir inək alax. Uşaq ağartısız dolanmır. Kənddə soraxlaşıf öyrənillər ki, Əzimdə satdıx inək var. Gedillər həmin adamın yanına. İnəyə baxannan sonra Gülalı deyir:

– Qonşu, mənə qısır inək lazım döyül. Əgər inəyin boğazdısa, sat alax.



Əzim:

– Nə danışırsan?! Qırax yerri deyilsən ki, səni alladam. İnək boğaz olmasa, sənə vermərəm. Buğaya gəldiyini gözümnən görmüşəm. Dörd aydan sonra doğasıdı.

Razılaşıllar. Pulunu çıxarıf verəndə əlli manat çatmır. Əzim deyir ki, a kişi yoxdu, yoxdu. Nə vaxt olsa, onda verərsən. Əkbər kişi də şahiddi.

Gülalı inəyi gətirif tövlüyə bağlıyır. Savah tezdən eşidir ki, Əkbər kişi rəhmətə gedif. Deyir, yaqın inəyin ayağı düşmədi. Bu haxda heç kəsə heç nə demir. Dörd ay keçir. İnək yelin tərpətmir. Bilən adamları gətirif göstərir. Hamısı deyir ki, inək qısırdı. Bunnan sonra arvad başdıyır Gülalının gününü göy əskiyə bükməyə. Dannax altında qalmış Gülalı hər yerdə başdıyır Əzimin dalınnan danışmağa kı, o qonşu döyülmüş, adam döyülmüş. Qasır inəyi mana satdı. Bunu eşidən Əzim fikirrəşir ki, inək qasır çıxıf. Gülalı pulun qalığını vermiyəjək. Odu ku, gəlir Gülalıgilə.

– Ay Gülalı, o amanata gəlmişəm. Yaman lazımdı.

– Hansı amanata? – deyə Gülalı özünü bilməməzdiyə qoyur.

– İnəkdən əlli manat qalmadımı? Əkbər də yanımızdaydı.

– Ay Əzim, heç inəyi soruşmursan? Doğdumu, qısırmı çıxdı, öldümü, qaldımı? Sana demədimmi qısır heyvanı mana vermə?!

– Qısır çıxıfsa, mən neyniyim?! Get qısırrığı kələlərdən soruş.

– Hə...Onda sən də get pulun qalanını Əkbərdən soruş! – deyə Gülalı ona qəti cavaf verir.

## DÜZ SAVAHA ÇƏKƏR

Gülalı eşidifmiş ki, aşıxlar üçün "İrəvan çuxuru" havası çətin havadı. Ancax elə bilirmiş ki, hava çox uzun olduğuna görə çətindi. Bir axşam aşıx gejədən xeyli keçənə kimi oxuyur. Bir-neçə qonşusuynan Gülalı da günnərin birində aşıx məclisindəymiş. Gejənin bir vaxtı yuxu bunu lap təntidir. Tez-tez yoldaşdarına deyir:

– Bəs deyilmi, qalxın gedək.

Amma yoldaşdarı onun sözünü qulax ardına vurullar. Ələşsiz qalan Gülalı yoldaşdarını gözdüyəsi olur. Başdıyır möhkəmcə mürgü vurmağa. Aşıx bir havanı da oxuyuf qurtarannan sonra kimsə yerdən deyir:

– Aşıx, başına dönüm, bir "İrəvan çuxuru" oxu.

Bayaxdan bəri mürgü içində olan, Gülalı ağır-ağır kipriklərini qaldırıf:

– Aya, niyə qoymursunuz durax rədd olax. "İrəvan çuxuru" düz savaha çəkər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ALLAH BİZİMKİNİ BELƏ YAZIFMIŞ

Mustafa addı bir kişinin Kifayət adında gözəl-göyçək bir arvadı varıymış. Özü də yaman zarafatcılıymış. Gülalını da harda görür-görsün söz atmamış keçməzmiş.

Bir dəfə yenə Gülalı bir-neçə yoldaşıynan birrikdə ot çalırmış. Bu zaman Kifayət yolnan bir az aralıdan keçif gedirmiş. Başdıyır Gülalıya sataşmağa.

– Ay Gülalı, ay Gülalı, başın sağ olsun, yaman pis iş oldu. Yazıx Ponçax ömrünü sana bağışdadı.

Təkminini pozmuyan Gülalı deyir:

– Ay Kifayət, yazıx Mustafanın da başına qəza gəlif. Allah bizimkini də belə yazıfmış, hazırraş gedək mollanın yanına, kəvinimizi kəssin.

## BAX, BELƏ OLDU, YIXILDIM

Gülalı buzoyu hər gün örüşə aparar, hörüklüyüf gələrmiş. Günorta olanda isə gedif hörüyünü dəyişər, otdu yerə bağlıyarmış. Bir gün yenə günorta vaxtı Gülalı buzoyun hörüyünü dəyişməyə gedir. Görür kü, bözələk buzoyu haldan salıf. Yaxınnaşıf kəndirinnən tutuf mıxı yerdən çəkir. Kəndir qıçına dolandığınnan, dartan kimi Gülalı aşır. Qolu-qıçı sıyrıx-sıyrıx olur. Bunu görən qonşu yüyürüf kəndiri onun qıçınnan açır, buzoyun mıxını yerə çalır. Qayıdıf gedəndə Ponçağa deyir ki, buzoy Gülalını yıxıf, əli-ayağı tamam qan içindəydi.

Ponçax tez gəlif görür kü, kişi bikef-bikef oturuf.

– A kişi, bu nejə oldu? Uşaxsanmı, özünü gözdüyə bilmirsənmi?

– Oldu da, arvad. Yazıxdı, aç dananın hörüyünü dəyiş. – deyə Gülalı yazıx-yazıx dillənir.

Ponçax buzovun hörüyünü dəyişmək istiyəndə bu dəfə kəndir keçir onun ayağına. Yıxıf sürüyür. Bir təhər qıçını kəndirdən çıxarıf qalxır. Buzoy isə qaçıf gedir.

Gülalı deyir:

– Arvad, bax belə oldu yıxıldım!

## DƏDƏM ALLAH RƏHMƏTİNƏ GEDİF

Bir dəfə səhər tezdən qalxıf qonşulardan qav-qajax topluyan Gülalı



dayısı evinə gedir. Tələsik salamlaşıf onnardan qazannarını istiyir.

– Ay bala, bu tezdən qav-qajağı, qazanı neyniyirsən? Xeyirdimi? – deyə dayısı onnan soruşur.

– Xeyir olmuyanda nə var, dədəm allah rəhmətinə gedif, – deyə Gülalı cavab verir.

## SA-SALAMAT QAYIDIF

Gülalının qonşusu Əhməd bazar, dükan işinə həmişə arvadı Salatını göndərərmiş. Alış-verişdə səriştəsi olmuyan bu adam bir gün bazara özü gedir. Qayıdıf gələnnən sonra arvad görür kü, ərinin dediyi çəkiynən aldığı tutmur. Tərəzini götürüf başdıyır çəkməyə. Baxır kı, kişini alladıflar.

Salatın çox hirsdənir. Başdıyır ərini möhkəmcə dannamağa.

– A kişi, məni belə yarıtdın, səni görüm yarımıyasan. Aldığın şeyin yarısını əskik gətirifsən. El içinə çıxma, ayıfdı. Sənin tayların gedif şəhərrərdə alver eliyir. Qazanc gətirillər. Sən isə qulağının divinnən bir torva şeyi alıf evə gətirə bilmirsən?

Ordan keçən Gülalı səs-küyü eşidif qonşunun həyətinə girir.

– Ay cənım, nə oluf, bu nə qalmağaldı? – deyə soruşur.

Arvadın elə bil köhnə yarası təzələnir. Başdıyır ağzına gələni deməyə.

Gülalı deyir:

– A bajı, yavaş görək, bəlkə, bu yazığın heş günahı olmuyuf, bunun bir səvəvi var?!

Kişi bu sözə bəndiymiş kimi döşünü irəli verif deyir:

– Ay sağ ol, Gülalı qardaş, sən qanan adamsan. Əlbəttə, bu işin bir səvəvi var. Səvəvi odu ku, bazara bu gün yaman çox adam toflaşmışdı. Əlimi-ayağımı əzif tökdülər. Camaatın arasınnan çıxıf evə gələ bilmirdim.

Gülalı üzünü Salatına tutur:

– Ay Salatın bajı, yazığın günahı yoxdu, allaha şükür kü, sağ-salamat uşağının içinə qayıdıf, – deyə yazıx-yazıx dillənir.

## MƏNİM EŞŞƏYİMİ HEŞ KƏS PİSDƏMƏSİN

Gülalının bir yavısı varıydı. Onu saxlamaxda yaman çətinnik çəkirdi. Bir gün üstündə də bir keçi alıf bir eşşəknən dəyişdi. Arvad da çox razı qaldı! Keçiyi sağajax, eşəyi isə atın yerində işdədəjəkdilər. Bir-iki gün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

eşşəknən çölə gedif-gələn Gülalı bir gün dəyirmana dən aparanda eşşək Gülalını təpiknən vuruf yerə sərir. Gülalıyı götürüf evə aparıllar. Taxtda uzatdıxdan sonra üzünə, sinəsinə su səpif ayıldıllar. Başdıyıllar eşşəyin qarasına deyinməyə. Biri deyir:

– Çox axmax eşşəkdi.

O biri deyir:

– Hələ mən belə şıllaq atan heyvan görməmişəm.

Gözünü açıf bayaxdan başının üstündə duran adamlara tamaşa edən Gülalı deyir:

– Mənim eşşəyimi heş kəs pisdəməsin. Allahın cəlalına şükürrər olsun ku, bu eşşəyi almışam. Əyər bu eşşəyin yerinə at olsaydı, məni vuran kimi öldürərdi.

## CİNNƏN BUNUN HARASI ƏYSİKDİ?

Gülalının ən çox qorxduğu şeylərdən biri də ciniymiş. Qarannıx düşənnən sonra eşiyə çıxmaz, pəyəyə gedəndə qorxa-qorxa gedərmiş. Bir gejə pəyəyə baxmağa gedəndə "bismillah" deyif qapıyı açanda görür kü, axırda ağ paltarda, saçı üzünə tökülmüş əcayif bir şey oturuf. Gülalı yerindəcə özünnən gedif yıxılır. Evdə görüllər ki, Gülalı pəyədən qayıtmadı. Arvad-uşax gəlir ki, Gülalı yıxılıf, axırda da ağ paltarrı bir adam oturuf. Qayıdıf geri qaçır və qonşulara xəvər verillər ki, pəyədə cin var, Gülalıyı boğuf. Qonşular yığışıf gəlillər ki, Gülalının dişi kiliddəşif, axurda oturan isə qonşudakı qoja bir arvaddı. Yatalağa yatırmış. İstilikdən yataxdan qalxıf. Evdən çıxanda bilən olmuyuf. Gəlif girif Gülalının pəyəsinə. Gülalını ayıldıllar, həmin arvadı da aparıllar Gülalının evinə. Arvadı Gülalıya göstərif bütün əhvalatı danışıllar. Gülalı saçı üzünə tökülmüş arvada tərs-tərs baxıf deyir:

– Məni qınıyıf eləmiyin, cinnən bunun harası əysikdi?!

## QOY BİR GÜN DƏ DİNCİNİ ALSIN

Gülalı bir gün çöldə ot biçirmiş. Onun qonşularınnan biri gəlir ki, atımı hörükləmişəm odu, ey ora. Mən başqa yerə gedəsi oldum. Axşam min apar bizə ver.

Gülalı ürəyində sevinir ki, yaxşı oldu, axşam piyada getmərəm.

– Arxayın ol, aparıf uşaxlara verərəm, – deyə Gülalı sevincək dillənir.

Axşama qədər işdiyən Gülalı işdən sonra getdi ki, atı minif getsin



kəndə. At oldu Koroğlunun Qıratı. Gah dal ayağı üstə qalxdı, gah təpik atdı. Qoymadı kı, Gülalı əlini yəhərə vursun. Utandı yaxınnıxdan keçənnərə deyə ki, gəlin kömək eliyin bu ata minim. Əlacı kəsilən Gülalı qərara aldı kı, atı yedəkliyif aparsın. Belə də elədi. Yoldan uzax yerrərnən apardı kı, görən olmasın. Gəlif qonşunun qapısına çıxanda gördü kü, uşax-böyük hamı həyətdədi. Soruşdular kı, ay Gülalı at yanında ola-ola piyada niyə gəlirsən?

Gülalı ata bir tərs-məssəf baxıf dedi:

– Hər gün bu yazıx at çölə adam aparıf, adam gətirir. Dedim elə yazıxdı, qoy bir gün də dincini alsın.

## GEDƏM Kİ, AT ÇƏPƏRDƏ OTDUYUR

Gülalı bir at alıfmış. Bir gün çöldə at ipə düşüf ölür. Atın ölümü Gülalıya çox pis tə’sir eliyir. Yoldaşdarı da gəlif kömək eləyif atı soyuf dərisini verillər Gülalıya. Axşamüstü kəndə qayıdan vaxt Gülalı atın dərisini də çiyninə alıf yola düşür. Yoldaşdarı yolboyu görüllər ki, Gülalı çox fikirridi. Deyillər ki, dövlət-mal hamısı gəldi-gedər şeylərdi. Can sağlığı hər şeydən üstündü. Hə, indi sən də ay Gülalı, allahdan cansağlığı arzu elə.

Gülalı köksünü ötürüf astadan deyir:

– Allahdan arzu eliyirəm, gedəm ki, at çəpərdə otduyur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

T A P M A C A L A R

Ay bava, dur gedək,
Dövranını sür gedək.
Yüz on dörd qapıya,
Bir qıfılın vur gedək.

*(Qur'anın surələri)*

Altı keçə, üstü keçə qalalar,
İldən-ilə ciftə-ciftə balalar.
Ağıllılar ağıl edif tapallar,
Ağılsızlar fikrə gedib qalallar.

(Barama)

Altı daşdı daş deyil,
Üstü daşdı daş deyil.
Mal kimi ot otlayır,
Mallara yoldaş deyil.

(Tısbağa)

Ağac başında boğça,
Nə boğçadı, nə baxça.

(Quş yuvası)

Altı qoyun, üstü keçi,
Başı fındıq, dalı qayçı.

(Qaranquş)

Kal vaxtında dadı şirin,
Ötsə əgər ajı olur.
Kim tapıfsa, desin bilim.

(Uşaqlıq, qojalıq)

Görür dünyanı,
Görmür arxanı.

(Göz)



Gilə-gilə düzülür,
Budaxlardan süzülür.

(Üzüm)

Bir budağı, çox yarpağı,
Təmizdər hey otağı.

(Süpürgə)

Taqqıldar taq-taq,
Yığılar böyük-uşaq,
Camaat oynar,
Könüllər qaynar.

(Toy)

Qıqqıldadı, qak-qak,
Doğdu, ağ oğlax
İnanmırsan, gəl bax.

(Toyuq və yumurta)

Araz qırağı düzdü,
Sanasan onu yüzdü.
Oğlu padşahlıx edir,
Anası hələ qızdı.

(Buğda)

Ərşin öpə,
Güzgü təpə,
Dərili çiçək,
Dəyirmi təpə.

(Alaçıq)

Aşıq minifdi bozu,
Bir ipdi, bir də özü.
De o hansı quşdu ku,
Bir burnu var, qırx gözü.

(Çarıq)

Ağaşdan yuvası var,
Doludan yumurtası var.

(Tərəzi)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Adamdan atı,
Dəmirdən qatı.
Adam əhləti,
Tanrı qüdrəti.
(Tüfəng)

Ağ dərili, göy dərili,
Bir kürküm var beş dərili.
Yaz əkili, payız piçili,
Amma qışda dərildi.
(Qarğıdalı)

Bajı qardaşa qonax gəlir,
Qardaş onnan qaçır.
(Günəş və ay)

Bir balaca midini,
Vurdu, yıxdı kidini.
(Güllə)

Burdan batar, ordan çıxar,
Fil-fil atar, yonca bitər.
(Siçan)

Lələ getdi, dam qaldı,
Süpürülməmiş nəm qaldı.
Göydən üç xələt endi,
Əl dəymədi xam qaldı.
(Göy qurşağı)

Eləmi, ana yağı,
Yandırdı ana yağı.
Aşıx bir heykəl gördü,
Üç başı, bir ayağı.
(Buzovlu inək və sağıcı)

Balaca quyu,
Buğlanar suyu,
(Qəlyan)



Bəzən sökər, bəzən tikər,
Tullana-tullana çəpər çəkər.
(Biz)

Qara toyux qaqqıldar,
Qanaddarı şaqqıldar.
(Keçə)

Nə əli var, nə ayağı,
Dağıdır dəli sayağı.
Şaqqaşarax açar qapı.
(Yel)

Qar kimi ağdı,
Su kimi axdı.
(Süd)

Cığ-cığ quşdar,
Şama dolmuşdar,
Özü qazanar,
Sizə bağışdar.
(Arı)

Bir güzgüm var qapaxlı,
Dörd qırağı saçaxlı.
(Göz)

Xırmanda bir kişi var,
Qırx-əlli dişi var.
(Vəl)

Bir yuvada iki toyux,
Biri isti, biri soyux.
(Yay və qış)

Ağac başında nur,
Onu bilməyən kavur.
(Qur'an)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağanəzərdi, ağanəzər,
Başında budaxlar gəzər.
(Maral)

Daşdəmir başdan,
Qarnı təlaşdan.
Daşdəmir doymaz,
Yüz qazan aşdan.
(Dəyirman)

Qara toyux qaqq elədi,
Qanadları şaqq elədi.
(Bulud)

Bir dərədə üç qardaş,
Biri deyər: gəl gedək.
Biri deyər: getmirəm,
Biri də başın sallar.
(Yel, daş, ot)

Vay olu, vətən olu,
Bayquda yatan olu.
Həştad ayaq, qırx buynuz,
Ay bunu tapan olu.
(Kotan)

Ağac başında düzülər,
Əl vursan qanı süzülər.
(Xar tut)

Qızıl öküz yatar, qalxmaz,
Göy öküz gedər, gəlməz.
(Od, tüstü)

O nədi ki, sayı bir,
Həftəsi bir, ayı bir.
Hamıdan hündürdədi,
İşığı bir, boyu bir.
(Günəş)



Çəpər üstə çilli xoruz.
(Qurbağa)

Eləmi, anasına,
Od vuruf talasına.
Quşdardan hansı quşdu,
Süd verir balasına.
(Yarasa)

Eləmi, qəssav ağlar,
Yaş axar, qəssab ağlar.
Ölən qoyun ağlamaz,
Öldürən qəssav ağlar.
(Soğan)

Əvvəl meşədə idi,
Bircə peşədə idi.
İndi yarağ olufdu,
Bavama dayaq olufdu.
(Əl ağacı)

Odu getdi, izi yox,
Budu gəldi, izi yox.
Dərisi var, tükü yox,
Qanadı var, uçuşu yox.
(Balıq)

Əyrim-üyrüm haraya gedirsən?
A başı dəlik, sən nə dersən?
(Buxarı, tüstü)

Dədəsi qojadan qoja,
Anası yayma xatın.
Bajısı şirin şəkər,
Qardaşı dəli-divanə.
(Tənək, üzüm, şərab)

Gündüzdər dolanar,
Gejələr ağzı açıx yatar.
(Ayaqqavı)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Boyum yarım qarış,
Gəl aldan danış.
İçərisi boş quyu,
Xeyrinnən danış.
(Stəkan)

O nədi ki, külüngdən, qılışdan qorxmur,
amma sudan qorxur.
(Duz)

Bir atım var hərrənər,
Hərrənər, burnu şişər.
(Cəhrə iyi)

Buxarı, ay buxarı,
Duman çıxır yuxarı.
Cənnətdən bir oğlan çıxdı,
Çiyni yaşıl çuxalı.
(Tüstü)

Canı var, qanı yox,
Südü var, əti yox.
(Arı)

Çin otaq, çin-çin otaq,
Qırx pilləkən, min otaq.
(Kələm)

Yupyumuru fincan,
İçi dolu mərcan.
(Nar)

Gendən baxdım çal çəpər,
İçinə girsəm məni çəkər.
Əlimi uzatdım qap-qara,
Ağzıma qoydum, bal-şəkər.
(Böyürtkən)



İlim-ilim düyməsi,
İlim xatın düyməsi.
Onu tapmıyan
Yeddi ilin xəstəsi.
(Üzərrik)

Dağdan gəlir, daşdan gəlir,
Bir qara asdan gəlir.
Dal ayağın qaldırmaz,
Başına yüyən saldırmaz.
(Sel)

Adəm atam var mənim,
Yeddi xatam var mənim.
Dörd anadan olmuşam,
On iki atam var mənim.
(İl)

Püstədi, ha püstədi,
Taxtı rəvan üstədi.
Camış kimi ot otlar,
Su içməyə xəstədi.
(Barama qurdu)

İzdəri var atadan,
Gözdəri var anadan.
İstər qız, istər oğlan,
Bığlı olur anadan.
(Pişik balası)

Qızıl-qızıl içində,
Qızıl sandıx içində.
Ora bir od düşüfdü,
Mən də onun içində.
(Güzgü)

Suya saldım zilləndi,
Sudan çıxdı dilləndi.
(Zəncir)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gejə-gündüz yol gedər,
Yenə durar yerində.
(Çay)

Mən aşiqəm düz bağlar,
Əyri çəkər, düz bağlar.
Aşıx bir hikmət görüf,
Od içndə buz bağlar.
(Qaymaq)

O tayda durar gedər,
Boynunu burar gedər.
Bir sürüyə girəndə,
Qırxını qırar gedər.
(Canavar)

Nar da var, nar da var,
Nardan şirin harda var?
Əl tutmaz, pıçax çəkməz,
Onnan şirin harda var?
(Yuxu)

Göydən düşər sınmaz,
Oda düşər yanmaz,
Suya düşər batmaz.
(Gölgə)

Yeddi dəlikli toxmax,
Bunu bilməyən axmax.
(Baş)

Bizdə bir kişi var,
Dik oturuşu var.
(Səhəng)

Bir təhnə almaz,
Savaha qalmaz.
(Ulduz)



Bir quşum var ananı,
Gəzir cümlə cahanı.
Gətirrəm öldürməyə,
Nə əti var, nə qanı.
(Fikir)

Ovun alsan mırıldar,
Sığallasan şırıldar.
(Şeh)

Ana, mənə nar göndər,
Əsirgəmə, var göndər.
Doğmamış inəkdən,
Çalxalanmış yağ göndər.
(Bal)

Ayax haça, baş haça,
İki üzük, iki qılça.
(Qayçı)

O tayda bir quş durur,
Boynunu burmuş durur.
Dünyanı xırd edir,
Genə qarnı boş durur.
(Dəyirman)

Bizdə var bir sandıxça,
İçi dolu yarmaça.
(Kibrit)

Atdan hündür, itdən alçax.
(Yəhər)

Bizdə bir kişi var,
Üççə dənə dişi var.
(Sac ayağı)

Ağac başında darı quyusu.
(İncil)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düzüm-düzüm var,
Dizimətən qar.
Əsdi Sineyvər,
Qondu Dilbər.
(Kündə, urva, oxlov, çörək)

Bir tavax ləmzə,
Təzəbə-təzə.
Nəmdi çürüməz,
Yaşdı qurumaz.
(Dil)

Güldü, gülə yalvarır,
Teldi, telə yalvarır.
O hansı çiçəkdi ki,
Batıf lilə yalvarır.
(Lilpar)

Dağdan gəlir Ballı xanım,
Əlləri xınalı xanım.
(Kəklik)

Suya düşər isdanmaz,
Torpağa düşər pasdanmaz.
(İşıq)

Qara qar yağajax,
Qara gün doğajax.
Ölən öləjək,
Ölmüyən göyə çıxajax.
(Bahar fəsli)

Bizdə bir kişi var,
Köndələn yatışı var.
(Farmaş)

Nə söyən var, nə döyən,
Nə kəsən var, nə yeyən.
Gejə-gündüz ağlıyır,
Selə dönüf çağlıyır. (Bulud)



Əkil, məkil əkildi,
Kol divinə çəkildi,
Gözəlliyi can alır,
Boynu nədən büküldü.
(Bənövşə)

Bu gün çərşənbədi,
Könlümə düşən nədi?
Odsuz-alovsuz bişər,
Kim tanıyar, o nədi?
(Pendir)

Əlim ətdə,
Gözüm göldə,
Yanım yerdə.
(Qoyun sağmaq)

Əndamı var yamyaşıl,
Kəssən qanı qırmızı.
(Qarpız)

İşmə, ajı təhərdi,
Nə baldı, nə zəhərdi.
(Şərab)

Evimizdə kəndi var,
Kəndinin kəməndi var.
Göydə gedən quşdarın,
Ayağının bəndi var.
(Tərəzi)

Nə evdədi, nə çöldə,
Nə göydədi, nə yerdə.
(Pəncərə)

Tap-tap tapmaca,
Qulaxları yapmaca.
Yatannarı durğuzar,
Qırmızı papaxlıca.
(Xoruz)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qah-qah qalası var munun,
Qan piyalası var munun,
Nə yumurttamır, nə çaxlamır,
Uçan balası var munun.
(Arı)

Sarıdı zə’fəran döyül,
Yazılıdı qur’an döyül.
Qənəttidi quş döyül,
Buynuzdudu qoş döyül.
(Sarı kəpənək)

Mənnən gedər, mənnən gələr,
Yataram yatar, qalxaram qalxar.
İşıxda hamıya görünər,
Qarannıxda yoxam deyər.
(Gölgə)

Bir qırıx Misri,
Bəylər onun yesiri.
(Yuxu)

Ağ çala qara toxum,
Əlim ilə əkərəm.
Dilim ilə biçərəm.
(Yazıf-oxumax)

Bir sinnidə iki toyux,
Biri isti, biri soyux.
(Ay və gün)

Beş-beş anası,
Beş-beş balası.
Onu bilmiyən,
Çəpəl balası.
(Əl və barmaxlar)

Min minara , divi qara,
Yüz min çiçək, bircə yarpaq.
(Göy, ulduz, ay)



Eləmi, ana ayağı,
Kəkliyə ana ayağı.
Aşıx bir heykəl görüf,
Üç başı var, on ayağı.
(İnək, balası və sağıcı)

Yol üstə yoğun arvad.
(Təndir)

Hallanır, hallanır,
Qızıllanır, sallanır.
(Zoğal)

Gejə işığı çoxdu,
Gündüz işığı yoxdu.
(Ay)

Əynində atlas,
Dənizdə batmaz.
*(Buz)*

Ayağı yoxdu, qaçır,
Qanadı yoxdu uçur.
(Külək)

A gedən Hacı,
Əlində tacı.
Mənə bir gəvə göndər,
Nə ərişi olsun, nə arğacı.
(Keçə)

On iki davanı,
Gəzir eli, ovanı.
(Tərəzi)

Havada ha havada,
Endim getdim suada.
Həştat səkkiz quş gördüm,
Doxsan doqquz yuvada.
(Vəhşi arı)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir təndirim var, bir çörək tutur.
(Fındıq)

Bir təndirim var; iki çörək tutar.
(Qoz)

Yazda geyinər,
Qışda soyunar.
(Ağac)

Əzizinəm, yüz qoyun,
Yüz götürün, yüz qoyun.
O nədi geyinirik,
Altı öküz, yüz qoyun?
(Kürk)

Yumru-yumru sarıdı,
Üç həftənin barıdı.
Gəzər bağı-baxçayı,
Kisəsi dolu darıdı.
(Cücə)

Qanaddıdı quş deyil,
Onu vuran əl deyil,
Ölüfsə mundar deyil.
(Balıq)

O yanı çəpər, bu yanı çəpər,
İçində atdar qaçar.
(Nehrə)

Hər küçüyüm, hür küçüyüm,
Evi hərrən, yat küçüyüm.
(Süpürgə)

Altı daşdı, daş döyül,
Üstü daşdı, daş deyil.
Mal kimi ot otduyur,
Mallara yoldaş deyil.
(Tısbağa)



Min minarə, (Göy)
Divi qara. (Yer)
Yüz min çiçək, (Ulduzlar)
Bircə lala. (Ay)

Ağ ot öydə, ayağı çayda.
(Qamış)

O nədi ki, uzağı yaxın eylər.
(Fikir)

Mən aşiqəm dəmirdən,
Xəvər verir kömürdən.
Aşıq bir nuvar yeyif,
Şah damarı dəmirdən.
(Kabab şişi)

Qarnı toxdu, gölgəsi yoxdu.
(Quyu)

Gün görsə işıxlanır,
Sağı, solu tərs salır.
Güzgü)

Qara atı yağladım
Qaya divinə bağladım.
(Tapmaca)

Ağara-ağara,
Girdi mağara.
(Ölü)

Bu gün adınadı,
İşlər avandınadı,
Sümüksüz sümük gəmirir,
Tapın görüm adı nədir?
(Diş qurdu)

Ana bir qız doğdu,
Nə əli var, nə qolu. (Yumurta)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hi, hi hingilim göz,
İncə belli, narın göz.
Daş görsə daşırğamaz,
Su görsə də susamaz.

(Qarışqa)

Quşum, hardan gəlirsən,
Qannı qaya divinnən.
Qanın niyə quruyuf?
Allah belə buyurub.

(Qoyun quyruğu)

Dağlar mana qar göndər,
Əsirgəmə, var göndər.
Toxunmamış yaylıxdan,
Dərilməmiş nar göndər.

(Sinə və məmə)

Gələn leyli, gedən leyli,
Bir qıç üstə duran leyli.

(Qapı)

Yer altda yağlı böyrək.

(Siçan)

Acaş başın oydular,
Kəndə koxa qoydular.

(Çamax)

Bir qavda iki su,
Üzü daşdı, içi su.
İki rəngdi bir yerdə,
Tapın görək nədi bu?

(Yumurta)

Qaqqax, qaqqax, qaqqıldax,
Boş yuvada qaqqıldax.
Bir qız doğdum dümappax,
İnanmırsan dur gəl bax.

(Yumurta)



Ana bir qız doğdu,
Həm əli var, həm qolu.

(Yumurta-cücə)

Qaradı qatran deyil,
Sarıdı zəfəran deyil,
Qanaddıdı quş deyil,
Buynuzu var qoç deyil,
Ona heç əl dəyəmməz,
Dəysə də heç xoş deyil.

(Çəyirtgə)

O nədi ki, əti haram, südü halal.

(Ana)

Dağda tappıltı gördüm (İldırım)
Suda şappıltı gördüm (Balıq)
Yatar, gövhər daş gördüm (Dəyirman daşı)
Duzsuz, bişmiş aş gördüm. (Səməni aşı)

Dağların qarı mənəm,
Gün vursa ərimənəm.
Atamın qoç balası,
Anamın əri mənəm.

(Xoruz)

Quyu qırmızı, buğda ağ.

(İtburnu)

Taxta dəmir:
Gah əzilər, gah büzülər.

(Bıçax)

Çin-çin, çin bilər,
Civildəsə kim bilər?
Yeddi hasar divində,
Qulunnasa kim bilər.

(Kartof)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O nədi ki, həm soyuxda donur, həm istidə.
(Qan)

Kalını yemək olar,
Yetişmişin yox.
(Xiyar)

Pişik kimi dırmaşır,
İlan kimi sürünür.
(Kərtənkələ)

Yük üstə yaylağı,
Taxt altda qışlağı.
Dəmir darax dişi var,
Yağ qavıdı eşməyi.
(Pişik)

Həşəli, ay həşəli!
Kərməşovlu, meşəli.
Kişinin min oğlu var,
Mini də bir peşəli.
(Arı)

Dağdan gəlir ağır su,
Heç kəsin daddığı yox.
Kətən köynək cilfə toxur,
Heç kəsin geydiyi yox.
(Hörümçək)

Eləmi, dən doldu,
Dəyirmana dən oldu.
Üç yüz altmış beş taxt,
Bir mismara bənd oldu.
(İl)

Qaradı qurd döyül,
Qənətdidir quş döyül.
Adamı dişdiyir it döyül.
(Qarışqa)



Maral-maral inəyim,
Qarnı xaral inəyim.
At təsinnən addamaz,
Çəpər yarar inəyim.
(Tısbağa)

Gödək kişi dağdan ilxı endirər.
(Ülgüc)

Qara toyux, qarnı yarıx.
(Buxarı)

Bir öküzüm var; çullamasan yatmaz.
(Saç)

Bir öküzüm var; quyruxlamasan dama girməz.
(Qaşıq)

Bir damım var ottuz iki dirəyi.
(Ağız)

Dəniz ortasında od yanar.
(Samovar)

Dünyanı xırıd edir, yenə qarnı boş qalır.
(Dəyirman)

İki qaya arasında dəsmal sərdim, heç qurumadı.
(Dil)

Hət dedim, hüt dedim,
Get orda yat dedim.
(Süpürgə)

Kor öküz koldan baxar,
Ağızdan ayran axar.
(Tüfəng)

Boyu bir qarış, saqqalı iki qarış.
Bir qoydum, iki salladım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quru qoydum, höyüş çıxartdım.
(Cilov)

Yayda donar, qış açılar,
Qışda donar, yay açılar.
(Qurut və buz)

Bircə qırıx mit daşı,
Dolanar, dağı, daşı.
(Göz)

Əti sümükdü,
Sümüyü ətdi.
(Qoz)

Bir damım var; bir xorum ot girməz,
Amma qırx minnik qoşun girər.
(Qarışqa yuvası)

Aravada tək gedir,
Tək içində tük gedir.
(Yastıq)

Atamın yeddi oğlu var,
Bir üzü qara, bir üzü ağ.
(Həftə, gecə-gündüz)

Hacılar hacıdı,
Başmağı narıncıdı.
Şiv atır, yarpax açmır,
Tapın nə ağacıdı.
(Maral buynuzu)

Bizdə bir qara ilan var,
Cızınnan gedir, cızınnan qayıdır.
(Kiriş)



Bir damım var,
Bir dirəyi var.
(Göbələk)

Uju qara, gözü yox,
(Qələm)

Yanar kömürü, gözü yox.
(Qanqal)

Əvəz-əvəzə, qarın dəvəzə,
Gecə işliyir, gündüz dincəlir.
(Lampa)

Mil-milit qapıya kilit,
Ya bunu tap, ya burdan it.
(Qıfıl)

Otuzunda cavan,
On beşində qoja.
(Ay)

Zər zərə yapışdı,
Zər tifara yapışdı.
Zərgər oğlu gəlməmiş,
Zər açılmadı.
(Açar, qıfıl)

Hayravanı, hayravanı,
Altı ayağı, iki davanı.
(Əl tərəzisi)

Bir balaca fit daşı,
Gəldim, ətin qaşı.
(Birə)

O yanı daş, bu yanı daş,
İçində qırx, əlli baş.
(Hamam)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yol altında qaynar qazan.
(Qarışqa yuvası)

Bir qızım var gəlif gözünnən, üzünnən öpər.
(Dolça)

Bizim evdə dörd gəlin var,
Dördü də bir boy, bir buxunda.
(Divar)

Bir oxloyum var; unun içində.
(İydə)

Bədəni var, canı yox,
Qanadı var, qanı yox.
(Arı)

Dünyada üç şey yoxdu,
Tap görüm: o nədi.
(Qatıra qulun, dəryaya körpü, ərşə dirək)

Sahili yaşıl, suyu qırmızı,
Balıxları qara, qırmızı.
(Qarpız)

Bir budaxda beş yarpaq.
(Əl)

Yerə düşdü sınmadı, suya düşdü sındı.
(Kağız)

Qoz qarası,
Şabalıd parası.
Qulağın burdum,
Ağzına vurdum.
(Tar)

Bizdə bir kişi var,
Darayıdan donu var.
(İydə)



Hazar-hazara gəldi,
Bazar-bazara gəldi,
Anası beşikdəykən
Balası bazara gəldi.
(Pul)

Hacıleylək xəstədi,
Dimdiyi qəfəsdədi.
Nə yerdədi, nə göydə,
Çarxı fələk üstədi.
(Qapı)

Keçi girdi meşiyə,
Qımır, qımır gövşüyə.
(Qayçı)

Dirək (Ayaq)
Direyin üstə mərək (Qarın)
Mərəyin üstə xərək (Mə'də)
Xərəyin üstə xış-xış (Nəfəs borusu)
Xış-xış üstə mış-mış (Burun)
Mış-mışın üstə şilyan (Göz)
Şilyanın üstə meşə (Saç)
Meşədə çaqqal eşə (Bit)
Nökərləri ağ-appaq (Dişlər)
Buyuran xanım qırmızı (Dil)

Qarannıx yerdə gəlin yatır.
(Motal pendiri)

Bir balaca qurvağa
Taxıl daşıyır anbara.
(Qaşıx)

Üşüdüm, ay üşüdüm,
Dağdan alma daşıdım,
Almacığım aldılar
Məni dama saldılar.
(Barama)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ələk, ələk, ələk idi,
Hər şeyə gərək idi.

(At)

Balaca kişi yer qazar.

(Yağış)

Hazar-hazara getdi,
Bazar-bazara getdi.
Atası evlənməmiş,
Oğlu bazara getdi.

(Ocaq, tüstü)

Ağ quş bir-bir seçildi,
Qaçıf suya töküldü.

(Düyü)

Bir öküzüm var,
Quyruğunnan tutmasan otdamaz.

(Ülgüc)

Qarannıx yerdə qan üyüşər.

(Qatıx)

Quyu,
İçində suyu,
Suyunda ilan,
Ağzında od.

(Çıraq)

Bir gün qonax gəldi,
Yemi özünnən qavax gəldi.

(Uşaq)

Qayadan qamçı sallanar.

(Dəvəquşu)

Həstədi, ay həstədi,
Şəki, Şirvan üstədi.
İçində dənəcik var,



Özü qavıx üstədi.

(Nar)

Qara quşu quyruğunnan asallar,
Ələ alıb düz qazana basallar.

(Çömçə)

Sarı atlas, iynə batmaz,
And içər, piyada getməz.

(Səhəng)

Çullayıram çulun salır,
Çullamıram, qulun salır.

(Saç)

Bizdə iki qız var,
İkisi də bir boydadı.

(Qapı)

Atılar düşər, susuz bişər.

(Qorğa)

Süd kimi ağ,
Gecə kimi qara.

(Gözün ağı və qarası)

O yanı taxta, bu yanı taxta,
İçində alabaxta.

(Uşaq beşiyi)

Bir çinarım var,
Kəsəndə uzanır.
Yananda yoğunnaşır.

(Quyu)

Əyri-üyrü yol gedir,
Dayımgilə toy gedir.

(Tüstü)

Qat-qat döşək,
Onu bilmiyən eşşək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(Qur'an)

Yağış yağar, yer yaş olar,
İp qırılar dörd baş olar,
İki sərçənin dörd gözü var,
Dəvədən olan köşək olar.
Bunu bilmiyən eşşək olar.
(Hamısının cavabı verilmişdir)

Bazardan aldım bir dənə
Evdə aşdım, min dənə
(Nar)



# B A Y A T I L A R

Eləmi, oyan dağlar,
Al qana boyan, dağlar,
Burda qada-bala çox,
Necədi o yan, dağlar.

Eləmi, keşdi mənnən,
Yay-oxu keşdi mənnən.
Dostlara körpü düşdüm,
Düşman da keşdi mənnən.

Sənə dağlar,
Yol gedər sənə, dağlar,
Tutaydım yar əlinnən,
Çıxaydım sənə, dağlar.

Əzizinəm, dağ oldu,
Yağ əridi dağ oldu.
Yardan xəvər gəlmədi,
Ürəyim dağ-dağ oldu.

Tapşırma qurda məni,
Öldürmə burda məni.
Elim yağı əlində,
Qaytarın yurda məni.

Borannı bağlar tutar,
Tutmasa, ağlar tutar.
Övladsız qalan elin,
Yasını dağlar tutar.

Eləmi, ilin yansın,
Saralsın, gülün yansın.
Yara yaman qandıran,
Ağzında dilin yansın.

Eləmi, mərdə məni,
Qurban kəs mərdə məni.
Elim, obam dağılıf,
Salıfdı dərdə məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eləmi, yara məni,
İncidir yara məni.
Bəlkə bir çara tapa,
Yetirin yara məni.

Eləmi, təklə məni,
Dost tutar təklə məni.
Ay fələk, mən cüt idim.
Kim dedi: təklə məni.

Qış günü qaymaq olmaz,
Qaymaqdan doymaq olmaz.
Vətənin qisasını,
Yağıda qoymaq olmaz!

Eləmi, nalan mənəm,
Min zülm olan mənəm.
Bir yağı caynağında,
Vətənsiz qalan mənəm.

Bu bulax nurlu bulax,
Qüdrətdən nurlu bulax.
Qazaxda Şinkar gözəl,
Göyçədə Dürlü bulax.

Mən aşıq, ilim hanı?
El deyən dilim hanı?
Vətəndən ayrı canım,
Ölməyə ölüm hanı?

Əzizinəm, bu şana,
Arı qonmaz bu şana.
İgidə oğul gərək,
Qızdan olmaz nişana.

Taladı varı düşman,
Öldürdü yarı düşman.
Sinəmə yüz dağ çəkdi,
Kor olsun qarı düşman.



Eləmi, düşən ağlar,
Atdanıf-düşən ağlar.
Zülümnən, vətəninnən,
Didərgin düşən ağlar.

Eləmi, yaxası var,
Əbamın yaxası var.
Fələk əlin dəyməmiş,
Gör kimin yaxası var.

Əzizim, yolu kəsə,
Qayıt gəl, yolu kəsə.
Yağılar qəsdə duruf,
Qorxuram yolu kəsə.

Eləmi, Göyçə dağı,
Ucadı Göyçə dağı.
Ölüncə gedən deyil,
Sinəmin Göyçə dağı.

Eləmi, qara qaldı,
Bostanın qara qaldı.
Qartal gəzən o dağlar,
Qarğıya, sara qaldı.

Əzizim, quru dağlar,
Gün keçif, qürub dağlar.
Qürbətə düşən qərif,
Vay-şivən quruf ağlar.

Mən aşiq, dərif keçsin,
Dərdiyin sərif keçsin.
Ay yolçular, siz allah,
Yol verin qərif keçsin.

Bu dağlara yol gedər,
Yağış yağar, sel gedər.
El-elə söykənməsə,
Yurd dağılar, el gedər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göylərdə şimşək çaxdı,
Ay doğdu, ulduz çıxdı.
Qəlbimi dost sındırdı,
Evimi düşman yıxdı.

Göyçədən gələn varmı?
Dərdini bilən varmı?
Şah dağı na'lə çəkir,
Göz yaşın silən varmı?

Ağaş divi sərindi,
Yu dəsmalı, sər indi.
Çıxdım dağlar başına,
Göyçə gölü göründü.

Çıxaram yaylaxlara,
Baxaram oylaxlara.
Sənsiz əl uzatmaram,
Nərgizdi budaxlara.

Eləmi, dağdağanı,
Dağlama dağdağanı,
Xəvərin dağdan aldım,
Tökülüf dağda qanı.

Eləmi, möhnət məni,
Əyifdi töhmət məni.
Dərdimi bilən yoxdu,
Öldürür qürvət məni.

Təzənəm var,
Sazım var, təzənəm var.
Üzünə yaddar baxıf,
Üzündə təzə nəm var.

Qoru yandı,
Qalyanın qoru yandı.
Öldürmə bağbanını,
Sana gül qoruyandı.



Yaş ələr,
Yaş axıdıf, yaş ələr.
Yurda həsrət olanlar,
Ağı deyif, yaş ələr.

Əzizim, o dumannar,
O çiskin, o dumannar.
Kərəm kimi kül oldu,
Odumnan od umannar.

Əzizim, elə sarı,
Çək məni elə sarı.
Burdan bir quş uçurtdum,
Baş aldı elə sarı.

Bu bağban bağı neylər?
Qurumuş tağı neylər?
Qardaş qardaşnan olsa,
Qaniçən yağı neylər?

Qar daşı,
Qarrı dağdan, qar daşı.
Yaddardan qardaş olmaz,
Darda çağır qardaşı.

Mən aşıq çaxdı, keşdi,
Könlümü yaxdı, keşdi.
Bu qalaya bir dərdli,
Həsrətnən baxdı, keşdi.

Su gələr arxa bəsdi,
Tökülər çarxa, bəsdi.
Fələk bir dağ çəkifdi,
Arxabaarxa bəsdi.

Yoluma çıxan gəlsin,
Qəlbimi yıxan gəlsin.
Mənim qəriv baxtıma,
Gün kimi doğan gəlsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizinəm, yaz keçif,
Qış addıyıf, yaz keçif.
Burda bir qala gördüm,
Düşmən onnan vaz keçif.

Aşıq, fələyə neylim?
Salıb kələyə neylim.
Dedim əliyif seçər,
Qatıf kəpəyə neylim?

Boz söyüd barı neylər?
Dövləti, varı neylər?
Özü biilqar olan,
Vəfalı yarı neylər?

Gözlərin qarası nə?
Bu dərdin çarası nə.
And verdin, öpüş verdim,
Üzümün yarası nə?

Eləmi çətən yolu,
Tutufdu yetən yolu.
Düşmənin gözü çıxsın,
Bağlanıf Vətən yolu.

Aşıx haradan gəldi?
Ovçu bərədən gəldi.
Nə duman var, nə çiskin,
Bu sel haradan gəldi?

Bu qala qannı qala,
Oxlu, kamannı qala.
Divi quşqonmaz dağlar,
Başı dumannı qala.

Eləmi, oda qala,
Yar bağrım oda qala.
Bu qala mənimkidi,
Qoymaram yada qala.



Bağçasız, barsız bağlar,
Dumansız, qarsız çağlar.
Mən sizə arxalandım,
Siz olduz karsız dağlar!

Ovumun üzü qannı,
Topuğu, dizi qannı.
Gələn allahdan gəlir,
Tutmaram sizi qannı.

Əzizinəm, arama,
Əl uzatma harama.
Fələk yaman duz səpdi,
Közü qopmuş yarama.

Göyçənin dağları çən,
Çənnən görünməz çəmən.
Fələk bir iş işdədi,
Qürbətə döndü vətən.

Eləmi, daşdı getdi,
Yolunu aşdı, getdi.
Dünyaya aldananlar,
Gözdəri yaşdı getdi.

Haray, ellərim, haray,
Cığa tellərim, haray.
Bir və’dəsiz yel əsdi,
Tökdü güllərim, haray.

Göyçənin sağı dağlar,
Torpağı, dağı, dağlar.
Gəlir, qoy dostlar gəlsin,
Gəlməsin yağı, dağlar.

Mən aşıx, yanar gedər,
Dərdimi sanar, gedər.
Ömrüm bir Humay quşu,
Yol üstə qonar gedər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düzülüf belə, dağlar,
Sinəmi belə dağlar.
El köşdü, karvan getdi,
Arxamca mələ, dağlar.

Eləmi, yazı mənə,
Çox görmə azı mənə.
Alıflar qılıncımı,
Endirin sazı mənə.

Ya sinnən, ha ya sinnən,
Molla oxur yasinnən.
Mənəm-mənəm deyənin,
Bu gün gəldim yasınnan.

Eləmi, bu dağlara,
Bu düzə, bu dağlara.
Fələk mana dağ çəkdi,
Yandırdı bu dağlara.

Eləmi, haram bağlar,
Gül yoxdu, dərəm bağlar.
Vətənnən irax düşdüm,
Ürəyim vərəm bağlar.

Arpaçayı axır hey,
Göydə şimşək çaxır hey.
Gözdədim yar gəlmədi,
Gözüm yola baxır hey.

Keçən ellər,
Köç elər, keçən ellər.
Yurdunu qoyuf gəlif,
Bu yoldan keçən ellər.

Bu yerdən ötən hanı?
Cığırı itən hanı?
Mana qərif deməyin,
Bəs onda Vətən hanı?



O dağlar, bizim dağlar,
Söhbətim, sözüm dağlar.
Göyçədə bir gözələ,
Düşüfdü gözüm, dağlar.

Göyçədi elim mənim,
Çəmənim, çölüm mənim.
Göyçə desəm od tutar,
Ağzımda dilim mənim.

Eləmi, arxa gəlsin,
Aç suyu, arxa gəlsin.
Çətində, dar ayaxda,
Hay verin, arxa gəlsin.

Eləmi, xonça gedir,
Əllərdə xonça gedir.
Hamınınkı gül açıf,
Mənimki qonça gedir.

Mən aşiqəm, dal dala,
Sirrin yaddan daldala.
Düşmən yanıf yaxılar,
Qardaş versə dal-dala.

Bu dərədə bağ sallam,
Bağban ollam, bağ sallam.
Ya özümü öldürrəm,
Ya gözümə ağ sallam.

Aşiqəm, yolu neylər?
Qul olan qulu neylər?
Əyri yolun yolçusu,
Düz gedən yolu neylər?

Eləmi, dağı mənnən,
Mey mənnən, saqi mənnən.
Gejəm yox, gündüzüm yox,
Əl çəkmir yağı mənnən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yurd, yuvam, binəm dağlar,
Od tutuf sinəm dağlar.
Dərd qoymur dərdim açam,
Danışam, dinəm dağlar.

Yurdumun özü hanı?
Bulağın gözü hanı?
El bərbad, oba bərbad,
Ojağın gözü hanı?

Gülləri dərdi, dərdi,
Dərdi yollara sərdi.
Ürəyimə dağ çəkif,
El-oba Vətən dərdi.

Eləmi, gülüm dərdi,
Dərdi, düzlərə sərdi,
Vallah mən saralmazdım,
Saraltdı Vətən dərdi.

Dağ başında qar idim,
İgid idim, ər idim.
Sənə rast gələn günnən
Paralandım, əridim.

Eləmi, bağlar məni,
Dərələr, dağlar məni,
Dağlardan uzax düşdüm,
Qəm, kədər dağlar məni.

Əzizinəm, gülə bax,
Dərəyə bax, düzə bax.
Qərivin halın sorma,
Qəlbindəki közə bax.

Eləmi, yenə gəlləm,
Gedərəm, yenə gəlləm.
Vətənə yolum düşsə,
İmana, dinə gəlləm.



Əzizim, yola bir də,
Yamaca, yola bir də.
İçəydim ağ bulaxdan.
Çıxaydım "Yala" bir də.

Eləmi, min əngələ,
Düşmüşəm min əngələ.
Haylaram, haraylaram,
Düldülü minən gələ.

Aşıx, bənəy-bənəydir,
Xalın bənəy-bənəydir.
Aşıx söyləsin görüm,
Araz neçə sənəydir?

Aşıx bənəy-bənəydir,
Xalın bənəy-bənəydir.
Sən Arazı dayandır,
Deyim neçə sənəydir.

Eləmi, kətan sarı,
Yar geyif kətan sarı.
Durnatək qatarranıf,
Uçaydıx Vətən sarı.

Çəltik belimdə qaldı,
Düyüm həlimdə qaldı.
Evin uşsun kəndxuda,
Kisəm əlimdə qaldı.

Ağ at qaşdı dedilər,
Yoldan aşdı dedilər.
İki çıvrıxçı gəldi,
Xan barışdı dedilər.

Mən aşıx, belə gəlməz,
Göy qurşaq belə gəlməz.
Aramızda nə oluf,
Yar dönüf belə gəlməz?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ojağı qalaram mən,
Od vurram, qalaram mən.
Yar bizə qonax gəlsə,
Duz kimi yalaram mən.

Teşt altında dələmə,
Qaşın bənzər qələmə.
Mən səni gizdi sevdim,
Niyə yaydın aləmə?

Zəmini bişdim, oğlan,
Biçif də keşdim oğlan.
Bir mahalın içində,
Tək səni seşdim, oğlan.

Bu dağ, dağlar ucası,
Göz önündə haçası,
Novruz ayı gələndə,
Gələr bayram xonçası.

O tayda qurdu gördüm,
Silkindi, durdu gördüm,
Çıxdım dağlar başına,
Yar gəzən yurdu gördüm.

Bulax başı meşədi,
Yar xəncəri şüşədi.
Sana xannıx yaraşır,
Çovannıx nə peşədi?

Dağdan gələn sudumu?
Daş-torpağı yudumu?
Və’də verdin gəlmədin,
E’tibarın budumu?

Divarda taxta yeri,
Taxçada axça yeri.
Yar sevən, yar bəyənən,
Gözləməz boxça yeri.



Əzizinəm, tər-tərə,
Bu yol gedir Tərtərə.
Yar yara qismət olsun,
Qoy qarışsın tər tərə.

Sandığımız yan-yana,
Kim qandıra, kim qana.
Mən sana könül verdim,
Sən məni saldın qana.

Haravanın təkəri,
Dilin Gəncə şəkəri.
Sən qızını ver mana,
Olum onun nökəri.

Eləmi, qışa döndü,
Baharım qışa döndü.
Sənnən könül istədim,
Ürəyin daşa döndü.

Gözdərin nə qaradı?
Qaşdarın ay paradı.
Üzünü görən günnən,
Qəlbim para-paradı.

Əzizinəm, qalanmaz,
Ojax odsuz qalanmaz.
Sındırma yar könlünü,
Sınar bir də calanmaz.

Baxçada barın ollam,
Qüzeydə qarın ollam.
Əhdə dönük çıxmasan,
Vəfalı yarın ollam.

Tərəkdə var qav-qacax,
Hər biri qucaq-qucaq.
Su istədim yan keşdi,
Mən naşı, o utancax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu dağlarda izim var,
Söhbətim var, sözüm var.
Sən görən o qızdarın
Kiçiyində gözüm var.

Eləmi, beləsinə,
Yol gedir beləsinə.
Heş kimdə görməmişəm,
Belə üz, belə sinə.

Qırmızı çuxa qardaş,
Gədikdən çıxa qardaş.
Tez gördün, gej tanıdın,
Gözdərin çıxa, qardaş.

Gülü sanşdım tufara,
Bülbül gələ suvara.
Canı qurvan demişəm,
Sən təki nazdı yara.

Qaradı gözün, ay qız,
Şirindi sözün ay qız.
Od saldın ürəyimə,
Yandırdın özün, ay qız.

Eləmi, bağda alma,
Dərifsən yerə salma.
Yarın gəlif çıxmadı,
Sən qürbət eldə qalma.

Alma götür, alma sən,
Sözüm yerə salma sən.
Halımı dostdan soruş,
Yaddan xəvər alma, sən.

Eləmi, duydu yarım,
Əğyara uydu yarım.
Pis gündə, dar ayaxda,
Məni tək qoydu yarım.



Eləmi, güldü bülbül,
Ağladı, güldü bülbül.
Bir tikannı söz üstə,
Can verif öldü bülbül.

Ay qız, sənə vuruldum,
Sular kimi duruldum.
Yollar üstə durmaxdan,
Yorğun düşüf yoruldum.

Əzizinəm, mil-milə,
Toxunufdu mil-milə.
Bir günə və’də verdin,
Bir gün döndü bir ilə.

Pəncərəmi açan kim,
Açıf, qoyuf, qaçan kim.
Ürəyimin içində,
Ay tək işıq saçan kim?!

Aç qapını gələn var,
Nəmli gözü silən var.
Qəm eləmə nazdı yar,
Hər bir dərdi bilən var.

Əzizim, xal göründü,
Dodağın bal göründü.
Aşdı ipək ürbəndin,
Üzündə xal göründü.

Çeşmə oluf çağlaram,
Yolu-izi bağlaram.
Yar gedəli qürbətə,
Gejə-gündüz ağlaram.

Əziziyəm, qan indi,
Anna indi, qan indi.
Küsmüşəm barışmaram,
Alış indi, yan indi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözün yoxdu göz kimi,
Sözün yoxdu söz kimi.
Alışaram xəvərsiz,
Kül altında köz kimi.

Bu ellər sultannıdı,
Sultannıdı, xannıdı.
Oğlan Təbrizdən gəlif,
Bu qız İrəvannıdı.

Eləmi, gülə dönsün,
Yarpağın gülə dönsün.
Səni mənnən eliyən,
Qoy yanıf külə dönsün.

Qızılgül qönçələnif,
Yarpağı nimçələnif.
Yar mənnən ayrı düşüf,
Qəlbimə od çilənif.

Eləmi, bostana da,
Bağa da, bostana da.
Gəlif evdə görməsəm,
Oturram astanada.

Saçın ucun hörməzdər,
Səni mənə verməzdər.
Qoy öpüm ağ üzünnən,
Qarannıxdı görməzlər.

Qızılgülün qoxusu,
Yox tikanın qorxusu.
Yarım yaman bərk yatıf,
Şirin olsun yuxusu.

Əzizinəm, arxa var,
Beli götür, arxa var.
Qəm yemə mə’lul könlüm,
Qardaş kimi arxa var.



Əzizim, nazdı gəzər,
Aşıxlar sazdı gəzər.
Nə boy var, nə sur-sifət,
Özünnən razı gəzər.

Ağ at minərəm səni,
Yorğa sürərəm səni.
Məni yara yetirsən,
Məxmər çullaram səni.

Yaşıl yaylıxlı dağlar,
Bağçalı, bağlı dağlar.
Yardan bir xəvər verin,
A xoş soraxlı dağlar.

Bu yerrərin üzümü,
Yolda qoydun gözümü.
Ya rəbb, mana aman ver,
Yara deyim sözümü.

Göydə ulduz əllidi,
Əllisi də bəllidi.
Bizim elin qızdarı,
İsmətinnən bəllidi.

Əzizinəm, çəməndə,
Çiçək dərir çəməndə.
Yar bircə baxışıyla,
Məni saldı kəməndə.

Əzizim, yazda qaldı,
Qış çıxdı, yazda qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

Eləmi, qanan dağlar,
Ürəkdən yanan ağlar.
Anama xəvər verin,
Hamıdan yaman ağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu dərədən bağ sallam,
Bağban ollam, bağ sallam.
Ya özümü öldürrəm,
Ya gözümə ağ sallam.

Biçinçi dərz içinə,
Düşüfdü dərz içinə.
Baladan ayrı düşüf,
Düşüfdü dərd içinə.

Nar getdi,
Bağban getdi, bar getdi.
E'tivarsız dünyadan,
E'tivarrı yar getdi.

Eləmi, yaman olu?
Qaşları kaman olu.
Sındırma yar könlünü,
Yar ahı yaman olu!

Bu yolla gedən gəlmir,
Bilmirəm nədən gəlmir?
Qatarınnan üzülər,
Çıxar cərgədən, gəlmir.

Eləmi, keçən ağlar,
Bu yoldan keçən ağlar.
Vətənnən ayrı düşən,
Elinnən köçən ağlar.

Əzizim, yolun budu,
Dərd budu, zülüm budu.
Mən ağlaram, yad gülər,
Ölümlü günüm budu.

Sözün demə aşkara,
Dərdə tapılar çara.
Dindirmə, qan ağlaram,
Ürəyimdə var yara.



Eləmi, üzümdü bu,
Dərmişəm, üzümdü bu.
Yaxın gəl halallaşax,
Axır görüşümdü, bu.

Mən aşiqəm bir başa,
Bu yol gedir bir başa.
Tanrı rəva görməsin,
İki qapaz bir başa.

Bahasız daşdı dünya,
Çürük ağaşdı dünya.
Kimə deyim dərdimi,
Tamam qan-yaşdı dünya.

Əzizinəm, dəryaya,
Xalın bənzər dər yaya,
Qəzaya qədər yoxdu,
İstəsən gir dəryaya.

Bu yol gəlir bəylikdən,
Sular gəlir zəylikdən.
Qorxuram gedəsiniz,
Evim düşə evlikdən.

Dağlar, otun qurusun,
Bağlar, tutun qurusun.
Sənin də mənim kimi,
Matın-qutun qurusun.

Bu yol kaşana gedər,
Aşar Kaşana gedər.
Ölərəm bu dərdinən,
Gora nişana gedər.

Əzizim, seçər gedər,
Gülünü biçər gedər.
Darıxma, qərif könlüm,
Bu həsrət keçər gedər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağ alma ətirridi,
Budağı çətirridi.
Mənim yarım əzəldən,
Hamıdan xətirridi.

Ay gözü xumar gəlin,
Qaməti çinar gəlin,
Dəlin mən, divanan mən,
Gəl, gəzmə kənar gəlin.

Mən aşiq sana dağlar,
Qar yağar sana dağlar.
Tutaydım yar əlinnən,
Çıxaydım sana dağlar.

Görünən Savalandı,
Sultandı, Savalandı.
Nə dərdim kimi dərd var;
Nə yaram sağalandı.

Getdim o yurdu gördüm,
Qudurmuş qurdu gördüm.
Gəzdim səni tapmadım,
Sən düşən yurdu gördüm.

Bir yaralı qoçam mən,
Taqətim yox, qaçam mən.
Həkim, loğman tapmadım,
Bir dərdimi açam mən.

Bu dağlar, uca dağlar
Qar yağar quca dağlar
Ovçusu cavan olan,
Maralı qoja, dağlar.

Aşıx getsən hayana,
Hayan ol, sən hayana,
Qərivə can deməzdər,
Ha çırpına, ha yana.



Aşıx gül xara qaldı,
Qəlbimdə yara qaldı.
Tərlan uşdu bu yerdə,
Oylağı sara qaldı.

Buğda bulağ olaydı,
Quzuqulağ olaydı.
Haramxorun əlləri,
Divdən çolağ olaydı.

Dağda sazağ olaydı,
Otu bozağ olaydı.
Xain yoldaş, pis qonşu,
Bizdən uzağ olaydı.

Bağban barı gül olar,
Gül olar, bülbül olar,
Oğlan qızın dərdinnən,
Gör necə bülbül olar?

Qardaş, gəl köməyimsən,
Arzumsan, diləyimsən.
Özgə gündə gəlməsən,
Bu gün gəl, gərəyimsən.

Dağda gələn sürüdü,
Dağı duman bürüdü.
Sənnən mana yar olmaz,
Cavan canım çürüdü.

Armudun aldı, yenə,
Dəymiyif, kaldı yenə.
Yarım mənnən küsüfdü,
Deyəsən, laldı yenə.

Qara atı yağlaram,
Kol divinə bağlaram.
Yarı gündə görməsəm,
İçin-için ağlaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yanan çırağ olaydım,
Yolnan irağ olaydım.
Yarım gəlif keçəndə,
Sərin bulağ olaydım.

Tut ağacı tutdudu,
Divi yaman otdudu.
Qardaş bir qız sevifdi,
Dili yaman oddudu.

Qaşdarın qibləgahdı,
Ucun əymə, günahdı.
Dağlara duman gəldi,
O da mən çəkən ahdı.

Bu cığır çeşmə yolu,
Gedənnər gəlir dolu.
Səhəng qulpun qırılsın,
Qırıldı yarın qolu.

Yerim uja saldılar,
Ujdan-uja saldılar.
Vallah könlüm yoxuydu,
Məni güjə saldılar.

Əzizim, nər divana,
Ayax qoy, nərdivana.
Dərdi dərd çəkən bilər,
Nə bilər hər divana?!

Əzizim, bəlan budu,
Dərdin bu, bəlan budu.
Bəla görmüyən canım,
Çək, indi bəlan budu.

Kəmər belə yaxşıdı,
Darax telə yaxşıdı.
Çox yalvardım fələyə,
Dedi, belə yaxşıdı.



Təndir mənim, bad mənim,
Yaxın mənim, yad mənim.
Ellərə bədnam canım,
Yar özgənin, ad mənim.

Göydə ulduz tək gedir,
Gah əyləşir, gah gedir.
Qorxma, qorxma, a qardaş,
Üstünnən Allah gedir.

Gəz aləmi soraxnan,
Piltə yanar çıraxnan.
Bir gülüydüm çəməndə,
Doğradılar oraxnan.

Əzizinəm, bizə gəl,
Qırmızı gey təzə gəl.
Nə qışda gəl, nə yayda,
Bayram günü bizə gəl.

Əzizinəm, vərəmli,
Lələ getdi kərəmli.
Dərdim xirtdəkdən aşıf,
Qarnım qara vərəmli.

Qərиv ölüv götürün,
Yola salın, ötürün.
Cənazəsi yan gedər,
Vətəninə yetirin.

Eləmi, yalqız oldum,
Üşüdüm, sal buz oldum.
Vaxt gəlif can gedəndə,
Təklənim, yalqız oldum.

Öküzün beşdi mənim,
Karvanım köşdü mənim.
Əlini ver əlimə,
Ürəyim keşdi mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizinəm, yolları,
Böyürtikan kolları.
Gedən getdi, gəlmədi,
Bağlı qalsın yolları.

Qara öküz yan gedir,
Ürəyimnən qan gedir.
Könlüm səni istəyir,
Əcəl gəlif, can gedir.

Qəribəm, lilə məni,
Bürüyün tülə məni.
Atın qannı dəryaya,
Batırın lilə məni.

Əzizim, daşdı neynim,
Dağ daşı aşdı, neynim,
Gedəmmirəm, yorğunam,
Yollarım daşdı, neynim.!

Umudum, ay umudum,
Su divində qum udum.
Baş yasdıxda, göz yolda,
Niyə gəlmir umudum?

Eləmi, dolu gözdər,
Dağları dolu gözdər.
Neçə ki, canım sağdı,
Gözdərim yolu gözdər.

Oğlan adın Bəydi, gəl,
Dərdin məni əydi, gəl.
Üç günə və'də verdin,
Bir ay tamam oldu, gəl.

Ay doğuf sini kimi,
Sininin gülü kimi.
Yardan bir qoxu gəldi,
İstambul gülü kimi.



Arxalığın ikidi
Biri Tiflis ipidi.
Bir elə yar sevmişəm,
Bəylər onun itidi.

Arxalığın oymadı,
Gözüm yoldan doymadı.
Çıxdım yolun üstünə,
Paxıl yengəm qoymadı.

Bu dağda qoydu məni,
Haramı soydu məni.
Yükləndi yarın köçü,
Yaralı qoydu məni.

Göydə bulud oynadı,
Göz dünyadan doymadı.
Çox murazın varıydı,
Qannı fələk qoymadı.

Ay mənim Fatma nənəm,
Qaşdarı çatma nənəm.
Sevəni-sevənə yaz
Günaha batma, nənəm.

Bulax başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Ürəyimdə yara var,
Gəlin açar, qız bağlar.

Qızıl üzüyün yanı,
Durmur barmağmın qanı.
Dünən görünən oğlan
Bu gün görünmür hanı?

Quşdarın qaldı dənsiz,
Qəriv öldü kəfənsiz.
Qoynuna qarrar dolsun,
Nejə yatırsan mənsiz?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan adın Astandı,
Gül dağlarda yastandı.
Verdiyin qızıl üzük,
Barmağımda pastandı.

Bulaxda daş olaydım,
İsdanıf, yaş olaydım.
Yar yanımnan keçəndə
Ona yoldaş olaydım.

Qara atın kəkili,
Yerə düşüf şəkili.
Qız gedir, oğlan alır,
Kimdi onun vəkili?

Qardaşın kürən atı,
Otduğa girən atı.
Ay at, başına dönüm
Xan qardaş amanatı.

Əmim oğlu olasan,
Mana bir şal alasan.
Hörəm, tökəm çiynimə,
Gördükcə şad olasan.

Sarı yardan,
Su gəlir sarı yardan.
Fələkdə nə qaydadı?
Ayırır yarı-yardan.

Eləmi, xana yeri,
Quruluf xana yeri.
Min bir təbib yığıla,
Verəmməz ana yeri.

Araza gəmi gəldi,
Gəmiynən hamı gəldi.
Ağla, gözdərim, ağla,
Ayrılıx dəmi gəldi.



Qayadan endim ancax,
Başımda sarı sancax.
Nə qız oldum, nə gəlin,
Oddara yandım ancax.

Stol üstə səməni,
Ay qız, incitmə məni.
Qolların tabut eylə,
Göz yaşınnan yu məni.

Eləmi, gül anbarı,
Gül kərdi, gül anbarı.
Zalım fələk qoymadı,
Doyunca güləm barı.

Eləmi, lala dağı,
Bürüyüf lala dağı.
Hər yara sağalsa da,
Sağalmaz bala dağı.

Gedirdim qırağ ilə,
Ot biçdim orağ ilə.
İtirmişəm yarımı,
Gəzirəm sorağ ilə.

Dam üstə sarı taya,
Yel vurdu, tökdü çaya.
Cəfa çəkdim yar sevdim,
Əməyim getdi zaya.

Coravın ağına bax,
Dəstələ, bağına bax.
Mən yadına düşəndə,
Ələyəz dağına bax.

Arxalığın şaldı, yar,
Dərdin məni aldı yar.
İkimizin görüşü,
Qiyamata qaldı, yar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eləmi, yarım alma,
Yeməyə yarım alma.
Allaha çox yalvardım,
Canım al, yarım alma.

Ay doğdu bədir, allah,
Günahım nədir, allah.
Ya mənim murazım var,
Ya məni öldür, allah.

Kotanın kəli hanı?
Xırmanın vəli hanı?
Bu dağların lalası,
Çiçəyi, gülü hanı?

Əzizim, Göyçə dağı,
Göyçəkdi Göyçə dağı.
Ölüncə gedən deyil,
Sinəmnən Göyçə dağı.

Əzizinəm dilinə,
Dodağı nə, dili nə?
Canımı qurvan verrəm,
Göyçə deyən dilinə.

O tay, bu tay bizimdi,
Güllər düzüm-düzümdü.
Yaddar bizə qız verməz,
Əmim qızı bizimdi.

Kəklik gördüm qayada,
Yumurtası tayada.
İgid ona demişəm,
Öpə, yarın oyada.

Əziziyəm, yun didən,
Yun darıyan, yun didən.
Ya mənim murazım ver,
Ya canım al, indidən.



Günnər o gün olaydı,
Zülfün düyün olaydı.
Sənnən gördüyüm günün,
Biri bu gün olaydı.

Araxçının püstə qoy,
Qaldır, divar üstə qoy.
Uzax yerdən gəlifsən,
Əlin sinəm üstə qoy.

Boz atın boza-boza,
Telində qızıl qoza.
Asta yeri, çər dəymiş,
Yarı batırdın toza.

Gedirsən, yolun olum,
Yolda qurbanın olum.
Altdan zərri köynəyin,
Üstünnən donun olum.

Yarım var, ilqarım var,
Yük üstə yorğanım var.
Yar qapıya gələndə,
Bir quzu qurvanım var.

Yurdum, qalam, tələsmə,
Göyçə qalam, tələsmə.
Mən gəlməsəm, qoynuna,
Balam gələr, tələsmə.

Əzizim, belə yaxşı,
Bel yaxşı, belə yaxşı.
Mən barışmax istədim,
Sən dedin: belə yaxşı.

Çay mənim, çeşmə mənim,
Çayımnan keşmə mənim.
Sən ki, təviv deyilsən,
Yaramı deşmə mənim.

Telləri sarı gəlin,
Bağların barı gəlin.
Bu evə xoş gəlifsən,
Oğlumun yarı, gəlin.

Araz axar liliylə,
Bülbül oynar gülüylə.
Öldürür, yar, öldürür,
Məni şirin diliylə.

Qardaş demə, qan olar,
Qan olar, fəğan olar.
Qardaş gələn yollara
Bajılar qurvan olar.

Mən aşıx, nəçiyəm mən,
Xana ərzəçiyəm mən.
Üz tutuf sizə gəldim,
Dedin: dilənçiyəm mən?

O bağa bağbanam mən,
Dağ oğlu, dağdanam mən,
Bostançıdan xəvər al,
Gör hansı tağdanam mən?

Mən aşiq qanan hanı,
Halıma yanan, hanı?
Canımı qəm çürütdü,
Köynəyim didəm qanı.

Eləmi, inci mənnən,
Dürr mənnən, inci mənnən.
Sən deyəni deməsəm
Sonra gəl inci mənnən.

Qaşdarın qarasına,
Dərdimin çarasına.
Məni qönçə gül eylə,
Qoy sinən arasına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizim, göy çəmənə,
Gəl çıxax göy çəmənə.
Canımnan da əzizdi,
Doğmadı, Göyçə mənə.

Mən aşıq,Göyçə deyə,
Kimsəm yox, Göyçə deyə.
Xəstəyəm qürvət eldə,
Qalmışam Göyçə deyə.

Bağda çiçəyim mənim,
Güllü ləçəyim mənim.
Mahalların içində,
Göyçə-göyçəyim mənim.

Əzizim, Göyçə gülü,
Güllərdən Göyçə gülü.
Gündə yüz yol dolanır,
Qəlbimdə "Göyçəgülü".

Sular gəlir lilinən,
Bülbül oynar gülinən.
Bir söz dedim, küsdün yar,
Könlün aldım dilinən.

Əziziyəm, almışam,
Alıf yola salmışam.
Nə gedən var, nə gələn,
Qürvət eldə qalmışam.

Dağların qarı olsa,
Bağların barı olsa.
İgid heç sarsıyarmı?
Belə bir yarı olsa.

Bu yoldan aşmax olmaz,
Şüşədən başmax olmaz.
Təğyirə tədbir etmək,
Qəzadan qaşmax olmaz.

Eləmi, üzüf getdim,
Tərlandım süzüf getdim.
İlqarsız yar-yoldaşdan,
Əlimi üzüf getdim.

Eləmi, daşqın görüf,
Sel görüf, daşqın görüf.
Başı balalı dağlar,
Neçə yol qaşqın görüf.

Dağ aşdım, yarım gəldi,
Dövlətim, varım gəldi.
Gözdərim aydın olsun,
Ömür nüvarım gəldi.

Eləmi, binə tikdim,
Yönünü günə tikdim.
İçində oturmadım,
Bilmədim, kimə tikdim?

Əzizinəm, dərdi çox,
Gülü bağdan dərdi çox.
Göyçə yaman inniyir,
Sevinci yox, dərdi çox.

Eləmi, darda qaldı,
Dövlət də, var da qaldı.
Gözüm Göyçə gölündə,
Ürəyim harda qaldı?

Gümüş kəmər beldədi,
Gözüm qara teldədi.
Elimə qurvan olum,
Hər nə desən eldədi.

Eləmi, günnrn ağlar,
Dərdimi çinnər ağlar.
Vətənnən didərginnər,
Yurdunu ünnər, ağlar.



Boz atın boylanmasın,
Yüyən ver, oynamasın.
Məni sənə verməzdər,
Ürəyin oynamasın.

Samavar duran yerdə,
Boynunu buran yerdə.
Ət gedər, sümük qalar,
Qojalıx olan yerdə.

Qardaş özünə qurvan,
Şirin sözünə qurvan.
Tanrı payı o bir cüt,
Qara gözünə qurban.

Ay doğdu, çaya düşdü,
Ulduzlar haya düşdü.
Yarıma çiçək atdım,
Getdi o taya düşdü.

Xançalı işdə, yolla,
Üstün gümüşdə yolla.
Yanına beş alma qoy,
Birini dişdə, yolla.

Əzizinəm, yar alar,
Yar könlünü yar alar.
Yarın xəvəri varmı?
Qövr eliyif yaralar.

Əzizim, çapar məni,
Dərd talar, çapar məni.
Yadıma vətən düşüf,
Vətənə apar məni.

Dağ başını qar aldı,
Güllər soldu, saraldı.
Köç etdi el karvanı,
Vətən qürbətdə qaldı.

Göz yaşın ələr Göyçə,
Hicranı bilər Göyçə.
Əlim, ünüm yetişməz,
Yuxuma gələr Göyçə.

Əzizinəm, gül üzə,
Gül yanağa, gül üzə.
Dinə-imana gəlləm,
Üzüm dəysə gül üzə.

Bu bulax dağbulağı,
Dağların sağ bulağı.
Bir görən ülfət bağlar,
Unutmaz Ağbulağı.

Qızıl üzük yəməni,
Oğlan sıxma məməmi.
Sıxarsan, incidərsən,
Oyadarsan nənəmi.

Arxalığın xaradı,
Bağı, bəndi qaradı.
Kəhər at yəhərrənif
Qardaş, səfər haradı?

Sandıx üstə kilim var,
Arasında gülüm var.
Dur gəl, otur yanımda,
Gör nə şirin dilim var.

Əziziyəm, dağ qalar,
Sinəm üstə dağ qalar.
Duman kəsər, çəkilər,
Dağ yerində, dağ qalar.

Mən aşıx oxusuna,
Dərs alıf, oxusana.
Sinəni qannı gördüm,
Kim vuruf oxu sana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göy üzü əlcim-əlcim,
Yanıram için-için.
Anam gəzən yerrərdə,
Gül bitif, necə biçim?!

Eləmi, ağlıyanda,
Sinəmi dağlıyanda.
Dindirməyin köşkünü
Dərya tək çağlıyanda.

Göyçə gölü dərindi,
Suyu yaman sərindi.
Ada təpəyə qalxdım,
Ağrı dağı göründü.

Harayına yetəydim,
Bülbül olub ötəydim.
Bircə dəstə gül oluf,
Yar bağında bitəydim.

Arxalığın oymadı,
Gözüm yardan doymadı.
Çıxdım dalınca baxdım,
Ölmüş yengəm qoymadı.

Eləmi, günnər ağlar,
Dərdini çinnər ağlar.
Vətəndən didərginnər,
Yurdunu ünnər, ağlar.

Əzizim, haray sənsiz,
İl oluf hər ay sənsiz.
Ahu-fəğan edirəm,
Çəkirəm haray sənsiz.

Əzizim, yada məni,
Salmadın yada məni.
İlqara dönük çıxdın,
Yalvartdın yada məni.

Mən aşıq, yüz ilməni,
Yaxana düz ilməni.
Yarım vəfalı olsa,
Unutmaz yüz il məni.

Eləmi, qışı yaxşı,
Üzüyün qaşı yaxşı.
Qürbət elin aşınnan
Vətənin daşı yaxşı.

Əzizinəm, tikan gülə,
Sarmaşıf tikan gülə,
Heş kim gözün tikməsin,
Mən gözüm tikən gülə.

Aşıx, yaza nə qaldı?
Söhbət-sözə nə qaldı?
Taxsır qələmdə deyil,
Mürvət yazana qaldı.

A dağlar, daşdı, dağlar,
Sənnən kim aşdı dağlar.
Gözdərim yuxu tutdu,
Tərlanım qaşdı, dağlar.

Xalların öz qarası,
Yaxşıdı göz qarası.
Su yuyar hər ləkəni,
Yuyulmaz üz qarası.

Mən aşıx gördüyünə,
At oxun gördüyünə.
Namərddə sirr əylənməz,
Mərd deməz gördüyü nə?

Əzizim, bir də, bir də,
Gör nə var tək səvirdə.
İkimiz birdən ölək,
Qoyulax bir qəvirdə.



Aşiqəm, sənsən neynim?
Deməm, küsərsən neynim.
Min bir yerdə quşum var,
Tavarım sənsən, neylim?

Dəsmalı yudum apar,
İtirmə, düşmən tapar.
Mənnən gözəl yar sevsən,
Gəl məni nökər apar.

Ağbulaxdı elim yar;
Çiçəyim yar, gülüm yar.
Nejə mənsiz dözürsən?
Daş ürəkli zalım yar.

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim yarım bircədi,
Saxlasın pərvərdigar.

Bu gələn bizə gələr,
Eşidən düzə gələr.
Uzunboy, qarapapax,
Qorxuram gözə gələr.

Bir qız gördüm biçində,
Sarı sünbül içində.
Ona bir toy quraydım,
Gələn ayın içində.

Bu dərə, alma dərə,
Qədimdən qalma dərə.
İstərəm bir bağ salam,
Yar gələ, alma dərə.

Mən aşiq, üzəngini,
İtirmə üzəngini.
Tanrı canım alaydı,
Səndən əl üzən günü.

Mən aşiq, yara qannı
Yar qannı, yara qannı.
Öldürsən mən yazığı,
Olarsan yara qannı.

Eləmi, quş apardı,
Vətənə tuş apardı.
Qolumu qandal kəsdi,
Ayağım daş apardı.

Əzizinəm, düşmərəm,
Aldanmışam, düşmərəm.
Gör nə günə qalmışam,
Yadına da düşmərəm.

Eləmi, bə'zən, yeri.
Gey, sallan, bəzən yeri.
Könlüm yaman arzular,
Yar gəlif gəzən yeri.

Mən aşiqəm, toy üstə,
Sözüm sözdü, qoy üstə.
Fələk alma canımı,
Nişannıyam toy üstə.

Qızıl gülsən, təzəsən,
Əcəf, şirin məzəsən.
O günə qurvan olum,
Bizim evə gələsən.

Mən aşiqəm, alma yar,
Alıf, yerə salma yar,
Əl mənim, ətək sənin,
Nəzərinnən salma yar.

Əzizinəm, bu dağa,
Ellər köçər bu dağa.
Ay bivəfa, mən dözdüm,
Heç kəs dözməz bu dağa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eləmi, mən aşığa,
Hüsnünə yaraşığa
Yarım könlüm oxşasa,
Dönərəm sarmaşığa.

Mən aşiqəm, yeridi,
Ellər dağa yeridi.
Ağlamax vaxtı döyül,
Daha gülmək yeridi.

Mən aşiq, sal qayalar,
Sıldırım, sal qayalar.
Torpağın yaxşısını,
Xan tutar,bəylər alar.

Əziziyəm, atmaram,
Yarı yada salmaram.
Bir əldə iki qarpız
Tutmamışam, tutmaram.

Eləmi, tər bulağa,
Suyu şəkər bulağa.
Yarımnan, yarımadım,
Nejə dözüm bu dağa?

Mən aşıx, baxdın belə,
Könlümü yaxdın belə.
Neylədim yar, hər yerə,
Su kimi axdın belə.

Mən aşiqəm, ağ gələ,
Günnərimiz ağ gələ.
Yara əyri baxanın
Gözdərinə ağ gələ.

Əziziyəm, ayrıdı,
Könlüm yardan sayrıdı
Nə bilir mən çəkəni,
Can kı, cannan ayrıdı.

Mən aşıx, bülbül oldu,
Gül oldu, bülbül oldu.
Vətənin həsrətinnən,
Ürəyim dil-dil oldu.

Teşt altında dələmə,
Qaşın bənzər qələmə,
Mən səni gizdi sevdim,
Niyə dedim aləmə!!

Şalım qara boyandı,
Uju yerə dayandı.
Mənim ahu-zarımnan,
Göydə fələk oyandı.

Düşüf can qara yerdə,
Qalıf avara yerdə.
Öldürdü canan məni,
Getdi can ara yerdə.

Mən aşiq, tikan gülə,
Sarmaşıf tikan gülə.
Fələk gözünü dikif,
Mən gözüm dikən gülə.

Dərdini de bilənə,
Dərd başına gələnə.
Aşma ürək dəftərin,
Hər üzünə gülənə.

Əlimə saz veriflər,
Yaman taraz veriflər.
Dərdimi çox eliyif,
Dərmanı az ediflər.

Yaylığın ələmlidi,
Ujları qələmlidi.
Sən dünyadan köçənnən,
Ürəyim vərəmlidi.



Boz atın nalın qurusun,
Xətti-xalın qurusun.
Apardın gətimədin,
Dırnaxların qurusun.

Ay doğdu, üzə düşdü,
Qara zülf üzə düşdü.
Fələyin çarxı döndü,
Ayrılıx bizə düşdü.

Əzizim, Vətən ağlar,
Halıma ötən ağlar.
Yad elində ölənin,
Halına kəfən ağlar.

Səlmasın canı, bağlar,
Təbrizin yanı dağlar.
Sən yadıma düşəndə,
Ürəyim başı ağlar.

Xoruz durar, dan ağlar,
Hər gün çəkər ban, ağlar.
Qardaşı ölən bajı,
Gejə-gündüz qan ağlar.

Bu dağlar, qannı dağlar,
Çənni-dumannı dağlar.
Yıxılmış iyid üstə,
El ağlar, qannı ağlar.

Araz aşanda ağlar,
Kür qovuşanda ağlar.
Balalar anasından,
Ayrı düşəndə ağlar.

Tufan qopar, yar ağlar,
Çaylar daşar, sel ağlar.
Yad ellərdə ölənin,
Yasın tutar el, ağlar.

Bu dağlar yalın dağlar,
Meşəsi qalın dağlar.
Sizdə igid basdırdım,
Qaydına qalın, dağlar.

Fələk vurdu başıma,
Qanım axdı qaşıma
Yarı dost, yarı düşmən,
Yığıldılar başıma.

Kaman bəla, ox bəla,
El gələli, yox bəla.
Namərdnən dost olanın,
Başı çəkər çox bəla.

Əzizim, nejə dönüm?
El yatsın, nejə dönüm.
Kafir dinindən dönməz,
Mən eldən nejə dönüm?!

Aşıx gəlir sazı var,
Qəmzəsi var, nazı var.
Hər payızın bir qışı,
Hər qışın bir yazı var.

Çırax çırağı neynər?
Yanan çırağı neynər?
Çırax kı, haxdan yanar,
Piltəyi, yağı neynər?!

Mən aşıx səsə gəlləm,
Naləyə, səsə gəlləm.
Yad əldən qaça bilsəm,
Yolları kəsə gəlləm.

Qoyma tək qalam, qardaş,
Səngərim, qalam qardaş.
Yağı töküldü aldı,
Sürüldü, balam qardaş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə göz, nə qaş əymərəm,
Ağacı yaş əymərəm!
Uzanıf cavan ölləm,
Namərdə baş əymərəm.

Çuxanın bağı bizdən,
Bostanın tağı bizdən.
Düşmannar fürsət tapsa,
Alar xoş çağı bizdən.

Eləmi, ağı deyər,
Köynəyin ağı deyər.
Balası ölən ana,
Saç yolar, ağı deyər.

Əzizim, yasa malı,
Xalların yasa malı.
Məni yardan edənin,
Tökülsün yasa malı.

Bu qəribi götürün,
Dar küçədən ötürün.
Qəribin vay xəbərin
Qardaşına yetirin.

Göyərçini vurdular,
Qol-qanadın qırdılar.
Mən eldən ayrılmazdım,
Zülümnən ayırdılar.

Dağlar, harayı dağlar,
Donu darayı dağlar.
Dedim Vətənə dönüm:
Alıb arayı dağlar.

Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Burda bir qəriv ölüf,
Qohumu, qardaşı yox.

Səni özüm ağlaram,
Çıxsa gözüm, ağlaram.
Yad ağlar, yaman ağlar,
Durar özüm ağlaram.

Gözüm aça bilmirəm,
Açıb seçə bilmirəm.
Yüküm qurğuşun yükü,
Qoyuf qaça bilmirəm.

Stol üstə səməni,
Oğlan incitmə məni.
Qolların tabut eylə,
Göz yaşınnan yu məni.

Əzizinəm, bu dağa,
Bülbül qonmaz budağa.
Sinəmə dağ çəkdilər,
Heç dağ çatmaz bu dağa.

Mələrəm, ha mələrəm,
Dağı, daşı dələrəm.
Sən halımı sormasan,
Başıma kül ələrəm.

Lalə mənəm, lələ mən,
Yük altında hələ mən.
Dərtdən, qəmnən, hicrannan,
Bağlamışam şələ mən.

Ərəb qapdı fəsimi,
Su kəsdi nəfəsimi.
Gedin anama deyin,
Gəlif tutsun yasımı.

Balası ölən ana,
Gülləri solan ana.
Oğul deyif ağlıyan,
Bağrı qan olan ana.



Bajının bajı dərdi,
Yoxdu əlacı, dərdi.
Getdi şirin söhbəti,
Qaldı bir ajı dərdi.

Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Yıxdın atam evini,
Qapısın bağlar qoydun.

Gejə uzun yatmaram,
Dərdə, qəmə batmaram.
Sənin ağır dərdini,
Heç bir dərdə qatmaram.

Əziziyəm, bu dağa,
Ellər köçüf bu dağa.
Elə ki, mən dözürəm,
Kimsə dözməz bu dağa!

Qaralı, ağlar mənəm,
Qanadı bağlı mənəm.
Hamının dərdi olsa,
Ürəyi dağlı mənəm.

Əziziyəm, gülə sən,
Ağlayasan, güləsən.
Bağban getdi, bağ soldu,
Həsrət qaldın gülə sən.

Dəryanın gəmisinə,
Su gəldi zəmisinə.
Heç igidin balası,
Qalmasın əmisinə.

Bu gələn küsgülüdü,
Əlində yas gülüdü.
Neçə yerdən yaram var.
O da yar niskilidi.

Fələyin işi düşsün,
Yaydan kirişi düşsün.
Onun da bizim kimi,
Namərdə işi düşsün.

Gejələr, il gejələr,
Dərdimi bil gecələr.
Mən burda qan ağlaram,
Sən orda gül, gejələr.

Bir dəvə var karvansız,
Bir karvan var, sarvansız.
Ellərə loğmanıydım,
Can verirəm dərmansız.

Yar bilər yar qədrini,
Tar çalan tar qədrini.
Cəfa çəkməyən bülbül,
Bilməz bahar qədrini.

Qurvanı kəsən olmaz,
Çatmadan asan olmaz.
Qərif yerdə ölənin,
Gözdərin basan olmaz.

Bu gejə uymamışam,
Baş yerə qoymamışam.
Sən mənnən yaman doydun,
Mən sənnən doymamışam.

Dərd budur, bəla budu,
Dərd canda qala, budu.
Bəla çəkməyən başım,
Çək indi bəla, budu!

İşim aşmadı başdan,
Gözüm doymadı yaşdan.
Fələk mənə versəydi,
Verərdi əzəl başdan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eləmi, yaramazdı,
Neyləyim, yaramazdı.
Qorxma mənim ahımnan,
Ölmərəm, yaram azdı.

Ox ayrı, kaman ayrı,
Dağ ayrı, duman ayrı.
Düşüf qürvət ellərə,
Qalmışam yaman ayrı.

Bağban bəslər gül alı,
Yarpax yaşıl, gül alı.
Fələyin qaydasıdı,
Açılmamış gül alı.

Əzizinəm, belə gəl,
Belə dolan, belə gəl.
Əzrayıl ova çıxıf,
Səni vurar, belə gəl.

Aşıx, itkindi yara,
Xalın itkindi yara.
Səni mənnən eliyən,
Düşsün itkin diyara.

Eləmi, harda gülər?
Mərd igid darda gülər.
Analı dərd tanımaz,
Anasız harda gülər?!

Qızılgül nişan oldu,
Dərmədim, heşan oldu.
Mən ağlamaq bilməzdim,
Ağlamax peşəm oldu.

Bulax başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Köhnə yaram qövr elər,
Təzə yaram göz bağlar.

Əziziyəm, yara var,
Yara yalvar, yara var.
Aç ürəyim başını,
Gör yammamış hara var?

Mən öldüm ağlamaxdan,
Bağa su bağlamaxdan.
Bağda xəzəl qalmadı
Yarama bağlamaxdan.

Əzizinəm, bu dağa,
Bülbül qonuf bu dağa.
Dağ da dözə bilməzdi,
Mən dözdüyüm bu dağa.

Əziziyəm, simi yox,
Sazım ötmür simi yox.
Burda bir igid ölüf,
Ağlamağa kimi yox.

Mən aşıx, gejələrəm,
Gündüzü gejələrəm.
Sən öldün, nakam getdin,
Mən sənsiz nejələrəm?

Eləmi, bu dağa bax,
Gülü solmuş bağa bax.
Fələyin sitəminnən
Sinəmdəki dağa bax.

Qardaşı yağı vurdu,
Dolandı dağı vurdu.
Nə savah, nə də axşam,
Günorta çağı vurdu.

Keçməyir sözüm, neynim?
Bu dərdə dözüm, neynim.
Ah çəksəm aləm yanar,
Çəkməsəm özüm, neynim?



## A I L A R

Əzizim, yanar oda,
Pərvanə yanar oda.
Dərdimi dağa desəm,
Od tutuf yanar o da.

Daş gəlir sellərinən,
Dərd gəlir ellərinən
Bu dərd məni öldürməz,
Yandırar illərinən.

Kölgədən günə düşdüm,
Bağlı divana düşdüm.
Fələk evin yıxılsın,
Sən deyən günə düşdüm.

Mən aşiq, qəm çiləndi,
Səməndim qəmçiləndi.
Mənim viran könlümə,
Dərd yağdı, qəm çiləndi.

Keçməyir sözüm, neynim,
Bu dərdə dözüm, neynim.
Ah çəksən aləm yanar,
Çəkməsəm özüm, neynim?

Mən aşıq, üzümüm yox,
Bağım var, üzümüm yox
Sən ki, belə tez getdin,
Fərağa dözümüm yox.

Canımı aldı fələk,
Dərddərə saldı fələk.
Bağda bir nar yetirdim
Onu da saldı fələk.

Dağlardan enənə bax,
Evinə dönənə bax.
Muradına çatmıyan
Çırağı sönənə bax.

Eləmi, bu dağa bax,
Gülü solmuş bağa bax.
Fələyin sitəminnən
Sinəmdəki dağa bax.

Əzizinəm, qu məni,
Qoy ağlasın bu məni.
Əl yaylığın kəfənim,
Göz yaşınnan yu məni.

Yatıram yanım ağrır,
Dururam canım ağrır.
Qəm çuvuğu dəyməkdən,
Tamam əndamım ağrır.

Bağçada barın qala,
Heyva yox, narın qala.
Qiyamət o gün qopar,
Öləsən, yarın qala.

Xoruz ban verən yerdə,
Yaram qan verən yerdə.
Ana gəlsin eşitsin
Oğlu can verən yerdə.

Əzizim, kəndə getdi,
Xəncər gümüşdə getdi.
Arxam, ümüdüm vardı,
O da döyüşdə getdi.

Keçməyir sözüm, neylim?
Bu dərdə dözüm neylim?
Ah çəksəm, aləm yanar,
Çəkməsəm, özüm neylim?

Əzizinəm, vətənsiz,
Qəriv öldü kəfənsiz.
Sən ki, susuz can verdin,
İçəmmərəm su sənsiz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizim, necə dağlar,
Qarşıda necə dağlar.
Yetim yanağı bilir
Göz yaşı necə dağlar?

Bu dağlar, ulu dağlar,
Başında bulud ağlar,
Qəriain ayağ izi
Keçdiyi yolu dağlar.

Əzizim, qıyma mənə,
Yaram var, qıyma mənə.
Məni bir namərd vuruf,
Sən mərdsən qıyma mənə.

Eləmi, bağrı qara,
Dərd edər bağrı qara,
Güllərdən lala gözəl,
Onun da bağrı qara.

Eləmi, lala yalqız,
Gül qoşa, lala yalqız.
Qürvətdə can verməm,
Cinazım qalar yalqız.

Dağım, aranım yoxdu,
Qarım, boranım yoxdu.
Yüz il bir yerdə qalsam,
Bircə soranım yoxdu.

Eləmi, gülü yansın,
Köynəyin gülü yansın.
Səni mənnən edənin,
Ağzında dili yansın.



# UŞAQ FOLKLORU

## BEŞİK NƏMƏLƏRİ

### LAYLALAR

Atan hoyuna gəlsin,
Qadan qoyuna gəlsin.
Böyü boya-başa çat,
Xalan toyuna gəlsin.
Şirin-şirin yat, balam,
Boya-başa çat, balam.

Bağça-bağın var olsun,
Budağında bar olsun.
İncitməynən ananı,
Allah sana yar olsun.
Yat, mənim oğul balam,
Ay şirin, noğul balam.

Gölü sonalı böyü,
Teli xınalı böyü.
Xudadan diləyimdi,
Ata-analı böyü.
Lay-lay, çiçəyim, lay-lay,
Gözəl, göyçəyim, lay-lay.

Lay-lay dedim güləsən,
Tez oyanıf, gələsən.
Cən ananın qədrini,
Böyüyəndə biləsən.
Gülüm lay-lay, a lay-lay,
Balam lay-lay, a lay-lay.

Bağdan axan selə bax,
Əsif keçən yelə bax.
Can deməkdən quruyuf,
Ağzımdakı dilə bax.
Şirin-şirin yat balam,
Boya-başa çat balam.
Lay-lay dedim, can bala,
Dərdimə dərman bala.
Şirin yuxu tapginan
Sultan bala, xan bala.
Lay-lay, çiçəyim, lay-lay,
Gözəl-göyçəyim lay-lay.

Lay-lay, ay oğul balam,
Qənd balam, noğul balam.
Ürəyim üstündədi
Gəz, dolaş mağıl balam.
Gülüm, lay-lay, a lay-lay,
Balam, lay-lay, a lay-lay.

Lay-lay deyim çarçı mən,
Harayçı mən, carçı mən.
Toy günündə olaydım,
Küçələrdə carçı mən.
Gülüm, lay-lay, a lay-lay,
Şirin dilim, a lay-lay.

Arzum, diləyim mənim,
Gülüm, çiçəyim mənim,
Bu dünyada hamıdan
Sənsən göyçəyim mənim.
Lay-lay, gülüm, a lay-lay,
Şirin dilim, a lay-lay.

Lay-lay desəm olarmı?
Yaşıl geysəm solarmı?
Hey başına dolansam,
De, xətrin xoş olarmı?
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Unumuzu ələdim,
Üst-başımı bələdim.
Bu balama tanrıdan
Can sağlığı dilədim.
Gülüm, lay-lay, a lay-lay,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Balam, lay-lay, a lay-lay.
Baharım, yazım lay-lay,
Söhbətim, sazım, lay-lay
Sən yat çəkim keşiyin,
Körpəcə quzum, lay-lay.
Balam, lay-lay, a lay-lay,
Sonam, lay-lay, a lay-lay.

Lay-lay dedim, yat dedim,
Yuxuna bal qat dedim.
Atan getdi, gəlmədi,
Sən atana çat dedim.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Lay-lay dedim yatasan,
Qızıl gülə batasan,
Qızıl gül həşəm-həşəm,
Kölgəsində yatasan.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Lay-lay, əməyim lay-lay,
Duzum, çörəyim lay-lay.
Dönsə də dilim dönər,
Dönməz ürəyim lay-lay,
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Lay-lay dedim adına,
Atan çatsın dadına.
Böyü, yekə kişi ol,
Məni də sal yadına.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Ulduzmsan, ayımsan,
Atam,əmim, dayımsan,
Səni verənə şükür
Mənim əziz payımsan,
Balam lay-lay, a lay-lay,

Gülüm, lay-lay, a lay-lay.
Lay-lay, çiçəyim, lay-lay,
Gözəl-göyçəyim, lay-lay.
Bala dərdi çəkməkdən
Soldu birçəyim, lay-lay.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Balamı iyləmişəm,
Yaxşıca bələmişəm.
Tanrıdan balam üçün
Xoşbəxtlik diləmişəm.
Lay-lay, beşiyim, lay-lay,
Evim, eşiyim, lay-lay.

Aranımsan, dağımsan,
Gül-çiçəkli bağımsan.
Qəriv eldə, qürvətdə
Arxamsan, dayağımsan.
Gülüm, lay-lay, a lay-lay,
Şirin dilim, a lay-lay.

Lay-lay, hər kəsim, lay-lay,
Sənə nər kəsim, lay-lay.
Yat yuxun şirin olsun,
Ucalsın səsim,lay-lay.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Bağçalar bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə din-danış
Ürəyim dağa dönsün.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Təndirimin badına,
Çörək yapdım adına.
Bədnəzərdən uzağ ol,
Tanrı yetsin dadına.
Balam, lay-lay, a lay-lay,



Gülüm, lay-lay, a lay-lay.
Qoçaxdı, şirdi balam,
Qıvladı, pirdi balam.
Gəl fələk, qıyma mana,
Yazığam, birdi balam.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Yat yuxunu alginan
Mən durmuşam keşikdə.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Oxşasın dilim səni,
Çiçəyim, gülüm səni,
Meydanda at oynadan,
Bir igid bilim səni.
Gülüm, lay-lay, a lay-lay,
Balam, lay-lay, a lay-lay.

Dərya dolu lilinən,
Balam oynar gülinən.
Aləmə can bağışdar
Məni saxla dilinən.
Gülüm, lay-lay, a lay-lay,
Balam, lay-lay, a lay-lay.

Lay-lay dedim, yat dedim,
Qızılgülə bat dedim.
Böyü, yekə oğlan ol,
Boya-başa çat, dedim.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Bağçamızda miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə balam oyana.
Gülüm, lay-lay, a lay-lay,

Şirin dilim, a lay-lay.
Nehrəmizi çalxaram,
Balama pay saxlaram.
Gejə çıqqırı çıxsa,
Yerimnən dik qalxaram.
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Eləmi, mən dolanım,
Mən dönüm, mən dolanım,
Tanrı səni saxlasın,
Sayəndə mən dolanım.
Gülüm, lay-lay, a lay-lay,
Balam, lay-lay, a lay-lay.

Lay-lay dedim bilginən,
Gözlərini silginən.
Atan evə gələndə
Dur, üzünə gülginən,
Lay-lay, beşiyim, lay-lay,
Evim, eşiyim lay-lay.

Dağ başında qarımsan,
Namus, qeyrət, arımsan.
Heş bir şeydə gözüm yox.
Dövlətimsən, varımsan.
Balam lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Ay belə tək-tək doğar,
Gün belə tək-tək doğar.
Sənin kimi oğulu,
Analar tək-tək doğar.
Gülüm, lay-lay, a lay-lay,
Şirin dilim, a lay-lay.

Aran dolu milçək olu,
Dağlar dolu çiçək olu.
Yatıf, duran göyçək olu,
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu yerlər qalın meşə,
Yamanca düşdüm işə.
Arzum budur tanrıdan
Üzün gülsün həmişə.
Lay-lay, beşiyim, lay-lay,
Evim, eşiyim lay-lay.

Lay-lay çallam həmişə,
Karvan gedər yenişə,
Yastığında gül bitsin
Yorğanında bənövşə.
Lay-lay, beşiyim,lay-lay,
Evim-eşiyim, lay-lay.

Lay-lay çallam yatasan,
Gül yastığa batasan.
Gül yastığın içində,
Şirin yuxu tapasan.
Lay-lay, beşiyim, lay-lay,
Evim, eşiyim, lay-lay.

Qızılgülü əkərəm,
Dərif yerə tökərəm.
Sən hasıla çatınca
Gör mən nələr çəkərəm?
Balam, lay-lay, a lay-lay,
Gülüm, lay-lay, a lay-lay.

Qızıl üzüyün yanı,
Olum gözüm qurvanı.
Yuyuya get, yoruldum,
Ay ömrümün sultanı,
Lay-lay, gözüm, a lay-lay,
Körpə quzum, a laylay.

## NAZLAMALAR, ƏZİZLƏMƏLƏR

Allah, allah amandı,
Bunun qaşı kamandı,
Aşağı qoyma, hisdənər
Yuxarı qoyma, pasdanar.
Bunu verən bəxt versin,
Altına kəhər at versin
Özünə bir arvad versin.

Ay allah bunnan üç dənə ver.
Üçdənə vermə, beşdənə ver.
Həsrətin çəkmişdərə ver.
Təzə gəlin vermişdərə ver.
Alı, gülü solmuşdara ver.

Ay allah, bunnan beşdənə ver.
Göydə uçan quşdara ver.
Qarımış, qojalmışdara ver.
Evində qalmışdara ver.

Bir qavım var, nə zərdən,
Nə gümüşdən, nə zərdən,
Tanrı, bunu sən saxla,
Pis gözdən, bəd nəzərdən.

Ajı-qıjı yarpağı,
Astanalar torpağı
Kim balamı istəmir,
Gözünə bibar yarpağı.

Tarı-tarı, hax tarı,
Bajamızdan bax, barı,
Kim balamı istəmir,
Öylərini yıx, barı.

Çapan-çapan əlləri,
Ağrımasın qolları.
Ağrısa da ağrısın



Özgələrin qolları.
Bir quş vurdum uçanda,
Ov ovladım qaçanda.
Bir cüt qurvan demişəm,
Nəvəm ayağ açanda.

Gözdəri qaynar bulax,
Əyilif içməyim gəlir.
Burnu şəhər fındığı,
Qırıf yiyəsim gəlir.

Yanaxlar dağ lalası,
Əyilif öpməyim gəlir.
Dodaxlar süd qaymağı,
Soyuf yeməyim gəlir.

Anam-bajım nəstəsi,
Qızıl gülün dəstəsi
Kim balamı istəmir,
Olsun illər xəstəsi.

Gəlin çıxax damlara,
Yalvarax adamlara,
Su tökək çadır qurax,
Dədən gələn yollara.

Dəsmalı kirri balam,
Qəlbi fikirri balam.
Gözəllərin içində
Hamının şikilli balam.

Ağız-ağız bulama,
Üst-başını bulama.
Nənələr qurvan olsun,
Bu balaca balama.

Atım-tutum mən səni,
Şəkərə qatım mən səni,
Dədəm evə gələndə,
Qavağa tutum mən səni.

Qızıl gülü əkərəm,
Dərif yerə tökərəm.
Nəvəm nənə deyəndə,
Quzu qurvan kəsərəm.

Qız gözə oxdu,
Dərd-səri çoxdu.
Atın o yana,
Bir xeyri yoxdu.

Badam badamı,
Oğlan adamı
Qoy elçi gəlsin,
Alsın qadamı.

Ay qız adamı,
Sındır badamı.
Elçiyə çay ver,
Alım qadanı.

Eləmi, yarısına,
Yar dedi: yarı sına
Analar qurvan olsun,
Balamın sarısına.

Əziziyəm, şonqarı
Dülgər yonar yonqarı,
Balama qurvan olsun
Doqquz qoja, on qarı.

Oğul ürəkdi,
Qızıl dirəkdi
Götürün saxlıyın,
Bizə gərəkdi.

Qızım nazdı,
Bir tümən azdı,
Qızıl gətir,
Qızımı götür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızım-qızım, nazana,
Qızımın saçı uzana.
Qızıma pis baxannar,
Görüm düşsün qazana.

Quyu qazannar,
Yolun azannar,
Əhtin pozannar
Bu balama qurvan.

Ara qatannar,
Kolda yatannar,
Dostu satannar
Bu balama qurvan.

Döşdə çiyələk,
Xallı kəpənək,
Meşədə pələng
Bu balama qurvan.

Dağların qarı,
Namərdin yarı,
Dünyanın varı
Bu balama qurvan.

Dağın lalası,
Gölün sonası,
Qız qaynanası
Bu balama qurvan.

Bağçada güllər,
Lələli çöllər,
Sarı bülbüllər,
Bu balama qurvan.

Bir uca dağam,
Damağı çağam,
Nə qədər sağam
Bu balama qurvan.

Düzdə marallar,
Dağlarda mallar,
Tövlədə kallar,
Bu balama qurvan.

Dostunu satan,
Yarını atan,
Şər vaxtı yatan,
Bu balama qurvan.

Bağında üzüm,
İzin ver, üzüm.
hər iki gözüm,
Bu balama qurvan.

Tüstüsüz damlar,
Tənbəl adamlar,
Sarı badamlar
Bu balama qurvan.

Arzum, diləyim,
Arxam, köməyim,
Qəlbim, ürəyim
Bu balama qurvan.

Dağda meşəlik,
Gül bənövşəlik,
Mən həmişəlik
Bu balama qurvan.

Dağdakı atlar,
Quyruğun qatlar,
Göyçək arvadlar
Bu balama qurban.

Meşədə qurddar.
Həyətdə itddər.
Sosuz arvaddar.
Bu balama qurban.



Çaydakı qazdar,
Tükün tarazdar.
Nişannı qızdar
Bu balama qurvan.

O köhlən atdar,
Çəməndə otdar,
Qoja arvaddar
Bu balama qurvan.

Bağda xəzəllər,
Bağçada güllər,
Türfə gözəllər
Bu balama qurvan.

Göydəki quşdar,
Yağan yağışdar,
Kişnəşən atdar,
Bu balama qurban

Göydəki quşdar,
Harada qışdar?
Yağan yağışdar
Bu balama qurvan.

Balamdakı biləklər,
Görən nə vaxt iməklər?

Balama qurvan marallar,
Balam haçan dil açar?

Balama qurvan sərçələr,
Balam nə vaxt dirçələr?

Göydə ulduzdar,
Şaxtalı buzdar,
Qarımış qızdar
Bu balama qurvan.

Mənim balam yatıfdı,
Qızıl gülə batıfdı,
Təmiz beşik içində
Şirin yuxu tapıfdı.

Bir qavım var, nə zərdən,
Nə gümüşdən, nə zərdən,
Allah bunu sən saxla
Pis gözdən, bəd nəzərdən.

Tükəndi ahım,
Yoxdu günahım,
Balam böyüsün
Odu, pənahım.

Bağdan güllər dərmişəm,
Dərif yerə sərmişəm.
Balamın balasına
Canım qurvan vermişəm.

Qərənfiləm qalxaram,
Açılmağa qorxaram.
Gejə cıqqırın çıxsa,
Yerimnən dik qalxaram.

Xırdaçısan, məzəsən,
Sən hər güldən təzəsən,
O günə qurvan olum,
Asta-asta gəzəsən.

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim balam körpədi,
Saxlasın pərvərdigar.

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir.
Balamın gül beşikdə,
Yuxusu birdən gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# NAILLAR

## ÖZÜNÜ TÜLKÜDƏN QORU

Şir böyük bir meşədə ağalıq edərdi. Şəstnən gəzər-dolaşar, hər şeyi yerbəyer edərdi. Gələn şikayətçinin haxlı-haxsız olduğunu o saat öyrənif, günahkarın yerindəcə qulağını burardı. Orasını da deyək ki, Şirin belə böyüklük etməsi xallı pələngin, boz qurdun və yastıdavan ayının qarnını dəlirdi. Onlar bir-birini görəndə elə hey başdardılar şirdən qeybət eləməyə. Bir gün xallı pələng boz qurdu çağırıf dedi:

– Balam, biz nə qədər giley-güzar etməknən gün keçirəjəyik!

Bir əncam çəkmək lazımdı kı, bu yaramazı aradan çıxarıf öz işimizi görək.

Hiyləgər qurd dedi:

– Ay ağıllı pələng, sənin sözündən gül iyi gəlir. Elə mən sənin dilinnən bunu gözləmirəmmi? Doğrusu, sənin qavağına keçif belə bir fikir söylüyə bilmirdim. Amma indi gördüm ki, sən də elə mən düşünəni düşünürsənmiş. Biz əgər o quduz şiri aradan çıxara bilsək, bu meşənin sahivi özümüz olarıx. Gör, nə günə qalmışıx Allahın keçisinə, dovşanına da söz deyə bilmirik. Qarnımız aj, ortamız bulana-bulana gəzirik. Pələng onun sözünü kəsir:

– Aman ver ,ay gözü-könnü aj qurd!

Səni həmişə qarnın düşündürür. Amma bilmirsən ki, səni tısvağa yerinə qoyan da yoxdu. Yastıdavan ayıyı da çağır, görək o nə deyir.

Qurda da belə bir tapşırıx lazımıydı. Özünü kolun-kosun içinə verif gözdən itdi. Bir azdan boz yastıdaban ayıyı da gətirif gəldi. Yastıdaban ədəv-ərkannan "xoş gördük",— deyif pələngnən üz-üzə əyləşdi.

Xallı pələng bir az o yandan, bir az bu yannan söhbət edif mətləvə keşdi:

– Ay yastıdavan, heş demirsən bizim axırımız nə olajaq? Beləliklə bu quduz şir hamımızı yox eləyəjək. Əlimizi-qolumuzu bağlıyıf, dinməyə-danışmağa da qorxurux. Buna bir əncam çəkmək lazımdı. Sən nə fikirdəsən?

Ayı yırğalanıf hörüldəyə-hörüldəyə cavaf verdi:

– Bu dərd məni lap əldən salıf. Mənə elə gəlir ki, bu işin bir yolu var. O da birrikdə şirin üstünə hücum çəkif onu aradan çıxarmaxdı. Qurd bərkdən qəhqəhə çəkdi. Ay yastıdavan, biz üçümüz şirin pəncəsinə nə eliyə bilərik?

Ayı dedi:

– Elə deyil ey, ay yalquzaq. Sən bütün qurdları, mən ayıları, xallı pələng də pələngləri şirin üstünə qaldırmalıyıx!

Bu söz pələngin xoşuna gəldi.

– Sağ ol, yastıdavan – deyə bığlarını tərpətdi. Onda bu işi təşkil etmək lazımdı.

Qurd tələsik, "baş üstə" deyif atılıf düşdü.

Yastıdaban dedi:

– Hələ tez atılıf düşmə, ay yelbeyin yalquzax! Gərək bu iş elə qurulusun ku, şirin qulağına çatmasın. Əgər satqınnıx edif bizi satsalar, şir onda axırımıza çıxajax.

Pələng üzünü yalquzağa çevirdi.

– Görürsən, nejə ağıllı məsləhət verir? Eşidif, belə də etmək lazımdır.

Şir isə öz işindəydi idi. Meşəiyi dolaşır, bütün heyvannarın qayğısına qalırdı. Günnərin bir günü şir bir taladan keçərkən pələnglər, ayılar və canavarrar onun üstünə hücuma keşdilər. Mərddiknən vuruşa girdi. Günortadan axşama kimi vuruşdu, leş-leş üstə qalandı. Bir dəfə vurduğu daha yerdən qalxmırdı. Axşama yaxın ölən öldü, qalan heyvannar isə qaçıf dağıldı. Şir yarasınnan qan axa-axa öz yuvasına getməli oldu. Ancax taqəti qalmamışdı. Yaralarını sarıtdı və bir neçə günnən sonra sağalıf ayağa durdu.

İndi xallı pələng, yastıdavan ayı və yalquzax üzə çıxa bilmirdilər. Onnarın hiyləsi baş tutmamışdı. Fürsət tapıf bir gün görüşdülər. Biri dedi, daha bu meşədən başımızı götürək gedək, biri dedi: gəlin günahımızı bildirək. Hərəsi bir söz dedi. Bikef halda dağılıf hərə öz yuvasına getdi. Pələng yolda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tülküyə rast gəldi. Onlar haləhval tutduqdan sonra tülkü dedi:

– Ay xallı pələng, belə də – şey olar? Sən kimin sözünə inanıf şirin üstünə qoşun çəkifsən? Axı, şiri vuruşnan məğlub etmək mümkün deyil.

Pələng dedi:

– Bəs, mən biçarə neyniyim? Bunnan sonra da heş günümdiriliyim olmaz. Yastıdavanla, yalquzağın sözünü eşitdiyim günə daş yağaydı.

Tülkü dedi:

– Sən axmaxlara inanıf özünü uduzdurufsan. Gərək belə etməyəydin. Ancax iş onnan ötüf. Başa düş kü, şir kimi güjdü bir düşmanı tora salmax o qədər də asan iş döyül. Gərək bu yerdə hiyliyə əl atasan, kələknən iş görəsən. Onda şirə qalif gəlmək olar.

Bu söz pələngin beyninə batdı. O dedi:

– De görüm, bu işin öhdəsinnən gələ bilərsənmi?

– Əlbəttə gələrəm, – deyə tülkü yekələndi. Şirin yolunun üstündə gərək çala qazıf tor qurax və gəlif oradan keçəndə tora salıf tutax. Bunnan sonra qəfəsə salax. Onda görəjəksən ki, sənin işin düzəldi.

Pələngnən tülkü dərs-gors eliyif tədvir töküf ayrıldılar.

Tülkü öz işinə başdadı. Yastıdavan ayıynan yalquzax qurd quyu qazıf, tələ qurdular. Bunnan sonra xəlvətə çəkilif şirin buradan keşməsini gözdədilər. Bir gün-beş gün aradan keçdi. Axır kı, şir gəlif həmin yerdən ötəndə quyuya düşüf, təliyə ilişdi. Çavalıyanda tora sarılıf ayaxları bağlandı.

Pusquda duran hiyləgərrər tez çıxıf onu götürüf düzəltdikləri dar bir qəfəsə atdılar.

Şirin nə’rəsinnən dağlar-daşlar lərzəyə gəldi. Hökm eliyirdi ki, qəfəsi dağıtsın. Şirin xətrini istiyən haçabuynuz maral gəlib gördü kü, şir qəfəsdədir, nalə eliyir. Gözdərinnən yaş gillələnirdi.

Maral dedi:

– Ay məzlumların ağası şir, hirsdənif özünü əldən salma. Mən indi gedif sənin dostdarına deyərəm səni burdan xilas edəllər.

Şir dedi:

– Onda tez elə. Mən bu dərdə dözə bilmərəm.

Maral tez götürüldü. Özünü sağa-sola vurdu. Gün axşam oldu. Heş kəsi tapa bilmədi. Gejə yuvasına çəkilif, səhər bir də şirin dostdarını axtarmağa getdi. İlk dəfə qarşısına çıxan dünyalargörmüş qoja nər oldu.

Nər soruşdu:

– Haraya tələsirsən belə, ay haçabuynuz maral? Nə oluf belə?

Maral dedi:

– Ay pir olmuşun oğlu, xəvərin yoxdurmu xilaskarımız şiri dəmir qəfəsə salıflar, onu xilas eləmək lazımdı.

– Nə vaxtdan salıflar?

– Dünən günortadan:

– Onda şirdən əlini üzməlisən.

– Nə danışırsan, ay canım! Şir yüz yerinnən yara aldı ölmədi, indi



qəfəsə düşməknən öləjəkmi? Dəvə dərinnən köks ötürüf başını silkələdi.

– Əlbəttə, öləjək. Şir ona görə şirdir ki, vuruşda aldığı yaradan ölmür. Vuruşur, əlləşir qalib gəlir. Şir o zaman ölür kü, vuruşsuz uduzur. İndi onu tora salıflarsa, demək o vuruşa bilmiyif. Bu dərdnən o çətin ki, yaşasın.

Maral dəvəynən birlikdə şirin bir neçə dostdarını da tapıf qəfəsin yanına gəldilər. Çatanda gördülər ki, şirin meyidi ortada, baş tərəfdə isə taxt qoyuluf pələng də üstündə. Taxtın bir tərəfində yastıdavan ayı duruf, bir tərəfində isə yalquzax. Pələng üzünü heyvannara tutuf deyir:

– Ey mənim məzlum əhliəyalım, nə vaxtıydıkı, şirin zülmü altda inildəyirdiniz. İndi qəddar şiri məğlub etmişik, daha doğrusu o dünyaya yola salmışıx. Bu igidliyi isə özünüz bilirsiniz kim edə bilər. Deyin görüm bu taxtda kim əyləşməlidi?

Dəvə irəli yeriyif deyir:

– Ay xallı pələng, elə bu taxttac sənə yaraşır. Çünki yenə pələngsən. Ağıl verənin yastıdavannan, yalquzax olsa, vay bizim günümüzə.

Bu təklif pələngin ürəyinnən olduğuna dedi:

Mən sizin istəmədiyiniz qurdnan ayıyı bu meşədən sürgün eliyirəm!

Dəvə sonra belə dedi:

– Bir də özünü tülküdən qoru!

Pələng qəh-qəh çəkif güldü:

– Tülkü kimdi ki, mən onnan qorxum?

Dəvə nərildəyə-nərildəyə dedi:

– Mən şirnən çox görüşürdüm. Deyirdim: sənnən də qoçax olanı varmıö Deyirdi çətin! Deyirdim: sənin arxanı yerə vuran olramı? Deyirdi olar, yalnız arxamı tülkü yerə vura bilər!

Şir qəfəsdəydi, onu çıxartmax istədim, güjüm çatmadı. Dedi ki, sana deyirdim mənim arxamı tülkü yerə vura bilər. Məni vuruşda öldürə bilmədilər. Amma tülkü qəfəsə saldı. Bildi ki, mən qəfəsdə hirsimnən çatdıyıf ölməliyəm!

İndi ay xallı pələng sən də özünü tülküdən qoru!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## EŞŞƏK, İT, XORUZ VƏ PİŞİK

Biri varıymış, biri yoxuymuş, bir kişi varıymış. Bu kişinin də bir eşşəyi varıymış. Eşşək hər gün ağır yükün altında işliyirmiş. Bir neçə vaxtdan sonra eşşək qojalır. Əvvəlki kimi işdiyə bilmir. Sahibi eşşəyi hər gün döyürmüş. Eşşək bu sitəmə dözə bilmir, evdən qaçır. Onun fikiri bu olur ku, özünə dəstə düzəldə və kəndbəkənd gəzif oyunnar göstərə.

Bu xəyalla eşşək yola düşür. Az gedir, çox gedir gəlif bir itə rast gəlir. İtdən soruşur:

– Yolda niyə durursan?

İt deyir:

– Əzəldən çox güjdüydüm. Sahibimnən ova gedirdim. Ona çox xeyir verdim. İndi qojalmışam. Heç bir şeyə yaramıram. Sahibim məni evdən qovdu. Eşşək dedi ki, o da onun kimi oluf. Beləliknən, onnar yoldaş oluf yola düzəldilər. Az getdilər, çox getdilər iynə yarım yol getdilər, bir pişiyə rast gəldilər. Eşşək pişiyə yaxınnaşıf dedi:

– Sən burda niyə durursan?

Pişik dedi:

– Nə olajax, əvvəllər sahibimin evində bir dənə siçan qoymurdum. İndi qojalmışam hörmətdən düşmüşəm. Əvvəllər elədiyimi indi eliyə bilmirəm. Sahibim indi buna görə məni evdən qovdu. İndi neçə gündü kü, burada oturuf özümə bir yoldaş axtarıram.

Eşşək deyir:

– Gəl sən də bizə yoldaş ol. Biz də sənnən bir dərddəyik. Pişik də bunnara qoşuldu. Eşşək, it, pişik yoldaş oluf yollarına rəvan olullar.

Az getdillər, çox getdillər, yolda bir xoruza rast gəldilər. Xoruz qəmgin-qəmgin bir ağacın divində dayanmışdı. Eşşək ona yaxınnaşıf dedi:

– Ay xoruz, burda niyə durmusan?

Xoruz ağlaya-ağlaya deyir:

– Andıra qalsın qojalığı. Bir vaxt cavanıydım, sahibimə xeyrim dəyirdi, sübh tezdən onu yuxudan oyadırdım. İndi qojalmışam, xeyrim yoxdu deyə başımı tutuf kəsmək istədi, bir təhər əlinnən çıxıf qaçmışam.

Eşşək deyir:

– Gəl, bizə qoşul. Biz də sənnən bir gündəyik.

Xoruz da bunnara qoşuldu. Dörd yoldaş oluf yola düzəldilər. Bir xeyli yol gəlif bir ovuya çıxırlar. Qarannıx düşdüyünnən onnar ovanın girəcəyində duruf dinşlərini alırlar. İt deyir:

– Gəlin gedək meşədə axşamlıyax. Burada bizi tutuf aparallar, başımıza qəza gələr.

Dostdar bu fikiri bəyənir və üz tutullar meşiyə tərəf. Xeyli gedənnən sonra meşiyə çatıllar. Yorğunnuxdan bir ağacın divində yatıllar. Bir xeyli keçmiş meşədən səs gəlir. Xoruz duruf başdıyır:

"Quqqulu-qu..."

Yoldaşdarı görüllər ki, meşənin



bir tərəfinnən işıx gəlir. İşıx getdikcə yaxınnaşır. Görüllər nə, on yaşında bir qız, əlində də kəz bunnara tərəf gəlir. Qız bunnarı göründə qorxuf geri çəkilir. Eşşək dilə gəlif deyir:

– Ay qız, de görüm, harnanan gəlif, hara gedirsən?

Qız deyir:

– Neynirsən, qoy yolumnan rahat gedim. Sən ki, mana kömək eliyən deyilsən?

Eşşək deyir:

– Bəlkə, xeyrimiz dəydi, de görək sən kimsən?

– İndi ki, əl çəkmirsən, onda eşit. Anam öldü, dədəm gedif analıx gətirdi. Analıx gələnnən mana gün vermir. Döyür, söyür, əziyyət verir. İndi də özünü xəstəliyə vuruf Qızıl inəyimi kəsdirmək istiyir. Anam öləndə o inəyi mana tafşırmışdı. Savah dədəm o inəyi kəsəjək. Mən inəyimnən görüşüf baş aldım ordan uzaxlaşdım kı, gözdərim görməsin. Mən Qızılla görüşəndə o, işi başa düşdü, hər şeyi annadı.

Qız özünü saxlıya bilmir və gözünnən bıldır-bıldır yaş tökülür.

Eşşək qıza deyir:

– Sən heş qəm yemə. Biz sənin Qızıl inəyini ölümnən qutararıx.

Qız çox sevinir. Eşşək iti, xoruzu, pişiyi başına yığıf tədbir tökür, mə'rəkə açır, götür-qoy eliyir, axırda bir yol tapıllar. Belə fikirə gəlillər ki, gejənin yarısı gedif inəyi oğurruyuf yannarına gətirsinnər.

Qız qavaxda bələdçilik eliyir, eşşək, xoruz, pişik və it də onun ardınca gəlillər qız yaşıyan evə. Yavaşca qapını açıf içəridən inəyi çıxarıllar. Qız Qızıl inəknən öpüşüf-görüşür. Tez yola rəvan olullar. Savahın gözü açılanda onnar o məkannan xeyli uzaxlaşıllar. Qızıl inək öz südünnən onnarı yedizdirir, doydurur, bir xeyli də oturuf dincəlillər və rahat yerdə məskən salmax üçün yolu əllərinə alıllar.

Onlar ovalarına yaxın yerdə, bir uçux dəyirmanda özdərinə yer eləyillər. Həmin gejəni də burada gejəliyif savaha çıxıllar.

Yenə oturuf tədbir tökürlər, ölçüf-biçirlər, axır kı, bir şey fikirrəşif tapıllar. Eşşək tədbir tökür. Hamı onu alqışdıyıf afərin deyir:

Onnarın tədbiri belə olur ku, özdərinə pal-paltar tapıf camaat içində oyunnar göstərsinnər, camaat da onnara bəxşiş versin. Qız da bəxşişdəri yığışdırsın.

Belə də eləyillər. Bir gün it və pişik gedib evlərdən pal-paltar oğurluyuf gətirir. Bəzənif-bərtənif əvvəlcə eşşəyin obasına gəlirlər. Orda o qədər maraxlı oyunnar çıxarıllar ki, ta nə deyim... hamı onnara valeh olur. Qızın heyvəsi pulnan dolur. Tez-tələsik aradan çıxıf gəlillər öz evlərinə. Onun savahı gedillər itin yaşadığı ovuya. Orda da belə oyunlar keçirif gəlillər. O biri günü pişiyin, sonra da xoruzun olduğu yerrərdə maraxlı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oyunnar görsədirdilər. Sonra da başqa yerlərdə olullar. O qədər pul yığıllar ki, ta nə deyim.

Qız bir dənə yaxşı usta gətirir. Heç bir ölkənin padşahında da olmayan böyük bir saray tikdirməyə başdıyıllar. İmarət hazır olur. Usta nəmərini alıf gedir.

İndi sizə kimnən deyim, kimdən deməyim eşşəyin yiyəsinnən. Eşşəyin yiyəsi harda var, harda yox, eşidir ki, onun eşşəyi filan yerdədir., özü də yaxşı pul yığır. Kişi yolu əlinə alır, az gəlir, çox gəlir, gəlif bir yolçuya rast olur. Onnan soruşur:

– Ay qardaş, hardan gəlif, harya gedirsən?

Kişi yanıqlı-yanıqlı danışır ki, itini axtarır, indi iti çox dövlət sahibi oluf.

Hər ikisi yoldaş oluf gəlillər. Bir xeyli yol gedillər. Yolda üçüncü bir yolçuya rast olullar.

Salam-kəlamnan sonra üçüncü yolçu da yanıxlı-yanıxlı danışır kı, o, pişiyini gəzir. O da qoşulur bunnara. Gəlhagəl, gəlif üç yolun ayrıcında bir yolçuya rast gəlillər. O da öz xoruzunu axtarırmış. Dörd yolçu, dördü də bir dərddə... Bu dərd yolçunun dördü də yolu əlinə alıf xeyli gedillər. Az gedillər, çox gedillər, iynə yarım yol gedillər. Gəlif bir çəmənzarrığa çıxıllar. Bura elə bir yeriymiş ki, gül-gülü çağırırmış, bülbül-bülbülü. Uzaxda da gözəl bir imarət. Yolçular yorğun-arğın bir bülağın başında oturullar. Bunnarı burda mürgü tutur. Bu məqamda it gəlif burya çıxır. Bu adamların içində yiyəsini tanıyır. Ordan götürülür düz evə. Gördüyünü eşşəyə, pişiyə, xoruza və qıza danışır. Onnar gəlir həmin adam olan yerə. Gözdərinə inanmırlar. Hamı öz sahivini tanıyır. Heyvannar istəyir dinməzcə getsinnər.

Amma qız deyir:

– Belə etmək olmaz. Onlar öz ayaxlarınnan sizi axtarıllar. Onnarı oyadın görək nə deyillər?

Pişik yatannarın burnuna quyruğunu çəkir. Hamısı yuxudan oyanır. Yolçular heyvannara majal vermir. Onnarı qujaxluyuf öpür, ağlıyıllar. Onnardan ötrü darıxdıxlarını deyirlər. İstəyillər evlərinə aparalar amma heç biri getmir. Yolçular kor-peşman, geri evlərinə qayıdıllar.

Aradan bir müddət keçənnən sonra bir gün qız qəmli-qəmli küləfirəngidə otururmuş. Evləri, dədəsi yadına düşüfmüş. Heyvanlar bunu görüf onu dövrəyə alıllar. Ha istəyillər ki, qızın fikrini dağıdalar görüllər ki, olmur. İşi belə görən eşşək deyir:

– Xanım, niyə fikir səni aparıf, nə oluf?

Qız dərinnən bir ah çəkif deyir:

– Bəs mən fikir eləmiyəndə, kim eləsin? Anamın məzarı, dədəm yadıma düşüf.

Eşşək deyir:

– Burda nə var kı, fikir eliyirsən. Gəlin gedək, onnara baş çəkək.



Qız heyvannarnan birrikdə yola düşür. Axşamüstü gəlif ovalarına çıxırlar. Əvvəlcə qız gedib anasının qəbrini qujaxlıyıf, ağlıyır, sonra da ovuya girillər. Orya çatan kimi qonşusu ilə rastdaşır. Salam-kəlamdan sonra örgənir ki, analığı dədəsini evdən çıxarıf. Dədəsi də baş alıf gedif qızının dalınca.

Elə bil qızı ilan vurur. Bir xeyli durduğu yerdə quruyuf qalır. Sonra kor-peşman geri qayıdır.

Qız geri qayıtdıxdan sonra bir neçə il dədəsini gəzir. Ova-ova, oymax-oymax dolaşır., amma bir yerdə gördüm deyən olmur.

Bir gün qız qırx incə belli qızla güllü bağda seyrə çıxır. Bir də görürü kü, nökərrər bir qoja kişini döyə-döyə gətirillər. O, irəli gələndə qojanın gözdərinnən dədəsi olduğunu tanıyır. Ağlı gedir yerə yıxılır. Hamı qorxuya düşür kü, görən bu niyə qojuyu görəndə özünnən getdi?

Tez su töküf qızı ayıldıllar. Qız huşa gələnnən sonra özünü dədəsinin qucağına atır..

– Dədə! Dədə deyə dədəsini duz kimi yalıyır.

Dədəsi də qızını tanıyır. Sevindiyinnən qızın ayaxlarına düşür.

Qız dədəsini içəri aparır. Böyük kef məclisi düzəlir. Kişiyi hamamda çimdirif, bəzəndirif gətirif başda oturdullar. Yemək-içmək başdıyır. Onnar beləcə şad-xoşbəxt yaşayıllar.

Qız Səmərqənd padşahının oğluna ərə gedir. Ölənə kimi də, eşşəyi, iti, xoruzu, pişiyi ilə dostdux eliyir. Dədəsini də öz yanında saxlayır. Onların kefinə kef çatmır. Yeyif-içif yerə keçillər. Siz də yeyin-için muradınıza çatın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SALXIM SUVAR BƏY

Biri varıydı, biri yoxuydu, bir keçəl oğlan varıydı. Bu oğlanın heş kəsi yoxuydu. Bir keçəl bir tikə çörək tapmaq üçün çöllərə düşmüşdü.

Bir gün keçəl gəzə-gəzə gəlif bir ağaş tapdı. Gördü kü, ağacın başında bir qora var. O, tez ağacın başına çıxıf qoradan yeməyə başdadı. Bu vaxt bir ağ tülkü gəlif altdan yuxarı, ağzının suyu tökülə-tökülə keçələ baxmağa başdadı. Keçəlin ona yazığı gəldi. Qoradan tülküyə də tulladı. Tülkü qoradan yeyif qarnını doydurannan sonra keçələ dedi:

– Ey adam, ağaşdan düş biz ömürrük qardaş olax. Bu günnən sənin adını Salxım Suvar bəy qoyuram.

Keçəl tülkünün bu təklifinə razı oldu.

Tülkü dedi:

– Qardaş, indi səni evləndirəjəm.

Keçəl gülüf dedi:

– Ay tülkü qardaş, mən öz qarnımı doydura bilmirəm. Arvadı nejə saxlıyaram?

Tülkü dedi:

– Sənin işin yoxdu, mən nə desəm, ona əməl et.

O yerrərin bir varlı ağası var. Tülkü gedif həmin ağanın nökərini çağırdı kı, bəs Salxım Suvar bəy öz qızıllarını ölçmək üçün sizin çanağı istiyir.

Nökər tülkünün sözdərini gedif ağasına çatdırdı. Ağa çox təəccübləndi ki, görəsən, bu kimdi ki, bu qədər qızılı var. Sonra nökərinə çanağı verməyi tafşırdı. Tülkü çanağı gətirif bir-iki gün saxlıyannan sonra içinə nə vaxtsa tapdığı bir dənə qızıl qoyuf geri qaytardı.

Ağanın nökəri çanağın içindəki qızılı görüf dedi:

– Sizin yadınızdan çıxıf qızılın biri burada qalıf.

Tülkü dedi:

– Yox, onu Salxım Suvar bəy özü qoydu.

Nökər gəlif bunnarı da ağasına danışdı.

Bir neçə vaxt keçənnən sonra tülkü ağanın gözünün ağı-qarası olan bir qızına elçi gəldi. Qızı Salxım Suvar bəy istədiyini söylədi.

Ağa Salxım Suvar bəyin, doğurdan da, varrı bir bəy olduğunu güman edib fikirrəşdi ki, qızımı verim, var-dövlətimə Salxım Suvar bəy sahib olsun. Artıx mən qojalmışam. Belə fikirnən qırx gün, qırx gejə toy çaldırdı. Qızını Salxım Suvar bəyə verdi. Beləliknən, tülkü öz və'dini yerinə yetirdi. Salxım Suvar bəy, doğurdan da, bəy oldu.

## HİLİ VƏ MİLİ

Biri varıymış, biri yoxuymuş, bir arvadnan bir kişi varıymış. Bunnarın gözünün ağı-qarası bir qızı varıymış. Qızdarını bir uzax yerə ərə



verifləmiş.

Bir gün arvad ərinə deyir:

– Ay kişi, bir-iki şey hazırrayım, qızın yanına gedək.

Tezdən durur, qızınnan ötrü qatdama, əydək, kətə bişirir, kişmiş, ayaxqavı, coraf alıf yola düşüllər. Az gedillər, çox gedillər, dərə, təpə düz gedillər, şər qarışanda bir kəndə çatıllar. Görüllər ki, bir it hürür.

Kişi deyir:

– Ay Hili?

Arvad deyir:

– Can Mili, nə var?

Mili deyir:

– Ay arvad, gətir coravları itə geyindirək.

Arvad razı olur. Onlar coravları itə geyindirif yenidən yol getməyin binasını qoyullar.

Bir xeyli getdikdən sonra kişi qurumuş torpağı arvadına göstərif deyir:

– Ay Hili?

Hili deyir:

– Can Mili?

Mili deyir:

– Görürsən torpax aralanıf. Gətir kətənin içini tök torpax bitişsin.

Kətənin içini də torpağın aralarına töküf yol gedillər.

Görüllər ki, bir yüklü eşşək anqırır.

Kişi deyir:

– Ay Hili?

Hili deyir:

– Can Mili?

– Gəl ayaxqavıları da eşşəyin ayaxlarına geydirək.

Bunnar yenidən yol başdıyıllar. Az gedillər, düz gedillər gedif bir dağa rast gəlillər. Görüllər bir at otduyur.

Kişi deyir:

– Ay arvad, bu at kişmiş istiyir. Kişmişi də çıxart ata ver.

Arvad kişmişi də çıxardıf ata verir. Əlləri ətəklərinnən uzun qızdarı ərə gedən kəndə çatıllar. Başdarına gələnnəri qızlarını nağıl eliyif, yeyif-içif yatıllar.

Gejənin yarısı arvad oyanıf görür kü, qazlar qaqqıldaşır.

Arvad deyir:

– Ay Mili?

Kişi deyir:

– Can Hili, nə var?

Hili deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay kişi, o qazdarı bit, birə basıf. Gedif onnarı çimizdirim, Qoy dincəlsinnər.

Arvad qalxıf təndiri qalıyır, su qaynadır. Qazları diri-diri yolub qazana basır, sonra da bir küncə yığır. Özü də gedif yatır.

Tezdən qıza deyir:

– Ay ana, bu qazdar səsi nə yaman kəsif. Qərif adam görəndə səsdəri evi başına götürürdü.

Arvad deyir:

– Ay qızım, qazdarı bit, birə basmışdı. Çimizdirdim dincəldilər.

Qızı gedif görür kü, qazdarın hamısı ölüf. Qızı başı alovlu gəlif dədəsinnən anasını evdən qovluyur.

Arvad kişi gəlif evlərinə çıxıllar. Çox keşmir arvad ömrünü ərinə bağışdıyıf dünyadan köçür. Kişi qırx gün, qırx gejə yas saxlıyıb göz yaşı tökür. Qırx günnən sonra gəlif atı, eşşəyi, iti başına yığıf, hansı torpağa kı, kətiyi tökmüşdü, o torpaxda əkin əkif bejərir. Bunnarnan birrikdə şad-xürrəm ömür sürür.

Onlar yeyif, içif, yerə keçir. Siz də yeyin, için muradınıza çatın.



## BAŞMAXÇI

Biri varıymış, biri yoxuymuş, bir kişiynən bir arvad varıymış. Onnar çox kasıf dolanırmışdar. Ər-arvad ayaxqavı tikif satıllarmış. Çox qoja olduqlarınnan bir gündə bir cütü zorla tikillərmiş. Ər-arvad bir gün balaca bir uşaq ayaxqabısı tikir və onu satışa qoyullar. Bu zaman balaca bir qız uşağı ayaxyalın buradan keçir. Kişinin qıza yazığı gəlir. Tikdiyi ayaxqavını qıza geydirir. Qız sevinərək evlərinə gedir. Qoja kişinin bu yaxşılığına balaca cücələr də sevinillər.

Qoja kişiynən arvad bir gün yenə ayaxqabı tikillər. Onnar çox yorulduxlarınnan işi yarımçıx qoyuf gedillər yatmağa. Bu zaman cücələr daxmanın bir tərəfinnən çıxıf ayaxqavıyı tikif stolun üstünə qoyullar.

Səhər qojalar yuxudan oyanıllar. Ayaxqavıları tikilmiş görüllər. Kişi sevinərək arvadına deyir:

– Bunnarı kim tikif, görəsən?

Bu ayaxqavı satılır. Axşama kimi onnar üç cüt ayaxqabı biçif yatıllar. Gejənin yarısı cücələr yenə çıxıf ayaxqavıları tikif stolun üstünə qoyullar, özdəri də çəkilif gedillər. Tezdən kişiynən arvad ayaqqabıları hazır görürlər. Ər-arvad mat qalır. Sevincək götürüf papışdarı satıllar.

Bu iş bir, neçə gün belə davam eliyir. Bir gün arvad deyir:

– Ay kişi, hələ gəl güdək. Görək, bu ayaxqavıları tikən kimdi?

Onnar ayaxqavıları biçif, stolun üstünə qoyuf qapının dalında gizdənillər. Gejənin yarısı olur. Bir də görüllər ki, bir neçə çılpax cücə qapının dalınnan çıxdı. Hərəsi bir iş görüf, bütün ayaxqavıları tikif getdilər.

Arvadnan-kişi bunnarı görüf lap məəttəl qalır və sevinillər. Savahı günü yenə ayaxqavıları yaxşı satılır. Arvadı ərinə deyir:

– Ay kişi, bunnar bizə bu qədər yaxşılıx elədi. Gəl, biz də bunnara paltar da, papış da tikək. Qoy geyif sevinsinnər.

Onnar elə də eləyillər. Gejə paltarnan papışdarı tikif stolun üstünə qoyurlar. Qapının dalında güdüllər. Gejə yarısı cücələr cikkildəşə-cikkildəşə gəlillər. Paltarnan papışdarı görüf sevinə-sevinə geyinillər. Arvadnan kişi də çox sevinir. Onnar gizdəndiyi yerdən çıxanda cücələr hərəsi bir qar dənəsinin üstündə oturuf:

– Bizim işimiz daha burada qurtardı, – deyərək gedillər.

Qojalar onnarı səsdiyir:

– Biz sizi yenə gözdüyürük.

Amma onnar bir daha gəlmillər.

## ÖRDƏK

Biri varıymış, biri yoxuymuş, bir ana ördək varıymış. Bu ördəyin var-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yox altı yumurtası varıymış. Ördək yumurtaların üstündə yatıf səvirsizdiknən balalarının çıxmasını gözdüyürmüş. Axır kı, ana ördəyin altı balası çıxır. Onnardan beşi çox göyçək olur, amma biri çirkin. O biri ördəklər bu çirkin ördəyi həmişə gülüf ələ salır, özdəri ilə oynamağa qoymullar. Onnar uzaq gəzir. Çirkin ördək baş alıf bu diyardan gedir. Hara gedirsə, onu heç bir quş yaxın qoymur., onunla oynamır.

Çirkin ördək bir il belə hərrənir, dolanır... Qar əriyir, yaz gəlir. O, suda üzən durnaları görüf deyir:

– Kaş mən də onnar kimi olaydım. Bu sözdəri deyif onlara yaxınnaşır. Durnalar deyir:

– Qoy gəlim mən də siznən oynuyum.

Durnalar onu da öz yannarına alıf oynayıllar. Çirkin ördək deyir:

– Məni heş yanına, oynamağa qoymur, deyillər ki, sən çirkinsən. Durnalar deyir:

– Sən ördək deyilsən, sən də bizim kimi durnasan.

Bu sözlərə ördək inanmır. Durnalar deyillər ki, suya bax, onda özünü görərsən.

Ördək suya yaxınnaşıf öz şəklini suda görür. O, çox sevinir ki, o, çirkin ördək yox, gözəl bir durnadı. O, artıx çirkin deyildi. Ördək qanaddarını qaldırıf sevinə-sevinə:

– Mən də gözəl oldum!!! - deyərək suya atılır.



# YANILTMACLAR

Aşbaz Abbas aş asmış, özü də az asmış.
Aşbaz Abbas aş asar; o başda, bu başda.

Dəyirmana keçdi köpək,
Köpəklikdə yedi köpək.
Dəyirmançı vurdu kötək,
Bir də köpək yedi kötək.

Toxmaxçı, bu torpağı toxmaxlama, toxmaxlasan da toxmaxlanmış torpaxdı, toxmaxlamasan da toxmaxlanmış torpaxdı.

Bağışdasan da bağışdamıyajağam, bağışdamasan da bağışdamıyajağam.

Mən idim, Hətəm idi,
Hətəm mənim atam idi.
Atamnan da qardaş idi.

Yağış yağar, yer yaş olar,
Çatı qırılar, dörd baş olar,
Bunu bilmiyən kütbaş olar.

Getdim gördüm bir dərədə yeddi səkil, təpəl boz çəpiş var. Dedim:

– Ey yeddi səkil, təpəl, boz çəpiş niyə mənim yeddi səkil, təpəl boz çəpişimin o otdağından otduyursunuz?

Yeddi səkil, təpəl boz çəpişdər dedilər:

– Sənin yeddi səkil təpəl, boz çəpişdərin biz yeddi səkil, təpəl boz çəpişdərin otdağından otdamasaydı, biz yeddi səkil, təpəl boz çəpişdər də sənin yeddi səkil, təpəl boz çəpişdərinin otdağınnan otdamazdıx.

Axşam aş asmışam, bilməyif az asmışam.

Nənəm qatığı sarımsaxlasa da yeyəjəm, sarımsaxlamasan da.

Dadaş dayı dəyirmanın dalında daşı daşa döyürdü.

Getdim gördüm bir taxçada bal, bir taxçada qıl, bir taxçada zil. Balı uddum, qılı diddim, zili atdım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O tayda bir kişi gedirdi əlində qavlama. Dedim, a qavlamalıx əmi, gəl qavlamalaşax. Dedi:

– Sən mənnən qavlamalaşsan da qavlamalaşajam, qavlamalaşmasan da qavlamalaşajam.

Ey çərşənbə axşamı, gəl çərşənbələşək. Sən çərşənbələşsən də çərşənbələşəcəyəm, çərşənbələşməsən də.

Qara qar yağacaq,
Qara gün doğacaq.

Ölən öləcək,
Ölmüyən göyə çıxacax.

Üç abbası, üç şaha,
Yarım manat beş şaha.

Mil-milit, qapıya kilit,
Ya bunu tap, ya burdan it.

Oraq əyri, duz ajı,
İki çatı düz uju.

Zər-zərə yapışdı,
Zər divara yapışdı,
Zər oğlu zər gəlməmiş,
Zər divardan açılmadı.

Uzun sapax, dəyirmi papax.

Bu bağça başqa bağça,
O bağça başqa bağça.

Ojağa bozbaş asmışam,
Bilməmişəm boş asmışam.

Toxmaxçı qardaş gəl toxmaqlaşax. Toxmaxlaşsan da toxmaxlaşajam, toxmaxlaşmasan da toxmaxlaşajam.



Bir boğça o boğçaya
Başqa boğça bu boğçaya.

Bozbaşı asırsan as, asmırsan asma.

Oğlumun oğlu sana qurvan
Ərimin qardaşı sana qurvan.

Ağ balqabaq, boz balqabaq, bozbalqabaq, azbalqabaq,

Boz atın boz torbası boşas, başınnan.
İsdat gətir, yaş as başınnan,

Ay axsax aşbaz Hasan şah: Aşbazlar aş bişirər,
Sən də gəl aş bişir, ay axsax Hasan şah.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# CIRNATMALAR

## KEÇƏL-KEÇƏL...

Keçəl-keçəl daz keçəl,
Hər yanı pərvaz keçəl
Keçəl xondu başı,
Qoduğa mindi başı.
O yanda dava düşdü,
Bu yanda sındı başı.
Keçələ-Keçəl demə
Saçını yolar ağlar.
Od vurar saqqalına
Bığını burar ağlar.
Keçəl yaman yatıfdı
Burnu yağa batıfdı.

Qaldırsanız dalaşar,
Sizə lateyir qoşar.
Keçələ dərman verin
Mütəkkə, yorğan verin.
Yuxusu ağır olsun,
Yuxu yatmaq axır olsun.
Dursa bizi dəng edər,
Dava salıf cəng elər.

Keçəl-keçəl noxudu keçəl,
Arpa əkər, buğda biçər,
Pişiyi minif kəndə qaçar,
Oxley atar, gözünə batar.



# SİCİLLƏMƏLƏR

## OXUM SAMAN ÇÖPÜNNƏN

Boz pişik atım oldu,
Külək qanadım oldu.
Atımı yəhərrədim,
Küləyi dəhmərrədim,
Çıxdım ov ovlamağa.
Boz qurd çıxdı qavağa.
Başdadım qovlamağa,
Bu qurd hara qurdudu?
Dərdə çarə qurdudu.
Atım süzdü, qurd qaşdı,
Düz keçif, gədik aşdı.
Oxum süzdü dalba-dal,
Dərədən çıxdı maral,
Əl atdım buynuzuna,
Buynuz əlimdə gəldi.
Buynuz xəncərə döndü,
Qurdu bir də qovladım,
Oxum yağdı yağış tək.
Qurd düşdü üzü üstə,
Süründü dizi üstə.
Sıçrıyıf düşdüm atdan,
Qurd çıxdı ovsanatdan.
Soydum qurdun ağzını,
Onu asdım bajadan.
Xəvər gəldi xojadan,
Azar-bezar qurtardı,
Dərdi bu qurd apardı.
Xoja baxdı boynuma,
Göz gəzdirdi yayıma.
Çəkib aldı yayımı,
Yayım çəpiş tükünnən,
Oxum saman çöpünnən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DƏNDƏLƏN GÖZ

Bajadan baxan dəndələn göz
Biri kəhər, biri boz.
Mindim bozun boynuna,
Düşdüm divan yoluna,
Divan yolu dərbədər,
İçində meymun gəzər.
Meymuncuğu ürkütdüm,
Qulaxcığın qırpıtdım.
Göydə gəzən xocalar,
Vurdu qolumu qırdı,
Qolum qazanda qaynar,
Oğlax yanında oynar.
Oğlağı yerə vurdum,
Yer mana yemlik verdi.
Yemliyi tata verdim,
Tat mana darı verdi.
Darıyı quşa verdim,
Quş mana qanad verdi.
Qanaddandım uşmağa,
Hax qapısın aşmağa.
Qapıçı çatı toxur,
İçində bülbül oxur.
Mənnən kiçik qardaşım,
Haqqın kəlamın oxur.

## ÜŞÜDÜM HA ÜŞÜDÜM

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım.
Almalarım aldılar,
Məni yola saldılar.
Mən bu yoldan azaram,
Dərin quyu qazaram.
Quyu divi beş keçi,
Hanı bunun erkəçi?
Ağ qayanın qaşında,



Erkəc qaya başında.
Harayladım gəlmədi,
Çiyid verdim yemədi.
Çiyid qazanda qaynar,
Qənbər bucaxda ağlar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil qamışdı,
Beş barmağı gümüşdü.
Gümüşü verdim tata,
Tat mana darı verdi.
Darıyı verdim quşa,
Quş mana qanad verdi.
Qanatdandım uşmağa,
Hax qapısın aşmağa.
Qapıçı çatı toxur,
Mənnən kiçik qardaşım,
Allah kəlamın oxur.

## BİRİ KƏHƏR, BİRİ BOZ...

Bibili qoz, ay bibili qoz,
Bibim verdi iki qoz
O qozdarı sındırdım
Qavıxların yandırdım,
Qoz içində iki göz,
Biri kəhər, biri boz.
Mindim bozun boynuna,
Sürdüm Gəncə yoluna.
Gəncə yolun sel bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülləri üzəydim,
Saşdarıma düzeydim.
Qardaşımın toyunda,
Qol götürüf süzeydim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ƏKİL-BƏKİL QUŞUYDU...

Əkil-bəkil quşuydu,
Meydana qonmuşuydu.
Meydanın ağaşdarı
Dən götürüf quşdarı
Çəpər aşdım, yol aşdım,
Qızıl gülə dolaşdım
Bir dəstə gül dərməmiş,
Yiyəsi gəldi mən qaşdım.

## QIZIMIN ADI FATMA...

Əl-əl əpənəg,
Əldən çıxdı kəpənək.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı,
A xala, hara gedirsən?
Qaradağa gedirəm.
Qaradağda nəyin var?
Bir oğlum var, bir qızım.
Qızımın adı Fatma,
A Fatma, Fatma, Fatma,
Yatanda şıllax atma.
Yeddi xoruz bir fərə,
Fatmanı verdim ərə.

## A PİŞİK, KİMİN PİŞİYİSƏN?

— A pişik kimin pişiyisən?
— Molla Əhmədin pişiyiyəm.
— Molla Əhmədin nəyi var?
— Çaqqur-çuqqur çayı var.
Göyə çıxan atı var.
İnci düzən qızı var.
Qələm tutan oğlu var.



Evində bir lotu var,
Əlli batman biti var.

## BU NAIL YALANIYMIŞ...

Tat oğlu qara Salman,
Mahala saldı talan
Yəhərrədi atını,
Tumarradı itini.
Ova çıxdı ovlağa
Əl gəzdirdi yarağa.
Çıxdı yola yel kimi,
Dərələrdən sel kimi.
Neçə porsux ovladı
Tülkü, dovşan qovladı.
Yarağını çəkən tək,
Baş alıf qaşdı pələng.
Xəvər çatdı çaqqala
Çaqqal tapdı ayını,
Qoç tofladı qoyunu.
Qurd bərəltdi gözünü
Qoç itirdi özünü.
Porsux girdi yuvuya
Qarğa qaldı havıya.
Dedilər: qara Salman,
Dərədə quruf divan.
Aslan düşdü gümana,
Xəvər çatdı aslana.
Çiyninə alıf yarax,
Hər yana etdi sorax.
Birdən göründü qarğa
Səsi düşdü uzağa.
Gəlif çatıfdı Salman.
Düzdə yatıfdı Salman.
Atın gördüm eşşəkdən,
İtin gördüm pişikdən,
Yarağı kamanıymış,
Bu nağıl yalanıymış.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## YAŞ HAQQINDA

Ona girdi, dona girdi,
İyirmi oldu, dəyirmi oldu.
Otuz oldu, toppuz oldu,
Qırx oldu, qırıx oldu.
Əlli oldu, bəlli oldu.
Altmış oldu, bitmiş oldu.
Yetmiş oldu, bişmiş oldu.
Səksən oldu, sərsəm oldu.
Doxsan oldu, yoxsan oldu.
Yüz oldu, düppədüz oldu.

## NAVAT XALA

Navat xala ikidi,
Donu bir at yüküdü.
Dur, Navat bizə gedək,
Sənnən Tiflisə gedək
Tiflis duman olufdu,
Dəmir darağ olufdu.
Dəmirçinin qızdarı,
Yolundakı tozdarı,
Bizi görər ağlaşar,
Ətəyinə qığlaşar.
Ətəyi dəlik-dəlik,
Qurvağa bölük-bölük
Qurvağa ovladılar,
Hasan bəyə saxladılar.
Hasan bəyin nəyi var,
Çaqqır-çuqqur çayı var.
Ərzə yazan oğlu var,
İnci düzən qızı var.
Evində bir fatı var,
Yeddi yerdə qatı var.



# O Y U N L A R

## A PİŞİK, KİMİN PİŞİYİSƏN?

Bu oyunda 3-4 uşaq iştirak edir. İştirakçıların qız, yaxud oğlan olmasının fərqi yoxdur. Onlar bir stolun ətrafında üz-üzə otururlar. Oyunçuların biri əlinin birini stoun üstünə qoyur. (Əlini yerə qoyan əvvəlcə püşk ilə müəyyənləşdirilir). Sonra oyunçulardan biri həmin uşağın əlini "sığallayaraq" deyir:

– A pişik, kimin pişiyisən?

Əli sığallanan deyir:

– Molla Məmmədin pişiyiyəm.

Digər oyunçu deyir:

– Molla Məmmədin nəyi var?

(O cavab verir)

– Çaqqur-çuqqur çayı var?

Suallar sıra ilə verilir. O həm sual verir, həm də yerdə olanın əlinə "sığal çəkir", daha doğrusu dırnaqları ilə cırnaqlayır.

– Söylə, daha nəyi var?
– Beş oxu, beş yayı var.
– Otağında nəyi var?
– Toxunmamış gəvəsi!
– Pəyəsində nəyi var?
– Doğulmamış dəvəsi!
– Dostu kim, qənimi kim?
– Həyətində iti var!
– Söylə daha nəyi var?
– Evində bir lotu var.
– Bu lotunun nəyi var?
– Yeddi batman əti var!

Axırıncı "Yeddi batman əti var" sözünü deyərkən həm əli "sığallanan" həm də əl "sığallayan" hazır vəziyyətdə olurlar. Çünki əl "sığallayan" axırıncı misranı deyərkən "sığallanan" əli şapalaq ilə möhkəm vurur. Əli "sığallanan" isə hazırlaşır ki, zərbədən elə yayına bilsin ki, şapalaq onun əlinə deyil, ötüb stolun üstünə dəysin. Bu məqamda oyunun taleyi həll olunur. Vuran adam həmin əli şillə ilə vura bilsə, udur və vurulan əl yenidən stolun üstündə "sığallanmalı" olur. Əks təqdirdə, "sığallanan" əl özünü vurdurmasa, qalib hesab olunur və "sığallayanlar" sırasına keçir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Beləliklə, oyun davam edir. Qeyd etmək lazımdır ki, əlini yerə qoyan adamın əli "sığallanarkən" dırnaq ilə cırılır.

## XAN-GİZİR

Bu oyunda 8-10 nəfərə qədər oyunçu iştirak edir. Bu oyunda oyunçunun "taleyini" aşıx sormax həll eliyir. Oyunçular bir yerə toplaşandan sonra bir ədəd qoyun aşığı götürürlər. Əvvəlcədən müəyyənləşdirirlər: aşığın "toxan" üzü "xan", "alçı" üzü "vəzir", "bök" üzü "na’məlum şəxs", "cik" üzü isə "oğru" hesab edilir.

Oyunçular sıra ilə aşığı sorurlar. Birinci nəfər aşığı sorarkən "xan" düşərsə, həmin adam "xan" olur. İkinci dəfə soruyan "oğru" düşsə, oğru qalır. Üçüncü nəfər aşığı atarkən əgər "alçı" düşsə, həmin adam "vəzir" olur. Dördüncü nəfər atarkən yenə "alçı" düşsə, üçüncü adamın "vəzir"liyini alır. Üçüncü adam yenidən aşığı atmalı olur. Həmin adam ola bilsin ki, növbəti dəfə aşığı atanda aşıq "xan" düşsə, qabaqca "xan" kim olmuşdusa, o adam "xan"lıxdan düşür və aşıq soruyur. Belələklə, xan, vəzir, oğru və na’məlum adam müəyyənləşdirilir.

Bundan sonra na’məlum adamnan oğru oyunun gedişində əsas simaya çevrilir.

Vəzir xana üzünü tutub deyir:

– Xan, bir oğru tutdum.

Xan deyir:

– Nə gördün, nə eşitdin?

Vəzir deyir:

– Dam yardım, dana çıxartdım, buz yardım buzov çıxartdım. Sənin üçün layiqli bir gəlin gətirirdim. (Burda istəsən başqa hədiyyələr də deyə bilərsən). Na’məlum adamlar oğrunu göstərir:

– Bu vurdu, ona saldı, o vurdu, buna saldı. Axırda (oğrunu göstərərək) bu əlimnən aldı.

Xan deyir:

– Vəzir fikrin nədi?

Vəzir deyir:

– Xan sağ olsun, cəzasını kəsməlisən.

Xan cəza verilməsini əmr edir.

Cəza tədbirləri çoxdur. Oğrunun başanda turp əkmək, qaz otarmaq, yaxud da qulağından tutub suvarmağa aparmaq və ilaxir. Lakin oğru çox zaman dəyirmana göndərilməklə cəzalandırılır.



Oyunçulardan iki nəfər dəyirmançı olur. Biri digərindən 30-40 metr aralı dayanır.

Xanın əmrinnən vəzir oğrunu minir, dəyirmana gedir. Birinci dəyirmançının yanına çatanda dəyirmançı deyir: qardaş, novatım yoxdur, get aşağıdakı dəyirmana. Dəyirmançı deyir: dəyirmanın çax-çaxı xarabdır, get yuxarıdakı dəyirmana. Oğru yenə qayıdır yuxarıdakı dəyirmana. Dəyirmançı başlayır oğrunun üzünü şilllələməyə ki, hələ əliyirəm, sonra kürəyini yumruqlayır ki, kündəliyirəm. Bir ağac götürüb belində ovxalayır ki, yuxa yayıram. Beləliklə, ona xeyli cəza verir. (Bu baxır dəyirmançının insafına).

Oyun yenidən başlanır. Yenə aşıq atılır: xan, vəzir, oğru və na’məlum adam müəyyənləşdirilir. Hər şey əvvəlki qaydada davam etdirilir.

## AAM MƏNƏ KOR DEYİB

Oyunda 4-5-6 oğlan uşağı iştirak edir. Oyunçular bir nəfəri püşk vasitəsilə "kor" seçirlər. Onun gözlərini qalın dəsmal ilə bağlayır və əlinə bir çubux verirlər. Oyun bundan sonra başlayır. Uşaqlar oyun üçün müəyyənləşdirilmiş ərazidə düzən bir yer tapırlar. "Kor" ağacı, yaxud çubuğu əlinə alıb sağa-sola hərləyərək deyir:

Ağam mənə kor deyib,
Gəlib-gedənə vur deyib.

"Kor"un ağacı kimə dəysə, həmin adam uduzmuş hesab olunur və "kor"u o əvəz edir. Oyunçulara "kor"dan uzaqda dolanmağa icazə verilmir. Onlar fürsət tapıb əlləri ilə "kor"u arxadan, yandan vururlar. "Kor"u vuran tez sıçrayıb aradan çıxır ki, çubuq ona dəyməsin. Qorxusundan "kor"dan uzaq gəzən və bir neçə mərhələni ötürüb, ona əl vura bilməyən oyunçunu "kor" e’lan edirlər. Oyun iştirakçılarıdan böyük cəldlik tələb edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DİRƏDƏYMƏ

Bu xalq oyunu tarixən çox geniş yayılmış çətin və mürəkkəb oyunlardan hesab edilmişdir. Bu oyuna qoşulmağa hər adamın cəsarəti çatmaz. Qədim "dirədəymə" oyunu, bir növ indi dünyada çox geniş yayılan və məşhurlaşan "Karate" oyununu xatırladır.

Oyun iki dəstə arasında keçirilir. Hər dəstədə ən azı iki oyunçu olmalıdır. Oyunçuların sayını həddən artıq çoxaltmaq da olmaz. Çünki bu çətin oyun dairə daxilində və onun xaricində aparılır. Oyunçular çoxaldıqca dairəni genişləndirmək lazım gəlir. Hər dəstədə oyunçuların sayı 8-10 nəfərə çatdırıla bilər. Əgər hər dəstədə 2-3 oyunçu varsa, dairənin radiusu ən azı 4-5 metr olmalıdır. Oyunçuların sayı artdıqca dairənin hüdudları da ona uyğun olaraq genişləndirilir.

Oyuna başlamazdan əvvəl hər iki tərəfin razılığı ilə seçilmiş hakim "İynə-iynə", "sanama" şe’r parçasını deməyə başlayır. Şe’rin sonuncu "qurtul" sözü hansı dəstənin payına düşsə, onlar dairənin kənarında oynamaq hüququ qazanırlar. Digər dəstə dairənin içində oyuna başlamalı olur.

Oyun bu qayda ilə davam edir:

Dairənin içindəki dəstənin oyunçularından hər biri belindəki kəmərini açaraq iç tərəfdən dairə xəttindən bir qədər aralı yerə qoyur. Rəqiblərin hər biri əlində kəmər dairədən kənarda dayanır. Hər iki dəstədə oyunçuların sayı eyni olduğundan dairənin daxilindəki "hücum olunan" oyunçulardan hər biri xaricdəki "hücum edən" oyunçularla qarşı-qarşıya dayanır. Dairənin kənarındakı oyunçu əlindəki kəmərlə rəqibinin ayaqlarına, baldırlarına vurmaqla onu geri çəkilməyə vadar etməyə və onun ayağını üstünə qoyduğu kəmərini çıxarmağa çalışır. İçəridəki, ancaq ayaqları ilə oynamaq hüququna malik oyunçu çalışmalıdır ki, onun qayışını aparmaq istəyən rəqibinin təpiyi ilə vura bilsin. Bu vəzifələri yerinə yetirən rəqiblər və yaxud dəstələr oyunda qalib tanınırlar. Əgər dairənin daxilindəki oyunçular öz kəmərlərini qoruya bilib öz rəqiblərini təpiklə vura bilsə, hücum edənlər uduzur. Bundan sonra rəqiblər yerini dəyişir.

Əgər dairənin xaricindəki dəstə öz rəqiblərinin kəmərlərini ala bilib, onları "tərksilah" ediblərsə, döyməyə başlayırlar. Hücum edənlərdən təpiklə vurulan oyunçular oyundan kənarlaşır. Bu oyunda zədələnmə, yaralanma, hətta müəyyən qədər şikəst olma təhlükəsi də var. Ona görə də bu oyuna "mənəm-mənəm" oğullar girişərlər.

## ÇİLİNG-AAC



İki oyunçunun iştirakı ilə keçirilir. Oyuna başlamazdan əvvəl kimin çiliyə və ağaca sahib olduğunu müəyyənləşdirmək üçün sanamadan istifadə edilir. "Qurtul"an oyunçu çiliyə və ağaca sahib olur. İkinci oyunçu isə ağacla vurulan çiliyi qaytarmalı və tə’yin olunmuş hədəfi çəliklə fəth etməyə çalışmalıdır. Ağacın uzunluğu oyunçuların yaş səviyyəsinə uyğun 50-100, çilik isə 10-20 santimetr ölçüsündə olur. Bu oyunu yaşından aslı olmayaraq hamı oynaya bilər.

Ağac və çiliyin sahibi özünə münasib yer seçir və orada həvə deyilən kiçik bir yalaq açır. Ağacın münasib bildiyi başını sağ ovcunun içində elə tutur ki, ağacın ucu bir-neçə santimetr bayırda qalır. Çilik həmin hissəyə qoyulur və oyunu idarə edənin göstərişi ilə oyun başlayır. Oyunçu dərhal sağ əli ilə çiliyi havaya atır, vaxt itirmədən ağacın aşağı hissəsi ilə hələ yerə çatmamış çiliyi zərbə ilə vurur. Əks tərəf çiliyin uzağa getməməsinə cəhd göstərir, ya onu yaxın məsafədə havada tutub saxlamağa, ya da yerə salmağa çalışır. Çünki o, çiliyin düşdüyü yerdə dayanmalı, onu götürüb onunla həvənin üstünə qoyulmuş ağacı vurmalıdır. Vura bilsə, o qalib hesab olunur. Oyunçular yerlərini dəyişirlər. Çilik havada tutulanda da qələbə tə’min olunmuş sayılır. Yox, əgər bunlar baş tutmazsa oyun davam edir və getdikcə ikinci tərəfin vəziyyəti çətinləşir. Belə ki, üç dəfə çiliklə hədəfi vura bilməyən oyunçunu dördüncü zərbədən sonra daha çətin sınaq gözləyir. Bundan sonra çilik-ağac sahibi çox əlverişli bir üstünlük qazanır. O, artıq sol əlində tutduğu çiliyi sağ əlindəki ağacla vurmaq hüququ qazanır. Buna "yellə" deyirlər. Bu vəziyyətdə çilik əvvəlkindən fərqli olaraq xeyli uzağa düşür. Bu da rəqibin daima işləməsinə və çox yorulmasına səbəb olur. İşləyən təkrar qalib gəlmək üçün ya çiliyi havada tutmalı, ya da çiliyi həvəyə elə atmalıdır ki, çiliyin düşdüyü yeri ölçəndə çilik bir ucu həvədə olan ağaca çata bilsin. “İşləyən“ adam bunu bacarmasa, həvə sahibi “yellə“yə çıxır. Yeni-yeni qarınlar qazanır. "İşləyən" onun qarınlarını neçəki uda bilməyib, ya işləməli, ya da uduzduğunu e’tiraf edib, oyundan çıxmalıdır.

Çilik-ağac sahibi ilk üç zərbədən birində çiliyi vura bilməsə, o uduzmuş hesab edilir və rəqiblər yerlərini dəyişirlər. Çiliyin ağaca vurulması zamanı eləcə də çiliyin həvənin üstünə qoyulmuş ağaca, ya da ilk mərhələdən sonra həvənin üstündə əl ilə tutulan ağaca atılarkən oyunçular açıq qalan yerlərindən zədələr ala bilərlər. Ona görə də, bir çox oyunlarda olduğu kimi "Çilik-ağac" oyununda da ehtiyatlı olmaq lazımdır.

## ZOPA-ZOPA

Bu oyunda iki nəfər iştirak edir. Oyun başlanarkən heç kəsə üstünlük verilmir. Oyunçuların hərəsinin əlində iri bir ağac olur, sınmasın deyə öz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zopalarını möhkəm ağacdan seçirlər. Oyunçular zopalaşmağa başlamaq üçün oyunu idarə edənin xüsusi işarəsini gözləyirlər. Oyun başlanan kimi ağaclar işə düşür. Hər bir oyunçu çalışır ki, rəqibinin ağacını dava düşəndə ya sındırsın, ya da vurub yerə salsın. Hər iki halda "görüş" başa çatmış hesab edilir. Zopası yerə düşməyən və sınmayan oyunçu qalib tanınır.

## HƏRBƏ-ZORBA

"Hərbə-zorba" Göyçənin çox qədimlərdən bəri ən geniş yayılmış oyunlarından biridir. İgidlərin, cəsurların qatıldığı bu oyunun qalibləri çox zaman el-obanın yenilməz qəhrəmanlarına çevrilir, böyük şan-şöhrət sahibi olardılar. Oyun iki adamın iştirakı ilə keçirilərdi. Özünə, gücünə, qoluna güvənən bir nəfər meydana çıxıb onunla yumruqlaşmağa adam istəyərdi. Bu maraqlı səhnəyə tamaşa edənlərin arasından biri cəsarətə gəlib meydana atılardı. Vur ki, vurasan. Başlayırdılar bir-birlərini yumruqla şül-küt etməyə. Kəllə vurmaq da olar. Ancaq ayaqların yarışda iştirakı qadağandır.

Əgər oyunçulardan biri rəqibinin zərbəsinə tab gətirməyərək yıxılarsa, yaxud oyunun yarısında uduzduğunu bildirərsə, mübarizə dayanır. Qalib tərəf alqışlanır.

## A HUY-HUYU

Oyun 8, yaxud 10 uşaq arasında aparılır. Uşaqlar iki dəstəyə bölünür. Püşk vasitəsilə hər dəstəyə bir nəfər başçı, bir nəfər isə qorxaq seçilir. Hər iki dəstə səfərə çıxmağa hazırlaşır. Bu zaman hər dəstədən bir qorxaq yola çıxmaqdan imtina edir. Qorxaqlar dəstə başçısı tərəfindən cəzalandırılır.

Oyun təzədən başlayır: başçılar və qorxaqlar yenə də püşk ilə müəyyənləşdirilir.

Birinci dəstənin başçısı:

Ozan gəl, ay ozan gəl,
Yığvalımı yazan gəl.
Nənəm Urum yolunda
Şələ-şüləsi dalında.
Dev gizlənib yoluna,
Kəmənd alıb əlinə.



Nənəm qurtula bilməz
Harayı bizə çatmaz.
Ay neyləyək, neyləyək?

Birinci dəstə xorla deyir:

Ay neyləyək, neyləyək?
Ay neyləyək, neyləyək?

İkinci dəstənin üzvləri:

Gəlin Uruma gedək,
Gəlin Uruma gedək!

İkinci dəstənin başçısı:

Urum yolu qanlıca,
Atımın dili haça
Sapandları dolduraq,
Devi gözündən vuraq.
Nənəm bizi gözləyir,
Haray, haray gəl deyir.

hər iki dəstə:

Gəl deyir, ay gəl deyir,
Nənəm bizi gözləyir
Haray-haray, gəl deyir.

Hər iki başçı:

Gəlin çıxaq yol üstə,
Qədəmimiz gül üstə.

Dəstələrin üzvləri bu vaxt qabağa çıxırlar. Hər dəstədən bir qorxaq yerində qalır.

Birinci dəstənin başçısı:

A huy-huyu, huy-huyu
Azaldı igidlər sayı.

İkinci dəstənin başçısı:

Ay huy-huyu, huy-huyu
Çıxdı qorxağın zayı.
Urumun yolu qıraş.
Qorxaqdan olmaz yoldaş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hamısı bir ağızdan:

Ay huy-huyu, huy-huyu,
Gəlin qazaq bir quyu.
Qorxağı atıb gedək,
Dəngizdə batıb deyək.

Başçılardan biri irəli çıxır:

Gəlin atmayaq, döyək,
Hərəmiz üç dəyənək.

(İstəsə bir, iki, üç, dörd, beş dəyənək də deyə bilər.) Onlar çubuq götürüb qorxaqları çubuqlayırlar.

Hamısı bir ağızdan:
Ay huy-huyu, huy-huyu,
Qorxağın budu payı.
Sonra başçılardan biri:
Ozan gəl, ay ozan gəl,
Yığvalımı yazan gəl.
Urum yolu qanlıca
Atımın dili haça
Sapandları dolduraq,
Devi gözündən vuraq.

Onlar ağac atlarını minib gedə-gedə qorxaqlara deyirlər:

Ay huy-huyu, huy-huyu,
Biz getdik Urum yolu.
Yola düşdü qoçaqlar,
Ofuldaşsın qorxaqlar.

## QURŞAQ TUTMAX

**Bu oyunda fənd-fe'llə, cəldliklə yanaşı, fiziki gücün də çox olması vacibdir. Oyunun əsas şərti odur ki, oyunda iştirak edənlər bir-birinin qurşaq kəmərinə əlini yetirməklə onu iki əli ilə başı üstünə qaldırmalıdır. Oyunda iki oyunçu iştirak edir. Onlar oyuna başlamaq**



**işarələrini gözləyirlər. Oyunun şərtlərini bir daha hamıya aydınlaşdırırlar. Oyunçular bu şərtlərə əməl etməklə "hücuma" keçirlər. Oyun zamanı heç bir fəaliyyət qadağan edilmir. Rəqiblərdən hər biri çalışır ki, yolddaşının belindəki qurşaqdan möhkəm yapışsın və vaxt itirmədən onu başı üzərinə qaldırsın. Bu oyunda çox vaxt qalib müəyyənləşmir. Bir-birinin qurşağını ələ keçirə bilməyən rəqiblər o qədər əlləşirlər ki, axırda yorulub ümumi razılığa gələrək aralanırlar. Meydana yeni rəqiblər daxil olur.**

## EŞŞƏK BELİ

**Oyunda 7-8, hətta 10 nəfərə qədər adam iştirak edir. Oyuna başlamazdan əvvəl "iynə-iynə" sözləri ilə başlanan püşk atma vasitəsilə axıra qalan müəyyən edilir. Əllərini dizlərinə qoyub belini "Q" şəklində əyərək öz vəzifəsinin icrasına başlayır.**

**Digər oyunçular 8-10 metr aralı növbədə dayanır, oyunu idarə edənin işarəsini gözləyirlər. Oyunun qaydası belədir:**

**Birinci oyunçu qaçaraq əyilmiş oyunçuya çatır və əllərinin ikisini də onun belinə vuraraq "Əzəl dəyməz" deyib, ayaqlarını ona toxundurmadan o biri tərəfə atlanır.**

**İkinci oyunçu "ikincidə heç dəyməz" – deyib birincinin hərəkətini təkrar edir.**

**Üçüncü yumruqlarını "eşşəyin" belinə dirəyərək "üçdə qulunc qırarlar" – deyib atlanır.**

**Dördüncü: "dörddə bir dal vurarlar" – deyib dalı ilə "eşşəy"i vurub atlanır.**

**Beşinci: Vurdum beli qırıldı.**

**Altıncı: Apardılar həkimə.**

**Yeddinci: həkim dedi kim-kimə.**

**Səkkizinci: Nəyin dədən bökünə.**

**Doqquzuncu: Mıx yerinə qazaxdı.**

**Onuncu: Bəsdir vurma yazıxdı.**

**Əgər "Eşşək" bu sınaqlardan uğurla çıxsa, yə'ni yıxılmasa, yaxud oyun başa çatmadan, yarımçıq saxlanılmasını e'lan eləməzsə, o** növbəti oyunda bu çətin vəzifədən xilas olur. Bunları eliyə bilməsə, təkrarən öz "vəzifə"sini yerinə yetirməlidir.

Oyunda iştirak edənlər də, müəyyən qanuna əməl etməlidirlər. Əgər onlardan hər biri "eşşəy"in belindən atılarkən ayaqlarından biri ona dəymiş olarsa, o uduzmuş hesab edilir və "eşşəy"in yerində dayanmağa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məcbur olur. Oyun yenidən başlayır. “Eşşək“ olmamaq üçün bütün oyunçular sayıqlıq və çəldlik nümayiş etdirirlər. Oyunçu kifayət qədər olmadıqda, birincilər oyuna ikinci dəfə girməli olurlar.

## QARADİNMƏZ

Bu oyunda iştirakçılara say məhdudiyyəti qoyulmur. Lap çox adamın iştirak etməsi də bir o qədər məqsədəuyğun hesab olunmur. 6-8 nəfərin iştirakı daha münasib sayılır.

Digər oyunlarda olduğu kimi burada da "iynə-iynə" sanama vasitəsi ilə axıra qalan müəyyən edilir. Lal-dinməz olaraq üzünü bir tərəfə çevirib, sol əlini sağ qoltuğunun altından keçirməklə ovcunun arxa tərəfi ilə bədəninə söykəyir. Sağ əlini dirsəkdən bükərək aşağı hissəsini sol qolunun üstünə, əlini açıq şəkildə qulaq qarışıq sağ tərəf üzünə qoyur. Digər oyunçular onun arxasına toplaşırlar. Qaradinməz öz yoldaşlarını görmür. Onların biri ya zəif, ya güclü zərbə ilə "Qaradinməz"in sağ qoltuğunun altından çıxan sol əlinin ovuc içi tərəfindən şillə, yaxud, yumruq vurur və dərhal əlini çəkir. Qara dinməz vaxt itirmədən geriyə çönür. Oyunçuların hamısının üzünə diqqətlə baxır. Onların hamısı isə bir ağızdan "Dızz"... deyir. Oyunçuların ya hamısı gülür, ya ciddi durur, ya da müxtəlif atmacalar atırlar. O tərəf, bu tərəfdən "mənəm"-"mənəm" deyən oyun iştirakçıları onu çaşdırmaq istəyirlər. Qaradinməzin yalnız bir dəfə bir oyunçunun adını çəkmək haqqı var. Əgər Qaradinməz onu vuran oyunçunun adını düz deyirsə, həmin şəxs qaradinməzi əvəz edir. Əgər onu vuranın adını düz demirsə, oyun yenidən davam edir. Neçə ki, qaradinməzi vuran adam müəyyənləşdirilməyib oyun davam edir.

Qaradinməz yerində dayanan oyunçunu bərk vurmaq, qabalıq, kobudluq etmək yolverilməz hesab edilir. Oyunun düzgün aparılmasına nəzarət etmək üçün xüsusi adamlar seçilir. Qaradinməzi vurduğunu e’tiraf etməyən oyunçu ikiqat dayanmaqla cəzalandırılır. Əgər nəzarətçi kiməsə güzəştə gedib oyunun şərtlərini pozarsa, o üç dəfə dalbadal qaradinməz rolunu icra etməlidir. Bu cəza tədbirləri oyunun düzgün və ədalətlə keçirilməsini tə’min etmək üçün tətbiq edilir.

## ÜZÜK-ÜZÜK OYUNU

Bu oyunu Göyçədə əsasən qış ayları oynayardılar. Oyun taxt, yaxud



kürsü üstündə keçirilərdi. Əvvəllər təndir üzərində qurulmuş ayaqlı ağac taxta kürsü deyərdilər. Hazırda kürsü unudulmuş, məişətdən silinib getmişdir.

Oyunda azı 6-7, ən çoxu 8 nəfər uşaq iştirak edir.

Hər oyunçu üçün ortaya bir dəsmal qoyulur. Bir nəfər üzüyü əlinin içində göstərmədən dəsmalların altına aparır və dəsmallardan birinin altına qoyur. Oyunçulardan biri üzüyü axtarıb tapmalıdır. Üzük axtaran oyunçunun istədiyi hər hansı iki dəsmala "puç" və bir dəsmala "versin" deməyə ixtiyarı var. Əgər üzük "versin" dediyi dəsmaldan çıxmasa, uduzmuş hesab olunur. Üzük "puç" dediyi dəsmaldan çıxsa, yenə uduzur. Uduzan oyunun şərtlərinə görə "cəzalandırılır". Yaxud oyun qonaqlıqdan oynanılır. Kim daha çox uduzsa, o məğlub hesab olunur.

Uduzan ikinci oyunda üzüyü gizlətməli olur. Tapılsa o, tapılmasa isə axtaran uduzur. İştirak edənlər növbə ilə oyuna cəlb olunur.

## KEÇİLİ-KEÇİLİ OYUNU

Bu oyunda iştirakçıların sayı 5-6 nəfər olur. Burada məqsəd oyunçuların birinin digərini çaşbaş salmasıdır. Hər kim neçə keçili olduğunu unutsa, yaxud təntisə, başqa oyunçular tərəfindən cəzalandırılır.

Oyun aşağıdakı kimi davam edir.

Birinci uşaq – beş keçili.

İkinci uşaq – on keçili.

Üçüncü uşaq – on beş keçili.

Dördüncü uşaq – iyirmi keçili.

Beşinci uşaq – iyirmi beş keçili.

Altıncı uşaq – otuz keçili, adları ilə oyuna daxil olur.

Oyuna əvvəlcə beş keçili başlayır:

– Kəndə beş-on keçili gəlib, kim saxlasın, kim saxlamasın? Saxlasın otuz keçili.

Dərhal otuz keçili cavab verir:

– Otuz keçili nə üçün saxlasın?

Beş keçili deyir:

– Bəs kim saxlasın?

Otuz keçili deyir:

– (misal üçün) On beş keçili saxlasın.

On beş keçili tez cavab verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– On beş keçili nə üçün saxlasın?
Otuz keçili deyir:
– Bəs kim saxlasın?
On beş keçili cavab verir:
– İyirmi keçili saxlasın.
Tez iyirmi keçili oyuna qoşulur:
– İyirmi keçili nə üçün saxlasın?
On beş keçili deyir:
– Bəs kim saxlasın?
İyirmi keçili deyir:
– Saxlasın on keçili.
On keçili nə üçün saxlasın?
– Bəs kim saxlasın?
– Saxlasın beş keçili!
– Beş keçili nə üçün saxlasın?
– Bəs kim saxlasın?
– Saxlasın iyirmi beş keçili.
– İyirmi beş keçili niyə saxlasın! Və i.a.

Oyun bu qaydada davam edir. Hər bir oyunçu çalışır ki, yoldaşlarından kimisə çaşdıra bilsin.

Oyunçulardan biri qəflətən başqa bir keçilini deyir. Bu vaxt arxayın düşmüş keçili cavab verməyi unudur, yaxud da vaxtında cavab vermədiyi üçün uduzur. Uduzan cəzalandırıldıqdan sonra oyun yenidən başlayır. Cəzalar oyunu başlayanın hökmü ilə icra edilir.

## CIZA GİRMƏ

Oyunçuların sayından aslı olaraq dairə çəkilir. Oyunda azı altı, ən çoxu on beş nəfər uşaq iştirak edir. "İynə-iynə" sanamasından sonra axıra qalan oyunçu cızıq (dairə) içinə keçir. Yerdə qalan oyunçular dairənin qırağında müəyyən məsafədə bir-birindən aralı dayanırlar. Onlardan biri əlindəki rezin topu yoldaşlarından birinə atır. Atılmış topu tuta bilməmək nöqsan hesab edilmir. Şərtə görə cızdan kənarda dayanan oyunçular topu bir-birinə çox cəld ötürməli və onlardan biri mərkəzdəki "günahkarı" qəflətən vurmalıdır. Atılan toplar neçə ki mərkəzdəki oyunçuya dəyir, oyun əvvəlki kimi davam edir. Topun mərkəzdəki oyunçu tərəfindən tutulması da heç nəyi dəyişmir.

Əgər cızdan kənardakı oyunçu cızın içindəkinə atdığı top hədəfə dəymirsə, topu atan uduzmuş hesab edilir və cızıq içinə keçməyə məcbur



olur. Cızığın qırağındakı oyunçulardan bir nəfər qalanadək oyun davam edir. Cızdan kənarda qalan yeganə oyunçu qalib hesab edilir və oyuna yenidən başlanılır.

## AŞIX-AŞIX OYUNU

Bu çox maraqlı və unudulmaqda olan oyundur. Burda aşıq deyəndə saz çalıb, söz qoşan xalq sənətkarlarından söhbət getmir. Söhbət qoyunun arxa tərəfindəki ayaqlarında qıçla bud sümüklərinin birləşdiyi yerdə hərəkəti tənzimləyən xüsusi yaraşıqlı formaya malik baş barmağın birinci buğumu böyüklükdə kiçik sümük parçasından gedir.

Adamlar, xüsusilə uşaqlar uzun illərdən bəridir ki, bu xalq oyununu sevə-sevə yaşatmış və çağdaş günlərimizə qədər gətirib çıxartmışdır. Bu oyun iyirminci əsrin altmışıncı illərinin sonlarınadək Göyçədə ən geniş yayılmış oyunlardan biri sayılırdı. Hər qoyunun arxa ayaqlarında iki aşıq olur. Uşaqlar böyük həvəslə onu yığar, bizlə burun hissəsindən deşik açıb qatara düzər, müxtəlif rəngdə boyayardılar. Çox aşığı olan uşaqlara qibtə ilə baxar, ona həsəd aparardılar. Yaxşı oyunçu udduğu aşıqları qatara düzməklə fəxr edərdi. Bə’zi hallarda o aşıqların bir hissəsini tay-tuşlarına satar, ya da nəyəsə dəyişərdi.

Aşığın müxtəlif forması aşığın hər altı tərəfindən birinə bir ad verilmişdir. Məsələn, aşığın yerə atılarkən daha çox düşdüyü çökək tərəfə "cik", qabarıq tərəfinə "bök", yan tərəflərdən hamar hissəsinə "toxan", qabarıq hissəsinə "alçı" deyirlər. Aşığın aşağı hissəsinə "künə", yuxarı hissəsinə "buynuz" deyirlər. Əldə oynanılan aşığa "saqqa" deyirlər. "Saqqa" hər aşıqdan olmur. O, yüz aşığın içindən seçilir. Kimin belə aşığı olmasa, o ya saqqanı pul ilə alar, ya da əlacsızlıqdan adi aşıqlardan birini "saqqa" seçir, onunla oynayardı. "Saqqa" aşığın ələ daha yaxşı yatması üçün onun "alçı" tərəfi ya kəvək, ya da başqa vasitələrlə sürtülüb şumal hala salınırdı. Belə aşıqlara dilən deyərdilər. Hətta saqqanın daha tutarlı olması üçün onun "cik" tərəfindən içinə doğru biz ilə bir neçə yerdən deşik açılır, oraya bir-neçə damcı qurğuşun ərintisi tökərdilər. Belə saqqalar dillərdə söylənərdi. Hər bir oyunçunun ən azı bir saqqası olmalıdır. Saqqası olmayanları əsl oyunçu hesab eləməzdilər.Belə aşığı olmayanların uğur qazanması çox müşkül bir iş hesab olunurdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## CIZ OYUNU

Bu oyunda iki və daha artıq adam oynaya bilər. Çox adamın bu oyuna cəlb olunması məqsədəuyğun sayılmır. Oyunçu çox olanda bölünüb bir neçə dəstədə oynayırlar.

Beş nəfər oyunçu olan cız oyununda 1,5 metr radiuslu dairə seçilir. Dairənin tən ortasında radius boyu 15-20 santmetr uzunluğunda xətt çəkilir. Dairədən kənar bir-birinə əks olan hər iki tərəfdən təxminən 3-5 metr aralı bir-birinə paralel xətlər çəkilir. Hər iki tərəfdən oyunçular oyuna bu xətlərdən başlayır. Bütün şərtlər oyunçuların öz aralarında razılaşdırılır. Razılığa görə oyunçulardan hər biri ya bir, ya da iki aşığı dairənin mərkəzində "alçı", yaxud "toxan" üzünə qoyurlar. Aşıqlar dairənin ortasında sıra ilə düzülür. Hər oyunçuya görə aşıqların sayı eyni olmalıdır. Oyunçular hər iki tərəfdəki xətlərin arxasında dayanırlar. Birinci oyunçu xəttin kənarında dayanıb dairənin mərkəzində sıra ilə qatarlanmış aşıqları nişan alır. Məqsəd saqqa ilə nişan alıb dairənin içindəki aşıqlardan birini vurub "cız"dan çıxarmaqdır. Bundan sonra oyun dairənin xaricində davam edir. Oyunçulardan heç biri kənardakı xətdən dairənin daxilindəki aşıqlardan birini vurub qırağa çıxara bilmirsə, hər iki tərəfdən mərkəzdəki aşıqların "saqqalarla" vurulub cızdan çıxarılmasına cəhədlər davam etdirilir.

Oyun cızığın yanına keçdikdə daha da qızğınlaşır. İndi ən yaxın məsafədən aşıqları vurub kənara çıxarmaq lazımdır. Bu iş də növbə ilə həyata keçirilir. Zərbə sərrast olmadıqda, o biri oyunçu işi davam etdirir. Vurularaq cızığa düşən aşıq "südük" hesab olunur və hesaba alınmır. Bu oyunda oyunçulardan hər biri dairədəki aşıqlardan neçəsini vurub kənara çıxarıbsa, onları udmuş hesab olunur. Bu oyun sonuncu aşığı "saqqa" ilə dairədən vurub çıxaranadək davam edir. Bu oyunda uduzan da olur, udan da. Peşəkar aşıq oynayanlar daha çox aşıq udmağa müvəffəq olurlar. Bundan sonra oyun yenidən başlayır. Uduzub oynamayanın yerinə başqaları da qəbul oluna bilər.

## AŞIX-QALA OYUNU

Oyuna iki və daha çox adam cəlb oluna bilər. Oyunu ya tək-tək, ya da dəstələrə bölünməklə oynanılır.

Oyunçuların razılığına görə oyunda iştirak edən hər bir adam və ya hər bir komanda müəyyən sayda aşağı bir-birinin üstündə, bir neçə



mərtəbəli qala şəklində qurur. Oyunçular qurulmuş "qala"nın bir tərəfində, təxminən 3-5 metr aralı çəkilmiş xəttin arxasında dayanırlar. Kimin nə vaxt oyuna qoşulacağı dəqiqləşdirilir.

Oyunçular əllərindəki "saqqa aşıq"la hədəfi nişan alırlar. Növbəsi müəyyənləşən hər bir oyunçu cəmi bir dəfə qalanı hədəf seçə bilər. Oyunçulardan hansısa qalanı vurub dağıdarsa, o aşıqların hamısını udmuş hesab olunur. Əgər oyunçulardan heç birinin "Saqqa"sı qalaya dəyməzsə onda hansı saqqqqa qalaya daha çox yaxındırsa, həmin oyunçu saqqa ilə həmin yerdən qalaya zərbə vurur. Dağılan aşıqlardan hansı "cik" düşərsə götürür. "Cik" olmadıqda o, fəaliyyətini dayandırır. Saqqası qala mərkəzinə yaxın oyunçular bu minvalla oyunu davam etdirirlər.

## LƏPİK-QOZA

Bu oyun kiçik yaşlı və yeniyetmə oğlanlar arasında geniş yayılmışdır. Oyun aşıqla oynanılan oyunun eynidir. Bu oyunda saqqa və digər aşıqlar əvəzinə hər oyunçu bir ədəd yastı yuxa daşdan və qoz kimi yumru, təxminən yumurta böyüklükdə daşlardan istifadə edir. İki oyunçu və yaxud iki dəstə mərkəzdə çəkilmiş müəyyən böyüklükdə çevrənin mərkəzinə müəyyən sayda yumru daşları cərgə ilə düzür, sonra dairədən bir-neçə metr aralı növbə ilə əllərindəki ləpik daşlarla onları vurub dairədən çıxarmağa çalışırlar. Oyunçulardan hər hansı biri ləpiklə daşlardan birini dairədən kənara çıxararsa, oyunun sonrakı mərhələsi dairənin kənarında davam etdirilir. Oyunçu növbəti dəfə dairədəki daşı çıxara bilmədikdə, digər oyunçu oyunu davam etdirir. Bir oyunçu fasiləsiz olaraq daşların hamısını çıxartmaq hüququna malikdir.

Sonuncu daş dairədən çıxarılana qədər oyun davam edir. hər bir oyunçunun və ya dəstənin dairədən çıxartdığı daşlar onunku hesab edilir.

Oyunçular bu qayda ilə oyuna yenidən başlayırlar.

## QAÇMATOP

Oyunda iki dəstə iştirak edir. Hər dəstədə ən azı iki nəfər oyunçu olmalıdır. Dəstələrə bölünmək üçün oyunçuların ən diribaşlarından ikisi "bəy" seçilir. Onlar yanaşı dayanırlar. Digər oyunçular qoşa-qoşa bölünür, özlərinə müxtəlif "ad"lar qoyurlar. Razılaşdırılmış bu adlarla



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onlar "bəy"lərə yaxınlaşır və deyirlər:

– Halay, halay, a bəylər!

"Bəylər"dən biri:

– Aldım.

O biri:

– Saldım.

Oxuyurlar:

– "Qızıl"ı alırsan, yoxsa "gümüş"ü? "Arpa"nı alırsan, yoxsa "buğda"nı? "Günəş"i alırsan, yoxsa "ulduz"u? və s...

Belə ifadələr təkrar olunur.

Şərtə görə "aldım" deyən "bəy" bu iki "ad"dan birini aldığını bildirir. Həmin "ad"ı daşıyan oyunçu keçir həmin "bəy" tərəfə. Digər oyunçu qalır o biri "bəy"in tərəfində. Növbəti bölgüdə seçim haqqı o biri "bəy"ə həvalə edilir. Bu proses oyun tamamlanana qədər davam edir.

Bu qaydada seçilmə dəstələr arasında baş verə biləcək narazılığa son qoyur. Belə olduqda oyunçular bir dəstədə yaxşı, o biri dəstədə pis oyunçuların toplandığını iddia eləyə bilməz. Oyuna hansı dəstənin başlaması püşk vasitəsilə müəyyənləşdirilir. Bundan sonra dəstələrin vəzifələri aydınlaşdırılır. Püşkdə üstünlük qazanan dəstənin oyunçuları müəyyən olunmuş yerdə sıra ilə dayanırlar. Digər dəstənin oyunçuları bir az aralı müəyyən edilmiş yerdəki hədəfə qədər səpələnir. Rəqiblərdən birini fürsət düşən kimi topla vurmağa hazır dayanırlar. Baş tərəfdə mərkəzdən bir qədər aralıda "qaçaq" yeri müəyyənləşir. İstər başa, istər əks tərəfdəki hədəfə, istərsə də "qaçaq" yerinə daş qoyulur.

Oyun belə başlayır: İkinci dəstənin oyunçularından biri əlindəki topu rəqib dəstənin birinci oyunçusu ilə öz arasında bir metrə qədər hündürlükdə havaya qaldırır. Onun rəqibi ya əli, ya da ağac ilə qabaq tərəfə doğru topa gücü gəldikcə zərbə endirməyi, sonra qaçaraq, həvəyə, yə'ni əvvəlki yerinə qayıtmalıdır. Ancaq bu elə cəld, elə ustalıqla edilməlidir ki, rəqibləri onu topla vura bilməsinlər. Oyunçu vurularsa, bütöv dəstə uduzmuş hesab edilir.

Topu vurduqdan sonra qaçmaq mümkün deyilsə, "qaçaq" daşına yaxınlaşıb qaçmaq üçün hazır vəziyyətdə dayanır. Fürsət düşən kimi qaçır. Əgər digər oyunçulara qaçmaq müyəssər olmursa, onda hamısı qaçaq daşından sonra cərgə ilə hədəfə tərəf əl-ələ tutub dayanırlar. Müdafiə olunan oyunçulardan biri bir-neçə metr aralıda topu havaya atıb-tutur. Bundan istifadə edən "qaçaq"çılar qaçırlar. Topla vurma başlayır. Əgər qaçan oyunçuların hamısı hədəf daşına ayağı ilə toxunub geriyə, oyuna başladıqları yerə, top zərbəsi dəyməmiş qayıdarlarsa, qalib hesab edilirlər və oyun yenə də əvvəlki qaydada davam edir. Əgər rəqib oyunçulardan kimsə qaçanlardan birini vura bilirsə, oyun bitmiş hesab



edilir. Dəstələrin mövqeləri dəyişir. Qaçan oyunçuları "qaçaq" yeri ilə həvə arasında topla vurmaq düzgün hesab edilmir. Qaçanları yalnız qaçaq daşı ilə hədəf daşı arasındakı məsafədə vurmaq lazımdır. Həmin məsafə adətən 80 metrdən 100 metrə qədər olur. Yuxarıya vurulan və atılan topa xalq arasında "hul qaldırma" da deyirlər.

## ZÜBBƏ-ZÜBBƏ

Bu oyunda 4-5 uşaq iştirak edir. Oyunda iştirak edənlərin biri digərini aldatmağa çalışır. Oyunu başlayan istədiyi əşyaların adını dedikcə əlini istədiyi səmtə, aşağı-yuxarı tutur. Əgər oyunçular hansı bitkinin adı gələndə əlini onun bitdiyi şəklə uyğunlaşdırmasa, uduzmuş hesab olunur.

Misal üçün turp torpaqdadır. Onun adı çəkiləndə oyunçu səhv düşüb əlini yuxarı qaldırsa, uduzar. Yaxud kələm torpaqda deyil, yuxarıda olduğu üçün əl yuxarı qaldırılmalıdır. Bu oyunda uduzan əlinin arxasını yerə qoyur və onun əlinə şillə vururlar.

Yenidən başlayanda başqa biri həmin qayda ilə oyunu davam etdirir. Həmin adamın ixtiyarı var ki, əlini bitkinin bitdiyi səmtə deyil, əks istiqamətə yönəltsin. Bu da oyunçuları çaş-baş salmaq üçün edilir.

Oyunu aparan aşağıdakı mətndən istifadə edir:

Zübbə-zübbə
Dəmir zübbə.
Turp belə bitər,
Kələm belə,
Kök belə.

Bunları dedikcə əlini istədiyi kimi hərəkət etdirir.

Zübbə-zübbə,
Dəmir zübbə.
Noxud belə bitər,
Soğan belə,
Yer alması
Dik belə!
Zübbə-zübbə
Dəmir zübbə,
Arpa belə bitər,
Çəltik belə,
Sarımsaqsa, bax belə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oyun aparıcı tərəfindən çox-çox sür'ətlə aparılır. Qarşıdakını çaşdırmaq üçün sözlər tez-tez təkrar olunur.

## VAY BELƏ VURANIN HALINA

Bu oyunda 5-6 uşaq iştirak edir. Oyuna başda oturan birinci uşaq başlayır. Bu oyunda da məqsəd oyunçuları çaşdırmaqdan ibarətdir. Oyuna başlayan sağ əlinin barmaqlarını büzərək sol əlinin içinə vurur. Gah barmaqlarının ucunu, gah əlinin arxasını ovcuna vurur. Vurduqca deyir:

—Təpələ-tüpəl

Vay belə vuranın halına.

Oyunu aparan barmaqlarının ucunu o biri əlinin içinə toxundurursa, digər oyunçular əllərinin arxasını toxundurmalıdırlar. Oyun olduqca sür'ətlə aparılır. Burada hər bir oyunçudan yüksək ustalıq tələb olunur.

Oyunu aparan səhv edəni cəzalandırır. Bu oyun əvvəllər əsasən gecə oynanılırmış. Ona görə də uduzanı çox vaxt bulaqdan su gətirməyə yollayırlarmış. Yaxud deyərlərmiş: apar bu ağacı qəbristanlıqda filan qəbirin yanına çal qayıt. Sonra uduzanlar da əvvəlkilərin ardınca göndərilərmiş.

Son vaxtlar bu "cəzanı" şillə ilə əvəz edirdilər.

## GİZLƏNPAÇ

Oyunda 5-10 və bə'zən daha çox adam iştirak edir. Oyunda bir nəfər gözlərini yummalı və yaxud dəsmalla bağlamalı, qalan yoldaşları gizlənməyə tələsməlidirlər. Yoldaşlarının səsinin gəldiyini eşidən oyunçu ucadan:

– Gizlən paç, gizlən paç! – deyib bir az gözləyir. Heç bir cavab almadıqda gözlərini açır və gizlənmiş yoldaşlarından birini tutmağa çalışır. O, buna nail olursa, oyun yenidən başlayır və tutulan oyunçu gözlərini yummalı olur. Yox, əgər heç bir oyunçunu tuta bilmirsə, oyunçu yenidən gözlərini yummalı olur. Gizlənmiş oyunçular xilas olmaq üçün cəld qaçıb əlini gözü bağlanmış yoldaşının dayandığı yerdəki ağaca, dirəyə, daşa, divara vurmalıdır. Yoxsa, onun oyunu koydan sayılmır.

Oyunda hansı oyunçunun gözünü yumması müxtəlif püşk atma-larla, çox zaman "iynə-iynə" sanaması vasitəsilə müəyyənləşdirilir.



## ADIN NƏDİ?

Bu oyun da Göyçə cavanları arasında geniş yayılmış oyunlardan biridir. Burada iki oyunçu iştirak edir. Onların hər ikisi arxa-arxaya dayanıb qollarını bir-birinə keçirirlər. Razılığa görə oyunçulardan biri başlayır soruşmağa:

– Göydə nə var?

O biri:

– Göy muncuğu.

Birinci başlayan:

– Yerdə nə var?

O biri:

– Yer muncuğu.

Birinci başlayan:

– Adın nədi?

O biri:

– Kolxana.

Birinci başlayan:

– Di məni götür arxana.

O biri oyunçu əyilir, rəqibi də belində. Birinci oyunçunun ayaqları yerdən üzülür və arxası üstə, üzü göyə sarı yoldaşının belində olur. Bu dəfə deyişməyə ağırlıq düşən oyunçu başlayır və axırda o biri yoldaşı öz yoldaşını arxası üstə dalına almalı olur. Oyun oyunçular yorulanadək davam edir. Oyunda udan və uduzan olmur.

## GÖZÜ BALICA

Bu qədim xalq oyunu bir növ "Gizlənpaç" oyununa bənzəyir. Burada "çöp" atılır.Axıra qalan oyunçunun gözləri dəsmalla bağlanır. Dəsmal elə bağlanmalıdır ki, oyunçu heç nəyi görə bilməsin.

Digər oyunçular onun tərəfində müxtəlif sözlər, mahnılar deyə-deyə, müxtəlif səslər çıxara-çıxara o yana, bu yana qaçışırlar. Gözü bağlı oyunçu isə əl fəhminə onlardan birini tutmalıdır. Oyunçular tez-tez əlləri ilə gözübağlı yoldaşlarını yüngülcə itələyib cəld geri atılırlar.

Gözü bağlı oyunçu ətrafındakılardan birini tutduqda oyun bitmiş hesab edilir. Həmin oyunçu gözübağlı oyunçunun vəzifəsini icra etməyə başlayır.

Gözü bağlanan oyunçu heç kəsi tuta bilmədikdə müəyyən vaxt



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

keçdikdən sonra onun gözlərindəki yaylıq açılır və oyun bitmiş hesab olunur. Həmin adam oyundan kənar edilir və oyuna yenidən başlanılır. Hər bir oyunda olduğu kimi burada da oyuna bir nəfər nəzarətçi seçilir. O, ədalətli və doğruçul olmalıdır.

## LAL-DİNMƏZ

Bə'zi yerlərdə bu oyuna "dəsmal-dəsmal" da deyirlər. Uşaqlar arasında ən geniş yayılmış oyunlardan biridir. Oyunda 8-10 nəfərlik bir dəstə iştirak edir. Bir nəfərdən başqa hamısı bir-birindən azacıq aralı, dairə şəklində otururlar. Kənarda qalan oyunçu əlində olan hər hansı bir əşyanı yoldaşlarından birinin arxa tərəfində yerə qoymaq üçün dairəni fırlanır və işini tamamladıqdan sonra keçib öz yerində oturur. O, oyunçuları aldatmaq üçün fırlanarkən bir neçə yoldaşının arxasında yerə əyilir. Əşyanın hansı oyunçunun arxasında yerə atıldığını bilənlər də heç nə demir. Hamı lal-dinməz dayanır. Sayıq oyunçu əşyanı taparsa, cəld ayağa qalxıb dövrə vurmağa, onu yoldaşlarından kiminsə arxasında yerə qoymağa, yə'ni oyunu davam etdirməyə başlayır. Əgər oyunçu arxasında olan dəsmalı az bir müddət ərzində müəyyənləşdirə bilmirsə, nəzarətçi bütün oyunçulara arxasına baxmağa icazə verir. Əşya kimin arxasından tanılırsa, qalan oyunçular onu gülüb ələ salır, pərt edirlər.

Oyun bu qaydada davam etdirilir.

## PÜŞK ATMA

Oyunlarımızda ədaləti tə'min etmək, yarana biləcək narazılıqlara son qoymaq üçün xalqımız müxtəlif püşk atmaq üsulları yaratmış və onları oyunlarımızla birlikdə bu günümüzə qədər qoruyub saxlamışlar. Bunlardan "İynə-iynə" adlı sanama bu gün də gözəlliyi və incəliyi ilə uşaq dodaqlarını bəzəyirdi. Bundan başqa Qurra atma, aşıq-atma, pul atma, daş-atma, əldə şey gizlətmə və s. kimi maraqlı püşkatmalarımız da uzun zamanlardan bəri oyunlarımızla çiyin-çiyinə addımlamaqdadır.

## MIRT-MIRT
## (yaxud buynuz-buynuz)

Bu oyunda da zübbə-zübbə oyununda olduğu kimi oyunçuların birinin digərini çaşdırması oyunun əsas məqsədini təşkil edir. Burada buynuzlu



heyvanların adları çəkilməklə barmaqlar yuxarı qaldırılır, buynuzsuz heyvan üçün qaldırılmır. Oyunu idarə edən deyir:

Mırt-mırt (yaxud buynuz-buynuz) inək buynuzu. Dərhal barmağını yuxarı qaldırır və oyun yoldaşlarını gözləyir. Görsə ki, bir nəfər barmağını yuxarı qaldırmadı, dərhal onun uduzduğunu e'lan edir və "cəza" kəsir. Neçə ki, uduzan yoxdu, oyun davam edir.

Oyunu idarə edən buynuzlu və buynuzsuz olmağından aslı olmayaraq hər bir heyvanın adını çəkəndə barmağını qaldırır:

– Mırt-mırt keçi buynuzu.
– Mırt-mırt qatır buynuzu.
– Mırt-mırt cüyür buyunzu.
– Mırt-mırt sərçə buynuzu.
– Mırt-mırt dəvə buynuzu.
– Mırt-mırt öküz buynuzu və s.

Bu oyunda da bir neçə adam iştirak edir. Buynuzsuz heyvanlarda barmaq qaldırmaq olmaz. Kim qaldırsa, uduzmuş hesab olunur.

## ƏL ÜSTƏ KİMİN ƏLİ

Oyunda bir neçə nəfər oğlan uşağı iştirak edir. Bir nəfər ağzı üstə uzanır və gözlərini yumur. Arxada duran oğlanlar başlayırlar əllərini uzanan oyunçunun kürəyinə qoymağa. Birinci oyunçu əlini qoyduqdan sonra, ikinci oyunçu əlini birinci oyunçunun əlinin üstünə qoyur. Oyunçulardan biri soruşur:

– Əl üstə kimin əli?

Uzanan oyunçu tapsa ki, əl üstə əl qoyan kimdir, o zaman qalxır və uduzan – yə'ni əl üstə əlinin düzgün müəyyənləşdiyi adam uduzmuş hesab olunur və uzanmalı olur. Yenidən oyun davam edir.

Əllər bir-birinin üstünə qoyulur.

Hər dəfə soruşurlar:

– Əl üstə kimin əli?

Oyunçu tapa bilməsə, bir nəfər deyir:

– Qaldırın vurun, yalandı!

Bu vaxt üst-üstə olan əllər birlikdə qalxıb həmin oyunçunun kürəyinə enir və oyun yenidən davam edir. Oyunçu əl üstə olan əlin sahibini tapana qədər oyun beləcə davam edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## A XALA, BİR ÇÖRƏK

Oyun iki uşaq arasında aparılır. Bu oyunu əsasən qızlar oynayırlar.
Qızlardan biri deyir:
– A xala, bir çörək.
Bu vaxt "xala"rolunda çıxış edən qız hər iki əlinin barmaqlarını bir – birinin ucuna birləşdirir və onları bir – birindən aralı tutaraq deyir:
– Yuxarıkı damda.
Qız barmağını "xala"nın çəçələ barmaqlarına toxundurur və deyir:
– A xala, bir çörək...
"Xala" yenə deyir:
Yuxarıkı damda.
Qız yenə bir pillə də qalxır və deyir:
– A xala, bir çörək.
"Xala yenə deyir.
– Yuxarıdakı damda.
Beləliklə, o, ən yuxarıdakı "dama", yə'ni şəhadət barmağa qədər qalxır. Şəhadət barmağın üstünə çatanda yenə deyir:
– A xala, bir çörək...
"Xala" deyir:
– Əyil, təndirdən çıxart.
Qız deyir:
– İtin, pişiyin məni yeməz ki?
"Xala" deyir:
– İtim çöldə qoyun otarır, pişiyim isə yükün üstündə yumaq yumaqlayır.
Qız əlini uzadır ki, təndirdən çörək çıxartsın.
Burada çörək istəyən çalışmalıdır ki, əlini tez çəkib çıxara bilsin. "Xala" isə çalışır ki, qızın əlini tutub cırmaqlasın. Burada hər iki oyunçudan cəldlik tələb olunur. "Xala" qızın əlini tutub cırmaqlasa, yenə "xala" rolunda qalır və oyun davam edir. Qız əlini qaçırıb, "xala"nın tutmasına imkan verməsə, rollar dəyişir.

## QURRA ATMA

Burada oyunçuların və ya dəstələrin oyun zamanı mövqelərinin müəyyən edilməsi üçün müxtəlif üsul və vasitələrdən istifadə edilir. Məsələn ya oyunçuların, ya da dəstələrin adı ayrı – ayrı kağıza yazılıb,



qatlanır və bükülür. Onlar qarışdırılır. Kənarda üzünü yana çevirmiş "Küsən adam" adlandırılan bir nəfər də'vət olunur. O, kağızlardan hər hansı birini götürüb nəzarətçiyə verir. O orada kimin adı və oyunda tutduğu mövqeyi ucadan oxuyur və kağızı hamıya göstərir. Bu proses qatlanmış kağızlar qurtaranadək davam edir. Bununla püşkdə adı yazılan hər bir adamın oyundakı mövqeyi müəyyənləşdirilir. Bə'zən kağıza ad yazılmasının əvəzinə başqa bir üsuldan da istifadə olunur. "Küsən adam" üzünü əks tərəfə çevirib farağat vəziyyətdə dayanır. Diqqətlə aparıcının suallarını gözləyir.
Bir azdan aparıcının səsi eşidilir:
– Bu kimin?
Küsən adam istədiyi oyunlardan birinin adını çəkir.
– Bu filankəsin.
Bu sorğular sonuncu iştirakçının adı çəkilənə qədər davam edir.

## YERƏ PUL ATMA

Burada oyuna hansı oyunçunun və dəstənin birinci başlaması və yaxud üstünlüyə malik olması müəyyənləşir. Hər iki tərəfin razılığı ilə seçilmiş adam əlindəki pul sikkəsini, yaxudda düyməni yerə atır. Əvvəlki şərtə görə metal pulun hər üzü bir tərəfə aid edildiyindən yerdə görünən tərəfin oyunçusu üstünlük qazanır.
Bu üsuldan indi də, hətta beynəlxalq idman yarışlarında da istifadə edilir.

## YERƏ DAŞ ATMA

Burada çox da iri olmayan, diametri cəmisi bir neçə santimetr olan yastı və yuxa ləpik daşı seçilir. Daşın bir üzü quru qalır, digər üzü yaşlanır. Daşın hər tərəfi bir oyunçu və yaxud bir dəstəyə aid edilir. Ləpik daş hamının gözü qarşısında nəzarətçi tərəfindən bir metr yüksəklikdə fırladılaraq havaya atılır. Tərəflərdən hər biri öz mahnısını oxuyur:
Yaş üzü seçənlər:
—Yaş oldu
Baş oldu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quru üzü seçənlər:
—Quru-quru
Qurbanın olum.

Daş yerə çatdıqda hər şey həll olunur. Ləpik daşın hansı üzü yuxarı çevrilirsə, o tərəfi qalib sayılır.

## ƏLDƏ ŞEY GİZLƏTMƏ

Burada nəzarətçi şəxs mübahisəni kəsmək və ya oyunda birinciliyi kimə verilməsini müəyyənləşdirmək üçün hər hansı kiçik bir əşyanı - muncuq, dəmir pul, sancaq, düymə və sairəni oyunçulara göstərib iki əlini də arxaya aparır. Orada həmin əşyanı gah bu, gah da o biri ələ keçirməklə, oyunçuları çaş-baş salmağa çalışır. Sonra hər iki əlini yumruq şəklində qabağa, ağzı aşağı şəkildə uzadaraq deyir:

– Kim tapsa, o udub.

Oyunçulardan hansının dediyi düz olsa, üstünlük ona verilir.

## AŞIQ ATMA

Aşıq atmaqdan oyunlarda nəyin müəyyənləşdirilməsi yox, bəxt sınamalarında da geniş istifadə edilir. Aşığın altı tərəfi olduğundan, bir dəfəyə bir neçə məqsədi həyata keçirmək mümkün olur.

İki tərəfli oyunun şərtlərini müəyyənləşdirmək üçün aşığın, cik-bök və alçı-toxan tərəfindən istifadə olunur. Bəxt sınamalarında isə digər iki tərəfin yerdəki vəziyyəti daha uğurlu hesab olunur.

Aşığı atanda əksər hallarda yerə ya cik, ya da bök tərəfi düşür. Bə’zən aşığın "alçı" duruşu oyununun ən uğurlu məqamı sayılır. O, aşıq sahibinin oyunda qalib gəlməsi üçün əsas şərt hesab olunur. Aşığın daha çox alçı tərəfi cilalanıb, hamarlanır, şüşə kimi sürüşkən edilir. Belə aşıqlara "dilən" aşıqlar, yə’ni hamarlanmış aşıqlar deyirlər. Aşığın sonuncu duruşu daha mürəkkəbdir və nadir hallarda baş verir. Yə’ni, aşığın istər künəsi, istərsə də buynuzları üstə dayanması ancaq və ancaq yumşaq torpaq üstündə mümkündür. Belə ki, kimsə müəyyən şərtə görə əlindəki saqqa aşığı təxminən bir metr, yarım metr aralıda torpağa atırsa və o künəsi üstə durursa, həmin adam xoşbəxt sayılır. Aşığın yerdə buynuzları üstə dayanması daha böyük xoşbəxtliyin əlamətidir. Hər iki halda aşığın



vəziyyətinə "hompa" deyərlər. Saqqa aşığı istər müəyyən şərti müəyyənləşdirmək istərsə də bəxt sınamalarında ya hər bir nəfər özü üçün, ya da bir şəxs hamı üçün ata bilər.

## ATDIX-BASDIX

Burada iki dəstənin hər birindən bir nəfər seçilir. Onlar bir-birindən bir qədər aralı əks istiqamətdə dayanırlar. Onlar bir-birinə qarşı irəliləməlidirlər. Buna görə oyunçular növbə ilə bir ayağını, sonra isə o biri ayağını onun qabağına qoymaqla irəliləyir. Ayaqlar qabağa qoyulduqca birinin dabanı, o birinin burnuna dəyməlidir.

İlk dəfə ayağını irəli qoyan oyunçu deyir:

– Atdıq.

O birisi bir ayaq qoyub deyir:

– Basdıq...

Bu hal o vaxta qədər davam edir ki, axırda hansı oynçunun ayağının pəncəsi, o biri oyunçunun ayağının üstünə dəşərsə, qalib sayılır. Bu təsadüfi üstünlük oyunun başlanmasın da kimin üstünlük qazanmasını şərtləndirir.

Ayaqları növbədən artıq qoymaq və düz qoymamaq oyunun qaydasını pozmaq deməkdir. Müxtəlif cığallıq və bəhanələr gətirən tərəf uduzmuş hesab edilir.

## QANLI QAYA

"Qanlı qaya"nı oğlanlar oynayır. Oyunda 6,8,10 nəfər iştirak edir. Oyunçular yarıya bölünür. Onlardan iki nəfər ən bacarıqlısı seçilir. Qalan oyunçular halay gəlirlər.

İki nəfər qol-qola tutub dəstə başçılarının yanına gəlir və deyir:

Halay-halay, a bəylər!
Salaməleyk, a bəylər!

Sonra əllərində gətirdikləri manşırı-daşı, ağacı, yaxud dəsmalı, qələmi göstərirlər. Başçılardan biri deyir: (misal üçün) daş mənim, yaxud ağac mənim, öz aralarında manşırı bilən oyunçular dərhal seçilir: Daş mənəm, – deyə – həmin dəstə başçısının yanına keçir. Beləliklə, bütün oyunçular halaylanıb iki yerə bölünürlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bundan sonra "qanlı qaya" oyunu başlayır.

Dəstədə neçə oyunçu varsa, bir elə daş qaldırılır. Daşlar 25-300 metrlikdə (hər dəstənin öz daşı olur) bir-birindən 50-60 sm aralı sıra ilə düzülür. Sonra püşk atılır.Hansı dəstənin əvvəlcə başlamalı olduğu müəyyənləşir. Hər dəstə öz daşları tərəfində dayanaraq o biri dəstənin daşlarını yığmağa sə'y göstərir. Püşklə hansı dəstə birinci başlamaq imkanı qazanıbsa, onlardan biri rəqibin qayalarına tərəf bir daş atır. Atılan daş rəqib dəstənin qayalarından birini yıxsa, həmin oyunçu daha bir daş da atmaq imkanı qazanır. Yıxa bilsə, yenə daş atmaq imkanını özündə saxlayır. Yıxa bilməsə, növbə rəqib dəstəyə keçir. Ümumiyyətlə, hansı dəstə dik qoyulmuş daşları tez yığsa, o dəstə qalib sayılır. Dəstənin axırıncı qayasını vurub yıxan deyir:

– Alın qanlı qayanı!

Bundan sonra uduzan dəstənin oyunçuları udan dəstənin oyunçularını arxasına götürüb, yıxılan qayaların yanına aparır. Burada oyunçular halay gəldiyi adamı arxasına alır. Oyun yenidən başlayır. Yıxılan qayaları da uduzan dəstə qaldırır.

## ÇİLİNG-AAC

Oyunda 4, 6, 8, 10 və daha çox oğlan iştirak edir. Bu oyunda da uşaqlar iki yerə bölünür. Püşk atılır. Həvədə qalan dəstə "başa"çıxan dəstəni işlədir. Məqsəd hansı dəstənin daha yaxşı oynamasından, o biri dəstəni daha çox işlətməsindən ibarətdir.

Bir metr uzunluğunda ağac götürülür və təxminən bir qarış uzunluğunda nisbətən nazik çubuq düzəldilir. Çubuq çox zaman tubulğu ağacından düzəldilir ki, vuranda uzaq getsin. Bir metrlik ağac (ona "dəstə" deyilir) çubuğu (ona isə çəling deyilir) vurmaq üçün hazırlanır.

Oyun iki mərhələdə aparılır. Oyuna ilk dəfə başlayan, yə'ni həvədən (həvə balaca çuxur düzəldilmiş yerə deyilir) çiling vuran adam "toxma" ilə vurur. "Toxma" dəstəni əlinin içində uzununa tutub çiling yumulmuş əlinin üstünə qoyub sonra çilingi havaya atıb uzağa vurmağa deyilir. Oyuna başlayan üç nəfər "toxma" vurduqdan sonra "yellə"yə keçmək hüququ qazanır. "Yellə" isə artıq çiling vurmağın asan və uzağa vurmaq üsuludur. "Yellə"də sağ əldəki dəstə ilə sol əldəki çilingin havaya atılıb vurulması ilə icra olunur.

İşlək dəstə başa çıxan dəstədir. İşlədən dəstə isə həvədən çiling vuran dəstədir. İşləyən dəstə bir-birindən aralı dayanır. İşlədən dəstə isə çilingi onların başı üstündən uzağa, yana vurmağa çalışır. İşləyən dəstə vurulmuş çilingi göydə vursa, yaxud tutsa həvədən çiling vuran uduzmuş



hesab edilir. Bu vaxt işlədən dəstənin ikinci oyunçusu "dəstə" ilə – yə'ni ağac ilə çilingi – "toxma" üsulu ilə vurur. "Toxma" zamanı uduzmağın bir yolu da belədi: İşləyən dəstə əgər çilingi göydə vura bilsə, çiling yerə düşəndə onu götürüb çiling düşdüyü yerdən toxmanı (ağacı) vurmaq üçün atır. (Toxma vaxtı "dəstə" – ağac həvənin üstünə uzadılır) Əgər çilinglə "dəstə" – ağacı vura bilsə, yenə həvədəki adam uduzur. Oyuna digər yoldaş başlayır.

Oyuna başlayanın ixtiyarı var ki, uduzmuş yoldaşını oyuna qaytarsın. Toxmadan sonra e'lan edərək deyir: filan yoldaşımı diriltdirəm. (Çünki uduzana "öldü" deyirlər.) "Dirildən" vaxtı oyunçu "yellə"dən istifadə edir. "Yellədə" toxmanın əksi olaraq oyunçu "dəstə"nin aşağı ucunu həvənin içinə qoyur və əlindən tutur. O, bunu çiling vurduqdan sonra edir. İşləyən dəstənin oyunçularından biri çilingi həvəyə lap yaxın atmağa, bacarsa həvənin içinə salmağa cəhd edir. Əgər çiling (həvənin ortasından ölçülür) "dəstə"nin – ağacın boyu çatan məsafəyə düşübsə, işlədən tərəfin oyunçusu uduzmuş hesab olunur. Əks təqdirdə çilinglə həvənin arası həmin ağacla ölçülür. Neçə ağac olsa yadda saxlanılır. Tutaq ki, beş ağac oldu. Yenidən oyun davam edir. Yenə çiling vurulur. İşlək oyunçular çiling həvəyə heç olmasa, bir ağac boyu saxlamağa çalışarlar ki, həmin oyunçunu da "boğsunlar". (Yellə vaxtı çilingi vuran oyunçunun həvəsinə, işləyin oyunçular çilingi salsalar həmin oyunçu uduzdu demək əvəzinə, "boğuldu" deyilir.) Necə ki, həmin oyunçunu "boğa" bilməyiblər o, çilingini vurub rəqib dəstəni işlədir. Tutaq ki, birinci ölçüdə beş ağac olub, ikincidə isə 3 ağac, dördüncüdə isə 10 ağac oldu. Hesablanır 10 ağac çıxdı. Demək, əgər 16 ağaca çıxıbsa "ölmüş" yoldaş dirilmiş hesab olunur. Ancaq gərək 16 ağac düzələndən sonra yoldaşını dirildən adam bir ağac da vura -"boğulmaya". Bu ağaca yoldaşımın "qara-qurası" deyilir. Bundan sonra əgər uduzmuş ikinci, üçüncü yoldaş varsa, onları da "dirildə" bilər. İstəsə özü "toxma" atmaqdan qurtarıb bütövlükdə "yellə" edə bilər. "Yellə" vurmaq həm asan, həm də rəqib komandanı işlətmək üçün əlverişli yoldu. Bunun üçün 12 dəfə çiling vurmalı və "boğulmamalıdır".

Oyunda uduzan dəstə işləməli olur. Udan həvədən çiling vurur. "Yellə" vurmaq hüququ qazanan oyunçu çiling vuran zamanı rəqib oynçudan biri çilingi göydə tutsa, çiling tutan "yellə" olur, çilingi vuran həm uduzur, həm də "yellə" olmaq hüququndan məhrum olur.

## ƏL ÜSTƏ KİMİN ƏLİ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göyçə ellərində geniş yayılmış, bu oyun yaxın zamanlara qədər yeniyetmələr arasında böyük həvəslə oynanılırdı.

Oyun 3-8 nəfərin iştirakı ilə keçirilə bilər. Oyunda oğlanla, qıza fərq qoyulmur. Onlar ya ayrı-ayrı, ya da qarışıq oynaya bilərlər.

Oyun aşağıdakı kimi davam edir:

İstənilən sayda uşaq bir-birilərinə yaxın məsafədə dairə şəklində ayaq üstə dayanır. Onlardan hər biri sağ əlini ortaya doğru uzadır, ovuc aşağı olmaq şərti ilə, əllərini bir-birinin üstünə qoyurlar.

Əli lap aşağıda olan uşaq bir, iki, üç deyib birdən var gücü ilə hamının əlini yuxarıya itələyib deyir:

– Əl üstə kimin əli?

Hamı əlini havada açıq şəkildə saxlayır. Hakim baxır.

Oyunçulardan hansının əli ovucun aşağı istiqamətində olursa, o uduzmuş hesab edilib oyundan kənarlaşdırılır. Ovucları yuxarı istiqamətdə olanlar oyunu yenidən davam etdirirlər.

Bu oyun axıra iki uşaq qalanadək davam edir. Son həlledici görüş daha gərgin keçir. Oyuçulardan heç biri səhvə yol verməк istəmir. Nəhayət, oyunçularnan birinin əli aşağı vəziyyətdə dayananda, digəri oyunun qalibi sayılır və oyun yenidən başlanır.

## SİÇAN-PİŞİK

Bu uşaqlar arasında da bu gün geniş yayılan və sevilən oyunlardan biridir. Oyunda 8-20 və daha çox uşaq iştirak edə bilər. Digər uşaq oyunlarında olduğu kimi, burada da oğlanlar və qızlar ayrı-ayrı, ya da bir dəstədə qarışıq şəkildə oynaya bilərlər.

Oyuna başlamazdan əvvəl uşaqlar dairə şəklində əl-ələ tuturlar. Meydana də’vət olunan oyunçulardan iki nəfər seçilir. Onların arasında da püşk vasitəsi ilə "siçan" və "pişik" müəyyən olunur. Xüsusi göstərişlə oyun başlayır. "Siçan" çalışır ki, uşaqların qolları arasından tez dairəyə girsin. "Pişik" çalışır ki, onu daha tez vaxta tuta bilsin. "Siçan" tutulanadək oyun davam edir. Sonra "pişik"lə "siçan" bir--birlərini əvəz edirlər. Bu oyun da başa çatdıqdan sonra həmin uşaqlar dairədə öz yerlərinə keçirlər. Oyuna daha iki yeni oyunçu də’vət olunur.

Oyun beləcə davam edir.

Müəyyən olunmuş vaxtda tutulmayan "siçan" qalib, tuta bilməyən "pişik" məğlub hesab edilir. Oyunda dairədən kənara çıxmaq da yolverilməz hesab olunur.



## QAZLAR-QAZLAR

Bu oyuna başlamazdan əvvəl püşk vasitəsilə uşaqlardan biri "qurd" seçilir. Qalan uşaqlar yaş səviyyəsinə görə 50-100 metrlik məsafədə bir yer seçib ora toplaşırlar. "Qurd" mərkəzlə qazlara qədər olan məsafənin ortasında özünə bir yer tapır, orada gizlənir. Başda dayanan uşaq ucadan səslənir:

– Qazlar, qazlar...

Uşaqlar xorla bir ağızdan cavab verirlər:

– Nə var, nə var?

Uşaq deyir:

– Aralıqda canavar var, ətinizi yeyib, tükünüzü didəcək. Uşaqların hamısı başa doğru qaçır. Elə bu vaxt "qurd" onlara "hücum" edir. O "qazlardan" birini tutan kimi oyun bitmiş hesab edilir. Bu tutulan uşaq "qurd"a çevrilir. Əgər "qurd" qazlardan heç birini tuta bilmirsə, o yenə də əvvəlki yerində dayanır. Başa çatan "qaz"ı tutmaq kov sayılmır. Uşaqlar yorulanadək oyun davam edir.

## DƏSMAL-DƏSMAL

Uşaqlar iki dəstəyə bölünürlər. Hər dəstəyə bir başçı seçilir. Dəstələr bir-birindən 25-30 metr aralı bir-biri ilə üzbəüz əl-ələ tutub dayanırlar. Hər dəstədə 6-15 uşaq iştirak edə bilər.

Sıralanmış dəstələrin üzvləri bir-birinə tərəf durur. Hər dəstənin başında bir başçı dayanır. Onların tən ortasında bir nəfər dayanır. O, qollarını yanlara açaraq hər əlində bir dəsmal sallayır. Dəstə başçıları mərkəzdəkinin işarəsini gözləyir. Həmin şəxs bir, iki, üç deyən kimi dəstənin sağ tərəfində başda dayanan oyunçu mərkəzə doğru qaçır. Mərkəzdən oyunçunun əlindəki dəsmalın birini qapıb o biri dəstənin arxa tərəfindən keçməklə öz dəstəsindəki yerinə tələsir. Ondan sonrakı yoldaşı dəsmalı onun əlindən alıb oyunu həmin qaydada davam etdirir.

Oyun dəstələrdəki sonuncu uşağa qədər davam edir. Dəstələrdən hər hansı birinin sonuncu oyunçunun əlindəki dəsmalı mərkəzdəkinə daha tez çatdırsa, onun üzv olduğu komanda qalib hesab edilir və oyun yenidən başlanır.

Bu qədim xalq oyunu son vaxtlara qədər Göyçədə yaşayırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BƏNÖVŞƏ

Bu oyunda da iştirakçılar iki dəstəyə bölünür. Oyun 6-14 uşaq arasında aparılır. Dəstələr bir-birlərindən 25-30 metrlik məsafədə üzbəüz dayanırlar. Hər dəstəyə başçı seçilir. Dəstədəki oyunçular düz xətt boyunca əl-ələ tuturlar. Birinci dəstənin başçısı deyir:

– Bənövşə!

O biri dəstənin başçısı deyir:

– Bəndə düşə.

Birinci dəstənin başçısı:

– Bizdən sizə kim düşə?

O biri dəstənin başçısı qarşıdakı dəstədəki uşaqlardan birinin adını deyir:

– Adı gözəl, özü gözəl, filankəs.

Adı çəkilən uşaq əks dəstəyə, qarşıdakı tərəfə sür'ətlə qaçır. Əgər o qarşıdakı dəstədə əl-ələ tutmuş iki oyunçunun əllərini qoparıb keçərsə, həmin oyunçulardan birini öz dəstəsinə gətirir. Bu oyun bir dəstənin o biri dəstənin bütün oyunçularını axıradək özününkülərə qatdıqdan sonra başa çatır. Bundan sonra oyuna yenidən başlanılır.

## QUSDU-QUSDU

Bu oyun "gizlənpaç" oyununa çox oxşayır. Hər şey püşklə müəyyənləşdirildikdən sonra oyunçulardan biri "fətə" deyilən yerdə gözlərini yumur, qalanları qaçıb gizlənirlər. Oyun nəzarət edənin işarəsi ilə fətədə duran gözlərini açır. Oyunçuların hərəsi bir tərəfdən fətəyə can atır. Oyunun qaydasını görə oyunçulardan hər biri tutulmadan əlini fətəyə vurub "qusdu-qusdu" deməlidir. Fətədə duran buna nail olan oyunçunu tutmaq imkanından məhrum olur.

Gözünü yuman oyunçu heç kimi tuta bilmirsə, o yenə də fətədə təkrar gözünü yummalı olur. Amma oyunçulardan hər hansı birini tutarsa, həmin oyunçu fətədə gözünü yummalı olur.

Oyunda hər hansı bir cığallıq koydan sayılmır. Həmin oyunçu ya xaric edilir, ya da oyunun çətin hissəsinə qoşulur.

"Qusdu-qusdu" oyununda 5-10 uşaq oynaya bilər. Oyun bu gün də uşaqlar arasında maraqla oynanılır. Oyunda oğlanlar və qızlar birlikdə də oynaya bilərlər.

## QAÇDI-TUTDU



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu oyunda uşaqlar bir-birinin arxasında qoşa-qoşa dayanırlar. Başçı əlindəki topu və ya kosu bir, iki, üç dedikdən sonra gücü çatdığı qədər qarşıdakı açıq meydana atır. Sıranın önündə olan iki uşaq dərhal qaçır. Onlardan hansı biri atılmış topu tez tutub başçıya qaytarırsa qalib tanınır.

Oyun növbə ilə davam etdirilir. Oyunda uşaqların cüt-cüt dayanmasına məhdudiyyət qoyulmur. Oyunçulardan kimin kimlə tay durmasını özləri müəyyənləşdirirlər. Oyunu hamının razılığı ilə seçilmiş başçı idarə edir. Oyunda oğlanlar və qızlar ya ayrı-ayrı, ya da qarışıq oynaya bilərlər.

## HİL-HİL

Bu oyunda cəmi beş nəfər iştirak edir. Uşaqlardan ikisi halay gedirlər. Onlardan 2 nəfəri öz yerlərini tutandan sonra yerdə qalan 3 nəfər öz aralarında yerləri bölüşdürürlər. Onlardan biri əllərini arxada qoyub, ovcunda xırda bir daş gizlədir və yumulmuş əllərini qabağa uzadır. O biri uşaq onun əllərinə vura-vura belə oxuyur:

Ya bundadır, ya bunda,
Halva, çörək dükanda,
Nənəm dedi: aç bunda.

Bu zaman "da" hecası, hansı ələ işarə edilərsə, yumulmuş əl açılır. Daşı tapan öz yerini tutur. Beləcə, o biri uşaq da öz yerini tutur. Beləliklə, dörd uşaq 2-2 üz-üzə dayanırlar. 5-ci uşaq ağacdan və yaxud nazik və yüngül dəmirdən düzəldilmiş hili (kürəni) 6-7 metrlik məsafədən uşaqların arasındakı torpaqda qazılmış mərəyə (qalaya) atmağa çalışır. 4 nəfər uşaq isə öz əllərindəki dəyənəkləri ilə hili mərədən uzaqlaşdırmağa çalışırlar. Vurulan hil diyirlənib uzaqlaşır. Əgər işlək uşaq hili hərəkətdə ikən dəyənəyi ilə vursa, o, hili vurub uzaqlaşdıran uşağın yerini tutur. Əgər işlək uşaq hili asanlıqla mərəyə salsa, o, işləməkdən azad olar və uşaqlardan birinin yerini tutar. Əgər uşaqlardan biri öz dayandığı mərədən ayağını bir qədər aralı qoysa, işlək uşaq hiylə işlədib öz ayağını onun mərəsinə qoyub, onun yerini tuta bilər. Beləliklə də, səhv etmiş uşaq mərəsiz qalır və hili götürüb işləməyə məcbur olar.

## MOLLA-MOLLA



Uşaqlar halay vurub dəstələrə bölünürlər. Axırda 2 nəfər başçı öz aralarında püşk atır. Püşk hansı uşağa düşsə, o uşaq yumşaq torpaqda əlini dizlərinə dayaq edib əyilmiş vəziyyətdə durur.

Bu zaman uşaqlar öz dəstələrinə bir zirək molla seçirlər. Molla əyilən uşağın üstündən birinci hoppanır. Hoppanarkən ayağının düşdüyü torpaqdan xətt çəkir. İşlək uşaq isə xəttin üstündə dayanıb yenə də əyilir. Dəstənin bütün uşaqları əllərini işlək uşağın kürəyinə vurmaq şərti ilə onun üstündən hoppanırlar. Tullana bilməyən uşağın 2 dəfə hoppanmaqa hüququ var. Əgər hər ikisində hoppana bilməsə, öz yerlərini dəyişdirirlər.

Beləliklə, molla tullandıqca hoppanma məsafəsi də uzanır və tullanmaq çətinləşir. Hər dəfə hoppananda hoppanma məsafəsini molla özü müəyyən edir.

Molladan əvvəl tullanan uşaq cərimə olunur və işlək uşağın yerini tutur. Əgər mollanın özü məsafələrdən hoppana bilməsə, onda təzə molla seçilir və köhnə molla işləməyə məcbur olur. Oyunun qanununa əsasən əgər hoppanma məsafəsi uzanarsa, bu zaman molla işlək uşağı məcbur edər ki, uzun məsafəni o da hoppansın. Bu zaman mollanın özü onun yerində əyilir. İşlək uşaq bu məsafəni hoppana bilsə, yenə də məsafə uzanır, hoppana bilməsə, oyun təzədən başlanır.

## ŞAPPI-ŞAPPI

4-5 nəfər uşaq növbə ilə yumşaq torpağa uzunluğu 40-50 sm ölçüdə ucu yonulmuş ağaclar vururlar. Hər uşaqda 5-10 ağac olur. Bunlara şappı deyilir. Hər uşaq şappını elə vurmalıdır ki, zərblə torpağa dəyib o biri uşağın şappısını yıxsın. Beləcə, şappılar bir-birinin üstünə zərblə vurulur. Zərbələrdən yıxılan şappılar qalib gəlmiş şappıların sahibinə çatır. Udulmuş şappılardan yanacaq kimi istifadə edilir.

## DAŞ VURDU

İki uşaq qoz və ya yumurta böyüklükdə yumru daş götürür. Birinci uşaq öz daşını 5-6 metr aralı tullayır. O biri uşaq çalışır ki, öz daşını yoldaşının daşına vursun. Odu ku, daşı sərrast atmaq lazımdı. Əgər daş daşa dəyərsə, daşı vurulan uşaq onu belinə götürür. Saqqa daşa çatana qədər onu belində gəzdirir. Saqqa daşa çatanda onu yerə qoyur. Oyun yenidən bu qaydada davam etdirilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## QOZ-QOZ

Bu oyunu Novruz bayramı günlərində oynayırlar. İki uşaq torpaq üzərində vedrənin üst dairəsi boyda dairə çəkir. Sonra dairənin ortasından düz xətt çəkilir. Xəttin üzərinə hərəsi 2 və yaxud 3 qoz qoyur. Sonra onlar öz aralarında iki saqqa qoz seçirlər. Bu qozlar ağır və möhkəm olmalıdır. Uşaqlardan biri 5-6 metr məsafədən dairəyə tərəf öz saqqa qozunu atır. Əgər saqqa qozlardan hər hansı birinə toxunub dairədən çıxarsa, o uşaq saqqa qozun yanından dairədəki qalan qozları da vurub çıxarmaqa haqqı qazanır. Əgər saqqa qoz dairədəki qozları çıxara bilməsə, o biri uşaq öz saqqa qozu ilə oyuna qoşulur. Uşaqlardan biri dairədəki bütün qozları vurub çıxararsa, o oyunu udmuş olur və qozlar ona çatır. Sonra oyunu təzədən başlayırlar. Saqqa daş təsadüfən dairənin içərisində qalsa, onu vurub çıxarmaq olmaz.



# SÖYLƏYƏNLƏR HAQQINDA MƏ'LUMAT

MİFOLOJİ NAILLAR. MİFOLOJİ RƏVAYƏTLƏR, İNANCLAR. Göyçə mahalının Ağbulaq kənd sakinləri İsmayıl Əhməd oğlundan (82 yaşlı), Müseyib Vəli oğlundan (98 yaşlı), Abduləzim Vəli oğlundan (103 yaşlı), Minəvvər Şükür qızından (82 yaşlı), Ələsgər İsmayıl oğlu Əhmədovdan (64 yaşlı), Yusif Bayram oğlu Zeynalovdan (70 yaşlı), Xalış İsmayıl oğlu Əhmədovdan (80 yaşlı), Ardanış kənd sakinləri Məcid Yusif oğlu İbrahimovdan (70 yaşlı), Bayram İbrahim oğlu Hüseynovdan (94 yaşlı), Şişqaya kənd sakini Nəbiyeva Dursun Oruc qızından (89 yaşlı), Dərə kənd sakini Bayramov Ramazan Şiralı oğlundan (82 yaşlı), Pəmbək kənd sakini Rəfiyev Müslüm Həsən oğlundan (85 yaşlı), Subatan kənd sakini Zimistan Ata oğlu Abdullayevdən (74 yaşlı), Sarıyaqub kənd sakinləri Məmədova Gözəl Məhəmməd qızından (75 yaşlı), Süleymanov Əli Behbud oğlundan (74 yaşlı) yazıya alınmışdır.

MƏRASİM NƏMƏLƏRİ. Toxluca kənd sakini Əli Qələndər oğlundan (95 yaşlı), Ağbulaq kənd sakinləri Cəfər Cabbar oğlundan (94 yaşlı), Bəsti Qərib qızından (80 yaşlı), Sarıyaqub kənd sakini Məmmədova Gözəl Məhəmməd qızından (75 yaşlı) yazıya alınmışdır.

HOLAVARLAR. Ağbulaq kənd sakinləri İsmayıl Əhməd oğlundan (82 yaşlı), Cəfər Cabbar oğlundan (94 yaşlı), Qostan Yusif qızından (70 yaşlı), Səkinə Musa qızından (52 yaşlı), Ardanış kənd sakini Tükəz Rəhim qızından (90 yaşlı), Cil kənd sakini Mahizər Cəfər qızı İbrahimovadan, Subatan kənd sakini Vəliyeva Qızbəs Kazım qızından (80 yaşlı) toplanmışdır.

SAYAÇI SÖZLƏRİ. Ağbulaq kənd sakinləri Münəvvər Şükür qızından (84 yaşlı), Zülfü Kərbəlayi Əli qızından (82 yaşlı), Cəmil Musa oğlu Nəsibovdan (84 yaşlı), Zəhra Məşədi Xamay qızı Əliyevadan (76 yaşlı), Ardanış kənd sakini Kərim Namaz oğlu Paşayevdən (70 yaşlı), Pəmbək kənd sakini Gülzar Musa qızı Heydərovadan (75 yaşlı) yazıya alınmışdır.

EYDİRMƏLƏR. Ağbulaq kənd sakini Ayna Məsmalı qızı Zeynalovadan (78 yaşlı), Göyərçin Musa qızı Əhmədovadan (64 yaşlı) yazıya alınmışdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

VƏSFİ–hALLAR. Şorca kənd sakini Pərvin Miryaqub qızı Məsimovadan (70 yaşlı), Pəmbək kənd sakini Gülzar Musa qızı Heydərovadan (70 yaşlı), Sarıyaqub kənd sakini Firəngiz Budaq qızı Hüseynovadan (78 yaşlı) yazıya alınmışdır.

XALQ MAHNILARI. Şairə Səadət Butadan, Güney kənd sakinləri Alıyev Allahverdi Məmməd oğlundan (75 yaşlı), Züleyxa Allahverdi qızı Əhmədovadan (75 yaşlı), Yarpızlı kənd sakinləri Qəndab Tağı qızı Fərzəliyevadan (67 yaşlı), Oruc Vəli oğlu Əhmədovdan (56 yaşlı) yazıya alınmışdıpr.

ALQIŞLAR. Qoşabulaq kənd sakinləri Pullu Abbasəli qızı Abbasovadan (72 yaşlı), Qumru Allahverdi qızı Abbasovadan (70 yaşlı), Ağbulaq kənd sakinləri Səkinə Musa qızı Əhmədovadan (52 yaşlı), Züleyxa Məşədi Həsən qızı Nəsibovadan (72 yaşlı), Subatan kənd sakini Vəliyeva Qızbəs Kazım qızından (80 yaşlı), Bala Məzrə kənd sakini Ramazanov Mikayıl Qurbanəli oğlundan yazıya alınmışdır.

QARIŞLAR. Ağbulaq kənd sakinləri Səmayə Zülfüqar qızı Məmmədovadan (78 yaşlı), Zəhra Məşədi Xamoy qızı Əliyevadan (74 yaşlı), Şişqaya kənd sakini Dursun Oruc qızı Nəbiyevadan (88 yaşlı), Subatan kənd sakini Bilqeyis Musa qızı Abdullayevadan (65 yaşlı) yazıya alınmışdır.

ƏFSANƏLƏR

GÖYÇƏ GÖLÜ. Əfsanə Ağbulaq kənd sakini Abduləzim Vəli oğlundan (103 yaşlı) yazıya alınmışdır.

UUZ QƏBRİ. Bu əfsanəni Ağbulaq kənd sakini İsmayıl Əhməd oğlu (82 yaşlı) söyləmişdir.

BƏZİRGAN QAYASI. Əfsanə Ağbulaq kənd sakini Salman Əli oğlu Zeynalovdan (85 yaşlı) yazılmışdır.

XOR–XOR. Əfsanə Ağbulaq kənd sakini İsmayıl Əhməd oğlundan (82 yaşlı) yazıya alınmışdır.

ADA–QARADA. Əfsanəni Pəmbək kənd sakini Zeynalabdı Musa oğlu Şəbəndəyev (86 yaşlı) söyləmişdir.

KƏMƏND QAYA. Əfsanə Ağbulaq kənd sakini Nəsib Zülfüqar oğlu Zeynalovdan (84 yaşlı) yazıya alınmışdır.

QATARQAYA. Əfsanəni Ağbulaq kənd sakini Cəmil Musa oğlu



Nəsibov (84 yaşlı) söyləmişdir.

QIRXBULAQ. Əfsanə Daşkənd kənd sakini Məmmədov Oruc Budaq oğlundan (65 yaşlı) yazıya alınmışdır.

PİR DAI. Əfsanə Sarıyaqub kənd sakini Məmmədova Gözəl Məhəmməd qızından (75 yaşlı) yazıya alınmışdır.

KEYTİ. Əfsanəni Daşkənd kənd sakini Aşıq Hacı Bayramov (65 yaşlı) söyləmişdir.

PİR DAI. Əfsanə Ağbulaq kənd sakini Abduləzim Vəli oğlundan (103 yaşlı) yazılmışdır.

KEYTİ. Əfsanəni Daşkənd sakini Aşıq Hacı Bayramov (65 yaşlı) söyləmişdir.

PİRBULAI. Əfsanə Ağbulaq kənd sakini Abduləzim Vəli oğlundan (103 yaşlı) yazılmışdır.

DARCAN QARI. Əfsanəni Ağbulaq kənd sakini Alıskəndər Vəli oğlu (90 yaşlı) söyləmişdir.

NƏHLƏTDƏMƏ. Əfsanə Yenikənd kənd sakini Məmmədəli Qurbanovdan (78 yaşlı) yazıya alınmışdır.

AY VƏ GÜN. Əfsanəni Sarıyaqub kənd sakini Firəngiz Budaq qızı Hüseynova (78 yaşlı) söyləmişdir.

ACAQALA. Əfsanəni prof. Qara Namazov təqdim etmişdir. Söyləyəni: Əmirxeyir kənd sakini Balakişi Əhməd oğlu Məmmədov (96 yaşlı).

QIZ QALASI. Əfsanəni Nərimanlı kənd sakini Hüseynov Lətif Paşa oğlu (70 yaşlı) söyləmişdir.

ANADANQUŞU. Əfsanəni Sarıyaqub kənd sakini Hüseynov Lətif Paşa oğlu (70 yaşlı) yazıya alınmışdır.

AZƏRBAYCAN. Əfsanəni Sarıyaqub kənd sakini Süleymanov Əli Behbud oğlu (67 yaşlı) söyləmişdir.

SUBATAN. Əfsanə Subatan kənd sakini Zimistan Ata oğlu Abdullayevdən (74 yaşlı) yazıya alınmışdır.

BASARKEÇƏR. Əfsanəni Subatan kənd sakini Abdullayev Zimistan Ata oğlu (74 yaşlı) söyləmişdir.

GƏLİNQAYA. Əfsanə Sarıyaqub kənd sakini Mustafayev Sultan Məmmədəli oğlundan (70 yaşlı) yazıya alınmışdır.

QADINLAR HAQINDA ƏFSANƏ. Əfsanəni Mahı Hümmət qızı Həsənova (80 yaşlı) söyləmişdir.

"QIŞ–BAHAR", "BÖYÜK ÇİLLƏ VƏ KİÇİK ÇİLLƏ", "QIZILGÜL VƏ BÜLBÜL", "LALƏ" (LALAXAŞ), "YASƏMƏN", "GÜLXƏTMİ", "GİCİRTİKAN", "DANAQIRAN" əfsanələrini Ağbaba mahalının Qaranamaz kənd sakini Sultan Baxış qızı Musayeva (110 yaşlı)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söyləmişdir.

GƏLİNBOAN. Əfsanəni Sarıyaqub kənd sakini Bağırov Talıb Fərman oğlu (76 yaşlı) söyləmişdir.

RƏVAYƏTLƏR. "Balığı at dəryaya, balıq bilməsə də, xalıq biləcək", "Bəylə bostan əkənin tağı çiynində bitər", "Tələ yiyəsi gəlif tələsini açajax", "İlanın ağına da lə’nət, qarasına da", "Eşşəyin ajımışı atdan yeyin gedir" əfsanələrini Sarıyaqub kənd sakinləri Firəngiz Budaq qızı Hüseynova (78 yaşlı), Hüseynov Lətif Paşa oğlu (65 yaşlı) söyləmişlər.

"Dəvəçi ilə dost olanın darvazası gen gərək", "Qızım sana deyirəm, gəlinim sən eşit", "Dəli bir quyuya daş atdı, yüz ağıllı yığıldı, çıxara bilmədi", "Kosaya hərə bir tük versə, kosa da saqqallı olar", "Buğa uçan", "Buğa bölünən" rəvayətləri Sarıyaqub kənd sakinləri Bayramov Musa Nəsib oğlundan (56 yaşlı), Hüseynov Lətif Paşa oğlundan (65 yaşlı), Süleymanov Əli Behbud oğlundan (67 yaşlı) yazıya alınmışdır.

"Qurda rəmh eləmək, qoyuna zülm eləmək imiş" rəvayətini Ağbulaq kənd sakini Ələsgər İsmayıl oğlu Əhmədov (64 yaşlı) söyləmişdir.

"Dilənçinin çörəyinə bais olma" rəvayətini Ağbulaq kənd sakini Aslan Hüsey oğlu Həsənov (75 yaşlı) söyləmişdir.

"Bəylik kəndi" rəvayəti Ağbulaq kənd sakini İsmayıl Əhməd oğlundan (82 yaşlı) yazıya alınmışdır.

"Cığal Hasan", "Dəvəli Kürd Cığalın üstünə qoşun çəkir" rəvayətlərini Toxluca kənd sakini Əli Qələndər oğlu (95 yaşlı) söyləmişdir.

NAILLAR

TORÇU OLU. Toxluca kənd sakini Baxşəli Hümmət oğlundan (90 yaşlı) yazıya alınmışdır.

CAHAN KEÇDİ DƏRVİŞ. Nağılı Ağbulaq kənd sakini İsmayıl Əhməd oğlu (82 yaşlı) söyləmişdir.

SƏLİMİN NAILI. Nağılı Ağqala kənd sakini Nəsrəddin Mirələkbər oğlu Məcidov (70 yaşlı) danışmışdır.

SƏNUBƏRİN NAILI. Nağılı Ağbulaq kənd sakini Cəmil Musa oğlu Nəsibov (84 yaşlı) söyləmişdir.

TİLSİMƏ DÜŞMÜŞ QIZ. Nağılı Qanlı kənd sakini Abbasov Həsən Mahmud oğlu (72 yaşlı) söyləmişdir.

NARIN XANIMIN NAILI. Nağıl Ağbulaq kənd sakini Məhəmmədəli Musa oğlu Abbasəliyevdən (64 yaşlı) yazıya alınmışdır.

MƏMMƏDİN NAILI. Nağılı Ağbulaq kənd sakini Balı Bayram oğlu



Zeynalov (70 yaşlı) söyləmişdir.

ƏLİNİN NAILI. Nağılı Subatan kənd sakini Əhmədov Əlibəy Ağayar oğlu (74 yaşlı) söyləmişdir.

DƏRZİ ŞAGİRDİ ƏHMƏD. Nağıl Şorca kənd sakini İsmayılov Hüseynov Rəhim oğlundan (105 yaşlı) yazılmışdır.

ƏHMƏD ŞAHIN NAILI. Nağıl Qoşabulaq kənd sakini Abbasov Bayram Zeynalabdı oğlundan (70 yaşlı) yazıya alınmışdır.

KEÇƏLİN NAILI. Nağılı Ağbulaq kənd sakini Balı Bayram oğlu Zeynalov (70 yaşlı) söyləmişdir.

KEÇƏL BƏDƏLİN NAILI. Nağılı Ağbulaq kənd sakini Balı Bayram oğlu Zeynalov (70 yaşlı) söyləmişdir.

DASTANLAR

MİSKİN ABDAL VƏ SƏNUBƏR. AŞIQ ALININ TÜRKİYƏ SƏFƏRİ. Daşkənd kənd sakini Aşıq Hacı Bayramovdan (65 yaşlı) yazıya alınmışdır.

AŞIQ ƏLƏSGƏRİN QARAQOYUNLU SƏFƏRİ. Prof. Qara Namazov Əmirxeyir kənd sakini Mikayıl Alı oğlundan (80 yaşlı) qələmə almışdır.

"MİRMƏCİD AAyNAN ƏLƏSGƏRİN DEyİŞMƏSİ". Ağqala kənd sakini Mirkəbir Seyidzadədən (80 yaşlı) qələmə alınmışdır.

ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR. Ağbulaq kənd sakini İsmayıl Əhməd oğlundan (82 yaşlı), Salman Əli oğlu Zeynalovdan (85 yaşlı), Abduləzim Vəli oğlundan (103 yaşlı), Qasım İsmayıl oğlundan (113 yaşlı), Zirəddin Ağamalı oğlu Məmmədovdan (60 yaşlı), Balı Bayram oğlu Zeynalovdan (63 yaşlı), Səkinə Musa qızı Əhmədovadan (52 yaşlı), Mirələkbər Miryaqub oğlu Cavadovdan (69 yaşlı), Cil kənd sakinləri Aşıq Müseyib Qasım oğlundan (92 yaşlı), Mazanov Əli Abbas oğlundan (70 yaşlı), Ardanış kənd sakinləri Bayram İbrahim oğlu Hüseynovdan (93 yaşlı), Vəliyev Oruc Məhərrəm oğlundan (90 yaşlı), Şişqaya kənd sakini Rüstəmov Ənvər Cavad oğlundan (60 yaşlı), Subatan kənd sakini Zimistan Ata oğlu Abdullayevdən (74 yaşlı), Qanlı kənd sakini Abbasov həsən Mahmud oğlundan (63 yaşlı), Güney kənd sakinləri Alıyev Allahverdi Məmməd oğlu (75 yaşlı), Züleyxa Allahverdi qızı Əhmədova (75 yaşlı), Yarpızlı kənd sakinləri Qəndab Tağı qızı Fərzəliyeva (67 yaşlı), Oruc Vəli oğlu Əhmədov (56 yaşlı), Qaraqoyunlu kənd sakini İmanov Teyyub Sadıq oğlundan (70 yaşlı) yazıya alınmışdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

LƏTİFƏLƏR. Lətifələri Ardanış kənd sakini Kərim Namaz oğlu Paşayev (70 yaşlı), Çaykənd sakini Qurban Süleymanov (70 yaşlı), Subatan kənd sakinləri Şəliyev Mehdi Abdulla oğlu (105 yaşlı), Vəliyev Bayram Süleyman oğlu (68 yaşlı), Abbasov Mikayıl İsmayıl oğlu (66 yaşlı), Ağyoxuş kənd sakini Cəfərov Bəhmən Salman oğlu (61 yaşlı), Ağbulaq kənd sakinləri Zirəddin Ağamalı oğlu Məmmədov (62 yaşlı), İmran Bayram oğlu Zeynalov (59 yaşlı), Yusif Bayram oğlu Zeynalov (75 yaşlı), Pəmbək kənd sakini Hüseynov Abdulla Hüseyn oğlu (106 yaşlı), Sarıyaqub kənd sakini Firəngiz Bayram qızı Hüseynova (78 yaşlı), Süleymanov Əli Behbud oğlu (74 yaşlı), Güney kənd sakini Alıyev Allahverdi Məmməd oğlu (75 yaşlı) söyləmişlər.

TAPMACALAR. Ağbulaq kənd sakinləri Cəfər Cabbar oğlundan (93 yaşlı), İsmayıl Əhməd oğlundan (82 yaşlı), Əhməd İsmayıl oğlu Əhmədovdan (69 yaşlı) , Rəşid Abbasovdan (72 yaşlı), Məhərrəm Musa oğlu Nəsibovdan (62 yaşlı), Ardanış kənd sakinləri Abdullayev Abdul Ələs oğlundan (73 yaşlı), Bayramov Abbasəli Hümmət oğlundan (85 yaşlı), Cil kənd sakinləri Mazanov Abbas Əli oğlundan (72 yaşlı), İmranov Rəhim Zaman oğlundan (87 yaşlı), Hüseynov Zeynalabdı Oruc oğlundan (70 yaşlı), Subatan kənd sakini Ələkbərova Əsli Elləz qızından (66 yaşlı), Bala Məzrə kənd sakini Qurban Süleymanovdan (73 yaşlı) Güney kənd sakini Alıyev Allahverdi Məmməd oğlundan (75 yaşlı) yazıya alınmışdır.

BAYATILAR. Bala Məzrə kənd sakini Bayramov Nəriman Misir oğlu (65 yaşlı), Babacan kənd sakini Vəliyev Qədir Zal oğlu (84 yaşlı), Cil kənd sakini Aşıq Müseyib Aşıq Qasım oğlu (93 yaşlı), Pürzə Məhəmməd qızı Adıgözəlova (78 yaşlı), Pəmbək kənd sakini Zeynalabdı Musa oğlu Şəbəndəyev (85 yaşlı), Subatan kənd sakini Şəldiyev Bayram Əsəd oğlu (72 yaşlı), Alıyev Telli Vəli qızı (73 yaşlı), Daşkənd kənd sakini Məsimov Xanbuta Bayram oğlu (73 yaşlı), Ardanış kənd sakini Səlvi Məhəmməd qızı (105 yaşlı), Bayramxatun İsa qızı Qasımova (90 yaşlı), Paşayev Əhməd Əli oğlu (70 yaşlı), Ağbulaq kənd sakinləri Münəvvər Şükür qızı (90 yaşlı), Səkinə Musa qızı Əhmədova (52 yaşlı), Göyərçin Musa qızı Əhmədova (58 yaşlı), Zilfi Kərbalayı Əli qızı (80 yaşlı), Ayna Məsmalı qızı Zeynalova (58 yaşlı), Ağyoxuş kənd sakini Cəfərov Nəriman Salman oğlu (57 yaşlı), şairə Səadət Buta, Qaraqoyunlu kənd sakini Xoşqədəm Sadıq qızı İmanova (68 yaşlı), Güney kənd sakini Züleyxa Allahverdi qızı Əhmədova (75 yaşlı), Yarpızlı kənd sakinləri Qəndab Tağı qızı Fərzəliyeva (67 yaşlı), Oruc



Vəli oğlu Əhmədov (56 yaşlı), söyləmişlər.

AILAR. Qoşabulaq kənd sakini Bayram Zeynalabdı oğlu Abbasovdan (72 yaşlı), Qaraqoyunlu kənd sakini Teyyub Sadıq oğlu İmanovdan (70 yaşlı), Subatan kənd sakinləri Şəldiyeva Qızbəs Kazım qızından (80 yaşlı), Abbasov Mikayıl İsmayıl oğlundan (70 yaşlı), Ağbulaq kənd sakini Züleyxa Məşədi Həsən qızı Nəsibovadan (70 yaşlı), Fizzə Həsən qızı Abbasəliyevadan (69 yaşlı), Səkinə Musa qızı Əhmədovadan (52 yaşlı), Sarıyaqub kənd sakini Firəngiz Budaq qızı Hüseynovadan (72 yaşlı) yazıya alınmışdır.

UŞAQ FOLKLORU

BEŞİK NƏMƏLƏRİ. LAYLALAR. Cil kənd sakini Həvva Kərbalayı Mürsəl qızından (80 yaşlı), Zərkənd kənd sakini Nəbiyeva Dursun Oruc qızından (87 yaşlı), Dərə kənd sakini Məmmədova Gülgəz Kazım qızından (80 yaşlı), Ağbulaq kənd sakini Əliyeva Telli Vəli qızından (60 yaşlı), Subatın kənd sakini Səkinə Musa qızı Əhmədovadan (52 yaşlı) yazıya alınmışdır.

NAZLAMALAR... ƏZİZLƏMƏLƏR. Ağbulaq kənd sakinləri Səkinə Musa qızından (52 yaşlı), Ətlas İsa qızı Əhmədovadan (75 yaşlı), Qaraqoyunlu kənd sakini Güləbətin Teymur qızı Hüseynovadan (70 yaşlı), Ardanış kənd sakini Səlvi Məhəmməd qızından (105 yaşlı) yazılmışdır.

NAILLAR

ÖZÜNÜ TÜLKÜDƏN QORU. Ağbulaq kənd sakini Balı Bayram oğlu Zeynalov (65 yaşlı) söyləmişdir.

EŞŞƏK, İT, XORUZ VƏ PİŞİK. Qaranamaz kənd sakini Sultan Baxış qızı Musayeva (110 yaşlı) söyləmişdir.

SALXIM SUVAR BƏY NAILI. Ağbulaq kənd sakini Ələsgər İsmayıl oğlu Əhmədovdan (64 yaşlı) yazıya alınmışdır.

HİLİ VƏ MİM. Ağbulaq kənd sakini Balı Bayram oğlu Zeynalov (65 yaşlı) söyləmişdir.

ÖRDƏK. Ardanış kənd sakini Bayramxatun İsa qızı Qasımovadan (92 yaşlı) yazıya alınmışdır.

SİCİLLƏMƏLƏR. Ağbulaq kənd sakini Abduləzim Vəli oğlundan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(103 yaşlı), Çaykənd kənd sakini Qurban Süleymanovdan (72 yaşlı), Sarıyaqub kənd sakini Süleymanov Əli Behbud oğlundan (74 yaşlı) yazıya alınmışdır.

YANILTMACLAR. Babacan kənd sakini Şükür Süleyman oğlu İlyasov (80 yaşlı), Sarıyaqub kənd sakini Hüseynov Lətif Paşa oğlu (70 yaşlı), Ağbulaq kənd sakini Cəlil Musa oğlu Nəsibov (84 yaşlı) söyləmişlər.

OYUNLAR. Ağbulaq kənd sakini Alıskəndər Vəli oğlu Məmmədovdan (90 yaşlı), Cəlil Musa oğlu Nəsibovdan (84 yaşlı), Zəhra Məşədi Xamoy qızı Əliyevadan (70 yaşlı), Ardanış kənd sakini Bayram İbrahim oğlu Hüseynovdan (92 yaşlı), Daşkənd kənd sakini Məsimov Xanbuta Budaq oğlundan (72 yaşlı), Sarıyaqub kənd sakinləri Aslanov Xəlil Mehdi oğlundan (77 yaşlı), Qızbəs Məmməd qızı Musayevadan (74 yaşlı), Hüseynov Lətif Paşa oğlundan (70 yaşlı), Qoşabulaq kənd sakini Mövlayeva Səringül Salman qızından (80 yaşlı) yazıya alınmışdır.



## KİTABIN İÇİNDƏKİLƏR

GÖyÇƏyə QAyIDAN yOL FOLKLORDAN KEÇİR... (*prof. Y.QARAYEV*)....3
UZAQ ETNİK MƏNŞƏyİN, yAXIN MİLLİ GƏLƏCƏyİN İNDİ QÜRBƏT VƏTƏNİ—GÖyÇƏ (*H.İSMAYILOV*)....16
MİFLƏR
MİFOLOJİ NAILLAR
Məleykənin nağılı....48

İlanın nağılı....49
İlan oğlan....52
Qismət....53
Cin dərəsi....54
Cin gəlini....55
Şeytanın dostluğu....56
Baxtın qayıtması....57
MİFOLOJİ RƏVAYƏTLƏR....60
İNANCLAR....82
MÖVSÜM VƏ MƏRASİM NƏMƏLƏRİ
Qodu-qodu nəğməsi....107
Holavarlar....108
Sayaçı sözləri....111
Eydirmələr....113
Vəsfi-hallar....114
XALQ MAHNILARI
Sallana-sallana....115
Gəlir....115
Sabah oldu....116
Almaram....116
Ay oğlan....117
Həsən gəl....117
Almanı dərən....118
Al məni....119
ALQIŞLAR....120
QARIŞLAR....130
ƏFSANƏLƏR
Göyçə gölü....143
Uğuz qəbri....145
Bəzirgan qayası....146



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xor–xor........148
Ağ dağ Qara dağ........149
Kəmənd qaya........149
Qatar qaya........150
Qırxbulaq........151
Pir dağı........155
Geyti........157
Pəri bulağı........160
Darcan qarı........162
Nəhlətnamə........163
Ay və gün........164
Ağca qala........166
Qız qalası........168
Qoşabulaq........177
Anadan quşu........179
Azərbaycan........180
Subatan........184
Daş çovan........185
Qiblə bulağı........185
Basarkeçər........187
Gəlin qaya........188
Qadınnar haqqında əfsanə........194
Qış-bahar........199
Böyük çillə və kiçik çillə........201
Qızılgül və bülbül........202
Lalə (lalaxaş)........203
Yasəmən........204
II variant........205
Gülxətmi........205
Gicitkan........206
Danaqıran........206
Gəlinboğan........207
RƏVAYƏTLƏR
Balığı at dəryaya, balıx bilməsə də, xalıx biləjək........209
Bəynən bostan əkənin tağı çiynində bitər........209
Tələ yiyəsi gəlif, tələsini açajax........210
İlanın ağına da lə'nət, qarasına da........211
Eşşəyin ajımışı atdan yeyin gedər........211
Dəvəçiynən dost olanın darvazası gen gərək........211

Qızım, sana deyirəm, gəlinim, sən eşit........212
Dəli bir quyuya daş atdı, yüz ağıllı yığıldı, çıxarda bilmədi........212
Kosaya hərə bir tük versə, kosa da saqqallı olar........213
Buğa uçan. Buğa bölünən........213
Qurda rəhm eləmək, qoyuna zülm eləmək imiş........214
Dilənçilərin çörəyinə bais olma........215
Bəylik kəndi........218
Cığal Hasan........221
Dəvəli kürdü Cığalın üstünə qoşun çəkir........222
Ehtiyatdı ol........226
XALQ TƏBABƏTİ
GÖyÇƏ LOMANI yADDAŞLARDA........227
TÜRKƏÇARƏLƏR........236
NAILLAR
Torçu oğlu........258
Cahan keşdi dərviş........268
Səlimin nağılı........277
Sənubərin nağılı........285
Tilsimə düşmüş qız........297
Narın xanımın nağılı........309
Məhəmmədin nağılı........323
Əlinin nağılı........332
Dərzi şagirdi Əhməd........345
Əhməd şahın nağılı........372
Keçəlin nağılı........376
Keçəl Bədəlin nağılı........380
DASTANLAR
Miskin Abdal və Sənubər........389
Aşıq Ələsgərnən Mir Məcid Ağanın görüşü........442
Aşıq Alının Türkiyə səfəri........446
Aşıq Ələsgərin Qaraqoyunlu səfəri........481
ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR........492
LƏTİFƏLƏR
Bir od yox, ikisini gətirdim........560
Yemişəm, öz orucumu yemişəm........560
Rəhmətlik tanış çıxdı........561
Fəndini də gətirin........562
Görüm yenə pəhlivan varmı?........563

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Paşa ayı ovluyur.......................................................................564
Adımı dəyişik yazdırım?...................................................564
İtimizin yal qavını niyə qırdınız?..................................565
Bir adama iki dəfə toy olmaz..............................................566
Al, zurnanı çal......................................................................567
Oralar kişi yeridi................................................................568
Sənin əvəzinə məni aparajaydı..........................................568
Dadanıf qaz ətinə..................................................................570
Baxar ölüsünə.........................................................................572
Olsa yaxşıdımı?.....................................................................573
Mənə satdığı odunumu deyirsən?........................................573
Kəsmə, irilsin cücən...........................................................575
Lotudan bir, qatıdan iki çıxar...........................................576
Gələn il bu vaxt o biri ayağını uzadarsan.......................578
Dədənə qalmış indi sən də yoxudun...................................579
At mənimdi, arvad da............................................................580
Ağıllılar sana qulaq assınnar, dəlilər mana...................582
Gələndə donquz donunda gəlir.............................................582
Niyə elə itdən borc alır ki...............................................583
Sən də keçini vermə...............................................................584
Sizə gülməyə-gülməyə.........................................................584
Yükünü ağır elə.......................................................................586
Ağlı görünür.........................................................................586
Atanın ehsanında olsun.......................................................586
Qurut yetişəndə gəl.............................................................587
Yanındakı da mığdısıdımı?...............................................587
Pristav olan yerdə it lazım döyül......................................588
Kəsə bilməzdər.......................................................................589
Dişini qıraram.......................................................................589
Kar, kor və topal..................................................................589
Heç olmasa, bu dəfə biləydi................................................590
Şipoy Gəncədən küsən kimi................................................590
Dədənin ruhuna tapşır.......................................................591
Kazım, ay Kazım....................................................................591
Məndəkini mən bilirəm, dağarcıxdakını ala qancıx......592
Görən də peşimandı, görmüyən də.......................................593
Molla və sərxoş......................................................................594
Molla oğlunu evləndirir......................................................595
Molla ayı oynadır..................................................................596



Badalax əhvalatı.................................................................596
Keçi əhvalatı.........................................................................597
Daha gülüşüllər....................................................................597
Yetim sevindirən..................................................................598
Çox ərə gedən arvad............................................................599
Bizim it hürüşünü qanmır..................................................599
Ayğırların hörüklərini dəyişir.......................................599
Get, lap qohum-əqrəvanı da çağır.......................................600
Aşıxnan mollanın söhbəti.................................................600
Can oğulun çomağı..................................................................601
Demirsən kişi boğuluf ölə bilər......................................601
Atası rəhmətdik örgədif, oxumaram..................................602
Yadına balıx düşüf..............................................................603
Yumrux durur!...........................................................................603
Çək, köpək oğlu, çək..............................................................604
Belə də yoldaşdıx olarmı?..................................................605
Mövlaverdi niyə Meləverdi oldu?.......................................606
Meləverdinin İrəvan səfəri...............................................606
Çarıx əhvalatı.......................................................................607
Savahı pişik ha yemiyif.....................................................608
Sirkəynən heyvanxanıyı qarışdırıllar............................609
Kişinin sözü bir olar.........................................................610
O nə deyir ki, ona gülüşüllər............................................611
Az qalmışdı yıxılım...........................................................611
Yalan danışma!.......................................................................612
Kərkin başını kəssin.........................................................613
Koroğludan oxu!......................................................................613
Höjət Cəfər cıdıra çıxır.................................................614
Gülalı evlənmək istiyir.....................................................615
Adımı dəyişik yazdırım.....................................................615
Nəməri mana ver, ad sənin olsun.........................................616
Belə uşağa göz aydınnığı düşməz.......................................616
Başım əvəzinə qoy ayağım dincəlsin..................................617
Üçüncü İmamımızın adını mən deyəjəm............................617
Çöldə canavar neyniyir.........................................................618
Mənim də fikrim elədi.........................................................618
Camaat içində ha ağlamıram.................................................619
Gülalı İrəvana gedir...........................................................619
Pulun qalanı............................................................................620
Düz savaha çəkər......................................................................621



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Allah bizimkini belə yazıfmış........................................622
Bax, belə oldu, yaxıldım......................................................622
Dədəm allah rəhmətinə gedif............................................623
Sağ-salamat qayıdıf.............................................................623
Mənim eşşəyimi heş kəs pisdəməsin...............................624
Cinnən bunun harası əysikdi?............................................624
Qoy bir gün də dincini alsın.............................................625
Gedəm ki, at çəpərdə otduyur...............................................625
TAPMACALAR..........................................................................626
BAYATILAR..............................................................................653
AILAR.....................................................................................677
UŞAQ FOLKLORU...................................................................679
BEŞİK NƏMƏLƏRİ.............................................................679
Laylalar..................................................................................679
Nazlamalar, əzizləmələr......................................................686
NAILLAR
Özünü tülküdən qoru...............................................................692
Eşşək, it, xoruz və pişik................................................697
Salxım Suvar bəy...................................................................702
Hili və Mili.........................................................................703
Başmaxçı.................................................................................705
Ördək.......................................................................................706
YANILTMACLAR.....................................................................707
CIRNATMALAR........................................................................710
SİCİLLƏMƏLƏR
Oxum saman çöpünnən.............................................................711
Dəndələn göz...........................................................................712
Üşüdüm ha üşüdüm..................................................................712
Biri kəhər, biri boz...........................................................713
Əkil-Bəkil quşuydu..............................................................714
Qızımın adı Fatma.................................................................714
A pişik, kimin pişiyisən?...............................................714
Bu nağıl yalanıymış................................................................715
Yaş haqqında.........................................................................716
Navat xala..............................................................................716
OYUNLAR
A pişik, kimin pişiyisən?...............................................717
Xan-gizir...............................................................................718
Ağam mənə kor deyib..............................................................719
Dirədəymə...............................................................................720
Çiling-ağac.............................................................................721



Zopa-zopa.................................................................................722
hərbə-zorba..............................................................................722
A huy-huyu.................................................................................722
Qurşax tutmax..........................................................................725
Eşşək beli...............................................................................725
Qaradinməz................................................................................726
Üzük-üzük oyunu.......................................................................727
Keçili-keçili oyunu..............................................................727
Cıza girmə..............................................................................728
Aşıx-aşıx...............................................................................729
Cız oyunu.................................................................................730
Aşıx-qala oyunu.......................................................................731
Ləpik-qoza................................................................................732
Qaçmatop...................................................................................732
Zübbə-zübbə...............................................................................734
Vay belə vuranın halına.......................................................735
Gizlənpaç..................................................................................735
Adın nədi?................................................................................736
Gözü bağlıca............................................................................736
Lal-dinməz................................................................................737
Püşk atma..................................................................................737
Mırt-mırt (yaxud buynuz-buynuz)..........................................738
Əl üstə kimin əli.................................................................738
A xala, bir çörək..................................................................739
Qurra atma.................................................................................740
Yerə pul atma.........................................................................740
Yerə daş atma...........................................................................741
Əldə şey gizlətmə.................................................................741
Aşıq atma..................................................................................741
Atdıx-basdıx............................................................................742
Qanlı qaya.................................................................................743
Çiling ağac...............................................................................744
Əl üstə kimin əli.................................................................745
Siçan-pişik..............................................................................746
Qazlar-qazlar..........................................................................746
Dəsmal-dəsmal..........................................................................747
Bənövşə.....................................................................................748
Qusdu-qusdu...............................................................................748
Qaçdı-tutdu...............................................................................749
Hil-hil.....................................................................................749
Molla-molla...............................................................................750



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şappı-şappı..........................................................................750
Daş vurdu...................................................................................751
Qoz-qoz........................................................................................751
CÖYLƏYƏNLƏR HAQQINDA MƏ'LUMAT........................752



**Azərbaycan folkloru antologiyası,
III kitab, (Göyçə folkloru),
Bakı, "Səda" nəşriyyatı, 1999.**

**Kompüterdə yığdı:**
***Ülviyyə Qaybaliyeva***
***Təranə İbadova***

**Korrektor:**
***Natiq Abbasov***

**Kompüter tərtibçisi və
texniki redaktoru:**
***Fatimə Kərimova***

**Kağız formatı: 60/84 32/1
Mətbəə kağızı: №1
Həcmi: 768 səh.
Tirajı: 1000
Sifariş:
Qiyməti müqavilə ilə.**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.

Kitab "Qızıl Şərq icarə mətbəəsində hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur. Bakı, H. Aslanov küçəsi, 80.





PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com